

BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA

İDEYA MÜƏLLİFİ VƏ BAŞ REDAKTOR
akademik **ZİYAD ƏLİABBAS oğlu SƏMƏDZADƏ**

AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI
BAKI – 2012

BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA

III

İJKQLM

AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI
BAKI – 2012

Baş redaktorun müavinləri

i.e.d., prof. ***Məmmədhəsən Meybullayev***
i.e.d., prof. ***Amil Məhərrəmov***
i.e.d. ***Elşən Hacızadə***

Redaksiya heyətinin üzvləri

ABBASOV ƏLİ
ABBASOV İBAD
AXUNDOV VAHİD
ALIYEV İSA
ALIŞANOV ARİF
ASLANLI RÜFƏT
ATAKİŞİYEV MÜŞFİQ
BƏŞİROV ELXAN
ÇƏNDİRLİ İSKƏNDƏR
ƏHMƏDOV MƏHİŞ
ƏLƏKBƏROV FÜZULİ
ƏLƏSGƏROV AĞASƏLİM
ƏLİYEV AYDIN
ƏLİYEV NATİQ
ƏLİYEV RAUF
ƏLİYEV ŞAHRZA
ƏMİRASLANOV AZƏR
ƏSƏDOV HEYDƏR
ƏSƏDULLAYEV ÇİNGİZ
HACIYEV ŞƏMSƏDDİN
HƏSƏNOV KƏRƏM
HÜSEYNOV TELMAN
İBRAHİMOV ELDAR
İBRAHİMOV İSLAM
İMANOV KAMRAN
İMANOV QORXMAZ
İSMAYILOV ELDAR
KAZIMLI XANHÜSEYN
KƏRİMOV XOSROV
KƏRİMOV QÜDRƏT
QARAYEV FƏRHAD
QASIMOV SÜLEYMAN
QƏRİBOVA FİRUZƏXANIM
QULİYEV ASİF
QULİYEV ELDAR
QULİYEV RÜFƏT
MƏDƏTOV MANSUR
MƏMMƏDLİ OQTAY
MƏMMƏDOV FAZİL
MƏSİMLİ ƏLİ
MİRZƏYEV SƏFA
MEHBALIYEV SƏTTAR
MÖVSÜMOV ŞAHMAR
MUSAYEV AKİF
MUSTAFAYEV ŞAHİN
MÜSLİMOV SƏLİM
NADİROV ASƏF
NOVRUZOV VAHİD
NURİYEV ƏLİ
PƏNAHOV MUSA
RÜSTƏMOV ELMAN
SADIQOV MİRDAMƏD
SADIQOV ŞAHİN
SƏMƏDZADƏ AYTƏN
SƏMƏDZADƏ ELŞAD
ŞAMİLOVA HÜRÜ
ŞƏRİFOV SAMİR
VƏLİYEV ARİF
VƏLİYEV SAMİR
ZEYNALOV VİDADİ

Böyük İqtisadi Ensiklopediyanın III cildinin hazırlanmasına cəlb edilmiş müəlliflər

akad. Z.Ə.Səmədzadə; akad. A.A.Nadirov; i.e.d., prof. M.X.Meybullayev; i.e.d., prof. E.M. Hacızadə; akad. A.M.Məhərrəmov; akad. U.K.Ələkbərov; i.e.d., prof. A.F.Musayev; i.e.d., prof. V.T.Novruzov; i.e.d., prof. Ş.Ə.Səmədzadə; akad. Q.Ş.Məmmədov; i.e.d., prof. X.H.Kazımlı; i.e.d., prof. İ.H.İbrahimov; i.e.d., prof. M.C.Atakişiyev; i.e.d., prof. A.M.Məhərrəmov; i.e.d., prof. N.A.Əliyev; g.m.e.d., prof. E.N.Xəlilov; i.e.d., prof. Q.Y. Əbdülsəlimzadə; t.e.d., prof. K.S.İmanov; i.e.d., prof. R.Ə.Nəbiyev; i.e.d., prof. M.A.Məmmədov; s.e.d., prof. H.M.Rəcəbli; c.e.d., prof. Z.S.Məmmədov; i.e.d., prof. B.X.Ataşov; i.f.d. M.A.Mədətov; i.f.d. Ə.T.Zeynallı; i.f.d. İ.D.Abbasov; i.f.d. F.H.Qəribova; i.f.d. X.Ş.Kərimov; i.f.d. F.M.Qarayev; i.e.d., prof. M.C.Hüseynov; i.f.d. O.Q.Məmmədli; L.V.Abışlı; i.f.d. Q.S.Əlləzov; i.f.d. X.S.Abdullayev; A.Q.Babayev; A.A.Ələsgərov; i.f.d. M.Y.Həmidova; i.f.d. H.S.Şamilova; i.f.d. E.Z.Səmədzadə; i.e.d. Z.M.Nəcəfov; i.f.d. V.Ə.Rüstəmov; i.f.d. R.R.Əliyev; i.f.d. A.N.Alışanov; R.Ə.Hacıbalayev; T.H.Qurbanova; Ü.V.Bağırova; K.Ə.Əzizova; Z.A.Mirzəyev; R.M.Məmmədov; C.B.Qədirov; N.T.Kərimova; İ.Ə.Vəliyev; i.f.d. M.Q.Məmmədov; b.f.d. Z.Ə.Abbasov; E.M.Hüseynov; i.f.d. A.Q. Ağayev; i.f.d. Q.S.Bayramov; E.H.Bəşirov; T.F.Cavadov; A.H.Mansurov; S.D.Yunusov

Məsləhətçilər

İqtisadi nəzəriyyə, dünya iqtisadiyyatı və milli iqtisadiyyat: L.İ.Abalkin, A.A.Nadirov, V.N.Krasilnikov, A.K.Ələsgərov, M.X.Meybullayev, İ.H.Alıyev, M.A.Əhmədov, M.B.Bağırov, Ə.C.Muradov. **Uçot, audit, statistika, qiymətləndirmə:** S.M.Qasımov, R.A.Səlimov, İ.M.Abbasov, V.T.Novruzov, Q.Ə.Abbasov, C.B.Namazova, Ş.A.Ağabəyov. **Maliyyə fəaliyyəti, dövlət büdcəsi, sığorta və qiymətli kağızlar bazarı:** İ.F.Fətizadə, A.Ə.Bayramov, F.S.Fərəcov, X.İ.Rzayev, N.C.Xəlilov, M.Ə.Məmmədov, V.Z.Zeynalov, V.Ə.Rüstəmov. **Pul-kredit siyasəti, bank fəaliyyəti:** Ç.R.Əsədullayev, E.M.İsmayılov, A.S.Quliyev, C.F.Hacıyev, T.Ə.Paşayev, Z.F.Məmmədov. **Vergi və gömrük məsələləri:** N.Ə.Əmirov, S.N.Ələkbərov, A.Ə.Cahangirov, S.M.Mehdiyev, M.F.Vahabov, Ş.S.Bağırov, Y.A.Kəlbiyev, C.Q.Nuriyev, A.H.Əsgərov, A.Ə.Əşrəfov. **Sahibkarlıq, marketinq və menecment, xidmət sahələrinin iqtisadiyyatı:** R.A.Quliyev, M.Q.Musayev, Z.M.Əzimov, F.H.Şərifov, V.S.Hümmətov, M.A.Məmmədov, F.A.Quliyev, İ.H.İbrahimov, T.E.Əliyev, Q.O.Kərimov, A.H.Səmədov, A.Ə.Əzizov, R.H.Hüseynov. **Sosial siyasət, əhali, urbanizasiya, məşğulluq, miqrasiya, əmək məsələləri:** S.S.Mehbalıyev, A.N.Alışanov, İ.E.Rəhimov, Z.H.Babayev, A.A.Məmmədov, V.Ə. Əfəndiyev, E.L.Mehdiyev, E.M.Hüseynov

Böyük İqtisadi Ensiklopediyanın nəşrə hazırlanması üzrə işçi qrupu

A.Z.Səmədzadə, A.M.Quliyev, H.S.Şamilova, T.H.Qurbanova, M.A.Mədətov, R.Ə.Hacıbalayev, L.V.Abışlı, L.A.Nəbiyeva, A.A.Əhmədov, M.Y. Həmidova, M.B.Oruclu, O.A.Oruclu, R.Z.Baxışov, S.Y.Əlizadə, Y.A.Məmmədova, S.V.Musayeva, A.R.Əhmədova, K.L.Heybətov, M.G.Eyvazova, N.N.Hüseynova, T.R.Acalov, A.E.Namazova

İnkişafın innovasiya mərhələsinə keçilməsi, rəqabətədavamlı milli iqtisadiyyatın formalaşdırılması və inkişaf dinamikasının sürətləndirilməsi başlıca olaraq insan kapitalı ilə bağlı bir çox məsələlərin öz həllini tapmasını, o cümlədən təhsilin dünya standartlarına cavab verməsini tələb edir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Ensiklopediyanın məqsədi – bütün dünya üzrə səpələnmiş biliklərin toplanıb müəyyən sistem halına salınması və müxtəlif təbəqədən olan insanların başa düşdüyü dildə yazılaraq köhnə nəsillərdən yeni nəsillərə ötürülməsidir.

Deni Didro

ÖN SÖZ

İctimai elmlər arasında özünəməxsusluğu ilə seçilən və daim inkişafda olan iqtisad elminin cəmiyyətdə rolunun artmasını, müasir dünyada inkişaf etmiş ölkələrin iqtisadiyyatının mahiyyətini, xarakterini, inkişaf meyillərini və qanunauyğunluqlarını müəyyən edən əsas ideyaların, konsepsiyaların, modellərin, anlayışların, kateqoriyaların və s. öyrənilməsini və istifadəsini asanlaşdırmaq üçün "Böyük İqtisadi Ensiklopediya"nı hazırlayıb nəşr etməyi qərara aldıq.

Bildirmək istəyirəm ki, iqtisadi ensiklopediyanın hazırlanması üçün vacib mənbələrdən hesab edilən iqtisadi lüğətlərin tərtib olunmasına Azərbaycanda hələ XX əsrin əvvəllərindən başlanmışdır. 1907-ci ildə Bakıda Orucov qardaşlarının mətbəəsində Ü.Hacıbəyovun "Türki-rusi və rusi-türki lüğəti" çap olunmuşdur. Maraqlıdır ki, lüğətdə bir çox iqtisadi anlayışların rus dilindən türk dilinə (Azərbaycan dilinə) tərcüməsi ilə yanaşı, həm də qısa təfsiri verilmişdir.

İqtisadiyyat üzrə lüğətlərin hazırlanması işi XX əsrin I yarısının sonlarında və II yarısında daha da genişləndi. K.Marksın "Kapital"ının və digər nüfuzlu əsərlərin Azərbaycan dilinə tərcüməsi iqtisadi terminlər bazasını xeyli gücləndirdi, iqtisadi terminlərə dair bir neçə izahlı lüğətlər nəşr edildi.

XX əsrin 70-ci illərində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bilavasitə dəstəyi ilə çoxcildli "Azərbaycan Sovet Ensiklopediyası" nəşr edildi. Bu nüfuzlu nəşrdə dünya, SSRİ və respublikamız barədə kifayət qədər geniş məlumatlar öz əksini tapdı. Azərbaycan müstəqillik əldə etdikdən sonra sovet sisteminə xas olan ideoloji məhdudiyyət və qadağaların aradan qaldırılması, milli maraqların qorunması zərurəti, genişlənən inteqrasiya əlaqələri müstəqil Azərbaycanın ensiklopediyasının hazırlanması işinə ciddi təkan verdi.

Cənab İlham Əliyevin imzaladığı tarixi sərəncamda Milli Ensiklopediyamızın qarşısında duran əsas vəzifələr aşağıdakı kimi xarakterizə olunur: "*Bu ensiklopediya öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanın yeni dövrdəki tələblərinə cavab verməli, xalqımızın həyatında baş vermiş mühüm tarixi, ictimai-siyasi, elmi və mədəni hadisələri obyektiv surətdə əks etdirməlidir. Bizim yeni ensiklopediyamız azərbaycançılıq ideologiyasının mötəbər daşıyıcısı olmalıdır*".

Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" cildinin nəşri (2007-ci il) ölkəmizin həyatında mühüm bir hadisə kimi qiymətləndirildi. Hər bir azərbaycanlı üçün çox dəyərli töhfə hesab edilən belə sanballı və mötəbər nəşr ölkəmizdə sahə ensiklopediyalarının, o cümlədən hər bir dövlətin, xalqın yaşaması üçün başlıca şərt olan "iqtisadiyyat" sahəsi üzrə müvafiq ensiklo - pediyanın hazırlanmasını obyektiv zərurətə çevirdi. İqtisadçılar İttifaqı professional mütəxəssislər, iqtisadçı alimlər, nüfuzlu elm mərkəzləri ilə məsləhətləşmələr apardı və işə başladıq...

Redaksiya heyəti nəşrin hazırlanmasında belə bir faktı da əsas götürmüşdür ki, respublikamız müstəqillik əldə etdikdən sonra ölkədə yeni iqtisadi sistemin formalaşması iqtisadi biliklərin bir sıra istiqamətlərinin aktuallığını və əhəmiyyətini köklü surətdə artırmış, sərt inzibati-amirlik sisteminə xas olan, lakin azad bazar münasibətlərinin üstünlük təşkil etdiyi cəmiyyətlərdə özünü doğrultmayan müddəaların, anlayışların, kateqoriyaların geniş şəkildə işıqlandırılmasına ehtiyacı azaltmışdır.

Ensiklopediyanı hazırlayanda dünyanın inkişaf etmiş ölkələrində iqtisadi terminlərə dair nəşr olunmuş lüğətlərdən, statistik külliyyatlardan, beynəlxalq iqtisadi, maliyyə-bank, əmək təşkilatlarının internet resurslarından istifadə olunmuşdur. Burada azad bazar münasibətlərinin geniş vüsət aldığı ölkələrdə istifadə edilən makroiqtisadi tarazlıq, maliyyə sistemi, pul-kredit, qiymətli kağızlar bazarı, tələb, təklif, rəqabət, inhisar, açıq və qapalı iqtisadiyyat problemləri, marketinq, investisiya, menecment, innovasiya, birja, müxtəlif iqtisadi nəzəriyyələr, elmi məktəblər və s. ilə bağlı çoxsaylı anlayışların mahiyyəti açıqlanmışdır.

Bu nəşrdə həmçinin müstəqil Azərbaycan dövlətinin iqtisadi qüdrətinin artmasına, qloballaşan dünya iqtisadiyyatına inteqrasiya olunmasına xidmət edən inkişaf strategiyası, azad bazar münasibətlərinin inkişafına və milli maraqlara cavab verən yeni iqtisadi sistemin formalaşmasının elmi-metodoloji əsasları, mahiyyəti barədə konkret fakt və dəlillərə əsaslanan yazılar verilmişdir.

"Böyük İqtisadi Ensiklopediya"da Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri, bazar strukturları və infrastrukturları, aparıcı maliyyə, bank institutları haqqında yığcam məlumatlar öz əksini tapmışdır ki, bu da cəmiyyətdə iqtisadi mədəniyyətin yüksəldilməsi, iqtisadi təhsilin təkmilləşməsi üçün vacibdir.

Razılıq hissi ilə bildirirəm ki, nəşrdə verilən iqtisadi terminlərin əsas hissəsini Azərbaycan dilində işlədilən sözlər təşkil etsə də, bir sıra terminlər beynəlxalq təcrübədə istifadə olunduğu kimi verilmişdir.

Ensiklopediya işıq üzü görənədək iqtisadçı alim və mütəxəssislərlə məsləhətləşmələr aparılmış, əksər məqalələr müvafiq iqtisadi strukturlarda müzakirə olunmuş, yaradıcı heyətin ünvanına Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Vergilər Nazirliyi, Mərkəzi Bank, Sənaye və Energetika Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Nəqliyyat Nazirliyi, Təhsil Nazirliyi, Hesablama Palatası, Dövlət Gömrük Komitəsi, Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu, Dövlət Sosial Müdafiə Fondu, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Qeyri-Hökumət Təşkilatları Forumu, Beynəlxalq Maliyyə Korporasiyası, İsveçrənin İqtisadiyyat üzrə Dövlət Katibliyi (SECO), Beynəlxalq İqtisadçılar İttifaqı tərəfindən daxil olmuş dəyərli tövsiyə və təkliflər nəzərə alınmışdır. Ensiklopediyada informasiya xarakterli materiallar, şəkillər və xəritələr verilmişdir ki, bütün bunlara görə də Heydər Əliyev Fonduna, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivinə, Dövlət Statistika Komitəsinə, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə, Azərbaycan Dövlət Teleqraf Agentliyinə (AzərTac), Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinə, Azərbaycan Marketinq Cəmiyyətinə, Azərbaycan Tarix Muzeyinə öz təşəkkürümüzü bildiririk.

"Böyük İqtisadi Ensiklopediya"nın yaradıcı heyəti görülmüş işlərə öz müsbət münasibətini bildirməklə yanaşı onu da qeyd etməyi vacib sayır ki, 7000-dən çox sözü əhatə edən "Böyük İqtisadi Ensiklopediya" Rusiya Federasiyası istisna olmaqla MDB məkanında milli dildə işıq üzü görən ilk iri həcmli nəşrdir.

"Böyük İqtisadi Ensiklopediya" tələbələr, magistr, doktorantlar, təhsil və idarəetmə sistemində, iqtisadiyyatın müxtəlif sferalarında çalışan müəllimlər və mütəxəssislər, sahibkarlar və investorlar, həmçinin geniş oxucu kütləsi, o cümlədən gələcəyimiz olan məktəblilər üçün nəzərdə tutulmuşdur.

Ensiklopediyanın ərsəyə çatmasındakı xidmətlərinə görə redaksiya heyətinin üzvlərinə, iqtisadi strukturlarda çalışan professional mütəxəssislərə, ensiklopediyanın kompüter, dizayn işlərində, cədvəllərin, qrafiklərin işlənib hazırlanmasında əməyi olmuş bütün insanlara dərin minnətdarlığımı bildirirəm.

İdeya müəllifi və
Baş redaktor **akademik Ziyad Səmədzadə**

İ

İNKİŞAFIN SƏMƏRƏLİLİK EFFEKTİ – yoxsul ölkələrin varlı ölkələrə nisbətən daha sürətlə inkişaf etməsi xüsusiyyəti.

İNKOTERMS – malların yüklənməsi, nəql edilməsi, boşaldılması və sığortalanması ilə əlaqədar beynəlxalq ticarət şərtlərini ifadə edən ticarət terminləri. Terminləri Beynəlxalq Ticarət Palatası müəyyən etmişdir və sövdələşmənin bağlanması zamanı tərəflərin hüquq və vəzifələrini dəqiq müəyyən edir. Hər bir termin alıcı ilə satıcı arasında risk və məsuliyyətin bölünməsini və digər şərtləri müəyyən edir. Bunların arasında ən mühümlərinə aiddir: ixrac və idxal lisenziyalarının təmin edilməsi, müqavilə sənədlərinin məzmununun və tipinin dəqiqləşdirilməsi, sığorta müddətinin, növünün və şərtlərinin, malın qablaşdırılmasının yoxlama əməliyyatlarının ödənilməsinin və s. müəyyən edilməsi.

İnkoterms beynəlxalq ticarət sövdələşmələrində malların daşınmasına və çatdırılmasına görə tədiyə qaydalarına salınmasına aid olan ixracatçıların və idxalatçıların hüquqlarını, vəzifələrini və məsuliyyətini müəyyən edir. Məsuliyyət bölgüsü prinsipi hər bir termin üçün məntəqənin müəyyən edilməsinə əsaslanır ki, bura satıcı hesabına alıcıya satıcıdan mal çatdırılmalıdır. Adətən, bu "böhran nöqtəsi"ndə malın sonradan nəql edilməsi və xərclərin, eləcə də sonradan daşınması riskinin öz üzərinə götürülməsi ilə bağlı vəzifələr satıcıdan alıcıya keçir. İnkotermsin başlıca məqsədi ticarət müqaviləsinin hər iki tərəfinin vəzifələrinin təsvir edilməsinin universal və birmənalı olmasıdır. Əsas vəzifə isə elə vəziyyəti müəyyən etməkdir ki, burada satıcı malın daşınmalı olduğuna dair öhdəliyi öz üzərinə götürür. İnkoterms ilk dəfə 1953-cü ildə, sonuncu redaksiyada isə 1990-cı ildə dərc olunmuşdur və 13 termini ehtiva edir. Bazis daşınma şərtləri fakültativ xarakter daşıyır. İnkotermsin istifadə edilməsi zamanı müqavilələrdə terminlərin, məsələn, EXW inkoterms-80 və ya FCA inkoterms-90 terminlərinin hansı redaksiyada nəzərdən keçirilməsi dəqiq göstərilməlidir.

"İNKUNAMENTO" (*Inquinamento*) – İtaliyada yaradılan sığorta puludur. Pul 90-a yaxın sığortaçını birləşdirir və 1300 polisi ehtiva edir.

İNNOVASİYA (lat. *innovare*) – texnika və texnologiyanın yeni növlərini təmin edəcək bir proses kimi vəsaitlərin iqtisadiyyatda yerləşdirilməsi. Geniş mənada innovasiya elmi-texniki, intellektual potensialı səfərbər edərək, səmərəliliyi və digər iqtisadi fərqlənmələrə nail olmanı əhatə edən tədbirlər sistemi. Texnologiya istehsalı sferasında və idarəetmədə yeniliyi ifadə edən latın mənşəli isim kimi innovasiya yeniləşmə mənasında şərh olunur. İlk dəfə innovasiya termini Amerika iqtisadçısı Yozef Şumpeterin (1883-1950) 1912-ci ildə yazdığı "İqtisadi inkişaf nəzəriyyəsi" əsəri ilə dövriyyəyə çıxarılmışdır. İnnovasiya anlayışı ixtira və kəşf terminlərindən fərqlənir. Burada ümumiliklər qədər də yetərli müxtəliflikər vardır. Kəşf və ixtira əvvəllər mövcud və ictimaiyyət üçün aşkar olmayan, kardinal və inqilabi mexanizmləri ifadə edərək yeni fundamental həqiqətlərin təsdiqinə əsaslanır. Məqsədyönlü, dəqiqləşdirilmiş, kollektiv nəticənin məhsulu olaraq innovasiyanın məramı daha çox praktiki tətbiq səciyyəlidir. İqtisadi inkişafın ölçüsü artdıqca innovasiya anlayışı daha məzmunlu əhəmiyyət kəsb edir. İnnovasiya əvvəllər yalnız texnologiya sferası ilə məhdudlaşırdısa, müasir za-

Cədvəl 1

İnnovasiya prosesinə təsir edən amillər

Amillər qrupu	İnnovasiya fəaliyyətinə mane olan amillər	İnnovasiya fəaliyyətinə rəvac verən amillər
İqtisadi, texnoloji	İnnovasiya layihələrinin maliyyələşdirilməsi üçün vəsaitin kifayət etməməsi, maddi və elmi-texniki bazanın zəifliyi, ehtiyat güclərin olmaması, cari istehsal maraqlarının dominantlığı	Maliyyə və maddi-texniki vasitələr ehtiyatı, mütərəqqi texnologiyalar, vacib təsərrüfat və elmi-texniki infrastrukturun mövcudluğu
Siyasi, hüquqi	Antiinhisar, vergi, amortizasiya, patent-lisenziya qanunvericiliyi tərəfindən məhdudiyyətlər	İnnovasiya fəaliyyətini dəstəkləyən qanunvericilik tədbirləri (xüsusən, güzəştlər), innovasiyaya dövlət dəstəyi
Sosial-psixoloji, mədəni	Əməkdaşların statusunun dəyişilməsi, yeni iş yerlərinin axtarılmasının vacibliyi, işin yenidənqurulması, köhnəlmiş fəaliyyət üsullarının yenidənqurulması, mövcud stereotiplərin dəyişdirilməsi, qeyri-müəyyənlik qorxusu, uğursuzluğa görə cəzadan qorxma kimi dəyişikliklərə müqavimət	İnnovasiya prosesinin iştirakçılarının mənəvi dəstəklənməsi, ictimai məşhurluq, özünü reallaşdırma imkanlarının yaradılması, əmək kollektivində normal psixoloji mühit
Təşkilati-idarəetmə	Şirkətin köhnə idarəetmə strukturu, həddən artıq mərkəzləşdirmə, avtoritar idarəetmə üsulu, şaquli informasiya axının üstünlüyü, təşkilati qapalılıq, sahələrarası və təşkilatlararası əlaqələrin çətinliyi, sərt planlaşdırma, mövcud bazarlara istiqamətlənmə, innovasiya prosesi iştirakçılarının maraqlarının əlaqələndirilməsində çətinlik	Təşkilati strukturların çevikliyi, demokratik idarəetmə üsulu, üfüqi informasiya axınının üstünlüyü, özünü idarəetmə, əks mərkəzləşdirmə, muxtariyyət, məqsədli işçi qruplarının yaradılması

manda o, istehsal idarəetməsinin təşkilati metodlarını da əhatə dairəsinə qatmışdır.

İNNOVASİYA BANKI (ing. *innovation bank*) – uzunmüddətli proqramlara vəsaitlər qoyan kommersiya bankı, yaxud ixtisaslaşmış bank. Onun əsas əməliyyatlarına vençur kapitalın ən yeni işləmələri, texniki və texnoloji tərəqqinin kreditləşməsi üzrə əməliyyatlar aiddir. Elmi tədqiqatlar və işləmələr kreditləşmə üçün yaradılır. Elmi yeniliklərin (layihələrin) perspektivliyi bankın eksperti tərəfindən müəyyən edilir. Borcların ödənilməsi müddəti, onların verilməsi şərtləri perspektiv yeniliklərdən, onların həyata keçirilməsi mərhələsindən və borcların ödənilməsi zəmanətinin təmin edilməsindən asılı olaraq innovasiya bankı tərəfindən fərqləndirilir.

Kredit elmi-texniki ideyaların reallaşması ilə məşğul olan şirkətlərin səhmlərinə görə də verilə bilər. Bank "ani" gəliri əldə etmir, əqli mülkiyyətin (perspektiv ideyaların və işləmələrin) reallaşması üçün kapital qazanır. Belə bankların kreditləri, əsasən, uzunmüddətli xarakter daşıyır.

İNNOVASİYA FƏALLIĞI – məhsul, texnoloji və təşkilati-idarəetmə yeniliklərinin yaradılması, istehsalda mənimsənilməsi, bazara daxil olması üzrə məqsədyönlü fəaliyyət. İnnovasiya fəallığı iqtisadi artımın və təşkilati idarəetmə yeniliklərinin zəruri şərtidir. Buna görə də dövlətin və müəssisənin innovasiya siyasətinin reallaşmasında mərkəzi yer tutur. İnnovasiya fəallığının səviyyəsi bütövlükdə milli iqtisadiyyatın inkişaf sürətini və ayrı-ayrı sahə və müəssisələrin rəqabət qabiliyyətini müəyyən edir. İnkişaf etmiş ölkələrdə innovasiya fəallığının ən mühüm göstəricisi elmi-tədqiqat və təcrübə konstruktor işlərinə (ETTKİ) və istehsal investisiyalarına yönəldilən milli məsrəflərin həcminin tədricən yaxınlaşmasıdır. Digər göstəricilərə aiddir: patent və lisenziyaların miqdarı (hər 1000 nəfərə düşən), xarici ticarətin saldosu (patentlər, lisenziyalar, yüksək texnologiyalı məhsullar üzrə), məhsulun resurstutumu və elmtutumu və s.

Makrosəviyyədə innovasiya fəallığı həm ölkənin iqtisadi və elmi-texniki potensialı ilə, həm də cəmiyyətin mənəvi vəziyyəti ilə, onun milli innovasiya doktrinasını, elmi-texniki inkişaf strategiyasını ifadə etmək, innovasiya siyasətinin istiqamətlərini və formalarını müəyyənləşdirmək, resursları onun reallaşmasına cəmləşdirmək qabiliyyəti ilə şərtlənir. İnnovasiya fəallığı inkişaf etmiş bazar və rəqabət mühiti olmadan mümkün deyildir.

Sahə və müəssisə səviyyəsində innovasiya fəallığı innovasiya strategiyasının seçilməsinin düzgünlüyündən və innovasiya fəaliyyətinin idarə edilməsinin keyfiyyətindən, istehsal sistemlərinin çevikliyindən, resursların istehsal edilməsində manevretmə qabiliyyətindən, idarəetmənin yüksək təbəqəsindən aşağı təbəqəyə bir sıra funksiyaların verilməsindən, təşəbbüskarlığın və daxili sahibkarlığın inkişafından, innovasiya mədəniyyətinin formalaşmasından həlledici dərəcədə asılıdır. Sahibkar üçün innovasiyalara aid olan mühüm stimul sahibkarlıq rentasının alınması, zəruri şərti isə güclü hüquqi müdafiə mexanizminin olmasıdır.

İnnovasiya menecmentinin uğuru müəyyən prinsiplərə riayət olunmasını tələb edir. Elmi və texniki yenilik daim dəyişən bazar konyunkturu şəraitində müəssisənin müştərilərinin tələbatlarının daha tam ödənilməsinə yönəldilməlidir. Hər bir istehsal olunan məhsulu sabit dəyişikliklərin obyekti kimi nəzərdən keçirmək lazımdır. Buna görə də ilk mərhələdə maraq doğuran kiçik layihələrdə vəsaitlərin qoyulmasına üstünlük verilməlidir. Bunların yerinə yetirilməsi üçün tamamilə müstəqil bölmələrin yaradılması lazımdır. Rəqibləri yalnız qarşı tərəf kimi yox, həm də ideyaların mümkün mənbələri kimi öyrənmək zəruridir.

Şəxsi yaradıcılıq təşəbbüsü innovasiya prosesinin başlanğıcına təkan verən qüvvədir. Yenilikçiyə dəstək olmadan innovasiya fəallığı qeyri-mümkündür. Lakin təşəbbüsə çoxsaylı şəxsi-təşkilati maneələr zidd gəlir, buna görə də çox zaman təşəbbüskarlıq onun reallaşması müddətindən üstün olan vaxt ərzində tanınır. Bu maneələrin aradan qaldırılmasının səmərəli forması iri müəssisələr çərçivəsində "yerində sayan" adını almış "daxili sahibkarlıq" kimi tanınmışdır.

İnnovasiya fəallığının inkişaf etmiş ölkələrdə digər geniş yayılmış formaları korporasiyaların "xarici vençurları" və bir qayda olaraq, yenilikçilərin özlərinin təsis etdiyi müstəqil vençurlardır. Risk innovasiya sahibkarlığının inkişafı vençur kapitalının və əqli mülkiyyətin təsirli hüquqi müdafiə mexanizminin olmasını tələb edir.

İNNOVASİYA LAYİHƏSİNİN İŞLƏNİB HAZIRLANMASI QAYDASI – innovasiya layihəsinin işlənib hazırlanması aşağıdakı proqnoz-analitik və texniki-iqtisadi xarakterli elmi-tədqiqat işlərinin yerinə yetirilməsi deməkdir:

1) layihənin məqsədlərinin qoyuluşu və konsepsiyasının hazırlanması;

2) layihənin planlaşdırılması;

3) layihə-smeta sənədlərinin rəsmiləşdirilməsi.

İnnovasiya layihəsinin konsepsiyasında onun həyata keçirilmə variantları müəyyən edilməli, əsas məqsədlər və gözlənilən son nəticələr formalaşmalı, layihənin nəticələrinin rəqabət qabiliyyəti və perspektivliliyi, eləcə də ehtimal edilən iqtisadi effektivliyi qiymətləndirilməlidir. İnnovasiya layihəsinin konsepsiyasının işlənib hazırlanmasında bir neçə mərhələ nəzərdə tutulur:

1) innovasiya ideyasının yaranması və formalaşması, layihənin məqsədlərinin və strateji vəzifələrinin qoyuluşu;

2) layihənin ideyasının marketinq mütəxəssisləri tərəfindən təhlil edilməsi;

3) layihənin strukturlaşdırılması;

4) layihənin riskli və qeyri-müəyyənlik baxımından tədqiq edilməsi;

5) layihənin həyata keçirilməsinin vahid variantının müəyyən edilməsi.

İNNOVASİYA MƏHSULU – müxtəlif səviyyədə texnoloji dəyişikliklərə məruz qalmış məhsul. Onun tərkibi texnoloji innovasiyaların növlərinə uyğun müəyyənləşdirilir. İnnovasiya məhsulları yeni (yeni tətbiq edilmiş) və ya təkmilləşdirilməyə məruz qalmış, həmçinin yeni və əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş metodlara əsaslanan istehsalı (digər innovasiya məhsulu) əhatə edir. Buradan belə nəticəyə gəlmək olar ki, **yeni (yeni tətbiq edilmiş) məhsulun** müəyyənləşdirilməsi radikal məhsul innovasiyası anlayışına, **təkmilləşdirilmiş məhsulun** müəyyənləşdirilməsi isə

inkremental məhsul innovasiya anlayışına uyğun gəlir.

Qeyri-innovasiya məhsulu innovasiyanın tətbiqinin nəticəsi hesab edilir. Bir qayda olaraq, bu, müəssisədə artıq istehsal olunan məhsullara aid edilir. Bundan əlavə, verilmiş kateqoriya istehsalın yeni və təkmilləşdirilmiş, o cümlədən digər ölkələrin və müəssisələrin istehsal təcrübəsində əvvəllər tətbiq olunmuş texnoloji mübadilə yolu (ödənişsiz lisenziya, "nou-hau", injinirinq və s.) və yayılmış metodun tətbiq edilməsi ilə qabaqcıl təcrübəyə əsaslanan məhsulları özündə birləşdirir. Statistik innovasiya fəaliyyətin həcmini əlavə dövriyyə və aksizlərə vergisiz, müəssisənin buraxılış qiymətləri ilə yüklənmiş məhsulun həcminə oxşar qaydada öyrənir.


İNNOVASİYA PROSESİ – müxtəlif sahələrdə ixtiraların praktiki olaraq təkmilləşdirilməsi və işlənməsi (texnologiya və ya məmulatların innovasiyası). Bu, elmi biliklərin innovasiyaya çevrilməsidir, bunu ideyadan konkret məhsula, texnologiya və ya xidmətə qədər baş verən və təcrübi istifadə ilə yayılan ardıcıl hadisələr zənciri kimi də təsəvvür etmək olar.

İnnovasiya prosesi məhsulun fəaliyyət sahəsinə tətbiqi ilə bitmir, tətbiqdən sonra da inkişaf etməkdə və təkmilləşməkdə davam edir. İnnovasiya prosesi tətbiq sahəsi ilə sıx qarşılıqlı əlaqəyə istiqamətlənib; onun təmayülü, sürəti və məqsədləri fəaliyyət göstərdiyi və yaradıldığı sosial-iqtisadi mühitdən asılıdır.

İnnovasiya prosesi aşağıdakı mərhələlər ardıcıllığından ibarətdir:

1) fundamental elmi-tədqiqat işləri. Bu tədqiqatlar bilavasitə konkret tətbiq vəzifələrinin həlli ilə bağlı deyil, məhz onlar in-

İnnovasiya prosesinin ümumiləşdirilmiş modeli



Sxem 1

Cədvəl 1

Ölkələrin innovasiya modelləri, yaradılma müddətləri

Ölkə	Hökumətin məqsədyönlü fəaliyyətinin başlanğıcı	Dayanıqlı inkişafa keçid
ABŞ	1960-cı illərin əvvəli	1980-ci illər
Tayvan	1970-ci illərin əvvəli	1990-cı illərin sonu
İsrail	1980-ci illər	2000-ci illərin əvvəli
Cənubi Koreya	1980-ci illər	2000-ci illərin əvvəli
Sinqapur	1980-ci illər	1990-cı illərin əvvəli
Finlandiya	1990-cı illər	2000-ci illər

Mənbə: www.rusnano.com

novasiya prosesinin əsasını öz nümunələrində göstərirlər. Bu mərhələdə ideya və dəyişikliklərin dərin tədqiqatı gedir. Bütün fundamental tədqiqatlar müsbət səmərə vermir (orta hesabla ancaq 10% gələcək innovasiya fəaliyyətində istifadə oluna bilər);

2) tətbiqi elmi-tədqiqat işləri. Bu işlər əvvəllər kəşf olunmuş hal və proseslərin təcrübi tətbiq yollarının tədqiqinə yönəlmişdir. Tətbiq xarakterli elmi-tədqiqat işlərinin məqsədi – texniki problemlərin həlli, konkret elmi nəticələrin alınmasıdır ki, bu da gələcəkdə yeni növ məhsulların istehsalı üçün, yeni texnologiyaların işlənməsi üçün istifadə oluna bilər;

3) təcrübi-konstruktor işləri yuxarıda sadalanan bütün elmi-tədqiqat işlərinin son mərhələsidir. Bu mərhələdə yeni texnika, materiallar, texnologiyalar standartları formalaşır ki, bunlar da müvafiq sınaqlardan sonra seriyalı istehsala verilə bilər;

4) layihələşmə, tikinti və mənimsəmə. Sonuncu mərhələdir. Bu mərhələdə təcrübi-konstruktor işlərinin nəticələrinin istehsal sferasına ötürülməsi həyata keçirilir: bu zaman müəssisənin layihəsi işlənir, onun tikintisi həyata keçirilir, yeni (təkmilləşdirilmiş) məhsulun dəqiq sınaqları, istehsalın texniki və texnoloji hazırlığı aparılır. Amma bu mərhələ həm də yeni məhsulun istehsala buraxılmasından bazara mal qismində çıxarılmasına qədər kommersiyalaşmasıdır. İnnovasiyaların həyata keçirilməsi zamanı istehsal güclərinin yenidən təşkilinə, heyətin, reklam fəaliyyətinin və s. hazırlanmasına çoxlu investisiyalar tələb olunur. İnnovasiya prosesinin bu fazasında bazarın yeni məhsula reaksiyasını yüz faiz təxmin etmək mümkün deyil və innovasiyalar risk xarakteri daşımaqda davam edir.

İNNOVASİYA SİYASƏTİ – dövlətin fəaliyyətinin bu istiqaməti elmi-texniki siyasətin formalaşması və dövlətin, milli kapitalın və elmi birliyin mənafeyi naminə elmi, texnoloji və təşkilati-idarəçilik yeniliklərinin yaradılması, istehsalatda mənimsənilməsi və bazara tətbiq edilməsi formasında həmin siyasətin həyata keçirilməsi üzrə tədbirlərlə bağlıdır.


Sistem baxımından innovasiya siyasəti dövlətin strateji məqsədlərinə (bu və ya digər sahədə dünyada liderlik, yüksək dərəcədə inkişaf etmiş ölkələr qrupuna daxil olmaq, bu və ya digər bazarda dominantlıq etmək) nail olmaq vasitəsi; iqtisadi baxımdan milli sərvətin toplanması vasitəsi kimi elmin funksiyasının həyata keçirilməsi üsuludur.

İnnovasiya siyasətinin subyektləri icra hakimiyyəti, sənaye və maliyyə birlikləri, ictimai təşkilatlardır.

İnnovasiya siyasətinin obyektləri elmi-tədqiqat və təcrübi-konstruktor işləri (ETTKİ) sferası, müəssisə və təşkilatların innovasiya fəaliyyəti ola bilər.

XX əsrin sonu – XXI əsrin əvvəllərində iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyəti

Ölkənin innovasiya sistemi və innovasiya qabiliyyəti



Sxem 1

inkişafın əsasən innovasiya yo - luna qədəm qoymuşdur. İnkişaf etmiş ölkələrin innovasiya si- yasətinin predmet sahəsi iqtisa- diyyatın dövlət və özəl sektor- larında milli innovasiya konsep- siyaları və ya strategiyaları əsa- sında yeniliklərin tətbiq edil- məsi prosesinin bütün mərhələlə- rinin məqsədyönlü şəkildə dəs - təklənməsi ilə bağlıdır. Bu siyasət aşağıdakı məqamları əhatə edir:

1) təsərrüfatçılığın bütün səviy - yələrində elmi-texniki nəticələ- rin natural-əşyavi və dəyər dövr- iyyəsinə daxil edilməsinin for - maları və üsulları;

2) "elm-istehsalat" sistemində və elmin daxilində struktur nis - bətləri;

3) innovasiya fəaliyyətinin təş- kilati-hüquqi və iqtisadi forma- ları;

4) yeniliklər sahəsinin resurs tə- minatı (fasiləsiz təhsil sistemi də daxil olmaqla);

5) kooperasiya və ixtisaslaşma formaları;

6) cəmiyyətin innovasiyalara münasibəti;

7) novatorların əməyinin moti- vasiyası.

İnnovasiya siyasətinin istiqam - ətlərinə görə ölkələri bir-birin- dən fərqlənən üç qrupa bölmək olar:

1. Yeniliklərin yayılmasına is - tiqamətlənmiş ölkələr (bu qrupda təhsil, məhsulun stan - dartlaşdırılması, həmçinin dövl- lətin və özəl sektorun müştərək proqramları məsələsinə xüsusi diqqət yetirilir).

2. Hədəfə oriyentasiya edən ölkələr (irimiqyaslı proqramla- rın köməyi ilə müəyyən sahələr- də dünyada liderliyə nail olma- ğa çalışırlar).

3. Dövlətin innovasiya strategi- yası və inkişaf etmiş yeniliklər infrastrukturu əsasında **fasiləsiz struktur-texnoloji moderləşmə- ni həyata keçirən** ölkələr.

İNNOVASİYA STRATEGİ- YASI – uzunmüddətli proqnoz - laşdırmaya, daxili və xarici amillərin müqayisəsinə, resurs məhdudiyyətlərinin uçotuna əsaslanan səmərəli texniki və texnoloji inkişaf yollarının se-

çilməsi (eyni zamanda bu yolla - rın özü). İnnovasiya strategiyasının formalaşması və reallaşması həm bütövlükdə milli iqtisadiyyatın, həm də onun ayrı-ayrı sahələrinin inkişafının zəruri şərtidir.

İnkişaf etmiş ölkələrdə innovasiya strategiyasının aşağıdakı tipləri reallaşır: a) hücum, məqsəd – bazarda öncül yerlərin tutulması; elmi yeniliklərə çəkilən məqsədlər; b) müdafiə, məqsəd – öncülün (liderin) bəzi yeniliklərini və dəyişikliklərini götürməklə bu öncülün (liderin) arxasınca möhkəm durmaq; elmi yeniliklərə çəkilən xərclər liderə nisbətən aşağıdır; c) imitasiya, məqsəd – hər iki qrup liderlərin nailiyyətlərini təkrar edərək və ölkənin və ya müəssisənin spesifik üstünlüklərindən istifadə edərək bu liderlərin dalınca getmək; elmi yeniliklərə çəkilən xərclər aşağıdır; ç) asılı, məqsəd – innovator müəssisələr üçün subkontrakt işlərin yerinə yetirilməsi vasitəsilə özünü mühafizə etmək; elmi yeniliklərə çəkilən xərclər cüzidir; d) ənənəvi, məqsəd – konservativ texnologiyalardan bəhrələnməklə özünü mühafizə etmək; elmi yeniliklərə çəkilən xərclər minimumdur; e) opportunist, məqsəd – bazarda sərbəst (boş) dəliklərin doldurulmasıdır; elmi yeniliklərə çəkilən xərclər taktiki mülahizələrlə müəyyən olunur.

Bu innovasiya strategiyaları həm milli səviyyədə, həm də ayrı-ayrı müəssisələr tərəfindən xalis və qarışıq formalarda istifadə oluna bilər. Milli innovasiya strategiyası ölkənin iqtisadi və elmi-texniki potensialı ilə, onun təsərrüfat ukladı, ənənələrə əsasən qəbul edilmiş milli doktrina, o cümlədən geosiyasi məqsədlərlə, ambisiyalarla və s. müəyyən olunur. Bununla belə, hətta eyni tipli innovasiya strategiyalarında ilkin mühakimələr (göndərişlər), subyektlər və reallaşma metodları müxtəlif ola bilər.

Hücum innovasiya strategiyası ya dövlətin müəyyənedici rolu və Dövlət Proqramı alətlərindən istifadə edilməsi zamanı, ya da fundamental tədqiqatların təşviqi ilə dövlətin rolunun məhdudlaşması və elmi yeniliklər üçün əlverişli mühitin yaradılması inkişaf yollarının seçilməsində bazarın hökmran olması zamanı həyata keçirilə bilər. Müəssisələr üçün ən mühüm strateji problemlərə aiddir: diversifikasiya və ya ixtisaslaşma əsasında istehsal profilinin seçimi, bazar siyasətinin işlənib hazırlanması, kontragentlərin – birliklərin subyektlərinin, sazişlərin müəyyən edilməsi.

İNNOVASİYA TSİKLLƏRİ – elmi-texniki və iqtisadi tsikllərin fazaları ilə əlaqədar innovasiya fəallığının vaxtaşırı təraddüd etməsi. İnnovasiya tsikllərinə aşağıdakı fazalar aiddir: texnikanın və ya texnoloji ukladın yeni nəslinin özəyini formalaşdıran bazis innovasiya dalğaları; yaxşılaşan innovasiyaların dalğalarının köməyi ilə bu nəslin (ukladın) diffuziyası (yayılması); sabitlik fazasında yaxşılaşan innovasiya və mikroinnovasiya üstünlük təşkil edir; böhran fazasında texnikanın üstün nəsillərində yalançı innovasiyalar müşahidə olunur və paralel olaraq texnikanın yeni nəsli üçün bazis innovasiyaların klasterinin formalaşması baş verir.

XX əsrin son 25 ili ərzində beşinci texnoloji nəslin təsdiqi ilə və altıncı texnoloji nəslin üstünlüyü dövründə (XX əsrin 10-20-ci illərində) öz bazasında inkişaf etmiş ölkələrdə təsdiq olunan post industrial texnoloji istehsal üsulunun təşəkkül tapmasının başlanması ilə əlaqədar bazis innovasiya dalğası müşahidə olunur.

İNNOVASİYALAR NƏZƏRİYYƏSİ – fundamental elmin bir sahəsidir, onun predmeti insan fəaliyyətinin müxtəlif sahələrində innovasiyaların (yeniliklərin) həyata keçirilməsinin qanunauyğunluqları, meyilləri və mexanizmləridir.

İnnovasiyaların mahiyyəti insanın bu və ya digər sahədə fəaliyyətinin səmərəliliyini artırmaq üçün elmi-texniki nailiyyətlərdən istifadə edilməsindən ibarətdir.

Obyektdən (fəaliyyət sahəsindən) asılı olaraq innovasiyaların aşağıdakı növlərini fərqləndirirlər: yeni və ya təkmilləşdirilmiş əmtəə hazırlanmasına (innovasiya – məhsul) və ya daha səmərəli texnologiyanın tətbiq edilməsinə (innovasiya – proses) yönəlmiş istehsal (texnoloji) innovasiyalar; idarəetmə innovasiyaları (idarəetmə, institusional münasibətlər sahəsində); ekoloji; hərbi; sosial, siyasi; dövlət-hüquq; mənəviyyat sahəsində (mədəniyyət, təhsil, elm, etika, ideologiya, din sahələrində) innovasiya.

Yenilik səviyyəsinə və əhəmiyyətinə görə innovasiyaların aşağıdakı növlərini fərqləndirirlər: yeni nəslə aid texnikanın, prin-

sipial baxımdan yeni texnologiyaların əsasını təşkil edən bazis innovasiyaları; yeni nəslə mənsub texnikanın geniş yayılmasına, ayrı-ayrı tətbiq sahələrinin xüsusiyyətlərinin daha tam nəzərə alınmasına şərait yaradan yaxşılaşdırıcı innovasiyalar; istehsal edilən məhsulların və tətbiq edilən texnologiyaların ayrı-ayrı parametrlərini yaxşılaşdıran mikroinnovasiyalar; köhnəlmiş texnika və texnologiyanın qismən yaxşılaşdırılmasına və ya tətbiq edilməsi üçün hələlik şərait yetişməmiş nailiyyətlərin mənimsənilməsinə yönəlmiş saxta, yalançı yeniliklər.

Bazar iqtisadiyyatında istehsal innovasiyalarının motivasiyaları rəqabət mübarizəsi, diferensial elmi-texniki gəlir (zərər) mexanizmidir. Səmərəli yeniliyi birinci olaraq tətbiq etmiş sahibkarlar ifrat yüksək mənfəət (diferensial gəlir) əldə edirlər. Onlar istehsalı genişləndirmək, öz rəqiblərini sıxışdırmaq, yeni bazarları mənimsəmək imkanı qazanırlar; köhnəlmiş məhsul buraxan və ya qeyri-səmərəli texnologiyalar tətbiq edən sahibkarlar isə ziyana düşür və bazardan sıxışdırılıb çıxarılırlar.

İnnovasiya tsikllərinin davametmə müddəti müxtəlifdir (ortamüddətli, uzunmüddətli, ifrat uzunmüddətli tsikllər). Yeni texnoloji sistemin əsasını təşkil edən bazis innovasiyaları dalğaları mövcuddur. İnnovasiya dalğasından əvvəl innovasiya-texnoloji böhran baş verir. Bazis innovasiyaları iqtisadiyyatın durğunluqdan canlanmaya, sonra isə yüksəlişə doğru hərəkətinin əsasıdır.

Dövlət innovasiya fəaliyyəti üçün əlverişli şərait yaradır. Sanballı vəsait qoyuluşu tələb edən, adətən, sahələrarası xarakter daşıyan və yüksək risklə fərqlənən innovasiya fəaliyyəti üçün əlverişli şərait yaradır.

İnnovasiyalar nəzəriyyəsinin əsaslarının XX əsrin 30-cu illərində N.D.Kondratyevin ideyalarını inkişaf etdirmiş Y.Şumpeter işləyib hazırlamışdır. Ötən əsrin 60-70-ci illərində Q.Menş, A.Klaynknext, A.Ançişkin və başqa iqtisadçılar innovasiyalar nəzəriyyəsinin inkişafına sanballı töhfələr vermişlər. İnnovasiya tsikllərinin nəzəriyyəsi Y.V.Yakovetsin (1988), S.Y.Qlazyevin (1993) monoqrafiyalarında şərh edilmişdir.

İNNOVASİYALARIN PLANLAŞDIRILMASI – innovasiya menecmentinin bu funksiyası inkişafın müəyyən edilmiş məqsədlərinə, resurslarla təmin edilmə imkanlarına və bazarlarda mövcud tələbə uyğun olaraq innovasiya fəaliyyətinin əsas istiqamətlərini və proporsiyalarını işləyib hazırlamaqdan ibarətdir. İnnovasiyaların planlaşdırılması gedişində aşağıdakı problemlər həll edilir:

1) innovasiyalı müəssisənin məqsədləri detallaşdırılır və onlar ayrı-ayrı struktur bölmələrinin və icraçıların nəzərinə çatdırılır;

2) həyata keçirilən layihələrin siyahısı formalaşır;

3) zəruri resursların tərkibi və mənbələri müəyyən edilir;

4) ayrı-ayrı işlərin və layihələrin həyata keçirilməsi növbəliliyi və müddətləri razılaşdırılır.

İnnovasiya layihələrinin miqyasının genişlənməsi və onların mürəkkəbləşməsi, ixtisaslaşdırmanın inkişafı və innovasiya sahəsində kooperasiyanın genişlənməsi, təşkilatın təsərrüfat müstəqilliyinin genişlənməsi və innovasiya fəaliyyətinin nəticələrinə görə təşkilatın iqtisadi müstəqilliyinin artması ilə əlaqədar müasir şəraitdə innovasiya menecmentində planlaşdırmanın rolu güclənir.

İNNOVASİYAYA XƏRCLƏR – müəssisə (sahə, region, ölkə) miqyasında yerinə yetirilən müxtəlif növ *innovasiya fəaliyyətinin* həyata keçirilməsi ilə əlaqədar olan faktiki xərclərin pul formasında istifadəsi. İnnovasiya dedikdə texnoloji cəhətdən yeni və təkmilləşdirilmiş məhsulların tətbiqi və prosesin texnoloji cəhətdən əsaslı surətdə təkmilləşdirilməsi başa düşülür. Ümumi innovasiya xərclərinin tərkibində statistika cari və əsaslı xərcləri öyrənir. Əsas etibarilə, *cari xərclər* məhsulun (işin, xidmətin) maya dəyəri hesabına həyata keçirilən texnoloji innovasiyanın işlənməsi və tətbiqi ilə məşğul olan işçilərin əmək haqqının ödənilməsi xərclərini; sosial ehtiyaclara ayırmaları, həmçinin innovasiya fəaliyyətinin təmin edilməsi üçün zəruri olan xammalın, materialların, avadanlıqların və s. alınmasına çəkilən, əsaslı xərclərə aid olmayan digər xərcləri özündə birləşdirir. *Kapital qoyuluşu* (uzunmüddətli investisiya) özündə texnoloji innovasiyanın işlənməsi və tətbiqi ilə əlaqədar həyata keçirilən, satış üçün nəzərdə tutulmayan, uzunmüddətli (bir ildən yuxarı) istifadə üçün qeyri-dövriyyə aktivlərinin yaradılmasına və miqdarının artırılmasına, həmçinin alınmasına çəkilən illik xərcləri əks etdirir.

Onlar innovasiya fəaliyyətində istifadə üçün zəruri olan maşın, avadanlıq və digər əsas vasitələrin əldə edilməsi, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün tikililərin, torpaq sahələrinin və təbiətdən istifadə obyektlərinin alınması xərclərindən ibarətdir. Uçot və təhlilin məqsədindən asılı olaraq, innovasiya xərclərinin ölçülməsində iki yanaşma mövcuddur: il ərzində (başa çatdırılmamışlar da daxil edilməklə) müəssisədə (sahədə, regionda, ölkədə) həyata keçirilən innovasiyalar üzrə, ya da il ərzində (keçən illərin xərcləri daxil olmaqla, ancaq başa çatdırılmamış innovasiyalar çıxılmaqla) tətbiq edilən innovasiyalar üzrə. Statistikada göstərilənlərə əlavə kimi, innovasiyaya xərclərin innovasiya fəaliyyətinin növləri və maliyyələşmə mənbələri üzrə təsnifləşdirilməsi də nəzərdə tutulur. *İnnovasiya fəaliyyətinin növündən* asılı olaraq, yeni məhsulların və texnoloji proseslərin tətbiq edilməsi ilə bağlı elmi-tədqiqat və işləmələrə çəkilən xərclərə; maddiləşdirilməmiş texnologiyalardan – ixtiralardan, sənaye nümunələrindən, faydalı modellərdən istifadə üçün lisenziyaların alınmasına, patent hüquqlarına, patentsiz lisenziyalara ("nou-hau" üzrə sənədləşmə şəklində texnologiyanın, elmi-texniki nailiyyətlərin nəticələrinin ötürülməsinə razılığa), texnoloji tərkibli xidmətlərə çəkilən xərclərə bölünür. İstehsal layihələşdirmələrinə, istehsalın hazırlanması vasitələrinə, təşkilinə və işə salınması-na, o cümlədən yeni məhsulların və texnoloji proseslərin tələblərinə uyğunlaşdırılmış proqram təminatına, yeni məhsul və texnoloji proseslərin tətbiq edilməsi ilə əlaqədar olaraq heyətin hazırlanması və yenidən hazırlanmasına (heyətin ixtisasının artırılmasına çəkilən digər xərclər istisna olmaqla), nümunə istehsalına və sınağa (elmi tədqiqat və işləmələrə aid olanlardan başqa); yeni və ya təkmilləşdirilmiş məhsul və ya texnoloji proseslərin tətbiq edilməsi ilə bağlı maşın və avadanlıqların alınmasına; bazarın qabaqcadan öyrənilməsi, məhsulun müxtəlif bazarlara uyğunlaşması, reklam da daxil olmaqla, yeni məhsulun bazara çıxarılması üzrə marketinq tədqiqatlarına çəkilən xərcləri də bura aid etmək olar. Bunlarla yanaşı, innovasiya məhsullarının yayılması şəbəkəsinin yaradılmasına çəkilən xərclər buraya daxil edilmir.

İnnovasiyaya xərclər həm də maliyyələşmə mənbələrinə görə qruplaşdırılır. Xərclərin növü üzrə təsnifləşdirmə cari və əsaslı xərclərin ayrılmasını nəzərdə tutur.

İNOZEMTSEV NİKOLAY NİKOLAYEVİÇ (1921-1982) – sovet beynəlxalq tarixçisi və iqtisadçısı.



1949-cu ildə Moskva Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişdir. 1952-1955-ci illərdə həmin institutda baş müəllim, 1957-1959-cu illərdə SSRİ EA-nın Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun bölmə müdiri, 1959-1961-ci illərdə həmin institutun direktor müavini, 1966-1982-ci illərdə direktoru, SSRİ EA-nın müxbir üzvü (1964), SSRİ EA-nın akademiki (1968).

Əsərləri: "İmperializm dövründə ABŞ-ın xarici siyasəti" (1960), "İkinci Dünya müharibəsindən sonra beynəlxalq münasibətlər" (1962, 1965), "Müa- sir inhisarçı kapitalizmin siyasi iqtisadı" (1970, 1975), "Müasir kapitalizm: yeni ənənələr və təzadlar" (1972), "Leninin imperializm nəzəriyyəsi və müasirlik" (1977), "Kapitalist iqtisadiyyatının başlıca ənənələri və inkişaf perspektivləri" (1975, 1980).

İNSAN İNKİŞAFI KONSEPSİYASI – istehsal, əmtəə və xidmətlərin bölüşdürülməsi məsələlərinin həlli ilə gəlirlərin əmələ gəlməsinə birbaşa təsir edən, ictimai tərəqqinin son məqsədi kimi qiymətləndirilən insan bacarığından və imkanlarından istifadənin formalaşdırılması məsələlərinin həllini özündə birləşdirir.

Buna uyğun olaraq, insan inkişafının konseptual sxemi 4 əsas elementin üzərində qurulmuşdur və onlar aşağıdakılardan ibarətdir:


– bərabərlik – ilk əvvəl bütün insanlar bərabər imkanlara malik olmalıdırlar. İnsanların iqtisadi və siyasi həyatda öz imkanlarını həyata keçirməsi və bunlardan faydalanması üçün onların cinsi, irqi, milli, sinfi mənsubiyyəti, yaşayış yeri, firavanlıq səviyyəsi və s. ilə bağlı olan bütün maneələr ləğv edilməlidir;

– davamlılıq – konsepsiyanın bu elementinin əsasını "insan hüquqlarının universallığı" prinsipi təşkil edir ki, buna müvafiq




Pekin. Olimpiya kəndində Azərbaycan idman nümayəndələri ilə görüş




Azərbaycan idmançıları tərəfindən qazanılmış medallar
700
600
500
400
300
200
100
0
213
287
452
550
619
675
2005
2006
2007
2008
2009
2010
qızıl
gümüş
bürünc
Qazanılmış medalların sayı – cəmi

Qrafik 1

Dünya ölkələri üzrə insan inkişafı indeksi



olaraq, imkanlardan istifadə nəinki indiki, gələcək nəsillər üçün də təmin olunmalıdır. Gələcək nəsillər qarşısında borc saxlamamaq üçün bütün növ – fiziki, insani, ekoloji kapitalların təkmilləşdirilməsinin təminatı həyata keçirilməlidir. Belə borclar aşağıdakı formalarda ola bilər:

a) *maliyyə*, uzunmüddətli xarici və daxili borclarla şərtləndirilən;

b) *sosial*, insan potensialının inkişafında investisiyalara laqeydlik;

c) *demoqrafik*, əhalinin say artımına nəzarətsizliyin davamlılığı (və ya əhalinin uzunmüddətli azalmasının miqyası) ilə əlaqədar;

ç) *ekoloji*, təbii ehtiyatların tükənməsindən və ətraf mühitin çirklənməsindən doğan. İnkişaf imkanlarının indiki və gələcək nəsillər arasında ədalətli bölgüsü, həmçinin hər bir nəslin daxilində hər hansı bir kəsin maraq və tələbatının digərinin maraq və tələbatına qurban verilməməsi də davamlılığa daxildir. Bununla bərabər, bu ədalətlilik imkanların bərabərliyidir. Son nəticələrin bərabərliyi heç də vacib deyil, belə ki, imkanların reallaşdırılması hər bir nəslin öz seçimidir.

İnkişaf insanların yalnız artımı ilə deyil, həm də şəraitləri ilə bağlı həyata keçirilməlidir. İnsanlar onlarla bağlı qərarların qəbul edilməsi prosesində və digər proseslərdə hər cəhətdən iştirak etməlidirlər. Bazar və tənzimlənmə arasındakı münasibət indiki zamanda olduğu kimi, gələcəkdə də qalmalıdır. İmkanların genişləndirilməsi insanların öz ailələrinin, ölkənin və bütövlükdə bəşəriyyətin taleyinə görə olan məsuliyyətinin artırılması deməkdir. 1990-cı illərdən başlayaraq yuxarıdakı elementlərdən istifadə edilməklə, insan inkişafı haqqında məruzələrdə insan potensialının inkişafı indeksi dərc olunur. Bu indeks insan inkişafı sahəsində üç əsas istiqamət üzrə ölkənin əldə etdiyi nailiyyət göstəricilərini əks etdirir və bunlar aşağıdakılardan ibarətdir: sağlam həyat tərzi əsasında uzunömürlülük, bilik və həyatın dəyərli səviyyəsi.

Cədvəl 1

Dünyanın 20 ən yüksək insan inkişafı indeksi olan ölkəsi

№	Ölkə	İnsan inkişafı indeksi
1	Norveç	97,1
2	Avstraliya	97,0
3	İslandiya	96,9
4	Kanada	96,6
5	İrlandiya	96,5
6	Niderland	96,4
7	İsveç	96,3
8	Fransa	96,1
9	Lüksemburq	96,0
10	İsveçrə	96,0
11	Yaponiya	96,0
12	Finlandiya	95,9
13	ABŞ	95,6
14	Avstriya	95,5
15	İspaniya	95,5
16	Belçika	95,3
17	Danimarka	95,3
18	İtaliya	95,1
19	Lixtenşteyn	95,1
20	Yeni Zelandiya	95,0

Cədvəl 2

Dünyanın 20 ən aşağı insan inkişafı indeksi olan ölkəsi

1	Niger	34,0
2	Əfqanıstan	35,2
3	Syera-Leone	36,5
4	MAR	36,9
5	Mali	37,1
6	Burkina-Faso	38,9
7	Konqo (Kinşasa)	38,9
8	Çad	39,2
9	Burundi	39,4
10	Qvineya-Bisau	39,6
11	Mozambik	40,2
12	Efiopiya	41,4
13	Qvineya	43,5
14	Liberiya	44,2
15	Qambiya	45,6
16	Ruanda	46,0
17	Seneqal	46,4
18	Eritreya	47,2
19	Zambiya	48,1
20	Kot-d'İvuar	48,4

Ümumiyyətlə, insan inkişafı onun potensialının reallaşmasını əks etdirir. Yəni insanların öz həyatlarında həqiqi seçim etmələri onların imkanlarından və malik olduqları sərbəstlik dərəcəsindən asılıdır.

İnsan inkişafının dayanıqlığı – insan konsepsiyasının sürətli inkişafının və davamlı inkişafın son nəticəsi. İnsan inkişafının dayanıqlığı mahiyyət etibarı ilə həm hazırda, həm də gələcəkdə inkişafın imkanlarına malik olmaqla bərabərliyin təmin edilməsini nəzərdə tutur. Bu anlayış, davamlı inkişafın müəyyənləşdirilməsində olduğu kimi, həmçinin ekoloji amili və yoxsulluq problemlərini nəzərə alır. İnsan inkişafının dayanıqlığı yalnız iqtisadi inkişaf tələb etmir, eyni zamanda onun nəticələrinin ədalətli bölüşdürülməsini, adamların ətraf mühitin bərpa edilməsində məsuliyyətinin artırılmasını tələb edir. Belə inkişaf ilk növbədə yoxsullara, onların həyatına təsir göstərən qərarın qəbul edilməsində iştirak imkanlarının artırılmasına və təminatına yönəldilir. Bu inkişaf insanların, təbiətin qorunması, yoxsulluğun ləğv edilməsinə yönəldilir, xüsusilə qadınların vəziyyətinin yaxşılaşdırılması üçündür.

Dayanıqlı inkişaf və insan inkişafı konsepsiyası bir çox ümumi mövqeləri və prioritetləri birləşdirir. Dayanıqlı inkişaf və insan inkişafı konsepsiyası üçün xarakterik olan prinsipial ümumi əsaslar aşağıdakılardan ibarətdir:

– hər iki konsepsiyanın mərkəzində insan durur;

– insan inkişafı konsepsiyası çərçivəsində davamlı insan in-

Cədvəl 3

Yaşlı əhalinin il ərzində alkoqollu içkilər qəbul etməsinin dinamikası (xalis spirtli içkilər, litrlə)

Ölkə	1971	1975	1979	1983	1987	1991	1995	1999	2003	2007
Rusiya	8,76	7,82	7,92	7,84	4,16	7,51	11,17	10,57	11,26	11,45
Yaponiya	5,71	6,30	6,77	7,12	7,69	8,03	7,87	7,53	7,82	7,29
ABŞ	9,80	10,18	10,41	10,18	9,61	8,71	8,14	8,18	8,40	8,78
Avstraliya	11,13	12,63	12,78	12,22	11,27	10,11	9,69	9,41	9,97	10,32
Böyük Britaniya	7,00	8,87	9,29	8,59	9,14	9,41	9,55	9,89	11,70	m.y.
Norveç	4,88	5,54	5,63	4,85	5,38	4,90	4,79	5,45	6,03	6,60
Finlandiya	6,39	8,00	7,84	7,94	8,75	9,22	8,31	8,62	9,30	10,45
Almaniya	14,09	14,40	14,35	13,21	12,59	13,92	13,35	12,78	11,92	11,62
Polşa	7,96	9,61	10,93	8,55	9,68	8,75	7,14	8,34	9,33	10,34
Macarıstan	11,95	12,68	14,18	14,59	13,69	13,18	12,21	12,80	12,33	m.y.
Çexiya	11,42	11,84	12,12	12,59	11,16	12,37	12,53	13,22	15,32	15,23
Litva	m.y.	m.y.	m.y.	m.y.	6,22	8,03	6,09	6,75	11,40	13,40
Ukrayna	m.y.	7,79	m.y.	7,26	3,70	5,86	3,72	3,93	8,03	m.y.

kişafı nəzəriyyəsinin öz yeri vardır ki, bu da hər iki konsep - siya üçün "dayanıqlıq" məfhumunun vacibliyini göstərir.

İnsan inkişafı indeksi – insan inkişafının ümumiləşdirici göstəricisi. İnsan inkişafı adamlar üçün rifah halının yüksəldilməsi prosesi kimi müəyyənləşdirilir. Amma bu proses təkcə gəlirlə ölçülə bilməz və xüsusi indeks olan – insan inkişafı indeksi tək - lif edilmişdir. Bu indeks üç göstəricini birləşdirir (əhalinin sayına görə ÜDM-i, savadlılığı və həyatın qarşıdakı davamlı - lığını) və insan inkişafına kompleks qiymət verir. İndeksin konseptual əsasları hindli iqtisadçı Amartiya Sen tərəfindən veril - mişdir. Bu göstərici ilk dəfə 1990-cı ildə pakistanlı iqtisadçı Mahbub əl-Haqqın başçılığı ilə BMT-nin İnkişaf Proqramının tədqiqatlar qrupu tərəfindən təklif edilmişdir. İnsan inkişafı in - deksi digər sosial-iqtisadi göstəriciləri əvəz etmək üçün nəzərdə tutulmuşdur. Belə ki, onlar müxtəlif ölkələrin vəziyyətinin tam təsvir edilməsi üçün vacibdir. Ümumi insan inkişafı indeksin - dən başqa, hazırda kişi və qa - dınlar, müxtəlif etnik və sosial qruplar, regionlar üçün də insan inkişafı indeksi hesablanır və hesablamaların metodologiyaları müntəzəm olaraq təkmilləş - dirilir. Hazırda insan inkişafı indeksi özünün iki komponenti əsasında: təhsil və gəlir (əhalinin sayına görə ÜDM) göstəricilərində modifikasiyalaşdırılmışdır. Orta təhsil ilini nəzərə almaqla, təhsil göstəricisi əhalinin əmlakı (varidatı) kimi müəyyənləşdirilir. Gəlir sahəsində həddi miqyası kimi əhaliyə düşən ÜDM-in orta dünya qiymətindən istifadə edilir. Əgər ölkədə ÜDM əhaliyə düşən orta dünya səviyyəsindən yuxarıdırsa, bu zaman əhaliyə düşən gə - lirin artımına onun insan inkişafına qoyuluşunun azalması kimi baxılır.

İnsan inkişafı indeksində natura və dəyər göstəriciləri birləşir. Bu birləşmə üçün 0-dan 1-ə qədər şkala tətbiq edilir. Kənarlaş-

Cədvəl 4

Azərbaycan Respublikasında 15 və yuxarı yaşda olan əhalinin savadlılıq səviyyəsi, faizlə[1]

İllər	Cəmi	o cümlədən:	
		Kişilərdə	Qadınlarda
Şəhər və kənd yerləri üzrə: cəmi			
1989	97,3	98,9	95,9
1999	98,8	99,5	98,2
2007	99,5	99,8	99,3
2008	99,6	99,8	99,4
2009	99,6	99,8	99,5
2010	99,8	99,9	99,7
Şəhər yerləri üzrə			
1989	98,2	99,3	97,1
1999	99,2	99,6	98,7
2007	99,8	99,9	99,7
2008	99,8	99,9	99,7
2009	99,8	99,9	99,7
2010	99,7	99,8	99,7
Kənd yerləri üzrə			
1989	96,2	98,5	94,3
1999	98,4	99,3	97,6
2007	99,2	99,6	98,9
2008	99,4	99,7	99,0
2010	99,8	99,9	99,7

[1] *1989 və 2009-cu illərdə əhalinin siyahıyaalınmalarının məlumatları*

manın ölçülməsi bir şkala həddində müxtəlif vahidlərdə ölçülmüş göstəricilərin birləşməsinə, həmçinin kənarlaşmanın maksimum və minimum qiymətlərinin müəyyənləşdirilməsinə imkan verir. İnsan inkişafı indeksi 0-dan 1-ə qədər olan şkalada hər bir təşkiledici göstərici üçün ekstremal qiyməti müəyyənləşdirir və üç mərhələdə yaradılır. Birinci mərhələdə göstəricilərin kənarlaşması ölkənin üç əsas dəyişkən göstəricisi əsasında müəyyənləşdirilir: qarşıdakı həyatın davamlılığı (X1), təhsil (X2), hər bir əhaliyə düşən ÜDM (loqarifm) (X3). Hər bir göstərici üçün ekstremal (maksimum və minimum) qiymət: qarşıdakı həyatın davamlılığı üçün – 25 və 85 yaş; böyüklərin savadlılığı – 0 və 100 faiz; təhsilin orta müddəti – 0 və 15 il; əhalinin bir nəfərinə düşən ÜDM – 200 və 40 min ABŞ dolları. 1994-cü ildə gəlirin orta həddi kimi əhalinin hər nəfərinə düşən ÜDM-in orta dünya norması 5120 ABŞ dolları qəbul edilmişdir. Minimum qiymət son 30 il ərzində müşahidə olunan minimumlar əsasında müəyyənləşdirilmiş, maksimum isə 2020-ci ilə proqnozlaşdırılmışdır. Hər il müəyyənləşdirilsə də, fiziki minimum və maksimum qiymətlərlə ekstremal qiymətlərin təhrif olunmuş nəticələrə gətirə biləcəyini nəzərə alaraq, o, yuxarıda göstərilənlərlə əvəz olunmuşdur ki, bu da ölkələr arasında və vaxta görə əyani müqayisə aparılmasına imkan vermişdir. Ölkədə insan inkişafı indeksi 0,5-dən aşağı olduqda insan inkişafı aşağı səviyyədə; 0,5-0,8 olduqda – orta səviyyədə; 0,8 və yuxarı olduqda isə yuxarı səviyyədə hesab edilir. Davamlı insan inkişafı Azərbaycanda dövlət siyasətinin əsas prioritetlərindəndir. ÜDM-in illik artımının yüksək olması davamlı insan inkişafı üçün iqtisadi imkanlar yaradır. Uğurlu iqtisadi siyasətə arxalanaraq, ölkənin müxtəlif bölgələrində yeni tədris ocaqlarının tikilməsi, yenidən qurulması, müasir avadanlıq və ləvazimatlarla təchiz edilməsi, təhsil sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi insan potensialının formalaşması üçün vacib amildir. Ölkənin bütün bölgələrində yaradılan olimpiya kompleksləri və digər idman qurğuları,

Cədvəl 5

15 və yuxarı yaşlı əhalinin savadsızlıq səviyyəsi, faizlə

Ölkələr	Savadsızlıq əmsalı	
	qadınlar	kişilər
Azərbaycan	**0,3**	**0,1**
Argentina	2,3	2,4
Ermənistan	0,6	0,3
Belarus	0,3	0,2
Bolqarıstan	2,1	1,4
Braziliya	9,8	10,2
Macarıstan	1,1	0,9
Yunanıstan	4,1	1,8
Hindistan	49,2	24,8
İspaniya	3,1	1,6
İtaliya	1,5	0,9
Latviya	0,2	0,2
Litva	0,3	0,3
Qazaxıstan	0,5	0,2
Çin	8,5	3,3
Meksika	8,5	5,4
Moldova	2,2	1,0
Polşa	0,7	0,3
Portuqaliya	7,1	3,5
Estoniya	0,2	0,2
Rusiya	0,8	0,3
Rumıniya	3,1	1,7
Tacikistan	0,5	0,2
Türkiyə	18,7	3,8
Ukrayna	0,4	0,2

müasir tibbi mərkəzlər əhalinin sağlamlığının qorunması və möhkəmləndirilməsi üçün olduqca vacibdir. Bu uğurlu siyasətin həyata keçirilməsində həm dövlət qurumları, həm də ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu fəal iştirak edir.

Davamlı insan inkişafının qiymətləndirilməsi üçün hazırda müxtəlif göstəricilər əsasında hesablanan bir sıra əmsallardan istifadə olunur. Bu əmsallar insan inkişafının müxtəlif istiqamətlərini və yaxud müxtəlif qrupların cəmiyyətdə vəziyyətini səciyyələndirir. Əmsallar arasında ən ümumiləşdirilmişi və ən geniş istifadə olunanı İnsan İnkişafı Əmsalıdır (İİƏ). Həmin əmsal bütün əhali üçün hesablanır. Bununla yanaşı, cəmiyyətin müxtəlif qruplarının vəziyyətini qiymətləndirən əmsallardan da istifadə olunur ki, bunların arasında Gender İnkişafı Əmsalı (GİƏ) xüsusi yer tutur. Eyni zamanda qadınların cəmiyyətdə tutduğu mövqeyi yaxşılaşdırmaq, yaxud daha da gücləndirmək üçün onların təhsil səviyyəsini və peşə bacarığını nəzərə alan xüsusi əmsal hesablanır. Bu, Qadınların İmkanlarının Genişləndirilməsi Əmsalıdır (QİGƏ). Göstərilən əmsalın hesablanması cinslərin inkişaf imkanları arasında mövcud fərqlərin müəyyən edilməsi və aradan qaldırılmasına, onların sosial baxımdan bərabərliyinə xidmət edir.

Yuxarıda sadalanan əmsallar insan inkişafının ümumi vəziyyətini (İİƏ), yaxud cinslər arasında müşahidə edilən fərqləri (GİƏ) və onun aradan qaldırılması üçün mövcud potensialı (QİGƏ) əks etdirir. Bu göstəricilərlə yanaşı, davamlı insan inkişafını xarakterizə edən digər əmsallar da hesablanır. Bir qrup əmsallar, əsasən, insan məhrumiyyətlərindən xəbər verir. On-

Cədvəl 6


Azərbaycan Respublikasında təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat xərcləri

Göstəricilər	Ölçü vahidi	2001-ci il icra	2003-cü il icra	2010-cu il icra	2010-cu ilin 2001-ci illə müqayisəsi
Təhsil xərcləri	mln. manat	186,2	234,8	1180,8	6,3 dəfə
Səhiyyə xərcləri	mln. manat	42,0	55,3	429,2	10,2 dəfə
Sosial müdafiə və sosial təminat	mln. manat	146,1	214,0	1123,0	7,7 dəfə
ondan: sosial müdafiə xərcləri	mln. manat	103,0	153,6	1108,0	5,1 dəfə
sosial təminat xərcləri	mln. manat	43,1	60,4	15,0	0,2 dəfə
Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət	mln. manat	22,0	31,1	168,4	7,7 dəfə
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərcləri	mln. manat	34,2	53,6	372,1	10,9 dəfə
Dövlət əsaslı vəsait qoyuluşu	mln. manat	25,3	86,9	4132,4	163,5 dəfə

ların arasında ən geniş istifadə olunanı İnsan Yoxsulluğu Əmsalıdır (İYƏ). Yoxsulluğun monitorinqi, azaldılması və ləğv edilməsi üçün bu məlumat xüsusi əhəmiyyət daşıyır.

Davamlı insan inkişafının qiymətləndirilməsi üçün göstərilən vahid əmsalların istifadə edilməsi, ilk növbədə, hər hansı bir ölkədə və yaxud bölgədə bu sahədə mövcud olan vəziyyətin səciyyələndirilməsi üçün əhəmiyyətlidir. Bu məlumat insan potensialının inkişafı naminə müvafiq siyasətin və tədbirlərin həyata keçirilməsinin səmərəliliyi üçün olduqca vacibdir. Digər tərəfdən, insan inkişafının qiymətləndirilməsi üçün istifadə olunan ümumi prinsiplər və eyni yolla hesablanan əmsallar beynəlxalq müqayisələrin aparılması üçün imkanlar açır. Belə müqayisələr insan potensialının inkişafı sahəsində dünyada əldə edilmiş ən yaxşı təcrübənin öy-

Azərbaycanda insan inkişafı indeksinin artım dinamikası



Mənbə: Human Development Report, UNDP, New York, 2010

Qrafik 1

Cədvəl 6

Dünya ölkələrinin təhsil səviyyəsi indeksi

Yeri	Ölkə	İndeks
1	Norveç	0,989
2	Avstraliya	0,993
3	İslandiya	0,980
4	Kanada	0,991
5	İrlandiya	0,985
6	Niderland	0,985
7	İsveç	0,974
8	Fransa	0,978
9	İsveçrə	0,936
10	Yaponiya	0,949
11	Lüksemburq	0,975
12	Finlandiya	0,993
13	ABŞ	0,968
14	Avstriya	0,962
15	İspaniya	0,975
16	Danimarka	0,993
17	Belçika	0,974
18	İtaliya	0,965
19	Lixtenşteyn	0,949
20	Yeni Zellandiya	0,993
21	Böyük Britaniya	0,957
22	Almaniya	0,954
23	Sinqapur	0,913
24	Honqkonq (Çin)	0,879
25	Yunanıstan	0,981
26	Cənubi Koreya	0,988
27	İsrail	0,947
28	Andora	0,877
29	Sloveniya	0,969
30	Bruney-Darüssəlam	0,891
31	Küveyt	0,872
32	Kipr	0,910
33	Qatar	0,888
34	Portuqaliya	0,929
35	BƏƏ	0,838
36	Çexiya	0,938
37	Barbados	0,975
38	Malta	0,887
39	Bəhreyn	0,893
40	Estoniya	0,964
41	Polşa	0,952
42	Slovakiya	0,928
43	Macarıstan	0,960
44	Çili	0,919
45	Xorvatiya	0,916
46	Litva	0,968
47	Latviya	0,961
48	Argentina	0,946
49	Uruqvay	0,955
50	Kuba	0,993
51	Baham adaları	0,878
52	Meksika	0,886
53	Kosta-Rika	0,883
54	Liviya	0,898
55	Oman	0,790
56	Seyşel adaları	0,886
57	Venesuela	0,921
58	Səudiyyə Ərəb.	0,828
59	Panama	0,888
60	Bolqarıstan	0,930
61	Rumıniya	0,915
62	Trinidad və Tobaqo	0,861
63	Çernoqoriya	0,891
64	Malayziya	0,851
65	Serbiya	0,891
66	Belarus	0,961
67	Albaniya	0,886
68	Rusiya	0,933
69	Makedoniya	0,880
70	Dominikan	0,848
71	Braziliya	0,891
72	Bosniya və Herseq.	0,874
73	Kolumbiya	0,881
74	Peru	0,891
75	Türkiyə	0,828
76	Ekvador	0,866
77	Mavrikiya	0,839
78	Qazaxıstan	0,965
79	Livan	0,857
80	Ermənistan	0,909
81	Ukrayna	0,960
82	Tailand	0,888
83	İran	0,793
84	Gürcüstan	0,916
85	Çin	0,851
86	İordaniya	0,870
87	Tunis	0,772
88	Yamayka	0,834
89	Paraqvay	0,871
90	Şri-Lanka	0,834
91	Əlcəzair	0,748
92	Filippin	0,888
93	Salvador	0,794
94	Suriya	0,773
95	Türkmənistan	0,906
96	Fələstin ərazisi (İsrail)	0,886
97	İndoneziya	0,840
98	Honduras	0,806

Cədvəl 6-nın ardı

99	Boliviya	0,892
100	Monqolustan	0,913
101	Vyetnam	0,810
102	Moldova	0,899
103	Özbəkistan	0,888
104	Qırğızıstan	0,918
105	Qvatemala	0,723
106	Misir	0,697
107	Nikaraqua	0,760
108	Botsvana	0,788
109	Tacikistan	0,896

110	Namibiya	0,811
111	CAR	0,843
112	Mərakeş	0,574
113	Laos	0,683
114	Hindistan	0,643
115	Konqo	0,736
116	Kamboca	0,704
117	Myanma	0,787
118	Yəmən	0,574
119	Pakistan	0,492
120	Nepal	0,579

121	Madaqaskar	0,676
122	Banqladeş	0,530
123	Keniya	0,690
124	Haiti	0,588
125	Sudan	0,539
126	Nigeriya	0,657
127	Liberiya	0,562
128	Efiopiya	0,403
129	Mozambik	0,478
130	Burundi	0,559
131	Əfqanıstan	0,354

rənilməsi və yayılması üçün şərait yaradır.

Azərbaycan Respublikasında davamlı insan inkişafının monitorinqi 1994-cü ildən başlamışdır. İnsan inkişafına həsr olunmuş Milli Hesabat ilk dəfə 1995-ci ildə BMT-nin layihəsi əsasında dərc edilmişdir. 1995-ci ildən sonra bu hesabatlar mütəmadi olaraq müxtəlif illərdə dərc edilmişdir. İnsan inkişafının monitorinqi ilə yanaşı, müxtəlif illərdə dərc edilmiş milli hesabatlar eyni zamanda insan potensialının formalaşmasına təsir göstərən amilləri təhlil edirdi. Məsələn, 1995-ci ilin hesabatı keçid dövrünün insan inkişafına təsirini təhlil edirdi. 2000-ci ildə bu təhlilə elm, təhsil və texnologiyaların, 2003-cü ildə isə informasiya-kommunikasiya texnologiyalarının təsiri əlavə edilib. 2007-ci ilin hesabatı isə gender məsələsinə həsr edilmişdir.

Azərbaycan Respublikasında davamlı insan inkişafına yönəldilmiş uğurlu dövlət siyasətinin həyata keçirilməsi nəticəsində ölkədə İİƏ sürətlə artmaqdadır. BMT-nin Baş Qərargahının dərc etdiyi rəsmi hesabatlarda göstərilir ki, dünya ölkələri arasında insan inkişafı indeksinə görə 2000-ci illərdə 101-ci olan Azərbaycan 2010-cu ildə 67-ci yerə qalxıb. Bunun nəticəsində Azərbaycan ilk dəfə yüksək insan inkişafını təmin edən ölkələr qrupuna daxil olmuşdur. Belə sürətli artım insan potensialının inkişafına yönəldilmiş uğurlu milli strategiyanın həyata keçirilməsinin nəticəsidir.

Urxan Ələkbərov

2012-ci ildə də ölkə iqtisadiyyatına ən azı 2011-ci ilin səviyyəsində vəsait qoyulmalıdır.

Böyük infrastruktur layihələrinin icrası 2012-ci ildə davam etdiriləcəkdir. Mən onların içərisində xüsusi diqqəti içməli su və kanalizasiya layihələrinə yönəltmək istəyirəm. Çünki əvvəlki dövrdə elektrik enerjisi, xüsusilə generasiya güclərinin yaradılması, qazlaşdırma ilə bağlı böyük işlər görülmüşdür... Ancaq içməli su və kanalizasiya layihələri, bir qədər kölgədə qalmışdır. İndi bu sahəyə diqqət daha da ciddidir və işlər daha da uğurla aparılır. Bu sahədə müasir menecment sistemi, müasir idarəetmə üsulları tətbiq edilir. Dünya praktikasında geniş şəkildə istifadə olunur. Artıq Bakıda və bütün bölgələrdə içməli su, kanalizasiya layihələri başlayır, yaxud da ki, hazırlıq mərhələsindədir.

2013-cü ilin sonuna qədər bütün rayon mərkəzləri, bütün şəhərlər dayanıqlı, keyfiyyətli, təmiz içməli su ilə təmin ediləcək və heç vaxt tarixdə mövcud olmayan kanalizasiya sistemləri də dünya səviyyəsində qurulacaqdır.

İlham Əliyev
16.01.2012

İNSAN KAPİTALI – kapital qoyuluşlarının xüsusi növü, insan potensialının təkrar istehsalının inkişafına, məhsulun keyfiyyətinə və iş qüvvəsinin fəaliyyət göstərməsinin yaxşılaşmasına çəkilən məsrəflərin məcmusu. İnsan kapitalı obyektlərinin tərkibinə, adətən, ümumi təhsil və xüsusi xarakterli biliklər, vərdişlər, toplanmış təcrübə daxildir.

Bəzi şərhlərə görə, buna həmin iqtisadi subyektin malik olduğu sağlamlığın vəziyyəti, eləcə də işçilərin sürətlə hərəkətetmə qabiliyyəti ilə əlaqədar və əmək bazarında informasiyanın axtarışına çəkilən xərclər aiddir. Buna uyğun olaraq insan kapitalını formalaşdıran fəaliyyət dairələri (ilk növbədə elm-təhsil kompleksi) qeyri-maddi istehsalın investisiya sahələri kimi nəzərdən keçirilir.

İnsan kapitalı konsepsiyası bazasında təhsil, tədqiqat və işləmələr, səhiyyə sferasına qoyuluşların iqtisadi səmərəliliyinin ödənilməsinin intensiv inkişaf stimulları əldə olundu. Alınmış nəticələr insan potensialının inkişafına sərf olunan məsrəflərin sıçrayışlı artımının əsaslandırılması üçün geniş istifadə olunmuşdur.

Bu yanaşmaya uyğun olaraq insan kapitalı uzunmüddətli iqtisadi resurs kimi nəzərdən keçirilir ki, onun təkrar istehsal dövriyyəsi əsas kapitalın dövriyyəsinin orta müddətindən 5-6 dəfə və ya daha çox davamiyyətlidir; onun iqtisadi "aşınması" sanki əks işarəlidir: işçilərin istehsal cəhətdən qiymətləndirilməsi müəyyən müddətdən sonra artır. Öz kəmiyyətinə görə insan kapitalı fondları və ona qoyulan milli sərvət ünsürləri üstün sürətlə artır.

İnsan kapitalı probleminin tədqiqinin əsas obyekti təhsilin iqtisadiyyatıdır. Hesab edilir ki, ona yönəldilən qoyuluşlar milli gəlirin artımının 30% və daha artıq hissəsini təmin edir. Müvafiq təhsilin alınmasına sərf olunan məsrəflərlə diskontlaşmış ömürlük məvaciblərin müqayisə edilməsi ilə hesablanan insan kapitalına yönəldilən qoyuluşların gəliri əsas kapitala yönəldilən qoyuluşlardan əldə edilən mənfəətdən xeyli yüksəkdir.

Qərbdə XX əsrin 60-cı illərin başlanğıcında insan kapitalı nəzəriyyəsinin inkişafında atılan ilk addımlar T.Şultsun, Q.Bekkerin, E.Denisonun, D.Mintserin, M.B.Blauqanın, R.Leyardın və digərlərinin əsərləri ilə əlaqədardır. Rusiyada oxşar tədqiqatlar hələ XX əsrin 20-ci illərində aparılmış, S.Q.Strumilin, eyni zamanda onun xaricdəki davamçıları tərəfindən bərpa olunmuşdur.

İnsan kapitalının tədqiqinin mühüm istiqamətini gözlənilən faydanın ən yüksək olmasına, o cümlədən təhsil alınmasına münasibətdə, şəxsi və ailə həyatında insanın müxtəlif davranış qaydaları təşkil edir. Bu istiqamətin inkişafına görə Q.Bekker iqtisadiyyat üzrə Nobel mükafatı almışdır.

İNSAN KAPİTALI NƏZƏRİYYƏSİ (ing. *theory of human capital*) – bu nəzəriyyəyə görə, əmək haqqının diferensiasiyası insan kapitalına investisiyalarda fərqlərin nəticəsi kimi çıxış edir, aşağı maaşlı işçilərin gəlirləri isə bu cür investisiyaların həcminin çoxalması nəticəsində artır.

İnsan kapitalına investisiyalar – işçilərin ixtisas səviyyəsinin artmasına şərait yaradan müxtəlif tədbirlər və hərəkətlərdir. Bu, işçilərin əməyinin məhsuldarlığının artmasına bilavasitə əlverişli təsir göstərir.

İnsan kapitalına investisiyaların üç növünü fərqləndirirlər:

1) ümumi və xüsusi təhsil üçün, o cümlədən fəaliyyət yerində, iş yerində hazırlıq üçün xərclər;

2) xəstəliklərin profilaktikası, tibb mütəxəssisləri tərəfindən xidmət göstərilməsi, pəhriz qidalanması, mənzil şəraitinin optimallaşdırılması ilə əlaqədar səhiyyə xərcləri. Bütün bu tədbirlər sayəsində işçinin ömrü uzanır, onun əmək qabiliyyəti və əməyin məhsuldarlığı artır;

3) işçilərin mobilliyi üçün xərclər; bu xərclər onların bir iş yerindən başqa, daha məhsuldar iş yerinə getməsinə imkan verir.

İnsan kapitalına investisiyaların bu növü aşkar görünmür.

İnsan kapitalı nəzəriyyəsinə müvafiq olaraq əməyin məhsuldarlığı və onun ardınca əmək haqqı ayrıca bir insanın, onun ailəsinin və işəgötürənin təhsil, səhiyyə və iş yerlərinin yerləşdirilməsinə zəruri vəsait sərf etmək üçün nə qədər vəsait xərcləmək niyyətində olmalarından əhəmiyyətli dərəcədə asılıdır. Ali təhsil almaq üçün investisiyaların iqtisadi mənada səmərəsi ixtisaslı mütəxəssisin bütün həyatı boyu öz işindən ala biləcəyi əlavə həyati gəlir kimi qiymətləndirilir. Bu, cəmiyyət üçün də çox vacibdir və o, in-



Qrafik 1

sanlara investisiya ilə maşınlara investisiya arasında müvafiq nisbəti müəyyən etməlidir.

Müasir dövrdə iqtisad elmi insanın yaradıcılıq qabiliyyətinə daha artıq maraq göstərir. Bu, bütövlükdə müasir elmin ümumi inkişaf qanunauyğunluğu – tədqiqatların insan problemi üzərində cəmləşməsi ilə eyni vaxta düşür. Bu məqamda dünya iqtisadi fikrinin nailiyyətlərinə məhəl qoymamaq uzağı görməmək olardı. İqtisad elmində intellektual fəaliyyətin rolu lazımınca qiymətləndirilir, insan amilinə sərmayə qoymağın zəruri və yüksək dərəcədə səmərəli olması əsaslandırılır. İnsan kapitalı konsepsiyalarının yaranması və inkişafı T.Şults, C.Kendrik, E.Denison, F.Maxlup kimi tanınmış iqtisadçıların adı ilə bağlıdır. Bu konsepsiyanı yaradanlar arasında Nobel mükafatı laureatları T.Şults və H.Bekker də vardır. İnsan kapitalı nəzəriyyəsinə aid çoxsaylı əsərlər dərc edilmişdir. Onların arasında C.Qreysonun işlərini xüsusi qeyd etmək olar.

Rusiyalı müəlliflərin də bir çoxu bu problemə həsr edilmiş əsərlər yazmışdır. Hərçənd islahatdan əvvəlki dövrdə insan kapitalı konsepsiyasına həsr edilmiş əsərlər əksər hallarda tənqid edilirdi. Buna baxmayaraq, həmin əsərlərdə "İnsan kapitalı" kateqoriyası geniş təhlil edilmiş, iqtisadi sistemdə insanın heç də sonuncu yerdə olmaması məsələsini nəzərdən keçirən elm istiqamətlərinin inkişaf etməsi ehtimalı (mümkünlüyü) əsaslandırılmışdır.

Rus alimlərindən V.Jamin, Y.Tolıpin, İ.Maşinski, İ.Musatov, F.Volkov, M.Solodkov "İnsan kapitalı" terminindən istifadə etməsələr də, bu problemin nəzəri tətbiqinə sanballı töhfələr vermişlər. Sonralar L.Abalkin, S.Dyatlov, N.Qvozdeva, S.Kurqanski, A.Barışeva, M.Kritski, Y.Tsırenova artıq həmin terminдən istifadə etməklə bu problemi öyrənməyə başlamışlar.

İNSAN KAPİTALINA QOYULAN İNVESTİSİYALAR – iqtisadiyyatın bütün resurslarından (əmək, kapital, torpaq) başlıcası olan "K" resursu deyilən (ing. *know ledae* – bilik) insan kapitalının məqsədyönlü formalaşmasıdır. İnsan kapitalı biliyin əldə olunması, təcrübə, yaradıcı potensial, fiziki, mənəvi, psixoloji və sosial sağlamlıq, mənəvi

keyfiyyətlər, insanın səfərbər olunması qabiliyyətidir. Yəni insan kapitalının sahibinə ("daşıyıcısına") gəlirin artımını təmin edən xassələrin məcmusudur və sahibkara çatan mənfəətin artırılmasıdır.

İnsan kapitalı maddi (fiziki) kapitaldan fərqlənir: o satılmır, alınmır. Yalnız insan kapitalının yaratdığı xidmətlər satıla bilər. İnsan kapitalının daşıyıcısı həm də onun sahibidir, buna görə də insan kapitalının istifadə olunmasına müəyyən dərəcədə onun sahibi tərəfindən nəzarət olunur. İnsan kapitalının formalaşması üçün maddi vəsaitlər kifayət deyil, bu kapitalın daşıyıcısının əməyi, eləcə də ailənin və cəmiyyətin mənəvi və mədəni qoyuluşları zəruridir. İnsan kapitalını onun sahibindən ayırmaq olmaz, burada biliklər istisnalıq təşkil edir ki, onları patentləşdirmək və satmaq olar. İnsan kapitalına qoyulan investisiyalar təhsilə, səhiyyəyə, uşaqlara qulluğa, mobilliyin təmin olunmasına, informasiya əlyetərliliyinə yönəldilən qoyuluşlardır. İnsan kapitalına qoyulan investisiyaların ən mühüm istiqaməti – ümumi və xüsusi, formal və qeyri-formal, eləcə də iş yerində təlim daxil olmaqla təhsilə istiqamətlənən qoyuluşdur.

İnsan kapitalının iqtisadi və elmi-texniki şəraitin tələblərinə uyğunlaşması bütövlükdə iqtisadiyyatın, eləcə də müəssisə və təşkilatların fəaliyyətinin səmərəliliyinin təmin edilməsinə imkan verir. Buna görə də insan kapitalına qoyulan investisiyalaşma prosesinin idarə edilməsi mühüm vəzifəyə çevrilir. İnsan kapitalına qoyulan investisiyalar proqramları insan kapitalının strukturunun yaxşılaşması üzrə kompleks tədbirlərin işlənib hazırlanmasını, prioritet istiqamətlərin aşkar edilməsini, investisiya məsrəflərinin hesablanmasını tələb edir. İnvestisiya prosesinin idarə edilməsinin ən mühüm mərhələsi – insan kapitalına qoyulan investisiyaların səmərəliliyinin qiymətləndirilməsidir. Bu cür qiymətləndirmənin metodlarından biri il ərzində məsrəflərin tutuşdurulmasıdır ki, burada xüsusilə məsrəflərlə alınmış nəticələr arasında müvəqqəti laqın azalması məsələsi həll olunur. İnsan kapitalına qoyulan investisiyalar əmək məhsuldarlığını yüksəldir, sabit iqtisadi artıma təsir göstərir.

İNSANIN SƏMƏRƏLİ DAVRANIŞ PRİNSİPİ – marjinal təhlilin mühüm analitik vasitəsi. Onun mahiyyətinin izahı üçün marjinalistlər tədqiqat obyekti qismində Robinzonun fərdi təsərrüfat modelini, yəni qərarların qəbulu zamanı iqtisadi prosesdə iştirakdan öz şəxsi mənfəət və itkilərini qiymətləndirməklə cəmiyyətdən təcrid olunan fərdi seçirlər. Nəticədə iqtisadi təhlil ayrıca subyektin davranışı nöqteyi-nəzərindən aparılır, bütün bazar sisteminə isə "təsərrüfat atomlarının" cəmi, rasional subyektlərin mexaniki məcmusu kimi baxılır. Robinzonun metodu cəmiyyətdə sosial qarşılıqlı münasibətlərin təhlilini nəzərə almayan fərdilik prinsipinin üstünlük təşkil etməsinə gətirib çıxarır. Həmçinin iqtisadi proseslərin tədqiqinə tarixi yanaşma, abstrakt-deduktiv təhlil metodu əsasında əbədi, universal iqtisadi qanunların açılmasına iddia edən iqtisadiyyatın "xalis elmə" çevrilməsinə diqqət yetirilmir.

İNSANLARIN YAŞAYIŞ VASİTƏLƏRİ – yaşayış şəraiti yaradan, insanların yaşayışı üçün zəruri olan istehlak malları və xidmətləri, əşyalar, predmetlər, maddi və mənəvi dəyərlərdir. Təbiətdə yaradılan təbii yaşayış vasitələri və insanlar tərəfindən yaradılan süni yaşayış vasitələri fərqləndirilir.

İNSAYDER (ing. *inside* – içərisində) – vəzifəsi və ya qohumluq əlaqələrinə görə firmanın məxfi məlumatlarına daxil olmaq imkanı olan əməkdaşıdır. Xidməti məlumat ümumi qaydada əldə edilə bilməyən, qiymətli kağızlar bazarının iştirakçısı olan təşkilatlarda, yaxud müvafiq dövlət orqanlarında tutduğu vəzifə ilə əlaqədar olaraq əldə edilən və ya emitentlə bağlanmış müqaviləyə əsasən, qiymətli kağızlar bazarının subyektləri, qiymətli kağızlar, onlarla əməliyyatlar, qiymətlər və digər xüsusatlar üzrə açıqlanmamalı olan və istifadə edildikdə məlumat sahibinə qiymətli kağızlarla əməliyyatların aparılmasında digər iştirakçılardan daha üstün mövqe təmin edən məlumata malik şəxs.

İnsayder – maliyyə və digər bu kimi informasiyalara girişi olan fərddir.

İNSAYDER ƏMƏLİYYATLARI (ing. *insider dealings*) – emitent şirkətin fəaliyyəti haqqında geniş ictimaiyyətə çatdırılmayan informasiyadan istifadə edilməklə, qiymətli kağızlarla qanunsuz əməliyyatlar. Bu informasiyaya malik olan şəxs insayder adlanır.

İNSAYDER İNFORMASİYASI (ing. *insider information*) – müəssisə və ya sahibkarın fəaliyyəti haqqında geniş ictimaiyyətə çatdırılmayan məxfi məlumat. İnsayder informasiyasına malik olan şəxslər affilə olunmuş şəxslər adlanır.

İNSAYDER KREDİTİ (ing. *insider loan)* – məxfi informasiyaya (insayder informasiyasına) malik şəxsə verilən kredit.

İNSAYDER-AUTSAYDER NƏZƏRİYYƏSİ – bu nəzəriyyəyə əsasən, öz yerini saxlamış işçilər (insayderlər) hətta kütləvi işsizlik dövründə belə yüksək əmək haqlarını saxlaya bilir. Belə ki, onlar autsayderlərə öz iş yerlərini almaq üçün rəqabət aparmağa imkan vermirlər.

İNSOLVENT – öhdəliyini yerinə yetirə bilməyən borclu.

İNSTİTUSİONAL İQTİSADİ NƏZƏRİYYƏ VƏ YA İNSTİTUSİONALİZM – iqtisadi inkişafda diqqəti sosial təsisatların roluna yönəldən nəzəriyyələrin məcmusu. Başqa sözlə, iqtisadi qərarların qəbul edilməsi və yönəldilməsi sahəsində təsisatların oynadığı rola əsas diqqət yetirən iqtisadi fikir istiqaməti.

İnstitusionalizmin iki əsas qolu mövcuddur: a) ənənəvi və ya köhnə institusionalizm; b) yeni institusionalizm və ya neoinstitusionalizm.

Dar mənada "ənənəvi institusionalizm" dedikdə XX əsrin birinci yarısında amerikalı institusionalistləri (banisi T.Veblendir), geniş mənada iqtisadi fikrin institusional cərəyanın, həmçinin alman neoliberalizmini (M.Veber, V.Zombart, V.Oyken) də aid etmək olar. Ənənəvi institusionalizm kifayət qədər fərqli konsepsiyaların məcmusudur. Onların arasında aşağıdakı konsepsiyalar daha məşhurdur: "postindustrial cəmiyyət" və ya informasiya cəmiyyəti nəzəriyyəsi (C.Helbreyt, D.Böll, O.Toffler), T.Veblenin texnokratik nəzəriyyəsi; C.Kommonsun iqtisadi-hüquqi nəzəriyyəsi; iqtisadi dinamika, o cümlədən ictimai və xüsusi təşkilatların fəaliyyəti kontekstində pul tədavülünün və təsərrüfat tsiklinin tətbiqi məsələləri üzrə U.Mitçellin tədqiqatları; hazırda üçüncü dünya ölkələrinin (hər şeydən əvvəl, Cənubi Asiya ölkələrinin) ən fundamental inkişaf nəzəriyyəsi olan Q.Mürdalın iqtisadi gerilik nəzəriyyəsi.

Amerika institusionalizmi F.Ruzveltin "Yeni kurs"unun ideya zəminini hazırlamışdı. U.Mitçell, C.Kommons, A.Berli, Q.Mins və R.Taqvell Ruzvelt hökumətini fəal dəstəkləmişdilər.

İnstitusionalizm formal olaraq ənənəvi institusionalist konsepsiyaları ilə əlaqədar deyildi, lakin mahiyyətcə ənənəvi institusionalizmin və neoklassik iqtisadi nəzəriyyələrin bir sıra ideyalarının sintezidir.

Neoinstitusionalizmə, hər şeydən əvvəl, mülkiyyət hüququ nəzəriyyəsini (R.Kouz, A.Alçian, Q.Demsets, R.Pozner), ictimai seçim nəzəriyyəsini (K.Errou, C.Bükenen, Q.Tallok, M.Olson), yeni iqtisadi tarixi (D.Nort), agentlər nəzəriyyəsini (T.Stiqlits), təşkilatların transaksiya nəzəriyyəsini (O.Uilyamson) aid etmək olar. Yeni institusionalizm yeni klassik iqtisadi nəzəriyyə, müasir iqtisadi fikrin magistral cərəyanları hesab edilir. Ənənəvi və yeni institusionalizm arasında, ən azı, üç köklü fərq vardır.

Əvvəla, "ənənəvi" institusionalistlər iqtisadi problemləri digər ictimaiyyət elmlərinin metodları ilə öyrənməyə cəhd göstərirdilər; "yeni" institusionalistlər tamamilə əks yolla gedirlər – neoklassik iqtisadi nəzəriyyənin metodları ilə, hər şeydən əvvəl, müasir mikroiqtisadiyyat aparatını və oyunlar nəzəriyyəsini tətbiq etməklə politoloji, hüquqi və digər problemləri öyrənirlər. Bu cür hadisə iqtisadi imperalizm adını almışdır.

İkincisi, ənənəvi institusionalizm başlıca olaraq, induksiya metoduna – xüsusi halların ümumiləşdirilməsi metoduna əsaslanır. Məhz buna görə də bir çox hallarda ümumi institusionalizm nəzəriyyəsi ilkin inkişaf mərhələsində formalaşmışdır. Neoinstitusional fikir üstünlüyünə görə deduktivdir: ümumi prinsiplər konkret hadisələrin izah edilməsi üçün tətbiq olunur.

Üçüncüsü, fərdin maraqları üzrə kollektivlərin (başlıca olaraq həmkarlar ittifaqının) hərəkətləri ənənəvi institusionalistlərin diqqət mərkəzində olmuşdur; "yeni" institusionalistlər fərdin əxlaqını öyrənirlər ki, bu da özünün iradəsinə və maraqlarına uyğun olaraq onun hansı kollektivin üzvü olmasını həll edir. Neoinstitusionalizmin "ekstensiv" inkişaf dövrü, görünür ki, əsasən, bitmişdir. Onun daha da inkişaf etməsinin mühüm vəzifəsi öz iqtisadi problemlərinə "dərindən" nüfuz etmədir. İnstitusionalizmin daha da inkişaf etdirilməsi onun çərçivəsində

ayrı-ayrı cərəyanların yaranmasına gətirib çıxarmışdır: institusional-sosioloji nəzəriyyə (F.Perru), kapitalizmin transformasiyası konsepsiyası (Q.Mins, A.Berli), neoinstitusionalizm nəzəriyyəsi (C.Helbreyt).

İNSTİTUSİONAL İŞSİZLİK – çox vaxt işsizlərin sosial müdafiəsi institutunun doğurduğu təbii işsizlik növü. Bu zaman müavinət nə qədər yüksək olursa, iş axtarışına bir o qədər artıq vaxt sərf olunur. İnstitusional işsizlik vergi sisteminin qeyri-mükəmməl olmasından da irəli gəlir. Gəlir vergisi tariflərinin həddindən yüksək olması işçilərin sərəncamında qalan gəlirin həcmini azaldır. Gəlirlə sosial müavinət arasında fərq nə qədər az olursa, işləmək həvəsi bir o qədər az olur və iş axtarışı vaxtı bir o qədər çox uzanır. İnstitusional işsizlik həmçinin boş iş yerləri haqqında informasiyanın qeyri-mükəmməlliyi, işçi qüvvəsi bazarının ətalətliliyi, istehsalatın yenidən qurulması sürəti ilə ayaqlaşmaması ilə bağlıdır.

İNSTİTUSİONAL REKLAM – firmanın reputasiyasını yaxşılaşdırmağa yönəlmiş reklam. Adətən, institusional reklam sahibkarlıqda müəyyən istiqamətin sabit və davamlı olmasının, onun etik cəhətinin təbliğinə, ictimai rifaha verdiyi töhfəyə həsr edilir. İnstitusional reklamdan, adətən, banklar, sığorta şirkətləri, kommunal xidmətlər sahəsinin şirkətləri istifadə edir.

İNSTİTUSİONAL TRANSFORMASİYA PROSESİ – sosial-iqtisadi sistemin inkişafında əhəmiyyətli amil. İslahatlar mərhələsində keyfiyyətli məlumat təminatına xüsusi diqqət yetirmək lazımdır. Növbəti mərhələyə keçmə keçid dövrünün əvvəlki elementinin optimal sonluğunu açan inkişafların tədqiqi yolu ilə əldə edilən məlumatlar əsasında həyata keçirilir. İnstitusional transformasiya prosesində islahat amillərinin üç qrupu iştirak edir:

Çıxış – onlar özlərində texniki tərəqqini, istehsal amilləri ilə təminatda modifikasiyanı, istehlak üstünlüklərinin əvəzləşdirilməsini, xroniki depressiya vəziyyətinə düşməni, mədəni-qiymətli təmayüllərdə yerini dəyişməni birləşdirirlər.

Vasitəçi – müxtəlif siniflərə, cəmiyyətin iqtisadi və sosial qruplarına məxsus olan insanların şəxsi maraqlarının dəyişdirilməsi.

Bilavasitə – müxtəlif ictimai institutlar arasında onların spesifik maraqları ilə; fəal hərəkət etmək, müxtəlif iqtisadi səviyyələrdə (dövlət, siyasi partiyalar, sahibkarların birlikləri, əmək kollektivləri) qərar qəbul etmək bacarığı ilə transformasiya.

İnstitusional transformasiya amillərini iqtisadi və qeyri-iqtisadi səviyyələr kimi təsnifatlandırmaq olar. İqtisadi amillər iqtisadi sistemin daxilində, qeyri-iqtisadi amillər isə xarici əlaqələr vasitəsilə fəaliyyət göstərir.

İnstitusional transformasiyanın strukturu, inkişaf səviyyəsi, onun amillərinin xarakteri dövlətin yaratdığı mühitdən asılı olaraq müxtəlif cür formalaşır. İnstitusional transformasiyanın inkişaf səviyyəsi, amillərinin xarakteri müxtəlif ölkələrdə müxtəlif cürdür. Belə mexanizmlərin fəaliyyəti obyektin özünün – transformasiya olunan iqtisadi sistemin təsirinə məruz qalır. İnstitusional transformasiyanın konkret metodları bir çox vuruqlardan asılıdır:

1) sistemin dəyişiklərə hazırlığı (indiki halda – bazar iqtisadiyyatı zəminlərinin formalaşması və müxtəlif institutların transformasiyasına hazırlıq səviyyəsi);

2) sistemin özünün vəziyyəti (böhransız və ya böhranlı inkişaf);

3) transformasiyanın subyektiv zəminlərinin (iqtisadiyyatın transformasiyasını həyata keçirən sosial və iqtisadi qruplarda real siyasi hakimiyyətin) mövcudluğu;

4) xarici təşkilati-hüquqi mühitin vəziyyəti (qarşıdurma və ya neytralitet mərhələləri).

İNSTİTUSİONAL VAHİD – 1) aktivlərə sahib olmaq, öz üzərinə öhdəlik götürmək, təsərrüfat fəaliyyəti və digər təsərrüfat vahidləri ilə əməliyyatlarla məşğul olmaq hüququna malik olan təsərrüfat vahidi. Hər bir institusional vahid aktivlər və öhdəliklər üzrə balans cədvəlləri də daxil olmaqla, ya təsərrüfat vahidinin uçotunu aparmalı, ya da zəruri hallarda onu aparmaq imkanına malik olmalıdır. İnstitusional vahidin iki növü mövcuddur: a) ev təsərrüfatlarında məşğul olan fiziki şəxslər və ya şəxslər qrupu; b) korporasiyaları, dövlət müəssisələrini və digər təşkilatları təmsil edən hüquqi şəxslər. Vahid-rezidentlər iqtisadiyyatın 5 bölməsini əhatə edir: qeyri-maliyyə və maliyyə korporasiyalarını, dövlət müəssisələrini, ev təsərrüfatlarını, ev təsərrüfatla-

rına xidmət göstərən qeyri-kommersiya təşkilatlarını;
2) milli hesabların tərtib edilməsi üçün istifadə edilən statistik vahid. Ev təsərrüfatları bölməsindən başqa, bütün institusional bölmələrdə institusional vahid statistik vahidlə – "müəssisə" ilə eynidir. İnstitusional vahid iqtisadi qərarların qəbul edilməsi üzrə element sayılır. O, inkişafının və hərəkətinin bərabərliyi, həmçinin öz əsas funksiyalarını yerinə yetirərkən qərarların qəbul edilməsində müstəqilliyi ilə xarakterizə olunur. Vahidə o vaxt institusional vahid kimi baxılır ki, o, öz funksiyalarının yerinə yetirilməsində müstəqil olur, tam mühasibat uçotu və hesabat aparır. Vahidin mühasibat uçotunu tam həcmdə aparması o deməkdir ki, o, hesabat dövrü ərzində bütün iqtisadi və maliyyə əməliyyatları üzrə qeydlər aparır, həmçinin mühasibat balansını tərtib edir;
3) öz adından aktivlərə malik ola bilən, öhdəlik götürə bilən, iqtisadi fəaliyyət və digər vahidlərlə əməliyyatlar həyata keçirə bilən iqtisadi vahid.
İnstitusional vahidlərin əsas xarakteristikası aşağıdakı qaydada müəyyənləşdirilə bilər: a) institusional vahid öz adından əmtəələrə və ya aktivlərə malik ola bilər, beləliklə, o, digər institusional vahidlərlə əməliyyatlarda əmtəə və aktivlərə mülkiyyət hüququnu dəyişdirə bilər; b) o, iqtisadi qərar qəbul edə və özü bilavasitə cavabdehlik daşıdığı iqtisadi fəaliyyətlə məşğul ola bilər və qanun qarşısında hesabat verə bilər; c) o, öz adından maliyyə öhdəliyi götürə, digər öhdəlikləri qəbul edə və sazişlər bağlaya bilər; ç) bu vahid üçün aktivlər və passivlər balansı da daxil olmaqla, tam hesablar dəsti mövcuddur və ya həm iqtisadi, həm də hüquqi nöqteyi-nəzərdən tələb olunduğu zaman onun tam hesablar dəsti tərtib etməsi mümkündür.

İNSTİTUTUN SERTİFİKATI – London Sığortaçılar İttifaqı tərəfindən verilən dəniz sığortası üzrə sertifikat.

İNTEQRASİYA (lat. *integer* – bütöv) – iqtisadi subyektlərin birləşməsi, qarşılıqlı fəaliyyətinin dərinləşməsi, onlar arasında əlaqələrin inkişafı. İqtisadi inteqrasiya ölkələrin milli təsərrüfatlarının səviyyəsində və müəssisələr, firmalar, şirkətlər, korporasiyalar arasında baş verir.
İnteqrasiyanın aşağıdakı növləri fərqləndirilir: şaquli inteqrasiya – son məhsul üçün zəruri olan hissələrin, detalların, dəst məlumatlarının və s. hazırlanmasında ixtisaslaşan bir sahənin və ya xarakterinə görə yaxın sahələrin müəssisələrinin istehsal kooperasiyası; üfüqi inteqrasiya – istehsalı buraxılan məhsulun texnoloji ümumiliyi və ya yekcinsliyi ilə xarakterizə olunan müəssisələrin birliyi; dairəvi inteqrasiya – bir bazarda çıxış edən, lakin öz aralarında rəqabət aparmayan şirkətlərin qovuşması; təşkilatların inteqrasiyası təşkilatın məqsədlərinə nail olmaq üçün müxtəlif bölmələrin səylərinin birləşməsi prosesi; mütərəqqi inteqrasiya firmanın bölgü sisteminə malik olmaq və ya daha sərt nəzarət altına salmaq cəhdlərindən ibarət marketinqə inteqrasiya; tənəzzül edən inteqrasiya – firmanın öz malgöndərənlərinə malik olmaq və ya sərt nəzarət altına salmaq cəhdlərindən ibarət marketinq gedişində inteqrasiya; maliyyə inteqrasiyası – regional qruplaşmalara daxil olan dövlətin daxili və xarici iqtisadi siyasətinin iri koordinasiyası məqsədilə kredit institutlarının fəaliyyəti üzərində mərkəzi emissiya bankları tərəfindən nəzarət sisteminin, vergi sistemlərinin, büdcə təsnifatının, büdcə prosesinin, dövlət xərclərinin ahəngdarlaşdırılması və unifikasiya olunması prosesi; iqtisadi inteqrasiya – milli təsərrüfatların yaxınlaşması və qarşılıqlı uyğunlaşması kapitalların təmərküzləşməsi və culğalaşması ilə, uzlaşdırılmış dövlətlərarası iqtisadi siyasətin aparılması ilə təmin olunur.
İnteqrasiya birliklərinin əsas növləri: a) azad ticarət zonası – bu zaman iştirakçı dövlətlər qarşılıqlı ticarətdə gömrük maneələrinin ləğv edilməsi ilə məhdudlaşır; b) gömrük ittifaqı – bu zaman qruplaşmalar daxilində əmtəə və xidmətlərin sərbəst yerdəyişməsi üçüncü ölkələrə münasibətdə vahid gömrük tarifini tamamlayır; c) ümumi bazar – bu zaman iş qüvvəsinin və kapitalın yerdəyişməsi üçün qarşılıqlı ticarətdə ölkələr arasında maneələr ləğv olunur; ç) iqtisadi ittifaq – bu, bütün yuxarıda sadalanan tədbirləri tamamlamaq üçün iştirakçı dövlətlər tərəfindən vahid iqtisadi siyasətin aparılmasını tələb edir.

İNTEQRASİYA EDİLƏN MARKETİNQ BÖLMƏLƏRİ – marketinq funksiyalarının inteqrasiyasının yüksək səviy-

Cədvəl 1

Rezidentlər tərəfindən patent ərizəsinin verilməsi intensivliyi, 2006-cı il

Ölkə	Rezidentlərin patent ərizələrinin sayı (mln. nəfər)	Rezidentlərin patent ərizələrinin sayı (ÜDM-in hər mlrd. ABŞ dollarına)	Rezidentlərin patent ərizələrinin sayı (ETTKİ-yə çəkilən hər mln. ABŞ dollarına)
Avstraliya	138,25	4,81	0,29
Avstriya	275,61	8,44	0,40
Belarus	122,27	63,91	12,34
Belçika	46,73	1,56	0,09
Braziliya	20,19	3,30	0,52
Bolqarıstan	31,56	3,89	0,87
Kanada	169,61	5,00	0,30
Çin	93,24	23,65	2,44
Xorvatiya	71,43	6,06	0,56
Çexiya	62,73	3,11	0,32
Danimarka	276,87	8,90	0,38
Estoniya	26,84	1,76	0,24
Finlandiya	345,57	11,20	0,35
Fransa	238,03	8,34	0,41
Gürcüstan	53,20	18,16	9,60
Almaniya	582,59	19,41	0,82
Yunanıstan	50,03	1,92	0,35
Macarıstan	71,40	5,61	0,66
İslandiya	150,52	5,66	0,22
Hindistan	4,07	2,12	0,40
İrlandiya	199,08	5,97	0,56
Yaponiya	2720,65	86,53	2,64
Qazaxıstan	93,61	16,62	8,77
Latviya	49,85	4,31	1,23
Litva	19,14	1,33	0,21
Meksika	5,51	0,65	0,18
Niderland	132,43	4,24	0,25
Yeni Zellandiya	521,89	25,60	2,19
Norveç	247,43	5,95	0,41
Polşa	56,60	4,27	0,99
Portuqaliya	17,38	1,00	0,13
Cənubi Koreya	2591,51	121,56	5,60
Rusiya	195,86	32,45	3,38

yəsi ilə xarakterizə olunan böl - mələri. Onlar marketinqə aidiy- yəti olan bütün qərarlara nəza - rət edir.

İNTEQRASİYA OLUNMUŞ İDARƏETMƏ SİSTEMLƏ - Rİ (İİS) – kompüter texnikası vasitələri və müvafiq proqram- lar əsasında qurulur, istehsal prosesinin optimallaşdırılma- sında, əksər texniki problemlə- rin həllində və eyni zamanda

daxili audit şəbəkəsinin təkmilləşdirilməsi məqsədini daşıyır. İstehsal və idarəetmə prosesinə lazım olan bütün mümkün informasiyaları vahid bazada akkumulyasiya edərək idarəetmə sisteminin səmərəliliyini şərtləndirir. İİS sistemində məlumat mübadiləsinin biznes-sistem və Avtomatlaşdırılmış İdarəetmə Sistemləri (AİS) arasında şaquli kəsişmələri vardır.

İNTELLEKTUAL (ƏQLİ) İNVESTİSİYALAR – elmi işləmələrə, tədqiqatlara, sınaqlara, kifayət qədər ixtisaslı kadrların hazırlanmasına, lisenziya və "nau-hau" ötürülməsinə və s. maliyyə qoyuluşları.

İNTELLEKTUAL ƏMƏK – ümumi şəkildə insanın əmtəə və xidmətlər istehsalına yönəlmiş qüvvələrinin (qabiliyyətlərinin) köməyi ilə həyata keçirilən fikri (əqli) proses. İntellektual əməyin nəticələri əsasən (lakin həmişə yox) qeyri-maddi obyektlər, çox vaxt informasiya olur.

İntellektual əməyin mahiyyəti bundan ibarətdir ki, onun nəticələri obyektiv şəkildə ifadə olunur, intellektual mülkiyyət obyektlərində "maddiləşir". Bu spesifikaya görə, həm intellektual əməyin özünü, həm də onun nəticələrini qorumaq və uçotunu aparmaq, intellektual əməyin məhsullarının həyat müddətini və təsərrüfat dövriyyəsini müəyyən etmək xüsusi qaydalarla tənzimlənir. İntellektual əməyin fərqləndirici xüsusiyyəti onun nəticələrinin həyata keçirilməsi deyil, onların spesifikasıdır. Bu prosesdə mühüm fərqlər də vardır. Onların ən əsasları fiziki əməklə müqayisədə keçmiş əməyin nəticələrindən, informasiyadan istifadənin payı daha yüksək olur. Məhz buna görə də intellektual əmək proseslərində, onun məhsuldarlığında bu əməklə məşğul olan insanların öyrədilməsi, onların təhsilinin səviyyəsi və keyfiyyəti, fitri və qazanılmış qabiliyyətləri, ixtisas səviyyəsi və digər oxşar amillər çox mühüm rol oynayır. İntellektual əməkdən daha geniş istifadə edilən üç əsas sfera, üç əsas fəaliyyət növü fərqləndirilir: elm (və onunla həmhüdud sahələr), təhsil və idarəetmə. Lakin bu, heç də o demək deyildir ki, səhiyyə, mədəniyyət və s. sahələr üçün intellektual əmək səciyyəvi deyildir.

Qeyd etmək lazımdır ki, intellektual əmək təsərrüfat baxımından tamamilə tamdəyərli sahədir. Onun nəticələrinə münasibətdə alqı-satqı sövdələri aparıla bilər, həmin nəticələrə yönəldilə bilər, hüquqi və (və ya) fiziki şəxslər yeni yaradılan müəssisələrin (təşkilati qurumların) nizamnamə fonduna sərmayə kimi bu nəticələri təqdim edə bilərlər. Onlardan dəyəri əsas fondların tərkibinə daxil edilə bilər və məsrəflərin tərkibində amortizasiya oluna bilər. Başqa sözlə desək, intellektual əmək mühasibat uçotu qaydalarına görə qeyri-maddi aktivlər adlandırılması qəbul edilmiş özünəməxsus əmlak yaratmağa qadirdir.

Bazar iqtisadiyyatında intellektual əməyin nəticələri qeyri-maddi aktivlər kimi, məsələn, təkcə elmi-texniki sferaya aid müəssisə və təşkilatlar üçün deyil, həm də sənaye istehsalatı və xidmət sahəsi üçün get-gedə daha artıq əhəmiyyət kəsb edir. Qeyri-maddi aktivlərlə vaxtında aparılmış və təshih edilmiş əməliyyatlar müəssisənin iqtisadi simasına ciddi dəyişikliklər edir, əməyin (özü də təkcə intellektual əməyin yox) ödənilməsi sisteminin, müəssisənin ümumi strukturunun və vergitutma bazasının əhəmiyyətli dərəcədə təkmilləşdirilməsinə şərait yaradır, onun öz tərəfdaşları ilə qarşılıqlı münasibətlərinə təsir edir. Bu halda müəssisədə həyata keçirilən intellektual əmək onun həm əsas fəaliyyətinə, həm də əlavə fəaliyyətinə aid ola bilər.

İntellektual əməyin nəticələri (qeyri-maddi obyektlərin uçot vahidi) müəssisənin balansına daxil edilərkən onu qiymətləndirmək lazımdır. Qiymətləndirmənin bir neçə növü qəbul edilmişdir. Onlardan ən əsası aşağıdakılardır: qanuna müvafiq olaraq həyata keçirilən (məsələn, özəlləşdirmə zamanı) məcburi qiymətləndirmə; təşəbbüs – könüllülük əsasında qiymətləndirmə (məsələn, balansda əks etdirilmək üçün); məhkəmə – arbitraj qaydasında (mübahisələr yarandıqda); müqavilə əsasında (məsələn, əmlak hüquqları başqasına verildikdə).

İntellektual əmək məhsullarının alınması üçün çəkilən xərclərə gəldikdə, bu xərclər alış qiymətindən, məsləhətləşmələrin haqqının ödənilməsi, intellektual əmək məhsulları barəsində bu və ya digər hüquqların müdafiəsi ilə bağlı xərclərdən ibarət ola bilər. İntellektual əməyin nəticələrinin dəyərinə həmin nəticələri müəyyən konkret müəssisədə, konkret şəraitdə istifadə edilmək üçün yararlı vəziyyətə çatdırmaqla bağlı xərclər daxil

edilir. İntellektual əmək nəticələrinin müəssisənin özü tərəfindən qiymətləndirmə və uçot üçün hüquqi baza çox müxtəlifdir. İtaliyada, İsveçdə, Yaponiyada tədqiqat və araşdırmalar üçün məsrəflər qeyri-maddi aktivlər kimi uçota alındığı halda, Böyük Britaniyada, Fransada və Kanadada yalnız təcrübə-konstruktor işləri üçün xərclər hesaba alınır. Rusiya praktikasında intellektual əmək nəticələrinin yaradılması və ya əldə edilməsi üçün xərclər "Uzunmüddətli investisiyaların mühasibat uçotu haqqında Əsasnamə"yə müvafiq olaraq "Kapital qoyuluşları" hesabında akkumulyasiya edilir. İntellektual əməyin istifadə üçün hazır olan nəticələri "Qeyri-maddi aktivlər" hesabında qeydə alınır. Onun balans dəyəri intellektual əməyi yaradan (alan) subyektin faktiki məsrəflərinə əsasən təyin edilir.

İntellektual əməyin nəticələrinin təsərrüfat dövriyyəsi prosesində başqa məqamlarla yanaşı, bu nəticələr barəsində hüquqların əldən-ələ keçməsi də nəzərdə tutulur. Bu keçidlər müxtəlif formalarda və müxtəlif hüquqi əsaslarla – lisenziya müqavilələri əsasında, patentlərin alqı-satqısı yolu ilə, hüquqların güzəşt edilməsi barədə müəllif müqavilələrinə əsasən və başqa üsullarla həyata keçirilir.

İNTELLEKTUAL MƏHSUL – zehni, əqli və intellektual fəaliyyətin nəticəsi. İxtira, kəşf, patent, elmi hesabatlar, layihə, texnologiyanın təsviri, ədəbi, bədii, musiqi və incəsənət nümunələrini özündə birləşdirir.

İNTELLEKTUAL MÜLKİYYƏT – şərti ümumiləşdirilmiş



termin. Bədii, ədəbi və elmi əsərlərdən istifadə hüququnu; səs yazdırma, radio və televiziya verilişlərinin müəlliflik hüququnu; elmi kəşflər, ixtiralar, müxtəlif sənaye mülkiyyəti ilə əlaqədar hüquqları; həmçinin ədalətsiz ticarətlə bağlı mübarizə hüquqlarını özündə cəmləşdirir.

İNTENSİV TEXNOLOGİYA – elmi-texniki tərəqqinin nailiyyətlərinin kompleks tətbiqinə əsaslanan və bioloji-iqlim və istehsal-iqtisadi ehtiyatlardan daha dolğun istifadə edilməsinə yönəldilən əkinçilik və heyvandarlıq məhsulları istehsalının üsul və yolları sistemi. Buna istehsal texnologiyası da deyilir. Burada texniki, təşkilati, iqtisadi və sosial məsələlərin elmi tövsiyələrə uyğun kompleks həlli nəzərdə tutulur. İntensiv texnologiyada bütün tədbirlər əlverişli şəkildə əlaqələndirilir. İntensiv texnologiya mahiyyətcə texnika ilə biologiyanın, iqtisadiyyatla onun təşkilinin vəhdəti deməkdir. Bütün amillərin əlverişli əlaqələndirilməsi məhsul alınmasını proqnozlaşdırmağa, onun hava-iqlim şəraitindən asılılığını yüngülləşdirməyə, mövcud ehtiyatlardan səmərəli istifadə etməyə imkan verir. Ona görə də texnoloji intizamın gözlənilməsi tələb olunur və bu, bütün işçilərə yüksək tələblər qoyur.

İNTENSİVLƏŞDİRMƏ – əmək məhsuldarlığının yüksəldilməsi, əsas fondların səmərəliliyi, materiallardan istifadənin yaxşılaşması hesabına resurs potensialından daha tam istifadə etmək yolu ilə istehsalın intensivliyinin artması.

İNTENSİVLİK (lat. *intencio* – gərginlik, güclənmə) – istifadə olunan amillərdən, resurslardan hər birinin səmərəlilik ölçüsü kimi xarakterizə olunan işin, istehsalın gərginliyi, başqa sözlə, yüksək məhsuldarlıq, səmərəlilik.

İNTERNET (ing. *internet*) – tutumlu ixtisaslaşmış informasiya serverlərinə və elektron poçta müraciəti təmin edən qlobal kompüter şəbəkəsi. İnternetə müraciət və servis provayder tərəfindən təmin olunur.

İNTERVENSİYA – 1. Bir subyektin digərinin hərəkətinə iqti-


Cədvəl 1

"Poccuя" Bankının daxili valyuta bazarında intervensiya ilə bağlı bəzi məlumatları

Hesabat dövrü	Rusiya Bankının ABŞ dolları ilə əməliyyatları, milyon ABŞ dolları			Rusiya Bankının avro ilə əməliyyatları, milyon avro ilə		
	Ay üzrə cəmi xalis alışı	Planlı satın almaq	Planlı satış	Ay üzrə cəmi xalis alışı	Planlı satın almaq	Planlı satış
May 2009	18 570,34	0.00	0.00	449,27	0.00	0.00
İyun 2009	1 537,80	0.00	0.00	48,06	0.00	0.00
İyul 2009	-3 093,77	0.00	588,70	-576,72	0.00	213,09
Avqust 2009	-1 156,22	0.00	1 156,22	-177,76	0.00	177,76
Sentyabr 2009	2 650,01	250.00	455,83	-39,12	0.00	39.12
Oktyabr 2009	15 219,81	2 386,58	0.00	484,55	177,68	0.00
Noyabr 2009	7 316,88	2 898,33	0.00	745,14	641,01	0.00
Dekabr 2009	601,79	1 013,57	411,78	240,68	240,68	0.00
Yanvar 2010	1 582,42	1 582,42	0.00	462,50	462,50	0.00
Fevral 2010	6 703,82	2 631,62	0.00	302,03	159,22	0.00
Mart 2010	14 483,51	3 064,99	0.00	442,91	173,81	0.00
Aprel 2010	11 336,70	4 172,65	0.00	411,84	169,65	0.00

sadi təsiridir ki, bu da həmin hərəkətlər sferasına nüfuz edilməsi, ora xüsusi pul vəsaitləri - nin qoyulması və yerləşməsi yolu ilə həyata keçirilir. 2. Milli pul vahidinin məzənnəsinə təsir etmək üçün valyutanın mərkəzi bank tərəfindən alqı-satqısı. İntervensiyanın aşağıdakı növləri fərq - ləndirilir: birja intervensiyası – qiymətli kağızların xeyli miqdarının satın alınması və ya qiymətli kağızların xeyli mi - qdarının satılmasıdır: valyuta intervensiyası – xarici valyutanın alqı-satqısı yolu ilə milli valyutanın məzənnəsinə təsir etmək məqsədilə valyuta

Azərbaycan Mərkəzi Bankının valyuta müdaxiləsi, (mln. dollar)



Qrafik 1

Biz qarşıya məqsəd qoymuşuq ki, məhz 2013-2023-cü illərdə ÜDM-i iki dəfə artıraq. Əlbəttə, nəyin hesabına artıracağıq? Yeni müəssisələrin fəaliyyətə başlaması nəticəsində. Bizim iqtisadi artımımız real sektorun inkişafı hesabına baş verəcəkdir. Belə olan halda elektrik enerjisinə tələbat daha da artacaqdır. Əgər biz ixrac imkanlarımızı da əlavə etsək, – hazırda Azərbaycan demək olar ki, qonşu ölkələrə elektrik enerjisi də ixrac edir – onda generasiya layihələrinə əlavə vəsait qoyulacaqdır və bu, qoyulmalıdır.

Biz bu il böyük elektrik stansiyasının – "Cənub" Elektrik Stansiyasının istifadəyə verilməsini gözləyirik. Bu, 780 meqavat gücündə olan stansiyadır, müasir texnologiyalar əsasında qurulur. Biz Füzuli rayonunda da 25 meqavat gücündə su elektrik stansiyasının açılışını da bu il qeyd edəcəyik. Generasiya ilə paralel olaraq biz paylayıcı xətlərə də investisiya qoymalıyıq.

İlham Əliyev
16.01.2012

bazarında əməliyyatlara mərkəzi bankın müdaxiləsidir; iqtisadi intervensiya – hər hansı bir ölkənin digər ölkənin təsərrüfat həyatına zorakı müdaxiləsidir; əmtəələrin qiymətlərinə və ya valyutanın məzənnəsinə təsir etmək məqsədilə öz ölkəsi daxilində əmtəə və ya pul bazarına dövlətin daxil olmasıdır (əmtəə, valyuta intervensiyası). Bundan əlavə, intervensiyanın aşağıdakı növləri mövcuddur: "intramarginal" intervensiya – əvvəlcədən razılaşdırılmış qarşılıqlı tərəflər hədlərində valyuta məzənnələrini dəstəkləmək üçün Avropa valyuta sistemi ölkələrinin mərkəzi bankları tərəfindən təcrübədən keçən valyuta intervensiyasıdır; "süzgəcdən keçmiş" intervensiya – pul tədavülünə təsir göstərməyən rəsmi valyuta intervensiyaları taktikasıdır; əmtəə intervensiyası – ajiotaj tələbi zəiflətmək və bazar qiymətlərinin kəskin yüksəlməsinə yol verməmək məqsədilə əvvəlcədən hazırlanmış ehtiyatlardan istehlak mallarının kütləvi satışıdır; forvard intervensiyası – nağd hesaba görə sövdələşmələr zamanı öz valyutasının məzənnəsini dəyişmək məqsədilə forvard bazarında mərkəzi bank tərəfindən həyata keçirilən əməliyyatdır.

İNVENTAR KARTOÇKASI – müəyyən olunan formada əsas vəsaitlərin uçotu üçün zəruri olan uçot registrləri. Müəssisəyə əsas vəsaitin yeni obyektinin daxil olması zamanı inventar kartoçkası doldurulur və burada aşağıdakılar göstərilir: obyektin adı, onun qısa xarakteristikası, ilkin dəyəri, daxilolma tarixi, amortizasiya norması və inventar nömrəsi.

İNVENTAR NÖMRƏSİ – hər obyektə müvafiq nömrə verilməsi. O, əsas fondların düzgün istifadəsinin daimi uçotu və ona nəzarətin təşkili üçün zəruridir. İnventar nömrəsi obyektə onun bütün istismar dövrü üçün verilir.

İNVENTAR OBYEKTİ – müəssisənin istismarında olan bütün qurğuları və ləvazimatları ilə predmetlər kompleksi. İnventar obyekti sadə və mürəkkəb olur. Sadə – bir predmetdən ibarət olan obyektdir; mürəkkəb – onun kompleksinə bir neçə predmet aiddir ki, bu da əsas vəsaitlərin tərkibində nəzərə alınır.

İNVENTARLAŞDIRMA (lat. *inventarium* – təsərrüfat əşyaları) – əvvəlcədən müəyyən edilən müddətdə müəssisənin balansında olan material və digər qiymətlilərin bütövlüyünün və düzgün saxlama şərtlərinə riayət edilməsinin yoxlanması. Başqa sözlə, anbar təsərrüfatının inventarlaşma zamanı uçot göstəricilərinə uyğunluğunun yoxlanmasıdır. İnventarlaşma material və digər qiymətlilərin mövcudluğuna nəzarət etməyə, uçotda və maddi məsuliyyət daşıyan şəxslərin işində yoxlama zamanı yaranan səhv və nöqsanları aşkar edib kənarlaşdırmağa, təbii azalmanın kəmiyyətini müəyyən etməyə və ilin əvvəlinə və axırına material və digər qiymətlilərin qalıqları haqqında göstəricilərin uçotunu aparmağa imkan verir. Müəssisədə əsas fondların (vəsaitlərin), pul vəsaitlərinin, mal-material qiymətlilərinin, malgöndərənlərlə sifarişçilər arasında hesablaşmaların, əsaslı tikinti üzrə qeyri-bitkin istehsalda məsrəflərin, gələcək dövrlərin xərclərinin, dəqiq-hesabat sənədlərinin və mühasibat balansının digər maddələrinin inventarlaşması aparılır. Hesabat dövründə inventarlaşmanın həcmi, onun aparılma müddətləri, onların hər birinin aparılması zamanı əmlak və öh-

dəliklərin siyahısı müəssisə, idarə tərəfindən müəyyən edilir. Yoxlama idarəsinin xüsusi dövlət orqanı tərəfindən müəssisənin əmlakının və öhdəliklərinin plandan kənar inventarlaşması aparılır. İnventarlaşmanın aparılması müəssisənin, idarənin əmlakının icarəyə verilməsi, alınması, satışı, mübadiləsi, həmçinin dövlət və ya bələdiyyə idarəsinin yenidən təşkili və ya səhmdar cəmiyyətinə, şirkətə çevrilməsi zamanı mütləq prosedurdur. Əsas fondların inventarlaşması üç, kitabxana fondlarının inventarlaşması isə beş ildə bir dəfə aparılır. İnventarlaşma aşağıdakı hallarda aparılır:


1) oğurluq və ya sui-istifadə faktlarının aşkara çıxması zamanı;
2) məsul şəxslərin təhvil-təslim günü işləri əvəzləşdirməsi zamanı;
3) qiymətlilərə ziyanın vurulması zamanı;
4) müəssisə və ya idarənin ləğvetmə balansının tərtib edilməsinə qədər ləğv olunması; həmçinin qanunvericiliklə nəzərdə tutulan digər hallarda.

İnventarlaşmanın aşağıdakı növləri var:

1) *illik* – illik hesabatın tərtib edilməsindən əvvəl aparılır;
2) *cari* – müəssisə tərəfindən müəyyən edilən müddətdə aparılır;
3) *tam* – müəssisənin bütün tə - sərrüfat vəsaitlərinin tam yoxlanması;
4) *qismən* – təsərrüfat vəsaitləri - nin ayrı-ayrı növlərinə nəzarət;
5) *qəfil (gözlənilmədən)* – xüsu - si idarəetmə orqanları tərəfindən yoxlama zamanı. İnventarlaşma göstəriciləri inventarlaşma siyahısına daxil edilir.


İNVESTİSİYA – gəlir (mən - fəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlə - rinə qoyulan maliyyə vəsaiti, habelə maddi və intellektual sərvətlər. Belə vəsait və sərvətlər aşağıdakılardır: pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar; daşınan və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və başqa maddi sərvətlər); müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər; bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, lakin patentləşdirilməmiş, texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu ("nau-hau"); torpaqdan, sudan və digər ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqdan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn və başqa əmlak hüquqları; başqa sərvətlər.

Azərbaycan Respublikasının iqtisadiyyatına yönəldilən investisiyalar, milyon ABŞ dolları



Qrafik 1

Azərbaycan Respublikasında investisiya mənbələrinin strukturu



Qrafik 2


Əsas fondların yaradılmasına və təkrar istehsalına, habelə maddi istehsalın digər formada inkişafına investisiya yönəldilməsi kapital qoyuluşları şəklində həyata keçirilir.

Təcrübədə aşağıdakılar da fərqləndirilir: bank investisiyası, xarici investisiya, daxili investisiya, dövlət investisiyası, uzunmüddətli investisiya, kapital investisiyası, birbaşa investisiya, xalis investisiya (həmçinin bax: İnvestisiyalar).

İNVESTİSİYA BANKI – xüsusi kredit müəssisəsidir ki, uzunmüddətli ssuda kapitalını səfərbər edir və onu xüsusi şirkətlərə və dövlətə (borc alan qismində) qiymətli kağızların buraxılışı, istiqraz və digər belə vəsaitlərin yerləşdirilməsinin köməyi ilə təqdim edir. İnvestisiya bankı aşağıdakı funksiyaları yerinə yetirməlidir:

1) borc alanın maliyyəyə olan tələbatının xarakter və ölçüsünü

Dünya üzrə investisiyalar, trilyon ABŞ dolları



Qrafik 3

aydınlaşdırmaq;
2) kreditin şərtlərini, qiymətli kağızlar seçimini (səhm, istiqraz, veksel və s.) razılaşdırmaq;
3) hazırkı anda bazarın vəziyyətini nəzərə almaqla qiymətli kağızların buraxılış müddətlərini müəyyən etmək;
4) daha əvvəl buraxılan qiymətli kağızlar üçün təkrar bazar təklif etmək, emissiyanı və investorlar arasında sonradan yerləşdirməni, zərurət olduqda isə təminatlı bank sindikatlarının təşkilini və s. təklif etmək.
İnvestisiya bankları nəinki vasitəçilik funksiyalarını yerinə yetirir, həm də emissiya təminatı və bazarın təşkilatçısı qismində çıxış edir; onlar qiymətli kağız alıcılarına kreditlər təqdim edirlər, onlarla iri səhm paketləri və istiqrazlar öz hesabına alınır və satılır. Bankın resurslarını şəxsi səhmlərin satışı formalaşdırır. İnvestisiya bankları əhalidən birbaşa əmanətlər üzrə ixtisaslaşmırlar. Bununla da onlar digər banklardan fərqlənirlər.

İNVESTİSİYA BAZARI – investisiyanın bütün formalarında investisiya obyektlərinin, həmçinin investisiya resurslarının, xidmətlərin, məhsulların satıcıları və alıcıları arasında formalaşan iqtisadi münasibətlərin məcmusu.

İNVESTİSİYA CANLANMASI – ölkədə və ya xaricdə iqtisadiyyatın hər hansı bir sahəsinə səhmdarların kapital qoyuluşlarının gözlənilmədən fəallaşması. İnvestisiya canlanması səhmdarlar (ilk növbədə xarici) üçün uzunmüddətli sərfəli şərtlərin müəyyən edilməsi üçün zəruridir. Bu da kapital qoyuluşlarının etibarlılığında inamı, həm də ölkədə iqtisadi proseslərin stabilləşməsini təmin edir.

İNVESTİSİYA EDİLƏN KAPİTALA MƏNFƏƏT – müəssisənin aktivlərinin istifadə səmərəsinin mühüm göstəricisi. İnvestisiya kapitalında faizlərlə əks olunur, bir sahə ilə bağlı şirkətin iş nəticələrini müqayisə etməsinə və səhmdara sənayenin müxtəlif sahələrinin gəlirliyini tutuşdurmasına imkan verir. Əksər halda investisiya edilən kapitala mənfəət mənfəətin xalis aktivlərin balans dəyəri ilə tutuşdurulması yolu ilə hesablanır. Bu metoda əsasən, aktivlərin dəyəri aşağı düşür və bazar qiymətinə əsaslanan kapitalın kəmiyyətinin istifadəsi qəbul edilən olur.

İNVESTİSİYA ƏMANƏTİ – pul vəsaitlərinin etibarlılıq dərəcəsi yüksək olan gəlirli dövlət qiymətli kağızlarına sərmayə qoyulmasını nəzərdə tutan əmanət; bu halda yüksək illik faiz dərəcəsi müəyyən edilir; faizlər müddətin sonunda əmanətin məbləğinə əlavə edilir və qoyulmuş məbləğin qaytarılması ilə eyni vaxtda verilir.

İNVESTİSİYA ƏMANƏTİ, ADLI – sahibinin bölünən dövlət və bələdiyyə mülkiyyətinin bir hissəsinə hüququ haqqında dövlət şəhadətnaməsi şəklində rəsmiləşdirilmiş əmanət; səhmdar cəmiyyətlərinin nizamnamə kapitalında hissələrin (səhmlərin, payların) dövlətdən alınması, həmçinin, özəlləşdirilməli olan başqa obyektlərin əldə edilməsi üçün istifadə olunur.

İNVESTİSİYA ƏMƏKDAŞLIĞI – beynəlxalq səviyyədə iqtisadi münasibətlər. Bunlar resursların səmərəli istifadəsi, ölkənin beynəlxalq əmək bölgüsündə iştirakı, iqtisadiyyatda daha yüksək nəticələrə nail olunması, istehsalın texnoloji strukturunun yeniləşməsi və təkmilləşdirilməsi ilə bağlıdır. İnvestisiya əməkdaşlığı üç növ investisiyaları nəzərdə tutur: real (maddi istehsal sahələrinə vəsaitlərin uzunmüddətli qoyuluşu); maliyyə (qiymətli kağızlarla əməliyyatlar da daxil olmaqla, beynəlxalq kredit-maliyyə fəaliyyəti); intellektual (kurslarda ixtisaslı kadrların hazırlanması, lisenziya və "nau-hau", təcrübənin ötürülməsi, birgə elmi işləmələr, sınaqlar və təd - qiqatlar və s.).

İNVESTİSİYA FONDU – səhmdar və ya paylı investisiya fondu formasında yaradılan, vəsaitlərin cəlb edilib mənfəət əldə edilməsi məqsədi ilə investisiya bəyannaməsində nəzərdə tutulmuş qaydada yatırılması ilə məşğul olan maliyyə qurumu.
İnvestisiya fondları öz funksiyalarını xüsusi səhmlər buraxılışının köməyi ilə yerinə yetirir. Bu, potensial investorların vəsait - lərini akkumulyasiya etməyə, sonra isə bu qaydada səfərbər edilmiş pul vəsaitlərini müəssisələrin qiymətli kağızlarına investisiya qoymalarına imkan verir. İnvestisiya fondları sərmayə qoyulmuş kapitala görə mənfəət əldə etmək məqsədilə qiymətli kağızları alır, saxlayır və satır. İnvestisiya fondlarının gəlir mənbələri qiymətli kağızlar üzrə dividendlər və faizlər, bu fondların portfelində olan qiymətli kağızların məzənnə dəyərinin artmasından əldə edilən gəlirlər, eləcə də fondların

peşəkar xidmətlərinə görə investorların ödədiyi haqdan ibarətdir.

Alınmış gəlirlərdən inzibati təsərrüfat xərcləri, eləcə də investisiyalarla bağlı risklər çıxılır, bütün zərərlər səhmdarlar arasında bölüşdürülür. Öz resurslarını cəlb edilmiş vəsaitlər hesabına formalaşdırmağa hüququ olmayan investisiya şirkətlərindən fərqli olaraq, investisiya fondlarının (Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq) öz səhmlərini əhali arasında yerləşdirmək hüququ vardır.

İnvestisiya fondları kapital bazarında çoxsaylı kapital sahiblərinin investisiyalarını birləşdirən kollektiv investorlar kimi çıxış edir. İnvestisiya fondlarının yaranması və inkişafı tarixən əhalinin investisiya fəallığının genişlənməsi və onun qənaət edib yığdığı vəsaitləri dövriyyəyə cəlb etməyin mümkünlüyü, eləcə də xırda səhmdarlara xüsusi xidmət göstərilməsinin zəruriliyi ilə bağlıdır. İnvestisiya fondlarının əsas vəzifəsi maliyyə qoyuluşları risklərini azaltmaq və fərdi investor üçün əlçatmaz olan üsullarla: investisiyaların diversifikasiyası və onların peşəkar menecment əsasında idarə edilməsi yolu ilə fondun səhmdarlarının gəlirlərinin sabitliyini təmin etməkdir. Səhmdarların gəlirlərinin nisbi sabitliyi bəzi obyektlər üzrə gəlirlərin aşağı olmasım və onların zərərlə işləməsini başqa obyektlər üzrə yüksək gəlirlərlə kompensasiya etmək hesabma təmin olunur. Gəlirlərin daha sabit olması üçün investisiya fondları öz kapitallarını daim ən perspektivli müəssisələr və sahələr arasında bölüşdürür, səmərəli maliyyə vasitələrindən istifadə edir. İnvestisiya fondlarının ən geniş yayılmış təşkilati forması səhmdar cəmiyyətidir.

İnvestisiya fondlarının fəaliyyətinin hüquqi tənzimlənməsi investorların hüquqlarının müdafiə edilməsi məqsədilə həyata keçirilir. Qanunvericilikdə bir sıra məhdudiyyətlər tətbiq edilmişdir, məsələn, investisiya fondları öz aktivlərinin 50%-dən çoxunu eyni bir emitentin qiymətli kağızlarına sərmayə qoya bilməz, onlar eyni bir emitentin və ya öz aralarında mülkiyyət münasibətləri ilə bağlı olan bir qrup emitentin səhmlərinin 10%-dən çoxunu və ya onların istiqrazlarının 15%-dən çoxunu ala bilməz. Bu məhdudiyyətlər investisiya qoyulması ilə bağlı riskləri azaltmaq məqsədilə investisiya fondlarının aktivlərinin müəyyən səviyyəsinə zəmanət vermək məqsədi güdür.

Bütün investisiya təsisatlarına aid qanunvericilik normaları investisiya fondlarına da şamil edilir. İnvestisiya fondları yalnız xüsusi lisenziya aldıqdan sonra qiymətli kağızlar bazarında fəaliyyətə başlaya bilər. Azərbaycan Respublikası qanunvericiliyinə görə, investisiya təsisatları qiymətli kağızlar bazarında öz fəaliyyətini "müstəsna fəaliyyət" kimi həyata keçirməlidir. Bu o deməkdir ki, son maliyyə ilində investisiya təsisatının (o cümlədən investisiya fondunun) gəlirlərinin ən azı 50%-i qiymətli kağızlarla bağlı əməliyyatlardan əldə edilməlidir. Əgər bu müddət ərzində gəlirlərin 50%-dən çoxunun mənbəyi başqa əməliyyatlar olarsa, bu halda ya investisiya fondu lisenziyadan məhrum edilir, ya da onun fəaliyyəti dayandırılır.

İNVESTİSİYA FONDUNUN DEPOZİTARI – depozitar fəaliyyətinin həyata keçirilməsi üzrə xüsusi razılığa (lisenziyaya) malik olan qiymətli kağızlar bazarının peşəkar iştirakçısı.

O, fondun müxtəlif qiymətli kağızları və pul vəsaitləri ilə müxtəlif əməliyyatlar aparır. Depozitar həm də investisiya fondunun pul vəsaitlərinin və əmlakının hərəkətinin uçotunu aparır, eləcə də əgər depozitar müqaviləsində bu barədə razılıq əldə edilmişdirsə, digər funksiyaları yerinə yetirir.

Depozitarın idarəçi və səhmdar investisiya fondu ilə qarşılıqlı münasibətləri nəzarət orqanı tərəfindən qəbul edilmiş normativ hüquqi aktların tələblərinə uyğun olaraq onlar arasında bağlanılmış müqavilə ilə tənzimlənir. Depozitar investisiya fondunun aktivlərinin idarə edilməsi ilə bağlı pul hesablarının açılmasını, aparılmasını və pul köçürmələrini həyata keçirir. Depozitar depozit sisteminə daxil olan depozitarların uçotunu aparan və qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olan depozitarda (Mərkəzi Depozitar) müxbir hesabı açа bilər. Mərkəzi Depozitar Azərbaycan Respublikasının Mərkəzi Bankında müxbir hesabı açа bilər. Depozitar tərəfindən pul hesablarının açılması və aparılması, pul köçürmələrinin həyata keçirilməsi qaydaları Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə razılaşdırılmaqla nəzarət orqanı tə-

rəfindən müəyyən edilir. Depozitar investisiya fondunun aktivlərinin uçotunu özünə məxsus olan aktivlərindən və müştərilərinin aktivlərindən ayrı aparır. İnvestisiya fondunun depozitarı, ümumiyyətlə, depozitarların bir növüdür və onlara aid digər əsas hüquqları və vəzifələri həyata keçirir.

İNVESTİSİYA KAPİTALININ GƏLİRLİLİYİ (ing. *Return on invested capital – ROİC*) – əməliyyat fəaliyyətinin həyata keçirilməsində şirkətin menecmentinin investisiya kapitalını idarə etməsinin effektivliyini göstərən meyar. Dividendlər çıxılmaqla şirkətin xalis gəlirinin uzunmüddətli kapitala (adi və imtiyazlı səhmlər, uzunmüddətli borc öhdəlikləri) nisbəti kimi hesablanır. İnvestisiya edilən kapitalın gəlirliyinin şirkətin kapitalının orta ölçülmüş qiyməti ilə müqayisəsi onun istifadəsinin effektivliyini müəyyən etməyə imkan verir.

İNVESTİSİYA KOMİTƏSİ – investisiya şirkətinin ümumi strategiyasının formalaşması üçün cavabdeh olan rəhbərlər və böyük menecerlər qrupu.

İNVESTİSİYA KREDİTİ – bank və başqa maliyyə müəssisələri tərəfindən məxsusi olaraq konkret real investisiya layihələrinin həyata keçirilməsi üçün verilən kredit.

İNVESTİSİYA QƏRARI – maliyyə resurslarının uzun müddətə və əhəmiyyətli risk səviyyəsi ilə yerləşdirilməsi haqqında qərar.

İNVESTİSİYA QİYMƏTLİ KAĞIZI – sərmayə qoyulması vasitəsi kimi dövriyyədə olan, əmlakda və ya müəssisədə payın, iştirakın və ya başqa marağın mövcudluğunu sübuta yetirən, təqdim edən üçün etibarlı sayılan və ya adlı qiymətli kağız növü. Qiymətli kağızın investisiya qiymətli kağızlarına aid edilə bilməsi əlaməti həmin qiymətli kağızın yerinə yetirdiyi funksiyanın xarakteridir. Əgər sənəd fond birjalarında hamı tərəfindən qəbul edilirsə və ya sərmayə qoyulması vasitəsi kimi dövriyyədədirsə, o, investisiya qiymətli kağızı hesab ediləcəkdir. Belə kağızlar dövriyyə sənədləridir.

İNVESTİSİYA LAYİHƏLƏRİNİN MÜQAYİSƏSİ – investor (sərmayədar) üçün iki və ya daha çox investisiya layihələrinin təhlili nəticəsində cəlbedicilik dərəcəsinə görə ranqlara (dərəcələrə) bölünməsi.

İnvestisiya layihələrinin təhlili nəticəsində tədqiqatçı aşağıdakı göstəriciləri müəyyən edir: xalis cari effekt, daxili ödəmə norması, ümumi rentabellik, ödəmə müddəti və s. Potensial investor öz pulunu hansı investisiya layihəsinə qoymasını müəyyənləşdirməkdən ötrü bu investisiya layihələrini yuxarıdakı göstəricilərə əsaslanaraq müqayisə edir. Sorğular göstərir ki, firmaların 98%-i əsas və əlavə kimi, ən azı, bir göstəricini, çoxları isə bir neçəsini əsas tutur. Daxili gəlirlilik norması investorlar arasında daha geniş yayılmışdır. Bu zaman bir cəhət xüsusilə nəzərə alınır: firma nə qədər iri olarsa, tələb olunan göstəricilərin səviyyəsi də bir o qədər yüksək olur.


İNVESTİSİYA LAYİHƏSİ – layihəni onun ideyasından başlamış, verilmiş effektivlik göstəricilərinin əldə olunmasına qədər xarakterizə edən və bir qayda olaraq, onun reallaşdırılmasının investisiyadan əvvəlki, investisiya, istismar və ləğvetmə mərhələlərini əhatə edən sənədlərin məcmusu.

İNVESTİSİYA LAYİHƏSİNİN SƏMƏRƏLİLİYİ – investisiya layihəsinin reallaşdırılmasının nəticələrinin səmərəlilik səviyyəsini xarakterizə edən göstəricilər sistemi. İnvestisiya layihəsinin həyata keçirilməsinin perspektivi xeyli dərəcədə onun hesablama metodlarından asılıdır. Hesablama faiz dərəcəsinin seçilməsi həmişə subyektiv xarakter daşıyır. Bir halda bu kəmiyyət depozitlər və ya qısamüddətli dövlət istiqrazları (QDİ) üzrə itirilmiş imkanlar prinsipinə müvafiq olaraq faiz dərəcəsi, başqa halda firmanın aldığı kreditlər üzrə faiz dərəcəsi (faktiki aidetmə prinsipi) ola bilər və s. Bu cür hesablaşma dərəcəsi xərcin çıxarılması üçün daxili norma adlanır.

İnvestisiya layihəsinin səmərəliliyinin başqa göstəriciləri kimi, xərcin çıxarılmasının daxili normasının müəyyən edilməsi metodikası da investisiya axınlarının və gəlirlərin paylanma xarakterindən asılıdır.

İnvestisiya layihəsinin səmərəliliyinin ikinci göstəricisi onun ümumi rentabelliyidir. Bu kəmiyyət layihənin reallaşdırılmasından əldə edilən xalis cari effektin investisiyalar axınının cari dəyərinə nisbətidir. İnvestisiya layihəsinin səmərəliliyini daha tam qiymətləndirmək üçün məcmu cari balans valyutası göstəricisi hesablanır. Bu göstərici resipiyentin diskontlanan

İnvestisiyaların səmərəliliyinin qiymətləndirilməsinə iki yanaşma



Sxem 1

layihələri üzrə balans valyutala - rının investisiya layihəsinin reallaşdırılma dövrləri üzrə toplanması yolu ilə tapılır.

İNVESTİSİYA MENECMENTİ – həm dövlət və onun əraziləri miqyasında, həm də mövcud və cəlb edilən investisiya resurslarından ən səmərəli şəkildə istifadəsi üçün ayrı-ayrı təsərrüfat subyektləri çərçivəsində investisiya fəaliyyə - tinin idarə olunması.

İNVESTİSİYA MƏSLƏHƏTÇİSİ – investisiya idarəsinin mütəxəssisidir ki, qiymətli ka - ğızların (səhm, veksel, istiqraz) buraxılışı və tədavülü prosesi ilə bağlı məsləhətlər verir.

İNVESTİSİYA NƏZƏRİYƏSİ "BUFERLİ" – investisiya nəzəriyyəsinə görə, enişdə oynayan alverçi həm "öküz" bazarına, həm də "ayı" bazarına sabitləşdirici təsir göstərir.

İNVESTİSİYA ÖZÜNÜMALİYYƏLƏŞDİRMƏSİNİN STRATEGİYASI (*self-financing investment strategy*) – gələcəkdə pul əlavə edilməsini nəzərdə tutmayan, yalnız başlanğıc pul xərclərinin olmasını nəzərdə tutan investisiya strategiyası.

İNVESTİSİYA PAY DƏYƏRİ – xalis aktiv dəyərinin müəyyən tarixə verilən fond paylarının ümumi sayına bölünməsi kimi müəyyən olunur.

İNVESTİSİYA PAYI – adlı qiymətli kağızdır ki, səhmdara onun idarəetmə şirkətinin tələbi ilə pul vəsaitlərinin əldə edilməsinə investisiya payının alışını tələb etmək hüququnu təmin edir. Bu pul vəsaiti alış anına pay investisiya fondunun əmlakının dəyərinə əsaslanaraq müəyyən edilir. Hər investisiya payı öz sahibinə bərabər hüquqları təmin edir. İnvestisiya paylarının buraxılış kəmiyyəti şirkətin müdiriyyəti tərəfindən müəyyən olunur; o, investisiya payının emissiya layihəsini qeydiyyata alır və nəşr etdirir. İnvestisiya payları buraxılış zamanı iki forma ala bilər: sənədli və sənədsiz. İnvestisiya payının yerləşmə müddəti məhdudlaşdırılmır, amma belə qiymətli kağıza nə faizlər, nə də dividentlər hesablanmır. İnvestisiya paymdan törəyən qiymətli kağızların buraxılışı qəti qadağa altındadır.

İNVESTİSİYA PAYLARININ VERİLMƏSİ, ÖDƏNİLMƏSİ VƏ MÜBADİLƏSİ ÜZRƏ AGENT – broker fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaya malik olan hüquqi şəxs. Fəaliyyəti investisiya paylarının mənimsənilməsi, ödənilməsi və

mübadiləsi üçün sifarişlərin qəbulunun təşkilindən ibarətdir. O, tapşırıq müqaviləsi və ya agent müqaviləsi əsasında şirkət rəhbərinin adından və onun hesabına, həmçinin onun verdiyi etibarnamə əsasında fəaliyyət göstərir. Agent haqqında məlumat maliyyə bazarları üzrə müvafiq xidmət tərəfindən aparılan investisiya fondları paylarının reyestrinə salınır.

İNVESTİSİYA PLANI İLƏ ANNUİTET – elə annuitetdir ki, burada sığorta qiymətli kağızlara kapital qoyuluşu ilə birləşir və sığortalanmış, təsbit olunmuş illik gəlir, eləcə də qiymətli kağızlara görə dividend əldə edir.

İNVESTİSİYA PORTFELİ – qiymətli kağızların məcmusudur ki, bura da müxtəlif şirkət - lərin səhmləri, dövlət müəssisələrinin, mərkəzi və yerli hakimiyyət orqanlarının istiqrazları və digər borc öhdəlikləri (əsasən uzun müddətə malik olan) daxil edilir. İnvestisiya portfeli mənfəətin təmin edilməsi, aktivlərin diversifikasiyası zərurəti, müəssisənin likvidliyinin təmin edilməsi nəzərə alınmaqla formalaşır. İnvestisiya portfelinə daxil olan qiymətli kağızlar şəxsi investisiyalara və təkrar likvid ehtiyatlara bölünür. Likvid ehtiyatlar – likvid aktivlər, əsasən, dövlət borc öhdəlikləridir. İnvestisiya portfelinin idarə edilməsinin müəyyən texnologiyası tətbiq olunur. İnvestisiya portfelinin idarə olunmasının ən geniş yayılan qaydası qiymətli kağızların ödəmə müddətlərinin pilləli strukturunun müəyyən olunmasıdır. Burada ödənilən qiymətli kağızların reallaşmasından əldə olunan vəsait daha uzunmüddətli yeni qiymətli kağızların alışına reinvestisiya edilir.

İNVESTİSİYA PROSESİ – investisiya fəaliyyətinin həyata keçirilməsi üzrə təşkilati və iqtisadi xarakterli tədbirlərin məcmusu və ardıcıllığı (bax: cədvəl 1).

İNVESTİSİYA RİSKİ – investisiya layihəsinin həyata keçirilməsi dövründə əlverişsiz şərait və müvafiq nəticələr yaranması ehtimalı.

Qeyri-müəyyənlik – investisiya layihəsinin həyata keçirilməsi şəraiti, həmin layihədə iştirak edən müəssisələrin maliyyə vəziyyəti, investisiya layihəsinin əsas texniki-iqtisadi göstəriciləri barədə yarımçıq və ya dəqiq olmayan informasiyanın xassəsi.

Risklərlə bağlı vəziyyətlər:

1) cari iqtisadi vəziyyətlə bağlı risklər;
2) xarici iqtisadi risk (ticarət məhdudiyyətlərinin tətbiq edilməsi);
3) siyasi vəziyyətin qeyri-müəyyənliyi;
4) bazar konyunkturasının və valyuta məzənnələrinin dəyişməsi;
5) qeyri-müəyyənlik;
6) istehsal-texnoloji risklər.

İnvestisiya risklərinin təsnifatı:

1) proqnozlaşdırıla bilən xarici (bazar, əməliyyat, ekoloji, vergi) risklər;
2) proqnozlaşdırıla bilməyən xarici risklər (təbii fəlakətlər, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi, gözlənilməz xarici effektlər);
3) qeyri-texniki daxili risklər (plan müddətlərinin pozulması);
4) texniki risklər (texnologiyaların dəyişməsi, sənədlərdə yol verilmiş səhvlər, əmək məhsuldarlığı səviyyəsinin azalması);
5) hüquqi risklər (müqavilə öhdəliklərinin yerinə yetirilməməsi, lisenziyalaşdırma, patent hüquqları);
6) sığortalanan risklər (sığortalanmalı olan risklər).

Cədvəl 1

İnvestisiya riskləri

Dəyişmə dərəcəsi	
Dinamik risklər (siyasi şəraitin və bazar şəraitinin dəyişməsi nəticəsində layihənin həyata keçirilməsinin dəyər hədlərində əvvəlcədən nəzərdə tutulmayan dəyişikliklər yaranması ehtimalı)	Statistik risklər (investisiya layihəsinin dəyərinin azalması və onun həyata keçirilməsinin pis təşkil edilməsi nəticəsində itki yaranması ehtimalı)
Zərər və ya gəlir	Zərər

İNVESTİSİYA SAZİŞİ – iri miqyaslı xarici investisiyaların cəlb edilməsi üçün yaradılmış ən səmərəli formalardan biri. İnvestisiya sazişlərinin icrası üzrə xarici investorların işi "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir. İnvestisiya sazişi hökumət ilə xarici şirkət arasında bağlanır. Bir sıra ölkələrdə həmin şirkət xarici investisiyalı kommersiya təşkilatının nizamnamə kapitalına ən azı 10 mln. dollara ekvivalent məbləğdə maya və ölkə iqtisadiyyatının maddi istehsal sahələrinə ən azı 100 mln. dollara ekvivalent məbləğdə sərmayə qoyur. Xarici investor investisiya sazişi bağlamaq üçün investisiya sazişinin layihəsini və müstəqil ekspertizadan keçmiş texniki-iqtisadi əsaslandırma bazasında hesablanmış əsas iqtisadi göstəricilərini təqdim etməlidir. Bundan əlavə, xarici investor investisiya sazişinin həyata keçirilməyə başlaması barədə məlumat verməli, bu halda investisiya layihəsinin həyata keçiriləcəyi bütün müddət üçün işlərin yerinə yetirilməsinin planqrafikini və maliyyə təminatını təqdim etməlidir. İnvestisiya sazişində investisiyaların həcmləri, istiqamətləri və həyata keçirilmə vaxtı; xarici malların nomenklaturası, həcmi, satış vaxtı və satış qaydası; investisiya sazişi pozulduqda tərəflərin məsuliyyəti və sazişin vaxtından əvvəl ləğv edilməsi qaydası müəyyən edilir.

İNVESTİSİYA SERTİFİKATI – 1. Bir səhmdən az olmayan gəliri təmin edən, lakin səhmdar cəmiyyətinin ümumi yığıncağında səs hüquqi verməyən qiymətli kağız. Səhmlərin bölgüsü, ona verilən hüquqların xırdalanması, yalnız dividendlərə, bölünməyən mənfəətə və ləğv edilən qalığa şamil olunan əmlak hüququnun qiymətli kağızların sahibində qalması nəticəsidir. Sertifikat, səhmdən fərqli olaraq, müəyyən minimum gəlirə zəmanət verir. 2. Təsbit olunmuş məbləğin investisiyası kimi sığorta haqqının eyni vaxtda ödənilməsi ilə həyat sığortası polisi. Faizin ödənilməsi razılaşdırılmış dərəcə üzrə aparılır və investisiyalaşma dövrünün sonunda artımla geri qayıdır.

İNVESTİSİYA SFERASI – investisiyaların praktik reallaşdırılmasının həyata keçirildiyi investisiya fəaliyyəti sahəsi. İnvestisiya sferasına aşağıdakılar daxildir: əsaslı tikinti; innovasiya sferası; maliyyə kapitalının dövriyyə sferası.

İNVESTİSİYA SİYASƏTİ – dövlət və ya müəssisələr tərəfindən maliyyə qoyuluşlarının strukturu və ölçülərinin müəyyən edilməsi məqsədilə aparılan siyasət. İnvestisiya siyasəti iqtisadi siyasətin ayrılmaz hissəsini əks etdirir və investisiyaların, gəlir əldəetmə mənbələrinin səmərəli və rasional istifadə istiqamətlərini müəyyənləşdirir, bu zaman əsas fondların təkmilləşdirilmə və onların texniki səviyyəsinin artırılması zərurəti nəzərə alınır.

İNVESTİSİYA SORAQ KİTABÇASI – xüsusi konsaltinq şirkətləri və birjalar tərəfindən müxtəlif növ səhmlərin mənimsənilməsi üzrə nəşr olunan tövsiyələrdir ki, onların da kursu kapital qoyuluşu formasında maraq doğurur. İnvestisiya soraq kitabçası hazırkı zamana kotirovka və kurslarla nəşr olunur.

İNVESTİSİYA ŞƏRAİTİ – müxtəlif risklərlə bağlı səmərəli və davamlı sahibkarlıq fəaliyyəti imkanlarını müəyyən edən iqtisadi, hüquqi, siyasi, təşkilati, sosial və başqa amillərin məcmusu.

İNVESTİSİYA ŞİRKƏTİ – xüsusi qiymətli kağızların və ya öhdəliklərin buraxılışı hesabına xüsusi səhmdarların pul vəsaitlərini toplayan kredit-maliyyə müəssisələri. İnvestisiya şirkəti onları həm öz ölkəsində, həm də xaricdə müəssisələrin istiqraz və səhmlərinə yerləşdirir. İnvestisiya şirkəti korporasiyaların fəaliyyətinə nəzarət etmir (holdinq şirkətlərindən fərqli olaraq). Passivlərin formalaşma üsulundan asılı olaraq, investisiya şirkətləri iki qrupa bölünür:

1. Qapalıtipli investisiya şirkətləri təsbit olunmuş səhmdar kapitalına malikdir, onların səhmləri bazarda qiymətləndirilir və şirkət ləğv olunanda zəifləmir.

2. Açıqtipli investisiya şirkətləri elə kapitala malikdir ki, onlar səhmlərinin sərbəst olaraq alındığından və şirkətlərin özü tərəfindən investisiya şirkətlərinin aktivlərinin cari bazar dəyəri qiymətləri üzrə reallaşdırıldığından daima dəyişir.

İnvestisiya şirkətləri kapital bazarında investor rolunu oynayır. İnvestisiya bankları kimi, onlar da borclu ilə fərdi investor arasında aralıq vəziyyət tutur, amma sonuncunun maraqlarını tam əks etdirməklə fərqlənirlər.

İNVESTİSİYA TƏKLİFİ – bir qayda olaraq, kredit verən təşkilata sərmayə qoyulmasına yönəldilən və investisiya layihəsinin həyata keçirilməsi haqqında qərar qəbul edilməsindən əvvəlki investisiya imkanlarının texniki-iqtisadi tədqiqatlarının nəticəsi olan investisiya sifarişi. İnvestisiya təklifi resipiyent, onun istehsal və maliyyə fəaliyyəti, buraxdığı məhsullar, bazarda vəziyyəti və davranışın strategiyası haqqında ətraflı məlumatları əks etdirən informasiya memorandumu ilə müşayiət olunmalıdır. İnvestisiya təklifi resipiyent tərəfindən hazırlanır.

İNVESTİSİYA TRAST FONDU – qiymətli kağızların saxlayıcısı və əmanətçisi olan maliyyə-kredit müəssisəsi. Bir qayda olaraq, xırda investorların qiymətli kağızlarının etimad əsasında birləşdirilməsi yolu ilə onların pul vəsaitlərini səfərbər etmək məqsədilə yaradılır.

İnvestisiya trast fondu institusional investordur, yəni trastın təsisçilərinin çoxsaylı qiymətli kağızlarını idarə edir. O, konyunktura bələd olduğuna görə qiymətli kağızları müxtəlif şirkətlərin investisiya planlarına sərmayə qoyur. Bu cür sərmayə qoyuluşlarından yaranan gəlirlər və zərərlər tam həcmdə səhmdarların hesabına aid edilir və trast-fondun səhmlərinin bazar qiymətlərində əksini tapır. İnvestisiya trast fondunun ona etibar edilmiş kapitalın məhdud hissəsini (5%-dən 20%-ə qədər) səhmlər alınmasına sərf etmək hüququ vardır.

Göstərilən əməliyyat növləri investisiya trast fondunun müstəsna fəaliyyət növləridir, onun başqa fəaliyyət növləri ilə məşğul olması qadağan edilmişdir.

Bir qayda olaraq, investisiya trast fondunun kreditoru olduğu şirkətin uzunmüddətli inkişaf perspektivlərinə təsir göstərmək və onun idarə olunmasına müdaxilə etmək imkanı olmur. Bu cür məhdudiyyətlər antitrast (antiinhisar) qanunvericilik tədbirləri qisminə aiddir.

Müasir dövrdə investisiya trast fondu dividendlərin təkrar investisiya proqramlarında fəal iştirak edir. Bu halda trast fondun təsisçiləri ilə əvvəlcədən əldə edilmiş razılaşmaya əsasən, onun idarə heyəti kreditoru həmin trast fondu olan şirkət tərəfindən ödənilən dividendlərin müqabilində əlavə səhmlər alır. Beləliklə, fondun etibar edilmiş kapitalı, yəni təsisçilərin mülkiyyəti artır. Xırda səhmsaxlayıcılarının səhmlərinin idarə edilməsi ilə məşğul olan investisiya trast fondu xüsusən ABŞ-da geniş yayılmışdır. ABŞ-ın maliyyə fondları arasında investisiya və pensiya trast fondları mühüm yer tutur. Bu fondlara Nyu York Fond Birjasının iştirakçısı olan şirkətlərin səhmlərinin təqribən 50%-i məxsusdur.

İNVESTİSİYA TRASTI – xırda kapital sahibləri tərəfindən özlərinin birləşdirilmiş kapitalının etimad edilməsi əsasında maliyyə aktivlərinə sərmayə qoymaq məqsədilə yaratdıqları fond; bir qayda olaraq, trastın bütün iştirakçıları üçün sərmayə qoyulan payın konkret minimum məbləği müəyyən edilir. Bu cür trastın yaranması sayəsində resursları cüzi olan əmanətçilər topdansatış maliyyə bazarlarına daxil ola bilirlər.

İNVESTİSİYA VERGİ KREDİTİ – vergilərin ödənilməsi üçün qanunvericilikdə müəyyən edilmiş qaydada və müvafiq şərtlərlə dövlət hakimiyyəti orqanları və ya vergi orqanları tərəfindən verilən möhlətin forması.

İNVESTİSİYA ZƏMANƏTLƏRİ ÜZRƏ ÇOXTƏRƏFLİ AGENTLİK (İZÇA) (ing. *"Multilateral İnvestment Guarantec Agensy", MİGA*) – BMT-nin ixtisaslaşdırılmış maliyyə müəssisəsi, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının (BYİB) törəmə təşkilatı. 1988-ci ildə yaradılmışdır. Üzv dövlətlərin sayı 120 (1995-ci il). BYİB-nin üzvləri bu agentliyin də üzvü ola bilər. Mənzil-qərargahı Vaşinqtonda yerləşir.

Agentliyin rəsmi məqsədi İZÇA-nın üzvü olan ölkələrdə investisiyalara zəmanətlər verilməsi yolu ilə inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına (əsasən istehsal obyektlərinə) uzunmüddətli xarici kapial qoyuluşuna kömək etməkdir. Agentlik investisiyaları qeyri-kommersiya (siyasi) risklərindən: müqavilələrin pozulmasından, valyuta çıxarılmasının qadağan edilməsindən, sosial-siyasi qeyri-sabitliyin nəticələrindən və başqa hallardan sığortalayır.

İZÇA üzv ölkələrə məsləhət, reklam xidmətləri göstərir, infrastrukturun təkmilləşdirilməsində və xarici kapital cəlb edilməsi üçün iqtisadi qərarlar seçimində onlara kömək edir. Agentliyin əsas maliyyə mənbəyi onun nizamnamə kapitalıdır. Agentliyin rəhbər orqanları müdirlər şurası, direktorluq və pre-

zidentdir. İZÇA özünün bülletenini və illik hesabatlarını dərc edir.

İNVESTİSİYADAN İMTİNA – beynəlxalq valyuta-kredit təşkilatı, dövlət, kredit-pul təsisatı, investisiya fondu, kommersiya bankı, digər hüquqi və ya fiziki şəxslər tərəfindən hər hansı investisiya layihəsindən öz əsaslı qoyuluşlarının geri alınması prosesi.

İNVESTİSİYALAR (lat. *investire* – geyindirmək) – iqtisadiyyatın müxtəlif sahələrinə uzunmüddətli kapital qoyuluşu. Başqa sözlə, sənayeyə, kənd təsərrüfatına, nəqliyyata və digər təsərrüfat sahələrinə uzunmüddətli kapital qoyuluşu formasında reallaşan məsrəflərin məcmusu.

Ümumi investisiyalar amortizasiya ayırmalarından və xalis investisiyalardan ibarətdir. Amortizasiya ayırmaları istehsala qoyulmuş kapitalın ödənilməsini əks etdirir. Xalis investisiyalar istehsala əlavə qoyuluşlar hesabına kapitalın artımını əks etdirir. Əgər ümumi investisiyalar amortizasiya ayırmalarından çoxdursa, onda iqtisadi artım üçün daha əlverişli şərait yaranır. Ümumi investisiyalar amortizasiya ayırmalarından azdırsa, onda xalis investisiyalar mənfidir ki, bu da iqtisadi tənəzzülü sübut edir. Ümumi investisiyalar amortizasiya ayırmalarına bərabərdirsə, onda iqtisadiyyatda dəyişiklik yoxdur, iqtisadiyyat ətalət vəziyyətindədir. Əgər istehsalın genişlənməsi üçün xüsusi gəlirlər çatışmırsa, müəssisə əlavə pul vəsaitləri axtarmalıdır. Bunlar investisiya kapitalı adlanır. İnvestisiya kapitalı iki mənbədən: müəssisələrin xüsusi yığımlarından (mənfəət, amortizasiya ayırmaları) və borc yığımlarından (digər müəssisələrin, əhalinin müvəqqəti sərbəst vəsaitləri) formalaşır. Yalnız xüsusi (şəxsi) yığımlar (qənaət) birbaşa investisiyalara çevrilə bilər. İnvestisiya kapitalına çevrilməkdən ötrü özgə yığımlar maliyyə bazarından keçməlidir. Burada vasitəçinin (məsələn, bankın) köməyi ilə yığım sonradan istehsal amillərinin alınmasına istifadə edilməkdən ötrü maliyyə vasitələrinə (istehsal vasitələrinə yox) çevrilir.

İnkişaf etmiş investisiya mexanizmi geniş maliyyə bazarını və onun inkişaf etmiş infrastrukturunu – kredit idarələri sistemini: kommersiya banklarını, trast şirkətlərini, investisiya şirkətlərini və investisiya fondlarını əhatə edir.

İstehsaldan sonrakı investisiyalar – istehsal prosesinə daxil (inteqrasiya) edilməmiş, onun başa çatma mərhələsində qoyulmuş investisiyalar. Bu termindən avadanlıqlara münasibətdə istifadə olunur. Göstərilən investisiyalar əsasən ətraf mühitin mühafizəsi investisiyalarına aid edilir.

İNVESTİSİYALARIN AŞAĞI HƏDDİ – müəyyən iqtisadi layihəyə kapital qoyuluşları üzrə yol verilə bilən minimal gəlir; iqtisadi layihəyə sərmayə qoymağın məqsədəuyğun olmasını təyin edən aşağı hədd.

İNVESTİSİYALARIN DİVERSİFİKASİYASI – müəssisəyə, biznesə müxtəlif istiqamətli uzunmüddətli kapital qoyuluşları.

İNVESTİSİYALARIN RENTABELLİLİYİ – investisiyaların səmərəliliyinin qiymətləndirilməsi üçün qəbul edilmiş göstərici. Müəyyən tarix üçün gətirilmiş gəlirlərin həmin tarix üçün gətirilmiş investisiya xərclərinə nisbəti. İnvestisiyaların hər manatı üçün investorun vəsaitlərinin nə dərəcədə artmasını müəyyən etməyə imkan verir. Əgər diskont normasının müəyyən qiymətində layihənin rentabelliyi vahidə (100%) bərabərdirsə, bu o deməkdir ki, gətirilmiş gəlirlər gətirilmiş investisiya xərclərinə bərabərdir və gətirilmiş xalis diskontlanmış gəlir sıfra bərabərdir. Deməli, diskont norması mənfəətin (gəlirliliyin) daxili normasıdır. Diskont norması öz xərcini çıxarmaq üçün daxili normadan az olduqda rentabellik vahiddən böyükdür. Beləliklə, əgər investisiyaların rentabelliyi 100%-dən çoxdursa, bu o deməkdir ki, faiz dərəcəsinin həmin qiymətində layihənin müəyyən əlavə gəliri təmin edilir. İnvestisiyaların rentabellik göstəricisi (mənfəətlilik, gəlirlik indeksi) əvvəllər istifadə edilən kapital qoyuluşlarının effektivlik əmsalından (öz xərcini çıxarmaq müddətinin tərs kəmiyyəti) onunla fərqlənir ki, bu halda gəlir dedikdə qiymətləndirmə prosesində cari dəyərə çevrilmiş pul axını başa düşülür. Bu indeks təkcə müqayisəli qiymət kimi deyil, həm də layihəni reallaşdırılmaq üçün qəbul etdikdə mühüm meyar kimi tətbiq edilir. Layihələrin investisiya rentabelliyi göstəricisinə görə gəlirliyinin və investisiya dəyərinin müqayisəli qiymətləndirilməsi göstərir ki,

gəlir ilə investisiya dəyəri arasında fərqin mütləq qiyməti artdıqda rentabellik də artır və əksinə. Əgər mənfəət indeksinin qiyməti vahiddən kiçik və ya vahidə bərabərdirsə, bu layihə qəbul edilməməlidir, çünki o, əlavə mənfəət gətirmir. Gəlir və investisiya dəyəri sıfra bərabər olduqda, bu indeks həmişə vahidə bərabər olacaqdır.

Buna görə də layihənin həyata keçirilməsinin məqsədəuyğun olub-olmaması barədə qərar qəbul edilərkən bu göstəricilərin birindən, müqayisəli qiymətləndirmə halında isə hər ikisindən istifadə edilə bilər. Çünki onlar layihəni müxtəlif cəhətlərdən qiymətləndirməyə imkan verir.

İNVESTİSİYALARIN SIĞORTALANMASI – mənfəət əldə edilməsi ilə əlaqədar investisiyaların, yəni sahibkarlıq və maliyyə investisiyalarının sığortalanması.

İNVESTİSİYALAŞMA (kapital qoyma) – kapital qoyuluşu və investisiyaların reallaşması üzrə zəruri hərəkətlər kompleksi. İnvestisiyalaşma əsas fondların yaradılması və işlənməsi məqsədilə kapital qoyuluşu formasında həyata keçirilir.

İnvestisiyalaşma birbaşa və formul üzrə ola bilər.

Birbaşa investisiyalaşma – digər ölkədə şəxsi müəssisənin açılışı üçün pul vəsaitlərinin qoyulması.

Formul üzrə investisiyalaşma – fond bazarında qiymətli kağızlara kapital qoyuluşudur ki, təsbit olunmuş meyarların istifadəsi ilə müəyyən olunur.

İNVESTOR (ing. *investor* – əmanətçi) – investisiyanı həyata keçirən fiziki və ya hüquqi şəxs, başqa sözlə, qiymətli kağızları əldə edən şəxs. İnvestor qiymətli kağızları öz mülkiyyətinə çevirmiş şəxs.

İnvestor kapital qoyuluşu riskini minimuma endirmək və onların yüksək gəlirliliyini təmin etmək maraqlarını rəhbər tutaraq qiymətli kağızları alır. Nisbətən yüksək risk dərəcəsi zamanı qiymətli kağızların yüksək gəlirliliyinə üstünlük verən alıcılar aqressiv investorlar adlanır. İnvestisiya layihələrinin reallaşması da büdcədən maliyyələşdirən dövlət, dövlətin subyektləri, peşəkar və institusional investorlar adlanan maliyyə-kredit idarələri investor ola bilər. İnvestorlar, bir qayda olaraq, vergi və digər güzəştlərdən istifadə edir.

İNZİBATÇI – bankın Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin üzvləri, habelə bankın baş mühasibi (mühasibat xidmətinin rəhbəri), daxili audit bölməsinin əməkdaşları, bank filialının, şöbəsinin və nümayəndəliyinin rəhbərləri, baş mühasibləri.

İNZİBATİ HÜQUQ – hüquqi normalar kompleksini özündə cəmləyən hüquq sahəsidir ki, icra-sərəncamverici fəaliyyət, başqa sözlə, dövlət idarəetmə prosesində cəmiyyətdə yaranan münasibətləri tənzimləyir. İnzibati hüquq normaları ilə dövlət idarəetmə aparatının təşkili və fəaliyyət qaydası, inzibati məcburi tədbirlərin tətbiqi qaydası, idarəetmə, hüquq orqanlarının səlahiyyəti və vəzifəli şəxslərin öhdəlikləri müəyyən olunur.

İNZİBATİ İNFLYASİYA – "inzibati" (idarə olunan) qiymətlərin doğurduğu inflyasiya.

İNZİBATİ-AMİRLİK SİSTEMİ – iqtisadiyyatın idarə edilməsində və planlaşdırılmasında sərt inzibatçılığa üstünlük verilən, təsərrüfat subyektlərinin hüquqları məhdudlaşdırılılan iqtisadi sistem. Əvvələr keçmiş SSRİ-də, Şərqi Avropa ölkələrində, hazırda isə Kubada və bir sıra Asiya dövlətlərində fəaliyyət göstərir.

İPOTEKA (yun. *hypotheke* – girov) – ipoteka krediti adlanan kreditin alınması məqsədilə torpağın və ya digər daşınmaz əmlakın girova qoyulması. İpoteka öhdəliyin icrasının təmin edilməsi üsulu olaraq daşınmaz əşyaların və rəsmi reyestrdə üzərində mülkiyyət hüquqları qeydə alınan daşınar əşyaların girovudur. İpoteka kreditləşməsinin əsas üstünlüyü vergi obyekti kimi daşınmaz əmlakın yüksək qiymətidir ki, bunun sabit qiyməti, bir qayda olaraq, yüksəlməyə doğru meyil edir. Daşınmaz əmlakın fiziki sabitliyi girov verənin girov obyektinə sahiblik etməsinə və istifadədə qalmasına imkan verir.

İpoteka girov qanunvericiliyində birinci dərəcəli əhəmiyyətə malikdir. Onun əsasında daşınmaz əmlakın dəqiq qeydiyyat sistemi, eləcə də daşınmaz əmlak üzərində girov hüququnun yaranmasının və dayandırılmasının ciddi hüquqi tərtib olunması durur. Ümummilli qeydiyyat sisteminin əsasını torpaq kitabı və daşınmaz əmlakın dövriyyəsinin qeydiyyatı sistemi təşkil edir. İpotekanın tərtib edilməsi zamanı daşınmaz əmlakın qeydiyyatı girov kağızı kimi daşınmaz əmlak üzərində vergi hüququnun yaranması və

Cədvəl 1

Azərbaycan Respublikasında ipoteka kreditləri haqqında məlumat

Tarix	Dövlət büdcəsindən AİF-ə ayrılmış vəsait	Banklar tərəfindən verilmiş ipoteka kreditləri	AİF tərəfindən yenidən maliyyələşdirilmiş ipoteka kreditləri	AİF-in yerləşdirilmiş istiqrazlarının həcmi	MKT-lər tərəfindən verilən məbləğ, AZN	Kreditin müddəti (ay)	Faiz dərəcəsi	Aylıq ödəniş, AZN
2010								
01	0.0	4.1	5.3	0.0	40302.7	260.7	6.79	303.9
02	0.0	10.5	15.5	9.0	40332.9	261.3	6.80	304.6
03	3.0	19.9	22.1	12.0	40349.5	262.7	6.81	304.5
04	4.0	32.2	30.8	23.0	40326.6	264.3	6.81	304.0
05	5.0	42.9	39.0	38.0	40296.9	265.6	6.81	303.4
06	0.0	53.0	45.8	0.0	40227.2	266.6	6.82	302.8
07	0.0	61.9	51.3	49.0	40209.0	267.1	6.84	307.4
08	7.0	68.5	59.4	54.0	40133.5	267.4	6.85	306.7
09	9.3	74.6	66.1	59.0	40096.3	267.8	6.87	306.5
10	10.8	81.9	73.8	62.0	40057.2	268.2	6.89	306.3
11	12.0	88.0	81.3	70.0	40033.7	268.4	6.91	306.7
12	14.0	96.9	90.5	75.0	40025.5	268.0	6.93	306.7
2011								
01	0.0	3.4	5.2	13.0	39991.1	269.0	6.94	306.0
02	0.8	8.8	11.1	16.0	39810.5	268.7	6.93	305.9
03	2.6	17.2	15.2	19.0	39728.8	268.9	6.94	305.3
04	3.6	26.4	21.1	22.0	39635.3	269.4	6.93	303.8
05	4.6	35.8	28.8	38.0	39546.0	269.8	6.92	302.8
06	5.6	43.8	33.4	41.0	39438.5	269.9	6.91	302.1
07	6.9	50.2	38.3	44.0	39405.7	270.0	6.91	301.8
08	14.2	61.3	44.3	47.0	39382.8	270.0	6.91	301.7
09	15.4	72.9	52.6	60.0	39379.9	270.1	6.91	301.6
10	16.7	74.4	59.9	66.0	39379.2	270.0	6.90	301.5
11	17.9	85.9	67.9	74.0	39378.9	270.0	6.90	301.5
12	20.0	95.5	77.0	77.0	39378.2	270.0	6.91	301.4
2012								
01	0.0	2.1	4.7	0.0	39377.9	270.0	6.90	301.4
02	0.0	8.0	12.7	3.0	39377.3	270.0	6.90	301.4

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu (AİF)

dayandırılmasının hüquqi təsbit olunması ilə müşayiət olunur.
Kreditləşmənin əsas növlərindən biri kənd təsərrüfatı ipotekası və mənzil sferasında ipoteka kreditləşməsidir. Kənd təsərrüfatı ipotekası kənd təsərrüfatı torpaqlarının fermer və digər torpaq sahələrinin girov kimi kreditləşməsidir. Bu kreditləşmə uzunmüddətli kreditlər vasitəsilə xüsusi ipoteka bankları sistemi ilə həyata keçirilir. Girov kimi faiz dərəcələri torpağın dəyərliliyindən, borclunun vəziyyətindən və risk dərəcəsindən asılı olaraq diferensiallaşır. İnkişaf etmiş ölkələrdə mənzil sferasında ipoteka kreditləşməsi sisteminə yardım dövlətin sosial siyasətinin mühüm istiqamətlərindən birinə çevrilmişdir.
Birinci serviser – ipoteka mənzil kreditləşməsinə münasibətdə ilkin serviser borcalanlardan aylıq ödənişlərin yığılmasına, yığılmış vəsaitlərin kreditlər üzrə tələb etmə hüquqlarına malik olan şəxsə və ya onun nümayəndəsinə verilməsinə, vergi və sığorta ödənişləri üçün təminedici (*escrow*) hesabların saxlanılmasına, vaxtı keçmiş ödənişlərin yığılmasına, itkilərin məhdudlaşdırılmasına yönəldilmiş tədbirlərin görülməsinə, tələb olunduqda girov qoyulmuş əmlaka qarşı cərimə yönəltmək prosedurunun başlanılmasına və aparılmasına, həmçinin kredit üzrə hüquqların sahibinə və ya onun nümayəndəsinə öz fəaliyyəti və kreditin vəziyyəti barədə mütəmadi hesabatların təqdim olunmasına cavabdeh olan şəxsdir.
Girovun predmeti, bir qayda olaraq, artıq tikilmiş ev (mənzil) ola bilər. Belə ki, girov predmetinin mövcudluğu vacibdir. Mənzil ipoteka krediti uzun müddətə (30 ilə qədər) verilir. Bu müddət ərzində borc alan kreditin ödənilməsi üçün aylıq ödənişi mütləq keçirməlidir, əks halda cərimə daşınmaz əmlaka yönəldilə bilər. İpoteka kreditləşməsinin mənbəyi banklar tərəfindən buraxılan və daşınmaz əmlakla təmin olunan ipoteka istiqrazları və digər qiymətli kağızlardır (bax: cədvəl 1).
İPOTEKA BANKI (ing. *mortgage bank*) – daşınmaz əmlakın girovu kimi uzunmüddətli ssudalar verən ixtisaslaşmış bank. Ssudalara görə dərəcələr borcalanın maliyyə vəziyyətindən asılıdır; borcun vaxtında qaytarılmaması əmlakın itirilməsinə səbəb olur. İpoteka krediti, ipotekaların yenidən satışı, müxtəlif texniki xidmətlər üzrə ixtisaslaşan qeyri-depozit institutudur. İnvestor tərəfindən yenidən satış üçün ipoteka mənbəyidir; daşınmaz əmlakın girovu ilə təmin olunan girov kağızı buraxır (bax: cədvəl 1).
İPOTEKA BAZARI – daşınmaz əmlakın girov qoyulması nəticəsində verilən ssuda kapitalı bazarının bir hissəsi. Onlara dövlət və özəl maliyyə-kredit təşkilatları, sığorta şirkətləri, ssuda əmanət assosiasiyaları, ipoteka, kommersiya və əmanət bankları aiddir. Bir çox ölkələrdə alət kimi ticarət-sənaye şirkətləri tərəfindən buraxılan ipoteka istiqrazlarından istifadə olunur. Bu istiqrazlar isə maliyyə-kredit qurumları tərəfindən alınır.
İPOTEKA FONDU (AİF) – Azərbaycan Respublikasında əhalinin yaşayış şəraitini yaxşılaşdırmaq, mənzil tikintisinin səmərəli maliyyələşdirmə mexanizmini yaratmaq, bu sahədə formalaşan təklifin alıcılıq qabiliyyətli real tələbə uyğunlaşmasını təmin etmək və ipoteka kreditləşməsinə yerli və xarici investorları cəlb etmək məqsədi ilə 2005-ci ildə Azərbaycan Respublikasının Milli Bankı nəzdində təsis olunmuş fond. AİF fəaliyyətini "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununa istinadən qurur və fonda rəhbərliyi icraçı direk-

Bakı şəhərində mənzilin 1 kv metrinin qiyməti (ABŞ dolları)



Mənbə: www.mbagroup.az

Qrafik 1

Cədvəl 1

Dünya mənzil bazarının paytaxt və maliyyə mərkəzlərində 1 kv metrin qiyməti və əsas investisiya göstəriciləri, ABŞ dolları ilə (70 ölkə)

	Ölkə	Qiyməti S/kv.m	Ümumi kirayə gəlirliyi	Kirayə gəlirində tutulan vergi	Alqı-satqı zamanı alıcı tərəfindən çəkilən xərclər	Alqı-satqı zamanı satıcı tərəfindən çəkilən xərclər	Kapital yığımından tutulan vergi
1	Monako	59814	1,48%	0,00%	12,62%-13,62%	6,00%	0,00%
2	Böyük Britaniya	23358	3,48%	0,00%	0,54%-5,15%	2,35-4,11%	18,00%
3	Rusiya	18487	3,45%	30,00%	2,71%-7,50%	18,00%	30,00%
4	Honkonq	16422	3,25%	12,20%	1,75%-6,75%	0,05-1,05%	0,00%
5	Fransa	16015	3,85%	5,80%	8,67%-13,37%	2,39-5,98%	16,00%
6	Yaponiya	12884	5,75%	3,40%	5,76%-9%	0,00%	15%-30%
7	ABŞ	12029	3,75%	10,00%	1,05%-2,20%	6,51-9%	0-20%
8	İsveçrə	11974	4,11%	48,60%	0,25%-3,55%	3,23-5,38%	0%
9	Hindistan	10265	3,67%	8,11-19,3%	6,24%-14,49%	1,24-2,49%	0%-30%
10	Yunanıstan	8410	2,48%	2,80%	10,14%-16,01%	1,3-3,00%	0%-20%
11	Finlandiya	8229	4,42%	23,80%	4,05%-4,10%	3,66-6,10%	0%-28%
12	Kanada	7538	4,51%	14,90%	1,0%-3,0%	3,68%-8,42%	15%-29%
13	İrlandiya	7279	m/y	10,10%	3,19%-10,11%	1,50-3,00%	15%-20%
14	İtaliya	7163	5,04%	23%	7,60%-18,50%	2,40-3,60%	0%-33,00%
15	İspaniya	7036	3,81%	24,00%	8,16%-11,24%	2,50-3,00%	0%-18%
16	İsrail	7020	5,06%	7,50%	9,57%	9,57%	0,00%
17	Avstraliya	6960	4,11%	11,63%	1,76%-9,35%	2,00%-11,87%	29%-45%
18	Niderland	6070	6,63%	30%	9,33%-11,36%	1,19%-2,38%	0,00%
19	Danimarka	5794	4,42%	5,48%-15%	0,81%-1,04%	0,5%-2,00%	5,48%-15%
20	Çin	5449	3,24%	5%	3,81%-11,6%	1,05%-2,05%	0,00%
21	Çexiya	5081	3,89%	5,30%	3,7-6,21%	3%	0,00%-15%
22	Sloveniya	4915	4,93%	15%	2,42-3,3%	4,4%	0-20%
23	Polşa	4788	4,88%	17,4%	5,55% - 9,93%	0%	0% -10,00%
24	BƏƏ	4169	5,37%	0,00%	1,01%-1,05%	2-6%	0,00%
25	Almaniya	3964	5,12%	15,80%	6,09%-9,07%	1,79%-3,57%	0%-45,00%
26	Portuqaliya	3916	3,63%	13,20%	2,00%-10,00%	3,63%-6,05%	25%
27	Slovakiya	3810	4,70%	9,3%-13,6%	2,01%-5,50%	0%	0%-19%
28	Y.Zelandiya	3748	6,07%	1,70%	0,21%-0,74%	4,04%-5,00%	0,00%
29	Kipr	3710	3,21%	0%-19,5%	3,3-9,2%	5%	20,00%
30	Belçika	3573	5,78%	11,60%	10,90%-18,10%	3%-4%	0%-16,5%
31	Cənubi Afrika	3419	4,97%	7,20%	0,35%-15,8%	8,55%	18%-40%

32	Rumıniya	3411	5,50%	12,00%	1,06% - 1,07%	3%	0,00%
33	Latviya	3251	4,04%	0%	2,5%	2-5%	25%
34	Türkiyə	3222	6,10%	14,60%	4,60%-5,50%	5,25%	0,00%
35	Xorvatiya	2993	5,22%	10,50%	9,89%-14,20%	3,66%-7,32%	0%-25%
36	Estoniya	2930	3,29%	21,00%	2,57%-5,45%	0,00%	21,00%
37	Litva	2733	4,03%	15,00%	0,53%-1,50%	1,77%-3,54%	15%
38	Bolqarıstan	2375	4,16%	10,00%	23,45%-25,1%	1,25-1,50%	10,00%
39	Braziliya	2277	8,09%	25%	6,59%	5,04%	0-25%
40	Macarıstan	2033	8,11%	18,70%	2,61%-7,85%	3,6%-6%	25,00%
41	Mərakeş	1994	6,49%	12,90%	8,60%-13,50%	0,00%	20,00%
42	Argentina	1994	6,67%	21%	4,63%-6,85%	1,50%	0,00%
43	Meksika	1830	7,65%	25%	3,81%-11,6%	1,05%-2,05%	25%
44	Azərbaycan	1757*	6,5%	14%	1 %-2%	1%-2%	0,00%
45	Panama	1549	10,10%	0%-27,00%	2,00%	5,00%-7,00%	5-10,00%
46	Malayziya	1546	8,76%	28%	1,40%-4,00%	2,00%-2,75%	0,00%
47	Çili	1486	8,32%	35,00%	3,3%-4,9%	2,00%	0,00%
48	İndoneziya	1381	11,38%	20,00%	20,50%-22,50%	5,00%	20,00%
49	Moldova	1377	14,17%	10,00%	0,60%-2,00%	20,00%	0,00%
50	Nikaraqua	1187	7,81%	14%	6,50%-11,50%	4,00%	20,00%
51	İordaniya	1157	8,51%	10,00%	8,92%	6,32%	0,00%
52	Misir	916	7,04%	10,00%	3,10%-4,00%	7,75%-8,30%	0,00%

www.globalpropertyguide.com – 20.11.2010-cu il tarixə olan məlumatlar

*-Bakı şəhərində I-ci zonada olan qiymətlər, MBA Qrup

tor həyata keçirir. Dövlət təsisatlı, hüquqi şəxs kimi AİF əhaliyə birbaşa ipoteka kreditlərinin verilməsi ilə məşğul olmur. Bu missiyanı AMB tərəfindən seçilmiş müvəkkil kredit təşkilatları həyata keçirirlər. AİF-in vəsaitlərini Azərbaycan Respublikasının dövlət büdcəsindən ayırmalar, fəaliyyətindən əldə olunan daxilolmalar, o cümlədən verilmiş kreditlər üzrə əsas borc və faiz ödənişləri, özü tərəfindən emissiya olunan qiymətli kağızların yerləşdirilməsindən əldə edilən vəsaitlər, ona verilən xarici kreditlər, yardımlar, qrantlar və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına formalaşır. Kredit Azərbaycan manatı ilə – 4-8 faiz dərəcəsi arası verilir. Kreditlər Azərbaycan Respublikasının vətəndaşlarına verilir və ipoteka predmeti yalnız mənzil və ya fərdi yaşayış evi təyin edilir. Kreditin məbləği kreditin verildiyi tarixə ipoteka ilə yüklü edilən daşınmaz əmlakın bazar qiymətinin 85%-dən çox, ipoteka kreditləri üzrə ödəniləcək aylıq məbləğ borcalanın (borcalanların) aylıq məcmu gəlirinin 70%-dən çox olmamalıdır. AİF fəaliyyətini təkrar ipoteka bazarının formalaşdırılması, ilkin ipoteka bazarının təkmilləşdirilməsi və özünün institusional inkişafının davam etdirilməsi istiqamətində qurur. Fond strateji məqsədlərinə nail olmaq üçün ipoteka kreditləşməsi mexaniz-

Cədvəl 1

Avropa ipoteka bazarının icmalı, tipik ipoteka faiz dərəcəsi, faizlə

	I 2008	II 2008	III 2008	IV 2008	I 2009	II 2009	III 2009	IV 2009	I 2010	II 2010	III 2010	IV 2010
Belçika	4,88	4,85	5,26	4,99	4,52	4,49	4,62	4,43	4,32	4,03	3,90	3,82
Danimarka	4,56	5,36	5,03	4,64	3,17	2,31	1,64	1,74	1,25	1,10	1,36	1,40
Almaniya	4,89	5,06	5,17	4,83	4,40	4,39	4,37	4,29	4,09	3,89	3,65	3,70
Yunanıstan	5,36	5,40	4,18	3,54	4,18	3,54	3,24	3,12	3,11	3,31	3,58	3,68
Fransa	4,70	4,70	5,00	5,20	4,80	4,40	4,40	4,70	4,40	4,40	3,90	4,00
Estoniya	5,34	5,39	5,93	5,89	4,22	3,14	2,78	2,52	2,44	2,33	2,44	2,54
İrlandiya	5,00	5,23	5,58	4,33	3,23	2,68	2,62	2,61	2,77	2,83	2,96	3,01
İtaliya	5,35	5,54	5,52	4,91	3,66	2,85	2,33	2,24	2,22	2,24	2,39	2,52
Niderland	5,38	5,50	5,70	5,71	4,21	3,63	3,87	3,88	3,78	3,65	3,62	3,55
Polşa	6,51	7,80	8,40	8,70	7,30	7,20	7,30	7,10	6,80	6,70	6,30	6,10
Portuqaliya	5,10	5,42	5,69	5,50	3,02	2,54	2,29	2,22	2,20	2,25	2,65	2,96
İsveç	5,07	5,34	6,07	3,64	2,16	1,94	1,60	1,44	1,41	1,71	2,23	2,78
B.Krallıq	5,89	5,80	6,04	5,52	4,39	4,32	4,36	4,09	3,82	3,78	3,77	3,63

Mənbə: www.hypo.org

minin bazar şərtlərinə mərhələli uyğunlaşdırılmasını təmin edir, dövlətin maliyyə vəsaitlərindən asılılığı azaltmaq istiqamətində digər mənbələrdən maliyyə vəsaitlərinin cəlb olunması işini həyata keçirir.

İPOTEKA GİROVU – bu, daşınmaz əmlakın girovudur. İpotekanın obyekti binalar, qurğular, avadanlıqlar və s. ola bilər. İpoteka üçün aşağıdakı xüsusiyyətlər səciyyəvidir:

1) əmlakın borcluda olması;

2) ipoteka predmetinin istifadəsi zamanı əldə olunan gəlirə borclunun sərbəst olaraq sərəncam verməsi;

3) girov verənin əlavə ipoteka ssudalarının eyni əmlakını girov altında almaq hüququ.

Əhaliyə (hüquqi və fiziki şəxslərə) girov altında uzunmüddətli ssudaların verilməsi zamanı, adətən, ipoteka təcrübəsini tətbiq edirlər. İpoteka kreditinin verilməsi zamanı girovun dəyərinin qiymətləndirilməsinin düzgün aparılması zəruri şərtdir. Girovun qiymətləndirmə uğuru qiymətləndirməni aparanın səlahiyyətindən, təcrübəsindən və digər bacarıqlarından asılıdır. (bax: cədvəl 1)

İPOTEKA HÜQUQU – borclu əsas öhdəliyi icra etmədikdə ipoteka saxlayanın ipoteka predmetinə tutmanın yönəldilməsi hüququ.

İPOTEKA KAĞIZI – ipoteka hüququnu təsbit edən adlı qiymətli kağız.

İPOTEKA KAĞIZININ QANUNİ SAHİBİ – ipoteka kağızı üzərində sahiblik hüququ əldə edən şəxs.

İPOTEKA KREDİTİ – əmlakın girov qoyulması əsasında verilən kredit. Kredit verənlərin mənafeyini təmin etmək məqsədilə girov qoyulmuş əmlakın, alınmış borc ödənilənə qədər, satılması qadağan olunur və bu haqda ipoteka kitabında qeydiyyat aparılır. Alınmış borc və onun faizi vaxtında ödənilməzsə, girov qoyulmuş əmlak üzərində mülkiyyət hüququ kreditora keçir.

İPOTEKA KREDİTİ ÜZRƏ BORC – daşınmaz əmlak, torpaq girov qoyulmaqla götürülmüş ssudanın qaytarılması üzrə borc.

Torpaq və ya daşınmaz əmlak girov qoyulmaqla verilmiş ssudalar yaxşı təmin edilmiş hesab olunur. Borclu ssudanı ödəmədiyi halda kreditor daşınmaz

Cədvəl 2

Avropada verilmiş ipoteka kreditləri (mln. EUR)

	IV 2009	I 2010	II 2010	III 2010	IV 2010	I 2011	Sonuncu ilin dəyişiklik, % (I rüb 2011)	Ötən ilin dəyişikliyi, % (IV rüb 2010)
Belçika	145,2	147,8	150,6	153,6	157,9	m/y	m/y	8,8
Danimarka	230,1	230,9	232,5	234,0	235,2	234,5	1,6	2,2
Almaniya	1147,0	1142,7	1143,2	1148,9	1152,2	1151,1	0,7	0,5
Yunanıstan	80,6	81,2	81,4	81,1	80,4	79,7	-1,8	-0,2
Fransa	737,6	745,0	756,5	773,3	796,6	808,4	8,5	8,0
Estoniya	678,9	679,1	680,8	679,0	680,1	674,8	-0,6	0,2
İrlandiya	147,9	146,8	144,2	143,3	135,8	134,0	-8,7	-8,2
Niderland	613,9	613,5	618,0	622,2	629,2	632,3	3,1	2,5
Polşa	51,7	54,6	62,1	62,8	67,7	68,7	14,3	20,0
Portuqaliya	110,7	111,8	113,2	114,0	114,5	115,4	3,2	3,5
İsveç	236,2	250,0	263,9	274,2	283,7	298,8	19,5	20,1
B.Krallıq	1372,9	1393,8	1457,1	1490,9	1442,7	1452,3	4,2	5,1

Mənbə: www.hypo.org

əmlak obyekti üzərində mülkiyyət hüququ əldə edir. Adətən, bank daşınmaz əmlakı satır, bu halda daşınmaz əmlakın bazar dəyəri ilə ödənilməmiş borc məbləği arasındakı fərq borcluya qaytarılır.

İpoteka kreditləri verilməsi xarici ölkələrdə geniş yayılmışdır. Ölkəmizdə kreditin bu növü yenicə inkişaf etməyə başlayır. Çünki banklar ipoteka kreditləri üzrə çox böyük faiz tələb edir və kreditləri nisbətən qısa müddətə verir.

İPOTEKA QİYMƏTLİ KAĞIZI (İQK) (*ing. Mortgage-Backed Securities – MBS*) – istiqrazın emitentinin balansında qalan girovlar və ya ipoteka kreditləri ilə təmin olunmuş istiqraz. İpoteka istiqrazları ödəniş strukturuna görə ipoteka sertifikatlarından kəskin dərəcədə fərqlənir. Adətən, ipoteka istiqrazları üzrə yarımillik faizlər ödənilir, nominal isə müddətin sonunda ödənilir.

İPOTEKA QOYAN – ipoteka predmeti olan əşyanı girov qoyan şəxsdir. İpoteka qoyan həm borclu, həm də üçüncü şəxs ola bilər.

İPOTEKA MÜQAVİLƏSİ – əsas öhdəliyin icrasının təmin edilməsi üçün ipoteka saxlayan və ipoteka qoyan arasında bağlanılan əqd.

İPOTEKA SAXLAYAN – ipoteka hüququ olan və ipoteka qoyanın digər kreditorlarına nisbətən üstün qaydada ipoteka predmeti hesabına əsas öhdəliyin icrasını tələb etmək hüququ olan şəxs, o cümlədən ipoteka kağızının qanuni sahibi.

İPOTEKA SERTİFİKATI – girov şəhadətnaməsi, birjada kotirovka edilən qiymətli kağızların ən geniş yayılmış növlərindən biri.

İPOTEKA SIĞORTASI – 1. İpoteka kreditorunun sığortalanması; xüsusi-ixtisaslaşdırılmış firmalar tərəfindən təqdim edilə bilər. 2. Borcalanın ölümü zamanı ipoteka kreditini ödəyən həmin borcalanın həyatının sığortalanması. İpoteka sığortası ipoteka krediti münasibətlərində kreditorun və ya borcalan subyektin sığortalanmasıdır. Kreditorun təqdim etdiyi ipote-

ka kreditinin qaytarılması riskinə görə borcalan ölümünə görə sığortalanır. Məlum olduğu kimi, ipoteka kreditləri uzunmüddətli xarakter daşıyır. Bu sığorta növündə sığorta şirkəti borcalanın ölümündən sonra kreditora qalan borcun ödənişini həyata keçirir.

İPOTEKA ŞƏHADƏTNAMƏSİ – qanuni sahibinə ipoteka müqaviləsində göstərilən, əmlakın ipotekası ilə təmin edilən, başqa sübut və dəlillər təqdim etmədən pul və başqa öhdəliklərin mövcudluğunu, bu öhdəliklər üzrə icranın tələb edilməsi hüququnu və əmlakın ipotekası haqqında müqavilədə göstərilən girov hüququnu təsdiq edən adlı qiymətli kağız.

İRİ KREDİT RİSKLƏRİNİN MAKSİMAL HƏCMİ NORMATİVİ (N7) – kommersiya bankları üçün Mərkəzi Bank tərəfindən təsdiq edilən normativ. Kredit təşkilatının iri risklərinin məcmu qiyməti ilə onun xüsusi vəsaitlərinin (kapitalının) faiz nisbəti kimi müəyyən edilir. 1998-ci ildən N7-nin yol verilə bilən maksimum qiyməti 8 dəfəyə bərabərdir.

İRREYTA – sığorta sənədinin tərtib edilməsi zamanı yol verilmiş səhvin (xətanın) düzəldilməsini təsdiq edən həmin sığorta sənədindəki yazı.

İSAYEV VEYSƏL İLYAS OĞLU (1933-1998) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1958-ci ildə "Azərbaycan SSR-in pambıqçılıq kolxozlarında gəlirlərin artırılması ehtiyatları" mövzusunda namizədlik, 1972-ci ildə "Gəlirlərin təhlili və yeni şəraitdə onların səmərəli istifadəsinin iqtisadi əsasları" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir.



1977-ci ildə Moskvada onun "Kolxozlarda gəlirlərin bərabərləşdirilməsi və səmərəli istifadəsi" adlı böyük həcmli monoqrafiyası çap edilmişdir. Bu, uçot üzrə Moskvada çap edilən ilk azərbaycanlı iqtisadçı alimin monoqrafiyası olmuşdur.

1962-1975-ci illərdə Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda şöbə müdiri vəzifəsində çalışmışdır.

1975-ci ildən ömrünün sonuna qədər Azərbaycan Kooperasiya İnstitutunda müxtəlif vəzifələrdə çalışmış, həmçinin Azərbaycan Dövlət İqtisad Universitetinin Mühasibat uçotu və audit kafedrasının professoru olmuşdur. Bu dövrdə onun "Birgə müəssisələrdə mühasibat uçotu" və "Mühasibat uçotunun nəzəriyyəsi" adlı dərslikləri çapdan çıxmış və həmin dərsliklər tələbələr üçün Azərbaycan dilində bu qəbildən ilk dərs vəsaitləri rolunu oynamışdır.

V.İsayevin 1987-ci ildə nəşr olunmuş "Yardımçı təsərrüfatlarda təsərrüfat hesabı və uçot" monoqrafiyası həmin illərdə tam təsərrüfat hesabı və özünümaliyyələşdirmə prinsipinə keçən müəssisələrdə təsərrüfatdaxili əlaqələrin düzgün qurulması və bu zaman uçotun rolu üzrə praktik cəhətdən səmərəli təkliflərlə zəngin olmuşdur ki, bu təkliflərin də əksəriyyəti özünün tam tətbiqini tapmışdır.

V.İsayev mühasibat uçotu və təsərrüfat fəaliyyətinin təhlili ixtisası üzrə Cənubi Qafqazda ilk elmlər doktoru olmuşdur. Keçmiş Sovetlər İttifaqının bütün respublikalarında öz ixtisası üzrə görkəmli mütəxəssis kimi tanınmışdır.

100-dən çox elmi əsərin müəllifidir. Rus dilindən Azərbaycan dilinə ümumi həcmi 400 çap vərəqindən çox olan elmi əsərləri tərcümə edib nəşr etdirmişdir. Professor V.İsayev 28 elmlər namizədi, iki elmlər doktoru yetişdirmişdir.

İSGƏNDƏROV RAMİZ KAMAL OĞLU (1953) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1988-ci ildən texnika elmləri namizədi, 2004-cü ildən iqtisad elmləri doktorudur. Məşğul olduğu elmi istiqamət əmək bazarı, eləcə də elmi-texniki tərəqqinin sosial-iqtisadi məsələləridir. Ölkəmizdə və bir sıra xarici ölkələrdə nəşr olunmuş 100-dən çox elmi məqalənin, 2 monoqrafiyanın, 4 dərsliyin, 7 dərs vəsaitinin müəllifidir.

1999-cu ildən Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının tədris və elmi işlər üzrə prorektoru vəzifəsində çalışmaqdadır. Hazırda Azərbaycan Dövlət Texniki Universitetində kafedra müdiridir.

İSLAM BANK SİSTEMİ – iqtisadi mahiyyətinə görə fəaliyyətini faizlə deyil, mənfəətlə əlaqələndirən, əməklə kapitalın

birləşməsi nəticəsində əməliyyatların sonunda mənfəətdən pay almağa əsaslanan bank sistemi.

İslam faiz nəzəriyyəsinin konseptual əsasları

Hələ qədimdən Yunan filosoflarından Sokratın tələbəsi olan Əflatun faizi əxlaqa zidd bir münasibət bilərək həmişə pisləmişdi. Əflatuna görə, ideal bir cəmiyyət üçün yoxsulluq və hədsiz varlanma yolverilməzdir. Bildiyimiz kimi, Yaradanın öz yaratdıqlarına onlar arasından seçib və son elçi olaraq göndərdiyi Həzrəti Məhəmməd (s.ə.s.) vasitəsilə çatdırmış olduğu son bəyannamə, son ilahi müraciət Qurani Kərimdir. Bu gün din İslamla tamamlanır və Allah qatında ən məqbul, ən doğru dindir. Qurani Kərim göndərildiyi dövrün bütün cahilliklərini aradan qaldırmaqla yanaşı, eyni zamanda sonrakı dövrlərdə də qurulacaq mədəniyyətlərin, iqtisadi sistemlərin, demokratiyanın və dövlətin özündə cəmləşdirdiyi dəyərlərlə ədalətli və inkişafa meyilli ola biləcəyini göstərmişdir. Həmin dəyərlərdən biri də bir çox iqtisadi və sosial xəstəliklərin mənbəyi olan faizin alınmasının və verilməsinin qadağan olunmasıdır.

Qeyd edək ki, müsəlman ölkələrindən başqa, Qərb dünyasında ilk dəfə faizi qadağan edən hökmlər 1545-ci ildə İngiltərədə VII Henri tərəfindən, 1789-cu ildə Fransada isə Turqonun səyi nəticəsində müvafiq qanunda öz əksini tapmışdı.

Faiz heç bir əmək sərf etmədən, borc pulun müəyyən olunmuş müddətdə əsas sərmayə qalmaqla razılaşdırılmış nisbətdə hər ay əlavə qazanc götürmək məqsədilə alınan əlavə pulun məbləğidir. İslam yalnız insan əməyinin tətbiqi ilə əldə olunan mənfəəti halal hesab edir və islama görə mənfəət o şəraitdə mənimsənilə bilər ki, onun əldə olunmasında insan əməyi ilə yanaşı, mübadilə və istehsal prosesi baş vermiş olsun.

dövrdə ərəblər arasında geniş yayılmışdı. Borc olaraq verilən pul faizlə geri alınırdı. Hətta aldıqları borcları və faizləri ödəyə bilməyən borclular borc verənin köləsinə çevrilirdi və bu hal ənənəvi hala çevrilmişdi. Birmənalı olaraq, islam əmək sərf etmədən, bu yolla gəlir əldə edilməsini qətiyyətlə pisləyir.

Cədvəl 1

İslam maliyyə institutlarında İİB-nin birbaşa ədalətli investisiyaları

Regionlar	İslam Maliyyə İstitutlarının sayı	İslam Dinarı (milyon)
Asiya	11	86.86
Orta Şərq	7	63.88
Afrika	5	15.61
Avropa	2	16.05
Regional	2	14.41
Cəmi	27	196.51

Klassik nəzəriyyəçilərdən Böhm Baverk "Faiz nəzəriyyələrinin tarixi və tənqidi" adlı əsərində qeyd edir ki, "...insanlar nə qədər faizin pis nəticələrini dərk etsələr də, bundan xəbərləri yoxmuş kimi faizlə pul verməkdə davam edirlər".

İslama əsasən faizi iki qrupa ayırmaq olar:


• borc pulun sələmə verilməsi;

• cinsi (növü) eyni olub, miqdarı eyni olmayan və cinsi (növü) eyni olmayan malların mübadilə edilməsi.

Birinci qrupa aid edilən faiz növü borc verilən pulun üzərinə gələn məbləğdir ki, bu da kredit münasibətlərindən irəli gələn faizdir. Bu qrupa aid faiz növü islamdan əvvəlki tarixdə "cahillik dövrü" kimi məşhur olan

İslamda ticarətin və istehsalın genişlənməsi bəyənilən mühüm istiqamət olmaqla, eyni zamanda əldə olunan pul kütləsinin yığılıb saxlanılması da pisləniləm cəhət kimi nəzərdə tutulur. Ona görə də İslam ölkələrində ticarətin genişlənməsi, onun real pul resursları ilə qovuşması təkidlə qarşıya qoyulur.

İkinci qrupa aid olan faiz növünü daha aydın başa düşmək üçün Əbu Said əl-Hudridən söylənilən bir rəvayətə nəzər salaq: "Bilal Həbəşi (səhabə) yuvarlaq formada bir cins xurma ilə Peyğəmbərin (s.ə.s.) yanına gəlir. Peyğəmbər (s.ə.s.) bu xurma haradandır? – soruşur. Bilalın cavabı belə olur: bizdə adi xurma var idi. İki ədəd verib bir ədəd yaxşısını aldım. Peyğəm-



Qrafik 1

bərimizin (s.ə.s.) məsələyə münasibəti belə olur: bu, faizin özüdür! Bu faizdir! Belə etmə! Yaxşı xurma almaq istəsən, adini sat və yaxşısını pul ilə al!" Yenə eyni mənbədən olan bir rəvayətə görə, Peyğəmbərimiz belə nəql etmişdi: "Qızıla qızıl, gümüşə gümüş, buğdaya buğda, arpaya arpa, xurmaya xurma, duza duz verilir. Yalnız eyni öl - çüdə və eyni xüsusiyyətdə olmaq şərti ilə. Kim bunu artırır və ya artırmaq istəyərsə, faiz almış olur". Bu qadağa islamın pul tədavülünü artırmaq və pul kütləsini sürətləndirmək üçün böyük rol oynadığını deməyə əsas verir. İslamın ikinci qrupa aid olduğu faiz qadağasının iqtisadi bazar subyektlərinin inkişafına, tələb və təklif maraqlarına nə dərəcədə təkan verdiyini söyləmək olar.

Ey möminlər! Əgər doğrudan da, iman gətirmişsinizsə, Allahdan qorxub sələmdən qalan məbləğdən (faizdən) vaz keçin! (Onu borclulardan almayın!) Əgər belə etməsəniz, o zaman Allaha və Onun Peyğəmbərinə qarşı müharibəyə girişdiyinizi bilin! Yox, əgər tövbə etsəniz, sərmayəniz (mayanız) sizindir. Beləliklə, nə siz zülm edərsiniz, nə də sizə zülm olunar!

Əgər sizə borclu olan şəxs çətin vəziyyətdə olarsa, ona vəziyyəti yaxşılaşıncaya qədər möhlət verin! Əgər bilmək istəyirsinizsə, (borcu) ona sədəqə olaraq bağışlamağınız daha yaxşıdır!

Allaha tərəf qaytarılacağınız gündən qorxun! (O gün) hər kəsə gördüyü əməlin əvəzi veriləcək və (haqsız yerə) zülm olunmayacaqdır! (2. 278)

(Sərvətinizin) xalqın mal-dövləti hesabına artması üçün sələmlə (faizlə) verdiyiniz malın Allah yanında heç bir bərəkəti (artımı) olmaz. Allah rizasını diləyərək verdiyiniz sədəqə (zəkat) isə belə deyildir. Bunu edənlər (dünyada mallarının bərəkətini, axirətdə isə öz mükafatlarını) qat-qat artıranlardır! (30. 39)

Faiz iqtisadi sistem daxilində cəmiyyətin bütün təbəqələrinə mənfi təsir göstərən cəhətlərə malikdir. Çünki faiz kapital sahiblərinin investisiya qoyuluşuna əngəl törədir. Bu da nəticədə işsizliyin artmasına, istehsal xərclərinin çoxalmasına, dolayı yolla süni qiymət artımına səbəb olmaqla yanaşı, həm də gəlir bölgüsündə böyük haqsızlıqların ortaya çıxmasına zəmin yaradır. Həmçinin faiz kapital sahiblərini daha da gücləndirərək onların hər cəhətdən cəmiyyət içərisində öz hegemonluqlarının artmasını asanlaşdırır. Bunun nəticəsində isə əsas insani dəyərləri tamamilə maddi mənfəətlə əvəz olunduğu, mənəvi və əxlaqi dəyərlərin tərk edildiyi bir mühit meydana çıxır.

İslamda faizin tətbiqinin iqtisadi cəhətdən ziyanı aşağıdakı kimi təsnifləşdirilir:

– faiz tələb dairəsini məhdudlaşdırır;

– faiz təklifin stimullaşdırılması meylinin qarşısını alır;

– bütövlükdə məcmu tələblə məcmu təklifin nisbətini həm pozur, həm də onların kəmiyyət miqyasını məhdudlaşdırır;

Cədvəl 1

İslam İnkişaf Bankının kapital strukturu (mln.)

		İİB (İD)	ÖİİK ($)	İKİİK (İD)	BTMİK ($)
İcazə verilən (hədd) capital	1431 H	30 000	2000	150	3000
	Başlanğıcda	2 000	1000	100	3000
Ölkələrin verdikləri kapital	1431 H	17 475,6	1000	149	750
	Başlanğıcda	750	350	68,8	500
Faktiki kapital	1431 H	4031,01	401,2	74,5	671,7
	Başlanğıcda	280	88,1	63,8	446,1

Qeyd: İD = İslam Dinarı SDR-in bir vahidinə bərabərdir

– istehsal xərclərini aşağı salmaq meylini aradan qaldırır;
– qiymətlərin yüksəlməsinə səbəb olur;
– əhalinin məşğulluq dairəsini azaldır;
– inflyasiya prosesinin davamlı olmasına zəmin yaradır;
– insanlarda süstlük, ətalət və mənəvi düşkünlük formalaşdırır.

İslam maliyyə sistemində riba (izafi) adlanan borcvermə də qadağan edilmişdir. *Riba* borcun məbləğinə və qaytarılma müddətinə görə öncədən təyin edilmiş (razılaşdırılmış) və investisiyanın qazandığı uğurdan asılı olmayaraq borcludan alınan faizdir.

İslam banklarının təşəkkülü, formalaşması və faizsiz kreditlərin mahiyyəti

İqtisadiyyatın ən vacib və ayrılmaz tərkib hissəsi olan bank sistemi elə qurulmalıdır ki, iqtisadiyyatın bütün sahələri maliyyə vəsaiti ilə təmin edilsin, onların tarazlığına şərait yaradılsın. Bank sistemində hər hansı bir nöqsan iqtisadiyyatın bütün sahələrinə mənfi təsir göstərə bilər. Dünya təcrübəsi göstərir ki, bank sisteminin sürətlə inkişaf etməsi, yeni-yeni bank əməliyyatlarının və xidmətlərinin yaranması informasiya texnologiyalarının və yeni müxtəlif modellərin bu sahəyə geniş tətbiqi ilə bağlıdır. Dünya kapitalist iqtisadiyyatının meydana gəlməsi, sivil bazar sisteminin formalaşması, beynəlxalq bazarın təşəkkülü islam pul-kredit sisteminin hərəkətə gəlməsinə səbəb oldu. Yəni müsəlman Şərqində neft-dollar mənbələrinin artması pul-kredit münasibətlərinin dinamik xarakter daşımasına təsir göstərdi. Eyni zamanda bir sıra müsəlman ölkələrində, xüsusən Misirdə, Pakistanda, Türkiyədə kapitalist iqtisadiyyatına olan meylin güclənməsi borc kapitalına olan ehtiyacın artmasına gətirib çıxardı. Lakin islamda faizin əldə olunmasına görə qadağaların hökm sürməsi istər-istəməz ona yeni yanaşma yollarının axtarılmasına səbəb oldu. Nəticədə bir qism müsəlman ilahiyyatçı alimləri faizin haram olmasına yeni baxışla yanaşmağa cəhd göstərməklə, onu modernləşdirmək istəyirdilər. Digərləri isə şəriətin müəyyən etdiyi qaydalar əsasında bank sisteminin yaradılmasına cəhd göstərirdilər. Bu istiqamətdə nəzəriyyələr iki qrupa ayrılır: Birinci qrup alimlər faizsiz bankların fəaliyyətini daha çox *mudaraba*, yəni mənfəət-zərər şərikliyi əsasına görə təsvir ediblər. İkinci qrupa görə isə sosial inkişafa yardım edən yanaşma mövcuddur. Daha çox Əhməd ən-Nəccarın adı ilə bağlı olan faizsiz bank modeli ticarət sahəsində deyil, inkişafa, rifaha əsaslanır. Yəni faizsiz banklar ölkə iqtisadiyyatında durğunluğu aradan qaldırmalı və iqtisadiyyatı canlandırmalıdır. Nəccarın faizsiz bank modelində xalqdan zəkatları toplayan və bunu ehtiyacı olan təbəqəyə yönəldən "Sosial xidmət fondu" da vardır.

Faizsiz banklar fəaliyyətlərində elə bir faizsiz sistemi nəzərdə tutur ki, bu sistemin də təməl əsasını zəkat (vergi) təşkil edir. Zəkat bütün bir cəmiyyətin rifaha qovuşması üçün zənginin ödədiyi bir vergidir. Faizsiz banklar daha sağlam və ədalətli iqtisadi əsaslara diqqət yetirərək cəmiyyətin hər təbəqəsinin in-

kişaf etməsini nəzərə almış xüsusi müəssisələrdir.


Tarixi faktlardan məlumdur ki, faizsiz banklar ilk əvvəl Səudiyyə Ərəbistanı və Fars körfəzi ətrafındakı ölkələrdə yaranıb. İlk dəfə 1950-ci ildə Pakistanda və 1960-cı ildə (1963) Misirdə (Mit Ghamr) yaranan faizsiz banklar son illərdə daha sürətlə yayılmaqdadır. Bu yayılma bu gün Böyük Britaniya, İsveçrə, Fransa, Danimarka və s. kimi qeyri-müsəlman ölkələrində də vüsət almışdır. Hətta dünyanın bir çox faizlə işləyən bankları öz nəzdlərində faizsiz işləyən şöbələr açıbdır.

İslam banklarının qarşısında duran ümumi məqsədlər və onların fəaliyyətini digər banklardan fərqləndirən xüsusiyyətlər aşağıdakılardır: faizin aradan qaldırılması; ədaləti reallaşdırmaq və istismarı ləğv etmək; mənfəət üçün əməyi təşviq etmək, qazanmaq üçün çalışmaq; islam əsasları ətrafında birliyi saxlamaq; faiz gəliri yerinə iş qarşılığı olan mənfəət qazancını formalaşdırmaq, yaxud sələm və faiz əvəzində əldə olunan gəlirlərdə müştərəklik prinsipinə əsaslanmaq; məşğulluğu artırmaq; zəkatların paylanması ilə cəmiyyətdə bir çox sosial "xəstəliklərə" yardım etmək və yoxsulluğu minimuma endirmək; zəkat toplanılması və onun islamda nəzərdə tutulmuş səkkiz xərc bəndləri üzrə bölünməsini həyata keçirmək; inhisarı aradan qaldırmaq; faizsiz bankların gəlirlərini mükafat şəklində idarə heyətinin üzvləri arasında müəyyən olunmuş miqdarda ehtiyat saxlamaq şərti ilə paylamaq.


Əhali tərəfindən faizsiz banklara qoyulmuş əmanətlər istər birbaşa (əsasən birbaşa), istərsə də dolayı yollarla şirkətlərə sənaye və ticarət müəssisələrinə faizsiz kredit şəklində verilir. Sonradan əldə edilən xeyir və zərər müəyyən bir zamanda pul sahiblərinə bəlli bir üsulla qaytarılır. Bu bankların hamısında həmin sahə üzrə xüsusi kateqoriyalar mövcuddur və hər bir bankda gəlirin ədalətlə bölüşdürülməsinə nəzarət edən bir qurum var.

Faizsiz banklarda istiqraz da əmanət kimi faizsizdir. İstehsalçılar və istehlakçılar borcverənlər və borcalanlar lazımi informasiya ilə məlumatlandırılır və öz xərclərinə nə uyğundursa, onu tətbiq edirlər.

Faizsiz bankların müştərəklik prinsipini faizli kreditlərlə eyniləşdirmək olmaz. Sadə bir misalla buna nəzər salaq: əgər hər hansı bir sahibkar faizlə işləyən bankdan kredit alırsa, bank həmin sahibkarın krediti qaytarıb və ya qaytara bilməyəcəyini təhlil etdikdən sonra müştəriyə kredit verir. Bank üçün o qədər maraqlı deyil ki, kredit hansı sahəyə qoyulur, sahibkar nə qədər mənfəət əldə edəcək və ya əksinə. Bank üçün önəmli olan kreditin qaytarılmasıdır. Sahibkar öz istehsal layihəsini düzgün qura bilməyərək işindən mənfəət götürməyə də bilər, istər təbii, istərsə qeyri-təbii amil onun fəaliyyətini dayandıra da bilər. Belə olduqda bank kreditini tələb edərək ya kreditin əvəzinə



Sxem 1



Sxem 2

aldığı zəmanəti, girovu məhkəmə yolu ilə mənimsəyəcək, ya da kreditin faizini artırmaqla borcalana hər hansı sanksiya tətbiq edəcək. Məhz faizsiz banklar insan haqlarını insan ağlının düşünə bilməyəcəyi qədər müdafiə edən islami dəyərlərə əsaslanır. İslam təfəkkürü təsdiqləyir ki, təməli faiz olan bir sistemdə birinin digərini istismar etməsi var və bu hal insan haqlarının reallaşması ilə ziddiyyət təşkil edir.

İslam bank sistemində risklərin bölüşdürülməsi

Faiz gəlirinin qadağan edilməsi pul təklif edənlərin bazarda sələmçi (kreditor) kimi yox, sərmayəçi (investor) kimi çıxış etməsini məcbur edir. Bu səbəbdən pul vəsaitlərinə sahib olan istənilən investor gələcək dövrdə ümumi gəlirdə paya sahib olmaq üçün biznes risklərini də borcalanla bölüşdürməli olur. Burada mənfəət real nəticədən asılıdır və qiymət təhrif olunması yoxdur. İslam bank sistemi tərəflər arasında razılaşmadan irəli gələn öhdəliklərin icrasına tam şəkildə əməl edilməsini ən vacib şərtlərdən biri kimi tələb və təbliğ edir. Bu tələb asimmetrik informasiya və mənəvi amillərlə əlaqədar risklərin endirilməsinə dəstək məqsədi daşıyır.

Pula potensial kapital kimi yanaşma

Pul o zaman əlavə real dəyər yaradır ki, o, kapital formasında hər hansı bir sahəyə investisiya edilir. Pul məhz kapital formasında yatırılan zaman maddi dəyərə malik olur, ondan kənarda isə o, sadəcə olaraq, ticarət, mübadilə və s. kimi iqtisadi münasibətlərin formalaşmasında vasitə rolunu oynayır. Şəriət qaydalarına əsasən, məhz o sərvətlərə dəstək verilir ki, onun yaranma mənbəyində kapital sahiblərinin zəhməti və ya risk məsuliyyəti dayanır. Pul real kapitala çevrildiyi zaman yeni dəyər yarada, gəlir gətirə bilər. İslamda pulun "yastıq" altında yığılması bəyənilmədiyi halda, digər tərəfdən isə böyük qeyri-müəyyənliyə malik fəaliyyət növləri ilə məşğul olmaq da qadağan edilmişdir. Şəriət qanunlarına görə, bəzi sahələrin maliyyələşdirilməsi qadağan edilmişdir. Bura tütün, spirtli içkilər, narkotik vasitələr, silah və s. kimi məhsulların istehsalı və ticarəti, pornoqrafik və ictimai əxlaqa mənfi təsir göstərən məhsulların yayılması, həmçinin azart oyunlarının təşkili kimi sahələr aid edilir.

İslam bank sisteminin əsas əməliyyatları:

Murabəhə alış qiyməti və ya maya dəyəri üzərinə müəyyən qədər qazanc əlavə edərək bağlanılan satış müqaviləsidir. Bu akt etimad prinsipinə əsaslanır. Bu müqavilə çərçivəsində bank ticarəti maliyyələşdirir. Bu zaman bank və onun müştərisi arasında alqı-satqı müqaviləsi bağlanır. Bank müştərinin adından əmtəəni alır, sonra isə malı ona satır. Bununla da bank məhsulun reallaşmasından mənfəət, həmçinin göstərilən xidmətin dəyərini qazanır. Məhsulun müştəriyə çatdırılması və malın zədələnməsinə görə bütün riskləri bank daşıyır. Malın qiyməti öncədən müəyyən olunur, belə ki, bankın qazancını təşkil edən qiymət əlavəsi ona əsasən müəyyən olunur. Müştəri tələb



olunan məbləği tədricən ödəyir. Bankın qiymət əlavəsi məbləğlə və ya məhsulun dəyərinin faizi ilə müəyyən oluna bilər, lakin heç bir formada zamandan asılı ola bilməz. Bank üçün zəmanət kimi ya nağd, ya da girov qəbzi formasında girov çıxış edir.

Müdarəbə əmək-sərmayə ortaqlığı mənasına gələrək faizsiz bankların ən mühüm klassik şərtləşmə modellərindən biridir. Bu ortaqlıq modelində məqsəd iki gücü birləşdirərək faizə girmədən məhsuldar hala gətirməkdir.

Müdarəbə sövdələşməsində bank, kapital sahibi öz vəsaitlərini ondan səmərəli istifadə edə biləcək təcrübəli sahibkara (müdarib) həvalə edir. Bank isə "rabbul mal" adlanır. Müdarəbə, adətən, qısa və ortamüddətli maliyyələşmə sahələrinə (əsasən ticarətə) şamil edilir. Qazanılan mənfəət bankla sahibkar arasında öncədən razılaşdırılmış nisbətlərdə bölünür (adətən, bankların gəlirdəki payı 15-30% olur), itkilərə görə ziyan isə ancaq banka məxsus olur. Bu halda sahibkarın itirdiyi yalnız zaman və əmək sərfi olur. Bank gündəlik idarəetmə qərarlarına müdaxilə etmir. Bununla belə, sahibkarın bankdan cəlb edilən vəsaiti bankın icazəsi olmadan kənar istiqamətlərə yönəltməsinə yol verilmir. Həmçinin sahibkarın layihəyə barmaqarası yanaşdığı və ya onu düzgün idarə etmədiyi sübuta yetirildiyi təqdirdə sahibkar maddi məsuliyyətə cəlb edilir.

Müşarəkə faizsiz maliyyə müəssisəsinin bir layihə üzərində (məsələn, bir fabrik qurmaq) digər bir şəxslə ortaqlıq qurmasıdır. Müşarəkədən dövriyyə vəsaitlərinin artırılması, kənd təsərrüfatı, daşınmaz əmlak bazarı və digər orta və uzunmüddətli layihələr üzrə investisiyaların reallaşdırılmasında istifadə olunur. Bu sövdələşmənin əsasında müştəri ilə bankın əməkdaşlığı, nəzərdə tutulmuş layihəyə birgə maliyyə yatırımı barədə razılıq dayanır. Sövdələşmə zamanı bank müştəriyə əvvəlcədən razılaşdırılmış nisbətlərdə maliyyə vəsaiti verir və həmin nisbətlər müqabilində gəlirə şərik olur. Gəlirin bölüşdürülməsində tərəflərin razılığı əsasdır. Yəni sərmayələr bərabər olduğu halda, gəlir payları fərqli ola bilər və ya sərmayələr fərqli olduğu halda, gəlir payları eyni ola bilər. Bu fərqlilik bəzilərinin daha çox iş görmələri və ya daha qabiliyyətli ola bilməsindən irəli gəlir. Zərər və itkilər də bankla müştəri arasında həmin nisbətlər əsasında bölünür.

Müsakət konkret olaraq kənd təsərrüfatı layihələrində tətbiq edilən sövdələşmədir. Sövdələşmə torpaq sahibi ilə işçi arasında həyata keçirilir. Razılaşma məhsul öz bəhrəsini verənə qədər davam edir və son mərhələdə işçi məhsuldan əvvəlcədən müəyyən edilmiş hissəni götürür.

İcarə ənənəvi maliyyə sistemində lizinqə uyğun sövdələşmə növüdür. Bunun üçün əvvəlcə bank müştərinin sifarişi ilə avadanlıq, əmlak və s. alır, sonra isə onu müştəriyə icarəyə verir. İcarənin müddətini və məbləğini (sabit və ya zamanla dəyişən) tərəflər müəyyən edir. Ənənəvi lizinqdə amortizasiya, sığorta və vergilərlə bağlı xərclər icarəçinin üzərinə düşür. Burada isə həmin xərcləri icarədar çəkir.

Təvərrük adlanan müqavilə növü "Əks murabahə" də adlandırılır. O, faktiki olaraq krediti əvəz edir. Məsələn, əgər bankın müştərisi müəyyən vəsaiti borc götürmək istəyirsə, bank həmin məbləğə mal və xidmət haqqını əlavə etməklə (bu, kredit faizini əvəz edir) onu müştəriyə sata bilər. Müqavilədə müştərinin vəsaitləri dərhal, yoxsa hissə-hissə ödəməsi də qeyd olunur. Bu maliyyələşmə növünün kredit verilməsini əvəz etməsi imkan verir ki, adi banklar özlərinin bütün əməliyyatlarını "islamiləşdirsin".

İstisna islam maliyyə sisteminin derivatividir. Bu, xüsusilə, genişmiqyaslı və uzunmüddətli layihələrin maliyyələşdirilməsi üçün istifadə olunur. Müştəri islami və iqtisadi ekspertizadan keçmiş yeni layihə ilə banka müraciət edir. Bank layihənin reallaşdırılmasına razılıq verərsə, sifarişi həyata keçirməyə razılıq verən istehsalçı, tikinti şirkəti və ya zavodla razılığa gəlir. Müqavilədə işin yerinə yetirilmə müddəti, qiyməti, keyfiyyəti çox ətraflı müəyyən edilir. İşin nəticələri müştəriyə, yaxud banka təhvil verilə bilər.

Sükuk banklarda istiqrazların xüsusi növüdür. Faiz dərəcələrinə qadağaların mövcudluğu Qərbdəki qiymətli kağızları buraxmağa imkan vermədiyinə görə sükuk tətbiq edilmişdir. Onun mənfəətliliyi real aktivlərin gəlirliliyindən asılıdır. Sükuk istiqrazlarının buraxılması standart sekyuritizasiya prosesinə müvafiq aparılır, bu zaman aktivləri əldə etməyə və onlara qarşı maliyyə öhdəlikləri formalaşdırmağa imkan verən mexanizm işlənib hazırlanır. Belə maliyyə öhdəlikləri qiymətli kağızların bağlı olduğu real aktivlərin dəyərindən asılı olan gəlirlilik və risklərin qiymətli kağız sahibinin üzərində olmasını nəzərdə tutur. Sükuk sırf maliyyə qiymətli kağızı olduğuna görə şəriət onu borc öhdəliyi kimi qəbul edir. Nəticədə bir çox islam ölkələrində investorlar sükuku təkrar bazarda alıb sata bilməzlər, çünki bu zaman riba ola bilər. Buna görə də investorlar onu ödəniş müddətinə qədər əldə saxlamağa çalışırlar. İkinci tip istiqrazlar icarə müqavilələrinə əsaslanır (Sükuk əlicarə) və konkret uzunmüddətli layihələrin maliyyələşməsi üçün nəzərdə tutulur.

Mükarədə konkret layihələrin maliyyələşdirilməsi üçün islam istiqrazlarıdır. Səs verməyən səhmlər kimi, bu istiqrazların sahibləri layihənin reallaşmasından mənfəət hüququna malikdir, lakin eyni zamanda itkilərin də bir hissəsini öz üzərinə götürürlər.

İslam banklarının rəqabət üstünlükləri və böhrana davamlılığı

Dünyada faizsiz sistemlə fəaliyyət göstərən bankların sayı artdıqca, insanların bu banklara tələbatı da durmadan artır. ABŞ, Avropa, Asiya ölkələrində bank sistemi tənəzzülə uğradığı məqamda ərəb ölkələrində banklar yeni bazarlar, yeni investisiya yatırımları üçün əlverişli imkanlar axtarışındadırlar.

Türkiyə də daxil olmaqla 10 islam ölkəsində aparılan araşdırmalar bunu deməyə əsas verir. Bəlli olub ki, müsəlmanların 53%-i islam qanunlarına uyğun fəaliyyət göstərən banklara üz tutur. Hazırda bu sistem 60 ölkədə tətbiq edilir.

Buna səbəb isə ənənəvi Qərb bankçılığı prinsiplərindən fərqli olaraq, islam banklarının gəlirləri faizlər üzərində yox, pay gəlirləri təməlində qurmasıdır. Hər hansı bir sahəyə vəsait yönəldən islam bankları həmin sahənin risklərini kifayət qədər öyrəndikdən, təhlil etdikdən və riskləri müəyyənləşdirdikdən sonra layihəyə vəsait ayırır.

Bu gün əksər şirkətlər dünya böhranının təsirlərindən yan keçmək, gələcək fəaliyyətində belə təhlükələrin baş vermə ehtimallarından sığortalanmaq məqsədi ilə yeni qeyri-ənənəvi idarəetmə sistemlərinin axtarışındadır.

Hazırda bir çox dünya ölkələri artıq islam bank sisteminin bir çox elementlərindən geniş istifadə etməyə başlamışdır. Artıq 6 ildir ki, İngiltərə və Almaniyanın bir çox böyük bankları müsəlman müştəri qruplarına şəriət qaydaları əsasında xidmət paketləri təklif edir. Hətta bu yaxınlarda London Bank Assosiasiyası dünya müsəlmanlarının maliyyə mərkəzi olmağa hazır olduğunu bəyan edib. Müsəlman ölkələrindəki kapitalı cəlb etmək məqsədi ilə Yaponiya bank sisteminin bir hissəsini şəriət normalarına uyğun olaraq yenidən qurmaq niyyətindədir. Hökumət tərəfindən dəstəklənən Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankında (JMBC) artıq Səudiyyə Ərəbistanı, Malayziya və Pakistandan müsəlman üləmaların da daxil edildiyi xüsusi ekspertlər komissiyası yaradılıb. JMBC-dən başqa, Yaponiyada islam maliyyə sisteminin qurulmasında ölkənin ən nəhəng maliyyə strukturları arasında yer alan "Sumitomo Misui" bank korporasiyası, "Mizuho" korporativ bankı və Tokionun "Mitsubisi" Bankı da fəal iştirak edir. Rusiya hökuməti də bank sistemində islam prinsiplərinin tədricən tətbiqində maraqlıdır.

İslam banklarının fəaliyyətlərinin təhlili göstərərik ki, bu banklar ənənəvi banklara nisbətən böhrana daha dözümlüdür. Bu sistemdə banklar özlərini qorumaq üçün geniş maliyyə alətlərindən və ya törəmə alətlərdən

(derivatives) istifadə etmir. Ona görə də bu banklar riskli kredit verməyə yanaşmır.

Cari əməliyyatları, xüsusilə kredit və investisiya risklərini idarə etmək və onların üzərində nəzarəti həyata keçirməklə islam bankları tərəfindən *CAMEL* adlı (capital, assets, management, earnings, liquidity) bank risklərinin qiymətləndirilməsi üçün xüsusi sistem işlənib hazırlanmışdır. Bu sistem bankların *murabahə* əməliyyatları istisna olunmaqla, bütün maliyyələşmələrində kredit və investisiya risklərinin idarə olunması zamanı tətbiq olunur.


Böhranla əlaqəli bir məsələyə diqqət etmək lazımdır. Belə ki, 2007-ci ilin dekabrından 2009-cu ilin aprel ayına qədər olan müddətdə Dow Jones Islamic Market World Index ümumi Dow Jones World Index ilə müqayisədə daha üstün olmuşdur. Bu, islam maliyyə bazarlarının dayanıqlı olmasına daha bir sübutdur.

İSLAM İQTİSADİYYATI – real həyatda gedən iqtisadi proseslərin ümumbəşəri dəyərlər əsasında dərki, şəriət vasitəsilə konseptual istiqamət kimi müəyyən olunmuş hüquqi normaların, qaydaların və davranışların məcmusu.

İslam iqtisadiyyatının əsas məqsədi ölkənin sərvət və nemətlərindən istifadə olunmasında bütün əhali üçün bərabər şəraitin yaradılmasıdır. İslamda bərabərlik prinsipini heç də müxtəlif əmək, peşə, işgüzarlıq qabiliyyətinə malik olanların gəlirləri, bərabər həyat tərzi əhatə etmir. Çünki eyni iqtisadi mühit və şərait maddi nemətlərin əldə olunması üçün bərabərlik yaratsa da, insanlar dini-mənəvi dəyərlərin mənimsənilməsi, icra və əməl olunmasında müxtəlif mövqedə dururlar. İslam oyanışı, dirçəlişi, irəliləyişi insanın potensial imkanlarını üzə çıxarmaq üçün çox böyük şərait yaradır.

Bu , özünü insan fəaliyyətindəki sərbəstlikdə, ehtiyacın ödənməsindəki zərurətdə, faydalı işlərin icra olunmasında əks etdirir.

Qurani Kərimdə bu barədə çox



Məkkə



Dubay

müfəssəl qeyd olunmuşdur: *"Sizin hər biriniz üçün bir şərait və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi (eyni şəriətə tabe) vahid bir ümmət edərdi. Lakin bu, (müxtəliflik) Allahın verdikləri (sərvət və nemətlərlə) ilə sizi imtahan etmək üçündür"* (5. Əl-Maidə surəsi, ayə 48). Digər tərəfdən, ruzi baxımından da insanlar müxtəlif mövqedə dururlar. *"Allah ruzi baxımından birinizi digərinizdən üstün etmişdir"* (16. Əl-Nəhl surəsi, ayə 71).

Ona görə də islam iqtisadiyyatında sərvət və nemətlərin bərabər bölgüsü deyil, onların əldə olunması üçün bərabər şəraitin yaradılması əsas prinsipdir. Eyni zamanda bu sərvət və nemətləri əldə edə bilməyənlər üçün, əldə olunan maldan ən zəruri ehtiyacı ödəmək üçün bərabər bölgü tətbiq olunur.

İslamın iqtisadi inkişafa şərait yaratmasını aşağıdakı istiqamətlərlə izah etmək olar:

– *islamın dəyişilən zamana, iqtisadi mühitə uyğun gəlməsi;*

– *islamda qeyri-adi, fərqli milli-ərazi xüsusiyyətlərinin inteqrasiya olunmasına üstünlük verilməsi;*

– *iqtisadi inkişafa təminat verən və islam mənəvi dəyərlərinə xələl gətirməyən elementlərin insanların davranışında tətbiq olunması;*

– *təriqət və məhzəb müxtəlifliyinə baxmayaraq, islamda vahid mənəvi birliyin mövcud olması və qorunması prinsiplərinə riayət olunması;*

– *islam sivilizasiyasının dinamik və sintezli xarakteri, dinimənəvi dəyərlərin möhkəmlənməsinə aid olanları hər şəraitdə qəbul etməsi, lakin hər cür fərdi sərbəst inkişafı ləngidən elementləri rədd etməsi.*

Qurani Kərimdə 1000 dəfədən çox adı çəkilən "ədalət" bütün səviyyələrdə insanların riayət etməli olduqları ən ümdə davranış qaydası kimi ön plana çəkilir. Bu baxımdan iqtisadi fəaliyyət sahəsində ədalətin sosial-iqtisadi cəhətdən qorunması və bərpası ən vacib cəhət kimi nəzərə alınmalıdır.

İslamda cəmiyyətin mənafeyi mütləq uzlaşdırılır. Cəmiyyətin inkişafı elmi dünyagörüşlə insan haqlarını qorumaq, insanların fəaliyyəti üçün bərabər şərait yaratmaq, maddi nemət və sərvətlərin bölgüsündə ədalətli olmaq prinsipləri əsasında nəzərdə tutulur.

İslamda iqtisad elminin obyekti mənəvi dəyərlər əsasında insanların ehtiyaclarının ödənilməsi ilə əlaqədar olan faydalı fəaliyyət qaydalarını müəyyən etməkdən ibarətdir. İslam iqtisadi fəaliyyətinin əsasını insanın maddi ehtiyaclarını ödəyən ne-

mətlərdən istifadəsi ilə bağlı davranış qaydalarının müəyyən olunması təşkil edir. İslam dini - nin ən səciyyələndirici xüsusiyyətlərindən biri onun cəmiyyət həyatının bütün sahələrinə siyasi-hüquqi, sosial-iqtisadi, mənəvi-əxlaqi sahələrinə nüfuz etməklə dövlətlə birləşdirə bilməsidir. Yəni islam iqtisadiyyatının spesifik xüsusiyyəti istehsalı və tələbi əsas götürməklə, iqtisadi problemləri həll etmək deyil, mənəvi dəyərlərin həddinin formalaşması səviyyəsi və ehtiyacların ödənilməsi ilə bağlı fərdi davranış qaydalarını müəyyənləşdirməkdir.

İslam iqtisadiyyatında əsas məqsədlər kimi aşağıdakıları qeyd etmək olar:

– bütün cəmiyyət üzvlərinin rifah halını yaxşılaşdırmaq;
– faydalı fəaliyyəti təmin etmək;
– ölkənin iqtisadi potensialından istifadə etməyə hamı üçün bərabər şərait yaratmaq;
– yoxsulluğu aradan qaldırmaq;
– əldə olunmuş sərvət və nemətdən könüllü sədəqə vermək.

İslamda əmlak və mülkiyyət münasibətləri

Bu münasibətlər olduqca dərin, səlis və məntiqi-elmi ardıcıllıqla, mənimsənilmə, istifadə olunma və sərəncam vermə ilə bağlı prinsiplərlə müəyyənləşdirilmişdir.

Dünyanın ən demokratik, ən bəyənilən prinsiplərindən hesab olunan müsəlman bölgü sistemi əmlak və mülkiyyətlə bağlı meydana gələn münasibətlərin konkretləşməsinə çox ciddi və düzgün təsir göstərir. Belə ki, əmlakın bölgüsü islamda vərəsəlik hüququ vasitəsilə çox dəqiq həyata keçirilir. Bu, bir tərəfdən əmlakın hərəkətə gətirilməsi, digər tərəfdən onunla bağlı olanların hamısının mənafeyinin qorunması, eləcə də ondan faydalı istifadə ilə əlaqədardır. Burada hüquqi və iqtisadi münasibətlər qovuşaraq mənəvi, əxlaqi və sosial münasibətlərin inkişafına səbəb olur. Yəni külli miqdarda var-dövlət yığmağın həm aqibəti aydın olur, həm də onun çoxlarının sərəncamına daxilolma prosesinin zəruriliyi qeyd olunur.



Bibiheybət məscidi



Təzəpir məscidi

Mülkiyyətin, eləcə də əmlakın formalaşması əsasında faydalı fəaliyyətin, həmçinin əmək sərfinin vacib cəhət kimi üstünlüyə malik olması əsas şərt kimi çıxış edir. Hətta ərlə arvadın əmlak hüququnda bu, çox incə şəkildə nəzərdə tutulur. Əgər qadına verilmiş cehiz, zinət şeyləri və ya əmlak xarakterli digər vasitələr, eləcə də torpaq sahəsi, bina və s. bilavasitə onun sərəncamındadırsa, onda bunlardan istifadə istiqamətini o, özü müəyyənləşdirir. Qadın könüllü olaraq sərəncam vermək və istifadə etmək hüququnu öz ərinə verə bilər. Şəriətdə istər əmlakdan, istərsə də mülkiyyətdən zorla istifadə tamamilə qadağan edilir. Hətta ən sadə görünən hər hansı bir əşya və ya məmulatdan sahibinin icazəsi olmadan istifadə etmək ən böyük qəbahət hesab olunur. Digər tərəfdən, bütün əmlak və mülkiyyətdən istifadə olunmaq məcburiyyəti mövcud vergi üsulları, xüsusən xüms vasitəsilə tənzimlənir. Əmlaka sahibolma, faydalı istifadəetmə islamda mülkiyyətin əsas aparıcı forması olan xüsusi mülkiyyətin üstün rolu və ictimai təyinatlı mülkiyyətin formalaşmasına da geniş imkanlar yaradır.

İslamda xüsusi mülkiyyətin aparıcı rola malik olması, onun sahibinin faydalanması ilə yanaşı, sərəncamındakı bütün istehsal və xidmət təyinatlı vasitələrdən istifadəsini də təkid edir.

İslamda icarə münasibətləri

İslamda mülkiyyət münasibətlərinin inkişafında, eləcə də xüsusi mülkiyyətin mütərəqqi formasının saxlanılmasında, müxtəlif fəaliyyət növlərinin əmələ gəlməsində icarənin mühüm rolu vardır. İcarə və onunla bağlı münasibətlərin inkişafı şəriətdə xüsusi mülkiyyətin toxunulmazlığını təmin edən mühüm istiqamətlərdən biridir. İcarə və onun vasitəsilə əldə olunan gəlirin çox mütərəqqi bir istiqamət olduğu göstərilir.

Hüquq normaları çərçivəsində müəyyən olunan icarə münasibətləri, əslində, mülkiyyətdən istifadə edilməsi faydalılığı ilə bağlıdır. Bu bir daha onu göstərir ki, islamda həm əmlak, həm də mülkiyyəti icarəyə verməklə, ondan həm məqsədli, həm də səmərəli istifadə etmək olar. Ən maraqlı cəhət odur ki, əmlak və mülkiyyəti olmayanlarda da belə şəraitdə həm fəaliyyət göstərmək imkanları, həm də əmlak və mülkiyyət sahibi olmaq şəraiti əmələ gəlir. Məhz bunun

İslam dininə qarşı ədalətsiz hücumlarla, islamofobiya meyilləri ilə rastlaşırıq, bəzi kütləvi informasiya vasitələrində İslam dininə qarşı böhtan kampaniyaları aparılır. Əlbəttə, biz bütün bu xoşagəlməz hallara dərhal reaksiya verməliyik və veririk, sübut edirik ki, islam dini sülh dinidir, qardaşlıq dinidir, xeyir-xahlıq dinidir, mərhəmət dinidir. Bizim dini bayramlarımız mərhəmət ideyalarını təcəssüm etdirir. Bizim dini ənənələrimiz ondan ibarətdir ki, kasıblara əl uzadılmalıdır, kömək göstərilməlidir. Bu, ümumbəşəri dəyərlərdir. Bu ümumbəşəri dəyərlərin hamısı islam dinində təmsil edilir. Yəni islam dini bütün gözəl ümumbəşəri dəyərləri ehtiva edir. Həqiqət bundan ibarətdir.

İlham Əliyev
22.12.2012

nəticəsidir ki, islamda imkanlar bir-biri ilə təkcə mənəvi sahədə deyil, iqtisadi sahədə də bərabər tutulur.

İslam iqtisadi prinsiplərinə görə, icarə münasibətlərində iki xüsusiyyət nəzərə alınmalıdır: birincisi, əmlakın və ya mülkiyyətin konkret sahibi olsun, ikincisi, qarşılıqlı razılaşma və anlaşma olsun. Hər iki şəraitdə qarşılıqlı faydalanma prinsipi əsas götürülür. Əgər tərəflərin hər biri belə şəraitdə faydalanmazsa, onda icarə məqbul hesab olunmur. Əgər tərəflər bir-birinin faydalana biləcək imkanlarının məhdudluğunu və ya yoxluğunu əvvəlcədən bilib icarə münasibətlərinə girərsə, o, batil hesab olunur. Lakin əgər istifadə olunma şəraitində əmlakdan, heyvanlardan və s. yaxşı istifadə olunmayıbsa, o halda o, icarə haqqını ödəməlidir. Çünki sazişin və ya müqavilənin bağlanması ağıllı, sağlam düşüncəli adamlar arasında aparıldığından risk etmək dərəcəsi nəzərdə tutulur.

Nəzərə almaq lazımdır ki, islamda icarə münasibətləri barəsində danışarkən burada yalnız əmlak, mülkiyyət və ya müəyyən mal nəzərə alınmır, eyni zamanda bu, müəyyən fərdi işlərin görülməsi ilə bağlıdır. Əgər hər hansı bir şəxs peşə sahibi ilə razılaşıb, işi gördürəcəyi yerə gətirsə, lakin onu zəruri olan materialla təmin edə bilməsə, o, boş qalsa, iş görməsə belə haqqı ödənilməlidir.

İslamda torpaq və ondan istifadə

Məlumdur ki, islam dünyasında torpaq və ondan istifadə məsələsinə olduqca zəruri, toxunulmaz və müqəddəs bir nemət kimi baxılır. Bir tərəfdən torpaq, yalnız Ulu Yaradanın mülkiyyəti kimi qəbul edilir, digər tərəfdən ona təsərrüfat obyekti kimi sahibolma prinsipləri müəyyənləşdirilir. Şübhəsiz ki, mütləq mənada torpaq Allahındır. Lakin istifadəsinə, sahib olmasına sərəncam verməsinə görə torpaq nisbi mənada mülkiyyət obyektinə çevrilir.

Torpaq və ondan istifadə, onun insan həyatında, davranışında, fəaliyyətində oynadığı müstəsna rolu barədə Qurani Kərimin 7. Əl-Əraf surəsinin 10-cu, 12. Yusif surəsinin 105-ci, 3. Ər-Rəd surəsinin 4-cü, 20. Taha surəsinin 53-cü, 55-ci, 77. Əl-Mursəlat surəsinin 25-ci, 26-cı, 79. Ən-Naziat surəsinin 30-cu, 31-ci, 80. Əbəsə surəsinin 24-cü, 31-ci ayələrindən çox asanlıqla faydalanmaq olar.

Peyğəmbərin (s.ə.s.) sağlığında və onun vəfatından sonrakı dövrlərdə torpaq dörd kateqoriyaya bölünmüşdü: birinci kateqoriyaya əkin üçün yaralı olan torpaqlar, ikinci kateqoriyaya islamı qəbul etmiş şəxslərin torpaqları, üçüncü kateqoriyaya döyüşlər zamanı alınmış torpaqlar, dördüncüsü xərac vergisi alınan torpaqlardır. Torpaqların hər dörd kateqoriyası üçün onların əkinə yararlı vəziyyətə salınması, faydalı istifadəyə cəlb olunması, icarəyə verilməsi zərurəti mövcuddur.

Hətta islamda həm vaxtilə əkilib-becərilmiş, sonralar satılmış torpaqların, həm də tam yararsız və heç kimin istifadəsində olmayan torpaqların istehsal dövriyyəsinə cəlbi zəruriliyi qeyd edilir. Bu torpaqlar "ölü torpaqlar", "yararsız torpaqlar" adlandırılsa da, onların istifadəyə və yararlı vəziyyətə salınması vacibliyi göstərilir. Belə torpaqların islamda yararlı hala salınması çox yüksək qiymətləndirilir.

Burada torpağın həm yararsız vəziyyəti, həm də orada yaşayan əhalinin ictimai vəziyyəti üçün daşıdığı əhəmiyyəti nəzərdə tutulur. Gələcəkdə kənd salmaq, biçənəklər, otlaqlar kimi istifadə oluna bilməsi zəruriliyi və s. ehtiyacların ödənilməsi müstəsna əhəmiyyət daşıyacaqsa, belə torpaqlardan istənilən

şəxsin, aparıcı din xadimlərinin icazəsi ilə istifadə etmək hüququ vardır. Ümumiyyətlə, islamda yararsız torpağı yararlı vəziyyətə salan şəxs həmin torpağın mülkiyyətçisinə çevrilir.

İslamda ticarət

Məhəmməd Peyğəmbər (s.ə.s.) gənc yaşlarından başlayaraq peyğəmbərlik dövrünə qədər ticarətlə məşğul olduğundan müsəlman dünyasında ticarət seçilən peşələrdən hesab olunurdu. Şəriət ticarətlə məşğul olanların fəaliyyətini tənzimləmək məqsədilə aşağıdakı şərtləri müəyyən edir:

– ticarətin aparılması qaydalarını bilməli;

– malın satışı zamanı müştərilərə qiymət fərqi qoymamalı;

– malların qiymətində sərt mövqe tutmamalı;

– məhsulların qiymətlərinin süni şişirdilməsinə yol verməməli;

– onunla alver edən şəxsin peşmanlığını qəbul etməli.

Ticarət aparıldığı zaman hər iki tərəfin, istər satıcının, istərsə də alıcının müstəqil razılığa gəlmələrinə şəriət xüsusi üstünlük verir. Bununla əlaqədar satıcılarla alıcının şərtləri şəriətdə konkretləşdirilir:

– onlar həddi-büluğa çatıb, sağlam düşüncəli, müstəqil fəaliyyət göstərən olmalıdırlar;


– öz mallarını və əmlaklarını satmaq hüququna malik olmalıdırlar;

– ciddi alver niyyətləri olmalıdır;

– onları alver işinə məcbur edən olmamalıdır;

– aldığı və ya verdiyi malın ixtiyarı özündə olmalıdır.

Şəriət bu şərtləri müəyyən etməklə ekvivalent mal mübadiləsinin gedişatını tənzimləmək məqsədi güdür.



İmam Rza (ə) Hərəmi (Məşhəd, İran)

İslamda bank münasibətləri

İslamda birmənalı olaraq faizin alınması və verilməsi Qurani-Kərimdə göstərilən ayələrə uyğun qadağan edilmişdir. *"Allah alış-verişi halal, sələm almağı isə haram (qadağan) etmişdir..."* (2. 275). *"Allah səlləmi məhv edər, sədəqələri isə artırar"* (2. Əl-Bəqərə surəsi, ayə 2.276). Çünki mənfəət o halda mənimsənilə bilər ki, onun əldə olunmasında mübadilə və istehsal prosesi getmişdir.

İslam bank sistemi bu və ya digər layihənin həyata keçirilməsi üçün faizsiz kreditləşməni həyata keçirir. Bununla yanaşı, xarici ticarət əməliyyatlarını maliyyələşdirməklə əldə olunan mənfəətdə iştirak edir. İstər faiz-



"Əjdərbəy" məscidinin əsaslı təmir və yenidənqurmadan sonra açılışı

siz kreditləşmənin, istərsə də mənfəətdə iştirakda əldə olunan pay əməliyyatların sonunda müəyyənləşdirilir. Beləliklə, o əvvəlcədən müəyyən edilmiş faizdən, ribadan, sələmdən tam uzaqlaşa bilir.

Banklar daha çox ticarətlə bağlı idxal-ixrac əməliyyatlarını maliyyələşdirir. Burada onların əməliyyatda iştirakla əldə etdikləri mənfəətin payı faiz kimi deyil, ticarət mənfəəti kimi görünür.

İslamda bank sistemi öz fəaliyyət sistemini, əsasən, üç prinsip üzərində qurur:

1. Müdarabə.
2. Müşarəkə.
3. Murabəhə.

Əsasən hüquqi mahiyyət daşıyan bu məfhumlar bank işinin tənzimlənməsində əsas götürülür. *Müdarabə* prinsipi üçün bu və ya digər işin görülməsi, layihənin hazırlanması üçün (bir tərəfdən pul qoyulur, digər tərəfdən əmək) ideyanın, fəaliyyətin birləşməsi, ortaq bir işin, ticarətin aparılması mümkünləşir. Daha geniş mənada maliyyə kapitalı ilə sənaye kapitalının qovuşması nəticəsində ortaq işin görülməsi nəzərə alınır. *Müşarəkə* prinsipi iki tərəfin ortaqlığına əsaslanır. Yəni hər hansı layihənin həyata keçirilməsində partnyorla bankın əməkdaşlığa girməsi nəzərdə tutulur. Hər iki tərəf payçı kimi iştirak edir. Lakin belə şəraitdə partnyor bankın malını tədricən satın almaq imkanına malik olur. Bu zaman mənfəətdən pay qoyulmuş sərmayəyə görə deyil, ümumi faydaya görə bağlanmış sazişə əsasən götürülür. *Murabəhə* prinsipi klassik islam hüquqi anlayışıdır. O, əsasən satın alınan bir şeyin üzərinə iş görməyi əlavə etməklə, bir başqasına satılmasını nəzərdə tutur. Banka bu və ya digər malın alınmasına sifariş edən partnyor həmin malı bank vasitəsilə alır. Malı alan partnyor onu reallaşdıra bilmədikdə bank onu geri satın alır, müəyyən bir iş əlavə etməklə onu təkrar satır.

İslam bank sistemində əməliyyatların aparılması zamanı yalnız verilən borclara görə çox aşağı hədlərinin inzibati xidmət haqqı tutulur.

İslamda bank fəaliyyəti oğurluğun, aldatmanın, möhtəkirliyin, rüşvətin, qarətin, zorakı mənimsəmənin qarşısını alır. Pulun ənənəvi funksiyalarından olan malların qiymətləndirilməsinə ölçü vahidi rolunu oynamağa imkan yaradır.



Feysəl məscidi (İslamabad, Pakistan)

İslamda vergi

İslam dünyasında iqtisadiyyatın tənzimlənməsinin xüsusi üsullarından biri vergi sisteminin tətbiqidir. İslamda vergi sisteminin formalaşması prosesi Qurani Kərimdə göstərilən ayələr və Peyğəmbərin (s.ə.s.) əmrləri əsasında getmişdir.

Şəriət vergiyə cəlb olunmasının aşağıdakı formalarını müəyyən etmişdir:

– xüms;
– zəkat;
– zəkatəl;
– cizyə;
– xərac.

1. Xüms – qazancdan, mədənlərdən, xəzinələrdən, halal malın haramla qarışığından, dəniz dibindən çıxarılan daş-qaşdan, qeyri-müsəlmanın müsəlmandan satın aldığı torpaqdan, müharibədən əldə olunan qənimətdən, eləcə də ona bərabər tutulan illik gəlirin beşdə bir hissəsi. Xümsə İslam dininin qorunması və möhkəmlənməsinin maddi əsası olmaqla, dini işlərin yayılmasına və yoxsullara verilir. Miras qalmış əmlakdan, qadınlara verilən məhrdən xümsə tutulmur. İslam dünyasında təbəqələşmənin aradan qaldırılması, hər cür ayrı-seçkiliyin silinməsi, islam mənəviyyatının inkişafı və möhkəmləndirilməsi, vəqflərin formalaşması, islami əxlaq tərzinə uyğun gələn davranış qaydalarının müəyyənləşdirilməsində xümsə vergisi müstəsna rola malikdir.

2. *Zəkat* – təsərrüfat fəaliyyətini tənzimləyən iqtisadi mexanizm olmaqla həddi və vaxtı müəyyən olunmuş malın qırxda bir və ya 2,5 hissəsi. Onun başlıca məqsədi heç də dövlət büdcəsini formalaşdırmaq deyil, məcmu tələbi stimullaşdırmaqdan ibarətdir. Mal-dövlətin yalnız il ərzində qırxda bir hissəsinin verilməsi zərurəti göstərilir. Bu vergi növünə imkanlı adamlar, yoxsulluq səviyyəsindən qat-qat artıq yaşayan və fəaliyyət göstərənlər cəlb olunur. Zəkat vergisi dənli bitkilərə, giləmeyvə, daş-qaş və ev heyvanlarına tətbiq edilir. Şəriət zəkat vergisinin alınması üçün tətbiq olunan konkret adda məhsul növü müəyyən etmişdir: buğda, arpa, xurma, üzüm, qızıl, gümüş, dəvə, qaramal, qoyun-keçi. Zəkat vergisi ildə bir dəfə 11 aydan bir qırxda bir prinsipi ilə hesablanır. Lakin ilk dəfə zəkat vergisinə cəlb olunan 12 aydan sonra onu ödəyir. Çəltik və



Beytul Futuh məscidi (London, İngiltərə)

ləbyə üçün zəkat alınmır. Çəltik və ləbyə üçün nəyə görə vergi tutulmadığı barədə şəriətdə heç bir izahat yoxdur.

3. *Zəkat* – orucluğun başa çatması ilə ehtiyacını ödəyənlərin hər birinə 3 kq buğdaya, xurmaya, qarğıdalıya və s. bərabər tutulan məbləğ (fitrə). Ehtiyacı olanların, ailəsinin qazancını təmin edə bilməyən şəxslərin fitrə zəkatı verməsi vacib deyil.

4. Cizyə – müsəlman dövlətlərində yaşayan qeyri-müsəlmanlardan alınan can vergisi. Bu vergi növü müsəlman dövlətlərində yaşayan qeyri-müsəlmanların iqtisadi aktivliyinin artırılması ilə bağlıdır.

5. Xərac və ya uşr – torpaq vergisi, müəyyən edilmiş həddə əsasında məhsulun onda bir hissəsi. Bu vergi növü torpaqdan istifadənin səmərəliliyini artırır.

İslamda məşğulluq

Müasir dövrün ən ciddi problemlərindən biri məşğulluğun təmin olunmasıdır. Bu problem islam ölkələri üçün daha aktualdır. Çünki islam mənəviyyatı bir tərəfdən bütün insanların çalışmasını, səy göstərməsini, işləməsini təkidlə tələb edir, çünki işsizliyin artması mənəvi dəyərlərin itirilməsinin əsas səbəbi kimi təzahür edir.

Yoxsulluğun istər mikro, istərsə də makro səviyyədə aradan qaldırılması eyni mahiyyət daşımadığından ona müxtəlif səpkilərdən yanaşmaq lazımdır. Belə ki, islam iqtisadiyyatında yoxsulluğun aradan qaldırılmasının əsas istiqaməti möhkəm təməlli ailənin qurulması çərçivəsində təsərrüfatçılığın aparılması ilə müəyyənləşdirilir. Ailə-ev təsərrüfatı faydalı davranış qaydalarının özəyində durur, xüsusi mülkiyyəti möhkəmləndirir. Xüsusi mülkiyyətin həddi və hüdudu, eləcə də mənəvi dəyərlərin mənimsənilməsi səviyyəsindən asılı olaraq formalaşan islam ailəsi ilk öncə ev təsərrüfatının səmərəsini əsas meyar götürməlidir.

İslamda yoxsulluğun aradan qaldırılmasının mühüm istiqamətlərindən biri də qənaətbəxşçilik və israfçılığa yol verməməkdir. İslamda israfçılığa yol vermək xoşa gəlməyən hal kimi qiymətləndirilir. Fəaliyyətin hansı sahəsində olursa olsun, israfçılığa yol vermək birmənalı olaraq ömür-günü boş, hədər və faydasız yerə sərf etmək kimi bir şeydir. İsrafçılığa istər şəxsi, istərsə də dövlət işlərində son qoymağa dəyərli və əhəmiyyətli iş kimi baxılır. Həzrəti Mə-



"Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfrans (Bakı. 2011)

həmməd (ə.s.) məşhur *"Kimin iki günü bir-birinə bərabərdirsə, o ziyandadır"* kəlamı islam dünyasında müsəlmanları ardıcıl fəaliyyətlə daima dinamizmə, aktiv inkişaf etməyə sövq edir.

İslam iqtisadiyyatının mahiyyəti və məqsədi haqqında məlumatları əsas götürərək, onun prinsiplərinin üstün cəhətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:


Birinci qrupa İslam iqtisadi məqsədlərini əsaslandıran prinsiplər daxildir: azadlıq, ədalətlilik, bərabərlik, qardaşlıq.

İkinci qrupa iqtisadi fəaliyyəti əsaslandıran prinsiplər daxildir: çalışmaq, seçim, istehsal, bölgü, qazanc, nəzarət.

Üçüncü qrupa fərdi fəaliyyətin nəticəsini əsaslandıran prinsiplər daxildir: ehtiyac, sədəqə, rəqabət, qənaət, istifadə.


İslam iqtisadiyyatının məqsədi mənəvi dəyərlər əsasında cəmiyyət üzvlərinin ehtiyacını ödəyən məhsul və xidmətlər istehsalı və bölgüsünü həyata keçirməkdən ibarət olduğundan, iqtisadiyyat "səmərəli tələb" prinsipi ilə deyil, "ehtiyacların səmərəli ödənilməsi" prinsipi əsasında qurulur. Burada bütün əmək qabiliyyətli əhalinin faydalı məşğuliyyətinin təmin olunması vacib istiqamət kimi nəzərdə tutulur.

Dünya iqtisadiyyatında baş verən mütərəqqi irəliləyişlərin yalnız müəyyən inkişaf etmiş ölkələrə xas olması, onun ümumbəşəri dəyərə çevrilməməsi, bir çox millət və xalqların aclıq və səfalət içində yaşaması, kommersiya mənafelərinin müəyyənedici rolu islam iqtisadiyyatının öyrənilməsinə olan meyli qüvvətləndirir. Belə meyil bir çox mənafelərin həm reallaşması mexanizmini, həm də ziddiyyətli vəziyyətini tam aşkar etməyə imkan verir. Cəmiyyət həyatında iqtisadi davranış qaydaları təkcə mövcud iqtisadi resursların ehtiyat və istifadəsindən deyil, eləcə də mənəvi dəyərlərin mənimsənilməsi səviyyəsindən asılıdır. Mənəvi dəyərlərə söykənmək onu həyat tərzinə daxil etmək insanlara ən böyük uğur gətirən vasitədir. Ulu Tanrının insana bəxş etdiyi ağıl və zəka nəticəsində dünyanın bir sıra xalqları böyük uğur və qələbələrə nail olmuşlar. La-



Cama məscidi
(Dehli, Hindistan)

Əl-Əqsa məscidi
(Qüds, Fələstin)






Peyğəmbər məscidi
(Mədinə, Ərəbistan)



Sultan Əhməd məscidi (İstanbul, Türkiyə)



İstiqlal məscidi (Cakarta, İndoneziya)



Məscidi Tuba (Kəraçi, Pakistan)



II Həsən məscidi (Kasablanka, Mərakeş)

kin bu nailiyyətlər heç də həmin xalqların daxili potensialı hesabına olmamışdır. Deməli, islam iqtisadiyyatı açıq olmaqla, eyni zamanda bir-birini ötmək, rəqabət aparmağa imkan verən fəaliyyət dairəsidir.

İslam iqtisadi təfəkkürü insanın intellektual, fərdi fəaliyyətini yüksəltməklə, cəmiyyətin iqtisadi inkişaf qanunauyğunluqlarının üzə çıxarılmasına və onlardan istifadəyə imkan yaradır. Dünyada gedən qlobal xarakterli iqtisadi dəyişikliklər, dövranış qaydaları sübut edir ki, əhalinin həyat səviyyəsi təkcə seçilmiş iqtisadi modeldən deyil, eyni zamanda milli ənənələri formalaşdıran dini-mənəvi dəyərlərdən bilavasitə asılıdır. Azad düşüncə tərzinə, mənəvi saflığa hakim olan milli qeyrətli insanları yetişdirmək, mənəvi dəyərlərə əsaslanan iqtisadi inkişaf modeli islam iqtisadiyyatının əsas məqsədidir. Bəşəriyyət öz stabil inkişafının təmin olunmasında istifadə edəcəyi amillər cərgəsində mütləq ehtiyat mənbəyi kimi mövcud olan dini-mənəvi dəyərlər sistemindən bəhrələnməlidir. Ona görə də "İslam iqtisadiyyatı" və ona diqqətin artırılması təkcə müsəlman ölkələri üçün deyil, digər dini-mənəvi əqidəli ölkələr üçün də əhəmiyyətlidir.

İslam elmi dünyagörüşü islam dinini qəbul etmiş bütün xalqların mənəvi sərvəti əsasında formalaşmışdır. Təkcə onu demək kifayətdir ki, islam mənəvi dəyərləri, mədəniyyəti, ərəb, fars, türk dillərində qovuşmuş şəkildə sürətlə yayılmağa başlamışdır. Bunun nəticəsidir ki, islam dini-mənəvi dünyagörüşü, ruhu ilə cilalanmış, elm və bədii söz xəzinəsinin böyük yaradıcıları olan (İbn Rüşd, Əl-Fərabi, İbn-Sina, Biruni, Firdovsi, Rudəki, Cami, Nizami, Cəlaləddin Rumi, Ömər Xəyyam, Nəsirəddin Tusi, Əl-Qəzəli, Buxari, İbn Xaldun, Füzuli) və başqa bu kimi yüzlərlə dahi mütəfəkkirlərin hər biri ayrı-ayrılıqda islam mənəviyyatını zənginləşdirən parlaq ədəbi nümunələr yaratmışlar.

Dahi mütəfəkkirlərin islamın mənəvi meyarı ilə yaratdıqları sənət əsərlərinin bu gün də örnək kimi qəbulu, təbiət və cəmiyyət hadisələrinə onların müdaxilə edə bilməsi hazırda hər bir müasir islam əqidəli araşdırmaçıya imkan verir ki, onlar başqalarına az da olsa təsir göstərən elmi tədqiqatlar aparmağa nail olsunlar. Çünki islam çoxşaxəli bir hikmətdir, hər kəsin bu hikmətdən xəbərdar olması zəruri və faydalıdır. İslam hər kəsdə olan mənliyi üzə çıxardan, cahiliyyətdən xilas olub, əbədi varlığı dərk etməyə yol göstərən həqiqətdir.

Məhəmmədhəsən Meybullayev,
Cahandar Qədirov,
Təranə Qurbanova

İSLAM İNKİŞAF BANKI (İİB) – beynəlxalq maliyyə institutu. İİB-nin əsası 1973-cü ilin



dekabrında Ciddədə keçirilən müsəlman ölkələri maliyyə nazirlərinin konfransında qəbul olunmuş bəyannaməyə əsasən qoyulmuşdur və 1975-ci ildən fəaliyyət göstərir. Bank islam, şəriət qaydalarına riayət edən ölkələrə maliyyə yardımı göstərir. Bankın 56 üzvü var. Azərbaycan Respublikası İİB-ə 4 iyul 1992-ci ildə üzvlüyə qəbul edilmişdir. Bankda Azərbaycan tərəfdən müdir İqtisadi İnkişaf naziri, alternativ müdir isə maliyyə naziridir.

İİB enerji, yol-nəqliyyat, su təchizatı və bir sıra digər sektorlarda həyata keçirdiyi layihələrlə yanaşı özəl sektorda da layihələrin həyata keçirilməsində maraqlıdır.

İSLAM KREDİTİ *(ing. Islamic loan)* – şəriət qanunlarına uyğun olaraq verilən kredit. Kredit alana dair xüsusi tələblərin irəli sürülməsindən əlavə, banka verilmiş kreditlər üzrə faiz almaq şəriət qaydalarından kənar və ya islam əxlaqına zidd hesab olunduğu üçün qadağan edilir. Lakin bank maliyyələşdirdiyi layihədə bütün riskləri və faydaları bölüşmək şərti ilə payçı kimi iştirak edərək kredit fəaliyyətindən gəlir qazanmaq hüququna malikdir. Bank həmçinin məhsulun alış qiyməti ilə satış qiyməti arasındakı fərqdən gəlir qazana bilər.

İS – LM TƏHLİL (ing. *analysis Investment / Saving – Liquidity / Money*) – əmtəə bazarında vəziyyəti maliyyə bazarında vəziyyətlə İS əyrisinin (bu əyrinin hər bir nöqtəsi faiz dərəcəsinin və real milli məhsulun planlaşdırılan yığımlara bərabər olan planlaşdırılan investisiyalarla əlaqəsini əks etdirir) və LM əyrisinin (bu əyrinin hər bir nöqtəsi faiz dərəcəsinin və real milli məhsulun pula tələbata bərabər olan pul təklifi ilə əlaqəsini əks etdirir) köməyi ilə əlaqələndirən makroiqtisadi təhlil.

Bu əyrilərin kəsişməsi o deməkdir ki, pul təklifi planlaşdırılan investisiyaları və planlaşdırılan yığımları tarazlaşdıran faiz dərəcəsi üçün kifayətdir. İS əyrisi planlaşdırılan məsrəflərlə bağlı olduğuna görə onun dəyişməsi fiskal siyasətdə dəyişikliyi əks etdirir. LM əyrisi monetar siyasətdə dəyişiklikləri əks etdirir, çünki o, pul təklifi ilə bağlıdır. Beləliklə, İS – LM təhlil fiskal və monetar siyasətin makroiqtisadiyyata qarşılıqlı təsirini qiymətləndirməyə imkan verir. İS – LM təhlil vasitələri 1930-cu illərdə C.R.Hiks və 1950-ci illərdə E.Hansen tərəfindən işlənib hazırlanmışdır.

İSMAYILOV ELDAR MƏMMƏD OĞLU (1954) – Azərbaycanın görkəmli iqtisadçı alimi, iqtisad elmləri üzrə fəlsəfə doktoru.

1976-cı ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) bitirmişdir. 1974-cü ildə Moskvada namizədlik dissertasiyası müdafiə etmişdir.



Əmək fəaliyyətinə Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunda başlamışdır. 1981-1985-ci illərdə Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda baş laborant və kiçik elmi işçi kimi çalışmışdır. 1985-1991-ci illərdə Bakı Ali Partiya Məktəbində dosent, 1991-1997-ci illərdə Bakı Politologiya və Sosial İdarəetmə İnstitutunda (indiki Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) kafedra müdiri vəzifələrində işləmişdir. 1992-1995-ci illərdə "Renessans" kommersiya bankının, 1996-cı ildən isə "Qafqaz İnkişaf Bankı" ASC-nin təsisçisi və prezidentidir. 1999-cu ildən Qafqazın Strateji Tədqiqatları İnstitutunun təsisçisi və direktoru, 2005-ci ildən "Mərkəzi Asiya və Qafqaz" sosial-siyasi tədqiqatlar jurnalının (İsveç) redaksiya şurasının sədri, 2006-cı ildən "Qafqaz və Qloballaşma" elmi məcmuəsinin təsisçisi və redaksiya şurasının sədri, Azərbaycan Banklar Assosiasiyasının prezidentidir. 7 elmi kitabın, 60-dan çox məqalənin müəllifidir.

Son illərdə dərc etdiyi elmi əsərlər arasında "Mərkəzi Qafqaz: tarix, siyasət, iqtisadiyyat" (V.Papava ilə müştərək, 2007), "Mərkəzi Avrasiya dövlətlərinin milli valyutaları: maliyyə qloballaşması kontekstində" (Stokholm, İsveç, 2009) və "Azərbaycanın post-konflikt əraziləri-

nin bərpası: konseptual əsaslar" (N.İmanovla müştərək, 2010) kitablarını qeyd etmək olar.

İSMAYILOV HAMLET YƏHYA OĞLU (1945-2005) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1977-ci ildə "İttifaq respublikalarında istehsal-yığım fondundan səmərəli istifadə edilməsi" mövzusunda namizədlik, 1988-ci ildə Moskva şəhərində, SSRİ Dövlət Plan Komitəsinin Planlaşdırma və Normativlər İnstitutunda "İqtisadi müstəqillik şəraitində İttifaq respublikalarında iqtisadi inkişafın idarə edilməsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1989-cu ildə professor elmi adını almışdır.



Bir neçə monoqrafiya, dərslik, dərs vəsaiti və 150-dən çox elmi məqalənin müəllifidir. Elmi rəhbərliyi altında 4 namizədlik, 1 doktorluq dissertasiyası müdafiə olunmuşdur. Əməkdar elm xadimidir.

1977-1979-cu illərdə keçmiş Dövlət Plan Komitəsində şöbə müdiri, 1979-1985-ci illərdə Dövlət Plan Komitəsi Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunun direktor müavini, 1985-1992-ci illərdə Dövlət Plan Komitəsi Normativ Tədqiqatlar Bürosunun direktoru olmuşdur. 1993-cü ildən ömrünün sonunadək Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri vəzifəsində çalışmışdır.

İSMAYILOV VƏLİ ASLAN OĞLU (1943) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1975-ci ildə "Səhiyyədə ictimai istehlak fondlarından istifadə olunması və onların sosial-iqtisadi faydalılığı" mövzusunda namizədlik, 1988-ci ildə "Müasir dövrdə əhalinin sağlamlığının qorunmasının sosial-iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir.



120-dən çox elmi əsərin, o cümlədən 4 monoqrafiyanın, 5 kitabın, 1 dərs vəsaitinin müəllifidir. Azərbaycan Memarlıq və İnşaat Universitetinin Marketinq və menecment kafedrasının professorudur.

İSRAFİLOV HƏSƏN ABİD OĞLU (1946) – Azərbaycan iqtisadçısı. 1970-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1981-ci ildə Kiyev Ticarət-İqtisad İnstitutunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Hazırda "Qloballaşma şəraitində istehlak kooperasiyalarının problemləri və perspektivləri" mövzusunda doktorluq dissertasiyasını başa çatdırmışdır. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda baş laborant vəzifəsindən başlayaraq müxtəlif illərdə müəllim, baş müəllim, Ticarət-əmtəəşünaslıq fakültəsinin dekan müavini, Kommersiya və Beynəlxalq iqtisadi münasibətlər fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 2005-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetində Magistratura mərkəzinin direktoru vəzifəsində işləyir.



Təhsildə əldə etdiyi nailiyyətlərə görə 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına, 2011-ci il 27 sentyabr tarixində isə "Tərəqqi" medalına layiq görülmüşdür.

100-dən çox elmi əsərin, o cümlədən "Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri" mövzusunda monoqrafiyanın, "Dünya iqtisadiyyatı" dərsliyinin və bir çox elmi məqalələrin müəllifidir.

İSTEBLİŞMENT – cəmiyyətdə dayanıqlı, möhkəm vəziyyət. İqtisadi, ictimai institutların və təşkilatların cəmiyyətdə üstün hakimiyyəti.

İSTEHLAK – istehsal edilmiş məhsul və göstərilmiş xidmətlərdən istifadəni xarakterizə edən iqtisadi anlayış. İqtisadi tələbatın ödənilməsi prosesində ictimai məhsulun istifadə edilməsi; təkrar istehsal prosesinin son fazası. İstehsal (məhsuldar) istehlakı və qeyri-istehsal istehlakı fərqləndirilir. Məhsuldar istehlak istehsal prosesində istehsal vasitələrinin istehlakı, həmçinin insanın iş qüvvəsinin (fiziki və mənəvi enerjisinin) sərfidir. Qeyri-istehsal istehlakı istehsal prosesindən kənarda baş verir. Bu prosesdə istehlak predmetlərindən istifadə edilir, yaxud onlar bütünlüklə istehlak olunur. Qeyri-istehsal istehlakı əhalinin istehlakına (yaxud şəxsi istehlaka) və ümumi ictimai tələbatın

ödənildiyi istehlaka bölünür. İstehlak maddi nemətlər istehlakından və xidmətlər istehlakından ibarətdir. İstehlak tələbatın ödənilməsi üsuluna görə fərdi və kollektiv (yaxud birgə) formada ola bilər. İstehlak təkrar istehsal prosesinin son fazası olmaqla onun digər fazaları – istehsal, bölgü və mübadilə ilə üzvi surətdə bağlıdır. İstehsalla istehlak vəhdətdir, belə ki, hər bir ölkədə istehlakın ümumi səviyyəsi həmişə məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə müəyyən edilir.

Aralıq istehlak və son istehlak kimi iki kateqoriyaya bölünür. Aralıq istehlak – müəyyən dövr ərzində istehsal edilən məhsul və göstərilən xidmətlərə sərf edilmiş xammal və materialların, xidmətlərin dəyərini səciyyələndirir. Əsas fondların amortizasiyası ona daxil edilmir. Son istehlak – ev təsərrüfatları, hüquqi və fiziki şəxslər (rezidentlər, o cümlədən dövlət idarəetmə orqanları və ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya və ictimai təşkilatlar) tərəfindən qeyri-istehsal məqsədləri üçün istifadə edilən məhsul və xidmətlərin dəyərini xarakterizə edir. MHS-də istifadə edilən göstəricidir.

Kollektiv istehlak – cəmiyyətdə ümumilikdə və ya ev təsərrüfatı qruplarında kollektiv istehlak olunan xidmətlərin həcmini əks etdirən MHS kateqoriyası. Məsələn, müdafiə, şəhərin abadlığı və s. xidmətlər. Ümumi halda kollektiv xidmətin göstərilməsində bu xidmətdən istifadə edən ev təsərrüfatlarının konkret razılığı tələb olunmur. Göstərilən kollektiv xidmətlərin ümumi miqdarı onların ayrı-ayrı ev təsərrüfatları tərəfindən istehlakının ölçüsündən asılı deyildir.

İSTEHLAK BÜDCƏSİ – əhalinin müxtəlif qruplarının mövcud həyat səviyyəsini xarakterizə edən ailənin pul gəlirləri və xərcləri balansı. Bütövlükdə və ayrı-ayrı sosial qruplar üzrə əhalini xarakterizə edən xüsusi seçimə əsasən müntəzəm olaraq statistika tərəfindən nəzərə alınır. Bu zaman gəlirlər bütün mümkün mənbələr üzrə (əmək ödənişləri, sahibkarlıq gəliri, mülkiyyətdən, şəxsi təsərrüfatdan, sənətkar məşğuliyyətindən və s. gəlirlər), xərclər isə bütün əsas istiqamətlər üzrə: yeməyə, sənaye mallarının alınmasına (cari və uzunmüddətli istifadə üçün), mənzil haqqının ödənilməsinə, məişət və sosial-mədəni xarakterli xidmətlərə görə müəyyən edilir. İstehlak büdcəsinin yekun maddəsi əhalinin əlində olan nağd pulun həcminin artmasıdır (azalmasıdır).

Azərbaycanda istehlak büdcəsini xarakterizə edən göstəricilər müxtəlif səviyyədən olan maddi təminatlı ailələrin pul gəlirlərinin və xərclərinin strukturunu müəyyən etmək üçün (kasıb, orta və yüksək təminatlı), həmçinin normativ istehlak büdcəsinin hesablanması zamanı: a) minimum yaşayış səviyyəsi, bu zaman fərdin bütün zəruri fizioloji tələbatları nəzərə alınır; b) cəmiyyətdə formalaşan minimum sosial standartların nəzərə alması ilə minimum istehlak büdcəsi ("istehlak səbəti"); yüksək təminatlı büdcə zamanı (istehsal və istehlakın müəyyən mərhələsində rasional maddi və mənəvi tələbatların tam ödənilməsi) istifadə olunur. Yaşayış minimumunun normativ büdcəsi dövlətin sosial siyasətinin və həyat səviyyəsi sahəsində sosial tənzimlənmənin mühüm elementidir.

İSTEHLAK CƏMİYYƏTİ – istehlak kooperasiyasının əsas aşağı halqalarından biri. Ticarət, tədarük, istehsal və digər təsərrüfat fəaliyyətini həyata keçirir. Cəmiyyət üzvlərinin sayı 3 nəfərdən az ola bilməz. İstehlak cəmiyyətinin üzvləri – payçıları 16 yaşına çatan vətəndaşlar, hüquqi şəxslər, o cümlədən istehlak cəmiyyətinin əmlakının bazasında yaradılan təsərrüfat cəmiyyətidir.

İstehlak cəmiyyəti hüquqi şəxslərin qeydiyyatı haqqında qanunla müəyyən olunmuş qaydada qeydiyyata alınır. İstehlak cəmiyyətinin mülkiyyətinin hüquqi subyekti hüquqi şəxs kimi cəmiyyətdir. İstehlak cəmiyyətinin mülkiyyətində payçıların üzvlük haqları hesabına yaranan əmlak, sahibkarlıq fəaliyyəti nəticəsində əldə olunan gəlirlər, qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına gəlirlər, həmçinin qanuna uyğun olaraq, fiziki və hüquqi şəxslərə aid ola bilməyən əmlakı çıxmaq şərtilə, istənilən digər əmlak olur.

Payçıların ilkin üzvlük haqları istehlak cəmiyyətinin fəaliyyətinin yaradılması və təşkili üzrə məsrəflərin ödənilməsinə sərf olunur. İlkin üzvlük haqlarının ölçüsü, ödənilmə qaydası və müddəti nizamnamə ilə müəyyən olunur.

Payçı cəmiyyətdən çıxarkən

üzvlük haqqı geri qaytarılmır. Pay haqları pay fondunu təşkil edir. İstehlak cəmiyyətində pay fondundan əlavə, ehtiyat, pensiya fondları, xüsusi təyinatlı fondlar, istehsal və sosial inkişaf fondları, əlillərə, şagirdlərə yardım fondu, mənzil fondu, kadrların hazırlıq fondu və s. yaradılır. İstehlak fondunun üzvləri illik balansın təsdiq edilməsindən sonra 3 ay ərzində yaranan itkiləri əlavə üzvlük haqları hesabına ödəməlidirlər. Bu öhdəlik yerinə yetirilməzsə, istehlak cəmiyyəti kreditorun tələbi üzrə məhkəmə qaydasında ləğv oluna bilər.

İstehlak cəmiyyətinin fəaliyyəti onun ali orqanı tərəfindən qəbul edilən nizamnamə ilə müəyyən edilir və tənzimlənir. İstehlak cəmiyyətinin nizamnaməsi, xüsusilə kooperativ üzvlərinin pay haqlarının ölçüsü haqqında; kooperativ üzvlərinin pay haqlarının tərkibi və keçirilməsinin qaydası, pay haqlarının keçirilməsi üzrə öhdəliklərin pozulmasına görə məsuliyyət haqqında və s. məlumatları ehtiva edir.

İstehlak cəmiyyətinin ali orqanı payçıların ümumi yığıncağıdır. Ümumi yığıncağın tam səlahiyyətinə aiddir: cəmiyyətin nizamnaməsinin qəbul edilməsi, ona dəyişiklik və əlavələrin edilməsi; ilkin və pay haqlarının ölçüsünün müəyyən edilməsi; istehlak cəmiyyətinin sərəncamverici və nəzarət orqanlarının təşkili; onların fəaliyyəti haqqında hesabatın dinlənilməsi; onların saxlanması üçün vəsaitlərin müəyyən edilməsi; ittifaqların yaradılması haqqında məsələlərin həlli və s. Ümumi yığıncağın tam səlahiyyətinə aid olan məsələlərə sərəncamverici orqanda baxıla bilməz.

Payçıların (və ya onların səlahiyyətli şəxslərinin) ümumi yığıncağı o zaman səlahiyyətli hesab edilir ki, burada bütün payçıların (və ya onların səlahiyyətli şəxslərinin) 50%-dən çoxu iştirak etsin. Ümumi yığıncağın qərarlarına payçıların (və ya onların səlahiyyətli şəxslərinin) 50%-dən çoxu səs verdikdə qəbul edilmiş hesab edilir. Ümumi yığıncaq tərəfindən qərar qəbul edilən zaman payçı bir səsə malik olur. İstehlak cəmiyyətinin payçıları malların alışı, satışı, şəxsi təsərrüfatın məhsullarının istehlak cəmiyyətinin təşkilatları tərəfindən yenidən işlənməsi zamanı üstünlüyə malik olur. Payçı istehlak cəmiyyətində ilk növbədə işə qəbul olunmaq, mənfəətin bir hissəsini almaq hüququna malikdir.

İstehlak cəmiyyəti payçıların qərarı ilə istehlak cəmiyyəti ittifaqlarında birləşə bilər, onlar istehlak cəmiyyətinin fəaliyyətinin dürüstləşdirilməsi, hüquqlarının müdafiəsinin təmin edilməsi, dövlət və digər orqanlarında maraqlarının qorunması, informasiya, hüquq və digər xidmətlərin göstərilməsi, həmçinin beynəlxalq kooperativ hərəkatında iştirak və s. məqsədlərlə yaradılır.

İSTEHLAK CƏMİYYƏTLƏRİNİN BEYNƏLXALQ KONFEDERASİYASI (İCBK) – qeyri-hökumət təşkilatı. 1989-cu ildə keçmiş SSRİ-nin 40 regionundakı istehlak təşkilatlarının nümayəndələri tərəfindən təsis edilmiş SSRİ İstehlakçı Cəmiyyətləri Federasiyasının hüquqi varisi. 1992-ci ildən beynəlxalq ictimai təşkilatdır. Rəhbər orqanları və mənzil-qərargahı Moskvada yerləşir. İCBK Müstəqil Dövlətlər Birliyi üzvü olan 5 ölkənin – Rusiya, Belarus, Qazaxıstan, Türkmənistan və Gürcüstanın 80-ə yaxın regional təşkilatını və 8 milli təşkilatını birləşdirir.

İCBK-nın əsas vəzifəsi onun himayəsi altında işləyən müstəqil peşəkarlar (hüquqşünaslar, iqtisadçılar və s.) tərəfindən istehlakçılara dəstək verilməsi yolu ilə onların hüquq və mənafelərini müdafiə etmək, həmçinin konfederasiyanın üzvü olan istehlakçı təşkilatların səylərini əlaqələndirməkdir.

İCBK istehlakçıların əmtəə və xidmətlərin çeşidi və keyfiyyəti barədə obyektiv informasiya ilə təmin olunmasına kömək edir; üzvlərinin qanuni mənafelərini dövlət və qeyri-dövlət orqanlarında təmsil və müdafiə edir; istehlakçıların qanuni hüquqları pozulduqda onlara hüquqi yardım göstərir; əmtəə və xidmətlərin çeşidinin və keyfiyyətinin, qiymətlərin əsaslandırılmış olmasının müstəqil ictimai istehlak ekspertizasının təşkilinə şərait yaradır; qiymət siyasətinin təhlil edilməsində, qiymətəmələgəlmə metodikalarının və qiymətlərə nəzarət metodlarının işlənib hazırlanmasında dövlət orqanlarına kömək edir; istehlakçıların mənafelərinə toxunan problemlər (qiymətlər, vergilər, qanun layihələri, normativ aktlar) üzrə elmi araşdırmaların genişlənməsinə kömək edir və s.

İCBK-nin prioritetlərindən biri istehlakçıların geniş dairələrini biznes və dövlət orqanları tərə-

findən hüquqa zidd əməllərdən qorumaqdır. Onun fəaliyyətinin ən mühüm istiqaməti istehlakçıların hüquqlarının konkret pozuntularına qarşı kütləvi kampaniyalar keçirməkdən ibarətdir.

İCBK çərçivəsində İCBK-nın və Beynəlxalq Vəkillər Konfederasiyasının "Advokatskaya palata", "Advokat potrebitelya" adlı hüquq məsləhətxanaları fəaliyyət göstərir. İCBK-nın hüquqşünasları MDB ölkələrində istehlakçı hüquqlarının müdafiəsinə yönəlmiş qanunvericilik aktlarının işlənib hazırlanmasında fəal iştirak edirlər. Rusiyada maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunması, istehlakçıların təhsilinin inkişafı, maliyyə sahəsində yalnız öz üzvlərinə məxsus olan, onlar tərəfindən idarə edilən və onlara xidmətlər göstərən istehlak kooperativlərinin inkişafı ilə bağlı iş aparılır.

İCBK-nın ali orqanı ən geci 3 ildə bir dəfə çağırılan istehlakçı cəmiyyətlərinin konqresidir. Konqresin səlahiyyətlərinə bu məsələlər daxildir: prezidentin, vitse-prezidentlərin və təftiş komissiyasının seçilməsi; əsas fəaliyyət istiqamətlərinin, perspektiv planların təsdiq edilməsi və s. konqreslər arasındakı dövrdə konfederasiyanın fəaliyyətinə əlaqələndirmə şurası rəhbərlik edir. Şuranın səlahiyyət müddəti 3 ildir. Əlaqələndirmə şurası prezidentin təqdimatına əsasən konfederasiyanın cari fəaliyyətinin təmin edilməsi üçün idarə heyəti seçir.

İSTEHLAK DƏYƏRİ – əmək məhsulunun (təbiət cisminin) insanın hər hansı bir tələbatını ödəmək qabiliyyəti. İstehlak dəyərlərinin məcmusu ümumi daxili məhsulun (ÜDM) və milli gəlirin maddi-əşya məzmununu əmələ gətirir. İstehlak dəyəri anlayışı A.Smit tərəfindən "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqatlar" (1776) əsərində istifadə olunmaqla, iqtisad elmində tətbiq edilmişdir. Xüsusi iqtisadi hadisə kimi istehlak dəyəri hələ antik dövrlərdə Aristotel tərəfindən ayrılmış və tədqiq olunmuşdur. İstehlak dəyəri ikili təbiətə malikdir: bir tərəfdən, o, əmək məhsulunun xassələrini ehtiva edir ki, bunlarsız insanların tələbatı ödənilə bilməz, digər tərəfdən, müvafiq tələbatı özündə birləşdirir ki, bunların olmaması nəticəsində bu əmək məhsulu istehlakçı üçün heç bir maraq doğurmur. İstehlak dəyərinin bu iki qütblərinin hər hansı birində baş verən dəyişiklik istehlak dəyərinin özünü də dəyişdirir. İstehlak dəyərinin xassələri elm, istehsal və istehlakın inkişafı gedişində açılır. Öz-özlüyündə istehlak dəyəri əmtəəşünaslıq tərəfindən öyrənilir. Siyasi iqtisadda istehlak dəyəri insanların ictimai-istehsal münasibətlərinin təzahür forması kimi tədqiq olunur. İstehlak dəyəri iki əsas qrupa bölünür: maddi əmək məhsulları və xidmətlər. Xidmətlərin istehlak dəyərinin özünəməxsusluğu ondan ibarətdir ki, onların faydalılığı əşyanın xassələri ilə deyil (əşya məhsulunda olduğu kimi), canlı əməyin (məsələn, müəllimin, həkimin, musiqiçinin, aktyorun və s.) faydalılıq effekti ilə bağlıdır. Məhz xidmətin faydalılıq effekti xidmət əmtəə forması olan zaman alqı-satqı obyekti olur. Xidmətin istehlak dəyərinin əhəmiyyətini xüsusilə o cəhət sübut edir ki, inkişaf etmiş ölkələrdə istehlak xərclərinin ümumi həcmində xidmətlərin alınmasına çəkilən xərclərin payı 50%-dən artıqdır. Əmtəələrin istehlak dəyəri bu və ya digər əmək məhsulunun təbii xassələri ilə şərtlənən real istehlak dəyərlərinə və bazar iqtisadiyyatı şəraitində hər hansı bir istehlak dəyərinin əldə olunduğu ictimai formadan yaranan formal istehlak dəyərinə ayrılır. Formal istehlak dəyəri anlayışı K.Marks tərəfindən tətbiq edilmişdir. Formal istehlak dəyərinə əşyanın təbii xassələri ilə fondler (pul nişanlarının hazırlandığı kağız, metal və s.), pulun sosial-iqtisadi rolu ilə şərtlənən və müəyyən ictimai-istehlak münasibətinin əşya ifadəsi – dəyər kimi pulun istehlak dəyərini misal gətirmək olar. Üstün olaraq formal istehlak dəyərinə malik olan xeyli əmtəələr qrupu mövcuddur. Puldan başqa, bu, səhmlər, istiqrazlar, çeklər, veksellər, bonlar, sertifikatlar, əmtəə kimi iş qüvvəsi və s. ola bilər. Bütün istehlak dəyərləri onların istehlakına qədər prinsipcə potensiallıq xassəsinə malikdir. İstehlak dəyərinin məhsuldar qüvvələrin maddi ünsürlərinin təkrar istehsalında iştirak edən istehsal vəsaitlərinə və istehsalın şəxsi amilini təkrar istehsal edən şəxsi istehlak predmetlərinə bölünməsi ictimai təkrar istehsal prosesində müxtəlif istehlak dəyərlərinin roluna əsaslanır.

İstehlak zamanı, deməli, təkrar istehsal zamanı fərqlər nöqteyi-

nəzərindən istehlak dəyərləri qısamüddətli və uzunmüddətli istifadə mallarına (əmtəələrinə) bölünür. Elmi-texniki tərəqqi sürətləndikcə, əmtəə bazarları zənginləşdikcə istehlak dəyəri sabit kəmiyyətdən istehsal olunmuş əmtəələrin nomenklaturasının, onların keyfiyyətinin sürətlə dəyişməsi, məhsulun diferensiasiyası və s. ilə əlaqədar olan dəyişən kəmiyyətə çevrilir və bu da istehlak dəyərini rəqabət mübarizəsinin ən mühüm alətinə çevrilir.

İSTEHLAK EDİLDİKCƏ TÜKƏNƏN ƏMTƏƏ – bir şəxsin əmtəəni istehlak etməsi digərlərinin həmin əmtəədən istehlak imkanlarını məhdudlaşdırır (bax: cədvəl 1).

İSTEHLAK EDİLMİŞ MİLLİ GƏLİR – il ərzində istehsal edilmiş milli gəlirdən təbii fəlakətin törətdiyi itkilərin, məhsulların saxlanılmasındakı ziyanların, xarici ticarət saldosunun fərqinin çıxılması başa dü - şülür.

İSTEHLAK FONDU – milli gəlirin qeyri-istehsal xarakterli şəxsi və ictimai tələbatın təmin edilməsi, eləcə də qeyri-istehsal sahəsinin təşkilatlarının və müəs - sisələrinin saxlanması üçün istifadə edilən hissəsi. Maddi nemətlərdən və xidmətlərdən ibarət olan istehlak fondunun yaranma mənbəyi – zəruri məhsullar və izafi məhsulun bir hissəsidir. İstehlak fondları əsasən ictimai istehsalın II bölməsində yaradılır. Bu bölmənin məhsulları qeyri-istehsal xarakterli istehlak üçün nəzərdə tutulmuşdur. Bu halda elmi-texniki inqilabın (ETİ) nailiyyətlərindən istifadə edilməsi əsasında istehsalın intensivliyi və səmərəliliyi artdıqca milli gəlirdə yığım fondunun nisbi payı azalır və istehlak fondlarının nisbi payı artır.

İstehlak fondu özünün təbii-əşya məzmununa görə istehlak predmetlərindən və xidmətlərdən ibarətdir. İstehlak fondlarının tərkibinə aşağıdakı elementlər daxildir: əhalinin maddi nemətləri və xidmətləri şəxsən istehlak etməsi; əhaliyə xidmət edən qeyri-istehsal sahəsinin müəssisələrində (maarif, səhiyyə, bədən tərbiyəsi və idman, mədəni və qeyri-istehsal tipli məişət xidməti, sərnişin nəqliyyatı və s.) maddi məsrəflər; bütövlükdə cəmiyyətə xidmət edən müəssisələrdə maddi məs-

Cədvəl 1

Azərbaycan SSR-də ictimai istehlak fondlarından əhaliyə ödənc və güzəştlər

İllər	1960	1965	1970	1975	1979
Cəmi ödənc və güzəştlər, milyon rubl	374,2	617,7	972,9	1453,0	1698,5
Onlardan, maarif (pulsuz təhsil, mədəni-maarifləndirmə işləri)	121,7	230,6	366,0	523,0	617,5
O cümlədən təqaüdlər	9,0	13,9	29,3	40,2	51,4
Səhiyyə və bədən tərbiyəsi (pulsuz tibbi yardım, sanator-kurort xidməti və s.)	81,6	113,3	152,1	187,7	233,3
Sosial təminat və sosial sığorta	126,0	194,9	318,4	552,8	610,7
O cümlədən pensiya	85,0	128,3	213,1	321,3	370,1
Müavinət	39,5	64,8	102,6	222,3	230,8
Yaşayış fondunun saxlanılmasına yönəldilən dövlət xərcləri (aşağı ev kirayəsi ilə ödənilə bilməyən hissəsi)	13,4	24,6	37,0	56,2	60,6
Hər adama düşən ödənc və güzəştlər, rubl	96,1	135,0	188,3	257,2	279,5

rəflər (idarəetmə, elm, müdafiə, təhlükəsizlik xidməti). İstehlak fondlarının maliyyələşdirilmə mənbələri əhalinin şəxsi gəlirlərindən, müəssisələrin gəlirlərindən və büdcə vəsaitlərindən ibarətdir.

İstehlak fondları onların yaranma metoduna və istifadənin sosial-iqtisadi formalarına görə aşağıdakı növlərə bölünür: əmək haqqı və gəlirlər fondu; ictimai istehlak fondu; ictimai təşkilatların və idarəetmə aparatının saxlanması fondu. Cəmiyyətin tərəqqisi, adətən, real əmək haqqının və gəlirlərin artması, istehlak predmetlərinin və xidmətlərin keyfiyyətinin artması, uzun müddət istifadə edilən mədəni-məişət təyinatlı istehlak predmetlərinin, qeyri-istehsal sahəsinin inkişaf etdirilməsi vasitələrinin qabaqlayıcı tərzdə inkişaf etməsi ilə müşayiət olunur. Lakin istehlak fondlarının artımının müəyyən həddi var, çünki əks halda yığım fondunun əsassız azaldılması baş verə bilər, bu isə geniş təkrar istehsalın və iqtisadi tərəqqinin maddi əsaslarını zəiflədər. Buna görə də istehlak fondu ilə yığım fondunun optimal əlaqələndirilməsinə çalışmaq lazımdır ki, həm iqtisadi tərəqqinin yüksək və davamlı sürəti, həm də həyat səviyyəsinin, əhalinin real gəlirlərinin və istehlakının artırılması təmin edilsin.

İSTEHLAK FUNKSİYASI – ictimai istehsalın və istehlak həcmlərini müəyyənləşdirən qarşılıqlı əlaqənin reallaşması. İstehlak funksiyası bir sıra amillərin təsiri altında reallaşır: natural istehlak təyinatlı məhsullar, nemətlərin və xidmətlərin keyfiyyəti, pərakəndə satış qiymətləri, əhalinin pul və digər gəlirləri və s. İqtisadi siyasət istehlak funksiyasının reallaşmasında məhsulun natural tərkibinin əhalinin ehtiyacına və onun tədiyyə qabiliyyətli tələbatına daha artıq dərəcədə müvafiq olmasına, əmtəə və xidmətlərin keyfiyyətinin təmin edilməsinə, sağlamlığın qorunmasına, saxta tələbatın məhdudlaşdırılmasına və başqa məqsədlərə yönəldir. Cəmiyyətin sosial-iqtisadi inkişafının hər bir növbəti mərhələsində istehlakın rolu və istehlak funkiyasının reallaşdırılmasının əhəmiyyəti artır.

İSTEHLAK KONSİLİUMU – istehlakçıların xüsusi olaraq seçildiyi qrupdur ki, onun sorğusu nəticəsində müəyyən vaxt kəsiyində onların (istehlakçıların) alıcılıq davranışı haqqında informasiya yığılır.

İSTEHLAK KOOPERASİYASI – iştirakçıların əmlak pay haqlarının köməyi ilə həyata keçirilən, maddi və digər tələbatlarının ödənilməsi məqsədi ilə könüllü üzvlük əsasında vətəndaşların və hüquqi şəxslərin birliyi. İstehlak kooperasiyasının təsərrüfat fəaliyyətinin məqsədi cəmiyyətin aztəminatlı təbəqələrinin və əhali qruplarının mənafelərinin sosial müdafiəsidir. İlk fəhlə və kəndli istehlak kooperativləri XVIII əsrin sonunda XIX əsrin əvvəllərində Böyük Britaniyada yaranmış və sonradan Fransada, Almaniyada, İtaliyada və Avropanın digər ölkələrində yayılmışdır. Rusiyada istehlak kooperasiyası təhkimçilik hüququnun ləğvindən sonra XIX əsrin 60-cı illərində meydana gəlmişdir. Oktyabr çevrilişindən (1917-ci il) sonra V.İ.Lenin kooperativ planına uyğun olaraq istehlak kooperasiyasından sosialist iqtisadiyyatının təsərrüfatçılıq alətlərindən biri kimi istifadə edilmişdir. Dövlət tənzimlənməsi və nəzarəti çərçivəsində keçmiş SSRİ-də istehlak kooperasiyasının təşkilati-təsərrüfat fəaliyyəti kifayət qədər geniş inkişaf etmişdir. İstehlak kooperasiyası kənd yerlərində ticarətlə yanaşı, kənd təsərrüfatı məhsullarının və xammalın tədarükünü, kolxozlardan və əhalidən onların artıq hissəsinin satın alınmasını, kənd təsərrüfatı məhsullarının emalını, çörək bişirməni, bir sıra xalq istehlakı mallarının istehsalını və s. həyata keçirirdi.

Azərbaycan Respublikasında kooperasiya fəaliyyəti, o cümlədən istehlak kooperasiyası "Kooperasiya haqqında" (1994) Azərbaycan Respublikası Qanunu ilə tənzimlənir. Son illər istehlak kooperasiyasının təşkilati formalarında struktur dəyişiklikləri baş vermiş, mərkəzləşdirilmiş idarəetmə sistemi, aşağı kooperativ halqaların yuxarı kooperativ orqanlara tabeçiliyi ləğv edilmiş, bir çox kooperativ təşkilatlar və ittifaqlar səhmdar cəmiyyətlərinə, assosiasiyalara, kiçik müəssisələrə, yoldaşlıqlara çevrilmiş, istehlak kooperasiyanın bir neçə təşkilatının mülkiyyəti özəlləşdirilmişdir.

İSTEHLAK KOOPERATİVİ – öz maddi və digər tələbatların ödənilməsi məqsədi ilə əmlak pay hüquqlarının birləşməsi yolu ilə vətəndaşlar tərəfindən yaradılan üzvlük sistemli qeyri-

kommersiya təşkilatı. Adətən, qanunvericiliyə görə istehlak kooperativinin nizamnaməsi – kooperativ üzvlərinin (iştirakçılarının) pay haqlarının ölçüsü haqqında; bu haqların köçürülmə tərkibi və qaydası haqqında və pay haqlarının köçürülməsi üzrə öhdəliklərin pozulmasına görə onların məsuliyyəti haqqında; istehlak kooperativini idarə etmə orqanlarının tərkibi, səlahiyyətləri və onların qəbul etdiyi qərarların qaydaları haqqında; dəymiş zərərin kooperativ üzvləri tərəfindən ödənilməsi haqqında şərtlər ehtiva olunur.

İstehlak kooperativinin üzvləri, adətən, illik balansın təsdiq olunmasından sonra 3 ay müddətində əlavə haqlar yolu ilə əmələ gələn zərərləri (itkiləri) ödəməlidirlər. Bu öhdəlik yerinə yetirilmədiyi halda kooperativ kreditorların tələbi ilə məhkəmə qaydasında ləğv oluna bilər. İstehlak kooperativinin üzvləri kooperativin hər bir üzvünün əlavə haqqın köçürülməmiş hissəsi hədlərində onun öhdəliklərinə görə birgə məsuliyyət daşıyır. Qanunvericiliyə və nizamnaməyə uyğun olaraq həyata keçirilən sahibkarlıq fəaliyyətindən istehlak kooperativinin əldə etdiyi gəlirlər onun üzvləri arasında bölüşdürülür.

İSTEHLAK KREDİTİ BANKI – əsasən kommersiya banklarından alınan kreditlər və uzunmüddətli istifadə üçün nəzərdə tutulan bahalı əmtəələrin (malların) alınması üçün qısamüddətli və ortamüddətli ssudaların alınması və s. hesabına fəaliyyət göstərən bank tipidir.

İSTEHLAK QİYMƏTLƏRİ İNDEKSİ – cari dövrdə istehlak mallarının və xidmətlərin təsbit olunmuş dəstinin dəyərinin bazis dövründə onun dəyərinə nisbətini ölçən nisbi statistik göstəricidir. Başqa sözlə, istehlak malları və xidmətləri (ərzaq malları, mənzil, sənaye kütləvi tələbat malları, yanacaq və s.) "səbəti"nin nisbi dinamik dəyər göstəricisidir. Ölkədə inflyasiya səviyyəsinin əsas göstəricisidir və hər ay hesablanır. Həmçinin ölkədə və onun regionlarında inflyasiya səviyyəsini xarakterizə edən başlıca operativ indikator rolunu oynayır. Adətən, istehlak qiymətləri indeksinin hesablanması zamanı zinət əşyalarının qiymətləri nəzərə alınmır. Monitorinq – məhdud dairədə əmtəə və xidmətlər üzrə istehlak qiymətlərinin dinamikası üzərində müntəzəm müşahidə üçün istifadə olunur. Bu indeksdən bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə – ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya və s. ölkələrin statistik təcrübəsində geniş tətbiq olunur. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) və "Ümumi bazar" ölkələrində ailə büdcələrinin statistikasının strukturu ilə əlaqədar indekslərin tərkibini böyük müqayisə etməkdən ötrü təmsilçi malların və onların qruplarının tərkibinin standartlaşmasına cəhd göstərilmişdir. Bir çox ölkələrdə (məs., Rusiyada) toplu (icmal) istehlak qiymətləri indeksi və regional indekslər kimi statistik orqanlar tərəfindən hesablanır. İstehlak qiymətləri indeksi həftəlik (operativ), aylıq, rüblük kimi, eləcə də əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə və ilin əvvəlindən müvafiq aya görə artan yekunla hesablanır.

İstehlak bazarında əmtəə və pullu xidmətlərin qiymətləri üzərində müşahidə və operativ istehlak qiymətləri indeksinin hesablanması prosesi aşağıdakı beş mərhələni ehtiva edir: baza ticarət və xidmət sferası müəssisələrinin seçilməsi; nümayəndələrin əmtəə və xidmətlərinin seçilməsi; qiymət və tariflərin qeydiyyatı; operativ istehlak qiymətləri indeksinin hesablanması üçün xüsusi çəkilərin strukturunun formalaşması; operativ istehlak qiymətləri indeksinin hesablanması.

Əsas növ əmtəə və pullu xidmətlərin qiymətləri, tarifləri səviyyəsi və dinamikası haqqında operativ informasiyanın alınması məqsədilə Rusiyanın 132 şəhərində (vilayət, diyar, respublika mərkəzləri, eləcə də sənaye mərkəzləri və digər şəhərlərdə) ticarət və xidmət sferası müəssisələrinin seçilmə şəbəkəsi üzrə onlar üzərində həftəlik müşahidələr aparılır. Qeydiyyat üçün bütün mülkiyyət növlərini və ticarət tiplərini əhatə edən həm şəhərin mərkəzi hissəsində, həm də onun kənarlarında yerləşən kütləvi tələblə müntəzəm fəaliyyəti həyata keçirən xidmət sferasının iri, orta və kiçik ticarət müəssisə və təşkilatları seçilir.

Müşahidə edilməklə 57 ərzaq malları, 40 qeyri-ərzaq malları, 25 növ pullu xidmətlər üzrə qiymət və tarifləri səviyyə və dəyişməsinin qeydiyyatı nəzərdə tutulur. Müqayisə məqsədilə toplu qruplar ərzaq malları, qeyri-ərzaq malları, həftəlik, aylıq

qiymət indekslərinin hesablanması üçün istehlak xərclərinin xüsusi çəkisi bir-birinə uyğun gəlməlidir.
Operativ istehlak qiymətləri indeksi Laspeyras formulu variantına görə hesablanır ki, burada əvvəlki dövrlə müqayisədə nisbi qiymət göstəricisindən istifadə olunur. Burada tətbiq olunan mərhələli metod əvəzetməni və yeni əmtəə və xidmətlərin hesablanmasını yüngülləşdirir.
Rusiyada 400-dən artıq əmtəə və xidmət qrupu üzrə respublika, diyar, vilayət və rayon mərkəzlərində hər ayın 15-dən 25-nə qədər keçirilən istehlak bazarında aylıq qeydiyyatdan istifadə etməklə istehlak qiymətləri indeksi hesablanır.
İSTEHLAK MALLARI (ing. *consumer goods* – istehlakçı mallar) – istehlak predmetlərinin məcmusu, başqa sözlə, son istehlak üçün, şəxsi, ailə və ya ev istifadəsi üçün nəzərdə tutulan əmtəə və xidmətlər. İki qrupa bölünür: ərzaq malları və qeyri-ərzaq malları. Ərzaq malları süd, balıq və ət məhsullarını, baqqaliyyə mallarını, meyvə, tərəvəz, taxıl məhsullarını və başqa qida məhsullarını əhatə edir. Adları çəkilən yarımqrupların hər birini təmsil edən ərzaq mallarının çeşidi kifayət qədər genişdir. Ərzaq malları istehsalı inkişaf etdikcə, bu malların təklifinin strukturu dəyişdikcə, əmtəə dövriyyəsi artdıqca, onun strukturu dəyişdikcə, idxal inkişaf etdikcə həmin malların siyahısı və çeşid strukturu da dəyişir. Bu proses əhalinin tələbatının artmasına və mürəkkəbləşməsinə uyğundur. Əhalinin qidalanma dinamikası və qidalanma strukturunun yaxşılaşması keyfiyyətli ərzaq mallarının xüsusi çəkisinin artması, onların kaloriliyi və tərkibindəki əsas qida elementlərinin miqdarı ilə səciyyəvidir. Qida məhsulları toplusunun əhəmiyyəti dəyişir. Qeyri-ərzaq mallarına parçalar, ayaqqabı, paltar; uzunmüddətli istifadə malları; mədəni məişət təyinatlı başqa mallar; gündəlik tələbat malları; tikinti materialları daxildir. Əmtəə istehlakının strukturu əhalinin gəlirlərinin artması ilə müəyyən edilir: qeyri-ərzaq mallarının alınması üçün xərclər daha sürətlə artır. Bu halda onların istehlakının strukturunda da mühüm dəyişikliklər baş verir: parça, ayaqqabı, paltar, gündəlik tələbat malları alınmasına çəkilən xərclərin nisbi payı azalır və uzunmüddətli istifadə mallarının alınmasına çəkilən xərclərin nisbi payı xeyli artır.
İSTEHLAK MALLARININ QİYMƏTİ – pərakəndə ticarətdə məhsul və xidmətlərin istehlakçılara çatdırılması üçün istifadə edilən iqtisadi anlayış. Ona məhsul və xidmətlərin dəyəri, nəqliyyat-daşıma xərcləri, ticarət əlavələri daxil edilir, məhsula görə vergilər isə (ƏDV, aksiz və s.) daxil edilmir.
İSTEHLAK MİNİMUMU – elmi nöqteyi-nəzərdən fərdin və ailənin minimal insani tələblərini ödəyən real alış qiymətlərində əmtəə və xidmətlər çeşidi.
İSTEHLAK SƏBƏTİ – orta statistik vətəndaşın fiziki qüvvəsini bərpa etmək üçün zəruri ərzaq çeşidi. İnsanın sağlamlığını və həyat fəaliyyətini təmin etmək üçün zəruri olan ərzaq məhsullarının, qeyri-ərzaq məhsullarının və xidmətlərin minimal toplusudur.
Buraya ərzaq çeşidi ilə yanaşı, qiymətləri əhəmiyyətli olmayan qeyri-ərzaq məhsulları və xidmətlər də daxildir.
İSTEHLAKÇI – şəxsi tələbatını ödəmək məqsədi ilə mal, iş və xidmətlərdən istifadə edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyəti olan şəxs.
İSTEHLAKÇI İNAMI İNDEKSİ – istehlakçı gözləmələrini əks etdirir. Ev təsərrüfatlarının fərdi xərclərə meyilliyini göstərir. İndeks iki alt indeksdən ibarətdir: istehlakçılar tərəfindən cari şərtlərin qiymətləndirilməsi və gələcək gözləmələr (indeksin 60%-ni təşkil edir).
İSTEHLAKÇILARIN DAVRANIŞI NƏZƏRİYYƏSİ (ing. *theory c on consumer behavior*) – bəzi istehlakçıların istehlak nemətləri alarkən öz gəlirlərini bölüşdürdüyü şəraitdə davranışını təsvir edən nəzəriyyə.
İstehlakçı davranışı nəzəriyyəsinin əsas postulatı
Bu nəzəriyyənin əsas postulatı ondan ibarətdir ki, istehlakçılar sabit gəlirdən istifadə etməklə maksimum fayda götürməyə çalışırlar. İstehlakçı davranışı nəzəriyyəsi tələb əyrisinin mənfi meyli barədə suala cavab verir. Yəni qiymət nə qədər yüksək olsa, əmtəə və xidmətlərə tələb bir o qədər az olur.
İSTEHLAKÇILARIN GÖSTƏRİCİLƏR BAZASI – şirkətin məhsulunun alıcıları haqqında ətraflı məlumatların saxlandığı sistem.
İSTEHLAKÇILARIN TƏHLİLİ – istehlakçılar haqqında

göstəricilərin müəyyən olunduğu tədqiqat. Bura daxildir: göstərilən əmtəənin əsas alıcısı olan əhali qrupu və əmtəə seçimi zamanı onların istifadə etdikləri meyarlar. Yəni, onlar rəqiblərin təklifini necə qiymətləndirirlər və hansı əlamətlər üzrə onları müxtəlif seqmentlərə bölmək olar.

İSTEHLAKÇININ AKTİVİ – istehlakçının aldığı mal və ya xidmət üçün xərclənmiş məbləğ müqabilində gözləniləndən daha artıq təminat əldə etdiyi hal, istehlakçının müəyyən mənada əlavə təminatı. İstehlakçının aktivi ilə istehlakçının passivinin bərabərliyi istehlakçının təminat dərəcəsini əks etdirir və sahibkarın, yaxud onun reklam agentinin istehlakçılarla kommunikasiyalar sahəsində səylərinin səmərəsini qiymətləndirməyə imkan verir. İstehlakçının aktivi, bir qayda olaraq, alıcılar arasında anket sorğuları yolu ilə hesablanır.

İSTEHLAKÇININ HÜQUQLARININ MÜDAFİƏSİ – əmtəə və xidmət istehlakçılarının maraqlarının xüsusilə məhsul istehsalçıları və satıcıları tərəfindən pozulmasından qanunvericilik, inzibati və məhkəmə tərəfindən müdafiəsi.

Hamı tərəfindən qəbul edilən insan hüquqları çoxtərəfli beynəlxalq müqavilələrdə, beynəlxalq təşkilatların sənədlərində, xüsusilə də BMT-nin 1945-ci ildə qəbul etdiyi Nizamnaməsində, 1948-ci ildə İnsan hüquqlarının Ümumi bəyannaməsində, 1950-ci ildə İnsan hüquqlarının və azadlıqlarının müdafiəsinə dair Avropa konvensiyasında, 1966-cı ildə mülki və siyasi hüquqlara dair Beynəlxalq Paktda, yenə də 1966-cı ildə İqtisadi, sosial və mədəni hüquqlara dair beynəlxalq Paktda kifayət qədər geniş bəyan edilmişdir. Lakin bu sənədlərdə bilavasitə istehlakçı hüquqları onların təbiət tərəfindən insanlara bəxş edildiyi öz əksini tapmamışdır. İnsanın və insanlığın tarixində istehlakçı hüquqları dövlət səviyyəsində 1962-ci ildən ABŞ-ın daxili siyasətində, dövlətlərarası səviyyəyə 1975-ci ildən Avropa İqtisadi Birliyinin direktivlərində, beynəlxalq səviyyədə isə 1985-ci ildən BMT-nin Baş Assambleyasının yekun sənədində əksini tapmışdır. Ümumiyyətlə, beynəlxalq istehlakçı hərəkatı keçən əsrin 20-ci illərindən başlayaraq aktiv şəkildə formalaşmış və inkişaf etməyə başlamışdır. Əvvəlcə bir neçə ölkənin istehlakçı hüquqlarını müdafiə edən təşkilatlar arasında ikitərəfli əlaqələr yaranmış, beynəlxalq miqyasda isə Avropa İqtisadi Birliyinin və BMT-nin müxtəlif təşkilatlarında istehlakçı hüquqları ciddi müzakirələrə səbəb olmuşdur. Bütün bunlar 1960-cı ildə bir neçə dövlətin istehlakçı ittifaqlarının beynəlxalq təşkilatının yaranmasına səbəb oldu. Həmin təşkilat bütün dünya istehlakçılarını birləşdirməyi qarşısına məqsəd qoymuşdur. Görünür elə bu vəziyyət 1962-ci ildə ABŞ prezidenti Con Kennedini Amerika Konqresində istehlakçı hüquqlarının qorunmasına dair çıxışa təhrik etdi.

Amerika Birləşmiş Ştatlarının Konqresi malların və xidmətlərin təhlükəsizliyi, malların və xidmətlərin rəqabətə uyğun qiymətlərlə seçilməsi hüquqları barədə qanun qəbul etdi.

İstehlakçı hərəkatı və istehlakçı hüquqları Avropa ölkələrində daha aktiv inkişaf etdirildi. Xüsusilə də 25 may 1957-ci ildə Roma müqaviləsi ilə Avropa İqtisadi Birliyinin yaranması bu məsələnin inkişafına ciddi təsir göstərdi. 1962-ci ildə Avropa İqtisadi Birliyinə daxil olan ölkələrin Brüsseldə istehlakçıların Avropa Bürosu yaradıldı. İstehsalçı və istehlakçı münasibətlərinin kəskinləşməsi isə 1975-ci ildə Avropa İqtisadi Birliyinin Nazirlər Kabinetinin aşağıdakı istehlakçı hüquqlarının tanınmasına səbəb oldu:

– istehlakçının sağlamlığının və təhlükəsizliyinin müdafiəsi hüququ;
– istehlakçının iqtisadi maraqlarının müdafiəsi hüququ;
– istehlakçıya dəyən zərərin ödənilməsi hüququ;
– istehlakçının təhsil və məlumat almaq hüququ;
– istehlakçının təmsil edilmək hüququ.

1991-ci ildə Ümumdünya İstehlakçılar Təşkilatı istehlakçıların əsas 8 hüququnu elan etdi. Onlar aşağıdakılardır: əsas tələbatların ödənilməsi hüququ; əlverişli ətraf mühitdə yaşamaq hüququ; təhlükəsizlik hüququ; istehlakçıya dəyən zərərin ödənilməsi hüququ; eşidilmək hüququ; məlumat almaq hüququ; istehlakçı kimi təhsil almaq hüququ; seçmək hüququ.

Azərbaycan müstəqillik əldə etdikdən sonra keçən 20 il ərzində istehlakçı hüquqlarının müdafiəsinə dair xeyli işlər görülmüşdür. Ən başlıcası isə istehlakçı hüquqlarının bütün sahələ-

rinə dair qanunvericilik aktları qəbul edilmiş, dövlət nəzarət idarələri yaradılmışdır. İstehlakçıların hüquqlarının müdafiəsi ilə 1992-2001-ci illərdə Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi məşğul olmuşdur. Bu Komitə 1993-cü ildə qəbul edilmiş, "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında fəaliyyət göstərmişdir. Qanuna əsasən, istehlakçıların mənafeyinin pozulmasına gətirib çıxaran qeyri-qanuni fəaliyyətə aşağıdakılar daxildir:
– müstəqil təsərrüfat subyektləri tərəfindən istehsal edilən və satılan malların qiymətləri üzərində əsassız olaraq nəzarətin həyata keçirilməsi;
– idarəetmənin təşkilati strukturlarına rəqabətin məhdudlaşdırılmasına gətirib çıxaran səlahiyyətlərin verilməsi;
– respublikanın bölgələri arasında məhsul hərəkətinə əsassız qadağaların qoyulması;
– təsərrüfat subyektlərinin yerli bazara daxil olmasının məhdudlaşdırılması və kapital qoyuluşu üçün hüquqi, təşkilati və iqtisadi əngəllərin yaradılması;
– rəqabətin məhdudlaşdırılmasına səbəb ola bilən hallada, yerli təsərrüfat subyektlərinə birtərəfli üstünlük yaratmaq məqsədilə dövlət büdcəsinin vəsaitindən, həmçinin büdcədənkənar dövlət fondlarından istifadə edilməsi;
– yerli bazarda hökmran vəziyyətə (mövqeyə) malik yerli təsərrüfat subyektlərinə və ya onların birliklərinə birtərəfli qaydada üstünlük verən vergi güzəştlərinin və digər güzəştlərin müəyyənləşdirilməsi;
– yerli bazarda hökmran mövqe tutmağa səbəb olan təşkilati-idarə qurumlarının, yaxud holdinq şirkətlərinin yaradılması;
– ayrı-ayrı təsərrüfat subyektləri üçün rəqabətin məhdudlaşdırılmasına gətirib çıxaran yerli sifarişdən sui-istifadə edilməsi.
– süni qıtlıq yaratmaq, yaxud qiymətləri artırmaq məqsədilə istehsalın həcminin dəyişdirilməsi və əmtəələrin dövriyyədən çıxarılması;
– digər təsərrüfat subyektlərinin bazara daxil olmasına və ya bazarı tərk etməsinə əsassız maneələr yaradılması;
– bazarda əlavə üstünlük əldə etmək məqsədilə qiymətlərlə manipulyasiya edilməsi (onların yüksəldilməsi, azaldılması və ya bir səviyyədə saxlanılması);
– topdansatış və pərakəndə satış təsərrüfat subyektlərinin, qapalı satış şəbəkələrinin yaradılması.
Ölkəmizdə daxili bazarın keyfiyyətsiz və saxta mallardan qorunmasına dair daha geniş miqyaslı dövlət tədbirləri həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Fərmanına əsasən, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında İstehlak Bazarına Nəzarət üzrə Dövlət Xidməti idarəsi yaradılmışdır. Həmin xidmət istehlakçıların hüquqlarının dövlət tərəfindən qorunmasını təmin edən, istehlak bazarına, o cümlədən ticarət, məişət və xidmət sahələrində mövcud norma və qaydalara, malların (işlərin, xidmətlərin) keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanı kimi 2009-cu ilin iyun ayınadək fəaliyyət göstərmişdir. Respublikamızda aparılan iqtisadi islahatlara və struktur dəyişikliklərinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2009-cu il tarixli Fərmanına əsasən, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti yaradılmışdır. Son illərdə ölkədə istehlakçı hüquqlarının qorunmasını təmin edən kifayət qədər qanunvericilik aktları qəbul edilmiş və dövlət nəzarət idarələri fəaliyyət göstərir. Şübhəsiz, dövlət nəzarətinin təsiri o zaman səmərəli olur ki, eyni zamanda istehlakçılar da öz hüquqlarını bilsinlər və pozulmuş hüquqlarını bərpa etmək uğrunda mübarizə aparmağı bacarsınlar. İstehlakçıların müraciətlərinin təhlili göstərir ki, onlar malın və xidmətin seçilməsində çox vaxt səhvlərə yol verir, alqı-satqı və xidmət faktını təsdiqləyən sənədləri (kassa çeki, qəbz, zəmanət talonu, müqavilə və s.), keyfiyyəti şübhə doğuran malları alarkən onun mənşəyini və digər xüsusiyyətlərini təsdiq edən sənədləri tələb etmir. Malın (xidmətin) istismarının zəmanət müddətini və müqavilə şərtlərini lazımi qaydada razılaşdırmır və satıcı haqqında məlumatları (rekvizitləri) dəqiqləşdirmirlər.

Bunun əsas səbəblərindən biri istehlakçıların və satıcıların (xidmət göstərənin, iş görənin) öz hüquq və vəzifələrini lazımi səviyyədə bilməməsidir.

19 sentyabr 1995-ci ildə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə

minməsi ilə ölkəmizdə istehlakçı hüquqlarının qorunmasının hüquqi əsası qoyulmuşdur.

Qanuna əsasən, Azərbaycan Respublikası ərazisində istehlakçılar aşağıdakı hüquqlara malikdir: malların (işlərin, xidmətlərin) və onların istehsalçısının, icraçısının və satıcısının sərbəst seçilməsinə; istehlak etdikləri malların (işlərin, xidmətlərin) lazımi keyfiyyətdə olmasına; malların (işlərin, xidmətlərin) təhlükəsizliyinə; malların (işlərin, xidmətlərin) miqdarı, çeşidi və keyfiyyəti haqqında dolğun və düzgün məlumat əldə etməyə; qanunvericilikdə nəzərdə tutulan hallarda, lazımi keyfiyyəti olmayan, habelə insanların sağlamlığına, həyatına təhlükəli olan malların (işlərin, xidmətlərin) vurduğu zərərin ödənilməsinə; öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün səlahiyyətli dövlət orqanlarına və məhkəməyə müraciət etməyə; ictimai təşkilatlarda (istehlakçılar birliyində) birləşməyə.

İstehlakçıların bu hüquqları istehsalçı (icraçı, satıcı) tərəfindən pozularsa, istehlakçıya dəyən mənəvi ziyan günahkar tərəfindən ödənilməlidir. Ödənilən ziyanın dəyəri, qanunla başqa hal nəzərdə tutulmayıbsa, məhkəmə tərəfindən müəyyən edilir.

Dövlət istehlakçıların mənafelərinin müdafəsinə təminat verir, malların (işlərin, xidmətlərin) azad seçilməsinə imkan yaradır. İnsanların sağlamlığının və həyat tərzinin lazımi səviyyədə təminatı məqsədi ilə malların alınmasına və ya digər qanuni yolla təmin edilməsinə zəmanət verir. İstehlakçıların hüquqlarının dövlət müdafiəsini Azərbaycan Respublikasında istehlakçılar üçün nəzərdə tutulan malların (işlərin, xidmətlərin) keyfiyyətinə, təhlükəsizliyinə və istehlakçıların qanunla qorunan başqa hüquqlarının müdafiəsinə nəzarət edən müvafiq dövlət orqanları və məhkəmə öz səlahiyyətləri hüdudlarında həyata keçirir. "Yeyinti məhsulları haqqında", "Standartlaşdırma haqqında", "Reklam haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası qanunları istehlakçı hüquqlarının və ölkənin əmtəə bazarının qorunması yönümündə hüquqi bazanın yaradılmasına şərait yaradır. Bu qanunların və digər normativ hüquqi sənədlərin yaradılması respublikamızda bu sahədə görülən müsbət işlərdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 iyul tarixli, 343 saylı qərarına əsasən, bir sıra mallar ölkənin əmtəə bazarında dövriyyəyə buraxılmazdan əvvəl yoxlanılmalı və sertifikatlaşdırılmalıdır.

Respublikada istehlakçıların hüquqlarının qorunmasına xidmət edən bir çox qeyri-hökumət təşkilatları, o cümlədən Azad İstehlakçılar Birliyi fəaliyyət göstərir.

Azad İstehlakçılar Birliyi (AİB) 31 yanvar 1997-ci ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.

AİB – gəlirsiz işləyən qeyri-hökumət təşkilatıdır.

AİB-in əsas məqsədi istehlakçıların hüquqlarını qorumaq, əhali arasında maarifçilik işi aparmaqdır.

AİB-in bütün rayon şöbələrində və mərkəzi ofisində istehlakçı mübahisələrinin mediasiya vasitəsi ilə həlli həyata keçirilir.

AİB-in 21 mindən çox üzvü, 30 rayon nümayəndəliyi vardır. AİB 1998-ci ildən Beynəlxalq İstehlakçılar Təşkilatı "Consumers İnternational"ın üzvüdür və bu təşkilat vasitəsi ilə dünyanın 125 ölkəsi ilə əlaqə saxlayır. Həmçinin AİB 2006-cı ildən Birləşmiş Millətlər Təşkilatı (BMT) nəzdində WANGO və Ana südü ilə qidalanmaya dair beynəlxalq İBFAN təşkilatının üzvüdür.

AİB çoxsaylı beynəlxalq konfransların iştirakçısı və təşkilatçısıdır. AİB Azərbaycanı istehlakçı təşkilatlarının 2000-ci ildə Cənubi Afrikada keçirilən XVI və 2003-cü ildə Portuqaliyada keçirilən XVII, 2007-ci ildə Avstraliyada keçirilən XVIII Ümumdünya konqreslərində təmsil etmişdir.

1999-cu ildə AİB-in təşəbbüsü ilə istehlakçı hüquqlarını qoruyan Cənubi Qafqaz Respublikalarının Federasiyası təsis edilmişdir. AİB-in sədri bu qurumun vitse-prezidentidir. Bu qurumu təsis etməklə AİB Ermənistandan Azərbaycana gətirilən təhlükəli malların qarşısını almaq üçün səyləri birləşdirməyi əsas götürmüşdür.

AİB Azərbaycanın dövlət və hökumət qurumları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir.

Təşkilat istehlakçılar arasında maarifçilik işini daha da genişləndirmək üçün "İstehlakçının səsi" adlı qəzet nəşr edir.

AİB ölkəmizin tarixində ilk dəfə istehlakçı hüququnu qorumaq üçün məhkəmə iddialarının qal-

dırılması praktikasını həyata keçirir və əksər ölkələrdən fərqli olaraq, istehlakçıların hüququnu bütün instansiyalarda, o cümlədən məhkəmələrdə təmənnasız qoruyur.

Əhalinin maarifləndirilməsini yüksəltmək, insan həyatı və ətraf mühit üçün zərərli mal və xidmətlərin qarşısını almaq sahəsində xeyli iş görülmüşdür. 20 növə qədər təhlükəli mal və xidmət antireklam vasitəsi ilə əmtəə bazarından çıxarılmışdır. AİB-in apardığı fəal işlər nəticəsində Azərbaycanda uzun illər istehsal olunan, əhalini sağalmaz xəstəliklərə düçar edən filtrsiz siqaretlərin istehsalına son qoyulmuş, ölü körpə doğulmasına, qısaboyluluq və əqli çatışmazlığa səbəb olan yod çatışmazlığının qarşısı alınmış, duzun kütləvi yodlaşdırılmasına nail olunmuş, əhalini kütləvi surətdə aldadan 20-dən çox lotereya biznesinin fəaliyyətinin dayandırılmasına nail olunmuşdur. Bütün bu işlərin uğurla nəticələnməsində, əlbəttə ki, Azərbaycanın dövlət orqanlarının yaxın dəstəyi olmuşdur.

AİB-in apardığı maarifçilik işi sahəsində Bakı şəhərinin dükanlarından "Alınan mallar qaytarılmır və dəyişdirilmir" məzmunlu istehlakçı hüququnu pozan lövhələrin böyük əksəriyyəti yığışdırılmışdır.

Artıq 12 ildir ki, AİB 15 mart "Beynəlxalq İstehlakçılar" günnünü Bakının mərkəzi küçəsi ilə küçə nümayişi və ya dövlət orqanları ilə birgə tədbirlər keçirməklə qeyd edir. Bu zaman əhalinin daha fəal maariflənməsi üçün "Alarkən aldanma!", "Yararsız mallar rədd olsun" və s. şüarlardan istifadə edilir.

AİB kollegial idarə edilən qeyri-hökumət təşkilatıdır. Ali orqan ümumi yığıncaqdır. Ümumi yığıncaq kollektiv şuranı, təftiş komissiyasını, təşkilatın sədrini və müavini seçir. AİB-ə üzvlük pulsuzdur. Təşkilatın maliyyə mənbəyi beynəlxalq donorlardır. AİB-in tərkibində onlarla komissiya fəaliyyət göstərir. Bunlardan ərzaq mallarının təhlükəsizliyi, bank xidmətində istehlakçı hüquqları, kommunal xidmətlər üzrə komissiyaları göstərmək olar.

İSTEHLAKÇININ İZAFİ FAYDASI – alıcının ödəməyə hazır olduğu məbləğlə onun faktiki olaraq ödədiyi məbləğin fərqi. İstehlakçının izafi faydası satıcıya əmtəə üçün ödənilən məbləğ ilə satıcının məsrəfləri arasındakı fərq.


İSTEHLAKÇININ QİYMƏT İNDEKSİ (İQİ) – tipik istehlakçı tərəfindən alınan əmtəə və xidmətlərin ümumi dəyərinin ölçüsü.

İSTEHLAKÇININ MƏCMU DƏYƏRİ – şirkətin həmin istehlakçının onun müştərisi olduğu müddətdə malları almasından əldə etdiyi mənfəəti əks etdirir.

İSTEHLAKÇIYA TUŞLANMA – hər bir alıcıya bazarın ayrıca seqmenti kimi baxılan strategiya.


İSTEHLAKDA HƏYAT TSİKLİ NƏZƏRİYYƏSİ – Amerika iqtisadçısı, 1995-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Franko Modilyani tərəfindən irəli sürülmüşdür. Həyat tsikli nəzəriyyəsinin əsas ideyası uzunmüddətli dövrdə istehlaka orta meyilliyin sabitliyini izah etməkdən ibarətdir. Bu nəzəriyyə istehlakı subyektin bütün ömrü boyu apardığı planlaşdırmanın obyekti kimi nəzərdən keçirir. Yəni ev təsərrüfatları istehlakı cari gəlirlərdən deyil, bütün həyatları ərzində əldə edə biləcəkləri gəlirdən çıxış edərək planlaşdırırlar. İstehlak bir ildən artıq dövr ərzində, daha konkret desək, fərdin həyat tsikli dövründə gəlirin miqdarından asılıdır. Beləliklə, cari istehlak sərvətin funksiyasıdır. Bu da öz növbəsində əmək fəaliyyətindən əldə edilən gəlirdən daha tutumlu anlayışdır. Başqa

Qlobal qiymət indekslərinin dinamikası (2005=100)




Qrafik 1

Dünya bazarında neftin qiyməti, 1 barrel/ABŞ dolları



Qrafik 2

Azərbaycan Respublikasında istehlak qiymətlərinin indeksi (əvvəlki ilə nisbətən, faizlə)



Qrafik 3


Azərbaycan Respublikasında və onunla əməkdaşlıq edən ölkələrdə istehlak qiymətlərinin indeksi* (12 aylıq, faizlə, dekabr ayı)



Qrafik 4

sözlə desək, bütün həyat tsikli ərzində istehlaka orta meyil 1-ə bərabərdir və insan bütün həyatı ərzində onu sərəncamında olan gəlir qədər istehlak edir. Sərvət real maliyyə vəsaitlərinin cəmidir. Əgər insan çalışırsa, onun sərvəti artır, insan pensiyaya çıxanda sərvət azalır və əgər ömrünün sonunda onun sərvəti sıfra bərabər olmasa, bu sərvətin qalan hissəsi varislərə keçir. Sərəncamda olan gəlir ömrün orta çağında daha yüksək olur. Lakin bu nəzəriyyənin zəif cəhətləri də vardır. Onun tətbiqi yaşlı insanların əksəriyyətinin pensiyaya çıxandan sonra da sərvət toplamaqda davam etməsini, gənclərin əksəriyyətinin vəsait olmaması səbəbindən borcsuz yaşamağı bacarmamalarını tam nəzərə almır. Bu nöqsanlara gözlənilən gəlirin hesablanması metodikasının olmamasını da aid etmək olar.

Azərbaycan Respublikasında istehlak qiymətlərinin indeksi (əvvəlki ilə nisbətən, faizlə)



Qrafik 5

İSTEHSAL AMİLİ QİYMƏTİ – sahibkarın (müəssisənin) istehsalın əsas amillərini – torpağı, kapitalı, əməyi (iş qüvvəsini) aldığı qiymət. Torpağın qiyməti torpaq rentasının alınması hüququna görə haqdır; o hər il əldə olunan torpaq rentasının kəmiyyəti ilə düz, borc faizinin səviyyəsi ilə tərs mütənasibdir. Kapitalın bazar qiyməti faizin bazar norması ilə müəyyən olunur ki, bunun da səviyyəsi kapitallar bazarında tələb və təklifin nisbətindən asılıdır. Əməyin qiyməti – əmək haqqıdır ki, bunun da kəmiyyəti əmək bazarında tələb və təklifin nisbətindən, eləcə də əməyin ödənilməsi şərtləri və səviyyəsi haqqında kollektiv danışıqların gedişindən, həmkarlar ittifaqının siyasətindən asılıdır.

İSTEHSAL AMİLLƏRİ – məhsul buraxılışı üçün zəruri olan elementlər – əmtəə və xidmətlər – iqtisadi nemətlər istehsalında istifadə edilən vasitələr (əmtəə və xidmətlər şəklində). Torpaq, əmək və kapital klassik istehsal amilləri hesab edilir. Müasir iqtisad elmində sahibkarlıq qabiliyyəti də müstəqil amil hesab edilir. İstehsal amili kimi torpaq dedikdə, adətən, əmtəə və xidmətlərin istehsalı üçün zəruri olan bütün təbii resurslar nəzərdə tutulur. Əmək dedikdə iqtisadi nemətlərin yaradılmasına yönəlmiş məqsədəuyğun fəaliyyət başa düşülür. İstehsal amili kimi kapital dedikdə əmtəə və xidmətlərin istehsalı üçün istifadə edilən keçmiş əmək sayəsində yaradılmış xidmətlər nəzərdə tutulur. Buna görə də maliyyə kapitalı hesab edilən pul resursları ma-

liyyə kapitalı hesab edilir və müəyyən mənada şərti istehsal amilləri sayılır. Onlar yalnız potensial baxımdan istehsal amilləridir. Pulun istehsal amili olması üçün o, real kapitala – alətlərə, maşın və avadanlıqlara çevrilməlidir. Əmək resurslarının daha bir növü olan sahibkarlıq qabiliyyəti istehsalda spesifik rol oynadığına görə o, resurs kimi xüsusi ayrılır. Onun spesifik məzmunu bütün istehsal amillərini əmtəə və xidmətin vahid istehsal prosesi şəklində birləşdirmək funksiyasında üzə çıxır. Biznes fəaliyyətinin aparılması prosesində əsas qərarlar qəbul edilməsi; innovasiya, yə - ni yeni texniki, texnoloji və təşkilati qərarların seçimi və onların istehsal prosesində reallaşdırılması; risk funksiyası (sərmayə qoyulmuş vəsaitlərin, vaxtın, əməyin və işgüzar nüfuzun riskə məruz qalması) funk - siyaları da buraya aiddir. Son dövrlərdə daha bir spesifik istehsal amili kimi ayrıca qeyd edilən informasiya amilidir ki, o da bilik və məlumatların tənzimlənmiş sistemi kimi başa düşülür. İstehsal amilləri müəyyən hədlər daxilində eyni bir istehsal prosesi çərçivəsində birbirini qarşılıqlı əvəz edə bilər. Amilin məkanda yerdəyişməsi, eləcə də funksiyasının dəyişmə - si onun mobilliyi adlanır. Amil nə qədər çox çevik olsa, o, fir - ma üçün bir o qədər sərfəlidir. Mütləq mənada mobil amillər və əksinə, mobilliyi çox zəif, funksiyalarını əvəz etmək mümkün olmayan, bu əvəzetmənin çətin və ya həddən artıq faydasız olduğu amillər mövcuddur. Belə amillər barəsində deyirlər ki, onların tərkibində inhisar ele - menti vardır və buna müvafiq olaraq onlardan istifadə edilməsinə görə inhisar rentası ödənilməsi tələb olunur. Belə amillərə misal olaraq nadir peşə mütəxəssisləri, nadir istedadlar, xüsusi kənd təsərrüfatı bitkiləri (üzüm, çay) becərilməsi üçün yararlı torpaq sahələri, şəhərlərin mərkəzindəki torpaqlar və başqa amillər göstərilə bilər. Bütün istehsal amilləri üçün səciyyəvi olan həlledici xassə onların nadir olmasıdır. Məhz istehlakçıların qeyri-məhdud olması ilə müqayisədə bu amillərin məhdud miqdarda mövcudluğu iqtisadi səmərəlilik problemini aktuallaşdırır. Bu baxımdan iqtisad elmi ən ümumi və ən geniş mənada resurslardan (istehsal amillərindən) istifadənin səmərəliliyi haqqında elm hesab edilə bilər.

İSTEHSAL AMİLLƏRİNƏ TƏLƏBAT – istehsal amillərinə tələbatın törəmə xarakteri həmin amilə davamlı tələbatın aşağıdakı səbəblərdən asılı olması deməkdir:

1) malın yaradılması prosesində amilin məhsuldarlığı;

2) həmin amilin köməyi ilə istehsal edilmiş əmtəənin bazar dəyəri və ya qiyməti.

İstehsal amilinə tələbat həmin amilin hər bir əlavə vahidi üçün xərclər hazır malın satışından əldə edilən gəlirin daha çox və ya ən azı eyni artımları ilə xərcini çıxarana qədər tələbat əv - vəlki səviyyədə qalır. Deməli, əlavə istehsal amili almağın məqsədəuyğunluğu barədə qə - rar qəbul edilməsi amilin gəlirinin yuxarı həddinin (amilin əlavə vahidlərinin tətbiq edil - məsi hesabına müəssisənin ümumi gəlirinin artımının) və həmin amilin xərclərinin yuxarı həddinin nisbətindən (bu müəssisədə ümumi istehsal xərclərinin amilin əlavə vahidlərinin tətbiq edilməsi hesabına artmasından) asılıdır. Buradan belə nəticə çıxır ki, yeni istehsal amilinin gətirdiyi gəlirin yuxarı həddi onun xərclərinin yuxarı həddinə bərabər olana qədər həmin amilin əldə edilməsi firma üçün mənfəətli olacaqdır. Əgər istehsal amilinin gətirdiyi gəlirin yuxarı həddi həmin amil ilə bağlı xərclərin yuxarı həddindən azdırsa, firma bu amilin əlavə miqdarından mənfəətlə istifadə etmək imkanına malikdir. Əgər istehsal amilinin gətirdiyi gəlirin yuxarı həddi həmin amil ilə bağlı xərclərin yuxarı həddindən çox olarsa, firma mənfəət əldə etmək üçün bu amilin miqdarını azaltmalıdır.

İstehsal amilləri bazarından söhbət düşəndə çox vaxt belə hesab edirlər ki, istehsal amilinin hazır maldan əsas fərqi ondan son istifadənin xarakteridir. Lakin bu halda nəzərdən qaçırırlar ki, istehsal prosesində istehsal amilləri ilə xammal və materiallar arasında prinsipial fərq vardır. Həmin malların alınması və satılması ilə əlaqədar əqd yeni sahibin mülkiyyətinə bütünlüklə keçən istehlak nemətinin satılması aktı kimi sadədir. İstehsal amilləri öz mülkiyyətçilərinin gəlir mənbəyi olmaqla alıcıya yalnız müvəqqəti verilir, yəni istehsal firması həmin amilləri istifadə hüququ ilə alır. Bu halda alıcı həmin amillərin xidmətlərindən istifadə etdiyinə görə haqq ödəyir, lakin onları özünün tam

mülkiyyətinə keçirməyi qarşıya məqsəd qoymur. Bazar iqtisadiyyatı sistemində firmaların çox hissəsi borc kapitalından istifadə edir və işçi götürür. Əgər sahibkar öz əməyini və kapitalını işə sərf edirsə, iqtisadi məntiqə görə, o, istehsal amilləri bazarında bu amillərin tətbiqinin effektivliyi barədə formalaşan meyarları duyur. İstehsal amilləri adlanan resurslar çox müxtəlifdir və onları altqruplar şəklində birləşdirmək olar. İstehsal resurslarına tələbat törəmə tələbatdır, çünki o, son məhsula tələbatdan asılıdır.

Firma istehsal prosesində nə qədər çox resurs tətbiq edərsə, bir o qədər çox məhsul istehsal edər. Tətbiq edilən bütün digər resursların miqdarı sabit qaldıqda tətbiq edilən konkret resursun miqdarının artması onun hər bir əlavə vahidinin yaratdığı məhsulun yuxarı həddinin daha az qiymətinə müvafiqdir.

Əgər rəqib firma mənfəəti artırmağa çalışaraq əlavə resurs vahidinin cəlbi məsələsini həll edirsə, o, ilk növbədə bu tədbirin mənfəətə necə təsir göstərə biləcəyini hesablayır.

Firma əlavə miqdarda resurs tətbiq edildikdə məhsul buraxılışından alınmış əlavə mədaxili xərclərin artmış həcmi ilə müqayisə edir. Əlavə daxilolmaların həcmi həm malın qiymətindən, həm də resursun məhsulunun yuxarı həddindən asılıdır. Resursun əlavə vahidinin alınması üçün məsrəflər amil xərclərinin yuxarı həddi adlanır və həmin amilin qiymətinə bərabərdir. Mənfəət artımı sıfra bərabər olduqda o, özünün maksimumuna çatır.

İSTEHSAL AMİLLƏRİNİN SƏMƏRƏLİLİYİ (ing. *factors efficiency)* – istehsal funksiyalarının nəzəriyyəsində: istehsal amillərinin iqtisadi səmərə gətirmək qabiliyyəti və bu qabiliyyətin reallaşmasıdır. Mütləq istehsal amillərinin səmərəliliyi, yəni istehsal məhsulunun həcminin həmin amilin (əmək məhsuldarlığı, fond verimi) qiymətinə nisbəti və ən yüksək istehsal amillərinin səmərəliliyi növləri fərqləndirilir.

İSTEHSAL AVADANLIĞININ GÜCÜNÜN ÖLÇÜ VAHİDİ – bir zaman vahidində avadanlığın məhsuldarlığının ölçüsünün əsası kimi qəbul edilmiş kəmiyyətlər. İstehsal avadanlığının gücünün ölçü vahidinin konstruktiv forması, adətən, ölçü, həcm, çəki, uzunluq vahidlərinin və zaman vahidlərinin uyğunluğu ilə müəyyən olunur. Eyni növlü məhsul istehsal edən eynitipli avadanlığın gücü işçi sahənin ölçüsü ilə (məsələn, ekskavator üçün – çalovun həcmi ilə) və ya bir zaman vahidində işçi sahənin bir vahidinə düşən məhsulun miqdarı ilə ifadə edilir. Bəzi hallarda istehsal avadanlığının gücü fiziki güc vahidləri ilə ifadə edilir – kVt, a.g. və s.

İSTEHSAL BİRLİYİ, kombinat – ixtisaslaşmış vahid istehsal-təsərrüfat kompleksi; tərkibinə öz aralarında istehsal əlaqələri olan fabriklər, zavodlar, elmi-tədqiqat, konstruktor, texnoloji və s. təşkilatlar, mərkəzləşdirilmiş yardımçı və xidmət göstərən istehsal daxildir.

İSTEHSAL BOŞDAYANMASINDAN SIĞORTALANMA – sığorta növüdür ki, bunun şərtlərinə uyğun olaraq sığortaçı sığortalının istehsal fəaliyyətinin dayandırılması ilə əlaqədar itkiləri kompensasiya edir. Sığorta hadisələri kimi məhsul göndərilməməsi, tətillər, avadanlığın sınması və s. amillər üzündən istehsal boşdayanmaları nəzərdən keçirilə bilər. Sığortaçının məsuliyyət daşıdığı boşdayanma vaxtı, adətən, 3 aydan 24 aya qədər davam edir. Sığorta ödənişinin hesablanması zamanı ümumi prinsip ondan ibarətdir ki, o, sığortalının zənginləşməsinə gətirib çıxarmamalıdır: İtirilmiş mənfəətin həcmi boşdayanma ilə əlaqədar alınmayan gəlirin məbləği ilə bağlı hesablanır.

İSTEHSAL DEMOKRATİYASI – təşkilatda mühüm idarəetmə qərarlarının qəbul edilməsində sıravi əməkdaşların iştirakına əsaslanan idarəçilik siyasəti. Başqa sözlə, muzdlu işçinin idarəetmə subyekti kimi müəssisənin idarəetmə sisteminə daxil olması.

İşçilərin idarəetmə qərarlarının qəbulunda iştirakı müəyyən təşkilati sərbəstliyi özündə cəmləyir, bu isə hər bir işçinin əmək potensialından daha tam istifadə etməyə imkan verir. İdarəedən (rəhbər) müəssisə üzərində nəzarəti itirmədən, bir sıra ikinci dərəcəli funksiyaları siravi işçilərə tapşıraraq, özünü onlardan azad edir, bu, istehsalın "dar sahələrinin" spesifikliyini daha tam nəzərə almağa və özlərini idarəetmənin tam hüquqi iştirakçıları hesab edən siravi işçilərin təşkilati qabiliyyətlərindən istifadə etməyə imkan verir.

İstehsal demokratiyasının daha geniş forması – muxtar (avto-

nom) özünü idarə briqadasıdır. Müəssisə rəhbərliyi briqadaya planlaşmanın, nəzarətin, əməyin ödənişinin bir sıra funksiyalarını, işçilərin sərbəst seçim hüququnu verir. Belə briqadanın bütün üzvləri iş ritmini, işçilərin qarşılıqlı anlaşması əsasında əməyin bölgü və metodlarını birgə planlaşdırır, məhsulun keyfiyyətinə nəzarət edir, avadanlığa xidmət üzrə bir sıra köməkçi funksiyaları yerinə yetirirlər. Yaponiyada, sonra isə bütün dünyada "keyfiyyət dərnəkləri" – işçiləri və texnoloji bölmələrin mütəxəssislərini birləşdirən qeyri-formal təşkilati birliklər geniş yayıldı. "Keyfiyyət dərnəklərinin" növləri müxtəlifdir: problem qruplar, sex dərnəkləri, təşəbbüs qrupları, işçi qrupları və s. Lakin onlar üçün ümumi cəhətlər xarakterikdir – könüllü iştirak, tədbirlərin daimiliyi, müəssisələrin bölmələrinin bilavasitə fəaliyyəti və istehal prinsipləri üzrə formalaşması.

Bu formalarla yanaşı, firmanın aşağı istehsal demokratiyası öz fəhlə və qulluqçuları üçün istehsal problemlərinin qeyri-formal müzakirəsini, işçi qruplarını, planlaşma və idarəetməni həyata keçirən, işçi və müdiriyyətdən ibarət komitələr, əmək şəraitinin təmin edilməsi üzrə komissiyaları təşkil edir. İstehsal demokratiyası tədbirlərinə muzdlu personalla və müəssisənin müdiriyyəti arasında şəxsi əlaqələrin və qeyri-formal münasibətlərin tənzimlənməsi də aid edilə bilər.

Bir çox inkişaf etmiş ölkələrdə müəssisə personalının seçki əsasları ilə inzibati orqanlarda nümayəndəliyi mexanizmləri və onun hüquqi rəsmiləşdirilməsi formalaşır. Müəssisə səviyyəsində istehsal şuralarının, məsləhət komitələrinin, "işçi direktorları" sisteminin, personalın səhmdar cəmiyyətlərinin müşahidə şuralarında nümayəndəliklərin də istehsal demokratiyasının təcəssümüdür. Bəzi ölkələrdə sıravi işçilərin müəssisənin iqtisadi informasiyasına, onun nümayəndələrinin isə investisiya siyasəti, texniki kadr məsələləri, mənfəətin bölüşdürülməsi kimi idarəetmə problemlərinin həllinə daxil olması qanunvericiliklə genişlənmişdir. Bununla birlikdə, müəssisənin fəaliyyətində həm müdiriyyətin, həm də personalın nümayəndələrinin məsuliyyəti gücləndirilir. İstehsal demokratiyasının prinsipləri ən açıq ifadə edilmiş formada – təşkilatın fəlsəfəsi və ya özünəməxsus "korporativ mədəniyyət" şəklində ABŞ-da geniş yayılmış VSV menecmentində, Yaponiya şirkətlərinin (o cümlədən "Mitsubishi" firmasının) tətbiq etdiyi "Rinqi" prosedurunda; İBM korporasiyasında tətbiq edilən "İ" prinsiplərində və sosial-psixoloji oriyentasiyanın yüksək səviyyədə olduğu bir sıra başqa korporasiya və şirkətlərdə idarəçilik proseslərində təmsil olunmuşdur.

İSTEHSAL DÖVRİYYƏ FONDLARI – istehsal ehtiyatları, bitməmiş istehsal, öz ehtiyacları üçün istehsal edilmiş yarımfabrikatlar (detal, yığma, konstruksiya və s.) və gələcək dövrün xərclərinin (yeni məhsul istehsalı üçün xərclər – bu xərclər gələcəkdə istehsal olunacaq məhsul xərclərinə aid edilir) cəmində ehtiva olunur.

İSTEHSAL EDİLMİŞ MİLLİ GƏLİR – il ərzində yeni yaradılmış əmtəə və xidmətlərin ümumi həcmi başa düşülür.


İSTEHSAL EHTİYATLARI – istehlakçı müəssisəyə daxil olmuş, lakin iş yerinə hələ verilməmiş xammal, material, satın alınmış yarımfabrikat, yanacaq, alət və s. istehsal vasitələri. Ehtiyatlar natural göstəricilər (tonla, metrlə, ədədlə) və dəyər göstəriciləri ilə (manatla) ölçülür. İstehsal ehtiyatları cari sığorta və hazırlıq istehsal ehtiyatlarına bölünür. Cari ehtiyatlar materialların müəssisənin anbarına göndərilməsi arasındakı dövrdə istehsalın fasiləsizliyini təmin edir və onların istehsalda gündəlik istehlak həcmi ilə müəyyən olunur. Sığorta ehtiyatları malgöndərmə qrafikinin pozulması, yaxud mal göndərilməsinin azalması hallarında istehsalın müntəzəm təchizatı üçün qabaqcadan təyin olunur. Hazırlıq ehtiyatları istehsalın fasiləsiz təchizatının təmin edilməsi üçün yaradılır (bax: sxem 1).

İSTEHSAL FUNKSİYASI – hər hansı bir əmtəəni istehsal etmək üçün lazım olan amillərin miqdarı ilə şərtlənən həmin əmtəənin istehsal həcmi arasındakı əlaqəni göstərən funksiya.

İSTEHSAL GÜCLƏRİNDƏN İSTİFADƏ – ümumi məhsul istehsalının ümumi imkanlara olan nisbəti formasında hesablanır. Optimal səviyyə 80% ətrafındadır. Göstəricinin bu səviyyədən aşağı olması iqtisadiyyatın və valyutanın zəifləməsindən xəbər verir.

İSTEHSAL GÜCLƏRİNİN BALANSI – təkrar istehsalın vəziyyətindən və xüsusiyyətin-

İstehsal ehtiyatlarının istehsal prosesində funksional rolu və təyinatına görə təsnifatı



Sxem 1

dən, avadanlıqdan, yaxud əmək vasitələrinin digər növlərindən istifadə dərəcəsindən asılı olaraq istehsal gücünün dəyişməsini əks etdirən xüsusi balans. Hesabat və plan istehsal güclərinin balansı tərtib edilir. Sənaye məhsullarının konkret növlərinin buraxılışı üzrə istehsal güclərinin mövcudluğunu, hərəkətini və istifadəsini xarakterizə edən göstəricilər sistemi. İstehsal güclərinin balansı natural ifadədə tərtib olunur və dövrün başlanğıcında gücün mövcudluğu haqqında; dövr ərzində gücün artımı haqqında; dövrün sonuna gücün mövcudluğu haqqında; orta güc haqqında; bütövlükdə, o cümlədən rejim vaxtında istehsal olunmuş məhsul haqqında göstəriciləri ehtiva edir. İstehsal gücü müəssisələr və sahələr üzrə hesablanır. İstehsal gücünün həcmi yeni texnikanın tətbiqi, məhsulun nomenklaturasının, çeşidinin və iş rejiminin dəyişməsindən asılı olaraq vaxtaşırı dəqiqləşdirilir. Ayrı-ayrı müəssisənin eyni bir məhsul növü üzrə gücünün cəmi sahənin həmin məhsul növü üzrə istehsal gücünü təşkil edir. Sovet iqtisadi sistemində istehsal güclərinin balansı məhsulun planlaşdırılan həcmi ilə zəruri istehsal gücü arasında əlaqə yaratmaq üçün tərtib edilir, məhsul buraxılışı planını istehsal gücündən istifadə göstəriciləri ilə əsaslandırmağa və əsaslı vəsait qoyuluşunun daha səmərəli istiqamətlərini işləyib hazırlamağa imkan yaradırdı.

İSTEHSAL XƏRCLƏRİ – məhsul (iş, xidmət) hazırlanmasına çəkilən canlı və maddiləşmiş əmək məsrəflərinin məcmusu. Əmtəə-pul münasibətləri şəraitində dəyər formasında çıxış edir. İctimai istehsal xərcləri və müəssisənin əmtəə istehsalına çəkdiyi pul məsrəfləri fərqləndirilir. İctimai istehsal xərclərinə istehlak edilmiş istehsal vasitələrinin keçirilmiş dəyəri və bütün yeni yaradılmış dəyər daxildir. Bu xərclər əmtəə dəyərinə bərabərdir və əmtəənin qiymətini müəyyənləşdirərkən nəzərə alınır. Müəssisənin əmtəə istehsalına çəkdiyi pul məsrəfləri əmtəənin dəyərindən azdır. Bu xərclər məhsulun maya dəyəri kimi çıxış edir; maya dəyərinə isə istehlak edilmiş

maddi ehtiyatlara və işçilərin əməyinin ödənilməsinə çəkilən xərclər daxil edilir. İstehsal xərclərinin birbaşa, dolayı, şərti-dəyişən, şərti-daimi, əsas, əlavə, sadə, kompleks, son həddi növlərini fərqləndirirlər.

İSTEHSAL İMKANLARI HƏDDİ – mövcud olan istehsal amilləri və istehsal texnologiyasının tətbiqi yolu ilə iqtisadiyyatın əldə edə biləcəyi istehsal parametrlərinin həddi.


İSTEHSAL İSTİQAMƏTİ – ya firmanın məsrəflərinin azaldılmasına, ya da şirkətin müəyyən məqsədlərinə daxili istiqaməti olan biznes-yanaşmadır ki, bu zaman onun istehsal imkanları nəzərə alınır.

İSTEHSAL KOOPERASİYASI – 1. Kənd təsərrüfatında kənd təsərrüfatı kooperasiyasının növlərindən biri. 2. Sənayedə – fəhlə (industrial) və kustar-sənət (peşə) kooperasiyası (sənət kooperasiyası). Bir çox kapitalist ölkələrində (Danimarkada, Böyük Britaniyada – geyim, ayaqqabı istehsalında, Fransada, İtaliyada – mebel, parfümeriya, nəşriyyat işində) geniş yayılmışdır.

İSTEHSAL KOOPERATİVİ – başlıca olaraq qarşılıqlı yardım əsasında hər hansı bir işin ümumi aparılması məqsədi ilə bir neçə şəxsin könüllü birləşməsi əsasında yaranan təsərrüfat müəssisəsi. Bu mənada istehsal kooperativi (və ya əvvəllər onu kooperasiya adlandırırdılar) xalis kapitalist müəssisəsindən fərqlənir. İstehsal kooperativinin gəliri mənfəət deyil, çünki kooperativdə hər bir iştirakçı əvvəlcə öz əməyini, pulunu və əmlakını qoyur, sonra isə görülən işdən gəlirin ona çatan hissəsini alır ki, bu da əksər hallarda onun qoyduğu hissədən azdır. Baxmayaraq ki, fəaliyyət növlərindən asılı olaraq istehsal kooperativinin gəliri qismən kapitalist mənfəətini də özünə daxil edə bilər. İstehsal kooperativinin fərqləndirici xüsusiyyətlərinə aiddir: a) fərdi yox, kollektiv təsərrüfat; b) kapitalist mənfəətinin əldə edilməsi onun başlıca məqsədi deyil; c) könüllü birləşmə.

İstehsal kooperativi aşağıdakılara bölünür: a) istehlak cəmiyyətləri; b) satış yoldaşlıqları; c) tədarük yoldaşlıqları; ç) emal üzrə yoldaşlıqlar; d) tikinti cəmiyyətləri; e) istehsal-yardımçı artellər; ə) əmək artelləri; f) istehsal artelləri; h) kredit kooperativləri; g) qarşılıqlı sığorta cəmiyyətləri. Bir istehsal kooperativində kooperativ fəaliyyətin sadalanan formalarından iki və ya daha çoxu birləşə bilər. Bu zaman hər bir istehsal kooperativi həm səylərin, pul vəsaitlərinin və əmlakın birləşməsi, həm də gəlirlərin bölgüsü sahəsində öz spesifikliyinə malikdir. Hər bir kooperativ özü üçün nizamnamə tərtib edir və onun yerinə yetirilməsinə nəzarət edir. Keçmiş SSRİ-də kənd təsərrüfatı

İstehsal kooperativinin təşkilati sxemi



Sxem 1

kooperativinin nümunəvi nizamnaməsi mövcud idi. Onun əsasında bilavasitə hər bir konkret kooperativ üçün nizamnamə yaradılmışdı.

İSTEHSAL MÜNASİBƏTLƏRİ – həyat nemətlərinin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı prosesində insanlar arasında obyektiv olaraq formalaşan münasibətlər. İctimai məhsulun istehsaldan istehlaka doğru hərəkəti. İstehsal münasibətləri ictimai inkişafın bir mərhələsindən digərinə keçilməsində obyektiv meyar yaradır, bu isə bir-birini əvəz edən cəmiyyətin tarixi tiplərinin – ictimai-iqtisadi formasiyaların davamlılığını ayırmağa imkan verir.

İctimai istehsal prosesində insanlar arasında maddi-iqtisadi münasibətlərin məcmusu və ictimai məhsulun istehsaldan istehlaka doğru hərəkəti. Bu münasibətlər ictimai istehsalın zəruri tərəfidir. İstehsal münasibətləri öz ifadəsini insanların istehsal vasitələrinə münasibətində tapır.

İstehsal münasibətlərinin məcmusu cəmiyyətin iqtisadi strukturunu, real bazisini təşkil edir ki, bunun da üzərində hüquqi və siyasi üstqurum qurulur və ona da ictimai şüurun müəyyən forması uyğun gəlir. İstehsal münasibətlərində iki tərəf ayrılır. Birinci tərəf bilavasitə maddi istehsal qüvvələri ilə müəyyən olunan istehsal-texniki münasibətlərdir. Onlar texnologiyanın tələbatları və istehsalı təşkili ilə şərtlənir. Məsələn, müəssisə daxilində və cəmiyyət miqyasında əməyin texnoloji bölgüsü ilə bağlı olan müxtəlif ixtisaslı fəhlələr arasında, təşkilatçılar və icraçılar arasında münasibətlər. İstehsalda bu münasibətlərdən əlavə, istehsal münasibətləri adlandırılan istehsal-iqtisadi münasibətlər də formalaşır. İkinci tərəf istehsal-iqtisadi münasibətləridir; onlar istehsal-texniki münasibətlərdən onunla fərqlənir ki, insanların istehsal vasitələrinə münasibətlərini, yəni mülkiyyət münasibətlərini əks etdirir. Məlum olduğu kimi, istehsal münasibətlərinin bu tərəfi və mülkiyyət münasibətləri üst-üstə düşən anlayışlardır.

İSTEHSAL OLUNMAYAN AKTİVLƏR – MHS-in əsas göstəricilərindən biri. 2008-ci il MHS standartlarına görə istehsal olunmayan aktivlərə aşağıdakılar daxil edilir: 1) təbii ehtiyatlar (torpaq, mineral və enerji ehtiyatları, becərilməyən bioloji ehtiyatlar, yəni meşə fondu, yaşıllıqlar və s., su ehtiyatları, sair təbii ehtiyatlar, yəni radiotezliyi diapazonu və digərləri); 2) kontraktlar, icarə müqavilələri və lisenziyalar (hüquqda güzəştlər verməklə icarə əməliyyatlarının müqavilələri, təbii ehtiyatlardan istifadəyə icazələr, xüsusi fəaliyyət növlərinin həyata keçirilməsinə icazələr, gözlənilən əmtəə və xidmətlərə müstəsna hüququn verilməsi); 3) satışı istisna olmaqla, səmərəli fəaliyyət və şöhrət qazanmaq üçün icazə "qudvil" (goodwill) alınması (ticarət markası, şirkətin imicindən istifadə və s. məqsədlər üçün razılaşmalar əldə edilməsi).

İSTEHSAL SFERASI – son fəaliyyət nəticəsi maddi məhsul olan maddi istehsal sahələrinin məcmusu. İstehsal vasitələri və istehlak şeyləri istehsal edən sahələr. Bu sahələr istehsalın baza potensialıdır, ölkənin və bütövlükdə dünyanın ictimai həyatının bütün digər sferaları onun inkişafından asılıdır. Dünya ölkələri öz aralarında istehsal sahələrinin məhsulları ilə fəal mübadilə edirlər. Bunsuz bəşəriyyətin müasir həyatını təsəvvür etmək qeyri-mümkündür.

İstehsal sahələrinə yanacaq-energetika kompleksi də daxil olmaqla, sənayenin bütün sahələri, eləcə də tikinti, kənd təsərrüfatı, meşə təsərrüfatı, çay və dəniz təsərrüfatı aiddir. Bu sahələrə həmçinin məhz istehsal sahələrinin fəaliyyət göstərməsini təmin edən rabitə və nəqliyyat, eləcə də konkret məhsulu, yarımfabrikatı və ya aralıq məhsulu onun istehlakçısına çatdıran ticarət də daxildir ki, bunsuz təkrar istehsal tsiklini bitmiş hesab etmək olmaz.

Nəqliyyat, rabitə, anbar təsərrüfatı və ticarət məsrəflərinin dəyəri bazara çıxarılan hər hansı bir məhsulun son bazar dəyərində iştirak edir. Bəziləri hərbi sənaye sahələrinin istehsal sferasına daxil olması məsələsini mübahisəli hesab edirlər, baxmayaraq ki, bu sahələr son məhsul yaradır. Belə ki, bu sahələrin son məhsulu yalnız müharibə dövründə və həm də müdafiə vasitəsi kimi istifadə olunur. Bu sahələr faktiki olaraq əlavə dəyər yaratmır, əksinə, yalnız onu istehlak edir. Sovet sistemində yuxarıdakı təsnifatdan daha geniş istifadə olunurdu. İstehsal sferasında istehsalın genişlənməsinə, xidmət sferasının, elmin, mədəniyyətin, səhiyyənin və s. inkişafına ayrılan vəsaitlər yaradılır.

İstehsal sferasında çalışan işçilərin sayı, orada istifadə olunan əsas və dövriyyə fondlarının dəyəri, çalışan bir işçinin əmək məhsuldarlığı səviyyəsi göstəriciləri, eləcə də həcmin, elektrik enerjisinin, kömürün, neftin, metalların, maşınqayırma məhsullarının istehsalının, tikinti tərəfindən verilən sahələrin həcminin, xalq istehlakı mallarının, o cümlədən adambaşına düşən xalq istehlakı mallarının istehsalının natural göstəriciləri istehsal sferası sahələrinin inkişafı haqqında təxmini təsəvvür yaradır.

İSTEHSAL SİSTEMLƏRİ – bütün istehsal sistemlərinin fərqli olmasına baxmayaraq, onların iki əsas tipi vardır. Bu tiplərdən biri diskret istehsala, digəri fasiləsiz istehsala əsaslanır. İstehsal sisteminin xidmət etdiyi məhsulların tipi, növü və marketinq strategiyası bazardan asılıdır. Bununla bərabər, istehsal sistemləri çox müxtəlifdir. Diskret istehsalın ən geniş yayılmış nümunəsi sifarişlər üzrə işdir. Bu halda şirkət hər bir istehlakçının fərdi spesifikasiyası əsasında ixtisaslaşdırılmış məhsul istehsal edir. Fasiləsiz istehsala nümunə kimi axını göstərmək olar. Bu halda şirkət kütləvi şəkildə paylanmaq və realizə edilmək üçün eyni məhsulları istehsal edir. Məmulatların partiyalar şəklində istehsal edilməsi aralıq mövqe tutur. Bu halda şirkət əsas məmulatın müxtəlif versiyalarının buraxılması üçün axın xəttini dəyişir. Aydındır ki, sifariş və partiya seqmentləşdirilmiş marketinqə, axın isə öz növbəsində diferensiasiya edilməmiş marketinqə aiddir. Məmulatın və ya xidmətlərin bir vahidi üçün məsrəflərin səviyyəsi mühüm amil ola bilər: adətən, fasiləsiz sistem diskret sistemlə müqayisədə daha az məsrəf tələb edir. Bunun səbəbi isə odur ki, məhsulun miqdarına görə xüsusi avadanlıqdan istifadə edilməsi, əməyin ixtisaslaşdırılması və digər amillər hesabına məsrəflərə qənaət olunur. Məhsulun bir vahidinin saxlanması üçün məsrəflər fasiləsiz istehsal sistemlərində həmişə aşağı olur. Çünki xammalın ehtiyat kimi saxlanması müddəti qısadır, yarımfabrikat ehtiyatları isə tezliklə hazır məhsul formasına keçir.

İSTEHSAL STRUKTURU – istehsalın sahə qruplarına bölgüsüdür ki, bunun da əsasını istehsal amilləri: torpaq (təbii meşə və su resursları), əmək (məşğul olanların qabiliyyəti və peşəkar hazırlığı daxil olmaqla), kapital (maliyyə vəsaitləri, əsas və dövriyyə uçotları, aktivlər və ehtiyatlar), bütün formalarda sahibkarlıq fəaliyyəti təşkil edir.

Bu və ya digər amillərdən üstün istifadə edilməsindən asılı olaraq istehsal ilkin sektorlara – xammal resursları istehsal edən sahələrə: kənd təsərrüfatına, ovçuluğa, meşə və dağ-mədən sənayesinə, eləcə də müəyyən hissədə kimya sənayesinə (məsələn, kömürün qazlaşdırılması) bölünür. Bu qrupdan olan sahələrin aparıcı inkişaf amili torpaq, onun təki və sudur.

İkinci sektora emal sənayesinin sahələri və yol tikintisi aiddir ki, burada insan əməyi, əsas və dövriyyə fondları önəmli amillərdir.

İqtisadiyyatın üçüncü (və ya tersial) sektoru – nəqliyyat, anbar, maliyyə sığorta xidmətlərinin göstərilməsi, eləcə də sərbəst peşədən olan şəxslərin işləridir ki, burada başlıca amil dövriyyə, deməli, sahibkarlıq və maliyyə vəsaitləridir.

Bu struktur bölgüsü bir qədər şərtidir, lakin o, bu və ya digər ölkənin, məsələn, üstün olaraq inkişaf etmiş emal sənayesi sahələrinə və ya kənd təsərrüfatına malik olan ölkənin iqtisadiyyatını xarakterizə etməyə imkan verir. Bir qayda olaraq, adambaşına daha az gəlir düşən geridə qalmış ölkələrdir. Bu ölkələrdə az ixtisaslı, daha ucuz əməkdən istifadə olunur və həmin sahələrin əksəriyyəti kapital tutumludur.

Bu tipdən olan ölkələr sırasına tədricən Rusiya da irəliləyir, belə ki, onun ümumi daxili məhsulunda (ÜDM-də) xammal və emal sahələrinin xüsusi çəkisi artır.

Elə ölkələr var ki, bunlarda üstün olaraq, emal sənayesi sahələri inkişaf etmişdir. Bu ölkələrə yüksək əmək haqqı olan varlı ölkələr daxildir. Bir qayda olaraq, məhz bu ölkələrdə iqtisadiyyatın üçüncü sektoru daha fəal inkişaf etmişdir. Həmçinin bir qrup iri ölkələr də vardır ki, burada iqtisadiyyatın hər üç sektoru kifayət qədər ahəngdar inkişaf edir. Ölkənin iqtisadiyyatında bu və ya digər qrup sahələrinin payı onların ÜDM-də, milli gəlirdə və ixracında xüsusi çəkisi ilə müəyyən olunur.

İSTEHSAL TƏLƏBİ – digər məhsulların (resursların) istehsalı üçün nəzərdə tutulan resursa olan tələb, yəni bilavasitə

yox, əmtəə və xidmətlərin istehsalı vasitəsilə dolayı yolla tələbatı ödəyən resurs. Tələbin törəmə xarakteri o deməkdir ki, hər hansı resursa olan tələbin sabitliyi istehsal prosesində resursun məhsuldarlığından və həmin resursun köməyi ilə istehsal olunmuş əmtəənin bazar dəyərindən (qiymətindən) asılıdır. Əmtəələrin istehsalı zamanı cəmiyyət tərəfindən yüksək qiymətləndirilən yüksək məhsuldar resurslar, təbiidir ki, az məhsuldar resurslara nisbətən böyük tələbə malikdir. Lakin əgər müstəsna səmərəli kimi qəbul olunan resurs heç kimin almaq istəmədiyi əmtəənin istehsalında istifadə olunursa, onda o, ümumi tələbə malik olmayacaqdır. İstehsalçı tərəfindən əmtəəyə olan istehsal tələbinin tənzimləyicisi olan mənfəətin maksimumlaşdırılması qaydasına görə firma o vaxta qədər hər hansı bir resurs növünün əlavə vahidini cəlb edir ki, onun hər bir növbəti vahidi xərcin yox, gəlirin ümumi artımına təsir göstərsin. İstehsal tələbi aşağıdakı hallarda artır: a) resursun əsasında istehsal olunan məhsula tələb (uyğun olaraq qiymət) artan zaman; b) resursun məhsuldarlığı artan zaman; c) məhsulun həcminin effekti əvəzetmə effektinə nisbətən güclü olduğu şəraitdə resurs əvəzləyicisinin qiyməti azalan zaman; ç) əvəzetmə effekti məhsulun həcmi effektindən yükək olduğu şəraitdə resurs əvəzləyicisinin qiyməti artdığı zaman.

İSTEHSAL TƏYİNATLI MALLAR – sonradan təsərrüfat fəaliyyətində tətbiq edilmək üçün hüquqi şəxslərə və bəzi fiziki şəxslərə (sahibkarlara) satılan mallar. Bu cür mallar sırasına avadanlıq, texnika, ümumi istifadəli nəqliyyat vasitələri, yanacaq-xammal kompleksinə aid mallar və s. daxildir.

İSTEHSAL TSİKLİ – əmək predmetlərinin (xammal və material) hazırlanmağa başlanmasından hazır məhsul formasında buraxılışınadək istehsal prosesində olması dövrü. İstehsal tsikli iş dövrünü və fiziki, kimyəvi, bioloji (təbii) proseslərdən (məs., dərinin aşılanması və s.), yaxud əmək predmetinin təbiəti, istehsalın texnologiyası və təşkilindən asılı olaraq yaranmış fasilələri əhatə edir. İstehsal tsikli istehsal vaxtının bir hissəsidir. İstehsal tsiklinin qısaldılması məhsul buraxılışını sürətləndirir və istehsal fondlarından daha yaxşı istifadə olunmasına imkan yaradır. İstehsal tsiklinin qısaldılmasının mühüm amili qabaqcadan texnologiyanın tətbiqi və istehsal proseslərinin avtomatlaşdırılmasıdır.

İSTEHSAL TULLANTILARI (ing. *industrial waste*) – istehsal prosesi nəticəsində onun texnoloji xüsusiyyətləri, texnologiyaların mükəmməl olmaması, aradan qaldırılması mümkün hesab edilməyən texnoloji itkilər nəticəsində qalan xammal və materiallar.

İstehsal tullantıları çox vaxt utilləşdirilməlidir.

İstehsal tullantıları sırasına xammalın fiziki-kimyəvi emalının məhsulları; istehsalla bağlı olmayan məqsədlər üçün faydalı qazıntılar hasilatının məhsulları; texnoloji qazların və axıntı sularının təmizlənməsi zamanı yığılan maddələr və s. aid edilir.

İstehsal tullantılarının istifadə edilən və istifadə edilməyən, eləcə də qaytarılan və qaytarılmayan növləri fərqləndirilir.

İstehsal tullantıları hesabına itkilərin əbədi ifadəsini tullantıların ilkin xammalın qiyməti üzrə dəyəri ilə həmin tullantılardan potensial istifadə qiymətləri üzrə onların dəyəri arasındakı fərq kimi təsəvvür etmək olar.

Bütün istehsal tullantıları yığılmalı, istifadə edilməli, zərərsizləşdirilməli, daşınmalı, saxlanmalı və basdırılmalıdır. Bu işlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun tənzimlənməli və ətraf mühit üçün təhlükə yaratmamalıdır. Aşağıdakılar qadağan edilir:

1) istehsal tullantılarının (o cümlədən radioaktiv tullantıların) su obyektlərinə, su yığılan sahələrə, yerin təkinə və torpağın üst qatına atılması;

2) təhlükəli tullantıların şəhərlərə, kənd məntəqələrinə yaxın ərazilərdə, meşə-park, kurort, rekreasiya zonalarında, heyvanların miqrasiya etdiyi ərazilərdə, ətraf mühit və insanın sağlamlığı üçün təhlükə yaranması ehtimalı olan yerlərin yaxınlığında yerləşdirilməsi;

3) təhlükəli və radioaktiv tullantıların su təchizatı mənbələri kimi, balneoloji məqsədlər üçün, qiymətli mineral ehtiyatların çıxarılması üçün istifadə edilən yeraltı su obyektlərinin su toplanan sahələrində basdırılması;

4) təhlükəli və radioaktiv tullantıların sonradan basdırılması və zərərsizləşdirilməsi üçün Azərbaycan Respublikasının ərazisinə gətirilməsi.

İstehsal tullantıları ilə (o cümlədən təhlükəli və radioaktiv

tullantılarla) davranış sahəsində münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

Havaya atılan tullantıların yol verilə bilən son həddi – verilən yaşayış məntəqəsində (şəhərdə, regionda, rayonda) stasionar və hərəkət edən mənbə tərəfindən atmosferə atılmaq üçün qaz-hava qarışığında maddələrin yol verilə bilən maksimum miqdarı. Havaya atılan tullantıların yol verilə bilən son həddi atmosferi çirkləndirən hər bir mənbə üçün o şərtlə müəyyən edilir ki, şəhərin havanı çirkləndirən mənbələr çoxluğunun havaya atdığı zərərli maddələr əhali, bitki və heyvanlar aləmi üçün maddələrin yol verilə bilən qatılıq həddini aşmasın.

Bir çox hallarda iqtisadiyyat və istehsalat reallığından irəli gələn, konkret bir müəssisə (təşkilat, obyekt) üçün atmosferə yol verilə bilən hədd daxilində atılan zərərli maddələrin miqdarı – havaya atılan *müvəqqəti razılaşdırılmış tullantılar* müəssisə tərəfindən hava mühafizəsi tədbirlərinin yerinə yetirilməsi şərti ilə ciddi məhdudlaşdırılmış zaman ərzində müəyyən olunur.

İSTEHSAL ÜSULU – məhsuldar qüvvələrlə istehsal münasibətlərinin vəhdətini bildirən kateqoriya. İstehsal üsulu ictimai həyatın əsas sferası maddi istehsal sferasını xarakterizə edir, həyatın siyasi və daxili proseslərini müəyyən edir. Cəmiyyətin strukturu, onun fəaliyyət göstərməsi və inkişafı prosesi istehsal üsulundan asılıdır.

İstehsal üsulunun dəyişməsi (K.Marksa görə) insanların iradəsinə görə yox, istehsal münasibətlərinin məhsuldar qüvvələrin xarakterinə və inkişaf səviyyəsinə uyğunluğu ümumi iqtisadi qanunun fəaliyyəti ilə əlaqədar baş verir. Bu dəyişmə cəmiyyətin bütün inkişafına ictimai-iqtisadi formasiyaların təbii-tarixi dəyişmə prosesinin xarakterini verir; K.Marksa görə, məhsuldar qüvvələrlə istehsal münasibətlərinin ziddiyyəti sosial inqilabların iqtisadi əsasıdır. İstehsal üsulunun iki tərəfi daxili qarşılıqlı əlaqədədir; burada üstünlük məhsuldar qüvvələrə məxsusdur və istehsal münasibətlərinin xarakteri onun inkişaf səviyyəsindən asılıdır. İctimai həyat şəraiti sistemində istehsal üsulu müəyyənedici yer tutur. İnsan cəmiyyəti tarixində beş istehsal üsulu məlumdur: İbtidai icma quruluşu, Quldarlıq quruluşu, Feodalizm, Kapitalizm və Kommunizm (birinci fazası Sosializm). Ədəbiyyatlarda ictimai sistemin Asiya istehsal üsulunun ayrıca istehsal üsulu kimi qiymətləndirilməsi məsələsi mübahisəlidir.

İSTEHSAL VASİTƏLƏRİ – maddi nemətlərin istehsalı prosesində istifadə olunan alətlər və predmetlər; məhsuldar qüvvələrin və ölkənin milli sərvətinin tərkib hissəsi. İstehsalda yerinə yetirdiyi roldan asılı olaraq istehsal vasitələri əmək vasitələrinə və əmək predmetlərinə (cisimlərinə) bölünür. Əmək vasitələri tədricən aşınaraq hissə-hissə öz dəyərini məhsulun üzərinə keçirirsə, əmək predmetləri bir istehsal tsikli ərzində dərhal öz dəyərini məhsulun üzərinə keçirir. Əsas vasitələr (istehsal binaları, tikililər, maşınlar, avadanlıq, alətlər, cihazlar) və dövriyyə vəsaitləri, yaxud vasitələri (xammal, material, enerji, azqiymətli inventar) fərqləndirilir.

Əmək vasitələrinə və hər şeydən əvvəl, əmək alətlərinə maşınlar, dəzgahlar, alətlər (insanlar bunların köməyi ilə təbiətə təsir göstərir), həmçinin istehsal binaları, torpaq, yollar, kanallar və s. daxildir. Əmək predmeti əmək prosesində insanın təsir göstərdiyi və öz şəxsi, yaxud istehsal istehlakına uyğunlaşdırdığı təbiət cisimləridir. İnsan əməyinin təsirinə məruz qalan, lakin sonrakı emal üçün nəzərdə tutulan əmək predmeti xammal adlanır. Bəzi hazır məhsullar da istehsal prosesində əmək predmeti rolu oynaya bilər (məs., üzüm şərabçılıqda əmək predmetidir). İstehsal vasitələri içərisində əmək alətləri müəyyənedici rol oynayır. Əmək vasitələrinin inkişaf səviyyəsi texniki tərəqqinin mühüm göstəricisidir. Onların təkmilləşdirilməsi istehsalın texnika və texnologiyasında dərin irəliləyişə, istehsal münasibətlərinin dəyişməsinə səbəb olur; bir istehsal üsulundan digərinə keçilməsini müəyyən edir.

İSTEHSAL VASİTƏLƏRİ BAZARI – buraya əmək predmetləri və əmək vasitələri, onların tərkibinə daxil olan bütün kompleks şeylər daxildir. Məsələn, daşınmaz əmlaklar, əmək alətləri, xammal və materiallar, energetika resursları, faydalı qazıntılar bazarı.

İSTEHSALA GÖRƏ VERGİLƏR – məhsula görə ödənilən vergilərdən başqa, istehsal prosesində yaranan əlavə dəyərdən ödənilən vergiləri özündə bir-

ləşdirir. Ona daxil edilir: əmək haqqından və işçi qüvvəsindən istifadəyə görə vergilər; torpaq, bina və qurğulardan (əmlakdan) vergilər; sahibkarlıq və peşəkarlıq lisenziyaları (icazələri) üçün ödənişlər; əsas fondlardan istifadəyə görə vergilər; maliyyə və kapital əməliyyatlarına görə vergilər; ətraf mühitin çirkləndirilməsinə görə vergilər; beynəlxalq əməliyyatlara görə vergilər və s.

İSTEHSALA SUBSİDİYALAR – hüquqi və fiziki şəxslərin istehsal fəaliyyəti ilə əlaqədar dövlət tərəfindən verilən və qaytarılmayan cari ödənişlər. Ona kapital (əsas) transferlərə aid edilən əsas kapitalın (fondların) yığımını maliyyələşdirmək üçün müəyyən edilən investisiya xarakterli subsidiyalar (qrantlar – yardımlar) da daxil edilir. Onun əsas növləri aşağıdakılardan ibarətdir: əmək haqqı fonduna və ya işçi qüvvəsinə subsidiyalar; istehsal amillərindən istifadə ilə əlaqəli subsidiyalar, məsələn, müəyyən xammal, enerji və s. növlərindən istifadənin stimullaşdırılması üçün subsidiyalar; ətraf mühitin çirkləndirilməsini azaltmaq üçün, məsələn, istehsal tullantılarının əlavə emalının dəyərinin ödənilməsi üçün subsidiyalar; vergi güzəştlərinin dəyəri. MHS-də istifadə edilən göstəricidir.

İSTEHSALAT BRİQADASI – istehsalın uyğun vasitə və sahələrinin istifadəsi bazasında müəyyən məhsul (xidmət) yaradılması məqsədilə işçilərin təşkilati-texnoloji və sosial-iqtisadi birliyi. Başqa sözlə, işdə ümumi maraq, qarşılıqlı yardım və əmək nəticələrinə görə məsuliyyət əsasında istehsal tapşırıqlarının daha səmərəli yerinə yetirilməsi və birgə əmək üçün işçilərin birləşdiyi müəssisənin əmək kollektivinin ilkin halqasıdır. İstehsalat briqadasının yaradılması şərtləri aşağıdakılara bölünür:

a) texnoloji şərtlər, bu, müəyyən istehsal sahələrində əsas, köməkçi və xidmətedici əməliyyatların texnoloji bütövlüyü; fərdi istifadə üçün bütöv texnoloji proseslərin bölünməsinin mümkünsüzlüyüdür;

b) işçilərin peşə-ixtisas tərkibinin mövcud iş yerlərinə uyğunluğu (briqadaya əsas işçilərlə yanaşı, bir qayda olaraq, köməkçi və xidmətedici heyət, bəzi hallarda isə mütəxəssislər cəlb edilir), müəyyən istehsal sahələrinin, avadanlığın, alətlərin və s. mövcudluğu ilə bağlı olan təşkilati-iqtisadi şərtlər. İstehsalat briqadasının yaradılmasının mühüm təşkilati-texnoloji prinsipləri briqadada sərbəstlik, əmək prosesinin qapalılığıdır. Bunun üçün iş yerlərinin ərazi bütövlüyü, məhsulun hazırlanmasının bitkin texnoloji tsiklinin mövcudluğu; briqadanın avadanlığa, alətlərə, materiallara və s. malik olması; məhsulun kəmiyyət və keyfiyyət qiymətləndirilməsinin mümkünlüyü zəruridir.

Bundan əlavə, briqadada verilmiş dəzgahın gücü ilə onun işçilərinin sayı və peşə-ixtisas tərkibi (peşələrin qovuşdurulmasını nəzərə almaqla) arasında proporsionallığın gözlənilməsi vacibdir. İstehsalat briqadasında əmək proseslərinin məzmunu və hədləri (deməli, həm də işçilərin sayı) onun idarə oluna bilməsini təmin etməlidir. İstehsalat briqadasının təşkilinin əsas sosial-iqtisadi prinsipi ona idarəetmənin ilkin mərhələsi statusunun verilməsidir. Yəni briqadanın hər şeydən son məhsulun kəmiyyət və keyfiyyətinə maddi və əmək məsrəflərini, peşə-ixtisas heyətinə görə işçilərinin sayını, əmək haqqı fondunu əks etdirən müstəqil uçot sənədlərə malik olmasıdır. İstehsalın texnologiyasının və təşkilinin xüsusiyyətləri yaradılan briqadaların növünü şərtləndirir. Onlar ixtisaslaşmış və kompleks briqadalara bölünürlər. Birincilər eyniadlı texnoloji proseslərdə (materialların qaynağı, mexaniki emalı və s.) çalışan eyni peşə işçilərini birləşdirir. İkincilər isə müxtəlif peşələrə (həm əsas, həm də köməkçi) malik olub, texnoloji cəhətdən müxtəlif, lakin bir-biri ilə əlaqədar, məlumatın, qovşağın və yaxud onların başa çatmış hissəsinin hazırlanmasının tam tsiklini əhatə edən işləri yerinə yetirən işçiləri özündə birləşdirir. Kompleks istehsal briqadaları mürəkkəb texnoloji dəzgahlar tələb olunan əmək proseslərində qapalı texnoloji tsiklə malik predmet (detal, hissə) üzrə ixtisaslaşmış istehsal şəraitində və yaxud arasıkəsilməz konveyer-istehsal zamanı daha səmərəlidir.

İş rejimindən asılı olaraq istehsalat briqadası növbəli və çox-növbəli ola bilir. Birincilər diskret istehsal zamanı, ikincilər isə istehsal tsiklinin bir növbədən çox olduğu zaman yaranır. Briqadanın sayı və peşə-ixtisas tərkibi istehsal proseslərinin məzmunundan və mürəkkəbliyindən, əmək funksiyalarının

genişləndirilməsinin və briqada işçilərin qarşılıqlı əvəz olunmasının mümkünlüyündən asılıdır. Əməyin briqada təşkilinin inkişafının əsas meylləri kimi ixtisaslaşdırılmış istehsalat briqadalarından kompleks istehsalat briqadalarına, iqtisadi cəhətdən müstəqil olmayanlardan daha çox iqtisadi cəhətdən müstəqil olan istehsalat briqadalarına keçid təşkil edir. Onların daha mütərəqqi olanı isə texnoloji əlamətinə görə deyil, predmet əlamətinə – son məhsul istehsalı əlamətinə görə ixtisaslaşan podratçı kompleks çoxnövbəli briqadalardır. Belə istehsalat briqadalarına resursları idarəetmə funksiyası verilir ki, bu da işçiləri istehsal prosesinin bütün parametrlərini yaxşılaşdırmağa həvəsləndirir. İstehsalat briqadasının müəssisə rəhbərliyi ilə əmək münasibətləri kollektiv-podrat müqaviləsi ilə tənzimlənir. Bu axırıncı isə, öz növbəsində, əmək münasibətlərinin əsas parametrlərini müəyyən edən əmək qanunvericiliyinə əsaslanır.


Keçmiş planlı təsərrüfat sistemində geniş yayılmış istehsalat briqadalarının bir çox üstünlükləri vardır ki, onlardan da sahibkarlıq fəaliyyətini, real sektoru təmsil edən sahələrin səmərəliliyinin artırılması işində istifadə etmək mümkündür.

İSTEHSALATDA BƏDBƏXT HADİSƏLƏR VƏ PEŞƏ XƏSTƏLİKLƏRİ NƏTİCƏSİNDƏ PEŞƏ ƏMƏK QABİLİYYƏTİNİN İTİRİLMƏSİ HALLARINDAN İCBARİ SIĞORTA – istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından sığorta olunanların həyatına və sağlamlığına dəyən zərər nəticəsində onların peşə əmək qabiliyyətinin itirilməsi və ya ölümü ilə bağlı sığorta ödənişinin verilməsini nəzərdə tutan sığorta sinfi.

Beynəlxalq Əmək Təşkilatının "Layiqli əmək – təhlükəsiz əmək" adlı hesabatında bildirilir ki, hazırda dünyada istehsal fəaliyyəti ilə bağlı bədbəxt hadisələr və xəstəliklər nəticəsində hər il təqribən 2,2 milyon insan həlak olur. Lakin bu məlumat da tam deyil, çünki əksər ölkələrdə əməyin mühafizəsi və hesabat sistemi qeyri-mükəmməldir. Hər gün dünyada təxminən on min nəfərə yaxın insan əmək fəaliyyəti ilə bağlı bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində həlak olur. Avropa İttifaqında bu rəqəm ildə 120 min təşkil edir.

Təhlükəli maddələrin istehsalatda istifadəsi zamanı hər il 440 min işçi ölür. Bu maddələr arasında təkcə asbest ildə təxminən 100 min insanın həyatına son qoyur. Böyük Britaniyada asbestin qurbanlarının sayı, britaniyalı ekspertlərin özlərinin hesablamalarına görə ildə təxminən 3 min nəfər təşkil edir. Bu, həmin ölkədə istehsalatda ölümlə nəticələnən bədbəxt hadisələrin sayından on dəfə çoxdur. 2010-cu ildə Rusiyada iş yerlərində zərər çəkmiş şəxslərin sayı 58 min nəfər olmuşdur. Beynəlxalq təşkilatların məlumatlarına görə, əksər ölkələrdə əməyin mühafizəsi sistemi qeyri-mükəmməldir və ya ümumiyyətlə yoxdur. Bir sıra dövlətlərdə isə hətta əmək fəaliyyəti ilə bağlı bədbəxt hadisələrin və xəstəliklərin uçotu aparılmır. Beynəlxalq Əmək Təşkilatının ekspertləri hesab edirlər ki, Hindistanda hər il 40 min insan istehsalatda həlak olur. Amma həmin ölkənin rəsmi məlumatlarına görə, bu rəqəm 200-220 nəfər arasında tərəddüd edir.

Azərbaycan Respublikası üzrə istehsalatda bədbəxt hadisələr zamanı zərərçəkənlərin sayı, nəfər



Qrafik 1

Cədvəl 1

Azərbaycan Respublikasında istehsalatda zədələnmələr

İllər	İstehsalatda bədbəxt hadisələr zamanı əmək qabiliyyətini itirən və ölənlərin sayı			
	əmək qabiliyyətini itirən və ölənlərin sayı, cəmi		ondan: istehsalatda bədbəxt hadisələrdə ölənlərin sayı	
	nəfər	hər 1000 nəfər işləyənə	nəfər	hər 1000 nəfər işləyənə
2000	177	0,2	37	0,04
2001	115	0,1	27	0,03
2002	179	0,2	59	0,06
2003	188	0,2	52	0,06
2004	240	0,3	72	0,08
2005	189	0,2	54	0,08
2006	273	0,3	81	0,08
2007	330	0,3	128	0,13
2008	284	0,3	72	0,07
2009	249	0,2	58	0,04
2010	264	0,2	68	0,05

Əmək fəaliyyəti ilə bağlı xəstəliklər sənaye cəhətdən inkişaf etmiş ölkələr üçün əsas problem kimi qalır. İnkişaf etməkdə olan dövlətlərdə isə istehsalatda baş verən bədbəxt hadisələr üstünlük təşkil edir. Həmin dövlətlərdə filiz-mədən sənayesi, tikinti və kənd təsərrüfatı kimi sahələrdə işçilərin həlak olması halları daha çoxdur.

Dünya statistikasına görə, yaşı 55-dən yuxarı olan işçilər arasında peşə xəstəliklərinə məruz qalmaq riski daha yüksəkdir.

Beynəlxalq Əmək Təşkilatının fikrincə, əmək fəaliyyəti ilə bağlı bədbəxt hadisələrin və xəstəliklərin qarşısının alınması və ya belə halların sayının azaldılması üçün beynəlxalq, regional, milli səviyyə, həmçinin müəssisələri səviyyəsində səy göstərilməlidir. Bu məqsədlə Beynəlxalq Əmək Təşkilatı beş bənddən ibarət yeni Qlobal Strategiya hazırlamışdır. Bu sənəd Əməyin təhlükəsizliyi və gigiyenası haqqında 1981-ci il Konvensiyası kimi standartlardan və əməyin mühafizəsi sahəsində başqa normalardan istifadəyə çağırır. Burada əməyin mühafizəsi sahəsində milli sistemlərin üçtərəfli əməkdaşlıq vasitəsilə təkmilləşdirilməsi məsələsi mühüm rol oynayır. Beynəlxalq Əmək Təşkilatı diqqəti istehsalatda bədbəxt hadisələrin minimuma endirilməsinə; peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarının azalması məqsədilə müvafiq qanunvericilik bazasının formalaşmasına; qəbul edilmiş qanunlara riayət etməyə; həmçinin əmək mühafizəsi xidmətlərinin potensialının inkişafının zəruri olmasına cəlb edir.

İstehsalatda çalışanların sağlamlıqlarının, qanuni mənafelərinin və əməyin təhlükəsizliyinin qorunması, əmək şəraitinin yaxşılaşdırılması dövlət tərəfindən təmin olunur. Dünyanın bir çox ölkələrində "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunlar fəaliyyət göstərir. Azərbaycan Respublikasında da belə bir qanun qəbul edilmişdir. Qanunun məqsədi istehsalatda hər hansı səbəbdən əmək funksiyalarını itirmiş, ölmüş, bədən üzvlərini və ya toxumalarını zədələmiş, zərərli istehsalat amilləri nəticəsində peşə əmək qabiliyyətini itirən şəxslərə və onların ailə üzvlərinə sığorta ödənişi şəklində təzminatın verilməsinin təmin olunmasıdır. Qanun həm istehsalatda çalışan işçilərin və onların ailə üzvlərinin, həm də işəgötürənin maraqlarına xidmət edir.

Ona görə də istehsalatda çalışan hər bir şəxsin özünün icbari qaydada sığorta olunmasını öz rəhbərliyindən və ya işəgötürənindən tələb etməsi, habelə sığorta müqaviləsi bağlaması vacib məsələlərdən biridir. Bu

kateqoriya şəxslərin siyahısına tikintilərdə, zavod və fabriklərdə, ayrı-ayrı müəssisələrdə çalışan, hər hansı bir məhsulun istehsalı, xidmətin həyata keçirilməsi, həmçinin təmir, yüklərin daşınması, təmizlik, saxlama, mühafizə və digər bu kimi işlərlə məşğul olan bütün işçilər daxil edilir.

Onlarla yanaşı, müəssisə, idarə və təşkilatın və ya onun hər hansı struktur bölməsinin rəhbərləri, baş mütəxəssislər, mühəndis-texnik, iqtisadçı, hüquqşünas, sosioloq və bu kimi funksiyaları həyata keçirən mütəxəssislər, sənədlərin hazırlanmasını və rəsmiləşdirilməsini həyata keçirən kargüzarlar, katibələr, surətçıxaranlar, arxiv işçiləri, agentlər, digər texniki işçilər və dövlət qulluğunda çalışan inzibati və yardımçı vəzifələr tutan dövlət qulluqçuları da xeyrinə icbari sığorta müqaviləsi bağlanmalı olan şəxslər hesab olunurlar.

Göstərilən şəxslər sığorta müqaviləsinin sığorta olunan tərəfi kimi çıxış edir və müqavilədən irəli gələn hüquq və vəzifələr daşıyırlar. Belə ki, sığorta olunanların başlıca hüququ işəgötürənin vəsaiti hesabına sığorta olunmalarını tələb etməkdir. Daha sonra sığorta olunanların qanunvericiliklə müəyyən olunmuş qaydada işdən ayrılmaqla və ya ayrılmadan ödənişsiz təlimlər keçmək və məlumatlandırılmaq kimi hüququ mövcuddur. Belə təlimlər özündə təhlükəsiz əmək metodlarını, əməyin mühafizəsi qaydalarını və təlimatlarını əks etdirməlidir. Yuxarıda qeyd olunan şəxslər onları sığorta etdirmək vəzifəsi daşıyan işəgötürənin vəsaiti hesabına ilkin və vaxtaşırı icbari tibbi müayinədən keçə bilərlər. Həmçinin işəgötürəndən və ya sığorta şirkətindən istənilən vaxt özlərinin hüquq və vəzifələri barədə məlumatlar almaq hüququna malikdirlər.

Azərbaycan Respublikasının Konstitusiyasında da qeyd olunduğu kimi, hər bir şəxs dövlət və cəmiyyət qarşısında onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Eləcə də sığorta olunanlar. Odur ki, xeyrinə icbari sığorta müqaviləsi bağlanmalı olan şəxslər sığorta ödənişini almaqdan ötrü vəzifələrini vaxtında və dolğun yerinə yetirməlidirlər. Onlar, ilk növbədə, əməyin mühafizəsi qaydalarına və təlimatlara riayət etməli, əmək müqaviləsində və mülki-hüquqi müqavilədə nəzərdə tutulmuş vəzifələrini yerinə yetirməlidirlər.

Sığorta müqaviləsində sığortalı qismində çıxış edən bu şəxslər özlərini gələcəkdə baş verə biləcək hər hansı hadisə nəticəsində işçiyə dəymiş zərərə görə ödəniləcək kompensasiyadan işçilərini icbari qaydada sığortalamaqla azad edirlər. Eyni zamanda sığortalılar qanunla onların üzərinə qoyulan digər vəzifələri də icra etməyə borcludurlar ki, vaxtında və tam olaraq işçilərinin xeyrinə sığorta ödənişi ala bilsinlər. İşəgötürənin üzərinə, ilk növbədə, qanunvericiliklə işçilərin xeyrinə icbari sığorta müqaviləsi bağlamaq vəzifəsi qoyulmuşdur.

Sığortalı əməyin mühafizəsi, təhlükəsiz əmək şəraitinin yaradılması, sığorta olunanların həm əməyinin mühafizəsi qaydaları ilə, həm də sığorta hadisələrinin baş verməsinin qarşısının alınması, sığorta olunanların ilkin və vaxtaşırı icbari tibbi müayinədən keçirilməsi istiqamətində daim tədbirlər görməlidir.

Qanunun tələblərinə uyğun olaraq üzərinə sığorta etdirmək vəzifəsi qoyulan şəxslər sığorta olunanları sığorta etdirmədikdə və ya onların vəziyyətini ağırlaşdıran şərtlərlə sığorta müqaviləsi bağladıqda sığorta hadisəsi baş verərkən sığortalının xeyrinə sığorta müqaviləsi bağlanmalı olan şəxslərin qarşısında ən azı qanunda göstərilən həddə öhdəlik daşıyırlar.

Sığortalı sığorta şirkətindən icbari sığortanın şərtlərini, sığorta müqaviləsi üzrə hüquq və vəzifələrinin izahını tələb etmək; özünün və sığorta olunanların hüquq və mənafelərini müdafiə etmək; sığorta ödənişindən imtina və ya onun məbləğinin azaldılması haqqında qərardan şikayət etmək hüququna malikdir.

Bədbəxt hadisə və ya peşə xəstəliyi nəticəsində sığorta olunanın həqiqətən peşə əmək qabiliyyətinin itirilməsini müəyyən etmək üçün aparılan müayinədə, sığorta hadisəsinin araşdırılması işində sığortaçı nümayəndəsi vasitəsi ilə iştirak etmək və qəbul olunmuş qərardan qanunvericiliklə nəzərdə tutulmuş qaydada şikayət etmək hüququna malikdir. Eyni zamanda səlahiyyətli orqanlardan sorğu əsasında məlumatlar ala bilər.

Sığortaçı sığorta müqaviləsi bağlanan zaman riski müəyyən etmək üçün müstəqil ekspertlər təyin edə bilər. Eyni zamanda sığorta olunanlardan və faydalanan şəxslərdən lazım olan məlu-

matları və zəruri sənədləri tələb edə bilər.

Əgər sığorta ödənişindən imtina olunursa, sığortaçı imtinanın səbəbləri haqqında sığorta olunanlara və faydalanan şəxslərə bildiriş göndərməlidir. İmtina üçün heç bir səbəb olmadığı təqdirdə isə sığorta ödənişi sığorta şirkəti tərəfindən qanunla müəyyən olunmuş məbləğdə və müddətdə təmin olunmalıdır. Sığorta müqavilələrinin etibarlı olması üçün sığorta şirkəti daim sığorta haqlarının vaxtında və tam məbləğdə hesablanıb ödənilməsinə nəzarət etməlidir ki, faydalanan şəxslər imtina halları ilə rastlaşmasınlar.

"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, sığorta hadisəsi baş verdikdə, xeyrinə icbari sığorta müqaviləsi bağlanan şəxslər xəsarət almalarının, zədələnmələrinin və peşə xəstəliklərinin nəticəsində peşə əmək qabiliyyətini itirdikdə, sığorta ödənişi almaq hüququna malikdirlər.

Bəzi hallarda istehsalatda ağır nəticələri olan sığorta hadisələrinin baş verməsi nəticəsində sığorta olunanlar həyatlarını itirdikdə qanunvericiliklə müəyyən olunmuş şəxslər sığorta ödənişini almaq hüququna sahibdirlər.

İstehsal zədələnməsinin səviyyəsi və ya istehsal zədələnməsinin tezliyi əmsalı – istehsalatda bir gün və daha çox əmək qabiliyyətini itirməklə və ölümlə nəticələnən hadisələrə məruz qalanların ümumi sayının hesabat ilində işləyənlərin orta illik sayına bölünməsi yolu ilə hesablanır. İstehsalat zədələnməsinin səviyyəsini xarakterizə edir. Alınmış nəticə 1000-ə vurulur. Ölümlə nəticələnmiş istehsalat zədələnməsinin səviyyəsi də oxşar qaydada hesablanır.

İstehsalatda zədələnmənin ağırlıq əmsalı – hesabat dövründə baş vermiş bədbəxt hadisələr nəticəsində zərərçəkənlərin sayının əmək qabiliyyəti itirilmiş adam-günlərin ümumi sayına nisbəti. Bu göstərici bir zərərçəkənə düşən əmək qabiliyyəti itirilmiş günlərin sayı kimi hesablanır.

İSTEHSALATDA ÇEVİK METODLAR – sahibkarlıq fəaliyyətində istehsalın müasir konkret şəraitə uyğun metodlarla təşkil edilməsini nəzərdə tutan üsullar, məsələn, "dəqiq vaxtında" sistemi, onun yapon modifikasiyası olan "KAN-BAN" sistemi. Belə sistemlərin əsas ideyası sərt əmək bölgüsündən və istehsal funksiyalarından imtina edilməsindən, malların kiçik partiyalarla buraxılışının planlaşdırılmasının təşkilindən ibarətdir. Beləliklə, istehsalı çevik şəkildə yenidən sazlamaq, onu istehlakçının dəyişən tələbatına uyğunlaşdırmaq imkanı yaranır. Bu halda istehsalın fəlsəfəsi də dəyişir: mallar anbar üçün deyil, sifarişlə buraxılır, istehsal dövrünün hər mərhələsində məmulatın və ya onun hissəsinin buraxılışı növbəti mərhələdə ona tələbatla bağlıdır, bu halda daxili istehsal ehtiyatları minimallaşdırılır.

İSTEHSALÇI – mülkiyyət formasından və təşkilati-hüquqi formasından asılı olmayaraq satış üçün mal istehsal edən müəssisə, idarə, təşkilat və ya sahibkardır. İstehsal olunan məhsulların bir hissəsi istehsalçının özü tərəfindən istehlak oluna bilər.

Mal və xidmətlərin qeyri-bazar istehsalçıları – 1. Buraxdıqları mal və xidmətlərin böyük hissəsinin və ya buraxılışın hamısının bazar qiymətləri ilə satış üçün nəzərdə tutulmayan institusional vahidləri. Mal və xidmətlərin qeyri-bazar istehsalçıları mal və xidmətlərin az hissəsini bazar qiymətləri ilə sata bilərlər ki, bu da "təsadüfi satış" kimi izah edilir. 2. Pulsuz və yaxud iqtisadi cəhətdən əhəmiyyət kəsb etməyən qiymətlərlə ev təsərrüfatlarına və ya bütövlükdə cəmiyyətə mal və xidmətlər çatdıran dövlət vahidlərinə aid olan idarələr və ya ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatları.

İSTEHSALÇILARIN MARKALARI – istehsalçılar tərəfindən yaradılan və onların seçdiyi adı daşıyan markalar. "Qırıcı" markalar aşağı məsrəflərlə xarakterizə olunan, şəxsi markalara qarşıdurma üçün istifadə olunan istehsalçı markalarıdır.

İSTEHSALÇILARIN VƏ SATICILARIN MƏSULİYYƏT SIĞORTASI – məhsulların istehsalı və satışı zamanı; o cümlədən məhsulun layihələndirilməsi və konstruksiyalandırılması zamanı, səhvlər və nöqsanlar zamanı, onun istehsalı prosesi, keyfiyyətsiz xammal, material, yarımfabrikatlar, hissələrin istifadə edilməsi, məhsulun istifadəsi üzrə təlimatların və izahatların tərtib edilməsi və s. ilə əlaqədar dəymiş zərərin sığortalanması.

İSTEHSALÇININ QİYMƏT İNDEKSİ – firmalar tərəfindən alınan əmtəə və xidmətlər səbətinin dəyərinin ölçüsü.

İSTEHSALIN ARTMASI NƏTİCƏSİNDƏ MAYA DƏYƏRİNİN AZALMASI – istehsal həcmi artdıqca uzunmüddətli orta məcmu xərclərin azalmasını əks etdirən xüsusiyyət.

İSTEHSALIN DƏYƏRİ – MHS-də ona məhsul və xidmətlərin ümumi buraxılışı deyilir. Müəyyən dövr ərzində iqtisadi vahidlər (rezidentlər – hüquqi və fiziki şəxslər) tərəfindən istehsal edilən məhsul və göstərilən xidmətlərin dəyərini səciyyələndirir. Əsas qiymətlər və yaxud istehsalçı qiymətləri ilə hesablanır.

İSTEHSALIN DİVERSİFİKASİYASI – bir-biri ilə əlaqəsi olmayan çoxsaylı istehsal növlərinin eyni zamanda inkişafı, istehsal olunan məlumatların çeşidinin genişlənməsi.

İSTEHSALIN MƏHDUDLAŞMASI – məhsul buraxılışının azalması və ya hətta dayandırılması, bu məhsula olan tələbin aşağı düşməsi, xammalın, digər maddi-texniki resursların olmaması ilə əlaqədar və ya digər amillərin (o cümlədən siyasi amillərin) nəticəsində istehsal güclərindən tam istifadə edilməməsidir.


İSTEHSALIN MİQYASLAŞDIRILMASI – əmək məhsuldarlığının və məmulatların keyfiyyətinin artırılmasını, iş yerlərinin sayını azaltmaqla firmaların ölçülərinin azaldılmasını, elmi-tədqiqat və təcrübi konstruktor işlərinin (ETTKİ), istehsalın və marketinqin yenidən təşkil olunmasını əhatə edən elmtutumlu və yüksək texnoloji sahələrə aid müəssisələrin strukturunun dəyişdirilməsi metodlarının məcmusu. İstehsalın miqyaslaşdırılması bazarda nisbi məhsul bolluğunun yaranması və rəqabət mübarizəsinin kəskinləşməsi ilə əlaqədardır. İstehsalın miqyaslaşdırılması meyilləri XX əsrin 90-cı illərin əvvəllərində iqtisadi tənəzzül şəraitində inkişaf etmiş ölkələrdə kütləvi təyinatlı elmtutumlu məhsullara tələbin kəskin azalması ilə əlaqədar yaranmışdır. Miqyaslar hesabına qənaət rəqabət mübarizəsində həlledici rolunu itirdiyi şəraitdə istehsalın miqyaslaşdırılması əksər firmaların dünya bazarlarında öz mövqelərini möhkəmlətməsi üçün əsas vasitəyə çevrilmişdir. Firmalar özlərinin elmtutumlu kütləvi təyinatlı məhsullarını dünya bazarının yeni formalaşmaqda olan sektorlarına tətbiq etmək uğrunda mübarizə apararaq əvvəlcə işçilərin sayını azaldır, bundan sonra biznesin infrastrukturunu yenidən təşkil edir, əlavə xərcləri azaldır, intellektual və mühəndis-texniki əməyin məhsuldarlığını və bütün səviyyələrdə qəbul edilən qərarlara görə menecerlərin məsuliyyətini artırırlar. Sənayedə müəssisələrin strukturu yeniləşdirilərkən istehsalın miqyaslaşdırılması metodlarından istifadə edilir: istehsal müəssisələri kiçildilir, kiçik tərəfdaş firmaların şəbəkəsinə malik olan istehsal-maliyyə holdinqləri yaradılır. Bu halda yeni firmaları bazarda sürətlə dəyişməkdə olan şəraitə uyğunlaşdırmaq, əməyin motivasiyasını dəyişmək, iş yerlərini saxlamaq məqsədi ilə həmin firmaların muxtariyyət dərəcəsi artırılır.

"Soyuq müharibə" və sürətlə silahlanma dövrü başa çatandan sonra konversiyanın gedişində ABŞ və Rusiya hərbi sənaye kompleksində (HSK) istehsalın miqyaslaşdırılması zərurəti ilə üzləşmişdir. Bu çətin problemləri həll etmək üçün konversiyanı səmərəli təşkil etmək, mövcud elmi biliklərdən mülki məqsədlər üçün istifadə etmək, intellektual mülkiyyət hüquqlarının müdafiəsini yaxşılaşdırmaq, HSK-ya selektiv dövlət dəstəyi, yüksək texnologiyalar sahəsində beynəlxalq əməkdaşlıqda iştirak etmək tələb olunur.

İSTEHSALIN MÖVSÜMİLİYİ – ilin fəsillərinin dəyişməsi, təbiət hadisələri (yağış dövrü, bitkilərin yetişməsi dövrü), müəyyən iş və məşğuliyyətlərin (ov, məhsul yığımı mövsümü) yerinə yetirilməsi ilə əlaqədar dinamikada istehsalın həcmlərinin müntəzəm təkrarlanan dəyişməsidir. Mövsümilik kənd təsərrüfatı müəssisələrinin, sənayenin fəaliyyətində, emal kənd təsərrüfatı xammalında, ticarətin, nəqliyyatın işində, açıq üsulla faydalı qazıntıların hasilatında özünü göstərir. İstehsalın mövsümiliyi il ərzində məhsulun emalının qeyri-bərabərliyində, ayrı-ayrı dövrlərdə istehsalın yüksəlişində, tənəzzülündə və ya tam dayandırılmasında ifadə olunur. Yeyinti sənayesində istehsalın mövsümiliyi, müvafiq olaraq məşğulluğun mövsümi xarakteri təbii-iqlim şərtləri ilə (xammalın mövsümi daşınması ilə) müəyyən olunur; bununla belə, xammalın qorunub saxlanmasında

və emalında tətbiq olunan texnologiyadan asılıdır. Bu amillər mövsümi iş qüvvəsinə olan tələbat perspektivlərində özünü göstərir. Kənd təsərrüfatında istehsalın mövsümiliyi ilin dövrlərindən (mövsümlərdən) istehsal tsiklinin asılılığı, becərilən bitkilərin bioloji xüsusiyyətləri ilə şərtlənir. İstehsalın mövsümiliyi məhsulun buraxılışının həcminin müntəzəm idxalı dəyişikliyini təsvir edən dinamikanın mövsümi təşkilindəki dəyişikliklərlə xarakterizə olunur. Bu cür dəyişikliklər mövsümi dəyişmələr (qalxıb-enmələr) adlanır. Tikinti üçün bu yayda tikinti amillərinin həcminin yüksəlməsi, kənd təsərrüfatı üçün yayda və payızda bitkiçilik məhsulunun ümumi yığımının artımı, su nəqliyyatında naviqasiya dövründə daşınmaların həcminin artmasıdır. Mövsümiliyin təsirini yumşaltmaq üçün


2008-2009-cu illər ərzində Rusiyada süd istehsalı (min ton)



Qrafik 1

iqtisadi dinamikanın qiymətləndirilməsi zamanı istehsaldakı mövsümi dəyişmələrin (qalxıb-enmələrin) təzahürlərini kəmiyyətcə qiymətləndirməyə imkan verən mövsümilik indeksləri hesablanır. İstehsalın mövsümiliyi indekslərinin hesablanması metodları ümumi halda aylıq (rüblük) məlumatlar kimi məhsul istehsalının həcminin dinamika sırasının hər bir səviyyəsinin müqayisə bazası qismində qəbul edilən bəzi orta səviyyə nisbəti

2008-2009-cu illər ərzində Avropa İttifaqında süd istehsalı (min ton)




İnkişaf səviyyəsindən asılı olaraq istehsalın mövsümiliyi ilə iş vaxtından istifadənin mövsümiliyi arasında fərqlər də müxtəlif olur. İnkişaf etmiş ölkələrdə hətta fermer təsərrüfatlarının il ərzində ahəngdar fəaliyyəti üçün daha çox imkanlar mövcuddur. Bunu cədvəl bir daha əyani göstərir. Amma təəssüf ki, inkişaf etməkdə olan ölkələrdə aylar üzrə istehsal edilən məhsulun emalı bir-birindən kəskin fərqlənir.

İnkişaf səviyyəsindən asılı olaraq istehsalın mövsümiliyi ilə iş vaxtından istifadənin mövsümiliyi arasında fərqlər də müxtəlif olur. İnkişaf etmiş ölkələrdə hətta fermer təsərrüfatlarının il ərzində ahəngdar fəaliyyəti üçün daha çox imkanlar mövcuddur. Bunu cədvəl bir daha əyani göstərir. Amma təəssüf ki, inkişaf etməkdə olan ölkələrdə aylar üzrə istehsal edilən məhsulun emalı bir-birindən kəskin fərqlənir.

Qrafik 2

2008-2009-cu illər ərzində Rusiyada südün satış qiyməti (rubl/kq)



Qrafik 3

kimi müəyyən olunur. İstehsalın dinamikasının təhlili zamanı mövsümilik amilinin təsirinin aradan qaldırılmasının sadələşdirilmiş metodu bazis dövrü kimi qəbul edilən əvvəlki və ya digər ilin müvafiq aylarında istehsal həcmi ilə təhlil edilən ildə məhsul buraxılışının aylıq həcminin müqayisə edilməsindən ibarətdir. İqtisadi qeyri-sabitlik (böhran, durğunluq) dövrlərində istehsal həcminin aylıq dəyişikliklərinin hesablanması zamanı mövsümilik amilinin təsirinin kənar edilməsi (istisnası) iqtisadi dinamikanın real meylinin aşkar edilməsi üçün xüsusilə vacibdir. Digər bərabər şərtlər zamanı mövsümilik istehsalın ahəngdarlığının pozulmasını, istehsal güclərindən istifadənin səviyyəsinin azaldılmasını, mövsümi işçilərin cəlb edilməsi problemini, maliyyə resurslarının dövriyyəsinin, ləngidilməsini doğuraraq istehsal fəaliyyətinin nəticələrinə mənfi təsir göstərir. Bu mənfi təsiri yumşaltmaq üçün istehsal fəaliyyətinin sahələrinin və növlərinin səmərəli əlaqələndirilməsindən, istehsalın mövsümiliyinin xüsusi predmetləşmə növlərindən və digər tədbirlərdən geniş istifadə olunur.

İSTEHSALIN RENTABELLİYİ – istehsal fondlarının hər manatına düşən mənfəətin həcmini əks etdirən ümumiləşdirici istehsalın səmərəlilik göstəricisi.

Bu göstəricinin aşağıdakı növlərini fərqləndirirlər:

İstehsalın ümumi rentabelliyi balans mənfəətinin (ümumi mənfəətin) istehsal resurslarının (əsas istehsal fondlarının və normalaşdırılan dövriyyə vəsaitlərinin) dəyərinə nisbəti ilə (faizlə) müəyyən edilir. Kapital qoyuluşlarının hər manatı üçün balans üzrə alınmış ümumi mənfəətin həcmini göstərir. Lakin vergilər və məcburi tədiyələr çıxılmazdan əvvəl mənfəətin həcmi sahibkarlıq effektindən daha çox xalq təsərrüfatı effektini xarakterizə edir.

1. Xalis mənfəətin onun əldə edilməsində iştirak edən istehsal resurslarının dəyərinə nisbəti ilə müəyyən edilən istehsalın hesablanmış rentabelliyi.

Müəssisənin sərəncamında qalan xalis mənfəət üzrə istehsalın rentabelliyinin hesablanması böyük əhəmiyyət kəsb edir. Səhmdar cəmiyyətlərində istehsal resurslarının rentabelliyini mənfəətin balans üzrə xüsusi kapitalın məbləğinə nisbəti kimi

də müəyyən edirlər. Bu halda kapitalın (resursların) rentabelliyi satılmış məhsulun rentabelliyindən (dövriyyədən) və dövrlərin sayından asılıdır.

İSTEHSALIN SƏMƏRƏLİLİYİ (ing. *industrial efficiency*) – iqtisadi sistemin real fəaliyyətinin iqtisadi səmərəliliyi maddi nemətlər istehsalı prosesinə aid olan əsas komponentidir. İstehsalın səmərəliliyinin iqtisadi və qeyri-iqtisadi (sosioloji, ekoloji və s.) növlərini fərqləndirirlər. İqtisadi sistem bütövlükdə ölkə miqyasında nəzərdən keçirildikdə iqtisadi səmərəlilik ictimai əmək məhsuldarlığı adlanır.

İqtisadi sistemin müxtəlif səviyyələrində iqtisadi səmərəlilik faydalı son nəticələrin istifadə edilən və ya sərf edilmiş resursların həcminə nisbəti kimi əmək məhsuldarlığı, fond verimi, rentabellik, xərclərin çıxarılması və s. göstəricilərin köməyi ilə ölçülür. İstehsalın səmərəliliyi ümumiləşdirici qiymətləndirmə vasitəsidir.

İSTEHSALIN TƏMƏRKÜZLƏŞMƏSİ – yekcins və ya texnoloji cəhətdən əlaqəli olan məhsul kütləsinin daim artması məqsədilə iri müəssisələrdə iş qüvvəsinin, istehsal vasitələrinin və istehsal olunmuş məhsulun cəmləşməsinin obyektiv prosesi. İstehsalın təmərküzləşməsinin yüksək səviyyəsi kapitalın təmərküzləşməsi və mərkəzləşməsi prosesini sürətləndirir. Bu proseslər arasında mürəkkəb qarşılıqlı asılılıq mövcuddur. İstehsalın təmərküzləşməsinin xarakterik cəhəti iş qüvvəsinin, istehsal vasitələrinin və buraxılan məhsulun iri müəssisələrdə cəmləşməsidir. Texniki tərəqqi nəticəsində istehsalın şəxsi və maddi amillərinin nisbəti dəyişir.

Müəyyən təsərrüfat sahəsi hədlərində müəssisə və ya firmaların iriləşməsi istehsalın üfüqi təmərküzləşməsinin ifadəsidir. Bir sıra qarşılıqlı əlaqəli təsərrüfat sahələrinin məhsul istehsalının cəmləşməsi prosesi isə şaquli təmərküzləşmədir.

Şaquli təmərküzləşmə prosesləri istehsalın kombinələşməsi çərçivəsində qapanmır. Müasir inhisarlar yalnız əmək cisimləri (predmetləri) tədarük etmir, həm də onların avadanlığa olan tələbatının ödənilməsini də ehtiva edir. Belə bir-birilə bağlı istehsal sahələrinin təmərküzləşməsini istehsalın diversifikasiyasına aid etmək olar. Əgər korporasiya funksional cəhətdən bir-birilə bağlı olmayan müəssisələrdən ibarətdirsə, yəni konqlameratdırsa, bu, istehsalın təmərküzləşməsini yox, kapitalın mərkəzləşməsi prosesini təsdiq edir.

İSTEHSALIN TƏRƏDDÜDÜ – məhsul istehsalının və bu və ya digər əmtəələrin istehsalının yüksəldilməsi və enməsi ölkədə iqtisadi konyunkturanın əsas ünsürlərindən biridir (maliyyə dövriyyəsinin tərəddüdü, faiz dərəcələrinin tərəddüdü, valyuta məzənnəsinin tərəddüdü və s. kimi onun ünsürləri ilə yanaşı). Tərəddüd statistikasında – iqtisadi fəaliyyətin müxtəlif tərəflərinin dövri dəyişməsini əks etdirən zaman sırası ünsürüdür. Nadir istisnalar olmaqla ayrı-ayrı halqalarda (müəssisələrdə və müəssisə daxilində) istehsalın tərəddüdü praktik olaraq labüddür və həm təşkilati, həm də texnoloji səbəblərlə izah olunur. İqtisadiyyatda isə onlar yumşala bilər ki ("Böyük ədədlər" qanununa görə) bəzi dövrlərdə kəskin yüksəliş, tənəzzül olmadan bu və ya digər iqtisadiyyatın sabit ümumi inkişafı xəyalını yarada bilər. Statistikada mövsümi tərəddüdlərə – zaman sırası komponentinə xüsusi üstünlük verilir. Əslində, "mövsümi" termini burda tamamilə düzgün işlənməmişdir, çünki, adətən, təbii iqlim şəraiti ilə mütləq əlaqəsi olmayan iqtisadi göstəricilərin dövri tərəddüdü nəzərdə tutulur və onlar həmçinin texniki, iqtisadi, mədəni amillərlə izah olunur.

Bazar iqtisadiyyatında istehsalın ümumi tərəddüdləri iqtisadi artımın ümumi meyli fonunda istehsalın real həcminin dövri olaraq genişlənməsi (yüksəlişi) və azaldılması (tənəzzülü) kimi iqtisadi tsikl anlayışında ifadəsini tapır.

Tərəddüd proseslərinin texniki (yuvarlaq) əks etdirilməsi üçün iqtisadi riyazi modellərdə triqonometrik funksiyalardan, məsələn, sinusoidlərdən istifadə olunması mümkündür.

İSTİFADƏ – qanuna görə bir şeyin mülkiyyətçisi olan insanın əsas səlahiyyətlərindən biri. İstifadə dedikdə əşyanın, əmlakın təyinatına müvafiq olaraq onlardan istifadə hüququ (istismar, yaranan səmərəni və gəlirləri almaq və s.) başa düşülür. *İstifadə hüququ* o deməkdir ki, istifadəçi əşyanın sahibindən və ya sərəncamçısından obyektləri, onlardan müəyyən dövr ərzində və mülkiyyətçi – sərəncamçı və ya mülkiyyətçi – sahib tərəfin-

dən müəyyən edilmiş şərtlər daxilində istifadə etmək hüququnu almışdır.

İstifadə hüquqları hüquqi əsaslarla – müqavilələr, qanun və digər vasitələrlə məhdudlaşdırılır. *Qanuni istifadə hüququ* müxtəlif növ hüquqi vasitələrlə, məsələn, istifadəyə maneələrin aradan qaldırılması barədə iddia təqdim edilməsi hesabına müdafiə olunur. Əmlakdan başqa şəxslərin mənafelərinin ziyanına istifadə edilməsi qadağandır.

İSTİFADƏ EDİLMƏYƏN PULLAR (ing. *idle money*) – istifadə edilmədiyinə görə itirilmiş maddi dəyərlər; uzunmüddətli kapital qoyuluşu üçün nəzərdə tutulan vəsaitlər; sərbəst kapital.

Bu termin bank sənayesində "ifrat ehtiyatlar" anlayışı barəsində tətbiq edilə bilər.

Praktik olaraq istifadə edilməyən pullar pul tədavülündən çıxarılır, çünki onlar istehsal və ya maliyyə prosesində iştirak etmirlər. Bu cür pullar faktiki olaraq dəfinə funksiyasını yerinə yetirir, lakin kağız pulların və kredit pullarının özlüyündə dəyəri olmadığı üçün praktikada istifadə edilməyən pullar – əskinaslar daim, cüzi də olsa, qiymətdən düşdüyünə görə əldən verilmiş səmərə həcmində ziyan gətirir.

İstifadə edilməyən, amma sərmayə qoyulan pullar isə işləməyə və nəticə etibarı ilə resursların sahibinə mənfəət gətirməyə başlayır.

İSTİFADƏ HÜQUQU – əmlakdan istifadənin qanuni mümkünlüyü, həmin əşyanın faydalı xassələrinin istismarı və ya bu əmlakdan bəhrə və gəlirlərin alınması.

İSTİFADƏÇİ – dövlət borcalmaları yolu ilə alınmış və qaytarılması dövlət büdcəsi hesabına nəzərdə tutulan borc vəsaitindən təkrar müqavilə əsasında istifadə edən hüquqi şəxs və ya dövlət orqanı.

İSTİQRAZ – istiqraz sahibinin onu buraxmış şəxsdən istiqrazda nəzərdə tutulan müddətdə istiqrazın nominal dəyərini və ya başqa əmlak ekvivalentini almaq hüququnu təsdiqləyən qiymətli kağız. Mülki hüquqi müqavilə olan istiqraza görə bir tərəf (borc verən) pul və ya əşyanı digər tərəfə (borc alana) mülkiyyətə və ya operativ idarəetməyə verir, borc alan isə həmin məbləğdə pulu və ya bərabər miqdarda əşyanı borc verənə qaytarmağı öhdəsinə götürür, başqa sözlə, iqtisadi agentlərin hüquqi münasibətidir, bu zaman bir tərəf (borc verən) digər tərəfin (borc alan) mülkiyyətinə pul və ya digər qiymətliləri (dəyəri) verir, borc alan isə həmin məbləğdə pulu və ya həmin keyfiyyətdə digər qiymətliləri (dəyəri) qaytarmaq üzrə öhdəlik götürür. Bu cür müqavilə yalnız predmetin real olaraq verilməsi anından baxılmış hesab olunur. İstiqraz (borc), bir qayda olaraq, ödənişsiz müqavilədir, belə ki, ondan faiz tutulmasına yalnız ayrı-ayrı hallarda icazə verilir. İstiqraz (borc) müqaviləsinin iştirakçıları əsasən fiziki şəxslərdir.

Korporativ borcalanlarla təşkilati kreditorlar, adətən, kommersiya bankları tərəfindən verilən kreditlər toplusu ilə təmin edilmiş qiymətli kağız kreditlərlə təmin edilmiş istiqrazdır.

Borc verən istiqraz (borc) müqaviləsi ilə müəyyən edilən ölçüdə faiz ala bilər. Əgər istiqraz (borc) müqaviləsində faiz haqqında məlumat yoxdursa, o, borc verənin yaşayış yeri üzrə (əgər borc verən hüquqi şəxsdirsə, onun olduğu yer üzrə) bank faizinin dərəcəsi ilə müəyyən edilir. Əgər bu, istiqraz (borc) müqaviləsində nəzərdə tutul-

Panama kanalının tikintisini həyata keçirən şirkətin səhmi



mursa, istiqraz (borc) aşağıdakı hallarda faizsiz nəzərdə tutulur: a) müqavilə qanun tərəfindən müəyyən edilən minimum əmək haqqının 50 misli qədər məbləğində bağlanıbsa və heç olmazsa, bir tərəfin sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı deyilsə; b) borc verənə qiymətlilər (dəyərlər) qeyri-pul formasında verilirsə.

İstiqraz (borc) müqaviləsi – əgər onun məbləği minimum əmək haqqının 10 mislinə qədərdirsə, vətəndaşlar arasında yazılı formada bağlanmalıdır. Əgər borc verən hüquqi şəxsdirsə, onda məbləğindən asılı olmadan yazılı formada olmalıdır.


İstiqrazın (borc) ayrı-ayrı növlərinə, bir qayda olaraq, məqsədli istiqraz (borc) bu zaman istiqraz (borc) müqaviləsi borc alınan müəyyən məqsədlərə vəsait əldə etməsi şərtilə bağlanır, veksel istiqrazı (borc) (bax: Veksel), istiqraz borcu (bax: İstiqraz), dövlət və kredit istiqrazı (borcu) aid edilir.

İstiqraz onun sahibinə həmçinin istiqrazın nominal dəyərindən faiz almaq hüququ və ya digər əşya hüquqları verə bilər. Faiz ödənişlərini nəzərdə tutmayan istiqraz faizsiz istiqraz hesab olunur. Təcrübədə aşağıdakılar da fərqləndirilir: uduşlu istiqraz, təminatlı istiqraz, dövlət istiqrazı, pul istiqrazı, uzunmüddətli istiqraz, qızıl istiqraz, qısamüddətli istiqraz, lotereya istiqrazı, kütləvi istiqraz, beynəlxalq istiqraz, natural istiqraz, milli istiqraz.

Sahibinə alacağı faiz ödənişləri - ni həmin növdən olan əlavə istiqrazlara dəyişmək imkanı verən istiqraz isə dovşan istiqrazıdır.

İSTİQRAZ BAZARI ASSOSİASİYASI (ing. *Bond Market Association*) – istiqraz bazarı iştirakçılarının maraqlarını təmsil edən, əqdlərin bağlanması qaydalarını, bazarın inkişafına yönəldilmiş digər standartları müəyyənləşdirən və bazar iştirakçıları ilə qanunverici və tənzimləyici orqanlar, o cümlədən kütləvi informasiya vasitələri arasında vasitəçi qismində çıxış edən dilerlər assosiasiyası. Əvvəllər *Dövlət Qiymətli Kağızlar Assosiasiyası (DQKA)* adlandırılmış, 1997-ci ildə isə *İstiqraz Bazarı Assosiasiyası* adını al - mışdır.

ABŞ-da korporativ istiqraz sahiblərinin strukturu



Qrafik 1

İSTİQRAZ KAPİTALI – istiqrazların və bank krediti vəsaitlərinin buraxılışından və satışından daxil olan vəsaitlər hesabına yaranır. Bu cür yığılan vəsaitlər cəmiyyətin fondudur, istiqrazları saxlayanlar – onun səhmdarları yox, kreditorlarıdır.

İSTİQRAZ SAHİBİ – borcu alan, borcun istiqraz vərəqələrinin sahibi.

İSTİQRAZ VƏRƏQƏSİ – onun sahibinin emitentdən istiqraz vərəqəsində nəzərdə tutulan müddətdə onun nominal dəyərini və bu dəyərdən müəyyən edilmiş faizi və ya başqa əmlak ekvivalentini (əgər qanunvericiliyə zidd deyilsə) almaq hüququnu təsbit edən emissiya qiymətli kağızdır.

İSTİSMAR (fr. *exploitaition – istifadə, səmərə əldə edilməsi*) – 1. İnsanı əməyə məcbur edilməsi, onun əməyinin nəticələrindən istifadə edilməsi, onun əməyinin nəticələrinin mənimsənilməsi. 2. Təbii yataqların işlənilməsi. 3. Əsas vəsaitlərin, *infrastruktur* obyektlərinin istifadə edilməsi.

İSTİSNA SƏLAHİYYƏT – şirkətin əsas fərqləndirici müsbət xüsusiyyətləri, yəni o, rəqiblərindən hansı faydalı xüsusiyyətləri ilə fərqlənir.

İŞ GÜNÜ – gün ərzində işçilərin müəssisədə və ya idarədə iş - lədiyi vaxt. İş günü fiziki (işçi üçün öz qüvvəsini bərpa etmək zəruriyyəti ilə müəyyən edilən) və mənəvi (zəhmətkeşlərin mədəni tələbatlarının ödənilməsi zəruriyyəti ilə müəyyənləşdirilən) hədlərə malikdir.

İŞ QÜVVƏSİ – insanın malik olduğu və maddi nemətlər istehsal edərkən istifadə etdiyi fiziki

Cədvəl 1

Dünya üzrə muzdla işləyən, təhlükəli əməyə cəlb edilmiş uşaqların sayı (2008)

	Cəmi uşaqlar (min nəfər)	Muzdla işləyən uşaqlar		Həddi-büluğa çatmamış işçilər		Təhlükəli əməklə məşğul olan uşaqlar	
		min nəfər	xüsusi çəkisi	min nəfər	xüsusi çəkisi	min nəfər	xüsusi çəkisi
Bütün dünya	**1586288**	**305669**	**19,3**	**215269**	**13,6**	**115314**	**7,3**
Oğlanlar	819891	175777	21,4	127761	15,6	74019	9,0
Qızlar	766397	129892	16,9	87508	11,4	41296	5,4
5-11 yaş	852488	91024	10,7	91024	10,7	25949	3,0
12-14 yaş	364366	85428	23,4	61826	17,0	26946	7,4
5-14 yaş	1216854	176452	14,5	152850	12,6	52895	4,3
15-17 yaş	369433	129217	35,0	62419	16,9	62419	16,9

və əqli (zehin) qabiliyyətlərinin məcmusu. İş qüvvəsi yalnız müəyyən istehsal münasibətləri sistemində fəaliyyət göstərir və cəmiyyətin başlıca məhsuldar qüvvəsidir. İş qüvvəsi əmtəə kimi çıxış edir və hər bir əmtəə kimi, onun da dəyəri və istehlak dəyəri var. İş qüvvəsi əmtəəsinin dəyəri işçilərin özünün və ailəsinin yaşaması üçün zəruri olan yaşayış vasitələrinin dəyəri ilə müəyyən olunur. İş qüvvəsi dəyəri əmək haqqı formasındadır. İş qüvvəsinin istehlak dəyəri də var.

"İŞ PULU" – kağız nişanları; bəzi sosialist-utopistlərin fik-

Cədvəl 2

Regionlar üzrə uşaq əməyindən istifadə (2008)

(5 yaşdan 17 yaşa kimi)

	Cəmi uşaqlar (min nəfər)	Muzdla işləyən uşaqlar		Uşaq əməyi		Təhlükəli uşaq əməyi	
		min nəfər	xüsusi çəkisi	min nəfər	xüsusi çəkisi	min nəfər	xüsusi çəkisi
Bütün dünya	**1586288**	**305669**	**19,3**	**215269**	**13,6**	**115314**	**7,3**
Asiya-Sakit Okean regionu	853895	174460	20,4	113607	13,3	48164	5,6
Latın Amerikası və Karib dənizi hövzəsi	141043	18851	13,4	14125	10,0	9436	6,7
Saxaradan cənubda olan Afrika ölkələri	257108	84229	32,8	65064	25,3	38736	15,1
Digər regionlar	334242	28129	8,4	22473	6,7	18978	5,7

Cədvəl 3

İş vaxtının illik balansının hesablanması nümunəsi

	Fəaliyyətin adı	il üzrə işin əmək tutumu, saatla
1.	**Tədris planı üzrə dərs vaxtında görülməli iş**	**630**
2.	**Şagirdlərlə dərsdənkənar iş:**	**151**
	– şagirdlərlə fərdi iş;	60.4
	– fənn üzrə dairəyə rəhbərlik;	11.3
	– məktəb planı üzrə sinifdənxaric tədbirlərin təşkili;	11.3
	– şagirdlərlə ekskursiya və digər məktəbdənkənar iş;	11.3
	– olimpiada, müsabiqə, festivalların müşayiəti və sinif rəhbərliyi;	45.3
3.	**Tədris prosesinin təmin edilməsi və hazırlıq işi:**	**315**
	– dərslərə hazırlıq;	143.2
	– yazı işlərinin yoxlanması;	114.5
	– tədris kabinetinin idarə olunması;	43
	– ixtisasın artırılması	14.3
4	**Təşkilati-pedaqoji fəaliyyət:**	**164**
	– pedaqoji şuralar, metodiki müzakirələr, seminarlar;	29.8
	– metodiki iş, öz-özünə təhsil vermə, dərslərdə iştirak;	29.8
	– valideynlərlə iş;	14.9
	– valideyn iclasları;	14.9
	– şagirdlərin şəxsi işlərinin tərtibatı, attestatların verilməsi, buraxılış gecələri;	14.9
	– yuxarı müdiriyyət üçün hesabatların tərtib olunması;	44.7
	– növbətçilik	
	CƏMİ :	**∑T il = 1260**

rincə, əmtəələrdəki iş vaxtını bilavasitə əks etdirməli və metal pulu bütünlükdə əvəz etməli idi. "İş pulu" ideyasını Böyük Britaniyada R.Ouen, C.Qrey, Fransada P.J.Prudon irəli sürmüşlər. Qreyə görə, kapitalizmin ziddiyyətləri qeyri-səmərəli mübadilə sistemindən irəli gəlir: metal pulun miqdarı məhduddur və istehsalın məcmu həcminin artmasına uyğun olaraq arta bilmir. O, cəmiyyətin yenidən qurulmasını metal pulu "İş pulu"nun əvəz etməsi ilə əlaqələndirir. "İş pulu" buraxan milli bank təsis etmək təklifi irəli sürürdü. "İş pulu" utoniyasının əsassızlığı, ilk növbədə, həm sadə, həm də inkişaf etmiş əmtəə istehsalına xas olan xüsusi əməklə ictimai əmək arasındakı zidiyyətləri nəzərə almamasındadır.

İŞ VAXTI – adamların müəyyən haqla ödənən işlə məşğul olduqları vaxtın gündəlik norması.

1) istehsal və ya xidmətlə məşğul olan işçinin iştiraketmə müddətinin ölçüsü; qanunla

Cədvəl 1

İl ərzində 1 orta illik işçinin iş vaxtı balansının nümunəvi modeli

N	İş vaxtı balansının göstəriciləri	Göstəricinin mənası və ya onun hesablanması qaydası
1	Vaxtın təqvim fondu, gün	365
2	İstirahət və bayram günlərinin sayı	İş rejiminə müvafiq olaraq
3	İş təqvim günlərinin sayı	(b.1-b.2)
4	İş çıxmamış günlərinin sayı	İşə çıxılma-maların planına uyğun olaraq
5	Faktiki iş günlərinin sayı	(b.3-b.4)
6	Qısaldılmış iş günlərinin hesabına iş vaxtının itkisi, saat	Plan hesablamaları əsasında
7	İş gününün orta uzunluğu, vaxtın faydalı fondu, saat	Vaxt itkisi çıxılmadan normal uzunluq nəzərə alınmaqla
7	Vaxtın faydalı fondu, saat	(b.7xb.5)

müəyyən edilmiş bu müddətdə işçi öz əmək vəzifəsini yerinə yetirməlidir. İş vaxtı iş gününün, iş həftəsi, iş ayı və iş ilinin uzunluğu ilə ölçülür. Azərbaycan əmək qanunvericiliyində normal iş vaxtı (həftədə 40 saat), qısaldılmış iş vaxtı və natamam iş vaxtı (işçinin və müdiriyyətin razılığı ilə müəyyən edilir) nəzərdə tutulur; 2) müxtəlif əmək sərfinin ictimai cəhətdən qiymətləndirilməsinin vahid ölçüsü – ictimai zəruri iş vaxtı.


Natamam iş vaxtı – əmək müqaviləsi bağlanarkən, habelə əmək münasibətləri prosesində işçi ilə işəgötürənin qarşılıqlı razılığı ilə natamam iş vaxtı, natamam iş günü, yaxud natamam iş həftəsi müəyyən edilə bilər. Natamam iş vaxtının müddəti və onun qüvvədə olduğu zamanın, ayın, ilin davamiyyəti tərəflərin razılığı ilə müəyyən edilir. İşçinin səhhəti və fizioloji vəziyyəti (hamiləlik, əlillik), habelə xroniki xəstəliyi olan uşağının və digər ailə üzvünün səhhəti müvafiq tibbi rəyə görə əmək funksiyasını natamam iş vaxtında yerinə yetirməsini tələb edərsə, habelə 14 yaşına çatmamış, yaxud 16 yaşınadək əlil uşağı olan qadınlara ərizələri əsasında işəgötürən natamam iş vaxtı (iş günü, yaxud iş həftəsi) müəyyən etməlidir.

İŞ VAXTI BALANSI – müəyyən təqvim müddətində (bir qayda olaraq, bir il) orta statistik işçi tərəfindən iş vaxtından istifadənin göstəricilər sistemi. Belə bir balansın tərtibinin məqsədi iş vaxtı fondundan səmərəli istifadəni təmin etməkdir. Bu zaman iş gününün orta uzunluğu, işin qəbul olunmuş təqvim rejimi, istirahət günləri, müəssisədaxili reqlamentləşdirilmiş fasilə müddəti nəzərə alınır. İşə çıxmamağın qanunla müəyyənləşdirilmiş səbəblərinə növbəti və növbədənkənar məzuniyyətlər, dövlət və ictimai öhdəliklərin yerinə yetirilməsi ilə əlaqədar olaraq işə çıxmamalar, tədris məzuniyyəti, natamam iş həftəsi aiddir. Növbəti məzuniyyətin müddəti hər bir işçi kateqoriyasına uyğun olaraq qanunvericiliyə müvafiq müəyyənləşdirilir. Bununla yanaşı, orta statistik iş günü bayram günü ilə əlaqədar bir saat qısaldılır. Belə balansların tərtibi zamanı administrasiyanın icazəsi ilə işə çıxmama və proqullar nəzərə alınmır.

İŞ VAXTI BÜDCƏSİ – hər hansı bir təşkilatın personalının istehsala sərf etdiyi vaxtın və müəyyən səbəblər üzündən istifadə olunmamış vaxtın bölüşdürülməsi. Bunun vasitəsilə vaxt itkisinin aradan qaldırılması nəticəsində məhsuldarlığın yüksəldilməsi əsaslandırılır. İş vaxtının büdcəsi iki hissədən ibarət olur. Birinci hissədə həmin təşkilatın personalının bütün vaxt ehtiyatı (təqvim vaxt fondu, bayram və istirahət günləri, növbəti məzuniyyətlər) öz əksini tapır. İkinci hissədə isə faktiki istifadə olunmalı vaxt (istifadə olunmuş vaxt, istifadə olunmamış vaxt, vaxt itkisi) öz əksini tapır.

İŞ VAXTI FONDU – müəyyən təqvim dövründə (il, rüb, ay) lazım olan işçilərin sayını müəyyən etmək, həmçinin müəssisə-

Filialın işçi heyətinin idarə edilməsinin təşkilinin struktur-funksional sxemi



Sxem 1

lərdə əmək ehtiyatlarından istifadə göstəricilərini aşkara çıxarmaq üçün nəzərdə tutulur. Ölçü vahidi kimi adam-saat və adam-gün tətbiq edilir. Bir işçi üçün il - lik iş vaxtı fondu tam təqvim vaxt fondundan il ərzindəki qeyri-iş (istirahət və bayram günləri) günlərini və saatlarını çıxmaqla müəyyən olunur.

İŞ VAXTINDAN ARTIQ İŞ – işəgötürənin əmri (sərəncamı, qərarı) və işçinin razılığı ilə əmək funksiyasını müəyyən olunmuş iş günü vaxtından artıq müddət ərzində yerinə yetir - məsi.

Təbii fəlakətin, istehsalat qəzasının və digər fövqəladə hadisələrin qarşısının alınması, onların nəticələrinin aradan qaldırılması, habelə tezkorlanan malların itkisinin qarşısını al - maq məqsədi ilə Əmək Məcəl - ləsi ilə müəyyən edilmiş qaydalara əməl olunmaqla işçinin iş vaxtından artıq işlərə cəlb edilməsinə yol verilir.

İŞÇİ HEYƏTİNİN İDARƏ EDİLMƏSİ – müəssisənin əmək resurslarının formalaşması və inkişafı ilə bağlı tədbirlər kompleksi. Adətən iri müəssisələrdə işçilərin idarə edilməsi üçün məsuliyyət xüsusi peşə hazırlığına malik olan kadrlar şöbəsinin işçilərinə həvalə edilir. Onların işinə müəssisənin kadrlar üzrə vitse-prezidenti nəzarət

edir. Kadrlar şöbəsinin mütəxəssisləri müəssisənin qarşısına qoyulmuş məqsədlərə çatması üçün həm müəssisənin ali rəhbərliyi, həm də aşağı səviyyəli rəhbərlərlə daim qarşılıqlı əlaqədə fəaliyyət göstərməlidirlər.

İşçilərin idarə edilməsi aşağıdakı komponentləri əhatə edir: əmək resurslarına tələbatın planlaşdırılması; işçilərin işə qəbul edilməsi, o cümlədən bütün vəzifələr üzrə potensial namizədlərdən ibarət ehtiyat yaradılması, iş yerlərinə namizədlərin qiymətləndirilməsi və ehtiyatdan ən yaxşılarının seçilməsi; işçilərin cəlb edilməsi, saxlanması və onların əməyinə motiv yaradılması üçün əmək haqqının və güzəştlərin müəyyən edilməsi; işə yenicə qəbul edilmiş işçilərin adaptasiyası və vaxtaşırı olaraq işçilərin ixtisas səviyyəsinin artırılması; əmək fəaliyyətinin qiymətləndirilməsi, o cümlədən müvafiq metodikaların işlənib hazırlanması və onların işçilərə çatdırılması.

İşçi heyətinin planlaşdırılması mahiyyət etibarilə müəssisənin ştatının komplektləşdirilməsinin planlaşdırılması deməkdir. *Bu proses üç mərhələdən ibarətdir.*

İlk növbədə, mövcud əmək resursları qiymətləndirilməlidir. Heyət üzrə menecer konkret əməliyyatın yerinə yetirilməsi ilə neçə nəfərin məşğul olduğunu və hər bir əməliyyatın yerinə yetirilməsində əməyin keyfiyyətinə hansı tələblər təqdim edilməli olduğunu müəyyən etməlidir. Heyətin planlaşdırılmasının növbəti mərhələsi müəssisənin qısamüddətli və perspektiv məqsədlərinin reallaşdırılması üçün zəruri olan işçilərin sayının proqnozlaşdırılmasıdır. Ciddi təşkilati və ya texnoloji dəyişikliklər baş verdikdə, məsələn, yeni zavod tikildikdə və ya yeni məhsulun istehsalı tətbiq edildikdə işçi qüvvəsinə gələcək tələbatın qiymətləndirilməsi çox mürəkkəb məsələdir. Adətən, belə hallarda əmək bazarının cari və perspektiv vəziyyəti kompleks şəkildə qiymətləndirilməlidir. Heyət üzrə menecer müəssisənin işçi qüvvəsinə gələcək tələbatını müəyyən etdikdən sonra bu tələbatın təmin edilməsi proqramını işləyib hazırlamalıdır. Həmin proqram təşkilatın məqsədlərini reallaşdırmaq üçün tələb edilən işçilərin cəlb edilməsi, işə qəbul edilməsi, hazırlanması və xidməti irəliləyişi ilə bağlı tədbirlərin konkret qarfikindən ibarət olur.

İşçilərin idarə edilməsinin digər mühüm tərkib hissəsi işçilərin işə qəbulu məsələsidir. Müəssisə, ilk növbədə, bütün vəzifələr və ixtisaslar üzrə namizədlərin zəruri ehtiyatını yaratmalıdır. Müasir dövrdə bu məqsədlə çox vaxt kütləvi informasiyanın vasitələrinin imkanlarından geniş istifadə edilir – mövcud boş iş yerləri barədə elanlar verilir, həmin vəzifələrə və ya ixtisaslara təqdim olunan tələblər göstərilir. İri şirkətlər çox vaxt işədüzəltmə üzrə peşəkar agentliklərə müraciət edir. Daxili ehtiyatlar hesabına, yəni müəssisənin öz işçilərinin xidməti irəliləməsi yolu ilə kadrlar toplamaq metodları da geniş yayılmışdır. Heyət üzrə menecerlər test yoxlamalarından və müsahibələrdən istifadə edirlər. Bu tədbirlərin gedişində namizədlərin peşəkar və insani keyfiyyətləri üzə çıxır. Son vaxtlar namizədlərin başqa insanlarla psixoloji birgəliyini müəyyən etmək üçün aparılan test yoxlamaları geniş yayılmışdır.

İşçilərin idarə edilməsinin üçüncü tərkib hissəsi *əmək haqqının və əlavə güzəştlərin müəyyən edilməsidir.* Əməyin ödənilməsinin bir-birindən prinsipial fərqlənən iki forması mövcuddur: vaxtamuzd və işəmuzd ödəniş. İşəmuzd ödənişin iki modifikasiyası mümkündür: birdəfəlik bonuslar ödənilməsi və işəmuzd-mükafatlı ödəniş. Qarışıq formalara da rast gəlmək olar, məsələn, zəmanətli minimuma əməl edilməklə işəmuzd ödəniş.

Müəssisələr öz işçilərinə əmək haqqından əlavə müxtəlif güzəştlər də təqdim edir. İnkişaf etmiş ölkələrdə əlavə güzəştlər işçinin aldığı haqqın xeyli hissəsini təşkil edir. Bir sıra ölkələrin qanunvericiliyinə görə, işçilərə güzəştlərin müəyyən minimal toplusunun avtomatik təqdim olunması tələb edilir – ödənişli məzuniyyətlər, məcburi pensiya təminatı və tibbi sığorta – digər güzəştlər müəssisə rəhbərinin qərarı ilə təqdim edilir.

Müasir müəssisələrdə işçi heyətinin formalaşması metodları və onun mükafatlandırılması formaları ilə yanaşı, əmək resurslarının inkişafı üsullarına da çox böyük diqqət yetirilir. *İşə qəbul edilmiş işçilərin müəssisənin kollektivində adaptasiyası və onların peşə təlimi* işçilərin idarə edilməsi prosesinin tərkib hissələrinin siyahısında sayca dördüncü yeri tutur, lakin müa-

sir şəraitdə bu tədbirlərin əhəmiyyəti işçilərin idarə edilməsinin bundan əvvəlki üç tərkib hissə ilə müqayisədə heç də az deyil. Adaptasiya və peşə təlimi proqramının uğurla həyata keçirilməsi bu işin görülməsinə nisbətən az xərc çəkilməklə işçilərin əmək məhsuldarlığının artmasına gətirib çıxara bilər. Müəssisənin fəaliyyətinin səmərəliliyini artıran ehtiyatlardan biri də bundan ibarətdir.

Müəssisəyə təzə işçi gələndə əvvəllər qazandığı təcrübəni və dünyagörüşünü də özü ilə gətirir. Bu dəyərlər həmin kollektivdə qəbul edilmiş müvafiq dəyərlərlə üst-üstə düşməyə bilər. İşçi heyəti üzrə menecerlər yeni gələnin kollektivə "daxil olmasını" asanlaşdıran üsulların bütöv bir dəstindən istifadə edirlər (bu üsullar formallaşdırılmış ola da bilər, olmaya da bilər).

İşçinin adaptasiyası onun yeni vəzifədə işləməsi üçün xüsusi vərdişlərə yiyələnməsi ilə müşayiət olunmalıdır. Sonradan müəssisənin əməkdaşları heyət üzrə menecerlər tərəfindən işlənib hazırlanmış müəyyən sxemə müvafiq olaraq ixtisasartırma proqramı çərçivəsində təlim keçməlidirlər. Bu cür təlim keçilməsi ilk növbədə işçini yeni vəzifəyə təyin edəndə və ya ona yeni iş tapşırılanda, eləcə də işçinin fəaliyyətini qiymətləndirərkən onu öz işini yerinə yetirməsi üçün müəyyən vərdişlərinin olmaması müəyyən edildiyi hallarda tələb edilir.

İşçilərin fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi. Heyətin işinə səmərəli nəzarətin zəruriliyi bir neçə səbəblə şərtlənir. Əvvəla, bu cür nəzarətin gedişində müəssisənin rəhbərləri üçün informasiya toplanır, həmin informasiyaya əsasən əmək haqqının artırılması (azaldılması) və xidməti irəliləyiş barədə qərarlar qəbul edilir. İkincisi, səmərəli nəzarət hər bir əməkdaşın necə işləməsi barədə əyani təsəvvür əldə etməyə, görülmüş işi hərtərəfli təhlil etməyə, işdəki nöqsanları təshih edən planın tərtibatına, yaxud işçinin fəaliyyətinin müsbət cəhətlərini müəyyənləşdirməyə imkan verir. Nəhayət, nəzarət əmək resurslarının planlaşdırılması prosesinin həyata keçirilməsində əsas oriyentir olmalıdır, çünki o, əməkdaşın xidməti irəliləyiş barədə gözlədiklərini onun real qabiliyyəti və imkanları ilə müqayisə etməyə imkan verir.

İŞÇİ QÜVVƏSİ BALANSI – müxtəlif təşkilatların, xalq təsərrüfatı sahələrinin işçi qüvvəsinə olan tələbatını və bu tələbatın ödənilməsi mənbələrini əks etdirən göstəricilər sistemi.

İŞÇİ QÜVVƏSİNİN MİQRASİYASI – əmək qabiliyyətli əhalinin iqtisadi xarakterli səbəblərlə əlaqədar yerdəyişməsi, başqa yerə köçməsi. Bu halda ölkənin sərhədlərindən keçib-keçməməsindən asılı olaraq daxili və xarici miqrasiyanı fərqləndirirlər. İşçi qüvvəsinin daxili miqrasiyası (ölkənin regionları arasında, şəhərdən kənd) məhsuldar qüvvələrin əsas elementi olan əmək resursları nın yenidən bölüşdürülməsi forması, eləcə də əhalinin tərkibinin və yerləşməsinin dəyişməsi amili kimi böyük iqtisadi əhəmiyyət kəsb edir. Bu halda ölkə əhalisinin sayı dəyişmir. Xarici miqrasiya ölkə əhalisinin sayına təsir göstərir, onu miqrasiya saldosu qədər artırır və ya azaldır. Bu artım və ya azalma müəyyən ölkənin hüdudlarından kənara köçmüş insanların (mühacirlərin) sayı ilə həmin ölkəyə onun hüdudlarından kənardan köçüb gəlmiş insanların (immiqrantların) sayı arasındakı fərqə bərabərdir.

İŞÇİ YERLƏRİNİN ATTESTASİYASI – mütərəqqi texnika, texnologiya, təşkilati məsələlər, ətraf mühitin və əməyin mühafizəsi tələblərinə uyğunluğu nöqteyi-nəzərindən işçi yerlərinin kompleks qiymətləndirilməsi. Belə bir attestasiyanın məqsədi işçi yerlərinin personalın sayına uyğunlaşdırmaq, əmək məhsuldarlığını artırmaq, əsas fondlardan rasional istifadə, əmək şəraitini yaxşılaşdırmaqdan ibarətdir.

İŞÇİLƏRİN MOTİVASİYASI – şəxsi və ya müəssisənin məqsədlərinə nail olmaq üçün fəaliyyətə sövqetmə. Təmin edilməsi fəaliyyət üçün motiv olan tələbatlarla ayrılmaz şəkildə bağlıdır. Tələbatın müxtəlif təsnifatları mövcuddur. Tələbatların ilkin və təkrar növlərə bölünməsini hamı tərəfindən qəbul edilmiş bölgü saymaq olar. İlkin tələbat öz təbiətinə görə fizioloji tələbatdır. İnsanın qidaya, paltara, mənzilə və başqa dəyərlərə ehtiyacı bu cür tələbatlar qismi nə aid edilir. İlkin tələbatın xüsusiyyəti ondan ibarətdir ki, onların müəyyən həddi var. Bu həddə keçildikdə onların motivasiyaya təsiri əhəmiyyətli dərəcədə azalır. Təkrar tələbatı mənəvi tələbat adlandırırlar. Onlar təkcə maddi nemətlərlə təmin olunmur. Özünə hörmət, uğur qazan-

maq, özünü ifadə etmək tələbatı bu qəbildəndir. Onların təmin edilməsi çox cəhətdən korporativ mədəniyyətdən, qəbul edilmiş dəyər oriyentasiyasından, menecerin idarəetmə mədəniyyətinin səviyyəsindən asılıdır.

Ümumi qaydaya görə, daha yüksək səviyyəli tələbat (məsələn, ətrafdakılar tərəfindən hörmətə olan tələbat) insanın davranışında stimula çevrilməzdən əvvəl onun ilkin tələbatı təmin edilməlidir. Bununla belə, hər hansı bir tələbatın təmin edilməsi avtomatik olaraq növbəti səviyyəli tələbatın təzahürünə gətirib çıxarmır. Növbəti, daha yüksək səviyyəli tələbatın insanın davranışına təsir etməyə başlaması üçün fərdin bütün ilkin tələbatının təmin edilməsi vacib deyil.

İnsanın əməyə münasibəti tələbatların geniş spektri ilə müəyyən edilir. Buna görə də müxtəlif ranqlı rəhbərlər konkret işçinin motivasiyasını gücləndirmək üçün ona həmin tələbatları təmin etmək imkanı verməlidirlər. Menecerlər müvafiq hərəkətləri etməklə bütün təşkilatın məqsədlərinə çatmağa kömək edirlər. Həyat səviyyəsi aşağı olduqda, rəhbərlər tabeliyində olanları, demək olar ki, yalnız iqtisadi stimullarla həvəsləndirə bilərlər. Qazanc yüksək, sosial nemətlər kafi səviyyədə olduqda, mənəvi tələbatlar ön plana keçir. Buna müvafiq olaraq işçilərin motivasiyası ilk növbədə onların təkrar tələbatının təmini hesabına baş verir. İşçi müəyyən qüvvə sərf etdikdə gözləyir ki, bunun nəticəsi onun tələbatının təmin edilməsinə gətirib çıxaracaqdır. O, təşəbbüskarlıq göstərəndə, işə yaradıcılıqla yanaşanda belə güman edir ki, maddi mükafatdan əlavə, onun prestiji (nüfuzu), kollektivdə hörməti, özünüifadə dərəcəsi artacaqdır. Əgər sərf edilən qüvvə ilə arzu edilən nəticə arasında əlaqə görünmürsə, onda işçinin motivasiyası zəifləyir; təmin edilməmiş tələbat əməyin motivasiyasına və nəticə etibarı ilə onun səmərəliliyinə mənfi təsir göstərir.

Xarici ölkələrin idarəetmə praktikasında "sahiblik" motivasiyaları yaradılmasının konkret yollarına daha çox diqqət yetirilir. Bu yalnız o halda mümkündür ki, işçilərin firmanın mənafelərinə yabançı olması aradan qaldırılsın, təsərrüfat fəaliyyətinin son nəticələrində marağı olan "vahid komanda" yaradılsın. Təsirli "sahiblik" motivasiyası yaratmağın əsas istiqaməti işçilərin mülkiyyətdə, mənfəətdə və idarəetmədə iştirakıdır.

İŞÇİNİN UYĞUNLAŞDIRILMASI (*adaptasiyası*) – işçinin yeni iş yerində mövcud olan şəraitə uyğunlaşması, başqa sözlə, işçinin əmək fəaliyyətinin məzmununa, şərtlərinə və bilavasitə sosial mühitə işgüzar və şəxsi keyfiyyətlərinin təkmilləşməsinə uyğunlaşması prosesi. İşçinin uyğunlaşması ustalığın, əmək məhsuldarlığının və keyfiyyətinin yüksəldilməsində işçiyə müntəzəm kömək göstərən ictimai təşkilatların, vəzifəli şəxslərin, hamilərin köməyi ilə həyata keçirilir. İşçinin uyğunlaşması fizioloji, bioloji, psixoloji və sosial aspektləri özündə birləşdirir.

İşçinin uyğunlaşmasının mühüm komponentləri, bir tərəfdən, işçinin özünü qiymətləndirməsinin onun imkanları ilə razılaşdırılması, digər tərəfdən, onun uyğunlaşdığı real istehsal mühitidir.

İşçinin uyğunlaşması dinamik aspekti, yəni müəyyən istehsal mühitində uyğunlaşma prosesində işçinin özünün dəyişilməsini və vərdişlərinin uyğunlaşma prosesində istehsal mühitinin müəyyən səviyyədə dəyişilməsini, eləcə də uyğunlaşma qarşılıqlı fəaliyyət prosesində istehsal mühitinin özünün dəyişməsini əhatə edir.

İşçinin uyğunlaşmasının fizioloji və bioloji aspektləri onun bioloji qabiliyyəti, sağlamlığı, istehsal mühitindəki şəraitə fizioloji reaksiyaları ilə əlaqədardır. Bu da işçinin orqanizminin genetik funksiyalarının və tənzimləmə prosesinin pozulma təhlükəsi olmadan onun iş yerinin konkret şəraitinə uyğunlaşma imkanlarını xarakterizə edir. Bu, hər şeydən əvvəl, əmək şəraitinə, məzmununa və rejiminə aiddir. Ağır iş şəraiti zamanı işçinin uyğunlaşması prosesi bir neçə fazadan keçir: əvvəlcə dekomensasiyanın (orqanizmin funksiyalarının pozulması) mövcudluğu, sonra natamam uyğunlaşma – orqanizmin yeni şəraitə uyğun çevik vəziyyətlərin fəal axtarışı üstünlük təşkil edir və nəhayət, nisbətən çevik uyğunlaşma fazası baş verir. Bu zaman işçinin orqanizminin reaksiya vermək qabiliyyəti, onun funksional vəziyyəti (yaşı, sağlamlığı və s.) böyük əhəmiyyətə malikdir. Bundan asılı olaraq, orqanizmin müxtəlif təsirlərə cavab reaksiyası da dəyişilir.

Fizioloji uyğunlaşma prosesi insanın əsəb sisteminin plastikliyindən, psixikasının xüsusiyyətlərindən asılıdır.

Əgər işçinin bioloji-fizioloji imkanları həmin istehsal mühitinə uyğun gəlmirsə, uyğunlaşma mümkün deyil.

İşçinin uyğunlaşmasının psixoloji aspekti onun şəxsiyyətinin fəallığından, istehsal mühitinin (əməyin təşkili, norması, davranış qaydaları və s.) qaydalarının mənimsəmə qabiliyyətindən, həmçinin verilən qaydaların işçiyə uyğunluğundan asılıdır.

İşçinin uyğunlaşmasının sosial aspekti onun iş yerində sosial mühitlə qarşılıqlı əlaqəsindən asılıdır. Bura aiddir: işçinin, işə götürənin və prosesin digər subyektlərinin tələblərinin və gözləmələrinin razılaşdırılması, sosial nəzarət; şəxsiyyətlərarası münasibətlər, sosial-psixoloji iqlim və s. İşçinin uyğunlaşmasının bu aspekti qarşılıqlı fəaliyyətdə olan subyektlərin işgüzar, fəal təbiəti ilə müəyyən olunur.

İşəgötürən tərəfindən fəaliyyətin qiyməti, sosial normalar – məqsədlərin əldə edilmə üsulları, bu normalardan kənarlaşma üzrə sanksiyalar, sosial nəzarətin forma və metodları müəyyən olunur.

İşçi tərəfindən onun fəaliyyət istiqamətindən asılı olaraq, uyğunlaşmanın aşağıdakı variantları mümkündür: a) sosial mühitin tələblərinə tam tabelik; b) mühitin işçi tərəfindən əsaslandırılmış və işə götürən tərəfindən qəbul edilmiş formada yeniləşdirilməsi, bu zaman qarşıya qoyulan məqsədlərə nail olunması üçün qeyri-şablon və ya əvvəllər məlum olmayan üsullardan istifadə olunur.

İşçinin müvəffəqiyyətli uyğunlaşmasının mühüm şərti həm onun üçün, həm də işə götürən üçün optimal olan uyğun və uyğunlaşan fəaliyyətin əlaqələndirilməsidir. Bu zaman işçinin yaradıcı potensialı reallaşdırılır və o, iş təqdim edənə imkan verir ki, öz işinin təşkilinə yenidən nəzər salsın.

İŞDƏNÇIXMA MÜAVİNƏTİ – müəssisənin (təşkilatın, firmanın və s.) işçisi tərəfindən inzibati xəta törədilməsi (əmək qanunvericiliyinin, kollektiv müqavilənin və ya əmək müqaviləsinin pozulması) nəticəsində və ya: 1) fəhlə və ya qulluqçunun hərbi xidmətə çağırılması;

2) fəhlə və ya qulluqçunun müəssisə, təşkilatla birlikdə başqa yerə köçürülməkdən imtina etməsi;

3) müəssisənin, təşkilatın ləğv edilməsi;

4) işçilərin sayının və ya ştatların ixtisar edilməsi hallarında işdən azad edildikdə ona ödənilən birdəfəlik müavinət.

İŞƏGÖTÜRƏNLƏRİN MƏSULİYYƏTİNİN SIĞORTASI – tarixən bu sığorta növü onun təyinatına diqqət yetirərək məsuliyyət sığortasının digər növlərindən ayrı nəzərdən keçirilir. İşə götürənlərin məsuliyyət sığortası polisi üzrə istehsal fəaliyyəti ilə bilavasitə bağlı olan və əmək müqaviləsindən irəli gələn zərərçəkmişin öz öhdəliklərinin yerinə yetirilməsi prosesində baş verən bədən xəsarəti (ölüm də daxil olmaqla) və xəsarətlənməyə görə məsuliyyət qanunvericiliyə uyğun olaraq ödənilir.

İŞƏGÖTÜRƏNLƏRİN SOSİAL SIĞORTAYA AYIRMALARI – gələcəkdə muzdlu işçilərin sosial sığorta üzrə müavinətlər almasını təmin etmək üçün müəssisələrin (işəgötürənlərin) dövlət və qeyri-dövlət sosial sığorta fondlarına köçürtdükləri vəsait. Faktiki və şərti hesablanmış sosial sığorta ayırmaları kimi növləri mövcuddur. Sosial sığorta faktiki ayırmaları müəssisə, təşkilat və digər işverənlər tərəfindən sosial sığortaya köçürülən vəsaitdən ibarətdir. Bu ödəmələr pensiya və müavinətlərin verilməsi, işçilərin istirahəti və müalicəsinə sərf olunan xərclərin maliyyələşdirilməsi üçün əsas mənbə sayılır. İşverənlərin belə ayırmaları birbaşa sosial sığorta təşkilatlarına ödəmələrinə baxmayaraq, onlar MHS-də muzdlu işçilərə verilən əməyə görə haqq kimi nəzərə alınır. Sosial sığortaya faktiki ayırmalar sosial sığortanın bütün növləri üzrə əmək haqqı fonduna, yəni sosial sığorta, pensiya, məşğulluq, əhaliyə sosial yardım fondlarına, buna bənzər sair büdcədənkənar fondlara ayrılmış məbləğin həcminə uyğun qiymətləndirilir. Müəssisə və təşkilatların tibbi sığorta üçün məcburi ayırmaları da ona daxil edilir, tibbi sığortaya könüllü ayırmalar isə əmək haqqına daxil edilir.

Sosial sığortaya şərti hesablanmış ayırmalar öz işçilərinə, buna hüququ olan keçmiş işçilərə və onların himayəsində olanlara birbaşa sosial müavinətlərin verilməsini təmin etmək məqsədilə müəssisə, təşkilat və digər işəgötürənlər tərəfindən ödənilən ayırmaları özündə əks etdi-

rir. Onlar bu dövrdə müəssisələr tərəfindən faktiki ödənilmiş sosial müavinətlərin, məsələn, əmək müqaviləsi ləğv edilərkən verilən çıxış müavinətinin; ştatın ixtisara düşməsi, müəssisənin yenidən təşkili və ya ləğv edilməsi ilə əlaqədar olaraq işdən çıxarılmış işçilərə başqa işə düzələnə kimi olan dövr üçün verilən pulun məbləğinin; əmək qabiliyyətinin itirilməsi ilə əlaqədar ödənilən müavinətlərin; pensiyalara əlavələrin, tədris məzuniyyətinə görə işçilərə verilən ödənişlərin; uşağa qulluğa görə pulu qismən ödənilən məzuniyyətdə olan qadınlara verilən kompensasiyaların; müəssisə tərəfindən təhsil almağa göndərilən tələbə və şagirdlərin təqaüdlərinin cəminə bərabərdir. MHS-də istifadə edilən göstəricidir.

İŞGÜZAR FƏALLIQ İNDEKSİ – 1. Əmtəə istehsalı və ya xidmətlər göstərilməsi üzrə müəssisələrin təşkili və inkişafı ilə əlaqədar iqtisadi fəaliyyət. 2. İnsanın fəaliyyəti prosesində fərasətlilik, təşəbbüskarlıq, fəallıq, dinamiklik göstərməsinə imkan verən şəxsi keyfiyyətləri. İşgüzar fəallıq sahibkarlıq fəaliyyətinin uğurla aparılması üçün mühüm şərtlərdən biridir. İşgüzar fəallıq indeksi bir çox ölkələrdə iqtisadiyyatın ümumi vəziyyətinin indikatoru kimi tətbiq edilir. Bu indeks hər ay dərc edilir. İndeksin strukturunda bir neçə indeks fərqləndirilir. Onların hər biri müstəqil əhəmiyyət kəsb edir: sənaye indeksi, ticarət indeksi, maliyyə indeksi, resurs bazası indeksi, istehlakçı indeksi, sahibkarların qiymətləndirmə və gözləmələr indeksi.

İŞGÜZAR HÜQUQ – bir sıra ölkələr üçün xarakterik olan anlayışdır ki, sahibkarlıq fəaliyyətinin tənzimlənməsinə aid olan müxtəlif hüquq institutlarını praktik məqsədlərlə birləşdirmək üçün tətbiq olunur. Qanunvericilikdə və digər rəsmi sənədlərdə "işgüzar hüquq" kateqoriyasının olmaması səbəbindən hüquq nəzəriyyəsi və praktikası işgüzar dövriyyəni tənzimləyən hüququ təyin edərkən bir neçə: iqtisadi, sahibkarlıq, təsərrüfat, ticarət-sənaye hüququ terminlərindən istifadə edir. Əksər ölkələrin hüquq sistemlərində xüsusi hüququn sərbəst sahəsi kimi ayrılan ticarət hüququndan fərqli olaraq, işgüzar hüquq özündə həm xüsusi hüquq, həm də kütləvi hüquq xarakterli normaları cəmləyir.

İŞGÜZAR KARYERANIN İDARƏ EDİLMƏSİ – təşkilatın kadr xidməti tərəfindən işçinin məqsədlərindən, tələbatlarından, imkanlarından, qabiliyyətlərindən və meyillərindən, həmçinin,təşkilatın məqsədlərindən, tələbatlarından, imkanlarından, qabiliyyətlərindən və meyillərindən irəli gələrək, işçinin planlaşdırılmasına, təşkilinə, motivasiyasına və xidməti artımına nəzarətə yönəldilmiş tədbirlər; işə qəbul edilərkən fərdin özünün hərəkətləri.

İŞGÜZAR OYUN – oyun formasında real iqtisadi vəziyyətin sadələşmiş formada canlanması, idarəetmə xarakterli problemin həllinin ən yaxşı variantının tapılması metodu. Biznesin aparılması üzrə praktiki kommersiya fəaliyyətinin öyrənilməsi zamanı, iqtisadi davranış normalarının mənimsənilməsində, iqtisadi qərarların qəbul edilməsi proseslərində istifadə olunur. Təklif olunan qərarın bütün iştirakçıları qane edən məqama (həlli) qədər "oyun" iştirakçılarından daxil olan təkliflərin ardıcıl düzəliş edilməsindən ibarətdir. Qərarların (həllin) yeni variantları ilkin informasiyanın dəyişməsi və ya tamamlanması, təhsil üsullarının yaxşılaşması, qərarların işlənməsi üçün əlavə texniki vəsaitlərin cəlb edilməsi hesabına alınır.

İŞGÜZAR VERGİ – daxil olmaları müxtəlif səviyyəli orqanlar arasında bölüşdürülən vergi.

İŞİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ METODLARI – müəssisədə işçinin fəaliyyət göstəricilərini buradakı standartlarla, digər işçilərin fəaliyyət göstəriciləri ilə müqayisə edilməsi üçün istifadə edilən üsullar, vasitələr.

İşin səmərəliliyinin qiymətləndirilməsinin ən sadə və ən çox istifadə edilən metodu – reytinq şkalalarının tərtib edilməsidir. O, işi xarakterizə edən əlamətlərin siyahısıdır, burada hər birinin qarşısında konkret işçi tərəfindən onun yerinə yetirilməsinin səmərəlilik qiyməti ("qeyri-kafi"dən "əla"ya qədər) qoyulur. Sonra isə işçinin ümumi reytinqi müəyyən olunur. Bəzi şirkətlərdə ümumi reytinq müəyyənləşdirilmir, daha mühüm, tutumlu xarakteristikalar ayrılır və işçinin mükafatlandırılması bir və ya bir neçə xarakteristikalar üzrə yüksək göstəricilərə görə həyata keçirilir.

Şəxsi heyətin qiymətləndirilməsinin digər üsulu isə ondan ibarətdir ki, müəyyən bölmənin

Cədvəl 1

Azərbaycan Respublikasının əsas məşğulluq göstəriciləri (ilin sonuna, nəfər)

	2000	2005	2006	2007	2008	2009	2010
Məşğulluq xidmətlərində işsiz statusu almış şəxslər	43739	56343	53862	50651	44481	41100	38966
İşə düzəldilmişdir	19095	25299	28076	30700	31144	28382	29399
Peşə təliminə göndərilmişdir	1394	1542	577	2623	3393	4827	3921
Boş iş yerlərinin tutulması üçün işçi qüvvəsinə olan tələbat	5197	9247	11995	12297	10445	10594	10654
İşsiz statusu almış işsizlərin iqtisadi fəal əhaliyə nisbəti, faizlə	1,17	1,35	1,25	1,17	1,02	0,94	0,85
İşsizliyə görə müavinət alanlar	2768	2087	2281	2523	2109	2721	87

əməkdaşlarının işi hər hansı bir meyar üzrə qiymətləndirilərək bölüşdürülür. Rəhbər, sadəcə olaraq, həll etməlidir ki, əməkdaşların siyahısında ən yaxşı və ən pis işçi kimdir, sonra isə uyğun qaydada soyadların yazmalıdır. Belə üsul növbəli ranqlara bölünmə adlanır.

Əməkdaşın işinin qiymətləndirilməsinin digər metodu ilkin bölgü adlanır. Bu metodun istifadəsi zamanı yaxşı və pis işçilərin sayı arasında faiz nisbəti əvvəlcədən işlənib hazırlanır. Məsələn, müəyyən firmada aşağıdakı nisbətlər müəyyən edilə bilər: "yaxşı" kateqoriyasında olan işçilərin sayı 15%-i ötməməlidir; işçilərinin nəticələri orta olan, lakin yaxşı kateqoriyasına düşməyən işçilərin sayı – 20%; öz işlərini kafi yerinə yetirənlər – 30%; gördükləri işlər normadan bir qədər aşağı olanlar – 20%; tələbləri yerinə yetirməyənlər – 15%.

Bu metodu o zaman tətbiq etmək məqsədəuyğundur ki, rəhbərlik çoxlu sayda əməkdaşlara malik olsun və ya iş elə təşkil edilsin ki, kiçik şöbələrin müdiriyyətləri birləşə bilsin və əməkdaşları birlikdə qiymətləndirsin və ya "yaxşı" kateqoriyasına ancaq iki işçini aid etsin və şöbə müdirlərinin iclaslarında öz rəyini müdafiə etsin.

İŞSİZ – işi və qazancı olmayan, işə başlamağa hazır olub, müvafiq icra hakimiyyəti orqanlarında işaxtaran kimi qeydiyyata düşən, əmək qabiliyyəti yaşda olan əmək qabiliyyətli vətəndaş. Beynəlxalq Əmək Təşkilatının (BƏT) standartlarına görə işsiz hazırda işi olmayan, işə başlamağa hazır, son 4 həftə ərzində iş axtaran şəxslərdir.

Dövri xarakterli işdə işləyənlər, 16 yaşınadək və təqaüd yaşından yuxarı vətəndaşlar işsiz hesab olunmurlar. Bu müddəalar 2 iyul 2001-ci ildə qəbul olunmuş "Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu"nda öz əksini tapmışdır.

İşsizlərin təyini zamanı məşğulluq xidməti üzrə görülən ictimai işlərə görə verilən haqq, eləcə də idarə, müəssisə və təşkilatın ləğv edilməsi, yenidən qurulması, ştat ixtisarı ilə əlaqədar ödəmələr nəzərə alınmır.

Vətəndaşlar yaşayış yerləri üzrə məşğulluq şöbələrinə şəxsiyyət vəsiqəsi, əmək kitabçası və yaxud onları əvəz edən sənədlər, eləcə də professional ixtisası təsdiq edən sənəd, axırıncı iki ay ərzində orta əmək haqqı barədə sənəd təqdim etdikdən sonra, müəyyən müddətdən gec olmayaraq qeydiyyata alınır və həmin gündən işsiz sayılırlar.

İşsizlik aşağıda göstərilən vətəndaşlara şamil edilir: 1) qanunvericiliyə görə müavinət təyin edilmiş və 16 yaşına çatmamış şəxslər (III qrup əlilliyə görə müavinət alan şəxslərdən başqa); 2) müvafiq ixtisası olmayan və məşğulluq xidmətinə müraciət etdikdən 10 gün sonra iki variantda işdən professional hazırlıq keçmək və müvəqqəti xarakterli iş də daxil olmaqla haqqı ödənilən işdən iki dəfə imtina edən şəxslər.

Vətəndaş işdən çıxarıldıqdan iki həftə sonra işsiz kimi tanınması üçün məşğulluq xidmətinə müraciət edə bilər.



İŞSİZLİK – əmək bazarında əmək təklifinin əmək tələbini üstələməsi nəticəsində yaranmış tarazsızlıqla səciyyələnən sosial-iqtisadi vəziyyət. İşsizlik sosial-iqtisadi kateqoriya olub işləyə bilən və işləmək istəyən işçi qüvvəsinin qeyri-məşğul halını xarakterizə edir.

İşsizlik iqtisadi cəhətdən fəal əhalinin müəyyən hissəsinin işinin və müvafiq olaraq gəlirinin olmaması deməkdir.

Nəzəri baxımdan işsizlik iqtisadi kateqoriya kimi işçi ilə işəgötürən arasındakı münasibətləri ifadə edir. Real həyatda işsizlik işçi qüvvəsinin təklifinin ona olan tələbi üstələməsi nəticəsində yaranır. Qərb iqtisadçılarının çoxu bazar şəraitində müəyyən işsizlik səviyyəsinin olmasını qanunauyğun və zəruri hesab edir.

İşsizlik məcburi və könüllü ola bilər. İşsizlik friksion, institusion, texnoloji, struktur, iqtisadi, konversion, gənc, qadın, marjinal və s. növlərə bölünür. Zaman faktoruna əsasən, tsiklik və mövsümi, yerinə görə isə regional və ümumi ola bilər.

1) friksion işsizlik – kadr axıcılığı, işçilərin daha yaxşı əmək şəraitinə malik olan və daha məzmunlu iş tapmaq məqsədilə könüllü olaraq iş yerlərini dəyişmələri və ya işdən çıxmaları ilə əlaqədar olaraq yeni iş yerləri axtarmaları ilə bağlıdır;

2) struktur işsizlik – əmtəə və xidmətlərin müxtəlif növlərinə tələbatın və iqtisadi sistemdə baş verən müxtəlif növlərin struktur dəyişməsi ilə bağlıdır. Struktur işsizliyin əsas səbəbi iqtisadiyyatda struktur dəyişikliklərin baş verməsi nəticəsində iş yerləri ilə işsizlərin sayı arasında peşə-ixtisas və ərazi uyğunsuzluğudur;

3) texnoloji işsizlik – struktur işsizliyin formalarından biri olmaqla, yeni texnologiyaların və avadanlıqların tətbiqi nəticəsində yaranır;

4) dövri işsizlik – iqtisadi tənəzzüllə bağlı istehsalın zəifləməsi və iş yerlərinin sayının kəskin azalması ilə bağlıdır;

5) durğun işsizlik – iş tapmağa ümidini itirib, birdəfəlik iş qüvvəsi sırasından çıxan şəxsləri nəzərdə tutur (6 aydan çox davam edən işsizlik);

6) könüllü işsizlik – onunla şərtlənir ki, işçilərin müəyyən qismi bu və ya digər səbəbdən əmək bazarına çıxaraq "könülü" işsiz olur. Belə səbəblər kimi öz iş qüvvəsini daha yaxşı əmək şəraitli, ödənişli və əlverişli tətbiq edilməsini göstərmək olar;

7) regional işsizlik – həmin ərazidə iş qüvvəsinə tələblə onun təklifi arasında nisbətin pozulması nəticəsində yaranır. O, ərazilərin qeyri-bərabər iqtisadi inkişafının təsiri altında formalaşır, demoqrafik, tarixi, mədəni və başqa spesifik amillərin təsirinə məruz qalır.

Təcrübədə aşağıdakılar da fərqləndirilir: durğun işsizlik, kütləvi işsizlik, tam işsizlik, xroniki işsizlik, qismən işsizlik, ocaqvari işsizlik, məcburi işsizlik, gizli işsizlik və s.

Ümumiyyətlə, işsizlik *aşkar, gizli* və *keçici formalarda* olur. Buna görə də işsizliyi üzə çıxarmaq və ölçmək çox çətindir. Beynəlxalq Əmək Təşkilatının (BƏT) müəyyənetmə üsuluna görə, müəyyən yaş həddinə çatmış və tədqiqat apardığı zamanı: a) heç bir işlə məşğul olmayan; b) işə başlamağa hazır olan; c) fəal surətdə iş axtaran insanlar işsiz hesab edilirlər.

Rəqabət şəraitində müəssisələrin müflisləşməsi, iqtisadi inkişafda aktiv əhalinin dinamikasının nəzərə alınmaması, investisiyaların ərazi, sahə quruluşundakı uyğunsuzluqlar, istehsalın dövri xarakteri, əmək bazarında rəqabətin qeyri-təkmil-

Cədvəl 1

Ölkələr üzrə işsizliyin xüsusi çəkisi

Ölkənin adı	İşsizlərin sayı (%-lə)
Qətər	0,50
Özbəkistan	1,10
Tailand	1,60
Kuba	1,60
Tacikistan	2,20
Banqladeş	2,50
Laos	2,50
Moldova	2,60
Vyetnam	2,90
Sinqapur	3,00
San-Marino	3,10
Norveç	3,20
İsveçrə	3,70
Butan	4,00
Cənubi Koreya	4,10
Çin	4,30
Danimarka	4,30
Avstriya	4,70
Kipr	4,80
Ukrayna	4,80
Malayziya	5,00
Hollandiya	5,00
Yaponiya	5,60
Meksika	5,60
Avstraliya	5,70
Şri-Lanka	5,90
HonqKonq	5,90
Tayvan	5,90
Nikaraqua	5,90
Azərbaycan	6,00
Honduras	6,00
Qazaxıstan	6,30
Kosta Rika	6,40
Lüksemburq	6,80
Malta	6,90
Panama	7,10
Salvador	7,20
Yeni Zellandiya	7,30
Braziliya	7,40
İsrail	7,40
İtaliya	7,50
Filippin	7,50
Rumıniya	7,60
İndoneziya	7,70
Ekvador	7,90
Uruqvay	7,90
Paraqvay	7,90
Böyük Britaniya	8,00
Almaniya	8,20
İslandiya	8,20
Belçika	8,30
Boliviya	8,50
Finlandiya	8,50
Kanada	8,50
Dünya üzrə orta işsizlik	8,70
Yunanıstan	8,90
Rusiya	8,90
Peru	9,00
Bolqarıstan	9,10
Portuqaliya	9,20
Suriya	9,20
Avropa İttifaqı	9,30

Çexiya	9,30
İsveç	9,30
Sloveniya	9,40
ABŞ	9,40
Argentina	9,60
Misir	9,70
Fransa	9,70
Mərakeş	9,90
Çili	10,00
Hindistan	10,70
Macarıstan	10,80
Venesuela	10,90
Polşa	11,00
Səudiyyə Ərəbistanı	11,60
İran	11,80
Slovakiya	11,80
Albaniya	12,00
Kolumbiya	12,00
İrlandiya	12,00
Əlcəzair	12,40

İordaniya	13,50
Estoniya	14,30
Yamayka	14,50
Türkiyə	14,50
Tunis	14,70
Litva	15,00
Dominikan Respublikası	15,10
İraq	15,20
Pakistan	15,20
Xorvatiya	16,10
Latviya	16,60
Serbiya	16,60
İspaniya	18,10
CAR	24,00
Makedoniya	30,00
Bosniya və Herseqovina	40,00
Zimbabve	95,00

Qlobal dünya böhranı bir çox ölkələrdə işsizliyin səviyyəsinin xeyli dərəcədə yüksəlməsinə gətirib çıxarmışdır. Məsələn, İspaniyada 2011-ci ilin oktyabr ayında işsizliyin səviyyəsi 20% olmuşdur.

liyi, həmçinin bazar infrastrukturunun qeyri-təkmilliyi və s. amillər işsizliyin əsas səbəbidir. İqtisadi nəzəriyyədə isə işsizliyin beş əsas səbəbi fərqləndirilir:

1) iqtisadiyyatda mütərəqqi struktur dəyişiklikləri (yeni texnologiyaların tətbiqi artıq işçi qüvvəsinin ixtisarı ilə nəticələnir);

2) iqtisadi tənəzzül (əmək ehtiyatlarının ixtisarını labüd edir);

3) əmək haqqının dövlət tərəfindən və kollektiv müqavilələrlə tənzimlənməsi;

4) iqtisadi sahələr üzrə istehsal səviyyəsində mövsüm dəyişiklikləri;

5) əhalinin demoqrafik strukturunda dəyişikliklər (əmək qabiliyyətli yaşda əhalinin sayının artımı).

İşsizliyin iqtisadi, maliyyə və sosial xərcləri fərqləndirilir. İqtisadi xərclər tam məşğulluq səviyyəsi ilə müqayisədə məhsul və xidmətlər istehsalının azalması zamanı yaranır. Maliyyə xərclərinə daxildir: a) işsizlərə müavinətlərin ödənilməsi; b) axıradək alınmamış vergilər (əsasən istehlakın azalması nəticəsində gəlir və dolayı vergilər aiddir); c) sosial sığortadan daxil olan vəsaitlər üzrə itkilər.

İnkişaf etmiş ölkələrin əksəriyyətində işləyən əhalinin təxminən 3-10%-i həddində işsizlik səviyyəsi müşahidə olunur.

İŞSİZLİK GÖSTƏRİCİLƏRİ – qeydə alınmış işsizliyin səviyyəsi. İşsizliyi iqtisadi fəal əhali, natamam məşğulluq, real işsizlik və vakant iş yerləri xarakterizə edir.

İşsizliyin səviyyəsi iqtisadi fəal əhalinin sayında işsizlərin xüsusi çəkisini ifadə edir.

$$İs = \frac{İf - M}{İf} \cdot 100\%$$

Burada:
İs – işsizliyin səviyyəsi;
İf – iqtisadi fəal əhalinin sayı;
M – məşğul əhalinin sayıdır.
Başqa sözlə desək, bu göstərici rəsmi qeydiyyata alınmış işsizlərin sayının iqtisadi fəal əhalinin sayına faizlə nisbəti şəklində ifadə edilir.
Ətrafında işsizlik dərəcəsinin dəyişdiyi normal işsizlik dərəcəsi isə təbii işsizlik dərəcəsini təşkil edir.
Təbii işsizlik səviyyəsi friksion və struktur işsizliyin məcmusu və ya sabit iqtisadiyyatla bağlı olan işsizlik səviyyəsidir ki, bu zaman real milli məhsul təbii səviyyəsində olur.
İşsizlik göstəricilərinin dinamikasına aşağıdakı amillər təsir göstərir:
Demoqrafik amillər – əhalinin doğum, ölüm səviyyəsində, cins və yaş strukturunda, orta ömür uzunluğunda, miqrasiya axınlarının istiqaməti və həcmlərində dəyişikliklər nəticəsində iqtisadi fəal əhalinin payını dəyişməsi;
Texniki-iqtisadi amillər – elmitexniki tərəqqinin iş qüvvəsinə qənaəti şərtləndirən sürəti və istiqamətləri;
İqtisadi amillər – milli istehsalın, investisiya fəallığının, maliyyə-kredit sisteminin vəziyyəti qiymətlərin və inflyasiyanın səviyyəsi;
İnstitusional amillər – qanunvericiliyin, bazar infrastrukturunun vəziyyəti, qaydalar, adət-ənənələrin spesifikliyi və s.

İŞSİZLİKDƏN SIĞORTALANMA – fiziki şəxslərin iş yerlərini itirməsi və ya tədris ocaqlarını bitirdikdən sonra işlə təmin olunmaması zamanı onların sığorta müdafiəsini təmin edən sığorta növü. İşsizlikdən sığortalanma – əksəriyyət ölkələrdə əmək qanunvericiliyinin spesifikliyinə, sosial-iqtisadi şəraitə əsaslanan işsizlikdə sığortalanmanın ən müxtəlif şərtləri və sxemləri fəaliyyət göstərir.

İŞTİRAK İLƏ SƏHM – imtiyazlı səhmlərin növü. Sahiblərinə preferensial dividendlərin alınmasından sonra yeni dividendlərin bölgüsündə adi səhm sahibləri ilə eyni bərabərdə iştirak etmək hüququ verir.

İŞTİRAK PAYI – 1. Müəyyən sosial qrupda işləyənlərin və ya iş axtaranların faizlə ifadə edilmiş sayı. 2. Təkrar sığorta praktikasında bu ifadə birinci sığortaçı riskin bir hissəsini təkrar sığortaya verdiyi, qalan hissəsini isə öz məsuliyyətində saxladığı halda tətbiq edilir. 3. Ev sahibinin ümumi əmlak üçün ümumi məsuliyyət hüququnda reqlamentlə müəyyən edilmiş hissə. Bu hissə ev sahiblərinin və mənzil mülkiyyətçiləri ortaqlığı üzvlərinin ümumi yığıncağında onun səs payını, eləcə də ümumi əmlakın təmir edilməsi və saxlanması üçün məcburi ödəmələrin ümumi həcmində onun payını müəyyən edir.
Bu terminin mənası kontekstdən asılı olaraq müxtəlifdir, lakin bütün mənaların ümumi cəhəti hissənin tama nisbətini ifadə edir.
Bu söz birləşməsinin *birinci mənası* bazarda əmək təklifini əks etdirmək üçün demoqrafik statistikada, eləcə də iqtisadiyyatda əmək resurslarının potensial inkişafının təhlilində istifadə edilir.
Həmin söz birləşməsinin *ikinci mənası* ümumi iqtisadi praktikada tətbiq edilir. Məsələn, təkrar sığortaçının iştirak payı təkrar sığorta müqaviləsi ilə müəyyən edilir.
Üçüncü mənası daşınmaz əmlak obyektlərinə (çoxmənzilli evlər və s.) birgə sahiblik zamanı yaranan münasibətləri tənzimləyən müqavilələrdə istifadə edilir.

İŞTİRAK SERTİFİKATI – bankların və ya hökumət agentlərinin bərpa edilən kredit verilməsi barədə öhdəliyi.

İŞTİRAKÇI BANK – Federal Ehtiyat Sisteminin (ABŞ) üzvü olan bank. FES-in üzvü olan banklar onların köçürdüyü kapitalın dəyərinin 6%-i məbləğində öz rayonunda Federal Ehtiyat Bankından səhmlər almalıdır.

İŞTİRAKLA POLİS – sığorta cəmiyyətinin bölünən mənfəətində iştirak hüququ verən sığorta polisi.

İTİRİLMİŞ İQTİSADİ SƏMƏRƏ – vergi kimi bazar həcminin dəyişməsinə səbəb olan amillər nəticəsində məcmu izafi faydadakı azalma.

İTKİ (ing. *loss*) – sığorta təcrübəsində bir neçə mənanı ifadə edir:
1) sığorta hadisəsi nəticəsində sığortalanmış əmlaka dəymiş və sığortaçının ödəməli olduğu zərərdir;
2) sığorta hadisəsinin özünün baş verməsi faktıdır – itki baş verib, yəni sığorta hadisəsi baş verib;
3) sığorta cəmiyyəti tərəfindən müvafiq sığorta hadisəsinə görə açılan işdir, bu hadisəyə görə sənədlərlə işdir.

İTKİLƏRİN ƏMSALI – şirkətin aldığı sığorta mükafatları-

na həmin şirkətin ödədiyi və ya ödəməli olduğu iddialara faizlə ifadə olunan nisbəti.

İTKİLƏRİN KOMMERSİYASI (sığorta ödəməsi) – sığorta hadisəsi baş verənədək sığorta obyektinin dəyərindən yüksək olmayan ölçüdə sığortalıya sığortaçının ödədiyi ödəniş.

İTKİLƏRİN LƏĞVİ – əmlak sığortası təcrübəsində qəbul edilən termindir ki, bu da sığorta ödənişinin müəyyən edilməsi və ödənilməsi üzrə bütün kompleks işləri ifadə edir.

İTKİLİ OPSİON (*out-of-the-money*) – opsionun daxili dəyəri sıfıra bərabər olan xarakteristikası, yəni opsionun dərhal vaxtının keçməsi onun sahibinə mənfəət gətirməyəcək.

İTKİNİN EKSSEDENTİ – qeyri-proporsional təkrar sığorta örtülməsinin ən geniş yayılmış forması olan, ən iri və görünməmiş itkilərdən şirkətlərin sığorta portfellərinin qorunmasına xidmət göstərən itki ekssedenti – müqavilə nəzərdə tutulur. Bu müqavilənin şərtlərinə görə, təkrar sığorta aləti o zaman qüvvəyə minir ki, eyni hadisənin nəticəsi olan sığorta hadisəsi və ya sığorta hadisələri nəticəsində sığortalanmış riskə görə yekun məbləğ şərtlənmiş məbləğdən çox olur.

İTKİSİZLİK NÖQTƏSİ (*break-even point*) – xalis gəlirin və ya layihədən xalis gətirilən dəyərin sıfıra bərabər olan satış həcmi.

İYERARXİYA (yun. *hierarchia*) – 1) firmanın daxilində iqtisadi fəaliyyətin təşkili. Müəyyən şərtlər daxilində firmadaxili idarəetmə iyerarxiyası bazar münasibətlərini əvəz edərək iqtisadi əqdlərin reallaşdırılmasını öz üzərinə götürür; 2) tabeçilik qaydasında – ən aşağılardan ən yüksəklərə doğru yerləşdirilmiş vəzifələr, rütbələr, mənsəblər sistemi; 3) yaranan və qarşıya qoyulan məsələlərin mürəkkəblik dərəcəsinin onların həll edilməsinin və yerinə yetirilməsinin mümkünlüyünə təsirini aradan qaldırmağa imkan verən mürəkkəb sistemlərin təşkil üsulu.


İYERARXİYA STRUKTURU – mürəkkəb sistemli strukturdur ki, burada müxtəlif səviyyəli çoxluqlarda bu sistemi təşkil edən çoxluqların bölgüsü mövcuddur. Bu səviyyələrə, tamın xassələrinə malik olan altsistemlər və özünütənzimləmə dərəcəsi ilə müəyyən olunan və bir səviyyənin (daha "aşağı") altsistemlərinin digərlərinə, daha "yüksək" səviyyəli altsistemlərə tabeçiliyin çoxpilləli münasibətləri ilə əlaqədar olan başlanğıc sistem aiddir.

Real iqtisadi sistem – müxtəlif iyerarxiya strukturlarının (sahə, ərazi, funksional və s.) əlaqələndirilməsidir. Buna görə də onu poliiyerarxiya strukturu adlandırırlar. Bundan əlavə, burada şaquli əlaqələrlə yanaşı, üfüqi əlaqələr də fəaliyyət göstərir ki, ölkədə bazar münasibətlərinin inkişafı ilə bunların rolu artır. Sistemin polisentrizmi yaranır; "şaquli" üzrə müstəqil, sərbəst iqtisadi sistemlərin (konsernlər, səhmdar cəmiyyətləri və s.) daxilində öz iyerarxiya strukturları yaranır.

İyerarxiya sistemində qərarların qəbul edilməsi üzrə hüquq və vəzifələrin bir hissəsi aşağı hallara verilir. Lakin sistemin nisbi müstəqil ünsürünə çevrilir. Belə halqalar öz maraqlarını əldə edirlər ki, bu maraqlar sistemin rəhbərliyinin maraqları ilə tam üst-üstə düşməyə də bilər. Bütövlükdə iqtisadiyyatda və ayrı-ayrı təsərrüfat sistemlərində bu cür fərqlərin aradan qaldırılması üçün iqtisadi həvəsləndirmə tədbirləri tətbiq olunur.

İZAFİ DƏYƏR – K.Marks tərəfindən irəli sürülmüş təlim və nəzəriyyə. K.Marksın "Kapital" əsərinin ilk nəşrindən 140 ildən çox keçməsinə baxmayaraq, onun əsasını təşkil edən izafi dəyər nəzəriyyəsinin müddəalarına yeni və fərqli münasibətlər formalaşmaqdadır. Muzdlu fəhlənin əməyi ilə onun iş qüvvəsinin dəyərindən artıq yaranan və kapitalist tərəfindən təmənnasız (havayı, müftə) mənimsənilən dəyərdir. İzafi dəyər – K.Marksın siyasi iqtisadında mərkəzi kateqoriya olmaqla, onun iqtisadi sisteminin "məhək daşıdır". İzafi dəyərin sirrini açaraq, K.Marks əmək-dəyər nəzəriyyəsi əsasında kapitalist istismarının ardıcıl elmi izahını vermişdir ki, bunu əvvəlki klassik siyasi iqtisad edə bilməmişdir. İzafi dəyər – sənaye kapitalının kateqoriyası, sənaye istehsalının spesifik cəhətidir ki, bunun da ən mühüm şərti muzdlu fəhlənin ikili azadlığıdır: istehsal vasitələrindən və yaşayış vasitələrindən azad olma və şəxsi azadlıq. K.Marks göstərirdi ki, dəyərin artması xüsusi əmtəə olan iş qüvvəsinin spesifik xassələri sayəsində ekvivalent mübadilə qanunu pozulmadan istehsal prosesində baş verir ki, bu əmtəənin istehlak dəyəri dəyərin mənbəyi olmaq qabiliyyətindən


Enerjinin, materialların və alətlərin effektiv istifadəsini artırmaga mane olan itkilər



Sxem 1



Təşkilatda idarəetmə sisteminin formalaşmış iyerarxiya strukturu



Sxem 1

ibarətdir. Baxmayaraq ki, istehsal prosesində istehsal amillərinin məcmusu iştirak edir, kapitalistə izafi dəyəri təkcə öz iş qüvvəsinin ekvivalent dəyərini yox, həm də "artıq dəyəri" yaradan muzdlu fəhlənin əməyi gətirir. Nəticəsi izafi dəyər yaradan izafi əmək o vaxtın məcburi hissəsini təşkil edir ki, bunun ərzində fəhlə istehsalda olur. Bu vaxtın özü isə – iş günü – yalnız zəruri əməklə ("özü üçün" əməklə) heç vaxt məhdudlaşa bilməz.

İzafi dəyər istehsalı sferası – sənaye kapitalı sferasıdır; onun hərəkətində yalnız subyektiv amil – iş qüvvəsi yox, həm də obyektiv istehsal amilləri: əmək vasitələri, əmək predmetləri, həmçinin istehsalın ümumi şərtləri iştirak edir. Dəyərin yaradılması prosesində istehsal amillərinin rolu müxtəlifdir: obyektiv amillər yeni məhsulun yaradılmasında iştirak edir, lakin yeni dəyərin mənbəyi deyil; onların funksiyası – canlı əməyə materialı və onun həyata keçirilməsi şərtlərini təqdim etməkdir. Subyektiv amil kimi iş qüvvəsi istehsal vasitələrini "canlandırır", ruhlandırır; iş qüvvəsinin funksiyası – yeni dəyərin mənbəyi kimi canlı əməkdir ki, bunun artması sənaye kapitalının hərəkətinin əsl məqsədini təşkil edir. Dəyərin yaradılmasında və artmasında iştirakı nöqteyi-nəzərindən K.Marksa görə kapital sabit, yəni öz kəmiyyətini dəyiş-

məyən kapitala (bura aiddir: əmək vasitələri əmək predmetləri və əmək şərtləri) və dəyişən, yəni istehsal prosesində öz kəmiyyətini dəyişən kapitala bölünür. K.Marks "izafi dəyər norması" (m1) anlayışını işlədir ki, bu da izafi dəyərin dəyişən kapitala nisbəti ilə ifadə olunur. K.Marksın fikrincə, izafi dəyər norması fəhlənin istismarının ən dəqiq göstəricisidir. Belə ki, bu nisbətdə proporsiya görünür ki, burada iş günü zəruri iş vaxtına və izafi iş vaxtına bölünür. Bununla belə, izafi dəyər norması avans olunmuş kapitaldan istifadənin səmərəliliyini xarakterizə edən mənfəət normasından fərqli olaraq, canlı əməyin səmərəlilik göstəricisidir.

İzafi dəyərin artması metodlarını, mütləq və nisbi dəyəri xarakterizə edərək, K.Marks maddi istehsalın ekstensiv və intensiv tiplərini tədqiq edir. Son nəticədə dəyərin artması effekti, yəni izafi dəyərin artırılması canlı əməyin miqdarı, onun məhsuldarlığı ilə müəyyən olunur. İzafi dəyərin maksimum səviyyəyə qaldırılması canlı əməyin məhsuldarlığının, o cümlədən əməyin ictimai məhsuldar qüvvəsinin yaradılması və istifadəsi (sadə kooperasiya, manufaktura əmək bölgüsü, iri maşınlı sənaye) yolu ilə yüksəldilməsinin başlıca səbəbini təşkil edir. Həmin səbəb canlı əməyin bilavasitə istehsal prosesindən sıxışdırılmasında durur. K.Marksın fikrincə, izafi dəyər hərisliyi canlı əməyin payının nisbi azaldılmasına gətirib çıxarır ki, bu da izafi dəyərin mənbəyi kimi canlı əmək haqqında tezisə aşkar ziddir. İzafi əmək hərisliyi sənaye kapitalının meyli əsasında durur – ictimai istehsalın bütün sferalarını ictimai əməyin tətbiqi sferasına çevirərək, ictimai qüvvələri, hər şeydən əvvəl ictimai miqyasda məcmu iş qüvvəsini formalaşdıraraq bu sferaları izafi dəyər istehsalının orbitinə çəkir. K.Marks fərz edirdi ki, izafi dəyər hərisliyi kapitalistin subyektiv arzusu, cəhdi deyil. Onun fikrincə, kapitalistin şəxsi xarakteristikası əhəmiyyət kəsb etmir; izafi dəyərin istehsalı faktının mənəvi qiymətləndirilməsi onun tədqiqində həlledici rolu oynamır. Sənaye kapitalının agentlərinin onun nəzəri sistemində davranışı onunla müəyyən olunur ki, o, ictimai istehsalda hansı yer tutur. K.Marks iqtisadi agentlərin maraqlarını və motivlərini obyektiv qiymətləndirir. O, iqtisadi münasibətlərin obyektiv xarakterini əsas götürür və izafi dəyərin istehsalını ictimai istehsalın formalaşması meylini müəyyən edən obyektiv iqtisadi qanun kimi nəzərdən keçirir.

İzafi dəyər nəzəriyyəsi K.Marksın tənqidçiləri tərəfindən böyük gərginliklə qəbul edilirdi. Yalnız izafi dəyərin xarakteristikasına sinfi yanaşma yox, həm də onun mücərrəd, ələkeçməz, "mistik" xarakteri, yəni onu hiss etmək və hesablamaq etiraz doğururdu.

İZAFİ ƏMƏK – marksist iqtisad nəzəriyyəsinin kateqoriyası; maddi istehsal işçilərinin izafi məhsul yaradılmasına sərf etdikləri əmək. Əməyin zəruri və izafi əməyə bölünməsi məhsuldar qüvvələrin elə inkişaf pilləsində əmələ gəlmişdir ki, bu zaman işçinin özünün və ailəsinin yaşaması üçün lazım olduğundan artıq məhsul istehsal etmək imkanı yaranmışdır. İzafi əməyin yaranması hər hansı ictimai tərəqqinin əsasına çevrildiyi üçün "izafi əmək, ümumiyətlə, tələbatdan əlavə əmək kimi həmişə olmalıdır". Kapitalizm dövründə izafi əmək kapitalistlər tərəfindən izafi dəyər formasında mənimsənilir. O da, öz növbəsində, mənfəət şəklində təzahür edir.

İzafi əmək normativ kateqoriyadır və onunla yalnız marksizmin başqa kateqoriyaları sistemində istinad edilməsi mümkündür.

İZAFİ MƏHSUL – ictimai məhsulun bir hissəsi; maddi istehsal sahəsində bilavasitə istehsalçıların zəruri məhsuldan artıq yaratdıqları məhsul.


İZAFİ VERGİ YÜKÜ – ödənişi ictimai mənfəətin itirilməsinə gətirib çıxaran vergi tədiyələri. Ağır vergi dərəcəsinin tətbiqi nəticəsində istehsal səviyyəsi aşağı düşür və əmtəələrin istehlakı azalır. Bu da son nəticədə vergi daxilolmalarının əhəmiyyətli dərəcədə ixtisarına gətirib çıxarır. Belə fiskal siyasət tədbirləri dönülməz nəticələrə, o cümlədən kapitalın qaçmasına səbəb ola bilər.

İZAFİLİK – təklifin həcminin tələbin həcmindən daha yüksək olduğu vəziyyət.

İZAHAT-TƏBLİĞAT REKLAMI – bu reklam aksiyasının məqsədi müəyyən ideyanı izah etmək və ya dəstəkləməkdir. Marketinqdə reklamın bu forması aralıq reklam funksiyasını yerinə yetirir, müəyyən məhsulun bilavasitə reklam edilməsindən əvvəl həyata keçirilir (mə-

sələn, hər hansı maldan və ya xidmətdən istifadə etməyin zəruriliyini izah edir və ya buna inandırır).

İZOKOSTA (ing. *isocost line*) – istehsal amillərinin eyni qiymət üzrə alınması mümkün olan xətdir, iqtisadi resursların kombinasiyasını əks etdirən əyridir ki, burada məcmu xərclər bərabərdir. Başqa sözlə, istehsal funksiyaları nəzəriyyəsində həndəsi nöqtə yeridir ki (resurslar məkanında), bunlar üçün istehsal xərcləri sabitdir.



Hər bir firma büdcə məhdudiyyətinə malikdir; bu, müəyyən növ məhsulun buraxılışına sərf olunan vəsaitlərdir. Buraxılan həcm çərçivəsində iqtisadi resursların müxtəlif əlaqələndirilməsi mümkündür ki, bunların məcmusu izokostanı təşkil edir. İstehsalçının büdcə məhdudiyyətini aşağıdakı kimi hesablamaq olar:

$$C = r + K + w + L,$$

burada C – istehsalçının büdcə məhdudiyyəti; r – xidmətin qiyməti; K – kapital; w – əməyin ödənilməsi haqqı; L – əmək sərfi.

İstehsalçının büdcə imkanlarının artması izokostanı sağa, azalması isə sola çəkir. Xərclər dəyişmədikdə resurslara olan bazar qiymətlərinin artıb, azalması nəticəsində də eyni effekt alınır.

İZOKVANTA – eyni buraxılış həcmi ilə istehsal şəbəkəsinin bütün vektorlarının əyrisi, başqa sözlə, istehsal funksiyaları nəzəriyyəsində həndəsi nöqtə yeridir ki (resurslar məkanında), burada müxtəlif izokvantalar üçün istehsal amillərinin (resurslarının) müxtəlif cür əlaqələndirilməsi eyni miqdar buraxılan məhsul verir.

Məlumdur ki, hər bir texnologiya çərçivəsində iqtisadi resursların hər bir əlaqələndirilməsi üçün maksimum buraxılışı müəyyən etmək olar. a:a1 resursu məsrəfləri; b:b1 resursu məsrəfləri və s. zamanı IP1 buraxılışı maksimumdur, a:a2 resursu məsrəfləri, b:b2 resursu məsrəfləri və s. zamanı isə IP2 buraxılışı maksimumdur. Bu cür asılılıqlar nəzərdən keçirilən zaman resursların artıq əlaqələndirilməsinin aradan qaldırılması (çıxılması) problemi yaranır. Məsələn, əgər taksiyə daha bir sürücü oturarsa, onda avtomobilin bir saat işləməsi ərzində gəliri artmayacaqdır. Qeyri-artıqlıq şərtini aşağıdakı kimi formulə etmək olar: əgər bir resursdan savayı bütün resursların məsrəfləri bizə məlumdursa, onda həmin buraxılış (və müvafiq olaraq tutum göstəricisi) üçün bu resurs məsrəfləri minimum olmalıdır. Qeyd etmək lazımdır ki, qeyri-artıqlıq şərti məcmu məsrəflərin minimallıq şərti deyil. Məsələn, mövcud texnologiya çərçivəsində əməyin mexanikləşməsi hesabına iş saatını azaldaraq dəyişməz buraxılış zamanı məcmu xərcləri xeyli dərəcədə minimum səviyyəyə endirmək olar. Qeyri-artıqlıq şərti tələb edir ki, yalnız resurslar qənaətcil – tamamilə və təyinatına görə istifadə edilsin.

Mövcud texnologiya səviyyəsində iqtisadi resursların qeyri-artıq istehsal kombinasiyalarının maksimum buraxılışları matrisası istehsal şəbəkəsi adlanır.

"Məsrəflər – buraxılış" asılılığının istehsal şəbəkəsinə daxil olmasından ötrü o, iki şərti ödəməlidir: buraxılış maksimum, resurs məsrəfləri isə qənaətcil olmalıdır.

İZOTİMLƏR – büdcə məhdudiyyətləri qurularkən eyni büdcə xərcləri və ya eyni istehsal xərcləri əyriləri.

J

JİRANT (ital. *girante* – məb - ləği köçürmək) – pul və əmtəə sərəncamı sənədlərində, həm- çinin sığorta polisində ötürücü yazını həyata keçirən şəxs; şəx- sin öz adına olan vekseli, arxa- sına qeyd etməklə başqa bir şəxsə verməsi (bax: İndossant).

JİRO – order konosamenti üzə - rində ötürücü yazı. İndossament də adlandırıla bilər.

JİROBANKLAR (ital. *giro* – dairə, dövrə) – öz müştəriləri arasında nağdsız hesablaşmalar aparan banklar.

XVI-XVII əsrlərdə yaranmışlar. Onların ən məşhurları aşağıda- kılar idi: Venesiyada "Rialto" bankı (1587-ci il), Amsterdam- da "Visselbank" (1609-cu il), Hamburqda Veksel bankı (1619- cu il). İtaliya, Almaniya, Hol- landiya, Fransa və Qərbi Avro- panın digər ölkələrinin şəhər- lərindəki bu və digər jirobank - lar müştərilər üçün tərkibində müəyyən miqdarda gümüş və ya qızıl olan şərti hesablaşma vahidləri (bank pulları) ilə he - sablar açır, əmanətlər qəbul edir və hesab sahiblərinin əmrlərinə (jiro-əmrlərə) əsasən, vəsaitləri bir hesabdan digərinə köçürür - dülər.

Jirobankda hesablar banka tam - dəyərli pul, külçə şəklində nəcib metal ödənildikdə, eləcə də mal satışından əldə edilmiş mədaxil və ya bankın tamdəyərli pul vahidi ilə ifadə edilmiş veksel üzrə məbləğlər köçürüldükdə açılırdı. Jirobanklar öz hesabla- rında iri məbləğlər akkumulya- siya edir, həmin məbləğlərdən dövlətə, bələdiyyələrə və ya ta- cirlərə kreditlər verilərkən isti- fadə olunurdu. Lakin jirobankın əsas hesablaşma növü jiro he- sablaşmalar idi.

XVIII-XIX əsrlərdə emissiya və kommersiya banklarının inki- şafı nəticəsində Jirobanklar ya tənəzzül edir, ya da geniş kredit və hesablaşma funksiyalarına malik olan banklara çevrilirdi. Hazırda kommersiya və emis- siya banklarının yaranması ilə əlaqədar jirobanklara, demək olar ki, rast gəlinmir. Lakin müasir banklar öz jiro şöbələ- rinə malikdir. Məsələn, Alma- niyada regional jiro – sentral- lar (mərkəzlər) mövcuddur ki, əmanət kassalarının əmanət - çiləri arasında jiro əmrlər və ya hesablaşma çekləri üzrə digər şəhərlərlə nağdsız hesablaşma - ları həyata keçirir.

JİRO-ÇEK (fr. *jirocheque*, ing. *giro check*) – çek verənin jiro hesabından çek saxlayıcısının hesabına konkret məbləğin kö - çürülməsi barədə banka yazılı tapşırıqdan ibarət olan çek. Jiro-çeklərdən yalnız çeklər üz- rə məbləği alanın və tədiyəçi- nin jiro hesablarının mövcud olduğu bir bankda nağdsız he- sablaşmaların həyata keçirilmə- sində istifadə edilə bilər; bu cür çeklər ötürmə qeydləri əsasında başqasına verilə bilməz.

JİRO-ƏMR (ing. *giroorder*) – müştərinin öz şəxsi hesabından konkret məbləğin üçüncü şəxsin və ya hər hansı müəssisənin he- sabına köçürülməsi barədə jiro- bankın əmri. Bu əmr yazılı şə- kildə verilirdi.

JİRO-HESABLAŞMALAR (ital. *giro* – dairə, dövrə) – tica - rət fəaliyyəti ilə məşğul olan konkret şəxslər arasında nağdsız hesablaşmaların bir növü.

İlk dəfə XVI əsrdə İtaliyada monarxların və knyazların zərb etdiyi gümüş və qızıl sikkələrin korlanması ilə əlaqədar yaran- mışdır. Jiro-hesablaşmalar jiro- banklar tərəfindən tətbiq edilən- dən sonra ödənişlə bağlı işlər sikkələrdən (o dövrdə hələ əs- kinaslar yox idi) istifadə edil- məsi ilə müqayisədə daha rahat, daha tez və daha ucuz aparıl- mağa başladı. XVII-XVIII əsr- lərdə Qərbi Avropanın bir sıra ölkələrində, xüsusən, Almaniya, Hollandiya və Fransada geniş yayılmışdı.

Jiro-hesablaşmalar yarandığı ilk

vaxtlardan yalnız şəhər və ya mahal hüdudunda olan bankın müştəriləri arasında aparılırdı. Sonralar müxbir əlaqələri yarandı, müxtəlif şəhərlərdə və müxtəlif ölkələrdə yerləşən banklar arasında əməliyyatlar aparılması mümkün oldu. Bank işinin inkişafı prosesində jiro-hesablaşmalar əsasında nağdsız hesablaşmaların başqa formaları inkişaf etmiş və bütün ölkələrə yayılmış, bu isə nağd pula qənaət edilməsinə və kapitalist istehsalının və ticarətin artmasına əhəmiyyətli dərəcədə kömək etmişdir. İndi hesablaşma çekləri vasitəsilə aparılan bütün nağdsız hesablaşmalar, sözün geniş mənasında, jiro-hesablaşmalar adlanır.

JİROSİSTEM (ing. *girosystem*) – Avropada və Yaponiyada qüvvədə olan tədiyyə sistemi. Müştərilərin poçt və bank hesablarına sürətli pul köçürmələri üçün istifadə edilir.

JUQLYAR KLEMENT (1819-1905) – fransız həkimi, statisti. Tibb təhsili onun demoqrafik



məsələlərlə, sonralar isə doğum və ölüm səviyyələrinə təsir edən qalxma-enmə fazaları ilə maraqlanmasına səbəb olmuşdur. 1856-cı ildə ticarət böhranları haqqında məqalənin nəşrindən sonra, 1862-ci ildə ticarət böhranları mövzusuna həsr olunmuş müsabiqədə onun kitabı birinci yer tutmuşdur. 1889-cu ildə Juqlyar kitabını üç ölkədə iqtisadi böhranları 1803-1822-ci illər üzrə tarixi xülasəyə qədər genişləndirmişdir. Bu, sadəcə, verilənlərin ümumiləşdirilməsi təşəbbüsü idi və onu iqtisadi tsikllar nəzəriyyəsi adlandırmaq çətindir. Yalnız Şumpeterin "İqtisadi tsikllar" (1939) kitabından sonra 7-11 illik tsiklləri – Juqlyarın, 3-5 illik tsiklləri – Kitçenin tsiklləri, 40-60 illik tsiklləri isə Kondratyev tsiklləri adlandırmağa başladılar.

"Fransada, İngiltərədə və ABŞ-da ticarət böhranları və onların dövri təkrarlanması" (1862) kitabında Klement Juqlyar nəinki hər üç ölkədə eyni zamanda dəyişən indikatorların (topdansatış qiymətləri, faiz dərəcələri, bank diskontları və ssudaları, dövriyyədə olan əskinasların və bank depozitlərinin kəmiyyəti) təsiri altında formalaşan tsiklləri izləmişdir. O, həmçinin onların orta hesabla 6 il davamlı olduqlarını və 5-9 ildən bir təkrarlandığını göstərmişdir. İddia etmişdir ki, tsikllər kapitalist sisteminin ayrılmaz hissəsi və iqtisadi agentlərin davranışının endogen təzahürüdür və prinsipial olaraq iqlim və siyasi proseslərdən asılı deyil. Halbuki iqtisadi tərəddüdlərin dövriliyi daim diqqət mərkəzində olsa da, bu cür kənarlaşmalar iqtisadi sistemə adətən müharibələr və məhsulsuzluq kimi təsadüfi ekzogen təsirlərin olması ilə izah olunurdu.

Juqlyar Parisdəki Siyasi Elmlərin Azad Məktəbində statistikanı tədris etmiş, statistik cəmiyyəti yaratmış, Fransız Sosial İqtisadiyyat Cəmiyyətinin prezidenti olmuşdur.

JUNK BONDS MARKET – "dəyərsiz" istiqrazlar bazarı. "Zibil" istiqraz-şirkətin investisiya səviyyəsindən aşağı reytinqli yüksək gəlirli istiqrazı. Adətən, "zibil" istiqrazlar tarixi və mötəbər işgüzar nüfuzu olmayan şirkətlər tərəfindən buraxılır.

JURNAL – hər hansı yazılar, sənədlər və sənəd dövriyyəsinin qeydiyyatı, eləcə də uçot aparılması üçün kitab.

Mühasibat işində material və pul dəyərlərinin hərəkətini, vəsaitlərin alınmasını, xərclənməsini, paylanmasını və s. əks etdirən mühasibat kitabı kimi istifadə edilir.

Kargüzarlıq işində gələn və gedən məktubların, kağızların, sənədlərin qeydiyyatı üçün kitab (uçot jurnalı).

"JURNAL – BAŞ KİTAB" – 1. Mühasibat uçotunun forması. Bu formadan istifadə edildikdə memorial orderlər tərtib edilir (bu halda qruplaşdırılmış ilkin və icmal sənədlərdən istifadə edilir). Memorial orderlər onlara qoşulan sənədlərlə birlikdə sintetik və analitik uçot hesabları üzrə qeydiyyatlar aparılması üçün əsasdır. Sintetik uçot "Jurnal – Baş kitab"da aparılır. Bu kitabdan istifadə edilməsi memorial orderlərin xronoloji və sistematik qeydiyyatını birləşdirməyə imkan verir. Beləliklə, qeydiyyat jurnalı və baş kitab əvəz edilir. Başa çatmış ayın yekunlarına əsasən "Jurnal – Baş kitab"da bütün hesablar üzrə dövriyyələrin cəmləri və "maddələr üzrə dövriyyənin cəmi" sütununda yekun hesablanır. Bu yekun bütün hesablar üzrə debet və kredit dövriyyələrinin cəminə bərabər olmalıdır. Uçot işində bu kitabdan

istifadə edildikdə sintetik uçot hesabları üzrə dövriyyə cədvəli tərtib etməyə ehtiyac yoxdur, çünki kitabda dövriyyələrin və saldonun nəzarət bərabərliyi təmin edilir. Bu halda analitik uçot kitablarda və ya kartoçkalarda aparılır. Analitik uçot hesabları üzrə dövriyyə cədvəlləri tərtib edilir. Həmin cədvəllərin yekunlarını "Jurnal – Baş kitab"da müvafiq sintetik uçot hesablarının məlumatları ilə tutuşdururlar. "Jurnal – Baş kitab" uçot formasında əmtəə-material qiymətlilərinin uçotunun saldo metodundan eyni zamanda analitik uçot registrləri olan istehsalat hesabatları kimi yığım sənədlərindən uğurla istifadə etmək olar. Uçotun bu formasının əsas nöqsanları ondan ibarətdir ki, ayın sonunda böyük həcmdə uçot işi yığılır və analitik uçot sintetik uçotdan geri qalır. "Jurnal – Baş kitab" uçot forması memorial order formasından onunla fərqlənir ki, qeydiyyat jurnalı və baş kitab əvəzinə "Jurnal – Baş kitab"dan istifadə edilir. 2. Xronoloji və sistematik qeydlərin toplu uçot registri olan kitab. Uçotun "Jurnal – Baş kitab" forması üzrə aparıldığı idarə və müəssisələrdə istifadə edilir.

JURNAL-ORDER – təsərrüfat əməliyyatlarının uçotu üçün istifadə edilən cədvəl. Şahmat taxtası formasında qurulur. Bu halda jurnal-orderdəki bir yazı təsərrüfat əməliyyatını eyni vaxtda bir hesabın debetində və digər hesabın kreditində əks etdirir.

K

KABALA – ağır şərtlərlə borc almış şəxsin borc verəndən ciddi iqtisadi asılılığa düşməsi. Köləlik, əsarət, zülm, asılılıq mənası kəsb edir və burada iqtisadi mahiyyət daşıyır.

KABEL – ingilis funtunun jarqon adı.

KABOTAJ – gəmilərin üzmə növüdür ki, yük və sərnişinlərin daşınması bir ölkənin limanları arasında həyata keçirilir.

KADASTR (fr. *cadastre* – vəraq, reyestr) – 1. Ölkənin iqtisadi resursları haqqında əsas məlumatların dövri və ya fasiləsiz müşahidəsi əsasında sistemləşdirilmiş, rəsmi tərtib edilmiş məcmusu. Kadastrda obyektlərin dəyərinin və gəlirliyinin qiymətləndirilməsini ehtiva edən resurs mənbələrinin yerləşməsi, onların kəmiyyəti, keyfiyyət xarakteristikası haqqında məlumatlar vardır. Su və torpaq kadastrı daha geniş istifadə olunur.

Su kadastrı – vahid metodika üzrə tərtib olunan su obyektləri, səthi və yeraltı sular haqqında hidroloji məlumatların məcmusu. Su kadastrı su resurslarının qiymətləndirilməsi, su təchizatının xarakteristikası və ayrı-ayrı ərazilərdə su resurslarından istifadə planlarının tərtib edilməsi üçün nəzərdə tutulmuşdur.

Torpaq kadastrı – kənd və meşə sferasında torpaq haqqında dürüst məlumatların sistemləşmiş məcmusu. Torpaq kadastrında torpağın mülkiyyətçisinin adı yazılır, torpaqların yerləşdiyi yerin ümumi sahəsi, konfiqurasiyası, yararlı torpaqların tərkibi, onların keyfiyyəti, gəlirliyi, torpağın qiyməti əks olunur. Almaniyanın torpaq kadastrı sistemi ən təkmil hesab olunur. Bu sistem üzrə uçot iki növ sənədə əsasən aparılır: a) torpağın müqayisəli iqtisadi qiymətləndirilməsinin aparıldığı daşınmaz əmlak kadastrı; b) torpaq üzərində mülkiyyət hüququnun nəzərə alındığı torpaq kitabı.

2. Obyektlərin qiymətləndirilməsi və orta gəlirliyi haqqında məlumatları ehtiva edən reyestr.

3. Adambaşına vergiyə cəlb olunan şəxslərin siyahısı.


Dövlət meşə kadastrı – meşə fondunun qeydiyyatı, onun ekoloji, iqtisadi, kəmiyyət və keyfiyyət cəhətdən qiymətləndirilməsi.

Dövlət meşə kadastrı meşə təsərrüfatının idarə edilməsində, onun təşkilində və meşə fondundan istifadə ilə əlaqədar olmayan məqsədlər üçün meşə torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsində və (və ya) meşə fondu torpaqlarının geri alınmasında, meşə fondundan istifadə üçün ödəmələrin miqdarının müəyyən edilməsində; meşə istifadəçilərinin və meşə təsərrüfatı işləri aparan şəxslərin təsərrüfat fəaliyyətinin qiymətləndirilməsində istifadə olunur. Dövlət meşə kadastrının aparılmasını müvafiq icra orqanı həyata keçirir. Dövlət meşə kadastrı göstəricilərinin siyahısı və meşələrin iqtisadi qiymətləndirilməsinin metodikası müvafiq icra orqanı tərəfindən müəyyən edilir.

Təcrübədə, *su* və torpaq kadastrı ilə yanaşı, *vergi* və *sənət* kadastrlarından da istifadə edilir.

KADR DÖVRİYYƏSİ – müəyyən dövr ərzində işə qəbul edilən, siyahı tərkibinə daxil olan və ya işdən azad edilən işçilərin hərəkəti. Kadr dövriyyəsinin intensivliyi hesabat dövründə işə qəbul edilənlərin sayının, işçilərin bu dövrdəki orta siyahı sayına nisbətini əks etdirən işə qəbul üzrə ümumi dövriyyə əmsalıdır. Hesabat dövründə işdən çıxanların bu dövrdəki işçilərin orta siyahı sayına nisbətini əks etdirən işdən çıxma üzrə ümumi dövriyyə əmsalı ilə xarakterizə olunur. İşdən çıxanlar arasında öz xahişi ilə işdən çıxanlar və üzrsüz səbəblərə görə iş buraxdığına və

Kadr axınına təsir göstərən xarici və şəxsi amillər



Sxem 1

əmək intizamını digər formada pozduğuna görə işdən azad edilənlər ayrıca öyrənilir. Bu səbəblərə görə işdən azad edilənlərin sayı – işdən çıxma (kadr axını) üzrə izafi dövriyyənin mütləq göstəricisi hesab edilir. Hesabat dövrü üzrə bu sayın işçilərin həmin dövrdəki orta siyahı sayına nisbəti kadr axını əmsalıdır (bax: sxem 1, 2). Kadrlar üzrə məlumatların distansion emalı – mərkəzi prosessordan uzaqda daxil edilən məlumatların hazırlanması. Kadrların idarə olunması zamanı bu metod əvəzsiz səmərə verir. Heyətin ixtisaslaşma səviyyəsi

Yüksək kadr axınının səbəb və nəticələri



Sxem 2

üzrə (məşğulluq statusu üzrə) göstəricilər – əmək haqqı alan şəxslər yüksək səviyyəli ixtisasa malik olan rəhbərlər və mütəxəssislərə, həmçinin xidmət sahəsinin fəhlə və işçilərinə bölünürlər. Əmək haqqı almayan şəxslər isə rəhbərlərə (işəgötürənlərə və sərbəst əməklə məşğul olan şəxslərə) və ailənin kömək edən üzvlərinə bölünürlər. Qruplaşmalar arasında aparılması mümkün olan fərqlər hər bir işçiyə əmək haqqının və əlavə məbləğin səviyyəsinin hesablanmasında müəyyənləşdirici amil hesab edilir.

KADR İNVESTİSİYALARI – təşkilatın personala və onun inkişafına xərclərinin pul şəklində ifadəsi.

KADR KONSALTİNQİ – təşkilatların rəhbərlərinə və mütəxəssislərinə kadrlarla iş məsələləri üzrə göstərilən məsləhət xidmətləri.

KAF (ing. *CAF, cost and freight* – dəyər və fraxt) – əmtəənin təqdim edilməsi və ödənilməsinin baza şərtləri. Bu zaman satıcı əmtəəni gəminin göyərtəsinə yükləməli (FOB şərtlərində olduğu kimi), yükün dəniz yolu ilə daşınması müqaviləsini bağlamalı və yükün boşaldılması yerinə qədər fraxtın dəyərini daşıma xərclərini ödəməlidir. KAF – yük dənizlə daşınarkən alqı-satqının xarici ticarət müqaviləsi növüdür. Bu zaman əmtəənin (malın) qiymətinə təyinat limanına qədər onun dəniz daşıması üzrə xidmətin dəyəri daxildir. Daşıyana əmtəənin (malın) təhvil verilməsi məqamına qədər yükün korlanması, məhv və xarab olması riski satıcının üzərinə düşür (onun vəzifəsinə həmçinin əmtəənin sığortalanması daxildir) və əmtəənin təhvil verilməsi anından alıcıya keçir. KAF sövdələşməsinə görə satıcının vəzifələrinə daşıma müqaviləsinin bağlanması, yəni dəniz yolu ilə yükün daşınmasının təmin edilməsi və onun gəminin bortuna çatdırılması daxildir.

KAF Qiymət – malın satıcıdan alıcının qəbul etdiyi yerə kimi daşınması, nəqlinə dair xərclərin daxil edildiyi, lakin yükün sığortası xərclərinin daxil edilmədiyi qiymət.

KAĞIZ PULLAR (ing. *fiat money*) – tamdəyərli pul nişanları və ya onların nümayəndələri. Bu cür pullar yalnız konkret iqtisadi şəraitdə dəyərə malikdir və emitent dövlətin öhdəlikləri ilə təmin edilmişdir.

Kağız pulların yaranması aşağıdakı mərhələlərdən keçmişdir:

– qızıl sikkələrin sürtülməsi nəticəsində tamdəyərli sikkələrin nümayəndələri həqiqi pulun əvəzedicilərinə çevrilir;

– metal sikkələrin dövlət tərəfindən bilərəkdən ləğv edilməsi, yəni xəzinəyə əlavə gəlir daxil olması üçün sikkələrin tərkibindəki metalın bilərəkdən azaldılması;

– xəzinədarlığın şəxsində dövlət hakimiyyəti orqanları tərəfindən məcburi məzənnəli kağız pulların emissiyası. Bu da öz növbəsində dövlətə emissiya gəliri şəklində əlavə səmərə təmin edir.

Kağız pullar dövlət büdcəsinin kəsirini ödəmək məqsədilə buraxılan pul nişanlarıdır. Bir qayda olaraq, bu cür pullar metal sikkələr şəklində xırdalanmır, lakin dövlət onların məzənnəsini məcburi şəkildə müəyyən edir.

Kağız pullar Mərkəzi Bankın həmin pulları ya dəyişdirməli, ya da əmanət kimi qəbul etməli olmasından ibarət öhdəliklərini ifadə edir.

Kağız pullar yalnız emitent ölkənin iqtisadiyyatında sabitlik şəraitində yığım və əmanət vasitəsi funksiyalarını yerinə yetirə bilər. Onlar öz spesifikasına görə davamsızdır. Kağız pulların buraxılması isə tədavülün pula real tələbatı ilə bağlı deyildir.

KAJEM – öz nominalına münasibətdə səhmin məzənnəsinin yüksəldilməsi.

KALDOR NİKOLAS (1908-1986) – ötən əsrin 60-cı illərinin ikinci yarısında Böyük Britaniya hökumətinin iqtisadi siyasətinə əhəmiyyətli təsir göstərmiş ingilis iqtisadçısı, postkeynsçi. Kaldor iqtisadi inkişafın zəifləməsini Böyük Britaniya iqtisadiyyatının "ahıllığında" görürdü. Buna misal kimi iqtisadiyyatda xidmət sahələrinin üstünlük təşkil etməsi göstərilirdi. O, çıxış yolunu emal sənayesinin və ixrac yönümlü sahələrin inkişaf etdirilməsində görürdü.

KALDOR-HİKS MEYARI – Pareto üzrə optimallıq prinsipinin modifikasiyası; bunun təsdiqi onda ifadə olunmuşdur ki, bir iqtisadi sistemdən digərinə keçid ümumi rifahı yüksəldir. Bu o zaman baş verir ki, bu keçid zamanı udan cəmiyyət üzvləri, vəziyyəti pisləşən şəxslərin məğlubiyyətini kompensasiya etmək qabiliyyətinə malikdirlər.

KALKULYASİYA – məmulatların və ya məmulat partiyalarının istehsalına və satışına,

həmçinin, pul ifadəsində iş və xidmətlərin həyata keçirilməsinə çəkilən xərclərin, məsrəflərin cədvəl formasında təqdim edilən mühasibat hesablaşması. Kalkulyasiya obyektin və ya məmulatın faktiki və ya plan maya dəyərini müəyyən etməyə imkan verir və onların qiymətləndirilməsi üçün əsasdır. Kalkulyasiyanın normativ, hesabat və plan növü fərqləndirilir. Normativ hesabat – istehsal vasitələrindən və iş vaxtından istifadənin mövcud texnoloji normalarına əsasən qurulur. Hesabat kalkulyasiyası istehsal müəssisələrinin mühasibat uçotu göstəricilərinə (məlumatlarına) görə tərtib edilir. Plan kalkulyasiyası növbəti plan dövrü (il, rüb) üçün orta maya dəyərini müəyyən edir və iş vaxtının, materialların, elektrik enerjisinin və digər məsrəflərin mütərəqqi xərc normasına əsaslanan topdansatış qiymətlərinin müəyyən edilməsi üçün istifadə olunur.

KALKULYASİYA EDİLƏN MƏHSULUN VAHİDİ – xərclərin kalkulyasiyasını aparmaq mümkün olan məhsulun vahidi və ya ayrıca xidmət növü.

KALKULYASİYA METODU – maya dəyərinin hesablanması üçün istifadə olunan üsullar. Kalkulyasiya metodu istehsalın təşkilindən və texnologiyasından, həmçinin, buraxılan məhsulun xarakterindən asılıdır. Onlardan ən əsasları bunlardır: sadə, sifarişli, yenidən emal ediləcək və normal. Kalkulyasiya metodu anlayışına nəinki məhsul vahidinin maya dəyərinin hesablanması üsulları, həm də başa çatmamış istehsal, zay məhsul, istehsal tullantıları və istehsal məsrəflərinin silinməsi daxildir. Məsrəfləri o zaman silib, əlavə məhsullara daxil edirlər ki, əsas məhsulla yanaşı, əlavə məhsullar da istehsal edilmiş olsun. Əlavə məhsulları müəyyən edilmiş qiymətlərlə qiymətləndirir və əsas və əlavə məhsullar istehsalının məsrəfləri məbləğindən çıxarırlar. Qalan məsrəflər məbləği bütün əsas məhsulun maya dəyərini təşkil edəcək. Bu məbləği əsas məhsul vahidinin sayına böldükdə, onun hər vahidinin maya dəyəri alınır.


KAMBİO – borc öhdəlikli maliyyə sənədi, veksel, istiqraz və s.

KAMBİST – bank təşkilatının valyuta əməliyyatları üzrə ixtisaslaşmış işçisi. Bu valyuta əməliyyatlarında "kambistlər" ya öz banklarının, ya da öz müştərilərinin marağı və göstərişləri ilə hərəkət edirlər.

KAMPANİYA – hər hansı bir aksiya keçirməyin tədbirlər kompleksi.

KAN RİÇARD FERDİNAND (1905-1989) – 1931-ci ildə "multiplikator" anlayışını iqtisadi termin kimi ilk dəfə işlədən ingilis iqtisadçısı. 1931-ci ildə nəşr etdirdiyi "Daxili investisiyaların işsizliyə münasibəti" əsərində işsizliklə mübarizə aparmaq yolu kimi göstərirdi ki, dövlətin investisiyaların stimullaşdırılması istiqamətində çəkdiyi hər yeni xərc öz növbəsində impuls verərək ikinci və üçüncü iş yerlərinin yaradılmasına səbəb olur. Bu isə multiplikator səmərə adlanırdı.

KANDAR GƏLİRİ (ing. *Breakeven income*) – ev təsərrüfatlarının məcmu gəlirindən bütün vergilər ödənildikdən sonra qalan, gələcəyə heç nə saxlamadan bütünlüklə istehlak malları və xidmətləri üçün xərclənməsi nəzərdə tutulan hissə. D1



CO tənböləni o deməkdir ki, gəlir bütünlüklə istehlaka sərf edilir, yığım yoxdur (D_i=C). Əgər ev təsərrüfatları yığımla məşğul olsalar, onda C_i düz xəttinin üzərindəki M nöqtəsi "kandar gəliri" ("sıfır" yığım nöqtəsi) deməkdir. Bu halda gəlir bütünlüklə istehlak edilir. Həmin nöqtəyə qədər dolanışıq borcla başa gəlir (mənfi xalis yığım). Bu nöqtədən sonra yığım başlanır. N_1N_2 məsafəsi yığım deməkdir. Böyük depressiya illərində ABŞ-da istehlak vergilər ödənildikdən sonra qalan gəlirdən artıq idi. İnsanlar borca yaşayır, əvvəllər yığdıqlarını yeyirdilər.

KANEMAN DENİEL (1934) – yəhudi əsilli Amerika psixoloqu. İqtisadi-psixoloji nəzəriyyənin banisidir. 1958-ci ildə Kaliforniya Universitetinin psixologiya üzrə fəlsəfə doktoru dərəcəsini almışdır. Hazırda Priston və Yəhudi universitetlərində dərs deyir.




2002-ci ildə alternativ bazar mexanizmlərinin empirik iqtisadi təhlilinə görə Nobel mükafatına layiq görülmüşdür.

KANSELİNQ – kirayə edilmiş gəminin yüklənməsi üçün limana gəlişinin son müddəti. Vaxt keçdikdə kirayəçinin müqavileni və müqavilə aktını pozmağa ixtiyarı vardır.

KANTİLYON (Cantillon) RİÇARD (1680-1734) – irland əsilli ingilis iqtisadçısı, bankiri, demoqrafı. Onun ən məşhur əsəri "Ümumiyyətlə ticarətin təbiəti haqqında təcrübə" 1755-ci ildə nəşr edilmişdir. Bu əsər fiziokratlara və klassik burjua siyasi iqtisadına təsir etmişdir. Kantilyon iqtisadi nemətlərin həqiqi dəyərini müəyyən edən torpaq və əməyi sərvətin mənbəyi hesab edirdi. O, belə fikir irəli sürürdü ki, tələb və təklifdə tərəddüdlərin təsiri altında mübadilə prosesində nemətin qiyməti onun həqiqi dəyərindən kənarlaşa bilər. Kantilyon tərəfindən işlənib hazırlanmış mənfəət, sahibkarlıq, valyuta devalvasiyasının ticarətə təsirinin təhlili, tədavüldə pul kütləsi ilə əmtəə kütləsi arasında asılılıq kimi müddəalar sonradan burjua siyasi iqtisadı tərəfindən qəbul olundu. Pul kütləsi nəzəriyyəsini əsaslandırdı, ayrı-ayrı rayonlar və ölkələr arasında pulun (gəlirlərin) qeyri-bərabər bölgüsü kimi yerli bazarlarda qiymətlərin dəyişməsini nəzərdən keçirdi. Digər iqtisadçılar kimi, o da torpaq rentasını izafi dəyərin mənbəyi hesab edirdi. Kantilyonun adı həmçinin təkrar istehsal nəzəriyyəsi ilə bağlıdır. Belə ki, o, ilk dəfə olaraq (ondan sonra daha geniş və ardıcıl formada F.Kene) sənaye kapitalının dövriyyəsini əyani sxem formasında təqdim etməyə cəhd göstərmişdir. Əhali sakinliyi nəzəriyyəsində Kantilyon ilk dəfə maksimum əhali anlayışını dürüst müəyyən etmiş və onun optimumu problemini qarşıya qoymuşdur. *Kantilyon həmçinin, "sahibkarlıq" anlayışını ilk dəfə işlədən iqtisadçı kimi tanınır.*



KANTOROVİÇ LEONİD VİTALYEVİÇ (1912-1986) – sovet riyazi iqtisadçısı, SSRİ-də riyazi-iqtisadi istiqamətin banilərindən biri. "Resursların optimal bölgü nəzəriyyəsinə töhfəsi"nə görə 1975-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür (T.Kupmansla birgə). Leninqrad Universitetinin fizika-riyaziyyat fakültəsinin riyaziyyat bölməsini və aspiranturasını bitirmiş (1930-1932-ci illər), ali məktəblərdə dərs demişdir. 1930-1948-ci illərdə Hərbi Dəniz Donanmasının Ali Mühəndis Texniki Məktəbində ali riyaziyyat kafedrasının assistenti, dosenti, 1932-ci ildən professoru, kafedra müdiri, 1934-cü ildən Leninqrad Dövlət Universitetinin (LDU) riyazi analiz kafedrasının professoru olmuşdur. Fizika-riyaziyyat elmləri doktoru (1935-ci ildən) olan




Leonid Kontoroviç 1939-1945-ci illər İkinci Dünya müharibəsi zamanı hərbçi kimi mühasirədə olan Leninqradda qalmışdır. 1945-1949-cu illərdə LDU-nun Riyaziyyat və Mexanika elmi-tədqiqat institutunun riyaziyyat şöbəsinin müdiri, riyazi analiz kafedrasının professoru, 1958-ci ildən hesablama riyaziyyatı kafedrasının müdiri vəzifələrində çalışmışdır. Eyni zamanda SSRİ EA Leninqrad şöbəsinin V.A.Steklov adına Riyaziyyat İnstitutunun təxmini hesablamalar şöbəsinə rəhbərlik etmişdir. SSRİ EA-nın Sibir şöbəsinin yaradılmasında iştirak etmişdir. 1958-ci ildən SSRİ EA-nın müxbir, 1964-cü ildən isə həqiqi üzvü olmuşdur. 1958-1960-ci illərdə V.S.Nemçinovla birlikdə EA-nın Sibir şöbəsinin İqtisadi tədqiqatlarda və planlaşdırmada riyazi və statistik metodların tətbiqi üzrə laboratoriyaya rəhbərlik etmişdir. SSRİ EA-nın Sibir şöbəsinin Riyaziyyat İnstitutunun direktor müavini (1960-1970), Novosibirsk Universitetinin hesablama riyaziyyatı kafedrasının professoru, müdiri. 1971-ci ildə Dövlət Elm və Texnika Komitəsinin (DETK) Xalq Təsərrüfatının İdarə Edilməsi İnstitutunun Problem laboratoriyasının müdiri, 1976-cı ildən – DETK-nın və SSRİ EA-nın Ümumittifaq Sistem Tədqiqatları Elmi-Tədqiqat İnstitutunun Elmi-texniki tərəqqi şöbəsinin müdiri, DETK-nın, bir sıra komitələrin və nazirliklərin elmi-texniki və ekspert şuralarının üzvü olmuşdur. "Şərəf nişanı" (1944), "II dərəcəli Vətən müharibəsi" (1985), "Lenin orden"ləri (1967)

və Əməliyyatların Tədqiqi Cəmiyyətinin Böyük gümüş medalı ilə (Birmingem şəhəri, Böyük Britaniya, 1986) təltif olunmuş, Dövlət (Stalin, 1949) və Lenin (1965, V.V.Novojilov və V.S.Nemçinov ilə birgə) mükafatlarına layiq görülmüşdür. Bir çox xarici universitetlərin (Qlazqo, Qrenobl, Qalle, Kembric, Münhen, Nitsa, Paris, Pensilvaniya, Helsinki universitetlərinin, Varşava Ali Planlaşdırma və Statistika Məktəbinin) fəxri dərəcələrini almış, Macarıstan, keçmiş Yuqoslaviya, keçmiş ADR elmlər akademiyalarının, Amerika Elm və İncəsənət Akademiyasının Beynəlxalq İdarəetmə İnstitutunun (İrlandiya), Meksika Milli Mühəndis Akademiyasının xarici üzvi olmuşdur. Beynəlxalq Ekonometrika Cəmiyyətinin (ABŞ) təsisçi üzvü, fəxri üzvü (1973-cü ildən) və İdarə Heyətinin üzvü (1976-cı ildən), "Riyazi proqramlaşdırma" ("*Mathematical Programming*") və "Əməliyyatların tədqiqi" ("*Recherche operationnale*") beynəlxalq jurnallarının redaksiya şurasının üzvü kimi də fəaliyyət göstərmişdir.

Kontoroviçin əsərləri XX əsrin 80-ci illərin sonuna qədər SSRİ-də iqtisadi inkişafın planlaşdırılması təcrübəsində geniş istifadə olunan sosialist iqtisadiyyatının optimal planlaşdırılması nəzəriyyəsinin bünövrəsini qoydu. O, geniş dairədə fundamental iqtisadi problemlərin, o cümlədən kapital qoyuluşunun, yeni texnikanın, təsərrüfat hesabının səmərəliliyinin təbii resursların iqtisadi cəhətdən qiymətləndirilməsinin, əməyin səmərəli istifadəsinin optimal-iqtisadi riyazi təhlilinin əsaslarını yaratdı. Xətti proqramlaşdırmanın ümumi prinsipləri Kontoroviçin "İstehsalın təşkilinin və planlaşdırılmasının riyazi metodları" kitabçasında ifadə edilmişdir. Kitabçada plan-istehsal xarakterli vəzifələrin müxtəlif dərəcələri tədqiq edilmişdir.

KAPİTAL (lat. *capitalis* – baş, əsas) – 1. Gəlir gətirmək qabiliyyəti olan hər şey və ya əmtəə

Kapitalın formaları



Sxem 1

Cədvəl 1

İqtisadi fikir tarixində kapitalın mahiyyətinin nəzəri dərki

Kapitalın mahiyyətinin açıqlanması	Tərəfdarlar
Kapitalın pulla (qızıl, gümüş) eyniləşdirilməsi	Merkantilistlər (XV-XVIII əsrlər)
Təbiətlə (torpaqla) qarşılıqlı əlaqəsi nəticəsində xalis məhsulun artımını təmin edən kapitalın kənd təsərrüfatı istehsalı vasitələri ilə eyniləşdirilməsi	Fiziokratlar (XVIII əsrin ikinci yarısı)
Kapital gələcək istehsal üçün nəzərdə tutulmuş gəlir əldə edilməsi gözlənilən ehtiyatların hissəsi kimi	A.Smit (1723-1790)
Kapital – milli gəlirin yaradılması və bölgüsünə xidmət edən istehsal amili (əşyalaşmış maddi nemətlər, istehsal vasitələri)	J.B.Sey (1767-1832)
Kapital – istehsal üçün nəzərdə tutulmuş keçmiş əmək məhsullarının əvvəlcədən toplanmış ehtiyatları (istehsal prosesində istifadə olunan yığımlar)	C.S.Mill (1806-1873)
Kapital – öz-özünə artan dəyərdir (izafi dəyər yaradan dəyər); kapitalist istehsal üsulunun (kapitalistlər tərəfindən muzdlu işçilərin haqqı ödənilməmiş əməyinin istismarı və inhisarçı mənimsənilməsinə əsaslanan) istehsal münasibətləri	K.Marks (1818-1883)
Kapital – istehsalın ilkin şərtlərini formalaşdıran əşyaların məcmusu. Onun əsas xüsusiyyəti – gəlir gətirmək qabiliyyətidir. Həmin gəlir isə istehsal amillərinin məhsuldarlığından və nisbi nadirliyindən asılıdır.	A.Marşall (1842-1924)
Kapital – istehsalın fundamental əsası, fiziki məhsuldarlığa malik olan istehsal nemətləri ehtiyatı.	C.B.Klark (1847-1938)
Kapital – istehsalın "dolayı yolu"nun ayrı-ayrı mərhələlərində yaradılan aralıq məhsulların məcmusu. Burada kapitalın gəlirliliyinin zaman xüsusiyyətləri ilə əlaqəliyinə diqqət yetirilir.	E.Bem-Baverk (1861-1919)
Kapital – diskontlaşdırılmış gəlir, tətbiq sahəsi və fəaliyyət xarakterindən asılı olmayaraq öz sahibinə gəlir gətirən istənilən nemət.	İ.Fişer (1867-1947)
Kapital – gəlir gətirməyə qadir olan sərvət. Sərvətin kapitala çevrilməsi kapital qoyuluşundan əldə olunan gəlirin bank faizindən yüksək olması ilə şərtlənir.	C.M.Keyns (1883-1946)
Kapital – cəmiyyətin elmi-texniki tərəqqisini təmin etməyə qadir istehsal vasitələrinin əldə olunmasına xidmət edən "alıcılıq qüvvəsi fondu".	Y.Şumpeter (1883-1960)

və xidmətlərin istehsalı üçün insanların yaratdığı resurslar. 2. İstehsal vasitələri formasında hər hansı bir işə qoyulan fəaliyyətdə olan mənbə. 3. Mənfəət gətirən dəyər, öz-özünə artan dəyər. 4. İnvestorun, yaxud digər payçıların şirkətin, müəssisənin aktivində öhdəliklər çıxılmaqla, pul ifadəsində payı. 5. Fiziki və hüquqi şəxsin xalis aktivlərinin məcmusu, yəni öhdəlikləri çıxılmaqla ümumi aktivlərin məcmusu. 6. İstehsalın 4 amilindən biri (torpaq, əmək, kapital, sahibkarlıq məharəti). Burada kapital anlayışı özündə maşın və avadanlıqları, istehsal binasını, eləcə də pul və maliyyə aktivləri şəklində olan, istehsala qoyulmaqla onun bir amilinə çevrilən vəsaitlər nəzərdə tutulur.

KAPİTAL BAZARI – kapitala tələb və təklifin formalaşdığı, pul vəsaitlərini toplayan və yenidən bölüşdürən sahə. Əsas kapitalın hərəkətini təmin edən, mənfəəti maksimallaşdıran, iqtisadi nisbətləri sabit saxlayan sahə.

Kapitala tələbin subyektləri qismində təsərrüfatçılıq subyektləri – sahibkarlar və dövlət çıxış edə bilər. Kapital təklifinin subyektləri ev təsərrüfatları, şəxsi vəsaitlər və ya hüquqi qurumların vəsaitləri, eləcə də dövlət vəsaitləridir.

Kapitala tələb təkcə pula deyil, həm də investisiya vasitələrinə tələbi nəzərdə tutur. Ona görə də bu halda kapital təkcə xalis maliyyələşdirmə şəklində deyil, həm də əsaslı tikinti və ya istehsal vasitələri, maddi və qeyri-maddi aktivlər şəklində çıxış edə bilər. Kapitala tələbin əhatə dairəsi digər istehsal amillərinə tələbin əhatə dairəsi kimidir. İstehlakçı tələbi qrafiki mənfi meylə malik olan (absis oxuna – investisiya vasitələrinin qiymətinə yaxınlaşan) əyridir. Kapitala tələb kapitalın azalmaqda olan ən yüksək məhsuldarlığı qanununa tabedir, yəni investisiya vəsaitləri (kapitalın nisbi payı) artdıqca kapitalın gəlirlilik səviyyəsi azalır.

Kapitalın təklif qrafiki digər istehsal amillərinin təklif qrafiklərinə oxşayır, yəni o, artma istiqamətində dəyişən əyridir. Kapital investisiya vəsaitləri şəklində təqdim edildikdə, ev təsərrüfatları pul vəsaitlərindən xüsusi biznes və ya istehsal məqsədləri üçün istifadə imkanını əldən verirlər. Buna görə də investisiya şəklində pul vəsaitləri nə qədər çox təklif edilərsə, itirilmiş imkanların nisbi payı və itirilmiş imkanlarla bağlı xərclər bir o qədər çox olacaqdır.

Kapital bazarı vasitəsilə müəssisələrin, dövlətin, vətəndaşların cari tələbatından artıq pul yığımları cəlb edilir və həmin vəsaitlər kredit qismində ölkənin istehsal sahəsinin inkişafına sərf olunur.


KAPİTAL BAZARININ QRAFİKİ, KAPİTAL BAZARININ ETİBARLILIĞI XƏTTİ, BAZAR XƏTTİ (*capital market line*) – kapital bazarının qiymət modelində risk göstəriciləri (standart kənarlaşma) ilə (nöqtələri) investorlar üçün "risk – gəlirlik" kombinasiyasının mümkün olanlarından ən yaxşılarını göstərən (qiymətli kağızların gəlirliyi arasında) nisbət qrafiki.

KAPİTAL HESABI – kapital transferlərinin qeyri-istehsal, qeyri-maliyyə aktivlərinin alınması və ya satılmasını əks etdirir. Kapital transferlər həm dəyər, həm də natural formada ola bilər. Dəyər formasında transfer əsas kapitalın alınması və satılması ilə əlaqədardır. Natural formada kapital transfer ya mülkiyyətçilik hüquqlarının əsas kapitalın hər hansı elementlərinə verilməsini (keçirilməsini), ya da borclu ilə qarşılıqlı razılaşma əsasında borcun tutulmasında kreditordan imtina edilməsini əks etdirir.

KAPİTAL İXRACI (kapitalın daşınıb aparılması) – sahibkarlıq fəaliyyətinin müxtəlif formalarının həyata keçirilməsi və mənfəət əldə edilməsi məqsədilə xaricdə uzunmüddətli kapital qoyuluşları (bax: sxem 1). Kapital ixracının iki əsas formasını fərqləndirirlər – birbaşa (müstəqil) və portfel investisiyaları. Birbaşa investisiyalar xarici ölkələrdə müəssisələr (filiallar, bölmələr, müştərək müəssisələr) yaradılmasına, işləyən müəssisələrin, habelə xarici şirkətin səhmlərinin nəzarət paketinin alınmasına, yaxud nəzarət hüququ verən majoritar iştirak yolu ilə bu şirkətin fəaliyyətinə nəzarət edilməsinə; xarici filialların fəaliyyətinin, o cümlədən mənfəətin təkrar investisiyası hesabına genişləndirilməsi üçün vəsait qoyulmasına xidmət edir. Portfel investisiyaları xarici şirkətlərin səhmlərinin və digər qiymətli kağızların alınmasına vəsait qoyulması – nəzarət hüququ verməyən minoritar iştirak, hüquqi şəxslərə borclar və kreditlər verilməsidir.

Müxtəlif ölkələrin statistikasında xarici investisiya qoyuluşla-

Kapital ixracının əsas formalarının sxemi



Sxem 1

rının birbaşa investisiyalara aid edilməsi üçün müxtəlif meyarlardan istifadə edilir: ABŞ-da xarici şirkətlərin səhmlərinin 10%-dən çoxunun, Fransada isə 20%-dən çoxunun alınması tələb edilir və s. Birbaşa və portfel investisiyaları xalis valyuta əməliyyatları ilə əlaqədar kapitalların qısamüddətli hərəkətindən fərqli olaraq, kapitalların uzunmüddətli hərəkətinə aid edilir. Bundan əlavə, ayrı-ayrı ölkələrin tədiyə balanslarında əks olunan illik (cari) kapital ixracı, eləcə də bu və ya digər ölkənin xarici investisiyalarının ümumi həcmi fərqləndirilir. Sonuncu göstərici təkcə cari kapital ixracı hesabına deyil, həm də xarici filialların mənfəətinin bir hissəsinin təkrar investisiya qoyulması və xarici filialların yerli və ya beynəlxalq kapital bazarlarında fəaliyyətinin maliyyələşdirilməsi üçün vəsaitin borc alınması hesabına formalaşır (yığılır). BMT-nin məlumatına görə, 1990-cı illərin ortalarında dünyada toplanmış xarici birbaşa investisiyaların ümumi həcmi 2,7 trilyon dollardan çox olmuş, cari kapital ixracı isə 1988-1992-ci illərdə 200 milyard dollardan 1995-ci ildə 315 milyard dollara çatmışdır (kapitalın əldə edilməsinin qanunsuz olmasını gizlətmək və vergi ödəməkdən yayınmaq məqsədilə ixrac edilmiş kapitalın həcmini səciyyələndirən etibarlı məlumatlar yoxdur). İqtisadiyyatın qloballaşması prosesləri ilə əlaqədar birbaşa xarici investisiyaların artım sürəti

dünyada istehsalın və ticarətin artım sürətindən yüksəkdir. Getgedə daha çox ölkə və regionun ixracatçı və idxalatçılar kimi beynəlxalq kapital qoyuluşları prosesinə cəlb edilməsinə baxmayaraq, bu prosesdə aparıcı rol yenə inkişaf etmiş ölkələrə məxsusdur. XX əsrin 90-cı illərin ortalarında birbaşa investisiyalar formasında cari kapital ixracının 85%-i və cari kapital idxalının 65%-i bu ölkələrin payına düşmüşdür. Kapital ixracının əsas subyektləri 270 min xarici filialı birləşdirən şəbəkəyə malik olan 39 min transmilli korporasiyadır (TMK). TMK-lar arasında aparıcı rol oynayan 100 ən iri korporasiya XX əsrin 90-cı illərin ortalarında dünyada birbaşa investisiyaların ümumi həcminin üçdə bir hissəsini həyata keçirmişdir.

Kapitalı ölkədən daşıyıb aparanlar təkcə özəl bank və korporasiyalar deyil. Müasir dövrdə dövlət səviyyəsində kapital ixracı xaricdə milli mənafelərin bərqərar olmasının əsas vasitələrindən birinə çevrilmişdir. Hazırda ümumi kapital ixracının 30%-i dövlət kapitalının payına düşür.

KAPİTAL QOYULUŞU – 1) kapital yaradan investisiyanın tərkib hissəsi. Əsas fondların yaradılmasına və təkrar istehsalına yönəldilmiş xərclərin məcmusunu özündə əks etdirir; 2) şirkətin əsas kapitala (aktivlərə) xərcləri.

Kapital qoyuluşu mərhələsi (lagı) – kapital qoyuluşunun həyata keçirilməsi ilə nəticənin əldə edilməsi arasındakı müddət.

Kapital tutumu – əsas kapitalın müvafiq dövrdə istehsal edilmiş məhsula və ya onun hissəsinə – xalis gəlirə, mənfəətə, milli gəlirə olan nisbətini müəyyən edən göstərici. Məhsul, əmtəə, xidmətlərin dəyərinin bir vahidinin istehsalı üçün tələb olunan əsas kapitalı səciyyələndirir. Əks göstərici kapital verimidir.

Kapital verimi – kapitaldan istifadə səmərəliliyi – kapital tutumunun tərsi olan göstərici.

Kapitala vergilər – miras qalma, hədiyyə etmə və digər transferlər nəticəsində institusional vahidə mənsub olan xüsusi kapitalın aktivlərinə və ya xalis dəyərinə qoyulan, MHS-də qəbul edilmiş qeyri-müntəzəm vergiləri əks etdirir.

Kapital qoyuluşunun təkrar istehsalının tərkibi – bütün kapital qoyuluşlarının (əsas fondların təkrar istehsalının istiqamətlərinə uyğun olaraq) aşağıdakı qruplara bölünməsi: yeni tikinti, genişləndirmə, yenidənqurma, fəaliyyət göstərən müəssisələrin texniki təchizatının yeniləşdirilməsi və fəaliyyət göstərən istehsal güclərinin saxlanması.

Kapital qoyuluşlarının təkrar istehsalının strukturunun təhlili həm bütövlükdə, həm də ayrı-ayrı fəaliyyət sahələri üzrə aparılır.

Kapital qoyuluşunun sahə tərkibi – həmcins məhsullar istehsal edən və yaxud oxşar tələbatları ödəyən müəssisə və obyektlərin tikintisi üçün istifadə edilən kapital qoyuluşlarının əlamətlər üzrə bölüşdürülməsi. Kapital qoyuluşları yeni tikilən, yenidən qurulan, genişləndirilən müəssisələrin hansı fəaliyyət növünə aidiyyətindən asılı olaraq, iqtisadi fəaliyyət növləri və sənayenin sahələri üzrə bölüşdürülür. Kapital qoyuluşlarının sahə quruluşunun əsasında İqtisadi Fəaliyyət Növləri Təsnifatı durur.

Kapital qoyuluşunun texnoloji tərkibi – iş və məsrəflərin aşağıdakı növlərinin dəyərini birləşdirən kateqoriya: tikinti işlərinin bütün növlərini; avadanlıqların quraşdırılması üzrə işləri; tikinti smetasında nəzərdə tutulan avadanlıqları (quraşdırma tələb edən və quraşdırma tələb etməyən); tikinti smetasına daxil edilmiş alət və inventarları; tikinti smetasına daxil edilməyən maşın və avadanlıqları; sair əsaslı tikinti işləri və xərcləri.

Kapital qoyuluşlarının (investisiya layihələrinin) səmərəliliyi (ing. *return of investment*) – iqtisadi səmərəliliyin xüsusi halı, əsas fondların təkrar istehsalına çəkilmiş xərclərlə alınan nəticələr (istehsal və qeyri-istehsal təyinatlı hazır obyektlərin istifadəyə verilməsi, məhsul və xidmətlərin artımı, bütövlükdə milli gəlirin artımı) arasında nisbət. Kapital qoyuluşlarının səmərəliliyi ümumi göstəricisi alınmış səmərənin həmin səmərə yaradan kapital qoyuluşlarına nisbəti kimi ümumi (mütləq) iqtisadi səmərəlilikdir. Bu göstərici investisiyaların optimal variantının seçilməsi zamanı da tətbiq edilir (təhlil edilən variantlar üzrə gətirilmiş məsrəflərin minimumuna bərabər olan müqayisəli səmərəlilik).

Bir sıra ölkələrdə qəbul edilmiş investisiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsinə və onları maliyyələşdirilmək üçün seçilməsinə dair metodik tövsiyələrdə investisiya layihəsinin səmərəlilik göstəricilərinin

üç tipi təklif edilir: kommersiya (maliyyə) səmərəlilik göstəriciləri layihənin reallaşdırılmasının onun bilavasitə iştirakçıları üçün maliyyə nəticələrini nəzərə alır; büdcə səmərəliliyi göstəriciləri layihənin həyata keçirilməsinin federal, regional və ya yerli büdcə üçün doğurduğu maliyyə nəticələrini əks etdirir; iqtisadi səmərəlilik göstəriciləri (bu terminin məhdud anlamında) layihənin reallaşdırılması ilə əlaqədar olub, investisiya layihəsinin iştirakçılarının birbaşa maliyyə maraqları hüdudlarından kənara çıxan və dəyər ifadəsində ölçülə bilən məsrəfləri və nəticələri nəzərə alır. İnteqral xalq təsərrüfatı səmərəliliyi göstəricisi dövlətin iştirakı ilə həyata keçirilən və şəhərin, regionun və ya ölkənin mənafelərinə əhəmiyyətli dərəcədə dəxli olan irimiqyaslı layihələr üçün tövsiyə olunur.

İNVESTISIYA layihələrinin iqtisadi səmərəliliyi müəyyən edilərkən gələcək dövrdə xərclər və nəticələr hesabat müddəti çərçivəsində bazis, dünya bazarı, proqnoz və hesabat qiymətləri üzrə təyin edilir (hesabat qiymətləri inflyasiya səviyyəsini nəzərə alır). Bu halda xalis diskontlanmış gəlir (inteqral səmərə), daxili gəlirlik norması, xərcin çıxarılma müddəti və başqa göstəricilərdən istifadə edilir.

KAPİTAL RİSKİ – pis keyfiyyətli aktivlər və bundan meydana çıxan itkilərin kapital hesabına silinməsi ilə əlaqədar olan kapitalın azalması riski.

KAPİTAL TRANSFERLƏR – elə təsərrüfatçılıq əməliyyatıdır ki, bu zaman aktivlər əvəzi ödənilmədən, pul və ya natural məhsul formasında bir hüquqi və ya fiziki şəxsdən (sahədən) digərinə verilir. Belə transferlər zamanı əməliyyat iştirakçıları arasında birdəfəlik və kəmiyyətcə böyük həcmli aktivlərin alınması və çıxdaş edilməsi prosesi baş verir. Kapital vergiləri, investisiya subsidiyaları, sair kapital transferləri (borcların ləğv edilməsi, mirasın alınması, zərərin ödənilməsi, vergidən azadetmə və s.) MHS-də istifadə edilən göstəricidir.


KAPİTAL VƏ ƏMƏK ARASINDA ƏVƏZETMƏ – istehsal prosesində kapital və əməyin uyğunlaşdığı nisbətlərin (proporsiyaların) dəyişilməsi. Əgər bir faktorun qiyməti digərinin qiymətini ötürsə, onda sərbəst rəqabət bazarının mövcudluğu ilə daha bahalı faktorun nisbətən ucuz olana dəyişilməsi meyli baş qaldırır.

KAPİTALA MƏNFƏƏT – əsas kapitalın satışından mənfəət (və ya zərər). Kapitala mənfəət qısamüddətli (6 ay və daha az) və ya uzunmüddətli (6 aydan çox) ola bilər. Kapitala zərərlər mənfəətin kapitala bərabərləşdirilməsi üçün istifadə olunur ki, bu da vergilərin məbləğinin hesablanması üçün "netto" mövqeyin çıxarılması məqsədini daşıyır.

KAPİTALIN AXINI – 1. Kapital ixracının əsas formalarından biri; spesifikliyi digər ölkələrdə mənfəətlə yerləşməsi məqsədindən çox, xilasedilmə zəruriliyindən ibarətdir. 2. Ölkədə yerləşən aktivlərə olan tələbdə böyük və qəfil azalma. Bu zaman ölkənin pul vəsaitləri digər ölkələrə investisiyalar, ssudalar, maliyyə aktivlərinin alınması şəklində yönəldilir. Tədiyə balansı kapitalın hərəkəti hesabında öz əksini tapır.

Başqa sözlə, daha yüksək bank faizi, məzənnə nisbətindən yaranan uduşun mümkünlüyü və ölkədə valyuta vəziyyətinin qeyri-sabitliyi ilə əlaqədar nisbətən qısa müddət ərzində qısamüddətli borc kapitallarının xaricə hərəkəti, kapitalın ölkədən çıxarılmasıdır (bax: sxem 1). Kapitalın axını, bir qayda olaraq, aşağıdakı səbəblərdən yaranır: kapital ixracatçısı olan ölkədə iqtisadi və siyasi qeyri-sabitlik; kapitalı qiymətdən salan və onun investisiya edilməsinə mane olan yüksək inflyasiya; vergitutmanın yüksək səviyyəsi və vergi sistemi vasitəsilə əsasən fiskal funksiyaların yerinə yetirilməsi; qanunsuz yığılan vəsaitlərin xaricdə "yuyulması" zərurəti; xüsusi biznesin müdafiəsinin inkişaf etmiş sisteminin olmaması; çoxsaylı valyuta və xarici ticarət məhdudiyyətlərinin mövcudluğu və s. Kapitalın axını adətən pul formasında həyata keçirilir. O, iki yolla baş verir: a) vəsaitlərin bir ölkədən digərinə leqal köçürülmə vasitəsilə; b) qeyri-qanuni üsullarla, milli valyuta və xarici ticarət qanunvericiliyinin pozulması ilə. Bir qayda olaraq, kapitalın axını siyasi və iqtisadi qeyri-stabilliyin yüksək və müxtəlif səbəblərdən qanunsuz kapital yığımının kifayət qədər böyük olduğu inkişaf etməkdə olan ölkələrdə həyata keçirilir. Belə kapital bu ölkələrin öz əməliyyatlarını xaricdə aparan şirkətlərin vasitəsilə güzəştli vergiqoyma və qeydiyyatı olan öl-

Kapitalın axınının beynəlxalq formaları



Sxem 1

kələrə və ərazilərə daha fəal istiqamətlənir.

KAPİTALIN ALTERNATİV DƏYƏRİ (*opportunity cost of capital*) – kapitalın eyni risk dərəcəsi ilə hər hansı aktivə investisiyası zamanı gözlənilən gəlirlilik dərəcəsi.

KAPİTALIN AZALMASI (*capital loss*) – müəyyən müddət ərzində aktivin bazar qiymətinin aşağı düşməsi.

KAPİTALIN DƏYƏRİ HAQQINDA MODİLYANİ-MÜLLER NƏZƏRİYYƏSİ – bu nəzəriyyəyə görə, kapital bazarı mükəmməl olduqda firma üçün kapitalın dəyəri maliyyələşdirmənin hansı metodundan istifadə edilməsindən asılı deyildir. Kapitalı borc almaq, səhmlər buraxılması yolu ilə və ya yenidən bölüşdürülmüş mənfəətlər (yəni dividend ödənilməsi əvəzinə mənfəətin investisiya edilməsi) hesabına cəlb etmək olar. Modilyani-Müller nəzəriyyəsi sübut edir ki, mükəmməl kapital bazarı şəraitində firmanın dividendlər sahəsində hansı siyasəti yeritməsinin və uzunmüddətli perspektivdə səhmlərin yerləşdirilməsini tətbiq etməsinin, yoxsa maliyyələşdirmədən bəhrələnməsinin əsla əhəmiyyəti yoxdur. Firmanın həqiqətdə xüsusi vəsaitlərlə borc vəsaitləri arasında nisbətlər barədə və dividendlər sahəsində siyasət barədə narahatlıq keçirməsi faktı vergi sisteminin təsirinin və kapital bazarının mükəmməl olmamasının nəticəsidir.

KAPİTALIN DÖVRİYYƏLİYİ – investisiya layihələrinin həyata keçirilməsinə yönəldilmiş, avans edilmiş pul vəsaitlərinin qaytarılması sürəti. Kapitalın dövriyyəliyi əmsalının köməyilə xarici investor faktiki olaraq, müəssisənin balansının likvidliyi problemini öyrənir. Lakin bu onu maraqlandıran ra - kursda olur – investisiya layihəsinin həyata keçirilməsi gedişində daha az likvid iqtisadi resursa çevrilən manat yenidən likvid formaya çevriləcək, yəni firma-resipientə manatın metamorfozasına nə qədər vaxt lazımdır.

Maliyyə təhlili təcrübəsində kapitalın dövriyyəliyinin üç göstəricisindən istifadə olunur: a) ümumi kapitalın dövriyyəliyi əmsalı göstərir ki, ildə neçə dəfə istehsal tsikli baş verir; b) material ehtiyatlarının dövriyyəlik əmsalı "istehsal tsikli vasitəsilə" material ehtiyatlarının realizə edilməsi sürətini göstərir; c) dövriyyədən kənar aktivlərin dövriyyəliyi əmsalı "istehsal tsikli vasitəsilə" dövriyyədənkənar maddi aktivlərin realizə sürətini göstərir.

KAPİTALIN FİZİKİ AŞINMASI – əsas fondların, xidmət müddətindən asılı olaraq, öz dəyərinin hissə-hissə istehsal olunan məhsulun üzərinə keçi-

rilməsi prosesidir. Əmək alətlərinin fiziki aşınmasının ölçüsü hər şeydən əvvəl onların istifadəsi müddətindən və intensivliyindən asılıdır. Əsas kapitalın konkret obyektinin fiziki aşınması haqqında ən düzgün təsəvvürü onun hissələri, qovşaqları və konstruksiyalarının texniki vəziyyətinin ekspert qiymətləndirilməsi verir. Lakin bu işin miqyası və mürəkkəbliyi ilə əlaqədar o, yalnız əsas fondların baş inventarlaşması zamanı aparılır. Statistik təcrübədə adətən sadələşdirilmiş metoddan istifadə olunur ki, burada fiziki aşınmanın obyektin xidmət müddəti və ya istehsal olunan məhsulun, yaxud işin həcmi ilə mütənasib baş verdiyi fərz edilir. Məsələn, əgər dəzgahın orta xidmət müddəti 5 ildirsə, onda fiziki aşınmanın illik kəmiyyəti onun müəssisənin balansında olan tam dəyərinin 20%-ni təşkil edəcəkdir. Mühasibat praktikasında fəaliyyətdə olan kapitalın aşınmasının dəyər ifadəsi əsas fondların aşınmasından başlanan bütün müddət ərzində müəssisənin balansında olan bütün bu əsas fondlar üzrə amortizasiya ayırmalarının cəminə bərabər tutulur. Bununla belə güman olunur ki, istehsal xərcləri üçün illik silinən amortizasiya ayırmalarının cəmi il ərzində müəssisənin əsas kapitalının aşınması ölçüsünü əks etdirir. Sənayenin və xalq təsərrüfatının digər sahələri üzrə ümumiləşdirilmiş qiymətləndirmə üçün əsas fondların aşınması məbləğinin onların tam dəyərinə nisbəti kimi hesablanan aşınma əmsalından istifadə olunur. Aşınma əmsalı, adətən, faizlə hesablanır. Hesablanan amortizasiya nəzərə alınmaqla hesablanan əsas kapitalın aşınma göstəriciləri, əvvəla, yalnız kapitalın fiziki aşınmasını yox, həm də mənəvi aşınması dərəcəsini əks etdirir; ikincisi, amortizasiya hesablanması metodlarındakı fərqlərdən əhəmiyyətli dərəcədə asılıdır.

KAPİTALIN KAFİLİK NORMATİVİ (N1) – kommersiya bankları üçün Mərkəzi Bank tərəfindən təsdiq edilən normativ. Kredit təşkilatının xüsusi vəsaitlərinin (kapitalının) kontragentlərin riski nəzərə alınmaqla, təshih edilmiş aktivlərin ümumi məbləğinə nisbəti kimi təyin edilir. 1999-cu il 1 fevral üçün balansa nisbətən N1-in yol verilə bilən minimum qiyməti 8%-dir.

KAPİTALIN QAÇMASI – kapitalın qaçması, pul vəsaitlərinin xarici banklardakı hesablarda, qiymətli kağızlarda, daşınmaz əmlakda və s. yerləşdirilmək məqsədilə ölkədən xaricə, kütləvi surətdə, qəflətən axınıdır (bax: Kapitalın axını).

KAPİTALIN MƏNƏVİ AŞINMASI – istifadə olunan əmək vasitələrinin faydalılığının azaldılması; aşağıdakı iki amilin: a) istehsal sahələrində mövcud olan əsas fondların müasir tələblərə cavab verməməsi; b) yeni, texniki cəhətdən daha təkmil və iqtisadi cəhətdən daha səmərəli maşın və avadanlıqların istehsala tətbiqinin nəticəsi ola bilər. Kapitalın mənəvi aşınmasının kəmiyyətcə qiymətləndirilməsi, bir qayda olaraq, çətin hesablanır: istehsalın konkret şərtlərindən asılı olaraq, hətta, oxşar növ məhsul buraxan eyni sahənin müəssisələrində fəaliyyətdə olan əsas fondların yeni, daha müasir və ya daha məhsuldar fondlarla əvəz edilməsindən əldə edilən iqtisadi səmərə xeyli fərqlənir. Digər bərabər şərtlər daxilində fəaliyyətdə olan əsas vəsaitlərin əvəz olunmasına yönəldilən kapital qoyuluşu üçün mənfəət keyfiyyətin daha çox yüksəlməsi və deməli, ən çox mənəvi aşınma ilə xarakterizə olunan əsas vəsaitlər üçün ən yüksək olacaqdır. Məlum yanaşma ilə fəaliyyətdə olan əsas fondların istehsalının ucuzlaşması nəticəsində kapitalın mənəvi aşınması haqqında cari qiymətlərdə və alış qiymətlərində əsas vəsaitlərin qiymətləndirilməsinin kənarlaşmasına, yaxud eyni tipli maşın və avadanlıqların qiymətlərinin dəyişməsinə görə mühakimə yürütmək olar. Bununla belə, nəzərə almaq lazımdır ki, cari bazar qiymətləri bir çox amillərin təsiri altında formalaşır və onların dinamikası maşın və avadanlıqları istehsal edən sahələrdə istehsal xərclərindən kənar xeyli tərəddüd edəcəkdir. Yüksək inflyasiya şəraitində bu hesablaşmaların iqtisadi mahiyyəti, əsas kapitalın dəyər göstəricilərinin dinamikasına qiymətlərin inflyasiya artımının təsiri nəticəsində kəmiyyət qiymətləndirilməsinin çətinlikləri ilə əlaqədar xeyli dərəcədə itir. Kapitalın mənəvi aşınması daha təkmil əmək alətlərinin əmələ gəlməsi nəticəsində fəaliyyətdə olan obyektlərlə müqayisədə yeni, daha mükəmməl əsas kapital obyektlərinin texniki-iqtisadi xarakteristikasının dəyişməsi ilə xarakterizə olunur. Bu

göstəricilərin hesablanması metodlarının əsasında belə bir məqamın fərq edilməsi durur ki, kapitalın mənəvi aşınmasının dəyəri (yəni bu dəyərin nəticəsində itən) köhnə əsas vəsaitlərə nisbətən yeni əsas vəsaitlərin gücü, məhsuldarlığı və ya qənaətcilliyinin dəyişməsi ilə mütənasibdir. ETT-nin təsiri altında bütün sahələrdə kapitalın mənəvi aşınmasının tempi sürətlənir, lakin müəyyən zaman ərzində əsas fondların müxtəlif növlərinin təkmilləşdirilməsi müxtəlif intensivlik dərəcəsi ilə baş verir. Bu proses ən yüksək sürətlə elm tutumlu sahələrdə (aviakosmik, radioelektronika və s.), eləcə də dövlət tərəfindən təşviq olunan və ya bazar rəqabətinin yüksək dərəcəsi daha çox xarakterik olan iqtisadiyyat sferasında baş verir.

KAPİTALIN RENTABELLİYİ – sərmayə qoyulmuş kapitalın hər manatı müqabilində əldə edilmiş mənfəətin nisbətini əks etdirən göstərici. Mütləq göstəricilərlə (qəpik/manat, manat/manat), çox vaxt isə nisbi (faiz) göstəricilərlə ifadə olunur. Mənfəətin kapitala nisbətindən (bu göstəricinin məxrəcindən) asılı olaraq rentabelliyin aşağıdakı növləri fərqləndirilir:

İstehsalın rentabelliyi – il ərzində əsas fondların və dövriyyə vəsaitlərinin orta dəyəri;

Nominal xüsusi kapitalın rentabelliyi – səhmdar cəmiyyətinin nizamnamə kapitalına, müəssisənin nizamnamə fonduna nisbət;

Balans üzrə xüsusi kapitalın rentabelliyi – mülkiyyətdə olan nominal kapitalın məbləğinə nisbət;

Ehtiyat fondların və zərərlər nəzərə alınmadan mənfəətin köçürülməsinin rentabelliyi (bu halda cari dövrün xərclərinin ayrı-ayrı növlərini digər – əvvəlki və ya sonrakı dövrdə fəaliyyətin nəticələrinə aid edirlər);

Balans üzrə kapitalın məcmu qiymətinin rentabelliyi – xüsusi və borc kapitalın məbləğinə nisbət.

Kapitalın rentabelliyi ilə dövriyyənin rentabelliyi arasında qarşılıqlı kəmiyyət asılılığı mövcuddur. Bu asılılıq məhsulun əmtəə bazarında satışından əldə edilmiş mənfəətin müəssisənin gəlirində xüsusi çəkisi ilə xarakterizə olunur:

$$Pk = Ok \times Po$$

Burada: *Pk* – kapitalın rentabelliyi,

Ok – kapitalın dövrlərinin sayı;

Po – dövriyyənin rentabelliyidir.

KAPİTALIN RİSK SƏVİYYƏSİNƏ GÖRƏ ÇƏKİLMİŞ AKTİVLƏRƏ NİSBƏTİ – belə əmsallar bank kapitalının aktivlərə nisbəti kimi aşağıdakı qaydada hesablanır: bank kapitalı ona mənsub olan, hər birinin çəkisi risk səviyyəsinə müvafiq olaraq müəyyən edilmiş bütün aktivlərin məbləğinə bölünür.

KAPİTALIN SIĞORTASI – bura aiddir: əmanət sığortası, nikah sığortası, uşaqların sığortası, qarışıq həyat sığortası və s.

KAPİTALIN TƏMƏRKÜZLƏŞMƏSİ – izafi dəyərin bir hissəsinin kapitallaşması (yığılması) nəticəsində kapitalın ölçüsünün artması. Kapitalın təmərküzləşməsi istehsal təmərküzləşməsinin bir formasıdır. Onun ilkin struktur halqası müəssisə, daha mürəkkəb forması isə istehsal birliyidir (firma, korporasiya və s.). İzafi dəyərin kapitallaşması həm ayrıca bir müəssisədə, həm də bütün cəmiyyət miqyasında məhsuldar istifadə olunan kapitalı artırır və istehsalın miqyasının genişlənməsinin əsası, ictimai əmək məhsuldarlığının artımının və mənfəətin artmasının ilkin şərti kimi çıxış edir. Sənaye kapitalının təmərküzləşməsi aşağıdakı göstəricilərlə xarakterizə olunur: bir müəssisədə çalışan muzdlu fəhlələrin və qulluqçuların sayı, bu müəssisənin gücü, emal olunan xammalın miqdarı, əmtəə dövriyyəsinin həcmi, mənfəətin ölçüsü və s.

İstehsalın və kapitalın təmərküzləşməsi inhisarların meydana gəlməsi və inkişafı üçün iqtisadi şərait yaradır.

Müasir elmi-texniki inqilab şəraitində elmin istehsala tətbiqi, tədqiqatlardan istifadə olunması kapitalın və təmərküzləşməsinin daha da artımına səbəb olur. Yeni, qabaqcıl texnika ilə təchiz edilmiş müəssisənin yaradılması üçün böyük miqdarda kapital tələb olunur. Xüsusilə elektronika, atom, avtomobil, aviasiya, aerokosmik və s. sahələr kimi sənaye sahələrində iqtisadiyyatın inhisarlaşması baş verir. Bu sahələr üçün kapitalın təmərküzləşməsi daha xarakterikdir.

Sənayedə kapitalın təmərküzləşməsi ilə yanaşı, bankların təmərküzləşməsi baş verir. Bank inhisarları sənaye inhisarları ilə qovuşur, iqtisadiyyatda hökmranlıq edən maliyyə kapitalı və maliyyə oliqarxiyası yaranır.

Müasir şəraitdə kapitalın tə-

mərküzləşməsinin diversifikasiyası, kombinələşmə, konqlomerasiya və s. kimi yeni formaları əmələ gəlir.

KAPİTALİZM – marksizm nəzəriyyəsinə görə, ictimai quruluşdur. Burada əsas istehsal vasitələri muzdlu fəhlələr sinfini (proletariatı) istismar edən kapitalistlər sinfinin (burjuaziyanın) mülkiyyətidir. İstehsal olunmuş nemətlərin bölgüsü bazar vasitəsilə həyata keçirilir. Digər elmi nəzəriyyələr kapitalizmi başqa cür də təsvir edirlər (məsələn, azad sahibkarlıq, açıq rəqabət sistemi kimi). Son zamanlar kapitalizm dedikdə elə siyasi, sosial və iqtisadi sistem başa düşülür ki, burada kapital aktivlərinin daxil olduğu mülkiyyətə xüsusi şəxslər sahibdirlər və onu idarə edirlər. Əmək isə əmək haqqı ilə alınır, resursların bölgüsü sərbəst qiymətlər mexanizmi vasitəsi ilə həyata keçirilir. Bazar mexanizminin istifadə dərəcəsini kapitalizmin müxtəlif formaları müəyyən edir.

Kapitalizm – xüsusi mülkiyyət və azad rəqabətin hökm sürdüyü iqtisadi sistemdir. Daha çox Avropa, ABŞ, Yaponiya, Avstraliyada geniş inkişaf etmişdir. Kapitalizm termini digər iqtisadi termin – kapitaldan başlanğıc alır. Onun ilk əlamətləri Qədim Romada müşahidə olunmuş və ticarətin, sənayeləşmənin, bank işinin təşəkkülü ilə XV əsrdə daha təzahürlü gerçəkliyə çevrilmişdir. XVII əsrin sənaye inqilabı kapitalist münasibətlərinin inkişafında yeni amil olmuşdur. Kapitalizm azad sahibkarlıq və yaxud "xalis kapitalizm" formasında daha çox XIX əsrdə Böyük Britaniya iqtisadiyyatında görünmüşdür.

KAPİTALIN HƏRƏKƏT BALANSI – ölkənin tədiyə balansının bir hissəsidir ki, burada uzunmüddətli və qısamüddətli kapitalların ölkədən aparılması və ölkəyə gətirilməsi əks olunur. Tədiyə balansının "Birbaşa investisiyalar və digər uzunmüddətli kapital" bölməsində uzunmüddətli kapitalın: a) birbaşa investisiyalar; b) portfel investisiyaları; c) digər uzunmüddətli investisiyalar formasında uzunmüddətli kapitalın aparılması və gətirilməsi haqqında göstəricilər göstərilmişdir. "Qısamüddətli kapital" bölməsində qısamüddətli kapitalın aparılması və gətirilməsi haqqında göstəricilər ehtiva olunur. Xarici investisiyalardan əldə olunan gəlirlər haqqında və xarici investisiya gəlirlərinin xaricə köçürülməsi haqqında göstəricilər cari əməliyyatlar balansında verilmişdir və adı çəkilən bölmələrdə əks olunmamışdır.

KAPİTALLAŞDIRILMIŞ DİVİDEND – 1) əsas kapitalın artımına yönəldilmiş dividend; 2) pul kapitalının ssudaya veriləcəyi halda səhmlər üzrə alınan dividendə bərabər məbləğdə gəlir verən səhmlərin məzənnəsi.

KAPİTALLAŞDIRMA NORMASI – kapitallaşdırma vaxtı istifadə edilən faiz dərəcəsi.

KAPİTALLAŞMA – 1. İzafi dəyərin, mənfəətin, gəlirin kapitala çevrilməsi, onun genişlənməsi üçün istifadə edilməsi. 2. Orta borc faizi kimi sahibkarlıq fəaliyyətindən gələn gəlirin nəzərdən keçirilməsi və bu borc faizi ilə kapitalın müəssisənin dəyərinin kəmiyyətinə bərabər hesablanması əsasında müəssisənin dəyərinin qiymətləndirilməsi metodu. 3. İndiki zamana (indiki xalis dəyərə) gələcəkdəki xalis mənfəətin əlavə edilməsi yolu ilə iqtisadi dəyərin qiymətləndirilməsidir (bax: sxem 1).

KAPUSTİN YEVGENİY İVANOVİÇ (1921) – sovet iqtisadçısı, i.e.d. (1965), prof. (1966). MDU-nun iqtisadiyyat fakültəsini bitirmişdir (1949). Elmi Tədqiqat Əmək İnstitutunun direktoru (1965-ci ildən), eyni zamanda, MDU-nun əməyin iqtisadiyyatı kafedrasının müdiri (1966-cı ildən), 1971-ci ildə SSRİ EA-nın İqtisadiyyat İnstitutunun direktoru və MDU-nun iqtisadiyyat fakültəsinin siyasi iqtisad kafedrasının professoru olmuşdur. Həyat səviyyəsi, bölgü, əmək haqqının və maddi stimullaşdırmanın təşkili, əməyin elmi təşkili problemlərinə dair əsərlərin müəllifidir.



KARBOHIDROGEN – molekulları yalnız karbon və hidrogen atomlarından ibarət üzvü birləşmələr. Neft, təbii qaz və kondensat karbohidrogenlər sinfinə aiddir.

KARQO (ing. *kargo* – yük, isp. cargo – yükləmə, yükvurma) – dənizlə (hava ilə) daşınan yüklərin sığortalanması zamanı, eləcə də yükün adı göstərilməyən - də, beynəlxalq daşımalarda isə fraxt əldə etmək üçün istifadə olunan termin.

KARQO MARAQ – daşıma (daşıma üsulundan asılı olmayaraq) üçün nəzərdə tutulan yükün qiyməti ilə şərtlənən sığorta marağı. Karqo marağını yükün sahibinin marağından fərqləndirmək lazımdır.

KARQO-PLAN – gəmidə, təyyarədə yükün yerləşməsi planı.

KARQO-SIĞORTA – nəqliyyat yüklərinin sığortalanmasının bir növü. Bu halda nəqliyyat vasitəsi deyil, yalnız yükün özü sığortalanır. Bu sığorta növü daşımanı həyata keçirən şəxsin, müəssisənin deyil, yük sahibinin maraqlarına cavab verir.

KARNEGİ DEYL (1888-1955) – Amerika pedaqoqu, ünsiyyət sahəsində mütəxəssis.



"Özünə inamı necə əldə etməli" (1926), "Dostları necə qazanmaq və insanlara necə təsir etmək" (1936), "Narahatçılığa son və yaşamağa davam" (1944) kimi kitabların müəllifidir. Karnegi Deylin tövsiyələri elmi tədqiqata deyil, məntiqə və həyat təcrübəsinə əsaslanır.


KARTEL (fr. *cartel*, ital. *cartelio* – sənəd) – bir qayda olaraq konkret sahə çərçivəsində xammal mənbələrinin, satış bazarlarının bölgüsü, satış şərtləri, iş qüvvəsinin muzdlu şərtləri, tədiyə müddəti, inhisar qiymətlərinin (yəni kartel qiymətlərinin) müəyyən olunması, inhisar mənfəəti əldə edilməsi məqsədi ilə milli və beynəlxalq çərçivədə (beynəlxalq kartel) patentlərin istifadəsi və s. haqqında fəaliyyət göstərən sahibkar qruplarının (müstəqil hüquqi şəxslərin) inhisar sazişi və müvafiq birlik forması. Kartel bazar mexanizmlərinin fəaliyyət göstərməsini çətinləşdirir və antiinhisar qanunvericiliyinin fəaliyyəti altına düşür (bax: Sindikat, İnhisar). Bəzi ölkələrdə kartel qanunla qadağan edilib, digər ölkələrdə isə məcburi qeydiyyatdan keçməlidir. Bir sıra ölkələrdə dövlət karteldən sənaye siyasəti aləti kimi istifadə edir. Belə ki, 1939-1945-ci illər İkinci Dünya müharibəsindən sonra Yaponiya hökuməti sənayenin restrukturizasiyası (strukturca yenidən qurulması), materialların və dəst məmulatlarının standartlaşması, xırda məhsul göndərən firmalar arasında rəqabətin azaldılması, onların diversifikasiya səviyyəsinin aşağı düşməsi və müasir texniki səviyyəyə keçməsi məqsədilə "rasionallaşma karteli"ni təşviq etdi. 1980-ci illərdə Yaponiyada hətta yeni investisiyaları məhdudlaşdırmaq, istiqrazlara (borclara) hökumət zəmanəti almaq,





Karqo daşımaları

BAZAR KAPİTALLAŞMASININ FORMALAŞMASININ SXEMLİ İZAHI



Sxem 1

ixtisaslaşmanı dəyişmək üçün və s. depressiv sahələrdə (gəmiqayırmada, toxuculuq və neft-kimya sənayesində) kartelin yaradılması həvəsləndirilirdi. Bir sıra inkişaf etmiş ölkələrin hökumətləri beynəlxalq kartelin fəaliyyətini məhdudlaşdırmır, bəzən isə əksinə, təşviq edir.

KARTEL HÜQUQU – ABŞ və Aİ-də antiinhisar qanunvericiliyinin forması, bütün kartel növlərinin qadağası. Bu zaman iqtisadiyyatın ayrı-ayrı sahələri istisna olunur (əsasən kənd təsərrüfatı), onların fəaliyyətinə xüsusi şəraitdə icazə verilir. Kartel hüququ rəqabətin xarakter və ya miqyasını dəyişə biləcək müəssisələr arasında istənilən növ razılaşmaya, birləşmiş müəssisələrin qərarlarına və razılaşdırılmış hərəkətlərə qadağa qoyur. Aşağıdakı kartellər üçün belə qadağanın müvəqqəti götürülməsi mümkündür:

1) payı müəyyən istehsal bazarının 5%-dən azını təşkil edən;

2) öz fəaliyyətini yeni bazarın mənimsənilməsinə əsaslandıran;

3) xalq təsərrüfatı mənfəəti olan, əsasən, texniki tərəqqinin inkişafına şərait yaradan;

4) istehsal güclərinin həcmini azaldan, necə deyərlər, böhranlı kartellər.

KARTEL SAZİŞİ – iki və ya daha çox müəssisə, firma arasında kartel yaradılması barədə razılaşma. Bu sazişin üfüqi və şaquli növləri vardır. Üfüqi saziş eyni dərəcədə ixtisaslaşmış

firmalar arasında bağlanır, şaquli saziş isə atomistiklik və axıcılıq vasitəsilə bazarın elastikliyinin məhdudlaşdırılmasına yönəlmişdir.

KARTIN AKSEPTANTI – kartı onun saxlayıcısından tədiyə aləti kimi qəbul edən və transaksiyalar haqqında informasiyanı ona xidmət edən ekvayer banka göndərən tərəf. Kart akseptantları qismində ticarət müəssisələri, xidmət sahələri və bankomatlar çıxış edir.

KARYEROQRAMMA – karyeranın idarə olunmasının aləti, karyeranın müxtəlif səviyyələrində insanların keçdiyi mərhələlərin qrafik təsviri. Hər hansı bir təşkilatın istəyi ilə tədqiqatlar aparılır və buna müvafiq olaraq müxtəlif peşə sahibləri və rəhbər işçilərin karyeroqramması qurulur.

KASKO (ital. *casco*) – daşınan nəqliyyat vasitələrinin sığortalanması zamanı istifadə olunan termin. Kasko – nəqliyyat vasitəsinin (çay, dəniz, hava və ya avtomobil nəqliyyatı vasitəsinin) bortudur. Kaskonun sığortalanması yalnız nəqliyyat vasitəsinin korlanmasından, xarab olmasından və ya konstruktiv məhv olmasından zərərin ödənilməsini tələb edir.

KASKO SIĞORTA (ing. *hull insurance*) – nəqliyyat vasitələrinin sığorta növüdür ki, burada obyekt kimi növündən asılı olmayaraq mexanikləşdirilmiş və digər nəqliyyat vasitələri çıxış edir. Sığorta obyektlərinə təyyarələr, dəmir yolu vaqonları, avtomobillər, motosikletlər, motorollerlər, motoarabalar, aerokirşələr, gəmilər, motorlu, yelkənli avarlı qayıqlar (hava ilə doldurulanlardan başqa), katerlər, yaxtalar aiddir.

KASSA (ital. *cassa*, lat. *capsa* – anbar, qab, yeşik) – 1. Müəssisə və təşkilatda olan nağd pul. 2. Kassa əməliyyatlarını yerinə yetirən müəssisə, təşkilat, idarə və s. struktur bölməsi. Banklarda mədaxil, məxaric, axşam yenidən (təkrar) hesablama və s. kassalar mövcuddur.

KASSA ƏQDİ – fond birjalarında qiymətli kağızlarla əməliyyatların bir növü. Kassa əqdinin xüsusiyyəti ondan ibarətdir ki, qiymətli kağızların haqqı bir qayda olaraq, əqdin bağlandığı gün ödənilir və ya alıcıya verilir. Kassa əqdi valyuta bazarında valyuta əməliyyatlarının bir növüdür. Bir qayda olaraq, qiymətli kağızların kiçik partiyaları ilə bağlı əməliyyatlar kassa əqdləri hesab edilir.

KASSA İNTİZAMI – müəssisələr, təşkilatlar tərəfindən nağd pulla mədaxil və məxaric əməliyyatlarını həyata keçirərkən, mənfəətdən pulun xərclənməsi, kassa qalığı limitinin saxlanması və kassa qalığının banka və əmanət kassalarına təhvil verilməsi müddəti ilə bağlı mühasibat uçotu qaydalarına əməl edilməsi.


KASSA VƏHDƏTİ – dövlət büdcəsinin kassa icrasının təşkili prinsipi. Dövlət büdcəsinin bütün gəlirləri Mərkəzi Bankda xəzinədarlığın (Maliyyə Nazirliyinin) vahid, birləşmiş hesabına köçürülməlidir. Çünki bütün büdcə xərcləri məhz oradan həyata keçirilir.

KASSADAKI NAĞD PUL – birliklərin, müəssisələrin, təşkilatların, idarələrin və digər təsərrüfat obyektlərinin kassalarında olan nağd pul, eləcə də dərhal nağd pula çevrilə biləcək qiymətli kağızlar. Mədaxildən və ya başqa nağd pul daxilolmalarından yaranır. Əhaliyə məişət xidməti müəssisələrinin, ticarət müəssisələrinin, əhaliyə pullu xidmətlər təqdim edən nəqliyyat və digər təşkilatların kassasındakı nağd pul əsas etibarilə malların satışı və ya xidmətlər göstərilməsi hesabına; idarə, müəssisə və təşkilatlarda banklardan alınan pul hesabına yaranır. Fəhlə və qulluqçulara əmək haqqı, müavinətlər, pensiyalar



və başqa ödənişlər üçün istifadə edilir. Kassadakı nağd pulun məbləği dövriyyənin həcmindən asılı olaraq və həmin müəssisəyə xidmət edən bank tərəfindən müəssisələrin rəhbərləri ilə razılaşdırılmaqla müəyyən edilən kassada nağd pul limitinin qiyməti ilə məhdudlaşdırılır. Müəyyən olunmuş limitdən artıq bütün nağd pul hesaba köçürülmək üçün kredit müəssisələrinə təhvil verilir. Müəssisələrin kassalarında müəyyən olunmuş limitdən artıq yalnız əmək haqqı, sosial sığorta üzrə müavinətlər və təqaüdlər ödənilməsi üçün məbləğlər, lakin üç iş günündən çox olmamaqla saxlana bilər. Kassadakı nağd pulun son məqsədindən asılı olaraq onu aşağıdakı növlərə bölürlər: haqqı pul ilə ödənilən cari əməliyyatlar üçün nəzərdə tutulan nağd pul (pul vəsaitləri); əvvəlcədən nəzərdə tutulmamış xərclər və itkilərlə bağlı ehtiyat pul. Kredit müəssisələri üçün nağd kassa pulu anlayışı nağd puldan əlavə mərkəzi bankdakı zəruri depozitləri (ehtiyatları) də əhatə edir. Nağd kassa pulu terminindən çox vaxt qızıl və devizlər şəklində avuarların bütün məcmusunu göstərmək üçün istifadə edilir.

KASSEL KARL QUSTAV (1866-1945) – 1895-ci ildə Upsala Universitetində riyaziyyat üzrə doktor dərəcəsini almışdır. Stokholmda bir neçə il müəllim vəzifəsində çalışaraq, iqtisadiyyatla maraqlanmışdır və bu elmin öyrənilməsi üçün Almaniyaya getmişdir. 1899-cu ildə ilk məqaləsi və 1900-cu ildə ilk kitabı məhz Almaniyada çıxmışdır. 1901-ci ildə o, İsveçə



qayıtmış və 1903-cü ildə Stokholm Universitetində iqtisadiyyat professoru vəzifəsinə təyin olunmuşdur. Bu vəzifəni o, 1936-cı ilə qədər tutmuşdur. Valrasın ümumi müvazinət nəzəriyyəsi Kasselin "İctimai iqtisadiyyat nəzəriyyəsi" kitabında riyazi ifadələrdən azad olunmuş və sadələşdirilmişdir. Əsaslandırmanın sadəliyi və kitabın yüngüllüyü onun müvəffəqiyyətini təmin etmişdir. Kitab dünyanın bir çox dillərinə tərcümə olunmuşdur və iki dünya müharibələri arasındakı dövrdə iqtisadiyyat üzrə dərsliklər arasında ən oxunan hesab olunurdu.

Onun daha erkən kitabı "Faizin mahiyyəti və zəruriyyəti" də məşhurlaşmışdır. O, Bem-Baverkin kapital və faiz nəzəriyyəsinin çətin arqumentlərini kənara qoyaraq yenə də Valrasın müəyyən "gözləmə" dövründən sonra əlçatan olan uzunmüddətli kapital əmtəələri ilə qısamüddətli istifadə olunan istehlak əmtəələri arasındakı fərqə müraciət etmişdir.

Özündə Millətlər Liqasına həsr olunmuş 2 memorandumu əks etdirən "Dünya maliyyə problemləri" kitabında (1921) Kassel milli valyutanın mübadilə məzənnəsinin müvazinət şəraitində olmasını müəyyən edən sadə düsturu çıxartmışdır: Yəni, mübadilə məzənnəsi verilən ölkənin qiymət səviyyəsi ilə digər ölkənin qiymət səviyyəsi arasındakı nisbətdə olmalıdır. Başqa sözlə desək, tarazlaşdırılmış mübadilə məzənnələri ölkələrin qiymət səviyyələri arasındakı nisbət kimi müəyyənləşdirilməlidir. Bu, Kasselin adı ilə bağlı olan məşhur "alıcılıq qabiliyyəti pariteti" nəzəriyyəsidir. Lakin bu, səhv nəzəriyyə hesab olunur, çünki ən yaxşı halda iki valyutanın mübadilə məzənnəsi eyni ixrac əmtəələrinin alıcılıq qabiliyyətindən asılı ola bilər. İxrac olunmayan əmtəələrin qiymətləri isə müxtəlif ölkələrdə adətən fərqlənir. Yəni iki ölkə arasında bütün əmtəələrin ortalama qiymətlərində fərqlərin əmələ gəlməsinə səbəb olan bir çox amilləri alıcılıq qabiliyyəti pariteti nəzəriyyəsi nəzərə almır. Lakin beynəlxalq qiymətlərin tez-tez dəyişməsi nəticəsində iqtisadi aktivliyin artması şəraitində bu nəzəriyyə tarazlaşdırılmış valyuta məzənnəsinin təqribi qiymətləndirilməsinin əlverişli qaydasını təklif edir, ümumi halda isə daxili qiymətlərin artımı digər ölkələrdəki orta inflyasiya templərini üstələyən heç bir ölkə valyutasının ucuzlaşdırılmasından yan keçə bilmir.

KASSİR (ital. *cassa*) – pul, qiymətli kağızlar qəbul edən və verən, habelə bilet satan işçi, kassa müdiri.

KASTODİAN – qiymətli kağızların cavabdehlik əsasında saxlanması və qorunması xidmətini həyata keçirən hüquqi şəxs. Adətən, kastodian funksiyasını banklar, bəzi hallarda isə broker şirkətləri daşıyır.

KATALOQLAR ÜZRƏ TİCARƏT EDƏN MAĞAZALAR – kataloqlar vasitəsilə öz məhsulunu reklam edən pəra-

kəndə ticarət müəssisələri. Belə mağazalar, adətən, kataloqlar üzrə ticarət prinsipləri, üstəgəl, yüksək qiymətlərlə satılan marka malların geniş çeşidinin satışı üçün endirilmiş qiymətlər prinsipindən istifadə edir. Onlar arasında zərgərlik məmulatlarını, mexaniki alətləri, çamadanları, kameraları, foto avadanlıqları və s. göstərmək olar. Belə mağazalar 1960-cı illərin sonunda yaranaraq və pərakəndə satışın ən dəbdə olan yeniliyinə çevrildilər, hətta endirimli qiymətlərlə işləyən ənənəvi müəssisələr üçün müəyyən təhlükə doğurmağa başladılar. 1982-ci ildə kataloqlar üzrə alver edən demzal-mağazaların dövriyyəsi 9,27 mlrd. dollara çatmışdı. Halbuki on il əvvəl həmin göstərici 750 mln. dollar təşkil edirdi. Bu fəaliyyət sahəsində "Best pro dakts K", "Servis merçandaiz" və "Modern merçandayzinq" kimi ictimai mülkiyyətdə olan şirkətlər dominantlıq edir. Hazırda Birləşmiş Ştatlarda 400-ə qədər şirkətin tərkibində təxminən 2000 kataloqlar üzrə alver edən demzal-mağaza vardır. Demzal-mağazalar bəzi hallarda 500 səhifəyə yaxın həcmdə rəngli kataloqlar nəşr etdirir, onları daha kiçik həcmli mövsüm nəşrləri ilə tamamlayırlar. Bu kataloqları nümayiş zalında almaq olar. Bundan başqa, onlar keçmiş alıcılara poçtla da göndərilir. Kataloqda hər bir məmulatın preyskurant qiyməti və endirimli qiyməti göstərilir. Müştəri malı telefonla sifariş verib çatdırılmanı ödəyə və ya demzala gəlib məmulata baxa, onu nağd ala bilər. Kataloqlar üzrə alver edən demzal-mağazalar marka malların dəblə bağlı olmayan əmtəə kateqoriyalarında ümummilli yayılması hesabına pul qazanır. Ticarət binalarının daha aşağı icarə haqqı ilə olan rayonlarda tutulması hesabına; ticarət personalının sayının üçdə biri qədər azalması hesabına; vitrinlərdə yerləşdirilmiş malların xırda oğurluqları imkanlarının minimuma endirilməsi hesabına; həmçinin, nağd hesabla ticarət hesabına.

Poçt və ya telefonla mal sifarişinin pərakəndə ticarəti dedikdə poçt kanalları və ya telefon xətləri ilə sifarişlərin yığılması və ya satılan malların çatdırılması üzrə istənilən fəaliyyət başa düşülür.

Göndərişlə ticarət sistemi müştərilər öz sifarişlərini istehsalçılara və ya ticarətlə məşğul olanlara poçtla göndərməyə başlayan vaxtdan meydana gəlmişdir. Vətəndaş müharibəsindən sonra tacirlər istehlakçı sifarişlərini kataloqların paylanması yolu ilə stimullaşdırmaq üçün, ilk növ-

eBay hərracında satılmış bəzi qiymətli əşyalar

1. Şekspirin 1666-cı ildə böyük London yanğınını yaşamış 340 illik əlyazması "Prince of Tyre" (£5 mln.)
2. Grumman Gulfstream II təyyarəsi ($4.9 mln.)
3. 1993-cü ildə buraxılmış sarı McLaren F1 ($1,7 mln) (dünyada tək bir ədəd sarı McLaren F1 var)
4. 1999-cu ilə məxsus Honus Vaqnerin (ing. Honus Wagner) beysbol kartı ($1,65 mln)
5. Qərbi Kentukkidə (ABŞ) Daymond Leyk kurortu ($1,2 mln)
6. Ferrari Enzo ($975 000, dekabr 2005)
7. Məşhur beysbolçu Co Ceksonun bitası "Black Betsy" ($577 610)
8. Əfsanəvi qolfçu Tayqer Vudsla qolf oyunu ($425 000)



bədə, kənd əhalisinə göndərirdilər. 1872-ci ildə Çikaqoda "Montqomeri uord" ticarət firması, 14 il sonra isə "Sire Robak" firması belə meydana çıxmışlar. 1918-ci ildə bu iki şirkət kataloq üzrə alver edən göndərişlə ticarət nəhənglərinə çevrildi, ölkədə isə 2500 belə müəssisə vardı. Ötən əsrin 30-40-cı illərində bir çox pərakəndə sahibkarlar özlərinin göndərişli ticarət əməliyyatlarını bağladılar. Belə ki, kiçik şəhər və qəsəbələrdə mağaza şəbəkələri yarandı, mal axınları inkişaf etdi və eyni zamanda, avtomobillərin sayı artdı və çoxlu rahat yollar salındı. Lakin bu gün də poçt və ya telefonla mal sifarişi üzrə ticarət tənəzzüldə deyil, əksinə, çiçəklənməkdədir.

Birləşmiş Ştatlarda poçt və telefonla malların sifarişini həyata keçirən minə qədər müəssisə vardır və bunların illik mal dövriyyəsi 8 mlrd. dollardan artıqdır. Poçt və ya telefonla mal sifarişinin pərakəndə ticarətinin bir neçə forması vardır.

Kataloqlar üzrə sifarişlə ticarət. Satıcılar, adətən, kataloqları seçilmiş müştəri kontingentinə göndərir və ya onlara həmin kataloqları öz ticarət məntəqələrində ya pulsuz, ya da nominal qiymətə almağa imkan yaradırlar. Bu cür yanaşmanı əsaslı surətdə mal seçimi təklif edən qarışıq çeşidli göndəriş ticarəti ilə məşğul olan müəssisələr təcrübədən keçirir.

Hər bir şəhər sakini hər ay 3-dən 5-ə qədər "məsafədən" mal almaq haqqında təkliflər alır. Dünya ölçüləri ilə bu, çox azdır. Ona görə də kataloqlar üzrə ticarət bazarının ölkəmizdə yaxşı perspektivləri vardır. İri şəhərlərdə kataloqlar vaxta qənaət etməyə kömək edir. İnsanlar kataloqlar üzrə alver edən şirkətlərə müraciət edirlər ki, lazımi malları axtarmaq üçün bir çox mağazaları gəzməsinlər.

Alıcının malı təsəvvür etməsi ilə şəkildə gördüyü və sonra əldə etməsi arasında böyük fərq vardır. Ona görə də satıcılar kataloqda mallar haqqında daha ətraflı təsvirlər verməyə çalışırlar. Etibarsızlıq amilini aradan qaldırmaq üçün məsafədən ticarətlə məşğul olan şirkətlər kataloqa daha məlum malları yerləşdirməyə cəhd edir.

Fransada dəftərxana malları bazarının 60%-ni kataloqlar üzrə ticarətlə məşğul olan şirkətlər tutur. Almaniyada onlar daha çoxdur. Bizdə bu bazarın inkişafını istehlakçıların xidmətin keyfiyyətinə etibarsızlığı ləngidir. Vətəndaşların əksəriyyəti düşünür: "Mağazada özüm istədiyim hər bir şeyi bəyənib ala bilərəm. Sifarişlə nə gətiriləcəyi isə hələ məlum deyil". Ona görə də kataloq firmalarının əsas vəzifəsi tədricən alıcıların etibarını qazanmaqdır.

KAUTSKİ KARL (1854-1938) – alman iqtisadçısı, marksist. Onun ən məşhur əsəri "Aqrar məsələ. Müasir kənd təsərrüfatı, aqrar siyasət və s. ənənələrin xülasəsi" (1899) idi. Onun ultramiperializm nəzəriyyəsinə əsasən, kapitalizm inkişaf edərək yeni ultraimperializm mərhələsinə qədəm qoymalı idi. O hesab edirdi ki, kartellərin siyasəti xarici siyasətə və imperialistlərin beynəlxalq ittifaqına təsir etdikdə dünya ümumi maliyyə kapitalları birlikləri tərəfindən istismarı, milli maliyyə kapitallarının bir-biri arasındakı rəqabəti aradan qaldıracaq.



KAUZAL MÜQAVİLƏ – bu müqavilənin məzmunundan kauza, yəni sazişdə göstərilən öhdəliklərin əsası aydın olur.

Tərəflərin nəyin naminə öz üzərinə öhdəlikləri götürməsi müqavilənin məzmunundan görünür.

KAUZAL YANAŞMA (lat. *cansa* – səbəb) – iqtisadiyyatın öyrənilməsinə tətbiq edilən elə yanaşmadır ki, burada iqtisadi prosesdə iştirakçı olan insanların hərəkətlərinin və qərarlarının səbəbləri axtarılır.

KAZIMLI XANHÜSEYN HÜSEYNAĞA OĞLU (1942) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof.



1971-ci ildə Moskva şəhərində namizədlik, 1989-cu ildə Tbilisi şəhərində doktorluq dissertasiyalarını müdafiə etmişdir. Tədqiqat obyekti qiymətləndirmə və qiymətəmələgəlmə problemləridir.

Professor X.Kazımlının bütün əmək fəaliyyəti Azərbaycan Dövlət İqtisad Universiteti ilə bağlı olmuşdur. O, burada komsomol və həmkarlar komitələrinin sədri, kafedra müdiri və prorektor olmuşdur. Pedaqoji fəaliyyətlə yanaşı, o, Respublika Baş Qiymətlər İdarəsinin rəisi,

Azərbaycan Respublikası Milli Məclis Aparatının İqtisadi Qanunvericilik şöbəsinin müdiri vəzifələrində çalışmışdır. Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin fəxri sədri, MDB Qiymətləndiricilər Assosiasiyası Mərkəzi Şurasının üzvüdür.

50-dən artıq monoqrafiya, dərslik və dərs vəsaitinin, 450-yə yaxın elmi məqalənin müəllifidir. Əsərlərinin bir qismi xaricdə nəşr edilmişdir. X.Kazımlı "Əmlak və iqtisadiyyat" jurnalının baş redaktorudur.

1999-cu ildən indiyə kimi Milli Məclisin üzvüdür. X.Kazımlı təhsildə, elmi yaradıcılıqda və Azərbaycanın ictimai-siyasi həyatındakı səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetində kafedra müdiri vəzifəsində çalışır.

Əsərləri: "Qiymətin əmələ gəlməsi" (1999); "Qiymətləndirmənin əsasları" (2007); "Qiymətləndirmə fəaliyyətinin qanunvericilik təminatı" (2008); "Avtonəqliyyat vasitələrinin qiymətləndirilməsi" (2008); "Daşınmaz əmlakın qiymətləndirilməsi" (2008); "İqtisadi risklərin qiymətləndirilməsi" (2009); "Zərgərlik məmulatlarının qiymətləndirilməsi" (2010).

KAZUİSTİKA – 1) məhkəmə işlərinin ayrı-ayrı nümunələrinə hüquq normalarına əsasən onların necə həll edilməli olması nöqteyi-nəzərindən baxılması; 2) yanlış və ya şübhəli müddəaları sübuta yetirmək bacarığı.

KEÇİD İQTİSADİYYATLI ÖLKƏLƏR – daha gənc olan ölkələr qrupuna keçid iqtisadiyyatlı dövlətlər daxildir ki, bunlar da 1970-ci illərin sonlarından (Çin), 1980-ci illərdən (Mərkəzi və Şərqi Avropa) və 1990-cı illərin əvvəllərindən (keçmiş sovet respublikaları) inzibati-amirlik sistemindən müasir bazar iqtisadiyyatına keçidə başlamışlar. Bunun gedişatında onlar sistemli islahatlar həyata keçirirlər. Bu zaman müxtəlif ölkələr nəinki daxildə, həm də xarici iqtisadi sahədə sistemli islahatların müxtəlif modellərindən istifadə edirlər.

Bazar iqtisadiyyatına keçidin zəruriliyi keçmiş sosialist ölkələrinin əksər əhalisi və siyasi rəhbərliyi tərəfindən tarixi vəzifə kimi dərk edilmişdi. Belə ki, əmək məhsuldarlığı və əhalinin həyat səviyyəsi üzrə, yəni sosial-iqtisadi sistemin səmərəliliyinin həlledici meyarları üzrə (o cümlədən marksist-leninçi nəzəriyyənin özünün nöqteyi-nəzərindən) inzibati-komanda sisteminin bazar iqtisadiyyatı ilə yarışı uduzması aşkar idi.

KEÇMİŞ ƏMƏK – istehsal vasitələrinin (əmək vasitələrinin – maşınların, avadanlıqların və s., eləcə də əmək alətlərinin – xammalın, materialların, dəstləşdirici məmulatların və s.) istehsal prosesində sərf edilmiş və istehsal olunmuş malların üzərinə keçmiş dəyəri. Keçmiş əmək əməyin dəyər nəzəriyyəsi kateqoriyası olub, "köhnə dəyər", "köçürülmüş dəyər" anlayışları ilə eyni məna daşıyır. Keçmiş əməkdən fərqli olaraq yeni yaradılan dəyər müəyyən istehsal prosesində canlı əməyin fəaliyyəti nəticəsində yaranır. Beləliklə, əmtəələrin dəyəri ikitərəfli hadisədir. O, bir tərəfdən keçmiş əməyi, köhnə, istehsal vasitələrindən keçmiş dəyəri, digər tərəfdən əmtəədə maddiləşmiş, müəyyən istehsal prosesində həmin əmtəəyə sərf edilmiş canlı əməyi – yeni dəyəri əhatə edir. Əmtəənin ikili strukturu əmtəə istehsalçısının əməyinin ikili təbiəti ilə müəyyən olunur. Bir tərəfdən onun əməyi faydalı əmək forması (konkret əmək) kimi, əməyin keyfiyyəti baxımından onun xarakteristikası kimi çıxış edir və bunun sayəsində sərf edilmiş istehsal vasitələrinin dəyəri – keçmiş əmək yeni əmtəənin üzərinə keçir (bu keçid həmin əməyin faydalılıq dərəcəsindən asılıdır). Digər tərəfdən, bu əmək kəmiyyət xarakteristikasına da malikdir. O, əmtəədə təcəssüm olunmuş yeni dəyəri yaradan ictimai zəruri əməyin miqdarıdır (mücərrəd əmək). Keçmiş əməyə qənaət edilməsi istehsalın səmərəliliyini artırmağın mühüm amilidir, çünki bazar ayrılıqda götürülmüş hər bir müəssisədə fərdi keçmiş əmək sərfini deyil, bu və ya digər əmtəənin istehsalının əsas şərtləri ilə müəyyən edilən ictimai məsrəfləri nəzərə alır. Buradan belə bir nəticə çıxır ki, əməyin keyfiyyət xarakteristikalarının artırılması daha yaxşı təchiz və təşkil olunmuş müəssisədə istehsal edilən məhsulun hər vahidinə sahə üzrə orta göstərici ilə müqayisədə daha az miqdarda keçmiş əmək sərf etməyə imkan verir, müəssisənin əlavə mənfəətinin tərkib hissəsi kimi fərdi və ictimai keçmiş əmək məsrəfləri arasındakı fərqi mənimsəməyə imkan yaradır. Keçmiş əməyin kapitalın əşya formalarından biri kimi çıxış

MƏN HESAB EDİRƏM Kİ, BİZ ARTIQ İQTİSADİ SAHƏDƏ KEÇİD DÖVRÜNÜ BAŞA VURMUŞUQ".

İLHAM ƏLİYEV (2009)



Bakı Biznes Universitetində "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr, milli inkişaf modelinin formalaşması problemləri" mövzusunda Beynəlxalq elmi-praktiki konfrans (Bakı, 6 oktyabr 2010-cu il)

Azərbaycan Iqtisadçılar Ittifaqı, Beynəlxalq İqtisadçılar İttifaqı, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu, Azərbaycan Dövlət İqtisad Universiteti və Bakı Biznes Universitetinin "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri" mövzusu üzrə birgə keçirdiyi Elmi Konfransda respublikanın görkəmli iqtisadçı alimlərinin çıxışlarının ana xəttini bü sözlər təşkil etmişdir:


Müstəqil Azərbaycan bir ictimai-iqtisadi formasiyadan digərinə **keçid dövründə** respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunu Azərbaycan gerçəkliyi ilə uzlaşdıraraq tamamilə yeni bir model yaratmışdır.

Qarşıda duran vacib məsələlərdən biri Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının konkretləşdirilməsi, yaxın 15-20 illik dövr




üçün ölkəmizin vahid iqtisadi inkişaf konsepsiyasının hazırlanması, onun icra mərhələlərinin hər birinin konkret məqsəd və vəzifələrinin müəyyənləşdirilməsidir. Milli iqtisadi inkişafın modernləşdirilməsinin strateji xətti işlənmiş olsa da, taktiki baxımdan dünyada gedən qloballaşma prosesi ilə bağlı o, daim təkmilləşdirilməli və inkişaf etdirilməlidir. Sərt qlobal rəqabət mühitində ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin etmək üçün innovasiya yönümlü iqtisadiyyatın yaranmasına, formalaşmasına və inkişafına əsaslı kapital qoyuluşu həyata keçirilməli və bu proses məqsadyönlü xarakter almaqla, dövlətin nəzarətində və diqqət mərkəzində olmalıdır.

Beynəlxalq elmi konfransın "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri" adlı iri həcmli toplusunda verilmiş yazıların ana xəttini azərbaycançılıq, Azərbaycana xidmət etmək, vətəni çiçəklənən diyara çevirmək təşkil edir. İqtisadçı alimlər müstəqil Azərbaycan dövlətinin müəyyənləşdirdiyi və müasir dövrün reallıqlarını obyektiv qiymətləndirən, ölkənin milli maraqlarına, iqtisadi təhlükəsizliyinə cavab verən iqtisadi siyasəti müdafiə edir və belə hesab edirlər ki, tarixə qovuşmuş keçid dövrünün yekunlarından konkret nəticələr çıxarılmalı, ölkə iqtisadiyyatının davamlı inkişafını təmin etmiş nailiyyətlərimiz bir daha dərin təhlil edilməli, cəmiyyətimiz üçün aktuallaşan təkliflər verilməli və biz yeni paradiqmalar haqqında düşünməliyik.



Sxem 1

edən istehsal vasitələrindən köçürülməsinin xarakteri əsas və dövriyyə kapitalı arasında fərqin əsasıdır. Əsas kapitalda (əmək vasitələrində) təmsil olunmuş keçmiş əmək əsas istehsal vasitələri fiziki və mənəvi baxımdan köhnəldikcə, konkret əmək sayəsində tədricən, hissə-hissə köçürülür. Öz növbəsində dövriyyə kapitalının dəyəri şəklində keçmiş əmək istehsal edilən əmtəənin üzərinə dərhal və bütünlüklə köçürülür. Beləliklə, əsas istehsal vasitələrində (maşınlar, istehsal avadanlığı və s.) təcəssüm olunmuş keçmiş əmək üç formada mövcuddur: onun bir hissəsi bu istehsal vasitələri köhnəldikcə, istehsal edilən əmtəənin üzərinə keçir və əmtəə formasında mövcud olur; digər hissə istehsal edilmiş əmtəələr reallaşdırıldıqca pul forması kəsb edir və amortizasiya fondu şəklində yığılır; get-gedə azalmaqda olan üçüncü hissə isə öz fəaliyyətini davam etdirən əsas istehsal vasitələrində təmsil olunmuşdur və istehsal formasına malikdir. Əmtəədə təcəssüm olunmuş



Sxem 1

Cədvəl 1

Bazar institutlarının keyfiyyətinin orta səviyyəsi, (2000-2008-ci illər)

(İMD şkalası ilə qiymətləndirilmiş orta hesab indeksləri)

Ölkə	Rəqabət haqqında qanunların səmərəliliyi	Qanunların icrası	Rüşvətxorluq və korrupsiyanın səviyyəsi	Dövlət siyasətinin iqtisadi şoklara adaptasiyası	Biznesin aparılmasının asanlığı	Hökumətin qərarlarının icrasının səçərəliliyi	Şəffaflıq	Bürokratiyanən effektivliyi	Hüquq mühiti və tənzimlənmə	Şəxsiyyətin təhlükəsizliyi və mülkiyyət hüququnun qorunması	Bütün göstəricilər üzrə hesab indekslərinin orta səviyyəsi
Argentina	3,5	1,8	1,1	2,9	3,2	2,6	2,0	1,7	2,2	1,8	2,3
Avstraliya	7,4	8,6	8,1	6,3	7,0	6,7	6,9	4,8	7,1	8,6	7,2
Avstriya	7,3	8,8	7,5	5,3	6,2	5,9	6,2	4,3	6,5	9,4	6,7
Belçika	6,3	5,8	5,5	3,8	5,2	4,0	4,7	2,7	4,4	6,6	4,9
Braziliya	5,2	3,6	2,2	4,3	3,6	3,7	4,2	1,9	3,3	3,4	3,5
Kanada	6,8	8,4	7,4	5,4	7,0	5,6	6,1	4,5	7,0	8,6	6,7
Çili	6,7	5,8	5,8	5,3	6,9	5,1	5,6	4,2	6,1	6,4	5,8
Çin	5,0	4,7	2,0	5,3	6,0	4,9	5,1	2,4	5,6	5,6	4,7
Kolumbiya	5,3	3,1	2,4	5,0	5,2	4,8	5,4	2,5	4,4	3,1	4,1
Çexiya	5,1	4,2	2,5	3,9	4,5	3,8	3,7	2,7	4,0	5,7	4,0
Danimarka	7,5	9,0	9,1	6,0	7,3	7,4	7,2	6,0	7,2	8,9	7,6
Estoniya	5,0	5,5	4,6	4,7	7,1	4,6	5,1	4,1	5,8	5,1	5,2
Finlandiya	7,7	8,7	9,2	5,8	7,1	7,1	7,4	6,0	7,1	9,0	7,5
Fransa	6,3	6,3	5,7	3,4	4,7	4,8	5,0	2,6	4,0	6,9	5,0
Almaniya	7,2	8,1	6,4	3,2	4,9	4,5	4,9	2,8	4,6	8,4	5,5
Yunanıstan	4,9	5,7	2,6	4,1	3,9	3,6	4,2	1,8	4,0	6,9	4,2
Honkonq	5,6	7,7	7,1	5,2	8,5	5,1	5,7	5,9	7,8	8,9	6,7
Macarıstan	5,7	5,3	2,9	4,7	5,3	4,3	4,0	3,1	5,5	6,5	4,7
İslandiya	6,5	8,6	8,9	6,5	7,9	6,6	6,8	6,5	7,2	9,0	7,5
Hindistan	4,7	5,6	1,6	4,7	5,1	3,4	4,3	2,5	4,8	6,3	4,3
İndoneziya	3,7	2,3	1,2	3,4	4,0	2,7	3,1	2,1	2,8	4,0	2,9
İrlandiya	6,5	7,6	5,9	6,3	7,0	5,5	6,3	4,8	6,5	7,6	6,4
İsrail	6,2	7,3	5,2	4,6	5,7	4,1	4,8	3,3	6,1	6,6	5,4

1	2	3	4	5	6	7	8	9	10	11	12
İtaliya	4,9	3,7	3,0	3,0	3,8	3,3	3,5	1,8	3,2	3,3	3,6
Yaponiya	5,7	6,9	5,3	3,6	5,6	3,9	3,7	3,1	4,6	7,7	5,0
Cənubi Koreya	5,3	4,9	3,6	4,3	4,4	3,8	4,0	3,0	3,6	6,6	4,4
Lüksemburq	6,5	7,3	7,1	6,4	6,6	6,8	6,4	4,4	6,5	8,4	6,6
Malaziya	5,7	6,0	4,0	6,7	6,9	5,4	5,6	4,3	6,4	6,9	5,8
Meksika	4,6	2,7	1,9	3,8	3,8	3,5	4,9	2,3	3,2	2,9	3,4
Niderland	7,2	8,3	7,4	4,9	6,4	5,2	6,3	4,2	6,3	7,4	6,4
Yeni Zelandiya	6,9	8,4	8,8	4,6	6,7	5,7	6,7	4,1	6,2	7,4	6,6
Norveç	6,7	8,5	7,3	4,4	5,8	5,6	6,3	4,5	6,3	8,4	6,4
Filippin	4,0	3,3	1,2	4,0	4,0	2,7	3,1	1,9	3,7	4,1	3,2
Polşa	3,8	2,9	1,6	3,0	2,5	2,7	2,8	1,5	3,2	3,1	2,7
Portuqaliya	5,4	3,1	3,8	4,0	4,7	3,8	4,4	2,1	3,8	6,9	4,2
Rusiya	3,2	2,7	1,2	3,9	3,6	3,3	3,2	1,3	3,6	2,3	2,8
Sinqapur	6,8	8,2	8,4	8,4	8,6	8,7	7,5	6,9	8,3	9,2	8,1
Slovakiya	4,4	3,1	1,8	4,3	4,8	3,9	3,8	2,1	3,9	4,6	3,7
Sloveniya	4,0	4,2	3,7	3,7	3,4	3,7	3,8	2,0	3,6	5,8	3,8
CAR	6,4	5,8	2,7	4,8	4,8	3,3	5,6	2,6	5,4	2,4	4,4
İspaniya	5,5	4,9	5,4	4,8	5,3	4,8	5,1	3,3	4,9	6,4	5,0
İsveç	6,5	8,3	8,1	4,5	6,2	6,0	5,8	5,0	6,1	7,6	6,4
İsveçrə	6,2	8,3	7,5	4,8	7,0	6,7	6,9	5,2	6,8	8,9	6,8
Tayvan	5,9	5,2	4,4	4,5	6,7	4,0	4,4	4,2	5,1	6,9	5,1
Tailand	4,6	5,5	2,3	5,6	6,0	4,9	4,3	3,4	4,8	6,3	4,8
Türkiyə	4,9	3,9	2,6	5,0	4,8	4,9	4,2	2,4	4,0	6,2	4,3
Böyük Britaniya	6,2	7,2	6,9	4,5	5,9	4,3	4,9	2,9	5,5	6,1	5,4
ABŞ	6,5	7,1	6,4	5,6	7,3	5,6	5,9	4,1	6,0	7,9	6,2
Venesuela	3,8	1,1	0,8	1,4	1,9	1,6	1,1	0,9	1,3	0,8	1,5
Minimum	3,2	1,1	0,8	1,4	1,9	1,6	1,1	0,9	1,3	0,8	1,5
Maksimum	7,7	9,0	9,2	8,4	8,6	8,7	7,5	6,9	8,3	9,4	8,1
Orta	5,7	5,8	4,7	4,7	5,5	4,7	5,0	3,4	5,1	6,3	5,1
Rusiyanın yeri	49	46	47	38	45	44	44	48	41	47	46

Qeyd: "Biznesin aparılmasının asanlığı" göstəricisi üçün 2003-2008-ci illərdə indekslərin orta səviyyəsi götürülmüşdür.

Mənbə: İMD.

Cədvəl 2

Bazar institutlarının keyfiyyət göstəriciləri ilə ÜDM-in orta illik artım sürəti (fazilə) arasında əlaqə (2000-2008-ci illər)

(ÜMD şkalası ilə qiymətləndirilmiş indekslərin səviyyələrində fərqlər)

Ölkə	Rəqabət haqqında qanunların səmərəliliyi	Qanunların icrası	Müşvətkorluq və korrupsiyanın səviyyəsi	Dövlət siyasətinin iqtisadi şoklara adaptasiyası	Biznesin aparılmasının asanlığı	Bökumətin qərarlarının icrasının səçərəliliyi	Şəffaflıq	Bürokratiyanən effektivliyi	Hüquq mühiti və tənzimlənmə	Şəxsiyyətin təhlükəsizliyi və mülkiyyət hüququnun qorunması	ÜDM
Argentina	0,3	-1,1	-0,3	-1,8	-1,2	-2,2	-4,5	-0,5	-2,5	-1,0	4,2
Avstraliya	-0,4	0,0	-0,6	-0,8	-1,3	-0,3	-0,4	-0,1	-1,9	0,1	3,3
Avstriya	0,1	0,3	0,5	-1,4	-0,7	-0,5	0,7	1,1	-2,2	0,0	2,2
Belçika	-0,5	1,6	0,6	-2,7	-1,9	-1,7	-1,9	-0,2	-2,6	0,6	1,8
Braziliya	0,1	-0,3	-1,2	-2,0	-1,4	-1,5	-2,6	-2,0	-1,5	-0,9	3,6
Kanada	-0,3	-0,8	-1,6	-1,1	-1,4	-1,2	-1,5	-0,2	-2,3	-0,6	2,3
Çili	0,6	0,3	-1,3	-1,7	-2,1	-2,0	-1,1	-0,4	-1,1	0,0	4,3
Çin	0,5	0,7	-0,1	0,0	-1,3	-0,4	-1,7	1,3	-1,3	-0,6	10,6
Kolumbiya	1,6	1,9	0,8	0,2	0,0	1,5	0,3	1,3	1,6	3,9	4,3
Çexiya	0,7	1,3	0,5	0,1	-0,8	0,9	0,8	0,3	-0,3	2,1	4,3
Danimarka	0,8	-0,1	-0,5	0,7	-0,4	0,1	2,2	0,8	-1,3	0,3	1,3
Estoniya	0,9	0,6	1,1	-0,7	0,1	0,3	0,1	0,5	-0,4	1,8	6,4
Finlandiya	0,6	-1,0	-1,6	-2,4	-2,8	2,4	-1,7	-1,9	-3,0	-0,8	3,0
Fransa	0,3	1,1	0,7	-0,6	-1,4	-1,4	-0,6	-0,1	-3,0	0,7	1,6
Almaniya	-0,6	-0,1	1,1	-1,4	-1,3	-0,5	0,5	-0,8	-3,1	-0,1	1,3
Yunanıstan	-0,6	-0,1	-0,3	-2,2	-0,4	-1,5	-2,4	-0,4	-2,5	01	3,9
Honkonq	0,4	0,7	0,4	-0,7	-0,8	-0,6	1,2	-0,6	-0,1	0,1	4,5
Macarıstan	0,0	-0,4	-0,9	-3,0	-0,7	-3,0	-2,5	-1,4	-2,7	2,0	3,3
İslandiya	0,1	1,1	0,9	0,5	-0,2	-0,1	0,1	0,8	-0,1	1,0	4,1
Hindistan	0,1	0,7	0,3	0,1	0,2	-1,2	0,2	-0,2	-0,2	0,3	7,6
İndoneziya	1,3	1,0	0,4	-1,3	1,2	0,2	-1,4	0,6	1,4	1,2	5,2

1	2	3	4	5	6	7	8	9	10	11	12
İrlandiya	-0,3	-0,7	-0,5	-1,5	-1,4	-1,7	-1,6	-1,1	-1,4	-0,2	4,3
İsrail	0,4	-1,7	-2,2	-0,5	0,0	-0,7	-1,1	-0,6	-1,2	-1,5	3,1
İtaliya	-0,5	0,5	-0,2	-1,4	-1,2	-1,0	-1,0	-0,2	-0,9	1,1	0,8
Yaponiya	0,6	0,9	0,3	-1,9	0,0	-0,8	-0,3	-0,1	-1,3	0,2	1,2
Cənubi Koreya	-0,7	0,5	0,7	-1,8	-2,0	0,2	0,0	-0,8	-2,2	0,1	4,4
Lüksemburq	0,5	0,0	0,4	-0,5	-1,8	-1,0	-0,7	-1,2	-2,2	0,2	3,9
Malaziya	0,5	1,1	0,5	-1,6	-1,6	-1,0	-1,8	0,6	-1,1	-0,7	5,1
Meksika	-1,1	-0,5	-0,3	-2,7	-0,6	-1,7	-1,5	-1,2	-1,2	-0,2	2,4
Niderland	-0,6	-0,8	-0,4	-3,3	-3,0	-2,3	-1,5	-2,1	-3,6	-0,4	-2,0
Yeni Zelandiya	0,0	0,5	0,1	-1,6	-1,4	-0,5	0,2	-0,8	-2,6	0,1	2,7
Norveç	-0,8	0,3	-2,8	-1,0	0,2	-0,5	0,6	-0,2	-3,2	0,1	2,1
Filippin	-1,0	-0,7	-0,7	-1,0	-0,2	-0,4	-1,7	-1,0	-1,2	-0,5	4,8
Polşa	0,5	0,0	-0,5	-2,1	-0,5	-0,6	0,2	-1,7	-2,0	-0,5	4,2
Portuqaliya	-0,2	-0,6	-0,7	-1,5	0,1	-0,6	-1,6	0,5	-0,1	-0,3	-1,0
Rusiya	-0,3	0,0	-1,4	1,3	-0,5	0,6	0,2	-0,7	-3,8	0,5	6,6
Sinqapur	0,7	0,0	-0,2	0,5	-0,2	0,5	-0,7	-0,8	-0,2	-0,1	5,3
Slovakiya	-0,4	0,4	0,6	-3,5	-0,4	-0,6	-2,9	1,0	-0,4	0,8	6,2
Sloveniya	-0,9	1,2	0,2	-0,6	-0,1	0,6	0,7	0,5	-0,8	1,0	4,3
CAR	-0,3	-0,5	-0,9	-2,0	-1,5	-1,6	-2,0	-1,0	-1,6	0,2	4,2
İspaniya	-0,7	-0,6	0,1	-3,8	-1,8	-3,2	-3,2	-1,2	-2,4	-1,8	3,1
İsveç	-0,2	0,0	-0,6	0,6	-1,6	0,5	2,4	-0,5	-2,4	0,9	2,5
İsveçrə	-0,2	0,3	0,2	-0,9	-1,2	0,2	1,2	-0,6	-1,3	0,6	1,9
Tayvan	-0,4	-0,4	-0,2	-2,3	-1,9	-1,0	-2,2	0,1	-1,1	0,2	3,8
Tailand	0,3	0,7	-0,1	-1,1	-1,2	-0,5	-1,7	0,2	-1,6	0,2	4,7
Türkiyə	0,9	0,8	0,5	-0,4	0,8	-0,7	-2,6	-0,3	-0,7	0,2	4,4
Böyük Britaniya	-0,6	-0,8	-1,2	-2,4	-2,9	-2,5	-1,7	-2,0	-3,3	-1,1	-2,2
ABŞ	-0,2	-0,5	-0,9	-1,9	-3,3	-1,3	-1,1	-1,1	0,1	0,1	2,1
Venesuela	-1,2	-1,2	-0,7	-1,2	-0,7	-1,6	-1,7	-1,2	-1,7	-1,2	-4,4
Minimum	-1,2	-1,7	-2,8	-3,8	-3,3	-3,2	-4,5	-2,1	-3,8	-1,8	0,8
Maksimum	1,6	1,9	1,1	1,3	1,2	1,5	2,4	1,3	1,6	3,9	10,6
Orta	0,0	0,1	-0,2	-1,3	1,0	-0,8	-0,9	-0,4	-1,5	0,2	3,7
Rusiya	29	28	45	1	18	4	13	31	49	14	3

Qeyd: "Biznesin aparılmasının asanlığı" göstəricisi üçün 2003-2008-ci illərdə indekslərin səviyyəsində olan fərqlilik götürülmüşdür.

Mənbə: İMD.

Keçmiş tarixi məktəbin aparıcı yaradıcıları



B.Kildebrand



K.Kind



V.Roşer

keçmiş əmək öz dəyər xassələri ilə sahiblərinin tələbatını ödəyən spesifik istehlak dəyəri formasında çıxış edir. Bu halda keçmiş əmək, əmək məhsulunun ictimai forması ilə şərtlənmiş və əmtəənin real dəyərini əks etdirən, konkret əməyin məhsulu olan əmtəənin faydalı xassələrinin formal istehlak dəyəridir. Keçmiş əməyin illik ictimai məhsulda təmsil olunmuş ümumi məbləğinin ayrı-ayrı müəssisələrin ümumi məhsulunun dəyərini sadəcə cəmləmək yolu ilə uçotu təhrif olunmuş mənzərə yaradır. Çünki texnoloji baxımdan bir-biri ilə əlaqəli olan müəssisələrin məhsulları texnoloji prosesin mərhələlərinə müvafiq olaraq dəfələrlə emal edilir və bu mərhələlərin hər birində məhsuldar əmək yeni istehsal edilən əmtəənin üzərinə keçir. Sovet statistikasının tətbiq etdiyi bu cür cəmləməyə əsaslanan ümumi ictimai məhsul kateqoriyası keçmiş əməyin miqdarı barədə süni yolla artırılmış məlumatlar verirdi. Keçmiş əmək problemi iqtisad elminin tarixində ilk dəfə fiziokratlar məktəbinin banisi və rəhbəri F.Kene tərəfindən onun "İqtisadi cədvəl"ində (1758-ci il) irəliyə sürülmüş və sonradan D.Rikardo və K.Marksın əsərlərində elmi cəhətdən işlənib hazırlanmışdır.

KEÇMİŞ TARİXİ MƏKTƏB – XIX əsrin 40-cı illərində Almaniyada yaranan iqtisadi fikirlərin istiqaməti. Onun başlanğıcı 1843-cü ildə V.Roşerin "Tarixi metod nöqteyi-nəzərindən siyasi iqtisad oçerki" kitabının işıq üzü görməsindən hesablanır. Keçmiş tarixi məktəbin digər görkəmli nümayəndələri B.Kildebrand (1848-ci ildə çapdan çıxan "İndinin və gələcəyin siyasi iqtisad" kitabının müəllifi) və K.Kind (1853-cü ildə çap olunan "Tarixi metod nöqteyi-nəzərindən siyasi iqtisad" kitabının müəllifi) sayılırlar. Bu istiqamət iqtisadi hadisə və proseslərin təhlilində tarixi metoddan geniş istifadə edirdi. Tədqiqat predmetinə ayrı-ayrı ölkə və xalqların təsərrüfatının, onların iqtisadi qaydalarının, institutların, siyasətin, hüququn, mənəviyyat və psixologiyanın, etik normaların və qaydaların təkamülü daxil idi. Bununla yanaşı, keçmiş tarixi məktəbin nümayəndələrinin fikrincə, birinci yerdə təsərrüfatın inkişafının yolunu müəyyən edən ayrı-ayrı ölkə və xalqların milli xüsusiyyətləri dururdu.

Keçmiş tarixi məktəb milli fərqləri mütləqləşdirirdi. O, nəinki iqtisadi inkişafın ümumi qanunauyğunluqlarının mövcudluğunu qəbul etmir, hətta, iqtisadi qanun anlayışının özünü də düzgün saymırdı.

Keçmiş tarixi məktəbin təkamül yanaşması tələb edirdi ki, inqilablar və onların törətdiyi fəlakətlər iqtisadi transformasiyanın zəruri şərtləridir. Onun tərəfdarları iqtisadiyyatda tədricən və yavaş-yavaş baş verən dəyişikliklər uğrunda çıxış edirlər. Keçmiş tarixi məktəb müxtəlif ölkələrin iqtisadi tarixinin öyrənilməsinin müqayisəli metodunun əsasını qoydu. Bu məktəbin ideyaları öz gələcək inkişafını müasir Qərb fikrinin bir çox institusional-sosioloji istiqamət

konsepsiyalarından (U.Rostounun iqtisadi artımın mərhələsi nəzəriyyəsi və s.) tapdı.

KEMBRİC PUL NƏZƏRİYYƏSİ və ya "kassa qalıqları nəzəriyyəsi" – neoklassik məktəbin (Kembric yanaşmasının) nümayəndələri tərəfindən modifikasiya edilmiş Fişer tənliyi. Burada mübadilə tənliyindən başlıca fərq ondan ibarətdir ki, əsas diqqət tədiyələrə deyil, iqtisadi agentlərdə pulun yığım funksiyasına yönəldilmişdir. Təsərrüfatda mövcud olan maliyyə vəsaitləri istehlak edilən və yığılan hissələrə bölünür. Kassa qalığı pul fondudur. O, investisiya üçün nəzərdə tutulmuşdur. Kembric tənliyi ən ümumi şəkildə aşağıdakı kimi ifadə edilir:

$$M = k \times P \times Y,$$

Burada: M – pulun miqdarı, Y – fiziki ifadədə istehsal olunmuş məhsulun ümumi həcmi, P – mal və xidmətlərin ümumi qiymət səviyyəsi, k – nominal gəlirin fərdlər tərəfindən pul şəklində saxlamağa üstünlük verilən hissəsini göstərən əmsaldır. Əgər cəmiyyətin üzvləri illik gəlirin yalnız onda bir hissəsini nağd pul şəklində saxlamağa üstünlük verirlərsə, onda $k=0,1$. Bu halda milli gəlirin reallaşmasını təmin etmək üçün pul il ərzində 10 dəfə dövr etməlidir ($V=10$). Buradan belə nəticə çıxır ki, k əmsalı V kəmiyyətinin tərsidir. Pulun tədavül sürəti pul qalıqları şəklində saxlanılan pulun miqdarından, yəni əqdlər bağlanması üçün nəzərdə tutulan pul ehtiyatından asılıdır. Pul ehtiyatı azaldıqda hər hansı şərtlərdən asılı olmayaraq, pulun tədavül sürəti artır. Kembric məktəbi bu məsələnin psixoloji cəhətinə, yəni yığıma meyil amilinə lazımınca diqqət yetirir.

KENE FRANSUA (1694-1774) – fransız iqtisadçısı, fiziokratlar məktəbinin banisi və rəhbəri, D.Didro "Ensiklopediya"sının müəlliflərindən biri.



Ümumiləşdirilmiş şəkildə Kenenin iqtisadi proqramı onun "Əkinçilik dövlətinin iqtisadi siyasətinin ümumi prinsipləri" (1758) adlı əsərində verilmişdir. Kene kənd təsərrüfatını vahid məhsuldar qüvvə elan edərək, əkinçiliyi özünün tədqiqat obyektinə çevirmişdi. Mübadilənin ekvivalentliyi haqqında fiziokratik müddəasını əsas götürərək, Kene merkantilistlərin sərvətin mübadilədən doğduğu barədə fikirlərini tənqid etmişdir. Onun fikrincə, mübadilə həqiqətən heç nə istehsal etmir. "Təbii hüquq" (1765) əsərində Kene "təbii qayda" konsepsiyasını ifadə etmişdir ki, bu da ictimai inkişafın qanunauyğunluqları və obyektivlik ideyasını irəli sürmüş və burada cəmiyyəti canlı ictimai mexanizm kimi, iqtisadi həyatı isə daxili qanunauyğunluqlara malik olan təbii proses kimi nəzərdən keçirmişdir. Kene siyasi iqtisad tarixində istehsal və satışın daim təkrar olunması kimi "təkrar istehsal" anlayışını ilk dəfə tətbiq etmiş və özü də ondan istifadə etmişdir. O, təkrar istehsal prosesinin təsvir edilməsini "İqtisadi cədvəl"də (1758) və ona olan şərhlərdə (1766) vermişdir. Burada pul axınları ilə ifadə olunan gəlir-xərc cədvəli şəklində ziqzaqabənzər diaqram təsvir olunmuşdur. Təəssüf ki, bu diaqram sonrakı nəşrlərdə düzəliş edilmiş formada işıq üzü görmüşdür, ilk versiyası isə az tirajla buraxılmış və itirilmişdir. Bu, sonralar ilk versiyanın əsl mənasını aşkar etmək üçün həmin sahədə tədqiqatların aparılmasına təkan vermişdir. Beləliklə, Kenenin "İqtisadi cədvəl"i iqtisadi fikir tarixinə həm də bütün ölkənin iqtisadi inkişafını təmin edən əsas xalq təsərrüfatı proporsiyalarını aşkarlayan ilk makroiqtisadi model kimi daxil olmuşdur.

KEPTİV (ing. *captive*) – korporativ sektorun sığorta maraqlarına xidmət üzrə ixtisaslaşan səhmdar sığorta şirkəti. Keptiv törəmə müəssisə kimi də fəaliyyət göstərə bilər. Keptiv təsisçilərin, eləcə də çoxprofilli konsernlərin və ya iri maliyyə-sənaye qruplarının strukturuna daxil olan müstəqil təsərrüfat subyektlərinin bütünlüklə və ya üstün olaraq korporativ sığorta maraqlarına xidmət edən səhmdar sığorta şirkətidir.

"KEPTİV" FONDU – sənaye və ticarət inhisarlarının, bankların törəmə şirkətlərinə qoyulan "risk" kapitalı.

KEPTİV SIĞORTA ŞİRKƏTİ – iri sənaye və ya kommersiya konserninə məxsus obyektlərin sığortalanması üçün bu konsern tərəfindən təsis edilən sığorta şirkəti.

KEPTİV ŞİRKƏTLƏR – ana şirkətin və onun filiallarının sığorta biznesini aparmaq üçün sənaye və ticarət formaları tərəfindən yaratdığı sığorta şirkətləri.

KERİ HENRİ (1793-1879) – Henri Keri 1793-cü ildə Filadelfiyada Metyu Kerinin ailəsində anadan olmuşdur.



1850-ci illərin sonlarında Ogüst Kontun və Herbert Spensin artan təsirlərinə reaksiya verərək o, iqtisadi məsələlərin tədqiqindən sosial problemlərə keçmişdir. "İctimai elmin prinsipləri" (1858-1860) və "Qanunların vəhdəti: etik, psixoloji, ictimai və fiziki elmlərin nisbəti" (1872) kitablarında üzərinə çox ağır yük götürən Keri burada ictimai elmin amerikalı nümayəndələrinin xüsusi iqtisad elminin sonunun gəlməsi haqqında tipik əminliyini ifadə etmişdir.

XIX əsrin ikinci yarısında çoxsaylı Amerika iqtisadçıları arasında, xüsusilə də Amerikanın hüdudları xaricində ən məşhuru Henri Keri idi. Maltus və Rikardo nəzəriyyələrinə mənfi münasibət bəsləyən Keri Amerikanın artıq torpaq resursları və əməyin varlığı kontekstində klassik nəzəriyyəyə yenidən baxılması iddiaları, bir tərəfdən sahiblərinin maraqları və digər tərəfdən, kapitalla əmək münasibətlərinin, sonda harmoniyada üst-üstə düşməsinə optimistik inamı və proteksionizmin dəstəklənməsi ilə seçilirdi. Öz əsas işi olan "Siyasi iqtisadın prinsipləri" (1837-1840) kitabında Marksa böyük təsir göstərən istehsal əsasında əmək-dəyər nəzəriyyəsini kəşf etmişdir (dəyər burada nəinki keçmiş, həm də gələcək xərclərlə müəyyənləşdirilir). "Keçmiş, indiki və gələcək zaman" kitabında (1848) o, renta nəzəriyyəsini açıqlamış və bu fikirlər Rikardonun izahı ilə ziddiyyət təşkil etmişdir. Yəni torpağa qoyulan kapitalın qayıtması azalan yox, artan xarakter daşıyır. Lakin Keri onu başa düşə bilmirdi ki, bu, "torpağın intensiv istifadəsinin son həddinə" deyil, yalnız "torpağın ekstensiv son həddinə" tətbiq oluna bilər. Onun fikirləri bir çox klassik iqtisadçıları narahat etmiş, hətta Con Stüart Mill "Siyasi iqtisadın prinsipləri" əsərində (1848) onu inkar etmişdir.

KEYFİYYƏT – istehsalçıların məhsulun (xidmətin) yararlılığını müəyyən etmələri üçün təyinatı üzrə istifadə etdikləri məhsulun (xidmətin) əlamətlərindən biri. Keyfiyyət texniki-iqtisadi xassələri (funksional yararlılıq, dizayn, istehsalın texnoloji cəhəti, təmirə yararlılıq, istehsal və istismarın dəyəri, təhlükəsizlik, etibarlılıq və s.) xarakterizə edən göstəricilərlə müəyyən edilir. Keyfiyyət həyat tsikli mərhələlərindən asılı olaraq müəyyən edilir: layihələndirmə zamanı qurğunun (konstruksiyanın) keyfiyyəti müəyyən edilir; hazırlanma zamanı texnologiyanın imkanlarına uyğunluq yoxlanılır; istismar zamanı funksional keyfiyyət müəyyən edilir. Keyfiyyəti müəyyən edən xassələr mütləq, nisbi və ya xüsusi çəki formasında olur və subyektiv, obyektiv və ya ekspert yolu ilə (məsələn, kvalimetriya ölçüləri ilə) ölçülür.


Keyfiyyət texniki və təşkilati üsullarla təmin olunur. Texniki üsullar: xammal, material, yarımfabrikat, dəst məmulatlarına nəzarət (giriş nəzarəti); əməliyyat nəzarəti; hazır məhsula nəzarət (çıxış nəzarəti); avadanlığa, ləvazimata, alətlərə nəzarət; işçilərin ixtisasına nəzarət. Texniki nəzarət tam (bütünlüklə) və seçmə formasında ola bilər. Nəzarətin təşkilati üsulları keyfiyyətin idarə edilməsinin tətbiq edilən sistemi ilə təmin olunur. Keyfiyyət göstəriciləri, onların yoxlanması və razılaşdırılmış tələblərinə uyğun gəlməsinin təsdiq edilməsi qaydası satıcı (məhsulu hazırlayan) və alıcı (məhsulu istifadə edən) arasında bağlanmış alqı-satqı müqaviləsində əks olunur. Müqavilə şərtlərinə görə keyfiyyət təsvir, nümunə və s. üzrə müəyyən oluna bilər. Keyfiyyət istehsalçı və ixracatçı tərəfindən verilən keyfiyyət sertifikatı ilə təsdiq olunur. Müəyyən idxal olunan məhsullara dövlət müfəttişliyi və ya digər səlahiyyətli orqanlar tərəfindən keyfiyyət sertifikatı verilir.

Keyfiyyət – BMT-nin standartlar üzrə beynəlxalq təşkilatının İSO 8402-1986 sənədində keyfiyyət: "Məhsul və xidmətlərin verilmiş və ya nəzərdə tutulmuş ehtiyacları (tələbi) ödəmək qabiliyyətini təsdiq edən xassə və xüsusiyyətlərin məcmusu" kimi səciyyələndirilir. Bu anlayışı "Keyfiyyətin ümumi idarə edilməsi" sərlövhəsi çərçivəsində təhlil etmək olar.

Statistik məlumatların keyfiyyəti əsasən aşağıda sadalanan bir sıra meyarlar üzrə müəyyənləşdirilir:

– istifadəçilərin tələblərinə uyğunluq: əgər istifadəçilərin ehtiyaclarına uyğun gəlirsə, sorğu

Kəmiyyət və keyfiyyət




Sxem 1

münasibdir. İstifadəçilərin və onların sorğularının eyniləşdirilməsi vacib şərt hesab edilir;
– dəqiqlik (doğruluq): verilmiş statistik məlumatlarla bağlı yekun səhvlərin bir sıra qiymətləndirilməsindən ibarətdir və bu, düzgün (naməlum) və qiymətləndirilən kəmiyyətlər arasındakı fərq kimi tapılır;
– nəticələrin vaxtında əldə olunması: əksər istifadəçilərin hesab etdikləri kimi, statistik müayinələrin nəticələrinin maraqlı olması üçün onların əldə edilməsi mümkün qədər tez olmalıdır;
– müxtəlif mənbələrdən alınan statistik məlumatların uyğunluğu: müxtəlif mənbələrdən alınan statistik məlumatlar, əgər onlar eyni bir "hadisəyə" aiddirlərsə, uyğun olmalıdır (yəni eyni nəticəni verməlidir);
– nəticələrin yayılması: statistik məlumatların yayılmasının düzgün təşkili statistikanın qiymətləndirilməsində çox vacib sayılır, çünki bu məlumatlar yalnız istifadəçilərə çatdırıldığı halda faydalı olur;
– xərclərin miqdarı: məlumatların dəqiqliyi ilə onların vaxtında əldə olunması, yayılmasının təşkili və büdcəsi arasında cidi qarşılıqlı əlaqə olmasını nəzərə alaraq, bunları həmişə statistik materialların qiymətləndirilməsi prosesində yadda saxlamaq vacibdir;
– müqayisəlilik: əsas məsələ ondan ibarətdir ki, milli konsepsiyalar arasında fərq ola bilər və bu da öz növbəsində Avropa səviyyəsində qəbul edilmiş nəzəri müəyyənləşdirmədən (tərifdən) fərqlənə bilər. Avropa Statistika Bürosunun yanaşmasına görə, bu, məlumatların birləşdirilməsində və ya müqayisələrin aparılmasında bir sıra səhvlərə gətirib çıxara bilər.

Həyat keyfiyyəti – 1) əhalinin həyat səviyyəsi və şəraitinin xarakteristikası. Müəyyən ərazinin, yaxud dövlətin əhalisinin həyat keyfiyyəti bir sıra iqtisadi, sosial, demoqrafik, ekoloji, coğrafi, siyasi və mənəvi amillərlə müəyyən edilir. Obyektiv amillər sırasında qida məhsulla-

Məhsulun keyfiyyətinin göstəriciləri qrupu



Sxem 1

rının istehsalı, mənzil şəraiti, məşğulluq, xidmət sahəsinin inkişafı, təhsil, sosial təminat səviyyəsi və s.; subyektiv amillər sırasında iş və həyat şəraiti, fərdin sosial statusu, ailənin vəziyyəti və s. göstərilə bilər.

Ölkələrin çoxu BMT ekspertlərinin hazırladığı (1961) əhalinin keyfiyyət və həyat səviyyəsi göstəricilərinin təsnifatından istifadə edir. Belə ki, BMT-nin Avropa Komissiyasının təsnifatı həyat keyfiyyətini 8 qrup göstəricilərinə ayırır. Əgər 60-cı illərin sonu 70-ci illərin əvvəlində işlənmiş həyat keyfiyyətinin İsveç modelində birinci yerdə əmək və onun şərtləri, insanın iqtisadi və siyasi imkanları durursa, hazırda bütün ölkələrə (o cümlədən inkişafda olan) yayılan BMT-nin təsnifatında ərzaq (qida) məhsullarının istehlakı, əhalinin sağlamlıq vəziyyəti, təhsil səviyyəsi durur. Ölkələrarası müqayisələri aparmağa imkan verən həyat səviyyəsinin və həyat keyfiyyətinin vacib göstəricilərinə körpə ölümü əmsalı, həmçinin əhalinin qida rasionunun strukturu aiddir. Həyat keyfiyyəti xarakteristikasında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən işlənib hazırlanmış sosial göstəricilər sisteminin böyük əhəmiyyəti var və o, həyat fəaliyyətinin 8 əsas aspektini: sağlamlıq və əmək həyatının keyfiyyətini, boş vaxt və istirahəti, istehlak, əmtəə və xidmətlər bazarının, ətraf mühitin vəziyyətini, şəxsi təhlükəsizliyi, sosial imkanları və sosial fəallığı əhatə edir.

Həyat keyfiyyətinin yüksəlməsi uzun müddət istifadədə olan malların (məsələn, məişət texnikası) istehlakının artımında, bunun hesabına vaxtın və əl əməyinə məsrəflərin qənaətində, boş vaxtın genişlənməsində, xidmətlərə, istirahətə, mədəni istirahətə, turizmə və səyahətlərə xərclərin artımında əksini tapır. Həyat keyfiyyəti əhalinin məlumatlanma səviyyəsindən və informasiyanın əlyetərliyindən, vətəndaş və siyasi azadlıq-

lar səviyyəsindən və s. asılıdır; 2) şəxsiyyətin mövcudluğu, inkişaf səviyyəsi və insanların tələblərinin və maraqlarının bütün kompleksinin ödənilməsi dərəcəsi üçün, bütün mövcud olanları birləşdirən mürəkkəb sintetik kateqoriya. Bu kateqoriyanın komponentlərinə mal və xidmətlər, gəlirlər, yığımlar, mənəvi tələblər, şəxsi təhlükəsizlik və sosial rahatlığın digər atributları, həmçinin ekoloji vəziyyət aid edilir.

KEYFİYYƏT QRUPU – buraxılan məhsulun keyfiyyətinin yüksəldilməsi və istehsalın səmərəliliyi üzrə əməli məsələlərin aşkarlanması, öyrənilməsi və həll olunması məqsədilə, müəssisə bölmələrində fəhlə, mühəndis-texniki işçilərin və qulluqçuların könüllülük əsasında təşkil olunan ictimai formalaşmasıdır.

Keyfiyyət qrupunun vəzifələri. Bu qrup istehsal olunan məhsulun etibarlılıq və uzunömürlülük səviyyəsinin qaldırılması, daha keyfiyyətli məmulatların istehsalının payının artırılması, zay məhsulun kəmiyyətinin azaldılması, əmək məhsuldarlığı göstəricilərinin artımı, istehsalın ahəngliyinin yüksəldilməsi, resursların səmərəli və qənaətcil məsrəfi üçün nəzərdə tutulmuşdur.

Keyfiyyət qrupu vəzifələrinə görə bir çox inkişaf etmiş ölkələrdə geniş yayılmış keyfiyyət dərnəklərinə yaxındır.

KEYFİYYƏT SERTİFİKATI – göndərilən əmtəənin (malın) keyfiyyətini təsdiqləyən və müşayiət edən sənəd. Müqavilədə nəzərdə tutulan keyfiyyət, texniki xarakteristika göstəricilərini ehtiva edir. Adətən, istehsalçı müəssisə və ya ixracatçı tərəfindən verilir. Keyfiyyət sertifikatı bir neçə nüsxədə tərtib edilir ki, bunlardan biri adətən yüklə gedir, digəri isə ödənilmək üçün hesabla və digər sənədlərlə birlikdə təqdim edilir.


KEYFİYYƏT SİSTEMİ – məhsulun keyfiyyətini ümumiyyətlə idarə etmək üçün zəruri olan təşkilati strukturların, metodikaların, proseslərin və resursların məcmusu. Bu sistemin qüvvəsi məhsulun həyat tsiklinin bütün mərhələlərinə şamil edilir və "keyfiyyət ilgəyi" yaradır. "*Keyfiyyət ilgəyi*" tələbatın müəyyən edilməsindən başlamış onun təmin edilməsinin qiymətləndirilməsinə qədər müxtəlif mərhələlərdə keyfiyyətə təsir göstərən müxtəlif fəaliyyət növlərinin qarşılıqlı asılılıq modelidir. Keyfiyyət sistemi işlənib hazırlanarkən konkret müəssisənin fəaliyyəti nəzərə alınır, lakin hər bir halda bu fəaliyyət keyfiyyət ilgəyi modelinin bütün mərhələlərini əhatə etməlidir: marketinq, bazarın axtarışı və öyrənilməsi; məhsula təqdim edilən texniki tələblərin layihələşdirilməsi və işlənib hazırlanması; maddi-texniki təchizat; istehsal proseslərinin hazırlanması və işlənməsi; nəzarət və sınaqlar; istehsal; qablaşdırma və saxlama; satış və məhsulun paylanması; quraşdırma və istismar; xidmətə texniki kömək; məmulat istifadə edildikdən sonra onun utilləşdirilməsi. Bu keyfiyyət sistemi keyfiyyət ilgəyi modelinin bütün hissələrində keyfiyyətin idarə olunmasını, son məhsulun keyfiyyətinin təmin edilməsində bütün işçilərin iştirakını, keyfiyyətin artırılması, fəaliyyət və məsrəflərin azaldılması ilə əlaqədar fəaliyyət arasında qarşılıqlı əlaqəni, qüsurların aşkarlanmasını və onları doğuran səbəblərin aradan qaldırılmasını təmin etməlidir.

KEYFİYYƏTİN DƏYİŞKƏNLİYİ – xidmətlərin səciyyəvi xüsusiyyəti. Bu əsasən, onların qeyri-sabit olmasından ibarətdir. Məsələn, əgər mehmanxanada otaq boşdursa, bu, artıq ödənilməsi mümkün olmayan mənfəət itkisidir.

KEYFİYYƏTLİ ARAŞDIRMA – mallara, seçim meyarlarına, davranış modellərinə və respondentlərin gözləmələrinə münasibətin aşkar edilməsi məqsədilə istehlakçılarla qrup şəklində aparılan müzakirələr və verilən ətraflı müsahibələr.

KEYFİYYƏTSİZ ƏMTƏƏ – digər amillər sabit dəyişməz qalmaq şərti ilə gəlirin artması nəticəsində istehlakı azalan əmtəələr.

KEYNS CON MEYNARD (1883-1946) – ingilis iqtisadçısı, dövlət xadimi və XX əsrin ən məşhur iqtisadi cərəyanının banisi. Kembric kollecini A.Marşalın mühazirələrini dinləyərək bitirib (1902-1906). 1920-ci ildə Kembric Universitetinin professoru olub. 1909-cu ildə "İndeks metodları" adlı ilk elmi işinə görə A.Smit adına mükafat alıb. 1930-cu ildə onun "Pul haqqında traktat", 1936-cı ildə isə "Məşğulluğun, faizin və pulun ümumi nəzə-



riyyəsi" kitabları nəşr olunub. 1939-1945-ci illərdə Keyns maliyyə problemlərinin həllinə xüsusi fikir verib. 1940-cı ildə Britaniya xəzinədarlığının müşaviri, 1942-ci ildə ingilis banklarından birinin direktoru təyin olunub, 1944-cü ildə Britaniyanı Bretton-Vuds valyuta konfransında təmsil edib.

Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı "Keyns Planı" əsasında fəaliyyət göstərirlər. Bu plan da "Pul haqqında traktat" əsərində öz əksini tapmış ideyalara əsaslanır. Keyns klassik nəzəriyyəni tənqid etmiş və göstərmişdir ki, dövlətin müdaxiləsi olmadan iqtisadiyyata böhranlar xasdır. Keynsin nəzəriyyəsinin ABŞ, Böyük Britaniya və digər Qərb ölkələrində çoxlu tərəfdarları (U.Boveric, S.Harris, A.Hansen, R.Harrod, C.Robinson, L.Kleyn, A.Lerner, E.Domar və başqaları) vardır.

KEYNSÇİLİK – bazar iqtisadiyyatının dövlət tənzimlənməsinin zəruriliyini və əhəmiyyətini qəbul edən və əsaslandıran makroiqtisadi nəzəriyyə. Con Meynard Keynsin (Böyük Britaniya) adı ilə adlandırılmışdır. Meydana gəlməsi Böyük depressiya dövrünə (1929-1933-cü illərə) aiddir. Dünya kapitalist sisteminin bu ən böyük böhranı onun səbəbləri və iqtisadi inkişafın sabitliyi yolları haqqında suallara neoklassik cərəyanın (istiqamətin) cavab verməyə qadir olmadığını aşkar etdi. Keynsçiliyin nəzəri müddəaları Keynsin əsas elmi əsəri olan "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi"ndə (1936) verilmişdir. Onun əsasını böhran hadisələrinin aradan qaldırılması, maksimum məşğulluğa nail olunması, ictimai istehsalın artım sürətinin yüksəlməsi məqsədilə kapitalist iqtisadiyyatının inkişafına dövlətin müdaxiləsi haqqında ideya təşkil edir. Keyns hesab edirdi ki, bu ideyanın praktiki cəhətdən reallaşmasına milli gəlir, məcmu təklif, məşğulluq, yığımlar, investisiyalar kimi aqreqat (məcmu) kəmiyyətlərin qarşılıqlı asılılığının təhlilini tələb edən makroiqtisadi metodların tətbiq edilməsi vasitəsi ilə nail olmaq olar. İqtisadi artıma təsir göstərən və iqtisadiyyatın durğunluqdan çıxarılmasını təmin etməyə qadir olan üç əsas amil, Keynsin fikrincə, bunlardır: əhalinin istehlakı, müəssisələrin investisiyaları və dövlət xərcləri ilə müəyyən olunan məcmu tələb. Buna görə də keynsçilik iqtisadi siyasəti çox zaman tələbin idarə edilməsi konsepsiyası adlandırılır.

Keynsçilərin fikrincə, iqtisadiyyat əksər hallarda qeyri-müvazinət vəziyyətində olur, bazar öz problemlərini tam həll etmək iqtidarında deyildir. İqtisadiyyatın inkişafı ilə bağlı bir çox məsələləri dövlət üzərinə götürməlidir. Ölkənin Mərkəzi Bankı pul-kredit siyasətinin hazırlanması və həyata keçirilməsində fəallıq göstərməlidir. İqtisadiyyat üçün məcburi işsizlik obyektiv zərurətdir. Bazarlar bir-biri ilə əlaqədardır. Onların hər hansı birində dəyişiklik onunla əlaqədə olan digər bazarlara da təsir edir.

Keyns R.F.Kandan multiplikativ effekt ideyasını götürmüş və onun əsasında multiplikator yığımı nəzəriyyəsini inkişaf etdirmişdir. Yığım multiplikatoru – gəlirin dəyişməsinin investisiyaların dəyişməsindən asılı olduğunu xarakterizə edən əmsaldır. Keynsə görə, istehsalın bir sferasındakı məsrəflərin, digər sferadakı istehsalın və məşğulluğun genişlənməsinə həvəsləndirici təsiri var. Bu ümumi milli məhsul (ÜMM) ölçüsündə artan effekt multiplikasiya effekti adlanır. Multiplikator (M) say əmsalıdır ki, bu da investisiyaların (i) ölçüsünün artması zamanı ÜMM-in artım həcmini göstərir:

$$\Delta YMM = M \times \Delta i$$

Keyns həmçinin sübut etdi ki, multiplikator yığıma son həddi meylinə (PPS) əks olan kəmiyyətdir:

$$M = 1/PPS,$$

deməli,

$$\Delta YMM = 1/PPS \times \Delta i$$

Yığımların və investisiyaların dinamikasının təhlili, konkret vasitələri göstərir ki, bunların vasitəsi ilə məcmu tələbə, ÜMM-in həcminə və əhalinin məşğulluğuna təsir göstərmək olar.

Keynsçi multiplikator nəzəriyyəsi göstərir ki, hökumət (dövlət sifarişçiləri), firmalar və istehlakçılar tərəfindən həyata keçirilən iri xərclər səmərəliliyə və milli istehsalın artımına müsbət təsir göstərir. Dövlət pul-kredit, büdcə və vergi siyasəti vasitəsi ilə məcmu tələbi tənzimləməlidir. Baxmayaraq ki, bu nəzəriyyə müxtəlif məktəblər tərəfindən tənqidə məruz qalmışdır, o, səmərəli tələb konsepsiyasının bazar iqtisadiyyatının zəruriliyinin və tənzimlənməsi imkanının əsaslandırılmasında müsbət rol oynayır (bax: cədvəl 1).

Cədvəl 1

Müxtəlif iqtisadi məktəblərin iqtisadi nəzəriyyənin predmeti, metodologiyası və əsas nəticələri barədə mövqeləri

Əsas iqtisadi məktəblər	Predmet	Fəlsəfi-metodoloji		Əsas (nəzəri və praktik) nəticələr
		yanaşma	əsas metodları	
1	2	3	4	5
1. Merkantilizm (siyasi iqtisad)	Milli sərvət	Obyektiv	Tədavülün üstünlüyü. Kauzal metod + empirika (təcrübə)	1. Sərvətin mənbəyi tədavüldür. 2. Dövlətin iqtisadiyyatda olduqca mühüm rolu. Onun iqtisadi siyasətinə təsirin zəruriliyi.
2. Fiziokratlar (siyasi iqtisad)	Milli sərvət		Kənd təsərrüfatı istehsalının üstünlüyü. Kauzal metod. Riyazi təhlil metodlarının ilk tətbiqi cəhdləri (F.Kene)	1. Sərvətin mənbəyi kənd təsərrüfatıdır (təsərrüfat fəaliyyətinin üstün sahəsi). 2. Dövlətin bazar proseslərinin təbii gedişinə müdaxiləsinin məhdudlaşdırılmasının zəruriliyi.
3. Klassik (əsl) siyasi iqtisad	Milli sərvət		Maddi istehsalın üstünlüyü. Kauzal metod + mücərrədlik	1. Sərvətin mənbəyi maddi istehsaldır ki, bunun da əsasını sənaye (ikinci təsərrüfat fəaliyyəti sahəsi) təşkil edir. 2. Bazar azad, əbədi olmalıdır, dövlət inkişafın təbii gedişinə qarışmamalıdır. 3. Siyasi iqtisadın pozitiv və normativ vəzifələrinin fərqləndirilməsi.

4. Marksist (proletar) siyasi iqtisad	İstehsal münasibətləri, obyektiv iqtisadi qanunlar		İstehsalın üstünlüyü. Cəmiyyətin sinfi quruluşunu, onun ziddiyyətlərini müəyyənləşdirən istehsalın ictimai tərəfinə əsas diqqət. Kauzal metod + mücərrədlik + dialektika	1. Sərvətin mənbəyi izafi dəyərdir. 2. Bazar iqtisadiyyatının (kapitalizmin) tarixi keçici xarakteri. 3. Proletar inqilabının labüdlüyü.
5. Tarixi məktəb	"Millətin istehsal qüvvələri" (F.List); bura yalnız iqtisadiyyat sahəsi deyil, həm də siyasi sistem, təhsil, elm, incəsənət, din və s. daxildir.		Bütövlükdə milli təsərrüfatın üstünlüyü. Kauzal metoda, mücərrədçiliyə qarşı, ilk dəfə funksional metodu tətbiq etmişlər.	1. İnqilabi inkişaf formasındansa təkamüllü inkişaf formasına üstünlük verilməsi. 2. Maddi və qeyri-maddi istehsalın qarşılıqlı əlaqəsini nəzərə almamaq olmaz. 3. Hər bir ölkənin milli məhsuldar qüvvələri təkrarolunmaz olduğuna görə hər millətin özünəməxsus iqtisadiyyatı var və onu öyrənən xüsusi iqtisadi elm olmalıdır.
6. Neoklassik məktəb	İnsanın, firmanın, bir qrup adamın, birliyin (yəni təsərrüfat fəaliyyəti subyektlərinin) davranışı	Subyektiv	İqtisadiyyat subyektləri istehlakının üstünlüyü. Metodik inqilab olan marjinalizmin tətbiqi. Riyazi alətlərdən geniş istifadə olunması	1. Get-gedə daha çox tətbiqi xarakter alan yeni elmi paradiqmanın - mikroiqtisadiyyatın yaradılması. 2. Firmanın iqtisadi siyasətinin və istehlakçının rasional davranışının əsaslandırılması və işlənilməsinin zəruriliyi.

7. Keynsçilik	Milli iqtisadiyyatın fəaliyyət mexanizmi		Makroiqtisadiyyatın üstünlüyü. İqtisadi-riyazi metodlardan geniş istifadə, modelləşdirmə.	1. Yeni elmi paradiqmanın – makroiqtisadiyyatın yaradılması. 2. Dövlətin tənzimləyici rolunun zəruriliyi. 3. Əsas tənzimləmə mexanizmi əhalinin məcmu tələbatının və özəl sahibkarlığın birgə həvəsləndirilməsi.
8. Neoklassik sintez (müasir ekonomiks). A.Marşall və P.Samuelsonun sözlərinə görə "və ya siyasi iqtisad"	Milli sərvət və məhdud resurslar şəraitində insanın davranışının motivləri		Əmək-dəyər və faydalılıq nəzəriyyəsinin, mikro və makroiqtisadiyyatın sintezi. Marjinal tədqiqat metodları.	İqtisadiyyatın subyektlərinin (ev təsərrüfatının, firmanın, dövlətin, bankların və s.) davranışlarının iqtisadi cəhətdən əsaslandırılmasının zəruriliyi. Öz qiymətliliyini təcrübədə təsdiqləmiş klassik siyasi iqtisadın, neoklassikanın, keynsianlığın tövsiyələrindən istifadə edilməsi imkanı.
9. İnstitusionalizm (neoinstitusionalizm və ya yeni iqtisadiyyat)	Cəmiyyətdə institusional və texniki-iqtisadi dəyişikliklər, bununla bağlı insanın davranışı		İqtisadiyyatın, iqtisadi tarixin, psixologiyanın, sosiologiyanın və digər elmlərin sintezi	1. Ölkələrin iqtisadi inkişafında onların institusional quruluşlarının xüsusiyyətinin nəzərə alınmasının zəruriliyi. 2. İnsanın əsas yer tutduğu qeyri-informasiya cəmiyyətinə təkamül yolu ilə keçid. Yeni tarix elminin - kleometriyanın yaradılması.
10. İqtisadi nəzəriyyə (XX əsrin sonu – XXI əsrin əvvəli)	-		-	-

KEYNSİN "ƏSAS PSİXOLOJİ" QANUNU – XX əsrin ən mühüm cərəyanlarından biri – keynsçiliyin banisi olan Con Meynard Keyns (1883-1946) tərəfindən formalaşmış qanundur ki, buna uyğun olaraq gəlirlərin artması ilə əhalinin istehlak meyli azalır, yığıma meyli isə artır. "Əsas psixoloji" qanun o real şəraiti əks etdirir ki, istehlaka gedən gəlirin artması zamanı onun böyük bir hissəsi uzunmüddətli istifadə üçün bahalı əşyaların alınmasına sərf olunur və deməli, bir müddət yığılmalıdır. Bu qanundan belə nəticə çıxır ki, gəlirin artımı zamanı şəxsi istehlakla təmin olunan səmərəli tələbin payı həmişə azalır, buna görə də yığımın genişlənən həcmini investisiyalara olan artan tələb həmişə udmalıdır.

KƏLBİYEV YAŞAR ATAKİŞİ OĞLU (1964) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1999-cu ildə "İnvestisiya layihələrinin təhlili metodlarının təkmilləşdirilməsi (neft və qaz sənayesi timsalında)" mövzusunda namizədlik, 2009-cu ildə isə "Fiskal tənzimlənmənin makroiqtisadi problemləri və onların həlli yolları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 2 dərslik, 2 dərs vəsaiti, 2 monoqrafiya və 60-dan artıq elmi məqalənin müəllifidir. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin "Vergi və vergiqoyma" kafedrasının müdiridir.

KƏNAR İDARƏETMƏ – borclunun tədiyə qabiliyyətini bərpa etmək məqsədilə ona tətbiq edilən müflisləşmə proseduru. Bu halda borclunun idarə edilməsi səlahiyyətləri kənar idarəçiyə verilir.

Bəzi ölkələrdə (məsələn, RF-də) kənar idarəetmə Arbitraj Məhkəməsi tərəfindən çox vaxt kreditorların yığıncağının qərarı əsasında ən çoxu 12 ay müddətinə tətbiq edilir. Bu müddət ən çoxu 6 ay uzadıla bilər. Kənar idarəetmə tətbiq edildiyi andan borclunun rəhbəri vəzifədən kənarlaşdırılır, borclunun işlərinin idarə edilməsi isə kənar idarəçiyə həvalə edilir. Bundan əlavə, borclunun pul öhdəlikləri və icra müddəti kənar idarəetmə tətbiq edilənə qədər başlamış məcburi tədiyələri üzrə kreditorların tələblərinin təmin olunmasına moratorium tətbiq edilir. Kreditorların tələblərinin təmin olunmasına moratorium əmək haqqı, müəllif müqavilələri üzrə mükafatlar, alimentlər ödənilməsi üzrə borcun tutulması barədə, eləcə də həyata və sağlamlığa vurulmuş zərərin ödənilməsi barədə tələblərə şamil edilmir. Kreditorlar kənar idarəetmə müddətində istənilən vaxt borcluya öz tələblərini təqdim edə bilərlər.

Kənar idarəçi təyin edildiyi andan etibarən 1 ay müddətində kənar idarəetmə planı hazırlamağa borcludur. Bu planda borclunun tədiyə qabiliyyətinin bərpa edilməsi ilə bağlı tədbirlər nəzərdə tutulur və o, kreditorların yığıncağı tərəfindən təsdiq olunur. Borclunun tədiyə qabiliyyətinin bərpa edilməsi tədbirlərinə istehsalın profilinin dəyişməsi, rentabelli olmayan istehsalatların bağlanması, debitor borcunun ləğv edilməsi, borclunun əmlakının bir hissəsinin satılması, borclunun tələb hüquqlarına güzəştə gedilməsi, borclu müəssisənin satılması və başqa tədbirlər aiddir.

Kənar idarəetmə üçün müəyyən edilmiş müddətin başa çatmasına ən azı 15 gün qalmış kənar idarəçi kreditorların yığıncağına kənar idarəetmənin yekunları barədə hesabat təqdim etməlidir. Eyni zamanda o, kreditorların yığıncağına aşağıdakı təkliflərdən birini çıxarır: a) borclunun tədiyə qabiliyyətinin bərpa edilməsi ilə əlaqədar kənar idarəetməyə xitam verilməsi haqqında; b) müəyyən olunmuş kənar idarəetmə müddətinin uzadılması haqqında; c) barışıq sazişi bağlanması haqqında; ç) kənar idarəetmənin dayandırılması və borclunun müflisləşmiş hesab edilməsi haqqında. Kənar idarəçinin hesabatına kreditorların yığıncağı tərəfindən müəyyən olunmuş kənar idarəetmə müddəti başa çatdıqdan sonra ən geci 10 gün ərzində baxılır. Kreditorların yığıncağının keçirilməsi tarixindən 5 gün sonra kənar idarəçinin yığıncaqda baxılmış hesabatı və yığıncağın protokolu Arbitraj Məhkəməsinə göndərilir, o isə kreditorların yığıncağının qərarının təsdiq edilməsi barədə qərardad çıxarır. Kənar idarəetmənin yekunları barədə hesabatın təsdiq edildiyi gündən etibarən kənar idarəçi kreditorların tələblər reyestrinə müvafiq olaraq onlarla hesablaşmalar aparır.

Kənarlaşma – statistik ölçü vahidi olmaqla, hər hansı bir iqti-

sadi, sosial, demoqrafik prosesi xarakterizə edən göstəricinin müqayisə edilən dövrə nisbətən nə qədər kənarlaşmasını göstərir. Qarşıya qoyulan təhlilin məqsədindən asılı olaraq kənarlaşmaların qiymətləndirilməsinə yanaşmalar da müxtəlif ola bilər.

KƏNARLAŞMALAR ÜZRƏ İDARƏETMƏ (ing. *management by exception*) – müəssisənin yarımbölmələri və ya ayrı-ayrı menecerləri tərəfindən planların, tapşırıqların çox yaxşı və ya çox pis yerinə yetirilməsinə yönəldilmiş faktların, sahələrin, istiqamətlərin analizi; adi göstəricilərdən kənarlaşmaların bu analizi və onlara təsir idarəetmənin məhz əsas alətidir. Təsərrüfat fəaliyyətinin nəticələri haqqında hesabatların analizi zamanı rəqəmlərin "dəhlizi"nə sığmayan kənarlaşmaları nəzərə çatdırır ki, bunların səviyyəsi əvvəlcədən qoyulmuş hədləri aşmış olur. İdarə edən şəxs, idarəetmə orqanı isə əvvəldən nəzərdə tutulmuş plandan kənarlaşmaları qeyd edir və onların aradan qaldırılması üçün tədbirlər qəbul edir.

KƏND TƏSƏRRÜFATI – əhalinin ərzağa, emal sənayesinin isə xammala tələbatını ödəmək iqtidarında olan maddi istehsal sahəsi. Kənd təsərrüfatının əsas bölmələri bitkiçilik və heyvandarlıqdır. Aqrar-sənaye kompleksinin mərkəzi sahəsi kimi kənd təsərrüfatı bir sıra mühüm xüsusiyyətlərinə malikdir. Onlardan ən vacibi odur ki, istehsal prosesi torpaqdan və təbii mühitdən istifadə edilməsi ilə əlaqədardır. Kənd təsərrüfatı bir çox hallarda iqlim və təbii şəraitdən asılı olur, istehsalın böyük ərazilərə hissə-hissə səpələnməsi və yerləşdirilməsi ilə fərqlənir; kənd təsərrüfatında başqa sahələrə nisbətən təkrar istehsal prosesində xeyli dərəcədə öz istehsal məhsulundan (toxum, yem və s.) istifadə olunur. Kənd təsərrüfatında çoxukladlığın inkişafı bitkiçilik və heyvandarlıq sahəsində məhsul istehsalçılarının 3 qrupunun formalaşmasına gətirib çıxarmışdır: a) yeni təşkilati-hüquqi formada kənd təsərrüfatı müəssisələri; b) kəndli təsərrüfatları; c) əhalinin fərdi həyətyanı təsərrüfatı.

KƏND TƏSƏRRÜFATI İQTİSADÇILARININ AVROPA ASSOSİASİYASI (EAAE) – Assosiasiya kənd təsərrüfatı iqtisadçılarının Birinci Avropa Konqresində İsveçin Upsala şəhərində 1975-ci il avqustun 28-də yaradılmışdır. Avropa regionunun kənd təsərrüfatının iqtisadi problemininöyrənilməsi; kənd təsərrüfatı iqtisadçıları arasında təcrübə, ideya və informasiya mübadiləsinin genişləndirilməsinə köməyin göstərilməsi məqsədi daşıyır.

KƏND TƏSƏRRÜFATI İQTİSADÇILARININ BEYNƏLXALQ ASSOSİASİYASI (İAAE) – 1929-cu ildə



Böyük Britaniyanın Tones şəhərində təsis olunmuşdur. Kənd təsərrüfatı iqtisadiyyatı elminin inkişafına kömək göstərmək və iqtisadi nəticələrinin tətbiqi, Assosiasiya üzvləri arasında informasiya mübadiləsinin təşkili, müxtəlif konfransların və digər tədbirlərin keçirilməsi məqsədi daşıyır.

KƏND TƏSƏRRÜFATI İNFORMASİYASI MÜTƏXƏSSİSLƏRİNİN BEYNƏLXALQ ASSOSİASİYASI (İAALD) – 1935-ci ildə Belçikanin Qent şəhərində yaradılmış təşkilatın bazasında 1955-ci il



sentyabrın 9-da təsis edilmişdir. Üzv ölkələrin kənd təsərrüfatı kitabxana və informasiya mərkəzlərinin fəaliyyətinin beynəlxalq əməkdaşlığının inkişaf etdirilməsi, kənd təsərrüfatı təhsili sahəsində və aqrosənaye kompleksinin bütün sahələrində elmi və texniki informasiyaların yayılması məqsədi ilə yaradılmışdır.

KƏND TƏSƏRRÜFATI İSTEHSALÇILARININ BEYNƏLXALQ FEDERASİYASI (İFAB) – 1946-cı ilin mayında Londonda yaradılmışdır. Kənd təsərrüfatı istehsalçılarının maraqlarını beynəlxalq təşkilatlarda təmsil etmək, kənd təsərrüfatı ilə məşğul olan işçilərin iqtisadi və sosial vəziyyətlərinin



yaxşılaşdırılması ilə məşğul olmaq, hər bir müstəqil fermer təşkilatının yaradılmasına kömək göstərmək, dünyada ərzaq təhlükəsizliyini təmin etmək, kənd təsərrüfatında yaranmış problemlərin aradan qaldırılması təcrübəsini yaymaq, istehsalın səmərəliliyinin artırılmasına və məhsulların satışının təşkilinə köməklik göstərmək əsas məqsədidir.

KƏND TƏSƏRRÜFATI İSTEHSALININ MEXANİKLƏŞDİRİLMƏSİ – əsas (texnoloji) işlərin yerinə yetirilməsi üçün maşın, mexanizm və avadanlıqların istehsalda tətbiqi prosesi.

Statistika təcrübəsində işlərin mexanikləşdirilməsi səviyyəsi hesablanır. Bitkiçilikdə bu göstərici maşınlarla yerinə yetirilmiş müəyyən növ işin həcminin, həmin növ işin (tərəvəz, kartof, şəkər çuğunduru və s. yığımı) ümumi həcminə nisbəti kimi hesablanır. Heyvandarlıqda konkret növ işlərin (suyun verilməsi, yemin paylanması, tövlənin təmizlənməsi və s.) mexanikləşdirildiyi fermalarda və komplekslərdə olan mal-qaranın bu növdən olan mal-qaranın ümumi sayında payı kimi tapılır. Heyvandarlıqda mexanikləşdirmə səviyyəsinin müəyyənləşdirilməsində ümumiləşdirici göstərici suyun verilməsi, yemlərin paylanması, tövlənin peyindən təmizlənməsi kimi işlərin eyni vaxtda mexanikləşdirilməsi daxil olan fermalarda və komplekslərdə işlərin kompleks mexanikləşdirilməsi hesab edilir. Göstərilənlərdən əlavə, bu göstəricilərə inək tövlələrində inəklərin sağılması, yumurtlayan toyuqlar üçün isə yumurtaların yığılması daxildir. Əməyin mexanikləşdirilməsi səviyyəsi mexanikləşdirilmiş əmək sərfinin ümumi əl işi və mexanikləşdirilmiş əmək sərfinə olan nis- bəti kimi hesablanır.

KƏND TƏSƏRRÜFATI KREDİTLƏRİ ÜZRƏ BEYNƏLXALQ KONFEDERASİYA (CİCA) – 1932-ci ilin oktyabrında "Kənd Təsərrüfatı Kreditləri üzrə Beynəlxalq Konfederasiya" adı altında İtaliyanın Roma şəhərində yaradılmışdır. Təşkilatı beynəlxalq səviyyədə təqdim edir, kənd təsərrüfatı kreditləri üzrə əlaqələndirir.

KƏND TƏSƏRRÜFATI QANUNVERİCİLİYİ ÜZRƏ AVROPA ŞURASI (SEDR) – 1957-ci il oktyabrın 30-da Fransanın Paris şəhərində yaradılmışdır. Avropa regionunda kənd təsərrüfatı qanunvericiliyinin öyrənilməsi və təşkili ilə məşğul olur.

KƏND TƏSƏRRÜFATI QİYMƏTLƏRİ – təkrar emal üçün və ya təzə məhsul kimi əmtəə istehsalçıları tərəfindən reallaşdırılan kənd təsərrüfatı məhsullarının qiymətləri. Bazar iqtisadiyyatı şəraitində tələb və təklifin təsiri altında formalaşan sərbəst qiymətlər üstünlük təşkil edir. Planlı iqtisadiyyatda kənd təsərrüfatı məhsullarının əsas hissəsi sabit (tədarük, təhvil, satınalma) qiymətlər üzrə dövlət sifarişinin hesabına reallaşırdı.

Kənd təsərrüfatı qiymətlərinin fəaliyyət göstərməsinin spesifikliyi kənd təsərrüfatında təkrar istehsalın təbii-iqtisadi xüsusiyyətləri, xüsusilə renta amillərinin fəaliyyəti və zonalıqla, mövsümiliklə, əkinçilik və heyvandarlıq məhsullarının istehsal tsiklində fərqlərlə əlaqədardır. Kənd təsərrüfatı qiymətlərinin mühüm xüsusiyyəti digər növ məhsulların qiymətləri ilə müqayisədə kənd təsərrüfatı məhsullarına olan tələbin nisbətən aşağı elastikliyidir ki, bu da əmtəə istehsalçılarının gəlirlərinin formalaşmasına təsir göstərir. Bazar iqtisadiyyatı üçün sərbəst qiymətlərin dövlət tərəfindən tənzimlənən yardım qiymətləri, o cümlədən həd (şlüz), məqsədli, istiqamətli, təminatlı və s. qiymətlərlə əlaqələndirilməsi xarakterikdir.

Sənayenin resurs qoruyucu və təkrar emal sahələri müəssisələrinin inhisarçılığı əmtəə istehsalçılarının gəlirləri üzrə kənd təsərrüfatı qiymətlərinin funksiyalarını məhdudlaşdırır. Bu, əyani olaraq kənd təsərrüfatı qiymətlərinin sənaye qiymətləri ilə uyğunsuzluğunda, hazır məhsulun pərakəndə qiymətlərinin strukturunda, kənd təsərrüfatı qiymətlərinin xüsusi çəkisinin aşağı düşməsində, kənd təsərrüfatı istehsalının rentabelliyinin azalmasında təzahür olunur.

KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ (KTN) – kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, baytarlıq, bitki mühafizəsi və karantini, torpaqların səmərəli istifadəsi də daxil olmaqla aqrar bölmədə dövlət siyasətini və iqtisadi münasibətlərin tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı. 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə KTN yenidən təşkil edilmiş və onun

Biz doğrudan da sahibkarlara çox böyük diqqətlə yanaşırıq. Mən deyə bilmərəm hansı başqa ölkədə belə yanaşma vardır. Fermerlərə güzəştli şərtlərlə yanacaq, gübrələr, aqrolizinq xətti ilə texnikalar verilir. Aqroservislər yaradılıbdır. İribuynuzlu cins mal-qara gətirilir, fermerlərə verilir. Ondan sonra güzəştli şərtlərlə kreditlər verilir. Daha sonra, biznes-planlar, investisiya layihələri, bir hektarlıq, beş hektarlıq, iyirmi beş hektarlıq planlar hazırlanır.

İlham Əliyev

Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2012-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən (16.01.2012)

yanında Dövlət Baytarlıq Xidməti, Dövlət Fitosanitar Nəzarəti Xidməti və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi yaradılmışdır. Nazirliyin əsas vəzifələri aqrar bölmədə dövlətin siyasətini işləyib hazırlamaq və həyata keçirmək, aqrar sahənin sosial-iqtisadi inkişaf konsepsiyasını və bu bölməyə daxil olan sahələrin inkişafına yönəlmiş proqramlar hazırlamaq və onların həyata keçirilməsini təmin etmək, yerli kənd təsərrüfatı məhsulları istehsalçılarının dəstəklənməsi üçün tədbirlər görmək və onlara aqroservis, aqrokimyəvi, məsləhət və digər xidmətlərin göstərilməsinə kömək etməkdir. KTN, həmçinin aidiyyatı dövlət orqanları ilə birlikdə Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi, aqrar bölməyə sərmayələrin cəlb edilməsi və investisiya layihələrinin həyata keçirilməsi üçün tədbirlər görən əsas mərkəzi icra təsisatlarındandır.

Nazirlik, qanunvericiliklə müəyyən olunmuş qaydada kənd təsərrüfatı bitkilərinin toxumçuluğunu və heyvandarlıqda damazlıq işini təşkil edir, tabeliyində olan müvafiq qurumlar vasitəsilə ölkədə baytarlıq və fitosanitar xidmətinin həyata keçirilməsini təmin edir, aqrar bölmənin inkişafını təmin edən normativ hüquqi bazanın yaradılmasında iştirak edir, aqrar bölmənin elmi təminatını, mütəxəssis və kadr hazırlanması işini təşkil edir, səlahiyyətləri daxilində aqrar bölmədə dövlət nəzarətini, digər vəzifə və funksiyaları həyata keçirir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra aqrar bölmənin bazar münasibətləri əsasında yenidən qurulması və inkişaf etdirilməsi üçün hüquqi bazanın yaradılması istiqamətində əsaslı işlər görülmüşdür. Nazirliyin əməkdaşlarının yaxından iştirakı ilə bir çox qanunlar, Prezident fərmanları və sərəncamları, Nazirlər Kabinetinin qərarları hazırlanmış və qəbul edilmişdir. 1995-1996-cı illərdə qəbul edilmiş "Aqrar islahatların əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" və "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanunlarının, digər normativ hüquqi aktların tətbiqi nəticəsində sovxoz və kolxozların əmlakı və onların istifadəsində olan dövlət torpaqları özəlləşdirilərək kənd əhalisinə paylanmışdır. Hazırda ümumi sahəsi 8641506 hektar olan vahid torpaq fondunun 4919100 hektarı (56,9 faiz) dövlət mülkiyyətində saxlanılmış, 2051378 hektarı (23,5 faiz) bələdiyyə, 1670990 hektarı (19,6 faiz) isə xüsusi mülkiyyətə verilmişdir. "Taxıl haqqında", "Atçılıq haqqında", "Arıçılıq haqqında", "Pambıqçılıq haqqında", "Üzümçülük və şərabçılıq haqqında" və aqrar bölmənin digər sahələrini əhatə edən qanunlar həmin sahələrin inkişafına böyük təkan vermişdir. Bu qanunlar əsasında nazirlik tərəfindən hazırlanmış proqramlarda nəzərdə tutulan tədbirlər respublikamızın dövlət büdcəsindən və digər mənbələrdən ayrılan vəsaitlər hesabına uğurla həyata keçirilir və həmin sahələrin dinamik inkişafını təmin edir.

Nazirlik, daxili bazarı müdafiə etmək, yerli kənd təsərrüfatı istehsalını dəstəkləmək üçün müvafiq tədbirlərin həyata keçirilməsinə daim diqqət yetirir. Bu məqsədlə aqrar bölməyə güzəştli kreditlər verilməsi, subsidiyalar ayrılması və sərmayə qoyulması üçün təşəbbüs göstərir və müvafiq dövlət orqanlarına təkliflər hazırlayıb təqdim edir. Bunun nəticəsidir ki, 2009-2011-ci illərdə dövlət büdcəsindən Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinə 30 milyon manat vəsait ayrılmışdır. 2008-2010-cu illərdə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən kənd təsərrüfatının inkişafı üçün 145,4 milyon manat

Əkin sahələri, məhsuldarlıq artır. Xüsusilə taxılçılıqda məhsuldarlıq artır, bu, çox müsbət haldır. Əminəm ki, görüləcək tədbirlər nəticəsində böyük fermer təsərrüfatlarının yaradılması və onlara dövlət tərəfindən dəstək, meliorativ tədbirlərin, fermerlərə güzəştli şərtlərlə bütün yanacağın, gübrələrin verilməsi, aqrolizinq, aqroservislərin fəaliyyəti hesabına biz bu sahədə uzunmüddətli, dayanıqlı inkişafı təmin edəcəyik...

Bizim indi satış məntəqələrimizdə satılan məhsulların, yəni ərzaq məhsullarının böyük əksəriyyəti, mütləq əksəriyyəti Azərbaycanda istehsal olunan məhsullardır. Əgər biz keçmişi yada salsaq görərik ki, o vaxt yerli məhsulları heç tapmaq mümkün deyildi. İndi bizim yerli məhsullarımız heç xarici məhsuldan geri qalmır – həm keyfiyyəti, həm onların müasir qablaşdırılması, xarici görünüşü, dadı baxımından. Bizim məhsullarımız, xüsusilə tərəvəz, meyvə məhsullarımız təbiidir... Bu, bizim böyük sərvətimizdir. Biz bunu qorumalıyıq. Biz kənd təsərrüfatının inkişafını, xüsusilə meyvə-tərəvəz sahəsindəki inkişafını da keyfiyyəti itirmədən təmin etməliyik.

İlham Əliyev
Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2012-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən (16.01.2012)

güzəştli kredit ayrılmışdır. Kənd təsərrüfatı məhsulları istehsalçılarına 2007-2010-cu illərdə 362,7 mln. manat məbləğində subsidiya ödənilmişdir. Kənd təsərrüfatı məhsulları istehsalçılarına ayrılan bu subsidiyalar qanunvericiliklə nəzərdə tutulan qaydada müxtəlif istiqamətlər üzrə paylanmışdır. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalçısı olan hüquqi və fiziki şəxslərə bir hektar əkin sahəsinin becərilməsində istifadə etdikləri yanacağın və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən təmin edilməsi üçün müvafiq olaraq 40 və 26 manat yardım verilməsi müəyyənləşdirilmişdir. Eyni zamanda, respublikada buğda və çəltik istehsalının stimullaşdırılması, istehsalçıların maddi marağının artırılması məqsədi ilə səpilən hər hektar buğda və çəltik sahəsinə görə onlara əlavə 40 manat yardım verilir. Bundan əlavə, kənd təsərrüfatı məhsulları istehsalçılarına Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən dövlət vəsaiti hesabına alınan kənd təsərrüfatı texnikasının, aqrokimyəvi maddələrin, tinglərin, toxumların və damazlıq heyvanların satışında da güzəştlər nəzərdə tutulur, yəni dövlət tərəfindən buğda toxumunun istehsalı ilə məşğul olan təsərrüfatlara dövlət vəsaiti hesabına idxal olunan yüksək reproduksiyalı buğda toxumunun satış qiymətinin 50%-inə, mineral gübrələrin satış qiymətinin isə 70%-inə güzəşt edilir. "Aqrolizinq" ASC-yə məxsus kənd təsərrüfatı texnikasının və texnoloji avadanlıqların hüquqi və fiziki şəxslərə 10 il müddətinə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması öz müsbət nəticəsini verməkdədir. 2005-ci ildən fəaliyyət göstərən "Aqrolizinq" ASC tərəfindən respublikanın bölgələrində 55 "Aqroservis" filialı və bu filialların nəzdində lazım olan texnikalarla təchiz edilmiş 107 mexanikləşdirilmiş dəstə yaradılmışdır. Bu filiallar kənd təsərrüfatı məhsulları istehsalçılarının sifarişləri əsasında onlara güzəştli qiymətlərlə 20 addan çox aqrotexniki xidmət göstərirlər.

Xaricdən damazlıq heyvanların idxal olunması və heyvandarlıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faiz güzəştlə lizinq yolu ilə satılması həyata keçirilir. Bundan əlavə, 2001-ci ildə qəbul edilmiş və müddəti 2014-cü ilə kimi uzadılmış "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Qanuna əsasən kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla digər vergilərdən azad olunmuşlar ki, bu da onlara istehsalı artırmaq üçün əlavə stimul verir. Nazirlər Kabinetinin müvafiq qərarları ilə aqrar bölmədə istifadə olunan bəzi istehsal vasitələrinə və məhsullara gömrük rüsumlarında edilən güzəştlər aqrar sahibkarlara dövlətin verdiyi dolayı subsidiyaların



Prezident İlham Əliyev Bakıda "Caspian Agro-2010" III Beynəlxalq Kənd təsərrüfatı, ərzaq emalı və qablaşdırma sərgisinin açılışında

bir hissəsidir. Belə dolayı subsidiya "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" Qanuna və Nazirlər Kabinetinin müvafiq qərarına əsasən kənd təsərrüfatı məhsulları istehsalçılarının becərdikləri buğda, arpa, qarğıdalı, günəbaxan, dən üçün, kartof, şəkər çuğunduru, tərəvəzin (göyərti istisna olmaqla) sığorta haqqının 50 faizinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi yolu ilə də həyata keçirilir.

Aqrar bölməyə müxtəlif yollarla verilən güzəştli kreditlər və subsidiyalar kənd təsərrüfatı məhsulları istehsalı və emalı ilə məşğul olan təsərrüfatların sayını artırmaqla yanaşı, onların müasir texnika və texnologiyalarla təchiz olunmasına imkan yaratmış, onların maddi-texniki bazasını möhkəmləndirmişdir. Aqrar bölməyə göstərilən sistemli və davamlı dövlət dəstəyi respublikamızda ərzaq təhlükəsizliyinin tam təmin edilməsi və rəqabətqabiliyyətli məhsul istehsalı üçün etibarlı zəmin yaratmışdır. Belə ki, kənd təsərrüfatı istehsalının kənd təsərrüfatı texnikası, mineral gübrələr, elit və yüksək reproduksiyalı bitki toxumları, yüksək məhsuldar cins heyvanlar və damazlıq mal-qara ilə təminatı ildən-ilə yaxşılaşır. Kənd təsərrüfatı məhsullarının emalı sahəsində də əsaslı dəyişikliklər baş vermiş və rayonların hər birində demək olar ki, bütün becərilən məhsulların emalı müəssisələri yaradılaraq fəaliyyətə başlamışlar. Çoxsaylı quşçuluq fabriklərinin bərpası və yenilərinin tikilib istifadəyə verilməsi ölkəmizdə quş ətinə olan tələbatı yerli istehsal hesabına təmin etməyə imkan verir. Damazlıq quşçuluq fabriklərinin fəaliyyətə başlaması bu sahədə olan xarici asılılığı yaxın vaxtlarda aradan qaldıracaqdır. Kənd Təsərrüfatı Nazirliyi elit toxumlara və damazlıq heyvanlara olan tələbatın dünyada qəbul edilmiş səviyyəyə (13-15%) çatdırılması üçün əlavə tədbirlər həyata keçirməklə məhsuldarlığın artırılmasına nail olmağı əsas vəzifə kimi müəyyənləşdirib.

Kənd Təsərrüfatı Nazirliyi aqrar bölmənin inkişafı üçün bu sa-



Cədvəl 1

Azərbaycan Respublikasında kənd təsərrüfatı bitkilərinin əkin sahələri (təsərrüfatların bütün kateqoriyalarında, min hektar)

Məhsullar	2000	2005	2009	2010	2011
Cəmi	**1041,5**	**1327,9**	**1705,4**	**1583,9**	**1608,2**
o cümlədən:					
Dənli və paxlalı bitkilər	648,2	802,3	1125,5	968,0	967,3
Texniki bitkilər	118,2	132,0	40,9	52,6	66,9
ondan:					
pambıq	101,2	112,4	21,1	30,2	42,8
tütün	8,1	2,8	1,2	1,4	1,4
şəkər çuğunduru (emal üçün)	2,5	3,0	7,7	8,5	7,3
dən üçün günəbaxan	4,3	11,1	8,2	9,0	11,3
Kartof, bostan və tərəvəz bitkiləri	136,1	179,7	177,6	178,8	179,7
ondan:					
kartof	52,5	70,7	65,6	65,8	65,2
tərəvəz	56,8	78,8	80,9	81,1	81,1
ərzaq bostan bitkiləri	26,8	30,1	31,1	31,9	33,2
Yem bitkiləri	139,0	213,9	361,4	384,5	394,5
Üzümlüklər	14,2	9,6	15,0	15,4	15,4
ondan bar verən yaşda	13,9	7,2	10,1	11,2	11,2
Meyvə və giləmeyvə bağları	83,1	93,0	125,0	127,7	127,7
ondan bar verən yaşda	76,7	84,3	99,0	102,5	102,5
Çay əkmələri	5,4	2,9	0,8	0,6	0,6
ondan bar verən yaşda	5,4	2,9	0,8	0,6	0,6

həyə investisiya qoyulması istiqamətində də əməli tədbirlər görür. Nazirliyin təklifi əsasında respublika regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları üzrə kənd təsərrüfatı obyektlərinin tikintisi, təmiri və yenidən qurulması nəzərdə tutulmuş və bu məqsədlə KTN sisteminə 2004-2010-cu illər ərzində 34 mln. manat investisiya ayrılmışdır.

Nazirlik, aqrar bölmənin inkişafı naminə onun qarşısında qoyulmuş vəzifələri uğurla yerinə yetirmək məqsədi ilə Dünya Bankının, Azərbaycan hökumətinin, müxtəlif beynəlxalq fondların və təşkilatların dəstəyi ilə maliyyələşən bir neçə layihənin formalaşdırılması və həyata keçirilməsində fəal iştirak edir. Bunlardan "Təsərrüfatların Özəlləşdirilməsi Layihəsi" (dəyəri 26,2 mln. dollar, müddəti 1997-2003), "Kənd Təsərrüfatının İnkişafı və Kreditləşmə Layihəsi" (birinci mərhələ, dəyəri 33,7 mln. dollar, müddəti 1999-2006), "Azərbaycan Kənd İn-

vestisiya Layihəsi" (dəyəri 21,1 mln. dollar, müddəti 2005-2009), "Quş qripinə Hazırlıq Layihəsi" (dəyəri 6,9 mln. dollar, müddəti 2006-2009), "İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşməsi Layihəsi" (dəyəri 68,4 mln. dollar, müddəti 2007-2012) göstərmək olar. Bu layihələrin həyata keçirilməsi nəticəsində 23 min nəfər üzvü olan 6,6 min ailə torpaq üzərində mülkiyyət hüququna dair Dövlət aktı və həyətyanı sahə üzrə şəhadətnamə almış, 150,4 min nəfərə 39,5 mln. dollar məbləğində güzəştli mikrokredit və 110 şəxsə 16,7 mln. dollar orta həcmli kreditlər verilmişdir. Layihələr çərçivəsində 340 kənddə infrastruktur və sosialyönümlü mikrolayihələr (yollar, körpülər, məktəblər, su təchizatı və s.) həyata keçirilmiş və layihələrdən 910 min nəfər kənd sakini bəhrələnmişdir. 58 rayonu əhatə edən 10 Regional Məsləhət Mərkəzləri və 201 kənd təlim məntəqələri yaradılmış, fermerlərə xidmət etmək üçün 55 özəl baytarlıq məntəqələri avadanlıqlarla təmin edilmişdir. Bu layihələr kənd sakinlərinin və fermerlərin maarifləndirilməsi və aqrar bölmənin digər məsələlərinin həllində mühüm əhəmiyyət kəsb etmişdir.

Nazirliyin həyata keçirdiyi əsas tədbirlərdən biri də aqrar bölmənin elmi təminatının və mütəxəssis hazırlığının təşkilidir. Milli Kənd Təsərrüfatı Tədqiqatları Sisteminin Mərkəzi İdarəetmə orqanı kimi Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzi çıxış edir. Elmi araşdırmalar 2 xətt üzərində qurulur: Elmi-Tədqiqat İnstitutları və



Regional Aqrar Elm Mərkəzləri. Hazırda Aqrar Elm Mərkəzinin tabeliyində respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən 14 elmi-tədqiqat institutu, onların 40-a yaxın təcrübə bazası və 8 regional aqrar-elm mərkəzləri var. 2010-cu ildə bu elmi-tədqiqat institutlarında tədqiqatların aparılmasında 776 elmi işçi, o cümlədən 278 fəlsəfə doktoru və 38 elmlər doktoru (bundan AMEA-nın 2 həqiqi üzvü və müxbir üzvü) iştirak etmişdir. Azərbaycan Respublikasının müstəqilliyinin 20 ilində (1991-2011) aqrar bölmədə elmi tədqiqatlar aparan bu institutlarda 105 bitki sortu və 17 heyvan cinsi və hibridi yaradılaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadəsinə verilmişdir. Yüksək məhsuldar, yerli şəraitə daha yaxşı uyğunlaşan, quraqlığa və digər təbiət amillərinə dözümlü və məhsulunun keyfiyyətinə görə seçilən yeni bitki sortlarının yaradılmasında Elmi-Tədqiqat Əkinçilik və Elmi-Tədqiqat Tərəvəz-



Cədvəl 2

Azərbaycan Respublikası üzrə kreditlərin sahəvi strukturu

	01.01.2010		01.01.2011	
	mln. man.	cəmi kreditlərdə payı, %-lə	mln. man.	cəmi kreditlərdə payı, %-lə
Ticarət və xidmət	1833,5	22,3	2201,0	24,5
Ev təsərrüfatları	2171,6	26,4	2531,3	28,2
Energetika, kimya və təbii ehtiyatlar	1522,0	18,5	984,0	11,0
Kənd təsərrüfatı və emal	389,3	4,7	435,4	4,9
İnşaat və əmlak	576,4	7,0	660,6	7,4
Sənaye və istehsal	536,7	6,5	682,3	7,6
Nəqliyyat və rabitə	520,4	6,3	454,4	5,1

çilik İnstitutlarının alimlərinin böyük xidmətləri vardır. Belə ki, 105 bitki sortundan 38-i və 33-ü müvafiq olaraq bu institut - ların payına düşür. Elmi-Tədqiqat Əkinçilik İnstitutunun yaratdığı 38 sortdan 22-si buğda sort - larıdır və bu onu deməyə əsas verir ki, yaxın vaxtlarda respublikamızda həmin sortlardan geniş istifadə etməklə buğda idxalını kəskin azaltmaq və ya tamamilə ləğv etmək mümkün olacaqdır. Bu müddət ərzində həmin institutlarda 273 fəlsəfə doktoru və 27 elmlər doktoru hazırlanmışdır ki, onlar da aqrar elmin problemlərini araşdırmaqla məşğuldurlar.

Aqrar bölmədə kənd təsərrüfatı mütəxəssislərinin yetişdirilməsi və bu sahə kadrlarının təhsilinin təkmilləşdirilməsi ilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Azərbaycan Dövlət Aqrar Universiteti məşğul olur.


Kənd Təsərrüfatı Nazirliyi aqrar bölmə üzrə xarici ölkələr və beynəlxalq təşkilatlarla sıx əlaqə saxlayır və bir çox layihələrin həyata keçirilməsində onlarla əməkdaşlıq edərək, Azərbaycan Respublikasını təmsil

Cədvəl 3

Dünyada kənd təsərrüfatının növləri (V.A.Pulyarkinə görə)

Torpaqlardan istifadənin növləri	Kənd təsərrüfatının ənənəvi növləri	Kənd təsərrüfatının müasir növləri
Otlaqlar	Köçəri və yarımköçəri maldarlıq	Kommersiya məqsədli heyvandarlıq otlaqları (ranço)
Əkinçilikdə dövri istifadə olunması (torpağın məhsuldarlığının təbii yolla bərpa edilməsi)	Dincə qoyulmuş torpaqların becərilməsi	Əkinçilik fermer təsərrüfatı
Torpağın mütəmadi becərilməsi	Əkinçilik kəndli təsərrüfatı	Əkinçilik fermer təsərrüfatı
Çoxillik əkinlər	Əkinçilik kəndli təsərrüfatı	Plantasiya təsərrüfatı

Dünya kənd təsərrüfatının bəzi əsas göstəriciləri



Sxem 1

Cədvəl 4

Dünya kənd təsərrüfatı

- İnkişaf etmiş ölkələrdə iqtisadi fəal əhali arasında kənd təsərrüfatında məşğul olanların xüsusi çəkisi yüksək deyil, inkişaf etməkdə olan ölkələrdə isə yüksəkdir
- Taxıl idxalının 50%-i inkişaf etməkdə olan ölkələrin payına düşür

Bitkiçilik

Dənli bitkilər	buğda:	Çin, ABŞ, Fransa, Rusiya, Kanada, Ukrayna
	düyü:	Çin, Hindistan, İndoneziya, Banqladeş, Tailand
	qarğıdalı:	ABŞ, Meksika, Argentina, Braziliya
Yağ verən bitkilər	günəbaxan:	Rusiya, Ukrayna, ABŞ, Çin, Cənubi Avropa ölkələri
	soya:	ABŞ, Braziliya, Argentina, Koreya, Çin
Tonus artıran bitkilər	çay:	Hindistan, Çin, Cənub-Şərqi Asiya, Cənubi Qafqaz ölkələri
	qəhvə:	Braziliya, Kolumbiya, Meksika, Efiopiya
	kakao:	Kot-d'İvuar, Qana, Konqo, Braziliya, Kolumbiya
Köklər	kartof:	Polşa, Rusiya, Çin, Almaniya, ABŞ, Hindistan
Şəkər	şəkər qamışı:	Braziliya, Hindistan, Kuba, Çin
	çuğundur:	Ukrayna, Fransa, Rusiya, Polşa, ABŞ
Pambıq	Hindistan, Pakistan, ABŞ, Tailand, Çin, Özbəkistan	
Tütün	Çin, Hindistan, Braziliya, İtaliya, Yunanıstan, Kuba	

Heyvandarlıq

Əsas ixracatçı ölkələr

mal əti	donuz əti	qoyun əti	quş əti	yağ	yun
Avstraliya	Niderland	Y.Zelandiya	Fransa	Niderland	Avstraliya
Almaniya	Belçika	Avstraliya	ABŞ	Almaniya	Y.Zelandiya
Fransa	Danimarka	B.Britaniya	Niderland	Finlandiya	Argentina
Y.Zelandiya	Kanada	Banqladeş		Fransa	Uruqvay

Dünyada heyvandarlığın bütün sahələrində inkişaf etmiş ölkələrin üstünlüyü müşahidə olunur.

edir. Nazirliyin təklifi əsasında respublikamız 1995-ci ildən dünyanın 172 ölkəsini təmsil edən Ümumdünya Heyvan Sağlamlığı Təşkilatına (Beynəlxalq Epizootik Büro – OİT) üzv qəbul edilmişdir. Kənd Təsərrüfatı Nazirliyi yanında olan Dövlət Baytarlıq Xidməti 2007-ci ildə "Ev heyvanlarının mühafizəsi haqqında" Avropa Konvensiyasına qoşulmuşdur. Azərbaycan Respublikasının hökuməti ilə İran İslam Respublikası, Moldova, Türkiyə və Belarus respublikaları arasında, habelə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi ilə Özbəkistan Res-

Cədvəl 5

Müxtəlif ölkələrdə kənd təsərrüfatında çalışanların xüsusi çəkisi (bütün məşğul əhalidən, 2010-cu il, %-lə)

Cədvəl 5

Ölkə	Kənd təsərrüfatında məşğul olanlar	Ölkə	Kənd təsərrüfatında məşğul olanlar
ABŞ	3 %	Polşa	25 %
Kanada	4 %	Çin	60 %
Rusiya	14 %	Tanzaniya	85 %

Cədvəl 6

Taxıl istehsalına görə lider ölkələr	Düyü istehsalına görə lider ölkələr	Qarğıdalı istehsalına görə lider ölkələr
Çin, ABŞ, Hindistan, Rusiya, Fransa	Çin, Hindistan, İndoneziya, Banqladeş, Vyetnam	ABŞ, Kanada, Braziliya, Meksika, Fransa
Taxılın 15 %-i dünya bazarına daxil olur. Əsas ixracatçılar aşağıdakılardır:		
Kanada, ABŞ, Argentina, Avstraliya, Fransa	Myanma, Tailand	ABŞ, Fransa, Kanada

Cədvəl 7

Mal-qara sayına görə lider ölkələr (mln. baş)

İribuynuzlu mal-qara	Qoyun	Donuz
- Hindistan 210 - Braziliya 163 - ABŞ 102 - Çin 117 - Argentina 52	- Avstraliya 130 - Çin 130 - Hindistan 57 - İran 52 - Yeni Zelandiya 48	- Çin 470 - ABŞ 56 - Braziliya 37 - AFR 24 - Rusiya 20

publikasının Kənd Təsərrüfatı və Su Təsərrüfatı Nazirliyi arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Sazişlər imzalanmışdır.

KƏND TƏSƏRRÜFATI SAHƏSİNDƏ AVROPA ORİENTASİYA VƏ QARANTİYALAR FONDU (AOQF) – Avropa İttifaqının (Aİ) əsas büdcə fondlarından biri. 1964-cü ildə kənd təsərrüfatının strukturunun yaxşılaşdırılması (təminatlar şöbəsi) və fermerlərin gəlirlərinə, o cümlədən onların istehsal etdiyi kənd təsərrüfatı məhsullarının Aİ üzrə vahid qiymətlərinin saxlanması yolu ilə zəmanət verilməsi (təminatlar şöbəsi) üzrə xərclərin maliyyələşdirilməsi üçün yaradılmışdır.

KƏND TƏSƏRRÜFATI SİYAHIYAALMASI – kənd təsərrüfatının vəziyyəti haqqında məlumatların toplanmasının xüsusi təşkil olunmuş birdəfəlik statistik müşahidə forması. Siyahıyaalma ölkənin bütün ərazisini və ya onun hissələrini əhatə edə, kənd təsərrüfatı istehsalının ayrı-ayrı elementlərini və ya onun bütün məcmusunu öyrənə bilər. Kənd təsərrüfatı siyahıyaalması konkret anda müşahidə vahidlərinin qeydiyyatı ilə, va-

hid proqram və metodologiya əsasında həyata keçirilir. 1950-ci ildən BMT-nin FAO təşkilatı 10 ildə bir dəfə ümumi kənd təsərrüfatı siyahıyaalması keçirmək üçün metodologiya hazırlamış və onun keçirilməsi məqsədilə bütün ölkələrə tövsiyələr vermişdir. Azərbaycan müstəqillik qazandıqdan sonra ilk kənd təsərrüfatı siyahıyaalması 2005-ci ildə keçirilmişdir.

KƏND TƏSƏRRÜFATINDA BEYNƏLXALQ TƏDQİQATLAR ÜZRƏ MƏSLƏHƏTLƏŞMƏ QRUPU (CGIAR) – 1971-ci ilin mayında Vaşinqton şəhərində Ford və Rokfellerin fondları ilə maliyyələşdirilən kənd təsərrüfatı tədqiqatlarının



təmin edilməsi üçün yaradılmışdır. Mərkəzlər Dünya Bankının, FAO və digər təşkilatların rəhbərliyi altında fəaliyyət göstərir. Qrupun tərkibinə ayrıca fəaliyyət göstərən 16 struktur daxildir, onlardan:

1. Bitkilərin Beynəlxalq Genetik Ehtiyatları İnstitutu (Roma, İtaliya);
2. Quraqlıq rayonlarda Beynəlxalq Kənd Təsərrüfatı Tədqiqatları Mərkəzi (Aleppo, Suriya);
3. Aqromeşəçilik üzrə Beynəlxalq Tədqiqatlar Mərkəzi (Patanceru şəhəri, Hindistan);
4. Beynəlxalq Elmi-Tədqiqat Ərzaq Siyasəti İnstitutu (Vaşinqton şəhəri, ABŞ)
5. Beynəlxalq Tropik Kənd Təsərrüfatı İnstitutu (İbadan şəhəri, Nigeriya);
6. Beynəlxalq Su Təsərrüfatı İnstitutu (Kolombo şəhəri, Şri-Lanka);
7. Beynəlxalq Qarğıdalı və Buğda Mərkəzi (Mexiko şəhəri, Meksika, Peru);
8. Beynəlxalq Elmi-Tədqiqat Düyü İnstitutu (Manila şəhəri, Filippin);
9. Beynəlxalq Milli Kənd Təsərrüfatı Tədqiqatları Xidməti (Haaqa şəhəri, Niderland);
10. Çəltikçiliyin İnkişafı üzrə Qərbi-Afrika Assosiasiyası (Buare, Fil Sümüyü Sahili);
11. Canlı Su Ehtiyatlarının İdarə Olunması üzrə Beynəlxalq Mərkəz (Manila, Filippin);
12. Beynəlxalq Elmi-Tədqiqat Heyvandarlıq İnstitutu.

KƏND TƏSƏRRÜFATINDA İXTİSASLAŞMA – əməyin ictimai bölünməsi və onun səmərəli təşkili formalarından biri. Özünü öz aralarında bazar əlaqələri olan sərbəst sahələrdə, istehsalda və müəssisələrdə ayrı-ayrı kənd təsərrüfatı məhsulları növlərinin istehsalının bir yerə toplanmasında göstərir. Kənd təsərrüfatında ixtisaslaşma iqtisadi, sosial, demoqrafik, elmi-texniki və təbii amilləri, bitki və heyvanların bioloji xüsusiyyətlərini, torpaqdan, maddi vasitələrdən və s. istifadənin xüsusiyyətlərini nəzərə almaqla həyata keçirilir. Ərazi (ölkə, iqtisadi rayon, bölgə, kənd təsərrüfatı zonası və s.), sahədaxili (əlaqədar məhsulların ayrı-ayrı növlərinin istehsalının, ya da onun mərhələlərinin nisbətən sərbəst sahə və alt sahələrə ayrılması), təsərrüfat (az ixtisaslaşmış müəssisələr və s), təsərrüfatdaxili (müəssisənin struktur bölmələrinin məhsulun, işin ayrı-ayrı növlərinin istehsalı üzrə ixtisaslaşması) ixtisaslaşdırmalar bir-birindən fərqləndirilir.

İxtisaslaşma ev şeyləri üzrə (oxşar məhsulların, məsələn, südün, taxılın, yunun ayrılmış istehsalı), mərhələli (məsələn, quşçuluqda ana quşların ayrılması, yumurtaların inkubasiyası və s.) və funksional ola bilər. İxtisaslaşma haqqında ümumi və əmtəəlik məhsulların, əkin sahələrinin, heyvanların sayının strukturları üzrə də mühakimə yürütmək olar.


KƏND TƏSƏRRÜFATININ İNKİŞAFININ BEYNƏLXALQ FONDU (KTİBF) (*International Fund for Agricultural Development, IFAD*) –



beynəlxalq hökumətlərarası təşkilat, BMT-nin ixtisaslaşdırılmış təsisatı. Ümumdünya Ərzaq Konfransının (Roma, 1974) qərarı ilə təsis edilmişdir. KTİBF-nin yaradılması barədə saziş 1977-ci ildə qüvvəyə minmişdir. Sovet İttifaqı həmin sazişdə iştirak etməmişdir.

Fond Romada yerləşir. Üzv ölkələrin sayı 187-yə bərabərdir (1995-ci il). Üzv ölkələr üç kateqoriyaya bölünmüşdür. Birinci kateqoriyaya aid olan 22 öl-

Dünyanın ən iri ölkələrinin ÜDM-də kənd təsərrüfatının xüsusi çəkisi (2010-cu il, %-lə)



Qrafik 1

kə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) üzvləri, ikinci kateqoriyaya aid 42 ölkə Neft İxrac edən Ölkələr Təşkilatının (OPEK) üzvləri, üçüncü kateqoriyaya aid olanlar inkişaf etməkdə olan 123 ölkədir.

Fondun əsas məqsədləri kənd təsərrüfatının inkişafı layihələrinin reallaşdırılmasına kömək, ərzaq istehsalının artırılması, inkişaf etməkdə olan ölkələrdə qidalanmanın yaxşılaşdırılması və onlara texniki kömək.

Bu fonddan maliyyə yardımı prioritetlər sisteminə müvafiq olaraq güzəştli kreditlər şəklində 50 il müddətinə verilir. Praktik olaraq faizsiz verilən bu kreditlərin ödənilməsi 10 ildən sonra başlanır. 20 il müddətinə verilən kreditlər 5 ildən sonra 4% dərəcə ilə, 15-18 illiyə verilən kreditlər 3 ildən sonra 8% dərəcə ilə ödənilməyə başlanır. Yardım obyektləri əsasən iqtisadi vəziyyəti yaxşı olmayan, əhalinin yoxsul, ətraf təbii mühitin imkanlarının tükənməkdə olduğu ərazilərdir. KTİBF-nin fəaliyyət sahələri: kənd təsərrüfatının inkişafı, meliorasiya, heyvandarlıq, balıq ovu, ticarət və ehtiyatların saxlanması, onların emalı, kadr hazırlığı və kredit - vermə. Fondun vəsaitləri üzv dövlətlərin üzvlük haqları və ayrı-ayrı ölkələrin maliyyə yardımı hesabına formalaşır. 1 və 2-ci kateqoriyaya aid olan üzv dövlətlər üzvlük haqlarını dönərli valyuta, 3-cü kateqoriyaya aid dövlətlər milli valyuta ilə ödəyir. ABŞ, Yaponiya, Almaniya, İran, Səudiyyə Ərəbistanı və digər dövlətlər fonda sanballı maliyyə yardımı göstərirlər. Fond BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB), Asiya, Afrika, İslam və Amerika dövlətlərarası inkişaf bankları ilə əməkdaşlıq edir. Fondun hesablaşma vahidi SDR-dir (xüsusi borclanma hüquqları).

KTİBF-nin rəhbər orqanları – Müdirlər Şurası, İcraiyyə Şurası, Prezident, Katiblikdir.

Müdirlər Şurasında fondun üzvü olan ölkə müdir və onun bir müavini ilə təmsil olunmuşdur. Üç kateqoriyaya aid olan ölkələrin hər biri eyni sayda səsə malikdir. Şura öz səlahiyyətlə-

rinin bir hissəsini, KTİBF barədə sazişə dəyişikliklər etmək və yeni üzvlərin kateqoriyalarını müəyyən etmək hüquqları müstəsna olmaqla, İcraiyyə Şurasına həvalə edə bilər. Şura ildə bir dəfə sessiya keçirir. Fondun əməli fəaliyyətinə rəhbərlik edən İcraiyyə Şurası hər kateqoriyaya aid dövlətlərdən bərabər sayda üzv daxil olmaqla üç il müddətinə seçilir. Şurada qərarlar razılaşma əsasında qəbul edilir.

Şuranın prezidenti İcraiyyə Şurasının sədridir. O, Müdirlər Şurası tərəfindən dörd il müddətinə seçilir, fondun cari işlərinə və katibliyə rəhbərlik edir, xarici əlaqələrdə fondu təmsil edir. Katiblik iqtisadiyyat və planlaşdırma, layihələrin idarə edilməsi və ümumi məsələlər üzrə departamentlərdən ibarətdir.

KTİBF məruzələr və tədqiqatların nəticələrini dərc edir, Ümumdünya Ərzaq Şurasına informasiya təqdim edir.

KƏND TƏSƏRRÜFATININ KREDİTLƏŞMƏSİ ÜZRƏ BANK – fermerlərin və fermer müəssisələrinin maliyyələşdirilməsi üçün bank.

KƏND TƏSƏRRÜFATININ ÜMUMİ MƏHSULU – müəyyən dövr ərzində (adətən 1 il ərzində) kənd təsərrüfatı müəssisələrində, əhalinin təsərrüfatlarında, fermer təsərrüfatlarında istehsal olunan məhsuldur. Nəinki yeni yaradılan dəyəri, həm də təkrar istehsal prosesinin fasiləsizliyini və ritmikliyini təmin edən bitməmiş istehsalı da özündə cəmləyir. Kənd təsərrüfatının ümumi məhsulunun dəyərinə, əsasən əkinçiliyin və heyvandarlığın müşayiətedici və əlavə məhsulu, həmçinin, təsərrüfat üsulu ilə həyata keçirilən kapital tsiklinin və əsaslı təmirin məhsulu, köməkçi müəssisələrin məhsulu, kənarda satılan iş və xidmətlərin dəyəri və s. aiddir. Kənd təsərrüfatının ümumi məhsulunun dəyərinə kəsilmədən alman mal-qara məhsulları (ət və dəri), natamam kənd təsərrüfatı məhsullarının yenidən emal edilmiş məhsulları (un, bitki və heyvan yağları, xammal məhsulları, yabanı meyvələr və məhsullar) və başqa hazır təbii məhsullar aid edilmir (bax: qrafik 1).

Kənd təsərrüfatının ümumi məhsulu müqayisə edilən qiymətlərdə məhsulun fiziki həcminin dinamikasını xarakterizə edir, həmçinin əmək məhsuldarlığının hesablanmasında, məhsulun fond tutumu və material tutumu və digər göstəricilərin hesablanmasında istifadə edilir. Müqayisəli qiymətlər – bazis ilində kənd təsərrüfatı məhsullarının reallaşmasının orta qiymətləridir. Bu zaman məhsulun əmtəə hissəsi reallaşmanın faktiki qiymətləri ilə qiymətləndirilir. Təsərrüfatın daxili istehlakı üçün istifadə edilən məhsul kənd təsərrüfatının ümumi məhsulunun cari qiymətlərlə müəyyən edilməsi zamanı maya dəyəri üzrə qiymətləndirilir və bu vaxt uyğun məhsulun reallaşmasının orta qiymətlərindən istifadə edilir. Məhsulun reallaşmasının mümkün olmadığı şəxsi yardımçı və fermer təsərrüfatlarında kənd təsərrüfatı müəssisələrinin reallaşmasının faktiki qiymətlərindən istifadə olunur. Qeyri-əmtəəlik məhsul kənd təsərrüfatı müəssisələrində uyğun məhsulun istehsalının maya dəyəri üzrə qiymətləndirilir.

KƏND TƏSƏRRÜFATI ÜZRƏ AVROPA KONFEDERASİYASI (CIA) – konfederasiya 1889-cu ildə təsis edilmiş beynəlxalq kənd təsərrüfatı komissiyasının və 1937-ci ildə əsası qoyulmuş Beynəlxalq Kənd Təsərrüfatı Konfederasiyasının bazalarında 1949-cu il oktyabrın 26-da yaradılmışdır. Avropada kənd təsərrüfatının, xüsusilə iqtisadi sosial və mədəni məsələlər üzrə maraqlarını müdafiə etmək, ailə-fermer təsərrüfatlarının inkişafına kömək göstərmək, kənd təsərrüfatı sahələri işçilərini mükafatlandırmaq missiyasını həyata keçirir.

KƏRİMLİ İRŞAD ABDUL OĞLU (1946) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1979-cu ildə Azərbaycan SSR EA-nın İqtisadiyyat İnstitutunun ixtisaslaşmış müdafiə şurasında namizədlik, 1994-cü ildə Kiyev Dövlət Universitetinin ixtisaslaşdırılmış müdafiə şurasında doktorluq dissertasiyası müdafiə etmişdir. 2 dərslik, 2 dərs vəsaiti, 1 monoqrafiya, 3 metodik vəsait, 100-dən çox elmi məqalə müəllifidir. Əsas tədqiqat obyekti təkrar istehsalın bazar mexanizminin formalaşması, milli iqtisadiyyatın nəzəri və praktik problemləridir.



Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq iqtisadi münasibətlər" ka-

fedrasının professoru vəzifəsində çalışır.

KƏRİMOV XOSROV ŞƏRAFƏDDİN OĞLU (1949) – Azərbaycan iqtisadçısı, i.e.n., dosent.



1979-cu ildə "Keçid dövründə bölgü münasibətlərinin məzmunu" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1992-ci ildə dosent elmi adını almışdır.

İqtisadi nəzəriyyə, Azərbaycan xalqının iqtisadi fikir tarixi, iqtisadi tarix, Azərbaycan iqtisadiyyatına dair 100-dən çox elmi əsərin müəllifidir. "Azərbaycan iqtisadi fikir tarixinin oçerkləri" (1987), "Bazar münasibətlərinə keçid və Azərbaycanın iqtisadi inkişafının bəzi problemləri" (1994) monoqrafiyalarının, "İqtisadi nəzəriyyə" (II hissə, BDU, 1997), "Azərbaycan iqtisadiyyatı" (1998), orta məktəblər üçün "İqtisadiyyat" (2007) dərsliklərinin, "İqtisadi terminlər lüğəti"nin (1994) müəlliflərindən biridir. Azərbaycan Milli Ensiklopediyasının, Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının müvafiq olaraq "İqtisadiyyat" və "Azərbaycan Xalq Cümhuriyyətinin sosial-iqtisadi siyasəti" hissələrini yazmışdır. İlk dəfə olaraq bir çox Azərbaycan mütəfəkkirlərinin (İ.Nəsimi, M.Füzuli, Ş.İ.Xətai, M.P.Vaqif, M.Ə.Sabir, M.Ə.Rəsulzadə) iqtisadi görüşlərini və Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi modelini tədqiq etmişdir.

XX-XXI əsrin başlanğıcı Azərbaycan iqtisadçılarının yaradıcılığına həsr olunmuş çoxsaylı məqalələrində, həmçinin "Azərbaycan iqtisad elminin görkəmli nümayəndələri" (2009) kitabında onların əsərlərinin təhlilini verməklə, iqtisad elmində, sanki, unudulmuş iqtisadi tənqid sahəsini inkişaf etdirmişdir. 1976-cı ildən indiyədək AMEA-nın İqtisadiyyat İnstitutunda, 1985-ci ildən etibarən həm də BDU-nun Dünya iqtisadiyyatı kafedrasında işləyir.

KƏRİMOV QÜDRƏT OSMAN OĞLU – Azərbaycan iqtisadçısı, i.e.d. Azərbaycanda ilk dəfə olaraq (1995-1998-ci illərdə) "Azad və Xüsusi İqtisadi Zonaların yaradılması fəaliyyəti və inkişafı problemləri Sumqayıt XİZ timsalında" mövzusunda elmi tədqiqat apararaq 1998-ci ildə dissertasiya müdafiə etmişdir. Sonra həmin mövzu üzərində daha geniş çalışaraq Azad və Xüsusi İqtisadi Zonalarda sahibkarlığın inkişafı problemləri ilə bağlı 100-dən çox elmi məqaləsi nəşr olunmuşdur. Üç kitabın müəllifidir. 2003-cü ildən iqtisad elmləri doktorudur. Bir ixtiranın və altı səmərələşdirici təklifin müəllifidir.



Azərbaycan Respublikası Prezidenti yanında Sahibkarlar Şurasının Sədr müavini, Azərbaycan Milli Sahibkarlar Konfederasiyasının İdarə heyətinin üzvü, Sumqayıt Regional Sahibkarlar Asossiasiyasının sədridir. Bir çox orden və medallarla, o cümlədən 2005-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə sahibkarlığın inkişafında xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

KƏSR SƏHMLƏŞDİRMƏ – dövlət müəssisələri Səhmdar Cəmiyyətinə çevrilərkən onların parçalanması. Bu halda bir iri struktur əvəzinə, bir neçə daha kiçik müstəqil təşkilat əmələ gəlir və ya törəmə şirkətləri olan holdinq yaradılır.

KFR (ing. *cost, freight, risk* – gəmi, kirə, risk) – bazis daşınma şərtləridir ki, buna uyğun olaraq satıcı gəmini kirələməli və müqavilədə göstərilmiş müddətdə malı (yükü) onun bortuna yükləməlidir. Təyinat limanında malın (yükün) boşalmasına görə xərcləri alıcı daşıyır (boşalma üzrə xərclərin avtomatik olaraq kirəyə daxil olması zamanı xətti daşımalar halları istisna olunmaqla).

KİBUTS – İsraildə kənd təsərrüfatı kooperativi forması. Bu kollektiv müəssisəsi formasında uşaqların tərbiyəsindən tutmuş boş vaxtın bir yerdə keçirilməsinədək bütün işlərlə məşğul olurlar.

"KİÇİK" İPOTEKA – hüquqlarına görə ipotekaya uduzan (güzəştə gedən) və bu səbəbdən də daha yüksək faiz dərəcəsinə malik olan ipoteka.

KİÇİK SAHİBKARLIQ SUBYEKTLƏRİNDƏ SADƏLƏŞDİRİLMİŞ UÇOTUN APARILMASI QAYDALARI – müvafiq icra hakimiyyəti orqanı tərəfindən kiçik sahibkarlıq subyektlərində mühasibat uçotunun aparılması üçün müəyyən edilmiş xüsusi qaydalar.

KİÇİK VƏ ORTA MÜƏSSİSƏLƏR – Avropa Komissiyası kiçik və orta müəssisələri aşağıdakı kimi müəyyənləşdirməyi təklif etmişdir:
– mikro müəssisələr: 10 nəfərdən az işçisi olanlar;
– kiçik müəssisələr: 50 nəfərdən az işçisi və illik dövriyyəsi 7 mln. avro və ya mühasibat balansı 5 milyon avrodan çox olmayanlar;
– orta müəssisələr: 250 nəfərdən az işçisi və illik dövriyyəsi 40 mln. avrodan və ya mühasibat balansı 27 milyon avrodan çox olmayanlar.
Azərbaycanda kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi onlarda çalışan işçilərin sayı və illik dövriyyə göstəriciləri əsasında aparılır.
"İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarlarının hədləri" haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 18 dekabr tarixli 192 nömrəli qərarında kiçik sahibkarlıq subyektləri aşağıdakı meyar hədləri üzrə müəyyənləşdirilir (bax: cədvəl 1).
Qərara müvafiq olaraq sahibkarlıq subyektinin kiçik sahibkarlıq sektoruna aid edilməsi üçün hər iki göstərici – işçilərin sayı və illik dövriyyə göstəriciləri bu sektor üçün müəyyənləşdirilmiş hədlər daxilində olmalıdır. Yeni fəaliyyətə başlayan sahibkarlıq subyektləri üçün 1 il müddətində bu hədlərlə müəyyən edilmiş işçilərin say meyarı əsas götürülür.
Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün bu hədlərlə müəyyən edilmiş illik dövriyyə meyarı əsas götürülür.

KİDLAND FİNN (1943) – Norveç iqtisadçısı. Karnegi-Melloni Universitetinin fəlsəfə doktorudur. Kaliforniya Universitetində dərs demişdir.



2004-cü ildə iqtisadi siyasətin zamanı və işçi dövrlərinin əlaqələndirilməsinə görə Nobel mükafatına layiq görülmüşdür.

KİSƏ – un, buğda, düyü və bəzi səpələnən, dağılan şeyləri saxlamaq və ya bir yerdən başqa yerə aparmaq üçün qab – torba.
Kisədən getmək – zərər dəymək, əldən çıxmaq – O, kisəmizdən getdi.
"Kisəsinə daş atmaq" – qəsdən pullarını xərclətmək, qurtarmaq.

"KİU" PLANI – özlərinin gələcək pensiya təminatı üçün kiçik firmalar və fərdi əmək fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaradılan pensiya planı.

KLASS – ilkin şirkətin, yəni sedent şirkətin polisi.

KLASSİFİKATOR, BEYNƏLXALQ – beynəlxalq təşkilat tərəfindən qəbul edilmiş klassifikator. Statistikada beynəlxalq klassifikatorların tətbiqi onların məzmununun klassifikatorlarına tam və ya qismən daxil edilməsi yolu ilə və ya keçid açarlarının işlənib hazırlanması yolu ilə təmin edilir. Beynəlxalq klassifikatorlar Birləşmiş Millətlər Təşkilatı (BMT); Avropa İttifaqı (Aİ); Beynəlxalq Valyuta Fondu (BVF); İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT); Gömrük Əməkdaşlığı Şurası (GƏŞ); Beynəlxalq Əmək Təşkilatı (BƏT); Dünya Səhiyyə Təşkilatı (DST) və s. kimi beynəlxalq təşkilatlar çərçivəsində işlənib hazırlanır. Statisitka məqsədləri ilə aşağıdakı beynəlxalq klassifikatorlardan geniş istifadə olunur: bütün iqtisadi fəaliyyət növləri üçün beynəlxalq standart sahəvi təsnifatlar (BSST); iqtisadi fəaliyyət növlərinin ümumi təsnifatı (FT); əsas məhsulların beynəlxalq təsnifatı (ƏMT); məhsulun Avropa təsnifatı (MT); beynəlxalq standart təsnifatı (BSTT); dövlət orqanları funksiyalarının təsnifatı (DOFT) və s.

KLASSİK DİXOTOMİYA – nominal və real dəyişənlərin klassik məktəbə görə bölgüsü. Bu məktəbin nümayəndələri belə hesab edirlər ki, real bazarları təmsil edən əmtəə, torpaq, kapital və əmək bazarları iqtisadi inkişafa daha güclü təsir edir. Pul real iqtisadiyyata bilavasitə yox, hesablaşma aləti və tədavül funksiyalarını yerinə yetirmək vasitəsilə təsir göstərir.

KLASSİK FOND BİRJASI – elə hərracdır ki, burada ticarət treyderlər arasında şifahi təminatlarla mübadilə vasitəsilə aparılır. Ən iri klassik fond birjası Nyu-York Fond birjasıdır. Bu cür birjalar dünyanın 60-dan çox ölkəsində fəaliyyət göstərir.

KLASSİK İQTİSADİ NƏZƏRİYYƏ – XVII əsrin ikinci yarısında kapitalizmin inkişafının manufaktura dövründə feodal münasibətlərinə qarşı yönəlmiş nəzəri silah kimi yaranmış, XIX əsrin ortalarında isə

Cədvəl 1

İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarlarının hədləri

İqtisadi fəaliyyət növləri*	işçilərin sayı	illik dövriyyə
Sənaye (B, C, D, E)	50 nəfərdən az	500 min manatdan az
Tikinti (F)	50 nəfərdən az	500 min manatdan az
Topdansatış ticarət (G, 45 və 46-cı bölmələr)	15 nəfərdən az	1.0 milyon manatdan az
Pərakəndə ticarət (G, 47-ci bölmə)	10 nəfərdən az	250 min manatdan az
Yaşayışın təşkili və ictimai iaişə (İ)	10 nəfərdən az	250 min manatdan az
Nəqliyyat və anbar təsərrüfatı (H)	10 nəfərdən az	250 min manatdan az
İnformasiya və rabitə (J)	10 nəfərdən az	250 min manatdan az
Maliyyə və sığorta (K)	10 nəfərdən az	250 min manatdan az
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar (L)	10 nəfərdən az	250 min manatdan az
Peşə, elmi və texniki fəaliyyət (M)	10 nəfərdən az	250 min manatdan az
Təhsil (P)	10 nəfərdən az	250 min manatdan az
Əhaliyə səhiyyə və sosial xidmətlər göstərilməsi (Q)	10 nəfərdən az	250 min manatdan az
İstirahət, əyləncə və incəsənət (R)	10 nəfərdən az	250 min manatdan az
Digər sahələrdə xidmətlər göstərilməsi (S)	10 nəfərdən az	250 min manatdan az

**) mötərizədə iqtisadi fəaliyyət növlərinin təsnifatına uyğun olaraq sektorların adının şərti işarəsi yazılmışdır.*

maşınlı sənaye dövrünə keçid, əmək ilə kapital arasında zidd - diyyətlərin inkişafı ilə əlaqədar öz dövrünü başa vurmuşdur.

Klassik iqtisadi nəzəriyyənin nümayəndələri: Vilyam Petti (1623-1687), Pyer Baugilber (1646-1724), Fransua Kene (1694-1774), Ann Robber Jak Türqo (1727-1781), Adam Smit (1723-1790), David Rikardo (1772-1823), Jan Şarl Leonar Sismondi (1773-1842).

Klassik nəzəriyyənin bir sıra sanballı elmi uğurları olmuşdur. O, iqtisadi hadisələrin mahiyyə - tinin öyrənilməsində mücərrəd metodun işlənib hazırlanmasının əsasını qoymuş, bu metod kapitalizmin obyektiv xarakter daşıyan iqtisadi qanunları problemini aşkar etməyə imkan vermişdir. Bu nəzəriyyə ilə əmək dəyər nəzəriyyəsinin əsası qo-

yulmuş və kapitalizmin təhlilində onun metodoloji rolu təyin edilmişdir. Müəyyən etmişdir ki, cəmiyyətdə iqtisadiyyatın fundamental əsası dəyərin yeganə mənbəyi olan əməkdir. Klassik iqtisadi nəzəriyyənin mühüm üstünlüklərindən biri bütün ictimai kapitalın təkrar istehsalı prosesinin F.Kenenin "İqtisadi cədvəl" əsərində (1758) təqdim edilən təhlili olmuşdur.


Klassik iqtisadi nəzəriyyə özünün qeyri-ardıcıl olması ilə səciyyəvidir. Bu nəzəriyyəyə görə kapitalizmin daxili qanunauyğunluqlarının təhlili çox vaxt iqtisadi hadisələr arasında zahiri asılılıqların təsviri ilə məhdudlaşır, bu isə iqtisadi fikrin bir-biri ilə mübarizə aparan cərəyanlarının (K.Marksın iqtisadi nəzəriyyəsinin və neoklassik məktəbin) yaranmasını şərtləndirmişdir.

Bizim dövrümüzdə "Klassik iqtisadi nəzəriyyə" termini makroiqtisadiyyatda çox vaxt məhz Keynsin izah etdiyi mənada istifadə olunur. Keyns klassik iqtisadi nəzəriyyə dedikdə iqtisadi hadisələrin kəmiyyət xarakterli funksional asılılıqlarını marjinalizm mövqeyindən tədqiq edən neoklassik nəzəriyyəni başa düşür, lakin öz konsepsiyalarında A.Smitin və D.Rikardonun bəzi müddəalarını saxlayırdı. Mikroiqtisadiyyatda bu termin A.Marşallın sələflərinin baxışlarını ifadə edir. Xronoloji baxımdan bu dövr Adam Smitdən 1970-ci ilə – neoklassik iqtisadi təhlil deyilən marjinalist istiqamət yaranana qədər zaman kəsiyini əhatə edir (bax: sxem 1).

KLASSİK MƏKTƏB – iqtisadi ədəbiyyatda bu anlayışın iki izahı verilir. Birinci izah K.Marks tərəfindən onun əsas nəzəri əsəri olan "Kapital" (1867) kitabında, ikinci izah isə C.M.Keynsin əsas əsəri olan "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" (1936) əsərində verilmişdir. Klassik məktəbi müəyyən edərək, K.Marks yazırdı ki, klassik siyasi iqtisad dedikdə o, burjua istehsal münasibətlərinin daxili asılılıqlarını tədqiq edən V.Pettidən başlayan bütün siyasi iqtisadı nəzərdə tutur. Onun əksi olan vulqar (bayağı) siyasi iqtisad yalnız xarici, görüntü verən asılılıqlar sayəsində yerində sayır. Klassik məktəb öz dövrünü yaşamış feodal qaydalarına qarşı yönəldilən nəzəri silah kimi kapitalizmin inkişafının manufaktura dövründə, XVII əsrin ikinci yarısında yaranmış və maşınlı sənaye dövrünə keçərək əməklə kapital arasında ziddiyyətlərin inkişafı ilə XIX əsrin sonu, XX əsrin əvvəlində öz ömrünü başa çatdırmışdır.

Böyük Britaniyada bu məktəbin əsası V.Pettinin (1623-1687) ilk iri əsəri olan "Vergilər və rüsumlar haqqında traktat" (1662) ilə başlanır. İngilis klassik məktəbi öz inkişafını D.Rikardonun (1772-1823) əsərləri ilə bitirir. Rikardonun əsas əsəri olan "Siyasi iqtisadın və vergi qoymanın əsasları" 1817-ci ildə dərc olundu. Fransada klassik məktəbin banisi P.Buagilber (1646-1714), onun sonuncu nümayəndəsi isə J.Ş.Sismondidir (1773-1842). Klassik məktəb XIX əsrin ortalarında səhnədən çıxmağa başladı. Buna səbəb fəhlə hərəkatının yüksəlişi şəraitində kapitalist iqtisadiyyatının daxili qanunauyğunluqlarının tədqiqinin burjuaziya sinfinin ideoloji və siyasi mənafelərinə cavab verməməsi idi. Klassik məktəb bir sıra nailiyyətlərlə xarakterizə olunur. Onun nümayəndələri ilk dəfə həm Avstriya məktəbindən əvvəl mövcud olan marjanilizm nəzəriyyəsinə, həm də onu əvəz edən neoklassik məktəbə xas olan təsviredici metodun əksinə olaraq iqtisadi hadisələrin mahiyyətinə nüfuz etmək üçün abstrakt metodu işləyib hazırlayırlar və tətbiq etdilər. Bu metod klassik məktəbə kapitalizmin iqtisadi qanunları problemini qoymağa, onların obyektiv xarakterinin dərk olunmasına yanaşmağa və təsərrüfat təcrübəsində istifadə edilməsi zəruriliyinə imkan verdi. Klassik məktəb əmək dəyər nəzəriyyəsinin başlanğıcını qoydu ki, buna uyğun olaraq əmtəələrin dəyəri onların istehsalına sərf olunan ictimai zəruri əməklə müəyyən olunur. Dəyərin vahid mənbəyi kimi cəmiyyətin iqtisadiyyatının fundamental əsasını – əməyi nəzərdən keçirərək, klassik məktəb bu nəticəyə gəldi ki, cəmiyyətin bütün siniflərinin gəlirləri olan əmək haqqı, mənfəət, renta, faiz və s. muzdlu fəhlələrin sərf edilmiş əməyinin yalnız müxtəlif ifadələridir. Burada Rikardo burjua cəmiyyətinin başlıca sinifləri olan fəhlələrlə kapitalistlər arasında iqtisadi ziddiyyətlərin mövcudluğu haqqında nəticəyə gəlmişdi. Klassik məktəbin ən iri nailiyyəti F.Kenenin "İqtisadi cədvəli"ndə (1694) verilmiş bütün ictimai kapitalın təkrar istehsalı

Müasir iqtisadi nəzəriyyənin əsas istiqamətləri



Sxem 1

prosesinin təhlili idi. Eyni zamanda iqtisadiyyatın bazar özünütənzimləməsi mexanizminin ilkin təsviri də (fiziokratların əsərlərində, A.Smitin rəqabətin "görünməz əllər" konsepsiyasında) klassik məktəbə məxsus idi. Bu məktəbin prinsipial nəticələri aşağıdakılardan ibarətdir: iqtisadiyyatın inkişafı rəqabəti zəruri edir; iqtisadiyyat həmişə müvazinətdədir; iqtisadiyyat özü qeyri-müvazinəti aradan qaldırır; iqtisadiyyatın inkişafını təmin edən istehsal amillərindən tam istifadə olunur; dövlətin iqtisadiyyata müdaxiləsi zəruridir; iqtisadiyyat əmək haqqı, qiymət, faiz dərəcəsi kimi iqtisadi alətlərdən istifadə etməklə özünü tənzimləyir. Klassik məktəbin baxışlarına görə əhalinin tam məşğulluğu təmin edilir. İqtisadiyyatı pul və real sektora bölən klassik məktəbin nümayəndələri qeyd edirlər ki, bu sektorlar çox müstəqildirlər.

Bununla belə, klassik məktəb qeyri-ardıcıllıqla, ziddiyyətlərlə xarakterizə olunur. Kapitaliz-

min daxili qanunauyğunluqlarına nüfuz etməklə yanaşı, o, bəzən iqtisadi hadisələrin xarici görünüşünün təsvir edilməsi və iqtisadi hadisələrin xarici funksional asılılıqlarının öyrənilməsi ilə məhdudlaşırdı. Buna görə, klassik məktəb konsepsiyasının xələfləri bir-biri ilə rəqabət aparan iqtisadi fikir cərəyanlarına ayrılırlar: bir tərəfdən K.Marksın iqtisadi nəzəriyyəsi, digər tərəfdən neoklassik məktəb.

C.M.Keynsin baxışlarına görə klassik məktəb real iqtisadi prosesləri obyektiv əks etdirməyin ideal, mücərrəd modelidir.

KLASTER TƏHLİLİ – arala - rındakı məsafə və yaxud əlaqələr (yaxınlıq ölçüsü) haqqında məlumatlar üzrə bir-birindən nisbətən "uzaqlaşdırılmış" "eyni cinsli" obyektlər qrupunun formalaşdırılması üçün nəzərdə tutulmuş, çoxölçülü statistik metodların məcmusu. Aralarındakı korrelyasiya əmsalının verilmiş matrisası üzrə sosial-iqtisadi göstəricilərin məcmusunun strukturunun, çoxsaylı təcrübədən asılı olmayaraq, eyni hüquqlu əlamətlərlə təsvir edilmiş sosial-iqtisadi obyektlərin (müəssisələrin, regionların və s.) təhlili üçün istifadə edilir. Klasterlərin axtarılıb tapılmasından asılı olaraq, klaster təhlili metodlarının iki əsas tipi fərqlənir: eyni vaxtlı (1) və ar - dıcıl (2). Birincilər arasında klaster strukturu ilə aşkar edilmiş bu və ya digər keyfiyyət göstə - ricilərinin optimallaşdırılmasına əsaslanan variasiya metodu və ən yaxın klaster cütlüyünün ar - dıcıl birləşməsinə əsaslanan aq - lomerativ metod geniş yayılmışdır. İkincilər arasında klaster anlayışının müəyyən edilməsinə əsaslanan metodları, bir qayda olaraq, maksimum mümkün "radius" və ya əlaqələrin "zərurilik astanası" terminlərini qeyd etmək olar.

Klaster təhlilin aqlomerativ qaydaları, adətən, tədqiqatçı tərəfindən bir sıra qərarların qəbuluna imkan verən, tədqiqatçı üçün şərhedilmə nöqteyi-nəzərindən daha mükəmməl olan parametrləri birləşdirir.

Klaster təhlilin iyerarxiya (uyğunlaşdırma) alqoritmləri – daha geniş yayılmış "öyrətmədən" təsnifləşdirmə metodu (EHM-də həyata keçirilmə mənasında) hesab olunur və iki növdə ola bilər: aqlomerativ və divizm. Aqlomerativ üsullarda bir elementlərdən ibarət siniflərin bölüşdürülməsi ilkin, bir sinifdən olanların bölüşdürülməsi isə sonuncu hesab olunur. Divizim üsullarda isə bunun tam əksinə olan proses baş verir.

İyerarxiya (uyğunlaşdırma) aqlomerativ (divizim) alqoritmlərin iş prinsipi ardıcıl olaraq əvvəlcə ən yaxın (uzaq), sonra isə bir-birindən (bir-birinə) daha uzaq (yaxın) elementlər qrupunun birləşməsindən (bölüşməsindən) ibarətdir. Bu alqoritmlərin əksəriyyəti məsafə (oxşarlıq) matrisasından çıxır və birbirindən siniflər arasındakı məsafənin hesablanması metodu ilə fərqlənir. Obyektlər arasın - dakı məsafə qismində daha çox Maxalanobis, evklidov və hem - minqov məsafəsindən, siniflər arasında isə "yaxın qonşu", "uzaq qonşu", "ağırlıq mərkəzi" sinifləri və "orta əlaqə" prinsipləri əsasında ölçülən məsafədən istifadə edilir.


Klaster təhlilin iyerarxiya alqoritmlərində təsnifat qismində daha geniş yayılmış meyar siniflərdaxili dispersiyanın minimuma endirilməsi hesab olunur.

KLAUZULA – sığorta müqaviləsində edilən düzəlişlər və şərtlər. Hər hansı müqavilədə (xüsusilə beynəlxalq müqavilələrdə və mövcud şəraitin dəyiş - məsi ehtimalı böyük olan hallarla bağlı müqavilələrdə, məsələn, sığorta müqaviləsində) edilən müəyyən qeyd-şərtlər və düzəlişlər bu qeyd-şərtlərə, əsasən müqavilənin bağlandığı andakı vəziyyətin dəyişməməsi halında müqavilənin qüvvədə olması şərti, müəyyən hallar baş verdikdə müqavilə öhdəliklərindən azadolma şərtləri və bu kimi digər şərtlər aiddir.

KLERK – bilavasitə müştərilərlə kassa əməliyyatları həyata keçirən bank işçisi. Mədaxil kassasının klerki və məxaric kassasının klerki ən çox yayılmış klerk kateqoriyalarıdır. İri banklarda, həmçinin, veksel klerki, kupon ödənişi üzrə klerk vəzifələri də olur.

KLEYMSLƏR – tədarük edilmiş malların vəziyyəti və ya keyfiyyəti ilə əlaqədar çatışmazlıqlarda alıcının satıcıya iddiaları, tələbləri və şikayətləri deməkdir.

KLEYN LOURENS ROBERT (1920) – amerikalı iqtisadçı, işgüzar fəallığın ekonometrik modellərinin yaradılması və təhlili sahəsində dünyada aparıcı mütəxəssis, keynsçilik nəzəriyyəsinin nümayəndəsi. "İqtisadi modellərin yaradılmasına və onların tsiklik dəyişikliklərin və iqtisadi siyasətin təhlilinə tətbiq edilməsinə görə"



Nobel mükafatı laureatıdır (1980). Berklidəki Kaliforniya Universitetində və Massaçusets Texnologiya İnstitutunda (MTN) riyazi və iqtisadi təhsil almışdır. Çikaqo Universitetinin nəzdində İqtisadi Tədqiqatlar üzrə Koulz Komissiyasının (1944-1946), Milli İqtisadi Tədqiqatlar Bürosunun (1948), Miçiqan Universitetinin Elmi İcmallar Mərkəzinin (1949-1954), Oksford Universitetinin nəzdində Statistika institututunun (1954-1958) əməkdaşı işləmişdir. 1958-ci ildən Pensilvaniya Universitetinin iqtisadiyyat kafedrasının əməkdaşı, 1968-ci ildən iqtisadiyyat və maliyyə kafedrasının professorudur. Amerika İqtisadi Cəmiyyətinin, Amerika Elmin İnkişafına Yardım Assosiasiyasının və Amerika Fəlsəfə Cəmiyyətinin üzvüdür. ABŞ Prezidenti C.Karterin iqtisadi müşaviri olmuşdur (1975). Amerika İqtisadi Assosiasiyasının C.B.Klark adına medalı ilə (1959) və Nyu-York Biznesmenlər Assosiasiyasının U.Batler adına mükafatı (1957) ilə təltif edilmişdir.

Kleynin iqtisadi nəzəriyyə sahəsinə ən böyük töhfəsi – iqtisadi inkişafın proqnozlaşdırılmasında geniş praktik tətbiqini tapan miqyaslı makroiqtisadi ekonometrik modellərin işlənib hazırlanmasıdır. Onun 1946-cı ildə Koulz Komissiyasında qurduğu Amerika iqtisadiyyatının modeli belə bir geniş yayılmış qənaəti təkzib etmişdir ki, 1939-1945-ci illər İkinci Dünya müharibəsindən sonra ABŞ mütləq 1914-1918-ci illərdə Birinci Dünya müharibəsindən sonra baş verən depressiyanı yaşayacaqdır. Kleynin ordudan tərxis olunan insanların alıcılıq qabiliyyəti hesabına istehlak mallarına olan ödənilməyən tələbinin təsiri altında iqtisadiyyatın inkişaf etməsi proqnozu tamamilə özünü doğrultdu. Onun 50-ci illərdə Koreya müharibəsinin ABŞ iqtisadiyyatına təsiri proqnozu da dəqiq oldu. Öz aspirantı A.Qoldbergerlə birgə işləyib hazırladığı Amerika iqtisadiyyatı modeli (Kleyn-Qoldberger modeli) o dövrün milli təsərrüfatının miqyaslı modellərinin qurulması nümunəsinə çevrildi. 50-ci illərin sonundan etibarən Kleyn Amerika iqtisadiyyatı modelini qurmağa başladı ki, bunlar da iqtisadi inkişafın qısamüddətli proqnozları üçün yararlı oldu. Sonradan onların əsasında Kleyn illik və rüblük ekonometrik modelləri təkmilləşdirdi. Pensilvaniya Universitetində işlənib hazırlanmış Amerika iqtisadiyyatının proqnozlaşdırılmasının Uorton modeli çox geniş yayıldı. Bu modeldən indiyə kimi milli məhsuldakı dəyişikliklərin, ixracın, investisiyaların, istehlakın və s. göstəricilərin proqnozu, eləcə də bu dəyişikliklərin vergi qoymaya, dövlət xərclərinə və s. təsirlərini öyrənmək üçün istifadə olunur.

Kleyn bir çox ölkələr, o cümlədən İsrail, Meksika, Yaponiya üçün ekonometrik modellər işləyib hazırlamışdır. O, 1968-ci ildən LİNK tədqiqat layihəsi üzərində işə rəhbərlik etmişdir ki, bunun da məqsədi müxtəlif ölkələrdə ekonometrik modellərin koordinasiyası və konyunktura dəyişikliklərin təhlili imkanlarının genişlənməsi və beynəlxalq iqtisadi əlaqələrin, dünya ticarətinin və kapitalın hərəkətinin inkişafında proqnozlaşmanın yüngülləşməsi üçün bu modellərin vahid sistemə inteqrasiya olunmasıdır. Layihənin əlavə məqsədi digər ölkəyə siyasi tədbirlərin iqtisadi səmərəsinin təhlili və onun birinci ölkənin iqtisadiyyatına əks təsiridir. LİNK layihəsi bunda iştirak edən bütün ölkələrdə ekonometrik modellərin yaradılmasını təşviq edirdi.

KLEYN MODELİ – 1921-1941-ci illər ərzində ABŞ iqtisadiyyatının makroiqtisadi inkişaf modeli. Bu modeldə olan bütün iqtisadi əlaqələr xətti formada verilmişdir ki, bu da həlli asanlaşdırır.

Model üç struktur səviyyədən və üç bərabərlikdən ibarətdir. Tənlik istehak funksiyasını, investisiya funksiyasını, özəl bölmədə əmək haqqı funksiyasını ehtiva edir. Bərabərlik istehlakın, investisiyaların və dövlət xərclərinin cəminin milli gəlirə (üstəgəl dolayı vergilər) standart bərabərliyini, milli gəlirin özəl və dövlət bölməsində əmək haqqı cəmi, üstəgəl mənfəətə bərabər olmasını və nəhayət, kapital artımının investisiyalara bərabərliyini daxil edir. 1950-ci ildə Pensilvaniya Universitetinin professoru, Nobel mükafatı laureatı Lourens Kleyn tərəfindən dərc olunmuşdur.

1929-1952-ci illər (müharibə illərindən başqa) ABŞ iqtisadiyyatı üçün Kleyn-Qoldberger makroiqtisadi modeli 20 tənlik-

dən ibarətdir ki, bunların 15-i iqtisadi davranışı əks etdirir və statistik xarakter daşıyır, 5-i isə bərabərlikdir. Onun mərkəzində keynsçilik nəzəriyyəsinə uyğun olaraq məcmu istehlak tələbi amili, eləcə də digər maddi (istehsal) və monetar dəyişən kəmiyyətlər durur. Kleynin adı həmçinin dünyada məşhur olan ölkə iqtisadiyyatının makroiqtisadi proqnoz modeli – Uorton modeli ilə də əlaqədardır.



Henry Delamar Kleyton

KLEYTON QANUNU (Clayton akt.) – rəqabəti məhdudlaşdıran sahibkarlıq fəaliyyəti və inhisarların statusu haqqında Şerman qanununun müddəalarını dəqiqləşdirmək üçün 1914-cü ildə ABŞ-da qəbul edilən qanunverici akt.

Kleyton qanunu aşağıdakıları qadağan edirdi: a) bazarın rəqabətlilik dərəcəsini xeyli azaldan qiymət ayrı-seçkiliyinin praktik olaraq bütün formalarını; b) satıcının rəqibləri ilə alıcının əməkdaşlığına yol verməyən müqavilənin bağlanılmasını; c) əlaqəli müqavilələrin bağlanılmasını, yəni alıcının ona lazım olan məhsulla yanaşı lazım olmayan məhsulu almağa məcbur edilməsini – "yüklü" malların satışını; ç) səhmlərin qarşılıqlı alqı vasitəsilə qovuşmasını (əgər bu cür qovuşmanın nəticəsi rəqabətin xeyli məhdudlaşmasına səbəb ola bilərsə); d) müxtəlif müəssisələrin direktorlar şurasında şura üzvlərinin eyni zamanda bir neçə vəzifəni daşımasını. Həmin ildə ABŞ Konqresi Kleyton qanununu tamamlayan Federal Ticarət Komissiyası haqqında qanunu qəbul etdi. 1936-cı ildə Kleyton qanununa qiymət ayrı-seçkiliyini daha da məhdudlaşdıran (Robinson-Patman qanunu), 1950-ci ildə isə qovuşmanı daha da məhdudlaşdıran düzəliş (Seller-Kefover qanunu) edildi.

KLİOMETRİKA – iqtisadi tarixi təhlilin kəmiyyət metodlarından, statistik modelləşdirmə üsullarından istifadə etməklə öyrənilən qarışıq tarixi-iqtisadi fənn. Kliometrika elmi cərəyan kimi Qərb iqtisadçılarının (U.Rostou, R.Qold Smit, S.Kuznets, K.Errou, D.Nort, R.Foudjel və başqaları) xalq təsərrüfatının ənənəvi təsvir tarixinə qarşı müharibədən sonrakı əsərlərində öz əksini tapmışdır.

KLİRANS (ing. *clearance*) – gəmilərin limanlara girməsi və çıxması, həmçinin yüklərin ölkəyə gətirilməsi və ölkədən çıxarılması haqqında gömrük orqanlarının qanunla müəyyən edilmiş qaydalarının yerinə yetirilməsi.

KLİRİNQ (ing. *clearing* – təmizləmək) – banklar arasında qarşılıqlı hesablaşma sistemi. Bu zaman iştirakçılar pul iddiaları (debitor borcu) real pullardan istifadə etmədən onların pul öhdəlikləri ilə (kreditor borcu ilə) ödənilir. Klirinq – hesablaşmalar sisteminin bir və ya bir neçə iştirakçısının həmin sistemin bir və ya bir neçə digər iştirakçısına verdiyi və ya onlardan aldığı ödəniş məbləğləri üzrə yaranan tələblərin və öhdəliklərin, onların fərqi olan bir real tələbə və ya bir real öhdəliyə çevrilməsi prosesidir.


Klirinq əməliyyatları adətən iki əlamətə görə təsnifləşdirilir: həyata keçirilmənin dövriliyinə və iştirakçıların tərkibinə görə. Birinci əlamətə görə klirinq birdəfəlik əməliyyata bölünür ki, bu da debitor-kreditor borcu yığıldıqca epizodik olaraq həyata keçirilir, yaxud iştirakçıların pul iddialarının və pul öhdəliklərinin vəziyyətindən asılı olaraq həyata keçirilən, daim fəaliyyətdə olan əməliyyata bölünür. İştirakçıların tərkibindən asılı olaraq klirinq ikitərəfli və çoxtərəfli formada ola bilər.

Pul hesablaşmalarının ardıcıl zəncirini quran zaman klirinq onun iştirakçıları arasında təsərrüfat və digər əlaqələrin mövcudluğu zamanı mümkündür.

Dünyada ilk bank klirinq mərkəzləri XVIII əsrdə Böyük Britaniyada meydana gəlmişdir. Rusiyada klirinq əməliyyatlarını 1898-ci ildə Dövlət bankı idarələrinin nəzdində yaradılan hesablaşma palataları həyata keçirmişlər.

Klirinq hazırda həm klirinq idarəsində iştirakçıların hesablarında vəsaitlərin ilkin deponentləşməsi ilə, həm də deponentləşmədən həyata keçirilə bilir. Təcrübədə aşağıdakılar da fərq-

Klirinq iştirakçılarının əlaqəsi



Sxem 1

ləndirilir: bank klirinqi, valyuta klirinqi, daxili klirinq, çoxtərəfli klirinq.

KLİRİNQ BANK – mərkəzi bankın müxbir bankları. Birja sazişləri üzrə xarici valyutada hesablar həmin müxbir banklar vasitəsilə aparılır. Bank onun açdığı hesablar üzrə xidmətlər göstərir: maddi dəyərlilərin vəziyyətinə dair informasiyanın verilməsi, qiymətli kağızların alınması və daşınması, ödənişlərin və hesablaşmaların həyata keçirilməsi və s.

KLİRİNQ, BANKLARARASI – ölkə daxilindəki banklar arasında hesab və ya klirinq palataları adlandırılan xüsusi institutlar vasitəsilə nağdsız hesablar şəklində həyata keçirilən qarşılıqlı hesablar sistemi. Məlumat ötürülməsinin elektron vasitələrinin bank işinə fəal tətbiqi avtomatlaşdırılmış hesab palataları yaratmağa imkan verdi ki, bunlar da müxtəlif ölkələrdə fəaliyyət göstərir və elektron məlumat daşıyıcılarının köməyi ilə qarşılıqlı ödəmələrə əsaslanır.

KLİRİNQ, BANKLARARASI HESABLAR SİSTEMİNDƏ BANK PLASTİK KARTLARI ƏSASINDA – sistemin üzvlərinin prosessindən sonrakı qarşılıqlı tələb və öhdəliklərinin hesablar aparmaq üçün mövqelərini çıxarmaq və sonra sistemin hesab bankına ötürmək yolu ilə qarşılıqlı hesab prosesi (bax: sxem 1).

KLİRİNQ BAZARI – qarşılıqlı tələblər, öhdəliklər hesabına əsaslanan nağdsız hesablaşmalar sistemi. Bu metodla ticarət zamanı müntəzəm olaraq bütöv sazişlər paketi həyata keçirilir. Klirinq zamanı daxil olan sifarişlərin çeşidlərə ayrılması baş verir. Satış sifarişləri sifariş tiplərindən asılı olaraq bölüşdürülür.

KLİRİNQ, ÇEKLƏ – çeklərlə hesab üzrə mərkəzləşdirilmiş qarşılıqlı hesablar sistemi (çeklər yönəldikləri banklara göndərilir, əvəzində pul köçürmələri gəlir). Çeklə klirinq, klirinq palataları, çeklər üzrə xüsusi hesab sistemləri (ABŞ-da) və ya birbaşa banklar arasında həyata keçirilir.

KLİRİNQ, ÇOXTƏRƏFLİ – bir sıra ölkələrin hökumətləri arasında mərkəzi banklar vasitəsilə qarşılıqlı tələblərin qarşılıqlı hesabı haqqında bağlanılan müqavilə.

KLİRİNQ, DAXİLİ – bir dövlət daxilində çeklər üzrə ödəmələrin qarşılıqlı hesabı.

KLİRİNQ EVİ – fyuçers və ya fond bazarlarında bağlanmış müqavilələr əsasında maliyyə əməliyyatları üzrə qarşılıqlı əvəzləmə və hesablaşma xid-


mətlərini həyata keçirir. Klirinq evi adını almış bir struktur kimi və ya müstəqil təşkilat kimi fəaliyyət göstərə bilər.

Klirinq evi inzibati mərkəz kimi çıxış etməklə, alıcı və satıcılar arasında müqavilə üzrə öhdəliklərin vaxtında və tam həcmdə yerinə yetirilməsinə kömək etməklə onların işini asanlaşdırır və risklərini azaltmış olur.

KLİRİNQ FƏALİYYƏTİ – qiymətli kağızlarla əqdlər üzrə qarşılıqlı öhdəliklərin müəyyən edilməsi (məlumatların toplanılması, yoxlanılması, üzləşdirilməsi, mühasibat sənədlərinin hazırlanması), hesablaşmaların aparılması və öhdəliklərin qarşılıqlı icrasının təmin edilməsi üzrə peşəkar fəaliyyət.

KLİRİNQ HESABLARI – 1) bütün idxal-ixrac əməliyyatlarından alınan vəsaitlərin qabaqcadan razılaşdırılmış milli valyuta kursların müvafiq olaraq bir hesab xəttində cəmləşməsi ilə dövlətlərarası hesablar; 2) klirinq palatası vasitəsilə hesablar (bax: sxem 1).

Klirinq iştirakçılarının əlaqəsi



Sxem 1

KLİRİNQ, İKİTƏRƏFLİ – iki ölkənin hökumətləri arasında onların mərkəzi bankları vasitəsilə qarşılıqlı tələblərinin, qarşılıqlı hesabı haqqında bağlanmış müqavilə.

KLİRİNQ MÜQAVİLƏSİ – bir neçə ölkənin hökumətləri və ya mərkəzi bankları arasında xarici ticarətdə qarşılıqlı tələb və öhdəliklərin mərkəzləşdirilmiş qarşılıqlı məqbulu haqqında müqavilə. Banklar arasında nağdsız hesablar fond və əmtəə birjalarında bağlanmış sazişlər üzrə hesabları həyata keçirən və onların yerinə yetirilməsinə nəzarət edən hesab palataları vasitəsilə həyata keçirilir.

KLİRİNQ PALATASI – hər hansı bir regionun bank nümayəndələrinin hər gün qabaqcadan təyin etdikləri vaxtda müəyyən edilmiş yerdə klirinq əməliyyatları üzrə nəticə balansları tərtib edərək çeklərin qarşılıqlı hesabının aparılması.

KLİRİNQ SAZİŞİ – qarşılıqlı ticarətdə tarazlığa nail olmaq üçün ixrac gəlirlərində istifadə edilməsi nəzərdə tutulan beynəlxalq ticarət sazişi. 1920-ci illərin axırlarında ikitərəfli sazişlər kimi formalaşmış, sonradan çoxtərəfli tədiyə sazişlərinə çevrilmişdir. Bu cür sazişlərin bağlanması rəsmi mübadilə kursundan istifadə edilməsini nəzərdə tutur.

KLİRİNQ SEANSİ – müddəti digər ödənişlərin klirinq sisteminin qəbulu və emalı qrafiki ilə müəyyən olunan dövrdür və bura iştirakçı bankların göndərdikləri və aldıqları elektron ödəmə məlumatlarının yığılması daxildir.

KLİRİNQ SİSTEMİ "Clearstream" – qiymətli kağızların klirinqi, tənzimlənməsi və mühafizəsi üçün 2000-ci ildə beynəlxalq Cedel İnternational və Deutsche Borse Clearing şirkətlərinin birləşməsi nəticəsində yaranmışdır.

KLİRİNQ, VALYUTA – mal tədarüklərinin və göstərilən xidmətlərin dəyər bərabərliyindən irəli gələn tələb və öhdəliklərin qarşılıqlı hesabı haqqında hökumətlərarası müqavilə. Valyuta klirinqinə məcburi elementlər dəsti: klirinq hesabları sistemi; klirinqin həcmi (mal dövriyyəsi üzrə bütün ödənişlər və ya onların bir hissəsi); klirinq valyutası (hesabların razılaşdırılmış valyutası); texniki kreditin həcmi (borcun yol verilən saldosu – dövriyyədən faizlə və ya mütləq ölçü şəklində); ödənişlərin bərabərləşdirilməsi sistemi (saldo borcunun ödənilməsi üsuluna görə konversiya etmək hüququ olmayan valyuta klirinqinin – yalnız mal tədarükü ilə ödəmələr, məhdud və ya tam konversiya ilə valyuta klirinqi); hökumətlərarası müddət başa çatdıqda son ödəmə saldosu sxemi daxildir. Valyuta klirinqi əsasında həmçinin müvafiq ölkələrin rezident firmalarının qarşılıqlı hesabları həyata keçirilir. Valyuta orqanları icazə verdikdə valyuta klirinqi konvertasiya edilmiş valyutada hesablara mane olmur. Bəzi hallarda klirinq valyutası ilə işləyən firma həmin ölkənin rezident firması ilə pul ödənişləri həyata keçirə bilər.

KLUB – adətən eyni peşə, ümumi maraqlar və s. sahiblərinin üzvü olduqları könüllü cəmiyyət. Onlar müəyyən yerdə yığışıb birgə vaxt keçirib və ya elmi, bədii, siyasi və başqa məqsədlərlə toplaşırlar.

KLUB, LONDON – kommersiya bank-kreditorlarının rəsmi borclular ilə danışıqlar aparılması üçün yaratdıqları klub.

KLUB, PARİS – kreditor ölkələr birliyi ("böyük yeddilik" və Avstriya, Niderland, Belçika, İspaniya, Norveç, İsveç, İsveçrə); suveren borclulara kredit şərtlərinə yenidən baxılması məsələlərinin müzakirəsi üçün kreditor-ölkələrin qeyri-rəsmi təşkilatı.

KOBB-DUQLAS FUNKSİYASI – 1920-1930-cu illərdə ABŞ iqtisadiyyatının inkişafının təhlili zamanı Ç.Kobb və P.Duqlas tərəfindən tətbiq edilən istehsal funksiyası. Sadə riyazi formaya malikdir:

$$N = A \times L^{\alpha} \times K^{\beta}$$

Burada: N – milli gəlir; A – ölçü əmsalı; L, K – müvafiq olaraq qoyulmuş əmək və kapital obyektləri; α və β – konstantlar və ya sabit kəmiyyətlərdir (L əməyinə, K isə kapitalına görə istehsalın elastiklik əmsalı).

KOLBERTİZM – XVII əsrdə Fransada maliyyə naziri J.B. Kolber tərəfindən həyata keçirilən merkantilizm siyasəti. Bu siyasət sərt gömrük proteksionizmi (himayəçilik), daxili istehsal üzərində tam nəzarət və iqtisadiyyatın dövlət tənzimləməsini özündə əks etdirirdi.

KOLXOZ – kollektiv təsərrüfatın formalarından biri. Keçmiş SSRİ iqtisadiyyatına xas olan təsərrüfat subyekti. SSRİ-də ictimai istehsal vasitələri və kollektiv əmək əsasında iri sosialist kənd təsərrüfatı istehsalını birgə aparmaq üçün kəndlilərin könüllü kooperativ təşkilatı. Kənd təsərrüfatının sosialistcəsinə ye-



Kolxoza yeni üzvlərin qəbulu (1930-cu il)

nidən qurulması çərçivəsində yaradılan bu təsərrüfatın üç forması məlumdur: kənd təsərrüfatı kommunaları, torpağın birgə becərilməsi yoldaşlıqları (birlikləri) və kənd təsərrüfatının sosialist strukturunda bu formalardan biri olan kənd təsərrüfatı artelləri. Kənd təsərrüfatı artellərində torpaqdan istifadə, əmək və əsas istehsal vasitələri, iş heyvanları, texnika, məhsuldar heyvanlar, təsərrüfat tikililəri və s. ictimailəşdirildi. Kolxozçunun şəxsi mülkiyyətində yaşayış evi və həcmi Nizamnamədə müəyyən edilən yardımçı təsərrüfat, o cümlədən məhsuldar heyvan qalırdı.

Kollektiv təsərrüfatın xüsusi forması kimi kolxoz üçün xarakterik cəhət – əmək məsrəflərinin uçotu və əməyin ödənilməsi fondunun bölgüsü üçün istifadə edilən əməkgünün bölünməz fondlar kateqoriyasının (pay haqlarından fərqli olaraq), torpaqdan istifadənin xüsusi sisteminin (dövlət mülkiyyəti olan torpaqlardan "daimi" istifadə), şəxsi təsərrüfatlar (ŞYT) və maşın-traktor stansiyaları (MTS) sistemi ilə xidmət göstərilməsinin mövcudluğudur (bax: cədvəl 1, 2).

Kolxozun ictimai mülkiyyəti – müəssisələr, binalar, texnika, iş heyvanları, məhsuldar heyvanlar, bağlar, materiallar (toxum, gübrə almaq, kanallar çəkmək və s.) hesab olunurdu. Kolxozda istehsalın və əməyin təşkili formaları sahə, ferma, briqada, manqa və digər bölmələrdən ibarət idi. Kolxozda bütün işləri kolxozçular görür (kənd təsərrüfatı işlərinin qızğın çağında işçi qüvvəsi çatışmayan hallar istisna olmaqla). Kolxoz ümumi məhsulun bir hissəsinin maddi məsrəflərin ödənilməsinə ayırır, əmək haqqı fondu yaradırdı. Xalis gəlirdən vergiləri, dövlətə pul tədiyələrini ödəmək, əsas və dövriyyə fondlarını artırmaq, mədəni-məişət, ictimai təminat və maddi yardım fondları yaratmaq, işçiləri maddi cəhətdən həvəsləndirmək və s. məqsədlər üçün istifadə olunurdu. Kolxoz natural məhsuldan toxum fondu yaradır, dövlətə kənd təsərrüfatı məhsulları satışı planını yerinə yetirir, əmək haqqı, yaxud kolxozçulara satmaq üçün natural və yem fondu yaradırdı. Kolxoz əməyin kəmiyyət və keyfiyyətinə uyğun təminatlı əmək haqqı (1966-cı ildən sonra), əlavə haqq verilməsini və maddi həvəsləndirmənin digər növlərini müəyyən edir. Kolxoz üzvləri pensiya, yollanış və sosial sığortanın digər növləri ilə təmin olunurdu. İctimai istehlak fondu hesabına körpə evləri, uşaq bağçaları saxlanılır, mədəni tədbirlər və s. həyata keçirilirdi. İdarəetmənin ali orqanı kolxozçuların ümumi yığıncağı hesab edilirdi. Kolxoza ümumi rəhbərlik üçün sədr başda olmaqla, kolxozun idarə heyəti və onun fəaliyyətinə nəzarət edən təftiş komissiyası seçilirdi.

Müasir siyasi iqtisadda və aqrar elmində kolxoz kənd təsərrüfatı istehsalı kooperativləri kimi nəzərdən keçirilirdi. Həqiqətdə isə xüsusilə zorla kütləvi kollektivləşmə prosesində (1929-1933-cü illər) kolxozlar öz mahiyyətini itirmişdi, belə ki, hər şeydən əvvəl, könüllü birləşmə, torpaq payı daxil olmaqla kooperativ üzvünün öz pay haqqı hüququ, özünü idarəetmə əsasında təsərrüfat fəaliyyətinin həyata keçirilməsi kimi əsas kooperativ prinsiplərinə riayət olunmamışdı. Kolxoz bölməsi əslində yalnız məhsulun satışı üzrə yox, həm də əkin sahələri, mal-qara və s. üzrə konkret dövlət tapşırığına qədər çatdırılmasını nəzərdə tutan vahid mərkəzləşdirilmiş, planlaşdırılmış sistemə daxil olmuşdu. Gəlirlərin böl-

Cədvəl 1

Azərbaycan SSR-də kolxozların inkişafının əsas göstəriciləri (balıqçılıq istisna olmaqla)

	1965	1970	1975	1979
Kolxozların sayı (ilin sonuna)	982	985	867	625
İctimai təsərrüfatda məşğul olan kolxozçuların orta illik sayı, min adam	320	274	292	289
Ümumi kənd təsərrüfatı məhsulu (1973-cü ilin müqayisəli qiymətləri ilə), mln. rubl	402,5	430,8	556,4	751,0
Əsas və dövriyyə vəsaitləri ilə kolxozların bölünməz fondları (ilin sonuna), mln. rubl	440,2	435,8	776,1	988,2
Kolxozların ümumi gəliri (faktiki qiymətlərlə), mln. rubl	242,5	305,9	430,3	702,8
Bütün ictimai əkinlərin sahəsi, min ha	827,5	817,9	848,1	751,7
İctimai məhsuldar mal-qaranın sayı (ilin sonuna), min baş:				
iribuynuzlu mal-qara	511,6	499,1	495,2	388,3
o cümlədən, inəklər və camışlar	150,1	135,6	127,7	107,7
donuzlar	37,5	45,4	43,8	31,3
qoyun və keçilər	1955,3	1680,1	1866,2	1521,0
o cümlədən, qoyunlar	1935,8	1663,5	1850,1	1508,5



Cədvəl 2

SSRİ-də kolxozların inkişafının əsas göstəriciləri (balıqçılıq istisna olmaqla)

	1980	1985	1986	1987	1988	1989
Kolxozların sayı (ilin sonuna), min	25,9	26,2	26,3	26,6	26,9	27,9
İctimai təsərrüfatda məşğul olan kolxozçuların orta illik sayı, mln. adam	13,3	12,7	12,6	12,2	11,8	11,8
Kənd təsərrüfatı məhsulu (1983-cü ilin müqayisəli qiymətləri ilə), mlrd. rubl	66,0	73,9	77,6	79,2	79,3	82,1
Kənd təsərrüfatı təyinatlı əsas istehsal fondları (ilin sonuna köhnəlmə çıxılmamaqla balans dəyəri), mlrd. rubl	94,1	126,6	134,1	139,5	146,4	155,6
Kolxozların ümumi gəliri (faktiki qiymətlərlə), mlrd. rubl	19,6	35,2	37,9	40,4	47,9	54,0
Mənfəət, mlrd. rubl	-0,2	10,7	21,1	14,3	20,6	23,9
Rentabellik səviyyəsi (realizasiya olunmuş məhsulun maya dəyəri ilə mənfəətin əlaqəsi), faizlə	-0,4	19	21	24	33	35
Mənfəətlə işləyən təsərrüfatların sayı: min	12,2	22,8	23,9	24,0	26,5	27,6
cəmi təsərrüfatlara nisbətən faizlə	47	87	91	90	98	99
Zərərlə işləyən təsərrüfatların, sayı min	13,7	3,4	2,4	2,6	0,4	0,3
cəmi təsərrüfatlara nisbətən, faizlə	53	13	9	10	2	1
İctimai təsərrüfatda çalışan kolxozçuların orta aylıq əmək haqqının ödənilməsi, rubl	118,5	153,4	163,0	170,2	181,8	200,8
Bütün ictimai əkinlərin sahəsi, mln. ha	95,2	91,3	91,5	91,9	91,9	91,6
İctimai məhsuldar mal-qaranın sayı (ilin sonuna), mln. baş:						
iribuynuzlu mal-qara	47,9	50,6	51,4	50,7	50,0	49,5
o cümlədən, inəklər	16,1	15,8	15,7	15.5	15,3	15,3
donuzlar	28,1	29,1	29,8	28,3	28,2	28,5

güsünün qalıq prinsipi kolxoz - çuların daha yüksək məhsuldar əməyə şəxsi maddi marağını kökündən sarsıdırdı.

Plan tapşırıqlarının inzibati bölgüsünün, kolxozun təsərrüfat fəaliyyətinə bilavasitə müdaxiləsi nəticəsində kooperativ idarəetmənin və kooperativ prinsiplərin dağılmasının mənfi nəticələrinin əyani surətdə baş verdiyi 60-cı illərdə təsərrüfatçılığın demokratik prinsiplərinin möhkəmlənməsi, kolxozçuların əməyinin nəticələrində onların maddi marağının gücləndirilməsi üzrə tədbirlər həyata keçirildi. Əmək günü müəyyən səviyyədə təminat verən əməyin pulla ödənilməsi ilə əvəzləndi, sərbəst reallaşma kanalları üzrə məhsulun satın alınması genişləndi, plandan artıq satınalmalara daha yüksək qiymətlər qoyuldu. İstehsalın strukturunun müəyyən edilməsində təsərrüfat müstəqilliyi genişləndi, işdə təsərrüfat hesabı möhkəmləndi, əməyin təşkilinin yeni formaları tətbiq olundu. 1969-cu ildə kolxozun demokratikləşməsi və maddi stimulların gücləndiril-





məsi yollarında kolxoz sistemində dəyişiklikləri möhkəmlədən yeni kolxoz nizamnaməsi qəbul olundu.

Lakin bu dəyişikliklər kolxozun yalançı kooperativ əsaslarına toxunmadı. Hətta kolxozda ictimailəşmə səviyyəsinin daha da yüksəldilməsi elan edildi, kolxoz-kooperativ mülkiyyətinin dövlət mülkiyyətinə yaxınlaşması və sonradan qovuşması kursu həyata keçirildi, kolxozun planlı surətdə dövlət tərəfindən idarə edilməsi üstünlüyü dəyişməz olaraq qalırdı. Hərçənd ki, kolxozun ümumi inkişaf göstəriciləri, hər şeydən əvvəl istehsalın həcmi artırdı, məsrəfli təsərrüfat mexanizmi fəaliyyət göstərməkdə davam edirdi, ucuz kreditlər dövlətə qayıtmırdı, iri məbləğdə silinirdi.

Satış qiymətlərinin yüksəldilməsinə baxmayaraq, rentabellik yüksək deyildi və azalmağa doğru meyil edirdi.

90-cı illərin əvvəllərindən başlayaraq kolxozların yenidən təşkili onların bir qisminin parçalanaraq kənd təsərrüfatı istehsalı kooperativlərinə çevrilməsinə gətirib çıxardı. Əvvəlki status bəzi ölkələrdə kolxozun bir hissəsini qoruyub saxladı, lakin təsərrüfat-istehsal və sosial münasibətlərdə və bu qrupdan olan kənd təsərrüfatı müəssisələrində əhəmiyyətli dəyişikliklər baş verdi.

Hər şeydən əvvəl bu onunla əlaqədardır ki, əvvəlki kolxozçular torpaq da daxil olmaqla əvvəlcədən ictimailəşmiş əmlakın bir hissəsinin sahibləri oldular, yəni özünəməxsus ictimailəşmənin parçalanması baş verdi: 1) təsərrüfatlararası kənd təsərrüfatı müəssisələri də kollektiv müəssisənin bir növüdür; 2) şəxsi təsərrüfatlar müstəqil təsərrüfat kateqoriyasıdır.

Bütün bunlarla yanaşı, Azərbaycan kəndinin inkişafında kolxozların oynadığı müsbət rolu da unutmaq olmaz. Ümumilli lider Heydər Əliyev bu barədə demişdir: "30-cu ilərdə keçmiş Sovetlər İttifaqında Kommunist Partiyasının siyasəti sayəsində kənd təsərrüfatında aqrar bölmədə böyük dəyişikliklər aparılmışdır. Kollektivləşmə prinsipi ortaya atılmış və ardıcıl surətdə həyata keçirilmişdir. Torpaq və ümumiyyətlə kəndlinin bütün əmlakı ümumiləşdirilmiş, kollektiv təsərrüfata verilmişdir. Tarixdən bizə məlumdur ki, bu proses çox ağır və əzablı gedibdir, böyük itkilərlə müşayiət olunubdur. İnsanlar həlak olmuş, var-dövlətini itirmiş, yaşadığı yerdən təcrid edilmişlər, bu kollektivləşdirmə prinsipinin həyata keçirilməsi üçün bəziləri sürgün olunmuşlar. Bütün bunların nəticəsində bir neçə ildən sonra, yəni əgər kollektivləşdirmə 1930-cu ildə başlayıbsa, 1937-1938-ci illərdə elan olundu ki, artıq Sovetlər Birliyində sosializmin əsasları quruldu, ümumi kollektivləşdirmə başa çatdı və bu da böyük nailiyyət oldu...

Sovetlər Birliyinin hər yerində olduğu kimi, respublikamızda da güclü, böyük iqtisadi, o cümlədən, aqrar potensial yaranıbdır. Bu, tarixi həqiqətdir və bunu heç kəs inkar edə bilməz. O dövrdə aparılan tədbirlərin bir çoxunu bu gün tənqid etmək olar və onlar tənqid edilir. Zorakılıqla, güc, repressiya yolu ilə bu tədbirləri həyata keçirənlər günahlandırılır və günahlandırılmalıdırlar.

Ancaq ondan sonrakı dövrdə yaşayan nəsillər bu prosesin içində olub və mövcud sistemdə iqtisadi potensialdan səmərəli istifadə etməyə çalışmışlar. Biz bunun səmərəsini görmüşük. Azərbaycanın timsalında götürsək, bunun səmərəsi ondan ibarət olubdur ki, respublikamızda 1940-cı, 50-ci, 60-cı, 70-ci illərdə və 80-ci illərin ortalarınadək kənd təsərrüfatı istehsalı ardıcıl surətdə artıb və kənd təsərrüfatı potensialı yaranıbdır".

KOLL OPSİONU (*call option, call*) – alış üçün nəzərdə tutulan opsion (hüquq). Adətən bu cür əqdlər qiymətlərin artması gözlənilən hallarda bağlanır.

KOLLEKTİV HƏYAT SIĞORTASI – 1. Sığortalı qismində vahid tam kimi bir neçə şəxsin (kollektiv şəkildə) çıxış etdiyi sığorta əməliyyatı. 2. Keçmiş SSRİ-də zəhmətkeş kollektivlərində keçirilən şəxsi sığorta növü.

KOLLEKTİV MÜQAVİLƏ – əmək şəraiti, əmək haqqı, müəssisə işçilərinin hüquqları ilə bağlı sahibkarla (və ya firmanın müdiriyyətinin timsalında onun nümayəndəsi ilə) işçilər (və ya həmkarlar ittifaqının timsalında onların nümayəndəsi) arasındakı saziş. Kollektiv müqavilə iş təqdim edənlərlə iş icraçıları arasında əmək münasibətlərinin tənzimlənməsi forması kimi öz tarixinə malikdir. İlk kollektiv müqavilə XIX əsrin ortalarında Böyük Britaniyada, XIX əsrin sonu – XX əsrin əvvəllərində Avropanın digər ölkələrində, sonra isə Şimali Amerikada ya-

ranmışdır. Kollektiv müqavilə bu ölkələrdə Birinci Dünya müharibəndən (1914-1918-ci illər) sonra qüvvədə olmuşdur. Əmək haqqının dərəcəsi, iş vaxtının davametmə müddəti və bölgüsü məsələlərindən başqa, muzdun məbləği, köçürülmə və işdən çıxarılma qaydası, pensiya və müavinətlərin ödənilməsi şərtləri, əmək mübahisələrinə baxılması, işçi nümayəndələri orqanlarının hüquqları və s. də tənzimlənməyə başlandı.

İnkişaf etmiş ölkələrdə elmi-texniki tərəqqinin (ETT) sürətlənməsi, yeni texnoloji əsaslarla avadanlıqların yeniləşməsi və buna uyğun olaraq kadrların peşəkar ixtisas səviyyələrində daha dinamik dəyişikliklər kollektiv müqaviləyə işçi qüvvəsinin cəlb və azad edilməsi, onun yenidən hazırlığı, sosial müdafiəsi və s. məsələlərə yeni prizmadan baxılması zərurətini yaratdı. Həmkarlar ittifaqının tələbləri ilə müqaviləyə işdən çıxarılanların sosial təminatı (müəssisə hesabına yenidən hazırlıq, əlavə müavinətlər və s. formasında) üzrə məsələlərin tənzimlənməsi ilə bağlı öhdəliklər daxil edildi. İşçilərin maraqlarının yüksəldilməsi üçün yeni motivləşdirmə formalarına tələbat yarandı, daha geniş yayılmış hal mənfəət və kapitalda iştirak, bir sıra idarəetmə funksiyalarının bilavasitə icraçılara verilməsi oldu, bütün bunlar kollektiv müqavilədə öz əksini tapdı. Hazırda kollektiv müqavilə sosial-səmərəli əmək prosesində maraqlı olan tərəflərin konsensusu formasını alır. Kollektiv müqavilədə ölkənin əmək qanunvericiliyinin normaları konkretləşir. Bir çox inkişaf etmiş ölkələrin qanunları kollektiv müqaviləni ancaq işçilərin xeyrinə fərdi əmək razılaşmaları üzrə dəyişilə bilən mütləq minimum norma kimi tanıyır. Kollektiv müqavilə bütün sahə üçün şaquli və üfüqi formada bağlanılır və bütün işçilər arasında yayılır. Sahibkar tərəfindən kollektiv müqavilənin hər hansı bir bölməsinin yerinə yetirilməməsi işçilərin məhkəmə vasitəsilə buna nail olmalarına gətirib çıxara bilər. Nümunə olaraq Böyük Britaniyanı göstərə bilərik ki, burada kollektiv müqavilə əmək ödənişinin əsas tənzimləyicisidir. Digər ölkələrdən fərqli olaraq, burada əmək haqqının minimumu, normal iş gününün davamlığı, hər il ödənilən məzuniyyət, bayram günləri haqqında qanunverici normalar yoxdur. Bu və ya digər məsələlər kollektiv müqavilənin və ya sahibkarların lokal normativ aktları ilə müəyyənləşdirilir.



Azərbaycanda kollektiv müqavilələr Azərbaycan Respublikasının yeni Əmək Məcəlləsi qəbul ediləndən sonra geniş yayılmışdır.

KOLLEKTİV MÜLKİYYƏT – bir qrup şəxsə (birgə mülkiyyət hüququ ilə və ya kollektivin hər bir üzvünə məxsus olacaq hissə müəyyən edilməklə) məxsus olan istehsal vasitələri və istehsalın nəticələri. Kollektiv mülkiyyət kooperativlərdə, təsərrüfat ortaqlıqlarında və ictimai təşkilatlara məxsus cəmiyyətlərdə, müəssisələrdə reallaşır.

KOLLEKTİV SIĞORTA – sığortanın örtülməsinin bütöv tam kimi çıxış edən bir neçə şəxsə verildiyi sığorta növü. İnzibati məsələlərin həllinin rahatlığı üçün tətbiq edilir. Kollektiv sığorta – həmkarlar təşkilatı tərəfindən təşkil olunan sığorta kimi sosial müdafiənin ən erkən formasıdır və XIX əsrin ikinci yarısında Avropada meydana gəlmişdir.

KOLLİZİYA – əks baxışların, səylərin, maraqların toqquşması; bir dövlətin ayrı-ayrı qanunları arasında ziddiyyət və ya müxtəlif dövlətlərin qanunları-

nın, məhkəmə qərarlarının birbirinə zidd olması.

KOLLO – malın qablaşdırılmasını işarə etmək üçün tətbiq edilən ölçü vahidi.

KOLLOKVİUM – müəyyən mövzuda məruzələrin müzakirəsi ilə aparılan elmi yığıncaq.

KOMBİ – bir çox sahələrdə, o cümlədən nəqliyyat vasitələrinin və yükün sığortalanması zamanı istifadə olunan anlayış.

KOMBİNAT (lat. *combinare* – birləşmək) – 1. Kollektiv, birgə təsərrüfatçılıq subyektlərinin bir növü. 2. Texnoloji cəhətdən birbiri ilə əlaqəli sənaye sahəsi müəssisələrinin birləşməsidir ki, burada bir müəssisənin məhsulu digər müəssisə üçün xammal, yarımfabrikat və ya yardımçı material. 3. Texnoloji cəhətdən əlaqəsi olmayan bir sahənin müəssisələrinin inzibati birləşməsi. 4. Məişət xidməti müəssisələrinin və ya yerli sənayenin xırda müəssisələrinin birləşməsi. 5. Tədris kombinatının – zavodların, fabriklərin və digər müəssisələrin nəzdində müxtəlif səviyyəli müəssisələrin birləşməsi.

KOMBİNƏLƏŞMİŞ SIĞORTA – sığorta risklərinin və müxtəlif növ obyektlərin bir sığorta şəhadətnaməsi üzrə sığortalanması.

KOMİSSİYA (lat. *commissio* – tapşırıq) – bir neçə mənada işlədilir: 1) müqavilədir ki, buna görə bir tərəf (komisioner) digər tərəfin (komitentin) tapşırığı ilə mükafata görə öz adından, lakin komitentin mənafeyinə uyğun və onun hesabına sövdələşmə bağlanılmasını öz üzərinə götürür. Komissiya müqaviləsi yazılı formada bağlanır. Komissiya xidmətləri komitent tərəfindən ödənməlidir. Bank təcrübəsində bu, müştərilərin tapşırığı ilə və onların hesabına yerinə yetirilən əməliyyatların aparılmasına görə kommersiya bankına ödəmə; 2) vasitəçilərə (məsələn, agentə, kommivoyajerə, brokerə) satılan məhsulun müəyyən faizi miqdarında verilən ödəniş; 3) nəzarətin, yoxlamanın həyata keçirilməsi, yaxud hər hansı bir mübahisəli məsələnin həlli üçün kollegial orqan; 4) xüsusi bir məqsəd və ya tapşırığı yerinə yetirmək üçün hər hansı bir idarə, təşkilat yanında yaradılan orqan və bu orqanın heyəti; 5) xüsusi tədbirləri həyata keçirmək üçün hökumət tərəfindən yaradılan dövlət idarəsi orqanı.

KOMİSYON HAQLAR – satış həcminin nəticələrindən asılı olaraq, ticarət heyətinin ödəniş metodu. Komisyon haqlarının ölçüsü, bir qayda olaraq, malın satıldığı məbləğdən faiz kimi müəyyən olunur.

KOMİSYON MÜKAFATLANDIRILMA – 1. Bir şəxs tərəfindən digərinin tapşırığı ilə göstərilən xidmətə görə mükafatlandırılma (pul kompensasiyası) və bir və ya bir neçə sövdələşmənin öz adından, amma sonuncunun hesabına göstərilməsi. Komisyon mükafatlandırılmanın ölçüsü (pul ödənişi) və onun alınma müddəti müqavilə və ya mövcud qanunvericiliyə müvafiq rəsmiləşdirilmiş digər sənəd üzrə danışılır; 2. Şəxsi və əmlak sığortası əməliyyatlarının aparılmasına görə sığorta agentinə ödənilən mükafat. Komisyon mükafatlandırılma agentlərin bütün işi üzrə həm sığortanın konkret növü üzrə, həm də müqavilələrin bağlanmasına görə və sığorta ödənişlərinin vaxtında daxil olmasının təmin edilməsinə görə ayrıca bəndlə və işlərin digər növlərinə görə müəyyən olunur. Komisyon mükafatlandırılma bütün işin həcminə görə sığorta edənin xidmətinə görə ödənişdir.

KOMİSYON MÜQAVİLƏSİ (tapşırıq müqaviləsi) (lat. *comissio* – tapşırıq) – bu müqaviləyə müvafiq olaraq komisyonçuya müvafiq haqq müqabilində öz adından, lakin komitentin hesabına bir və ya bir neçə əqdin həyata keçirilməsi tapşırılır. Başqa sözlə, həmin müqaviləyə görə bir tərəf (komisyonçu) digər tərəfin (komitentin) tapşırığı ilə öz adından, lakin komitentin xeyrinə və hesabına, haqqı verilməklə üçüncü şəxslə əqd (və ya bir neçə əqd) bağlamağı öhdəsinə götürür.

Müqavilədə aşağıdakı məlumatlar göstərilə və ya göstərilməyə bilər: müqavilənin qüvvədə olma müddəti, onun icra ediləcəyi ərazi, komitentin komisyonçuya tapşırılmış əməliyyatları şəxsi məqsədlər üçün həyata keçirmək hüququnu üçüncü şəxslərə verməmək öhdəliyi, komissiya predmeti barədə şərtlər.

Komisyon müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

– qanunda və ya müqavilədə nəzərdə tutulmuş şərtlərə uyğun olaraq tərəflər və ya tərəflərdən biri müqavilənin icrasından imtina etdikdə;

– komisyonçu vəfat etdikdə, onun fəaliyyət qabiliyyətsizliyi, məhdud fəaliyyət qabiliyyətli olması və ya itkin düşməsi sübut edildikdə;

– komisyonçu olan fərdi sahibkar müflisləşmiş (bankrot) olduqda.

KOMMERSANT (fr. *commer - cant*) – təsərrüfat dövriyyəsinin iştirakçısı; onun fəaliyyəti iki əlamətlə: 1) sövdələşmənin bağlanması ilə; 2) öz adından, yəni müstəqil təsərrüfat nümayəndəsi kimi sahibkarlığın həyata keçirilməsi ilə xarakterizə olunur. Kommersantın (ticarət reyestrinə daxil olan, müəyyən fəaliyyətin aparılmasına patenti olan, vergi ödəyən, ticarət kitabını aparan, bankda xüsusi hesabı olan, eləcə də təsərrüfat dövriyyəsində müəyyən firma adı altında çıxış edən şəxs) statusu qanunla qəbul olunur. Qədim zamanlarda bu, Azərbaycan dilində tacir adlanırdı.


KOMMERSİYA – mənfəət əldə edilməsi məqsədi ilə əmtəə və xidmətlərin satışı üzrə fəaliyyət (sahibkarlıq fəaliyyəti) (bax: sxem 1).

KOMMERSİYA BANKI – öz sərmayəsini və cəlb etdiyi vəsaitləri hüquqi şəxslərə və vətəndaşlara borca verməklə mənfəət qazanan müəssisə. Kommersiya bankı həm yerli və xarici təsisatlara, həm də yerli və xarici vətəndaşlara geniş çeşidli maliyyə xidmətləri göstərir. Bu xidmətlərə müəssisələrarası hesablaşmalar, girov və ödəniş əməliyyatları (o cümlədən, əhaliyə və əhalidən ödənişlər), depozitlərin cəlb olunması, kreditlərin verilməsi, qiymətli kağızlarla əməliyyatlar, kiçik həcmli maddi əmanətlərin saxlanılması (depozit qutuları) və başqaları daxildir (bax: sxem 1).

Azərbaycan Respublikasının qanunvericiliyinə görə, kommersiya bankı "fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsini, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxs"dir. Öz fəaliyyətini həyata keçirmək üçün lazım olan pul vəsaitlərini kommersiya bankı öz sərmayəsi, mərkəzləşdirilmiş maliyyə resursları, cari hesabların qalıqları, depozitlər, banklararası kreditlər və qiymətli kağızların (səhm və istiqrazların) emissiyası hesabına formalaşdırır.


Kommersiya bankları mülkiyyət formasına, əməliyyatların çeşidinə, təşkilati formasına, fəaliyyətin coğrafi genişliyinə, şəbəkə strukturuna və digər meyarlara görə müxtəlif cür təsnifləşdirilir. Məsələn, mülkiyyət formasına görə dövlət (bütün səhmləri, yaxud nəzarət səhm

Kommersiya fəaliyyətinin idarə olunması mərhələləri



Sxem 1

Qiymətli kağızlar bazarında fəaliyyət göstərən kommersiya bankı



Sxem 2

paketi dövlətə məxsus olan) və özəl (bütün səhmləri, yaxud nəzarət səhm paketi xüsusi şirkətlərə və ya fiziki şəxslərə məxsus olan) kommersiya banklarını fərqləndirirlər. Həmçinin, mülkiyyətdə xarici kapitalın iştirak payına görə xarici və yerli kommersiya bankları fərqləndirilir. Həyata keçirdikləri əməliyyatların çeşid rəngarəngliyinə görə banklar universal və ixtisaslaşmış kommersiya banklarına bölünür.

Bank fəaliyyətinin tarixi e.ə. II minillikdən – Babilistanda əmanətlərin, qorunmaq üçün, məbədlərə verildiyi vaxtlardan başlanır. İlkin dövrlərdə əmanət olaraq yalnız taxıl qəbul edilirdi. Zaman keçdikcə, digər əkinçilik məhsulları, mal-qara və nəhayət, qiymətli metallar əmanət kimi qəbul edilməyə başlandı. Sonralar toplanan əmanətlərin tədricən üçüncü şəxslərə borc verilməsi ilə biznes borclarının (kreditlərinin) əsası qoyuldu.

Müasir bankçılığın beşiyi isə İtaliya şəhərləri (Venesiya, Florensiya və Genuya) hesab olunur. "Bank" sözü italyan dilindəki banco kəlməsindəndir, mənası skamya, yaxud yazı masasıdır. XIV əsrdə kommersiya bankı İtaliya, Almaniya və Hollandiyada intensiv inkişaf edirdi, amma əsas etibarilə krallara və iri feodallara kredit verirdi. Böyük ticarət şəhərlərində isə tacirlər arasındakı hesablaşmaları həyata keçirən və pulun məzənnəsini tənzimləyən yeni növ banklar yaranırdı. Banklar kreditli pulla deyil, özlərinin yazılı öhdəlikləri ilə verməyə başladıqda banknotlar (kağız pul) əmələ gəldi.

Kommersiya mərkəzlərinin Aralıq dənizi sahillərindən Şimal-Qərbi Avropaya köçməsi ilə yeni bankçılıq bu ərazilərdə də yayılmağa başladı. XVI əsrdə Niderlandda, XVII əsrdə İsveç və İngiltərədə, XVIII əsrin sonlarında ABŞ-da müasir kommersiya bankları formalaşmağa başladı.

Azərbaycanda ilk kommersiya bankı ("Əmanət Kassası" adı ilə) 1874-cü ildə yaradılmışdır. Hər bir ayrıca götürülmüş bank əməliyyatı lokal səciyyə daşısa da, kommersiya bankları ümumi iqtisadi inkişafda, onun yönəldilməsi və idarə olunmasında son dərəcə mühüm rol oynayır. Kommersiya bankları:

– iqtisadiyyatdakı sərbəst vəsaitləri investisiyaya çevirir, iri biznes layihələrinin gerçəkləşdirilməsi üçün kapitalın təmərküzləşməsini, kiçik layihələrin həyata keçirilməsi üçün parçalanmasını təmin edir (kapitalın formalaşdırılması funksiyası);

– maliyyə resurslarının sahələrarası axınına və bu yolla iqtisadi artımın balanslaşdırılmasına, resurslardan daha effektiv istifadə olunmasına yardım edir (resursların bölüşdürülməsi və ya balanslaşdırıcılıq funksiyası);

– pul tədavülünü sürətləndirir, dövlət orqanlarının pul siyasəti sahəsindəki qərarlarının real iqtisadiyyata ötürülməsində əhəmiyyətli rol oynayır (transmissiya funksiyası).

Kommersiya bankı həyata keçirdiyi əməliyyatların və göstərdiyi xidmətlərin əhatəsinə görə maliyyə vasitəçiliyi həyata keçirən institutların mərkəzində dayanır. Bu əməliyyatlara aşağıdakılar aid edilir:

Passiv əməliyyatlar – vəsaitlərin cəlb edilməsi üzrə əməliyyatlardır. Bunlara fiziki və hüquqi şəxslərin cari və hesablaşma hesabına vəsaitlərin cəlb edilməsi, vətəndaşlar, müəssisə və təşkilatlar üçün müddətli hesabların açılması, qiymətli kağızların buraxılışı, digər banklardan borcların alınması və s. aiddir. İqtisadi məzmununa görə iki qrupa ayrılır:

I – depozit əməliyyatları (banklararası kreditlər də daxil olmaqla);

II – emissiya əməliyyatları (qiymətli kağızların satışı).

Aktiv əməliyyatlar – vəsaitlərin yerləşdirilməsi üzrə əməliyyatlardır. Bunlara müəssisə və təşkilatların istehsal, sosial, investisiya və elmi fəaliyyətinin kreditləşdirilməsi, əhaliyə istehlak kreditlərinin verilməsi, digər banklara kreditlərin verilməsi və s. aiddir. İqtisadi məzmununa görə aşağıdakı kimi qruplaşdırılır:

I. borc əməliyyatları;

II. hesablaşma əməliyyatları;

III. kassa əməliyyatları;

IV. investisiya və fond əməliyyatları;

V. zəmanət əməliyyatları.

Prinsip etibarilə, kommersiya bankının mənfəəti, onun aktiv əməliyyatlardan əldə etdiyi gəlirlə (kredit qarşılığında aldığı faizlə) passiv əməliyyatlara çəkdiyi xərc (cəlb etdiyi vəsait müqabilində ödədiyi faiz) arasındakı fərqdən yaranır.

Kommersiya bankları dünya maliyyə arxitekturasında ən mühüm institutlardandır. Bazar dəyərinə görə dünyanın 10 ən böyük bankının (cəmi bazar dəyəri 1,67 trilyon ABŞ dolları) cəmi aktivləri dünya ÜDM-nin 27,5%-i qədərdir. Aktivlərinə görə dünyanın birinci bankı

Cədvəl 1

Aktivlərin həcminə görə Azərbaycanın 15 ən böyük bankı (2011-ci ilin əvvəli)

Aktivlərə görə sıra yeri	Bank	Məcmu aktivlərə görə bazar payı, (%-lə)	Məcmu kapitala görə sıra yeri	Bank sisteminin məcmu kapitalında payı (%-lə)
1	Azərbaycan Beynəlxalq Bankı	41,59	1	26,83
2	Kapital Bank	5,88	6	3,69
3	Xalqbank	4,90	3	4,77
4	Bank Standard	4,53	5	3,81
5	Paşa Bank	3,83	2	7,07
6	AccessBank	2,81	4	4,41
7	Unibank	2,67	9	2,97
8	Dəmirbank	2,56	11	2,57
9	Bank Respublika	1,94	12	2,55
10	AGBank	1,88	15	1,77
11	Bank of Baku	1,84	13	2,12
12	Zaminbank	1,83	20	1,31
13	AtaBank	1,62	17	1,41
14	Muğanbank	1,57	19	1,32

Cədvəl 2

Azərbaycan Respublikasında kommersiya banklarının analitik balansı (dövrün sonuna) mln. manat

İl, ay	Xalis xarici aktivlər	o cümlədən		İqtisadiyyata kredit**	Manatla depozitlər*	Xarici valyutada depozitlər*
		Məcmu xarici aktivlər	Xarici öhdəliklər			
2009						
01	-976,8	1263,7	-2034,5	7253,4	1697,6	2414,6
02	-964,6	1195,6	-1969,9	6768,4	1594,2	2063,6
03	-941,1	1101,8	-1908,6	6298,1	1434,6	1656,5
04	-888,3	1142,4	-1938,1	6379,4	1433,7	1770,2
05	-887,6	1120,4	-1928,5	6485,9	1410,4	1800,8
06	-827,2	1088,8	-1845,2	6567,3	1381,7	1821,9
07	-482,4	1424,6	-1843,2	7321,1	1429,3	2490,8
08	-612,7	1266,0	-1812,6	7732,1	1676,1	2235,6
09	-693,0	1167,0	-1796,8	7904,8	1599,5	2236,0
10	-690,8	1182,2	-1803,6	8126,6	1713,7	2287,1
11	-755,5	1140,5	-1828,5	8252,2	1764,0	2329,3
12	-727,8	1273,7	-1932,3	8554,7	1991,5	2300,0
2010						
01	-771,9	1276,5	-1976,9	8611,7	1862,4	2306,1
02	-808,6	1338,0	-2066,8	8548,9	1762,4	2279,4
03	-698,6	1613,5	-2233,5	8656,8	1863,2	2490,9
04	-947,9	1518,3	-2381,4	8795,9	1904,1	2387,8
05	-813,4	1386,5	-2117,4	8943,9	1901,3	2475,8
06	-800,6	1453,4	-2170,1	9031,7	2035,8	2453,0
07	-1053,4	1297,4	-2266,5	8850,7	2075,5	2162,5
08	-1008,7	1286,2	-2209,7	9009,5	2191,5	2268,4
09	-1027,1	1357,8	-2295,4	9159,0	2255,2	2233,9
10	-1235,3	1289,5	-2504,0	9255,3	2368,2	2305,4
11	-1006,9	1532,1	-2469,1	9350,8	2421,9	2203,1
12	-850,0	1691,9	-2470,4	9386,3	2839,5	2230,0
2011						
01	-717,5	1833,7	-2484,7	9383,3	2494,7	2343,5
02	-764,6	1793,3	-2501,3	9401,9	2540,6	2364,9
03	-624,3	1954,4	-2531,2	8597,3	2682,9	2641,9
04	-719,3	1827,8	-2503,2	8894,0	2710,9	2584,1
05	-702,0	1811,0	-2468,0	9040,1	2773,9	2664,1
06	-553,3	1893,6	-2404,9	9231,1	2873,9	2677,2
07	-636,1	1833,3	-2428,9	9425,6	3141,5	2569,8
08	-837,1	1686,2	-2487,8	9843,8	3064,3	2766,4
09	-577,7	1875,8	-2426,8	9997,8	3152,8	3021,9
10	-647,7	1741,7	-2372,0	10110,5	3231,9	2903,6
11	-663,7	1689,0	-2343,5	10187,6	3448,3	2838,8
12	-698,5	1762,6	-2432,3	10294,3	3834,5	2906,0
2012						
01	-608,4	1860,8	-2440,5	10441,0	3734,9	2924,0
02	-512,8	1992,2	-2469,0	10581,6	3770,3	3104,8

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

****) Qeyri-rezidentlərin və dövlət idarəetmə orqanlarının depozitləri daxil olmadan***

*****) Hesablanmış faizlər və banklararası kreditlər daxil olmaqla***

olan HSBC-nin aktivləri bütövlükdə Britaniya iqtisadiyyatından (ÜDM-dən) 9%, Rusiya iqtisadiyyatından 1,7 dəfə böyükdür.

2011-ci ilin əvvəlində dünyanın 10 ən böyük bankının 4-ü Çinə (2006-cı ildə 2-si), 4-ü ABŞ-a, 1-i Birləşmiş Krallığa və 1-i Braziliyaya məxsus olmuşdur.

Bu bankların 7-si universal, 3-ü ixtisaslaşmış bankdır. Sonunculların hamısı Çinə məxsusdur və onların əsas fəaliyyət sahələri sənaye, tikinti və kənd təsərrüfatıdır. Ümumiyyətlə, son illərdə dünya maliyyə bazarlarında Çin banklarının xüsusi çəkisinin artması müşahidə olunur. 2010-cu ildə ən böyük dörd Çin bankının ümumi bazar dəyəri Türkiyə, İndoneziya, Sinqapur, İsveçrə, Polşa kimi ölkələrin ayrılıqda istehsal etdiyi son məhsul və xidmətlərin dəyərindən çox olmuşdur.

Hazırda Azərbaycanda 44 kommersiya bankı fəaliyyət göstərir. Bunların 43-ü özəl, 1-i isə dövlət bankıdır. 22 bankın sərmayəsində xarici kapital vardır, 7-sinin nizamnamə kapitalının 50%-dən çoxu xarici kapitaldan formalaşmışdır.

Bir sıra kommersiya bankları geniş filial şəbəkəsi qurmuşdur. Azərbaycan banklarının 650 yerli filial və şöbəsi fəaliyyət göstərir. Bundan başqa, onların ölkədən kənarda 2 törəmə bankı, 1 filialı və 5 nümayəndəliyi mövcuddur.

Kommersiya banklarının iqtisadiyyatda iştirak payını müəyyənləşdirmək üçün adətən bank aktivlərinin ÜDM-ə nisbətini əsas götürürlər. 2011-ci ilin əvvəlində bu göstərici Azərbaycanda 32% təşkil etmişdir. Aktivlərin əsas hissəsi (64,5%) kreditlərdən, 11,3%-i müxbir hesablardakı vəsaitlərdən, 8,1%-i bankların investisiya qoyuluşlarından, 3,9%-i maliyyə sektoruna verilmiş kreditlər və yerləşdirilmiş depozitlərdən, 3,7%-i nağd vəsaitlərdən və 8,5%-i digər aktivlərdən ibarətdir.

Bank öhdəliklərinin əsas hissəsini (46,4%) təşkil edən depozitlərin ÜDM-ə nisbəti 12,4% olmuşdur. Depozitlərin 55,6%-i fiziki şəxslərin əmanətlərindən ibarət olmuşdur.

2011-ci ilin əvvəlində məcmu bank kapitalı ÜDM-in 4,6%-i qədər olmuşdur. Bunun 71,5%-i səhmdarların vəsaitlərinin (nizamnamə kapitalının) payına düşmüşdür.

Azərbaycan Beynəlxalq Bankı (ABB) – 1990-cı ildə Xarici İqtisadi Ticarət Bankının Azərbaycan şöbəsi kimi yaradılmış, 1992-ci ildə səhmlərinin nəzarət paketi dövlətə məxsus səhmdar banka çevrilmişdir. 1996-cı ildə həm fiziki, həm də hüquqi şəxslərə maksimum mümkün olan

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI



Azərbaycan Beynəlxalq Bankının inzibati binası

xidmətlər dəstinin təklif edilməsini nəzərdə tutan "Universal Bank" strategiyasını, 2003-cü ildə isə "Ümummilli İnkişaf Bankı" strategiyasını qəbul etmişdir.

Nizamnamə fonduna görə ölkənin ən iri sığorta şirkətinin – "Beynəlxalq Sığorta Şirkəti"nin təsisçisidir. 2002-ci ildə Moskvada (RF) və 2007-ci ildə Tbilisidə (Gürcüstan) törəmə banklar, 2002-ci ildə Londonda (Böyük Britaniya) və 2009-cu ildə Nyu-Yorkda (ABŞ) nümayəndəliklər açmışdır.

Dünya İqtisadi Forumunun (World Economic Forum) aparıcı qurumlarından olan Qlobal İnkişaf Şirkətləri Cəmiyyətinin (*Community of Global Growth Companies*) regiondan ilk tamhüquqlu üzvü seçilmişdir və bu Cəmiyyətin təsisçisidir.

1993-cü ildən Bakı Banklararası Valyuta Birjasının (BBVB) həmtəsisçisi və tamhüquqlu üzvü, 1994-cü ildən Europay International-ın (Avropa Beynəlxalq ödəniş sisteminin) və "Reuters" beynəlxalq məlumat sisteminin tamhüquqlu üzvü, 1995-ci ildən isə SWIFT-in (Ümumdünya Banklararası Maliyyə Telekommunikasiyaları Cəmiyyətinin) üzvüdür. Həmçinin, Azərbaycan Banklar Assosiasiyasının (ABA) üzvüdür.

1997-ci ildə Europay/MasterCard International plastik kartlarını buraxmağa başlamışdır. VISA International beynəlxalq ödəniş sisteminin tamhüquqlu üzvü, 1998-ci ildə Bakı Fond Birjasının (BFB) tamhüquqlu üzvü və həmtəsisçisi olmuşdur.

Yüksək kredit reytinqinə malikdir. "Global Finance" (Nyu-York, ABŞ) jurnalının "Dünyanın inkişaf edən bazarlarının ən yaxşı bankı" (2009), "Emea-finance" (London, Böyük Britaniya) jurnalının "MDB, Mərkəzi və Şərqi Avropanın Ən Yaxşı Bankı" (2009), Euromoney (London, Böyük Britaniya) jurnalının "Ən yaxşı Bank" (2009) mükafatlarına layiq görülmüşdür. Avropa dövlətləri və MDB ölkələrinin bank assosiasiyalarının "Platin açar" beynəlxalq bank mükafatı (2008), Avropa Biznes Assambleyasının təqdimatı ilə aldığı Kraliça Viktoriya medalı da (Böyük Britaniya) Bankın nailiyyətlərinə verilən qiymətdir.

"MDB Maliyyə-Bank Şurası"nın yaradılması təşəbbüsçülərindən biridir (bu təşkilat Bakıda bir neçə beynəlxalq bank konfransı keçirmişdir). Mərkəzi Avrasiya iqtisadi məkanındakı milli maliyyə bazarları arasında əməkdaşlıq əlaqələrinin inkişafında mühüm rol oynayır.

Kapital Bank – Azərbaycanın ilk bankının (1874-cü ildə açılmış Əmanət Bankının) varisidir.

KAPİTAL BANK



Kapital Bankın inzibati binası

2000-ci ildə üç dövlət bankının (Aqrar-Sənaye, Sənaye-İnvestisiya və Əmanət banklarının) birləşdirilməsi yolu ilə yenidən qurulmuş və Birləşmiş Universal Səhmdar Bankı adı altında fəaliyyətə başlamışdır. 2004-cü ildən "Kapital Bank" adlanır. Səhmlərinin 99,75%-i "Paşa Holdinq"ə məxsusdur.

Universal bankdır (hesablaşma-kassa əməliyyatları, depozit qəbulu, kreditləşdirmə, konvertasiya və valyuta köçürmələri, akkreditivlər, pensiya və müavinətlərin ödənilməsi, depozit seyflər, plastik kartlar, broker xidmətləri) və filiallarının sayına görə (89) ölkə lideridir. 2009-cu ildə özünün prosessinq sistemini işə salmışdır.

Ölkə regionlarının inkişafını, xüsusilə də sosial mahiyyət kəsb edən layihələri maliyyələşdirməyi özünün əsas prioritetlərindən sayır. ABA-nın üzvüdür.

SWIFT-in (1997-ci ildən), MasterCard Europe-un (2001-ci ildən), VİSA İnternational beynəlxalq ödənişlər sisteminin (2003-cü ildən) üzvüdür. BFB-nin və BBVB-nin təsisçilərindəndir. 2000-ci ildən "Western Union" sürətli pul köçürmələri üzrə əməliyyatlara başlamışdır və hazırda bu sahədə lider banklardandır. 2004-cü ildən Privat - Money sürətli pul köçürmələri əməliyyatları (Ukraynanın Privat Bankı ilə əməkdaşlıq) aparır. Migom, Contact, Blizko və digər sürətli pul köçürmələri sistemləri ilə əməkdaşlıq edir. Ölkə daxilində aşağı tariflərlə sürətli pul köçürmələri həyata keçirən "Xəzri" sistemini (2006) qurmuşdur.

Dünyanın bir sıra tanınmış banklarında (Citibank N.A, Standard Chartered, Commerzbank AG, HSBC Bank, KBC Bank və b.) müxbir hesabları var.

Xalq Bank – 2004-cü ildə fəaliyyətə başlamışdır. Yarandığı vaxtdan personalın idarə edilməsi sisteminin təkmilləşdirilməsinə, beynəlxalq əlaqələrin

Xalq Bank

inkişafına, göstərdiyi xidmətlərin və maliyyə bazarında təklif etdiyi məhsulların çeşidini artırmağa xüsusi önəm vermişdir.

2005-ci ildən ABA-nın və ABŞ-ın Azərbaycandakı Ticarət Palatasının, 2006-cı ildən Azərbaycan İpoteka Fondunun, 2007-ci ildən Əmanətlərin Sığortalanması Fondunun, 2009-cu ildən Sahibkarlığa Kömək Milli Fondunun üzvüdür.

"MDB, Baltiya, Gürcüstan üzrə İlin Bankı" (2010), "GUAM ölkələrinin Ən Yaxşı Bankları" (2010) beynəlxalq müsabiqələrinin qalibi olmuş, "European quality" mükafatına layiq görülmüşdür.

MasterCard International və VISA-İnternational beynəlxalq ödəniş sistemlərinin üzvüdür. "Western Union", "Bıstraya Poçta", "Xpress Money", "Contact", "Private Money" və "Migom" sürətli pul köçürməsi xidmətləri göstərir. Yeni informasiya texnologiyalarının tətbiqini prioritet sayır. "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın və İpoteka Proqramının fəal iştirakçısıdır.

2010-cu ildə başladığı "Xalq Əmanəti" mədəniyyət layihəsi çərçivəsində şair və yazıçıların əsərlərini, rəngkarlıq əsərlərinin reproduksiyalarını dərc etdirir.



Xalq Bankın inzibati binası



Bank Standartın inzibati binası

Bank Standard – 1995-ci ildə "Most-Bank"ın törəmə müəssisəsi kimi təsis edilmiş, sonra qısa bir zamanda tamamilə milli özəl kapital üzərində qurulmuş müstəqil maliyyə institutuna çevrilərək, əvvəlcə "Most-Bank Azərbaycan" (1998), sonra isə indiki "Bank Standard" adını qəbul etmişdir (2004). ABA-nın üzvüdür.

Əsas maliyyə göstəriciləri üzrə ölkənin özəl bank sektorunun liderlərindəndir. Hazırda univer - sal bank kimi fəaliyyət göstərir. Bir çox xidmətləri, o cümlədən nisbətən az rast gəlinənlərini, müxtəlif kredit və depozit məhsullarını Azərbaycanda və regionda ilk tətbiq edən müəssisədir.

Hər müştəriyə fərdi yanaşmağı, maliyyə bazarında tələbin özü - nü (yeni tələb növlərini) yarat - mağı, xidmətlərin keyfiyyətini təkmilləşdirməyi, yeni texnologiyaları çevik surətdə mənimsəyərək, daim yenilikçi olmağı əsas fəaliyyət prinsipləri olaraq qəbul etmişdir. Müxtəlif sosial layihələrdə iştirak edir, mədəniyyət və incəsənət tədbirlərinə dəstək verir, maarifçilik və xeyriyyəçilik fəaliyyəti ilə məşğul olur.

Paşa Bank – 2008-ci ildən fəa - liyyətdədir. Bank sektorunda şəffaflığın yüksəldilməsinə dəstək verməyi özünün başlıca hədəfi sayır, korporativ müştərilərə xidmətdə, pərakəndə bank-

çılıqda şəffaf biznes prinsiplərinə söykənməyə çalışır. Strateji inkişaf istiqaməti – korporativ, ticari, pərakəndə və institusional bankçılıqdır. ABA-nın üzvüdür. İnvestisiya portfeli qiymətli kağızlara (o cümlədən, İpoteka Fondunun kağızlarına, Maliyyə Nazirliyinin dövlət istiqrazlarına, Mərkəzi Bankın notlarına) yatırılmışdır. Dövlət Neft Fondunun xarici valyuta mübadiləsi əməliyyatları üzrə rəsmi dileri kimi fəaliyyət göstərir.

Əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsini öz daxili inkişaf strategiyasının vacib bir hissəsi kimi dəyərləndirir.



Paşa Bankın inzibati binası

Güclü maddi-texniki bazaya malikdir.

AccessBank – 2002-ci ildə Qara Dəniz Ticarət və İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Beynəlxalq Maliyyə Korporasiyası, Almaniya İnkişaf Bankı (KfW) və LFS Financial Systems tərəfindən Azərbaycan Mikromaliyyələşdirmə Bankı qismində təsis olunmuşdur. Hazırkı adını 2008-ci ildə qəbul etmişdir. ABA-nın üzvüdür.

2005-ci ildən SWIFT, Western Union və PrivatMoney beynəlxalq pulköçürmə şəbəkələrinə qoşulmuşdur. 2006-cı ildən bazara yeni depozit məhsulları çıxarmış, pərakəndə kreditləşdirməyə başlamış, kredit kartlarını işə salmış, bankomatlar quraşdırmış, VISA kart şəbəkəsinə və bir neçə digər pulköçürmə şəbəkəsinə qoşulmuşdur.

Sosial və korporativ məsuliyyəti və korporativ idarəetməni özünün əsas inkişaf prinsipləri sayır, kreditləşdirmə üçün layihələri seçərkən təbii mühitin qorunmasına böyük önəm verir. "Financial Times Sustainable Banking Awards" tərəfindən Şərqi Avropanın üç ən sabit bankından biri kimi qiymətləndirilmişdir (2009). EuroMoney onu Azərbaycanın "Ən yaxşı bankı" adına layiq görmüş, "Standard & Poor's" reytinq agentliyi isə "Azərbaycanın ən şəffaf bankı" saymışdır (2010). Azərbaycan Mikromaliyyə Assosiasiyasının "Ən yaxşı kredit məhsulu" mükafatına da layiq görülmüşdür.



Access Bankın inzibati binası

Unibank – 1992-ci ildən fəaliyyətdədir. Universal bankdır. Müştəriləri ilə münasibətini bərabərhüquqlu tərəf-müqabillik, qarşılıqlı dəstəklənmə və tam etimad prinsipləri üzərində qurmağa çalışır. Onlara geniş çeşidli xidmətlər (plastik kart, hesablaşma-kassa, valyuta mübadiləsi, kreditləşmə, əmanətlərin qəbulu, inkassasiya, bank çeklərinə qulluq, konsaltinq və s.) təklif edir. Banklararası kreditləşmə bazarında da fəal çalışır.

"Unileasing" və "Unicapital" şirkətlərinin, "Unitraining" korporativ treninq mərkəzinin təsisçisidir.

ABA-nın, BBVB-nin, Azərbaycan Ticarət-Sənaye Palatasının, ABŞ-ın Azərbaycandakı Ticarət Palatasının, Azərbaycan Sahibkarlarının Milli Konfederasiyasının (ASMK), Almaniya-Azərbaycan İqtisadi Yardım İttifaqının, Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun üzvüdür.

Ölkədə AYİB-in səhmdar kimi daxil olduğu birinci özəl bankdır. Beynəlxalq Maliyyə Korporasiyası, Almaniya-Azərbaycan Fondu, Özəl Sektorun İnkişafı İslam Korporasiyası, Qara dəniz Ticarət və İnkişaf Bankı, VTB-Avropa və digər maliyyə institutları ilə uzunmüddətli əməkdaşlığın əsasını qoymuş banklardan biridir.

2005-ci ildə "Euromoney" tərəfindən "Azərbaycanda ən yaxşı bank". "The Banker" jurnalı tərəfindən Azərbaycanda "İlin bankı" elan olunmuşdur.

DəmirBank – 1989-cu ildə "Azərdəmiryolbank" adı ilə fəaliyyətə başlamışdır, 2009-cu il-



"Unibank"ın inzibati binası

dən DəmirBank adlanır. Səhmdarları sırasında AYİB (2005-ci ildən, "25% + 1 səhm" paketi ilə) və Hollandiya İnkişaf Maliyyə Şirkəti (2007-ci ildən, 10% səhm paketi ilə) də vardır. BFB-nin səhmdarlarından biri olan və birjada broker və diler xidmətləri göstərən "ADB Broker" şirkətinin təsisçisidir.

Universal bankdır və müştərilərinə hesablaşma-kassa, əmanətlərin qəbulu, kreditləşdirmə, akkreditiv və zəmanətlərin açılması, lizinq, klirinq, plastik kartlar, təcili pul köçürmələri, inkassasiya, bank seyflərinin icarəsi, "İnternet-Bank", "SMS-Bank", "Telefon-Bank" və sair xidmətlər təklif edir. Geniş filial şəbəkəsinə malikdir. Ölkə üzrə 31 filial və şöbəsi fəaliyyətdədir.

Müxtəlif kreditləşmə və ticarət maliyyələşdirilməsi proqramları üzrə AYİB, Beynəlxalq Maliyyə Korporasiyası, Hollandiya İnkişaf Maliyyə Şirkəti, Qara Dəniz Ticarət və İnkişaf Bankı, Almaniya-Azərbaycan Fondu, DEG Almaniya İnvestisiya Şirkəti, OFID Beynəlxalq İnkişaf Fondu, İslam Korporasiyası və başqa beynəlxalq maliyyə təşkilatları ilə, eləcə də ABA, Sahibkarlığa Kömək Milli Fondu və Azərbaycan İpoteka Fondu ilə fəal əməkdaşlıq edir.

SWIFT-in, MasterCard International və VISA International beynəlxalq ödəniş sistemlərinin üzvüdür. Dünyanın bir sıra aparıcı bankları ilə müxbir əlaqələrinə malikdir.

"Western Union", "Coinstar", "Bıstraya Poçta", "Zolotaya Korona" beynəlxalq təcili pul köçürmə sistemlərinə qoşul-



DəmirBankın inzibati binası



"Bank Respublika"nın inzibati binası

muşdur. Yaratdığı "Şimşək" sistemi ölkə daxilində bir filialdan digərinə hesab açmadan təcili pul köçürmələrini həyata keçirməyə imkan verir.

Bank Respublika – 1992-ci ildə fəaliyyətə başlamışdır. Səhmdarları arasında Almaniyanın DEG investisiya şirkəti və Sparkassen International Development Trust maliyyə korporasiyası da var. 2005-ci ildən bu iki şirkət Bankın "25% + 1 səhm" paketinə sahibdir. "Respublika İnvest" MMC-nin təsisçisi və "Bakı Sığorta" şirkətinin əsas səhmdarıdır.

Universal bankdır. Müştəriləri sırasına sənaye, telekommunikasiya, nəqliyyat, tikinti, kənd təsərrüfatı, ticarət və xidmət sahəsində fəaliyyət göstərən şirkət və təşkilatlar, eləcə də on minlərlə fərdi müştəri daxildir. Ölkənin bölgələrində 35 filialı fəaliyyətdədir. "Ofis-24" layihəsi çərçivəsində fiziki şəxslərə həftənin bütün günləri 24 saat fasiləsiz xidmət göstərir.

Müxtəlif beynəlxalq və xarici maliyyə təşkilatları ilə (ABŞ Ticarət Palatası, Alman-Azərbaycan İqtisadi Yardım İttifaqı və b.) sıx əməkdaşlıq edir. Bununla yanaşı, kiçik və orta sahibkarlığın kreditləşdirilməsi və ipoteka kreditləri üzrə dövlət proqramlarında fəal iştirak edir, ABA-nın və ASMK-nın üzvüdür.

AGBank – 1992-ci ildən fəaliyyət göstərir. 1993-cü ildən Bakı Fond Birjasının iştirakçısıdır.

Universal bankdır (hesablaşma-kassa, əmanətlərin qəbulu, biznes, istehlak və ipoteka kreditləri, akkreditiv və zəmanətlər, lizinq, klirinq, plastik kartlar, təcili pul köçürmələri, inkassasiya, "SMS-İnfo" xidmətləri). Çoxçeşidli plastik kart məhsulları bazarının liderlərindəndir.

Ölkənin müxtəlif bölgələrində fəaliyyət göstərən 25 filiala malikdir.

ABA-nın və Əmanətlərin Sığortalanması Fondunun üzvü, Sahibkarlığa Kömək Milli Fondunun və Azərbaycan İpoteka Fondunun bank agentidir. Azərbaycanda kiçik və orta biznesin maliyyələşdirilməsi proqramı üzrə Beynəlxalq Maliyyə Korporasiyasının bank-agentidir. Almaniya-Azərbaycan Fondunun proqramı çərçivəsində xüsusi ixtisaslaşdırılmış filial vasitəsi ilə mikrokreditlərin maliyyələşdirilməsini həyata keçirir. Avropa Birliyinin RARP-1 proqramı çərçivəsində aqrar-sənaye layihələrini maliyyələşdirən ilk Azərbaycan bankıdır (1997-ci ildən). AYİB-lə bağladığı müqavilə (1998) əsasında xüsusi inkişaf proqramı hazırlamışdır;



"AGBank"ın inzibati binası

hədəf – bankın fəaliyyətini dünya standartlarına yaxınlaşdırmaqdır.

"Western Union", "Contact", "Migom", "Bıstraya Poçta", "Blizko", "İnterExpress", "Zolotaya Korona", "Lider" beynəlxalq təcili pulköçürmə sistemlərinə qoşulmuşdur, SWIFT-in, MasterCard İnternational və VISA İnternationalın üzvüdür, dünyanın aparıcı bankları ilə geniş müxbir əlaqələrinə malikdir.

Bank of Baku – 1994-cü ildən fəaliyyətə başlamışdır. Universal bankdır, ölkədə tətbiq olunan bütün növ bank xidmətləri göstərir. İstehlak kreditləri sahəsində bazar liderlərindəndir. 17 filialı vardır. Düzgün və uzunmüddətli perspektivə yönələn kadr siyasətini özünün əsas prinsiplərindən sayır.

ABA, BBVB-nin və SWIFT-in üzvüdür. 2001-ci ildən Almaniya-Azərbaycan Fondunun Azərbaycanda kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi proqramı çərçivəsində KfW ilə partnyordur. Bununla yanaşı, Almaniya Əmanət Banklarının Beynəlxalq Əməkdaşlıq Fondu, AYİB, BMK və digərləri ilə müxtəlif layihələr çərçivəsində əməkdaşlıq edir. Dünyanın 10-dan çox ölkəsində yerləşən nəhəng banklarla (Standard Chartered Bank, Dresdner Bank AG, KBC Bank, Raiffeisen Zentral Bank, Fortis Bank, Alfa Bank, ParexBank və b.) beynəlxalq əməliyyatlar aparır. MasterCard və Visa İnternational Beynəlxalq ödəniş sistemlərinin üzvüdür. Həmçinin Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminə də (KÖMİS) qoşulmuşdur.

Onlayn ödəniş sisteminin yaradılmasına, mobil bankinq və İnternet bankinq yönlü yeni xidmətlərə üstünlük verir.

Zaminbank – 1992-ci ildə yaradılmışdır. Universal bankdır –

ZAMINBANK

fiziki və hüquqi şəxslərə hesablaşma-kassa, biznes və ipoteka



"Bank of Baku"nun inzibati binası

Bank of Baku



Zamin Bankın inzibati binası

kreditləri, əmanətlərin qəbulu, kommunal ödənişlər, plastik kartlar, akkreditiv və zəmanətlər kimi müxtəlif məhsul və xidmətlər təklif edir.

Bakı, Sumqayıt və Gəncə şəhərlərində 35 filialı və 15 şöbəsi fəaliyyət göstərir. Bu filiallar bəzi bank əməliyyatlarını 24 saat ərzində həyata keçirir. 2007-ci ildən ipoteka kreditləri də verir.

ABA-nın, BBVB-nin, Sahibkarlığa Kömək Milli Fondunun, SWIFT və Visa İnternational sistemlərinin üzvüdür. Azərbaycanda ilk beynəlxalq sürətli pulköçürmə sistemini ("Caspian Money Transfer") yaratmışdır (2006). Hazırda bu sistemə Rusiya, Gürcüstan, Moldova, Tacikistan, Ukrayna və digər ölkələrin bankları da qoşulmuşdur.

AtaBank – 1993-cü ildən fəaliyyət göstərir. Universal bankdır – korporativ və fərdi müştərilərə tam xidmətlər kompleksi təqdim edir. İnkişaf strategiyası korporativ və pərakəndə bankçılığı təkmilləşdirmək, rəqabət qabiliyyətli bank xidmətlərinin tam spektrini təklif etmək üzərində qurulmuşdur. 9-u ölkənin regionlarında yerləşir 19 filialı və 2 şöbəsi vardır.



BBVB-nin (1997), BFB-nin, ABA-nın (2001) və Əmanətlərin Sığortalanması Fondunun üzvü, Sahibkarlığa Kömək Milli Fondunun və İpoteka Fondunun agent bankıdır.

2001-ci ildə SWIFT və AZİPS sistemlərinə qoşulmuşdur. "Western Union", "Migon, Coinstar", "Contact", "PrivatMoney", "Bıstraya Poçta", "Xpress money", "Zolotaya Korona", "Blizko" sürətli pulköçürmə sistemlərinin iştirakçısıdır.

Muğanbank – 1992-ci ildə yaradılmışdır. Öz missiyasını peşəkar komanda formalaşdırıb biznes tərəfdaşlarına fərdi yanaşmaq və onlara yüksək keyfiyyətli xidmət göstərmək yolu ilə investisiyaları və gəlirliliyi dinamik surətdə artırmaqda görür.





AtaBankın inzibati binası

ABA-nın və BBVB-nin, VISA və MasterCard İnternational beynəlxalq ödəniş sistemlərinin üzvü, Sahibkarlığa Kömək Milli Fondunun müvəkkil bankıdır. Hazırda iri müəssisələrin maliyyələşdirilməsi sahəsində Avropa və MDB bankları və investisiya fondları ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində iş aparır.



Muğan Bankın inzibati binası

Azərbaycan Sənaye Bankı – 1996-cı ildə "Capital Investment Bank" (CI Bank) kimi təsis olunmuş və fəaliyyətə başlamışdır. 1997-ci ildə "Azərbaycan Sənaye Sığorta" MMC-ni 100% payla təsis etmiş, Bakı Banklararası Valyuta Birjasının (BBVB) üzvü olmuşdur. 2000-ci ildə Bakı Fond Birjasının təsis edilməsində 11% payla iştirak etmiş, Azərbaycan Banklar Assosiasiyasının (ABA) üzvü olmuşdur. 2002-ci ildə TSE-ISO-EN 9000 şərtlərinə uyğun keyfiyyət nişanı almışdır ki, bu da bankın iş sisteminin beynəlxalq keyfiyyət sistemi olan *ISO standartlarına uyğun olduğunu göstərən ən etibarlı və mühüm göstəricidir. 2005-ci ildə "Azərbaycan Sənaye Lizinq" MMC-ni də 100% payla təsis etmişdir. 2006-cı ildə "Capital Investment Bank" (CI Bank) adını dəyişdirərək, "Azərbaycan Sənaye Bankı" ASC adı ilə fəaliyyətini davam etdirmişdir. Milli Kart MMC-nin təsis edilməsində 10% payla iştirak etmişdir. "Azərbaycan Beynəlxalq Bankı-Gürcüstan" ASC-nin təsis edilməsində 25% payla iştirak etmişdir. İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondun vəsaitlərinin sahibkarlıq subyektlərinə çatdırılması üçün müvəkkil kredit təşkilatı seçilmişdir. 2007-ci ildə Azərbaycan İpoteka Fonduna, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı kreditləri üzrə Dövlət Agentliyinə, Əmanətlərin Sığortalanması Fonduna üzv olmuşdur. "Caspian Money Transfer" və "Western Union" sürətli pul köçürməsi sisteminə qoşulmuşdur. 2008-ci ildə VISA şirkətinə üzv olmuşdur. "İlin İnkişaf bankı" mükafatına layiq görülmüşdür. 2010-cu ildə Bankın nizamnamə kapitalı 22,1 mln. manat məbləğinə qədər artırılmışdır. "Bistraya Poçta" sürətli pul köçürmə sisteminə qoşulmuşdur. "Azərbaycan Risk Peşəkarları Assosiasiyası"nın (ARPA) üzvü olmuşdur. Qlobal maliyyə bazarlarının izlənməsi və FX əməliyyatları üçün "İş Yatırım İnvestment – Trade Master International" sisteminə qoşulmuşdur.

Bank "BTB" ASC – 2010-cu ilin aprelində Azərbaycanda bank fəaliyyətinə başlayıb. Bankın nizamnamə kapitalı 12 milyon manata bərabərdir. Üç fiziki şəxs bankın səhmdarıdır. Azərbaycan ipoteka fondunun (AİF) müvəkkil bankına çevrilib. Universal kredit-maliyyə təşkilatı olaraq, bank xidmətlərinin tam spektrini təqdim etməkdədir, o cümlədən korporativ müştərilərə, fiziki şəxslərə bank xidmətləri göstərir, habelə Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron yarımadasında yaşayan fiziki şəxslərə kreditlərin verilməsini həyata keçirir.

Bankın rəqabətə davamlılığına xidmət edən əsas amillər sırasına aşağıda qeyd olunanlar daxildir: yerli bazar miqyasında kifayət qədər güclü müştəri portfeli; xərclərin səmərəli idarə olunması sistemi və bankın fəaliyyətində filiallar şəbəkəsinin yüksək payı hesabına regional inkişafa münasibətdə tarazlaşdırılmış siyasətin həyata keçirilməsi; risklərin idarə olunması sisteminin yüksək reytinqi; xarici maliyyə bazarlarından nisbətən aşağı asılılıq, diversifikasiya edilmiş resurslar bazası.

Bankın likvidlik siyasəti aşağıdakılardan ibarətdir: pul vəsaitlərinin hərəkətinin proqnozlaşdırılması və müxtəlif vaxt çərçivələrində likvidliyin təmin edilməsi üçün lazımi likvid aktivlərin saxlanması; bankın strateji məqsədlərinə uyğun maliyyə planının hazırlanması; müxtəlif maliyyələşdirmə mənbələrinin saxlanması və beləliklə, bankın ölkədaxili və xarici mənbələrdən borc almaq imkanlarının artırılması; yüksək likvidli və yüksək keyfiyyətli aktivlərin saxlanması; məhsul bazasının vaxt çərçivələrində mövcud maliyyələşdirmə mənbələrinə uyğunlaşdırılması.

KOMMERSİYA HESABI – elə hesablaşma sənədidir ki, satıcının alıcıya göndərilən mala (əmtəəyə) görə bu sənəddə göstərilən, ona çatası tədiyənin məbləğinin ödənilməsi tələbi əks olunur. Kommersiya hesabında, bir qayda olaraq, aşağıdakılar göstərilir: 1) əmtəə vahidinə görə qiymət və hesabın ümumi məbləği; 2) malın (əmtəənin) göndərilməsinin bazis şərtləri; 3) tədiyə üsulu və hesablaşma forması; 4) tədiyənin aparılmalı olduğu bank və onun rekvizitləri; 5) sığorta ödənişinin ölçüsü (SİF şərtlərində malın göndərilməsi zamanı) və onun ödəyicisi; 6) əlavə dəyər vergisi və aksizlər.

Məhsul göndərən tərəfindən qoyulan hesablar hesab fakturalarına və proforma hesablarına bölünür. Hesab fakturalar kommersiya hesabının bütün funksiyalarını yerinə yetirir. Proforma hesabları əmtəənin (xidmətin) ödənişi haqqında tələbi ehtiva etmir və bir qayda olaraq, hələ satılmamış əmtəə üçün qoyulur (məsələn, konsiqnasiya zamanı). Əgər proforma hesabı hər bir məhsul növünün adını ehtiva edirsə, o, spesifikasiya hesabı adlanır.

KOMMERSİYA KONSESSİYASI – yeni anlayış və bir sıra ölkələrin (Rusiyanın) mülki qanunvericiliyinə uyğun olaraq kommersiya konsepsiyasına görə hüquq sahibi istifadəçiyə sahibkarlıq fəaliyyətində kompleks, müstəsna və digər hüquqlardan, eləcə də ödənişə görə müəyyən həcmdə biliklərdən və kommersiya təcrübəsindən istifadə edilməsi hüququnu verir. Bir halda ki, bu müqavilənin tərəfləri yalnız peşəkar sahibkarlar (kommersiya təşkilatları və ya fərdi sahibkarlar) ola bilər, deməli, o, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı müəyyən vəzifələr (öhdəliklər) doğurur. Kommersiya konsessiyası müqaviləsinin (françayzinq) predmeti, birincisi, hüquq sahibinə təhkim olunan və onun ya firma adına, ya da onun istehsal etdiyi əmtəələrə, yerinə yetirdiyi işlərə, göstərdiyi xidmətlərə hüququnu (əmtəə nişanı və ya xidmət nişanı hüququ) fərqləndirən kompleks, müstəsna hüquqlardır. Müstəsna hüquqlar (əqli mülkiyyət) maddi və icbari hüquqlarla yanaşı, mülki hüquqların xüsusi növüdür, onların qoruduğu obyektlərdən digər şəxslər tərəfindən istifadə edilməsinə yalnız hüquq sahibinin icazəsi ilə, yəni onunla bağlanılan müqaviləyə görə yol verilir. İkincisi, bu müqavilə obyekti hüquq sahibinin kommersiya sirrini təşkil edən, onun "kommersiya təcrübəsindən və qorunan kommersiya" informasiyasından istifadə etmək hüququdur. Kommersiya konsessiyası müqaviləsində istifadəçinin sahibkarlıq fəaliyyətinin nəticələrinin – əmtəələrin, işlərin və ya xidmətlərin zəruri səviyyəsini təmin etmək üçün hüquq sahibi tərəfindən istifadəçiyə onun sahibkarlıq fəaliyyətinə texniki və məsləhət göstərilməsi öhdəliyi haqqında şərtlər də əks olunur. Məsləhət – təlim xarakterli xidmət konsessiya (sazişi) müqaviləsinin predmetinin vacib tərkib hissəsidir.

Sahibkarlıq müqaviləsi kimi kommersiya konsessiyası müqaviləsi də həmişə əvəzi ödənilən dir. Qanun hüquq sahibinə müxtəlif mükafat ödənişlərinin: birdəfəlik (pauşal) və ya dövri (royalti) tədiyələrin, satışdan əldə olunan gəlirdən ayırmaların, əmtəələrin topdansatış qiymətlərinə əlavələrin və s. verilməsinə icazə verir. Bu üsulların əlaqələndirilməsi də yolverilən dir. Bununla belə, konsessiya müqaviləsi hüquq sahibinə mükafatın müəyyən edilməsinin və ödənilməsinin konkret

şərtlərini ehtiva etməlidir. O, qaydalara uyğun müəyyən edilmir, tərəflərin razılaşdığı bu müqavilənin mühüm şərtidir. Konsessiya müqaviləsi tərəflərin öz öhdəliklərini yerinə yetirməməsi qorxusu nəzərə alınaraq yazılı formada tərtib olunur. Bundan əlavə, o, həm də hüquq sahibinin qeydiyyatını həyata keçirən dövlət orqanında qeydiyyatdan keçməlidir, əgər bu qeydiyyat xarici dövlətdə baş veribsə, onda konsessiya müqaviləsinin istifadəçisinin qeydiyyatını aparan orqanda qeydiyyatdan keçməsi zəruridir.

KOMMERSİYA KREDİTİ – haqqının ödənilməsi müddəti təxirə salınmaqla bir sahibkar tərəfindən digərinə əmtəələr formasında verilən kredit, borc. Onun obyekti əmtəə kapitalıdır. O, bilavasitə dövriyyə prosesinə, əmtəələrin istehsal sferasından istehlak sferasına doğru hərəkətinə xidmət edir. Kommersiya kreditinin məqsədi əmtəələrin və onlarda maddiləşmiş mənfəətin reallaşdırılmasını sürətləndirməkdir. Kommersiya kreditinin əsas aləti vekseldir.

KOMMERSİYA KREDİTLƏRİNİN SIĞORTALANMASI – sığortalıların kredit riskinin azalması vəzifəsi alan sığorta fəaliyyəti növü. Kreditlərin sığortalanması İkinci Dünya müharibəsindən sonra Avropada yaranmışdır. Kreditlərin sığortalanması obyektinə görə kommersiya və bank kreditlərinin sığortalanmasına, sığorta risklərinin xarakterinə görə iqtisadi (kommersiya) və siyasi risklərdən sığortalanmaya bölünür.

Cədvəl 1

Kommersiya kreditinin bank kreditindən fərqi

№	Kommersiya krediti	Bank krediti
1	Kreditor qismində istehsalla bağlı və ya əmtəə və xidmətlərin reallaşdırılması ilə əlaqəli olan istənilən hüquqi şəxs çıxış edir	Kreditor qismində ixtisaslaşdırılmış kredit-maliyyə təşkilatları çıxış edir
2	Yalnız əmtəə şəklində verilir	Yalnız pul şəklində verilir
3	Mövcud vaxt müddətində kommersiya kreditinin orta qiyməti bankın orta faiz dərəcəsindən həmişə aşağı olur	
4	Kreditor və borc alan arasında saziş hüquqi əsasla qanuniləşdirildiyi zaman, bu kreditin haqqı əmtəənin qiymətinə daxil edilir	Kreditor və borc alan arasında saziş hüquqi əsasla qanuniləşdirildiyi zaman, bu kreditin haqqı baza qiymətində təsbit edilmiş faiz dərəcəsinə görə müəyyən edilir

KOMMERSİYA KREDİTİ ÜZRƏ FAİZ DƏRƏCƏSİ (*commercial loan rate*) – banklar tərəfindən kommersiya məqsədlərində verilmiş kreditlər üzrə çıxılan faiz (bax: sxem 1).

KOMMERSİYA MÜXABİR SƏNƏDLƏRİ – təşkilatların, müəssisələrin və birliklərin müxtəlif fəaliyyət tərəflərini əks etdirən sənədlərin məcmusu. Sənədləşmənin tərtib edilməsinə hazırlıqla, kommersiya sövdələşməsinin bağlanması və yerinə yetirilməsi ilə əlaqədardır, rəsmi xarakter daşıyır və

Kommersya kreditinin verilməsi üsulları



Sxem 1

hüquqi qüvvəyə malik ola bilər, belə ki, hüquqi şəxs (müəssisə, kooperativ, ayrı-ayrı şəxslər və s.) adından tərtib olunur. Kommersiya məktubları mövcud standartlar əsasında hazırlanır. Kommersiya sənədlərinin, o cümlədən kommersiya müxabir sənədlərinin unifikasiyası (uyğunlaşması) ticarətin inkişafı ilə məşğul olan komitənin beynəlxalq ticarət qaydalarının möhkəmlənməsi üzrə işçi qrupunun tövsiyəsi ilə həyata keçirilir. İqtisadi fəaliyyət təcrübəsində kommersiya müxabir sənədlərindən istifadə olunur ki, bunlar iki qrupa bölünür: a) sadə məktublar qrupu (xahiş məktubu, xəbər məktubu, dəvət məktubu, təşəkkür məktubu, təsdiq məktubu); b) müqavilə sənədləri qrupu (sorğu, sorğuya cavab, təklif-aferta məktubu, təklifə cavab). Kommersiya müxabir sənədləri poçtun köməyilə və informasiya verilməsinin müasir vasitələrindən – teletayp, telefaks, elektron poçt, internet, e-mail və s. istifadə etməklə verilir.

KOMMERSİYA RİSKLƏRİNİN SIĞORTASI – təsərrüfat subyektlərinin kommersiya fəaliyyətləri üzrə ziyanın, itkilərin, biznes uğursuzluqlarının sığortalanması. Kommersiya riskinin sığortalanması – bazar iqtisadiyyatı ölkələrində müəssisə və korporasiyaların (birliklərin) sığorta növüdür, təsərrüfat fəaliyyətinin və kommersiya əməliyyatlarının itkilərdən sığortalanmasıdır. Kommersiya risklərinin sığortalanması müəyyən olunmuş tədiyə vaxtı baş verdikdən sonra qabaqcadan razılaşdırılmış müddət (məsələn, 6 ay) ərzində xüsusi alıcının borcunu ödəməməsi, bu alıcının son qeyri-tədiyə qabiliyyəti, onun ünvanına malların boşaldılmasından sonra tədiyədən alıcının imtina edilməsidir və s.

KOMMERSİYA RİSKLƏRİNİN SIĞORTALANMASI NÖVÜ – risklərin elə təsnifatı kateqoriyasıdır (tərkib hissəsi) ki, bu zaman sahibkar, iş adamı, təsərrüfatçı hər hansı bir kommersiya fəaliyyəti zamanı təsadüfi zərərləri sığortalayır, bu məqsədlə sığorta müqaviləsi bağlayır. Kommersiya risklərini örtən aşağıdakı sığorta növləri fərqləndirilir: əmlak sığortasının bütün növləri; istehsalın dayanması nəticəsində mənfəət (gəlir) itkisi; əmtəə istehsalçısının məsuliyyəti; məhsulun çatdırılmaması və satılmaması; kreditlərin qaytarılmaması (borclunun məsuliyyəti); maliyyə öhdəliklərinin yerinə yetirilməməsi; texniki risklər; firma (müəssisə) işçilərinin oğurluq və israfçılığından risklər və s.

KOMMERSİYA SƏNƏDİ – mal haqqında bütün kommersiya məlumatını, o cümlədən onun kəmiyyət, keyfiyyət və dəyər xarakteristikalarını əks etdirən maddi daşıyıcı.

Kommersiya sənədlərinə aşağıdakılar aid edilə bilər:

– hesab-fakturalar;

– konosamentlər;


– daşıma sənədləri və s.

Ödənilmiş kommersiya sənədləri mühasibat yazılarının tərtib edilməsi üçün əsasdır. Müəssisələrin çoxu bu cür sənədlərdə olan informasiyanı müəssisənin kommersiya sirrinə aid edirlər.

KOMMERSİYA SİRRİ – müəssisənin fəaliyyəti haqqında yayılması ya birbaşa zərərə, ya da mənfəətin azalmasına gətirib çıxara biləcək məlumatlar; başqa sözlə, maliyyə siyasətini rəqiblərdən və geniş xalq kütlələrindən gizlətmək məqsədilə müəssisələrdə istehsal, ticarət və maliyyə əməliyyatlarının məxfi saxlanması. Yəni şirkətin, firmanın, bankın və s. fəaliyyətinə aid sənədləri gizli saxlamaq hüququ. Kommersiya sirrinə aid edilən informasiyanın əhatə dairəsi müəssisə tərəfindən müstəqil şəkildə müəyyən edilir. Bəzi ölkələrin (məsələn, Rusiya Federasiyasının) qanunvericiliyinə görə aşağıdakı məlumatlar müəssisənin kommersiya sirrini təşkil edə bilməz: təsis sənədləri; sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququ verən sənədlər (qeydiyyat şəhadətnamələri, lisenziyalar, patentlər); maliyyə-təsərrüfat fəaliyyəti barədə müəyyən edilmiş hesabat formaları üzrə məlumatlar, vergilərin və rüsumların hesablanmasının və ödənilməsinin düzgünlüyünü yoxlamaq üçün zəruri olan başqa məlumatlar; tədiyə qabiliyyətliliyi barədə sənədlər; işləyənlərin sayı, tərkibi, onların əmək haqqı və əmək şəraiti, eləcə də vakansiyalar olması barədə məlumatlar; vergilərin və rüsumların ödənilməsi barədə sənədlər; ətraf mühitin çirkləndirilməsi; antiinhisar qanunvericiliyin pozulması; əmək şəraitinin təhlükəsizliyinə riayət edilməməsi, əhalinin sağlamlığına ziyan vuran məhsulun satılması; həmçinin qanunvericiliyin sair pozulmaları və bu halda vurulmuş ziyanın həcmi barədə məlumatlar və s. (bax: sxem 1).



Biznesin müxtəlif sahələrində kommersiya sirrinin şərti mövcudluğu müddəti



Sxem 2

KOMMERSİYA VEKSELİ – ticarət sövdəsi əsasında yaranan və 270 günədək qüvvədə olan veksel. Borcalan onu mal müqabilində kreditora girov kimi verir. Korporasiyanın, hökumət agentliyinin və ya bank holdinq-şirkətinin qısamüddətli kreditləşmə üçün tətbiq etdiyi sadə və ya barat vekselin, bir qayda olaraq, xüsusi təminatı olmur. Lakin o, istifadə olunmamış bank kredit xətləri ilə möhkəmləndirilir. Belə veksellər bilavasitə investora və ya dilerlərə nominal dəyərindən aşağı qiymətə satılır. Dilerlər öz növbəsində onu investorlara satırlar.

KOMMİVOYAJER – satış vasitəçisi firmanın səyyar nümayəndəsidir ki, bu da müştərinin (satıcının) tapşırığı ilə onun əmtəələrini reallaşdırır (satır).

KOMMONS CON ROCER (1862-1945) – Con Kommons Veblen və Mitçellə birlikdə



amerikan institusionalizminin üç banisindən biri. Onun Amerikada əmək münasibətləri üzrə ən böyük tarixçi və 17 il ərzində dörd cilddə nəşr olunmuş "Birləşmiş Ştatlarda əməyin tarixi" kitabının (1818-1835) müəllifi olduğu hər şeyi aydın göstərir. Bu kitab, hətta bundan sonra heç nə yazmadığı təqdirdə belə onun Amerika iqtisad məktəbinin ən məşhur nümayəndələrindən biri olmasını təmin edərdi. Kommons 1935-ci ilin sosial təminat haqqında qanunun hazırlanmasında iştirak etmişdir. O, iqtisadi nəzəriyyə üzrə üç traktat yazmışdır: "Sərvətin bölüşdürülməsi" (1933), "Kapitalizmin hüquqi əsasları" (1924) və "İnstitusional iqtisadiyyat" (1934). Bu işlərdə fərdi fəaliyyəti sənaye fəaliyyətinə çevirən "fəaliyyətdə olan müəssisələrin iş qaydaları"nın təhlili aparılırdı.

Ona həmçinin mübahisə edən fərdi maraqların tənzimlənməsi üçün tədbirlər toplusu kimi təsvir edilən kollektiv fəaliyyət nəzəriyyəsi də məxsusdur. Bu tənzimləmə tədbirlərini "qanunlar" adlandıraraq, Kommons hüquqşünaslığı iqtisadi tədqiqatın mərkəzinə qoyur. Beləliklə, o, ABŞ-ın Ali Məhkəməsini millət üçün "siyasi iqtisadın ali qüvvəsi" adlandırırdı. Bununla o, iqtisadi hüquq istiqamətinin əsasını qoymuşdur və burada məhkəmələr və məhkəmə qərarları nəinki iqtisadi siyasətin son məqsədi haqqında ziddiyyətlərin, həmçinin həmin məqsədə nail olmaq üçün vasitələrin aşkarlanması probleminin həlli ilə də məşğul olurdu.

Kommons Ohayo ştatının Hollandsburq şəhərində anadan olmuşdur və tələbə kimi Oberlin kollecinə getmişdir. 1888-ci ildə kolleci bitirdikdən sonra o, Con Hopkinsin Universitetinə qəbul olmuşdur. O, aspirantura-nı bitirə bilməmişdir və 1890-cı ildə Vesleyen Universitetində iqtisadiyyatı tədris etməyə başlamışdır. Vesleyendən sonra o, Oberlin, İndiana və Sirakuzda müəllimlik etmiş və 1904-cü ildə Viskonsində məskunlaşmışdır. Burada o, 1934-cü ildə təqaüdə çıxana qədər çalışmışdır və 1945-ci ildə 83 yaşında vəfat etmişdir.

KOMMUNA (fr. *commune*) – 1. Əmək və mülk ümumiliyi əsasında birlikdə işləmək və yaşamaq üçün birləşmiş kollektiv.

KOMMUNAL BONLAR (qəbzlər) – kommunal xidmətlərdən istifadə hüququna dair şəhadətnamə. Kommunal xidmətlərə görə gələcək ödənişlərin əvvəlcədən yığılması məqsədilə buraxılır.

KOMMUNİKASİYA (lat. *communicato* – əlaqə) – rabitə, əlaqə yaratmaq vasitəsi. Mənbədən qəbul edənə əlaqə kanalı vasitəsilə məlumat (informasiya) ötürülməsi prosesi (proseslər toplusu). Kommunikasiyanın (rabitə) mənbəyi – bu informasiyanı yaradan insan, birlikdə işləyən insanlar qrupu və ya təşkilati struktur ola bilər. Məlumat – mənbənin qəbul edənə göndərdiyi stimullaşdırıcı informasiyadır. Elə buna görə də kommunikasiya aktı həyata keçirilir. Əlaqə kanalı – bu məlumatın mənbədən qəbul edənə göndərilmə vasitəsi və ya vasitələr toplusudur. Kommunikasiyanın səmərəli fəaliyyət göstərməsinin vacib şərti kanalın əks əlaqəni təmin edə bilməsidir. Qəbul edən – kommunikasiya prosesinin ən vacib tərkib hissəsidir. Kommunikasiya prosesini yerinə yetirərkən hər bir mənbə ilk növbədə qəbul edənə istiqamətlənməlidir.

KOMMUNİKASİYA PROSESİ – insan qrupları arasında (iki və daha çox) informasiya mübadiləsi. Kommunikasiya prosesinin məqsədi – məlumatların mübadiləsi və öz fəaliyyətinin inkişafı üçün zəruri olan informasiyanın anlaşılması və ona sahib olmanın təmin edil-

məsidir. Kommunikasiya (rabitə) prosesində dörd əsas element ayrılır:
1) göndərən – ideyaları generasiya edən və ya məlumatları toplayan və onları ötürən;
2) xəbər – simvolların köməyilə kodlaşdırılmış məlumat;
3) kanal – məlumatın ötürülmə vasitəsi;
4) ünvançı – məlumatları alan və onu interpretasiya (yayan) edən.
Kommunikasiya prosesi aşağıdakı mərhələləri özündə cəmləyir:
1) ideyanın yaradılması;
2) kodlaşma və kanalın seçimi;
3) ötürmə;
4) kodsuzlaşdırma.

KOMMUNİZM – ideologiyaya görə tam bərabərlik, istehsal vasitələri üzərində ictimai mülkiyyət üzərində qurulan hipotetik ictimai-iqtisadi cəmiyyət. Əsas prinsipi "hər kəsə qabiliyyətinə, hər kəsə tələbatına görə" prinsipidir. Bu elə bir cəmiyyət və ya dövlət quruluşudur ki, burada vətəndaşlar bərabər hüquqludur, istehsal vasitələri isə dövlət mülkiyyətindədir. İnsan kapitalının inkişafı ÜDM-in artımı, elm və texnikanın inkişafına səbəb olur. Hər bir vətəndaş öz qabiliyyət və bacarığı çərçivəsində cəmiyyətin ümumi mənafeyi naminə çalışır, belə cəmiyyəti isə ictimai idarəetmə orqanları idarə edir. Lakin Sovet İttifaqının dağılması ilə utopik kommunizm ideologiyası da iflasa uğradı.

KOMPANİYA (fr. *Compagnie* – cəmiyyət, qrup) – müəssisənin təşkilati-hüquqi forması. Onların aşağıdakı növləri vardır: birliklər, yoldaşlıqlar, təsərrüfat cəmiyyətləri, firmalar, şirkətlər və s.

KOMPAUNDİNQ – bir qədər pul məbləğinin vaxt keçdikcə artması. Bu artım ondan daxil olan faizlərin reinvestisiyası nəticəsində baş verir; cari dəyərdən proqnoz dəyərinə keçid prosesi. Gələcək *Ct* dəyərin hesablanması cari *C* dəyərin $(1+nt)$ kəmiyyətinə (burada: *n* – vahid paylarında diskont dərəcəsi, *t* – cari tarixdən proqnoz tarixə qədər illərin sayıdır) hasili ilə həyata keçirilir.

KOMPAUNDİRLƏŞDİRMƏ – bazarda istehlak təyinatına görə birləşən bütün malların eyni vaxtda təklif edilməsi üzərində qurulmuş satış sxemi.

KOMPENSASİYA (lat. *compensatio*, compensare – tarazlaşdırmaq, ödəmək) – bərpa etmək, haqqını ödəmək, ödəniş və s. mənalarda işlədilir. Şəxsiyyətə, əmlaka və ya vətəndaşın nüfuzuna dəymiş zərərin, eləcə də hüquqi şəxsin əmlakına və nüfuzuna dəymiş zərərin ödənilməsi. Qanunla kompensasiya ödənişinin alınması bilavasitə zərər çəkməyən şəxsə də təyin edilə bilər (məsələn, azyaşlı uşaqlara dəymiş zərərin kompensasiyası onların valideynlərinə və qəyyumlarına verilə bilər; hüquqi şəxsə, yaxud vətəndaşa əmək vəzifələrinin icrası zamanı işçi tərəfindən dəymiş zərər idarə tərəfindən ödənilir). Birgə zərər vurmuş şəxslər zərərçəkən qarşısında birlikdə cavabdehdirlər. Digər şəxs tərəfindən dəymiş zərəri ödəməyi öhdəsinə götürən şəxs zərərvurana əks tələb qoymaq hüququna (reqress) malikdir. Birgə dəymiş zərəri ödəyən zərəri vurmuş şəxs, bu zərəri vurmuş şəxsin günahının müvafiq dərəcəsi ölçüsündə kompensasiyanın zərərçəkmişə ödənilən hissəsini zərəri vurmuş digər şəxsdən tələb etmək hüququna malikdir. Günahın dərəcəsinin müəyyən edilməsinin qeyri-mümkünlüyü zamanı paylar bərabər qəbul edilir. Kompensasiya təkcə şəxsə və əmlaka dəymiş zərərə yox, həm də mənəvi zərərə aiddir. Əmək hüququnda istifadə olunmayan məzuniyyətə görə, işçi-

Cədvəl 1

İstehsal amillərinin kompensasiyası mənbələri

№	İstehsal amilinin adı	İstehsal amilinin kompensasiyası
1	Əmək (işçi qüvvəsi)	Əmək haqqı
2	Kapital	Faizlər, dividentlər
3	Torpaq	Renta (vergilər, icarə haqqı)
4	İdarəetmə	Mənfəət, rəhbərlik tərəfindən mükafat
5	İntellektual mülkiyyət	Sahibkara ödənişlər (qonorarlar, mükafatlar, royalti və ya pauşal ödəmələr və s.)
6	İnformasiya	Sahibkara ödənişlər

lərə məxsus alətlərin aşınmasına görə, verilməmiş xüsusi geyimə və s. görə işi yerinə yetirən fəhlə və qulluqçulara ödəniş. Demoqrafiyada – demoqrafik proseslərin intensivliyinin dəyişməsidir. Bu da ondan ibarətdir ki, bu və ya digər səbəblərdən baş tutmayan demoqrafik hadisələr bu proseslər dayandırıldıqdan sonrakı dövrdə güclənir. Nəticədə müvafiq hadisələrin tezliyi əvvəlcə azalır, ləngiməni doğuran səbəbin fəaliyyəti dayanan zaman kəskin surətdə artır. Kompensasiya həm də sığorta hadisəsi baş verdikdə, qorunan əmanətçilərə ödənilən pul vəsaitidir.

Kompensasiyaya xarakterik misal olaraq müharibədən sonrakı dövrdə nikah və doğumun səviyyəsinin yüksəlməsini göstərmək olar. Bu zaman müharibə ilə əlaqədar təxirə salınmış nikahlar bağlanılır və cəbhədən qayıtmış valideynlərin ailəsində uşaqların sayı artır. Kompensasiya bir sıra hallarda tam olmur; uyğun hadisələrin tezliyi onun aşağı düşməyə başladığı əvvəlki səviyyəyə çatmır. Kompensasiya xarakterli hadisələrə adətən hadisələrin tezliyinin aşağı düşməsi aiddir.

KOMPENSASİYA BORCU – valyuta riskinin və ya valyuta məhdudiyyətlərinin qarşısını almaq, yaxud onları neytrallaşdırmaq məqsədi ilə yerli valyutada borc müqabilində xarici valyutada borc verilməsi haqqında saziş. Bu halda, borc üzrə faiz dərəcələrində fərqə görə itkilər yarana bilər.

KOMPENSASİYALAR – işçilərə əmək öhdəliklərinin yerinə yetirilməsi ilə əlaqədar olan məsrəflərin əvəz edilməsi məqsədilə müəyyən edilən pul ödəmələri.

KOMPENSASİYA HESABI (ing. *İnterest offset account*) – qarşılıqlı ödənilən hesab da adlanır. Borcalanın depozitləri üzrə hesablanan faizlər nəzərə alınmaqla kredit üzrə faizlərin hesablanmasını nəzərdə tutan hesab. Kompensasiya hesabları tam və qismən olur: 1) faizlərin ödənilməsi üçün tam hesab depozitlər və ipoteka krediti üzrə eyni faizlərin hesablanmasını nəzərdə tutur. Bu halda ipoteka mənzil krediti üzən faiz dərəcəsi olan və depozitlər üzrə hesablanmış faizlərin 100% kompensasiyasına malik kreditdir. Beləliklə, kredit üzrə faizlər yalnız kredit hesabı üzrə qalıqla kompensasiya hesabı üzrə qalıq arasındakı fərq nəzərə alınmaqla hesablanır; 2) qismən kompensasiya hesabı depozitlər və ipoteka kredit üzrə fərqli faizlərin hesablanmasını nəzərdə tutur. Bir qayda olaraq, depozitlər üzrə faiz dərəcələri ipoteka üzrə faiz dərəcələrindən aşağı olur. Kompensasiya hesabı ilə olan ipoteka kreditlərinin əsas xüsusiyyəti faiz ödənişlərinin azaldılmasının mümkünlüyüdür. Faizlər ipoteka krediti üzrə əsas borc məbləği ilə depozitlərin cəmi məbləği arasındakı fərqlə hesablanır. Bəzi kreditorlar bütün əməliyyatlar üçün çox vaxt cari ipoteka hesabı (CİH) adlanan hesabdan istifadə edirlər. Digərləri isə bir çox hesablardan (ən azı depozit və kredit hesablarından) istifadə edirlər.

KOMPENSASİYA MÜQAVİLƏSİ – kompensasiya əqdi barədə əsas müqavilə. Bu müqavilədə onun hər iki tərəfinin malları təqdim etməsi və qismən pul ödənişi nəzərdə tutulur. Kompensasiya müqaviləsinin barter əqdindən fərqi bundan ibarətdir.

Ölkəmizin praktikasında yaranmış ənənəyə görə kompensasiya müqavilələri sənaye obyektlərinin tikintisi zamanı bağlanır (sonradan məhsul ilə hesablaşma aparılır).

KOMPENSASİYA NƏZƏRİYYƏSİ – bu konsepsiyaya görə istehsal prosesinə daxil olan maşınlar fəhlələri sıxışdırır və eyni zamanda onların saxlanmasına sərf olunan kapitalı azad edir, işçilərin bir sahədə sayının azalması başqa sahələrdə işçi qüvvəsinə olan tələbin yüksəlməsi ilə konpensasiya olunur (xüsusilə, yeni maşınlar istehsal olunan yerlərdə) və əmək və maddi resursların sahələrarası bölgüsü yolu ilə işsizlik problemi həll olunur. XIX əsrin I yarısında kompensasiya nəzəriyyəsini iqtisadçılardan C.Mill, C.R.Mak-Kullox, R.Torrens, N.U.Senior, C.S.Mill irəli sürmüşlər. XIX əsrin II yarısında elmi-texniki tərəqqinin sürətlənməsi ilə əlaqədar kompensasiya nəzəriyyəsi də inkişaf edir. Onun tərəfdarları (S.Fabrikant, Y.Brozen və başqaları) iddia edirlər ki, onların fikrincə, iş yerinin dəyişməsi zərurətindən doğan "texnoloji işsizlik" qısamüddətli xarakter daşıyır və texniki tərəqqi azad edilmiş iş qüvvəsini kompensasiya edən əlavə tələb doğurur.

KOMPENSASİYA ÖDƏNİŞLƏRİ – vətəndaşların sosial müdafiəsi növü kimi dəymiş zərərin pul formasında ödənil-

məsi. Bunlar inflyasiyadan qorunmaq üçün əmək haqqının, təqaüdün, müavinət və əmanətlərin indeksasiyası, aztəminatlı ailələrə yaşayış və kommunal haqlarının ödənilməsində güzəşt və subsidiyaların verilməsi formasında həyata keçirilir.

KOMPENSASİYA RÜSUMLARI – gömrük ərazisinə gətirilən malların istehsalı və ya ixracı zamanı birbaşa və dolayı subsidiyalardan istifadə olunduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna edilmədikdə, ölkədə bu malların istehsalının təşkilinə və genişləndirilməsinə maneçilik törədildikdə tətbiq edilir.


KOMPENSASİYA SAZİŞİ – malların qarşılıqlı tədarükü və ya hər hansı digər hallarda kontragentlərin (müqavilə bağlananın) marağının qarşılıqlı təmin edilməsi. Kompensasiya sazişləri əsasında bağlanılmış müqavilədə ödənişlərin qismən valyuta ilə, qismən də malın qarşılıqlı tədarükü ilə bir müqavilə çərçivəsində əvvəlcədən nəzərdə tutula bilər. Kompensasiya sazişlərinin adi barter yolu ilə mal mübadiləsindən fərqi bundan ibarətdir.

KOMPROMİSLƏRİN (RAZILAŞMALARIN) TƏHLİLİ – malın daha yaxşı qavranılması məqsədilə istehlakçıların malın qiymətinə və digər xassələrinə optimal münasibətinin müəyyən edilməsi.

KOMPÜTERLƏRİN VƏ ONLARIN İSTİSMARI İLƏ ƏLAQƏDAR RİSKLƏRİN SIĞORTALANMASI – kompüterlərin (əvvəllər elektron – hesablayıcı maşınlarının – EHM) yaranması və inkişafı elmi-texniki tərəqqi ilə əlaqədardır. Kompüterlərin (EHM-lərin) sığortalanması bütövlükdə sığortalanan obyektlərin spesifikliyi nəzərə alınmaqla maşınların sınmadan sığortalanmasının standart şərtlərinə əsaslanır.

KOMPÜTER VİRUSU – özünü başqa proqramların içinə yazmaq, başqa sözlə, onları "yoluxdurmaq", həmçinin, kompüterdə müxtəlif növ arzuedilməz əməliyyatlar aparmaq imkanına malik olan, bədxah məqsədlə yazılmış kiçik həcmli proqram. Kompüter virusunun xüsusiyyəti – başqa proqramları tapmaq və yoluxdurmaq, həmçinin, başqa arzuedilməz əməliyyatları yerinə yetirmək (məsələn, ayrı-ayrı yazıların məhv edilməsi və s.). Kompüter viru-

Kompüterin tarixində ən dağıdıcı viruslar



10-cu yer – Code Red
Virus 2001-ci ildə hazırlanaraq 360 min maşını yoluxdurmuş və Ağ Evin saytına hücum etmək üçün bot-şəbəkə yaratmışdı.

9-cu yer – Morris
1988-ci ildə virus 60 min kompüteri yoluxduraraq onların normal işləməsinə mane olmuşdu.

8-ci yer – Blaster
2003-cü ildə Microsoft saytlarına hücum etmək üçün yaradılmışdı. Müəllifini isə tapa bilmədilər.

7-ci yer – Melissa
Virus $80 mln. ziyan vurmuşdu. Microsoft və Intel şirkətləri hətta öz poçt serverlərini söndürmüşdülər.

6-cı yer – CIH
Məşhur Çernobıl virusu. AES-də baş vermiş qəzanın ildönümü olan 26 apreldə virus fəallaşmış və kompüterlərin işini iflic etmişdi.

5-ci yer – Nimda
Elektron poçt vasitəsilə yayılmışdı. Ən tez yayılan virusa çevrilmişdi. Milyonlarla kompüteri yoluxdurmaq üçün ona 22 dəqiqə kifayət etmişdi.

4-cü yer – Storm Worm
2007-ci ildə virus spam göndərərək və şəxsi informasiyaları oğurlayaraq kompüterləri yoluxdurmuşdu.

3-cü yer – Slammer
Ən aqressiv virus. 2003-cü ildə 10 dəqiqə ərzində 75 min kompüterin məlumatlarını məhv etmişdi.

2-ci yer – Conflicker
2009-cu ildə spam və fişinq üzrə bot-şəbəkə yaratmışdı.

1-ci yer – ILOVEYOU
2000-ci ildə virus parolları oğurlamışdı. 50 milyondan çox kompüter yoluxmuşdu. Bu hadisə hətta Pentaqon və MKİ-dən də yan ötməmişdi.

sundan müdafiə olunmaq üçün antivirus proqramı adlanan başqa proqramlar tətbiq edilir.

KONDOMİNİUM – hər hansı bir ərazinin bir neçə dövlət tərəfindən müştərək idarə edilməsi. Məsələn, müstəqillik əldə edənədək (1980) Yeni Hebridlər üzərində franko-Britaniya kondominiumu.

KONDRATYEV NİKOLAY DMİTRİYEVİÇ (1892-1938) – rus iqtisadçısı, statistiki, sosioloqu, beynəlxalq səviyyədə tanınmış iqtisadi dinamikada "Uzun dalğalar" nəzəriyyəsinin müəllifi və rus tsiklizmi məktəbinin yaradıcılarından biri.



1911-ci ildə Peterburq Universitetinin hüquq fakültəsini bitirdikdən sonra siyasi iqtisad və statistika kafedrasında işləməyə başlayıb. A.Kerenskinin müvəqqəti hökumətində Ərzaq Nazirliyində nazir müavini işləyib. Konyunktura İnstitutunun yaradıcısı və direktoru olub (1920-1928). 1930-cu ildə iqtisadçılarla birlikdə həbs edilib, 1938-ci ildə güllələnib.

N.Kondratyevin "Uzun dalğalar" nəzəriyyəsi SSRİ-də qəbul edilməsə də xaricdə yayılmışdı. O, 1925-ci ildə Rusiyada, 1926-cı ildə Almaniyada və 1935-ci ildə İngiltərədə nəşr olunmuş "Konyunkturanın böyük tsikləri" məqaləsi vasitəsilə məşhurlaşmışdır. Kondratyev sonralar bu məqaləni eyni adlı kitaba çevirmişdir. Öz-özlüyündə "kapitalizm şəraitində iqtisadi artımın müddətcə adi iqtisadi tsikllərdən uzun olan dövri tsiklə məruz qaldığı" haqqında ideya yeni olmasa da, Kondratyev ondan əvvəlki müəlliflərə nisbətən uzun dalğaların mövcudluğunu daha əsaslı şəkildə sübuta yetirərək 1840-cı, bəzi hallarda isə 1780-ci ildən başlayaraq ABŞ, Böyük Britaniya, Fransa və Almaniya üçün istehsalın həcmi, dəyəri və qiyməti üzrə verilənləri 36 illik cərgələr şəklində təsvir etmişdir. Uzun dalğaların mövcudluğunu qəbul etsə də Kondratyev onların real izahına çətinlik çəkirdi. O, dalğaların müharibə və qızıl mədənlərinin kəşfi kimi xarici təsirlərin nəticəsində yarandığını güman edirdi. Yeganə problem onların müəyyən dərəcədə müntəzəm davranışlarını izah etməkdə idi. Onun ideyaları öz əksini Yozef Şumpeterin (Kondratyevin uzun dalğalar anlayışını elmə o daxil edib), Herhard Menşin tədqiqatlarında tapıb.

Son illərdə Kondratyev tsikllərinə maraq yenidən oyanmışdır. Məşhur belçikalı marksist Ernst Mandelin 1980-ci ildə bu problemi "Kapitalizmin inkişafının uzun dalğaları" kitabında yenidən müzakirə obyektinə çevrilmişdi.

1992-ci ildə alimin anadan olmasının 100 illiyi münasibəti ilə N.D.Kondratyev adına beynəlxalq fond yaradılmışdır.

KONDRATYEVİN "UZUN DALĞALAR"I – kapitalist iqtisadiyyatının dövrünü əhatə edən iqtisadi konyunkturanın yüksələn və ya azalan hərəkəti. O bir tərəfdən dəyər amillərini (dəyişən əmtəə qiymətlərini), digər tərəfdən isə: a) dəyər xarakterli (əmək haqqı və kapitala faiz); b) dəyər və natural amillər nəticəsində formalaşan (xarici ticarət dövriyyəsi); c) natural xarakterli elementləri (kömürün hasilatı və istehlakı, çuqun və qurğuşunun istehsalı) qoyurdu. Tsiklik (mərhələli) tədqiqatlar Böyük Britaniya və Fransa iqtisadiyyatı üzrə XVIII əsrin sonu, XX əsrin əvvəlləri üçün aparılmışdı.

XX əsrin 60-cı illərinin sonu – 70-ci illərinin əvvəllərində qlobal iqtisadi böhranın təsiri altında iqtisadiyyatın tsiklik dinamikasının yeni tədqiqatlar dalğası başlandı, N.D.Kondratyevin irsinə diqqət gücləndi. P.Bokkar, Q.Menş, L.Fontvey, E.Mendel, Van Deyn, T.Kuçinski və başqalarının monoqrafiyaları meydana gəldi.

1996-cı ildə Rusiya Təbiətşünaslıq Elmləri Akademiyasının tsiklləri tədqiq edən və proqnozlaşdırma məsələsini öyrənən xüsusi bölməsi yaradıldı. 1992-ci ildən etibarən üç ildə bir dəfə beynəlxalq N.D.Kondratyev konfransları, 1995-ci ildən başlayaraq üç ildə bir dəfə ictimai elmlərin inkişafına verilən töhfəyə görə N.D.Kondratyev medalı uğrunda müsabiqələr keçirilir.

XX əsrin sonunda və XXI əsrin birinci onilliyində dünyada iqtisadiyyatın dinamikasında baş verən enmə-qalxma meyilləri N.Kondratyevin "Uzun dalğalar" nəzəriyyəsinin həyatiliyini təsdiq edir. Müasir dünyanın görkəmli iqtisadçıları N.Kondratyevi nəinki Rusiyanın, eləcə də dünya iqtisad elmində özünəməxsus yeri olan alim kimi qiymətləndirirlər.

Alim 150 ili əhatə edən dövrü aşağıdakı tsikllərə bölmüşdü:
I tsikl: 1787-ci ildən 1814-cü ilədək yüksəldici dalğa, 1814-cü ildən 1891-ci ilədək endirici dalğa.
II tsikl: 1884-cü ildən 1875-ci ilədək endirici dalğa.
III tsikl: 1896-cı ildən 1920-ci ilədək yüksəldici dalğa.
Burada yüksəliş dövrü ilə eniş dövrü bir-birini tsikl olaraq əvəz edirdi.

KONDUİT – bir neçə satıcının aktivlərini maliyyələşdirən kommersiya kağızları buraxan qurum.

Çoxsahəli konduit

Çoxsahəli konduitin üstünlüklərindən biri odur ki, əgər satıcılar öz aktivlərinin, kommersiya kağızlarının təminatı kimi istifadə olunmasını əlaqələndirmək istəmirsə, onlar kommersiya kağızları bazarına dolayı üsulla çıxa bilər. Bundan başqa, sekyuritizasiya mexanizmindən istifadə edərək satıcılar, hətta onların aktivlərinin həcmi sövdələşmənin yerinə yetirilməsi ilə bağlı xərcləri ödəməyə kifayət etməsə belə, daha ucuz borc vəsaitlərindən istifadə etmək imkanı əldə edə bilər.

KONFEDERASİYA – 1. Suveren dövlətlərin öz müstəqilliyini, dövlət idarəetmə orqanlarını saxlamaq şərtilə birləşmə forması. Konfederasiya üzvləri ümumi maraq doğuran məsələlərdəki fəaliyyətlərinin (hərbi, xarici iqtisadi, iqtisadi əməkdaşlıq) əlaqələndirilməsi üçün xüsusi orqanlar yaradırlar. Tarixi baxımından İsveçrə konfederasiya formasında yaradılmasına baxmayaraq, hazırda federasiya formasında fəaliyyət göstərir. 2. Hər hansı ictimai və ya digər təşkilatın adı (məsələn, Azad Həmkarlar İttifaqı Konfederasiyası).

KONFİDENSİAL (MƏXFİ) MƏLUMATLAR – 1) Azərbaycan Respublikasında istifadəsi qanunvericiliyə uyğun olaraq məhdudlaşdırılan sənədləşdirilmiş məlumatlar;
2) Avropa İttifaqında statistik məxfiliyə əməl edilməsinə dair rəsmi qəbul olunmuş tərif yoxdur. Avropa Statistika Bürosunun məqsədləri üçün məxfi statistik məlumatlar, Şuranın 1588/90 nömrəli təlimatında müəyyənləşdirildiyi kimi, Aİ-yə üzv ölkələrin öz milli qanunvericilikləri ilə və ya təcrübədə qəbul etdikləri məxfi elan edilmiş "məlumatlar" kimi müəyyən edilmişdir. Adətən Avropa İttifaqına üzv olan ölkələr tərəfindən elan edildiyi kimi, məxfi məlumatların iki əsas kateqoriyası mövcuddur: bunlar fərdi məlumatlar və dolayı yolla fərdi məlumatların eyniləşdirilməsinə (açıqlanmasına) imkan verən cədvəl məlumatlarıdır. Onlar, həmçinin, ilkin və təkrar məxfilik kimi məlumdurlar.

Fərdi məlumatlar – ayrıca bir iqtisadi vahidə aid olan məlumatlar. Onların birbaşa tanınması statistik vahidin adı, ünvanı ya rəsmi qaydada ona verilə-ndə, yaxud rəsmi qaydada dərc olunanda baş verə bilər. Alternativ olaraq, iqtisadi vahid dolayı yolla da tanına bilər. Belə ki, ayrıca şəxsin (ayrıca iqtisadi vahidin) tanınması üçün imkan verən əlavə məlumat varsa, buna müəyyən vaxt, pul və əmək sərf etməklə şəxsi (iqtisadi vahidi) eyniləşdirmək (tanımaq) olar.

Cədvəl məlumatları – statistik üsulların nəticəsi olan məlumatlar. Onlar yekun (cəm) şəklində təqdim olunurlar və hər bir rəqəm müvafiq xanada müvafiq fərdi məlumatın aqreqasiya edilmiş nəticəsidir. Bu məlumatlar adətən məxfiliklə əlaqədar olaraq məhdudlaşdırılır (ayrıca iqtisadi vahidi eyniləşdirmək imkanının yaranması halları istisna olmaqla). Belə hallara aşağıdakıları misal göstərmək olar:
– cədvəlin xanaları ayrılıqda götürülmüş bir iqtisadi vahid haqqında məlumatları əks etdirir ki, bu da yuxarıda təsvir edilmiş fərdi məlumatlardan başqa bir şey deyildir;
– cədvəlin xanaları ayrıca iki iqtisadi vahid haqqında məlumatları əks etdirir. Adətən belə məlumat konfidensial hesab edilir. Belə ki, hər bir iqtisadi vahid digərinin məlumatlarını hesablaya bilər;
– cədvəl xanalarında bir və ya iki iqtisadi vahid statistik nəticəyə hakim (üstün) təsir göstərir. Bir iqtisadi vahid halında (və ya iki iqtisadi vahid halında birgə üstünlükdə) xanaların məxfiliyinin eyniləşdirilməsinə gətirən məhdudluğun üstün səviyyəsinin son həddi, bir qayda olaraq, 50-85% arasında müəyyənləşdirilir.
Məxfi məlumatların təsadüfi açılması, yuxarıda təsvir edilmiş üç kateqoriyadan birinə uyğun olaraq, məxfi xanada nəticələrin hesablanması üçün bir cədvəl və ya müxtəlif cədvəllər hüdudunda bir neçə xananın kombinasiyada istifadə oluna bildiyi zaman baş verə bilər.
Məxfi məlumatların açılmasından qaçmaq üçün müxtəlif me-

todlar mövcuddur, o cümlədən qeyri-məxfi məlumatların yayılmasının məhdudlaşdırılması.
1996-cı il noyabrın 15-də Azərbaycan Respublikasının "Döv - lət sirri haqqında" Qanunu qəbul edilmişdir.

KONKLYUDENT – müqavilənin bağlanmasına istiqamət; konklyudent hərəkət, şəxsin susaraq müqaviləyə daxil olmağa razılığına dəlalət edən hərəkət.

KONKLYUZİYA – 1) nəticə, yekun; 2) məhkəmə prosesində sənədin və ya əsaslandırmanın yekun hissəsi və ya ümumiləşdirilməsi; məhkəmənin qərarı.

KONKURENT – identik məqsədlərə nail olmaq, rəqiblərin satış həcminin azaldılması hesabına satışın həcmini artırmaq məqsədi ilə daha çox resurslara və imkanlara malik olmaq üçün rəqabət aparan şəxs, bir qrup insan, təşkilatlar (bax: sxem 1).

KONQLOMERAT (lat. *congl - omeratus* – yığılmış, toplanmış) – sahə və texnoloji əlamət üzrə bir-biri ilə əlaqəsi olmayan, lakin vahid maliyyə nəzarəti altında olan müxtəlif firmaların, müəssisələrin, bank idarələrinin qovuşması nəticəsində yaranan, diversifikasiya olunmuş inhisar birliyi. Konqlomerat inhisar birliyi kimi XX əsrin 20-ci illərində, istehsalın diversifikasiyası meyillərinin bazarda öz təbiqini tapan kapitalların sürətli artımının güclənməsi dövründə, bazarda sürətlə dəyişən konyunktura, tələb və təkliflərin dinamikası şəraitində əmələ gəlmişdir. ABŞ-da hər hansı bir istehsal ümumiliyi olmadan müx - təlif sahələrə aid müəssisələrin birləşməsi geniş yayılmışdır. Avropa ölkələri üçün funksional konqlomeratların – istehsal pro-



RƏQABƏT MÜBARİZƏSİNİN ÜSULLARI

Qiymət rəqabəti	Qeyri-qiymət rəqabəti
1. İstehsalçılar arasında əlavə gəlirin əldə olunmasına görə mübarizə, buna vasitə kimi istehsal xərclərinin azaldılması və bunun nəticəsində əmtəənin çeşidinə və keyfiyyətinə təsirin olmaması ilə nəticələnən qiymətin aşağı düşməsi 2. Qiymət diskriminasiyasından istifadə olunması: qiymət fərqləri xərclərdəki fərqlərlə özünü doğrultmadıqda eyni əmtəənin başqa-başqa qiymətlərlə satışı	1. İstehsalın keyfiyyətinin artırılması üsulları: • əmtəənin texniki xüsusiyyətlərinin təkmilləşdirilməsi • əmtəənin istehlakçıların ehtiyaclarına uyğunlaşdırılmasının təkmilləşdirilməsi 2. Alıcıya göstərilən xidmətin yaxşılaşdırılması - satışın "xidmətləşdirilməsi" 3. Kütləvi reklamın istifadə olunması

Sxem 1

sesində ümumi əlaqələrə malik olan müəssisə və firmaların birliyi xarakterikdir. Konqlomeratın əsas yaranma üsulları: udulan şirkətin nəzarət səhm paketini və ya aktivlərini əldə etmək yolu ilə müxtəlif istehsal yönümlü firmaların qovuşması və udulması; firmanın səhmlərinin onun üçün əlverişli şərtlərdə konqlomeratın səhmləri ilə mübadiləsi. Bu cür udulmanın başlıca məqsədi – daha az rentabelli istehsaldan daha yüksək rentabelli istehsala kapitalın sürətli axınını təmin etmək və beləliklə, mənfəət əldə edilməsini maksimum sürətləndirməkdir. Buna görə də konqlomeratın daxili strukturu qeyri-sabitdir. Konqlomeratın xeyli hissəsi sürətlə dağılır, onların bəziləri diversifikasiya olunmuş konsernlərə çevrilir. Lakin bəzi konqlomeratlar maliyyə vəsaitləri ilə geniş manipulyasiya edərək və dəyişən konyunkturaya operativ surətdə uyğunlaşaraq öz həyat qabiliyyətini sübut etdilər.

Müasir konqlomerat strategiyasında kapitalların üstün yerləşməsinin iki meyli açıq-aşkar görünür: a) elm tutumlu sahələrdə, bu da yüksək mənfəət və perspektiv biznesi tətbiq etməyə və fəaliyyətdə olan müəssisələrin modernləşməsi və təmayülünün dəyişməsi üçün ən yeni texnologiyalardan istifadə etmək imkanı; b) xırda və orta şirkətlərin, ailə firmalarının, xidmət sferasında kiçik qarışıq sahələrin səhmdar cəmiyyətləri tərəfindən udulmasıdır.

KONOSAMENT (fr. *Connaisement*) – su nəqliyyatında daşımalar üçün tərtib edilən razılaşma. Yük daşıyan (gəminin kapitanı və ya dəniz nəqliyyatı təşkilatının agenti) tərəfindən əmtəənin (yükün) daşınmasının qəbul edilməsini təsdiq edən həmin yük daşıyanın dəniz daşımaları zamanı yazdığı nəqliyyat sənədi. Konosament üç funksiyanı yerinə yetirir: a) gəminin bortuna (yanına) əmtəənin (yükün) daşınmasını təsdiq edir; b) yük göndərənlə yük daşıyan arasında daşıma müqaviləsinin mövcudluğu haqqında sənəd kimi çıxış edir; c) sənədin verilməsi yolu ilə daşıma prosesində olan əmtəə hüquqlarının verilməsi vasitəsidir.

Bütün digər nəqliyyat sənədləri yalnız yuxarıda qeyd edilən ilk iki funksiyanı yerinə yetirir, yəni əmtəənin alıcıya yolda satıla bilməsi onların köməyi və yazılı sənədin verilməsi yolu ilə təsdiq edilir. Ənənəvi bort konosamenti – yeganə əlverişli sənəddir ki, bu da KFR və SİF qiymətlərinə uyğun olaraq satıcı tərəfindən təqdim olunmalıdır.

KONSALİ – Böyük Britaniya - da dövlət uzunmüddətli istiqraz növlərindən birinin qısaldılmış adı.

KONSALTİNQ (ing. *consulting*) – mütəxəssis, texniki və iqtisadi fəaliyyət sahəsində is-

Cədvəl 1

Beynəlxalq konsaltinq bazarının 5 lider şirkəti

	Şirkət	2009-2010-cu maliyyə illərinin yekununa görə mədaxil, mlrd.	İşləyənlərin sayı, nəfər	Ofislərin sayı	İştirak edən ölkələrin sayı
1	**McKinsey &Company**	$60,8	16 500	90	51
2	**Pricewaterhouse Coopers**	$28,2	163 545	770	151
3	**Deloitte**	$26,6	170 000	14	9
4	**Ernst & Young**	$21,3	141 000	709	140
5	**KPMG**	$20,63	138 000	məlum deyil	150

tehsalçılara, satıcılara, alıcılara məsləhət verilməsi. Bu xidmət xüsusi şirkətlər tərəfindən yerinə yetirilir. Konsaltinq şirkətləri – bazarın (əmtəələr, xidmətlər, lisenziyalar, nou-hau (məsləhət) və s. bazarının) tədqiqi və proqnozlaşdırılması; idxal-ixrac əməliyyatlarının ticarət-siyasət şərtlərinin qiymətləndirilməsi; ticarət proqramlarının işlənməsi və aparılması, eləcə də müxtəlif mülkiyyət formalı firmaların qeydiyyatı üzrə xidmətlər göstərir. Konsaltinq (məsləhət) şirkətləri regional, sahə və digər prinsiplər üzrə ixtisaslaşa bilər. Göstərilən xidmətlərin mahiyyətindən asılı olaraq məsləhət xidmətləri müxtəlif cür adlandırılır. Məsələn, mühasibat-təftiş işlərilə əlaqədar olan məsləhət xidmətləri audit, idarəetmə üzrə menecment konsaltinq, mühəndis işləri üzrə isə injinirinq konsaltinq adlanır və s.

KONSELİNQ – çarter tərəfindən nəzərdə tutulan son müddətdir ki, bu dövrdə gəmi göndərmə limanına gəlməli və hər bir münasibətdə yüklənməyə hazır olmalıdır. Konselinqin pozulması kirələyənə çarter fəaliyyətini dayandırmaq hüququ verir.

KONSENSUAL ƏQD – bu əqdin bağlanmasının tanınması üçün yalnız onun iştirakçılarının razılığı tələb edilir.

KONSERN (ing. *concern* – iştirak, mənafe) – vahid maliyyə nəzarəti altında olan müxtəlif sahələrin müəssisələrinin inhisarçı birliyi forması. Konserni digər inhisar formalarından fərqləndirən xüsusiyyətlərə aiddir: müəssisələr könüllü saziş əsasında yox, çox zaman konsernin başında duran ən iri holdinq şirkətlərin səhmlərinin satın alınmasının köməyi ilə maliyyə asılılığının müəyyən edilməsi nəticəsində birləşirlər. Konsernin tərkibinə sənaye şirkətlərindən başqa nəqliyyat və ticarət müəssisələri, banklar və digər maliyyə idarələri daxildir. Beləliklə, konsern bank kapitalı ilə sənaye kapitalının qovuşmasını əyani surətdə nümayiş etdirir.


Konserndə üstün mövqe tutan şirkətin xarakterindən asılı olaraq ənənəvi sənaye, bank, ticarət və s. konsernləri fərqləndirmək olar. Lakin bu bölgü son dərəcə şərtidir. Konsern əlaqələrin bütün növlərinin bir-birinə mürəkkəb keçidi ilə fərqlənir, məsələn, bank konserni öz nəzarəti ilə sənaye, ticarət şirkətlərini əhatə edir və əksinə. Şaquli inteqrasiya prinsipi üzrə qurulmuş konsernlər də mövcuddur. Bu, xammalın hasilatından başlamış hazır məhsul buraxılışına qədər və onun (bu məhsulun) öz nəqliyyat, satış və ticarət şəbəkələri vasitəsi ilə istehlakçıya çatdırılmasına qədər qapalı texnoloji zəncir formasında birləşmədir. Lakin bazarda müstəsna olaraq şaquli inteqrasiya əsasında qurulmuş konsernin payı diversifikasiya olunmuş şirkətlərlə – müxtəlif sahələrin müəssisələri arasında birbiri ilə əlaqəsi olmayan texnoloji cəhətdən birləşən inhisarlarla müqayisədə nisbətən aşağıdır. Tipik müasir konsernlər istehsalın şaquli inteqrasiyasını diversifikasiya ilə əlaqələndirirlər, yəni eyni zamanda iqtisadiyyatın bir neçə sahəsi və sferası xammalın hasilatından başlamış son məhsul istehsalına qədər tam texnoloji tsiklə malikdir. Konsernin müasir strukturu çoxvariantlıdır. Konsernə ümumi rəhbərliyi adətən idarə heyəti həyata keçirir ki, bunun tərkibinə səhmlərin ən iri paketlərinin sahibləri daxildir. Cari əməliyyat-təsərrüfat işlərinə rəhbərliyi idarə heyəti tərəfindən nəzarət olunan müvafiq cəmiyyətlərin direktorlar şurası yerinə yetirə bilər.

Müasir konsernlər beynəlxalq inhisarların formasına çevrilərək daha çox xarici bazarlara çıxırlar. Transmilli korporasiyalardan fərqli olaraq beynəlxalq konsernin kapitalına bir yox, bir neçə ölkə tərəfindən nəzarət olunur.

KONSERVASİYA – tikintilərdə, binaların və tikililərin qurulmuş hissələrində işlərin müvəqqəti dayandırılması və gələcəkdə tikintinin davam etdirilməsi məqsədi ilə həyata keçirilən işlər. Konservasiyanın aparılması üçün zəruri kapital qoyuluşu nəzərdə tutulur. Konservasiya obyektlərin qorunub saxlanması məqsədilə həyata keçirilir, müvəqqəti dayandırılmış tikinti və obyektlər müvafiq sənədlərlə rəsmiləşdirilir.

KONSESSİYA (lat. *concessio* – icazə, güzəşt) – iqtisadi agentlərin hüquqi münasibətləridir ki, bu zaman bir tərəf (hüquq sahibi) digər tərəfə (istifadəçiyə) hüquq sahibinə məxsus olan kompleks müstəsna hüquqlardan, o cümlədən firma adı və ya hüquq sahibinin kommersiya işarəsi, əmtəə nişanı, xidmət nişanı və s. hüquqlarından sahibkarlıq fəaliyyətində istifadə etmək hüququnu verən sənəddir.

Konsession razılaşmanın sxemi



Sxem 1

Bu, müəyyən müddətə və ya müddət göstərilmədən ödəniş aparılması şərtilə verilən icazə formasıdır. Konsessiya müqaviləsi sahibkarlıq fəaliyyətinin müəyyən sferasına uyğun olaraq istifadə olunan ərazi göstərilməklə və ya göstərilmədən cid - di müəyyən olunmuş həcmdə müstəsna hüquqlar kompleksin - dən, işgüzar nüfuzdan və hüquq sahibinin kommersiya təcrübə - sindən istifadə edilməsini nəzər - də tutur.

Konsessiyaya görə, ödəniş (haqq) təsbit olunmuş birdəfəlik və ya dövri tədiyələr, satışdan daxil olan gəlirdən ayırmalar və ya müqavilədə nəzərdə tutulan di - gər formada istifadəçi tərəfin- dən ödənilir.

Hüquq sahibi konsessiya obyek- tindən və ya onun hər hansı bir hissəsindən istifadə edilməsini digər şəxsə icazə vermək hüqu - qunu (subkonsessiya hüququ) istifadəçiyə verə bilər. Bir sıra hallarda istifadəçilərin üzərinə subkonsessiya şərtlərində müəy- yən hüquqlar kompleksindən is - tifadə edilməsi hüququnu müəy- yən dövrdə müəyyən sayda adamlara verə bilmək vəzifəsi qoyulur – bu, bazarların zəbt olunması formalarından biridir. Digər hallarda konsessiya xüsu- silə hüquq sahibinin istifadəçi- yə təhkim olunan ərazidən digər şəxslərin istifadə etməsi üçün müstəsna hüquqların oxşar kompleksindən bu şəxslərə ver- məmək, yaxud bu ərazidə öz oxşar fəaliyyətindən imtina et- mək (vaz keçmək) öhdəliyi ilə; istifadəçinin konsessiya müqa- viləsinin fəaliyyətinin yayıldı- ğı ərazidə hüquq sahibi ilə rə- qabət aparmamaq öhdəliyi ilə; hüquq sahibinin rəqiblərinin ox- şar hüquqlarından istifadəçinin imtina etməsi ilə; müqaviləyə görə verilmiş müstəsna hüquq- ların həyata keçirilməsi zamanı istifadə olunan kommersiya bi- nalarının yerləşməsi, eləcə də onların daxili və xarici tərtiba- tı hüquq sahibi ilə istifadəçinin

razılaşdırılması öhdəliyi ilə qəsdən məhdudlaşdırılır. Bəzi ölkələrdə (məsələn, Rusiya Federasiyasında) hüquq sahibi istifadəçinin əmtəəsinin satış qiymətini və ya istifadəçinin yerinə yetirdiyi (göstərdiyi) işlərin (xidmətlərin) qiymətini qoymaq, bu qiymətlərin yuxarı və ya aşağı hədlərini müəyyən etmək hüququna malik deyil, istifadəçi isə müstəsna olaraq müəyyən kateqoriyadan olan alıcılara (sifarişçilərə), yaxud müəyyən ərazidə yerləşən (yaşayan) müstəsna alıcılara (sifarişçilərə) əmtəələri satmaq, iş görmək və ya xidmət göstərmək hüququna malik deyil.

KONSESSİYA MÜQAVİLƏSİ – istehsalçı və ya tacir (tapşıran) ilə sənətkarlıq şəklində müstəqil fəaliyyətlə məşğul olan şəxs (konsessioner) arasında elə bir ümumi razılaşmadır (birtipli müqavilə) ki, onun əsasında konsessioner aşağıdakıları öhdəsinə götürür:

– tapşırandan müəyyən malları (kontrakt mallarını) vaxtaşırı satın almaq;

– bu malları öz adından və öz hesabına başqasına satmaq;

– bu zaman kontrakt mallarını müəyyən ərazilərdə və ya müəyyən müştərilərə (müqavilə ərazisi və müqavilə müştəriləri) satmaq. Tapşıran onlar barəsində konsessionerə müstəsna satış hüququ (inhisar hüququ) verir, konsessioner isə tapşıranın mallarının onun nəzarəti altında satışına təminat verməlidir.

KONSESSİYALARA, PATENTLƏRƏ, LİSENZİYALARA, ƏMTƏƏ NİŞANLARINA VƏ ONLARA BƏRABƏR TUTULAN HÜQUQLARA (İCAZƏLƏRƏ) İNVESTİSİYA QOYULUŞLARI – məlumatlardan istifadə hüququna malik olan, "nou-hou" vahidinin məlumatlarından istifadəni məhdudlaşdıran hüquqların (onun milli qanunvericiliyə uyğun olaraq investisiyalaşdırıla bilmək dərəcəsində) dəyəri. Həmçinin vahidin hesabat dövrü ərzində aldığı və hazırladığı hüquqlar da (1 ildən çox dövr ərzində onlardan istifadə etmək nəzərdə tutulduğu halda) bura daxil edilir. Bu hüquqlar satış qiyməti və ya istehsal xərclərinə görə qiymətləndirilir. Üçüncü tərəfdən alınan lisenziyaların, əmtəə nişanlarının, patentlərin, konsessiyaların və onlara bərabər tutulan hüquqların əldə olunmasına çəkilən xərclər də bura daxildir. Həmçinin, vahid tərəfindən hazırlanan hüquqların dəyərinə əlavə edilmiş bu hüququn qeydiyyatının dəyəri, hüquqların qeydiyyatından əvvəlki bilikləri və "nou-hau"nun inkişafının, yeni ilkin informasiyanın yığılmasının dəyəri hesab edilir. Artıq "Elmi tədqiqatlara və işləmələrə çəkilən xərclər" maddəsinə daxil olunmuş xərclər istisna edilir.

KONSİQNASİYA (lat. *consignation* – yazılı sübut) – əmtəələrin (malların) komisyon satışı formasıdır ki, bu zaman onların sahibi (konsiqnat) vasitəçi rolu oynayan komissionerin anbarından satış üçün əmtəəni (malı) komissionerə (konsiqnatora) verir. Konsiqnasiya müqaviləsinə görə əmtəələr (mallar) ən yaxşı qiymətə reallaşma üçün agentə istehsalçı və diler tərəfindən yüklənir, lakin bununla yanaşı məhsul göndərənin mülkiyyəti olaraq qalır. Konsiqnasiyanın adi şərti – vasitəçinin anbarında əmtəələrin 1 ildən 1,5 ilə qədər saxlanmasıdır. Əgər bu dövr ərzində əmtəə satılmayacaqsa, onda o, mülkiyyətçiyə (ixrac edənə) onun hesabına qaytarılır.

KONSOLİ (ing. *consols*) – bir sıra ölkələrdə konkret müddətli deyil, qeyri-məhdud dövrdə mövcud olan dövlət istiqrazları. Konsolini fond birjasından almaq və satmaq mümkün olmasına baxmayaraq, insanlar onları ödəməyə ümid etməyərək, gələcəkdə illik gəlir əldə etmək üçün alırlar.

KONSOLİDASİYA – 1. Möhtəkirli səhmlərin ticarətindən alınan mənfəətin daha etibarlı səhmlərə qoyulması. 2. Ölkənin valyuta ehtiyatlarında milli valyutanın yeni beynəlxalq pul aktivləri ilə əvəz edilməsi. 3. Ümumi (toplu, icmal) hesabatın hazırlanması zamanı mühasibat göstəriciləri haqqında məlumat. 4. İki və ya daha artıq firmanın, şirkətin qovuşması, yaxud birləşməsi. 5. Borc faizinin dəyişməsi ilə bir və ya bir neçə borcun daha uzunmüddətli borca birləşməsi.

KONSOMATİKA – istehlak haqqında elm; istehlak sahəsində iqtisadi tədqiqatlardan və axtarışlardan sonra.

KONSORSİUM (lat. *consortium* – əlbir olma, birgə iştirak, cəmiyyət) – müasir dünya təsərrüfatı sistemində daha geniş əhatəli iqtisadi fəaliyyət birliyi forması. Konsorsiumun fəaliyyətini onun lideri əlaqələndirir (koordinasiya edir), o həm də alınmış səlahiyyətlər çərçivəsində konsorsiumun mənafelə-



rini təmsil edir. Konsorsium daxilində rollar elə bölünür ki, onun hər bir iştirakçısı elə iş (xidmət) növlərini yerinə yetirsin ki, nəticədə ən yüksək səviyyəyə nail olunsun. Ticarətdə (o cümlədən beynəlxalq ticarətdə) konsorsium sifarişlərin alınmasına görə mübarizə üçün yaradılır. Borcların (istiqrazların) müasir yerləşməsini və digər maliyyə əməliyyatlarını həyata keçirən banklar maliyyə konsorsiumunun iştirakçıları hesab edilir. Sənaye layihələrini (müəssisələrin, neft-qaz kəmərlərinin tikintisini, faydalı qazıntı yataqlarının mənimsənilməsini) həyata keçirən sənaye şirkətləri və maliyyə institutları sənaye konsorsiumunun iştirakçılarıdır. Tədqiqat konsorsiumları iştirakçıların nəticələrin alınmasında maraqlı olduqları hallarda yaradılır, lakin onların hər biri ayrı-ayrılıqda yüksək risk və böyük məsrəflər səbəbindən tələb olunan həcmdə işi maliyyələşdirə bilməz. Tədqiqat konsorsiumları texniki profilli ali məktəb idarələri ilə sıx əməkdaşlıq edirlər. Onlar sonrakı kommersiyalaşma üçün yararlı olan nəticənin alınmasına qədər işləri yerinə yetirirlər, bundan sonra iştirakçılardan hər biri əldə olunmuş nəticəni öz əmtəə nişanı altında məhsulun işlənməsi, istehsalı və reallaşması üçün istifadə edə bilər. Konsorsiumun maliyyələşməsi onun iştirakçıları tərəfindən həyata keçirilir. Dövlət o hallarda konsorsium iştirakçılarından biri kimi (dövlət-sənaye və ya dövlət-tədqiqat konsorsiumu) iştirak edə bilər ki, o milli, müdafiə, enerji və digər layihələrin nəticəsinin istifadə edilməsində, yaxud layihələrin təşviq edilməsi üçün maraqlıdır. Bunlara görə xüsusi biznes işinin yüksək dəyəri və riski azala bilməz. Dövlətin maliyyə iştirakı son halda – nəticənin kommersiya reallaşması imkanına yaxınlaşdıqca azala bilər. Konsorsiumun yaranması zamanı səhmdar cəmiyyəti kimi xüsusi şirkətin yaradılması nəzərdə tutula bilər ki, bunun təsisçiləri konsorsiumun iştirakçılarıdır.

KONSORSİUM BANK (ing. *consortium bank*) – ixtisaslaşmış bankdır ki, bunun səhmdarları bərabər paylarda digər banklardır; bir qayda olaraq, Avropa bazarlarında irimiqyaslı maliyyə əməliyyatlarının aparılması üçün yaradılır.

KONSTRUKTİV HİSSƏLƏRƏ GÖRƏ MƏSULİYYƏT HAQQINDA QEYD-ŞƏRT – polisdə sığorta məbləğinin təshih edilmiş payı ilə təyyarənin konstruksiyasının müəyyən hissəsinə görə sığortaçının məsuliyyətini məhdudlaşdıran – bu təyyarənin korpusunun sığortalanması şərti.

KONSUMENT – əmtəə və ya məhsul istehlakçısı.

KONSYUMERİZM (ing. *consumerizm*) – istehlakçıların iqtisadi maraqlarının müdafiəsi üçün mütəşəkkil hərəkat. Bu hərəkat iri şirkətlərin artan bazar hakimiyyətinə və məmurların texniki mürəkkəbliyinin artmasına reaksiya olmuşdur.

KONTRAKT (müqavilə) ƏQDİ – alınmış malların dərhal göndərilməsi şərti ilə nağd pul müqabilində birja əqdi.

KONTANQ BAZARI – bu bazar şəraitində fyuçers kontraktlarının qiymətləri malların göndəriləcəyi ən yaxın ayın təxirə salınmasına müvafiq olaraq proqressiv qaydada artır.

KONTANQO (ing. *contanqo, cgo*) – 1. Növbəti hesablaşma müddətinə qədər fond birjasında alınmış səhmlərə görə olan ödənişin uzadılmasının mümkünlüyü, başqa sözlə, qiymətli kağızlar bazarında satın alınmış səhmlərin dəyərinin ödənişinin növbəti hesablaşma dövrünə qədər təxirə salınması imkanı. 2. Ödənişin uzadılmasına görə brokerə ödənilən mükafat. 3. Elə

qiymət nisbətidir ki, bu zaman müəyyən müddətə sövdələr üzrə qiymətlər nağd malın qiymətlərini ötüb-keçir, uzadılmış müddətlərlə malın qiymətləri daha yüksəkdir. 4. Qiymətli kağızlar bazarında iştirakçı subyektlərin mükafatlandırılması.

KONTEYNERLƏRİN SIĞORTALANMASI – konteynerlərin sığortalanması müəyyən spesifikliyə malikdir. Gəminin hissəsi olmayan konteynerlər orada olan yüklərin digər nəqliyyat vasitələri ilə daşınması və ya anbarlara yığılması məqsədi ilə ondan (gəmidən) ayrılması üçün nəzərdə tutulmuşdur, gəmilərin sığortası şərtləri ilə sığortalana bilməz. Konteynerlərin sığortalanması adətən ingilis standart şərtləri ilə (İnstitute Container Clause) bağlanan xüsusi sığorta müqaviləsinə görə həyata keçirilir.

KONTİNGENTLƏŞMƏ – ixrac və idxal kvotalarının (kontingentlərin) müəyyən edilməsinin köməyilə xarici ticarətin dövlət tənzimlənməsinin formalarından biri. Tarif kontingenti aşağı rüsumlarla (və ya rüsumsuz) müəyyən miqdar əmtəələrin idxalına icazə verir.

KONTİNGENT SİFARİŞİ – eyni zamanda bəzi səhmlərin alınmasını və başqa səhmlərin satılmasını nəzərdə tutan sifariş.

KONTİNUUM – fasiləsizlik, təzahürlərin, hadisələrin fasilə-sizliyi.

KONTOKORRENT (ital. *sonto corrente* – cari hesab) – bank tərəfindən müştəri üçün açılan vahid cari kredit və ya borc hesabı; vəsaitlərin saxlanılmasına və hesabların həyata keçirilməsinə xidmət edir. Bu baxımdan kontokorrent həm cari hesabın, həm də kredit hesabının funksiyalarını özündə birləşdirir. Bu hesab eyni zamanda vəsaitlərin saxlanılması, qorunması və hesablaşma əməliyyatlarının aparılmasına xidmət edir. Kontokorrent üzrə həm bank tərəfindən təklif edilən borclar, həm də əmanətlər və borcun qaytarılması kimi müştərilərdən banka daxil olan vəsaitlər keçir. Kontokorrent üzrə həm ssudalar, həm də banka müştərilərdən əmanət, ssudaların qaytarılması və s. formasında daxil olan vəsaitlər nəzərdə tutulur.

KONTOKORRENTLİ HESAB (HESAB-KONTOKORRENT) – vahid debet-kredit cari hesabıdır. Bankın müştərisinin cari (hesab) hesabı ilə ssuda hesabının birləşməsidir. Onun vasitəsilə bütün növ ödə-





mələr üzrə hesabların həyata keçirilməsi zamanı şəxsi və borc vəsaitlərindən istifadə təmin edilir.

KONTRAFAKSİYA (fr. *contrefactio* – saxta, saxtalaşdırmaq) – özgə ad altında işini görmək, əmtəələrin hazırlanması və satışı, eləcə də əmtəənin mənşə yeri ilə əlaqədar alıcını çaşdırmaq məqsədilə digər firmaların özünü göstərən əmtəə nişanları zamanı firmalar tərəfindən özgə patentdən qeyri-qanuni istifadə edilməsi. Mənafeləri pozulan müəssisə (firma) müvafiq ölkənin qanunvericiliyi ilə nəzərdə tutulan qaydada onların qorunması hüququna malikdir.

KONTRAGENT – sazişin digər tərəfinə cavabdeh olan şəxs, tərəfdaş.

KONTRAKT SAHƏSİ – təsviri və konturları əhatə edən sahə. Bu sahə özündə bağlanmış kontraktın qüvvədə olacağı müddət ərzində hər vaxt işlənilə bilən sahədən tutmuş qazmanın texniki cəhətdən mümkün olan bütün dərinliklərinədək olan işləri əhatə edir.

KONTRAKTASİYA – iqtisadi agentlərin hüquqi münasibətlərini (öhdəliklərini) əks etdirən müqavilə (saziş). Bu zaman, məsələn, kənd təsərrüfatı məhsulunun istehsalçıları emal və ya satış üçün məhsulun satın alınmasını həyata keçirən şəxsə – tədarükçüyə emal (istehsal) etdiyi məhsulun verilməsini öhdəsinə götürür. Bir qayda olaraq, tədarükçü kontraktasiya müqaviləsinə görə məhsulu istehsalçıdan qəbul edir və onun göndərilməsini təmin edir.

KONTRALİMENT – alınmış təkrar sığorta marağı (assumed business; inward reinsurance), yaxud polisi.

KONTROFERTA – ilk təklifdə göstərilən şərtlərlə deyil, digər şərtlərlə müqavilə bağlanması təklifinin qəbul edilməsi haqqında müraciət.

KONTROLLİNQ – müəssisədə, firmada uçot və nəzarət.

KONVENSİYA RÜSUMLARI – dövlətlər arasında müqavilə və ya sazişlər üzrə müəyyən olunan gömrük rüsumları mənasını daşıyır. Konvensiya rüsumlarının dərəcələri, bir qayda olaraq, dövlət tərəfindən birtərəfli qaydada müəyyən edilmiş adi gömrük tarifi dərəcələrindən aşağı olur.

KONVERGENSİYA (*lat. convergere* – yaxınlaşmaq, qovuşmaq) – iqtisadiyyatda müxtəlif iqtisadi sistemlərin, onların ayrı-ayrı institutlarının və mexanizmlərinin, müxtəlif ölkələrin əsas makroiqtisadi göstəricilərinin yaxınlaşmasını ifadə etmək üçün istifadə olunur. Qərb iqtisad elminin institusional sosial istiqamətlərinin nümayəndələri P.Sorokin, U.Rostou və C.Helbreyt (ABŞ), eləcə də ekonometrik Y.Tinbergen (Niderland) və akademik A.S.Saxarov tərəfindən müxtəlif variantlarda irəli sürülən konvergensiya nəzəriyyəsinin 1960-1970-ci illərin ortalarında geniş yayılması ilə əlaqədar "konvergensiya" termini daha çox işlənmişdir.

Onlar kapitalizm və sosializm sisteminin təkamülünün başlıca amili kimi bu iki – qarışıq və "hibrid" sistemin qarşılıqlı fəaliyyətini və qarşılıqlı təsirini nəzərdən keçirirdilər. Bu "hibrid" və qarışıq sistem hər iki sistemin ən yaxşı cəhətlərini sintez edən "optimal" qarışıq sistem, "vahid sənaye cəmiyyəti" tipi üzrə konstruksiya olunmuşdur. 1980-ci illərdə konvergensiya nəzəriyyəsi əvvəlki populyarlığını itirmiş və "inkişaf etmiş sosializmin böhranı ilə, sonradan isə süqutu ilə əlaqədar iqtisadi fikir tarixi üzrə əsərlərə çevrilmişdir".

Müasir şəraitdə "konvergensiya" terminindən inteqrasiya proseslərinin təsvir edilməsi zamanı istifadə olunur. Dünyaya inteqrasiyanın əsasında sosial-iqtisadi tərəqqinin ümumi meyilləri və imperativləri durur, bir çox ölkələrin iqtisadiyyatının postindustrial (sənayedən sonra) cəmiyyətə doğru hərəkət yollarında yaxınlaşmasını məhz bu şərtləndirir.

Daha dar çərçivədə konvergensiya nəzəriyyəsi iqtisadi müqayisələrdə istifadə olunur. Belə ki, Maastrixt müqaviləsində (1991) vahid ümumi Avropa valyutası kimi avronun tətbiqi Avropa İttifaqı ölkələrinin makroiqtisadi göstəricilərinin konvergensiyası ilə: inflyasiya, büdcə kəsirinin və dövlət borcunun ÜDM-ə faiz nisbətinin səviyyəsi və s. ilə əlaqələndirilir. Ədəbiyyatda bununla əlaqədar "konvergensiyanın Maastrixt meyarları" terminindən istifadə olunur.

KONVERGENSİYA HAQQINDA TEZİS (lat. *convergens* – yığılan) – konvergensiya haqqında konsepsiyanın əsas müddəası ondan ibarətdir ki, sosialist və kapitalist iqtisadiyyatları öz klassik formalarından uzaqlaşmışlar və hərəkət, təfəkkür üsullarının, təşkilati struk-

turların və metodların oxşarlığının getdikcə artması istiqamətində təkamül edirlər.

Konvergensiya haqqında hipotezin müəllifi

İki sistemin konvergensiyası haqqında hipotez ilk dəfə Y.Tinbergen tərəfindən ifadə edilmiş və sonradan inkişaf edərək, hər iki sistem üçün eyni texniki tərəqqi prosesləri əsasında konvergensiyanın labüd olması nəzəriyyəsinə çevrilmişdir.

Konvergensiya nəzəriyyəsinin təkzib edilməsi

1980-ci illərin axırlarında Şərqi Avropada baş vermiş hadisələri konvergensiya nəzəriyyəsinin təkzib edilməsi saymaq olar: konvergensiyanın təzahürü hesab edilən vəziyyət iqtisadiyyatın təşkilinin kapitalist formasına yönəlmiş ümumi hərəkət idi.

KONVERSİON İŞSİZLİK – iqtisadiyyat və hərbi sənaye sahələri üzrə struktur dəyişiklikləri baş verdikdə yaranan işsizlik növü. Bu növ işsizlik orduda dəyişikliklər həyata keçirildikdə də baş verir.

KONVERSİYA – dövlət istiqrazı şərtlərinin dəyişməsi.

KONVERSİYA BORCU İSTİQRAZLARI – açıq səhmdar cəmiyyətləri tərəfindən buraxılan borc öhdəlikləri olub, nəinki faizlərin hesablanmasını tələb etmək hüququ, həm də onları eyni növ qiymətli kağızlara dəyişmək hüququ və ya yeni səhmlər əldə etməkdə üstünlük hüququ verir.

KONVERSİYA EDİLƏN QİYMƏTLİ KAĞIZ – elə qiymətli kağızdır ki, sahibinin seçimi üzrə adi səhmə konversiya edilə (dəyişdirilə) bilər.

KONVERSİYA (dəyişdirilməyə görə) **HAQQI** – dəyişdirilmiş istiqrazların mübadilə dəyərinin, səhmlərin cari qiymətini (dəyərini) ötdüyü fərq (ödəniş haqqı kiçik həcmdə olan halda istiqraz səhm kimi tədavül olunur).

KONVERSİYA PREFAKSİYALARI – əvvəlcədən müəyyən olunan qiymət üzrə digər siniflərə (əksər halda adi) sərbəst mübadilə olunan səhmlər. Konversiya (mübadəli) qiyməti adi səhmlərin bazar qiyməti üzərində əhəmiyyətsiz üstünlüyü ilə müəyyən edilir. Konversiya ilə bağlı olan bütün imtiyazlar buraxılışdan müəyyən vaxt keçdikdən sonra (5-12 il) ləğv olunur. Belə prefaksiyaların (mübadilə olunan səhmlərin) əksəriyyəti qaytarılandır. Şirkət məcburi konversiyanı ancaq o vaxt elan edə bilər ki, prefaksiyaların adi səhmlərin buraxılışı ilə ödənilməsinin səmərəli olacağına rəhbərlik əmin olsun.

KONVERSİYANIN QİYMƏTİ – istiqraz vərəqələrinin eyni emitentin səhmləri ilə dəyişdirilə biləcəyi qiymət.

KOOPERASİYA (lat. *cooperatio* – əməkdaşlıq) – birgə məqsədləri həyata keçirmək üçün iştirakçıların səy və resurslarının könüllü birləşməsi. İctimai təsərrüfat formalarından biri. Müxtəlif şərtlərlə təşkil olunur: öz aralarında razılaşdırılmış və sıx əlaqədə olan bir və ya bir neçə əmək prosesində birgə iştirak edən müxtəlif sayda insanların əməkdaşlığı. İqtisadiyyatda bu proses əmək kooperasiyası adlanır. Kooperasiyanın aşağıdakı növləri fərqləndirilir: a) yekcins işi (məsələn, balığın tutulması, torpağın becərilməsi, tikinti, ticarət, məhsul yığımı) tələb edən sadə kooperasiya; b) əmək bölgüsünə, keyfiyyətinə və mürəkkəbliyinə görə müxtəlif əməliyyatların həyata keçirilməsinə əsaslanan mürəkkəb kooperasiya. Mürəkkəb kooperasiya zamanı istehsal vasitələrindən, iş vaxtından və iştirakçıların ixtisas imkanlarından səmərəli istifadə olunur ki, bu da orta əmək məhsuldarlığının artımına gətirib çıxarır; müxtəlif fəaliyyət sahələrində müəyyən ümumi məqsədlərə nail olmaq üçün insanların – fəhlələrin, qulluqçuların, xırda istehsalçıların, kəndlilərin, mülkiyyətçilərin hər hansı konkret könüllü birliyi (və ya birliklərin məcmusu). Kooperasiya, bir qayda olaraq, pay iştirakına əsaslanır, lakin digər variantlar da ola bilər. Sənaye və kənd təsərrüfatı kooperativləri, sənaye kooperasiyası, istehlak və kredit yoldaşlıqları, mənzil, tikinti kooperativləri və s. mövcuddur (bax: sxem 1).

KOOPERATİV – fiziki şəxslərin, yaxud fiziki və hüquqi şəxslərin iqtisadi təsərrüfat və sosial tələbatlarını ödəmək məqsədilə onların (səy və resurslarının) könüllü birləşməsi əsasında yaradılan və fəaliyyət göstərən kollektiv təsərrüfat subyekti. Təcrübədə aşağıdakılar da fərqləndirilir: mənzil-tikinti kooperativi, kredit kooperativi, mənzil kooperativi, istehlak kooperativi, istehsal kooperativi, fəhlə kooperativi, sənət kooperativi, sığorta kooperativi və s.

KOOPERATİV BANK – kreditə olan qarşılıqlı tələbatların

ödənilməsi və digər bank xidmətləri üçün pay əsasında əmtəə istehsalçılarının yaratdığı ixtisaslaşmış maliyyə-kredit idarəsi. Sahə və ərazi strukturlarına görə yaradılır, kommersiya banklarının bir növüdür.

KOOPERATİV HƏRƏKATI – XVIII əsrin sonlarında və XIX əsrin başlanğıcından başlayaraq indiki dövrə qədər fəaliyyət göstərən, kooperativ əsaslarla meydana gələn iqtisadi, ictimai, sosial, mədəni-maarif və digər fəaliyyət növlərinin məcmusu.

İlk kooperativ tipli təşkilatlar XVIII əsrin sonunda İngiltərədə və Şotlandiyada yaranmışdır. Bu, toxucuların, dərzilərin kooperativi, kənd yerlərində istehlak kooperativləri idi. 1832-ci ildə onların ümumi sayı mindən artıq olmuşdur. XIX əsrin 20-40-cı illərində kooperativ təşkilatlar yaradılmışdır. Onların yaradıcısı sayılan R.Ouen utopik sosialistlərin nümayəndələrindən olmuşdur. Kooperativ hərəkatı Fransada da sürətlə yayılmışdır. Burada hərəkatı utopik sosialistlər və xristian sosialistlərin nümayəndələri dəstəkləmişdir. Belə ki, XIX əsrin 30-cu illərində Parisdə dülgərlər, fəhlə-zərgərlər və Vilbuanın daşyonanların kooperativləri, habelə, Lionda istehlak cəmiyyəti yaradılmışdı. 1840-cı illərin sonunda Fransada kooperativ cəmiyyətlərin sayı altı yüzdən artıq olmuşdu. Almaniya kəndli, kustar peşə-sənət, təchizat və yardımçı istehsal kooperativlərinin (şərab və pendir istehsal edən, yağ emal edən, maşınların birgə istifadəsi və alınması, mal-qaranın cinsinin yaxşılaması və s. kooperativlərin) vətəni sayılırdı.


Bir qədər sonra ABŞ-da, Kanadada, Skandinaviyada və Balkan ölkələrində (XIX əsrin 50-60-cı illərində), Asiya, Latın Amerikası və Afrika ölkələrində (XX əsrin əvvəllərində) kooperativ hərəkatı inkişaf etməyə başlamışdı. 1914-1918-ci illər Birinci Dünya müharibəsi ərəfəsində Qərbi Avropa ölkələrində təxminən 20 milyon adamı, o cümlədən Böyük Britaniyada 3 milyon nəfəri əhatə edən 120 min ilkin kooperativ təşkilatı fəaliyyət göstərmişdir. Yaponiyada və Asiyanın digər ölkələrində 600 min nəfəri əhatə edən 6 min kooperativ mövcud olub. Kooperativ hərəkatı iştirakçılarının 60%-ə yaxınını şəhər proletariatının nümayəndələri, 40%-ni kəndlilər, qulluqçular, kustarlar, sənətkarlar və s. təşkil edirmiş.

Rusiyada 1927-ci ilə kimi 63 mindən çox ilkin kooperativ (o cümlədən, 35 min istehlak, 11 minə yaxın kənd təsərrüfatı, 1200 sənət və istehsal-fəhlə kooperativləri və s.) fəaliyyət göstərib ki, onlarda da 24 mln. nəfər çalışırmış.

XIX əsrin ikinci yarısından sonra bütün ölkələrdə kooperativlərin və onların birliklərinin fəaliyyətini tənzimləyən qanunvericilik aktları yaranıb. Sosialist inqilablarının qələbəsindən sonra Şərqi Avropanın bir sıra ölkələrində və keçmiş SSRİ-də kooperativ hərəkatı yeni vüsət alıb. Sosializm nəzəriyyəsi təsdiq edirdi ki, kooperasiya xüsusi kapitalist təsərrüfatının sosializm relslərinə keçidinin əsası olmalıdır. Polşa istisna olmaqla (orada torpağın 80%-i xutor təsərrüfatı ilə məşğul olan xüsusi mülkiyyətçilərin əlində olmuşdur) kənd təsərrüfatının, demək olar ki, tam kollektivləşməsi tədricən həyata keçirilmişdi. Keçmiş sosialist ölkələrində təchizat-satış kooperasiyası geniş yayılmışdı. Bu da SSRİ-də inhisarçı təşkilat kimi "Sentrosoyuz" adı ilə tanınırdı. Bundan əlavə, mənzil-tikinti və istehsal müəssisələrində kredit kooperasiyası da inkişaf edirdi. Sosializm şəraitində korporasiyanın digər formaları tədricən ləğv edildi və ya başqa təsərrüfat formalarına çevrildi.

KOOPERATİV MÜLKİYYƏT – funksional-istehsal xarakterli ümumi (ictimai) mülkiyyətin bir növü. Onun əsasını fərdi mülkiyyətçilərin birliyi təşkil edir. Lakin bu birlik fərdi mülkiyyətçilərin məcmusu deyil, onların fəaliyyətinin vəhdəti deməkdir. Fərdi mülkiyyətçilərdən hər birinin kooperativdə iştirakı onun əməyi və əmlakı ilə müəyyən edilir. Bu halda onların hər biri gəlirlərin idarə edilməsi və bölüşdürülməsində bərabər hüquqlara malik olur. Kooperativ mülkiyyət pay şəklində – hər bir iştirakçının kooperativin əmlakında payı müəyyən edilməklə və ya paysız şəkildə, yəni hər bir iştirakçının müəyyən əmlak payları ayrılmadan mövcud ola bilər. Paysız kooperativ mülkiyyəti adətən artel mülkiyyəti adlandırırlar. Ölçülərinə görə, nisbətən kiçik kooperativlərdə ayrıca idarəetmə orqanları yaradılmır. Böyük kooperativlərdə isə müstəqil idarəetmə orqanları yaradılır və kooperativin işlərini idarə

Kooperasiyanın əsas növləri



Sxem 1

edən xüsusi adamlar ayrılır. Bu halda kooperativin kəmiyyətcə böyüməsi keyfiyyət xüsusiyyətlərinin yaranmasına gətirib çıxarır, çünki kooperativin iştirakçıları xüsusi əhəmiyyətli mülkiyyət hüquqlarını – resursların, məhsulun və əmlakın idarə edilməsi və onların barəsində sərəncam vermək funksiyalarının bir qismini müstəqil orqanlara həvalə edirlər. İdarəetmə funksiyalarının müstəqil orqanlara və iştirakçılara həvalə edilməsi kooperativ formada həyata keçirildiyinə görə idarəetmə və sərəncam funksiyaları və subyektləri arasında fikir müxtəlifliyi yarana bilər. Müəssisələrin işçiləri tərəfindən ailə mülkiyyətinin xüsusi (fərdi) mülkiy-

Kollektiv iqtisadi sistemdə istehlak kooperativinin dayandığının sosial-iqtisadi modeli
SSRİ-də İSTEHLAKÇI KOOPERASİYA
DAYANIQLI TƏŞƏKKÜLAT
MƏQSƏD:
-dövlətin ehtiyaclarının təmin olunması;
-bütün əhalinin ehtiyaclarının təmin olunması;
Reglamentasiya: KPSS-m qərarları, dövlət aktları, nizamnamə
Cəmiyyətə sosial və iqtisadi yararlılıq
Əsas kənd əhalisinin əmtəə və xidmətlərlə təmin edilməsi
İctimai-siyasi amilləri
Könüllü üzvlük
İştirak etməkdən qazanmalar hissə olunmazdır
Hakimiyyətin tabeliyi
Bölüşdürülmə formal olaraq üzvlükdən asılıdır
Kooperativ mülkiyyəti
Məsuliyyətin formal qəbul olunması
İnzibati - ictimai idarəetmə və nəzarət
İqtisadi iştirak
İstehlakçı kooperativin sosial-iqtisadi amilləri
İqtisadi sistemə alıb əlaqə (differensiasiya amilləri
Sxem 2

yətçilərdən alınması nəticəsində yaranan, sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa başladıqda əlavə iqtisadi məzmun kəsb edən, işçi mülkiyyət adlanan müəssisələr məzmunca koope - rativ mülkiyyətə çox bənzəyirlər. Dünyanın əksər ölkələrində məhz kooperativ mülkiyyət forması geniş yayılmışdır. Hazırda dünyada təqribən bir milyon kooperativ təşkilat vardır. 120-dən çox müxtəlif növü olan bu təşkilatlarda 600 mln.-a yaxın insan birləşir (bax: sxem 1).

KOOPERATİV MÜNASİBƏTLƏRİ – iqtisadi və qeyri-iqtisadi fəaliyyətin müxtəlif sferasında könüllü, müstəqil kooperativ təşkilatlarının yaradılması və onların işində iştirak. Kooperativ münasibətləri pul, maddi və intellektual resursların, eləcə də kooperativin bütün üzvlərinin bilavasitə səylərinin birləşməsindən başlanır.

Kooperativ münasibətləri kooperativ üzvlərinin hüquq və vəzifələrini, gəlirlərin bölgüsünü, fondların yaradılmasını, əməyin təşkili və ödənilməsini, kooperativin fəaliyyətinin idarə edilməsini, istehsal vasitələrinin və dövriyyə vəsaitlərinin istifadə edilməsini və s. müəyyən edən nizamnamə və digər normativ sənədlərlə tənzimlənir.

Hər hansı bir kooperativ təşkilatının ali orqanı onun üzvlərinin ümumi yığıncağıdır ki, bu da nizamnaməni qəbul edir, idarə heyətini və çox zaman kooperativ təşkilatın kəmiyyətindən (həcmindən) asılı olaraq təftiş komissiyasını və digər ictimai orqanları seçir. Ümumi yığıncaqda həmçinin kooperativin təsərrüfat fəaliyyətinin mühüm məsələləri həll edilir. Ümumi yığıncaqlar arasındakı dövrdə kooperativin işinə sədr başda olmaqla idarə heyəti rəhbərlik edir.

Kooperativlər müxtəlif təşkilati formalara malikdir: qarşılıqlı yardım birlikləri, yoldaşlıqlar, artellər, kolxozlar və s. Onlar sosial əlamətlərə görə fərqlənə bilərlər: fəhlələrin, kəndlilərin, qulluqçuların, evdar qadınların və s. kooperativləri. Onları həmçinin şəhər və kəndli kooperativlərinə də bölürlər. Fəaliyyət dairəsinə görə kooperativlərin aşağıdakı növləri var: maddi istehsalın hər hansı bir sferasında olan istehsal kooperativləri, müxtəlif peşə ilə, sənətlə (ov, balıq, qızıl çıxarılması və s.) məşğul olan sənət (mədən) kooperativləri, istehlak, satış, tədarük, təchizat, kredit, ticarət, sığorta kooperativləri və s. (bax: sxem 1).

KOOPERATİV SIĞORTA – 1. Kooperasiyalaşmış əhalinin və ya kooperativ təşkilatlarının əmlakının qarşılıqlı sığorta formalarından biri. 2. SSRİ-də xəstəlik, əmək qabiliyyətinin itirilməsi hallarında, qocalığa görə və s. hallarda sənət (peşə) kooperasiyası üzvlərinin maddi təminat forması idi.

KOOPERATİV TİCARƏT – istehlak kooperasiyasının əsas fəaliyyət növlərindən biri. Kooperativ ticarətin xüsusi vəsaitləri payçıların üzvlük və payçı haqlarından, eləcə də təsərrüfat fəaliyyəti nəticəsində əldə edilən mənfəətdən yaranır. Kooperativ ticarət həm də əmtəə və kənd təsərrüfatı məhsullarının tədarük edilməsi funksiyalarını yerinə yetirir.

KOOPERATİV VƏ İCTİMAİ TƏŞKİLATLARIN SIĞORTALANMASI – könüllü sığorta növlərindən biri. Əmlak onun dəyərinin 50%-dən 100%-ə qədər məbləğində sığortalanır. Sığorta müddəti 1 ildir.

KOOPERATİVİN ÖDƏNİŞLƏRİ – kooperativ üzvlərinin

Cədvəl 1

Dünya kooperativ hərəkatı üzvlərinin əsas kooperativ növlərinə görə bölgüsü, 1962-2010-cu illər (%-lə)

Kooperativlərin növləri	İllər				
	1962	1974	1980	1992	2010
İstehlak	49,9	37,5	35,3	23,8	14
Kredit	31,5	33,9	34,9	35,1	33
Kənd təsərrüfatı	8,6	18,7	18,2	10,1	21
İstehsal	2,1	1,7	1,7	0,5	1
Mənzil	2	3,8	4,7	2,4	3

Cədvəl 2

2010-cu ildə Avropa ölkələrinin müxtəlif iqtisadiyyat sahələrində istehlak kooperasiyalarının xüsusi çəkisi

Ölkə	İqtisadiyyat sahəsi	İstehlak kooperasiyasının payı
Danimarka	Kənd təsərrüfatı məhsulları istehsalı	83%
Fransa	Kənd təsərrüfatı məhsulları istehsalı	50%
Kipr	Bank xidmətləri	37%
İspaniya	Səhiyyə	21%
İsveç	Meşə ehtiyatları	60%
Finlandiya	Ticarət	35%

kooperativdə şəxsi əmək iştirakına və ya kooperativin fəaliyyətində iştirakına mütənasib olaraq onlar arasında bölüşdürülən kooperativ mənfəətinin bir hissəsi.

KOOPERATİVİN SƏS HÜQUQU OLAN ÜZVÜ – qanunvericiliyin tələblərini ödəyən və kooperativin nizamnaməsini qəbul edən, kooperativin nizamnaməsi ilə müəyyən olunmuş qaydada və həcmdə üzvlük haqqı və pay haqqı verən və kooperativdə səs hüququna malik olan fiziki və hüquqi şəxs.

KOOPERATİVİN SƏS HÜQUQU OLMAYAN ÜZVÜ – qanunvericiliyin tələblərini ödəyən və kooperativin nizamnaməsini qəbul edən, kooperativin nizamnaməsi ilə müəyyən olunmuş qaydada və həcmdə üzvlük haqqı və pay haqqı verən, bunun müqabilində dividend alan və kooperativdə səs hüququna malik olmayan fiziki və hüquqi şəxs.


"KOR" BROKER (ing. *blind broker*) – müştərilərinin adını sözdə istehlakçılara bildirmədən öz adından çıxış edən vasitəçi. Bu, hamı tərəfindən qəbul edilmiş qayda olsa da, federal fondlar və müddətli avrodepozitlər bazarında tətbiq edilmir.

KOREYANIN İNKİŞAF MODELİ – ötən əsrin 60-cı illərinin əvvəllərində Cənubi Koreya inkişaf səviyyəsi aşağı olan ölkələr sırasında idi. Ölkənin ümumi daxili məhsulunun adambaşına səviyyəsi Afrika və Asiyanın kasıb ölkələrinin səviyyəsi ilə müqayisə edilə bilərdi. Cənubi Koreya Respublikası iqtisadiyyatının yüksək inkişaf səviyyəsinə çatmasında, əlbəttə, dövlət müstəsna rol oynamışdır. Hökumət ölkənin iqtisadi inkişafı naminə iqtisadiyyata güclü və səmərəli rəhbərlik etmişdir. Hökumət yığımın artırılması, ixracın genişləndirilməsi, həm milli investisiya, həm də xarici sərmayə qoyuluşlarına, xarici ölkələrdən yeni texnologiyalar cəlb edilməsinə şərait yaratmaq məqsədilə siyasi xarakterli çoxsaylı tədbirlər görmüşdür. Hökumət sosial infrastrukturun yaradılması – yollar çəkilməsi, bəndlər qurulması, limanlar, dəmir yolları və məktəblər tikintisi üçün mümkün olan hər şeyi etmişdir.

Dövlət vacib bir məqsəd kimi ortamüddətli və uzunmüddətli planlardan və məqsədli proqramlardan istifadə edilməklə mərkəzləşdirilmiş planlaşdırma sisteminin yaradılması işinə rəhbərlik etmişdir. Bu halda konkret istehsal tapşırıqları və onların yerinə yetirilməsi müddətləri dövlət tərəfindən müəyyən edilir, təsərrüfat fəaliyyətinə ciddi nəzarət edilir və öz vəzifəsinin öhdəsindən gələ bilməyənlər iqtisadi baxımdan amansızcasına məhv edilirlər. Mahiyyət etibarilə Cənubi Koreya iqtisadiyyatı planlı təsərrüfatçılıqla bazar təsərrüfatçılığı üsullarının çox ahəngdar surətdə əlaqələndirildiyi bir sistemdir.

Ölkədə maliyyə-pul tarazlığına nail olmaq məsələsi son 40 ildə dövlətin xüsusi nəzarətində saxlanılmışdır və bu siyasət bu gün də davam etdirilir. Dövlət hətta

Korporativ idarəetmənin bazar modeli



Sxem 1

ölkənin ciddi təsərrüfat çətinlikləri ilə üzləşdiyi illərdə də pul tədavülü, inflyasiya, dövlət büdcəsində kəsir problemini ən fundamental məsələ kimi qiymətləndirirdi, bu sektoru dövlət inhisarında saxlamağı vacib sayırdı.

Cənubi Koreyada dövlət tənzimləməsinin digər mühüm istiqaməti valyuta sahəsinə aiddir. Xarici valyutanı ölkənin Mərkəzi Bankındakı xüsusi hesablarda saxlamağa məcbur etmək üçün 1949-cu ildən müxtəlif variantlar tətbiq edilmiş, bununla da maliyyə və valyuta resurslarının dövlətin əlində cəmləşdirilməsi ictimai istehsalın əsas nisbətlərinin formalaşmasına öz təsirini göstərmişdir. Bu halda ixracın hərtərəfli həvəsləndirilməsinə xüsusi ümid bəslənirdi. Dövlət milli ixracatçılara bank kreditləri verməklə bərabər, subsidiyalar ayırmaq variantından da istifadə edirdi. Kreditlərin iqtisadiyyatın potensial baxımdan ən səmərəli sahələrinə verilməsi, səmərəliliyi nəzarətdə saxlanılırdı. Sahələrarası nisbətlərin formalaşmasında dövlət tənzimləməsinin yüksək fəallığı aşkar nəzərə çarpırdı. Məsələn, aqrar islahat keçirilərkən iri torpaq paylarının daha xırda hissələrə bölünməsi bu islahatın ən mühüm tərkib hissəsi idi. Təbii ki, dövlətin fəal və birbaşa müdaxiləsi olmadan bu tədbirin həyata keçirilməsi mümkün deyildi. 1970-ci illərdən başlayaraq həyata keçirilən "Məqsədli inkişaf" proqramı üzrə əhəmiyyət verilən 7 sahəni əhatə edirdi: maşınqayırma, elektronika, toxuculuq sənayesi, qara metallurgiya, əlvan metallurgiya, neft-kimya, gəmiqayırma. Resurslarla təchizat məsələsində bu sahələrə üstünlük verilir, on-



lar vergitutma və digər məsələlərdə müvafiq güzəştlərdən istifadə edirdilər. Eyni zamanda, dövlət üstün əhəmiyyətli sahələrdə rəqabəti ciddi tənzimləyir, özəl şirkətləri ya birləşmək, ya da bazardan çıxmaq seçimi qarşısında qoyurdu.


Ölkədə xarici kapitala dövlət nəzarəti də kifayət qədər ciddi təşkil edilmişdir. 1967-1986-cı illərdə birbaşa xarici kapital qoyuluşları məcmu investisiyaların 2%-dən az olmuşdur. Dövlət rəhbərliyi ölkənin bilavasitə ümumi inkişaf səviyyəsinin yüksəlməsinə xidmət edən xarici investisiyaları cəlb etməyə çalışır. Buna görə də xarici kapital qoyuluşlarının azı 2/3 hissəsi kimya, maşınqayırma və elektronika kimi prioritet sahələrdə cəmləşir. Beləliklə, burada "üçtərəfli alyans" yaradılmışdır, yəni dövlət, yerli kapital, xarici kapital.

İqtisadi tərəqqiyə təkan verən amillərdən danışarkən, xarici texnologiyaların tətbiqi sahəsində yeridilən siyasət böyük maraq doğurur. Ölkə sənayeləşdirmə proqramını həyata keçirməyə başladığı vaxtdan bu yola qədəm qoymuşdur. **Xaricdən avadanlıqlar alınması, bir qayda olaraq, texnoloji proseslərdən istifadə hüquqlarının da alınması ilə müşayiət edilirdi.** Milli elmin zəif inkişaf etməsi şəraitində xarici ölkələrdən mütərəqqi texnologiyaların cəlb edilməsi yeni istehsal sahələri yaratmağa, buraxılan məhsulun maya dəyərini aşağı salmağa və onun keyfiyyətini yüksəltməyə imkan verirdi. Bu işi genişləndirmək üçün iqtisadi yardım və xaricdən külli miqdarda ssuda kapitalı cəlb edilməsi imkanlarından geniş istifadə olunurdu. Ötən əsrin 50-60-cı illərində əsaslı vəsait qoyuluşu daxili əmanətlərin məbləğindən çox idi. Tədricən xarici investisiyaların xüsusi çəkisi azalmağa meyil edir. Ümumi kapital qoyuluşlarının tərkibində xarici kapitalın nisbi payı 1961-1965-ci illərdə 59,6% olduğu halda, 1966-1970-ci illərdə 38,8%, 1971-1975-ci illərdə 30,2%, 1976-1980-ci illərdə 14,2%, 1981-1984-cü illərdə isə 15,2% olmuşdur.

Ölkə rəhbərliyi sənayeləşmə səviyyəsini yüksəltmək məqsədi ilə elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə diqqətini artırırdı. Bunu qeyd etmək kifayətdir ki, 1960-1980-ci illərdə bu məqsədlər üçün ayrılan vəsaitin həcmi cüzi miqdarda artırılaraq ÜDM-in 0,25%-dən 0,58%-ə çatdırılmış, 80-ci illərdən isə bu sahədə ciddi irəliləyişlər baş vermişdi. Aparıcı sahələrin bu işlərdə iştirak edən iri müəssisələri barəsində maliyyə və vergi güzəştləri tətbiq edilirdi. Elm-istehsalat parklarında kiçik seriyalarla məhsul istehsal edən eksperimental istehsalatlar fəaliyyət göstərir, yeni texnologiyalar, məhsullar və materiallar yaradılırdı. Eksperimentlərin nəticələri müsbət olduqda yeni məhsulun kütləvi buraxılışı təşkil edilirdi. Bütün bu nailiyyətlər əsas yaratdı ki, 1987-ci ildə Cənubi Koreyanın Elm və Texnologiya Nazirliyi tərəfindən dövlətin elmi-texniki siyasətinin əsas istiqamətlərinə dair 15 illik plan hazırlandı.


1993-cü ildə Cənubi Koreyanın öz texnologiyası əsasında yaradılmış ilk tədqiqat peyki orbitə çıxarıldı. Elmi-tədqiqat və təcrübi-konstruktor işləri üçün xərclərin ÜDM-in tərkibində nisbi payı 2,7%-ə çatdırıldı. Bu, Qərbin aparıcı ölkələrində mövcud olan səviyyəyə uyğun idi. Onu da qeyd edək ki, maliyyə vəsaitlərinin xeyli hissəsi tətbiqi xarakterli tədqiqatlara yönəldi-

Cənubi Koreyanın idxal üzrə əsas tərəf müqabilləri (2008)



Qrafik 1

Cənubi Koreyanın idxal üzrə əsas tərəf müqabilləri (2008)



Qrafik 2

lirdi. **Aparılmış hesablamalara görə, Cənubi Koreyanın texnoloji inkişafının ümumi səviyyəsi Qərbin sənaye ölkələri üzrə orta səviyyənin 40%-nə bərabərdir,** bir sıra sahələrdə isə daha yüksəkdir. Bu faktlar elmi-texniki işçilərin və tədqiqatçıların nisbi sayı barədə məlumatlarla da təsdiqlənir: 1989-cu ildə ABŞ-da əhalinin hər 10 min nəfərinə düşən elmi-texniki işçilərin və tədqiqatçıların sayı 39 nəfər, Yaponiyada 37 nəfər olduğu halda, Koreyada müvafiq rəqəm 16-ya bərabər olmuşdur. İndi bu sahəyə iqtisadi inkişafın güclü amili kimi baxılır.

Ötən əsrin 60-80-ci illərində iqtisadi artımı müəyyənləşdirən əsas amil əmək resursları idi. Həmin dövrdə ÜDM artımının 30,8%-i əmək resurslarının payına düşürdü. Müqayisə üçün qeyd edək ki, həmin dövrdə ÜDM artımının 23,5%-i investisiyalar hesabına, 17,8%-i texnologiyaların tətbiq edilməsi yolu ilə, 18,7%-i istehsalın miqyasının genişləndirilməsi vasitəsilə, 9,2%-i resursların səmərəli yerləşdirilməsi sayəsində təmin edilmişdi.

Obyektiv və subyektiv, iqtisadi və siyasi, daxili və xarici xarakterli bir çox müxtəlif amillər Cənubi Koreya iqtisadiyyatının sürətli inkişafına əvvəllər də təsir göstərmişdir və indi də təsir göstərməkdə davam edir. **Həmin amillərin ən əhəmiyyətli olanları bunlardır:**

– xarici aləmlə qarşılıqlı təsirə əsaslanan ixrac yönümlü inkişaf strategiyası;

– demokratik siyasi dəyişiklikləri iqtisadi inkişafın xeyrinə təxirə salmış avtoritar hökumətlərin şəxsində güclü və effektiv rəhbərlik;


– ABŞ-ın bilavasitə köməyi sahəsində hərbi-sənaye kompleksinin saxlanılmasına çəkilən xərclərin nisbətən az olması (bu məsrəflər Şimali Koreyada ÜDM-in 60-70%-ni təşkil etdiyi halda, Cənubi Koreyada ÜDM-in 2-3%-i həddindədir);

– xaricdən maliyyə və texnoloji xarakterli kapital qoyuluşlarının, sənaye avadanlığının cəlb edilməsi;

– etnik və mədəni yekcinslik, eləcə də konfutsiçilik ənənələrinə, əməksevərliyə, millətin təhsilinə, onun həyatda qazandığı uğurlara və öz millətinə sədaqət hissinə yüksək qiymət verilməsi.

Yuxarıda sadaladığımız və bir sıra başqa amillər Koreya Respublikasının iqtisadi inkişafının sürətlənməsinə bir çox cəhətdən şərait yaratmışdır.

İxrac siyasətinə gəldikdə, onu Koreya iqtisadiyyatının inkişafının hərəkətverici qüvvəsinə çevrilmiş ən sanballı amil hesab etmək olar. Xarici texno-



logiyalara müraciət edilməsinə Koreya iqtisadiyyatının inkişafının ixrac modelinin təbii nəticəsi kimi baxılmalıdır.

1980-ci illərdən başlayaraq Cənubi Koreya iqtisadiyyatı xarici investisiyaların cəlb edilməsi ilə yanaşı, həm də xaricdən müasir texnologiyaların cəlb edilməsinə istiqamətləndirildi. **1962-1982-ci illərdə Cənubi Koreya inkişaf etmiş kapitalist ölkələrindən texniki avadanlıqların ("know how"lar) alınması barədə ümumi məbləği 681 milyon dollar olan 2281 müqavilə bağlamışdı.** Bu həmin dövr ərzində birbaşa investisiyaların məbləğinin 47,7%-nə bərabər idi. İstehsal avadanlıqlarının alınması barədə əqdlərin çox hissəsi (56,4%) yapon biznesmenləri ilə bağlanmışdı, hərçənd yaponlar Cənubi Koreya firmaları ilə bu sahədə əməkdaşlığa ABŞ-ın və digər ölkələrin işgüzar dairələrindən dörd il gec qoşulmuşdular. İstifadə edilən texnika və texnologiyalar üçün Cənubi Koreyanın maliyyə ayırmalarının məbləğində də Yaponiyanın nisbi payı başqalarından xeyli çox idi. On il ərzində (1967-1977-ci illər) yaponiyalı sahibkarlar Koreyadan 52 mln. dollar (59%) vəsait almışdılar. Halbuki, 15 il ərzində (1962-1977-ci illər) ABŞ və Qərbi Almaniyanın bu ölkədən aldığı vəsaitin məbləği, müvafiq surətdə 24,3 mln. dollar (27,7%) və 4,4 mln. dollar (5%) olmuşdur.

Beləliklə, hökumət tədricən ən müasir texnologiyaların cəlb edilməsinə daha çox əhəmiyyət verir və təkid edirdi ki, bütün özəl firmalar onların sərəncamında olan xarici texnologiyaları öz aralarında məcburi qaydada mübadilə etsinlər. Ticarət və sənaye naziri isə elan etmişdi ki, o, xırda və orta ölçülü firmalar tərəfindən yeni xarici



texnologiyaların tətbiqini təqdir edəcəkdir. 1984-cü ildən qüvvəyə minmiş həvəsləndirmə sistemi ilk növbədə elektron məhsullar istehsalı ilə məşğul olan firmalara şamil edilmişdi. Hələ mənimsənilməmiş olan bu nüfuzlu sahədə fəaliyyətini genişləndirməyə cəsarət tapan müəssisələrə maliyyə və texniki dəstək fondu yaradılmışdı. 1988-ci ildə bu fondun vəsaitlərinin məbləği 400 milyon dollara bərabər idi. **Maliyyə Nazirliyi 1983-cü il avqustun 12-dən etibarən banklara bir vəzifə olaraq tapşırmışdı ki, onlar xarici texnologiyaların tətbiq edilməsi məqsədilə borc almaq üçün müraciət edən özəl firmaları intensiv dəstəkləsinlər. Xüsusi dəstək kreditləri iki il güzəştli dövr nəzərdə tutulmaqla, ildə 10% müamilə ilə 5 il müddətinə verilirdi.**

Cənubi Koreyanın gəmiqayırma sahəsində də buna oxşar nümunələr göstərmək olar. Müvafiq texnologiyaların (onlar əvvəlcə Yaponiyadan, sonra isə İngiltərə, Fransa, Norveç və Hollandiyadan alınmışdı) mənimsənilməsi sayəsində Cənubi Koreya gəmiqayırma ilə bağlı sifarişlərin həcminə görə dünyada ikinci yerə çıxmışdı.



Cənubi Koreya sənayesinin yeni avadanlıq növləri ilə təchiz edilməsi müxtəlif kanallarla həyata keçirilirdi. Sənaye avadanlıqları əsasən kommersiya borcları xətti ilə daxil olurdu. Lakin bir sıra hallarda həmin avadanlıqlarla birlikdə müvafiq texnoloji kömək vasitələri **təqdim edilmir və nəticədə müvafiq texniki kadrların hazırlanması qayğısı koreyalıların üzərinə düşürdü.**



Avadanlıqların və texnologiyaların verilməsi məsələsində bir qədər başqa vəziyyət yaranmışdı. Texniki sazişlərə uyğun olaraq xarici firmalar ya Cənubi Koreyaya texniki məsləhətçilər göndərməyi, ya da yerli mütəxəssisləri hazırlamağı öz öhdəsinə götürürdü. Xarici texnoloji yardımın əsas dəyəri də məhz ondan ibarət idi ki, həmin texnologiyalar elmi-texniki inqilabın **son nailiyyətləri səviyyəsində olduqda, müvafiq yerli kadrların hazırlanmasına şərait yaranırdı.**

Son zamanlar ölkədə qarışıq müəssisələrə birbaşa investisiyaların cəlb edilməsinə daha artıq diqqət yetirilir.

1997-1999-cu illərin Asiya böhranı, iri həcmli kreditlər və nizamsız maliyyə sektoru Cənubi Koreyanın inkişafına öz mənfi təsirini göstərdi. Lakin ölkə bu sarsıntıdan qurtula bildi.

Koreyada islahatlar aparılarkən



dünyada mövcud olan inkişaf modelləri, Şərqi Asiya, Şərqi Avropa, MDB, Latın Amerikası ölkələrində islahatların ideologiyası təhlil edilmiş, özünü doğrultmuş və ölkənin şəraitinə uyğun olan müddəalar seçilmişdir.

Koreya iqtisadiyyatının inkişafında xarici borcların da rolu vardır. Lakin Koreya hökuməti bu borcların sürətlə artmaması, onlardan iqtisadiyyatın müasir texnologiyalar əsasında inkişafı naminə səmərəli istifadə olunması üçün düşünülmüş tədbirlər həyata keçirir.

Son 25 ildə Koreyanın qat-qat varlanmasının başlıca səbəblərindən biri ixrac yönümlü iqtisadiyyatın yaradılmasıdır. Belə ki, Koreya Beynəlxalq Ticarət Assosiasiyasının məlumatına görə, Cənubi Koreyada ixracın həcmi 20,1% artaraq 172 mlrd. 600 milyon dollara çatmış və ölkənin 9,2%-ə bərabər iqtisadi artımının təqribən 5,4%-i məhz bunun hesabına təmin edilmişdir. Beləliklə, iqtisadi artımın ümumi həcmində ixracın nisbi payı 58,7%-ə bərabər olmuşdur. Bu, 1975-ci ildən bəri ən yüksək nailiyyətdir. Elə həmin assosiasiyanın məlumatına görə, 2000-ci ildə ixrac hesabına 97 mlrd. dollardan artıq gəlir əldə edilmişdir. Bu isə ölkənin ümumi milli məhsulunun 21%-i deməkdir. Bundan əlavə, ixrac hesabına təqribən 2,3 mln. iş yeri təmin edilmişdir. Bu meyil indi də özünü göstərir.



Misilsiz iqtisadi inkişaf sayəsində Cənubi Koreyada istehsal edilən malların, o cümlədən inteqral sxemlərin, gəmilərin və maşınlar üçün avadanlığın Avropa ölkələrinə ixracı qat-qat artmışdır.

Cənubi Koreya yüksək texnologiyalı müasir dünya iqtisadiyyatına inteqrasiyada mükəmməl nəticələrə nail olmuşdur. Bu uğur 1980-ci illərin sonlarından bilavasitə kredit, idxal məhdudiyyətləri, hökumətlə biznes arasında sıx əlaqə sistemi vasitəsilə əldə edilmişdir. Hökumət xammalın idxalını və çoxişlənən malların qiymətləndirilməsi texnologiyasını təkmilləşdirmiş və cəlb olunmuş kapital və istehlakdan artıq sərmayə qoyuluşuna imkan yaratmışdır. Ölkənin dünya iqtisadiyyatına inteqrasiyası aparılan sistemli islahatların səmərəliliyinin artmasına, dünya təcrübəsində özünü doğrultmuş metodlardan, beynəlxalq standartlardan istifadə olunmasına, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin tədricən artmasına, ümumiyyətlə, iqtisadi mədəniyyətin yüksəlməsinə, müasir sahibkarlar, biznesmenlər qrupunun formalaşmasına imkan vermişdir. Koreya artıq dünya ticarətində rolunu ildənilə artıran bir ölkə kimi tanınır. Ölkədə beynəlxalq əməkdaşlığın bütün səmərəli formaların-

dan istifadə etməyə səy göstərilir. Bu sahədə aparılan siyasətin ideologiyasının ana xətti milli mənafeləri qorumaqla dünya bazarına çıxmaqdan, qloballaşan iqtisadiyyatda dövlətin mövqeyini möhkəmləndirməkdən ibarətdir.

2008-2010-cu illər böhranı Cənubi Koreya iqtisadiyyatına güclü təsir etmişdi. 2008-ci ildə sənaye istehsalı 26% azaldı, işsizlik artdı, vonun dollara nisbətdə kursu aşağı düşdü. Dövlət tərəfindən həyata keçirilən antiböhran tədbirləri nəticəsində artıq 2009-cu ildə ölkə iqtisadiyyatı bərpa olunmağa başlandı. Vonun kursunun aşağı salınması Koreya ixracatçılarına yaxşı təsir etdi. 2010-cu ildən dünya iqtisadiyyatının bərpa olunması və Koreya istehsalçıları üçün yenidən bazarların açılması ÜDM-in 5,2%-lik artımına, işsizliyin isə 4,4-dən 3,8%-ə enməsinə səbəb oldu.

Bu gün dünya iqtisadiyyatında özünəməxsus yer tutan Koreya Respublikası Azərbaycanla da bütün sahələrdə əməkdaşlığı özünün strateji vəzifələrindən sayır.

KORNAİ YANOŞ – (1928) macar iqtisadçısı, riyaziyyatçısı. 1955-ci ildə Budapeşt Universitetini bitirmişdir.



Macarıstan EA-nın İqtisadiyyat İnstitutunun elmi işçisi, Toxuculuq Sənayesi İnstitutunun kafedra müdiri, Macarıstan EA-nın Hesablama Mərkəzinin direktoru, 1987-ci ildən MEA-nın İqtisadiyyat İnstitutunun şöbə müdiri, 1986-cı ildən Harvard Universitetinin professoru, bir çox Qərb ölkələrinin universitetlərində (məsələn, Stanford (1968, 1973), Priston (1972, 1983), Stokholm (1976-1977), Harvard (1984-1985) universitetləri) dəvət olunmuş professor kimi işləmişdir. Avropa İqtisadiyyat Assosiasiyasının sədri (1987), BMT İnkişafın Planlaşdırılması Departamentinin həmsədri (1991-1993), MEA-nın və xarici ölkələrin (ABŞ, Britaniya, İsveç, Finlandiya, Rusiya) EA-nın üzvüdür. Avropa Evalyusiya Siyasi-İqtisad Assosiasiyasının fəxri prezidenti, Avropa Müqayisəli İqtisadi Təhqiqatlar Assosiasiyasının fəxri üzvü, Paris, Vyana, London, Amsterdam və Turin universitetlərinin fəxri doktoru, professorudur. Macarıstanın dövlət (1983), eləcə də A.Humboldt (1983), Ferens (1994) və Seçen (1994) mükafatları laureatıdır.

KORNEGİ ENDRYU (1835-1919) – amerikan sənayeçi və ictimai xadimi, dünyada ən böyük poladəritmə kompaniyalarından birinin yaradıcısı.



İctimai kitabxanalar şəbəkəsini yaratmış, elmi tədqiqatlar və maarifləndirmə proqramlarını maliyyələşdirmişdir. 1910-cu ildə Beynəlxalq Sülh fondunu təsis etmişdir. Hesab edirdi ki, istənilən imkanlı şəxsin borcu öz kapitalını ictimai mənafe və xidmətlərə yönəltməkdir. Lakin kömək xeyriyyə xarakteri daşımamalıdır. Kornegi yazırdı ki, "nə insana, nə cəmiyyətə fasiləsiz kömək etmək olmaz, kömək əməkdaşlıq, qarşılıqlı təsir xarakteri daşımalıdır".

KORNER (ing. *corner* – künc) – müəyyən göndəriş müddəti ilə real əmtəənin və birja müqavilələrinin satın alınması yolu ilə bazarda əmtəə çatışmazlığının yaradılması üzrə bir firmanın, bir qrup firmaların və ya şəxslərin hərəkətləri. Nəticədə əvvəllər birja müqavilələrini satan şəxslər öz öhdəliklərini, yalnız onları satdıqları şəxslərdən xeyli artan qiymətə satın alaraq yerinə yetirə bilirlər. Bu cür hərəkətlər birja qaydaları ilə rəsmi surətdə qadağan olunmuşdur.

KORPORASİYA (ing. *corporation*, lat. *corporatio* – birlik, birləşmə) – geniş əhatəli kollektiv təsərrüfatçılıq formalarından biridir: ümumi məqsədlərə nail olmaq, birgə fəaliyyəti həyata keçirmək üçün birləşən və müstəqil hüquq subyekti – hüquqi şəxs yaradan şəxslərin məcmusu.

İlk korporasiyalar XIX əsrin ortalarında yaranmışdır. Müasir şəraitdə korporasiyalar ABŞ-ın bütün təsərrüfat sahələrində aparıcı mövqe tutur. Xüsusi korporasiyada əksər səhmlər bir sahibə, ailəyə və ya az miqdarda səhmdarlara məxsusdur. İnkişaf etmiş ölkələrdə sahibkarlıq fəaliyyətinin geniş yayılmış formasıdır ki, bu da muzdla işləyən peşəkar idarə edənlərin (menecerlərin) yüksək eşelonunun əlində idarəetmə funksiyalarının cəmləşməsini, pay mülkiyyətini və hüquqi statusu nəzərdə tutur.





Exxon Mobil

Dövriyyə:	310,58 mlrd. doll.
Əməliyyat mənfəəti:	34,77 mlrd. doll.
Xalis mənfəət:	19,28 mlrd. doll.
Kapitallaşma:	336,5 mlrd. doll.
İşçilərin sayı:	79,900 min nəfər

Royal Dutch Shell

Dövriyyə: 278,188 mlrd. doll.
Xalis mənfəət: 12,518 mlrd. doll.
Kapitallaşma: 323,7 mlrd. doll.
İşçilərin sayı: 102,000 min nəfər

Əgər korporasiyaların satış həcmini və ölkələrin ÜDM-ini müqayisə etsək, onda görərik ki, dünyanın 100 nəhəng iqtisadiyyatlarından 51-i korporasiya, 49-u isə ölkə olacaqdır.

***

200 nəhəng korporasiyanın ümumi illik gəliri dünyanın ekstremal yoxsulluq şəraitində yaşayan 1 200 000 000 nəfərinin illik gəlirindən 18 dəfə çoxdur.

Korporasiya həm dövlət, həm də xüsusi formalarda ola bilər. Korporasiyanın hüquqi statusu onların mənfəətinin vergiyə cəlb edilməsi məbləğini müəyyən edir. Gəlirləri fərdi gəlir vergisi üzrə vergiyə cəlb olunan fərdi işgüzar müəssisələrdən və tərəfdaşlardan fərqli olaraq, korporasiyanın mənfəətindən mənfəət vergisi tutulur ki, bu da həm dərəcələrin kəmiyyətinə görə,





Chevron Corporation

Dövriyyə: 273,005 mlrd. doll. (2008)
Xalis mənfəət: 23,931 mlrd. doll. (2010)
Aktivlər: 161,165 mlrd. doll.
İşçilərin sayı: 67,000 min nəfər (mart, 2009)

BP plc

Dövriyyə: 239,3 mlrd. doll.
Xalis mənfəət: 16,58 mlrd. doll.
Aktivlər: 236,0 mlrd. doll.
İşçilərin sayı: 102,9 min nəfər

Dünyanın 200 nəhəng korporasiyasının satış həcmi 10 ölkə istisna olmaqla, yerdə qalan ölkələrin cəmi ÜDM-dən çoxdur.

***

200 korporasiya dünya iqtisadiyyatının 27,5 faizinə, 500 nəhəng korporasiya isə dünya iqtisadiyyatının 70 faizinə nəzarət edir.

***

200 nəhəng korporasiya dünya iqtisadiyyatının 27,5 faizinə nəzarət etsə də, burada dünya əhalisinin cəmi 0,78 faizi işləyir.

həm də güzəştlər dəstinə və vergi bazasından çıxılmalara (vergitutulmaya məruz qalan gəlirdən) və ya vergi öhdəliklərinə görə gəlir vergisindən fərqlənir.

KORPORASİYALARIN MƏNFƏƏTİNDƏN VERGİ – hüquqi şəxslərin əldə etdiyi gəlirlərdən vergi. Vergi bəyannaməsinə əsasən proporsional dərəcələr üzrə tutulur. Korporasiyaların mənfəəti vergitutma obyekti qismində çıxış edir. Onun məbləği ümumi mənfəət ilə vergi qanunvericiliyində müəyyən edilmiş güzəştlərin – istehsal, kommersiya, satış xərcləri, istehsalın genişləndirilməsi üçün xərclər, kreditə görə faizlər ödənilməsi, zərərlər, reklam, nümayəndəlik, elmi-tədqiqat və təcrübi-konstruktor işləri üçün xərclər, dividendlər – cəmi arasındakı fərqə bərabərdir. Azərbaycan Respublikasında verginin bu növü hüquqi şəxslərdən müəyyən dərəcə üzrə tutulan mənfəət vergisi şəklində mövcuddur.

KORPORATİV MƏQSƏDLƏR – təşkilat üçün ümumi məqsədlər.

KORPORATİV VERGİ – korporasiya (firma, müəssisə) hüquqi şəxs statusuna malik olduqda, onun mənfəətindən tutulan vergi. Xırda biznesə aid bəzi firmalar üçün istisnalar nəzərdə tutulmuşdur: onlar hüquqi şəxs kimi tanınmış olsalar da, belə firmaların sahibləri vergiləri fərdi gəlir vergisi formasında ödəyirlər. Korporativ vergi firmaların vergi ödəmələrinin əsas hissəsidir. Vergi firmanın xalis mənfəətindən, yəni ümumi mədaxil ilə bütün xərclərin fərqindən tutulur.

Səhmdarlar arasında dividendlər səhm gəlirləri şəklində bölüşdürülməli olan xalis mənfəətdən vergi tutulması ölkədən asılı olaraq müxtəlif şəkildə həyata keçirilir. Alınan dividendlərə görə fiziki şəxslərdən gəlir vergisi tutulur. Buna görə də eyni məbləğdən iki dəfə vergi tutula bilər. Mənfəətdən bu cür ikiqat vergitutmaya münasibətdən asılı olaraq mənfəətdən korporativ vergi tutulması üzrə milli sistemləri aşağıdakı kimi təsnif etmək olar:

klassik sistem: bu halda mənfəətin bölüşdürülən hissəsindən korporasiyaların mənfəət vergisi, sonra isə şəxsi gəlir vergisi tutulur;

şirkət səviyyəsində vergitutmanın azaldılması sistemi: bu halda bölüşdürülən mənfəətdən korporativ vergi aşağı dərəcə üzrə tutulur;

səhmdarlar səviyyəsində vergitutmanın azaldılması sistemi: səhmdarlar dividentlərə görə gəlir vergisi ödəməkdən qismən azad edilir;

bölüşdürürən mənfəətin firma səviyyəsində korporativ vergidən tam azad edilməsi sistemi.

KORPORATİVLİK – cəmiyyətin müxtəlif sosial təbəqələrinin, qruplarının maraqlarının institutlaşdırılması forması. Qarışıq iqtisadiyyatda korporatizm modeli Avstriya, İsveç, Yaponiya, Almaniya, İsveçrə və Niderlandda geniş yayılıb. Korporativliyin klassik nümunəsi Avstriyada mövcuddur. Burada məsləhətçi şuralar və komitələr, paritet komissiyaları və s. təşkilatlar ümumi dövlət və sahə səviyyəsində yaradılır. Onların vəzifəsi iqtisadi strategiyanın müəyyən edilməsində və cari sosial-iqtisadi problemlərin həlli zamanı konsensus (razılıq) əldə etməkdən ibarətdir.

KORPUSUN SIĞORTALANMASI – gəminin qəzaya uğraması və toqquşması zamanı onun özü və öhdəliklərinin sığortalanmasını ifadə edən sığorta anlayışı.

KORRELYASİYA (lat. *correlatio* – qarşılıqlı əlaqə, asılılıq, nisbət) – iki və ya daha artıq təsadüfi dəyişən kəmiyyətlərin və ya verilmiş, məlum hadisələrin sıralarının təsadüfi, ehtimal olunan əlaqəsi. Başqa sözlə (ehtimal nəzəriyyəsi və riyazi statistikada), ciddi funksional asılılığa malik olmayan təsadüfi kəmiyyətlər arasındakı ehtimallı və ya statistik asılılıq. Verilmiş elementlərdən biri o birindən və hətta, hər ikisi bir sıra təsadüfi amildən asılı olduqda yaranır. Korrelyasiyanın köməyi ilə sintetik göstəricilər formasında tədqiq olunan iqtisadi hadisələr arasında intensivliyi və istiqaməti, eləcə də müxtəlif amillərin təsir dərəcəsini ifadə etmək olar. Korrelyasiyanın ən sadə forması – iki dəyişən kəmiyyət (x və y) arasında korrelyasiyadır ki, bunların arasında əlaqə müəyyən olunur və ölçülür.

x və y kimi iki dəyişən kəmiyyətin xətti əlaqəsinin sıxlıq dərəcəsinin kəmiyyət ölçüsü korrelyasiya əmsalıdır.

Korrelyasiyanın xətti əmsalını aşağıdakı düsturla hesablamaq olar:

$$r = \frac{\sum (x - \bar{x})(y - \bar{y})}{n \sigma_x \sigma_y}$$

burada: $\wp_x = \sqrt{\frac{\sum(x-\bar{x})^2}{n}}$

$$\wp_y = \sqrt{\frac{\sum(y-\bar{y})^2}{n}}$$

– x və y təsadüfi dəyişən kəmiyyətlərin standart kənarlaşması - dır.

Korrelyasiya əmsalı dəyişən kəmiyyətlər arasında əlaqənin düz və ya tərs mütənasib olmasından asılı olaraq [-1, +1] hədlərində variasiya edir. Əgər $r = +1, -1$ olarsa, x və y arasında $y = a_0 + a_1 x$ funksional xətti əlaqə mövcuddur, özü də a_1 əmsalı işarəsi r işarəsinə uyğun gəlir. Əgər $r = 0$ olarsa, təsadüfi dəyişən kəmiyyətlər korrelyasiya olunmur.

Özü də, əgər dəyişən kəmiyyətlər asılı deyilsə, onda onlar arasında korrelyasiya (əlaqə) yoxdur, lakin əks müddəa doğru deyil, belə ki, asılılığın olmaması hər hansı bir statistik əlaqənin olmaması, korrelyasiya olunmama isə xətti asılılığın olmaması deməkdir. Bütün digər hallarda x və y arasında r əmsalı işarəsindən asılı olaraq müsbət və ya mənfi əlaqə mövcuddur. Korrelyasiya əmsalı K+1-ə və ya K-1-ə nə qədər çox yaxınlaşırsa, dəyişən kəmiyyətlər arasında düzxətli korrelyasiya daha intensiv olur, yəni verilmiş x kəmiyyətinə görə y kəmiyyətini qabaqcadan dəqiq görmək olar. r =1, -1 halında qabaqcadan görmənin səhvi sıfıra bərabərdir. K-r_2 kvadrat əmsalı kəsb edən determinasiya əmsalı kəmiyyətinə nisbətən korrelyasiya əmsalı kəmiyyətini şərh etmək xeyli çətindir. O, bir dəyişən kəmiyyətin dispersiya payının digəri ilə izah edilməsini göstərir.

İqtisadi hadisələr arasında əlaqələrin statistik tədqiqi prosesində elə hallara rast gəlinir ki, bunlar da asılı dəyişən kəmiyyətlərin müxtəlif səviyyəsində, asılı olmayan dəyişən kəmiyyətlərin asılı olan dəyişən kəmiyyətlərə təsir intensivliyi dəyişir. Belə hallarda korrelyasiya əyri formasını alır. Bu da hiperbola, parabola və s. yəni, əyri xətt asılı formasında ola bilər. x və y arasında f əyri xətt əlaqənin dərəcəsini korrelyasiya münasibəti ilə ifadə edir. Bu göstərici adətən x-dan y-a əyri xətt reqressiya əsasında hesablanır. Əgər korrelyasiya nisbəti +1-ə, -1-ə bərabər olarsa, onda $y=a_0+a_1f(x)$. f xətti funksiyalar üçün korrelyasiya nisbəti və korrelyasiya əmsalı uyğun gəlir.

Kütləvi iqtisadi hadisələr arasında mürəkkəb əlaqələr zamanı asılı kəmiyyətlərə xeyli, əhəmiyyətli təsir göstərən bir neçə asılı olmayan dəyişən kəmiyyət əmələ gəlir. Bu dəyişən kəmiyyətlərin ümumi təsiri korrelyasiya çoxluluğu göstəricilərinin köməyilə ölçülür. Adi korrelyasiya əmsalına oxşar m sayda $x_1, x_2..., x_m$ təsadüfi dəyişən kəmiyyətlərdən y təsadüfi dəyişən kəmiyyətin xətti asılılığının sıxlığı göstəricisi kimi korrelyasiya çoxluluğu əmsalı anlayışı tətbiq edilir. Reqressiya çoxluluğu xəttindən

$(y=a+a_1x_1+a_2x_2+...+a_mx_m)$

müşahidə olunan kəmiyyətlər nə qədər az kənarlaşarsa, korrelyasiya əmsalı böyük kəmiyyətə malik olur və deməli, korrelyasiya daha intensiv olur. Vahidə bərabər olan korrelyasiya çoxluluğu əmsalı zamanı y müşahidə olunan kəmiyyətlər reqressiya çoxluluğu tənliyi əsasında hesablanan kəmiyyətlərə uyğun gəlir, y dəyişən kəmiyyətin variasiyası korrelyasiyanın hesablanmasına daxil olan asılı olmayan dəyişən kəmiyyətlərin variasiyaları ilə izah olunur. Həmçinin xüsusi korrelyasiya əmsalı anlayışı tətbiq edilir ki, bu da iki kəmiyyət arasında asılılığa qalan dəyişən kəmiyyətlərin təsirinin istisna edilməsi zamanı bu iki kəmiyyət arasında asılılığın sıxlığını göstərir.

Korrelyasiya əmsalı xarici asılılığın dərəcəsini, yəni tədqiq olunan hadisələrin özlərini yox, müşahidə sıralarının uyğunluğunu göstərir. Buna görə bəzən r yüksək kəmiyyəti hadisələrin daxili qarşılıqlı asılılığı demək deyildir (yalançı korrelyasiya). Korrelyasiya əmsalının köməyi ilə səbəb-nəticə əlaqələrini müəyyən etmək olmaz. Bu, məsələnin məzmun təhlili əsasında tədqiqatçının özü tərəfindən yerinə yetirilir.

KOSMİK RİSKLƏRİN SIĞORTALANMASI – kosmik proqramın reallaşmasının bütün mərhələlərində: layihələndirmə, istehsal, buraxılışdan əvvəlki faza, buraxılış fazası, orbit iş fazası mərhələlərində sığortalının əmlak və digər maraqlarının qorunması ilə əlaqədar sığorta sahəsi. Bu sığorta növünə peyk rabitəsinin sığortası, uçuş aparatlarının sığortası və s. aiddir. Kosmik risklərin sığortalanması kosmik texnikanın istismarı ilə əlaqədar sığorta növlərinin məcmusudur. Dünya təcrübəsində

kosmik risklərin sığortalanması üzrə 4 əsas növü fərqləndirilir: 1) peyklərin, daşıyıcı raketlərin və ayrı-ayrı aqreqatların yığılması və sonradan sınaqdan keçirilməsi zamanı sığortalanma; 2) buraxılışdan əvvəlki mərhələnin sığortalanması qorunma yerindən buraxılış yerinə qədər, nəqletmə daxil olmaqla yekun yığmadan buraxılışa qədər mərhələni əhatə edir; 3) buraxılış mərhələsində sığortalanma mühərrikin işə düşməsi anından başlayır və hesablama orbitinə çıxarılma anına qədər fəaliyyət göstərir; 4) orbitdə sığortalanma orbitdə peykin fəaliyyət göstərməsinin işləmə fazası vaxtı zəmanəti təmin edir.

Kosmik risklərin sığortalanması – XX əsrin 70-ci illərindən başlayaraq "Kosmik sığorta" anlayışında birləşən sığorta kimi geniş yayılmışdır. Bu sığorta hər şeydən əvvəl bir çox hallarda istismarı kommersiya xarakteri daşıyan rabitə peyklərinin sığortası, çoxsaylı istifadə üçün uçuş aparatlarının sığortası və s. aiddir.

KOSMİK TEXNİKANIN SIĞORTALANMASI – daşıyıcı raketlərin, sürət vermə blokunun, kosmik aparatın, onun müxtəlif mərhələlərinin – istehsal, kosmodrom ərazisində nəql etmə, uçuşdan əvvəlki hazırlıq, buraxılma və Yerə qayıtma mərhələlərini əhatə edir.

KOST END FREYT (ing. *cost and freight* – dəyər və fraxt – kirə) – 1. Xarici ticarət sövdələşməsinin növlərindən biridir. Bu zaman satıcı yükün daşınması xərclərini ödəyir. Lakin dəniz sığortasına görə məsuliyyət daşımır. Əsasən dəniz nəqliyyatında tətbiq olunur. 2. Göndərmə limanında əmtəənin (malın) dəyəri üstəgəl (yükləmə təyinat limanına qədər daşıma və boşaltma ilə əlaqəli xərclər) dəniz sığortası xərcləri daxil olmadan, yükləmə, təyinat limanına daşıma və boşaltma ilə əlaqəli xərclər.

KOSTİNQ-STANDART – standartlar və standartlardan kənarlaşmalar üzrə istehsal xərclərinin uçot sistemi. Bunun üçün aşağıdakı prinsiplərə riayət etmək lazımdır: müəssisədə fəaliyyətdə olan norma və smeta əsasında hər bir məmulat üzrə normativ maya dəyəri kalkulyasiyasının əvvəlcədən (ilkin) tərtib olunması; ay ərzində normativ maya dəyərinin təshih edilməsi üçün fəaliyyətdə olan normada dəyişmənin uçotunun aparılması, bu dəyişmələrin məhsulun maya dəyərinə və normanın dəyişmə səbəbinə xidmət edən tədbirlərin səmərəliliyinə təsirinin təyin edilməsi; normalar və normalardan kənarlaşmalar baş verdiyi yerlər üzrə onların səbəblərinin müəyyənləşdirilməsi və təhlili; buraxılan məhsulların faktiki maya dəyərinin normativ maya dəyəri, normadan kənarlaşma və normanın dəyişməsinin cəmi kimi müəyyən edilməsi. Bu prinsiplərə tam həcmdə riayət edilməsi uçot obyektlərinin xərclərinin iriləşdirilməsinə, analitik uçotun məmulatlar üzrə deyil, eyni cinsli məmulatlar qrupu üzrə aparılmasına imkan yaradır. Məmulatların məcmusu müəssisədə təyin edilir. Məmulatları qruplara daxil edərkən, onların konstruksiya və hazırlanma texnologiyası üzrə həmcins olması şərtinə riayət edilməlidir. Faktiki maya dəyərinin kalkulyasiyasının tərtib edilməsinin hazırkı ardıcıllığı, qiymət yaranmanın və xərclərə nəzarət üçün vacib olan xərclər haqqında etibarlı nəticələrin əldə edilməsinə imkan verir. Amma bu variant daha çox zəhmət tələb edir. Daha az zəhmət tələb edən variant aşağıdakı normativlər dəstinin olmasını şərtləndirir: İstehsal (dəyişən) xərcləri; bitməmiş istehsal, bu zaman normalar dəyişəndə bitməmiş istehsalın qalıqları yenidən hesablanmır, norma və kənarlaşmalardan bütün dəyişikliklər isə mal buraxılışına aid edilir; əgər hesabat dövrü ərzində əhəmiyyətli norma dəyişikliyi olmayıbsa, onda onların ayrıca uçotu aparılmır, onların təsirinə normalardan kənarlaşmalarla birlikdə baxılır.

Beləliklə, kostinq-standart ilkin maya dəyərinin variantlarından birini əks etdirir və məmulata xərclərin kəmiyyətini maddələr üzrə və fəaliyyətdə olan cari normalar, normativlər və smetalar üzrə müəyyən edir. Bu uçot sistemi keçən əsrin 30-cu illərində ABŞ-da meydana gəlmişdir. Qərbi Avropa ölkələrində geniş tətbiq olunur.

KOTİROVKA (fr. *coter* – qiymət) – mövcud qanunvericilik normalarına uyğun olaraq birjalarda qiymətli kağızların, xarici valyutanın məzənnəsinin və ya əmtəələrin qiymətlərinin müəyyən edilməsi.

Dolayı kotirovka – daxili valyutanın bir vahidinin mübadilə olunduğu xarici valyuta vahidinin miqdarını göstərir.

KOTİROVKA KOMİSSİYASI – birjada tədavüldə (dövriyyədə) olan əmtəələrin qiy-





mətlərini və ya qiymətli kağızların məzənnəsini aşkar edən və dərc edən orqan. Onun funksiyasına birjada bağlanmış sövdələşmələr haqqında dəllallar (vasitəçilər) və birjanın digər üzvləri tərəfindən təqdim edilən məlumatların dürüstlüyünə görə müşahidə və birja bülleteninin tərtib edilməsi daxildir. Kotirovka komissiyasının tərkibi birja üzvləri tərəfindən seçilir.

KOUZ (COASE) RONALD HARRİ (1910) – ingilis iqtisadçısı, mikroiqtisadiyyat, iqtisadi təşkil və institusional iqtisadiyyat nəzəriyyəsi üzrə əsərlərin müəllifi.



"İnstitusional struktur və iqtisadiyyatın fəaliyyət göstərməsi üçün mülkiyyət hüquqları və sövdələşmələrin dəyərinin mənasının açılmasına və izah edilməsinə görə" 1991-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür.

London İqtisadiyyat Məktəbində (LİM) iqtisadi təhsil almışdır (1929-1932). Dandi şəhərindəki İqtisadiyyat və statistika məktəbində (1932-1934), Liverpul Universitetində (1934-1935), London iqtisadiyyat məktəbində (1935-1939, 1946-1949) dərs demişdir. 1939-1946-cı illər İkinci Dünya müharibəsi zamanı Meşəçilik üzrə komissiyanın və Hərbi Nazirliyin mərkəzi statistika idarələrinin əməkdaşı, Buffalo şəhərindəki (ABŞ-ın Nyu-York ştatı) universitetdə (1951-1958), Virciniya ştatının universitetində (1950-1964), Çikaqo Universitetində (1964-1982) və "Əxlaq haqqında" elm sahəsində ixtisaslaşdırma mərkəzində (1951-1958) tədqiqat və tədris işi ilə məşğul olmuşdur. Çikaqo Universitetinin İqtisadiyyat məktəbinin fəxri professoru (1982-ci ildən), "Hüquq və iqtisadiyyat jurnalı"nın ("Journal of Low and Economics") redaktoru (1964-1982) olmuşdur. Kouz iqtisadiyyatın institusional strukturunun anlaşılmasında sıçrayış etmişdir. Onun əsərləri ənənəvi mikroiqtisadi nəzəriyyənin çərçivəsini xeyli genişləndirdi və həm iqtisadi nəzəriyyə,

həm də hüquqşünaslıq sahəsində tədqiqatlara xeyli dərəcədə şərait yaratdı və onları müəyyən etdi. Onun dərc etdirdiyi jurnal sayəsində universitetin tədris fənlərində yeni "Qanunvericilik və iqtisadiyyat" predmeti yarandı.

Amerika iqtisadiyyatı strukturu haqqında 1931-1932-ci illərdə ABŞ-da olduğu zaman topladığı materialı ümumiləşdirən ilk "Firmanın təbiəti" ("The Nature of the Firm") məqaləsində Kouz iqtisadi təşkilin fundamental problemini qoydu. Bazar mexanizminə başlıca təşkilati əlaqələndirici rolu ayıran və o dövrdə iqtisadi ədəbiyyatda üstünlük təşkil edən ənənənin əksinə olaraq, o, ilk dəfə bazar qüvvələrinin fəaliyyətinə təsir göstərə bilən və hətta, bazar sövdələşmələrini pozan işgüzar firmanın təşkilati rolu haqqında məsələni qaldırdı. Kouz ilk dəfə olaraq iqtisadi təşkilin təhlilinə "sövdələşmələr üzrə xərclər"i ("transaction cost") daxil etdi və göstərdi ki, müəssisənin fəaliyyətinin təşkili və əlaqələndirilməsi ilə bağlı xərclərin artması son nəticədə bazardan firmaya sonrakı əməliyyatların yerdəyişməsini məhdudlaşdırır. Amerika radioverilişi xidmətinin öyrənilməsi Kouzu Böyük Britaniyanın rabitə vasitələri və radioverilişləri idarəsinin timsalında dövlət inhisarlarının mənşəyi və sabitliyi (dayanıqlığı) problemini təhlil etməyə sövq etdi. Bu institusional yanaşmanın nəticələri "Britaniya radioverilişləri idarəsi şəbəkəsi: inhisarların öyrənilməsi" ("British Broadcasting: A Stady in Monopoly") kitablarında, eləcə də bir sıra məqalələrində ifadə edildi ki, bu məqalələrdən "institusional təhlil"ə klassik misal hesab edilən "Rabitə vasitələri üzrə federal komissiya" ("The Federal Comminications Comissio", 1959) əsəri çox məşhurlaşdı. Çikaqo Universitetinin aparıcı iqtisadçıları ilə Kouzun kəskin diskussiyasına səbəb olan bu əsər müasir iqtisadi ədəbiyyatın ən çox sitat gətirilən və müzakirə olunan iqtisadi əsərlərindən biridir. Kouz mülkiyyət hüququ mövqeyindən (bunun olmasını və ya olmamasını qiymət, bazar mexanizminin fəaliyyəti müəyyən edirdi) informasiya vasitələrinin fəaliyyətini tənzimləməli olan ABŞ Konqresi tərəfindən təyin olunan Məlumat vasitələri üzrə Federal Komissiyanın fəaliyyətini qəbul etmirdi. "Sosial xərclər problemi" ("The problem of Social Cost") məqaləsində Kouz öz mövqeyini daha dəqiq əsaslandırdı. Burada mülkiyyət hüquqlarının könüllü surətdə dəyişməsinə və yenidən kombinasiya edilməsinə mane olan sövdələşmələrin dəyərinin real resursların bölgüsünə təsirinin öyrənilməsi davam etdirildi. Bu əsər mülkiyyət məsələləri ilə bağlı müəssisələrin idarə heyətinin hüquqi qərarlarına aydın iqtisadi şərh verdi.

KOUZ TEOREMİ (*Coose theorem*) – ingilis mənşəli amerikan iqtisadçısı Ronald Harri Kouz tərəfindən 1960-cı illərdə irəli sürülmüşdür. Bu nəzəriyyəyə görə ətraf mühitin problemlərini dövlət proqramlarına daxil etmədən, bilavasitə müxtəlif mülkiyyətçilər arasında bağlanan iqtisadi müqavilələr əsasında səmərəli həll etmək olar. Bu zaman milli gəlirin kəmiyyəti və ya strukturu ətraf mühitin çirklənməsinə görə müəyyən edilmiş məsuliyyətin yekun formasından asılı olmayacaqdır. R.Kouz transaksion xərcləri elmə gətirməklə bazarı inkar etmir, iqtisadiyyatın fəaliyyəti üçün mülkiyyətçilik hüququnun və əqdlərin əhəmiyyətini göstərir.

KOUZ-STİQLER – transaksion xərcləri sıfıra bərabər olduqda və mülkiyyət hüquqları dəqiq müəyyən edildikdə xüsusi və ictimai xərclər (üçüncü şəxslərin xərcləri nəzərə alınmaqla) həmin hüquqların iqtisadi subyektlər arasında necə bölüşdürülməsindən asılı olmayaraq, bir-birinə bərabər olacaqdır.

Kouz-Stiqler nəzəriyyəsinə görə, əlavə müsbət və mənfi nəticələr aşağıdakı hallarda dövlət tərəfindən müdaxilə olunmasını tələb etmir:

1) mülkiyyət hüquqları dəqiq müəyyən edildikdə;
2) az sayda insan cəlb edildikdə;
3) əqdin dəyəri çox kiçik olduqda.

Bu hallarda dövlətin rolu bu işdə marağı olan şəxslər və ya qruplar arasında razılaşmanı təşviq etməkdən ibarət olmalıdır. Tərəflərin iqtisadi maraqları uğrunda mübarizə getdiyi üçün onların arasındakı saziş əlavə nəticələrin (probleminin) danışıqlar yolu ilə optimal həllini tapmağa imkan verir. Mülkiyyət hüququ tərəflərin hər ikisi üçün məcburi xərclər yaratmaqla əlavə nəticənin dəyərini müəyyən edir. Bu səbəbdən tərəflər əlavə nəticələrin (problemin) həllini

tapmağa imkan verən yollar axtarmağı ümdə zərurət hesab edirlər.

KOVER (ing. *cover, insurance coverage of risk*) – xarici təcrübədə sığorta müqaviləsinin ümumi adı (məcmusu). Sığorta risklərinin fəaliyyət dairəsini əks etdirir.

KOVERNOT – broker tərəfindən sığortaya verilən arayışdır ki, burada riskə gedən sığorta idarələrini göstərməklə, onların sığorta müqavilələrinin bağlanması təsdiq olunur. Kovernotun verilməsi brokeri sığortaçıya sığorta cəmiyyətinin polisini (öhdəliklərini) təqdim etməkdən azad etmir.

KÖÇÜRMƏ – qarşılıqlı hesablaşmalarda müəssisələr, firmalar, təşkilatlar, idarələr, vətəndaşlar tərəfindən pulların köçürülməsi üsulu; mahiyyəti ondan ibarətdir ki, bir subyekt digər subyektə kredit təşkilatı və rabitə müəssisəsi vasitəsi ilə pul məbləğini köçürür. Köçürmələr nağd və nağdsız ola bilər. Əsas etibarilə nağdsız aparılan köçürmələr banklar və digər kredit idarələri tərəfindən həyata keçirilir. Nağd köçürmələr kredit idarələri ilə yanaşı, rabitə təşkilatları vasitəsilə aparıla bilər.

KÖÇÜRMƏ VEKSEL (hesabı) – bir şəxsin (kreditorun) digərinə müəyyən məbləğin üçüncü şəxsə verilməsi haqqında yazılı əmrini özündə əks etdirir. Köçürmə vekseli verən şəxs – trassant, ödənişi həyata keçirməli olan şəxs – trassat, pulu almaq hüququ verilən şəxs isə remitent adlanır. Köçürmə vekselin obyekti əmtəə kapitalıdır.

KÖLƏ ƏQDİ – hadisələrin gedişi nəticəsində hədə-qorxu, aldatma yolu ilə bağlanmış çox səmərəsiz əqd. Lakin bu cür əqdin etibarsız hesab edilməsi çox çətin olur.



KÖLGƏ MƏŞĞULLUĞU – əhalinin qəbul olunan qanunvericiliyə zidd olan məşğulluğu. Kölgə məşğulluğu hesab olunan əsas fəaliyyət növləri arasında aşağıdakıları göstərmək olar:

– müvafiq icazə olmadan araq çəkmə və alkoqollu içkilərlə alver;

– müvafiq icazə olmadan tikinti materiallarının, avtomobillərin və s.-nin yenidən satışı;

– rüşvətxorluq və korrupsiya;

– gəlirlərin vergidən gizlədilməsi;

– brakonyerlik;

– fahişəlik, qaçaqmalçılıq;

– narkobiznes;

– qanunsuz mükafatlar;

– dövlət və ictimai əmlakın oğurlanması.

KÖMƏKÇİ KREDİT TARİXİ (ing. *Nontraditional Credit History*) – borcalan tərəfindən kirayə, kommunal haqlarının ödənilməsini və ənənəvi kredit tarixində əksini tapmayan digər ödənişlərin aparılmasını təsdiq edən sənədlər. Bir çox ölkələrdə ipoteka kreditlərinin verilməsi zamanı borcalan tərəfindən öhdəliklərin yerinə yetirilməsi haqqında məlumat olmadıqda qərar qəbulu üçün köməkçi kredit tarixindən geniş istifadə edilir (məsələn, banklar kommunal xidmətlərin ödənilməsini təsdiqləyən qəbzləri tələb edirlər).

KÖNDƏLƏN TREND – bazarda qiymətli kağızların dəyərinin tərəddüdünün kifayət qədər əhəmiyyətsiz olduğu vəziyyət.

KÖNÜLLÜ İŞSİZLİK – işsizlik növü. Bu zaman əmək qabiliyyətli əhalinin müəyyən hissəsi əməyin ödənilməsinin yüksələcəyinə ümid bəsləyərək, onun hazırkı səviyyəsində işləmək istəmir.

KÖNÜLLÜ SIĞORTA (ing. *voluntary insurance*) – məcburi sığortadan fərqli olaraq, sığortalı ilə sığorta şirkəti arasında könüllü prinsiplərə əsaslanan sığorta münasibətləri. Bu halda şəxs əmlakını, həyatını və ya digər risklərini sığortalamaq qərarında müstəqildir.

KÖNÜLLÜ TİBBİ SIĞORTA – vətəndaşlara tibbi xidmət xərc-

lərinə, xəstəlik vaxtı əmək gəlirinin itirilməsinə, sağlamlığın itirilməsi zamanı dövlət səhiyyəsi və ya icbari tibbi sığorta sisteminə əlavə olaraq tibbi xidmət xərclərinə görə verilən sığortanın təşkili forması. Könüllü tibbi sığorta – iqtisadi nöqteyi-nəzərdən, xəstəlik və ya digər bədbəxt hadisənin baş verməsi ilə əlaqədar, vətəndaşların xərclərinin və itkilərinin kompensasiya ödənilməsi mexanizmidir. Könüllü tibbi sığortanın sosial və iqtisadi aspektləri var. Könüllü tibbi sığorta iqtisadi nəticələrinə və tibbi-bərpa nəticələrinə görə fərqlənir.

KÖNÜLLÜ TİBBİ SIĞORTA PROQRAMI – hər bir yardım üzrə ayrı-ayrı sığorta məbləğləri və ümumi sığorta məbləği, eləcə də sığortalının yardım ala biləcəyi, tibb təşkilatları göstərilməklə, sığortaçı tərəfindən ödəniləcək tibbi xidmətlərin siyahısı.

KÖPÜRDÜLMÜŞ MÜƏSSİSƏ ("sabun köpüyü") – 1. Uğursuz, baş tutmamış maliyyə əməliyyatı, müflis olmuş müəssisə. 2. Maliyyə fırıldaqlarını aparmaq məqsədilə yaradılan qondarma müəssisə.

KRASİLNİKOV VİKTOR NAUMOVİÇ (1947) – rus iqtisadçısı; Beynəlxalq İqtisadçılar İttifaqının (Bİİ) birinci vitse-prezidenti, Baş direktoru; Rusiya Azad İqtisadçılar Cəmiyyətinin (RAİC) birinci vitse-prezidenti; Beynəlxalq Menecment Akademiyasının (BMA) akademiki, birinci vitse-prezidenti; Təbiət Elmləri Rusiya Akademiyasının akademiki; iqtisadiyyat və menecment üzrə doktor; i.e.n.; professor.



1969-cu ildə Volqoqrad Politexnik İnstitutunu bitirib. 1977-ci ildə İnstitutu bitirdikdən sonra Volqoqrad şəhərində "Barrikada" zavodunda mühəndis işləyib. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin İqtisadiyyat fakültəsinin aspiranturasını bitirdikdən sonra həmin ali məktəbdə müəllim işləməyə başlayıb.

O, Rusiyada ictimai təşkilatların mülkiyyəti üzrə beynəlxalq səviyyəli mütəxəssislərdən biridir. Onun "Вопросы экономики», "ЭКО", "Наша власть: дела и лица", "Москва и москвичи», "Научные труды" jurnallarında keçid iqtisadiyyatlı ölkələrin dayanıqlı inkişafında qeyri-hökumət təşkilatlarının rolu mövzusunda dərc olunan silsilə məqalələri böyük rəğbətlə qarşılanmışdı. Onun bilavasitə rəhbərlyi altında BII və RAIC ilə RF İctimai Palatası arasında əlaqələr yaradılmışdı.

2003-cü ildən RF Hesablama Palatası sədrinin yanında ekspert-məsləhət şurasının üzvüdür.

1982-ci ildə SSRİ Elmi-İqtisadi Cəmiyyətinin (indiki RAIC) yaradılması üzrə təşkilat komitəsinin rəhbəri olub və artıq 25 ildir ki, həmin cəmiyyətin vitse-prezidenti seçilir. Onun bilavasitə iştirakı ilə "Труды Вольного экономического общества" nəşri öz işini bərpa etmişdir.

Onun təşəbbüsü ilə 1998-ci ildən etibarən BMA ilə birlikdə "İlin meneceri" konkursu həyata keçirilir. 2006-cı ildə o, Fransada Beynəlxalq Menecerlər Klubunun prezidenti seçilib.


Onun təşəbbüsü ilə RAIC Rusiyada "Rusiyanın iqtisadi inkişafı" adlı gənclərin elmi konkursunu həyata keçirir.

O, çoxsaylı beynəlxalq simpozium, seminar və forumların, o cümlədən daimi fəaliyyət göstərən və Kremldə keçirilən "Dünya təcrübəsi və Rusiya iqtisadiyyatı" beynəlxalq forumunun təşkilatçısıdır.

Onun bilavasitə təşəbbüsü ilə 1991-ci ildə yaradılan BII BMT-nin İqtisadi və Sosial Şurasında baş məsləhətçi statusu alıb.

KREATİV İNDUSTRİYA – müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan sənaye sahəsi. Yaradıcılıq fəaliyyətini səciyyələndirir. Elm, texnika və informasiya sahələri, memarlıq, dizayn, təhsil, incəsənət, musiqi, əyləncə sənayesi, həmçinin iqtisadi funksiyası bu sahələrdə yeni ideyalar, texnologiyalar və kreativ məzmun yaratmaqdan ibarət olanlar kreativ industriyaya aid edilir. Kreativ industriya iki əsas əlaməti: məhsulun hazırlanmasına fərdi yanaşma və onun dəyərində qeyri-maddi tərkibin üstünlük təşkil etməsi ilə xarakterizə olunur.

KREDİT (lat. *kredit* – o inanır) – qaytarılma və adətən faizlə ödəmə şərtləri ilə pul və ya əmtəə formasında borc (ssuda); başqa sözlə, ssuda formasında olan iqtisadi sövdənin müxtəlifliyidir, bu zaman bir tərəfdaş müddət, qaytarılma və bir qayda olaraq, ödənişli şərtlərlə digəri-



Sxem 1

nə pul və ya əmlak təqdim edir; kreditorla borc alan arasında iqtisadi münasibətləri ifadə edir. İki əsas forması var – kommersiya və bank krediti. Həmçinin istehlak, beynəlxalq və dövlət kreditləri fərqləndirilir.

Kommersiya krediti əmtəə formasında mal satıcıları tərəfindən onların alıcılarına satılan mallara və ya təqdim edilən xidmətlərə görə ödəniş vaxtının uzadılması (möhlət) kimi təqdim olunur, kommersiya krediti malların realaşmasını sürətləndirmək məqsədilə tətbiq edilir və borc öhdəliyi veksellə sənədləşdirilir. İnkişaf etmiş ölkələrdə kommersiya krediti bütün kredit sövdələşmələrinin 20-30%-ni təşkil edir.

Bank krediti kommersiya bankları və digər maliyyə müəssisələri, o cümlədən maliyyə şirkətləri, qarşılıqlı kredit bankları, əmanət kassaları və s. tərəfindən pul ssudası formasında təqdim edilir. Bank kreditini təyinat müddətindən və alıcıdan asılı olaraq təsnifləşdirmək olar. Müddətliliyinə görə kreditin

Cədvəl 1

Azərbaycanda kredit qoyuluşlarının kredit təşkilatları üzrə strukturu (dövrün sonuna)

İl, Ay	Cəmi kredit qoyuluşları	Dövlət bankları		Özəl banklar						Qeyri-bank kredit təşkilatları	
				Cəmi		o cümlədən, xarici kapitallı banklar		bundan 100%-li xarici kapitallı banklar			
		mln. manat	xüsusi çəkisi, %	mln. manat	xüsusi çəkisi, %	mln. manat	xüsusi çəkisi, %	mln. manat	xüsusi çəkisi, %	mln. manat	xüsusi çəkisi, %
2009	**8407.5**	**3911.7**	**46.5**	**4318.7**	**51.4**	**2074.4**	**24.7**	**386.6**	**4.6**	**177.0**	**2.1**
2010											
1	8431.2	3922.8	46.5	4325.2	51.3	2062.9	24.5	396.5	4.7	183.2	2.2
2	8343.5	3941.8	47.2	4218.5	50.6	2066.6	24.8	408.7	4.9	183.2	2.2
3	8485.2	3923.4	46.2	4378.7	51.6	2088.7	24.6	412.8	4.9	183.2	2.2
4	8605.5	3982.0	46.3	4441.0	51.6	2117.5	24.6	419.4	4.9	182.4	2.1
5	8733.5	4017.4	46.0	4533.6	51.9	2154.2	24.7	435.3	5.0	182.4	2.1
6	8840.7	4046.4	45.8	4611.9	52.2	2184.3	24.7	450.9	5.1	182.4	2.1
7	8656.2	3829.3	44.2	4644.7	53.7	2185.8	25.3	454.0	5.2	182.2	2.1
8	8788.6	3865.8	44.0	4740.6	53.9	2184.6	24.9	462.6	5.3	182.2	2.1
9	8936.6	3930.9	44.0	4823.6	54.0	2219.3	24.8	470.5	5.3	182.2	2.0
10	9065.2	3938.5	43.4	4935.1	54.4	2278.1	25.1	471.4	5.2	191.6	2.1
11	9091.7	3911.3	43.0	4988.9	54.9	2283.3	25.1	466.0	5.1	191.6	2.1
12	9163.4	3901.9	42.6	5069.9	55.3	2306.3	25.2	464.2	5.1	191.6	2.1
2011											
1	9149.8	3921.4	42.9	5019.5	54.9	2303.7	25.2	452.6	4.9	208.9	2.3
2	9152.8	3941.3	43.1	5002.7	54.7	2511.8	27.4	495.2	5.4	208.9	2.3
3	8366.0	3020.6	36.1	5136.6	61.4	2498.9	29.9	507.1	6.1	208.9	2.5
4	8639.6	3071.5	35.6	5349.0	61.9	2558.8	29.6	517.3	6.0	219.1	2.5
5	8750.4	3103.2	35.5	5428.1	62.0	2615.6	29.9	522.3	6.0	219.1	2.5
6	8955.9	3153.9	35.2	5582.9	62.3	2715.6	30.3	531.3	5.9	219.1	2.4
7	9120.2	3170.3	34.8	5708.8	62.6	2753.0	30.2	540.3	5.9	241.0	2.6
8	9528.4	3218.7	33.8	6068.6	63.7	2822.2	29.6	543.6	5.7	241.0	2.5
9	9667.7	3215.6	33.3	6211.0	64.2	2876.5	29.8	557.3	5.8	241.0	2.5
10	9776.2	3270.9	33.5	6253.7	64.0	2900.9	29.7	564.0	5.8	251.5	2.6
11	9852.8	3272.3	33.2	6329.0	64.2	2941.7	29.9	566.2	5.7	251.5	2.6
12	9950.3	3300.0	33.2	6398.8	64.3	3002.0	30.2	586.2	5.9	251.5	2.5
2012											
1	10084.6	3353.4	33.3	6461.3	64.1	3022.4	30.0	576.9	5.7	269.8	2.7
2	10206.9	3396.5	33.3	6540.6	64.1	2941.1	28.8	590.9	5.8	269.8	2.6

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

bölüşdürülməsi çox mühümdür. Qısamüddətli və uzunmüddətli ssudalardan əlavə, kreditin xüsusi müddətli – onkol növü mövcuddur (ing. *money on call* – tələb olunana qədər borc), o, ilk tələbə görə ödənilir. Banklar tərəfindən brokerlərə, diler və müştərilərə çox qısamüddətli ehtiyaclar üçün verilir və bir qayda olaraq, müəssisələrin cari fəaliyyəti üçün aşağıdakılardan istifadə olunur: kommersiya veksellərinin uçotu formasında kreditləşmə; cari ehtiyacların digər kreditləşməsi; idxal-ixrac fəaliyyətinin kreditləşməsi birja möhtəkirliyində istifadə edilir.

Müəssisələrin investisiya fəaliyyəti üçün aşağıdakılardan istifadə edilir: Mərkəzi Bankda yenidən maliyyələşdirilən kredit verilməsi; ortamüddətli kreditlərin təqdim edilməsi; uzunmüddətli kreditlərin təqdim edilməsi. Kreditin bölüşdürülməsi onların alıcılarından asılı olaraq, xüsusi şəxslərin kreditləşməsini, banklararası kreditləri, beynəlxalq kreditləri nəzərdə tutur.

Xüsusi şəxslərin kreditləşməsinin dörd növü olur: a) xüsusi kreditlərin verilməsi; b) istehlak kreditlərinin təklif olunması; c) kredit kartoçkalarının sahiblərinin kreditləşməsi; ç) mənzil tikintisinə kreditlərin verilməsi.

Bank krediti əmtəə-material, qızıl-valyuta qiymətliləri (dəyərliləri) və ya qiymətli kağızlar, borc öhdəlikləri ilə təmin edilir. Kreditor (bank) üçün onlar, verilən kredit və ya ssudanın tam və vaxtında qaytarılmasına girov kimi çıxış edir. Kreditin təmin edilməsinin ən geniş yayılmış forması bank təminatları, əmtəə bölüşdürən sənədlər, mallar, daşınmaz əmlak, nağd depozitlər və veksellərdir (hesablardır). Təminat tələb etməyən banklararası kreditlər və kommersiya bankları tərəfindən "birinci sinif" borclulara təqdim edilən qısamüddətli kreditlər (onlar üzrə "praym-reyt" dərəcəsi – ABŞ-da bütün faiz dərəcələri sisteminin baza elementi hesab edilir) bank krediti hesab olunur. Bank kreditinin təmin edilməsinin xüsusi növü – daşınmaz əmlakın girovudur (torpaq və tikililər). Bu girov altında təqdim edilən uzunmüddətli ssudalar ipoteka krediti adlanır.

Kreditin iki əsas forması – kommersiya və bank krediti – çox zaman qovuşur. İstehlak krediti şəxsi istehlak predmetlərinin əldə olunması üçün əhaliyə verilir. İstehlak krediti zamanı borclular fiziki şəxslərdir, həm kredit müəssisəsinin, həm də başqa müəssisənin kreditor kimi çıxış etmək hüququ var. İstehlak krediti həm pul, həm də əmtəə formasında verilir: əmtəələr (mallar) kreditlə və ya pərakəndə ticarətdə möhlətlə əldə olunur; pul borcları istehlak məqsədilə, vəsaitlərdən istifadə etməklə, bankdan alınır. İstehlak krediti bir dəfəyə ödənilməklə və ya ödənişin uzadılması ilə kredit formasında rəsmiləşdirilə bilər.

Beynəlxalq kredit, dövlət və beynəlxalq iqtisadi təşkilatları arasındakı iqtisadi münasibətləri əhatə edir; o həm kommersiya krediti, həm də bank krediti formasında mövcud olur.

Kreditin xüsusi forması dövlət kreditidir, bu zaman kreditor (borc verən) kimi dövlət və ya yerli hakimiyyət orqanları çıxış edir, kredit isə kredit-maliyyə institutları, o cümlədən Mərkəzi bank vasitəsilə reallaşdırılan dövlət istiqraz formasını alır.

Təcrübədə aşağıdakılar fərqləndirilir: uzunmüddətli bank krediti, qısamüddətli bank krediti, ipoteka krediti, vaxtı keçmiş kredit, birbaşa kredit, ramburs (qaytarılan) krediti, məqsədli kredit.

Kreditor – 1) kredit verən hüquqi və ya fiziki şəxslər; 2) mülki hüquqda öhdəlik üzrə digər tərəfdən – borcludan müəyyən hərəkətləri etməklə, yaxud onları etməkdən çəkinməklə əlaqədar vəzifələrin icrasını tələb etmək hüququna malik olan tərəf. İkitərəfli müqavilələrdə tərəflərin hər ikisi kreditor hesab olunur. Məsələn, alqı-satqı müqaviləsində alıcı-kreditor satıcıdan malın ona verilməsini, satıcı-kreditor isə alıcıdan həmin malın dəyərinin ödənilməsini tələb etmək hüququna malikdir; 3) əsassız əldə edilmiş əmlakı geri tələb etmək hüququna malik olan şəxs.

KREDİT ALMAQ ÜÇÜN AKTİVLƏR GİROVU (ing. *Charge*) – girov qoyanın həmin girov qoyulmuş aktivlərdən daxil olan gəlirlərdən istifadə etmək hüququndan asılı olaraq üzən və sabit girov kimi təsnifləşdirilir. Sabit girovu girov qoyanın girov qoyulmuş aktivlərdən daxil olan gəlirləri toplamaq və sahibkarlıq fəaliyyəti zamanı istifadə etmək üçün öz bank hesabına köçürmək hüququ səciyyələndirir. Girovun ümumi girov dəyərindən – sabitə keçirilməsi (sabitləşdirilməsi) kreditor tərəfindən borcalana bu

cür tədbirin görülməsi üçün müqavilədə göstərilmiş əsasların yaranması barədə bildiriş göndərməklə həyata keçirilir. Girovun sabitləşdirilməsi üçün əsas olan məsələlər həll olunduqdan və vurulmuş ziyana görə cərimələr tətbiq edildikdən sonra kreditor girovun yenidən üzən kateqoriyaya qaytarılması üçün tədbirlər görməlidir. Sabit girov adətən müəyyən aktivlər kompleksinə aid olur və rəsmi reyestrdə (siyahıda) qeydiyyatdan keçir; üzən girov isə vaxtaşırı dəyişikliklərə məruz qalan aktivlərə aiddir (məsələn, nağd pul hesabları, əmtəə ehtiyatları və ya debitor borclar), lakin borcalan tərəfindən öhdəliklər yerinə yetirilmədikdə sabit girova çevrilir.

KREDİT AVİZOSU – vəsaitin hesaba köçürülməsi haqqında məlumat (kreditləşmə).

KREDİT BÜROSU (ing. *Credit Bureau, Credit Reporting Agency*) – borcalanlar və onların öz öhdəliklərini nə dərəcədə yerinə yetirdikləri haqqında məlumatı toplayan və müştəri-təşkilatlara borcalanlar haqqında kredit hesabatlarını təqdim edən təşkilat. Bir qayda olaraq, kredit bürosu dedikdə, əksər ölkələrin qanunvericiliyinə uyğun olaraq qeydiyyatdan keçmiş, kommersiya təşkilatı kimi fəaliyyət göstərən və qanunvericiliyə əsasən kredit tarixlərinin formalaşdırılması, təhlili və saxlanması, o cümlədən kredit hesabatlarının təqdim edilməsi üzrə xidmətlər göstərən hüquqi şəxs başa düşülür.

"KREDİT FONSYE" KREDİTİ (ing. *Credit Foncier loan*) – daimi amortizasiyanı nəzərdə tutan kredit. Müntəzəm, aylıq ödənişlər adətən əsas borcu və faizləri daxil edir. İpoteka kreditlərinin çoxu bu prinsip üzrə qurulub. "Termin Credit Foncier de France Fransa" İpoteka Bankının adından götürülüb.

KREDİT XƏTTİ – razılaşdırılmış limit hədlərində müəyyən dövr ərzində borc alana kredit verilməsi haqqında bu borc alan qarşısında bankın və ya digər kredit təşkilatının hüquqi cəhətdən tərtib edilmiş öhdəliyi.

Açıq kredit xətti və "swinq" (yəni dəyişən) kredit xətti fərqləndirilir. Açıq kredit xətti müəyyən olunmuş limitə qədər istifadə oluna bilər və razılaşdırılmış müddət ərzində bütövlükdə və ya hissə-hissə ödənilə bilər. "Swinq" kredit xətti bir qrupun və ya iki firmanın iki şirkəti tərəfindən mərhələ-mərhələ istifadə oluna bilər.

KREDİT İDARƏLƏRİNƏ VƏTƏNDAŞLARIN QOYDUĞU ƏMANƏT – müəyyən şərtlərlə banklara və digər kredit idarələrinə saxlanmaq üçün fiziki şəxslərin köçürdüyü pul vəsaitləri və ya qiymətli kağızlar. Bu əmanətlər bankların aktiv əməliyyatlarının aparılması üçün cəlb olunmuş (passiv) resursların mühüm hissəsini təşkil edir.

Bu əmanətlər vətəndaşlara sərbəst vəsaitlərin saxlanması, onların yığılması, nağdsız hesablaşmalar üçün istifadə edilməsi və əmanətlərə görə faiz şəklində müəyyən gəlir əldə edilməsi imkanını təmin edir.

KREDİT İNFLYASİYASI – banklar tərəfindən kreditin həddən çox genişlənməsi, yəni həddən artıq kredit artıqlığının doğurduğu inflyasiya.

KREDİT İTTİFAQI – borc, əmanət və istehlak kooperativi; kollektiv demokratiya və üzvlərinə (payçılara) əlverişli ucuz kreditlərin, onların şəxsi qənaəti (yığımı) üçün sabit gəlirlərin təmin edilməsi prinsipləri əsasında, vətəndaşların könüllü birləşməsi kimi yaradılır və fəaliyyət göstərir. Kredit İttifaqı – mənfəətsiz qeyri-maliyyə institutlarıdır, onların devizi: sabitlik, etibarlılıq, qeyri-mənfəətlilikdir. Müasir maliyyə institutları sistemində, kredit ittifaqları ev təsərrüfatlarının maliyyə ehtiyatlarına olan tələbini ödəyir. Kredit İttifaqının üzvləri ümumi mənafeyə malik olan, çox zaman bir-birini yaxında tanıyan peşəkar və ya digər ümumi sosial əlaqələrlə birləşən vətəndaşlardır. Kredit İttifaqının belə fərdi xüsusiyyətləri genetik olaraq onların tarixi sələflərindən bank və sələm kapitalına alternativ kimi, XIX əsrin ortalarında yaradılan kredit kooperativlərindən yaranır. Onun baniləri tərəfindən XIX əsrin sonlarında elan edilən kredit kooperasiyasının demokratik prinsipləri və humanist fəlsəfəsi öz əhəmiyyətini saxlamışdır və xeyli dərəcədə Kredit İttifaqının kütləviliyini təcəssüm etdirir. Hazırda 87 ölkədə 55 mindən artıq kredit ittifaqları fəaliyyət göstərir.

Kredit İttifaqları öz üzvlərinin şəxsi vəsaitlərini pay və əmanət qoyuluşları kimi toplayır (yığır), onlara kifayət qədər geniş maliyyə xidmətləri dəsti təqdim edir. Başlıca xidmət növü – istehlak kreditidir. Kredit ittifaqlarının aktivlərinin strukturunda fərdi kredit üstünlük təşkil edir. Kreditin və kredit ittifaqının

Azərbaycanda kredit qoyuluşlarının sahələr

İl, Ay	Real sektora kredit qoyuluşu															
	Cəmi	o cümlədən:		Ticarət və xidmət sektoru		Energetika, kimya və təbii ehtiyatlar sektoru		Kənd təsərrüfatı və emal		İnşaat və əmlak		Sənaye və istehsal sektoru		Nəqliyyat və rabitə		E təsərrüf
		vaxtı keçmiş kredit	xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə	cəmi
2010																
01	8431,2	331,4	3,9	1842,2	21,9	1519,9	18,0	391,7	4,6	574,2	6,8	529,2	6,3	530,1	6,3	2325,0
02	8343,5	358,4	4,3	1707,7	20,5	1515,5	18,2	392,7	4,7	576,4	6,9	567,3	6,8	497,5	6,0	2331,0
03	8485,2	355,9	4,2	1843,2	21,7	1508,2	17,8	387,2	4,6	562,4	6,6	597,0	7,0	438,8	5,2	2401,9
04	8605,5	365,2	4,2	1874,4	21,8	1509,9	17,5	388,9	4,5	567,6	6,6	601,2	7,0	443,4	5,2	2439,9
05	8733,5	383,6	4,4	1882,3	21,6	1503,3	17,2	395,8	4,5	589,2	6,7	605,7	6,9	445,7	5,1	2482,3
06	8840,7	408,6	4,6	2014,8	22,8	1394,8	15,8	408,2	4,6	604,1	6,8	604,5	6,8	450,2	5,1	2507,8
07	8656,2	400,0	4,6	2029,0	23,4	1073,5	12,4	415,8	4,8	609,6	7,0	620,8	7,2	442,8	5,1	2560,6
08	8788,6	423,7	4,8	2041,2	23,2	1078,0	12,3	415,3	4,7	610,0	6,9	645,7	7,3	441,0	5,0	2620,1
09	8936,6	448,5	5,0	2080,7	23,3	1061,8	11,9	435,2	4,9	623,7	7,0	660,0	7,4	463,0	5,2	2631,2
10	9065,2	454,0	5,0	2183,8	24,1	1036,3	11,4	442,4	4,9	620,6	6,8	662,9	7,3	464,1	5,1	2655,8
11	9091,7	458,1	5,0	2404,5	26,4	996,2	11,0	334,8	3,7	651,2	7,2	572,7	6,3	459,5	5,1	2670,0
12	9163,4	492,9	5,4	2206,8	24,1	984,0	10,7	441,3	4,8	660,6	7,2	682,4	7,4	454,4	5,0	2700,8
2011																
01	9149,8	497,0	5,4	2190,2	23,9	980,3	10,7	448,3	4,9	642,8	7,0	681,3	7,4	451,5	4,9	2720,0
02	9152,8	509,4	5,6	2144,2	23,4	979,7	10,7	439,8	4,8	647,6	7,1	685,8	7,5	448,5	4,9	2748,3
03	8366,0	539,9	6,5	2183,7	26,1	301,2	3,6	432,9	5,2	652,6	7,8	483,3	5,8	448,4	5,4	2760,8
04	8639,6	553,2	6,4	2350,9	27,2	295,3	3,4	432,0	5,0	667,3	7,7	493,5	5,7	455,1	5,3	2833,0
05	8750,4	551,8	6,3	2392,0	27,3	290,2	3,3	428,9	4,9	671,2	7,7	509,4	5,8	464,9	5,3	2872,2
06	8955,9	557,9	6,2	2447,1	27,3	304,5	3,4	434,6	4,9	697,0	7,8	531,0	5,9	464,3	5,2	2945,8
07	9120,2	581,1	6,4	2530,7	27,7	293,9	3,2	442,1	4,8	681,3	7,5	540,1	5,9	447,4	4,9	3012,4
08	9528,4	592,5	6,2	2805,0	29,4	298,8	3,1	451,2	4,7	728,3	7,6	549,4	5,8	421,1	4,4	3090,8
09	9667,7	620,2	6,4	2879,1	29,8	300,5	3,1	466,1	4,8	738,0	7,6	563,5	5,8	385,2	4,0	3146,2
10	9776,2	626,5	6,4	2884,5	29,5	298,4	3,1	484,2	5,0	750,1	7,7	582,9	6,0	385,3	3,9	3212,5
11	9852,8	636,7	6,5	2882,2	29,3	311,7	3,2	485,3	4,9	783,0	7,9	591,4	6,0	381,4	3,9	3250,9
12	9950,3	633,8	6,4	2844,4	28,6	289,7	2,9	466,7	4,7	875,3	8,8	582,9	5,9	409,7	4,1	3315,0
2012																
01	10084,6	643,1	6,4	2892,0	28,7	285,6	2,8	470,1	4,7	892,9	8,9	581,6	5,8	417,2	4,1	3358,5
02	10206,9	648,8	6,4	2910,9	28,5	284,8	2,8	474,9	4,7	874,5	8,6	583,2	5,7	419,4	4,1	3455,9

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

Cədvəl 1

üzrə strukturu, mln. manat (dövrün sonuna)

mln. manat

	Real sektora kredit qoyuluşu															
v atlarına	o cümlədən daşınmaz əmlakın tikintisinə və alınmasına (ipoteka krediti daxil olmaqla)		İctimai təşkilatlara verilmiş kreditlər		Hökumət idarələrinə		Digər sektorlar əməliyyatlar		Akkreditivlər üzrə		Zəmanətlər üzrə əməliyyatlar		Faktorinq əməliyyatları		Overdraft əməliyyatlar	
xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə	cəmi	xüsusi çəkisi, %-lə
27,6	271,1	3,2	1,0	0,0	2,5	0,0	57,9	0,7	288,5	3,4	18,5	0,2	11,5	0,1	7,5	0,1
27,9	289,0	3,5	1,0	0,0	0,9	0,0	57,8	0,7	310,2	3,7	18,5	0,2	1,5	0,0	7,3	0,1
28,3	360,6	4,2	0,8	0,0	0,7	0,0	53,2	0,6	304,3	3,6	18,5	0,2	5,6	0,1	7,5	0,1
28,4	317,7	3,7	1,0	0,0	0,6	0,0	48,7	0,6	332,5	3,9	18,5	0,2	6,6	0,1	7,1	0,1
28,4	324,7	3,7	0,9	0,0	0,6	0,0	49,8	0,6	360,3	4,1	18,8	0,2	6,6	0,1	8,5	0,1
28,4	324,7	3,7	0,9	0,0	0,6	0,0	50,7	0,6	360,6	4,1	18,8	0,2	8,7	0,1	7,5	0,1
29,6	324,7	3,8	0,9	0,0	0,6	0,0	50,2	0,6	392,2	4,5	43,2	0,5	9,9	0,1	7,1	0,1
29,8	359,5	4,1	0,9	0,0	1,2	0,0	53,8	0,6	394,3	4,5	43,3	0,5	9,9	0,1	10,2	0,1
29,4	367,0	4,1	0,9	0,0	1,2	0,0	52,7	0,6	417,8	4,7	42,7	0,5	8,1	0,1	9,1	0,1
29,3	369,5	4,1	0,9	0,0	2,2	0,0	47,9	0,5	424,7	4,7	42,6	0,5	11,4	0,1	15,5	0,2
29,4	405,7	4,5	0,9	0,0	3,8	0,0	47,9	0,5	423,8	4,7	42,9	0,5	7,8	0,1	17,6	0,2
29,5	401,4	4,4	0,7	0,0	1,0	0,0	46,0	0,5	430,8	4,7	44,1	0,5	7,7	0,1	9,9	0,1
29,7	405,7	4,4	0,7	0,0	2,2	0,0	44,5	0,5	434,6	4,7	44,0	0,5	2,8	0,0	9,6	0,1
30,0	423,3	4,6	0,7	0,0	2,0	0,0	43,5	0,5	445,2	4,9	43,8	0,5	2,8	0,0	11,4	0,1
33,0	402,9	4,8	0,8	0,0	1,0	0,0	42,6	0,5	458,5	5,5	43,7	0,5	3,9	0,0	12,6	0,2
32,8	378,8	4,4	1,0	0,0	1,0	0,0	41,1	0,5	457,3	5,3	43,7	0,5	4,4	0,1	11,0	0,1
32,8	383,6	4,4	0,9	0,0	1,0	0,0	42,1	0,5	467,6	5,3	43,9	0,5	5,9	0,1	8,4	0,1
32,9	432,0	4,8	0,9	0,0	2,1	0,0	41,5	0,5	469,0	5,2	43,7	0,5	6,6	0,1	10,0	0,1
33,0	451,9	5,0	0,9	0,0	1,2	0,0	41,9	0,5	486,0	5,3	47,6	0,5	2,7	0,0	10,7	0,1
32,4	449,2	4,7	0,9	0,0	1,0	0,0	44,9	0,5	480,6	5,0	47,6	0,5	7,5	0,1	8,7	0,1
32,5	562,1	5,8	0,9	0,0	1,0	0,0	44,0	0,5	461,8	4,8	48,1	0,5	6,1	0,1	6,8	0,1
32,9	556,8	5,7	0,9	0,0	1,1	0,0	46,4	0,5	447,9	4,6	48,1	0,5	1,1	0,0	6,3	0,1
33,0	561,6	5,7	0,9	0,0	1,2	0,0	45,4	0,5	421,7	4,3	48,1	0,5	5,5	0,1	7,3	0,1
33,3	575,8	5,8	1,0	0,0	1,0	0,0	46,8	0,5	419,9	4,2	49,1	0,5	2,8	0,0	12,2	0,1
33,3	586,4	5,8	1,0	0,0	1,3	0,0	50,5	0,5	432,3	4,3	48,8	0,5	0,5	0,0	9,1	0,1
33,9	595,0	5,8	1,1	0,0	1,0	0,0	47,8	0,5	447,2	4,4	48,8	0,5	0,2	0,0	8,4	0,1

Cədvəl 2

Azərbaycan Respublikasının Mərkəzi Bankının Mərkəzləşdirilmiş Kredit Reyestrinin əsas göstəriciləri

Tarix	Sorğuların sayı			Dövrün sonuna:					
	Cəmi	Banklar tərəfindən	Şəxslər tərəfindən	Cəmi borc-alanların sayı*	Hüquqi şəxslərin sayı	Fiziki şəxslərin sayı	Sahibkarlıq sub-yektlərinin sayı	Zamin şəxs-lərlərin sayı	Kredit məlumat-larının sayı**
2010									
01	9444	9429	15	723891	6868	708010	9013	275420	1358624
02	12002	11989	13	743508	6809	727519	9180	287446	1414724
03	11206	11156	50	760616	6919	743748	9949	313200	1430570
04	19669	19643	26	780218	6971	763132	10115	325276	1478003
05	20940	20913	27	801104	7039	783782	10283	337354	1525430
06	21369	21349	20	819483	7113	801920	10450	349438	1572870
07	24366	24356	10	842046	7176	824255	10615	361511	1620278
08	26774	26743	31	858727	7241	840704	10782	373586	1665736
09	26335	26310	25	884970	7281	867181	10508	387818	1743647
10	26726	26701	25	903591	7345	885568	10678	399897	1790080
11	27208	27184	24	924206	7410	905950	10846	411976	1838513
12	31006	30974	32	962546	7510	943671	11065	434593	1883260
2011									
01	28739	28697	42	978294	7612	959300	11382	446178	1925780
02	33622	33596	54	996496	7724	977101	11671	456964	1962845
03	33029	32960	69	1023215	7801	1003568	11846	471197	2024935
04	45156	45047	109	1044161	7926	1024193	12042	491341	2064521
05	46598	46498	100	1065062	7969	1044904	12189	500695	2106244
06	48131	47910	221	1087971	8051	1067518	12402	522291	2148954
07	45468	45322	146	1109952	8056	1089464	12432	522739	2229794
08* **	40135	39976	159	1049821	8079	1030259	11483	343735	2424495
09	47039	46847	192	1100715	8196	1081012	11507	364645	2570339
10	45411	45243	168	1116550	8305	1096728	11517	373067	2664628
11	41582	41458	124	1142119	8359	1121986	11774	383447	2743704
12	48116	48006	110	1179711	8415	1158361	12935	411688	2890334
2012									
01	43804	43702	102	1201258	8446	1172812	13148	424662	2952422
02	51562	51447	115	1213846	8469	1192202	13175	432978	3004463

*Cari borcu olmayan, lakin haqqında tarixi məlumatlar saxlanılan borcalanlar da daxildir

**Tam ödənilmiş kreditlər də daxildir

***2011-ci ilin avqust ayından etibarən fiziki şəxslərə vahid eyniləşdirmə kodu tətbiq edilməsi səbəbindən şəxslərin sayı dəqiqləşdirilmişdir

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

digər xidmətlərinin nisbi ucuzluğu, həmçinin, hətta inkişaf etmiş bank sistemi və digər maliyyə vasitəçiləri olan ölkələrdə, onların cəlbediciliyinin səbəbidir (ABŞ-da kredit ittifaqlarının 150 mln. nəfərdən artıq üzvü var; Kanadanın Kvebek şəhərində 7 mln. əhalidən 5 mln. nəfəri "Xalq kassaları"nın üzvüdür; İrlandiyada əhalinin 25%-i kredit ittifaqlarının üzvüdür). Bununla belə, kredit ittifaqlarının aktivlərinin ümumi həcmi nisbətən aşağıdır. Məsələn, ABŞ-da o, banklar da daxil olmaqla, bütün maliyyə vasitəçilərinin aktivlərinin cəminin 2%-dən bir qədər çoxdur. Buna baxmayaraq, Kredit İttifaqları inkişaf etmiş ölkələrin iqtisadiyyatında əhəmiyyətli rol oynayır, öz üzərinə ev təsərrüfatlarına xidmət göstərən maliyyə infrastrukturu funksiyasını götürərək, onlar əmtəə və xidmətlərin istehlak bazarının inkişafını stimullaşdırır və bütövlükdə iqtisadiyyata sabitləşdirici təsir göstərir. Kredit İttifaqının populyarlığı (kütləviliyi) onların beynəlxalq və milli assosiasiyalarının fəallığı ilə, xüsusilə Ümumdünya Kredit İttifaqları Şurasının (WOCCU) təbliğatı və müvəkkillərin fəaliyyəti ilə dəstəklənir. İkinci Dünya müharibəsindən az sonra yaradılmış WOCCU Kredit İttifaqlarının hərəkatını birləşdirir və möhkəmləndirir, hərəkatın humanist fəlsəfəsinə xüsusi diqqət yetirir.

Azərbaycanda kredit ittifaqlarının fəaliyyəti "Kredit ittifaqları haqqında" qanunla tənzimlənir.

KREDİT KARTI – kredit kartı sahibinin müvafiq idarədə hesabının mövcudluğunu təsdiq edən, bank və ya digər ixtisaslaşdırılmış kredit (ticarət) idarəsi tərəfindən buraxılan, nağd pulla ödənişsiz, pərakəndə ticarət şəbəkəsində malların alınması və xidmətlərin göstərilməsini əldə etmək hüququ verən pul sənədi.

KREDİT KEYFİYYƏTİNİN QORUNMASININ (KKQ) ETALON VAHİDİ (ing. *CE Bench) – KKQ-nin Etalonu mənfi ssenarinin (AAA ssenarisinin*) baş verdiyi halda etalon krediti üzrə gözlənilən itkilər kimi qiymətləndirilə bilər və müvafiq olaraq, müəyyən kreditin AAA səviyyəsinin kredit dəstəyi və ya KKQ-nin AAA MİLAN-ı bu cür (AAA) ssenarinin baş verəcəyi halda kredit və ya portfel üzrə gözlənilən itkilər kimi təhlil edilə bilər. Hər hansı gözlənilən itkilərə gəldikdə isə, etalon portfelinin kredit dəstəyi (KKQ-nin Etalonu) iki tərkib hissəyə bölünə bilər: a) ödənişlərin baş verməsi tezliyi və b) itkilərin həcmi. MİLAN modelində hər iki faktor əsasən müəyyən kreditin LTV əmsalından (kreditin məbləğinin girovun məbləğinə nisbətinin faiz ifadəsi) asılıdır. İtkilərin həcmi həmçinin kreditin təminatı kimi girov qoyulmuş daşınmaz əmlaka dair tələbləri irəli sürmək hüquqlarının ardıcıllığından və eyni zamanda stress vəziyyətlərdə mənzilin qiymətinin aşağı düşməsi normasından, girov qoyulmuş əmlaka dair cərimələrin tətbiq edilməsi ilə bağlı olan xərclərdən, qaytarılmamış kredit məbləğinə hesablanmış faizlərin böyüklüyündən və daha prioritetli tələbetmə hüquqlarının mövcudluğundan asılıdır.

KREDİT KOOPERASİYASI – pul kreditinə tələbatların ödənilməsi üçün xırda əmtəə istehsalçılarının və ya adi vətəndaşların birliyi. Kredit kooperasiyasının vəsaitləri pay və üzvlük haqlarından, eləcə də bu kooperativdə müəyyən olunan borclara görə tutulan faizlərdən formalaşır. Kredit kooperasiyası həmçinin bankların kreditlərindən istifadə edə bilər, dövlətdən subsidiya, xeyriyyəçilərdən təmənnasız məbləğ ala bilər və s. Kredit kooperasiyasında borc və əmanət kooperativləri, sığorta cəmiyyətləri və şirkətləri fərqləndirilir. İnqilabdan əvvəlki Rusiyada kooperasiyanın bu növü 1931-ci ilə qədər mövcud olmuşdur. Sonradan yalnız müəssisələrdə qarşılıqlı yardım kassaları formasında fəaliyyət göstərmişdir.

KREDİT QABİLİYYƏTİ – iqtisadi agentin (çox zaman müəssisənin) maliyyə vəziyyətinin xarakteristikası; borc ala bilmək qabiliyyəti, imkanları; iqtisadi agentin borc götürülən vəsaitlərlə zərərsiz yüklənməsini "qəbul etmək" və nəzərdə tutulan müddətdə hesablaşmaq qabiliyyəti; kredit almaq üçün zəminin mövcudluğu, onu qaytarmaq qabiliyyətidir.

Kredit qabiliyyəti borc alanı səciyyələndirən göstəricilərlə: əvvəllər alınmış krediti hesablayarkən onun səliqəliliyi, cari maliyyə vəziyyəti və dəyişkən perspektivi ilə, lazım olanda müxtəlif mənbələrdən pul vəsaitlərinin toplanması kimi əlamətlərlə xarakterizə edilir. Kredit qabiliyyəti təhlilinin əsas

mahiyyəti müəssisənin müxtəlif reallaşma müddətinə malik olan, hansı aktivlərlə və hansı müddətə (əgər onun maliyyəsinin strukturu dəyişməzsə) götürülən öhdəliklərlə hesablaşacağına imkan verən normalar sisteminin hesablanmasından ibarətdir. Bu sistem üç normanı özündə əks etdirir: a) pul ehtiyatları norması göstərir ki, qısamüddətli öhdəliyin hansı hissəsini müəssisə tez bir zamanda ödəyə bilər; b) likvidlik norması debitorlarla hesablaşmaların vaxtında razılaşdırılmış şərtləri ilə qısamüddətli kredit və kredit öhdəlikləri üzrə, müəssisənin tədiyə imkanlarını xarakterizə edir; c) "ödəmə" norması nəinki tez reallaşdırılan aktivlərin, həm də maddi dövriyyə vəsaitlərinin reallaşması hesabına daha müddətli öhdəliklərin yerinə yetirilməsi üçün müəssisənin imkanlarını xarakterizə edir.

KREDİT QABİLİYYƏTLİLİYİNİN YOXLANMASI – təyin edilən müddətdə kreditin ödənilmə ehtimalının və imkanlarının qiymətləndirilməsi; müştəriyə kredit təşkilatı tərəfindən kredit verilməsinin əsas şərti.

Müştərinin kredit qabiliyyətliliyinin yoxlanması üçün müxtəlif üsullardan istifadə edilir: borcalanla şəxsi söhbət, onun barəsində məlumatın toplanması, onun müəssisəsinə baş çəkmək, maliyyə vəziyyəti və planları barədə məlumatın toplanması, illik hesabatı təhlil etmək və şəxsi keyfiyyətlərin (nüfuzu, ailə vəziyyəti, ixtisas səviyyəsi və s.) öyrənilməsi.

Artıq formalaşmış banklarda kreditin və hesabdakı qalıqların orta məbləğinin kartotekası aparılır. Bu, kartlardan ibarət kartoteka, yaxud banklarda hər bir müştəriyə müəyyən dövr, məsələn, 5 il ərzində verilən gündəlik, yaxud aylıq ssudaların, depozitlərin əks olunması üçün mütəmadi qeydlər aparılan kitabdır.

KREDİT MÜQAVİLƏSİNİN FƏALİYYƏT MÜDDƏTİ – veksel müddətidir ki, bu müddət ərzində sənəd, müqavilə, saziş, qiymətli kağız öz qüvvəsini saxlayır.

KREDİT NOTU – ödənişləri, müəyyən kredit hadisəsinin baş verməsindən və ya hər hansı şəxsin və ya aktivlər toplusunun kredit göstəricisinin dəyişməsindən asılı olan qiymətli kağız. Məsələn, kredit notları üzrə ödənişlər, ipoteka kreditlərinin həmin toplusunu zərərlərin səviyyəsindən elə asılı vəziyyətə qoyula bilər ki, o, müəyyən həddən aşağı olsun. Bu cür topluya daxil olan aktivlər oriqinatorun və ya aktiv mülkiyyətçilərinin balansında olduğundan, orqinator və ya mülkiyyətçi kredit notlarını belə aktivlər üzrə zərərlərdən zəmanət kimi qəbul edə bilər.

KREDİT PULLARI – bazar iqtisadiyyatının inkişafı şəraitində alqı-satqı əqdləri ödənişin təxirə salınması şərti ilə, yəni kreditlə icra edildiyi halda yaranan pullar.

Bu cür pullar pulun tədiyə vasitəsi kimi fəaliyyəti zamanı, yəni pul konkret reqlamentləşdirilmiş müddətdən sonra həqiqi pul ilə ödənilən öhdəlik olduğu şəraitdə yaranır. Bu pulların iqtisadi baxımdan əsas əhəmiyyəti aşağıdakılardır: pul dövriyyəsinin elastikliyinin artması, nağd pula tələbatın tam həcmdə kompensasiya edilə bilməsi; həqiqi pullara qənaət edilməsi; nağdsız dövriyyənin inkişafı.

Bazar münasibətlərinin inkişafı prosesində kredit pullarının mahiyyəti də dəyişir. Müasir şəraitdə, kapitalın hakim mövqe tutduğu bir vaxtda kredit pulları, əvvəllər olduğu kimi, əmtəələr arasında qarşılıqlı asılılığı deyil, pul kapitalının nisbətini ifadə edir.

Kredit pullarının inkişafı aşağıdakı ardıcıllıqla baş vermişdir:

veksel – təsərrüfat subyektinin digər subyekt qarşısında borc öhdəliyi;

akseptləşdirilmiş veksel – bir iqtisadi subyektin digəri qarşısında təsdiqlənmiş şərtsiz borc öhdəliyi;

banknot – bankın, daha sonra dövlətin kredit kağız pulları, borc öhdəlikləri. Qızıl standart ləğv edilənə qədər bu öhdəliklər qızıl ilə sərbəst mübadilə edilirdi;

çek – qiymətli borc kağızı, tədiyəçinin sənəddə göstərilən pul məbləğini nağd şəkildə vermək və ya alanın hesabına köçürmək barədə tapşırığı;

elektron pullar – internet qlobal kompüter şəbəkəsində tətbiq edilən kredit pullarının bir növü;

kredit kartları – kartın sahibi ilə ona xidmət edən bank arasında kommersiya bank əqdinin şərtləri daxilində müqavilə bağlanmasını nəzərdə tutan tədiyə vasitəsi.

KREDİT REYTİNQİ – fərdin müəssisə, region və ya ölkənin kredit qabiliyyəti ölçüsü. Kredit reytinqi adları göstərilən bazar iştirakçılarının keçmiş və cari maliyyə tarixinin, həmçinin, onların mülkiyyətinin və üzərinə

götürdükləri maliyyə öhdəliklərinin (borcların) həcminin qiymətləndirilməsi əsasında hesablanır. Belə qiymətləndirmənin əsas təyinatı potensial kreditorları (əmanətçiləri) maliyyə öhdəliklərinin vaxtında ödənilməsi ehtimalı barədə məlumatlandırmaqdan ibarətdir. Son vaxtlar kredit reytinqlərinin tətbiq dairəsi genişlənmişdir. Onlardan sığorta haqlarının yeni ölçülərinin tətbiqində, icarə girovlarının müəyyən edilməsində, işə qəbul zamanı yeni namizədlərin keyfiyyət dərəcəsinin müəyyən edilməsində istifadə olunur.

Kredit reytinqləri nisbidir. Odur ki, bu reytinqlərin hesablanması zamanı bu və ya digər ölkənin, müəssisənin, sənaye sahəsinin spesifikasının nəzərə alınması vacibdir. Yüksək olmayan kredit reytinqləri, əlbəttə ki, arzuolunmazdır və defolt ehtimalının yüksək olmasından xəbər verir.

Reytinq agentliyi emitentlərin tədiyə qabiliyyəti, borc öhdəlikləri, korporativ idarəetmənin və aktivlərin idarə olunmasının keyfiyyətinin qiymətləndirilməsi ilə məşğul olan kommersiya təşkilatıdır. Reytinq agentliklərinin ən çox məlum olan məhsulu tədiyə qabiliyyətinin, yəni kredit reytinqinin qiymətləndirilməsidir. Bu reytinq borc öhdəliyi üzrə ödənişin həyata keçirilməməsi riskini əks etdirir və həmin öhdəliklərin faiz dərəcəsinin səviyyəsinə, qiymətinə və gəlirliyinə təsir edir. Bu zaman daha yüksək reytinq ödəməmə riskinin daha aşağı olmasından xəbər verir.

2008-ci il dünya böhranı zamanı ənənəvi reytinq agentlikləri emitentlərə və defolt səviyyəli qiymətli kağızlara yüksək reytinq verməklə özlərinin kompetent olmadıqlarını sübut etdilər. Nəticədə, ABŞ-da investisiya qərarlarının qəbul edilməsi zamanı reytinqlərdən asılılığın aşağı salınması üçün qanunvericiliyə dəyişikliklər etməyə başladılar. 2011-ci ildə investorların sifarişi üzrə reytinqləri müəyyən edən Muros Ratings adlı alternativ reytinq agentliyi fəaliyyətə başladı.

Ən məşhur reytinq agentlikləri

Dünyada 100-dən çox reytinq agentliyi vardır. Onlardan daha məşhur olan beynəlxalq reytinq agentlikləri bunlardır:

– "Fitch Ratings"
– "Moody's & Poors"
– "Morningstar"
– "Feri"

Fitch Ratings – əsasən reytinq agentliyi kimi tanınan beynəlxalq korporasiyadır. Onun əsas vəzifəsi dünya kredit bazarını kredit qabiliyyətinin qiymətləndirilməsi perspektivinə istiqamətlənmiş müstəqil, analitik tədqiqatlar və məlumatlarla təmin etməkdir.

Kredit reytinqi şkalası

AAA – ən yüksək kredit qabiliyyəti səviyyəsi;
AA – çox yüksək kredit qabiliyyəti səviyyəsi;
A – yüksək kredit qabiliyyəti səviyyəsi;
BBB – kafi kredit qabiliyyəti səviyyəsi;
BB – kafi səviyyədən aşağı kredit qabiliyyəti;
B – əhəmiyyətli dərəcədə kredit qabiliyyəti səviyyəsi;
CCC – defolt mümkündür;
CC – defoltun yüksək ehtimalı;
C – defolt qaçılmazdır;
D – defolt (bax: cədvəl 1).

"Moody's" – "Moody's Investors Service" Beynəlxalq reytinq agentliyi. Moody's – "Moody's Corporation"un törəmə müəssisədir. Kredit reytinqlərinin müəyyən edilməsi, risklərin tədqiqi və təhlili ilə məşğul olur. Agentlikdə dünyanın 26 ölkəsindən 4500-dən çox ekspert fəaliyyət göstərir.

Korporativ emitentlərin uzunmüddətli borc öhdəlikləri

Uzunmüddətli öhdəliklərin "Moody's" agentliyi tərəfindən müəyyən edilən reytinqi ilkin olaraq 1 il və daha çox müddətdə ödənməli olan fiksə edilmiş gəlirli borc öhdəliklərinin nisbi kredit riski barədə fikirləri ifadə edir. Onlar hər hansı bir maliyyə öhdəliyinin vəd edildiyi kimi ödənə bilməməsinin mümkünlüyünü əks etdirir. Belə reytinqlər qlobal (beynəlxalq) "Moody's" şkalası üzrə müəyyən edilir və defolt və ya bu zaman ola biləcək hər hansı maliyyə itkilərinin ehtimalını əks etdirir (bax: cədvəl 2).

Qeyd: AA-dan CCC-dək hər bir ümumi reytinq kateqoriyasına "Moody's" agentliyi tərəfindən 1, 2 və 3 rəqəmli modifikatorları əlavə edilir. 1 Modifikatoru verilən öhdəlik ümumi reytinq kateqoriyasının yuxarı hissəsində yerləşir. 2 Modifikatoru deapazonun orta hissəsini ifadə edir. 3 Modifikatoru isə öhdəliyin ümumi reytinq kateqoriyasının aşağı hissəsində yerləşməsindən xəbər verir.

Bankların maliyyə dayanıqlığı reytinqləri

"Moody's" agentliyi tərəfindən müəyyən edilən bankların maliyyə dayanıqlığı reytinqləri (BFSRs) bu agentliyin bankla-

Cədvəl 1

Kredit reytinqi şkalası

Mahiyyəti
Aaa reytinqli borc öhdəlikləri minimal kredit riskinə malik ən yüksək keyfiyyətli öhdəliklər hesab olunur.
Aa reytinqli borc öhdəlikləri çox aşağı səviyyəli kredit riskinə malik yüksək keyfiyyətli öhdəliklər hesab olunur.
A reytinqli borc öhdəlikləri yüksəldilmiş orta kateqoriyalı öhdəliklər kimi nəzərdən keçirilir və aşağı səviyyəli kredit riskinə malikdir.
Baa reytinqli borc öhdəlikləri mülayim kredit riskinə məruz qalır. Onlar orta kateqoriyalı öhdəlikləri kimi nəzərdən keçirilir və müəyyən spekulyativ xarakterə malik ola bilir.
Ba reytinqli borc öhdəlikləri spekulyativ alətlər üçün xarakterik xüsusiyyətlər kəsb edir və əhəmiyyətli dərəcədə kredit riskinə malikdir.
B reytinqli borc öhdəlikləri spekulyativ olaraq nəzərdən keçirilir və yüksək kredit riskinə malikdir.
CCC reytinqli borc öhdəlikləri çox aşağı keyfiyyətli öhdəliklər hesab edilir. Çox yüksək kredit riskinə malikdir.
CC reytinqli borc öhdəlikləri yüksək spekulyativliyə malik olmaqla, çox güman ki, ya defolt, ya da defolta yaxın bir vəziyyətdədir. Bu zaman borcun əsas məbləğinin və ona görə faizlərin ödənəcəyinin müəyyən ehtimalı vardır.
C reytinqli borc öhdəliyi ən aşağı reytinqli istiqrazlar sinfinə aiddir və adətən defolt vəziyyətindədir. Bu zaman borcun əsas məbləği və belə istiqrazlar üzrə faizlərin ödənilməsi ehtimalı çox kiçikdir.

rın daxili dayanıqlığı və etibarlığı barədə fikrini ifadə edir və bir sıra xarici kredit risklərini və bank depozitlərinə reytinqlərin tətbiq edilməsi zamanı nəzərə alınan kredit dəstəyinin elementlərini istisna edir. Bankların maliyyə dayanıqlığı reytinqləri "Moody's" agentliyi tərəfindən yalnız kommersiya banklarına deyil, maliyyə institutlarının beynəlxalq inkişaf bankları, hökumət tərəfindən sponsorluq edilən maliyyə institutları kimi digər növlərinə də tətbiq edilir (bax: cədvəl 2).

Qeyd: Bəzi bankların aralıq kateqoriyaya düşməsini göstərmək üçün "A" kateqoriyasından aşağı olduğu halda "+" modifikatoru, "E" kateqoriyasından yüksək olduğu halda isə "–" modifikatoru əlavə edilir.

"Standard & Poor's" (S&S) – "McGraw-Hill" korporasiyası - nın maliyyə bazarının analitik tətbiqi ilə məşğul olan törəmə şirkətdir. Bu, ən nüfuzlu beynəlxalq reytinq agentliyindən biridir. S&P 500 (Amerika) və S&P 200 (Avstraliya) fond indeksinin yaradıcısı və redaktoru kimi tanınır.

Beynəlxalq şkala üzrə reytinqlər

"Standard & Poor's"un beynəlxalq kredit reytinqi şkalası qlobal (beynəlxalq) maliyyə bazarları iştirakçılarının tələbatlarının ödənilməsinə xidmət edir. Bu şkala üzrə qiymətləndirmə müxtəlif ölkələrin emitentlərinin etibarlılığı və öhdəliklərini müqayisə etməyə imkan verir.

Uzunmüddətli kredit reytinqi

Uzunmüddətli reytinqlər emitentin öz borc öhdəliklərini vaxtlı-vaxtında icra etmək qabiliyyətini qiymətləndirir. Kompaniya tərəfindən verilən reytinq qiyməti hərflərlə işarə olunur. Xüsusi etibar qazanmış emitentlərə AAA qiymətindən başlamış, defolt elan edən emitentə D qiymətinədək verilir. AA və B arasında aralıq qiymətlərdən istifadə oluna bilər. Belə qiymətlər plyus və minus ilə işarə olunur (məsələn, BBB+, BBB və BBB–).

AAA – emitent borc öhdəliklərinə faizlərin və borcun özünün ödənilməsi üzrə xüsusilə yüksək imkanlara malikdir.

AA – emitent borc öhdəliklərinə faizlərin və borcun özünün ödənilməsi üzrə çox yüksək imkanlara malikdir.

A – emitentin faizlərin və borcun ödənilməsi imkanları yüksək qiymətləndirilir, lakin iqtisadi şəraitdən asılıdır.

Cədvəl 2

Kredit reytinqi

Mahiyyəti
A reytinqinə malik olan banklar ən yüksək səviyyədə müstəqil maliyyə dayanıqlığına malikdir. Bu reytinqə, adətən, maksimal dərəcədə yüksək qiymətləndirilən və möhkəm bazar mövqeyinə, güclü maliyyə göstəricilərinə malik təşkilatlar layiq görülür. Onlar tamamilə əvvəldən məlum və stabil əməliyyat mühitində fəaliyyət göstərir.
B reytinqinə malik olan banklar yüksək səviyyədə müstəqil maliyyə dayanıqlığına malikdir. Bu reytinqə, adətən, yüksək qiymətləndirilən və möhkəm bazar mövqeyinə, yaxşı maliyyə göstəricilərinə malik təşkilatlar layiq görülür. Onlar əvvəldən məlum və stabil əməliyyat mühitində fəaliyyət göstərirlər.
C reytinqinə malik olan banklar kifayət qədər maliyyə dayanıqlığına malikdir. Bu reytinqə adətən kifayət qədər məhdud, lakin bununla belə yaxşı bazar mövqeyinə malik təşkilatlar layiq görülür. Bu banklar ya əvvəldən məlum stabil əməliyyat mühitində fəaliyyət göstərməklə kafi maliyyə göstəricilərini və ya daha az məlum və stabil əməliyyat mühitində fəaliyyət göstərməklə yaxşı maliyyə göstəricilərini nümayiş etdirir.
D reytinqinə malik banklar məhdud dərəcədə müstəqil maliyyə dayanıqlığı nümayiş etdirir və vaxtaşırı kənardan dəstək zərurətini hiss edirlər. Bu təşkilatların reytinqləri zəif bazar mövqeyi bir və ya bir neçə aspekt üzrə maliyyə göstəricilərinin kafi olmaması, onların fəaliyyət göstərdikləri qeyri-müəyyən və qeyri stabil əməliyyat mühiti kimi bir və ya bir neçə faktorla məhdudlaşa bilər.
E reytinqinə malik banklar kifayət qədər müstəqil maliyyə dayanıqlığı nümayiş etdirir və vaxtaşırı olaraq kənardan maliyyə dəstəyi almaları ehtimalı yüksəkdir. Və ya belə bir dəstək zəruridir. Bu təşkilatların reytinqləri zəif və məhdud bazar mövqeyi, bir və ya bir neçə aspekt üzrə maliyyə göstəricilərini əhəmiyyətli dərəcədə yetərli olmaması, onların fəaliyyət göstərdikləri fövqəladə dərəcədə qeyri-müəyyən və ya qeyri-stabil əməliyyat mühiti kimi bir və ya bir neçə faktorla məhdudlaşa bilər.

BBB – emitentin tədiyə qabiliyyəti kafi hesab olunur.

BB – emitent tədiyə qabiliyyətinə malikdir, lakin əlverişsiz iqtisadi şərait ödəniş imkanlarına mənfi təsir göstərə bilər.

B – emitent tədiyə qabiliyyətinə malikdir, lakin əlverişsiz iqtisadi şərait, çox güman ki, onun borc üzrə ödənişləri həyata keçirmə imkanı və hazırlığına mənfi təsir göstərir.

CCC – emitent borc öhdəlikləri üzrə ödənişdə çətinlik çəkir və onun imkanları əlverişli iqtisadi şəraitdən asılıdır.

CC – emitent borc öhdəlikləri üzrə ciddi çətinliklərə malikdir.

C – emitent borc öhdəlikləri üzrə ciddi çətinliklərə malikdir, ola bilər ki, müflisləşmə proseduru süni şəkildə yaradılmışdır. Lakin borc öhdəlikləri üzrə ödənişlər hələ də həyata keçirilir.

SD – emitent bəzi öhdəliklər üzrə ödənişlərdən imtina etmişdir. Defolt elan olunmuşdur və S&P güman edir ki, emitent bütün öhdəliklər və ya onların böyük hissəsi üzrə ödənişlərdən imtina edəcək.


NR – reytinq verilməmişdir.

KREDİT RİSKİ – malın kreditlə satışı, kredit verilməsi zamanı yaranan risk; borcalanın kreditora çatası əsas borcu və faizləri ödəməməsi riski. Kredit riski istər alıcının təqsiri üzündən, habelə siyasi səbəblərə görə tədiyənin vaxtının keçməsinə aiddir. Yeni bazarlara çıxışla əlaqədar olan və istehsal xərclərinin proqnozlaşdırıla bilməyən artımı və valyuta məzənnəsinin dəyişməsi nəticəsində yaranan risklər (xüsusi) kredit risklərinə aiddir. Kreditləri risklərdən qorumaq üçün onlar limitləşdirilir, kredit qoyuluşları şaxələndirilir, borcalanın tədiyə qabiliyyəti öyrənilir (bax: sxem 1).

KREDİT RİSKİNDƏN MÜDAFİƏ – sığorta risklərindən müdafiə tədbirlərinə aiddir: 1) ixtisaslaşdırılmış sığorta şirkətlərində kreditlərin və depozitlərin sığortalanması; 2) firma tərəfindən xüsusi sığorta fondunun yaradılması.

KREDİT SAZİŞİ – kreditor ilə borcalan arasında kredit müna-

Kredit risklərinin təsnifatı



Sxem 1

sibətlərinin subyektlərinin vəzifələri və bu münasibətlərin həcmini müəyyən edən müqavilə. Adətən bu sazişdə kreditin məbləği və valyutası, ondan istifadə edilməsi qaydası, kreditin ödənilməsinin vaxtı və forması, faiz dərəcəsi təsbit edilir.

KREDİT SƏVİYYƏSİNDƏ MODEL (ing. *Loan-by-loan model*) – konkret kreditin hər bir ölkənin özünə məxsus etalon krediti ilə müqayisə edilərək aktivlərin qiymətləndirilməsi modeli. Bu modelin daxili parametrlərinə hər bir kreditin xüsusiyyətləri aiddir, bütün statistik göstəricilər isə modelin tətbiqi nəticələridir. Məsələn, "Moody's" reytinq agentliyi tərəfindən hazırlanmış fərdi kreditin təhlili modelində (Moody's Individual Loan Analysis – MILAN) kredit portfelindən hər bir



Sxem 1

kredit onun məbləğinin girov dəyərinə nisbəti və digər müəyyən olunmuş risk faktorları kimi fərdi xüsusiyyətlər əsasında təhlil edilir və nəticədə, ipoteka kreditləri portfelinə AAA reytinqinin verilməsi üçün tələb olunan kredit keyfiyyətinin qorunmasının (KKQ) etalon vahidi hesablanır.

KREDİT SIĞORTASI – ölümdən sığortalanmanın bir növü. Bu zaman bank kredit verdikdə borcalan şəxsləri sığortalayır. Sığorta məbləğindən ölmüş borcalanın borcu ödənilir. Kredit sığortası – kredit münasibətləri zamanı kreditor şəxsi borc vəsaitinin ödənilməməsi riskindən və ya kredit vəsaitinin real dəyərinin dəyərsizləşməsi riskindən sığortalayan sığorta növüdür. Kredit sığortasının obyekti kimi əsasən kommersiya kreditləri, banklar tərəfindən verilən ticarət kreditləri, uzunmüddətli investisiya layihələrinə yönəldilən kreditlər çıxış edir. Bunlarla yanaşı, kredit sığortası zamanı sığorta şirkəti kreditor subyekti borc alan şəxsin ölümü nəticəsində yaranmış kredit riskindən sığortalaya bilər.

KREDİT TƏŞKİLATI – qanunvericiliklə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasında bank fəaliyyəti göstərmiş, yaxud göstərən hüquqi şəxs.

KREDİT TƏŞKİLATLARI TƏRƏFİNDƏN BAŞQA HÜQUQİ ŞƏXSLƏRİN PAYLARININ (SƏHMLƏRİNİN) ALINMASI ÜÇÜN XÜSUSİ VƏSAİTLƏRDƏN İSTİFADƏ EDİLMƏSİ NORMATİVİ (N12) – kommersiya bankları üçün Mərkəzi Bank tərəfindən təsdiq edilən normativ. Kredit təşkilatının investisiya qoyulan vəsaitlərinin və xüsusi vəsaitlərinin faiz nisbəti formasında müəyyən edilir. 1 yanvar 1997-ci il üçün N12-nin yol verilən maksimal qiyməti 25%-dir.

KREDİT TƏŞKİLATLARININ LİKVİDLİYİ – kredit təşkilatlarının öz öhdəliklərinin vaxtında yerinə yetirilməsinin təmin edilmə qabiliyyəti. Öhdəliklərin təmin edilməsinə kredit təşkilatlarının ixtiyarında olan nağd pul vəsaitlərinin hesabına, eləcə də aktivlərin satışının, yaxud digər mənbələrin resurslarının səfərbərliyə alınmasının – banklararası ssudaların və ya Mərkəzi bankın sabitləşdirmə kreditlərinin alınmasının köməyilə nail olmaq olar. Kredit təşkilatı likvidliyin lazımi səviyyəsini daim saxlamalıdır, əks halda, onun tədiyə qabiliyyəti şübhə altına alınacaqdır. Likvidlik səviyyəsi kredit təşkilatının aktiv və passiv əməliyyatlarının riskləri ilə sıx bağlıdır. Aktiv əməliyyatların riski, yəni ödənilməyən əsas borc və faiz kimi itki imkanı çox vaxt o zaman yaranır ki, banklar sövdələşməni kifayət qədər öyrənmədən, etibarlı girov təminatı almadan kreditlər verirlər. Qeyri-tədiyə riski həm də uzunmüddətli kreditləşmə zamanı artа bilər – borclunun maliyyə uğuru bir neçə ildən sonra onun iflası ilə nəticələnə bilər. Passiv əməliyyatların riski aktiv əməliyyatların təmin edilməsi üçün resursların axtarışı zamanı çətinliklərdə ifadə olunur. Müəyyənedici əmanətçinin və ya vahid kreditorun riski geniş yayılmışdır. Bir hüquqi (və ya fiziki) şəxsdən kredit təşkilatı tərəfindən pul vəsaitlərinin böyük bir hissəsinin cəlb edilməsi həmin kredit təşkilatı üçün təhlükəlidir – onların öz vəsaitlərini gözlənilmədən çıxarması bu kredit təşkilatını iflas vəziyyətinə gətirib çıxara bilər.

Cədvəl 1

Azərbaycanda kredit təşkilatlarının müddətlər üzrə kredit qoyuluşları (dövrün sonuna)

İl, ay	Cəmi	o cümlə-dən:	Milli valyutada kreditlər						Xarici valyutada kreditlər					
			Cəmi kreditlər	o cümlə-dən:	Qısamüddətli	o cümlə-dən:	Uzunmüddətli	o cümlə-dən:	Cəmi kreditlər	o cümlə-dən:	Qısamüddətli	o cümlə-dən:	Uzunmüddətli	o cümlə-dən:
		vaxtı keçmiş		vaxtı keçmiş		vaxtı keçmiş		vaxtı keçmiş		vaxtı keçmiş		vaxtı keçmiş		vaxtı keçmiş
2005	**1441.0**	**68.2**	**542.9**	**20.6**	**353.1**	**15.8**	**189.8**	**4.8**	**898.0**	**47.6**	**560.1**	**32.8**	**337.9**	**14.8**
2006	**2362.7**	**77.7**	**1170.5**	**23.1**	**597.4**	**18.6**	**573.1**	**4.5**	**1192.2**	**54.6**	**544.6**	**34.7**	**647.6**	**19.9**
2007	**4681.8**	**100.3**	**2513.7**	**44.9**	**1066.4**	**35.7**	**1447.3**	**9.3**	**2168.1**	**55.3**	**583.1**	**33.8**	**1585.0**	**21.5**
2008	**7191.3**	**159.8**	**3672.9**	**93.2**	**1346.9**	**56.0**	**2326.0**	**37.2**	**3518.4**	**66.6**	**949.0**	**40.7**	**2569.4**	**25.9**
2009	**8407.5**	**303.5**	**4886.2**	**195.1**	**1452.7**	**92.1**	**3433.5**	**103.1**	**3521.3**	**108.4**	**907.2**	**66.1**	**2614.0**	**42.3**
2010														
01	8431.2	331.4	4923.2	211.0	1462.8	100.8	3460.5	110.2	3507.9	120.4	886.8	68.3	2621.2	52.1
02	8343.5	358.4	4852.7	218.6	1330.2	99.7	3522.5	118.9	3490.8	139.8	879.9	78.0	2610.8	61.8
03	8485.2	355.9	5044.3	223.7	1391.8	100.8	3652.5	122.9	3440.9	132.3	897.1	73.7	2543.8	58.6
04	8605.5	365.2	5126.1	231.9	1417.8	102.3	3708.2	129.5	3479.4	133.4	896.3	72.4	2583.0	61.0
05	8733.5	383.6	5223.3	242.1	1424.1	104.0	3799.2	138.2	3510.2	141.4	920.9	79.2	2589.3	62.2
06	8840.7	408.6	5311.3	266.9	1390.9	106.1	3920.4	160.9	3529.4	141.7	956.9	77.5	2572.5	64.2
07	8656.2	400.0	5357.6	259.0	1390.7	101.3	3966.9	157.7	3293.6	141.0	1010.8	75.5	2282.8	65.5
08	8788.6	423.7	5448.7	284.7	1424.3	114.2	4024.4	170.5	3339.9	139.0	1021.5	74.2	2318.3	64.8
09	8936.6	448.5	5562.1	301.4	1448.0	124.8	4114.1	176.6	3374.6	147.1	1038.5	79.0	2336.0	68.1
10	9065.2	454.0	5680.5	306.4	1458.5	128.3	4222.0	178.1	3384.8	147.6	1058.4	79.6	2326.3	68.0
11	9091.7	458.1	5770.2	309.3	1494.0	130.6	4276.2	178.7	3321.6	148.8	1052.0	78.4	2269.6	70.4
12	9163.4	492.9	5865.3	342.1	1523.8	156.8	4341.5	185.3	3298.1	150.8	1043.3	82.4	2254.8	68.4

2011														
01	9149.8	497.0	5876.9	338.0	1521.1	163.5	4355.8	174.5	3272.9	159.0	1030.2	90.4	2242.7	68.5
02	9152.8	509.4	5888.6	345.3	1477.5	162.2	4411.2	183.1	3264.2	164.1	1023.9	96.1	2240.3	68.0
03	8366.0	539.9	5017.9	371.0	1537.4	181.7	3480.5	189.3	3348.1	168.9	1099.7	97.6	2248.4	71.3
04	8639.6	553.2	5248.7	376.8	1697.1	182.8	3551.6	193.9	3390.9	176.4	1125.6	100.8	2265.3	75.6
05	8750.4	551.8	5346.0	376.2	1720.0	182.2	3626.1	194.1	3404.4	175.6	1171.9	99.6	2232.4	76.0
06	8955.9	557.9	5534.9	383.3	1794.0	183.2	3740.8	200.0	3421.0	174.6	1173.0	98.2	2248.0	76.4
07	9120.2	581.1	5723.3	401.9	1829.2	192.2	3894.1	209.7	3396.9	179.2	1185.2	101.4	2211.7	77.8
08	9528.4	592.5	5864.6	412.7	1850.0	204.3	4014.6	208.4	3663.8	179.8	1221.3	100.8	2442.5	79.0
09	9667.7	620.2	6019.7	433.3	1926.1	224.2	4093.6	209.1	3648.0	187.0	1218.5	97.9	2429.4	89.1
10	9776.2	626.5	6150.2	436.4	1932.6	218.5	4217.6	217.9	3625.9	190.1	1170.8	99.0	2455.1	91.1
11	9852.8	636.7	6271.6	452.1	1965.5	231.1	4306.1	220.9	3581.1	184.6	1128.4	95.3	2452.8	89.4
12	9950.3	633.8	6426.5	452.1	2001.0	233.8	4425.5	218.3	3523.8	181.7	1050.2	92.4	2473.6	89.3
2012														
01	10084.6	643.1	6527.8	462.7	2027.8	241.1	4500.0	221.6	3556.8	180.4	1062.2	90.8	2494.5	89.6
02	10206.9	648.8	6616.8	467.0	1987.4	240.3	4629.4	226.7	3590.1	181.8	1070.9	91.6	2519.2	90.2

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı





Çox zaman kredit təşkilatlarının likvidliyi aktiv-passiv xarakterli risklərə məruz qala bilər. Bunlara ilk növbədə müddətə görə resursların transformasiyası ilə əlaqədar əməliyyatların doğurduğu rentabellik riski aiddir. Əgər müddətinə görə oxşar passiv əməliyyatların həcmi ilə müqayisədə orta və uzunmüddətli aktiv əməliyyatların həcmi sürətlə artırsa, likvidlik böhranı hətta kredit təşkilatının yaxşı maliyyə vəziyyəti zamanı da baş verə bilər.

Kredit təşkilatlarının vəziyyətinə nəzarət edən Mərkəzi Bank məcburi iqtisadi likvidlik normativlərini (cari, ani və uzunmüddətli) müəyyən edir. Kredit təşkilatlarının likvidlik normativləri aktivlərin müddətləri, məbləği və tipləri, eləcə də digər amillər nəzərə alınmaqla aktivlərin və passivlərin; likvid aktivlərin (nağd pul vəsaitlərinin, tələb olunana qədər əmanətlərin, qısamüddətli qiymətli kağızların və digər asanlıqla reallaşan aktivlərin və cəm aktivlərinin) nisbəti kimi müəyyən olunur.

Beynəlxalq təcrübədə bankın likvidliyi yalnız müəyyən əmsalın təhlilinə yox, həm də aktivlərin və passivlərin idarə edilməsinin öyrənilməsinə, bankın imicinin uçotuna, eləcə də perspektivdə ayrı-ayrı göstəricilərin pisləşməsinə gətirib çıxarmağa qadir olan, onun fəaliyyətində real və potensial problemlərin aşkar edilməsinə əsaslanır.

KREDİTİN BAĞLANMASI – borcalan tərəfindən kreditə götürülən vəsaitlərin qaytarılması və onlar üzrə faizlərin ödənilməsi.



KREDİTİN QAYTARILMAMASINA GÖRƏ BORC ALANIN MƏSULİYYƏTİNİN SIĞORTALANMASI – bu sığorta növünə görə mülkiyyət formasından asılı olmayaraq sığorta şirkəti və hər hansı bir hüquqi şəxs və ya borc alan fiziki şəxs arasında müqavilə bağlanır. Bu sığorta növü 1990-cı il yanvarın 1-dən tətbiq edilir. Sığortanın obyekti kreditin ödənilməsi sxemindən asılı olmayaraq, kreditə görə faiz də daxil olmaqla kreditlərin vaxtında və tam ödənilməsinə görə borc alanın kreditor bank qarşısında məsuliyyətidir.

KREDİTİN ÖTÜRÜLMƏSİ – kreditorun uzunmüddətli öhdəliklərini əsas götürərək, kreditlərin qısa müddətə başqasına ötürülməsi və ya yerləşdirilməsini nəzərdə tutan sövdələşmə.



KREDİTİN SIXILMASI (ing. *credit queeze*) – pul kütləsinin azalması və bunun nəticəsində kredit dərəcələrinin artması, kredit almağın çətinləşməsi.
İqtisadiyyatın sürətli inkişafı şəraitində və ya başqa səbəblər üzündən dövriyyədə olan pul kütləsinin məhdudlaşdırılması yolu ilə iqtisadi fəallığın məhdudlaşdırılmasına yönəlmiş iqtisadi siyasət tədbiridir. Buraya faiz dərəcələrinin artırılması, bankların məcburi ehtiyat normasının artırılması, istehlak krediti verilməsi şərtlərinin pisləşməsi (ilkin ödənişin həcminin artırılması, ödəniş müddətinin azaldılması və s.), dövlətə məxsus qiymətli kağızların açıq bazarda satışı ilə bağlı əməliyyatların genişlənməsi və digər tədbirlər aiddir.

KREDİTİN VAXTINDAN ƏVVƏL ÖDƏNİLMƏSİ ÜÇÜN XƏRCLƏR (ing. *Break costs (Early Termination Charge ETC)*) – kreditləşmənin şərtləri kreditin yenidən maliyyələşdirildiyi və ya dəyişən faiz dərəcəsindən sabit faiz dərəcəsinə keçdiyi zaman kreditorun kreditin vaxtından əvvəl ödənilməsinə görə borcalana qarşı cərimə tətbiq etmək hüququnu nəzərdə tuta bilər. Beləliklə, kreditin vaxtından əvvəl ödənilməsinə görə tətbiq olunan cərimə kreditorun xərclərini ödəmək üçün istifadə olunur (məsələn, borcalan krediti yenidən maliyyələşdirdikdə). Vaxtından əvvəl ödəməyə görə cərimə, kreditin verildiyi tarixə (yəni sabit faiz dərəcəsinin ilk dəfə tətbiq olunduğu vaxta) olan faiz dərəcəsinin dəyəri ilə sabit faiz dərəcəsi müqaviləsinə əsasən, qarşıdakı dövrə tətbiq olunan faiz dərəcəsinin dəyəri arasındakı fərqi müəyyən etməklə hesablanır. Faiz üzrə illik itkiləri müəyyən etmək üçün bu fərq kredit üzrə cari qalığa vurulur. Sonra alınan məbləğ aylıq göstəricini hesablamaq üçün 12 aya bölünür və sabit faiz dərəcəsi müqaviləsinin başa çatmasına qədər qalan ayların sayına vurulur. Bu cür üsulla hesablanmış məbləğ sonradan xalis dəyərin hesablanması düsturu ilə diskontlaşdırılır.

KREDİTLƏRİN SIĞORTALANMASI – 1. Mahiyyəti kredit riskinin azaldılmasından və ya aradan götürülməsindən ibarət olan sığorta növü; kreditlərin sığortalanmasının obyektlərinə aiddir: məhsul göndərənin alıcıya təqdim etdiyi kommersiya riskləri, məhsul göndərənə və ya alıcıya verilən bank ssudaları (borcları), kreditə görə zəmanət və öhdəliklər, uzunmüddətli investisiyalar və s. 2. Alqını kredit üçün tərtib edən şəxsin ölümü zamanı sığortalanma. Yeni sığorta növü kimi əhalinin möhlətlə ev, avtomobil, uzun müddət üçün istifadə olunan mallar alınan bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə istehlak kreditinin artması ilə inkişaf edir. Əmlakın girov qoyulması zamanı tətbiq olunur.

KREDİTLƏŞDİRMƏYƏ GÖRƏ BANK KOMİSYONU – kreditləşməni təşkil etmənin haqqı.
Adətən, kreditor borcalanın ərizəsi ilə müəyyən iş aparır. Bu iş kreditləşdirmənin tərkib hissəsidir və buraya potensial borcalanın maliyyə vəziyyətinin qiymətləndirilməsi, girovun və kredit üçün digər təminatların, zəmanətlərin qiymətləndirilməsi və qeydiyyatı, kreditləşdirmənin şərtlərinin müzakirəsi, kredit üzrə sənədlərin hazırlanması və yoxlanması daxildir. Bu işlər kreditləşdirmənin təşkilinə bilavasitə aid olmaqla, borcalanın ərizəsinə cavab verilməsi və kreditorun və ya sonrakı investorun maraqları çərçivəsində aparılır.
Komisyonun həcmi və kreditin təşkili ilə bağlı olan birbaşa xərclər, cari fəaliyyətlə bağlı olan xərclər kimi deyil, ssuda üzrə gəlirlərin korreksiyası məqsədi ilə, ssuda alınmasına çəkiləcək xərclər kimi uçota alınmalıdır. Gəlir ssudanın əldə olunduğu anda deyil, ondan istifadə olunması və ya onun satışı nəticəsində əldə edilir.
Müasir dünya təcrübəsində ssudanın təşkili üçün komisyonların bir hissəsinin, ssudanın təşkili üzrə xərclərin hamısının ödənilməsi məqsədilə hər hansı dövr üçün cari daxilolmalara aid edilməsi praktikasına icazə verilmir.

KREDİTLƏŞMƏ MÜDDƏTİ – Kredit idarəsinin kredit resurslarından istifadə edilməsi üçün borcalana icazə verdiyi müddət. Bir qayda olaraq, kreditləşmə müddəti layihənin bitməsinin gözlənilən müddəti ilə (və ya borc alanın ehtiyacı olduğu müddət ilə), eləcə də müştərinin borca xidmət etmək qabiliyyəti ilə müəyyən olunur ki, bu da kredit resurslarından istifadə edilməsini nəzərdə tutan məqsədlərdən və məhsulun istehsalı və reallaşması prosesində vəsaitlərin sərbəstləşməsi vaxtından asılıdır. Həmçinin nəzərə alınır ki, ssudanın uzunmüddətli ol-

ması onun ödənilməsi hissəsi ilə və fors-major vəziyyətinin yaranması ehtimalı ilə düz mütənasibdir, bunların nəticəsində borc alan kreditorla vaxtında hesablaşa bilmir.

Müddətlilik əlamətinə görə kreditlərin təsnifləşdirilməsi zamanı, adətən, "qısamüddətli" və "uzunmüddətli" aqregirləşmiş meyarlardan istifadə olunur ki, buna uyğun olaraq 3-5 ildən yuxarı verilən kreditlər uzunmüddətli, 1 ilə qədər verilən kreditlər qısamüddətli sayılır. 1-3 il müddətinə verilən ortamüddətli kreditlər aralıq mövqe tutur. Əsas fondların alınmasına, tikintiyə, faydalı qazıntıların hasilatına, layihə kreditlərinə ayrılan kreditləri, bir qayda olaraq, uzunmüddətli kreditlər kateqoriyasına aid edirlər, yəni onların ödəniş müddəti 1 ildən artıqdır. Borcun tam ödənilməsi adətən konkret layihənin – tikintinin, yatağın mənimsənilməsinin və s. başa çatma müddətindən gec olmayaraq nəzərdə tutulur. Qısamüddətli kreditlərin verilməsi müddətləri adətən aşağıdakı çərçivələrdə dəyişir: 1 aya qədər, 1 aydan 3 aya qədər, 3 aydan 6 aya qədər, 6 aydan 1 ilə qədər.

KREDİTOR BORCLANMA (BORC) – müəssisənin kreditorları qismində çıxış edən hüquqi və fiziki şəxslərə qaytarılmalı olan, həmin müəssisənin borclanmasının pulla ifadə olunan məbləği. Eyni zamanda müəssisənin mühasibat kitablarında onun kreditorlara borcu kimi əks edilmiş, lakin veksellərlə, trattalarla, yaxud akseptlərlə təsdiq olunmamış məbləğlər (açıq balans hesabları); ticarət kreditorlarına olan borcun ümumi məbləği; açıq balans hesabları üzrə kreditorlara çatacaq məbləğlərin qalıqlarının, köməkçi kitabda (kreditor borcu, satınalmalar, yaxud kreditorlar) əks olunan ümumi miqdarının müəyyənləşdirilməsi üçün baş mühasibat kitabındakı nəzarət hesabında əks olunmuş məbləğlərdir.


Çox zaman kreditor borclanma (borc) elə hesablaşma metodlarının tətbiqi nəticəsində yaranır ki, burada borclanmanın (borcun) meydana gəlməsindən sonra müəyyən müddət ərzində bir müəssisənin borcu digəri tərəfindən ödənilir. Xüsusilə, müəssisənin buraxdığı əmtəə və xidmətlərə görə hesablaşma sənədləri qiymətlilər alındıqdan və ya xidmətlər göstərildikdən sonra ödənilir. Bundan əlavə, məhsul və xidmətlər əsasən nağdsız hesablaşma ilə ödənilir. Alıcılar tərəfindən malların yüklənməsi ilə onların ödənilməsi arasında müvəqqəti laq (müddət) belə yaranır, çünki hesablaşma sənədlərinin tərtib edilməsi və dövriyyəsi üçün vaxt lazımdır. Bundan əlavə, müəssisənin kreditor borclanması (borcu) büdcəyə vergilər və büdcədənkənar fondlara ayırmalar, fəhlə və qulluqçulara əmək haqqı ödənilməklə, müəyyən müddətə verilən bank kreditlərindən istifadə edilməklə əlaqədar yaranır.

Bir sıra hallarda kreditor borclanma (borc) iqtisadi cəhətdən tamamilə əlverişli ola bilər (onun ödənilməsi müddətinə riayət edilən və tədiyə intizamı pozulmayan zaman), digər hallarda – "normadan" kənarlaşma, yəni uzadılmış ola bilər (müəssisə tərəfindən tədiyə öhdəliklərinin vaxtında yerinə yetirilməməsi zamanı). Kreditor borclanmanın (borcun) ödəmə müddətlərinin pozulmasında ən yayılmış səbəblər müəssisənin hesablaşma hesabında pul vəsaitlərinin olmaması və ya bankın mal-material qiymətlilərin ödənilməsi üçün kredit verməkdən imtina etməsidir. Uzadılmış borclanma (borc) və onun artması meyli müəssisənin maliyyə vəziyyətinin qeyri-qənaətbəxş olmasını, normal təkrar istehsal prosesinin pozulmasını təsdiq edir.

KREDİTOR BORCUNUN İDARƏ EDİLMƏSİ – 1. Borc alan subyekt tərəfindən borc vəsaitinin alınması, istifadəsi, istifadəsi üzərində nəzarət, qaytarılmaq üçün səfərbər olunması və qaytarılmasından ibarət tədbirlər kompleksi. 2. Müəssisə tərəfindən məhsul buraxılışının həcmini artırmaq və faiz ödəmələrini minimuma endirmək üçün kreditor borcunun formalaşması və onun vəziyyətinə nəzarət tədbirləri kompleksi.

Bank kreditlərinin müxtəlif formaları qısamüddətli maliyyələşdirmənin əsas mənbələrindən biridir. Belə formaların ən sadəsi təmin edilməmiş ssudalardır. Tez-tez qısamüddətli bank kreditlərinə ehtiyacı olan müəssisələr onlara kredit xətti açılması barədə bankla razılığa gələ bilər. Bu, həmin müəssisələrin istənilən vaxt müəyyən limit həddində borc pul almalarına imkan verir. Kredit xətti, adətən, bir il müddətinə açılır və bankın kredit komitəsinin ciddi diqqət obyektinə çevrilir. Əgər kredit


Azərbaycan Respublikasında kreditlərin illik artım tempi (%-lə)



Qrafik 1

xəttindən müəssisənin layihələrinin uzunmüddətli maliyyələşdirilməsi üçün istifadə edilərsə, banklar narahat olur. Bir qayda olaraq, onlar müəssisənin kredit xətti üzrə borclarının vaxtaşırı "təmizlənməsini" tələb edirlər. Kredit verilməsi üçün çox vaxt girov qoyulması şərti irəli sürülür. Ən likvid girov qiymətli kağızlardır. Lakin bank debitor borcu və ya ehtiyatlar şəklində "dəyişkən girov" da qəbul edə bilər. Bu halda bank girovun real identifikasiyasını və onun nəzarət altında olmasını yəqin etmək üçün ehtiyat tədbirləri görə bilər. Məsələn, müəssisə debitor borcu müqabilində kredit alanda o, bütün əmtəə satışları barədə banka məlumat verməyə borcludur, debitorların yekun hesabları bankda girov qoyulmalıdır. Müştərilər hesablar üzrə ödəniş etdikdə pullar bankın nəzarəti altında olan xüsusi girov hesabına daxil olur. Eyni qayda ilə müəssisə xammal ehtiyatlarının müqabilində borc pul alanda bank həmin ehtiyatların müstəqil anbar şirkətində saxlanmasını təkid edəcəkdir. Əmtəələr üçün anbar şəhadətnaməsi bankda olduğu müddətdə bankın icazəsi olmadan həmin əmtəələr satıla bilməz.

Azərbaycan Respublikasında kreditlərin strukturu, ilin sonuna (%-lə)



Qrafik 2

Bankların kreditlər üzrə müəyyən etdiyi faiz dərəcəsi həm borc kapital cəlb edilməsi üçün alternativ xərcləri, həm də bankın kredit bölməsinin xərclərini ödəmək üçün kifayət həcmdə olmalıdır. Nəticədə iri daimi borc alanlar bu qənaətə gəlirlər ki, bank sistemindən istifadə etməmək, özlərinin qiymətli kağızlar şəklində qısamüddətli öhdəliklərini buraxmaq daha ucuz başa gələr. Lakin maliyyə menecerləri yadda saxlamalıdırlar ki, pulun çatışmadığı çətin dövrdə bank özünün daimi müştərilərinə üstünlük verəcəkdir. Buna görə də müəssisələrin yalnız az bir qismi hətta istiqrazların asanlıqla satıldığı yaxşı vaxtlarda da banklardan daim yan keçirlər.

KRJİJANOVSKİ QLEB MAKSİMİLİANOVİÇ – (1872-1959) – sovet dövlət xadimi, SSRİ EA-nın akademiki (1929).



Peterburq Texnologiya İnstitutunu bitirmişdir. 1920-ci ildə Rusiyanın elektrikləşməsi üzrə komissiyanın (QOEPRO), 1921-ci ildə isə Dövlət Plan Komitəsinin sədri təyin edilmişdir.

1930-1932-ci illərdə Baş Enerji İdarəsinin rəisi, 1932-1936-cı illərdə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin nəzdində Ali və Orta İxtisas Komitəsinin Sədri, Energetika İnstitutunun banisi (1930) və ömrünün sonuna qədər direktoru olmuşdur.

Xalq təsərrüfatının planlaşması, energetika və elektrikləşdirmə, iqtisadi siyasət məsələlərinə dair əsərlərin müəllifidir.

KROSS-AKSİYA – brokerin (dilerin) eyni zamanda, eyni qiymətlə, lakin müxtəlif müştərilərlə əməliyyatlarda eyni qiymətli kağızların satışı üçün əmrlə alış üçün əmri azaltdığı şərait.

KROSS-KURS – iki valyuta arasında bu valyutaların kursu əsasında hər hansı bir üçüncü valyutaya nəzərən müəyyən olunan nisbət.

KROSSLAŞDIRILMIŞ ÇEK – bu çekin üzərində diaqonal xətti boyunca iki düz xətt çəkilir. Çekin bu cür hazırlanması o deməkdir ki, həmin krosslaşdırılmış sənədin təqdim edildiyi bank ödənişi nağd şəkildə həyata keçirməyib çek sahibinin əmrinə əsasən pul vəsaitlərini başqa banka və ya cari hesabın sahibi olan öz müştərisinin müvafiq hesablarına köçürür.

Bu cür çeki üçüncü şəxsə vermək mümkün deyil. Onu kredit müəssisəsində ödəmək lazımdır. Müəyyən edilmiş məhdudiyyətlər sayəsində bu çek itirildikdə və ya oğurlandıqda icazəsiz istifadə edilməkdən qorunur. Bəzən xüsusi krosslaşdırma tətbiq edilir. Bu halda çekin üzərində iki diaqonal xətti arasında konkret müəssisənin adı göstərilir. Krosslaşdırılmış çek həmin müəssisənin xeyrinə ödənilməlidir.

KROSLAŞMA – 1. Müəyyən məna kəsb edən çekin üzərinə xüsusi qeydin, adətən əyri xətlə yazılışı. Kroslaşmanın müxtəlif üsulları mövcuddur; o, ümumi və xüsusi ola, "Yalnız alıcının hesabına" və "Alıcının hesabına" qeydi əks etdirə bilər. Kroslaşmayan çek onu saxlayan tərəfindən kroslaşa bilər, ümumi kroslaşma isə xüsusi kroslaşma ilə dəyişilə bilər. 2. Özündən və ya bir-birindən eyni səhm paketinin, yaxud digər maliyyə alətlərinin (digər birja əmtəəsinin) konkret broker vasitəsi ilə birjada eyni zamanda alqı və satqısıdır. Bu, əmtəə üçün yeni qiymət fonunu yaratmağa və saxta sövdələşmələr fonunda yüksək qiymətlə oxşar əmtəəni satmağa imkan verir. Adətən, bu cür əməliyyatların nəticəsində əmtəələrin likvidliliyi və müvafiq birjanın nüfuzu azalır. Buna görə də kroslaşma qanunsuz birja əməliyyatlar sayılır.

KROSS-MƏZƏNNƏ – bir valyutanın digərinə məzənnəsi, üçüncü valyutaya onların məzənnəsi vasitəsi ilə hesablanır; birbaşa və kross-məzənnə arasında fərqlər valyuta arbitrajı ilə tarazlaşır.

KRUQMAN POL (1953) – Amerika iqtisadçısı və publisisti. Yəhudi ailəsində böyümüş



Kruqman Yel Universitetini bitirmişdir. 1977-ci ildən Massaçuset Texnoloji İnstitutunun fəlsəfə doktorudur. Yel və Kaliforniya universitetlərində, Stenfordun London iqtisadi məktəbində dərs demişdir. 2000-ci ildən Priston Universitetinin professorudur.

C.B.Klark medalı (1991) ilə təltif olunmuşdur, Adam Smit (1995), Rektenvald (2000) və Asturiya şahzadəsi (2004) mükafatları laureatıdır. Münhen iqtisadi tədqiqatlar mərkəzinin fəxri üzvü (1997), "30-lar qrupu"nun üzvüdür. 2008-ci ildə ticarət modelləri və iqtisadi coğrafiya problemlərinin təhlili mövzusundakı elmi işinə görə Nobel mükafatına layiq görülmüşdür.

KRUMLİNQ (ing. *krumling*) – krumlinq hesabı olan şəxslərin ödənişi internet vasitəsilə həyata keçirmələri.

KSENOFONT (b.e.ə. 430-355 və ya 354-cü illər) – qədim yunan mütəfəkkiri. İqtisadi fikir tarixinə Ksenofont əmək bölgüsünü ilk təhlil edən alim kimi daxil olmuşdur. Özünün "Kiropediya" adlı əsərində o, aşağıdakı müddəanı ifadə etmişdir: "Ən sadə iş görən şəxs onu ən yaxşı yerinə yetirir". Ksenofont bazarın ölçülərindən asılı olaraq əmək bölgüsünün dərəcələri üzrə dərk edilməsinə də fərqli yanaşmışdır. Ksenofont pulun

bütün funksiyalarından iki funksiyasını – tədavül vasitəsi və yığım vasitəsi funksiyasını qəbul etmişdir. Bununla yanaşı o, sələmçiliyi, başqa sözlə, puldan borc kapitalı kimi istifadə edilməsini pisləmişdir.

KUK ƏMSALI – kredit idarələrinin və kommersiya banklarının xüsusi kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbətinə bərabər olan tədiyə qabiliyyətli əmsalı. Xüsusi fondlar və aktivlərin risk dərəcəsi üzrə qiymətləndirilən bu aktivlər arasında 8% səviyyəsində nisbəti tələb edir.

KULİSA – rəsmi birja makler - lərinin vasitəçiliyi olmadan qiymətli kağızlarla əməliyyatların həyata keçirildiyi qeyri-rəsmi birja. Kulisa əməliyyatları rəsmi birjadakı əməliyyatlarla sıx bağlıdır. Lakin qiymətli kağızların bu bazarlardakı kursu fərqlidir.

KUMMUTASİYA ƏDƏDLƏRİ – əllə hesablamalar qaydasını sadələşdirmək üçün həyat sığortası üzrə tarif dərəcələrinin hesablanması zamanı istifadə edilən texniki göstəricilər, yaxud həyat sığortasının müxtəlif növlərinin maliyyə əsaslarının qurulması zamanı hesablamaların yüngülləşməsi və riyazi düsturların sadələşməsi üçün tətbiq edilən köməkçi kəmiyyətlər.

KUMULYASİYA – 1. Müəy - yən məhdud ərazi məkanı çərçivəsində (bir binada, anbarda, limanda və s.) risklərin cəmlən - məsi. 2. Sığorta risklərinin tə - mərküzləşməsi.

KUMULYATİV DİVİDEND – vaxtında ödənilmədiyindən şir - kətin passivinə çevrilmiş və gə - ləcəkdə bölüşdürülməli olan dividend.

KUMULYATİV FAİZ (lat. *cumulatio* – artma, toplanma) – vəsaitlərin qoyulması anından etibarən mürəkkəb və ya sadə faiz formulu üzrə hesablanmış investisiyaların başa çatma tarixinədək toplanmış faizlər.

KUMULYATİV İMTİYAZLI SƏHMLƏR – ödənilməmiş dividendlərin (səhm gəlirlərinin) toplandığı, sahiblərinə emitent (səhm buraxan) şirkətdən yığılıb qalmış borcun ödənilməsini tələb etmək hüququ verən imtiyazlı səhmlər. Nəinki cari, hətta hər hansı səbəblərə görə əvvəllər (mənfəətin adi səhmlər arasında bölüşdürülməsinə qədər) ödənilməmiş dividentə malik olmaq hüququ verən səhmdir. Şirkətin adi səhmləri üzrə dividendlər ödənilənə qədər borc tamamilə ləğv edilməlidir.

KUMULYATİV SƏHMLƏR (ing. *cumulative stocts*) – imtiyazlı səhmlərin bu növü üzrə di - vidend (gəlir) ödənilmir, SC mürəkkəb maliyyə vəziyyətində olduğu dövrdə dividendlərin məbləği xüsusi fondda yığılır. Kumulyativ (toplanmış, yığılmış) səhmlərin sahibi dividendi adətən səhmləri satan anda alır.

KUPMANS (KOOPMANS) TYALLİNQ ÇARLZ (1910-1985) – amerikalı iqtisadçı, "re-



sursların optimal bölgüsü nəzəriyyəsinə töhfəsinə görə" iqtisadiyyat üzrə Nobel mükafatı laureatı olub (L.Kontoroviçlə birgə – 1975). Utrext Universitetində (1972-1933-cü illərdə) riyaziyyatı və nəzəri fizikanı, Amsterdam (1933) və Leyden universitetlərində (1936) iqtisadi nəzəriyyəni və riyazi statistikanı öyrənmişdir. 1936-1938-ci illərdə Rotterdamda Niderland iqtisadiyyat məktəbində dərs demişdir. 1938-ci ildə Cenevrədə Millətlər Liqasının əməkdaşı kimi fəaliyyət göstərmişdir. 1940-1942-ci illərdə ABŞ-ın Priston Universitetində tədqiqat işləri aparmış, 1942-1944-cü illərdə Vaşinqtonda Britaniyanın ticarət missiyasının, 1944-cü ildən Çikaqo Universitetinin nəzdində iqtisadi tədqiqatlar üzrə Koulz Komissiyasının əməkdaşı olmuşdur. 1946-cı ildən ABŞ vətəndaşlığını qəbul etmiş, Yel Universitetinin iqtisadiyyat professoru (1955-ci ildən), fəxri professoru (1981-ci ildən) kimi fəaliyyət göstərmiş, 1961-1967-ci illərdə Koulz Fondunun direktoru işləmişdir. Niderland Kral Elmlər Akademiyasının, Amerika Riyazi Cəmiyyətinin, Amerika elminin inkişafına təsir asossiasiyasının, Energetika sahəsində iqtisadçıların beynəlxalq assosiasiyasının və Amerika İqtisadi Assosiasiyasının üzvü (1978-ci ildən prezidenti) olmuşdur. Niderland iqtisadiyyat məktəbinin, Luvensk Katolik, Şimal-Qərb və Pensilvaniya universitetlərinin fəxri elmi dərəcələrinə layiq görülmüşdür.

Kupmans tsikl nəzəriyyəsinin, xətti proqramlaşdırmanın, əməliyyat təhlilinin işlənib hazırlanması ilə məşğul olmuşdur. Xətti proqramlaşdırma üzrə ilkin fundamental işlərin redaktoru və birgə müəllifi kimi tanınmışdır. İqtisadi təhlil sahəsinə Kupmansın sanballı töhfəsi

fundamental iqtisadi problemin – rəqabət aparan istehlakçılar arasında çatışmayan (qıt) resursların optimal bölgüsünün həlli ilə əlaqədardır. O, "Müxtəlif marşrutlarda yüklər arasında nisbət (*Exshange Rations Bestwen Cargoes Varions Rontes*, 1942) əsərində bir sıra məhdudiyyətlər çərçivəsində, maksimallaşmanın riyazi problemdəki kimi, bölgüyə yanaşma metodu imkanını əsaslandıraraq, fəaliyyət növlərinin təhlili adlanan orijinal analitik metodu təklif etmişdir. Kupmans, ideal rəqabət bazarı şəraitində, məsrəf qiymətinə bərabər əmsal istehsal məsrəflərinin hər bir növü üçün riyazi tənliyi işləyib hazırlamışdır. O, ilk dəfə olaraq aralıq və bitmiş əmtəələri fərqləndirərək, tədqiq olunan əmtəə axınlarının müxtəlif növlərinin ətraflı fərqləndirilməsini həyata keçirmişdir. Kupmans metodu hər hansı bir istehsal prosesinin planlaşdırılması zamanı geniş tətbiq oluna bilər. Müharibədən sonrakı dövrdə Kupmans Koulz Komissiyasının nəşr etdirdiyi iki böyük monoqrafiyada – "İqtisadiyyatın dinamik modellərində statistik nəticələr" (*Statistical İnference in Dynamic Economic Models, 1950*), "İstehsalda və bölgələrdə fəaliyyət növlərinin təhlili" (*Activity Anolysis of Rroduction and Allocation, 1951*) kitablarında, eləcə də çoxsaylı məqalələrdə tədqiqatlarının nəticələrini dərc etdirərək iqtisadi planlaşdırmanın alətləri qismində öz təhlil metodunu təkmilləşdirmişdir. Kouzun "İqtisad elminin vəziyyəti haqqında üç oçerk" (*Three Essays on the State of Economic Science, 1957)* əsəri çox məşhurlaşdı. Bu əsərdə istehsal səmərəliliyi ilə ictimai tarazlıq nəzəriyyəsi arasındakı əlaqə təsəvvürlərini dəqiqləşdirən məhsul məsrəfləri ilə buraxılışı arasındakı qarşılıqlı münasibətlərin yeni şərhi verilmişdir. 60-70-ci illərdə Kupmans maraqlarını optimal iqtisadi artım sürətinin meyarları probleminin öyrənilməsinə cəmləşdirmişdir. O, müxtəlif dövrlərdə fərdi və ictimai istehlaka təsir edən amillərin (əhalinin artımı ilə texnoloji yeniliklər kimi) rolunun tədqiqinə xüsusi diqqət vermişdir. İqtisadi inkişafın proqramlaşdırılması sahəsində iqtisadi artımın planlaşdırılması üçün faiz dərəcəsinin (gələcək istehlakın indiki dəyərini qiymətləndirən faiz) əhəmiyyətini cəmiyyətə ilk dəfə Kupmans açıqlamışdır.

KUPON – qiymətli kağızın kəsilmək üçün nəzərdə tutulmuş bir hissəsi. Kəsildikdən sonra sahibinə qiymətli kağız üzrə faiz və dividentlər əldə etmək hüququ verir. O adətən qiymətli kağıza yapışdırılır. Amma sərbəst olaraq alınıb-satıla bilər. Buna baxmayaraq, qiymətli kağız ilə eyni rekvizitlərə (borclu firmanın adı, qiymətli kağızın adı və nömrəsi, məbləğ, ödəyən bankın adı, istifadə müddəti) malik olmalıdır. Faizin məbləği və ödəmə müddəti onun üzərində göstərilir. Kuponun aşağıdakı növləri vardır:

Zəmanətli kupon – təqdim edənə fiksə edilmiş, möhkəm faiz dərəcəsi ilə divident verir.

Dividentli kupon – sahibinə ilin yekunlarına əsasən divident verir.

Qısamüddətli kupon – ödənişi 6 aydan da az müddətə həyata keçirilən kupon.

Uzunmüddətli kupon – ödənişi 10-15 il müddətinə həyata keçirilən kupon.

Endirim üçün kupon – kuponda göstərilmiş şərtlərlə əldə edilmiş əmtəənin qiymətinə endirim verir.

Opsion kuponu – müəyyən edilmiş müddət ərzində təyin olunmuş kurs əsasında müəyyən miqdar səhm əldə etməyə imkan verən sənəd.

Dəyişkən kupon – bu kupona görə faiz dərəcəsi cari bank faizlərinə müvafiq olaraq ödənilir.

Dayanıqlı faizli kupon – əsasında ipoteka pulu, xəzinə və digər istiqrazlar üzrə ödənilən faizlər durur. İpoteka və istiqrazlar üzrə əsas borc ödənilən kimi faizlərin verilməsi dayandırılır və kuponun qiyməti sıfıra enir.

KUPYURA – kağız pullarda, banknotlarda, istiqraz vərəqələrində və digər qiymətli kağızlarda göstərilən nominal dəyər.

KURS – aksiyalar, istiqraz vərəqələri və başqa qiymətli kağızların alış və satış qiymətləri.

KURS İNDEKSİ (kotirovka) – qiymətli kağızların dəyərinin artma və ya azalma meylinin müəyyən edilməsi metodu. Birjada vacib səhm kurslarının orta göstəricisi kifayət qədər iri şirkətlərin kursları üzrə hesablanır. Qiymətli kağızların seçilən qrupunun kurs məbləğinin seçilən buraxılışların sayına nisbəti ilə müəyyən olunur. Daha çox istifadə olunan kotirovka indeksi Dou-Cons indeksidir.

Bundan əlavə S&P 500, Nasdaq indeksləri də mövcuddur. Spot

qiymətlərlə qiymətli metalların ticarəti qızıl (XAU/USD) və gümüşün (XAG/USD) ABŞ dollarına və ya digər valyutalara qarşı almaq və satmaq, bununla da mənfəət əldə etmək imkanı verir. Qızıl və gümüşün forex ticarətini vacib edən amillər aşağıdakılar ola bilər:

– investisiya portfelinin yaradılması zamanı aktivlərin diversifikasiya edilməsi ehtiyacı;

– iqtisadi, siyasi və sosial səbəblərdən bazarda yarana biləcək dalğalanmalardan qorunmaq üçün ticarət mövqelərinin hedc edilməsi imkanı;

– verilən kredit çiyni hesabına alınan (satılan) maliyyə alətinin tam qiymətinin ödənilməməsi;

– qısa satışlara icazə nəticəsində qiymətli metalların qiymətlərinin enməsindən qazanc əldə etmək imkanı.

KURTAJ (fr. *courtage* – komissiya) – birja sövdələşməsinin aparılması zamanı əməkdaşlığa görə brokerin mükafatı. Adətən bağlanmış sövdələşmənin məbləğinə promillə hesablanır və həm satıcı, həm də alıcı tərəfindən maklerə ödənilir. Kurtajın dərəcələri əmtəələrin və qiymətli kağızların kateqoriyalarından, eləcə də sövdələşmələrin həcmindən asılıdır. Kurtajın dərəcələri birjaların nizamnaməsi ilə və ya birja sövdələşmələrinin iştirakçıları arasında sazişlə müəyyən olunur.

KUZNETS SAYMON (SEMEN) SMİT (1901-1987) – amerikalı iqtisadçı, empirik iqtisadiyyatın və kəmiyyətcə iqtisadi tarixin banilərindən biri, "iqtisadi artımın empirik əsaslandırılmış izahına görə" Nobel mükafatı laureatı (1971). Realnı



məktəbi bitirmiş, 2 il Xarkov Universitetinin hüquq fakültəsində oxumuşdur. Xarkovun Mərkəzi Həmkarlar Şurasının statistika şöbəsi bürosunun seksiyalarından birinə rəhbərlik etmişdir (1920-1921). 1922-ci ildə ABŞ-a mühacirət etmişdir. İqtisadi təhsilini Kolumbiya Universitetində tamamlamışdır. 1927-ci ildən 1960-cı ilə qədər Milli İqtisadi Tədqiqatlar Bürosunun (MİTB) aparıcı əməkdaşlarından biri, milli məhsulun və gəlirin tədqiqi üzrə proqramın rəhbəri olmuşdur. 30-cu illərdən başlayaraq bir sıra Amerika universitetlərində (Pensilvaniya, C.Kopkins və Harvard universitetlərində) dərs demişdir. 1942-1944-cü illərdə Hərbi İşlər İdarəsinin əməkdaşı, 1944-1946-cı illərdə Hərbi Sənaye Nazirliyi nəzdində Planlaşdırma və statistika bürosunun direktor müavini olmuşdur. 1953-1963-cü illərdə İsrailin İqtisadi inkişaf üzrə Falka layihəsinin Sədri, 1963-cü ildən Moris Falka İqtisadi Tədqiqatlar İnstitutunun fəxri Sədri, 1961-1970-ci illərdə Sosial elmlər sahəsində tədqiqatlar üzrə şura (SETŞ) çərçivəsində Çin iqtisadiyyatı üzrə Komitənin Sədri, Amerika İqtisadi Assosiasiyasının prezidenti (1954), Amerika Statistika Assosiasiyasının prezidenti (1949), bir çox assosasiyaların, cəmiyyətlərin, institutların, elmlər akademiyalarının fəxri üzvü kimi fəaliyyət göstərmişdir. Bir çox universitetlərin, o cümlədən Harvard, Priston, Kolumbiya, Pensilvaniya universitetlərinin fəxri elmi dərəcələrinə layiq görülmüşdür.

Özünün iqtisadi artımın təhlilinə həsr olunmuş ilkin "İstehsal və qiymətlərin yüzillik dinamikası" (*Secular Movements-in Production and Prices*, 1930) monoqrafiyasında Kuznets əmtəələrin buraxılışını və qiymətlərin dinamikasını təşkil edən tsiklik dövrün mövcudluğu haqqında nəticəyə gəlmişdir ki, bu dövr adi iqtisadi tsiklin davamiyyətindən çoxdur, lakin N.Kondratyevin "uzun dalğalar"ından qısadır. Bu cür müşahidələr ABŞ-ın və digər ölkələrin iqtisadi həyatının bir çox sahələrində 20 ilə yaxın dövrdə öz aralarında bağlı olan geniş amplitudalı tərəddüdlərin tədqiqi üzrə Kuznetsin və digər iqtisadçıların son əsərlərinin müjdəçisi idi. MİTB-də həyata keçirilən milli məhsulun və gəlirin ölçülərinin və komponentlərinin hesablanması üzrə Kuznetsin miqyaslı tədqiqatları iqtisad elminə ümumi qəbul edilmiş töhfə idi. Uzun müddət ərzində statistik göstəricilər əsasında o, milli gəlirin və məhsulun, onların əsas komponentlərinin geniş cədvəllərini tərtib etmiş və müasir dövrə qədər ABŞ-ın rəsmi statistikasında istifadə edilən milli gəlirin qiymətləndirilməsinin orijinal metodikasını təklif etmişdir. 1949-cu ildən SETŞ-in iqtisadi artım üzrə komitə sədri qismində Kuznets milli gəlirin artımının müqayisəli öyrənilməsi üzrə və müəyyən dövr ərzində müxtəlif ölkələrin iqtisadiyyatlarının strukturunda bu artım dəyişmə-

sini müşayiət edən layihə üzərində işə rəhbərlik etmişdir. Bu layihənin nəticələri 1956-cı ilin oktyabrından 1967-ci ilin yanvarınadək dərc olunan, ümumi adı "Millətlərin iqtisadi artımının miqdar aspektləri" (*Quantitative Aspects of the Economic Growth of Nations*) olan 10 məqalədən ibarət seriyada ifadə edilmişdir. Kuznets əldə etdiyi məlumatları "Müasir iqtisadi artım" (*Modern Economic Growth*, 1966) və "Millətlərin iqtisadi artımı" (*Economic Growth of Nations*, 1971) əsərlərində ümumiləşdirmişdir. Kuznets milli gəlirin və sərvətin tədqiqi üzrə konfransın və Kulirin və sərvətin tədqiqi üzrə beynəlxalq assosiasiyanın təsisçilərindən və rəhbərlərindən biri idi ki, bunların fəaliyyəti müxtəlif ölkələrdə milli hesabların stimullaşmasında və koordinasiyasında, eləcə də tarixi statistikanın inkişafında böyük rol oynadı.

KÜÇƏ SERTİFİKATI – qiymətli kağızlarla işləyən firmanın adına qeydiyyata alınmış səhmdar sertifikatı. Küçə sertifikatlarının alqı-satqısı formal qaydalarla mürəkkəbləşmədiyi üçün o, investorlar arasında çox populyardır. Küçə sertifikatı formasında qeydiyyata alınmış səhmlər üzrə dividendlər əvvəlcə vasitəçi firmaya, ondan isə səhmlərin saxlayıcısına daxil olur.

KÜTLƏVİ XİDMƏT NƏZƏRİYYƏSİ – əməliyyatların tədqiqinin bir bölməsi. İqtisadiyyatda və başqa sahələrdə xidmət proseslərini, yəni müəyyən tələblərin, sifarişlərin təmin edilməsi (məsələn, limandakı gəmilərə xidmət, sexin alətlər anbarında tornaçılara xidmət, camaşırxanalarda müştərilərə xidmət və s.) kimi prosesləri tədqiq edir. Bu proseslərin çox müxtəlif olmasına baxmayaraq, onların ümumi cəhətləri var: xidmət barədə tələblər "xidmət kanalına" (limanda yer, paylaşdırma sexində pəncərə) qeyri-müntəzəm (təsadüfi) daxil olur və həmin kanalın məşğulluğundan, xidmətin müddətindən və başqa amillərdən asılı olaraq tələblər növbəsi yaranır. Kütləvi xidmət nəzəriyyəsi tələblərin daxil olmasının statistik qanunauyğunluqlarını öyrənir və bu əsasda qərarlar, yəni bir tərəfdən növbədə gözləmək üçün vaxt sərfi, digər tərəfdən xidmət kanallarının boşdayanma vaxtının ən az olmasını təmin edən xarakteristikalar hazırlanır. Əmtəələrin istehsalı və istehlakının bütün sistemini insanların (müştərilərin) və əmtəələrin qarşılaşdığı kütləvi xidmət sistemi kimi nəzərdən keçirmək olar. Bəzi alimlər buna əsasən ciddi nəticələr çıxarırlar. Onlar növbələrdə gözləmək və xidmət kanallarının boşdayanma halları (əmtəələrin anbarlarda saxlanması) ilə əlaqədar vaxt itkilərinin cəmini öyrənilən iqtisadi sistemin səmərəlilik ölçüsü kimi nəzərdən keçirməyə meyil edirlər: itkilər nə qədər az olsa, sistemin səmərəliliyi bir o qədər yüksəkdir.

KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ İLƏ ƏLAQƏLƏR – mal və ya təşkilat haqqında məlumatların kütləvi informasiya vasitələrində yerləşdirilməsi yolu ilə onlar haqqında məlumat vermə. Bu zaman məlumat vaxtı və ya həcminə görə ödəniş müqaviləyə əsasən aparılır.

KÜTLƏVİ MAL – kütləvi istehlakçının tələbat və istehlak predmeti. Tələbatda və istehlakda analoji mallar məcmusunun bir sıra xarakteristikaları nəzərə alınır. Bu, kütləvi tələbat və istehlak mallarına üstünlük verməyə şərait yaradır: Həmin xarakteristikalara əmtəələrin istehlak xassələrinin səviyyəsi, qiymətlərin səviyyəsi və kütləvi istehlakçının tədiyə qabiliyyətinin səviyyəsi daxil edilir.

KVANTİL (ing. *Quantile*) – təsadüfi ölçünün rəqəmli ifadəsi. Təsadüfi ölçünün bölüşdürülməsi funksiyası kəsilməzdirsə, onda p əsaslı Kp kvantili $X<Kp$ qeyri-bərabərlik ehtimalı p-yə bərabər olduğu rəqəm kimi müəyyən edilir. K-dan belə çıxır ki, $Kp<X<Kp$ qeyri-bərabərlik ehtimalı p-ya bərabərdir. Kvantil *K1/2* təsadüf ölçüsü olan X-nin mediandır. *K1/4* və *K3/4* kvantilləri kvartil, *K0,1*, *K0,2....*, *K0,9* isə detsil adlanır. *K0,01,....., K0,99* kvantilləri – prosentillərdir.

"KVANTOS" – forvard valyuta müqaviləsi üçün opsionun (alternativ gəlir) bir növü; müqavilənin məbləği məzənnənin dəyişməsindən asılı olaraq dəyişir, opsion mükafat (alternativ gəlir) isə forvard məzənnəsinə daxil olur.

KVAZİ DÖVLƏT BANKI – xüsusi mülkiyyətdə olan, lakin hökumət tərəfindən nəzarət olunan bank; ABŞ-ın federal ehtiyat banklarından biri.

KVAZİ PULLAR – Beynəlxalq Valyuta Fondunun metodologiyasına görə kommersiya banklarında olan müddətli və zəmanətli əmanətlərdə nağdsız formada pul vəsaitləri mənasında işlədilir.

KVAZİKORPORASİYA – təşkilati (institusional) vahidlərin bir forması. İki növü var: 1) təşkilati (institusional) rezident vahidlərinə aid olan və kooperasiya olunmayan müəssisə müstəqil korporasiya (şirkət) kimi fəaliyyət göstərir, onun sahibinə faktiki münasibət səhmdar şirkətlərində olduğu kimidir, belə müəssisələrdə bütün hesablar tərtib edilir; 2) qeyri-rezident vahidlərə aid olan kooperasiya olunmayan müəssisə fəaliyyət göstərir və ölkənin iqtisadi ərazi sərhədləri daxilində uzun müddət və ya qeyri-müəyyən dövrdə istehsalla məşğul olur. Burada kvazikorporasiya (*quasi-corporation*) korporasiya olmayan, şirkətlərə daxil olmayan, kooperativləşməyən müstəqil müəssisə kimi nəzərdə tutulur.

KVİNTİL – ev təsərrüfatlarının sərəncamda qalan gəlirlərini artan qaydada düzərək, ev təsərrüfatlarının sayına görə 20%-lik 5 bərabər qrupun yaradılması. Bu zaman birinci kvintilə ən az gəlirləri olan, beşinci kvintilə isə ən çox gəlirləri olan ev təsərrüfatları düşür. Desil (10%) qruplarında eyni qayda ilə məlumatlar düzülərək, 10 bərabər hissəyə bölünür. Təhlil və müqayisə üçün eyni göstəricilər istehlak xərclərinə görə də hesablanır.

Azərbaycanda tətbiq olunmuş göstəricilərin əksəriyyəti beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Qruplar ilk dəfə olaraq yüksək analitik keyfiyyətə malik olan SPSS proqram paketindən istifadə əsasında hazırlanmış, yekun cədvəllər alınmışdır. Tədqiqatda bütün seçmə müşahidələrə xas olan bir sıra göstəricilərin baş məcmudan orta hesabi kənarlaşması və bəzi göstəricilərin çatışmazlığı halları mövcuddur.

KVOTA (lat. *quota* – hər kəsə düşən hissə) – 1. Birgə işdə (istehsalda, satışda, ixrac-idxalda və s.) mümkün iştirak payı. Kvota iqtisadi agentə münasibətdə onun bu kvotanı ala biləcəyi payın həddi ölçüsüdür. Kvotalaşma başlıca olaraq birgə alınan gələcək mənfəətdə iqtisadi agentlərin məhdudlaşdırılması məqsədini güdür. Məsələn, sığortaçıların sığorta pullarında (yəni birliklərində) iştirakı kvotalı sığortaçı tərəfindən qəbul edilən məsuliyyət və deməli, müəyyən obyektin birgə sığortalanması və ya təkrar sığortalanması zamanı onların aldığı mənfəət payıdır. 2. Beynəlxalq ticarətdə ölkəyə ixrac oluna bilən (ixrac kvotası) və ya idxal oluna bilən (idxal kvotası) əmtəələrin dəyəri və ya miqdarı. Kvotalaşma xarici ticarət axınlarının qeyri-tarif tənzimlənməsi formasıdır. Kvotalar müəyyən dövrdə, müəyyən əmtəə və xidmətlər üzrə, ölkələr və ölkələr qrupu üzrə müəyyən oluna bilər. İxrac kvotalaşması – əmtəələrin ixrac üçün təklif edilməsinin məhdudlaşdırılması və ixrac qiymətlərinin və deməli, ixracdan gələn vergilərin azalmasının qarşısının alınması üsuludur. Bir sıra hallarda ixrac kvotalarının müəyyən edilməsi daxili bazarda əmtəənin qiymətinin həddən artıq artırılmasına yol verməməkdən ötrü ölkə daxilində həmin əmtəənin təklifini təmin etmək üçün yönəldilə bilər. İdxalın kvotalaşması, bir qayda olaraq, ölkə istehsalçılarının müdafiəsi məqsədini güdür, lakin həmçinin idxal edən ölkəyə iqtisadi təzyiq forması kimi tətbiq oluna bilər. İdxal kvotalarının iki növü fərqləndirilir: 1) Mütləq kvota – ölkəyə gətirilmək (idxal) üçün icazə verilən məhsulun miqdarı; tarif kvotası – azaldılmış dərəcə üzrə rüsumun ödənilməsi ilə müəyyən dövr ərzində konkret əmtəənin gətirilməsinə (idxalına) icazə verilməsi; 2) immiqrasiya kvotası – ölkəyə gələn immiqrantların son həddi miqdarıdır.

KVOTA TƏKRAR SIĞORTA MÜQAVİLƏSİ – elə müqavilədir ki, bunun şərtlərinə uyğun olaraq sığorta şirkəti sığortanın müəyyən növü və ya qarışıq sığorta qrupu üzrə sığortaya qəbul edilmiş bütün istisnasız riskləri təkrar sığortaçılarla razılaşdırılmış payda təkrar sığortaya verir. Kvota təkrar sığorta müqaviləsinə görə sedentin portfelində və ya onun portfelinin bir hissəsində təkrar sığortaçının payı (kvotası) hər bir sığorta polisi üçün sığorta məbləğindən asılı olmayan, təsbit olunmuş faiz nisbəti kimi müəyyən edilir.

KVOTA TƏKRAR SIĞORTASI – təkrar sığortanın ən sadə metodu kimi onun şərtlərinə görə təkrar sığortalı müəyyən sığorta növləri üzrə onun bağladığı bütün müqavilələr üzrə sığorta mükafatının razılaşdırılmış hissəsinin təkrar sığortaya verilməsini öhdəsinə götürür, təkrar sığortaçı isə, öz növbəsində, bu hissəni təkrar sığortalamalıdır, yəni təkrar sığortaçı hər bir sövdədə öz payına malikdir.

Q

QABAQCADAN AKSEPT (ing. *preliminary acceptance*) – bu halda bank yalnız tədiyəçinin icazəsi ilə ödəniş aparır. Əgər tədiyəçi ödənişdən imtina etdiyini bankın müəyyən etdiyi müddətdə bildirməmişsə, bu müddət keçdikdən sonra tələbin ödənilməsi həyata keçirilir. Tədiyə tələbnaməsi ödəniş müddəti başa çatandan sonrakı gün ödənilir.

QABAQLAYICI ZƏRBƏLƏRLƏ MÜDAFİƏ – bir qayda olaraq, yeni mal növlərinin işlənməsindən və yeniliklərin tətbiqindən ibarət olan fəaliyyət növü.

QABARMA – bazarda qiymətlərin qəfil qalxmasını izah etmək üçün jarqon termin kimi istifadə edilir.

QAÇAQMAL – gömrük nəzarətindən gizlədilməklə, qanunsuz yolla dövlət sərhədindən keçirilən mal.


QAÇAQMALÇILIQ – əksər hallarda (lakin həmişə deyil) maliyyə gəliri əldə etmək məqsədilə miqrasiya ilə əlaqədar sərhədlərin qeyri-qanuni keçilməsinə kömək etmə.

QAÇQINLAR – əsaslı təqiblərə məruz qalaraq öz doğma yurdlarını tərk etmiş və ora qayıtmaq imkanı olmayan insanlar. Onların hüquqi vəziyyəti BMT-nin "Qaçqın statusu" haqqında Konvensiyası və müvafiq qaydada milli qanunvericiliklə müəyyən edilir.



Azərbaycan Respublikasının qanunvericiliyində qaçqın anlayışı belə müəyyən olunur: "Qaçqın Azərbaycan Respublikasının vətəndaşı olmayıb, irqi əlamətinə, milliyyətinə, dini etiqadına, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaq barəsində tam əsaslı ehtiyat üzündən vətəndaşı olduğu ölkədən kənarda qalan və eyni ehtiyat üzündən həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən, yaxud müəyyən vətəndaşlığı olmayıb oxşar hallar nəticəsində əvvəl, adətən, yaşadığı ölkədən kənarda qalan, ehtiyat üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir".

Şəxslərin qaçqın kimi tanınması qanun çərçivəsində həyata keçirilir. Ölkə ərazisinə gələn və gəlmək arzusunda olan vətəndaş və ya vətəndaşlığı olmayan, qanun əsasında ölkənin ərazisinə gələn xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs qaçqın kimi tanınması barədə xahiş edə bilər.



Erməni təcavüzünə məruz qalmış azərbaycanlıların çadır düşərgələri

Azərbaycan Respublikası qanunvericiliyinə görə, aşağıdakı şəxslərə qaçqın statusu verilmir:

– Beynəlxalq hüquqda təyin edildiyi kimi, sülhə qarşı cinayət, hərbi cinayət, bəşəriyyətə və ya insanlığa qarşı cinayət törətdiyi müəyyənləşdirilmiş şəxslərə;

– Azərbaycan Respublikasının ərazisinə gələnə qədər onun hüdudlarından kənarda qeyri-siyasi xarakterli ağır cinayət törətmiş şəxslərə;

– Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd əməllər törətməkdə müqəssir olan şəxslərə.

İldən-ilə bütün dünyada qaçqın və məcburi köçkünlərin axını artmaqdadır. 1950-ci ildə BMT QAK yarandığı vaxt onun mandatı 1 mln. qaçqınadək genişlənmişdi. İndi isə bu rəqəm 19 mln.-u ötmüşdür. 1951-ci ildə qaçqınların çoxu avropalılar idi. Bu gün üstünlüyü Asiya və Afrikadan olan qaçqınlar təşkil edir. Keçmişdən fərqli olaraq, bu gün qaçqınların axını ayrı-ayrı insanların şəxsində yox, kütləvi şəkildə müşahidə olunur. Qaçqınların 80%-ni qadınlar və uşaqlar təşkil edir. Kütləvi axının səbəbləri də müxtəlifdir. Onlara müharibələri, təbii fəlakətləri, ekoloji qəzaları və yoxsulluğu aid etmək olar.

Qaçqınlar problemi beynəlxalq cəmiyyətlərin bir-birindən asılılığına klassik nümunədir. Bu, bir ölkənin probleminin başqa bir ölkəyə bilavasitə təsirini açıq-aydın göstərir. Bundan əlavə, qaçqınlar problemi ilə insan hüquqlarına riayət arasında qarşılıqlı əlaqə mövcuddur.

Qaçqınlar, onlara sığınacaq verilməsi üçün müraciət etdikdən əvvəl və sonra, onların müraciətlərinə baxılma müddətində və istəklərinin təmin edilməsindən sonra belə riayət olunmalı hüquqlara malikdirlər. İnsan hüquqlarına riayət bu gün qaçqınların axınının qarşısını alınmasından əlavə, onlarla əlaqədar problemlərin həllində labüd şərtlərdən hesab olunur.

"...İşğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir."

Heydər Əliyev



Xocalı soyqırımı



Qaçqınlar üçün tikilmiş yeni binalar

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 20 min nəfər azərbaycanlı həlak olmuş, 4866 nəfər itkin düşmüş, 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuş, bir milyondan çox insan isə məcburi köçkün və qaçqın olaraq öz tarixən yaşadığı əraziləri, doğma yurdlarını tərk etməyə məcbur olmuşlar.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 19 sentyabr tarixli Fərmanı ilə daimi yaşayış yerlərinin tərk etməyə məcbur olmuş şəxslərin qəbulu, yerləşdirilməsi və güzəranları ilə əlaqədar məsələləri həll etmək və bu sahədə respublikanın sovet, təsərrüfat, inzibati və ictimai təşkilatlarının fəaliyyətlərini əlaqələndirmək məqsədilə "Daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərlə iş üzrə Azərbaycan SSR Dövlət Komitəsi" kimi yaradılmışdır.

1992-ci ildə Azərbaycan Respublikasının "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Qanununun qəbul edilməsi ilə əlaqədar olaraq Komitənin adının adı çəkilən qanunun tələblərinə uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 1993-cü il 5 yanvar tarixli 396 nömrəli Fərmanı ilə "Daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərlə iş üzrə Azərbaycan SSR Dövlət Komitəsi"nin adı dəyişdirilərək "Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi" adlandırılmışdır.

Komitənin əsas vəzifələri qaçqınların və məcburi köçkünlərin müvəqqəti məskunlaşdırılması, repatriasiyası, sosial müdafiəsi, işğaldan azad olunmuş ərazilərdə onların sosial, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və əsaslarla "qaçqın" və ya "məcburi köçkün" statusu, həmin statusu təsdiq edən sənəd (vəsiqə) vermək və bu statusdan məhrum etmək, qaçqın və məcburi köçkün düşmüş şəxslərin hüquqlarının kütləvi şəkildə pozulması faktının beynəlxalq və yerli ictimaiyyətə çatdırılmasını aidiyyəti icra hakimiyyəti orqanları vasitəsilə

...Artıq üç ildir ki, Azərbaycanda "çadır şəhərciyi" anlayışı yoxdur. Biz bu vəzifəni qısa müddət ərzində icra etdik. İndi belə gözəl, yaraşıqlı evləri tikirik ki, soydaşlarımız müvəqqəti olaraq yaxşı şəraitdə yaşasınlar.

İlham Əliyev



Qaçqınlar üçün salınmış yeni qəsəbələr

həyata keçirmək, məskunlaşma yerləri üzrə qaçqınların və məcburi köçkünlərin uçotunu aparmaq, onlar haqqında vahid informasiya bazasının yaradılmasını təşkil etmək, müvəqqəti məskunlaşdıqları yerlərdə və repatriasiya dövründə müxtəlif növ reabilitasiya və reinteqrasiya tədbirlərini həyata keçirmək, məşğulluğun artırılması, yoxsulluğun azaldılması, qaçqınların və məcburi köçkünlərin məcburi tərk etdikləri yaşayış yerlərinə qayıtmalarına şərait yaratmaq məqsədi ilə müvafiq dövlət orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə məqsədyönlü iş aparılması, onlar üçün mənzil və sosial obyektlərin, təmir-tikinti işlərinin aparılması, tikinti obyektlərini müvafiq layihə-smeta sənədləri ilə təminatı və s. problemlərin həlli sahəsində dövlət siyasətinin formalaşmasında iştirak etmək və onun həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Komitənin hüquqlarına qaçqınların, məcburi köçkünlərin və "qaçqın" statusu almaq niyyətində olan (sığınacaq axtaran) şəxslərin problemlərinin həlli üzrə aidiyyəti dövlət orqanlarına təkliflər vermək, onların qarşısında məsələ qaldırmaq, həmin şəxslərin miqrasiyası sahəsində dövlət və qeyri-hökumət təşkilatları ilə birgə müvafiq tədbirlər görmək, komitənin səlahiyyətlərinə aid olan məsələlər üzrə qanunvericilik aktlarının layihələrini hazırlayıb müvafiq dövlət orqanlarına təqdim etmək, məcburi köçkünlərə aylıq yemək xərcləri üçün müavinətin və yardımın ünvanlı çatdırılmasına nəzarət etmək, qanunvericiliklə müəyyən edilmiş qaydada səlahiyyətlərinə dair məsələlərin icrası ilə bağlı təlimatlar, qaydalar və digər normativ sənədlər hazırlayaraq müvafiq orqanlar ilə razılaşdırmaqla təsdiq etmək, xarici, yerli, hüquqi və fiziki şəxslərdən qrant və yardımlar almaq və s. daxildir.

Qaçqın və məcburi köçkünlərin bütün sosial problemləri Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" və həmin Sərəncamın icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 noyabr tarixli 232 nömrəli sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planında öz əksini tapmışdır.

Proqrama uyğun olaraq, 2004-2008-ci illərdə məcburi köçkünlər üçün yeni qəsəbələrin salınması məqsədilə 486 milyon manat həcmində vəsait (Dövlət Neft Fondundan 466 mln. manat, qrant, güzəştli kredit vəsaiti 17,5 mln. manat və investisiya vəsaiti 2,7 mln. manat) sərf edilmişdir. O cümlədən 2008-ci ildə bu məqsədlə 146,8 milyon manat həcmində vəsait (Dövlət Neft Fondundan 145 mln. manat və investisiya vəsaiti 1,8 mln. manat) ayrılmışdır.

Həmçinin proqrama əsasən həmin dövr ərzində 10401 ailə 47 min nəfər məcburi köçkün üçün 36 qəsəbə salınmışdır. 534 min kvadrat metr yaşayış sahəsinə malik həmin qəsəbələrdə həmçinin 34 məktəb, 4 musiqi məktəbi, 18 uşaq bağçası, 26 tibb müəssisəsi, 21 rabitə evi, 22 klub – icma mərkəzi, 29 inzibati bina, 5 yanğın postu tikilib istifadəyə verilmiş, 366 kilometr yol, 438 kilometr su xətti, 583 kilometr elektrik hava xətti çəkilmiş, 141 ədəd artezian quyusu qazılmış, müxtəlif həcmə malik 48 su anbarı, 20 nasos stansiyası inşa edilmiş, 349 transformator quraşdırılmış, 2650 hektar sahədə minadan təmizləmə işləri aparılmışdır.

Saatlı və Sabirabad rayonların-



Qaçqınlar üçün tikilmiş yeni məktəb binası

dakı son 3 çadır düşərgəsinin ləğvi 2007-ci ilin dekabrında təmin edilmiş, beləliklə, ölkəmizdə mövcud olan 12 çadır düşərgəsinin ləğvi başa çatdırılmışdır. Respublikamızda qalan 7 çadır düşərgəsi (Bərdə rayonunda 3, Ağcabədi rayonunda 1, Saatlı və Sabirabad rayonlarında 3 çadır düşərgəsi) ləğv edilmiş, həmin düşərgələrdə, həmçinin Bərdə və İmişli rayonları ərazisindəki dəmir yolu üzərindəki yük vaqonlarında müvəqqəti məskunlaşmış 8039 ailə 35 min nəfər məcburi köçkün üçün Ağdam, Ağcabədi, Biləsuvar, Sabirabad və Füzuli rayonlarının ərazisində 408 min kvadrat metr sahəyə malik 26 qəsəbə salınmış, həmçinin 27 məktəb, 3 musiqi məktəbi, 16 uşaq bağçası, 22 tibb müəssisəsi, 18 rabitə evi, 19 klub – icma mərkəzi tikilib istifadəyə verilmiş, 283 kilometr yol, 328 kilometr su xətti, 438 kilometr elektrik hava xətti çəkilmiş və məcburi köçkünlərin həmin qəsəbələrə köçürülməsi təmin edilmişdir.

Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə ölkə başçısı tərəfindən qarşıya qoyulmuş vəzifələrin, habelə bu sahədə mövcud olan normativ-hüquqi sənədlərin yerinə yetirilməsi ilə əlaqədar 2009-cu ildə də yuxarıda göstərilən tədbirlərin davamı olaraq 309,9 milyon manat vəsait (192,9 milyon manat büdcə, 90 milyon manatı Dövlət Neft Fondunun, 27 milyon manatı isə beynəlxalq humanitar və inkişaf təşkilatlarının vəsaiti), 2010-cu ildə 339,1 milyon manat vəsait sərf edilmişdir (207,1 milyon manat büdcə, 105 milyon manatı Dövlət Neft Fondunun, 27 milyon manatı isə beynəlxalq humanitar və inkişaf təşkilatlarının vəsaiti). 2010-cu ildə məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılmasına Dövlət Neft Fondundan 105 milyon manat vəsait sərf edilmişdir. 2010-cu ildə 7047 nəfərdən ibarət 1566 məcburi köçkün ailəsi yeni tikilmiş qəsəbələrdə və hündürmərtəbəli binalarda olan mənzillərə köçürülməklə mənzil-məişət şəraitləri yaxşılaşdırılmışdır. Görülən tədbirlər nəticəsində çadır düşərgələrinin tamamilə ləğvinə nail olunmuşdur.

QAFAROV ŞAMİL SALEH OĞLU (1950) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1980-ci



ildə "İctimai əmək bölgüsü qanunu və inkişaf etmiş sosializmdə onun fəaliyyəti" mövzusunda namizədlik, 2001-ci ildə isə "İctimai əmək bölgüsünün sosial-iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 4 kitab, 1 dərslik və 120-dən artıq məqalənin müəllifidir.

1998-2004-cü illərdə Almaniya Akademik Mübadilə Xidməti Müsabiqəsinin qalibi olmuşdur. Alman professoru Ulli Arnoldla birlikdə "Azərbaycana birbaşa investisiya – alman investorlarına kömək mexanizmi" kitabını 1999-cu ildə Almaniyada nəşr etdirmişdir. 1998-2005-ci illərdə Bakı Dövlət Universitetinin "İqtisadi nəzəriyyə" kafedrasının müdiri olmuşdur. Azərbaycan Dövlət İqtisad Universitetinin professorudur.

"QALAN DÜNYA" BÖLMƏSİ (sektoru) – rezident vahidlərlə iqtisadi əlaqələri olan (saziş bağlayan, transfer həyata keçirən və s.) xarici ölkələrin institusional vahidlərinin məcmusu. Bunlar ölkənin sərhədlərindən xaricdə yerləşən korporasiyalar, kvazikorporasiyalar, qeyri-kommersiya təşkilatları, ev təsərrüfatları da ola bilərlər. Fiziki olaraq ölkə ərazisində yerləşən qeyri-rezident vahidlər (səfirlik, konsulluq, hərbi baza), eyni zamanda beynəlxalq təşkilatlar da "Qalan dünya" bölməsinə aid edilir.

"Qalan dünya" bölməsinin hesab və cədvəlləri rezidentlər və qeyri-rezidentlər arasındakı əməliyyat və digər iqtisadi əlaqələri (məsələn, öhdəlikləri) əks etdirir.

"Qalan dünya" hesabı – Milli Hesablar Sisteminin hesablarından biri. Müəyyən ölkə ilə ölkələr arasında aparılan maliyyə əməliyyatlarının bütün növləri əks olunur. Bu hesab qalan dünya ölkələrinin nöqteyi-nəzərindən tərtib olunur. Buna görə də qalan ölkələr üçün ehtiyat sayılan şey müvafiq ölkənin iqtisadiyyatı üçün istifadə növü olur və əksinə.

"Qalan dünya" ölkələri hesabına daxildir:

– əmtəə və xidmətlərin xarici hesabları;

– ilkin gəlirlərin və cari transferlərin xarici hesabları;

– yığımların xarici hesabları;

– aktiv və öhdəliklərin xarici hesabı.

Xarici hesabın balanslaşdırıcı maddəsinin müsbət qiyməti:

– "Qalan dünya" üçün gəliri və müvafiq ölkənin iqtisadiyyatı üçün kəsiri və ya əksini göstərir;
– "Qalan dünya" ölkələrinin aldıqları ehtiyatları və öhdəlikləri, əmək haqlarını, xüsusi mülkiyyətdən gəlirləri, istehsala və idxala xalis vergiləri, cari vergiləri, sosial üzvlük haqlarını və müavinətləri, digər cari transferləri əhatə edir. Başqa sözlə, bir növ xarici hesabların yekunudur;
– "Qalan dünya" ölkələrinin "xalis kredit vermə və ya xalis borc vermə" balanslaşdırıcı maddəsi hesab edilir.

QALİANİ FERDİNANDO (1727-1787) – XVIII əsrdə Qaliani fiziokratların aparıcı tənqidçisi və subyektiv dəyər nəzəriyyəsinin əsas tərəfdarı idi. İtaliyanın Neopolitan krallığında anadan olan Qaliani klassik təhsil alaraq, dövlət qulluğunda



çalışmışdır. O, dövrünün tanınmış mütəfəkkirlərindən olan Didro, Volter, Türqo və xüsusilə də böyük italiyalı tarixçi və filosof Cambatista Viko kimi aparıcı alimlərlə yazışmışdır. Kifayət qədər geniş spektrli yaradıcılıqla məşğul olan Qaliani 24 yaşında ümumi siyasi traktatın bir hissəsi kimi nəzərdə tutulmuş "Pul haqqında" (1751) möhtəşəm kitabını yazmışdır. Lokkun traktatlarının təsiri altında yazılmış bir neçə fəsillə yanaşı, burada faydalılıqla əlaqədar və həmçinin son həddə faydalığına və qiymət üzrə tələbin elastikliyinə əsaslanan dəyər nəzəriyyəsi də müzakirə olunur. Qaliani faydalılıqla nadirlik, insanların üstünlük vermələri və xarici nemətlərin əlçatmazlığı arasındakı subyektiv münasibətdəki ziddiyyətlərdən çıxış edirdi. Bu ziddiyyət Qalianidən əvvəl bir çox nəzəriyyələrdə mövcud idi. Lakin Qaliani konseptual nöqteyi-nəzərdən bir addım qabağa gedərək, faydalılığı "əmtəənin bizi xoşbəxt edə biləcək xüsusiyyəti", yəni əmtəələrin özlərinə deyil, məhz bizim dəyişkən üstün verməmizə aid olan element kimi müəyyən etmişdir. Qalianiyə qədər analoji fikirlər irəli sürülsə də, həmin müəlliflərdən heç biri dəyər nəzəriyyəsini inkişaf etdirilmiş qiymət nəzəriyyəsinə çevirə bilməmişdir.

"Pul haqqında" kitabdan 20 il sonra Qaliani Kenenin və bütövlükdə fiziokratlar məktəbinin tənqidçisi kimi "Çörək ticarəti haqqında dialoq" kitabını nəşr

Qantın qrafikinin nümunəsi

Tədbirlər	Dövrlər (həftələr, aylar və s.)										
	1	2	3	4	5	6	7	8	9	10	11
I tədbirlər	→	→									
II tədbirlər	→	→									
III tədbirlər			→	→	→						
IV tədbirlər						→	→	→			
V tədbirlər									→	→	
VI tədbirlər											
VII tədbirlər											→

Qrafik 1

etdirdi (1770). Burada Qalianinin əsas hücum obyekti fiziokratların çörək ticarətinin azadlığına inamı idi.

QANTIN QRAFİKİ – operativ istehsal planlaşdırılması prosesində istehsalın vəziyyətinin və gedişinin əyani təsvirinin ən geniş yayılmış metodlarından biri. Bu qrafikdə (adətən, xətti struktur) şaquli xətt üzrə bütün yerinə yetirilən işlərin, eləcə də onların icraçılarının siyahısı, üfüqi xətt üzrə hər bir işin yerinə yetirilməsi üçün ayrılan zaman kəsiyi göstərilmişdir. Zaman vahidlərində – saat, gün və s. bu kəsiklər hər bir icraçı tərəfindən yerinə yetirilən işlərin həcminə, onun məhsuldarlığına uyğun gəlir. Qrafikin əsas prinsipi bu işlərin planlı kompleksinin ümumi reallaşma müddətinin azaldılması üçün müxtəlif işlərin paralel yerinə yetirilməsi imkanlarının maksimum istifadə edilməsidir.

Qrafikin adı F.Teylorun yaxın əməkdaşlarından biri, onu tərtib edən amerikalı alim və mühəndis Q.L.Qantın adından götürülmüşdür (bax: qrafik 1).

QANUN (hüquqda) – ali dövlət hakimiyyəti orqanlarının müəyyən olunmuş qaydada qəbul etdiyi normativ akt; digər dövlət orqanları və ictimai təşkilatların aktlarına münasibətdə ali hüquqi qüvvəyə malikdir. Qanun müasir cəmiyyətdə hüquqi ifadənin formasıdır. Qanunun ali hüquqi qüvvəsi onun rəddedilməzliyində (qanunverici orqandan başqa heç bir orqan qanunu ləğv edə, yaxud dəyişdirə bilməz) və digər dövlət aktlarının ona tam müvafiq olmasındadır. Qanunlar hüquq normalarının əhəmiyyətinə və xarakterinə görə konstitusiya qanunlarına və adi qanunlara bölünür. Konstitusiya qanunlarında ictimai və dövlət quruluşunun əsasları və prinsipləri, dövlət orqanlarının yaranması, fəaliyyəti, habelə səlahiyyəti, seçki sistemi, vətəndaşların əsas hüquq və vəzifələri təsbit edilir.

QANUNLARIN KOLLİZİYASI – eyni məsələ üzrə nəşr olunmuş və qüvvədə olan iki və daha artıq normativ aktın mahiyyətcə bir-birinə zidd olması. Eyni hüquq orqanı tərəfindən dərc edilmiş aktlar arasında ziddiyyət olarsa, daha gec dərc olunmuş akt qəbul edilir. Ümumi və xüsusi aktlar arasında fikir ayrılığı olduğu zaman üstünlük xüsusiyə verilir. Qanunlar kolliziyası həmçinin müxtəlif dövlətlərin hüquqi aktları arasında mümkündür. Bu cür kolliziya bu və ya digər halda hansı dövlətin qanunlarına müraciət etməyi müəyyən edən kolliziya normaları əsasında həll edilir.

QANUN ÜZRƏ LİSENZİYA – əsərdən və ya əlaqəli hüquqların obyektlərindən istifadəyə qanunvericiliklə müəyyən edilmiş xüsusi icazə növü. Qanun üzrə lisenziyanın (icazənin) verilməsi üçün müəllifin razılığı tələb olunmur. Belə icazə əsasında istifadə halları "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 37-ci maddəsində nəzərdə tutulmuşdur. Belə istifadəyə görə müəyyən edilmiş qaydada qonorar ödənilməlidir.

QANUNSUZ ÖDƏNİŞLƏR – rəqabət mübarizəsində əsassız (haqsız) üstünlüklər əldə etmək məqsədi ilə dövlət orqanlarının vəzifəli şəxslərini, siyasi partiyalarda rəhbər vəzifə tutan şəxsləri, kütləvi informasiya vasitələri işçilərini, bazar subyektlərinin rəhbərliyini və əməkdaşlarını öz tərəfinə çəkmək üçün nəzərdə tutulan maddi və ya qeyri-maddi xarakterli ödənişlər.

QAP (ing. *gap* – ayrılıq) – birja əmtəəsinin qiymətinin kəskin aşağı düşməsi nəticəsində həmin gün ərzində onun maksimal qiymətinin dünənki minimal qiymətdən aşağı olması (və ya artması).

QAPALI AUKSİON (hərrac) – auksionun bu növündə bütün alıcılar eyni vaxtda yazılı sifarişlər şəklində öz qiymətlərini təklif edir. Mal isə hansı alıcının təklif etdiyi qiymət daha yüksək olarsa, ona satılır və ya öz malına görə ən aşağı qiymət tələb etmiş satıcıdan alınır. Bu növ auksionlar daşınmaz əmlak obyektlərinin satışı, dövlət sifarişlərinin yerləşdirilməsi və başqa hallarda tətbiq edilir.

QAPALI FOND – investisiya fondu. İnvestisiya paylarının sahibləri şirkət rəhbərindən investisiya fondlarının idarəetmə müqaviləsinin dayandırılmasını (qanunvericiliklə nəzərdə tutulan hallar istisna olmaqla), onun fəaliyyət müddəti bitənə qədər tələb edə bilməzlər.

Qapalı pay investisiya fondlarının etibar olunan idarəsinə təsisçilər pul vəsaitlərini, həmçinin investisiya bəyannaməsi ilə nəzərdə tutulan digər əmlakı verə bilərlər. Bundan başqa, qapalı pay fondu daşınmaz əmlak obyektlərinə kapital qoyuluşunu həyata keçirməyə şərait yaradır.

QAPALI GÜZƏŞT – firmadaxili malgöndərmələrdə beynəlxalq sindikatın daxili ticarət məhsulları, o cümlədən hökumətlərarası xüsusi sazişlər üzrə tədarük edilən mallar üçün təqdim olunan qiymət güzəşti.

QAPALI İQTİSADİYYAT – xarici iqtisadi əlaqələri məhdud, özünün bütün zəruri tələbatını müstəqil təmin etmək iqtidarında olan, təcridə meyil edən müstəqil təsərrüfat sistemi. Təcridolunma nəzəriyyəsinin yaranması XIX əsrə aiddir. Bu nəzəriyyə daha çox görkəmli alman filosofu İ.Q.Fixtenin (1762-1814) 1788-ci ildə dərc edilmiş "Qapalı ticarət dövləti" adlı əsərində öz əksini tapır. Təcridolunma nəzəriyyəsi beynəlxalq ticarətin faydalı olmasını tamamilə inkar edir və tam özünütəminat məsələsini qarşıya qoyur. Bu isə dövlətin beynəlxalq əmtəə, xidmətlər və kapitallar mübadiləsi axınlarından təcrid olunmasına gətirib çıxarır. Əksər hallarda təcridolunma məqsədi müharibəyə hazırlıq və ya müharibənin özü olur. O, idxalın çox hissəsindən imtina edilməsi və valyuta əməliyyatlarına nəzarətlə, əvəzedicilər istehsalının stimullaşdırılması, daxili tələbatı ödəmək üçün ölkənin bütün imkanlarından istifadə edilməsi ilə səciyyələndirilir.

Siyasi və iqtisadi böhran şəraitində özünütəcrid mövqeyi tutmaq iqtisadiyyatın qorunub saxlanmasına müəyyən dərəcədə kömək edir, lakin əksər hallarda bu cür siyasət daha çox siyasi maraqlardan irəli gəlir. Belə hesab edirlər ki, Almaniyanın və keçmiş Sovet İttifaqının sərt inzibati-amirlik siyasəti milli təcridolunma modelinin təcrübədə reallaşdırılmasına maksimum dərəcədə yaxınlaşmışdır.

Təcridolunma dövlətin çatışmayan ehtiyatlarının artımını təmin edən mübadilə və ya yeni ərazilərin fəthi yolu ilə öz resurs imkanlarını genişləndirmək cəhdindən irəli gəlir. 1936-cı ildən sonra Almaniya Mərkəzi və Cənubi Avropada, 1940-cı ildən sonra isə Qərbi Avropanın işğal edilmiş ölkələrində məhz bu cür siyasət yeridirdi. Bu siyasət "Böyük Almaniya məkanı" şəklində inteqrasiya olunmuş dövlətlərin istismar edilməsini özündə əks etdirirdi.

Ən sadə model – dairəvi baza axını deyilən modeldir: belə iqtisadiyyatda əhali ilə sahibkarlar arasında əmtəə və xidmətlər axını tədiyyələr axını vasitəsilə həyata keçirilir. Bu halda əhali və sahibkarlar bir-birinə iki növ bazarla bağlı olur:

– əhalinin tələbinin, sahibkarların isə təklifinin formalaşdığı əmtəə və xidmətlər bazarları ilə;

– əsas istehsal amilləri (torpaq, işçi qüvvəsi, kapital), sahibkarların isə alıcılar rolunda çıxış etdiyi istehsal amilləri bazarı ilə. Bu halda əhali əldə etdiyi bütün gəlirlərini əmtəə və xidmətlərin alınmasına xərcləyir, sahibkarlar isə istehsal etdikləri əmtəələri satırlar.

QAPALI İNVESTİSİYA FONDU – buraxılan səhmləri fondun səhmdarlarından geri satın almaq öhdəliyi olmayan investisiya fondu.

QAPALI İPOTEKA – əmlakın girov qoyulması barədə müqavilə. Vaxtından əvvəl ödənilməsi və təkrar istifadəsi qadağan olunmaqla kredit öhdəliyini təmin edir.

QAPALI TENDER – tender keçirənin əvvəlcədən müəyyənləşdirdiyi məhdud sayda potensial iddiaçılar arasında keçirilən tender.

QAPANMA (ləğvetmə) – müəssisənin (təşkilatın) fəaliyyətinin dayandırılması; müəyyən sövdələşməyə uyğun son hesablaşma, birjada alınmış müqavilənin satışı və s.

Əsas vəsaitlərin ləğv edilməsi – əsas köhnəlmiş vəsaitlərin müəssisə balansından silinməsidir (dövriyyədən çıxarılması).

Hüquqi şəxsin ləğv edilməsi – onun iqtisadi və hüquqi fəaliyyətinin dayandırılmasıdır. Bu halda hüquq və öhdəliklər hüquqi varislik qaydasına görə digər şəxslərə keçmir.

QARA BAZAR – qadağan edilmiş, çatışmayan, oğurlanmış, qanunsuz yolla əldə edilmiş malların ticarəti aparılan və ya açıq ticarət arzusunda olmayan şəxslər tərəfindən ticarət aparılan və gizli formada fəaliyyət göstərən əmtəə, valyuta, qiymətli kağızlar bazarı.

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI (QDİƏT) – 1990-cı ilin aprelində Türkiyə Qara dəniz rayonunda rüsumsuz ticarətə, vətəndaşların vizasız səfərinə, sərbəst valyuta mübadiləsinin və Qara dənizin ətraf mühitinin sağlamlaşdırılmasına yönəldilən ekoloji tədbirlərin həyata keçirilməsi üçün xüsusi regional təşkilatın yaradılması təşəbbüsü ilə çıxış etmişdir. Bu təşəbbüsün reallaşması üçün 1992-ci ildə Qara dənizin ətrafında yerləşən ölkə-

lər Qara dəniz əməkdaşlığı haqqında Bəyannamə qəbul etmişlər. Sənədin əsas ideyası bazar iqtisadiyyatının prinsipləri əsasında dünya təsərrüfatına inteqrasiya, işçi qüvvəsinin, kapital, mal və xidmətlərin sərbəst hərəkəti və Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılması ilə səciyyələndirilir (QDİƏT).

Azərbaycan Respublikası QDİƏT çərçivəsində iqtisadi inteqrasiya proseslərində iştirak edir. Azərbaycan Respublikası QDİƏT-in yaradılmasının ilk mərhələsindən başlayaraq təşkilatın fəaliyyətində, Bosfor Qətnaməsi və İstanbul Bəyannaməsinin hazırlanmasında iştirak etmişdir. Azərbaycan 1992-ci ildən təşkilatın üzvüdür. Bu günə kimi Azərbaycan Respublikası QDİƏT çərçivəsində 11-dən çox müxtəlif rəsmi sənədin hazırlanmasında və qəbulunda iştirak etmişdir. Azərbaycan Respublikası bu təşkilatın bir sıra işçi qruplarında, o cümlədən regionda ticarətin liberallaşdırılmasını (sərbəstləşdirilməsini) təmin edən sənədlərin hazırlanması məqsədilə toplanan qrupların iclaslarında fəal iştirak edir. 2005-2007-ci illər ərzində Azərbaycan Respublikası enerji üzrə işçi qrupun fəaliyyətini koordinasiya etmişdir (əlaqələndirmişdir). Azərbaycan həmçinin Qara dəniz regionunun inkişaf etdirilməsi və regionda əməkdaşlığın möhkəmləndirilməsi məqsədilə tərtib olunan Qara dəniz dairəvi avtomagistral yolunun tikintisi və digər layihələrdə iştirak edir.

QARA NAL – keçmiş SSRİ dövlətinin "yenidənqurma" mərhələsindən sonrakı dövrdə sahibkarlıq sahəsində geniş yayılmış anlayış. Sözün geniş mənasında qara nal – sahibkarlıq firmasına məxsus olan, rəsmi sənədlərdə, mühasibat hesablarında, hesabat balanslarında göstərilməyən, lakin sahibkarlıq əməliyyatlarında istifadə edilən nağd pul deməkdir. Qara nal rəsmi şəxslər, rəsmi orqanlar üçün görünməyən, vergi tutulmayan, həmin orqanlar tərəfindən uçotu aparılmayan və nəzarət edilməyən nağd pul deməkdir. Qara naldan əsasən nağd qarşılıqlı hesablaşmalar üçün istifadə edilir.

QARAVƏLİYEV ƏHMƏD MUSTAFA OĞLU (1910-1991) – Azərbaycan iqtisadçısı,



i.e.d., prof. Ə.M.Qaraveliyev 1953-cü ildə namizədlik, 1969-cu ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 100-dən artıq elmi əsərin müəllifidir.

İstehlak kooperasiyası problemlərinin tədqiqi sahəsində tanınmış alim idi. 1966-cı ildə nəşr olunan "Azərbaycanın istehlak kooperasiyasının tarixi" monoqrafiyası Azərbaycan iqtisadi tarixinin bu sahəsini öyrənmək üçün zəngin mənbədir. 1947-1956-cı illərdə və 1966-1982-ci illərdə AzXTİ-də müəllim, baş müəllim, kafedra müdiri, dekan vəzifələrində işləmişdir. 1982-1991-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda "Siyasi iqtisad" kafedrasının professoru olmuşdur.

QARAYEV BƏDİR CƏMİL OĞLU (1942-1994) – Azərbaycan iqtisadçısı, iqtisad üzrə fəlsəfə doktoru.



1965-ci ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. Ali məktəbi bitirdikdən sonra Gədəbəy rayon bankında kredit inspektoru, sonra Bakıda Sənaye Bankında iqtisadçı işləmişdir. Oradan isə Maliyyə Nazirliyinin sənayenin maliyyələşdirilməsi idarəsinə böyük iqtisadçı vəzifəsinə göndərilmişdir. 1968-1971-ci illərdə Moskvada aspiranturada təhsilini davam etdirmiş, 1973-cü ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. Sonra Bakıya qayıdaraq Maliyyə Nazirliyində büdcə idarəsində böyük iqtisadçı, ştat idarəsinin rəis müavini, büdcə idarəsinin rəis müavini, tikinti və layihə təşkilatlarının maliyyələşdirilməsi şöbəsinin rəisi, tikintinin maliyyələşdirilməsi idarəsinin rəisi vəzifələrində çalışmışdır. 1980-ci ildə maliyyə nazirinin müavini, 1987-ci ildə isə maliyyə naziri təyin olunmuşdur. Məhz bu dövrlər Azərbaycanın taleyinə çətin illər kimi daxil olmuşdu. 70 illik maliyyə sistemi dağılırdı və onun əvəzində yenisi qurulmalı idi. Belə olan şəraitdə Beynəlxalq Valyuta Fondu, Dünya Bankı ilə əlaqələrin yaradılması çox vacib idi. Beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrin yaradılması məqsədilə Vaşinqtona səfər edən nümayəndə heyətinin ilk rəhbəri B.Qarayev olmuşdur.

1992-ci ildə "Azərittifaq"da

maliyyə şöbəsinin müdiri, sonra isə Nazirlər Kabinetində regionlararası münasibətlər şöbəsində işləmişdir.

QARAYEV FƏRHAD MİRZAĞA OĞLU (1952) – Azərbaycan iqtisadçısı, iqtisad üzrə



fəlsəfə doktoru, dosent. 1977-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1988-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. 1977-1992-ci illərdə BDU-nun siyasi iqtisad kafedrasında laborant, baş laborant, kabinə müdiri, müəllim, 2003-cü ildən İqtisadi nəzəriyyə kafedrasında baş müəllim, 2008-ci ildən dosent kimi fəaliyyət göstərmişdi. 1992-2001-ci illərdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyində şöbə rəisinin müavini və şöbə rəisi vəzifələrində çalışarkən müstəqil respublikanın iqtisadi qanunvericilik bazasının yaradılmasında, müvafiq sənədlərin ekspertizasında, Azərbaycan dilində iqtisadi terminlər lüğəti və iqtisadi ensiklopediyanın hazırlanmasında fəal iştirak etmişdir. 40-dan artıq elmi əsərin, eyni zamanda kütləvi informasiya vasitələrində 210-dan artıq, o cümlədən sığortaya dair 100-dən artıq məqalənin müəllifidir. Hazırda BDU-nun Dünya iqtisadiyyatı kafedrasının dosentidir.

QARAYEV İSLAM ŞAMİL OĞLU (1940) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d.,



prof. 1966-cı ildə namizədlik, 1983-cü ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir.1985-ci ildən professordur. O, aqrar-sənaye kompleksinin inkişaf problemləri ilə məşğul olmuşdur.

380 ç.v. həcmində 200-dən çox elmi əsərin, o cümlədən 10-dan çox monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin müəllifidir.

Ölkədə məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi üzrə perspektiv proqnozlaşdırma sahəsində aparılan fundamental tədqiqatların müəlliflərindən biri olmuşdur. Yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanmasında böyük rolu vardır.

1987-1992-ci illərdə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun kafedra müdiri, 1992-1994-cü illərdə Azərbaycan Dövlət İqtisad İnstitutunun prorektoru olmuş, 1994-2000-ci illərdə həmin institutun rektoru vəzifəsini icra etmişdir. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiridir.

QARƏTÇİ DEMPİNQ – xarici bazarı ələ keçirmək məqsədilə malların bilərəkdən aşağı qiymətə (çox vaxt hətta daxili bazar qiymətlərindən də aşağı) ixracı.

Təcrübədə bu malların nəinki daxili bazar qiymətlərindən aşağı, hətta ixrac edilən məhsulun maya dəyərindən aşağı qiymətə ixrac edilməsinə çevrilə bilər.

Bu aksiyanın məqsədi xarici bazarda hökmran mövqeyə nail olmaqdır.

Müstəmləkəçi ölkələrin şirkətləri bu siyasəti müstəmləkə ölkələrində tez-tez tətbiq edirdilər. Müasir şəraitdə antidempinq qanunvericiliyinin tətbiqi sayəsində qarətçi dempinq çox nadir hallarda tətbiq edilir. Şirkətlər bu təcrübəni yalnız dövlətin dəstəyi ilə həyata keçirə bilər.

QARIŞIQ BANK – 1. Xarici kapitalın iştirakı ilə yaradılan bank. 2. Dövlət və xüsusi kapitalların iştirakı ilə yaradılan yarımdövlət tipli bank.

QARIŞIQ HƏYAT SIĞORTASI – sığorta müqaviləsinin qüvvədə olma müddətinin başa çatması, eləcə də bu müddət ərzində sığorta olunanın bədbəxt hadisədən əmək qabiliyyətini itirməsi və ya hər hansı bir səbəbdən ölməsi halında pul vəsaitlərinin müəyyən edilmiş məbləğinin ödənilməsini nəzərdə tutan şəxsi sığorta sinfi. Qarışıq həyat sığortası eyni zamanda iki riskə müqavilədə müəyyən edilən müddətə qədər yaşama risklərinə təminat verən həyat sığortasıdır.

QARIŞIQ İQTİSADİYYAT – inkişaf etmiş Qərb ölkələrində keçid mərhələsində yaranan iqtisadi sistem. Bu ölkələrdə qərarlaşmış dolğun bazar təsərrüfatının əsasını şəxsiyyətin azadlıqlarının və onun hüquqlarının, o cümlədən iqtisadi hüquqlarının təminatı olan xüsusi mülkiyyət təşkil edir. Ciddi təkamül yolu keçmiş xüsusi mülkiyyət get-gedə daha artıq dərəcədə fərdi mülkiyyətdən assosiasiya edilmiş mülkiyyətin müxtəlif formalarına, ilk növbədə, səhm-dar mülkiyyətinə, onun çoxsaylı növlərinə – müxtəlif sığorta,

pensiya və qarşılıqlı investisiya təsisatlarının və fondlarının mülkiyyətinə çevrilməkdədir. Təsərrüfatın mürəkkəb iqtisadi tənzimləmə sistemi bazar, korporativ və dövlət tənzimləməsinin ziddiyyətli vəhdəti ilə yaranır. Bu formaların nisbəti də dəyişkəndir və hər bir ölkənin konkret şəraiti ilə müəyyən edilir.


Belə bazar təsərrüfatına xas olan və elmi-texniki inqilabın (ETİ) yeni mərhələsində çox zəruri olan özünüdəyişmə, özünütənzimləmə qabiliyyətini tamamilə saxlayır. ETİ-nin indiki mərhələsi yüksək texnologiyalara, cəmiyyətin informasiyalaşdırılmasına, resursların qorunmasına, təsərrüfat proseslərinin qloballaşmasına keçidlə əlamətdardır.

Özəl, korporativ və ictimai mənafelər kimi müxtəlif və ziddiyyətli mənafelərin tarazlığı təsərrüfatın müxtəlif sosial tiplərinin və iqtisadiyyat sektorlarının, eləcə də iqtisadi və sosial tənzimləmənin müxtəlif formalarının qarşılıqlı təsiri əsasında təmin edilir. Çoxsektorlu və buna görə də açıq olan qarışıq iqtisadiyyatda hər bir sektor iqtisadi və sosial səmərəlilik mexanizmlərinə müvafiq olaraq ictimai tələbatın təmin edilməsində özünəməxsus yer tutur. Dövlət və qeyri-dövlət sektorları arasında sərhədlər dəyişkəndir. Mülkiyyətin və sahibkarlığın çoxsaylı qarışıq formaları – dövlət-özəl və dövlət-kollektiv formaları qarışıq açıq iqtisadiyyata xüsusi çeviklik və dinamizm verir.

Müasir qarışıq iqtisadi sistemlər XX əsrin son onilliklərində yaranmış bazar sistemləri olub, istehsalın, iqtisadiyyatın və cəmiyyətin sosial yönümü ilə səciyyəvidir. Şəxsiyyətin mənafeləri, onun çoxcəhətli tələbatı sosial-iqtisadi inkişafın mərkəzinə çevrilir. Buna görə də iqtisadiyyatın sosial yönümü müxtəlif ölkələrdə müxtəlif dərəcədə təzahür edir. Demokratik siyasi hakimiyyət və vətəndaş cəmiyyəti institutlarının möhkəmlənməsi bu ölkələrin tədricən vətəndaş cəmiyyətinə doğru irəliləməsinə imkan yaradır.

1970-ci illərin ortalarına qədər sənaye cəhətdən inkişaf etmiş ölkələrdə qarışıq iqtisadiyyat keynsçiliyə əsaslanan liberal – islahatçı variant üzrə cərəyan edirdi. 1970-ci illərin ortaların-


Qarışıq iqtisadiyyat modeli



Sxem 1

da bu model neokonservativ modellə əvəz edildi. Sonuncu modelin əsas səciyyəvi cəhəti bazar ünsürlərinin sərbəstləşməsi, dövlətin iqtisadi həyata müdaxiləsinin məhdudlaşdırılmasıdır. Bu halda dövlətin rolu azalmır, lakin dövlət müdaxiləsinin məqsədləri, miqyasları və formaları dəyişir. Dövlət bazar təsərrüfatının inkişafı və iqtisadi tərəqqinin sabitliyinin əsaslanır. Qərbi Avropa ölkələrindən fərqli olaraq, ABŞ-da dövlət mülkiyyətinin həcmi çox deyil. İqtisadiyyatda xüsusi kapital mühüm yer tutur, onun inkişafı institusional strukturlarla (icra və idarəetmə qurumları ilə), hüquqi normalar və vergi sistemi ilə stimullaşdırılır və tənzimlənir. Buna görə də ABŞ-da qarışıq müəssisələr Avropa ilə müqayisədə çox cüzi formalaşdırır. Hərbi, elmi-texniki və sosial-iqtisadi məqsədlərə yönəldilən büdcə vəsaitlərinin əsas hissəsi bu sistem vasitəsilə bölüşdürülür.

ABŞ iqtisadiyyatına dövlət müdaxiləsinin başqa bir istiqaməti müasir təsərrüfat sistemi üçün zəruri istehsal və sosial infrastrukturların, özəl kapitalın yarada bilmədiyi və ya yaratmaq sərfəli olmadığı elmi və infor-



Sxem 2

təmini üçün iqtisadi təsir vasitələrindən istifadə edərək əlverişli şərait yaradır.

Müxtəlif ölkələrdə və inkişafın müxtəlif mərhələlərində qarışıq iqtisadiyyat özünəməxsus cəhətlərə malikdir. ABŞ-da qarışıq iqtisadiyyat onunla səciyyəvidir ki, başqa ölkələrlə müqayisədə burada dövlət tənzimləməsi dövlət mülkiyyətinə daha az yayılmışdır. Lakin ABŞ-da hökumət sifarişlər sistemi vasitəsilə dövlət-özəl sahibkarlığının özünəməxsus əlaqə forması yaranmışdır. Kontrakt sistemi dövlət proqramlarının həyata keçirilməsinə, o cümlədən ən yeni sənaye sahələrinə özəl biznesi (iri firmalarla yanaşı, orta və kiçik firmaları da) cəlb etməklə çox geniş dövlət bazarı masiya bazasının təmin edilməsi, eləcə də bir sıra infrastruktur sahələrin tənzimlənməsi ilə əlaqədardır. 80-ci illərin ortalarında tənzimləmədən imtina strategiyasına keçiddən sonra bu cür sahələrin sayı xeyli azalmışdır.

Dövlət iqtisadiyyata əsas təsirini dolayı yollarla: dövlət büdcəsi, pul-kredit sistemi, təsərrü-

fat hüququ qanunvericiliyi vasitəsilə həyata keçirir.

Bu cür vasitələr arasında əsas yeri büdcə sistemi (federal, ştat və yerli hakimiyyət səviyyələrində) tutur. Dövlət tənzimlənməsi funksiyalarının resurslarla təmin edilməsi vəzifəsi bu sistemin üzərinə düşür. Dövlətin makroiqtisadi siyasətinin əsas vasitəsi büdcədir. Ölkənin ÜDM-nin üçdə bir hissəsindən çoxu büdcə vasitəsilə bölüşdürülür.

ABŞ-da yaradılmış sosial təminat sistemi də, əsasən, büdcə hesabına fəaliyyət göstərir. Bu sistem sosial sığortanı (pensiyalar, müavinətlər, medikeyr proqramı üzrə sığortanın əhatə etdiyi şəxslərə tibbi xidmətlər, işsizliyə görə sığorta müavinətləri) və yardımları – yoxsullara kömək proqramını əhatə edir.

Sosial infrastrukturun təşkilinin Amerika variantı sosial sahədə xidmətlərin bazar qaydaları əsasında bölgüsünə başqa ölkələrlə müqayisədə daha artıq dərəcədə yönəlmişdir. Dövlət resursları özəl sektorun xərclərini bir növ tamamlamalıdır. Son illərdə bu sahənin inkişafının bir xüsusiyyəti də onun daha artıq dərəcədə mərkəzləşdirilməməsi – bir sıra proqramların federal səviyyədən regional səviyyəyə verilməsi ilə səciyyələnir. Ümumiyyətlə, bazar rəqabəti və dövlət mexanizmlərindən istifadə etməklə dövlət ölkənin inkişafının iqtisadi və sosial proseslərini uğurla tənzimləyir.

Böyük Britaniyada qarışıq iqtisadiyyat Qərbi Avropanın başqa ölkələri ilə eyni formada qurulmuşdur. Bu ölkələrin əksəriyyəti üçün iqtisadiyyatda dövlət sektorunun, onunla əlaqədar dövlət sahibkarlığının geniş miqyas alması və dövlət tənzimləməsinin çox fəal rolu səciyyəvi haldır. Burada dövlət tarixən mühüm rol oynamış, müharibədən sonrakı dövrdə bir sıra təsərrüfat sahələrinin qismən milliləşdirilməsi, vahid dövlət səhiyyə və sosial təminat sisteminin yaradılması geniş dövlət sektorunun formalaşmasına gətirib çıxarmışdır. Hökumət sifarişlərinin, hərbi-sənaye kompleksinin (HSK), təkrar istehsal prosesinin, elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin (ETTKİ), sosial sferanın maliyyələşdirilməsində, özəl müəssisələrə birbaşa subsidiyalar verilməsində dövlətin iştirakını və başqa tədbirləri əhatə edən çoxşaxəli dövlət iqtisadi tənzimləmə sistemi yaranmışdır. 1980-ci illərdə Böyük Britaniya bir tərəfdən təsərrüfat həyatının sosiallaşması yolunda xeyli irəliləmiş, digər tərəfdən onun iqtisadi problemləri kəskinləşmiş, təsərrüfatın səmərəliliyi azalmış, dünya təsərrüfat sistemində mövqelərin və dinamikliyin itirilməsi baş vermişdir. Bütün bunlar neokonservatizm (yeni mühafizəkarlıq) prinsiplərinə əsaslanan iqtisadi siyasətin dəyişdirilməsini, dövlətin iqtisadiyyata müdaxiləsinin məhdudlaşdırılmasını və bazar ünsürlərinə daha çox sərbəstlik verilməsini tələb etmişdir. İqtisadi və sosial siyasətdə neokonservativ irəliləyişlər məhz Böyük Britaniyada daha ardıcıl təcəssüm etmiş və o vaxtlar mühafizəkarlar partiyasının lideri olan M.Tetçerin adı ilə "tetçerizm" adlandırılmışdır.

1980-1990-cı illərdə dövlət müəssisələrinin, o cümlədən təbii inhisarda olan telefon rabitəsi, qaz və elektrikin paylanması, su təchizatı və başqa sahələrdə dövlət müəssisələrinin əksəriyyəti mərhələlər üzrə özəlləşdirilmişdir. Eyni zamanda xüsusi sahibkarlığın rəğbətləndirilməsi, ictimai işlərin və xidmətlərin özəlləşdirilməsi, özəl sektorun sosial sferada iştirakının genişlənməsi prosesi gedirdi. Nəticədə müəssisələrin gəlirləri artmış, xidmət standartları yüksəlmiş, əsasən özəlləşdirilən firmaların muzdlu işçiləri hesabına mülkiyyətçi səhmdarların sayı artmışdır. Özəl sektora dövlət müdaxiləsinin azalması, tənzimləmədən imtina edilməsi – qiymətlərə, əmək haqqına, gəlirlərə və başqa göstəricilərə nəzarətin ləğv edilməsi, bir sıra gərəksiz bürokratik halların aradan qaldırılması siyasətində də ifadə olunmuşdur. Sosial sferada, ilk növbədə əmək bazarında, eləcə də səhiyyədə və sosial təminat sahəsində ciddi islahatlar aparılmışdır. Bu sahədə həyata keçirilən tədbirlərin məqsədi onun fəaliyyətinin səmərəliliyini artırmaq, sosial məsrəflərin artmasını məhdudlaşdırmaq, pulsuz tibbi yardımın ünvanlı xarakterini gücləndirmək və s. idi. Bütövlükdə Britaniyada qarışıq iqtisadiyyatın təkmilləşdirilməsinə yönəlmiş iqtisadi siyasət bu mərhələdə iqtisadiyyatın səmərəliliyini və rəqabət qabiliyyətini artırmağa, bir sıra sosial problemləri həll etməyə və beynəlxalq arenada ölkənin mövqeyini möhkəmləndirməyə imkan vermişdir.

Almaniyada qarışıq iqtisadiyyat dövlət hakimiyyətindən asılı olmayan və çevik, səmərəli siyasət yeridən Almaniya Federal Bankının çoxşaxəli fəaliyyətinin təsiri altında formalaşmışdır. Dövlətin fəal sahibkarlıq fəaliyyəti müxtəlif səviyyəli büdcələrə daxil olan klassik subvensiyalar və ya birbaşa subsidiyalar formasında həyata keçirilir. Subsidiyalar sistemi əhəmiyyətli dövlət sektorunun və deməli, onun fəaliyyəti və dəstəklənməsi üçün ciddi məsrəflərin olmadığı şəraitdə birbaşa dövlət tənzimləməsinin ayrılmaz tərkib hissəsidir.

Qarışıq iqtisadiyyatın alman modelinin səciyyəvi cəhəti onun sosial yönümlü olması, sosial siyasətin iqtisadiyyatdan ayrılmasıdır. Dövlət rentabelsiz müəssisələri dəstəkləməkdən imtina edərək əhalinin, daha dəqiq desək, işsizlərin sosial müdafiəsini həyata keçirir. Bu müdafiənin bilavasitə mənbəyi müəssisələrin mənfəətləri deyil, xüsusi büdcə fondları və büdcədənkənar fondlardır. Maddi rifahı və sosial ədaləti maksimum həddə çatdırmaq cəhdi qarışıq iqtisadiyyatın bu modelində iqtisadi səmərəliliyin artırılması yolu ilə təmin edilir.

Fransada qarışıq iqtisadiyyat milli iqtisadiyyatın bütün sahələrində iz qoymuş etatizm ənənələri ilə seçilir. Geniş dövlət sektoru sərhədləri dəqiq olmayan, mülkiyyət formalarının daim bir-birinə nüfuz etməsindən ibarət diffuziya prosesləri ilə seçilən qeyri-müəyyən bir qurumdur. Tarixən təşəkkül tapmış dövlət tənzimləmə sistemi Qərbi Avropada ən çox inkişaf etmiş sistemlərdən biridir.

Fransa Avropada yeganə dövlətdir ki, iqtisadi inkişaf konsepsiyasını müharibədən sonrakı dövrdə yenidənqurma və iqtisadi tərəqqinin uğurlarını çox cəhətdən müəyyənləşdirmiş olan dövlət plan-proqramları əsasında reallaşdıra bilmişdir. Bu proqramların işlənib hazırlanması və reallaşdırılması metodları inkişafın növbəti mərhələsinin vəzifələrinə və şəraitinə müvafiq olaraq nisbətən sərt imperativ prinsiplərdən hələ də öz əhəmiyyətini itirməmiş indiqativ planlaşdırmaya doğru təkamül yolu keçmişdir.

Fransa bu islahatlar yoluna Avropanın başqa ölkələrindən gec qədəm qoymuşdur. Gözlənildiyindən fərqli olaraq, irimiqyaslı özəlləşdirmə liberallaşma mexanizminə çevrilməyib, yalnız dövlətin iqtisadiyyata müdaxiləsinin formalarını mürəkkəbləşdirmişdir. Ənənəvi "dirijirm" metodlarını sərbəst bazar ideyası ilə barışdırmaq cəhdləri dövlətin iqtisadiyyatdan uzaqlaşmasına gətirib çıxarmamışdır.

İtaliyada qarışıq iqtisadiyyat Qərbi Avropa inkişaf modelinin çox özünəməxsus bir variantıdır. Burada dövlət sektoru geniş miqyasda mövcuddur, dövlətin iqtisadiyyata fəal müdaxiləsi tarixi ənənələrlə şərtlənmişdir. İri özəl biznesin yüksək dərəcədə inkişafı, ilkin kapitalizmdən miras qalmış bir sıra ukladların davam etməsi səciyyəvi haldır. Bütövlükdə bu modelin tətbiqi iqtisadi inkişafda nəzərəçarpacaq dərəcədə geri qalan bir ölkənin yüksək iqtisadi tərəqqi səviyyəsinə çatmasına və ÜDM-in həcminə görə sənaye cəhətdən inkişaf etmiş ölkələr arasında 5-6-cı yerə çıxmasına imkan vermişdir.

İtaliya iqtisadiyyatında əsas mövqeləri öz əlində saxlayan dövlət sektoru özəl kapitalla sıx qarşılıqlı əlaqə şəraitində bazar meyarlarını rəhbər tutaraq bazar münasibətləri strukturuna üzvi şəkildə daxil olur. Qarışıq kapitala əsaslanan, milli iqtisadiyyata tam inteqrasiya olunmuş və dünya bazarında geniş əlaqələrə malik səhmdar cəmiyyətləri dövlət müəssisələrinin ən çoxsaylı və iqtisadi baxımdan əhəmiyyətli kateqoriyasını təşkil edir. İtaliyada dövlət tənzimləmə sistemi müxtəlif bürokratik qurumların fəaliyyətinin hədsiz pərakəndə olması, səlahiyyətlərin qarışması və funksiyaların həddən artıq xırdalanması ilə səciyyəvidir. Federal islahatlar İtaliya iqtisadiyyatında dövlət sektorunun vəziyyətində ciddi dəyişikliklər yaratmamışdır. İtaliya iqtisadiyyatında ən yeni texnologiyaların və ETT-in bazası iri xüsusi kapitaldır. İtaliyanın ən iri şirkətləri texnoloji cəhətdən yüksək dərəcədə irəliləmiş və onlar dünya səviyyəli texniki-iqtisadi standartlara uyğundur.

İtaliya klassik kiçik biznes ölkəsidir. İtaliya sahibkarlar konfederasiyasında qeydiyyata alınmış 4 milyon firmadan yalnız 2%-i iri (min nəfər və daha çox işçisi olan) firmalardır. Firmaların böyük əksəriyyəti kiçik (100 nəfərə qədər) və ən kiçik (20 nəfərə qədər) firmalara aiddir. Kiçik və orta biznesin miqyası belə bir faktla təsdiqlənir ki, milli idxalın yarıdan çoxu iş-

çilərin sayı 500 nəfərdən az firmaların payına, o cümlədən milli idxalın dörddə bir hissəsi işçilərinin sayı 100 nəfərdən az müəssisələrin payına düşür.

İtaliyada bazar strukturlarının formalaşmasının spesifikası ənənəvi formalardan yüksək rəqabət qabiliyyətli sahibkarlıq tipli kooperativ mərkəzlərə doğru təkamül edən kooperativ sektorun inkişafı üçün kifayət qədər geniş tutumlu iqtisadi məkan yaratmışdır.

İtalyan modeli inkişaf etmiş sosial infrastruktur və sosial müdafiənin yüksək dərəcədə olması ilə səciyyəvidir. Pensiya təminatı və sosial sığorta üçün çəkilən xərclərə görə İtaliya Avropada ilk yerlərdən birini tutur.

Qarışıq iqtisadiyyatın **Skandinaviya** modelinin (bu model Avropanın şimal ölkələrində: İsveç, Norveç, Danimarka və Finlandiyada tətbiq edilir) fərqləndirici xüsusiyyəti özəl sektorun aparıcı rol oynamasıdır. Burada (xüsusilə İsveçdə) dövlət mülkiyyətinin xüsusi çəkisinin aşağı olması ictimai sektorun – hökumət, dairə və bələdiyyə səviyyəli, istehsal ilə bağlı olmayan xidmətlərin sanballı rol oynaması ilə uzlaşır. Kooperativ sektor (xüsusilə Danimarkada) kənd təsərrüfatında, sənayedə, pərakəndə ticarətdə, mənzil tikintisi, bank və sığorta işində mühüm rol oynayır.

İqtisadiyyatın yüksək dərəcədə sosiallaşması qarışıq iqtisadiyyatın Skandinaviya modeli üçün səciyyəvi haldır. O, ÜDM-in xeyli hissəsinin vergi sistemi vasitəsilə yenidən bölüşdürülməsində təzahür edir, bu da həmin ölkələr üçün (xüsusilə İsveçdə) spesifik fəal sosial siyasət yeritməyə imkan verir. Bu siyasət yoxsulluğun qarşısının alınmasına yönəlmiş profilaktik tədbirlərdən istifadə edilməsinə, əmək bazarında fəal siyasətə əsaslandığı üçün qabaqlayıcı xarakter daşıyır. Bu isə gəlirlərinin səviyyəsinə görə ən yüksək və ən aşağı yerləri tutan qrupların gəlirləri arasında fərqi azaltmağa, milli konsensusu və bu əsasda siyasi və iqtisadi sabitliyi təmin etməyə imkan verir.

Yaponiyada qarışıq iqtisadiyyatın xüsusiyyətləri dünya transformasiya prosesinin meyilləri ilə milli spesifikanı optimal şəkildə əlaqələndirməkdən ibarətdir.

Yaponiya inkişaf etmiş sənaye iqtisadiyyatının ümumi forma və metodlarını ölkədəki konkret şəraitə uyğun və səmərəli tətbiq etməyə, bu mexanizmləri özünün etik və mədəni normalarına uyğunlaşdırmağa müvəffəq olmuşdur. Bu isə hələ 1980-ci illərin əvvəllərində Yaponiyanın dünya iqtisadi inkişafının ön sıralarına çıxmasına imkan vermişdir. Misli görünməmiş iqtisadi tərəqqi ölkənin postsənaye cəmiyyətinə doğru sürətlə irəliləməsinə şərait yaratmaqla bərabər, bu prosesin nisbətən ağrısız keçməsini təmin etmiş, struktur islahatların sosial xərclərini minimallaşdırmağa şərait yaratmışdır. 1970-ci illərdə və 1980-ci illərin əvvəlində həyata keçirilmiş struktur yenidənqurma nəticəsində yeni texnoloji istehsal ukladı formalaşmış, yüksək texnoloji və elm tutumlu istehsalatlar, informatikanın, robot və mikroprosessor texnikasının sürətlə inkişaf etməsi üçün geniş baza yaradılmışdır.

Yaponiyada dövlət müəssisələrinin və qarışıq tipli dövlət-özəl müəssisələrin xüsusi çəkisinin nisbətən aşağı olması səciyyəvi haldır. Yaponiya iqtisadiyyatının çevikliyinin və onun yüksək rəqabət qabiliyyətliliyinin mühüm mənbəyi orta və kiçik sahibkarlığın geniş inkişaf etməsidir. Xüsusi mülkiyyətin depersonifikasiya prosesi geniş vüsət almış, nəticədə səhmdar kapitalının çox hissəsi (1985-ci ildə 76,1%) institusional investorların mülkiyyətinə keçmişdir. İri dövlət mülkiyyətinin nisbi payının aşağı olması inzibati, hüquqi və iqtisadi tənzimləmə mexanizmlərindən birbaşa və dolayı formalarda fəal istifadə edilməsi ilə uzlaşdırılmışdır. Sənaye cəhətdən inkişaf etmiş başqa ölkələrlə müqayisədə hökumətin iqtisadiyyata daha artıq dərəcədə nəzarət etməsi, dövlət intervensionizminin (müdaxiləsinin) daha yüksək dərəcədə olması Yaponiya üçün səciyyəvi haldır.

Qarışıq iqtisadiyyatın yapon modelinin xüsusiyyəti onun, əsasən, əhalinin yığım vəsaitlərinə, istehsala və ixraca meyil etməsi, şəxsi istehlakın yardımçı rol oynamasıdır. İstehsalçının başqa insan hüquqları ilə müqayisədə prioriteti, işçinin ömürlük işə götürülməsi, kollektiv məsuliyyət və kollektiv təşəbbüs kimi spesifik institutların ölkənin iqtisadi uğurlarında müsbət rol oynamasına baxmayaraq, müasir qarışıq cəmiyyətin inkişaf tələbatına cavab vermir. Bu cür cəmiyyətə keçid

ənənəvi sosial institutların müasirləşdirilməsini və onlara düzəlişlər edilməsini, sosial siyasətin modernləşdirilməsini tələb edir. Həyat keyfiyyətinin artırılması imperativi iş gününün qısaldılmasını, şəxsi istehlakın əsaslı şəkildə yaxşılaşdırılmasını, ətraf mühitin qorunması problemlərinə diqqətin artırılmasını zərurətə çevirir. Yaponiya sənayesinin yeni şəraitə cavab verən struktur dəyişiklikləri, o cümlədən Asiya-Sakit Okean Regionunda (ASOR) regiondaxili inkişafın tələblərinə uyğun olaraq struktur dəyişiklikləri bir sıra sahələrin daxili tələbata oriyentasiya etməsini nəzərdə tutur. Yaponiya iqtisadiyyatına çox böyük zərər vurmuş qlobal maliyyə böhranı iqtisadi inkişaf modelinin dəyişdirilməsinin zəruri olmasını təsdiq etmişdir.

Müxtəlif ölkələrdə müxtəlif dərəcədə inkişaf etmiş qarışıq iqtisadi sistemlərin formalaşmasından ibarət ümumdünya prosesinin başa çatmasını hələ çox gözləmək lazım gələcək. Bu proses bir sıra köhnə münaqişələr və ziddiyyətlərlə üzləşir, eyni zamanda yeni münaqişə və ziddiyyətlər yaradır. İlk növbədə, ixtisas səviyyəsi aşağı olan və ixtisassız işçilərə aid işsizliyin davamlı yüksək səviyyəsi, yaşayış mühitinin pisləşməsi və ETT-nin digər nəticələri, xüsusən geridə qalmış ölkələrdə və regionlarda bəzi qlobal problemlərin kəskinləşməsi bu qəbildəndir.

Rusiyanın sənaye cəhətdən inkişaf etməsi, onun çox böyük elmi-texniki və resurs potensialı, əhalinin mədəniyyət və təhsil səviyyəsi və bir sıra başqa ilkin şərtlər bu ölkənin qarışıq iqtisadiyyata qarışıq, açıq tipli cəmiyyətə doğru inkişafı üçün imkanlar yaradır. Bu imkanların reallaşdırılması, ölkədə keçid yolunda qarşıya çıxan çox mürəkkəb məsələlərin həlli müvafiq məqsədyönlü strategiyanın işlənib hazırlanmasını və ardıcıl, dəqiq oriyentasiyalı iqtisadi və sosial siyasət əsasında həmin strategiyanın həyata keçirilməsini tələb edir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə qarışıq iqtisadiyyat Azərbaycanın iqtisadi modelinin tərkib elementi kimi inkişaf etməkdədir. Bu istiqamətdə ölkədə ciddi islahatlar aparılmış, yeni iqtisadi sistem yaradılmışdır.

QARIŞIQ İQTİSADİYYAT NƏZƏRİYYƏSİ – bu konsepsiyaya əsasən, inkişaf etmiş ölkələrin iqtisadiyyatları dövlətin təsərrüfat fəaliyyəti miqyaslarının artımı nəticəsində özəl sahibkarlıq sistemindən bir-birini tamamlayan özəl və dövlət sektorlarından ibarət qarışıq iqtisadiyyat sisteminə çevrilmişdir. Qarışıq iqtisadiyyat nəzəriyyəsinin ayrı-ayrı müddəaları hələ XIX əsrin sonunda A.Şeffle və A.Vaqner tərəfindən irəli sürülmüş, bütöv nəzəriyyə kimi isə 1920-ci illərdə V.Zonbart tərəfindən işlənib hazırlanmışdır. Qarışıq iqtisadiyyat nəzəriyyəsinin fəal tərəfdarları kimi II Dünya müharibəsindən (1939-1945-ci illər) sonra iqtisadçılardan S.Çeyz, A.Hansen, C.M.Klark və P.Samuelson çıxış etmişlər. Onlar hesab edirdilər ki, inkişaf etmiş ölkələrin müasir iqtisadiyyatlarına nəzarət xalqların sosial rifahının yüksəldilməsi məqsədilə həm cəmiyyət, həm də özəl institutlar tərəfindən həyata keçirilir. Dövlətin iqtisadi və sosial fəaliyyəti kapitalizmin ziddiyyətlərini aradan qaldıran iqtisadiyyatın böhransız inkişafını, onun yüksək və dayanıqlı artım templərini təmin edə bilər. Qarışıq iqtisadiyyat nəzəriyyəsinin geniş variantı E.Kroslend və C.Streyçi tərəfindən işlənib hazırlanmışdır. Onların fikrincə, İkinci Dünya müharibəsindən sonra kapitalizmin tamamilə başqa sistemə transformasiyası baş verir və bunun da iqtisadi sahədə xarakterik cəhətləri aşağıdakılardır: rəhbər rolun kapital mülkiyyətçilərindən menecerlərə keçməsi, dövlətin artan iqtisadi rolu, tam məşğulluq və istehsalın fasiləsiz artımı.

QARIŞIQ İQTİSADİYYATLI ÖLKƏLƏRDƏ SOSİAL İQTİSADİYYAT – postindustrial cəmiyyətin təşəkkül tapması dövründə bu ölkələrin iqtisadiyyatının sosial yönümünün reallaşmasına istiqamətlənmiş sosial proseslərin kompleks dövlət tənzimlənməsi tədbirləri. Cəmiyyətin iqtisadi və sosial həyatının müxtəlif sferalarını və sosial proseslərin müxtəlif idarəetmə səviyyələrini əhatə edir. Onun ən mühüm tərkib hissələrinə daxildir:

– gəlirlər, qiymət və məşğulluq siyasəti;

– sosial infrastrukturun inkişafı sahəsində siyasət: elm, mədəniyyət, təhsil, səhiyyə;

– xəstəliyə, işsizliyə, qocalığa görə müxtəlif sosial sığorta formaları, tibbi sığorta, sosial yardımın müxtəlif növləri, qiymət subsidiyaları, pul, o cümlədən

ailə və uşaq yardımlarını, müavinətləri, məhsullarla və xidmətlərlə natural yardımı və s. ehtiva edən sosial təminat və sosial müdafiə sisteminin inkişafı. Sənaye cəhətdən inkişaf etmiş bütün ölkələr üçün ümumi olan iqtisadiyyatın qeyri-iqtisadi tənzimlənməsi, dövlətin iqtisadiyyata birbaşa müdaxiləsi miqyasının azalması prosesinin gedişində gəlirlər, qiymət və məşğulluq siyasətində inzibati nəzarət, xüsusilə gəlirlərin və qiymətlərin birbaşa tənzimlənməsi (böhran dövründə və ayrı-ayrı sahələrdə onların "dondurulmasına" qədər) metodları əmtəə, xidmət və əmək bazarlarında tələb və təklifə dolayı təsir metodlarına güzəştə gedir. Sosial infrastrukturun və sosial zəmanətlər sisteminin də inkişafı xeyli dərəcədə ictimai məhsulun çox hissəsinin bu məqsədlər üçün yenidən bölgüsü hesabına həyata keçirilir. Bu da həmin ölkələrdə dövləti sosial "transfert" dövlət kimi xarakterizə etməyə əsas verir.

Sosial tənzimləmənin müasir mərhələsi həmçinin onun vurğularının yerdəyişməsi ilə xarakterizə olunur: sosial proqramların diversifikasiyası, işsizliyə və yoxsulluğa görə verilən müavinətlərin təkmilləşdirilməsi ilə əsas diqqət yeni iş yerlərinin yaradılmasına, məşğulluq və yenidən təhsilin yeni formalarının inkişafına yönəldilir. Bazar mexanizmlərinin fəaliyyətinin doğurduğu sosial diferensiallaşmanın yumşaldılmasına istiqamətlənmiş sosial siyasət maraqlar balansına nail olunmasına, sosial konsensusun saxlanmasına xidmət edir. Bununla belə, o, əhalinin müxtəlif təbəqələrinin və qruplarının iqtisadi fəallığını, iqtisadi səmərəliliklə sosial ədalət arasında dinamik tarazlığın müəyyənləşdirilməsini stimullaşdırır. Sosial konsensusun saxlanması məqsədilə sosial gərginliyin yumşaldılması sosial proqramların genişlənməsini və vergilərin yüksəldilməsini tələb edir. Müasir mərhələdə inkişaf etmiş sənaye ölkələrinin ümumi daxili məhsulunda (ÜDM) sosial xərclərin payının artım sürətinin azalması "sərt" sosial siyasət, sosial yardımın bəzi növlərinin azalmasına (ABŞ, Almaniya) yönəldilmiş tədbirlərdir.

İqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi cəmiyyətin ən fəal üzvlərinə yönümünü tələb edir və "sosial tüfeylilik"lə mübarizə şüarı altında sosial proq -

Cədvəl 1

Müasir dövrdə iqtisadi sistemlərin əsas xüsusiyyətləri

Əsas xüsusiyyətlər	Bazar iqtisadiyyatı	Komanda iqtisadiyyatı	Qarışıq iqtisadiyyat
Mülkiyyət münasibətləri	Xüsusi mülkiyyət	Dövlət mülkiyyəti	Xüsusi formaların üstünlük təşkil etməsi ilə mülkiyyət münasibətlərinin plüralizmi
İqtisadi subyektlər	Kiçik istehsalçıların çoxsaylığı	Dövlət – yeganə istehsalçıdır	Oliqopolik strukturların üstünlüyü şəraitində istehsalçıların çoxsaylığı
Təsərrüfat mexanizmi	Bazar özünütənzimləməsi	Mərkəzləşdirilmiş planlaşdırma	Bazar özünütənzimləməsini tamamlayan dövlət və oliqopolik tənzimləmə

ramların azalmasını və uyğun olaraq vergilərin endirilməsini, yəni "sərt" sosial siyasəti tələb edir.

Sosial siyasətin uğurlarına baxmayaraq, inkişaf etmiş ölkələr bir çox sosial ziddiyyətlərlə rastlaşır. Ən kəskin problemlərdən biri aşağı ixtisaslı və ixtisassız əməyə toxunan sabit yüksək işsizlik səviyyəsidir. Hətta fəal sosial siyasətin aparıldığı Almaniya və Fransa kimi ölkələrdə işsizlik 11-13%-dən aşağı deyil.

QARIŞIQ İNVESTİSİYA FONDLARI – həm səhmlərə, həm də istiqraz vərəqələrinə vəsait qoyan qarışıq fondlar. İstiqraz fondları və səhm fondları arasında gəlirlilik və risk üzrə aralıq yer tutur.

QARIŞIQ SİSTEMLƏR – təsərrüfatçılığın müxtəlif formalarının, sivilizasiya sistemlərinin, sistemin müxtəlif elementlərinin formasiya qurumlarının və digər daha mürəkkəb birliklərinin əlaqələndirilməsi hallarında meydana gəlir. Bu sistemlərin fərqləndirici xüsusiyyəti onlara daxil olan elementlərin hökmran olmasıdır. Müxtəlif tarixi şəraitlərdə qarışıq sistemlər mövcud olmuşdur. Məsələn, vaxtı ilə belə sistemlərdən biri Qədim Romada quldarlıq və feodal münasibətlərinin birləşməsi əsasında yaranmış kolonial sistemi idi. Müasir şəraitdə qarışıq iqtisadiyyatın mühüm forması kimi inkişaf etməkdə olan ölkələrin qarışıq iqtisadiyyatını göstərmək olar. Bu ölkələrdə, sanki, bir ölkə çərçivəsində müxtəlif iqtisadi sistemlərin əlamətləri təzahür edir və onlar paralel fəaliyyət göstərirlər. Təcrübədə inkişaf etmiş qarışıq iqtisadiyyat, postsosialist ölkələrin qarışıq keçid iqtisadiyyatı mövcuddur.

QARIŞIQ SOSİAL SIĞORTA FORMASI – ilk dəfə İsveçrədə yaranmışdır. Bern bələdiyyəsinin nəzdində 1893-cü ildə işsizlik zamanı sığorta üzrə kassa təsis olunmuşdur. Bunun idarə edilməsini həmkarlar ittifaqının və bələdiyyələrin nümayəndələrindən, işəgötürənlərdən ibarət komissiya həyata keçirirdi.

QARŞILIQLI ƏLAQƏ ƏSASINDA YANAŞMA – alıcı və satıcının qarşılıqlı münasibətlərinə iki fəal tərəfin qarşılıqlı əlaqəsi kimi baxılır.

QARŞILIQLI ƏMANƏT BANKI – ABŞ-da kooperativ bank idarələrinin bir növü. Səhmdar kapitalına malik deyil, ilkin kapital isə müəyyən vaxtdan sonra təsisçisinə qaytarılır. Rəsmi olaraq mükafat almayan vəkalətli şəxslərin şurası tərəfindən idarə olunur. Xırda əmanətçilərin vəsaitlərinin cəmləşdiyi ənənəvi əmanət və investisiya hesablarından savayı, yeni hesab açır. Fəal bank əməliyyatlarının əsas növü – ipoteka kreditidir, son illər isə istehlak kreditidir. Bu və ya digər əməliyyatlardan alınan mənfəət zəmanət (təminat) fondlarının yaradılması və faizlərin ödənilməsi üçün istifadə olunur. Qarşılıqlı əmanət banklarında əmanətlər üzrə faiz dərəcələri kommersiya banklarına nisbətən aşağıdır.

QARŞILIQLI ƏVƏZ EDİLƏ BİLƏN ƏMTƏƏLƏR (subsitutlar) – eyninövlü istehlak xassələrinə malik olan, hər hansı tələbatın təmini zamanı birbirini əvəz edə bilən mallar. Qarşılıqlı əvəz edilə bilən əmtəələr bazarda bir-biri ilə rəqabət aparır və onlardan birinin qiymətinin artması digərinin qiymətinin nisbətən azalmasına gətirib çıxarır. Qarşılıqlı əvəz edilə bilən əmtəələr üçün səciyyəvi cəhət onlardan birinin qiyməti ilə digərinə tələb arasında birbaşa asılılığın olmasıdır. Məsələn, yağın qiymətinin artması istehlakçıları daha çox marqarin almağa məcbur edir və əksinə. Əmtəələrin əvəzedilmə dərəcəsi müsbət qiymətə malik olan **tələbin çarpaz elastikliyi** əmsalı ilə xarakterizə edilir. Bu əmsalın qiyməti nə qədər böyükdürsə (bir əmtəənin miqdarı başqa əmtəənin qiymətinin dəyişməsindən bilavasitə asılı olaraq nə qədər çox dəyişirsə), bu əmtəələrin əvəzedilmə dərəcəsi bir o qədər yüksəkdir. Bir-biri ilə rəqabət aparan mallar, məsələn, "Pepsi-cola" və "Coca-cola" arasında tələbatın çarpaz elastikliyi çox yüksəkdir. Ona görə də bu içkilərdən birinin qiymətinin artırılması halında ikincinin qiyməti dəyişməz qalarsa, ikinci içkinin istehlakı kəskin artar.

QARŞILIQLI FAYDA – bazarın təkrar sığortaya verilməsi zamanı təkrar sığorta əməliyyatlarından gəlirlərin alınmasının tələb edilməsi təcrübəsi. Bu zaman bu bazarı verən (ötürən) şirkət yalnız öz təkrar sığorta əməliyyatlarının bir hissəsini təkrar sığortaçıya təklif edir, təkrar sığortaçı isə əvəzində əlverişli təkrar sığorta biznesini təklif etmək imkanına malikdir.

QARŞILIQLI FOND *(mutual fund)* – bir qrup investor tərə-

findən əldə edilmiş səhm, istiqraz və ya başqa aktivlər portfeli. Onun idarə edilməsi peşəkar investisiya şirkəti və ya başqa maliyyə institutu tərəfindən həyata keçirilir.

QARŞILIQLI MÜLKİYYƏT – müxtəlif obyektlərə kapital qoyuluşu məqsədilə müxtəlif investorların kapitallarının birləşdirilməsi. Bu əməliyyat nəticəsində həmin obyektlər qarşılıqlı mülkiyyətə çevrilir; həmin mülkiyyət hesabına əldə edilən gəlirlərin və onun üçün çəkilən xərclərin bölüşdürülməsi ümumi məbləğdə hər bir investorun vəsaitinin nisbi payından asılı deyildir.

QARŞILIQLI ÖHDƏLİKLƏR ASSOSİASİYASI – Böyük Britaniyada ticarət assosiasiyası üzvlərinin kommersiya risklərinin sığortalanmasına yönəldilmiş qarşılıqlı sığorta cəmiyyətinin xüsusi təşkili forması. Qarşılıqlı Öhdəliklər Assosiasiyası, adətən, hüquqi şəxs statusu olan peşəkar ticarət assosiasiyasının əlahiddələşmiş hissəsi kimi formalaşır. Məqsədi Kreditlərin Sığortalanması Assosiasiyasında (KSA) risklərin yerləşməsi üzrə oxşar məqsədlərlə müqayisədə assosiasiyanın kommersiya risklərinin sığortalanmasına çəkilən xərcləri minimuma endirmək - dir. Böyük Britaniyada Qarşı - lıqlı Öhdəliklər Assosiasiyası sıralarına gəmi sahiblərinin qarşılıqlı sığortası klubları daxildir.

QARŞILIQLI SIĞORTA – hüquqi şəxslərin öz risklərini üzv olduqları cəmiyyət vasitəsi ilə qarşılıqlı olaraq bölüşdürülməsi yolu ilə sığorta etdirməsi. Qarşılıqlı sığorta yaradılan ix - tisaslaşdırılmış təşkilatlar – qarşılıqlı sığorta klubları vasitəsilə həyata keçirilir; itkilər klubun bütün üzvləri arasında bölünür. Qarşılıqlı sığorta – sığorta təminatının təşkilati formalarından biridir. Bu zaman hər bir sığortalı eyni zamanda sığorta cəmiyyətinin üzvü olur. Qarşılıqlı sığorta – qarşılıqlı sığorta müdafiəsinin formasıdır. Hər bir sığortaçı eyni vaxtda sığorta cəmiyyətinin, sığorta şirkətinin üzvüdür. Belə sazişi bağlamış şəxslər arasında qarşılıqlı sığorta itkilərinin bölüşdürülməsi haqqında sazişlər qədim zamanlardan məlumdur.

QARŞILIQLI SIĞORTA CƏMİYYƏTİ (QSC) – sığorta fondunun təşkili forması, sığor - ta bazarının struktur vahidi. Qarşılıqlı sığorta cəmiyyəti onun üzvlərinin pay iştirakı nəticəsində vəsaitlərin mərkəzləşməsini nəzərdə tutur. Hər bir iştirakçı eyni zamanda həm sığortalı və sığortaçı qismində iştirak edir, bir qayda olaraq, orta və iri mülkiyyətçiləri birləşdirir.

QARŞILIQLI SIĞORTA KLUBU – üçüncü şəxslərə dəymiş və dəniz sığortası müqaviləsi ilə örtülməyən itkilərin örtülməsi məqsədilə gəmi sahibləri tərəfindən yaradılan təşkilat. Bundan əlavə, Qarşılıqlı Sığorta Klubu sığortalanmış gəmilərin həbsinin aradan qaldırılması üçün tədbirlər görür və bu məqsədlə zəruri bank zəma - nətləri tərtib edir.

QARŞILIQLI SIĞORTA MÜKAFATI – 1. Sığortalının ölümünə və ya mənfəətin bat - ması hallarında sığortalanma zamanı sığorta müddətinin bitməsinə görə ödənilən sığorta məbləğinə əlavə edilən məbləğ. 2. Riski təkrar sığortaya və ya sığortalıya verən kompaniyaya qaytarılan mükafat və ya mükafatın bir hissəsi. Bu o zaman baş verir ki, risk azalır və ya adi müddət başa çatana qədər mövcudluğunu dayandırır.

QARŞILIQLI SİĞORTA ŞİRKƏTİ – üzvləri və sahiblərinin sığorta polislərini saxladığı sığorta şirkəti.

QARŞILIQLI TAMAMLANAN (asılı olan) **MALLAR** – yalnız birgə istehlak edildikdə tələbatı təmin edə bilən mallar. Məsələn, avtomobil və yanacaq, fotoaparat və plyonka və s. Bu cür mallar bazarı üçün onlardan birinin qiyməti ilə digərlərinə tələb arasında əksasılılıq olması səciyyəvidir. Məsələn, fotoaparatların qiymətinin artması alınan fotoplyonkanın miqdarının azalmasına gətirib çıxarır. Qarşılıqlı tamamlanan mallara olan tələbin çarpaz elastiklik əmsalı (tələb edilən əmtəənin miqdarının faizlə dəyişməsinin həmin əmtəənin qiymətinin faizlə dəyişməsinə nisbəti) əhəmiyyət kəsb etmir. Əmtəələrin bir-birini qarşılıqlı tamamlama dərəcəsi nə qədər çoxdursa, bu əmsal bir o qədər böyük olur. Əmsalın sıfra bərabər və ya təqribən bərabər olması onu göstərir ki, iki məhsul bir-biri ilə əlaqədar deyildir və ya onlar müstəqil əmtəələrdir. Məsələn, benzinin qiymətinin dəyişməsi, çox güman ki, fotoaparat satışının həcminə nəzərəçarpacaq dərəcədə təsir göstərməyəcəkdir. Bir-birini ideal şəkildə qarşılıqlı tamamlayan mallara nümunə olaraq avtomobilləri və nömrə ni-

şanlarını göstərmək olar. Əlavə avtomobil olmasa, əlavə nömrə nişanının mənası yoxdur, çünki nömrə nişanını yalnız avtomobilə bağlamaq olar. Eyni qayda ilə əlavə maşın üçün əlavə nömrə nişanı alınmamışdırsa, əlavə maşın olmasının xeyri yoxdur.

QARŞILIQLI TƏDARÜK – satıcı tədarükçüyə öz məhsulunun satışına razılıq verir və nağd pul əldə edir, əldə etdiyi məbləğin hamısına və ya bir hissəsinə ilk tədarükçüdən mal almağa öhdəlik götürür.

Belə tədarüklərdən istifadə, əsasən, beynəlxalq bazarda ticarət zamanı, eləcə də idxal və ixracda balansa nail olunmasında təcrübədən keçirilir. Qarşılıqlı tədarüklər üzrə hesablaşmalar şəxsi pul vəsaitləri hesabına, kredit əsasında, yaxud qarşılıqlı hesablaşma formasında həyata keçirilir. Məhsul tədarükünün həyata keçirildiyi qiymətlər **tədarük qiymətləri** adlanır.

QARŞILIQLI TİCARƏT – mal mübadiləsi forması. Bu zaman bütün sövdələşmələr pul formasında bağlanmır. Məsələn, mal ödənişi hesabına digər mallar daxil oluna bilər.

QARŞILIQLI VEKSEL – iki şəxsin qarşılıqlı surətdə kreditor və borcalan qismində çıxış etdiyi veksel. Belə veksellər iki şəxs tərəfindən onlar arasında baş tutmuş sövdə əsasında deyil, bu veksellərin bankda hesaba alınması məqsədilə bir-birinə verilir.

QASIMOV ADİL ABBAS OĞLU (1932-2009) – Azərbaycan iqtisadçısı, prof. 1959-cu ildə "Azərbaycan kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəldilməsi amilləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1989-cu ildə elmi monoqrafiyalarına, kitabçalarına, ali məktəblər üçün yazdığı dərslik və dərs vəsaitlərinə, rəhbərliyi ilə müdafiə edilən namizədlik dissertasiya işlərinə görə ona professor elmi adı verilmişdir.



A.Qasımov 1992-1998-ci illərdə BDU-nun İqtisadi nəzəriyyə, 1998-ci ildən ömrünün sonuna kimi isə Beynəlxalq iqtisadi münasibətlər kafedrasına rəhbərlik etmişdir.

QASIMOV ƏBÜLFƏZ CƏBRAYIL OĞLU (1931-2008) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof., Əməkdar elm xadimi.



1957-ci ildə namizədlik, 1970-ci ildə Azərbaycan SSR EA-nın İqtisadiyyat İnstitutunun Elmi Şurasında doktorluq dissertasiyası müdafiə etmişdir.

Aqrar iqtisadiyyat üzrə üç cildlik dərsliyin müəllifidir. Milli iqtisadiyyatımızın sosial-iqtisadi problemlərini tədqiq etməklə yanaşı, çoxlu bədii-publisist əsərlər də yazmışdı. 1991-ci ildə Azərbaycan SSR-in Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

1959-1992-ci illərdə Bakı Ali Partiya Məktəbində dosent, professor, kafedra müdiri, 1992-ci ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət İqtisad Universitetində əvvəlcə professor, 1995-ci ildən isə kafedra müdiri vəzifələrində işləmişdir.

QASIMOV ƏLƏSGƏR RAMAZAN OĞLU (1901-1985) – Azərbaycan iqtisadçısı, prof.



1948-ci ildə Moskvada "Sosializm yarışı və onun əmək məhsuldarlığının yüksəldilməsində, əqli əməklə fiziki əmək arasındakı əksliyin aradan qaldırılmasında rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Məhsuldar elmi-tədqiqat fəaliyyətinə, iqtisadçı kadrların hazırlanmasında xidmətlərinə görə 1963-cü ildə doktorluq dissertasiyasını müdafiə etmədən professor elmi adına layiq görülmüşdür.

Hərbçi, komsomol və partiya işçisi, ali məktəb müəllimi kimi zəngin həyat məktəbi keçməsi onun dünyagörüşündə, insanlara, qarşılaşdığı problemlərə prinsipial münasibətində özünü büruzə verirdi. Öz zəngin bilik və təcrübəsini gənc iqtisadçı kadrların hazırlanmasına, gənc nəslin tərbiyəsinə sərf etməyi özünün mənəvi borcu hesab edirdi. Onun rəhbərliyi və müəllifliyi ilə iki cildlik "Siyasi iqtisad" dərsliyi (1972 və 1975-ci illərdə) hazırlanmış və nəşr olunmuşdur. Cəmiyyətin obyektiv iqtisadi qanunları kimi mürəkkəb iqtisadi problemləri tədqiq etmişdir.

1963-cü ildən Azərbaycan Dövlət Universitetinin iqtisad fakül-

təsinin dekanı olmuş, 1966-cı ildən təqaüdə çıxanadək Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda "Siyasi iqtisad" kafedrasına rəhbərlik etmişdir.

"Qırmızı Əmək Bayrağı" və "Birinci Dərəcəli Vətən Müharibəsi" ordenləri, "Qafqazın müdafiəsinə görə", "Əmək igidliyinə görə" və digər medallarla təltif olunmuşdur.

QASIMOV ƏSABİL QARAKİŞİ OĞLU (1955) – Azərbaycan iqtisadçısı. Ümumittifaq



Yeyinti Sənayesi İnstitutunun "Çörək-bulka, makaron və qənnadı istehsalı texnologiyası" fakültəsini bitirmişdir. 1972-ci ildə İmişli çörək zavodunda texnoloq, 1976-cı ildə Bakı ət kombinatında çilingər, 1981-ci ildə İmişli pambıqtəmizləmə zavodunda baş mühəndis işləmişdir. 1995-ci ildən "Karat Holdinq"in direktorudur. 2010-cu ildə IV çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatıdır. Azərbaycan-Rusiya parlamentlərarası dostluq qrupunun üzvüdür. Milli Məclisin iqtisadi Siyasət Komitəsinin üzvü kimi özəl sektorun inkişafı ilə əlaqədar qanunvericilik bazasının təkmilləşdirilməsi işində fəal iştirak edir.

QASIMOV FƏRMAN HÜSEYN OĞLU (1938) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1971-ci ildə SSRİ EA MİRİ-də "Neft sənayesində təchizatın, paylanmanın və nəqlin avtomatlaşdırılmış idarəetmə sistəminin tədqiqi məsələləri" mövzusunda namizədlik, 1984-cü ildə Tallin şəhərində Estoniya SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən Regional İxtisaslaşdırılmış Elmi Şurada "Xalq təsərrüfatının planlaşdırılması və idarə olunmasında regional sahələrarası avtomatlaşdırılmış informasiya sisteminin tədqiqinin və tətbiqinin nəzəri, metodoloji və tətbiqi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Yüksəkixtisaslı elmi kadrların hazırlanmasında xidmətləri var.



F.Qasımov 1966-1994-cü illərdə Azərbaycan Elmi-Tədqiqat Elmi-Texniki İnformasiya institutunda əvvəlcə şöbə müdiri, sonra direktor vəzifəsində işləmişdir. Hazırda Milli Aviasiya Akademiyasının iqtisadiyyat və hüquq kafedrasının professorudur.

QASIMOV HƏSƏN ALLAHYAR OĞLU (1940-1994) – Azərbaycan iqtisadçısı, prof.



1968-ci ildə namizədlik, 1985-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1987-ci ildə professor adına layiq görülmüşdür. Professor H.Qasımovun tədqiqat obyekti Azərbaycanda aqrar-sənaye kompleksinin maddi-texniki bazasının formalaşması və inkişafı məsələləridir. Bir neçə monoqrafiyanın, 200-dən çox elmi məqalənin müəllifidir. "Azərbaycan SSR kənd təsərrüfatının inkişafının mühüm problemləri", "Təsərrüfatlararası kooperasiya və onun problemləri", "ASK-nın maddi-texniki bazasının səmərəliliyinin yüksəldilməsi" monoqrafiyalarında dövrün aktual aqrar problemləri tədqiq olunmuşdur.

1961-1986-cı illərdə Azərbaycan SSR EA İqtisadiyyat İnstitutunda laborant, elmi işçi, şöbə müdiri, 1987-1992-ci illərdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun direktoru, 1992-1994-cü illərdə (ömrünün sonuna kimi) AzDİİ-nin rektoru vəzifələrində çalışmışdır.

QASIMOV NATİQ ƏBÜLFƏZ OĞLU (1960) – Azərbaycan iqtisadçı alimi, i.e.d.,



prof. 1998-ci ildən iqtisad elmləri doktorudur. 100-dən çox elmi əsərin, 8 monoqrafiyanın və 6 kitabın müəllifidir. Əsas tədqiqat obyekti əhalinin sosial problemləridir. N.Qasımov 2000-2010-cu illərdə Azərbaycan Respublikasının Vergilər Nazirliyində idarə rəisinin müavini, nazir müavini vəzifələrində çalışmışdır. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin professorudur.

QASIMOV SÜLEYMAN MEHRALI OĞLU (1961) –



Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 2001-ci ildə "Dənizdə neft və qazçıxarma sənayesində idarəetmə uçotunun təşkili problemləri və tətbiqi istiqamətləri" mövzusunda namizədlik, 2009-cu ildə "Neft və qazçıxarma sənayesində idarəetmə uçotu və iqtisadi təhlil problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Uzun müddət respublikanın neft-qaz sənayesinin iqtisadiyyatı, idarəetmə və uçot sistemində əməli problemlərin həlli ilə məşğul olmuşdur. İdarəetmə uçotu üzrə ölkədə və onun hüdudlarından kənarda nüfuz qazanmışdır. Ölkənin yanacaq kompleksi sistemində maliyyə hesabatlarının beynəlxalq standartlara keçidi işində xüsusi xidmətləri vardır. S.Qasımovun bilavasitə rəhbərliyi ilə Dövlət Neft Şirkətinə daxil olan qurumlarda SAP ERP sisteminin Fİ (baş kitab hesablarının uçotu), HP (insan resurslarının idarə edilməsinin uçotu), SD/MM (alış və satış əməliyyatlarının uçotu) modulları tətbiq olunmuş, ARDNŞ-də beynəlxalq tələblərə cavab verən risklərin idarə edilməsi sistemi təşkil olunmuş, risklərin idarə edilməsi üzrə hüquqi, təşkilati və metodoloji əsaslar müəyyənləşdirilmişdir. İdarəetmə uçotunun təşkili ilə bağlı orta müddətli strategiya formalaşdırılmış, təsdiq edilmiş strateji məqsədlər və səmərəlilik göstəriciləri əsasında şirkətin fəaliyyətinin planlaşdırılması və büdcə modelinin qurulması metodologiyası hazırlanmışdır.

SAP informasiya texnologiyalarının tətbiqinin yüksək keyfiyyətini və effektivliyini nümayiş etdirdiyinə görə ARDNŞ 2010-cu ildə MDB ölkələri arasında "İri Şirkətlər" nominasiyası üzrə "SAP Quality Award 2010" qızıl mükafatına layiq görülmüşdür.

50-dən çox elmi məqalənin, bir neçə kitabın müəllifidir.

Hazırda Azərbaycan Dövlət Neft Şirkətinin iqtisadi məsələlər üzrə vitse-prezidentidir.

Azərbaycan Dövlət Aqrar Universitetində iqtisad elmləri üzrə birləşmiş dissertasiya şurasının üzvüdür. 2011-ci ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

QASTARBAYTER (alm. *gastarbeiter* – immiqrant işçi) – inkişaf etmiş ölkələrdə işləyən, inkişaf etməkdə olan ölkədən cəlb olunmuş işçi.

"QATLANAN TƏLƏB ƏYRİSİ" NƏZƏRİYYƏSİ – bir-biri ilə rəqabət aparan oliqopolistlərin bazarda davranış nəzəriyyəsi. Bu davranış oliqopolistlərin rəqiblərinin qiymət dəyişikliklərinə reaksiyasını əks etdirir. Nəzəriyyənin çıxış nöqtəsi ondan ibarətdir ki, firma öz qiymətlərini azaltdıqda rəqiblər bunu dəstəkləyəcəklər. Lakin əgər firma qiymətləri artırarsa, başqa firmaların heç biri ondan nümunə götürməyəcəkdir. Nəticədə oliqopolistin tələb əyrisi "qatlanacaqdır". Tələb əyrisinin sınma bucağı gəlirin yüksək həddi əyrisinin sınma bucağına bərabərdir. Xərclərin yuxarı həddi əyrisi isə gəlirlərin yuxarı həddi əyrisinin kəsilmə nöqtəsindən keçir. Lakin ayrı-ayrı empirik tədqiqatlar "qatlanan tələb əyrisi" nəzəriyyəsini təsdiqləmir.

QAVRAMA İNDEKSİ – fond indeksi. Qiymətli kağızların sayının onların müəyyən olunmuş gündə, əməliyyatlarda iştirak edən qiymətli kağızların sayına nisbəti kimi hesablanır.

QAYIDAN SIĞORTA MÜKAFATI – 1. Sığorta məbləğinə əlavədir. Sığorta edənin ölümündən sonra ölüm halına sığorta zamanı sığorta müddətinin bitməsi üzrə ödənilir. Qayıdan sığorta mükafatı o vaxt əlavə edilir ki, həyat sığortası üzrə şirkət aktiv saldonu aparır və ya öz fondlarının investisiyalaşmasından mənfəət əldə edir. 2. Riski təkrar sığortaya və ya sığortaçıya ötürən şirkətə qaytarılan mükafat və ya onun hissəsi (əgər risk aşağı düşübsə və ya adi müddətin başa çatmasına qədər bitibsə).

"QAYMAQ YIĞMA" QİYMƏTİ (ing. *skimming price*) – yüksək mənfəət əldə edilməsini təmin etmək üçün məhsula nisbətən yüksək qiymət qoyulmasından ibarət olan qiymət siyasəti. Bu siyasət firma tərəfindən o halda tətbiq edilə bilər ki, istehlakçılar qiymət dəyişikliklərinə qeyri-həssas, yəni tələbat qiymət üzrə qeyri-elastik olsunlar.

"QAYNAR" PULLAR – bir ölkədən digər ölkəyə kortəbii olaraq yerdəyişən, dəyərin saxlanması və ya bazar gəlirlərinin çıxardılması məqsədilə bankların, korporasiyaların və kapitalın fərdi əmanətçilərinin mü-

vəqqəti azad olmuş pul vəsaitləri. Bir qayda olaraq, onlar ölkə iqtisadiyyatının qeyri-stabilliyi, mal və xidmətlərə tələb və təklifin üst-üstə düşməməsi ilə yaranır.

Əgər milli valyutada "qaynar" pullar qısa vaxt ərzində pul bazarına atılıbsa, ölkədə iqtisadi vəziyyətin qeyri-stabilliyi artır. "Qaynar" pullar beynəlxalq valyutada sahibləri tərəfindən bir ölkədən digərinə valyuta məzənnələrinin, faiz dərəcələrinin dəyişilməsindən olan uduşun əldə edilməsi üçün dərhal köçürülə bilər.


"Qaynar" pulların sahibləri ölkədə qeyri-sabit siyasi və iqtisadi vəziyyətdən baş verən maliyyə itkilərindən qaçmağa səy göstərərək, onların ölkədən böyük axınını yaradırlar.

Beləliklə, "qaynar" pullar "sərgərdan" kapital kateqoriyasına aiddir. Bunlar da daha səmərəli və etibarlı əmanətlər axtarışında daimi hərəkətdədir və ölkənin tədiyə balansına və valyuta vəziyyətinə mühüm təsir göstərirlər.

QAYTARILAN ÇEK – tədiyəçi bankın adına yazılan çek. Əgər həmin bank düzgün tərtib edilməmiş sənədlərin ödənilməsini həyata keçirmişdirsə, bank tərəfindən ödənilmiş pul məbləğinin qaytarılması nəzərdə tutulur.

QAYTARILAN LİZİNQ – lizinq müqaviləsinin növlərindən biri. Müqaviləni lizinq şirkəti ilə eyni zamanda lizinq alan kimi avadanlığı hazırlayan (əmlakın sahibi) bağlayır. Bununla belə, sahib əmlakı lizinq firmasına satır, bu firma isə onu bilavasitə keçmiş sahibinə icarəyə verir. Qaytarılan lizinq təcrübədə sahibə (hazırlayana) məxsus məhsulu və ya digər əmlakı girov kimi əlavə maliyyə resurslarının həmin sahib (hazırlayan) tərəfindən alınmasıdır. Bu cür maliyyə sövdələşməsi (ona kredit əməliyyatlarına alternativ kimi baxmaq olar) icarədara kapital məsrəflərinə qənaət etməyə və eyni zamanda əsas vəsaitlərin böyük həcmdə borc vəsaitləri kimi istismarına imkan verir.

ABŞ-ın kommersiya banklarının kreditləri (əhali və real sektor, 1947-2010-cu illər, ABŞ federal ehtiyat xidmətinin məlumatına əsasən)



Qrafik 1

Qaytarılan lizinq müqaviləsi avadanlığın bütün mümkün istismarı dövründə yayılır və lizinq alana yenidən bu əmlaka mülkiyyət hüququnun keçməsini nəzərdə tutur. Qaytarılan lizinq xüsusilə lizinq əməliyyatlarının kredit mahiyyətini əyani surətdə təsdiq edir.

QAYTARILAN MƏBLƏĞ – həyatın yığım sığortası üzrə müqaviləyə vaxtından əvvəl xitam verilərkən, sığortaçının sığortalıya ödəməli olduğu pul məbləği.

QAYTARILMAYAN ANNUNİTET – burada sığortalanmış şəxs ölərkən sığortalanma zamanı ödənilmiş haqlar varislərə geri qaytarılmır.

QAZ ANBARLARI – əsasən, hasilatı bitmiş yataqlarda təşkil olunur. Onlar qaz artıqlarının yayda saxlanması və qışda istifadəsi üçün yaradılır. Anbarlara nəql edilən qaz kompressorlar vasitəsi ilə yerin altına vurulur və sonrakı istifadə zamanı eyni texnoloji sistemlə magistral xətlərə ötürülür. İlk yeraltı qaz anbarları ABŞ-da inşa edilmişdir. Artıq XX əsrin 70-ci illərində ABŞ-da belə anbarların sayı 200-dən və orada saxlanılan qazın həcmi 125 milyard m^3-dən çox idi. Keçmiş SSRİ-də ilk yeraltı qaz anbarı 1958-ci ildə Kuybışev şəhərində – tükənmiş qaz yatağında düzəldilmişdi. Respublikamızda isə artıq bir neçə onillikdir ki, təbii qazın müvafiq üsulla saxlanılması Bakı şəhəri yaxınlığında təşkil edilmiş Qaradağ və Qalmaz iri yeraltı qaz anbarları vasitəsi ilə həyata keçirilir. Bu anbarların ümumi aktiv həcmi 5 milyard kubmetrdir. Yeraltı qaz anbarlarından iri qaz yataqlarının mövcud olduğu yerlərdə istifadə edilir. Bu zaman həmin yataqların hermetivliyi ciddi nəzərə alınmalıdır. Əks halda yerə vurulan qaz kənara sızaraq böyük itkilərə səbəb ola bilər. Elmi-nəzəri əsaslandırma və sınanmış təcrübəyə görə, meqapolislərdə, ümumiyyətlə, enerji ehtiyacları təbii qaz istehlakına standartlaşdırılmış şəhərlərdə bu yanacaq növünə olan tələbin 10% miqdarında anbar ehtiyatının olması zəruridir.

QAZ KƏMƏRLƏRİNDƏ YÜK DÖVRİYYƏSİ – nəql edilmiş qazın qaz kəmərlərində hərəkətini göstərir və nəql edilmiş qazın onun nəqletmə məsafəsinə hasili kimi hesablanır. Yük (qaz) dövriyyəsi hesablanarkən nəql edilmiş qazın həcmi magistral qaz kəmərlərinin ümumi uzunluğuna deyil, yalnız nəql edildiyi məsafəyə vurulmalı və alınan hasillər cəmlənməlidir. Ümumi əmtəə – nəqliyyat işinin həcmi ayrı-ayrı qaz kəmərləri üzrə hesablanmış əmtəə – nəqliyyat işlərinin cəminə bərabərdir.

Qaz kəmərlərinin uzunluğu – qazın nəqlini təmin edən magistral qaz kəmərlərinin uzunluğu. Qaz kəmərləri bir xətt üzrə ölçülür, hətta eyni istiqamət üzrə iki xətt mövcuddursa, onların uzunluğu cəmlənməməlidir. İstismar olunan qaz kəmərlərinin uzunluğu hesabat dövrü ərzində faktiki istismar olunmuş (ən azı bir dəfə) boru kəmərləri hesab olunur.

QAZANILMAMIŞ MÜKAFAT – sığorta polisinin fəaliyyət müddəti hələ bitməmiş hissəsində əks olunan təkrar sığorta mükafatı.

QAZANILMAMIŞ MÜKAFAT EHTİYATI – hesabat dövründə fəaliyyət göstərən, lakin hesabat dövründən kənara çıxan sığorta müqavilələrinin fəaliyyət dövrünə aid olan bu sığorta müqavilələri üzrə sığorta mükafatı. Qazanılmamış mükafat ehtiyatlarının aşağıdakı növləri var:

– bildirilmiş, lakin tənzimlənməyən itkilərin ehtiyatı;
– baş verən, lakin bildirilməmiş itkilərin ehtiyatı;
– itkililiyin tərəddüd edilməsi ehtiyatı;
– fəlakət ehtiyatı;
– xəbərdarlıq tədbirləri ehtiyatı;
– həyat sığortası ehtiyatı.

QAZANILMIŞ MÜKAFAT – riskin təkrar sığortalandığı, fəaliyyəti bitmiş polislərə aid təkrar sığorta mükafatının bir hissəsi.

QAZHOLDER (ing. *gas-holder* – qaz saxlayan) – təbii qazın, bioqazın və ya sıxılmış neftli qazın qəbulu, saxlanılması, nəql kəmərlərinə ötürülməsi məqsədli iri həcmli stasionar, daşınan dəmir-beton və ya polad çən, konteyner (*100 min m^3 tutuma qədər*). Dəyişən (*sulu*) və daimi (*quru*) həcmli qazholderlər fərqləndirilir. Dəyişən qazholderlər su ilə doldurulan şaquli silindrik formaya malikdir. Daimi qazholderlər daha yüksək təzyiqləri (*1,8 Mn/m^2-ə qədər*) saxlamaq üçün silindrik və kürəşəkilli olur. Qazholderlər, bir qayda olaraq, qaz tənzimləyici funksiyanı yerinə yetirir. Tələbat azaldıqda artıq qaz qazholderə yığılır, artıqda isə buradan istifadəyə yönəldilir. Daha böyük həcmli





qazların saxlanması üçün yeraltı qaz anbarlarından istifadə olunur.

QAZIMA – dağ süxurlarının xüsusi texnika ilə dağıdılması, hasilat üçün onun silindrik formaya salınması, lağım və şaxta lüləsinin qazılması prosesi. Qazıma daha çox neft-qaz və kondensatın hasilatının təminatını reallaşdırmaq üçün aparılır. Əsasən, şaquli, maili istiqamətli və üfüqi qazıma prosesləri reallaşdırılır. Qazıma üsulları mexaniki və qeyri-mexaniki olmaqla da fərqləndirilir. Mexaniki qazıma fırlanma və vurma qazımasına ayrılır. Qeyri-mexaniki qazıma isə alov və ya plazma ilə olmaqla termiki, elektriklə, partlayışla, hidravlik qazımanı və s. əhatə edir. Qazıma prosesi 4 minillik tarixə malikdir. Çində 2 min il öncə duz hasilatı üçün diametri 15-20 sm; dərinliyi 900 metr olan qazıma işinin aparılması haqqında məlumatlar var. Qazıma ilə duz hasilatının XII əsrdə Abşeronda Balaxanı kəndində də həyata keçirilməsi haqqında tarixi faktlar mövcuddur. Sonradan burada da neft hasilatı ilə bağlı qazıma işləri aparılmışdır. Balaxanı ərazisində tapılan daş kitabələrin birində usta Allahyar Məhəmmədnur oğlunun 1594-cü ildə dərinliyi 64 metr olan quyu inşa etdiyi göstərilmişdir. Bu isə artıq orta əsrlərdə Bakıda qazımanın sənətkarlıq səviyyəsinə yüksəldiyi qənaətini verir. **Planetimizdə ilk mexaniki üsulla neft quyusu ABŞ-dan 11 il öncə – 1848-ci ildə Bakıda qazılmışdır.** Qazımadan qəbul edilən bu ilk neft quyusundan gündə 700 pud xam neft çıxarılırdı. XIX əsrin 70-ci illərinə qədər qazıma dərinliyi 55-65 metr təşkil etmiş və əsrin sonunda 500 metri keçmişdir. XX əsr üçün xarakterik dərinlik 2-4,5 min metr arası olmuşdur. Ötən əsrdə ən dərin quyular – 7-8 min metr olmaqla ABŞ-da qazılmışdır. 1977-ci ildə Azərbaycanda Saatlı rayonunda layihə dərinliyi 11 min metr olan quyu qazılmasına başlanılmışdır. Bu qazıma prosesi qəza ilə bağlı 8324 metr dərinlikdə dayandırılmışdır. Belə analoji dərinlik qazıması Rusiyanın şimalında – Kola yarımadasında da aparılmış, qazıma işləri qəza ilə bağlı

olaraq 12066 metr (1984-cü il) dərinlikdə dayandırılmışdır.

Qazıma prosesi qazıma qurğusu və konkret alət olaraq almaz qazıma baltası vasitəsi ilə həyata keçirilir. O, tam miqyaslı aparılması üçün xüsusi avadanlıqlarla təchiz olunmuş müvafiq qurğu vasitəsi ilə həyata keçirilir. Müasir dəniz qazıma qurğularının nomenklatura təsnifatı genişdir. Buraya daha mütərəqqi və intişar tapmış standartlı FPS – üzən istismar sistemi, FPSS – yarımdartılmış istismar sistemi, TLP – dartılan dayaqlı platforma, FPSO – neft hasilatı, saxlama və məhsuldarlığı yüksəltmə qurğusu və digərləri də daxildir. Artıq bir əsrə yaxındır ki, neft-qaz hasilatında qazıma dəniz akvatoriyasında həyata keçirilir. 1939-cu ildə Pirallahı adasının Şimal akvatoriyasında metal dirəklər üzərində ilk qazıma qurğusu qurulmuşdur. Dəniz və okeanlarda qazıma işləri üzən qazıma qurğuları vasitəsi ilə həyata keçirilir. İlk üzən qazıma qurğusu 1950-ci illərdə görünməyə başlamışdır. Belə qurğuların sayı hazırda 1000-ə yaxınlaşmaqdadır.

Dünyada ilk dəfə olaraq trubinlə maili quyu 1941-ci ildə (1385 №-li quyu) usta neftçi Ağa Nemətullanın iştirakı ilə bu buxtada qazılmışdır. Hazırda respublikamızda 5-6 min metr dərinlikli quyuların qazılması adi reallığa çevrilmiş, qazma prosesi daha dərin qatlara qədər davam etməkdədir. Sovet texnologiyalarına əsaslanan üzən qazıma qurğuları belə dərinlikləri fəth edə bilməmişdir. Respublikamıza gətirilən müasir texnologiyalarda əksini tapan investisiyalar dənizdəki qazıma qurğularının mütərəqqi standartlara cavab verən modifikasiyasını təmin etmişdir. Şelf adlı dövlət indeksi ilə kodlaşdırılan köhnə qazıma qurğuları yeni adda və tərtibatda "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" kimi modern dərin qazıma qurğularına çevrilmişdir. Daha çevik və imkanlı "İstiqlal" qazıma qurğusu 200 milyon ABŞ dolları və 1200 mütəxəssis əməyi hesabına bərpa edilərək, dənizin 700 metrliyində, 7600 metr dərinlikdə quyu qazılmasını həyata keçirmişdir. Hazırda Xəzərin ən dərin qatı – 1000 metrlik civarı aşan sahədə qazıma işlərini görmək üçün yeni möhtəşəm qurğu "Lider" istismara verilmişdir.



QEŞEFT (alm. *geschöft* – hədiyyə) – ticarət əməliyyatı, gəlirli iş.

QEYBULLAYEV QEYBULLA RAMAZAN OĞLU (1945–2012) Azərbaycanın görkəmli



iqtisadçı alimi, i.e.d., prof. 1973-cü ildə Moskvada namizədlik dissertasiyası müdafiə etmişdir. 1991-ci ildə iqtisad elmləri doktoru elmi dərəcəsi almış, 1993-cü ildə professor elmi adma layiq görülmüşdür. 20-yə yaxın kitab və monoqrafiyanın, 15 kitabça, dərs və elmi-metodiki vəsaitin, 12 ixtiranın, 100-dən çox elmi məqalənin, çoxsaylı elmi-kütləvi məqalələrin müəllifidir. İnşaatın iqtisadiyyatı üzrə tədqiqat aparmışdır.

Elmi maraq dairəsinə mikro və makroiqtisadiyyatın ayrı-ayrı problemləri, sahə iqtisadiyyatının problemləri, təbii sərvətlərdən səmərəli istifadə, ekologiya, bina və qurğuların dayanıqlığı və s. məsələlər daxildir. "Tikinti kompleksinin inkişafında elmi-texniki tərəqqi", "Regional tikinti kompleksi", "İnşaat kompleksi", "İnşaatın

iqtisadiyyatı", "İdarəçiliyin – menecmentin əsasları" kitablarının müəllifidir.

1993-2000-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri Universitetinin rektoru vəzifəsində işləmişdir. Hazırda Türkiyə Respublikasının ali dövlət orqanında çalışır.

QEYD – 1) ticarət və fraxt işlərində şərtdir. Bu qeydlərə müvafiq olaraq hər hansı şərtləndirilmiş hadisə baş verərkən qarşılıqlı münasibətlər tənzimlənir. Belə ki, gələcəkdə saziş imzalanan an mövcud vəziyyətin dəyişməsi baş verə bilər; 2) istənilən şərhdə və istənilən ad üçün birtərəfli bəyanat; bu bəyanat vasitəsilə beynəlxalq hüquqa müvafiq olaraq müqavilənin müəyyən müddəalarında Azərbaycan Respublikasında tətbiq olunan hüquqi hərəkəti ləğv etmək və ya dəyişmək arzusu bildirilir.

QEYD (TƏSHİH), AKKREDİTİV – sığorta obyekti tərəfindən verilmiş polisin sığorta cəmiyyəti tərəfindən verilən ixracatçını itirmək riskindən və ya malın daşınması anından akkreditiv üzrə ödənişlərin alınmasına qədər ziyandan müdafiəsini təmin edən şərt.

QEYD (TƏSHİH), ARBİTRAJ – arbitraj müqaviləsi olub, gələcəkdə meydana çıxacaq mübahisələr, bu mübahisələri həll etmək üçün müəyyən arbitraj və ya tretey məhkəməsinə (məsələn, beynəlxalq kommersiya arbitrajı) ötürmək üçün əsas müqaviləyə daxil olur. Arbitraj qeydində bir neçə tərkib hissə olmalıdır: mübahisələrin dairəsinin müəyyən edilməsi və bu mübahisələrə baxacaq arbitraj orqanının göstərilməsi.

QEYD (TƏSHİH), ÇIXILAN PUL HAQQINDA – sığorta şərti, sığorta müqaviləsində bənd (daha çox dəniz), bu şərtə görə, sığorta edən riski yalnız müəyyən məbləğdən artıq olduğu vaxt ödəyir.

QEYD (TƏSHİH), DELKREDERE – agentin köməyi ilə mal almış şəxs tərəfindən qiymətin ödənilməməsi nəticəsində meydana çıxacaq prinsipalın istənilən itkilərdən təmin edilməsinə boyun olduğu şərt. Agent delkredereni üzərinə götürür, buna görə ona "delkredere üçün komisyon" adlandırılan əlavə mükafat verilir. Üzərinə delkredereni götürən agent prinsipala alıcının alıcılıq qabiliyyəti olmadığı halda müqavilədə qabaqcadan müəyyən edilmiş məbləğ hüdudlarında dəyən zərəri ödəmək haqqında öhdəlik götürür.

QEYD (TƏSHİH), DEVİASİON – konosamentin, çarterin və sığorta polisinin yükün daşınması zamanı deviasiya im-



kanını nəzərdə tutan şərti. Deviasiya qeydi olduqda yükə dəyən zərər üçün məsuliyyəti müstəsna olaraq sığorta edən daşıyır.

QEYD EDİLMİŞ VALYUTA MƏZƏNNƏSİ SİSTEMİ – mübadilə məzənnələri sistemi. Qeyd edilmiş valyuta məzənnəsi dövlət (mərkəzi bank) tərəfindən müəyyənləşdirilən (qeyd edilən) mübadilə məzənnəsi. Qeyd edilmiş mübadilə məzənnəsi sistemində mərkəzi bank xarici valyutanın müəyyən məzənnə üzrə satılması və alınması vəzifəsini öz üzərinə götürür. Bu halda məzənnənin tarazlaşdırılmış bazar məzənnəsinə müvafiq olması zəruri deyildir (onun analoqu kimi valyutanın qara bazardakı məzənnəsi götürülür).

Qeyd edilmiş məzənnə makroiqtisadi siyasətin ən mühüm alətlərindən biridir. Mərkəzi bank çox vaxt məzənnənin dəyişə biləcəyi hüdudları təyin edir (məsələn, müəyyən olunmuş səviyyədən 2,5 faiz aşağı və ya yuxarı). Adətən, məzənnə hər hansı bir valyutaya (dollara, avroya, rubla) və ya valyutalar səbətinə bağlanır. Mübadilə məzənnəsini saxlamaq üçün mərkəzi bank valyuta müdaxilələri keçirir, bu yolla rəsmi ehtiyatlar vasitəsilə və ya dollar almaq yolu ilə valyuta bazarında dollar qıtlığını aradan qaldırır. Bu halda rəsmi ehtiyatlar cari əməliyyatlar balansındakı kəsirin maliyyələşdirilməsi üçün daimi mənbə deyildir və son nəticədə hökumət və ya mərkəzi bank devalvasiya (milli valyutanın məzənnəsinin aşağı salınması) və ya revolvasiya (məzənnənin artırılması) yolu ilə xarici valyutanın qiymətini dəyişəcəkdir. Devalvasiyanın tədiyə balansına və iqtisadiyyata təsiri, ümumiyyətlə desək, heç də birmənalı olmur. Sair şərtlər eyni olduqda milli valyutanın devalvasiyası xarici malların daha da bahalaşmasına və idxalın azalmasına gətirib çıxarır. Lakin bu halda yerli malların qiymətlərinin (xarici valyuta şəklində ifadə edilmiş qiymətlərin) azalması nəticəsində əcnəbi alıcılar tərəfindən həmin mallara tələbat artır və ixrac mallarının bolluğu yaranır. Ancaq uzunmüddətli dövrdə devalvasiya yalnız o halda müsbət nəticə verə bilər ki, o, ölkədə qiymətlərin artması ilə müşayiət olunsun. Devalvasiyanın xalis ixraca təsiri zaman amilindən asılıdır. Məsələn, qısamüddətli dövrdə mübadilə məzənnəsinin azalması ixracın və idxalın həcminə az təsir göstərir, əmtəə və xidmətlər balansı pozulur. Uzunmüddətli dövrdə devalvasiya nəticəsində xalis ixrac artacaq və valyuta bazarında vəziyyət sabitləşəcəkdir.

Qeyd edilmiş valyuta məzənnəsinin ifrat variantı qızıl standartdır. Bu halda dövlət öz valyutasının qızıl məzmununu təsbit edir və qızılın paritet dəyərini (sikkə paritetini), başqa sözlə, qızılın milli valyuta ilə qiymətini təsbit edir. Qızıl standartın digər əlamətləri valyutanın qızıla konvertasiya edilə bilməsi (dövlət milli valyutanı paritet üzrə və ilk tələbə əsasən, qızıla almaq və satmaq öhdəliyi götürmüş olduqda) və qızıl təminatıdır (tədavüldə olan pulun miqdarına bərabər qızıl ehtiyatının olması). Məzənnənin qeyd edilməsi valyuta idarə etməsi şəklində də baş verə bilər. Bu sistemdə *milli valyuta şəklində pul təklifi valyuta ehtiyatları ilə tam təmin edilməlidir*. Başqa sözlə, valyuta idarəsi milli valyutanı ehtiyat valyutaya nisbətən qeyd olunmuş qiymət üzrə alan və emissiya edən təsisatdır. Valyuta idarəsi sistemində ölkənin mərkəzi bankı öz müstəqilliyini itirir və fəaliyyətini dayandırır. Valyuta məzənnəsi sisteminin bu tipinin davamlılığı xarici ehtiyat valyutanın davamlılığından asılıdır.

Çevik məzənnələr sistemində olduğu kimi, qeyd edilmiş məzənnələr sistemində də nöqsan çoxdur. Məzənnənin müəyyən səviyyədə qeyd edilməsi (qiymətlərin hər hansı şəkildə qeyd edilməsində olduğu kimi) xarici valyutaya tələbin və ya təklifin artmasına gətirib çıxarır və hətta daxili iqtisadi məsələlərin həllinin ziyanına da olsa, iqtisadi siyasətin başqa vasitələrindən istifadə olunmasını tələb edir. Süni şəkildə artırılmış real mübadilə məzənnəsi yerli malların rəqabət qabiliyyətini və bütövlükdə iqtisadiyyatın effektivliyini azaldır. Valyuta məzənnəsinin sabit saxlanması üçün qızıl-valyuta ehtiyatlarından istifadə edilməsi, valyuta və ticarət məhdudiyyətləri, valyuta nəzarəti, pul və vergi sahəsində nəticələri heç də birmənalı olmayan məhdudiyyətlər kimi tədbirlər istehsalın azalmasına və işsizliyin artmasına gətirib çıxarır.

QEYD (TƏSHİH), "ESKALATOR" HAQQINDA – 1) əmək müqaviləsində əmək haqqının yaşayış dəyərinin mü-

qavilədəki hüdudları keçdiyi halda avtomatik qalxmasını nəzərdə tutan qeyd; 2) müqavilədə icraçının əmək haqqını əlavə məsrəfləri kompensasiya etmək məqsədilə yüksəltməyə imkan verən qeyd.

QEYDETMƏ – yazılı formada həyata keçirilən təsərrüfat əməliyyatlarının, mühasibat yoxlamalarının, əqdlərin, hesablarda dəyişiklərin və s. təsbit olunması.

QEYD XƏTTİ – slipin imzalanması zamanı təkrar sığortaçının qəbul etməyə razı olduğu sığorta məbləği.

QEYD (TƏSHİH), FORS-MAJOR HAQQINDA – təbii fəlakətlərin təsirinin nəticəsi olan hadisələr barədə qeyd. Bəzən fors-major hadisələrə həmçinin firmanı tədarük üzrə öhdəliklərini yerinə yetirmək imkanından məhrum edən tətilləri də aid edirlər.

QEYD (TƏSHİH), İCAZƏ – alqı-satqı müqaviləsində tədarük olunan əmtəənin dəqiq sayından kənarlaşmaları nəzərdə tutan qeyd.

QEYD (TƏSHİH), İMTİNA – müqavilənin müəyyən şərtlərlə bəndlərinin birindən imtina etməyə imkan verən şərt.

QEYD (TƏSHİH), İMTİNA MÜMKÜNLÜYÜ – məsuliyyətdən və ya müqavilə öhdəliklərindən azad etmək hüququ qeyd olunan şərt.

QEYD (TƏSHİH), İNFLYASİYA – 1) yaşayış dəyəri göstəricisi əmək haqqını bir neçə səviyyə üstələdiyi halda müqavilədə onun avtomatik artmasını nəzərdə tutan qeyd; 2) müqavilədə, məsələn, hər hansı obyektin tikintisi zamanı qiymətlərin yüksəlməsi ilə yaranmış inflyasiya zamanı onun dəyərini artırmağa imkan verən qeyd. Bunun nəticəsində podratçıya inflyasiyadan doğmuş əlavə xərclərin ödənilməsi üçün əlavə məbləğ verilir.

QEYD (TƏSHİH), KİÇİK MƏBLƏĞLƏRİN ÖDƏNİLMƏSİNDƏN İMTİNA – təkrar sığorta polislərində istifadə olunan şərt. Bu qeydə görə tərəflər qarşılıqlı olaraq əlavə mükafat və onun qaytarılması üzrə kiçik məbləğlərin ödənilməsindən imtina edirlər.

QEYD (TƏSHİH), KİRƏÇİNİN MƏSULİYYƏTİNİN DAYANDIRILMASI HAQQINDA – fraxt haqqında müqavilələr bəndi. Onu göstərir ki, yükləmə zamanı məsuliyyət kiraçidən götürülür. Lakin gəmi sahibi fraxta görə haqq almağı təmin etmək üçün yükü saxlamaq hüququna da malikdir.

QEYD (TƏSHİH), KONSTRUKTİV HİSSƏLƏR ÜÇÜN MƏSULİYYƏT – hava gəmisinin korpusunda sığorta polisində sığorta edənin konstruksiyanın bu hissəsi üçün qeyd edilən sığorta məbləği payını məhdudlaşdıran şərt.

QEYD (TƏSHİH), QƏZA – franşizi nəzərdə tutan sığorta şərtidir, gəmi və yüklər üzrə standart qeyddir. Qeyri-dəniz sığortası üzrə polislərdə, qəza qeydlərində adətən göstərilir ki, itkilər proporsional olaraq sığorta məbləğinin sığorta obyektinin sığorta qiymətinə nisbətinə əvəzlənməlidir.

QEYD (TƏSHİH), QİYMƏTİN QALXMASI VƏ YA DÜŞMƏSİ HAQQINDA – müqavilənin və ya kontraktın hər hansı əmtəəyə olan bazar qiymətlərinin qalxması və ya aşağı düşməsi hallarında həmin əmtəəyə olan müqavilə qiymətinin müqavilədə göstərilən andakı qiymətinin şərtləndirilmiş faizdən çox dəyişməsini nəzərdə tutan qeyd.

QEYD (TƏSHİH), QİYMƏTLƏRİN DƏYİŞMƏSİ ŞƏRTLƏRİ HAQQINDA KOMBİNƏ EDİLMİŞ – müqavilədə əmtəənin tədarükü haqqında qeyd olub, bu müqavilə üzrə qiymətin bazar qiymətinin istənilən dəyişməsi ilə dəyişəcəyini nəzərdə tutan qeyd.

QEYD (TƏSHİH), MƏXFİLİK HAQQINDA – müqavilədə muzd üzrə qeyd. Bu qeyd onu nəzərdə tutur ki, işçi firmada işlədiyi vaxt aldığı hər hansı informasiyanı kənar şəxslərdən gizlətməlidir.

QEYD (TƏSHİH), MİNİMAL DÖVRİYYƏ HAQQINDA – agentin, adətən, kvota adlandırılan, razılaşdırılmış məbləğdən az olmayan həcmdə alqı-satqı müqavilələri imzalanarkən vasitəçilik etməyi öhdəsinə götürdüyü şərt. Bu kvota müəyyən dövr üçün (adətən, 1 il) təyin edilir. Müqavilədə agent dövriyyənin minimal ölçüsünə nail olmazsa və ya ondan artığına nail olarsa, bunun nəticələri qeyd olunur.

QEYD (TƏSHİH), MULTİVALYUTA – müdafiə məqsədilə olan valyuta qeydinin müxtəlif növlərindən biri olub, alıcılıq valyutasına nisbətən daha dayanıqlı valyuta kursunun dəyişməsi halında ödəniş məbləğinin yenidən hesablanmasını nəzərdə tutur. Milli valyutanın tətbiqi yalnız bir valyutadan asılılığı aradan qaldırmağa imkan

verir; hesablamalar üçün orta şərti göstərici götürülür, nəticədə qiymət və ödənişlərin ölçüləri valyutalar yığımı ilə müəyyən edilir. Xüsusi hesab vahidləri – qeyd valyutası kimi EKYU-dan istifadə xüsusi olaraq tərtib edilmiş multivalyuta qeydlərindən yan keçməyə imkan verir.

QEYD (TƏSHİH), MÜHARİBƏ HAQQINDA – müharibə və ya müharibə təhlükəsi, hərbi hücumlar, vətəndaş müharibəsi və başqa hərbi risklər meydana çıxdığı halda tərəflərin hərəkətini müəyyən edən qeyd.

QEYD (TƏSHİH), PATENT – ixrac müqaviləsinin şərti. Bu şərtə görə, satıcı patentə təmiz mal tədarük etmək öhdəliyi götürür (müqavilənin bağlanması anında), alıcı isə müvafiq dövrdən gec olmayaraq, informasiya daxil olduğu halda satıcıya üçüncü şəxslərin hüquqları və iddiaları barədə məlumat verməlidir.

QEYD (TƏSHİH), RƏQABƏT HAQQINDA – müəssisə və onun işçiləri (həmçinin tərəfdaşlar, ticarət nümayəndələri və s.) arasında razılaşma. Bu razılaşma müəssisənin əmək və işgüzar münasibətlər bitdikdən sonra, işçinin əmək fəaliyyətini məhdudlaşdırmaq yolu ilə rəqabətdən qoruyur.

QEYD (TƏSHİH), SƏHVLƏRƏ GÖRƏ MƏSULİYYƏTİN MƏHDUDLAŞDIRILMASI – qiymətli kağızlar, tədqiqat işlərində və ya qəzet icmallarında bazarın vəziyyətinin dəyərinin qiymətləndirilməsində rast gəlinən bəyanat. Bu bəyanata görə, müəllif bilmədən yol verilən səhvlər üçün məsuliyyət daşımır.

QEYD (TƏSHİH), SİF, GENİŞ – müqavilədə daşınma zamanı çəkinin mümkün itməsini satıcının hesabına nəzərdə tutan qeyd.

QEYD (TƏSHİH), SONRAKI ALQILAR HAQQINDA – ipoteka müqaviləsinin şərti. Bu şərtə görə icarəçi tərəfindən alınan istənilən mülkiyyət müqavilə imzalanandan sonra ipotekanın əlavə təminatına çevrilir.

QEYD (TƏSHİH), SSUDANIN VAXTINDAN ƏVVƏL ÖDƏNİLMƏSİ – borcluya ssudanı müəyyən edilmiş müddətdən qabaq ödəməyə icazə verməyən şərt; hətta vaxtından əvvəl ödəmə zamanı cərimə nəzərdə tutulmuşdur, ona görə ki, ssuda borclusu daha yaxşı şərtlərlə başqa borcverəndən borc almasın.

QEYD (TƏSHİH), TƏTİL HAQQINDA – yükləmə və ya boşaltma limanından tətil olduğu halda tərəflərin qarşılıqlı münasibətini müəyyən edən şərt. Dəniz daşınması müqaviləsinin pozulmasını nəzərdə tuta bilər, qüvvədə qaldığı halda isə kiraçi (dənizdə) demerec ödəyir.

QEYD (TƏSHİH), VAXTINDAN ƏVVƏL GİROVDAN ÇIXMA HAQQINDA – 1) imtiyazlı səhmlərin xüsusiyyəti. Buna müvafiq olaraq səhm emitent tərəfindən nominal dəyərə bərabər olan qiymətə və ya bazar kursundan, yaxud da göstərilən iki səviyyədən bir qədər yüksək qiymətə alına bilər; 2) istiqrazlar üzrə qeyd. Bu qeydə görə, istiqrazların bütün buraxılışı və ya onun bir hissəsi emitent tərəfindən müəyyən şərtlərlə ödəmə vaxtı başlanana qədər alına bilər.

QEYD (TƏSHİH), VALYUTA – ixracatçını və ya kreditoru ödəmə valyutasının qiymətdən düşməsi riskindən sığortalamaq məqsədilə beynəlxalq kredit, ödəmə və başqa sazişlərə və xarici ticarət müqavilələrinə daxil edilən şərt. Valyuta qeydində ödəmə valyutası qeyd valyutası adlandırılan daha dayanıqlı valyutadan asılı olur. Valyuta qeydinin formaları: əmtəənin qiyməti bir valyutada, ödənilməsi başqa valyutada göstərilir; əmtəənin qiyməti ilə ödəmə valyutası birdir, lakin əmtəənin qiyməti ilə ödənişin məbləği daha möhkəm valyuta kursundan asılılığa qoyulur. Qızıl və valyuta qeydləri əmtəənin tədarük müqaviləsinə daxil edilir, lakin müqavilədə qeydlərin olmaması barədə xüsusi göstəriş də ola bilər.

QEYD (TƏSHİH), VALYUTA OPSİONU HAQQINDA – borcluya borcun əsas məbləğini ssudanın verildiyi valyutada olmadan qaytarmaq və faizləri ödəməyə imkan verən qeyd.

QEYD (TƏSHİH), VERGİ – ticarət müqaviləsində, xidmətlər göstərilməsi haqqında müqavilədə, kredit sazişində tərəflərdən hər birinin hesabına öz ölkəsinin ərazisində həmin müqavilənin, sazişin və s. nəzərdə tutduğu bütün vergiləri və yığımları ödəməyə məcbur olduğunu müəyyən edən qeyd.

QEYDİYYAT HAQQINDA MÜVƏQQƏTİ ŞƏHADƏTNAMƏ – pensiya, sosial təminat, tibbi sığorta, vergi orqanlarında uçota durmaq üçün hüquqi şəxsin müvəqqəti qeydiyyatı haqqında şəhadətnamə.

QEYDİYYAT NÖMRƏSİ – dərman vasitəsinin, tibbi təyinatlı məmulatın, tibbi texnika məmulatının dövlət qeydiyyatı zamanı onlara mənimsədilən kod işarəsi.

QEYDİYYATA ALINMIŞ QİYMƏT – məhsulun istehsalçısı tərəfindən, xarici bazarda formalaşan konyunktur nəzərə alınmaqla milli valyuta və ya xarici valyutada müəyyən edilən qiymət. Müvafiq icra orqanı tərəfindən müəyyənləşdirilən qaydaya uyğun olaraq qeydiyyata alınır və qeydiyyata alınmış bu qiymətin mətbuatda dərc edildiyi gündən qüvvəyə minir.

QEYRİ-BƏRABƏRLİYİN ÖLÇÜLMƏSİ (ing. *measurement of inequalty*) – müxtəlif əhali qrupları üzrə gəlirlərin hesablanmasının empirik metodu.

QEYRİ-MÜƏYYƏN XƏRCLƏR – müəssisənin resurslarından istifadəsi ilə əlaqədar alternativ, aşkar pul ödəmələrini tam həcmdə kompensasiya edə bilməyən xərclər. Firma çox vaxt ona məxsus olan resurslardan (xüsusi pul kapitalı, xüsusi istehsal binaları, firma sahibinin peşə vərdişləri və s.) istifadə edir. Firma həmin resursların haqqını ödəmək üçün bilavasitə pul xərcləmir, çünki həmin resurslar onun üçün bir növ pulsuz resurslar forması kəsb edir. Lakin resursların məhdud olduğu şəraitdə, əslində, pulsuz resurs olmur, çünki hər bir resursun öz alternativ dəyəri vardır. Buna görə də firmanın bu cür pulsuz (mühasibat baxımından) resurslardan istehsalatda istifadə etməsi, əslində, o deməkdir ki, firma bu resursların alternativ qaydada, yəni müəyyən xərclər çəkməklə, tətbiq olunması yolu ilə gəlir götürməkdən imtina edir. Qeyri-müəyyən xərclər mühasibat hesabatında əks olunmasa da, iqtisadi qərarlar qəbul edilərkən həmin xərclərin nəzərə alınması zəruridir. Çünki bu, istehsal prosesinə cəlb edilmiş bütün resurslardan səmərəli istifadəyə imkan verir.

QEYRİ-BAZAR BURAXILIŞI – aşağıdakı məhsul və xidmətlər qeyri-bazar buraxılışı hesab edilir:

– hüquqi və fiziki şəxslərin (institusional vahidlərin), ev təsərrüfatlarının özlərinin son istehlakı və əsas kapital yığımı üçün istehsal edilən məhsul və xidmətlər (məsələn, yardımçı təsərrüfatlarda istehsal olunan kənd təsərrüfatı və sair məhsullar, təsərrüfat üsulu ilə həyata keçirilən tikinti işləri, haqq alan ev qulluqçularının göstərdikləri xidmətlər və s.);

– pulsuz və yaxud çox ucuz qiymətlərlə göstərilən kollektiv və fərdi xidmətlər (məsələn, pulsuz təhsil və tibbi xidmətlər, dövlət idarəetmə, müdafiə xidmətləri və s.). Milli Hesablar Sisteminin tərtibində istifadə edilən yanaşma formasıdır.

QEYRİ-DÖVLƏT QİYMƏTLİ KAĞIZLARI – korporativ maliyyə öhdəlikləri. Onlara aiddir:

– özəlləşdirilmiş müəssisələrin səhmləri;

– bank vekselləri;

– iri inhisarçı sahələrin vekselləri;

– bank depozit sertifikatları (hüquqi şəxslər üçün) və əmanət sertifikatları (fiziki şəxslər üçün);

– qiymətli kağızların emissiyasına hüquq əldə edən müəssisələrin istiqrazları və s.

QEYRİ-ELASTİK TƏKLİF – qiymətin yüksəlməsindən əldə olunan gəlirin, təklif edilən əmtəənin çoxaldılması üçün çəkilən xərclərdən az olması və ya təklifin həcminin əmtəənin qiymətinin dəyişməsinə zəif reaksiya verdiyi bazar şəraiti.

QEYRİ-ELASTİK TƏLƏB – bu tələbin həcmi malın qiymətindən daha az dəyişir və müvafiq surətdə malın satışından əldə edilən məcmu gəlir onun qiymətinin artması (azalması) ilə birlikdə artır (azalır). Tələbin artması qiymətin azalma dərəcəsinə müvafiq deyildir. Bu halda əmsalın qiyməti vahiddən kiçikdir. Bu cür tələbat olan mallara ilkin zərurət predmetlərini, xüsusən kənd təsərrüfatı məhsullarını aid etmək olar. Mütləq qeyri-elastik tələb həmin malın istənilən qiymətlərində tələbin sabit olmasını nəzərdə tutur. Bu halda tələb funksiyasının qrafiki tamamilə şaquli xətt şəklində olur.

QEYRİ-EMİSSİYA QİYMƏTLİ KAĞIZLARI – buraxılışlarla yerləşdirilməyən və qiymətli kağızlar üzrə hüquqların keçməsinin həcmi və müddəti müxtəlif olan qiymətli kağızlar. Qeyri-emissiya qiymətli kağızlarına veksel, çek, depozit sertifikatları, opsion, varrant, fyuçers, özəlləşdirmə payları və bu anlayışa cavab verən qiymətli kağızların digər növləri aiddir.

QEYRİ-ƏMTƏƏ ƏMƏLİYYATLARI ÜZRƏ HESABLAŞMALAR – əmtəə-maddi dəyərlərin reallaşması və ya

xidmətlərin göstərilməsi ilə əlaqədar olmayan bütün hesablaşmaları əhatə edir. Bura digər hesablaşmalarla yanaşı, sosial sığorta orqanları ilə hesablaşmalar da daxildir.

QEYRİ-ƏMTƏƏLİK MƏHSUL – öz tələbatını və istehsal ehtiyaclarını ödəmək üçün istehsal olunan məhsul. MHS-də istifadə edilən göstərici.

QEYRİ-FUNKSİONAL TƏLƏB – istehlakçıların davranışı təhlil edilərkən tələbin iki xarakterik növü fərqləndirilir: müəyyən nemətin istehlak keyfiyyətləri ilə şərtlənən *funksional tələb* və istehlakçıda malın istehlak xarakteristikalarına görə deyil, hər hansı başqa amillərin təsiri altında yaranan *qeyri-funksional tələb*. Qeyri-funksional tələbi stimullaşdıran amillər mövcuddur.

Qeyri-funksional tələbin birinci növü kənar təsirlərlə əlaqədar tələbdir. Ən mühüm kənar təsirlər və ya effektlər aşağıdakılardır:

Əksəriyyətə qoşulma effekti və ya vaqon effekti; insanların çoxu dəbdə olan çoxluqdan geri qalmaq istəmir, "ağ qarğaya" çevrilməkdən qorxurlar. Başqalarından pis görünmək qorxusu, başqa şərtlər bərabər olduqda ilkin funksional tələbin müəyyən qədər artmasını stimullaşdırır və bu halda tələb əyrisi sağa tərəf sürüşür. İstehlakçının ətrafındakı insanlar həmin malı daha çox aldıqda əyrinin yerdəyişməsi artır.

Snob effekti istehlakçıya əks təsir göstərir. İstehlakçının ümumi kütlədən fərqlənməyi təkidlə arzu etməsi tələbin azalmasına gətirib çıxarır və həmin mala başqa insanların tələbi nə qədər çox olsa, tələb əyrisinin sola tərəf yerdəyişməsi bir o qədər çox olur.

Nümayişkaranə istehlak və ya Veblen effekti (bu effekti ilk dəfə əsaslandırmış iqtisadçının adı ilə) – müəyyən malın öz analoqları ilə müqayisədə qiymətinin daha yüksək olması üzündən ona tələbin artması kimi ilk baxışda qeyri-adi təsir bağışlayan hadisə. Bu effekt o halda yaranır ki, istehlakçı malın qiymətinin daha yüksək olmasını onun prestijli, bir növ, elitar mal olması ilə assosiasiya edir və bu, əlavə tələb doğurur. Bu effektin tələb qanununa zidd olması məsələsi yaranır. Əslində, burada ziddiyyət yoxdur, çünki qiymətin və tələbin əks asılılığı qalır, lakin, tələb əyrisinin sağa doğru yerdəyişməsi müşahidə olunur.

Qeyri-funksional tələbatın digər növlərinə *səmərəsiz tələb* və *spekulyativ tələb* aiddir.

QEYRİ-HƏYAT SIĞORTASI – sığorta hadisəsi baş verdiyi zaman sığortalıya vurulan zərər ödənilməklə onun məsuliyyəti, əmlakı və mənafeləri ilə bağlı risklərin sığortası.

QEYRİ-İSTEHSAL SFERASI – bir qayda olaraq, bilavasitə toxunmaqla hiss edilən maddi dəyərlər istehsal etməyən sahələr kompleksi. Əksər hallarda bu sfera insanın qeyri-maddi tələbatlarının ödənilməsi ilə əlaqədardır. Bura aiddir: istehsal prosesinin onların istehlakı ilə üst-üstə düşən xidmətlər (kino, teatr, hamamlar, parklar və attraksionlar, bərbərxanalar, hovuzlar və s.), sosial xarakterli xidmətlər (sosial xidmətlər), mənzil-kommunal təsərrüfatı, məişət xidməti, əhali və qeyri-istehsal sferası üçün nəqliyyat və rabitə, səhiyyə, bədən tərbiyəsi və idman, sosial təminat, maarif, mədəniyyət, incəsənət, elm və elmi xidmət, mətbuat, idarəetmə sferası, ictimai təşkilatlar və s.

Keçmiş SSRİ-də qeyri-istehsal sferası sahələrinin adı yalnız istehlak fondunun xərc hissəsində çəkilirdi; hesab edilirdi ki, bu sahələr gəlir gətirmir, yalnız dövlətin dotasiyası hesabına mövcuddur. Belə ki, onların bir çoxu pulsuz və ya aşağı qiymətlərlə xidmət göstərirlər.


Hazırda bu sahələrin xidmətlərinin dəyəri, BMT-nin təklifinə əsasən, ÜDM-in dəyərinə daxil edilir.

QEYRİ-KOMMERSİYA FƏALİYYƏTİ – məqsədi gəlir götürmək olmayan və əldə etdiyi gəliri yalnız qeyri-kommersiya məqsədləri, o cümlədən öz nizamnamə məqsədləri üçün istifadə etməyi nəzərdə tutan, qanunla qadağan edilməyən fəaliyyətin həyata keçirilməsi; əks halda bu fəaliyyət kommersiya fəaliyyəti sayılır.

QEYRİ-KOMMERSİYA TƏŞKİLATI – qeyri-kommersiya fəaliyyətini həyata keçirən, əldə etdiyi gəliri təsisçilər (payçılar, iştirakçılar) arasında bölüşdürməyən və onu kommersiya məqsədləri üçün sərf etməyən hüquqi şəxs; əks halda bu təşkilat kommersiya təşkilatı sayılır (bax: sxem 1, 2).

QEYRİ-KUMULYATİV DİVİDEND – ödənilmədikdə şirkətin öhdəliyinə çevrilməyən və gələcəkdə ödənilməli olmayan dividend.

Qeyri-kommersiya təşkilatları




Sxem 1

QEYRİ-KUMULYATİV İMTİYAZLI SƏHMLƏR – sabit dividendli imtiyazlı səhmlərin bir növü. Bu növ üzrə vaxtında ödənilməmiş dividendlər toplanmır, bir qayda olaraq, itirilir və onlara görə iddialara baxılmır.

QEYRİ-MADDİ AKTİVLƏR – hiss edilən formaya malik olmayan maddi aktivlər: idarəetmə resursları və təşkilati resurslar, işgüzar dairələrdə və maliyyə dairələrində reputasiya, kapitallaşdırılmış hüquqlar, imtiyazlar, təşkilatın imici ilə əlaqədar rəqabət üstünlükləri, satış şəbəkəsinə nəzarət, sığorta yolu ilə təmin edilən müdafiə, patentlər və ticarət markaları, firma nişanları və digər intellektual mülkiyyət obyektləri.

Torpaq sahələrindən, təbii ehti-

Qeyri-kommersiya təşkilatlarının əsas formaları



Sxem 2

yatlardan istifadə hüquqları qeyri-maddi aktivlərə aid edilir. Mühasibat uçotunun ən mürəkkəb problemlərindən biri qeyri-maddi aktivlərin müəyyən edilməsindən daha çox onların qiymətinin və xidmət müddətinin qeyri-müəyyən olması ilə əlaqədardır. Qeyri-maddi aktivlərə "əşyavi təcəssümə malik olmayan kapital aktivləri" kimi tərif verilir. Bu aktivlərin qiyməti onların mülkiyyətçisinin əldə etdiyi hüquqlardan asılıdır. Qeyri-maddi aktivlər hüquqların və xidmətlərin əldə edilməsi nəticəsində yaranır. Lakin qeyri-maddi aktivlər, hər halda, aktivlərdir, onların dəyəri xərclərin yarandığı anda məsrəflər kimi silinə bilməz. Lakin əgər obyekt aktivin tərifinə müvafiq, ölçülə bilən, əhəmiyyətli və etibarlıdırsa, onda həmin dəyər kapitallaşdırılmalıdır. İdentifikasiya edilən (uyğunlaşdırılan) qeyri-maddi obyektlərin əksəriyyəti aktivin tərifinə uyğundur. Maddi aktivlərin əksəriyyətinin dəyəri kimi, qeyri-maddi aktivlərin dəyəri də kifayət qədər dəqiq hesablana bilər, lakin onları qiymətləndirmək mürəkkəb məsələdir. Qeyri-maddi aktivin kapitallaşdırılmış dəyəri mütləq amortizasiya edilməlidir.

QEYRİ-MALİYYƏ İNVESTİSİYALARI – pul vəsaitləri qoyulmadan, amma investisiya layihələrinə lisenziya, hüquqlar, maşın, texnologiyalar, avadanlıq, torpaq sahələri və s. qoyulması ilə bağlı olan investisiyalar.

QEYRİ-MALİYYƏ TƏŞKİLATLARI (ŞİRKƏTLƏRİ) – iqtisadi münasibətlər sisteminin əsas aparıcı qüvvəsi sayılır. Məhsul istehsalı və xidmətlər göstərilməsi (maliyyə xidmətlərindən başqa) bu bölmənin (sektorun) payına düşür. Bu bölməyə daxil edilən iqtisadi vahidlər istehsal, bölgü, təchizat-satış funksiyalarını yerinə yetirir, müxtəlif növ xidmətlər göstərirlər. Onu bəzən real sektor da adlandırırlar. MHS-də istifadə edilən göstərici.

QEYRİ-MƏHDUD MƏSULİYYƏTLİ ORTAQLIQ (QMMO) (tam ortaqlıq) – bütün iştirakçıların öz müəssisələrinin öhdəliklərinə görə özlərinin əmlakı ilə birgə tam cavabdehlik daşıdığı təsərrüfat cəmiyyəti növü. QMMO o halda yaradılır ki, iki və ya daha çox tərəfdaş müəssisə təşkil olunmasında iştirak etməyi qərara almış olsun. QMMO-nun ən böyük üstünlüklərindən biri əlavə kapital cəlb etməkdir – bir neçə sahib olduqda kreditorlar (və sahiblərin özləri) iş üçün daha həvəslə sərmayə qoyurlar. Müəssisənin bir neçə sahibinin olması müəssisə daxilində tərəfdaşlardan hər birinin bilik və bacarıqları əsasında ixtisaslaşma aparmağa imkan verir. Onlar sərbəst və operativ fəaliyyət göstərir, menecmentin əlavə imkanlarından istifadə edirlər.

QMMO-nun bütün tərəfdaşlarının məsuliyyətinin qeyri-məhdud olması onun qüsurlu cəhətlərinə aiddir: iştirakçılardan hər biri onun sərmayəsinin məbləğindən asılı olmayaraq bütün borclar üçün bərabər məsuliyyət daşıyır; tərəfdaşlardan birinin hərəkətləri, hətta o biri tərəfdaşlar bu hərəkətlərlə razı olmadıqda belə, onlar üçün məcburidir; tərəfdaşlardan hər biri öz payını satmaq üçün bütün başqa tərəfdaşların razılığını almalıdır. QMMO-nun fəaliyyətinin bu və digər şərtləri yazılı sazişdə razılaşdırıla bilər.

QEYRİ-MƏRKƏZLƏŞMƏ – idarəetmə funksiyalarının mərkəzi hakimiyyət orqanlarından yerli hakimiyyət orqanlarına verilməsi, yuxarı idarəetmə orqanlarının əvəzində aşağı idarəetmə orqanlarının səlahiyyət dairəsinin genişlənməsi.

QEYRİ-MÜƏYYƏN AKSEPT (ing. *indeterminate acceptance*) – oferentə əlavə suallar və ya şərtlər təqdim edən aksept. Sualların razılaşdırılması, yaxud dəqiqləşdirilməsi tərəflərin görüşü zamanı və ya başqa üsulla həyata keçirilir. Adətən, bu halda müqavilə bağlamaq öhdəlikləri yaranmır. Akseptdən istənilən formada imtina edilə bilər. Potensial akseptantın susması (münasibət bildirməməsi) öhdəliklər yaranması üçün əsasa çevrilmir və müqavilə münasibətlərinə daxil olmaqdan imtina deməkdir. Eyni zamanda, məsələn, təhvil-təslim sənədləri müvafiq qaydada rəsmiləşdirilməklə xidmətlərin və ya məhsulların alınması faktı baş vermişdirsə, bu, susmaya görə akseptdir və xidmətləri və ya malları (məhsulları) alan tərəfin onların haqqını ödəmək öhdəliyi deməkdir.

QEYRİ-MÜKƏMMƏL BAZAR – eyni (analoji) malların satışı üçün müxtəlif şəraiti olan bazar. Qeyri-mükəmməl bazarın ən geniş yayılmış formaları inhisarçı və oliqopolistik bazardır. İnhisar bazarı bütün sahə üzrə təklifin bir satıcıda təmərküz-

ləşməsi ilə xarakterizə edilən bazar strukturu tipidir. Onun fərqləndirici xüsusiyyətləri aşağıdakılardır:
– bütün sahənin təklifini təmin edən yeganə satıcı və ya sahəni təmsil edən bir firma;
– malların əvəzedicilərinin olmaması;
– texnoloji (miqyas effekti) və ya qanunverici maneələr (patentlər, lisenziyalar və s.) yaradılması yolu ilə sahəyə girişin bağlanması;
– strateji davranışın olmaması.

Oliqopolik bazar – bazar strukturunun bu tipi sahəyə daxil olmağın çətinləşdirilməsi və satışın həcmi uğrunda rəqabət aparan az sayda firmanın strateji qarşılıqlı əlaqəsi ilə səciyyəvidir. Oliqopolist bazar həm standartlaşdırılmış (xalis oliqopoliya), həm də diferensiasiya edilmiş (diferensiasiya edilmiş oliqopoliya) məhsul ilə təmsil oluna bilər. Onun ən mühüm əlamətləri aşağıdakılardır:
– sahə bazarını öz aralarında bölmüş firmaların sayının məhdud olması;
– istehsalın ayrı-ayrı firmalarda əhəmiyyətli dərəcədə təmərküzləşməsi nəticəsində hər bir firma bazarda məcmu tələbə münasibətdə böyük firmaya çevrilir;
– sahəyə daxil olmağın məhdudlaşması həm formal (patent, lisenziya), həm də iqtisadi maneələrlə (miqyas effekti, bazara daxil olma xərclərinin yüksək olması) şərtlənə bilər;
– firmaların strateji davranışı oliqopolistik bazarın prinsipial xarakteristikasıdır. Bu, o deməkdir ki, özlərinin bir-birindən asılı olmasını dərk edən firmalar öz rəqabət strategiyalarını qurarkən rəqiblərin həmin tədbirlərə necə reaksiya verə biləcəyini nəzərə alırlar.

QEYRİ-MÜKƏMMƏL RƏQABƏT ŞƏRAİTİNDƏ İSTEHSAL RESURSLARINA TƏLƏB – qeyri-mükəmməl rəqabət şəraitində istehsal amillərinə tələb bazarında malın satışının artması onun qiymətinin azalmasına səbəb olur. Bununla əlaqədar, qeyri-mükəmməl rəqabət şəraitində resursa tələb əyrisinin aşağıya istiqamətlənməsi iki səbəbdən baş verir: məhsulun yuxarı həddi azalır və məhsulun qiyməti aşağı düşür, çünki məhsul buraxılışı artır.

QEYRİ-MÜSTƏQİL – xidmətlərin səciyyəvi xüsusiyyəti. Bu, məsələn, xidmət istehsalının onun istehlakından ayrılmaz olması deməkdir.

QEYRİ-ÖZƏLLƏŞDİRMƏ – 1. Özəlləşdirmə qanun çərçivəsində baş verməkdə onun ləğvidir. Yəni qeyri-qanuni həyata keçirilmiş özəlləşdirmə prosesinin ləğvidir. 2. Milliləşdirilmiş mülkiyyətin, yaşayış evlərinin, torpağın, təsərrüfat tikililərinin və s. əvvəlki mülkiyyətçiyə (onun varisinə) verilməsi və ya geri qaytarılmasıdır.

Bu proses *restitusiya* adını almış və iqtisadiyyatda islahatlar aparılan dövrdə bir sıra keçmiş sosialist dövlətlərində yer almışdır. Restitusiya haqqında qanunlar Çexoslovakiyada, həmçinin Baltikyanı ölkələrdə qəbul edilmişdir. Rusiyada belə qanun qəbul edilməmişdir, lakin qeyri-özəlləşdirmə XX əsrin 30-40-cı illərində qanunsuz *repressiya* olunmuş, eyni zamanda mənzili, evi, şəxsi əmlakı əlindən alınmış şəxslərin bəraət qazanması ilə əlaqədar istifadə edilmişdir. Bəraət qazandıqdan sonra dövlət bu şəxslərə və onların yaxın qohumlarına müsadirə olunan və milliləşdirilən əmlaka görə müəyyən kompensasiyalar ödəmişdir.

QEYRİ-PROPORSİONAL TƏKRAR SIĞORTA – yolnəqliyyat hadisəsi nəticəsində üçüncü şəxslərə dəymiş zərərə görə nəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortalanması. Qeyri-proporsional təkrar sığorta XIX əsrdən məlumdur, lakin geniş miqyasda İkinci Dünya müharibəsindən sonra tətbiq olunur. Qeyri-proporsional təkrar sığorta elə təkrar sığorta formasıdır ki, burada sığortaçının məsuliyyətindən asılı olmayaraq təkrar sığortaçının məsuliyyətinə ümid edilmir. Bu həmçinin o deməkdir ki, təkrar sığortaçı, məsələn, sedent tərəfindən yığılmış sığorta tədiyələrinin 105%-ni təşkil edən limitdən yuxarı zərərin artıq olmasını sedentə bərabərləşdirmək öhdəliyini qəbul edir. Qeyri-proporsional təkrar sığorta yalnız o halda itkinin ödənilməsi deməkdir ki, həmin anda o, müəyyən məbləğdən çoxdur və ya həmin qrup risklər üzrə itkilərin ümumi məbləği itkinin müəyyən səviyyəsindən çox olur. Qeyri-proporsional təkrar sığortanın bütün növləri sığortaçını iri itkilərdən qoruyur və ya ona sığortanın rentabelliyinə zəmanət verir. Qeyri-proporsional təkrar sığorta elə təkrar sığorta formasıdır ki, burada təkrar sığortaçının məsuliyyəti

sığortaçının məsuliyyətindən asılı olaraq hesablanmır. Qeyri-proporsional təkrar sığorta zamanı sığorta məbləği, sığorta haqları və sığorta ödənişləri sedentlə təkrar sığortaçı arasında qeyri-proporsional olaraq bölünür.

QEYRİ-REZİDENT BANK – bir ölkənin ərazisindən kənarda yerləşməklə, yerləşdiyi xarici dövlətlərin qanunvericiliyinə uyğun olaraq fəaliyyət göstərən bank və ya digər kredit təşkilatı olan qeyri-rezident – hüquqi şəxs.

QEYRİ-REZİDENTLƏR – ölkə ərazisində yerləşən xarici ölkələrin dövlət idarəetmə orqanları, beynəlxalq təşkilatlar, həmçinin onların nümayəndəlikləri və ofisləri, xarici səfirliklər. Bundan əlavə, qeyri-rezidentlərə mövcud ölkənin mülkiyyətində olan, onun sərhədindən kənarda yerləşən xarici müəssisələr, adətən, xaricdə yaşayan, habelə mövcud ölkədə olan fərdi şəxslər aid edilir.

Qeyri-rezidentlər tərəfindən xidmət sahəsi müəssisələrinə nəzarət – əgər B ölkəsinin bir və ya bir neçə hüquqi və ya fiziki şəxsi A ölkəsindəki xidmət sahəsi müəssisəsinin kapitalının 50 faizinə və ya onun rəhbərliyinin əksəriyyətini təyin etmə hüququna malikdirsə, onda B ölkəsinin rezidentləri tərəfindən A ölkəsinin xidmət sahəsi müəssisəsinə nəzarət edilə bilər.

QEYRİ-SEÇMƏ RİSKİ (*non-sampling risk*) – auditorun nümunənin həcminə aid olmayan hər hansı səbəbə görə yanlış nəticəyə gəlməsinə səbəb olan amillərin təsirindən yaranan risk. Məsələn, audit sübutlarının əksəriyyəti əsaslı olmaqdan daha çox inandırıcı xüsusiyyətə malikdir. Auditor isə, öz növbəsində, müvafiq olmayan audit prosedurları tətbiq və ya audit sübutlarını yanlış şərh edə bilər ki, nəticədə səhvləri aşkar etmək mümkün olmaz.

QEYRİ-TARİF MƏHDUDİYYƏTLƏRİ – xarici ticarətin tənzimlənməsi zamanı milli ticarət siyasətinin aləti kimi istifadə olunan və gömrük-tarif siyasəti çərçivəsindən çıxan iqtisadi və inzibati tədbirlərin məcmusu. Qeyri-tarif məhdudiyyətləri üzrə tədbirlərin 5 növü mövcuddur: dövlətin xarici ticarət əməliyyatlarında iştirakı; gömrük və inzibati prosedurların işlənib hazırlanması (antidempinq rüsumlar, konsul rəsmiyyəti və s.); ticarətin qarşısına texniki maneələr qoyulması (malların markalanması, taraya olan tələblər və s.); spesifik məhdudiyyətlər (idxal lisenziyaları, ixrac yığımları və s.); ödənişlərin və yığımların mexanizmdə əks olunduğu idxalın məhdudlaşdırılması (sərhədyanı vergi rejimi, idxal depozitləri və s).

QEYRİ-TƏDİYƏ QABİLİYYƏTİ (borcunu ödəyə bilməmək) **HAQQINDA SIĞORTA MÜQAVİLƏLƏRİNDƏ QEYD-ŞƏRT** – bu şərtə görə, təkrar sığortaçı əgər sedent şirkət qeyri-tədiyə (borcunu ödəyə bilməmək) qabiliyyətli olarsa, zərərdə öz payına görə məsuliyyət daşıyır.

QEYRİ-TƏDİYƏ RİSKLƏRİNİN SIĞORTALANMASI – sifarişçi tərəfindən malların göndərilməsi və ya xidmətlərin göstərilməsi haqqının ödənilməməsi hesabına əmələ gələn sığortalıların qısamüddətli və ortamüddətli debitor borclarının ödənilməməsi zamanı həmin sığortalının sığorta müdafiəsi. Onun obyekti qeyri-tədiyə qabiliyyəti və ya sığorta müqaviləsində nəzərdə tutulmuş digər səbəblər nəticəsində debitorlar tərəfindən borcun, mülkün ödənilməməsi ilə əlaqədar mal (xidmət) göndərənlərin əmlak maraqlarıdır.

QEYRİ-TİCARİ TƏDİYƏLƏR – beynəlxalq hesablaşmalar təcrübəsində istifadə edilən bu anlayış malların satılmasına və ya alınmasına aidiyyəti olmayan əqdləri səciyyələndirir. Dünya təcrübəsində çox vaxt "görünməyən əməliyyatlar" ifadəsindən istifadə edilir. Bu əməliyyatların şərtlərində malların fiziki hərəkətini izləmək mümkün olmur. Poçt, telefon, nəqliyyat və digər xidmətlər, turizm firmalarının və agentliklərinin xidmətləri, artistlərin qastrol səfərləri, idmançıların çıxışları, fiziki şəxslər tərəfindən pul köçürmələri üzrə hesablaşmalar bu qəbildəndir.

QEYRİ-VERGİ GƏLİRLƏRİ – büdcə gəlirlərinin vergilərə aid olmayan kateqoriyası. Beynəlxalq təcrübədə büdcə təsnifatına uyğun olaraq, qeyri-vergi gəlirləri bölməsinə aiddir: dövlət mülkiyyətindən və ya fəaliyyətindən gəlirlər; torpaq və qeyri-maddi aktivlərin satışından gəlirlər; dövlət ehtiyatlarının satışından gəlirlər; inzibati ödənişlər və cərimə sanksiyaları; xarici iqtisadi fəaliyyətdən gəlirlər (ilk növbədə, mərkəzləşdirilmiş ixracdan gəlirlər); digər qeyri-vergi gəlirləri.

QƏBZ (ital. *quitanza*) – pulun, sənədlərin, qiymətli əşyaların və s. qəbul edilməsində və ya alınmasında müəyyən edilmiş formada istifadə edilən yazılı sənəd (arayış). Yük qəbzi yük daşıyan tərəfindən hər hansı bir yükü daşımaq üçün qəbul edilməsi haqqında sənəddir. Anbar qəbzi anbarın sahibi tərəfindən yük sahibinə yükün onlar tərəfindən qorumaq üçün qəbul edilməsini təsdiqləmək məqsədilə verilir. İki hissədən ibarətdir: anbar vəsiqəsi və anbar varrantı – anbarda yerləşdirilən yükün alınması haqqında sənəd.

QƏBZ, DEPOZİTAR – depozitaridən depozit edilmiş, depozitar qəbz emitentinin daxili bazarında dövriyyədə olan adi səhmlərə mülkiyyət hüququnun şəhadətnaməsi. Depozitar qəbz, bir qayda olaraq, adlı, sərbəst dövriyyədə olan qiymətli kağızlardır. Depozit qəbzi səhmlərin likvidliyini yüksəldir və investorlar və fond bazarı iştirakçıları üçün informasiya təminatının yaxşılaşmasına kömək edir.

QƏBZ, DOK – gəmi sahiblərinə onun agenti və ya nəqliyyat-ekspeditor təşkilatı tərəfindən verilən, yüklərin körpüyə və ya anbara yan alaraq götürülməsi və sonra gəmiyə boşaldılmasını təsdiq edən sənəd. Yük sahibinin adına yazılan dok qəbzində, adətən, yükün adı, yerlərin sayı və kütləsi, qablaşdırma növü, markirovka və s. göstərilir.

QƏBZ, LYUK – gəminin yük saxlanılan yerində yerləşdirilmiş yükün siyahısı. Lyuk qəbzi anbarlarda yerləşdirilən yükün axtarışını asanlaşdırmaq və boşaltma zamanı düzgün, konosamentlə təyinat limanında boşaldılması məqsədilə gəmi rəhbərliyi tərəfindən tərtib edilir. Adətən, lyuk qəbzinə aşağıdakı məlumatlar daxil olur: anbarın nömrəsi, yük yerinin adı və yükün boşaltma tarixi, yerlərin sayı və yükün kubaturu, konosamentin nömrəsi.

QƏBZ, TRAST – malın alıcısının maliyyələşdirən banka verdiyi qəbz; alıcıya hələ də malın rəsmi sahibi hesab edilən bankla hesablaşana qədər malı satmaq üçün onu idarə etməyə imkan verir.

QƏHRƏMANOV RÜSTƏM CƏBRAYIL OĞLU (1910–1979) – Azərbaycanın görkəmli



iqtisadçısı, i.e.d., prof. 1956-cı ildə Moskvada Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasında namizədlik, 1972-ci ildə "Naxçıvan MR kənd təsərrüfatının səmərəli yerləşdirilməsi və ixtisaslaşdırılması problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1974-cü ildə ona professor elmi adı verilmişdir. 100-dən artıq elmi məqalənin və 4 monoqrafiyanın müəllifidir. Aqrar iqtisadiyyatın problemlərini tədqiq etmişdir.

1957-1961-ci illərdə Azərbaycan SSR EA İqtisadiyyat İnstitutunda, 1962-ci ildən ömrünün sonunadək Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda işləmişdir.

QƏLP PULKƏSMƏ – metal sikkələri, pul nişanlarını, dövlətin qiymətli kağızlarını tədavülə buraxmaq məqsədi ilə saxtakarlıqla hazırlama və ya satma. Bütün ölkələrin qanunvericiliyinə görə cinayət hesab edilir. Dünya ölkələrində cinayət hüququna görə, xəzinə biletlərini, bank biletini, metal sikkələri dövlətin qiymətli kağızlarını və ya xarici valyutanı satmaq məqsədi ilə hazırlama, satma və s. qəlp pulkəsmə hesab edilir.

QƏNAƏT NORMASI – şəxsi sərəncamda olan gəlirin sahibinin sərəncamında qalan və yığım məqsədilə və ya borcu ödəmək üçün istifadə edilən hissəsi.

QƏNAƏTCİLLİK PARADOKSU – amerikalı iqtisadçıları U.Ketçinqs və U.Foster tərəfindən irəli sürülmüş müddəa. Həmin müddəaya görə, daha çox qənaət olunduğu halda məcmu tələb azalır. Bu isə əmək haqqı səviyyəsinin aşağı düşməsinə və beləliklə də, yığımın azalmasına gətirib çıxarır. Başqa sözlə, yığımın həcminin investisiyalarla üst-üstə düşməməsi real milli gəlirin səviyyəsinin aşağı düşməsinə səbəb olur. C.M.Keyns, F.Hayek, P.Kruqman, H.Qatslid və digərlərinin tədqiqatlarında bu müddəa ilə bağlı fərqli, hətta bir-birinə əks fikirlərə rast gəlinir.

QƏRARLAR AĞACI *(decision tree)* – qərarların qəbul edilməsi prosesinin struktur modeli; strateji qərarların qəbul edilməsi ilə bağlı qərar və nəticələrin qrafik ardıcıllıqla təsviri. Proqram-məqsəd idarəetmənin alətidir. Özündə qarşıya qoyulmuş məqsədi, vəzifəni, işçi elementləri cəmləşdirir.


QƏRARLAR NƏZƏRİYYƏSİ (yaxud, qərarlar qəbul edilməsinin statistik nəzəriyyəsi) – qərarlar, ilk növbədə, iqtisadi qərarlar qəbul edilməsinin riyazi (riyazi-statistik) qaydalarını öyrənən fənn (əməliyyatlar tədqiqinin bir bölməsi). Bəzən bu ad, ümumiyyətlə, qərarlar qəbul edilməsi qaydalarını, yəni psixoloji, etik və başqa problemləri öyrənən daha ümumi nəzəriyyəyə tətbiq edilir. Həmin qərarlar təkcə riyaziyyata əsaslanmış olmur.

Qərarlar qəbul edilməsi metodları formallaşdırılmış və formallaşdırılmamış, ənənəvi və müasir metodlara bölünür. Məsələn, hesabların yazılması barədə mühasibat qaydalarını və təkrarlanan, basmaqəlib qərarlar qəbul edilməsi ilə bağlı digər standart prosedurları ənənəvi formallaşdırılmış metodlara, əməliyyatların tədqiqi, məlumatların kompüterlə işlənməsi metodlarını isə müasir formallaşdırılmış metodlara aid etmək olar.

Bu nəzəriyyənin əsas anlayışları – alternativ, qərar, seçim, faydalılıq, optimallaşdırma və digər anlayışlar iqtisadi-riyazi metodların bir sıra sahələri və bölmələri üçün ümumi xarakter daşıyır. Qərarlar nəzəriyyəsi qərarların əsaslandırılması və qəbulu modellərini tətbiq edir və onları əl ilə, yaxud kompüterdə realaşdırılan tətbiqi alqoritmlər səviyyəsinə çatdırır. Bu halda qərarların hazırlanmasında ekspert qiymətləndirmələrindən istifadə edilməsi metodlarından, seçim məsələsinin formallaşdırılmış xassələrindən və çoxmeyarlı optimallaşdırma metodlarından istifadə edilir.

Qərarların qəbul edilməsi ilə bağlı riyazi məsələlər üç istiqamətə bölünür. Birinci istiqamət determinə (müəyyən) edilmiş məsələlərdir. Bu halda belə fərz edilir ki, hər bir hərəkət (alternativ strategiya) əvvəlcədən məlum olan yeganə nəticəyə gətirib çıxaracaqdır. İkinci istiqamət risk şəraitində həll edilməli məsələlər deyilən ehtimal

İdarəetmə prosesində idarəetmə qərarlarının yeri



Sxem 1

məsələləridir. Bu halda müxtəlif nəticələr alına bilər. Hansı nəticələrin real olması isə əvvəlcədən məlumdur. Lakin, adətən, bu nəticələrin qiymətlərinin dəyişmə sahəsi barədə təsəvvür olur. Sonuncu halda həll prosesində daxil olan bu və ya digər informasiyadan istifadə edən adaptiv strategiya tətbiq olunur.

QƏRB YARIMKÜRƏSİ ÖLKƏLƏRİNDƏ SIĞORTA ÜZRƏ KONFRANS – beynəlxalq təşkilat, üzvləri Amerika qitəsinin 19 ölkəsinin sığorta şirkətlərini özündə birləşdirir. 1946-cı ildə ABŞ-ın Ticarət palatasının və Amerika dövlətlərarası ticarət və istehsal şurasının təşəbbüsü ilə yaradılmışdır. Xüsusi sığorta şirkətləri və digər aidiyyəti təşkilatlar arasında sığorta sahəsində təcrübə və informasiya mübadiləsini təşkil edir.

QƏSDƏN MÜFLİSLƏŞMƏ – müəssisənin rəhbəri və ya sahibi tərəfindən qəsdən müəssisənin alıcılıq qabiliyyətinin olmaması və ya artması və ya şəxsi maraqlarında və yaxud başqalarının şəxsi maraqlarında zərər yetirilməsi, qabaqcadan işin səlahiyyətsiz aparılması. Qəsdən müflisləşmə borclunun qeyri-qanuni hərəkətlərinə aiddir.

QƏTİ ƏQD – bu əqdə əsasən, onun iştirakçıları qiymətli kağızların müəyyən müddətdə satışı və alışı üzrə öhdəliklər götürürlər; bu əqdlərin şərtləri dəyişdirilə bilməz.

QƏZA – 1. Bir şeyin sıradan çıxması, onun normal iş ahənginin pozulması. 2. Dəniz hüququnda gəmiyə, yükə qəsdən və ya bilməyərəkdən (xüsusi qəza) vurulmuş ziyanla əlaqədar yaranmış ziyan. Qəza yanğından sığortada sığortanın başa çatmaması (natamam sığorta) nəticəsində sığorta ödənişinin ödənilməsinin azaldılması. Qəza dəniz sığortasında itki və ya zərərin (ziyanın) sinonimidir. Başqa sözlə, sığorta hadisəsidir ki, bu da dəniz hadisələri ilə əlaqədardır və gəmiyə, kirələməyə və ya yükə ziyan vurulması, eləcə də bu ziyanın qarşısının alınması ilə bağlı xərclərdir.

QƏZA (dəniz daşımalarında) (ing. *average*) – gəmiyə, yük və fraxta dəymiş ziyan (itki). İki növ qəza vardır: ümumi və təsadüfi. Ümumi qəza gəmini, yükü və fraxtı tam məhv olmaqdan xilas etmək üçün görülən tədbirlərdən irəli gələn itkilərdir. Ümumi qəzada itkilər gəmi, yük və fraxt dəyərlərinə nisbətdə dispaşeyə uyğun bərabər paylanır və sığortaçı tərəfindən ödənilir. Təsadüfi qəza isə dəniz daşımasında mal itkisi,





gəminin və ya malın əzilməsi deməkdir. Bu halda dəymiş ziyan müqaviləyə uyğun şəkildə ödənilir.

QƏZA BONDU (ing. *average bond*) – qəza zəmanəti. Yük alan və ya sığortaçı tərəfindən daşıyıcıya ümumi qəza nəticəsində dəyən itkilər zamanı qəbz şəklində verilir. Qəza bondunda alıcı yükün dəyərini və ümumi qəza vaxtı dəymiş ziyanın dispaşe üzrə onun ödəyəcəyi miqdarını, verəcəyi öhdəliyini elan edir. Daşıyıcı, qəza bondu verilməyənə və müvafiq təminat alınmayana qədər yükü verməmək hüququna malikdir.

QƏZA DİSPAŞESİ – dispaşer tərəfindən tərtib edilən gəmi, yük, kirə (fraxt) arasında ümumi qəzaya görə xərclərin bölgüsü üzrə xüsusi hesablama. Qəza zamanı ziyanın ödənişinə dair sənədin tərtib edilməsi yeri və qaydası müqavilədə göstərilir.

QƏZA HAQQI – yük alanın ya dəniz yük daşıyanına (gəmi sahibinə), ya da banka (yük daşıyanın və yük alanın birgə hesabına) ödənilən pul məbləği. Qəza haqqı – ümumi qəza xərclərində yük sahibinin payının ödənilməsinin təmin edilməsi qismində ondan gəmi sahibi tərəfindən, yaxud onun adından – dispaşer tərəfindən tələb olunan pul məbləğidir. Gəmi sahibinin qəza haqqının keçirilməsi tələbi barədə yük alan sığortaçıya dərhal məlumat verir. Beynəlxalq təcrübədə qəza haqqı depozit adlanır.

QƏZA KOMİSSARI – sığortalanmış əmlakla bağlı sığorta halı yarandıqda, sığortaçıların öz mənafelərini müdafiə etmək üçün xidmətlərindən istifadə etdikləri hüquqi və ya fiziki şəxs. Qəza komissarı qəzanın xarakterini, səbəblərini, qəza nəticəsində dəymiş zərərin həcmini, eləcə də sığortalanmış yüklərə və nəqliyyat vasitələrinə (gəmilərə) dəymiş zərərlərin həcmini müəyyən edir. Aparılmış işin nəticələrinə əsasən, qəza komissarı qəza sertifikatı tərtib edir. Qəza komissarı sığortaçı ilə sığortalı arasında vasitəçidir. Qəza komissarı – sığortalanmış gəmilər və yüklər üzrə zərərin səbəblərinin, xarakterinin və ölçüsünün müəyyən edilməsi ilə məşğul olan sığorta təşkilatının səlahiyyətli nümayəndəsidir, fiziki və ya hüquqi şəxsdir. Qəza komissarının adı və koordinatları sığorta sertifikatında və ya polisində göstərilir. Sığorta hadisəsi baş verən zaman sığortalı qəza komissarına müraciət etməlidir. Qəza komissarının funksiyaları çox genişdir və sığortalının təminatları ilə müəyyən olunur. Qəza komissarı zərərin xarakterini, ölçüsünü və səbəblərini təsdiq edən qəza sertifikatını tərtib edir ki, bunun əsasında sığortaçı sığortalının iddialarının rədd edilməsi və ya ödənilməsi haqqında qərar çıxarır. Qəza komissarı – itkini qiymətləndirən ekspertdir, yaxud sığortaçının nümayəndəsidir.

QƏZA QƏBZİ – yükü alan şəxsin həmin yükü daşıyana (məsələn, gəmi kapitanına) verdiyi öhdəlik. Bu öhdəlik nəqliyyat vasitəsinin qəzaya uğrayacağı halda öhdəliyi qəbul edənin payına düşən məsrəflərin ödəniləcəyinə zəmanət verir. Həmin payın həcmi əvvəlcədən tərtib edilmiş dispaşe əsasında müəyyənləşdirilir. **Dispaşe** – qəza nəticəsində çəkilən xərclərin gəmi sahibi, yük sahibi və yükün daşınma haqqı (fraxt) arasında bölüşdürülməsinə dair hesabatdır.

QƏZA ÖDƏNİŞİ – qəza ilə bağlı ümumi xərclərdən gəmi sahibinin payına düşən məbləğin ödəniləcəyinə təminat kimi, gəmi sahibinin və ya onun müvəkkil etdiyi başqa şəxsin həmin gəmidə daşınan yükün sahibindən tələb edə biləcəyi pul məbləği. Bu ödəniş gəmini sığortalayan şəxs tərəfindən həyat keçirilə bilər.

QƏZA PULLARININ SIĞORTALANMASI – elə sığorta növüdür ki, xilas etməyə görə mükafatın alınmasının təmin edilməsi məqsədilə gəmiləri və yükləri xilas edən buna meyil edir.

QƏZA SERTİFİKATI – sığortalanan əmlakda zərərin xarakterini, ölçüsünü və səbəblərini təsdiq edən rəsmi sənəd. Qəza komissarı tərəfindən tərtib edilir və qəza komissarının xərcləri hesabı və mükafatları maraqlı şəxs tərəfindən ödənildikdən sonra bu şəxsə verilir. Qəza aktı əsasında sığortaçı sığortalının iddiasının ödənilməsi və ya imtina edilməsi haqqında qərar çıxarır. Qəza aktı sığortaçının məsuliyyətinin şərtsiz sübutu ola bilməz.

QƏZA YAZILMASI – yük alanın ümumi qəzadan öz zərər payını ödəmək öhdəliyi.

QƏZA ZƏMANƏTİ – sığortaçının ümumi qəza nəticəsində dəymiş zərəri ödəmək öhdəliyi. Yükün bir hissəsinin itkisi imkanından yaxa qurtarmaqdan

ötrü onun sahibi bu növdən olan hər bir zərərin ödənilməsinə sığortaçılardan qəza zəmanəti ala bilər.

QƏZALARDAN SIĞORTALANMA – 1. Xüsusilə texnikanın müxtəlif növlərinin kütləvi istehsalı və mənimsənilməsi dövründə bir çox ölkələrin sığorta təşkilatlarının fəaliyyətində geniş tətbiq olunan sığorta məsuliyyəti növü. 2. Əmlak sığortası növü.

QƏZALI PULLARIN SIĞORTALANMASI – başlıca olaraq dəniz gəmilərinə yardım göstərilərkən tətbiq edilən dəniz sığortası növü. Xilasetmə müqaviləsinə görə, kömək edən həmişə gəminin müəyyən limana çatmasından sonra mükafat alır. Əgər xilaskar gəminin sağsalamat çatmasına əmin deyilsə, o, ona çatası mükafatı sığortalaya bilər.

QƏZASIZLIĞA GÖRƏ GÜZƏŞT – yol hərəkətinin nümunəvi iştirakçılarının mükafatlandırılması məqsədilə sığortalıya verilən bonus. Sığorta riskinin minimuma endirilməsinə görə bazis tarif dərəcəsinin 60-70%-nə bərabərdir.

QİSMƏN AKSEPT (ing. *partial acceptance*) – 1. Satıcı tərəf müəyyən şərtləri yerinə yetirdiyi halda tədiyəçinin ödəniş aparmağa razı olmasını nəzərdə tutan aksept. 2. Tələb edilən məbləği bütünlüklə deyil, onun yalnız bir hissəsini ödəməyə razılığı nəzərdə tutan aksept.

QİSMƏN İTKİ – sığortalanmış əmlakda hər hansı itkidir ki, bunun məbləği tam sığorta məbləğinə çatmamışdır, yəni tam məhv olmamışdır. Əgər sığortalı sığortalanmış əmlakın tam məhv olmasına görə iddia bildirirsə, onun faktiki olaraq yalnız qismən itkini almaq hüququ vardır.

"QİSMƏN KORLANMADAN AZADDIR" – sığorta şərtlərindən biri; buna görə sığorta şirkəti malın qismən korlanması (xarab olması) və qismən məhv olması zamanı zərərin ödənilməsindən "azaddır" və yalnız "yükə və gəmiyə ümumi təsir" (gəminin saya oturması, toqquşma, yanğın və s.) zamanı kompensasiya ödəməlidir. Bəzən icarəçi gəmini və yükü ümumi təhlükədən xilas edərək daşıyana dəymiş zərərlərə və xərclərə görə dəniz daşıyanına təzminat ödəməyə məcburdur. Bu halda sığorta şirkəti yükün alınması zamanı daşıyana iddia irəli sürmək üçün zəruri ola biləcək "ümumi qəzadan zərərlərə görə öhdəlik" verir. FRA sığortalanması, həqiqətən, yalnız "kobud" yüklər (dəmir filizi, daş kömür və s.) üçün uyğun gəlir.

"QİSMƏN QƏZADAN AZADDIR" – gəmilərin və yüklərin standart sığorta şərti. Gəmilər sığortalanmayıbsa, xüsusi qəzanın nəticəsi olan zərər ödənilməməlidir.

QİSMƏN QORUNAN AKTİVLƏRLƏ TƏMİN OLUNMUŞ KOMMERSİYA BORC KAĞIZLARI (ing. *Partially Supported Assety-Backed Commercial Paper – ABCP*) – qismən dəstək mexanizminə malik aktivlərlə təmin olunmuş kommersiya kağızı. Dəstək mexanizmi aktivlər portfelində itkilərin qismən ödənilməsi vasitəsilə kredit keyfiyyətinin artırılmasını nəzərdə tutur. Qismən qorunan aktivlərin "Moody's" reytinq agentliyi tərəfindən təhlili, əsasən, aktivlərin üzərində cəmləşir. Təhlilin məqsədi aktivlər üzrə itkilərin kredit dəstəyinin həcmini üstələməsi ehtimalını müəyyən etməkdir. Təhlilin nəticələrinə əsasən, emitentə müvafiq reytinq verilir. Kredit keyfiyyətinin qorunması mexanizmi itkilərin yalnız qismən ödənilməsini nəzərdə tutduğundan, proqramda likvidliyin qorunması üçün əlavə mexanizm mövcud ola bilər. Adətən, likvidliyin qorunması mexanizmi emissiya həcminin 100%-nə bərabərdir. Likvidliyin qorunması mexanizmi likvidlik riskinin neytrallaşdırılmasına kömək edən əməliyyat məhdudiyyətlərinin mövcud olduğu təqdirdə azaldıla bilər. Qismən qorunan kağızların reytinqi bir neçə amildən, o cümlədən: aktivlərin özünü aparması; kredit keyfiyyətinin qorunması mexanizmini təchiz edənin reytinqi; likvidliyin qorunması mexanizmini təchiz edənin reytinqi; proqram menecerinin səriştəsindən asılıdır (bax: Aktivlərlə təmin olunmuş kommersiya borc kağızları).

QİSMƏN MARAQ – riskdə olan əmlaka görə ümumi marağın hər hansı bir hissəsinə sığorta marağı nəzərdə tutulur. Sığorta nöqteyi-nəzərindən sığorta marağını təmsil edən şəxs, əgər pay yüz faizlik maraq təşkil edirsə, bu payı əldə etmək hüququna malikdir.

QİSMƏN SIĞORTALANMA – natamam dəyər riskinin, yaxud əmlakın natamam dəyərdə sığortalanması; nəzərdə tutulur ki, sığortaçı sığorta dəyərinə mü-

tənasib nisbətində itkiləri öz üzərinə götürür.

QİSMƏN ZƏRƏRLƏR – sığortalanmış əmlakda hər hansı bir zərərdir ki, onun məbləği tam sığorta məbləğinə çatmayıb, yəni tam məhv olmayıb.

QİV-AP – müəyyən gəlirlilik səviyyəsinə malik olan qiymətli kağızların satışı və həmin məbləğə başqa, gəlirlilik səviyyəsi daha aşağı olan qiymətli kağızların alınması nəticəsində gəlirin itirilməsi.

QİYMƏT – məhsul və ya xidmət formasında təqdim edilən əmtəənin alınmasına görə alıcının ödədiyi pulun miqdarı, məhsulun (malın, işin, xidmətin) dəyərinin pulla ifadəsi. Qiymətin səviyyəsinin nisbətinin və onların hərəkətinin əsasını dəyər qanunu təşkil edir. Qiymətin dinamikasına eyni zamanda digər amillər də (qızılın dəyərinin dəyişməsi, tədavüldəki kağız pulun miqdarı, tələb və təklifin nisbəti, siyasət və s.) təsir göstərir; bunlar qiymətin dəyərdən uzaqlaşmasına səbəb ola bilər. Lakin ictimai miqyasda bu uzaqlaşmalar qarşılıqlı ödənilir və qiymətin məbləği əmtəələrin dəyərinin məbləğinə uyğun gəlir. Konkret əmtəələrin qiymətinin nisbəti onların istehlak xüsusiyyətindəki, keyfiyyətdəki fərqlər nəzərə alınmaqla müəyyən edilir.

Gündəlik təsərrüfat münasibətləri təcrübəsində təzahür olunur. Əmtəənin qiymətinin nə qədər olmasını həmişə satıcıdan və ya daşıma haqqında müqavilədən, alqı-satqı şərtlərindən öyrənmək olar. Adətən, qiymət əmtəə vahidinin qiyməti ilə ifadə olunur: bir ton neft, bir traktor, avtomobil və s. Bununla yanaşı, faydalılıq vahidinə – ton şərti yanacağa və ya maşının güc vahidinə görə hesablanan qiymət anlayışından da istifadə olunur. Bazar təsərrüfatında qiymət-rəqabət, resursların yenidən bölgüsü, kapital axını alətidir. O, iqtisadiyyatın tənzimlənməsində və özünü tənzimləmədə mühüm rol oynayır. İqtisadi nəzəriyyə tərəfindən nəzərdən keçirilən mühüm məsələ – qiymət və qiymətin əmələ gəlməsinin bazar mexanizminin "Nə, necə və kimin üçün istehsal" əsas problemini necə həll etməsidir. Əmtəənin istehsalçısı (satıcısı) üçün onun qiymətinin səviyyəsi təsərrüfat fəaliyyətinin gəlirliliyini müəyyən edir, təsərrüfatın inkişafına investisiya qoyulmasını və istehlak imkanlarını şərtləndirir. Buna görə də əmtəənin istehsalçısı (satıcısı) öz əmtəəsini daha yüksək qiymətə satmaq və böyük gəlir əldə etmək marağındadır. İstehlakçının əks maraqları: əmtəənin əldə edilməsi qiyməti istehlakçının xərclərini, onun çəkdiyi məsrəfləri müəyyən edir. İstehlakçının aldığı əmtəənin qiyməti nə qədər aşağıdırsa, onun xərcləri, çəkdiyi məsrəflər bir o qədər azdır. Son nəticədə hər bir sahibkar, hər bir müəssisə öz əmtəəsini baha satmağa və lazım olan əmtəəni isə ucuz almağa səy göstərir. Satışdan əldə olunan gəlirlə (reallaşma qiymətinin məbləği ilə) məsrəflər (əldə olunan resursların qiymətinin məbləği) arasında fərq müəssisənin maliyyə-təsərrüfat, sahibkarlıq fəaliyyətinin səmərəliliyini, ev təsərrüfatının səmərəliliyini xarakterizə edir.

Bazar iqtisadiyyatında əmtəələrin (məhsul və xidmətlərin) qiyməti alıcıların və satıcıların rəqabət aparması nəticəsində tələb və təklifin təsiri altında müəyyən olunur. Rəqabət çoxsaylı satıcıların və alıcıların olduğu azad bazarda formalaşır. Belə bir şəraitdə qiymət son nəticədə əmtəələrin tələb və təklifinin tarazlığı ilə yaranır. Lakin bu o zaman baş verir ki, azad rəqabət, kapital axını, alıcıların və satıcıların konkret əmtəəsinin bazara açıq daxil olması üçün bütün şərtlər mümkün olsun. Real şəraitdə mükəmməl rəqabət mövcud deyildir. Mövcud bazarlarda bu və ya digər bazar sferalarını və qiymətin əmələ gəlməsini inhisarlaşdıran müxtəlif növ məhdudiyyətlər vardır. Nəticədə konkret əmtəəyə qiymət bəzən əmtəə istehsalçısının, satıcısının və ya alıcısının hökmran, hətta inhisarçı mövqeyi zamanı qoyulur. Belə bir şəraitdə qiymətin dövlət və bələdiyyə tənzimlənməsinə zərurət yaranır.

Bazar iqtisadiyyatı şəraitində qiymətin dövlət tənzimlənməsi qiymətin sabit səviyyəsinin və həm məhsullar, həm də xidmətlər kimi ən mühüm əmtəə qruplarının qiymətlərinin səmərəli nisbətinin saxlanmasına istiqamətlənən kompleks tədbirləri əhatə edir. Bununla belə, bazarda rəqabət mühitinin saxlanması, inhisarçılığın qarşısının alınması, sosial yönümlü qiymət siyasətinin aparılması, xarici ticarət və daxili qiymətlərin optimal nisbətinə təsir göstərilməsi nəzərə alınır. Qiymətin həm makroiqtisadi, həm də mikroiqtisadi səviyyələri möv-

Cədvəl 1

Beynəlxalq ticarətdə qiymətəməlagəlmə

Qiymət - *məhsulun dəyərinin pulla ifadəsidir.*	
Qiymət - satıcının əldə etməyə niyyətli olduğu və alıcının onu ödəməyə hazır olduğu elə məbləğdir ki, həmin məbləğ bir çox qiymət əmələgətirən adlı amillərdən asılıdır.	
Qiymət əmələ gətirən amillər	- Ümumiqtisadi (tsikl, məcmu tələblə məcmu təklifin nisbəti, inflyasiya); - Konkret-iqtisadi (bazarın/rəqabətin tipi, xərclər, gəlir, vergilər, tələb və təklif); - Spesifik (mövsümi, komplektlilik, zəmanət, xidmət) - Xüsusi (dövlət tənzimlənməsi, valyuta kursu) - Qeyri-iqtisadi (siyasi, hərbi)
Xarici ticarət qiymətlərinin növləri	- İstinad qiymət – birja bülletenində, ixtisaslaşmış dərgilərdə və bülletenlərdə dərc edilən satıcı qiyməti; - Statistik – külliyyatda dərc edilən qiymətlərin orta kəmiyyəti; - Hərrac – hərrac nəticəsində əmələ gələn qiymət; - Birja (birja kotirovkası) – əmtəələrin əmtəə birjalarında formalaşan qiymətləri; - Dempinq – süni şəkildə aşağı salınmış qiymətlər (adətən maya dəyərindən aşağı salınmış olur); - Müqavilə – müqavilədə razılaşdırılmış və fiksə edilmiş qiymət; - Sürüşkən – məmulatın istehsalı dövrü ərzində xərclərin dəyişməsi nəzərə alınmaqla; - Qəti fiksə edilmiş – müqavilə imzalanan tarixdə qəti surətdə müəyyənləşdirilmiş və dəyişməyən qiymət; - Konvertə edilən valyuta ilə bağlanan anlaşma qiymətləri; - Konvertə edilməyən valyuta ilə bağlanan anlaşma qiymətləri; - Klirinq sazişi üzrə qiymət; - Transfert qiymətlər (firmadaxili) – TMK-ların yarımfabrikat qiymətləri; - Dövlət yardımı çərçivəsində formalaşan qiymətlər.
Sadalanan qiymətlər dünya qiymətlərinin çoxluğu adlanır.	
Qiymətlərin çoxluğu – *çoxsaylı amillərdən asılı olaraq eyni bir məhsulun qiymətindəki fərqlilik, məsələn: ödəniş valyutası, hesablaşma şərti, çatdırılma xarakteri, bazarın coğrafi məkanı və s.*	

cuddur. Qiymətin tənzimlənməsi üzrə makroiqtisadi dövlət tədbirlərinə qiymət və qiymətin əmələ gəlməsi siyasətinin prinsiplərinin və konsepsiyasının işlənib hazırlanması, onların qanunverici və normativ təminatı, qiymətin inflyasiya artımına mane olan çevik pul-kredit və büdcə siyasətinin həyata keçirilməsi, valyuta məzənnəsinin tənzimlənməsi daxildir. Qiymətin tənzimlənməsi üzrə mikroiqtisadi dövlət tədbirləri daha konkret olub, təbii və digər inhisarlar üzərində nəzarəti, mühüm sosial əhəmiyyət kəsb edən əmtəə və xidmətlərə qiymətin qoyulmasını, bazarda hökmran mövqe tutan müəssisələr üzərində müşahidəni, müqavilə qiymətinin normativ-hüquqi və məhkəmə müdafiəsini, ayrı-ayrı əmtəələrə aksiz vergisinin tətbiqini, istisna hallarda qiymətin və ya gəlirlərin dotasiyalaşdırılmasını və subsidiyalaşdırılma-


sını, xarici iqtisadi fəaliyyətdə qiymətlərin, gömrük tariflərinin tənzimlənməsini, zəruri hallarda qiymətin indeksləşdirilməsini, qiymət statistikasının təşkilini və bu qiymətlərə monitorinq nəzarətini ehtiva edir.

Qiymət əmtəə tədavülünün müxtəlif sferalarını əhatə edir. Buna uyğun olaraq qiymətin aşağıdakı növləri fərqləndirilir: *istehlak qiymətləri*, bu qiymətlərə öz növbəsində əmtəələrin (ərzaq və sənaye mallarının) pərakəndə qiymətləri və əhali üçün xidmətlərin (mənzil, kommunal, nəqliyyat, tibbi və s.) tarifləri daxildir; istehsal və istehsal texniki təyinatlı məhsulların qiyməti; *kənd təsərrüfatı məhsullarının satınalma qiymətləri*; nəqliyyat tarifləri. Əmtəələrin reallaşması mərhələlərindən, xüsusilə istehsalçının qiymət və müəssisələr tərəfindən maddi-texniki və digər resursların əldə edilməsi qiyməti və mərhələlərindən asılı olaraq, qiymətin növlərə ayrılması böyük təcrübi əhəmiyyət kəsb edir. Ticarət və digər vasitəçi təşkilatların xeyrinə qiymətlərə güzəşt nəzərdən keçirilir və nəzərə alınır. Təcrübədə və iqtisadi nəzəriyyədə kredit faizi torpağın, daşınmaz əmlakın qiyməti, icarə haqqı və əlbəttə, əmək haqqı qismində əməyin qiyməti kimi spesifik qiymət növləri xüsusi olaraq nəzərdən keçirilir. Dövlət və bələdiyyə təşkilatları tərəfindən göstərilən ictimai xidmətlərin qiyməti kimi *vergi tədiyələri* də müəyyən mənada nəzərdən keçirilə bilər. Burada tələb və təklifin bərabər olduğu halda formalaşan qiymətlər tarazlı qiymətlər adlanır. Bu cür qiymətlər mühüm stabilləşdirici, tənzimləyici və stimullaşdırıcı funksiya yerinə yetirir.

QİYMƏT AYRI-SEÇKİLİYİ – eyni əmtəənin müxtəlif alıcılara müxtəlif qiymətlərə satılması. *Qiymətin maksimum* həddi bir əmtəə üçün müəyyən olunmuş maksimum həddi, *qiymətin minimum* həddi bir əmtəə üçün müəyyən olunmuş minimum qiyməti əks etdirir.

QİYMƏT GÜZƏŞTLƏRİ – bazar şərtlərinin dəyişməsindən asılı olaraq qiymətin aşağı salındığı məbləğ. Təcrübədə güzəştin 20-yə yaxın növü var. Bu güzəşt növlərinə, əsasən, aiddir: preyskurant və ya sorğu qiymətindən sadə güzəşt; topdansatış alqıya görə güzəşt (alınan əmtəə partiyasının ölçüsü nə qədər çoxdursa, güzəşt də bir o qədər

Qiymətin müəyyən edilməsində əsas amillər



Sxem 1

çoxdur); nağd və ya vaxtından əvvəl hesablaşmanın ödənilməsinə görə "skonto" güzəşti; il ərzində nail olunmuş əmtəə dövriyyəsindən asılı olaraq daimi alıcılara verilən dövriyyəyə görə güzəşt (bonus güzəşti); satışın həcmindən və ya seriyalılığından asılı olan mütərəqqi güzəşt; əmtəənin satışının fəal mövsümdən kənar, bu əmtəənin alınmasına görə mövsümi güzəşt; ixrac güzəşti, yəni daimi alıcılara xüsusi güzəşt və s.

QİYMƏT İNDEKSİ – müəyyən dövr üçün "bazar istehlak zənbili" adlanan müəyyən əmtəə və xidmətlər dəstinin məcmu qiyməti ilə bazis dövründə (baza ilində) oxşar əmtəə və xidmətlər qrupunun məcmu qiyməti arasında nisbət, başqa sözlə, zaman və ya məkan (ərazi) kəsiyində əmtəə və xidmətlərin qiymətlərinin orta səviyyəsinin nisbi dəyişməsini ifadə edən göstərici. Ümumi milli məhsulun (ÜMM) və milli gəlirin kəmiyyəti qiymət səviyyəsinin dəyişməsi ilə əlaqədardır. ÜMM-in qiymət indeksi və istehlak qiymətləri indeksi fərqləndirilir. ÜMM-in qiymət indeksi ÜMM-in deflyatorudur; o, istehlak mallarının və xidmətlərinin qiymətlərini, dövlət tərəfindən alınan istehsal təyinatlı malların qiymətlərini, dünya bazarında alınan və satılan əmtəə xidmətlərinin qiymətlərini ehtiva edir. ÜMM-in qiymət indeksinin köməyi ilə bazis dövründə istehsalın oxşar həcminin qiyməti ilə həmin ildə istehsalın həcminin qiymətini müqayisə etmək olar. Müxtəlif illər üçün qiymət indeksinin müqayisə edilməsi qiymətlərin artması və ya azalmasının aşkar edilməsinə imkan verir.

İstehlak Qiymətləri İndeksi (İQİ) yalnız əmtəə və xidmətlərin qiymətlərini ehtiva edir. O, qeyd olunduğu kimi, ÜMM-in deflyatorudur. Məsələn, ABŞ-da İQİ 300-dən artıq əmtəə və xidmətlərin qiymətlərini ehtiva edir və şəhər istehlakçıları tərəfindən alınan bu "bazar səbəti"nin qiymətlərindəki irəliləyişləri göstərir. İQİ daimi əsasda ölçülüb-biçilmiş göstəricidir. İQİ-nin ÜMM indeksindən başlıca fərqi ondan ibarətdir ki, İQİ-də "bazar səbəti"nin tərkibi bazis ilindəki səviyyədə təsbit olunur (buna görə də o, ÜMM indeksi kimi ildən-ilə dəyişmir). Çünki İQİ-nin məqsədi qiymətlərin dəyişilməsini göstərməkdir. Müəyyən mənada İQİ şərti göstəricidir. O, əhəmiyyətli nöqsanlara malikdir. Əvvəla, real həyatda istehlakçılar "bazar səbəti"nin tərkibini dəyişirlər: bir əmtəənin qiymətinin yüksəlməsi, onun digər daha ucuz əmtəə ilə əvəz edilməsinə gətirib çıxarır ki, bunun nəticəsində "bazar səbəti" ucuz əmtəələri daha çox, bahalı əmtəələri daha az təmsil edəcəklər. İkincisi, İQİ-də əmtəələrin keyfiyyətində olan dəyişikliklər (məsələn, onların qiymətlərinin artması) nəzərə alınmır, belə ki, həyat dəyərinin artımını yalnız inflyasiya doğurur. Deməli, İQİ mahiyyət etibarilə inflyasiyanın artan sürətini nümayiş etdirir.

"QİYMƏT QAYÇISI" – müəyyən dövr ərzində əmtəə istehsalçıları tərəfindən satılmış əmtəələrin qiymətlərinin dinamikasının müqayisəli təhlilinin nəticəsini xarakterizə edən və bu qiymətlər arasındakı uyğunsuzluğu göstərən termin. Daha çox sənaye və kənd təsərrüfatı arasında məhsul mübadiləsi sahəsində qiymətlərin hərəkətinin öyrənilməsi zamanı işlədilir. Adətən, şəhərlə kənd arasında mübadilənin qeyri-ekvivalentliyini göstərmək üçün istifadə edilir. "Qiymət qayçısı" bir tərəfdən kənd təsərrüfatı istehsalçılarının realizə etdiyi ərzaq və xammalın, digər tərəfdən onların istehsala və qeyri-istehsal istehlakı üçün sənayeçilərdən aldıqları əmtəənin qiymətlərinin hərəkətində konkret meyillərdən asılı olaraq, "genişlənə", yaxud "darala" bilər. "Qiymət qayçısı" problemi ilkin kapital yığımı, sənayeləşdirmə (xüsusən kənd təsərrüfatının) dövründə, böhran, müharibə və s. zamanı daha da kəskinləşir. Bu və ya digər ölkənin mili gəlirində kənd təsərrüfatının payı nə qədər çox olarsa, "qiymət qayçısı" probleminin iqtisadi-sosial əhəmiyyəti də mühüm və aktual olur. "Qiymət qayçısı" kapitalist iqtisadiyyatı üçün xüsusilə xarakterikdir.

QİYMƏT QOYULMAMIŞ POLİS – sığorta polisidir ki, burada sığortalanmış əmlakın qiymətləndirilməsi bitmiş xarakter daşımır və əmlakın tam məhv olması zamanı sənədlə sübut edilməlidir. Qiymət qoyulmamış polis üzrə sığortaçının məsuliyyət ölçüsünün sübutu ağırlığı tam olaraq sığor-talının üzərinə düşür. Qiymət qoyulmamış polis zamanı sığortalı gözlənilən mənfəətin ölçüsünü sığorta məbləğinə daxil edə bilər və zərərin meydana gəlməsi zamanı sığortalı əmə-

liyyat bitən kimi o ölçüdə sığorta ödəməsi alır.

QİYMƏT MİQYASI (ing. *scale of prices;* alm. *preismabstab*) – pulun texniki funksiyası. Əmtəələrin qiymətlərinin bəzi ümumi ekvivalent vahidləri, məsələn, pulun bir vahidi üçün ölkədə qəbul edilmiş qızılın və ya gümüşün miqdarıdır. Dəyəri pul vahidlərində ifadə edən vasitədir.

Bütün əmtəələrin qiymətini ölçmək və bildirmək üçün istifadə edilir. Dövlət tərəfindən qanunvericiliklə təsbit edilmiş qiymət miqyası pul əmtəəsinin (qızılın) dəyərinin dəyişməsindən asılı deyil (məs., qızılın dəyərinin necə dəyişməsindən asılı olmayaraq dollar sentdən həmişə 100 dəfə çoxdur). Əvvəllər qiymət miqyası çəki miqyasına uyğun gəlirdi. Tarixi inkişaf nəticəsində qiymət miqyası xüsusiləşmişdir; bu da, hər şeydən əvvəl, sikkənin korlanması, pul metalı rolunun gümüşdən qızıla keçməsi, xarici pulun tədavülə buraxılması və s. ilə əlaqədar olmuşdur (bax: sxem 1).

QİYMƏT NƏZƏRİYYƏLƏRİ – qiymət və onun formalaşması iqtisadi nəzəriyyənin mürəkkəb və fundamental problemlərindən biridir. Həm sahibkarların, həm də istehlakçıların bazarda tutduğu mövqeyi əmtəə və xidmətlərin qiyməti ilə müəyyən olunur. Tarixən mövcud olan qiymət nəzəriyyəsindən biri əmək dəyər nəzəriyyəsidir. Banisi K.Marks (1818-1883) olan bu nəzəriyyəyə görə, qiymət əmtəə dəyərinin pulla ifadəsidir. Bu nəzəriyyədə dəyər istehsal xərci kimi deyil, ictimai-zəruri əməyin təcəssümü kimi verilmişdir. Müasir iqtisadi nəzəriyyədə isə Kembric məktəbinin banisi A.Marşalın (1842-1924) qiymət nəzəriyyəsi geniş yayılmışdır. Bu nəzəriyyədə dəyərin mövcudluğu inkar edilir və üç konsepsiya – faydalılıq həddi, istehsal xərcləri, tələb və təklifi bir qiymət nəzəriyyəsində birləşdirməyə cəhd olunur. Bu nəzəriyyələrə istinad olunaraq iqtisad elmi praktikasında qiymətlərin müəyyən edilməsinə əsas yanaşmalar kimi bazar və məsrəf (istehsal) yanaşmaları fərqləndirilir.

Bu yanaşmaların fərqi qiymətin formalaşmasına təsir göstərən müəyyənedici amillərdən ibarətdir. Bazar üsulunda bu amillər bazarın bolluğu, mala tələb və onun təklifidir. Başqa halda istehsal xərcləri, o cümlədən əmək məsrəfləri həlledici hesab edilir.

Bazarda qiymətyaranmada əmtəə və xidmətlərin qiyməti onların mübadiləsi prosesində üzə çıxan nemətlərin dəyərinin ifadə formasıdır:

– burada əmtəənin qiyməti onun istehlak obyekti kimi istifadə edilməsindən yaranan dəyərlə birbaşa bağlıdır;

– malın qiyməti yalnız onun pul və ya başqa mal ilə mübadiləsi zamanı üzə çıxır.

QİYMƏT SİSTEMİ – məhsulun istehsalçı müəssisədən son istehlakçıya çatdırılmasına qədər hərəkəti zamanı qiymətlərin formalaşmasının müxtəlif mərhələlərini əhatə edir.


Başlanğıc mərhələdə istehsalçının *topdansatış qiyməti* formalaşır. Bu qiymət məhsulun istehsal və satış məsrəflərini ödəyir və mənfəətin zəruri səviyyəsini təmin edir.

Məhsul topdansatış vasitəçilərinin köməyi ilə satıldıqda vasitəçilər üçün əlavələr (güzəştlər) nəzərdə tutulan *topdansatış tədarük qiymətləri* formalaşır.

Məhsul pərakəndə ticarət müəssisələri vasitəsilə realizə edildikdə *pərakəndə satış qiyməti* formalaşır. Buraya öz iqtisadi məzmununa və strukturuna görə təchizat-satış əlavəsinin analoqu olan pərakəndə ticarət əlavəsi də daxildir. Hər bir halda *qiymət əlavəsi* vasitəçi və ya ticarət təşkilatının xidmətlərinin qiymətidir. O, qiymət əlavəsi və ya güzəşt şəklində müəyyən edilir. Qiymət əlavəsinin müəyyənləşdirilməsi onu göstərir ki, bu əlavə vasitəçinin məhsulu satın aldığı qiymətin faiz nisbəti şəklində təyin edilir. Az və ya çox dərəcədə tam qiymətlərin strukturunun bir-birindən necə fərqlənməsi məhsulun daşınması, yüklənməsi və boşaldılması üçün xərclərin alıcı və satıcı arasında necə bölüşdürülməsindən asılıdır.

Rentabellik norması vasitəsilə müəyyənləşdirilən mənfəətin əldə edilməsi üçün tam məsrəflərə əlavə olunan qiymətin formalaşmasının bu metodu *tam məsrəflər metodu* adlanır. Keçmiş SSRİ-də tam məsrəflər metodu, demək olar ki, hər yerdə, bütün kateqoriyalara aid müəssisələr tərəfindən istifadə edilir və aşkar ifadə olunmuş məsrəf xarakteri daşıyırdı. Çünki qiymətin formalaşması zamanı müəssisə rəhbərinin vəzifəsi plan məsrəflərini maksimum artırmaqdan ibarət idi. Müasir dövrdə bu metoddan qeyri-mükəmməl rəqabət bazarında istifadə edilir. Bu

Son istehlak əmtəəsinin qiymətinin formalaşması



Sxem 1

metodun nöqsanlı cəhətlərinə rəqiblərin davranışının nəzərə alınmaması və tələbin elastikliyi aiddir. Bu metodun bir növü *qiymətin investisiyaların rentabelliyi metodu əsasında müəyyən edilməsidir*. Qiymətin marketinq araşdırmaları əsasında müəyyən edilməsi metodu və ya *marketinq qiymətləndirmələr metodu* inkişaf etmiş bazar münasibətləri şəraitində tətbiq edilir. Bu metod satış bazarının, tələbin elastikliyinin və qiymətin dəyişməsindən asılı olaraq tələbin dəyişməsi haqqında məlumatların, rəqiblərin davranışının və digər amillərin öyrənilməsinə əsaslanır. O, iki yarımmetoda bölünür: *oxşar qiymət metodu* və *alıcının reaksiyasının qiymətləndirilməsi metodu*. Oxşar qiymət metodundan istifadə edildikdə malın qiyməti rəqiblərin analoji mal üçün müəyyənləşdirdiyi qiymətlərə uyğun olaraq təyin edilir. Alıcının reaksiyasının qiymətləndirilməsi metodundan istifadə edildikdə isə satıcı həmin malın hansı maksimum qiymətə satılmasına zəmanət verildiyini aydınlaşdırır və ona müvafiq qiymət təyin edir. Çox vaxt elə vəziyyət yaranır ki, bazarda tam analoqları olmayan yeni mallar üçün qiymət müəyyən edilməsi zəruri olur. Bu halda *xüsusi qiymət metodundan* istifadə etmək məsləhətdir. Həmin metodun mahiyyəti köhnə malın baza göstəricisini müəyyənləşdirməkdən və onu yeni malın oxşar göstəricisi ilə müqayisə etməkdən ibarətdir.

Qiymətlər alqı-satqı müqavilələrində təsbit olunur. Kontraktlarda həm müqavilənin qüvvədə olduğu müddətdə dəyişməyən *qəti qiymətlər*, həm də qiymətlərin razılaşdırılmış elementləri dəyişdikdə və ya bazarın konyunkturası dəyişdikdə yenidən nəzərdən keçirilə biləcək *dəyişkən qiymətlər* göstərilir. Bazarın konyunkturasının dəyişmələri uzunmüddətli kontraktlarda tətbiq edilir. Məhsulun qiymətləri ilə yanaşı, xidmətlərin də qiymətləri mövcuddur. Onlar tarif adlanır. Qiymət məhsulun satışının çox güclü stimulyatorudur. Müəssisə müxtəlif güzəştlər sis-

temi tətbiq etməklə satışın həcminin əhəmiyyətli dərəcədə artırılmasına nail olur.

"QİYMƏT ŞƏLALƏSİ" – preyskurantda göstərilən qiymətlərlə sövdələşmənin bağlanması nəticəsində müəyyən edilən faktiki qiymətlər arasında fərq.

QİYMƏT DƏYİŞMƏSİNİN YOL VERİLƏN HƏDDİ – birja günü ərzində qiymət dəyişməsinin məhdudlaşması məqsədilə birjalarda müəyyən olunan limit və birjalarda iflasın qarşısının alınması. Onun sərhədləri qiymətlərin icazə verilən maksimal və minimal limitləri ilə müəyyən olunur. Birja günü ərzində qiymətlərin maksimal həddinə çatması Böyük Britaniya birjalarında ticarətin yarımsaatlıq, ABŞ-da isə növbəti iş gününədək dayanmasına səbəb olur.

QİYMƏT VƏ TARİFLƏRƏ NƏZARƏT – dövlətin iqtisadi prosesləri bu və ya digər dərəcədə tənzimləməsi.

İnzibati-amirlik iqtisadiyyatında bu nəzarət öz tərkibində müvafiq müfəttişliklər və nəzarət xidmətləri olan xüsusi qiymətqoyma orqanlarının səlahiyyətidir.

Bazar iqtisadiyyatında qiymət və tariflərə nəzarət məhsul və xidmət növlərindən, onların liberallaşması səviyyəsindən, qiymətlərin səviyyələrində dövlət normativlərinin uçotunun icbariliyindən (rentabellik, ticarət əlavəsi, ƏDV və s.) asılı olaraq müxtəlif mərkəzi və yerli dövlət hakimiyyəti orqanları tərəfindən həyata keçirilir. Bir halda ki, mərkəz tərəfindən təsdiq olunan preyskurantlar mövcud deyil, onda nəzarəti özünəməxsus, dolayı formada nəzərdən keçirmək olar. O, əmtəələrin hərəkəti ilə müşayiət olunan qaimə və digər sənədlərlə buraxılış qiymətlərinin (topdansatış və pərakəndə qiymətlərin) uyğunluğunu aşkar etməkdən ibarətdir.

QİYMƏTİN ƏMƏLƏ GƏLMƏSİ – qiymətin kəmiyyətinin müəyyən edilməsi prosesi; müvafiq normativ-hüquqi sənədlər, tələb-təklif və qiymətə təsir göstərə bilən amillər əsasında qiymətlərin formalaşması.

Müəssisənin məhsul buraxılışının obyektiv olaraq iki qiyməti mövcuddur. Birincisi, tələb qiyməti adlanır və istehsalçının təklif etdiyi məhsulun həcminə görə alıcının pulla ödənilməsinə razılıq verdiyi maksimum qiymətdir. İkincisi, təklif qiyməti adlanır və istehsalçının öz məhsulunu satmağa razı olduğu minimum qiymətdir. Əgər tələb qiyməti təklif qiymətindən çoxdursa, onda həmin anda müəssisə rəhbərliyin qəbul etdiyi strateji məqsədlərin həyata keçirilməsi üçün qiymət dəhlizində yaranan qiymətlərlə manipulyasiya edə bilər. Tələb qiyməti ilə təklif qiymətinin bərabərliyi faktiki olaraq o deməkdir ki, satıcı üçün itkisiz və alıcı üçün əlverişli olan yeganə qiymət variantı mövcuddur. Təklif qiyməti tələb qiymətindən üstün olarsa, onda istehsalçı tələb qiymətinə görə onda mövcud olan məhsulu satmağa, itkiyə məruz qoymağa və daha sonra ya maya dəyərini minimum səviyyəyə endirməyə, ya da istehsalın həcmini dəyişməyə məcbur olacaqdır.

Təcrübədə hər bir konkret məqamda tələb və təklif qiymətini hesablamaq çətindir. Buna görə də öz qiymət siyasətini formalaşdıraraq, müəssisə rəhbərləri çox zaman nümunələr və səhv metodu ilə, götür-qoy etməklə fəaliyyət göstərməyə məcburdurlar. Lakin bu o demək deyil ki, müəssisə rəhbərləri qiymət siyasətini seçməkdə sərbəstdirlər. Belə ki, qiymətlə əlaqədar hər hansı düzgün olmayan qərara görə hökmən "qisas" başverir.

Firmanın qiymət strategiyasının müəyyən edilməsində xüsusən iki ilkin mərhələ mövcud olmalıdır.

Birinci mərhələ – bazarın strukturunu müəyyən etmək üçün onun öyrənilməsi və nəticələrin təhlilidir. Qiymət siyasətinin ikinci ilkin mərhələsi – bazarda müəssisənin strateji davranışının dürüst müəyyən edilməsidir: sağlam və davamlı fəaliyyət göstərməsi üçün, satış həcmi və ya məhsulun keyfiyyəti göstəricilərinə görə liderliyin qazanılması və s.

Qiymətin əmələ gəlməsinin bir neçə metodu mövcuddur. Onlardan ən sadəsi əmtəənin (malın) maya dəyərinin üstünə müəyyən əlavənin gəlməsidir. Bir çox müəssisələr "xərclər üstəgəl mənfəət" düsturundan istifadə edir.

Xərclər əsasında qiymətin formalaşmasının digər bir metodu planlaşdırılmış mənfəət əldə etməyə imkan verən variantın seçilməsini, qiymət və satışın həcminin müxtəlif uzlaşmasının müqayisəliliyini nəzərdə tutur.

Qiymətin əmələ gəlməsi metodlarının tez-tez dəyişməsi məqbul sayılmır, çünki bu, müəs-

sisənin fəaliyyətinin bütün göstəricilərinə təsir edə və bazarda onun sabitliyini poza bilər. Müəssisə qiymətin əmələ gəlməsinin bu və ya digər metodundan istifadə edərək öz məhsuluna baza qiymətini müəyyən edir.

Müəssisələr standart və ya dəyişən qiymət siyasətini tətbiq edə bilər.

Müəssisələr həmçinin vahid və çevik qiymət siyasətini seçə bilər. Vahid qiymət sistemi çərçivəsində şirkət oxşar şəraitdə əmtəə (mal) əldə etmək istəyən bütün istehlakçılar üçün eyni qiyməti müəyyən edir. Çevik qiymətlər siyasəti güzəştlər və ya qiymətə əlavə etmək yolu ilə baza qiymətinə düzəliş olunmasıdır. Əvvəllər müzaidə son qiymətin müəyyən edilməsinin yeganə üsulu idi. Hazırda bir çox ölkələrdə çevik qiymət siyasəti əhəmiyyətli dərəcədə məhdudlaşır.

Məhsulun son qiyməti həmçinin satıcının qiyməti yuvarlaqlaşdırmasından da asılıdır. Bir sıra ölkələrdə pərakəndə ticarətçilər hesab edirlər ki, əmtəənin qiyməti yuvarlaqlaşdırılmamalıdır. Məsələn, 5 manat yox, 4 manat 95 qəpik olmalıdır. Bu siyasət bir sıra mülahizələrlə, məsələn, alıcının pulun qalığını almaqdan xoşu gəlməsi ilə izah olunur.

Beləliklə, qiymətin əmələ gəlməsi mürəkkəb prosesdir. Bunun gedişində yalnız obyektiv amillər (xərclər, tələb və rəqabət) yox, həm də çoxsaylı subyektiv mülahizələr də nəzərə alınmalıdır.

QİYMƏTİN ƏMƏLƏ GƏLMƏSİ AMİLLƏRİ – qiymətlərin formalaşmasına müəyyənedici təsir göstərən iqtisadi qüvvələrin, iqtisadi maraqların kompleksi. Sərbəst qiymətin əmələ gəlməsi və müəssisələrin müstəqilliyi şəraitində onların məhsullarına olan qiymətlərin iqtisadi cəhətdən əlverişli müəyyən edilməsi. Obyektiv bazar şərtləri ilə bağlı olan amillər qiymətlərin formalaşmasına daha çox təsir göstərir. Qiymətin əmələ gəlməsinin əsas makroiqtisadi amillərinə aiddir: istehsalın inkişaf səviyyəsi, inflyasiya sürəti, yəni həm reallaşdırılan məhsulun qiymətinə, həm də müəssisənin əldə etdiyi resursların qiymətinə təsir edən qiymət artımı; pul-kredit siyasəti, xüsusilə inflyasiya sürətinə təsir göstərən pul kütləsinin artım sürəti, nağd və nağdsız hesablaşmalar, büdcə kəsirinin səviyyəsi və s. Bazarın konkret şərtlərində müəssisə, firma, şirkət tərəfindən qiymətin əmələ gəlməsinin aşağıdakı amillərinin nəzərə alınması zəruridir:

Alıcıya təklif edilən əmtəənin qiymətini müəyyən edən tələb amillərinə aiddir: tədiyə qabiliyyətli tələb – əmtəənin alınmasına, alqının həcminə alıcının ayırdığı vəsaitlər; cari istehlak mallarına olan tələb.

Alternativ istehsal imkanları ilə şərtlənən amillər; müəssisənin mövcud istehsal imkanlarının istifadəsində məhsulların son həddə əvəz edilməsi; texnologiyaların və istifadə olunan resursların əvəz edilməsində alternativ xərclər.

Əmtəənin istehsalının və realaşmasının maliyyə və iqtisadi səmərəliliyi son nəticədə konkret əmtəənin istehsalı və bazara çıxışının təşkilinin məqsədəuyğunluğunu, məhsulun reallaşmasını şərtləndirir.

Qiymətin əmələ gəlməsi amillərinə müəssisənin ali rəhbərliyinin, onun funksional xidmətlərinin idarə etdiyi amillər aiddir. Qiymətin əmələ gəlməsinin nəzarət olunmayan amillərinə müəssisədən asılı olmayan amillər aiddir. Müəssisə öz fəaliyyətində onları nəzərə almalı, müvəffəqiyyəti təmin etmək üçün onların təsirinə uyğunlaşmalıdır (bax: sxem 1).

QİYMƏTİN ƏMƏLƏ GƏLMƏSİ STRATEGİYASI – dövlətin ümumi maliyyə sabitliyinə istiqamətlənmiş iqtisadi siyasətinin bir hissəsi. Təcrübədə bu, hər şeydən əvvəl, inflyasiyasının minimuma endirilməsidir.

Qiymətin əmələ gəlməsi strategiyası xüsusilə inflyasiya ilə mübarizə üsulları arasında ən mühüm rol oynayır. Sənayenin baza sahələrində qiymətin formalaşmasının düzgün strategiyası xalq təsərrüfatında qiymətlərin ümumi səviyyəsini və inflyasiya proseslərinin dinamikasını xeyli dərəcədə müəyyən edir. İstehlak sektorunda qiymətin əmələ gəlməsi əhalinin dinamik gəlirləri ilə sıx qarşılıqlı əlaqədə həyat səviyyəsini müəyyən edir. İqtisadiyyatda struktur dəyişiklikləri, ən səmərəli istehsalların dəstəklənməsi, istehsal resurslarından səmərəli istifadə olunması, elm tutumlu texnologiyaların inkişafı seçilmiş qiymətin əmələ gəlməsi strategiyasından asılıdır. Qiymətlərin səviyyələri və nisbətləri ən əlverişli investisiyalar üçün özünəməxsus istiqamətdir və müxtəlif layihələrin mümkün

Qiymətin əmələ gəlməsi faktorları



Sxem 1

səmərəliliyinin qiymətləndirilməsinə imkan verir.

Qiymətin əmələ gəlməsi strategiyası milli istehsalın qorunmasına və eyni zamanda səmərəli idxalın və ixracın təşviq olunmasına yönəldilmişdir. O həmçinin iqtisadiyyatın sabit inkişafına və xalqın həyat səviyyəsinin yüksəlməsinə səbəb olur.

QİYMƏTİN FUNKSİYASI – qiymətin gəlirlərin müxtəlif sahələr, müəssisələr, əhalinin sosial qrupları arasında bölgüsünə və təkrar bölgüsünə bilavasitə təsir göstərən amil kimi səmərəlidir. Məsələn, dövlət ayrı-ayrı sahələr (kömür sənayesi, kənd təsərrüfatı) üçün dotasiya ödəmələri tətbiq etmək, başqa sahələrin və istehsalların gəlirlərini yenidən bölüşdürməklə həmin sahələrin məhsullarının qiymətlərini nisbətən aşağı səviyyədə saxlaya bilər. Əksinə, spirtli içkilər (alkoqol), tütün və başqa məhsulların qiymətini nisbətən yüksək müəyyən etməklə dövlət burada yüksək gəlirləri akkumulyasiya edir, onların bir hissəsindən dotasiya və subsidiyalar kimi istifadə olunur. Qiy-

Qiymətəməlegəlmənin məqsədləri

↓

Konkret iqtisadi şəraitdə qiymət sisteminin həll etməli olduğu problemlər

Qiymətəməlegəlmənin əsas məqsədləri

- İstehsalçının normal fəaliyyəti üçün məhsulun istehsal (və ya onun reallaşdırılmasına vasitəçilik) xərclərinin ödənilməsi və gəlirin təmin olunması

İstehsalçı-satıcının tələbləri
(o, öz əmtəəsini nə qədər yüksək qiymətə reallaşdırsa o qədər də çox mənfəət əldə edər

- Qiymətin formalaşdırılması zamanı məhsulun qarşılıqlı əvəzlənməsinin qeydə alınması

İstehlakçının tələbləri
(əmtəənin istehsalına çəkilən xərc onu maraqlandırmır)


- Xərclərin azaldılması
- Əmtəə satışı bazarlarının istila edilməsi
- Rəqiblərlə mübarizə
- Müntəzəm satışın reklamla təmin olunması
- İstehsal və satışın həcminin artması
- Sosial məsələlərin həlli
- Ekoloji siyasətin reallaşdırılması
- Xarici-siyasi məsələlərin həlli

Mövcud məsələlər qiymət əmələ gəlmənin müasir mərhələsində baş verib, onları xüsusilə idarə olunmayan bazardan idarə olunan bazara keçməklə həll etmək lazımdır

! **Qiymətin funksiyaları qiymətəməlegəlmənin məqsədləri ilə sıx bağlıdır**

Sxem 2

Qiymətəmələgəlmənin metodologiyası



Qiymətəmələgəlmənin metodologiyası qiymətin formalaşmasının bütün səviyyələri üçün eynidir, belə ki, bu prosesin əsas müddəaları və qaydaları dəyişmir, qiymətin kim tərəfindən və hansı müddətə təyin olunmasından asılı deyil. Bu ölkə iqtisadiyyatında fəaliyyət göstərən vahid qiymət sisteminin yaradılmasının vacib ilkin şərtidir.

Sxem 3

mətin başqa bir funksiyası onun tələb və təklifin tənzimləyicisi, istehsala və istehlaka təsir vasitəsi olmasından ibarətdir. Qiymətlərin dinamikası istehsal xərclərinin və pul gəlirlərinin dinamikası ilə birbaşa bağlıdır. Bu halda qiymət funksiyası istehsal amillərinin qiymətlərini dəyişməklə istehsal xərclərinin həcmini tənzimləməyə imkan verir. İstehlakın səviyyəsi isə qiymətlərin və tariflərin səviyyəsindən bilavasitə asılıdır.

Qiymətlər ictimai istehsalın struktur nisbətlərini də əhəmiyyətli dərəcədə tənzimləyir. Qiymətin müəyyən səviyyəsində tələb və təklif tam tarazlaşmış olduqda istehsalın və istehlakın həcmi optimal hesab edilə bilər. Bu cür balans pozulduqda isə qiymət istehsalın və ya istehlakın genişləndirilməsi (məhdudlaşdırılması) barədə siqnaldır. Bundan əlavə, qiymətlərin sahədaxili və sahələrarası nisbətləri səmərəli kapital qoyuluşlarının istiqamətlərini göstərir, bu və ya digər istehsalatların nisbi səmərəliliyini səciyyələndirir. Məhsulun səmərəliliyi nəzərə alınmaqla müəyyən edilmiş qiymət yeni texnikanın mənimsənilməsində və innovasiya proseslərində tənzimləyici rol oynaya bilər.

Qiymətlər həm də təsərrüfat fəaliyyətinin makroiqtisadi tənzimləyicisi qismində çıxış edir. Pərakəndə satış qiymətlərinin və tariflərin dəyişməsi əhalinin həyat səviyyəsinə bilavasitə təsir göstərir. İlkin təbii resursların qiymətlərinin səviyyəsi bütün aralıq və son sahələrdə istehsalın səmərəliliyində əks olunur. Qiymətlərin tənzimləyici funksiyası həm də qərarlaşmış bazarda hər hansı yeni məhsul növlərinin mənimsənilməsində, təsərrüfat tədbirlərinin səmərəliliyinin və investisiya qoyuluşu istiqamətlərinin qiymətləndirilməsində rol oynamaqla təzahür edir. Daxili qiymətlərin dinamikası ilə xarici ticarətin səmərəliliyi arasında birbaşa əlaqə mövcuddur.

Nəhayət, ÜDM, milli gəlirin, zəruri pul kütləsinin və başqa göstəricilərin kəmiyyəti xalq təsərrüfatında qiymətlərin səviyyəsindən bilavasitə asılıdır və qiymətlərin tənzimləyici funksiyası bu sahədə də özünü göstərir (bax: sxem 3).

QİYMƏTİN NÖVLƏRİ – olduqca müxtəlifdir və belə hal

onların təsnifləşdirilməsini zəruri edir. Adətən, qiymətlər *xidmət etdiyi iqtisadi dövriyyənin xarakterinə, franko növlərinə, fəaliyyət müddətinə, ərazi əlamətlərinə, təsbit olunması qaydalarına görə* təsnifləşdirilir. Xidmət etdiyi iqtisadi dövriyyənin xarakterinə görə qiymətlər sənaye məhsullarına olan topdansatış qiymətləri, tikinti məhsullarının qiymətləri, yük və sərnişin nəqliyyatı tarifləri, pərakəndə satış qiymətləri, kənd təsərrüfatı məhsullarının satınalma qiymətləri və əhaliyə pullu xidmətə olan tariflərə bölünür. Franko növlərinə görə qiymətlər franko-anbar, franko-vaqon və digər bu kimi formada fəaliyyət göstərir. Fəaliyyət müddətinə görə qiymətlərin sabit, cari, sürüşkən, mövsümi, mərhələli növləri fərqləndirilir. Müəyyən edilməsi qaydasına görə təsbit edilən müqavilə, tənzimlənən və sərbəst qiymətlər fərqləndirilir.

QİYMƏTLƏ BAĞLI OLMAYAN RƏQABƏT – rəqabət mübarizəsi üsullarından biri. Onun əsasını qiymətlərin aşağı salınması deyil, məhsulun texnoloji baxımdan daha yüksək keyfiyyət səviyyəsinə, mükəmməlliyinə nail olunması təşkil edir.

Qeyri-mükəmməl rəqabət şəraitində fəaliyyət göstərən firmalar satışın həcmi uğrunda rəqabət aparmaqla daha mürəkkəb rəqabət strategiyasına malik olur. Qeyri-mükəmməl rəqabət şəraitində qiymətlərin azaldılması mənfəətli strategiya olmadığı üçün firmalar əsas diqqəti satışın həcmini artırmağa və bazarda öz hissəsini genişləndirməyə yönəldir. Firmalar təkcə öz məhsullarına tələbi artırmağa deyil, həm də bu tələbin mümkün qədər az elastik olmasına çalışır. Bu halda rəqabətin qiymətlə bağlı olmayan amillərinə üstünlük verilir. Qiymətlə bağlı olmayan rəqabət strategiyası bir və ya bir neçə amil bazasında qurula bilər və məhsulun diferensiasiyasının dərinləşməsi, ona yeni xassələr verilməsi yolu ilə həyata keçirilə bilər. Bu xassələr istehlakçıların yeni qruplarını cəlb edə bilər. Satışdan sonra uzunmüddətli xidmət və zəmanətlər siyasəti firmanın bazarda payının genişləndirilməsi üçün çox səmərəli üsul ola bilər. Satışın güzəştli şərtlərinin (kredit, qiymət güzəşti) təqdim edilməsi rəqabət mövqeyini möhkəmlədən güclü amildir.

İxtisaslaşma əsasında diferensiasiya (ucuz mal, orta keyfiyyətli mal, bahalı, dəbdə olan mal) qiymətlə bağlı olmayan rəqabətin geniş yayılmış tipləridir. Buna görə də öz mallarını yüksək qiymətə satan firmalar bazarda oxşar məhsulları aşağı qiymətə satan firmalarla birgə fəaliyyət göstərəcəklər.

QİYMƏTLƏ BAĞLI OLMAYAN TƏLƏB VƏ TƏKLİF AMİLLƏRİ – bazarda malların tələb və təklifinə təsir göstərən amillər (malların, xidmətlərin qiymətləri buraya aid deyildir).

Qiymətlə bağlı olmayan amillər sırasına istehlakçıların gəlirləri, malın istehsal xərcləri, moda, o cümlədən mövsümilik, dotasiyalar verilməsi, bazarda bir-birini qarşılıqlı tamamlayan və qarşılıqlı əvəz edən malların mövcud olması, ehtiyatlar və s. daxildir.

QİYMƏTLƏNDİRİCİ (ing. *valuer, appraiser*) – qiymətləndirmə aparmaq üçün lazımi ixtisasa, bacarığa və təcrübəyə malik olan şəxs. Bəzi ölkələrdə qiymətləndirici qismində çıxış etmək üçün lisenziya alınması tələb edilir.


Daxili qiymətləndirici (ing. *internal valuer*) – aktivin sahibi olan təşkilatda, yaxud həmin təşkilatın maliyyə sənədlərinin və ya maliyyə hesabatlarının hazırlanmasına cavabdeh olan mühasibat firmasında muzdla işləyən qiymətləndirici. Adətən, daxili qiymətləndirici Davranış Məcəlləsi ilə müəyyənləşdirilmiş müstəqillik və peşəkar obyektivlik tələblərinə cavab versə də, ictimai rəy və tənzimləmə ilə bağlı bir sıra səbəblərdən müəyyən növ tapşırıqların yerinə yetirilməsi zamanı müstəqil qiymətləndirici rolunda çıxış edə bilmir.

Kənar qiymətləndirici (ing. *external valuer*) – müştəri ilə, yaxud qiymətləndirmə barədə tapşırıq verən şəxsin adından çıxış edən agentlərlə ümumi maraqları, əhəmiyyətli münasibətləri olmayan qiymətləndirici və onun şirkətləri.

Müstəqil qiymətləndirici (ing. *independent valuer*) – qiymətləndirmə haqqında tapşırıqları yerinə yetirən və bir çox ölkələrdə normativ və müstəqillik tələblərinə cavab verən qiymətləndirici.

QİYMƏTLƏNDİRİLMİŞ POLİS – sığorta polisidir ki, burada sığortalanmış əmlakın qiymətləndirilməsi (sığorta müqaviləsinin bağlanması zamanı)

Qiymətləndirmə metodları
Əmtəə və xidmətlər bazarında qiymətin formalaşması yolları



Sxem 1

əvvəlcədən sığortaçı ilə sığortalı arasında razılaş d rılmışdır.

QİYMƏTLƏNDİRMƏ – məhsulun hazırlanması, müxtəlif işlər görülməsi və ya xidmətlər göstərilməsi zamanı müəyyən istehsal-texnoloji əməliyyatların yerinə yetirilməsində əməyin ödənilməsinin normativ səviyyəsi və ya işəmuzd əmək haqqı formasında tətbiq edilən məhsul vahidinin istehsalı.

QİYMƏTLƏNDİRMƏ SIĞORTA VƏRƏQİ – sığorta məqsədləri üçün qiymətləndirmə zamanı sığorta təşkilatının mü fəttişi tərəfindən doldurulan blank.

QİYMƏTLƏR HAQQINDA SAZİŞ – malların, qiymətli kağızların və sair obyektlərin qiymətinin müəyyən müddət üçün təyin edildiyi, bəzi hallarda isə təsbit olunduğu hüquqi qüvvəyə malik olan kontrakt, müqavilə.

"QİYMƏTLƏR İNQİLABI" – ümumi ekvivalent funksiyasını yerinə yetirən nəcib metalların dəyərinin aşağı düşməsi nəticəsində əmtəələrin qiymətinin xeyli artması dövrü (bax: Pul). Dünya iqtisadiyyatı tarixində nəcib metalların dəyərinin aşağı düşməsi ilə əlaqədar qiymətlərin iki dəfə artması hadisəsi olmuşdur: Amerikanın kəşfindən sonra burada çıxarılması (Avropaya nisbə tən) ucuz başa gələn qızıl və gümüşün Avropa ölkələrinə gətirildiyi və XIX əsrin 40-cı illərinin axırlarında Kaliforniya (sonralar Avstraliya) qızıl mədənlərinin kəşf olunduğu zaman qızılçıxarma sənayesində əmək məhsuldarlığının artması ilə qızılın dəyəri aşağı düşür, qiymətlər qalxır və nəticədə zəhmətkeşlərin vəziyyəti pisləşirdi. Qızıl və gümüşün çoxalması nəticəsində qiymətlərin artması pulun miqdar nəzəriyyəsinin yaranması ilə bilavasitə bağlıdır. Bu nəzəriyyəyə görə, tədavüldə pulun çoxluğu qiymətlərin artmasına səbəb olur. Əslində isə pul kütləsinin artması nəcib metalların dəyərinin aşağı düşməsini əks etdirir, belə ki, bu halda əmtəələrin dəyəri çox miqdar qızılda, yaxud gümüşdə ifadə olunur.

QİYMƏTLƏRİN BÖLÜNMƏSİ – şirkətin təklifinin hər bir elementinə ayrılıqda qiymətlərin təyin olunması. Bu zaman məhsul paketinin ümumi qiymətinin əksər hallarda artırılması məqsədi güdülür.

QİYMƏTLƏRİN DONDURULMASI – bir qayda olaraq, qiymət artımı ay ərzində onlarla faiz təşkil edən və qiymət artı-

mının sürətli prosesi nəzarətdən çıxan zaman hiperinflyasiya şəraitində tətbiq edilən qayda. Hiperinlyasiyanın doğurduğu və hər şeydən əvvəl, əhalinin həyat səviyyəsinin fəlakətli dərəcədə aşağı düşməsi, milli valyutanın alıcılıq qabiliyyətini sürətlə itirməsi və pulun axını ilə əlaqədar olan iqtisadiyyat üçün dağıdıcı nəticələrin qarşısını almaq iqtidarındadır. Qiymətlərin dondurulması dövlət orqanlarının birbaşa sərəncamı ilə həyata keçirilir və hər hansı mülkiyyət formasında olan bütün təsərrüfat sektorlarına aiddir. Əgər hiperinflyasiya istehsal və ya pul tədavülü sferasında neqativ proseslərin nəticəsidirsə, qiymətlərin dondurulması özlüyündə iqtisadiyyatı sağlamlaşdırmağa qadir deyil. Buna görə də qiymətlərin dondurulması zamanı iqtisadiyyatın böhrandan çıxarılması üzrə təcili xüsusi tədbirlər lazımdır. Bu, müsadirə xarakterli pul islahatı, xarici istiqrazların (borcların) hesabına əmtəə bazarının sürətlə doldurulması, əhalinin pul gəlirlərinin müsadirə formasında islahatı və s. ola bilər. Əgər bu tədbirlər qiymətlərin dondurulması ilə eyni vaxtda həyata keçirilməzsə, onda, çox güman ki, əsas ərzaq və sənaye malları ilə əhalinin normalaşdırılmış təchizatını tətbiq etmək lazım gələcəkdir. Belə ki, qiymətlərin dondurulması zamanı istehlak bazarında kəskin qıtlıq müşahidə olunacaqdır. Bir qayda olaraq, qiymətlərin dondurulması qısa müddət üçün aparılır.

QİYMƏTLƏRİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ – qiymətlərin əmələ gəlməsi və tətbiqi prosesinə qanunvericilik, inzibati və maliyyə-büdcə tədbirləri vasitəsilə təsir etmək (bax: sxem 1).


QİYMƏTLƏRİN ENMƏSİ NƏTİCƏSİNDƏ İTKİLƏR – əmtəələrin sığortalanması zamanı istifadə olunan anlayış. Əmtəələrin qiymətləri mövsümi tərəddüdlərə məruz qalır və bazarın konyunktura tərəddüdlərindən asılı olur. Qiymətlərin enməsi riski sığortalı ilə sığortaçı arasında xüsusi sazişə görə sığorta obyekti ola bilər.

QİYMƏTLƏRİN İNDEKSLƏŞDİRİLMƏSİ – vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üçün əmək haqqına, təqaüdlərə, pensiyalara əlavələr yolu ilə əhalinin (xüsusən aztəminatlı ailələrin) pul itkilərinin müəyyən kompensasiyasının tətbiqi üçün istehlak mallarına illik təsbit olunmuş qiymət artımı.

QİYMƏTLƏRİN LİBERALLAŞMASI – qiymətlərin xüsusi inzibati qiymətyaranma orqanları tərəfindən mərkəzləşdirilmiş qaydada müəyyən edilməsindən azadolma prosesi. Qiymətlərin liberallaşması bazar iqtisadiyyatının ayrılmaz tərkib hissəsi kimi tələb və təklifin müvazinətli olmasında qiymətlərdən fəal istifadə etməni ifadə edir. Qiymətlərin liberallaşması qiymət və tariflərin bütün növlərinə görə ümumi və mərkəzləşdirilmiş müəyyənetmə və tənzimlənmə sferasında təbii inhisarların tariflərinin və məhsulun qiymətlərinin qalığı kimi qismən ola bilər. Bir qayda olaraq, bazar iqtisadiyyatı ölkələrində qiymətlərin az və ya çox hissəsi dövlət nəzarəti və tənzimlənməsi altında qalır. Lakin bu halda qiymətin əmələ gəlməsi prosesi bazar iqtisadiyyatının ümumi qanunauyğunluqlarına əsaslanır. İstehsal xərclərini yox, həm də real alıcılıq tələbini əks etdirir. Qiymətlərin liberallaşması yalnız rəqabət mühitinin mövcudluğu zamanı səmərəli ola bilər. Bu halda istehlakçı uğrunda mübarizədə qiymət rəqabəti mexanizmi də yaranır. Bu həm məsrəflərin və qiymətlərin azalmasına, həm də sabit qiymətlər zamanı məhsulun keyfiyyətinin daim yüksəldilməsinə imkan verir. Rəqabət mühiti olmadıqda qiymətlərin liberallaşması staqflyasiyaya gətirib çıxara bilər ki, bu zaman qiymətlər fasiləsiz surətdə artır, istehsalın həcmi və həyat səviyyəsi isə azalır (bax: cədvəl 1).

QİYMƏTLƏRİN SƏVİYYƏSİ – ictimai məsrəflərin, gəlirlərin oxşar daxili və xarici qiymətlərin səviyyəsi ilə müqayisədə mütləq və ya nisbi kəmiyyəti. Qiymətlərin səviyyəsi müəyyən dövrə aid qiymətləri eyni və ya oxşar məhsulların hər hansı baza dövründəki qiymətləri ilə birbaşa müqayisə yolu ilə təyin edilə bilər. Bu halda müvafiq təshih əmsalları təsdiq edilir. Beləliklə, qiymətlərin dinamikası onların səviyyəsinin dəyişməsinə əsasən birbaşa ölçülür. Qiymətyaranma təcrübəsində qiymətlərin səviyyəsini təhlil etmək üçün məhsul növləri üzrə orta qiymətlər barədə məlumatlardan istifadə edilir. Bu orta qiymətlər müəssisələrin istehsal etdiyi müəyyən qrup əmtəələrin topdansatış qiymətləri ilə həcmini natural ifadədə əmtəə buraxılışının həcminə

Qiymətlərin dövlət tənzimlənməsi üsullarının təsnifatı



Sxem 1

bölmək yolu ilə tapılır. Sənaye və ərzaq malları üzrə qiymətlərin ümumi indekslərinin hesablanması üsulundan da geniş istifadə edilir.

Qiymət indekslərinin hesablanması qiymətlərin səviyyəsini təhlil etmək üçün əsas vasitədir. Qiymətlərin səviyyəsi həm nisbi mənada, həm də başqa qiymətlərlə və digər iqtisadi kateqoriyalarla müqayisəli şəkildə qiymətləndirilə bilər. Qiymətlərin səmərəli sahədaxili və sahələrarası nisbətləri son nəticədə qərarlaşmış qiymətlərin səviyyəsi ilə təyin edilir. Məsələn, kənd təsərrüfatı məhsullarının satınalma qiymətlərinin kənd təsərrüfatı tərəfindən alınan sənaye məhsullarının qiymətləri ilə müqayisədə daha aşağı sürətlə artması mübadilənin ekvivalent olmamasına dəlalət edir. Əhalinin gəlirlərinin artması ilə müqayisədə pərakəndə satış qiymətlərinin və tariflərin qabaqlayıcı sürətlə artması həyat səviyyəsinin aşağı düşməsinə səbəb olur.

QİYMƏTLƏRİN STRUKTURU – müvafiq normativ aktların və müstəqil formalaşma əsasında qiymətlərə daxil olan xalis gəlirin və məsrəflərin müxtəlif elementlərinin xüsusi çəkisi. Qiymətlərin quruluşu həlledici dərəcədə qiymətin növündən asılıdır. Bununla belə, strukturun bir çox elementləri qiymət və tariflərin bütün növlərinə xasdır. Müəssisə topdansatış qiymətlərinin strukturuna maya dəyəri, mənfəət, əlavə dəyər vergisi (ƏDV) aiddir. Sənaye topdansatış qiymətləri üzrə məhsul təchizat təşkilatlarına (topdansatış bazarlarına) satılır. Pərakəndə qiymətlərlə isə məhsul ticarət təşkilatları tərəfindən son istehlakçıya satılır ki, burada müəssisə topdansatış qiyməti ilə yanaşı, əlavə xərclərin kəmiyyəti, korporativ mənfəət və vasitəçilərin özlərinin (təchizat-satış təşkilatlarının) ƏDV-si nəzərə alınır.

Kənd təsərrüfatı məhsulunun satınalma qiymətlərinin strukturu müəssisənin topdansatış qiymətinin strukturuna daha yaxındır; fərqlər əsasən qiymətə daxil olan xərc məsrəfləri elementlərinin məzmunu və quruluşu ilə əlaqədardır.

Pərakəndə qiymətlərin struktu-

Cədvəl 1

Qiymətlərin liberallaşması

MƏQSƏDLƏR	METODLAR	
Nisbi qiymətlərin strukturunda disproporsiyaların aradan qaldırılması Tələb və təklifin bazar mexanizmlərinin işə salınması	Şok terapiyası (Polşa, Macarıstan, Çexiya, qismən Rusiya)	**Üstünlükləri** məqsədə kifayət qədər tez və effektiv şəkildə nail olunması **Nöqsanları** dəyişikliklərin aniliyi səbəbindən sosial narazılığın artması təhlükəsi
	Qiymətlər üzərində inzibati nəzarətin tədricən azalması (Belarus, qismən Bolqarıstan)	**Üstünlükləri** sosial narazılığın qarşısının alınması, əhalinin tədricən bazar mexanizminin fəaliyyəti şəraitində yaşamğa alışması **Nöqsanları** islahatların aparılması sürətinin azaldılması, uzunmüddətli hiperinflyasiyanın yaranması təhlükəsi

ru topdansatış və satınalma qiymətlərinin strukturuna əsaslanır: topdansatış qiymətləri sənaye mallarının pərakəndə qiymətlərini, satınalma qiymətləri isə ərzaq mallarının qiymətlərini müəyyən edir. Son nəticədə pərakəndə qiymətin strukturuna sənayenin topdansatış qiyməti, üstəgəl bütün vasitəçi ticarət təşkilatlarının ƏDV-si, xərcləri və mənfəəti daxildir. Tədarükçü ilə son istehlakçı arasında vasitəçilər nə qədər çoxdursa, pərakəndə qiymətlərin səviyyəsi bir o qədər yüksəkdir.

QİYMƏTLİ METALLARIN VƏ QİYMƏTLİ DAŞLARIN QIRINTILARI VƏ TULLANTILARI – fiziki, kimyəvi, mexaniki və sair təsir nəticəsində əsas hissədən ayrılmış və bir qayda olaraq, öz ilkin təyinatında istifadə edilə bilinməyən qiymətli metalların və qiymətli daşların hissələri.

QİYMƏTLİ DAŞLAR – işlənilmiş və işlənilməmiş şəkildə olan təbii almazlar, zümrüdlər, yaqutlar, sapfirlər, aleksandritlər.

QİYMƏTLİ DAŞLARIN ÇEŞİDLƏNMƏSİ VƏ İLKİN TƏSNİFLƏŞDİRİLMƏSİ – təsdiq olunmuş kolleksiya nümunələri və təsnifatlar əsasında hasil olunmuş mineral xammaldan qiymətli daşların ayrılması, habelə onların dünya bazarında qəbul olunmuş növlərə bölünməsini təmin edən zənginləşmə prosesinin mərhələsi.

QİYMƏTLİ DAŞLARIN REKUPERASİYASI – qiymətli daşların müəyyən səbəblərə görə istifadədən çıxarılmış avadanlıq və cihazlardan, texniki təyinatlı digər məmulatlardan, habelə tərkibində qiymətli daşlar olan tullantılardan təkrar əldə edilməsi, onların müvafiq texniki şərtlərə və ya almazların təsnifatına uyğun keyfiyyətə çatdırılması (təmizlənməsi).

QİYMƏTLİ KAĞIZ – sahibinin emitent barəsində əmlak hüquqlarını və ya borc münasibətlərini təsdiqləyən pul sənədi. Müəyyənləşdirilmiş formaya riayət olunmaqla hər hansı hüququ təsdiqləyən elə bir sənəddir ki, həmin hüquq bu sənəd olmadan həyata keçirilə və

başqa şəxsə verilə bilməz.

QİYMƏTLİ KAĞIZ, "BÖYÜK" (ing. *senior security*) – şirkət ləğv edildiyi halda onun aktivlərinə başqa istiqrazlara və səhmlərə (adətən, fiksaj olunmuş faiz dərəcəsi ilə) nisbətən üstün hüquq verən qiymətli kağız.

QİYMƏTLİ KAĞIZ ÖDƏNİLDİKDƏ YARANAN GƏLİR – borc aləti üzrə gəlirin daxili stavkası. Başqa sözlə, bu, borc öhdəliyinin sahibi tərəfindən həmin öhdəlik ödənilərkən alınacaq gəlirdir. İqtisadi praktikada "Vaxtından əvvəl ödəniş zamanı gəlir" anlayışı da tətbiq edilir. Bu, istiqrazın ödənilməsindən alınan hesablanmış gəlirdir. Bu halda fərz edilir ki, ödəniş əvvəlcədən müəyyən edilmiş müddətdə deyil, bir qədər tez baş verəcək və qiymətli kağızın girovdan çıxarılma məzənnəsi həmin müddət üçün müəyyən edilmiş məzənnəyə bərabər olacaqdır. Bu anlayış və bu hesablama yalnız o halda məna kəsb edir ki, istiqrazlar girov qiymətindən artıq dəyərə satılsın. Beləliklə, həmin məzənnə gəlirin aşağı həddi hesab edilir.

QİYMƏTLİ KAĞIZIN QİYMƏTİ – 1. Sənəddə ifadə edilmiş normal (nominal) qiymət. 2. Bazar (məzənnə) qiymətidir ki, buna görə qiymətli kağız birja və ya birjadankənar bazarda satılır. Səhmin qiyməti dividenddən (bir qayda olaraq, gözlənilən) bank faizi normasından, emitent müəssisəsinin iş vəziyyətindən və gəlirindən asılıdır. İstiqrazın məzənnəsi həmçinin bank faizi normasından asılıdır. İstiqraza görə ödənilən faiz onun buraxılışı zamanı müəyyən edilir.

QİYMƏTLİ KAĞIZLAR – pul sənədlərini buraxan şəxslər və onların sahibləri arasında qarşılıqlı münasibətləri müəyyən edən, faiz və ya dividendlər formasında gəlirlərin ödənilməsini, eləcə də bu sənədlərdən irəli gələn pul və ya digər hüquqların digər şəxslərə verilməsi imkanını nəzərdə tutan, malik olma hüququnu və borc (istiqraz) münasibətini təsdiq edən pul sənədləri. Qiymətli kağızlar kağızda çap edilmiş sertifikat blankları şəklində və ya hesablardakı qeydlər formasında ola bilər. Qiymətli kağızların hesablardakı qeydlər formasında tədavülü zamanı qiymətli kağızların sahibi emitent barəsində öz əmlak hüquqlarını qiymətli kağızların saxlanması, uçotu və hesablanması əməliyyatlarını həyata keçirən ixtisaslaşdırılmış təşkilatlar vasitəsilə gerçəkləşdirə bilər. Sahibliklə bağlı əmlak hüquqlarının gerçəkləşdirilməsi üzrə qiymətli kağızlar təqdim edilən və adlı olur. Adlı qiymətli kağızlar onlarda adı göstərilən investora, təqdim edilən qiymətli kağızlar isə onu bilavasitə təqdim edənə sahibliklə bağlı əmlak hüquqları verir. Adlı qiymətli kağızın bir sahibdən başqasına verilməsi qiymətli kağız blankının arxasındakı (indossament) və uçotdakı müvafiq qeydlərin dəyişdirilməsi vasitəsi ilə həyata keçirilir. Qiymətli kağızlara aiddir: səhmlər, istiqrazlar, dövlətin xəzinə öhdəlikləri, əmanət sertifikatları, veksellər, çeklər, konosamentlər, bank kreditlərinin alınmasını təsdiq edən sənədlər, borc qəbzləri, vəsiyyətnamələr, sığorta polisləri, opsionlar, fyuçers müqavilələri və s. İtirilmiş qiymətli kağızlar təqdim edən üçün Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyində müəyyən olunmuş qaydada bərpa edilir. Qiymətli kağızlar vərəsəlik hüququ haqqında notariat kontorunun verdiyi şəhadətnamə əsasında miras qoyulur və qiymətli kağızlar üzrə gəlir bu şəhadətnamə ilə verilir. Müxtəlif tipli qiymətli



Qiymətli kağızlar



Sxem 1

kağızların ümumi iqtisadi xarakteristikasına aiddir: likvidlik, gəlirlilik, dəyişən məzənnə, müəyyən etibarlılıq səviyyəsi, müstəqil dövriyyənin mövcudluğu.

Qiymətli kağızlar aşağıdakı formalarda ola bilər:

– təqdim olunan (təqdim etmək yolu ilə digər şəxsə verilir);

– order (təqdim etməni təsdiq edən yazının aparılması yolu ilə verilir);

– adlı (güzəşt üçün müəyyən olunmuş tələblər qaydasında verilir).

Qiymətli kağızlar qanunla müəyyən edilmiş qaydada müəyyən rekvizitləri ehtiva etməlidir. Onların buraxılışı (emissiyası) və tədavülü qanunvericiliklə müəyyən edilmiş qaydalara və normalara tabedir. Qiymətli kağızlar bir sıra funksiyaları yerinə yetirir: tənzimləyici, nəzarət, iqtisadiyyatın müxtəlif sahələrini, o cümlədən real iqtisadiyyatı və fəaliyyət sferasını əlaqələndirmə funksiyası.

QİYMƏTLİ KAĞIZLAR ALMAQ ÜÇÜN VARRANT – saxlayıcıya müəyyən olunmuş qiymətlə müəyyən sayda qiymətli kağızlar almaq hüququ verən sertifikat.


QİYMƏTLİ KAĞIZLAR BAZARI – qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, sahibliyi, saxlanılması, onlarla əqdlərin bağlanması, digər əməliyyatların aparılması üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusu. Qiymətli kağızlar bazarı üsuluna görə iki yerə bölünür: 1) qiymətli kağızların ilkin bazarı. Burada yeni buraxılmış qiymətli kağızlar üzrə alqı-satqı əməliyyatları aparılır. Bu əməliyyatlar açıq satış qaydasında həyata keçirilir; 2) qiymətli kağızların təkrar bazarı (ikinci bazarı). Burada yeni maliyyə vəsaitlərinin cəlb olunması baş vermir, emitentlərin (qiymətli kağızları buraxanların) ancaq investorları dəyişir.

İlkin və ikinci (törəmə) qiymətli kağızlar bazarı qarşılıqlı əlaqələndirilir və bir-birinin mövcudluğunu şərtləndirir. İlkin bazar qiymətli kağızları süni yola çıxarır, ikinci bazar isə onların aktiv hərəkətini təmin edir. Qiymətli kağızlar bazarında qiymətin qorunub saxlanması onların etibarlılığını əks etdirir. İqtisadi araşdırmalarda qərarların qəbul edilməsində qiymətli kağızların yerləşdirilməsindən əldə edilən gəlirin dinamikasına xüsusi fikir verilir.

Qiymətli kağızlar bazarının əsasını fond birjası təşkil edir. Fond birjası qiymətli kağızların alqı-satqısının həyata keçirildiyi mütəmadi fəaliyyət göstərən, səmərəli təchiz olunmuş təşkilatdır.

Azərbaycan Respublikasında dövlət qiymətli kağızlar bazarı Nazirlər Kabinetinin "Dövlət qısamüddətli qiymətli kağızların emissiyası haqqında" (1996)

Dövlət qiymətli kağızlarının gəlirlilik əyrisi



Qrafik 1

Qiymətli kağızlar bazarı və onun əsas pul axınları



Sxem 2

Qiymətli kağızlar bazarı və onun növləri




Sxem 3

Cədvəl 1

Azərbaycan Respublikasında dövlət qiymətli kağızlar bazarı barədə bəzi məlumatlar

Qiymətli kağızların növləri	2011-ci il Yanvar-İyun		2010-cu il Yanvar-İyun		Fərq (%) məbləğ üzrə
	Əqdlərin sayı	Məbləğ (manatla)	Əqdlərin sayı	Məbləğ (manatla)	
Dövlət qiymətli kağızları	905	3,417,856,602	553	665,117,859	5,1 dəfə
Dövlət istiqrazları	123	194,093,856	76	186,636,438	4,0%
Dövlət istiqrazları (ilkin bazarda yerləşdirilmiş)	103	173,869,169	43	111,314,128	56,2%
Dövlət istiqrazları (təkrar bazar)	20	20,224,688	33	75,322,359	-73,1%
Mərkəzi Bankın notları	177	492,009,046	98	111,988,456	4,4 dəfə
Mərkəzi Bankın notları (ilkin bazarda yerləşdirilmiş)	172	482,453,358	97	108,515,801	4,4 dəfə
Mərkəzi Bankın notları (təkrar bazar)	5	9,555,688	1	3,472,655	2,7 dəfə
Repo/Əks-Repo	605	2,731,753,700	379	366,492,916	7,4 dəfə
Dövlət istiqrazları (repo/əks-repo)	9	7,299,536	14	16,492,988	-55,7%
Mərkəzi Bankın notları (repo/əks-repo)	596	2,724,454,164	365	349,999,928	7,8 dəfə



Sxem 4



Sxem 5

qərarından sonra formalaşmağa başladı.

Müstəqil Azərbaycanda dövriyyəyə buraxılan ilk qiymətli kağızlardan biri dövlət qısa - müddətli istiqrazları (DQİ) sayılır (1996, sentyabr). Maliyyə Nazirliyi (MN) tərəfindən buraxılan DQİ sənədsiz, nağdsız formaya malikdir və onların tədavülü nağdsız qaydada – hesabdan-hesaba köçürülməklə həyata keçirilir. DQİ-yə görə gəlirin ödənişi diskontla icra olunur. İnvestorlara nominaldan aşağı qiymətə satılan bu borc öhdəlikləri nominal qiyməti ilə geri alınır.

İqtisadiyyatda bazar münasibət - lərinə keçilməsi istiqamətində aparılan islahatlar nəticəsində sahibkarlıq və özəl bölmə sürətlə inkişaf etməyə başladığından, tədavülə dövlət istiqrazları, dövlət özəlləşdirmə payları (çekləri), dövlət özəlləşdirmə opsionları, səhmdar cəmiyyətlərinin səhmləri buraxıldı.

Bazar iqtisadiyyatına keçid dövrünü yaşayan digər ölkələrdə olduğu kimi, Azərbaycanda da qiymətli kağızlar bazarının formalaşması ölkədə aparılan islahatların strateji xəttini təşkil edən özəlləşdirmə prosesi ilə sıx əlaqədə həyata keçirilmişdir. Belə ki, qanunvericilik bazası hazırlanarkən artıq özəlləşdirmə nəticəsində yaranmış səhmdar cəmiyyətlərinin qiymətli kağızlarının mərkəzləşdirilmiş qaydada saxlanması və nağdsız dövriyyəsinin zəruriliyi nəzərə alınmışdı. "Azərbaycan Respublikasında 1995-1998-ci illər ər-

Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin STRUKTURU

1. Rəhbərlik
Sədr
Sədrin 1-ci müavini
Sədrin müavini
Sədrin müavini
Aparatın rəhbəri
Sədrin köməkçisi

2. Qiymətli Kağızlar üzrə
Dövlət Komitəsinin aparatı
Tədqiqatlar və bazarın inkişafı şöbəsi
• Qiymətli kağızlar bazarının inkişafı sektoru
• Beynəlxalq əlaqələr sektoru

Qiymətli kağızların buraxılışı və qeydiyyatı şöbəsi
• Qiymətli kağızların qeydiyyatı sektoru
• Korporativ maliyyə sektoru

Tədavülün tənzimlənməsi şöbəsi
• Korporativ qiymətli kağızların tədavülünün tənzimlənməsi sektoru
• Dövlət və bələdiyyə qiymətli kağızlarının tədavülünün tənzimlənməsi sektoru – lisenziyalaşdırma və nəzarət şöbəsi
• Lisenziyalaşdırma və icazələr sektoru
• Bazar və institusional nəzarət sektoru – hüquq şöbəsi
• Qiymətli kağızlar bazarının iştirakçılarının hüquqlarının müdafiəsi və maarifləndirilməsi sektoru
• Hüquqi dəstək sektoru – insan resurslarının idarə edilməsi şöbəsi

Ümumi şöbə
İnformasiya texnologiyaları və təminat şöbəsi
• İnformasiya texnologiyaları sektoru
• Texniki təminat sektoru

Maliyyə sektoru
İctimaiyyətlə əlaqələr sektoru
Daxili nəzarət sektoru

3. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin strukturuna daxil olan qurumlar

Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin
Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi

zində dövlət mülkiyyətinin özəlləşdirilməsinin "Dövlət Proqramı"nda ilk dəfə Milli Depozit Sistemi anlayışı öz əksini tapmışdır.

Azərbaycanda qiymətli kağızlar bazarının inkişafı, hər şeydən əvvəl, iştirakçıların sayının artmasından, ilkin bazar imkanlarının genişlənməsindən və təkrar bazarın formalaşmasından asılıdır. Bazar iştirakçılarının sayının artması isə, əsasən, qeyri-bank subyektlərinin ilkin bazarda iştirakını tələb edir. Bu sıraya, ilk növbədə, sığorta şirkətləri aiddir. Ölkədə strateji özəlləşdirmənin həyata keçirilməsi, investor marağı cəlb edən bir sıra rentabelli müəssisələrin səhmlərinin buraxılması, maliyyə-bank sektorunda aparılan genişmiqyaslı islahatlar korporativ qiymətli kağızlar bazarının inkişafına zəmin yaratmışdır.

Qiymətli kağızlar bazarı ölkədə kapitalın daha səmərəli sahələrə axınını təmin edir, iqtisadiyyatın çevikliyini və son nəticədə iqtisadi inkişafın sürətini artırır.

QİYMƏTLİ KAĞIZLAR BAZARINDA QİYMƏTLƏRLƏ MANİPULYASİYA – qiymətli kağızlar bazarının stabilliyinin pozulmasına səbəb ola bilən, qiymətli kağızlar bazarının iştirakçılarının qiymətli kağızlarla əqdlər üzrə qiymətli kağızların bazar qiymətinin hər hansı bir üsulla əvvəlcədən razılaşdırılmış, qəsdən edilmiş əməllər ilə süni olaraq dəyişdirilməsi.

QİYMƏTLİ KAĞIZLAR BAZARINDA PEŞƏKAR FƏALİYYƏT – hüquqi və ya fiziki şəxslər tərəfindən qiymətli kağızlar bazarında xüsusi razılıq

(lisenziya) əsasında həyata keçirilən sahibkarlıq fəaliyyəti.

QİYMƏTLİ KAĞIZLAR BAZARININ GƏLİRLİLİK XƏTTİ *(security market line)* – kapital bazarının qiymət modelində bu xətti asılılıq göstərir ki, istənilən qiymətli kağıza risk üçün mükafat onun "beta" əmsalının bütün bazar portfelinin riskinə mükafatın hasilinə bərabərdir.

QİYMƏTLİ KAĞIZLAR BAZARININ XƏTTİ – qiymətli kağız üzrə gözlənilən gəlirin və bazar riskinin qarşılıqlı asılılığının qrafik təsviri.

QİYMƏTLİ KAĞIZLAR BAZARININ PEŞƏKAR İŞTİRAKÇILARI – qanunvericilik əsasında qiymətli kağızlar bazarında xüsusi razılıq (lisenziya) əsasında sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və ya fiziki şəxslər. Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları hər hansı mülkiyyət formasına malik olan, qiymətli kağızlar haqqında qanunda sadalanmış fəaliyyətin bir və ya bir neçə növü ilə məşğul olan və qiymətli kağızlar üzrə peşə fəaliyyətinə lisenziya alan hüquqi şəxslərdir. Qiymətli kağızlar ilə peşə fəaliyyətinin aşağıdakı növləri həyata keçirilə bilər:

a) qiymətli kağızlar üzrə vasitəçilik fəaliyyəti;

b) qiymətli kağızlar üzrə kommersiya fəaliyyəti;

c) qiymətli kağızlar üzrə komisyon fəaliyyəti;

ç) başqa fəaliyyət növləri.

Vasitəçilik fəaliyyəti müştərinin hesabına və tapşırığı ilə qiymətli kağızların alqı-satqısıdır.

Qiymətli kağızlar üzrə kommersiya fəaliyyəti qiymətli kağız bazarının peşəkar iştirakçısının öz adından və öz hesabına qiymətli kağızların alqı-satqısına dair əqdlər bağlamasıdır. Banklar xidmət etdikləri emitentlərin qiymətli kağızları üzrə kommersiya fəaliyyəti ilə məşğul ola bilməz.

Qiymətli kağızlar üzrə komisyon fəaliyyəti komisyon mükafatı əldə etməklə qiymətli kağız bazarının peşəkar iştirakçılarının öz adlarından və müştərinin hesabına qiymətli kağızları alıb-satmasıdır.

Qalan fəaliyyət növləri fəaliyyətin yuxarıda sadalanan növləri ilə qarşılıqlı surətdə bağlı olub, hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilir, ən əvvəl qiymətli kağız əməliyyatları sahəsində məsləhət xidmətlərinin göstərilməsinə aiddir. Qiymətli kağızlar üzrə məsləhət xidmətlərini yalnız qiymətli kağızlar üzrə peşə fəaliyyəti ilə məşğul olan şəxslər göstərə bilərlər.

Qiymətli kağızlar bazarının iştirakçıları – qiymətli kağızların emissiyasında, tədavülündə, ödənilməsində, sahibliyində, saxlanılmasında, qiymətli kağızlarla əməliyyatların aparılmasında subyekt və ya tərəf kimi çıxış edən şəxslərdir.

QİYMƏTLİ KAĞIZLAR BAZARININ PEŞƏKAR İŞTİRAKÇILARININ ÖZÜNÜTƏNZİMLƏYƏN TƏŞKİLATI – qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının könüllülük, qeyri-kommersiya prinsipləri əsasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatı olan ictimai birliyi.

QİYMƏTLİ KAĞIZLAR BURAXILIŞI – sahiblərinə eyni hüquqları təmin edən, eyni emissiya (ilkin yerləşdirmə) şərtləri və vahid dövlətqeydiyyat nömrəsi olan, qeydə alınan bir emitentin qiymətli kağızlarının məcmusu. Hazırda qiymətli kağızların elektron satışı formasından da istifadə edilir.

QİYMƏTLİ KAĞIZLAR PORTFELİ – özünün borc aldığı pul vəsaitlərini, əmlak və intellektual dəyərləri uzunmüddətli kapital qoyuluşuna sərf edən investorun (fiziki və ya hüquqi şəxsin) malik olduğu bütün qiymətli kağızlar. Portfelin qiymətli kağız növləri üzrə strukturu bilavasitə investorun məqsədlərindən və onun şəxsi xarakterindən asılıdır. Bu məqsədlər kapital qoyuluşlarının az və ya çox riski ilə əlaqədar ola bilər. *Konservativ* sərmayə qoyuluşları minimal risklə əlaqədar qiymətli kağızların alınmasını nəzərdə tutur (bu cür qiymətli kağızlar riskdən yaxa qurtarmaq müqabilində ən az gəlir gətirir). *Aqressiv* sərmayə qoyuluşları orta hesabla yüksək riski kompensasiya edən daha yüksək gəlir gətirən qiymətli kağızların alınması deməkdir. Bir sıra hallarda *portfel investisiyaları şaxələndirilir*, yəni alınmış qiymətli kağızlar riskli investisiyaların bir neçə növü arasında bölünür və bu yolla risk azalır.

İnvestorun qiymətli kağızlar portfelində təhlükəsizlik, gəlirlilik, kapitalın artımı və likvidlik optimal şəkildə birləşmiş olduqda bu cür portfel *qiymətli kağızların balanslaşdırılmış portfeli* adlanır.

QİYMƏTLİ KAĞIZLAR ÜZRƏ DÖVLƏT KOMİTƏSİ (QKDK) – öz fəaliyyət istiqa-

mətlərinə uyğun olaraq qiymətli kağızlar bazarının tənzimlənməsi ilə bağlı normativ aktların qəbul edilməsi, qiymətli kağızların emissiyası və tədavülü, qiymətli kağızlar bazarı iştirakçılarının və investisiya fondlarının fəaliyyətləri, qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəlikləri bazarı, müvafiq fəaliyyət növlərinin lisenziyalaşdırılmasının həyata keçirilməsi, lotereyaların təşkili və keçirilməsi, qiymətli kağızlar bazarında investorların və qiymətli kağızlar bazarının iştirakçılarının hüquqlarının müdafiəsi, sağlam rəqabət mühitinin yaradılması üzrə dövlət tənzimlənməsini və nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı.

QKDK öz vəzifələrini yerinə yetirmək üçün qiymətli kağızlar bazarına aid olan qanunvericilik aktlarının layihələrinin hazırlanması, beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları ilə əməkdaşlığın edilməsi, qanunvericiliyi pozan şəxslərin inzibati qaydada məsuliyyətə cəlb edilməsi, qiymətli kağızlar bazarı sahəsində mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün müvafiq tədbirlərin görülməsini həyata keçirir. Azərbaycanda qiymətli kağızlar bazarının yaranması XX əsrin əvvəllərinə təsadüf edir və ilk səhmlər 1913-cü ildə Bakı Tacir Bankının nizamnaməsi təsdiq edildikdən sonra buraxılmışdır. SSRİ-də qiymətli kağızlar bazarı 1922-ci ildə Yeni İqtisadi Siyasətə keçidlə əlaqədar yenidən dirçəldi – səhmdar cəmiyyətlərin meydana çıxması ilə korporativ qiymətli kağızlar bazarının inkişafına təkan verildi. Elə həmin il SSRİ-də birinci uzunmüddətli istiqraz buraxıldı. Bu qiymətli kağızın dövriyyə müddəti 11 il oldu. Ümümiyyətlə, SSRİ dövrünün qiymətli kağızlar bazarı prinsip etibarı ilə inkişaf etmiş ölkələrin analoji bazarlarından fərqli və zəif idi. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra – 1998-ci ildə "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edilmiş və Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi yaradılmışdır. Fəaliyyət göstərdiyi dövr ərzində Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən qiymətli kağızlar bazarının dövlət tənzimlənməsi sistemi yaradılmış, həmçinin müasir tələblərə cavab verən, bazar münasibətləri prinsiplərinə əsaslanan, eləcə də geniş, əhatəli infrastrukturu olan fond bazarının formalaşdırılması istiqamətində zəruri tədbirlər görülmüşdür.

QİYMƏTLİ KAĞIZLARA GÖRƏ VERGİ – 1. Qiymətli kağızların emissiyasına görə səhmdar şirkətlərinin ödədiyi vergi. Müəyyən edilən vergi dərəcəsi qiymətli kağızların növündən, bəzi hallarda isə onların nominal qiymətindən asılıdır. 2. Birjada bağlanan əqdlər üçün vergi. Bu vergi qiymətli kağızlar üzərində mülkiyyət hüququ başqa şəxslərə verildikdə tutulur.

QİYMƏTLİ KAĞIZLARA QOYULUŞLARIN DİVERSİFİKASİYASI – investorun kapitalının müxtəlif qiymətli kağızlar arasında bölgüsü. Qiymətli kağızın hər növünə görə investisiyanı portfelin ümumi dəyərinin 10%-i qədər məhdudlaşdırmaq qəbul edilmişdir. Qiymətli kağızlara qoyuluşların diversifikasiyası qiymətli kağızların növlərinə, iqtisadiyyatın sahələrinə, region və ölkələr üzrə, həmçinin ödənmə müddətinə görə (istiqrazlar üçün) fərqləndirilir.

QİYMƏTLİ KAĞIZLARI SAXLAYAN – qiymətli kağızların (səhmlərin, istiqrazların, pul sertifikatlarının və s.) sahibi. Lakin qiymətli kağızların sahibi olmayan, amma qiymətli kağızların peşəkar iştirakçıları da bu qiymətli kağızların nominal saxlayanları ola bilərlər.

QİYMƏTLİ KAĞIZLARIN BİRLƏŞDİRİLMƏSİ – bir növdən olan bütün qiymətli kağızların bir buraxılış daxilində bütün mülkiyyətçilərdə olan qiymətli kağızların sayının mütənasib azaldılması yolu ilə dəyişdirilməsi. Qiymətli kağızların nominal dəyəri olduqda onların birləşdirilməsi nominal dəyərin mütənasib artırılması ilə müşayiət olunur.

QİYMƏTLİ KAĞIZLARIN BURAXILIŞININ EYNİLƏŞDİRMƏ KODU – beynəlxalq, respublika və ya sahə üzrə standartlara əsasən formalaşdırılan, qiymətli kağızların buraxılışını müəyyənləşdirən, depozitar fəaliyyətin həyata keçirilməsi üçün istifadə edilən və mərkəzi depozitari tərəfindən mənimsədilən hərf və rəqəmlərdən ibarət kod işarəsi.

QİYMƏTLİ KAĞIZLARIN DÖVLƏT QEYDİYYATI – qiymətli kağızların emissiyası

mərhələsidir ki, bu zaman rəsmi tənzimlənmə orqanları tərəfindən qiymətli kağızların məlum buraxılışı təsdiq edilir. Azərbaycan Respublikasının ərazisində qiymətli kağızların tədavülə buraxılması və qeydə alınması qaydası qanuna müvafiq surətdə müəyyən edilir. Azərbaycan Respublikasının Maliyyə Nazirliyində (Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyində) dövlət qeydiyyatından keçməmiş qiymətli kağızların buraxılması qeyri-qanunidir və bu cür hallarda qanunsuz buraxılmış qiymətli kağızlar Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq sahiblərinin əlindən alınır, emitentin bu kağızların satışından əldə etdiyi gəlir öz sahiblərinə qaytarılır. Azərbaycan Respublikasının Nazirlər Kabineti xarici emitentlərin buraxdığı qiymətli kağızların Azərbaycan Respublikası ərazisində tədavülə buraxılmasının ümumi qaydalarını və illik ölçülərini müəyyən edir. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının yurisdiksiyasında olan emitentlərin buraxdığı və ya buraxmağı nəzərdə tutduğu qiymətli kağızların Azərbaycan Respublikasının ərazisindən kənarda tədavülə buraxılmasının illik ölçülərini Azərbaycan Respublikasının dövlətlərarası sazişlər üzrə öhdəliklərini nəzərə almaqla müəyyən edə bilər.

Qeydiyyat prosesi

Mövcud qanunvericiliyə müvafiq olaraq, mərkəzi maliyyə orqanları tərəfindən dövlət xəzinə öhdəliklərinin, dövlət istiqrazlarının, həmçinin, kommersiya bankları tərəfindən buraxılan səhm və istiqrazların qeydiyyatı; yerli istiqrazların buraxılışının qeydiyyatı isə yerli maliyyə orqanları tərəfindən həyata keçirilir.

Qeydiyyat üçün aşağıdakı sənədlərin təqdim edilməsi zəruridir:

a) qiymətli kağızların qeydiyyatı barədə ərizə;

b) qiymətli kağızlar buraxılması barədə qərarın notariat qaydasında təsdiqlənmiş surəti;

c) emitentin nizamnaməsinin notariat qaydasında təsdiqlənmiş surəti;

ç) qiymətli kağızların nümunəsi;

d) səhmlərə abunə yazılmış şəxslərin emitentin hesabına səhmlərin dəyərini köçürdükləri barədə bankın arayışı;

e) səhmlərin əlavə emissiyası zamanı əvvəl buraxılmış səhmlərin nominal qiymətdən az olmamaqla ödənildiyi haqda bank arayışı.

Qiymətli kağız qeydə alınarkən ona dövlət qeydiyyatı nömrəsi verilir.

Beləliklə, müəyyən qeydiyyat nömrəsinin verilməsindən və müvafiq rəsmi sənədin təqdim edilməsindən sonra qiymətli kağızlar buraxılmış hesab olunur və qiymətli kağızların ilkin bazarında rəsmi satıla bilər. Qiymətli kağızlar aşağıdakı formalarda buraxılır (emissiya edilir):

a) açıq elan verilmədən və reklam kampaniyası aparılmadan (qapalı satış);

b) emissiya prospekti dərc edilməklə (açıq satış).

Emitent və emitentin razılığı ilə qiymətli kağızları onların ilk sahiblərinə satan investisiya təsisatları Azərbaycan Respublikası qanunvericiliyinin və bu Qanunun tələblərinə zidd gəlməyən hər hansı buraxılış üsulunu seçə bilərlər.

Müxtəlif ölkələrdə qiymətli kağızların dövlət qeydiyyatı müxtəlif orqanlar tərəfindən həyata keçirilir. Bunlar mərkəzi və ya yerli maliyyə orqanları, qiymətli kağızlar bazarında fəaliyyəti tənzimləyən ixtisaslaşmış orqanlar, mərkəzi banklar ola bilərlər.

QİYMƏTLİ KAĞIZLARIN DÖVRİYYƏ QABİLİYYƏTLİLİYİ – sahibkarlıq hüququnu qiymətli kağızların verilməsi ilə birlikdə köçürə bilmək qabiliyyəti.

QİYMƏTLİ KAĞIZLARIN EMİSSİYASI – emitentin qiymətli kağızlarının emissiyası haqqında qərarının qəbulunun, qanunvericilikdə nəzərdə tutulmuş hallarda emissiya prospektinin tərtibinin, qiymətli kağızların buraxılışının, yerləşdirilməsinin və qanunvericilikdə müəyyən edilmiş digər tədbirlərinin məcmusu.

Emissiya prospektində aşağıdakı məlumatlar öz əksini tapır:

– emitentin tam adı və hüquqi ünvanı, təsis tarixi, fəaliyyət predmeti;

– qiymətli kağızlar buraxmaq qərarının qəbul edildiyi protokolun tarixi və nömrəsi;

– emissiyadan əlavə əldə edilən maliyyə ehtiyatlarından istifadənin məqsədi;

– emissiyanın planlaşdırılan həcmi; qiymətli kağızların növü; onlarla bağlı hüquqlar; qiymətli kağızlar emissiyasının miqdarı, nominal dəyəri; seriyaların sayı və sıra nömrələri; sa-

tışın yeri, başlanması və qurtarması tarixi; qiymətli kağız sahiblərinin mümkün imtiyazları barədə məlumat; qiymətli kağız bazarının peşəkar iştirakçısının (əgər emitent onun xidmətlərindən istifadə edirsə) adı; gəlirin hesablanması metodu və ödənməsi müddəti; gəlirin ödənməsi, əməliyyat və depozitə qoyulma yerlərinin ünvanı; istiqraz vərəqələrinin təminatı şərtləri.

Bir qayda olaraq, qiymətli kağızlarda göstərilmiş öhdəliklərin icrası üçün hər hansı hüquqi şəxs zəmanətçi kimi çıxış edirsə, emissiya prospektində belə zəmanətə aid olan məlumat da verilməlidir.

QİYMƏTLİ KAĞIZLARIN EMİTENTİ – qiymətli kağızları buraxan (emissiya edən) və qiymətli kağızlara görə onların sahibləri qarşısında öz adından məsuliyyət daşıyan hüquqi şəxs. Emitent kimi dövlət, yerli hakimiyyət orqanları, müəssisələr və Azərbaycan Respublikası ərazisində qeydə alınmış digər hüquqi şəxslər (o cümlədən birgə müəssisələr və xarici müəssisələr) çıxış edə bilər.

QİYMƏTLİ KAĞIZLARIN XIRDALANMASI (BÖLÜNMƏSİ) – bir qiymətli kağızın nominal dəyərinin mütənasib bölünməsi yolu ilə eyni növlü bir neçə qiymətli kağıza çevrilməsi.

QİYMƏTLİ KAĞIZLARIN İDARƏ OLUNMASI – müştəriyə məxsus olub, peşəkar iştirakçının idarəçiliyinə verilmiş qiymətli kağızlar və ya pul vəsaitləri ilə müştərinin mənafeyi üçün və ya onun göstərdiyi üçüncü şəxsin mənafeyi üçün qiymətli kağızlar bazarında əməliyyatların aparılması üzrə peşəkar fəaliyyət.

QİYMƏTLİ KAĞIZLARIN KONSOLİDASİYASI – səhmlərin nominal dəyərinin proporsional artırılması ilə verilmiş əmsala uyğun olaraq ümumi miqdarının azalması; konsolidasiya əməliyyatı nizamnamə kapitalının dəyişməsinə gətirib çıxarmır.

QİYMƏTLİ KAĞIZLARIN İLKİN BAZARI – emitentin yeni buraxılmış qiymətli kağızlarının yerləşdirildiyi bazar. Qiymətli kağızların ilkin satışı bilavasitə alıcılara tətbiq edilir. Buna görə də "ilkin bazar" kateqoriyası qiymətli kağızların yeni buraxılışının satışına aiddir. Bu satış nəticəsində emitent zəruri maliyyə resursları əldə edir, qiymətli kağızlar isə onların ilkin saxlayıcılarına çatır. Beləliklə, qiymətli kağızların ilkin bazarının funksiyası yeni kapitalları səfərbər etməkdən ibarətdir. Qiymətli kağızlar, əsasən, hüquqi şəxslər tərəfindən buraxılır. Lakin bəzi qiymətli kağızları, məsələn, vekseli fiziki şəxslər də yaza bilər. Qiymətli kağızları buraxan şəxs emitent, bu kağızların buraxılması isə emissiya adlanır. Qiymətli kağızları alan şəxsi investor adlandırırlar. Qiymətli kağızların fond bazarında əsas alıcılar hüquqi şəxslərdir, çünki vəsaitlərin ən çox hissəsi bu şəxslərin sərəncamında olur. Fond bazarına münasibətdə işlədilən "institusional investor" termini başqalarının aktivlərini idarə edən mütəxəssislərə şamil edilir. Əsas fəaliyyət növü cəlb edilmiş vəsaitlər hesabına maliyyə aktivləri almaqdan ibarət olan təşkilatlar da bu terminlə adlandırılır.

QİYMƏTLİ KAĞIZLARIN KONVERTASİYASI – bir emitentin bir növ investisiya qiymətli kağızlarını digər növlü investisiya qiymətli kağızlara və ya digər emitentin qiymətli kağızlarına (həmin emitent yenidən təşkil edildikdə) əvəzsiz dəyişdirilməsi (səhmin istiqraza dəyişdirilməsi istisna olmaqla). Bu zaman dəyişdirilmiş qiymətli kağızlar ləğv olunur.

QİYMƏTLİ KAĞIZLARIN KURSLARININ İNDEKSİ – qiymətli kağız kurslarının dinamika göstəriciləri; bazarın vəziyyətini əks etdirir və səhmlərin dəyərinin dəyişməsi haqqında proqnozlar çıxarmağa yardım edir. Ən nüfuzlu və etibarlıların sırasına aiddir: Dow Jones, S&P 500, Nasdaq, Nikkey, RTS və MMVB rus indeksləri.

QİYMƏTLİ KAĞIZLARIN QİYMƏTLƏNDİRİLMƏSİ (ing. *valuation of securities*) – qiymətli kağızların dəyərinin pul şəklində ifadəsi.

Müxtəlif məqsədlər üçün qiymətləndirmənin aşağıda sadalanan növlərindən istifadə edilir:

1. Nominal dəyər – qiymətli kağızın üzərində göstərilmiş kəmiyyət. Buraya həmin qiymətli kağızın sahibinin malik olduğu mükafat və ya faizlər hüququ daxil deyildir.
2. Emissiya dəyəri – qiymətli kağızın ilkin tədavülündə onun satış qiyməti.
3. Məzənnə dəyəri – qiymətli kağızın müvafiq buraxılışının əvvəlki hərrac gününün yekunlarına əsasən yaranmış orta çəkili qiyməti əsasında hesablanmış dəyəri.

4. Ləğvetmə dəyəri – ləğv edilən cəmiyyətin faktiki qiymət üzrə satılan əmlakının bir səhm üçün ödənilən dəyəri.
5. Girovdan çıxarma dəyəri – səhmdar cəmiyyət tərəfindən öz səhmlərini almaq üçün ödənilən dəyər.
6. Balans dəyəri – cəmiyyətin maliyyə hesabatı sənədləri əsasında xüsusi mənbələr hesabına yaranmış əmlakın dəyərinin buraxılmış səhmlərin sayına nisbəti kimi təyin edilən dəyər.
7. Uçot dəyəri – müəyyən vaxtda cəmiyyətin balansında sayılan qiymətli kağızların dəyəri.

QİYMƏTLİ KAĞIZLARIN QORUNMASI ÜÇÜN DEPOZİTAR BANK – qeyri-birja bazarında əməliyyatlarla məşğul olan, öz üzvləri üçün qiymətli kağızlarla əməliyyatlar üzrə ABŞ-ın milli dilerlər assosiasiyaları tərəfindən təşkil olunmuş bank. Bankın məqsədi sertifikatların hərəkətini immobilizasiya etmək və bu qiymətli kağızların oğurlanması imkanını azaltmaqdır.

QİYMƏTLİ KAĞIZLARIN LİMİTİ – qiymətli kağızların nağd pula çevrilməsinin asan olma dərəcəsi.

QİYMƏTLİ KAĞIZLARIN NOMİNAL SAXLAYICISI – hüquq sahibinin tapşırığı ilə və onun xeyrinə qiymətli kağız sahiblərinin reyestrində qeydə alınmış və bu qiymətli kağızların hüquqi mülkiyyətçisi olmayan şəxs.

QİYMƏTLİ KAĞIZLARIN REYESTRİNİ SAXLAYAN (qeydiyyatçı) – qiymətli kağızların sahiblərinin reyestrinin aparılması və qorunması fəaliyyəti ilə məşğul olan şəxs. Reyestri saxlayan yalnız hüquqi şəxs ola bilər.

Emitentin tapşırığı əsasında reyestrin aparılması üzrə fəaliyyəti həyata keçirən qiymətli kağızlar bazarının peşəkar iştirakçısı və ya emitenti ola bilər. Əgər sahiblərin sayı 500-dən artıqdırsa, reyestri saxlayan qiymətli kağızlar bazarında peşəkar iştirakçı olan və reyestrin aparılması üzrə fəaliyyəti həyata keçirən müstəqil xüsusi təşkilat ola bilər.

Reyestri saxlayan reyestrin aparılması üçün zəruri olan informasiyanın yığılması üzrə öz funksiyalarının bir hissəsini digər qeydiyyatçılara vermək hüququna malikdir. Funksiyaların başqasına verilməsi qeydiyyatçını emitent qarşısında məsuliyyətdən azad etmir. Reyestri saxlayanın vəzifələrinə aiddir: qeydiyyatçıda qeydiyyatdan keçməyi arzulayan hər bir sahibə və qiymətli kağızların nominalını saxlayana qiymətli kağızların verilməsi və tələblərin güzəşt edilməsi haqqında sazişə əsasən reyestrin aparılması sistemində hesab açmaq; bütün zəruri dəyişiklikləri və əlavələri reyestrin aparılması sisteminə daxil etmək; yalnız qiymətli kağızların sahibləri və nominalı saxlayanların tapşırığı ilə onların şəxsi hesablarında əməliyyatlar aparmaq; emitent tərəfindən təqdim edilən informasiyanı qeydiyyatdan keçmiş şəxslərə çatdırmaq, qeydiyyatdan keçmiş şəxslərə qiymətli kağızların verdiyi hüquqlar haqqında və bu hüquqların həyata keçirilməsi üsulları və qaydası haqqında məlumat vermək; reyestrdə qeydiyyatdan keçmiş sahiblərin adları haqqında və onlara məxsus qiymətli kağızların miqdarı, kateqoriyası və nominal dəyəri haqqında informasiyanı emitentin səsvermə hüququ verən səhmlərinin 1%-dən çoxuna sahib olan qeydiyyatdan keçmiş şəxslərə təqdim etmək; emitentlə müqaviləyə xitam verilməsi zamanı reyestrin aparılması qaydasına ciddi riayət etmək.

QİYMƏTLİ KAĞIZLARIN RİSKLİLİYİ – müxtəlif növ qiymətli kağızların risk dərəcəsinin göstəricisi. Qiymətli kağızların həyat dövrü iqtisadi inkişafın dinamikası, sahibkarların, investorların fəaliyyətindən və s. amillərdən asılıdır.

QİYMƏTLİ KAĞIZLARIN SAHİBLƏRİNİN REYESTRİNİN APARILMASI – qiymətli kağızlar, onların emitenti, sahibləri, nominal saxlayıcıları barədə məlumatların toplanması, qeydə alınması, işlənməsi, saxlanması və təqdim edilməsi xidmətlərinin göstərilməsi üzrə peşəkar fəaliyyət.

QİYMƏTLİ KAĞIZLARIN SIĞORTALANMAĞA QƏBUL EDİLMƏSİ ÜÇÜN RAZILAŞDIRILMIŞ TƏKLİF – qiymətli kağızların buraxılışının yerləşməsi zamanı zamin kimi çıxış edən sindikatla və emitentlə razılaşdırılmaqla sığortalanmağa qəbul edilən təklif.

QİYMƏTLİ KAĞIZLARIN TƏDAVÜLÜ – yerləşdirmədən sonra qiymətli kağızlarla mülki-hüquqi əqdlərin bağlanması nəticəsində mülkiyyət hüquqlarının keçməsi və qeydiyyatı prosesi. Tərəflərin arzusu ilə bu kağızların tədavülünə (alqı-satqısına) dair əqdlər qiymətli kağız

bazarının peşəkar iştirakçıları tərəfindən həyata keçirilə bilər.

Qiymətli kağızların tədavülü – qiymətli kağızlara mülkiyyət hüquqlarının keçməsinə səbəb olan mülki-hüquqi əqdlərin bağlanması. Qiymətli kağızların alqı-satqısına dair hər əqd üzrə tərəflərin hər birindən gerb yığımı alınır; onun məbləğini və ödənməsi qaydasını müvafiq icra orqanı müəyyən edir.

QİYMƏTLİ KAĞIZLARLA ƏMƏLİYYATLARDA MÜKAFAT – 1. Elə məbləğdir ki, imtiyazlı səhmə görə ödənilmiş məbləği onun nominal dəyərini ötür. 2. Müəyyən olunmuş kurs üzrə ümumi opsion məbləği. Buna opsion üzrə mükafat əlavə olunur. Bir indeksli opsion üçün ümumi mükafatı müəyyən etmək məqsədi ilə həmin mükafat indeksin əmsalına vurulur. 3. Nominal qiymətindən yuxarı satılan istiqrazın bazar payı.

QİYMƏTLİ METALLAR – istənilən şəkildə, vəziyyətdə, o cümlədən külçə və affinaj olunmuş (saflaşdırılmış, təmizlənmiş halda), habelə xammalda, xəlitələrdə, yarımfabrikatlarda, sənaye məhsullarında, kimyəvi birləşmələrdə, zərgərlik və digər məişət məmulatlarında, sikkələrdə, qırıntılarda, istehsal və məişət tullantılarında olan qızıl, gümüş, platin və platin qrupu metalları (palladium, iridium, osmium, rodium və rutenium).

QİYMƏTLİ METALLAR BEYNƏLXALQ BAZARININ İŞTİRAKÇISI – qiymətli metallar bazarının peşəkar dilerləri və vasitəçi (banklar, ixtisaslaşmış broker və diler şirkətləri və s.) xarici dövlətlərin mərkəzi bankları, qiymətli metalların sənaye istehlakçıları və qiymətli metallarla sövdələrin həyata keçirilməsinə hüququ olan qızıl çıxaran şirkətlər.

QİYMƏTLİ METALLARDAN VƏ QİYMƏTLİ DAŞLARDAN MƏMULATLAR – qiymətli metallardan və onların əlvan metallarla ərintilərindən, qiymətli daşlardan xüsusi emal edilmiş qiymətli və ya yarımqiymətli, bəzək daşları ilə bəzədilmiş və ya bəzədilməmiş bədii-estetik, məişət məqsədləri üçün istifadə edilən, bədii-incəsənət tərtibatına malik olan zərgərlik və digər məişət əşyaları.

QİYMƏTLİ METALLARIN AFFİNAJI – hasil edilmiş qiymətli metalların qarışıqlardan və kənar komponentlərdən təmizlənməsi, qiymətli metalların Azərbaycan Respublikasının dövlət standartlarına, texniki şərtlərə və beynəlxalq standartlara uyğun keyfiyyətə çatdırılması prosesi.

QİYMƏTLİLƏR – qiymətli metal və daşlar, antikvar (qədim) əşyalar, incəsənət əsərləri və s.

QİYMƏTYARANMA METODLARI – qiymətlərin səviyyəsinin və nisbətlərinin iqtisadi cəhətdən əsaslandırılması üsullarının və qaydalarının məcmusu. Məhsulun (xidmətlərin) istehsalçılarının və istehlakçılarının mənafeləri baxımından fərqləndirilir. İstehsalçılar üçün qiymətyaranmanın məsrəf metodları üstünlük təşkil edir. Bu metodların mahiyyəti istehsal xərclərinin ödənilməsi və normal mənfəətin təmin edilməsindən ibarətdir. Qiymətin ilkin hesabatı xalis gəlir və ticarət əlavələrinin zəruri elementləri nəzərə alınmaqla kalkulyasiya xərc maddələri əsasında aparıla bilər. Bu, ilkin istehsal bölməsi səviyyəsində ən geniş yayılmış metoddur.

Qiymətyaranmada parametrik metoddan da istifadə edilir: məhsulun texniki-iqtisadi parametrlərinin dəyişməsindən asılı olaraq məsrəflərin və qiymətlərin dəyişməsinin riyazi-statistik asılılıqları qurulur. Bu asılılıqlar reqressiya tənlikləri şəklində olur və konkret istehsala tətbiqən kalkulyasiya aparılmasını tələb etmir. Parametrik metod eyni cinsli məhsulların kifayət qədər geniş çeşidinin mövcud olmasını nəzərdə tutur, lakin təkcə konkret məmulatların qiymət səviyyəsini deyil, bütün parametrik sıra həddində qiymətlərin nisbətini də müəyyən etməyə imkan verir.

Aqreqat və bal metodları da məsrəfli qiymətyaranma metodlarına aiddir. İstehsal-texniki təyinatlı məhsulun istehlakçılarının mənafeləri məhsulun müqayisəli iqtisadi səmərəliliyini nəzərə almağa imkan verən qiymətyaranma metodunu ifadə edir. Bu metodun mahiyyəti ondan ibarətdir ki, yeni məmulatın qiyməti onun yaranması üçün məsrəflərə əsasən deyil, baza məmulatının (analoqun) qiymətinə həmin yeni məmulatdan istifadəsi prosesində əldə edilən iqtisadi səmərənin qiymətini əlavə etməklə təyin olunur.

Qiymətyaranmanın inzibati, məsrəflər (xərclər), bazar, kontrakt və parametrik (keyfiyyət parametrləri nəzərə alınan) metodlarını fərqləndirirlər.

QISA MÖVQE (ing. *short position*) – maliyyə müqavilələrində satıcının mövqeyini göstərmək üçün istifadə olunan termin.

QISAMÜDDƏTLİ KAPİTAL BAZARI – qısamüddətli etibarlı qiymətli kağızların alqı-satqısı ilə məşğul olan birja dilerləri üçün bazar.

QISAMÜDDƏTLİ SIĞORTA (ing. *shortterm insurance*) – bir ilə qədər dövrü əhatə edən sığorta münasibəti.

"QISA PUL" BAZARI – fond bazarının bu növündə depozit üzrə faiz dərəcələri ilə müxtəlif müddətlər üçün kreditlərin qiyməti arasındakı fərq əsasında depozit əmanətlərinin effektivliyini təmin edən əqdlər bağlanır. Depozit üzrə faiz dərəcələri ilə kreditlərin qiyməti arasındakı fərqə əsaslanan oyunun effektivliyi bu kəmiyyətlər arasında fərqlə düz mütənasibdir.

"Qısa pul" bazarında əməliyyatların aşağıdakı variantları vardır:

– sadə sxem üzrə. Bu halda əvvəlcə bankdan kredit götürülür (girovla və ya girovsuz), borc vəsaitləri kredit müddətindən xeyli artıq müddətə və kreditin qiymətindən daha yüksək dərəcə ilə depozit hesabında yerləşdirilir. Kredit üzrə banka borc həmin bankdan və ya başqa bankdan götürülmüş kredit vəsaitləri hesabına ödənilir. Depozit vəsaitlərinin üzərinə hesablanmış faizlərlə birlikdə alınması vaxtı çatana qədər bu cür əməliyyatlar aparılır, axırıncı kredit də həmin faizlər hesabına ödənilir;

– genişləndirilmiş sxem üzrə. Ardıcıl olaraq bir neçə depozit əmanət hesabı açılır. Bu, dividendlərin multiplikasiyası hesabına depozit əməliyyatlarının səmərəsini artırır. Bu halda bir neçə bank iştirak etdiyinə görə əməliyyatların aparılma qaydası daha mürəkkəb xarakter daşıyır. Hər iki sxem üzrə oyun həm girovdan istifadə edilməklə, həm də ondan istifadə edilmədən aparıla bilər. Əgər girovdan istifadə edilirsə, girovun həcminin, yəni depozit əmanətinin, qiymətli kağızların artırılması, girovdan istifadə edilməyən oyunda isə borc kapitalı üzrə mənfəət norması böyük əhəmiyyət kəsb edir.

"Qısa pul" bazarında oyun şərtləri:

– kredit verilərkən minimal müddətli kredit daha səmərəli olur;

– depozit əmanətində isə maksimal müddətlər daha səmərəlidir.

QITLIQ – cəmiyyətin malik olduğu sərvətlərin məhdud olma xüsusiyyəti.

QIZIL – ənənə üzrə ehtiyat vasitə və tezavrasiya (banka və ya əmanət kassasına qoymayıb, evdə saxlama) obyekti kimi çıxış edən qiymətli metal. Atom nömrəsi 79 olan qızıl D.İ.Mendeleyevin kimyəvi elementlərinin dövri sistemində "Au" simvolu ilə işarə olunur (lat. *aurum*). Xalis qızıl sarı rəngli yüngül metaldır. Qızıldan olan bəzi məmulatlara, məsələn, sikkələrə qırmızımtıl rəngi digər metalların, əsasən misin qarışığı verir. Nazik plyonkalarda qızıl yaşıl rəngdə olur. Qızıl yüksək istilikkeçirmə xassəsinə və aşağı elektrik müqavimətinə malikdir.

Xalis qızılın sıxlığı 19621 kq/kub/m-ə bərabərdir (diametri 46 mm olan xalis qızıldan kürə 1 kq çəkiyə malikdir).

Sıxlığına görə metallar arasında: osmium, iridium, platin və plutoniumdan sonra beşinci yeri tutur. Qızılın yüksək sıxlığı onun hasilatını asanlaşdırır. Ən sadə texnoloji proseslər, məsələn, şlyuzlarda yuyulma qızılın yuyulan süxurdan qoparılmasının kifayət qədər yüksək səviyyəsini təmin edə bilir. Qızılın möhkəmliyi Moos şkalası üzrə ~ 2,5 (dırnaq möhkəmliyi ilə müqayisə oluna bilər), Brinel üzrə isə 220-250 MPa-dır.



Qızıl külçə

Cədvəl 1

Əsas hasilatçı ölkələr tərəfindən qızılın hasilatı, 1992-2010-cu illər üzrə (ton)

Ölkə	1992	2002	2003	2005	2007	2008	2009	2010	Dünyadakı payı, %
Çin	125,0	190,0	202,0	225,0	280	288	324	344	13,0
Avstraliya	243,0	273,0	282,0	254,0	245	211	224	259	9,8
ABŞ	330,0	298,0	277,0	250,0	270	232	221	234	8,8
CAR	614,1	399,2	373,0	300,0	239	234	220	206	7,8
Rusiya	146,1	170,9	170,0	165,0	169	183	205	199	7,5
Peru	20,6	157,0	172,0	175,0	170	175	182	162	6,1
İndoneziya	38,0	135,0	140,0	140,0	140	93	160	132	5,0
Kanada	161,4	148,9	141,0	115,0	101	94	96	93	3,5
Digər ölkələr	143,3	219,3	830,0	830,0	852	899	921	1023	38,6
Cəmi	2254,2	2564,2	2590,0	2450,0	2473	2409	2553	2652	100

Qızıl həm də yüksək səviyyədə plastikdir: o, ~ 0,1 mkm qalınlığında təbəqəyə döyülə bilər; belə qalınlıqda qızıl yarışəffafdır və əks edilən işıqda sarı rəngdə, sovuşan işıqda isə, sarıya əlavə olaraq, göyümtül-yaşıl rəngdə olur.

Qızıl ən ətalətli metaldır, gərginlik sırasında bütün digər metallardan sağda dayanır, normal şəraitdə əksər turşularla qarşılıqlı əlaqəyə girmir və oksidləşmir. Bunun sayəsində də adi, ətraf mühitin təsiri altında asanlıqla dağılan metallardan fərqli olaraq, nəcib metallara aid edilir.

İnsanlar qızılı qədim zamanlardan hasil edirlər. Bəşəriyyət qızılla artıq e.ə. V minillikdə, neolit dövründə tanış olmuşdu. Bir sıra ölkələrdə, məsələn, İngiltərədə qızıl haşiyəli qiymətli kağızlar buraxılır.

Arxeoloqların fərziyyəsinə görə, sistemli hasilatı Yaxın Şərqdən başlamışdı, oradan da qızıl zinətləri, əsasən, Misirə göndərilirdi. Məhz Misirdə Şumer sivilizasiyasından şahzadə Zerin və Puabi Urun şahzadələrindən birinin sərdabəsində e.ə. III minilliyə aid ilk qızıl zinət əşyaları tapılmışdır.

Qızıl sənaye baxımından ən çox istifadə olunan qiymətli metaldır. Son bir neçə il ərzində qızıla olan tələbat onun mövcud ehtiyatlarını üstələmişdir. 2010-cu ildə qızıl istehsalı həcmi 163 ton artaraq 2572 tona yüksəlmişdir ki, bu da 2009-cu illə müqayisədə 7% çoxdur.

Son dövrlərdə bir sıra ölkələrdə qızıl ehtiyatının artması, onun həcminin tədavüldə olan pul miqdarına nisbətini də (qızıl örtüyü) dəyişdirir.

Beynəlxalq araşdırmalarda qızıl paritet anlayışına müraciət edilir. Qızıl paritet dedikdə müxtəlif ölkələrin pul vahidlərinin onların rəsmi qızıl məzmununa nisbəti başa düşülür.

2010-cu ilin sonunda GFMS konsaltinq kompaniyasının hesablamalarına görə, dünyadakı qızıl ehtiyatı 165600 ton qiymətləndirilmişdir. Ondan təxminən 64%-i 1950-ci ildən sonra hasil olunmuşdur.

2007-ci ildə 2,38 min ton, 2008-ci ildə 2,33 min ton qızıl hasil olunub. Həmin illərdə qızıl hasilatı üzrə liderlər aşağıdakılar olmuşdur: ÇXR (2007-ci ildə 275 min ton, 2008-ci ildə 295 min ton), CAR (252/250), ABŞ

Cədvəl 2

Ən iri şirkətlər tərəfindən qızılın hasilatı (GFMS-ın məlumatlarına görə) 2009-2010-cu illər

Kompaniyaların adları	İllər üzrə hasilat, ton		Artım/azalma, %
	2009	2010	
Barrick Gold	230,9	241,1	+4
Newmont Mining	161,9	166,4	+3
AngloGold Ashanti	143,0	140,0	-2
Gold Fields	106,7	102,9	-4
Goldcorp	75,3	79,3	+5
Newcrest Gold	49,2	73,6	+50
Kinross Gold	64,0	72,3	+13
Navoi MMC	62,0	63,0	+2
Freeport MeMoRan	74,8	59,1	-21
Harmony Gold	45,2	42,1	-7

(238/230), Avstraliya (246/225), Peru (170/175), Rusiya (157/165), Kanada (101/100), İndoneziya (118/90), Özbəkistan (85/85), Qana (84/84), Papua-Yeni Qvineya (65/65), Çili (42/42), Meksika (39/41), Braziliya (40/40).

2009-cu ildə Çində (314 ton), Avstraliyada (227 ton), ABŞ-da (216 ton) qızıl hasil edilmişdir. 2010-cu ildə Çin artıq 3-cü dəfə qızıl hasilatı üzrə dünya bazarında 1905-ci ildən lider mövqeyində olan Cənubi Afrikanı sıxışdıraraq birinci yerə çıxmışdır. Cənubi Afrikada qızıl hasilatı 9% aşağı düşmüş, Latın Amerikasında isə Argentina, Braziliya və Meksikada yeni layihələrin hesabına 30 ton artmışdır. MDB ölkələri qızıl hasilatını 20 ton artırmışdır ki, bu da əvvəlki illə müqayisədə 6% çoxdur. GFMS konsaltinq kompaniyasının məlumatlarına əsasən, Rusiya ərazisində qızıl istehsalı 2010-cu ildə xeyli (16 ton) artmışdır. Rusiyada qızıl hasil edən 16 şirkət var. Burada qızıl hasilatının lideri Polyus Zoloto şirkətidir ki, bazarın 20%-i onun payına düşür. Daha çox qızıl Çukotsk MV, Krasnoyar diyarı və Amur vilayətində hasil edilir. Qızıl hasilatının azaldığı ölkələrdən Cənubi Afrika və ABŞ-ı xüsusi qeyd etmək lazımdır. Bu iki ölkədə hasilatın həcmi toplamda 28,4 ton azalmışdır.

Hazırda dünyada mövcud olan qızıl belə bölüşdürülüb: təxminən 10% sənaye məmulatlarında, qalanı isə mərkəşləşdirilmiş ehtiyatlar (əsasən, kimyəvi cəhətdən xalis qızılın standart külçə halında), külçə halında xüsusi şəxslərin mülkiyyəti və zərgərlik məmulatları arasında təxminən bərabər bölünür. Ümumiyyətlə, Mərkəzi banklarda yerləşdirilmiş rəsmi qızıl ehtiyatı dünya qızıl ehtiyatının 18%-ni təşkil edir.

Azərbaycan Respublikasının qızıl ehtiyatı affinaj edilmiş qızıl külçələrdən ibarətdir, dövlət mülkiyyətidir və dövlətin qızıl-valyuta ehtiyatlarının tərkib hissəsidir. Qızıl ehtiyatı dövlətin maliyyə siyasətinin həyata keçirilməsi və Azərbaycan Respublikasının fövqəladə hallarda yaranan tələblərinin ödənilməsi üçün təxsis edilir. Azərbaycan Respublikasının qızıl ehtiyatının (Mərkəzi Bankın, dövlətin sərəncamında olan mərkəzləş-

Cədvəl 3

1 iyul 2010-cu il tarixinə dünyanın nəhəng qızıl ehtiyatları

№	Ölkə	ton
1	ABŞ	8 134
2	Almaniya	3 407
3	Beynəlxalq Valyuta Fondu	2 967
4	İtaliya	2 452
5	Fransa	2 435
6	Çin	1 054
7	İsveçrə	1 040
8	Yaponiya	765
9	Rusiya	669
10	Hollandiya	613

dirilmiş ehtiyat fondu) bir hissəsi Azərbaycan Respublikasının Mərkəzi Bankına verilir və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq beynəlxalq qızıl-valyuta ehtiyatları kimi saxlanılır və idarə olunur. Azərbaycan Respublikasının qızıl ehtiyatının digər hissəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada saxlanılır və istifadə olunur.

1997-ci ildə Azərbaycanın "Azərqızıl" Dövlət Şirkəti ilə ABŞ-ın "R.V. İnvestment Group Services LLC" şirkəti arasında Gədəbəy, Qoşa, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Söyüdlü, Qızılbulaq və Vecnəli perspektiv qızıl filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş imzalanıb. Gədəbəy qızılmis layihəsi gəlirdə payı 51 faiz olmaqla Azərbaycan hökuməti ilə birlikdə həyata keçirilir. Payı 49 faiz olan Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti layihəyə rəhbərlik edir. Şirkət layihə üçün zəruri olan bütün kapitalı təmin edir.

Azərbaycan hökuməti tərəfindən təsdiq edilən və 2005-2009-cu illəri əhatə edən 4 illik İş Proqramı əsasında Gədəbəy, Qoşa və Ordubad kontrakt sahələrində geoloji-kəşfiyyat işlərinə başlanıb. Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti 2006-2007-ci illərdə Gədəbəy Kontrakt Sahəsində yerləşən eyniadlı qızılmis yatağında almaz və əks-sirkulyasiya üsulları ilə ümumi dərinliyi 17700 metr olan 146 kəşfiyyat quyusu qazmaqla yatağın filiz ehtiyatlarını qiymətləndirib. Quyuların maksimum dərinliyi 270 metr olub. Əksər quyularda yer səthindən 120 metr dərinlikdə filizləşmə zonası kəsilməsinə baxmayaraq, dərinlik üzrə etibarlı məlumat əldə etmək məqsədi ilə qazma işləri davam etdirilib. Layihəyə mal-material, iş və xidmətlər ilə bağlı 50-yə yaxın subpodratçı təşkilat cəlb olunub. Kəşfiyyat, tikinti-quraşdırma işlərinə və avadanlığa ümumilikdə 60 milyon dollardan çox vəsait sərf edilib.

Gədəbəy qızıl filiz yatağında hasil edilmiş əmtəəlik qızıl İsveçrənin Cenevrə şəhərində saflaşdırıldıqdan sonra Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti tərəfindən qəbul edilmiş və Mərkəzi Bankda yerləşdirilmişdir. 2011-ci ilin 1 dekabr tarixinə Azərbaycan Respublikası hökumətinin mənfəət payı olan qızılın miqdarı 16512,9 troy unsiyaya (513,6 kiloqrama) çatdırılmışdır. Onun bazar dəyəri 28,4 milyon ABŞ dolları təşkil edir.

Qızıl hədlər – beynəlxalq qızıl standart sistemləri şəraitində konkret valyutanın mübadilə kurslarının son həddi; bu həddən kənara çıxmaq – müvafiq olaraq yuxarı və ya aşağı – özü ilə ödəmə vasitəsi kimi qızılın, uyğun olaraq ya idxalına (gətirilməsinə) və yaxud da ixracına (göndərilməsinə) səbəb olur. Beynəlxalq hesablaşmalar qızılın yerdəyişməsi vasitəsilə və ya valyutada rəsmiləşdirilmiş köçürmə veksellərinin köməyi ilə həyata keçirilir. Valyuta bazarında köçürmə vekselinin qiyməti qızılın göndərilmə qiymətindən yüksək olduqda borclu kreditorla öz Mərkəzi Bankından əldə etdiyi qızılla hesablaşmağa üstünlük verir. Başqa sözlə, qızılın göndərilmə həddinə o zaman nail olunur ki,

digər ödəmə formalarına nisbətən qızılla ödəmə daha ucuz başa gəlsin. Bu qızıl həddi qızıl sikkələrin daşınması üzrə xərclərin kəmiyyəti qədər artırılmış milli valyutanın nominalına bərabərdir. Əksinə, qızılın gətirilməsi həddinə o vaxt nail olunur ki, köçürmə veksellərinin səviyyəsi kreditorların gəlirlərinin aşağı səviyyəsini təmin etsin. Bunun nəticəsində də kreditorlar xarici borclulardan daşınmaya görə onların öz öhdələrinə götürdükləri ödəmənin qızılla aparılmasını tələb edə bilsinlər. Beləliklə, qızılın gətirilmə həddi pulların köçürülmə xərcləri çıxılmaqla nominala bərabərdir.

Qızıl külçə standartı – pul dövriyyəsi qızıl külçələrinə konversiya olunan bank biletlərindən (banknotlardan) ibarət olan qızıl standartı rejimi. Belə rejimdə metala qənaət etmək məqsədilə qızıl dövriyyədən çıxarılır. Mərkəzi banklar əhaliyə sikkələr deyil, ehtiyat kimi mümkün qədər daha çox qızıl ehtiyatının yaradılması məqsədilə müəyyən olunan, yüksəldilmiş ədəd hesabı qiyməti üzrə ödəmələrdə külçələrə konversiya edilən banknotlar verir.


Qızıl sikkə standartı – pul tədavülü qızıl sikkələrdən və qızıla konversiya edilən banknotlardan ibarət olan qızıl standartlar sistemi. Qızıl sikkə standartı rejimi qızıl külçələrdən metal sikkələrin kəsilməsi ilə xarakterizə olunur. Kəsilmə sərbəst və demək olar ki, pulsuzdur, sikkələr isə pul kütləsinin üstün (çox) hissəsini təşkil edir. Banknotlar da sikkələrlə eyni hüquqda dövr edir və bütövlükdə qızıla konversiya olunur, emissiyanın səviyyəsi isə bu konversiyanın təmin olunma dərəcəsi ilə məhdudlaşır.

Qızıl valyuta standartı – qızıldan əmələ gəlmiş, qızıl standartı kimi qızıla əsaslanan pul sistemi. Bu sistemdə pulun qızıla daxili dönməsi (qayıtması) təmin edilmir. Xarici valyutaya gəldikdə isə pul hakimiyyəti onu mübadilə vasitəsi ehtiyatı kimi saxlaya bilər. Sistem Bretton-Vudsda qəbul edilmişdir.

Real həyatda alqı-satqı münasibətlərində qızıl nişanlarından (qızıl tədavül və ödəniş vasitəsi kimi) istifadə edilir. XXI əsrin birinci onilliyində dünya bazarında qızılın qiymətinin artması (qızıl həyəcanı) müşahidə edilir. Qızılın açıq satışı qızıl hərraclarında həyata keçirilir. Əsas beynəlxalq qızıl bazarları London, Nyu-York və Sürix şəhərləri hesab olunur.

Qızıl bazarı beynəlxalq pul bazarı tərəfindən müxtəlif bank-


Dünyanın iri qızıl ehtiyatları, 2010-cu il (tonla)



BVF – Beynəlxalq Valyuta Fondu
AMB – Avropa Mərkəzi Bankı


Qrafik 1

Dünya ölkələrinin qızıl-valyuta ehtiyatlarının ayrı-ayrı valyutalar üzrə bölgüsü, 2008-ci il (yekuna görə, faizlə)



Qrafik 2

Dünyada qızıl istehlakının sturkturu, 2010-cu il (ton)



Qrafik 3

lardakı hesablar vasitəsilə tənzimlənir. Sövdələr, adətən, ABŞ dolları ilə həyata keçirilir. Bazarın həcmi 2010-cu ilin sonuna 165600 ton qızılı onun bazar qiymətinə vurmaqla müəyyən olunur (bax: cədvəl 3).

QIZIL AUKSİONU – qızıl satışı üzrə ixtisaslaşdırılmış auksion.

QIZIL ÇEK – təqdim edən üçün yazılan qiymətli kağız. Bu sənəd qızıl ilə təmin edilir (adətən ildə 20 faizə qədər). Çek ödəniş üçün qəbul edilir, onu həm də bankda depone edilən qızıl ilə dəyişmək olar (bu halda çek saxlanılmaq üçün banka verilir).

Həmişə olduğu kimi, burada da qızıl spesifik əmtəədir. Qızılın təbii xassələri – yekcinslik, bölünə bilmək, sabitlik, portativlik, kütləsinin cüzi, dəyərinin isə yüksək olması onun ümumi pul ekvivalenti rolunu təmin etmişdir. Qızıl standartı şəraitində bu ekvivalent, sözün hərfi mənasında, bütün əmtəələrin dəyərinin ölçü vahididir.

QIZIL EHTİYATI – mərkəzi emissiya bankının, yaxud dövlətin maliyyə orqanlarının və ya beynəlxalq valyuta kredit təşkilatlarının sərəncamında olan mərkəzləşdirilmiş qızıl ehtiyatı (külçə və sikkə formasında). Sərbəst qızıl tədavülü zamanı (1929-1933-cü illərə qədər) qızıl ehtiyatı beynəlxalq tədiyələr (dünya pulu fondu), daxili metal tədavülü, əmanətlər üzrə tədiyələr üçün və banknotların xırdalanması üçün ehtiyat fondu qismində xidmət göstərmişdir. Metal pulla tədavülün kağız pulla əvəz edilməsi və banknotların qızıla xırdalanmasının (dəyişdirilməsinin) dayandırılması ilə qızıl ehtiyatı yalnız beynəlxalq tədiyələr üçün əhəmiyyətini saxladı. İkinci Dünya müharibəsindən (1939-1945-ci illər) sonra qızıl ehtiyatının bu rolu tədiyə balanslarının pozulması, inflyasiya və valyutanın qiymətdən düşməsi ilə əlaqədar xeyli artdı. Qızıl ehtiyatının rolu həmçinin hərbi maliyyə ehtiyatı kimi də artdı. Tədricən inkişaf etmiş ölkələrdə mərkəzi banklarda və xəzinədarlıqda qızıl ehtiyatlarının əksər hissəsi cəmləşdirilərək qızıl ehtiyatının milliləşdirilməsi həyata keçirildi. Sosialist ölkələrində (o cümlədən, SSRİ-də) qızıl ehtiyatı, əsasən, beynəlxalq hesablaşmalar üçün ehtiyat kimi və valyutanın sabitliyinin təmin edilməsi vasitələrindən biri kimi qəbul olunurdu. 1913-cü ildə dünyanın bütün qızıl sikkə ehtiyatlarının 59%-i mərkəzləşdirilmiş ehtiyatlarda cəmləşdirilmiş, qızılın 41%-i isə tədavüldə olmuşdu. Kağız pul tədavülünə keçilməsi və banknotların qızıla dəyişdirilməsinin dayandırılması ilə qızılın fəaliyyət dairəsi məhdudlaşmışdır. Qızıl yalnız xarici iqtisadi əməliyyatlara xidmət etməyə başlamış, yəni beynəlxalq ödəmələrin ehtiyat fondu kimi əhəmiyyətini saxlamışdır. İkinci Dünya müharibəsində valyuta böhranının kəskinləşməsi şəraitində qızıl ehtiyatının bu rolu, həmçinin qızıl ehtiyatının hərbi maliyyə ehtiyatı kimi rolu xeyli artmışdır. 1976-cı ildə ABŞ-ın qızıl ehtiyatı 11,6 mlrd. dollar, İsveçrənin qızıl ehtiyatı 11,6 mlrd. frank, Fransanın qızıl ehtiyatı 63,7 mln. frank təşkil etmişdir. Keçən əsrin 20-ci illərinin sonundan etibarən SSRİ-də qızılın hasilatı və ehtiyatları haqqında məlumat gizlin saxlanılırdı. SSRİ-də qızıl ehtiyatına dair ilk rəsmi göstəricilər 1953-cü ildə açıqlandı: o, 2050 ton təşkil edirdi.

QIZIL ƏSR – 1870-1914-cü illəri əhatə edir. Məhz bu zaman kəsiyində neft sənayesi, dəmir yollarının geniş çəkilişi, avtomobil sənayesi məşhur maliyyəçi və inhisarçılar Rokfeller, Qould, Ford, Vanderbilt, Karneqi, Morqan, Friq Rotşild kimilərinin əzm və səyləri nəticəsində yüksək inkişaf tapmışdır. Bu sərmayəçilər "Vəhşi Qərb" çöllərində intəhasız investisiyalar qoyaraq öz rəqiblərini sıradan çıxarmış, xələfləri üçün külli miqdarda kapital qoyub getmişlər.

QIZIL İXRAC NÖQTƏSİ – qızıl standartı şəraitində valyuta məzənnəsi; qızılın gətirilməsinin (idxal olunmasının) əlverişli olduğu qızıl idxal nöqtəsi – valyuta məzənnəsindən fərqli olaraq, qızılın aparılmasının (ixrac olunmasının) əlverişli olduğu valyuta məzənnəsidir. Pulun birbaşa və ya dolayı olaraq qızıla mübadilə edildiyi və onun sərbəst idxal və ixrac edildiyi ölkənin valyutasının mübadilə məzənnəsi yalnız qızıl nöqtələr adlanan müəyyən hədlərdə valyuta pariteti ətrafında dəyişə bilər. Əgər xarici valyutanın məzənnəsi xaricə qızılın daşınması xərclərinə nisbətən çox miqdarda valyuta məzənnəsindən yüksəyə qalxarsa, onda bu xarici valyutada tədiyə aparacaq şəxslər yüksək məzənnə üzrə invalyutanın (xarici valyuta-

nın) alınmasının əvəzinə öz ölkəsində öz valyutasının müəyyən məbləğini qızıla dəyişməyə, sonra isə onu digər ölkəyə aparmağa və bu qızıla lazımi invalyutanı almağa üstünlük verəcəklər. Qızılın aparılması əlverişli olduğu xarici valyutanın mübadilə məzənnəsi yuxarı və ya qızıl nöqtəsi adlanır.

Valyutanın məzənnəsinin digər ölkədən qızılın gətirilməsi xərclərinə nisbətən çox miqdarda valyuta paritetindən aşağı düşməsi zamanı xarici valyutanı alan şəxslər onu aşağı məzənnə ilə öz valyutasına satmaqdan imtina edəcəklər və xarici valyutaya qızıl almağa, onu öz ölkəsinə gətirməyə, yerli valyutaya satmağa üstünlük verəcəklər. Qızılın gətirilməsi əlverişli olduğu xarici valyutanın mübadilə məzənnəsi aşağı və ya idxal qızıl nöqtəsi adlanır. Hazırda qızıl standartının ləğvi ilə əlaqədar qızıl nöqtələri mexanizmi praktiki olaraq fəaliyyət göstərmir.

QIZIL İLƏ BAĞLI SVOP ƏMƏLİYYATI – qızılın nağd təqdim edilməsi və eyni zamanda müəyyən müddətdən sonra qızılın geriyə alınması üçün əqd bağlanması şərti ilə qızılın satışı.

QIZIL KVOTASI – Beynəlxalq Valyuta Fondunun üzvü olan ölkənin qızılla ödənilən üzvlük haqqı.

QIZIL SERTİFİKAT – 1. Müvəkkil edilmiş və ya hamı tərəfindən qəbul olunmuş bank depozitaridə saxlanan qızıla sahiblik hüququnu təsdiq edən sənəd. 2. Büdcə xərclərini örtmək üçün dövlət tərəfindən tədavülə buraxılan qiymətli kağız növlərindən biri. Bir çox ölkələrdə istifadə olunur. Məsələn, 1993-cü il sentyabrın 27-də buraxılmış Rusiya Federasiyası Maliyyə Nazirliyinin qızıl sertifikatları adlı sertifikatlardır. Sertifikatın nominal dəyəri 0,9999 əyyarlı 10 kiloqram qızıla bərabərdir. Bu sertifikatlar 1994-cü il sentyabrın 27-dən sonra London bazarında, 1994-cü ilin avqust-sentyabr aylarında isə RF-də qızılın orta qiyməti üzrə və ya sertifikatın nominalına müvafiq miqdarda qızılın verilməsi yolu ilə ödənilmişdir.

ABŞ-da isə 1882-1934-cü illərdə qızıl sertifikatlardan istifadə edilmişdir.

QIZIL SƏHM (ing. *golden stoks*) – özəlləşdirilən müəssisəni idarə edən dövlət orqanının əlində saxlanılan şərti səhm. Bu cür səhm onun saxlayıcısına xüsusi səs hüququ verir. Bu hüquq səhmlərin buraxılışı zamanı razılaşdırılmış müddət ərzində (adətən, 3 ilə qədər) müəyyən şərtlər daxilində öz sahibinin səhmdarların yığıncağının aşağıdakı məsələlərə dair qərarlarına veto qoymasına imkan verir:

1) səhmdar cəmiyyətinin nizamnaməsinə dəyişikliklər edilməsi;

2) SC-nin yenidən təşkil edilməsi və ya ləğv edilməsi;

3) SC-nin başqa müəssisələrdə və ya müəssisə birliklərində iştirakı;

4) dövlət mülkiyyətində qalan əmlakın girov qoyulması və ya icarəyə verilməsi, satılması və ya başqa üsullarla özgəninkiləşdirilməsi.

Qızıl səhmdən istifadə edilməsi Qızıl səhmdən, dövlətin mənafelərinə və ictimai mənafelərə ciddi toxunan özəlləşdirilən və səhmləşdirilən dövlət müəssisələri üzərində dövlət nəzarətinin saxlanması üçün istifadə edilir.

QIZIL STANDARTI – iqtisadi mənada əsası və ümumi ekvivalenti qızıl olan pul sistemi; hüquqi mənada qanunla möhkəmlənmiş pul tədavülünün təşkili forması. Bu zaman: a) tədavüldə qızıl sikkələr (qızıl sikkə standartı) olur; b) müəyyən şəraitdə (məsələn, beynəlxalq hesablaşmalar üçün) bank biletlərinin (banknotların) qızıl külçələrə (qızıl külçə standartına) sərbəst mübadilə edilməsi dəstəklənir; c) banknotlar qızıla (qızıl deviz standartına) xırdalanan xarici valyutaya mübadilə olunur.

Qızıl valyuta standartı (qızıl standartının klassik forması) Böyük Britaniyada XIX əsrin 20-ci illərində, Almaniyada və Qərbi Avropanın bir sıra ölkələrində XIX əsrin 70-ci illərində, Rusiyada və Yaponiyada XIX əsrin 90-cı illərində möhkəmləndi. Qızıl standartı pul vahidlərinin qızıl məzmununun nisbətinə (qızıl paritetinə) əsaslanırdı. 1914-cü ilə qədər ingilis funt-sterlinqinin qızıl məzmunu 1/4 unsiya qızıl (1 troya unsiya – 31,1 q qızıla bərabərdir), ABŞ dolları – 1/20 unsiya qızıl, rus rublu isə 0,774232 q qızıl təşkil edirdi. Qızıl sikkə standartı avtomatik (müntəzəm) olaraq dünya bazarının tənzimləyicisinə çevrilirdi. Qızıl sikkələr tədavül olunur və sərbəst şəkildə sikkə sarayında kəsilirdi (zərb olunurdu); banknotlar qızıl sikkələrə mübadilə olunurdu; qızılın sər-

Qızıl standart

"QIZIL STANDART" SİSTEMİ	• **qızıl sikkə standartı** (1867-ci ildən XX əsrin əvvəlinə kimi) • **qızıl külçə standartı** (XX əsrin əvvəlindən birinci dünya müharibəsinə kimi qüvvədə olub) • **qızıl devizli standart (qızıl ehtiyatlı)** – (1922-ci il ikinci dünya müharibsinin əvvəli) **Üstünlüyü:** valyutaların məzənnəsinin stabilliyi ticarətə kömək edir, riski azaldır, sərt mexanizm əsasında özü idarə olunur **Çatışmayan cəhətləri:** qızıl hasilatından asılılıq, ölkələrin sərbəst pul siyasətindən imtina etməsi.

Sxem 1

bəst aparılması və gətirilməsi mövcud idi.

Qızıl külçə standartı qızıl sikkə standartı ilə paralel mövcud idi və bir qədər gec (sonra) – qızıl sikkələrin kəsilməsinin (zərb olunmasının) dayandırılması zamanı qızıl da yalnız beynəlxalq hesablaşmalar üçün istifadə olunurdu. 1914-1918-ci illərdə Birinci Dünya müharibəsinin iqtisadi və siyasi nəticələri qızıl-sikkə standartının saxlanmasını mümkünsüz etdi. Birinci Dünya müharibəsindən sonra bəzi dövlətlərin qızıl standartını tətbiq etməsi uğurla nəticələnmədi. 1929-1933-cü illər dünya iqtisadi böhranından sonra bütün inkişaf etmiş ölkələr qızıl standartından imtina etdilər. Beynəlxalq valyuta sisteminin bir sıra bloklarının (sterlinq, dollar, frank və s. blokların) parçalanması baş verdi. Birinci Dünya müharibəsi zamanı beynəlxalq hesablaşmalar, əsasən, klirinq xarakteri daşıyırdı.

1944-cü ildə Bretton-Vudsda (ABŞ) keçirilən beynəlxalq konfransda qızıl-valyuta (qızıl-deviz) standartının tətbiq edilməsi haqqında saziş qəbul edildi. Dolların qızıla dəyişməsi rəsmi olaraq dayandırıldıqdan sonra (1971) qızıl pariteti özünün real iqtisadi məzmununu itirdi. Üzən valyuta məzənnələrinin müasir sisteminə keçidlə qızıl standartı tarixin sərvətinə çevrildi. Buna baxmayaraq, qızıl standartı sayəsində ayrı-ayrı ölkələrin pul sistemləri vahid, nisbətən sabit dünya valyuta sistemində birləşdi ki, bu da dünya təsərrüfatının inkişafına, sənaye istehsalının, daxili ticarətin və beynəlxalq ticarətin artımına, kredit sisteminin möhkəmlənməsinə səbəb oldu. Bir çox iqtisadçılar hesab edirdilər ki, qızıl standartı şəraitində inflyasiya kimi bir hadisə yox ola bilər, nəticədə valyuta məzənnələrinin sabitliyi təmin olunar.

QIZILIN SIĞORTALANMASI ÜZRƏ QEYD-ŞƏRT HAQQINDA SAZİŞ (*Gold Clause Agreement*) – düzəliş Haaqa qaydalarında ifadə olunmuşdur. Buna görə qızılın dəyərinin pulla ifadəsi qızılın həqiqi dəyəri olmalıdır.

QLOBAL ŞƏBƏKƏ (Wide Area Network – WAN) – məlumatların geniş bir ərazidə, məsələn, istehsalat meydançaları, şəhərlər və dövlətlər arasında ötürülməsinə xidmət edən rabitə şəbəkəsi. Qlobal şəbəkələr (WAN) tətbiqi proqramların kənarda yerləşən terminallar vasitəsilə interaktiv istifadəsinə imkan verir. Qlobal şəbəkə vasitəsilə bir çox lokal şəbəkənin (LAN) qarşılıqlı əlaqəsi yaradıla bilər.

QLOBALLAŞMA (lat. *globus* – kürə, kürəsəlləşmə) – dünya təsərrüfatının, əmtəə və xidmətlərin, kapital və işçi qüvvəsinin, biliyin təcəssümündə (timsalında) vahid bazara çevrilməsi. Qloballaşma müsbət və mənfi nəticələrə malikdir. Yer kürəsində insanlar, xalqlar, millətlər və ölkələr arasında qarşılıqlı əlaqə və asılılıqları əks etdirməklə insan təfəkkürünün nailiyyətlərindən hamının faydalanmasına, problemlərə qarşı mübarizədə vahid güc kimi çıxış etməyə imkan yaradır. Digər tərəfdən milli, dövləti maraqları arxa plana keçirir. Mahiyyətcə beynəlmiləlləşmənin yüksək fazası kimi, o həm də dünyada yoxsulluğun artmasına zəmin yaradır və bu əsnada yerlərdə çoxlu etirazlarla müşayiət olunur. Qloballaşma həm də daha çox sindikatlara gəlir gətirir. Son illərdə dünyanın əksər re-


Qloballaşmanın mərhələləri

Mərhələ:	Mərhələlərin xarakteristikası:
MƏRHƏLƏ I 1890-1920	Əsas məqsəd – birbaşa investisiyaları daha gəlirli yatırımın axtarışında olan kapital ixrac edən ölkələrin (metropoliyaların) nəzarəti altında olan ərazilərdə təbii resursların istismarı **Xammal mənbələrinin zəbt edilməsi**
MƏRHƏLƏ II 1920-1970	Birbaşa investisiyalar şəklində kapital ixracı başqa ölkələrə yönəldilmişdir (inkişaf etməkdə olan ölkələrə). Bu, o əmtəə və xidmətlərdir ki, kapital ixrac edən, (yəni, sənayecə inkişaf etmiş) ölkələrdə öz sürətli artım mərhələsini başa vurmuşlar. **Satış bazarlarının zəbt edilməsi**
MƏRHƏLƏ III MÜASİR DÖVR	Sənayecə inkişaf etmiş ölkələr təbii sərvətlərin və satış bazarlarının əldə edilməsindənsə daha çox aşağıda verilən məqsədləri rəhbər tuturlar: • investisiyaların strukturunu rasionallaşdırılması; • qlobal və ya regional beynəlxalq iqtisadi inteqrasiyanın üstünlüklərindən istifadə etmək; • texnoloji, təşkilatçılıq və ya əlavə bazar imkanlarını əldə etmək. • qlobal rəqabət mövqelərini daha səmərəli şəkildə qorumaq və yüksəltmək, daha tez inkişaf edən bazarlarda möhkəmlənmək.

Sxem 2


QLOBALLAŞMANIN AMİLLƏRİ
İqtisadi
İstehsalın qloballaşması
Dünya ticarətinin qloballaşması
Qloballaşmanın amilləri
Texnoloji
• Nəqliyyatda irəliləyiş; (məsafələrin "sıxılması")
• Telekommunikasiya texnologiyaları sahəsində irəliləyiş;
• İnformasiyanın ötürülməsi sürətinin yüksəldilməsi və ötürmə haqqının azaldılması;
• İnternet istifadəçilərinin sayının artması;
• Vahid informasiya məkanının yaradılması
Sosial-ictimai
Zövqlərin, vərdişlərin, davranışın, üstüntutmaların unifikasiyası, Milli ənənələrin zəifləməsi patriarxal ailə əlaqələrinin dağıdılması
Beynəlxalq
Beynəlxalq iqtisadi təşkilatların rolunun artırılması; Standartlaşdırma və mərkəzləşdirmə (İnkoterms, GAAP, Beynəlxalq standartlar İSO-9000, əmtəənin kodlaşdırılması və siyahıya alınması üçün uyğunluq sistemi)
Siyasi
Dünya sosialist təsərrüfat sisteminin dağılması, dünya ölkələrinin bazar iqtisadiyyatına doğru getməsi; Sərhədlərin "şəffaflığı" – bəzi AB ölkələrində pasport rejimi sisteminin ləğv edilməsi

Sxem 3



Sxem 4

gionlarında, xüsusən Avroatlantik məkanda, hətta "üçüncü ölkələrin" bir çoxunda belə qloballaşma yerli xalqlar tərəfindən daşqalaq edilir. Qloballaşma və ya fransız kökdə *mondializm* "ənənəviçiliklə" əks qütbdə dayanır. Mondializmin məqsədini yalnız qlobal ideoloji məfkurədə irqi, milli-dini təsnifat olmadan və sonda hətta cinsi bölgüyə də etiraz edən prinsiplər təşkil edir. Əlbəttə, burada etiraz ediləcək çılğın məqamlar yetərlidir, qalanı əlavədir.

Dünyanın müxtəlif ölkələrinin iqtisadiyyatlarının qarşılıqlı asılığının artması və dünya iqtisadiyyatının qloballaşması proseslərinin güclənməsi beynəlxalq biznesin artımı və inkişafından, mal və xidmətlərin transsərhəd yerdəyişməsi, kapitalların ixracından, intensiv informasiya mübadiləsindən və texnologiyalardan, işçi qüvvəsinin miqrasiyası ilə bilavasitə bağlıdır. Onu da qeyd edək ki, qloballaşmanın vahid, ümumi qəbul edilmiş anlayışı barədə fikir birliyi yoxdur.

BMT-nin sənədlərində qloballaşmaya aşağıdakı tərif verilmişdir:

Qloballaşma – ümumi termin olub, fiziki şəxslər, müəssisələr, institutlar və bazarlar arasında daha mürəkkəb transsərhəd qarşılıqlı əlaqələr kompleksi olub, malların, texnologiyaların və maliyyə vəsaitlərinin axınının genişlənməsində, vətəndaş cəmiyyəti beynəlxalq institutlarının artmasında və təsirinin güclənməsində, transmilli korporasiyaların qlobal fəaliyyətində, transsərhəd kommunikasiya və informasiya mübadilələrinin miqyaslarının, hər şeydən əvvəl, internet vasitəsilə xeyli genişlənməsində, xəstəliklərin və

ekoloji nəticələrin transsərhəd keçirilməsində və müəyyən tip cinayət fəaliyyətinin beynəlmiləlləşməsində təzahür edir.

Makroiqtisadi planda qloballaşma ölkələrin və ayrı-ayrı regionların öz sərhədlərindən kənarda təsərrüfat-siyasi vasitələrdən istifadə etməklə iqtisadi fəallığa cəhd etməsini bildirir. Bu cür səylərin əlamətləri liberallaşma, ticarət və investisiya maneələrinin aradan qaldırılması, ümumi iqtisadi zonaların yaradılmasıdır.

Mikroiqtisadi planda qloballaşma dedikdə müəssisənin daxili bazarın hüdudlarından kənarda fəaliyyətinin genişləndirilməsi başa düşülür. Sahibkarlıq fəaliyyətinin millətlərarası və ya çoxmillətli oriyentasiyasından fərqli olaraq, qloballaşma dünya bazarının mənimsənilməsinə vahid yanaşmanı bildirir. Qlobal bazarda satılan məhsul ayrı-ayrı ölkələrin spesifik şəraitlərinə adaptasiyaya ehtiyac duymur, belə ki, onun xassələri dünya bazarının tələblərinə cavab verir. Qloballaşma prosesində dünya telekommunikasiya şəbəkəsinin yaradılması mühüm rol oynayır və bu, istehlakçıların davranışı ilə mal və xidmətlərin qlobal bazarlarının artması arasında fərqlərin silinməsinə səbəb olur.

Qloballaşma Qərb ölkələrinin milli təsərrüfatlarının, bura periferiya dövlətlərinin də milli təsərrüfatlarının cəlb edilməsi və planetar təkrar istehsal kompleksinin yaradılması ilə vahid təkrar istehsal kompleksinə birləşməsinin uzunmüddətli tarixi prosesidir. Qloballaşma prosesi XX əsrin 60-cı illərində elmi-texniki tərəqqinin sürətlənməsi, istehsal və kapitalın beynəlmiləlləşməsi proseslərinin inkişafı ilə əlaqədar başlanmışdır.


1990-cı illərdə Qərb ölkələri BMT sistemi, Ümumdünya Ticarət Təşkilatı (ÜTT) və başqa beynəlxalq təşkilatlar vasitəsilə dünyanın qlobal və siyasi quruluşunu və iqtisadiyyatın tənzimlənməsində dövlətin rolunun dəyişməsinin yeni strategiyasını fəal inkişaf etdirməyə başladılar ki, bu da beynəlxalq ticarətin genişlənməsinə, investisiyaların və maliyyə kapitalının beynəlmiləlləşdirilməsinə kömək etdi. 1996-cı ildə 1950-ci illə müqayisədə dünya ticarətinin həcmi 16 dəfə artmışdı, halbuki dünya ümumi istehsalının göstəriciləri həmin dövrdə yalnız 5,5 dəfə yüksəlmişdi. Dünya ÜDM-də dünya ixracının payı 7%-dən 15%-ə qədər artmışdır. 90-cı illərin sonunda qloballaşma prosesi özünün yeni mərhələsinə daxil oldu. Müasir mərhələdə ona təsir edən əsas amillərdən aşağıdakıları fərqləndirmək olar. Bu mərhələdə özünəməxsus "milli sərhədlərin silinməsi" baş verir, dünya iqtisadiyyatı isə tədricən ümumi təməl alır ki, onun başlıca tərkib hissələri aşağıdakılardır:

– razılaşdırılmış qaydalarla qurulmuş beynəlxalq ticarət sistemi;
– transmilli istehsal;
– formalaşan vahid informasiya məkanı;
– qlobal maliyyə sistemi.

Dünya iqtisadiyyatının qloballaşmasının əsas amilləri:

– beynəlxalq təşkilatların rolunun artması, harmonizasiyalı standartların işlənib hazırlanması;
– beynəlxalq ticarətin liberallaşması;
– kapitalın konsentrasiyası və mərkəzləşməsi;
– qlobal beynəlxalq maliyyə bazarının formalaşması;
– dünya iqtisadiyyatının qloballaşması;
– beynəlxalq nəqliyyat infrastrukturunun formalaşması;
– informasiya texnoloji tərəqqinin inkişafı;
– beynəlxalq əmək bölgüsünün dərinləşməsi;
– TMK-nın rolunun və təsirinin güclənməsi.

QOBSON CON ATKİNSON (1858-1940) – Keyns 1936-cı ildə öz "Ümumi nəzəriyyəsi"ndə Qobsona olan hörmətini ifadə edərək onun əhalinin müəyyən şəraitdə gəlirinin həddindən artıq böyük hissəsini yığıma yönəltdiyi halda bunun faydadan çox zərər gətirəcəyi haqqında fikrini dəstəkləmişdir. Keyns birinci növbədə, Qobsonun sahibkar A.F.Mammeri ilə birlikdə yazdığı "Sənayenin fiziologiyası: mövcud olan iqtisadi nəzəriyyələrdəki yanlış fikirlərin ifşası" adlı ilk kitabına istinad etmişdir. Kitabda gəlirin qeyri-bərabər bölüşdürülməsi zamanı milli gəlirin əhəmiyyətli hissəsinin gəlirin bölgüsü piramidasının yuxarı hissəsində yerləşən az xərci və böyük yığımı olan əhali qrupunun əlinə keçməsi haqqında heç bir söz yazılmamışdır. Lakin sonralar bu ideya Qobsonun bitməmiş istehlak nəzəriyyəsi-



nin əhəmiyyətli elementinə çevrilmişdir. İlk dəfə bu ideya "İşsizlik problemi" kitabında (1896) əksini tapmışdır və sonralar onun şah əsəri olan "Sənaye sistemi: qazanılmamış gəlirin tədqiqatı" kitabında (1909) inkişaf etdirilmişdir. Lakin bu işlərdə belə Qobson yığımı "istehsal vasitələrinin alışı" kimi müəyyən edir və eyni zamanda sənaye cəmiyyətlərində tezavrasiyanın (mərkəzi bank və ya səlahiyyətli orqan ölkədə qızıl ehtiyatının yaradılması prosesi) adi bir hadisə kimi mövcudluğunu inkar edir.

Qeyd etmək lazımdır ki, Keynsin əsl sələfi olmasa da, Qobsonun yazdığı hər şeydə onun təsiri aydın görünür.

Qobson 1858-ci ildə Derbi şəhərində anadan olmuşdur. O, Oksford Universitetində klassik təhsil almış və 1880-ci ildə onu bitirmişdir. Bir neçə il ərzində o, pedaqoq kimi fəaliyyət göstərmiş və 1887-1897-ci illər ərzində maaşına əlavə alaraq London və Oksfordda universitet mühazirəçisi kimi çalışmışdır. "Sənayenin fiziologiyası" kitabından sonra isə o, hər iki vəzifəsini itirmişdir. İllər sonra öz avto-bioqrafiyasında "İqtisadi dövrün etirafları" (1938) bu uğursuzluğu belə izah etmişdir: "Qovulmamın səbəbi kitabımı oxuyan və onun Yer kürəsinin səthi olmasına bərabər olduğunu hesab edən iqtisadiyyat üzrə professor idi".

Əslində, doqmatik iqtisadi cəmiyyət tərəfindən gülünc vəziyyətinə qoyulması və onun özünü autsayder hiss etməsi mövzusu avtobioqrafiyanın əsasını təşkil etmişdir.

QOCAYEV CAHANGİR DÖVLƏT OĞLU (1948) – Azərbaycan iqtisadçısı, i.e.n.



1973-cü ildə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunu (indiki Azərbaycan Dövlət Neft Akademiyası) bitirmişdir.

1967-ci ildən "Balaxanıneft" Neft və Qazçıxarma İdarəsində neft və qazçıxarma operatoru, texnik, çilingər, planlaşdırma və normalaşdırma üzrə mühəndis, iqtisadçı-mühəndis, əməyin təşkili, normalaşdırma və əmək haqqı şöbəsində mühəndis, 1973-cü ildən "Azərmeliorasiyasutikinti" Baş İdarəsi "Muğanmeliorasiyasutikinti" trestinin 17 №-li tikinti idarəsində fəhlə, normalaşdırıcı, əmək və əmək haqqı şöbəsinin böyük mühəndisi, şöbənin rəisi, baş idarənin normativ-tədqiqat stansiyasının rəisi və əmək haqqı şöbəsinin rəisi, 1989-cu ildə Azərbaycan Dövlət Tikinti Komitəsində əmək və əmək haqqı şöbəsinin rəisi, 1993-cü ildən Azərbaycan Respublikası Nazirlər Kabinetinin Tikinti, inşaat materialları və tikinti sənayesi şöbəsinin müdiri, həmin ildə Dövlət Tikinti və Arxitektura Komitəsi sədrinin müavini, birinci müavini, 2002-ci ildən İqtisadiyyat, investisiya və beynəlxalq əlaqələr şöbəsinin müdiri vəzifəsində işləmişdir. 2006-cı ildə "Debüt" Səhmdar Kommersiya Bankında müşavir və-zifəsində çalışmışdır.

1989-1991-ci illərdə Azərbaycan Respublikası Nazirlər Soveti yanında Xalq Təsərrüfatı İnstitutunda müəllim, 2002-ci ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət İdarəetməsi və Menecment kafedrasında baş müəllim işləmişdir. Hazırda Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin beynəlxalq əlaqələr və informasiya şöbəsinin müdiridir. Cahangir Qocayev bir çox iqtisadi qanunvericilik layihələrinin hazırlanmasında yaxından iştirak etmiş, çoxsaylı elmi və publisistik məqalələrin müəllifidir.

QOF-MAKLER (dəllal) (alm. *hofmakler*) – birja komitəsinin üzvü olub, onlar tərəfindən seçilən baş birja makleri. Maklerlərin fəaliyyətinə nəzarət edir.

QOHUM RƏQİB MALLAR – alıcının problemini həll edən, yaxud onu şirkət malları ilə müqayisədə münasib olmayan üsulla kənarlaşdıran mallar.

QORUNAN ƏMANƏT – sığorta hadisəsi baş verdikdə Əmanətlərin Sığortalanması Fondu tərəfindən qorunan, əmanətçiyə kompensasiya olunan əmanət.

Aşağıdakı əmanətlər qorunan əmanətlərə aid edilmir:

– adsız borc qiymətli kağızlarının (adsız depozit sertifikatlarının) yerləşdirilməsi yolu ilə cəlb edilmiş pul vəsaitləri;

– bankın Azərbaycan Respublikasının ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər;

– qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli

əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş əmanətlər;
– cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər;
– üzərinə həbs qoyulmuş əmanətlər;
– cəlb edildiyi günə Azərbaycan Respublikası Milli Bankının uçot dərəcəsinin 1,8 mislindən yuxarı illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər;
– fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı pul vəsaitləri;
– fiziki şəxslərin bankın vəkalətli idarəetməsində olan pul vəsaitləri;
– ödəniş müddətlərinin başa çatıb-çatmamasından asılı olmayaraq, əmanətçinin banka olan borcunun əsas məbləği və faizləri həcmində əmanəti;
– bank qarşısında öhdəliklərin təminatı olan əmanətlər.

QORUNAN ƏMANƏTÇİ – aşağıdakılar istisna olunmaqla bankda əmanəti olan fiziki şəxs:
– bankın Müşahidə Şurasının, Audit Komitəsinin, İdarə Heyətinin üzvləri və onların yaxın qohumları (ər/arvad, onların valideynləri və övladları, o cümlədən övladlığa götürülənlər, bacı və qardaşları);
– bankın 10 faiz və daha çox səsvermə hüququ verən səhmlərinə malik olan şəxslər və onların yaxın qohumları (ər/arvad, onların valideynləri və övladları, o cümlədən övladlığa götürülənlər, bacı və qardaşları);
– kompensasiyaların ödənilməsi barədə elanın ilk dəfə dərc edildiyi tarixdən əvvəlki təqvim ili ərzində bankın auditini keçirmiş kənar auditorlar.

QORUNMUŞ ƏMANƏT – fiziki şəxslərin banklara və ya digər maliyyə-kredit idarələrinə qorunub saxlanmaq üçün uzun müddətə və tələb olunana qədər köçürülən pul vəsaitləri. Qorunmuş əmanətlərə aiddir: müddətli, müqavilə, yığım, öz şərti və məqsədli əmanətlər. Əgər əmanətçi öz əmanətini vaxtından əvvəl (əmanətin qorunması haqqında müqavilədə şərtlənmiş müddət çatana qədər) çıxarırsa, onda ona bir qayda olaraq, tələb olunana qədər əmanətlər üzrə faizə bərabər əmanətə görə daha az faiz ödəniləcəkdir. Əmanətçi çekin köməyi ilə qorunmuş əmanətdən vəsaitləri çıxara bilməz. Banklar üçün qorunmuş əmanət daha əlverişlidir, çünki bu halda xeyli ehtiyatların saxlanması tələb olunmur, onlara dair əməliyyatlar daha az əmək tutumludur və bankın maliyyə vəziyyətinin böyük sabitliyini təmin edir. Qorunmuş əmanətin bir forması *əmanət sertifikatıdır* (lat. *certum* – doğru, *facere* – etmək) ki, bu da müəyyən müddətə banka vəsaitlərin köçürülməsini təsdiq edən pul sənədidir. Qorunmuş əmanət müştərilərin uzunmüddətli kreditləşməsi məqsədilə banklar üçün resurs mənbəyidir.

QOSSEN QANUNLARI – Qossen (alman iqtisadçısı, riyazi və Avstriya siyasi iqtisad məktəblərinin sələfi) tərəfindən irəli sürülmüşdür. Bu qanunlara görə: a) hər hansı bir əmtəə nə qədər çox istehlak olunursa, bu əmtəənin son faydalılığı azalır; b) şəxsin sərəncamında olan pul vəsaitləri müxtəlif nemətlər arasında elə bölünmüşdür ki, hər bir əmtəəyə sərf olunan son pul vahidindən bərabər ödənilməni təmin etdikdə bu şəxs öz faydalılığını maksimum səviyyəyə çatdırır. Sonralar bu müddəa rəqabət aparan nemətlərin və maksimum nəticə (optimum) alınması üçün istehsal amillərinin əvəz edilməsinin son həddi normasının bərabərliyi haqqında iqtisadiyyatın məlum son həddi təhlili qaydasında təcəssüm olunmuşdur.

QOŞA REQRESSİYA TƏHLİLİ – reqressiya təhlilinin bu növündə bir sərbəst dəyişən nəzərdən keçirilir.
Xətti asılılıq halında qoşa reqressiya tənliyi aşağıdakı şəkildə olur: $y = a + bx$.
Burada y – qiymətləndirilən və ya proqnozlaşdırılan asılı dəyişən (nəticə əlaməti);
a – tənliyin sərbəst həddi;
b – reqressiya əmsalı, yəni nəticə əlamətinin orta qiymətindən meylin faktor əlamətinin onun orta qiymətindən bir ölçü vahidi qədər meylinə orta nisbəti, başqa sözlə desək, x-in variasiyasının bir vahidi müqabilində y-in variasiyası;
x – asılı dəyişənin təyin olunması üçün istifadə edilən sərbəst dəyişən (faktor əlaməti).

"QOVLUQ METODU" – reklamın mətbuat vasitəsilə ilkin sınanma metodu. Bu zaman təqdim olunan reklam materialları digərləri ilə eyni reklam kitabçasında yerləşdirilir, nəticədə onlardan daha yaxşısı aşkarlanır.

QOYULMUŞ KAPİTALA DİVİDEND – qoyulmuş kapitalın ölçüsündən və müəyyən müddət (rüb, yarım il, il) üçün işgüzar fəallığın nəticələrindən asılı olaraq (səhmlərin) sahibləri

arasında bölünən gəlir. Hesablanmış dividendlərin ümumi məbləği investisiya fondunun formalaşmasından və bütün vergilərin ödənilməsindən sonra qalan mənfəətə bərabərdir.

QÖVSVARI ELASTİKLİK (ing. *arc elasticity*) – $y=f(x)$ funksiyasının qrafikinin ixtiyari qayda ilə seçilən müəyyən hissəsində ("qövsdə") hesablanan elastiklik. Məsələn, tələbin qiymətə görə qövsvarı elastikliyi tələb əyrisinin bir hissəsi üzərində hesablanır. Qövsvarı elastikliyin mövcud olması üçün funksiyanın həmin hissədə kəsilməz olması zəruri şərtdir. Ümumi halda qövsvarı elastikliyin hesablanma düsturu aşağıdakı kimidir:

$$E^a=(Dy/y) : (Dx/x),$$

burada $Dy=y_1-y_0$ – asılı (endogen) dəyişənin qövsün uclarında mütləq dəyişməsidir; $Dx=x_1-x_0$ – müstəqil (ekzogen) dəyişənin qövsün uclarında mütləq dəyişməsidir. Yuxarıdakı düsturda məxrəclərdə x və y-in qiymətlərinin seçilməsi prinsip etibarilə ixtiyari olub, araşdırmanın məqsədlərindən asılıdır. Lakin çox vaxt bu kəmiyyətlər seçilmiş qövsün uc nöqtələrində dəyişənlərin mütləq qiymətlərinin ədədi ortasına bərabər qəbul edilir (orta nöqtə metodu), yəni:

$$x=(x_1+x_2)/2;\ y=(y_1+y_2)/2.$$

Bu halda qövsvarı elastikliyin düsturu aşağıdakı şəklə düşür (R.Allen düsturu):

$$E^a[(y_1-y_0) : (y_1+y_0)] / [(x_1-x_0) : (x_1+x_0)].$$

Qövsvarı elastikliyin hesablanmasının ikinci variantı kəsirlərin məxrəclərini ən erkən ana müvafiq olan nöqtədə (uc nöqtə metodu) qeyd etməkdən ibarətdir, yəni:

$$E^a=[(y_1-y_0) : y_0)] / [(x_1-x_0) : x_0)].$$

Lakin tədqiq edilən funksiyanın eyni qövslərinin başlanğıc nöqtələri müxtəlif olduqda bu metod ilə hesablanan elastikliklər bir-birindən fərqlənəcəkdir (həm ekzogen, həm də endogen mütləq dəyişmələri eynidir), buna görə də əksər hallarda qövsvarı elastikliyi hesablamaq üçün orta nöqtə metodundan istifadə edilir.

Qövsvarı elastiklik göstəricisinin əsas çatışmazlığı ondan ibarətdir ki, başlanğıc nöqtələri eyni olan tədqiq edilən funksiyanın müxtəlif qövslərinin elastikliyi həmişə müxtəlifdir və deməli, təhlilin nəticələri qövsün uzunluğunun seçilməsindən asılıdır. Qövsvarı elastikliyin yalnız kiçik intervallarda hesablanması tövsiyə olunur.

QRADASİYA – təcili müqavilələr, fyuçerslərlə mal birjalarında satılan malların təsnifatlandırılması. Belə qruplaşma təxminən eyni keyfiyyətli malları özündə cəmləyir ki, bu da malın hər növbəti partiyasının əlavə təhlilini aparmadan ticarət etməyə imkan verir.

QRANT (ing. *grant*) – 1. Elmi tədqiqatların və işlərin yerinə yetirilməsinə dövlət sifarişi. 2. Elmi tədqiqatların, alimlərin, ədəbiyyat və incəsənət əsərləri müəlliflərinin maliyyə dəstəyi üçün xeyriyyəçilik məqsədilə ayrılan pul vəsaitləri. 3. Müxtəlif proqram və layihələrin keçirilməsi məqsədilə bir obyektin digərinə öz elmi və digər tədqiqatlarının, təcrübə-konstruktor işlərinin aparılmasına, təhsilə, müalicəyə və onların istifadəsinə görə hesabat verməklə digər məqsədlərə yönəldilən pul və ya natural formada müəssisələrə, təşkilatlara və fiziki şəxslərə verilən təmənnasız subsidiya. 4. Daxili və xarici mənbələr hesabına əvəzsiz verilən məqsədli maliyyə yardımı.

QRANTLARDAN VERGİTUTMA – xarici ölkələrin xeyriyyə təşkilatları tərəfindən xüsusi məqsədlər – təcrübi-konstruktor işlərinin, tədqiqatların (elmi və digər) aparılması, təhsil, müalicə və başqa məqsədlər üçün müəssisələrə (təşkilatlara), fiziki şəxslərə pul və ya natural formada təmənnasız təqdim edilən vəsaitlərdən vergi tutulması. Həmin vəsaitlərdən istifadə olunması haqqında hesabat təqdim edilməlidir. Büdcə müəssisələri, qeyri-kommersiya təşkilatları tərəfindən onların nizamnamə fəaliyyətinə aid olan məqsədli proqramların həyata keçirilməsi üçün xarici ölkələrin xeyriyyə təşkilatlarından alınmış qrantlardan mənfəət vergisi tutulmur.

Qrant almış təşkilatlar hesabat ili başa çatdıqdan sonra olduqları yer üzrə vergi orqanına onların hesabına daxil olmuş məbləğlər və bu məbləğlərin xərclənməsi haqqında hesabat verir. Əgər vəsaitlərdən onların təyinatı üzrə istifadə edilməmişdirsə, həmin məbləğ müəyyən edilmiş qaydada dövlət büdcəsinin gəlirinə tutulur.

Xarici ölkələrin xeyriyyə təşkilatlarından qrantlar alınması həmin xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş (Azərbaycan dilinə tərcüməsi notarial qaydada təsdiq edilmiş) arayışla

təsdiqlənməlidir. Həmin arayışda göstərilir ki, bu təşkilat həmin xarici dövlətin qanunvericiliyinə uyğun olaraq müəyyən edilmiş qaydada qeydiyyata alınmışdır.

Əcnəbi vətəndaşlar, xeyriyyə təşkilatları olmayan hüquqi şəxslər tərəfindən pul və ya natural şəkildə təmənnasız olaraq verilən vəsaitlər qrant deyildir və qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq həmin vəsaitlərdən ümumi əsaslarla vergi tutulmalıdır.

QRENCER KLAYV (1934-2009) – ingilis iqtisadçısı. Nottingem Universitetində təhsil



alaraq 1955-ci ildə riyaziyyat üzrə bakalavr, 1959-cu ildə isə statistika üzrə doktorluq dərəcəsi almışdır.

1970-ci ildən Amerikanın San-Diyeqo şəhərindəki Kaliforniya Universitetinin iqtisadiyyat üzrə professoru olmuşdur. 2003-cü ildə dövri iqtisadi sıraların ümumi trendlərlə birlikdə təhlili metodunun hazırlanmasına görə Nobel mükafatına layiq görülmüşdür. 150-dən çox elmi əsərin və kitabın müəllifidir.

QREŞEM QANUNU – iqtisadi qanun; ingilis dövlət xadimi və maliyyəçisi T.Qreşem tərəfindən XVI əsrdə belə ifadə edilmişdir: "Pis pullar yaxşı pulları tədavüldən sıxışdırıb çıxarır".

Pul kütləsinin tədavülü qanunudur ki, buna əsasən, aşağı tələbə (nominal dəyərindən az, aşağı əyarlı pul sikkələri) malik pullar (necə deyərlər, pis pullar) tədavüldən "yaxşı" – yüksək qiymətləndirilən pulları sıxışdırır, həm də "yaxşı" pullar əmanətlərə yollanır. Qreşem qanunu az etibarlı qiymətlilərdən fərqli olaraq, daha etibarlı qiymətliləri saxlamağa cəhd edən insan psixologiyasına əsaslanır. Bu qanun bimetallizm zamanı öz ifadəsini tapmışdı. Həmin vaxt qızıl pulları sərvətə çevirir, gümüş pulları isə tədavülə salırdılar. Qanun dəfələrlə həyati təsdiqini tapmışdır, belə ki, insanlar mis, nikel, bürünc pullara daha çox üstünlük verir, qızıl və gümüşü isə əmanət kimi saxlayırlar.

QRİNBERQ RUSLAN SEMYONOVİÇ (1946) – i.e.d., prof. Rusiya Elmlər Akademiyasının



(REA) müxbir üzvü. 1968-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetini "Xarici ölkələrin iqtisadiyyatı" ixtisası üzrə bitirmişdir. 1972-1981-ci illərdə SSRİ Qiymət Komitəsinin Qiymətəmələgəlmə üzrə Elmi-Tədqiqat İnstitutunda işləmişdir.

1981-ci ildən REA-nın İqtisadiyyat İnstitutunda işləyir. 1995-ci ildə "Postsosialist ölkələrində inflaysiya" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1996-cı ildən professor, 2006-cı ildən isə REA-nın müxbir üzvüdür. 2005-ci ildən REA İqtisadiyyat İnstitutunun direktorudur.

İqtisadi nəzəriyyə, dünya təsərrüfatının qloballaşması, postsovet məkanının iqtisadi və siyasi problemləri, müasir iqtisadiyyatda dövlətin rolu mövzularına həsr olunmuş 250-dən artıq elmi məqalənin müəllifidir. Onun məqalələri ABŞ, Almaniya, Böyük Britaniya, Polşa, Avstriyada çap olun muşdur.

Qrinberq Rusiya-Amerika iqtisadi islahatlar qrupunun üzvü, MDB üzrə milli investisiya şuraları Komitəsinin sədri, RF İqtisadiyyat Nazirliyinin ekspert şurasının üzvüdür. Onun rəhbərliyi ilə 15 namizədlik, 4 doktorluq dissertasiyası müdafiə olunmuşdur.

QRUP – öz aralarında qarşılıqlı fəaliyyətdə olan bir neçə şəxsdir ki, onlardan hər biri eyni zamanda digərlərinə təsir edir və belə təsiri özündə hiss edir.

Qrupun iki forması var:

1. Formal qrup;
2. Qeyri-formal qrup.

QRUP HALINDA AUKSİON – birja ticarətinin bu formasında müəyyən vaxtlarda müvəkkil brokerin və ya birjanın digər əməkdaşının nəzarəti altında satılan sifarişlər yığılır. Auksionun bu növünə *yaylım auksionu* da deyilir.


QRUP HALINDA SEÇİM NƏZƏRİYYƏSİ – bir qrup şəxsin, kollektivlərin mənafeləri (üstünlük verdikləri dəyərlər) nəzərə alınmaqla qəbul edilən qərarları tədqiq edən elmi fənn (bəzən bu nəzəriyyəni qərarlar qəbul edilməsi nəzəriyyəsinə aid edirlər, bəzən iqtisadi-riyazi metodlar kompleksinin müstəqil bir bölməsi kimi nəzərdən keçirirlər, bəzən də onu bu kompleksin hüdudlarından kənara çıxarırlar). Belə qərarların for-

malaşmasının, eləcə də onların nəticələrinin riyazi qanunauyğunluqları (məsələn, əksəriyyət qaydası, "diktator" prinsipi, Pareto mənada optimum, dayanıqlıq prinsipi – "Neş tarazlığı", prioritetlərin nəzərə alınması) tədqiq edilir. Bu nəzəriyyənin məlum müddəalarından biri olan Errou paradoksu fərdi qərarların ümumi qrup halında (kollektiv) seçimə transformasiyanın çətinliklərini göstərir. Bəzən "sosial seçim nəzəriyyəsi" terminindən istifadə edilir.

QRUP POLİSİ – sığortalanmışların kollektivi üçün vahid olan polis.

QRUP SIĞORTASI – sığortaçının fərdi sığortada olduğu kimi ayrı-ayrı fiziki şəxslərlə yox, sığortalı kimi çıxış edən müəssisələrin (təşkilatların, idarələrin) rəhbərliyi və ya həmkarlar ittifaqı ilə bağlanılan şəxsi sığorta müqavilələrinin məcmusu. Həmin müəssisədə muzdla işləyən şəxslər sığortalanmış hesab olunurlar. Qrup sığortası – qüvvəsi firmanın işçilərini əhatə edən şəxsi sığortanın bir növüdür. Qrup sığortası haqqında müqavilə sığorta şirkəti və firmanın müdiriyyəti (yaxud həmkarlar ittifaqı) ilə bağlanır.

QRUP SIĞORTASI ÜZRƏ POLİSLƏRDƏN İBARƏT TRAST – hər bir sığortalanan şəxslə şəxsi sığorta müqaviləsinin qrup polisi çərçivəsində bağlanmasına sığortalananların bu qrupu tərəfindən etibarlı şəxsə verilən etibarnamə.




Sxem 1

QUDHART QANUNU – bu iqtisadi qanuna görə, hökumətin iqtisadi dəyişən kəmiyyətə nəzarət etmək sahəsində hər hansı bir cəhdi bu dəyişən kəmiyyəti elə təhrif edə bilər ki, hökumətin nəzarəti səmərəsiz olar.

QUDVİL – firmanın işgüzar reputasiyası və ya onun bazar qiyməti ilə balans dəyərinin fərqi. Qudvil firmanın bazar qiymətində nəzərə alınan qeyri-maddi aktivlər qruplarından biridir. Bir qayda olaraq, aşağıdakıları qudvilə daxil etmək olar: firmanın, şirkətin adının (onun brendinin), onun satış dəyərinin faktiki balans dəyərindən artımı kimi əks olunan dəyəri; qeyri-maddi əsas kapital – nüfuz, təcrübə, ad-san, sabit bazarın mövcudluğu; firmanın dəyərinin və adının balans qiyməti (bax: sxem 1).

Mənfi qudvil xalis aktivlərin alınan törəmə şirkətin dəyərindən artıq olmasıdır. Qeyri-dövriyyə aktivlərinin bu cür artıqlığı (bazar dəyərinə malik olan qiymətli kağızlara edilmiş uzunmüddətli kapital qoyuluşlarından başqa) həqiqi dəyəri müəyyənləşdirmək üçün onların dəyərinin mütənasib azalması üçün bölünür. Əgər korporasiya digər şirkətin səhmlərini razılaşdırılan qiymətə, yəni alınan şirkətin xalis aktivlərinin əsaslandırılmış bazar dəyərindən aşağı məbləğə alırsa, onda bu cür vəziyyət yaranır.

QULDARLIQ – tarixdə mülkiyyətçi tərəfindən istehsalçının istehsal vasitələrinin, əməyinin və onun özünün mənimsənilməsinə əsaslanan birinci və ən kobud istismar forması. Quldarlıq sosial və əmlak bərabərsizliyinin, xüsusi mülkiyyətin əmələ gəlməsi ilə ibtidai icma quruluşundan sinifli cəmiyyətə keçid prosesində yaranmışdır.



Afrika, 1860-cı il



Qullar və quldarlar ilk antaqonist siniflər idi. Quldarlığın yaranmasının şərti məhsuldar qüvvələrin elə səviyyəsinə nail olunması idi ki, burada izafi məhsulun əldə olunması və onun əvvəlcə əyanlar, zadəganlar, sərkərdələr, kahinlər, xadimlər tərəfindən mənimsənilməsi mümkün olsun.

Quldarlığın ilkin forması və başlanğıc mərhələsi ibtidai icma quruluşunun dağılması nəticəsində yaranan ev, patriarxal quldarlıq idi.

Quldarlığın daha inkişaf etmiş mərhələsi Qədim Şərqin ilk dövlətlərində (Misir, Urartu, Çin) mövcud olmuşdur (e.ə. IV minillikdən eramıza qədər).

Bu quruluşun ən inkişaf etmiş forması optik quldarlıq sayılır

ki, bu da Qədim Yunanıstanda və Qədim Romada mövcud olmuşdur.

Quldarlığın inkişafında son mərhələ böyük coğrafi kəşflərdən sonra (XV əsrin sonu XVI əsrin əvvəli) kapitalizm dövründə başladı. Avropa dövlətlərinin (İspaniya, Hollandiya, Fransa, İngiltərə) Vest-Hind və Amerika materikində olan müstəmləkələrində plantasiya təsərrüfatının inkişafı üstünlük təşkil edirdi ki, burada da qul əməyi tətbiq edilirdi. Plantasiya quldarlığı sosial-iqtisadi uklad idi ki, burada, qul əməyi izafi dəyər hərisliyi üçün istifadə olunurdu. Afrikadan Amerikaya gətirilən zənci qulların istismar formaları vəhşi xarakteri daşıyırdı. Plantasiyalarda qullar 7-8 ildən artıq dözə bilmirdilər. Plantasiya quldarlığı ən çox ABŞ-ın cənubunda inkişaf etmişdi. 1861-1865-ci illər Vətəndaş Müharibəsi nəticəsində ABŞ-da quldarlıq ləğv olundu. Qulların müqavimətinin güclənməsi, onların aşağı əmək məhsuldarlığı və quldarlığa qarşı geniş ictimai hərəkatının artması Avropa dövlətlərini XIX əsrdə quldarlığı öz müstəmləkələrində rəsmi olaraq ləğv etməyə məcbur etdi. Lakin faktiki olaraq quldarlıq bütün müstəmləkəçilik sisteminin süqutuna qədər mövcud idi. Asiyanın, Afrikanın və Okeaniyanın bir sıra xalqlarında quldarlığın sadə formaları XX əsrin ortalarına qədər saxlanılırdı.

1948-ci ildə BMT "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"sini qəbul etdi ki, bu da quldarlığın və bütün hallarda qul ticarətinin qadağan olunmasını elan etdi.

QULİYEV ELDAR ALLAHYAR OĞLU (1951) – Azərbaycan iqtisadçısı, iqtisad üzrə fəlsəfə dok-toru.



1974-cü ildə D.Bünyad-zadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1973-1974-cü illərdə "Sentrosoyuz"un Əməyin Elmi Təş- kili İnstitu-tunun Azərbaycan filia- lında iqtisadçı, Birinci Bakı Sənaye Ticarət İdarəsində əmtəəşünas, 1975-1990-cı illərdə əmtəəşünas, müəssisə direktoru, "Azərittifaq"ın Bakı şəhər kooperativ ticarəti idarəsinin direktoru, Bakı Şəhər İstehlak Cəmiyyəti idarə heyətinin sədri vəzifələrində çalışmışdır. 1990-cı ildən "Azərittifaq"ın İdarə Heyətinin sədr müavini, 1993-cü ildən "Azərittifaq"ın İdarə Heyətinin sədridir.

II, III və IV çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədr müavinidir.

2008-ci ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının fəxri profes - soru, 2009-cu ildə Almaniyanın Avropa Təbiət Elmləri Akade - miyasının həqiqi üzvü, 2010-cu ildə İtaliya Beynəlxalq İqtisadi və Sosial Elmlər Akademiya - sının həqiqi üzvü seçilmişdir.

2010-cu ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elm - lər Akademiyası tərəfindən Atatürk Beynəlxalq Mükafatı ilə təltif olunmuşdur. 2011-ci ildən Azərbaycan Kooperasiya Universitetinin rektorudur. "Şöhrət" ordeni ilə təltif edilmişdir

QULİYEV FƏXRƏDDİN ƏBDÜLRƏHİM OĞLU (1938) – Azərbaycan iqtisadçısı, i.e.d. prof. 1967-ci ildə Moskvada "Yüksək gərginlikli elektrik xətlərinin etibarlılığı" mövzusunda namizədlik, 1990-cı ildə isə "İşçi kollektivlərinin işləmə effektivliyinin modelləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 100-dən artıq elmi məqalənin və 5 monoqrafiyanın müəllifidir.



Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin "İstehsal vasitələrinin marketinqi" kafedrasının professorudur.

QULİYEV RAQİB İSMAYIL OĞLU (1949) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1973-cü ildə namizədlik, 1987-ci ildə dok- torluq dissertasiyası- nı mü- dafiə etmişdir.



Siyasi iqtisadın metodoloji problemləri, iqtisadi nəzəriyyə, iqtisadi inkişafın mərhələli təhlili, çoxukladlılıq, keçid iqtisadiyyatında iqtisadi siyasət məsələləri üzrə əsərlərin müəllifidir. "İqtisadi rekonstruksiya dərketmə müstəvisində", "Böyük transformasiya: Azərbaycan təşəbbüsləri", "Postso-

sialist iqtisadi transformasiyası: Azərbaycanda dəyərləndirmələr", "Azərbaycanda iqtisad elmi: ixtilaflı transformasiya", "Kiçik və orta sahibkarlığın səmərəli inkişaf siyasəti: yaxşı təcrübə və yeni şərait" monoqrafiyalarını yazmışdır.

O, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun rektoru (1986-1989), Ali Attestasiya Komissiyasının məsul katibi (1990-1991), Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsinin sədri (1992-2001) olmuşdur.

Hazırda Azərbaycan Texniki Universitetində kafedra müdiri vəzifəsində çalışır.

QULİYEV RÖVŞƏN RASİM OĞLU (1957) – Azərbaycan iqtisadçısı, i.e.d. 1983-cü ildə SSRİ EA Hesablama Mərkəzində "İrriqasiya-energetika yönlü su təsərrüfatı komplekslərinin modelləri sisteminin tədqiqinin riyazi üsulları" mövzusunda namizədlik, 2003-cü ildə isə "MDB-də aqrar inteqrasiya problemləri (Azərbaycan və Rusiya timsalında)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 60-dan çox elmi məqalənin, 3 monoqrafiyanın, iqtisadiyyat üzrə dərslik və dərs vəsaitlərinin müəllifidir. Tədqiqatlarında əsasən ekonometriya, iqtisadi-riyazi modelləşdirmə, həmçinin təhsil problemlərinə diqqət yetirir.



1973-1978-ci illərdə ADU-da tələbə, 1978-1983-cü illərdə SSRİ EA Hesablama Mərkəzində aspirant, 1983-2006-cı illərdə Rusiya Kənd Təsərrüfatı Elmlər Akademiyasında laboratoriya müdiri olmuşdur. 2006-cı ildən Azərbaycan Universitetinin Ümumi iqtisadiyyat kafedrasının professorudur. 2006-cı ildən etibarən BDU, Azərbaycan və Xəzər universitetlərində ekonomiks, ekonometriya, iqtisadi-riyazi modelləşdirmə fənlərindən mühazirələr oxuyur.

QULİYEV RÜFƏT ATAKİŞİ OĞLU (1963) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1986-cı ildə T.Şevçenko adına Kiyev Dövlət Universitetinin iqti- sadiyyat fakültəsini bitirmişdir.



1995-ci ildə iqtisad elmləri üzrə namizədlik, 2004-cü ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir.

200-yə yaxın elmi əsərin, o cümlədən 7 monoqrafiya və 4 dərsliyin müəllifidir. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun Himayəçilər Şurasının və Azərbaycan Türkiyə İş Adamları Birliyinin həmsədridir. Milli Məclisin deputatıdır. R.Quliyev hazırda Azərbaycan Texniki Universitetinin İqtisadi nəzəriyyə və iqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının professorudur.

Əsərləri: Инвестиционная политика: принципы и приоритеты, Рига, Балтийский Русский Институт, 2001, c.145; Инвестиционные проблемы в условиях рыночных трансформаций экономики Азербайджана, Баку, Элм, 2004, c.327; Инвестиционнная политика в Азербайджане: реалии, проблемы и перспективы, Баку, CBS Poligraphic Production, 2005, c.196; Переходная экономика Азербайджана: некоторые аспекты развития, Баку, Элм, 2007, c.240; Глобализация мировой экономики и Азербайджан, CBS Poligraphic Production, Баку, 2011, c.318.

QULİYEV TOFİQ ƏVƏZ OĞLU (1935) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d. prof. Əməkdar elm xadimi, "Şöhrət" ordeninə layiq görülmüşdür.



1963-cü ildə Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunda namizədlik, 1968-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1970-ci ildən professor- dur. Azərbaycanda və keçmiş Sovetlər İttifaqında əməyin iqtisadiyyatı sahəsində tanınmış mütəxəssisdir.

T.Quliyevin elmi yaradıcılığı çoxcəhətli və geniş diapazonludur. Onun 28 dərslik, monoqrafiya və kitabçası dərc edilmişdir. 500-ə qədər qəzet və jurnal məqalələrinin müəllifidir. O, "Sosializmdə əməyin reduksiyası", "Tənzimlənən bazar iqtisadiyyatı", "İnflyasiyanın anatomiyası" monoqrafiyalarının, "Əməyin iqtisadiyyatı", "Əməyin elmi təşkili", "İdarəetmənin əsasları" dərsliklərinin müəllifidir.

Doktorluq dissertasiyasının müdafiəsindən bir il əvvəl onun Moskvanın "Mısl" kimi ən nüfuzlu nəşriyyatında "Sosializm cəmiyyətində mənafelər problemi" adlı 10 ç.v. həcmində monoqrafiyası nəşr edilmişdir. Həmin kitaba qədər Moskva, Leninqrad nəşriyyatlarında, ümumiyyətlə, keçmiş SSRİ nəşriyyatlarında bu mövzuya aid ancaq 2-3 ç.v. həcmində kitablar dərc edilmişdi. Ona görə də Moskvanın bir çox görkəmli alimləri T.Quliyevi bu problem üzrə pioner hesab edirlər. 1974-cü ildə həmin nəşriyyat onun "Sosializmdə əməyin reduksiyası" adlı monoqrafiyasını çap etmişdir. Moskvanın "Znanie" nəşriyyatı da Quliyevin rəhbərlikdə sosial-psixoloji münasibətlərə həsr edilmiş kitabçasını böyük tirajla çap etmişdir. T.Quliyevin həmçinin Moskvanın "Экономические науки", "Вопросы экономики" jurnallarında və bir sıra elmi məcmuələrdə ümumittifaq elmi-praktik konfranslarla bağlı məqalə və tezisləri dərc edilmişdir. Məhz bütün bunlara görə o, keçmiş SSRİ-də iqtisadçılar arasında ən populyar alim kimi tanınmışdı. T.Quliyevin "Tənzimlənən bazar iqtisadiyyatı" kitabı 2000-ci ildə Budapeştdə keçirilən konfransda internetə daxil edilmişdir. Onun Moskvada çap olunan monoqrafiyaları dünyanın 80 ölkəsinə, o cümlədən ABŞ, Çin, Almaniya və digər ölkələrin kitabxanalarına göndərilmişdir. Onun rəhbərliyi ilə 35 namizədlik və bir doktorluq işi müdafiə olunmuşdur. 30 ildən artıqdır ki, Azərbaycan Dövlət İqtisad Universitetində kafedra müdiri vəzifəsində çalışır.

QURBANOV AYDIN SƏMƏD OĞLU (1953-2003) – Azərbaycan iqtisadçısı.



1975-ci ildə Q.V.Plexanov adına Rusiya İqtisadiyyat Universitetini bitirib. Təhsilini bitirdikdən sonra bizneslə məşğul olmağa başlayıb. 1990-cı illərin əvvəllərində bütün postsovet məkanını bürüyən böhran zamanı o, Rusiya ərazisində yaşayan azərbaycanlılara dəstək olmağa çalışmışdır. Onun təşəbbüsü ilə Rusiyada Ümumrusiya azərbaycanlıları konqresi yaradılmışdı və o, konqresin vitse-prezidenti seçilmişdi. XX əsrin sonu XXI əsrin əvvəllərində postsovet məkanında vəziyyət sabitləşməyə, eyni zamanda Rusiya ilə Azərbaycan arasında təkcə siyasi deyil, həm də iqtisadi-mədəni sahələrdə sıx əlaqələr yaradılmağa başlandı. Konqresin fəal üzvlərindən olan A.Qurbanov vətənində olarkən burada yaşayan rusların dini həyatına xüsusi fikir vermiş və rus kilsəsini öz hesabına bərpa etmişdir. Açılış mərasimində ümummilli lider Heydər Əliyev və Rusiya diplomatik korpusunun nümayəndələri iştirak etmişdilər. Moskva və bütün Rusiyanın patriarxı İkinci Aleksi Azərbaycanda kilsənin bərpasına görə onu kilsə ordeni olan Moskva knyazı Daniil ordeni ilə mükafatlandırmışdı.

Bakıda bərpa olunan kilsənin memorial lövhəsində qeyd olunub ki, bu kilsənin tikintisi məşhur mesenat Z.Tağıyev, bərpası isə A.Qurbanov tərəfindən həyata keçirilib.

QURBANOV CAVİD QƏNBƏR OĞLU (1958) – Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü, t.f.d. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun "Tikinti və yol maşınları avadanlıqları" fakültəsini və Təfəkkür Universitetinin "Dəmir yolu tikintisi və təsərrüfatı" fakültəsini bitirmişdir. Bir sıra elmi əsərlərin müəllifidir. 1980-ci ildən "Azərdövlət" Layihə İnstitutunda xətçəkən, 1982-ci ildən "Azərnəqliyyat" Tikinti Trestinin avtobazasında növbətçi, mexanik, baş mexanik, rəis müavini, 1987-ci ildən Avtonəqliyyat kontorunun direktoru, 1992-ci ildən Avtomobil Nəqliyyatı Birliyinin baş direktoru, 1993-cü ildən "Azəravtoyol" Dövlət Şirkətinin prezidenti, "Avtoər-zaqnəqliyyat" Birliyinin baş direktoru işləmişdir. 1996-cı ildən Azərbaycan Dövlət Dəmir Yolu Bakı bölməsinin şöbə rəisi, "Azərdəmiryoltikintiservis" İstehsalat Birliyinin rəisi, 2000-ci ildən "Azərdəmiryolservis" İstehsalat Birliyinin rəisi, yol rəisinin müavini, 2003- cü ildən Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin "Yolnəqliyyatservis" departamentinin rəisi vəzifələrində çalışmışdır. Üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.



Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü kimi iqtisadi qanunvericilik bazasının təkmilləşdirilməsi işində fəal iştirak edir. Azərbaycan-Avstriya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Misir, Slovakiya, Ukrayna parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür. İnfrastruktur sahələrinin və regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar iri miqyaslı mühüm layihələrin həyata keçirilməsində bilavasitə iştirak edir. 2007-ci ildən Nəqliyyat Nazirliyinin "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin sədridir.

QURĞU – funksional-konstruktiv vəhdətdə olan konstruktiv elementlərdən və onların məcmusundan hazırlanmış məmulat, mexanizm, tikili.

QURŞAQ QİYMƏTLƏRİ – qurşaqlar üzrə diferensiallaşmış qiymətlərdir ki, bunların hər biri ayrı-ayrı məhsul növlərinin istehsal, reallaşma və istehlakın oxşar təbii-iqtisadi şərtlərinə malik olan bir neçə regionu (vilayət, diyar, respublika) ehtiva edir.

QURVİÇ LEONİD (1917-2008) – Amerika iqtisadçısı.



Moskvada yəhudi ailəsində anadan olmuşdur. 1919-cu ildə ailəliklə Varşavaya köçmüş, İkinci Dünya müharibəsi başladıqdan sonra ABŞ-a mühacirət etmişdir. 1941-ci ildə Samuelsonun asistenti işləmiş, 1951-ci ildə Minnesota Universitetinin iqtisadiyyat və riyaziyyat üzrə professoru seçilmiş, 1961-ci ildə isə statistika fakültəsinin de- kanı olmuşdur. 2007-ci ildə optimal mexanizmlər nəzəriyyəsinin hazırlanmasına görə Nobel mükafatına layiq görülmüşdür.

QÜSUR – malın (işin, xidmətin) normativ sənədlərin tələblərinə, müqavilə şərtlərinə, yaxud irəli sürülən başqa tələblərə, habelə icraçı və ya satıcının mal (iş, xidmət) haqqında verdiyi məlumata uyğunsuzluğu.




L

LAFFER ƏYRİSİ – vergi daxilolmalarının həcmi ilə fiziki və hüquqi şəxslərin gəlir vergisi dərəcələrinin aqregirləşmiş kəmiyyəti arasında asılılığın qrafik təsviri. Bu asılılığın mövcudluğunun sübut edilməsinə ilk dəfə 1974-cü ildə amerikalı iqtisadçı Artur Laffer cəhd göstərmişdir. Sübut kimi hipotetik əyri təklif olunmuşdur ki, buna uyğun olaraq büdcənin gəlirləri verginin çox yüksək olmayan dərəcələri zamanı artır. Əgər gəlir vergisinin dərəcəsi Lafferin qiymətləndirilməsinə görə 50%-ə bərabər yol verilən həddi səviyyəsindən yuxarıdırsa, bu, əhalinin və firmaların işgüzar fəallığının kəskin surətdə aşağı düşməsinə səbəb olur. İstehsal fəaliyyətinin stimullaşdırılmasının azalması nəticəsində vergiqoyma bazası, vergi daxilolmalarının həcmi aşağı düşür və iq-tisadi artım ləngiyir.

Laffer əyrisi aşağıdakı mühüm nöqtələri təsvir edir: vergi dərəcəsi sıfıra bərabərdir – büdcəyə daxilolmalar isə yoxdur; vergi dərəcəsi 100%-ə bərabərdir – büdcəyə daxilolmalar yenə də yoxdur, çünki bu halda leqal *(açıq iqtisadiyyat)* "gizli" iqtisadiyyata transformasiya olunur; vergi dərəcəsi 50% həddini keçmir – onun optimal mahiyyəti ondan ibarətdir ki, vergi daxilolmalarının maksimum kəmiyyətinə nail olunur.

"Laffer effekti"nin mahiyyəti ondan ibarətdir ki, optimal səviyyəyə qədər gəlir vergisinin dərəcəsinin azalması büdcəyə qısa müddət ərzində vergi daxilolmalarının müvəqqəti azalmasına, uzunmüddətli perspektivdə isə onların artmasına gətirib çıxarır. Bu halda əmək və sahibkarlıq fəaliyyətinə olan stimullar artır, "gizli" dövriyyə azalır və uyğun olaraq leqal iqtisadiyyat sferası genişlənir. Lafferin ideyasının praktik istifadəsi iki vəzifənin həll edilməsi zərurili-yi ilə əlaqədardır. Əvvəla, təkcə vergilərin ümumi kütləsi üçün yox, həm də onların ayrı-ayrı növləri üçün Laffer əyrisinin mövcudluğunun nəzəri cəhətdən sübut edilməsi tələb olunur.

Laffer əyrisi



Qrafik 1



Artur Betz Laffer

İkincisi, ölkənin vergiqoyma sisteminin həmin məqamda əyrinin hansı tərəfində – 50% qeydiyyatdan solda və ya sağda olmasını müəyyən etmək lazımdır. R.Reyqanın prezidentliyi dövründə ABŞ-da bu məsələdə yol verilən səhvlər üzündən vergilərin azalması (baxmayaraq ki, bu həm də işgüzar fəallığın artmasına gətirib çıxarmışdı) sosial proqramların reallaşmasını çətinləşdirmişdi.

LAJ – pul nişanlarının, vekselləri və digər qiymətli kağızların dəyərinin bazar kursunun yüksəlməsi istiqamətində kənarlaşması.

LAQ – gecikmə, qarşılıqlı surətdə bağlı olan iki iqtisadi hadisə, biri səbəb, ikincisi isə nəticə arasındakı müvəqqəti fasiləni xarakterizə edən iqtisadi göstərici. Məsələn, malların istehsal buraxılışı ilə onların kütləvi satışı arasında, tikintiyə kapital qoyuluşu ilə tikinti obyektinin işə salınması arasında zaman fərqi mövcuddur. İqtisadi-riyazi modellərdə istifadə edilən laq iki müxtəlif hissələr olan hadisə-səbəb və hadisə-nəticə arasında müxtəlif müddətin olmasını bildirir. Misal üçün, nəzərə alınır ki, mal-buraxılışından sonra o, satışa hissələrlə, müxtəlif vaxt fasilələri (laq) ilə daxil olur.

Laq dəyişəni – dəyişənin baxılan iqtisadi prosesə təsiri t zamanı anında ani olaraq baş vermir, müəyyən aralıq zaman müddətinə uzanır.

Ekonometrika modellərində laq istehsala investisiyalar ilə alınan səmərə arasında hesablanır.

LANQE OSKAR (1904-1965) – Polşa iqtisadçısı. Polşanın Tomaşov şəhərində anadan olmuşdur.



1927-ci ildən Krakov Universitetində magistr, daha sonra isə doktor dərəcəsini almışdır. 1931-ci ildə həmin universitetdə mühaziräçi vəzifəsinə təyin olmuşdur. 1935-ci ildə Avropanı tərk edərək, Miçiqan Universitetinə müəllim vəzifəsinə təyin olunmuşdur. 1939-1945-ci illərdə Çikaqo Universitetinin müəllimi olmuşdur. 1945-ci ildə Polşaya qayıtmış və 1957-1962-ci illərdə Polşa hökumətinin İqtisadiyyat Şurasına rəhbərlik etmişdir. Onun əsas əsəri "Sosializmin iqtisadi nəzəriyyəsi haqqında" (1938) kitabıdır. Burada o, sosializmin bazar, plan-bazar və komanda növlərini konsepsiya formasında açıqlayıb. Burada qiymətlərin tarazlaşdırılması və son həddə istehsal xərcləri hesabına gəlirin maksimallaşdırılması modelinə əməl edilir. İqtisadi planlaşdırma orqanları isə tələb və təklif arasındakı balansın qorunması ilə məşğul olurlar. Nəticədə kapitalizmə xas olan işsizliyin inhisarı və sosial bərabərsizliyi aradan qaldırmaqla mükəmməl rəqabətli iqtisadiyyatda səmərəli nəticələr əldə olunur. O, istehsal proporsiyalarının tənzimlənməsinin üç modelini nəzərdən keçirib. Birinci model bazar sosializmidir - istehlakçıların və qiymətlərin sərbəstliyi nöqteyi-nəzərindən öyrənilir. İkinci model plan-bazar sosializmi adlanır. Burada qiymətlər bazar tərəfindən deyil, plan orqanı tərəfindən müəyyən edilirdi. Komanda sosializmi adlanan üçüncü model - də isə hər şey plan orqanı tərəfindən müəyyən olunurdu.

LASPEYRAS İNDEKSİ – həyat səviyyəsinin dəyərini ölçmək üçün nəzərdə tutulan və ən çox istifadə olunan qiymət səviyyəsi göstəricisi (alman iqtisadçısı E.Laspeyrasın adından götürülmüşdür). Əhalinin əldə etdiyi əmtəələrin təsbit olunmuş dəsti ("istehlak səbəti") əsasında hesablanır. Zaman və məkan kəsiyində qiymət səviyyəsinin nisbi dəyişməsini nümayiş etdirir. Hesablama üçün baza dövrünün alqısı həcmindən istifadə olunur. Əmtəələrin qiymətləri müxtəlif kəmiyyətlər üçün artırılan zaman Laspeyras indeksi həyat səviyyəsinin dəyərinin artımını daha düzgün əks etdirir. Çünki bu hesablama metodikasında bahalı malların ucuz mallarla əvəz edilməsi imkanı nəzərə alınmır. Əgər hətta "istehlak səbəti"nə daxil olan malların faktiki istehlakı minimum səviyyəyə qədər azalarsa, bu malların qiymətlərinin artması həmişə Laspeyras indeksinin artmasını doğurur.

Laspeyras indeksi ənənəvi ola - raq ABŞ-ın dövlət statistikası tərəfindən həyat səviyyəsinin dəyərinin dəyişilməsini müəyyən etmək üçün istifadə olunur.

LASPEYRES QİYMƏTLƏR İNDEKSİ – müəyyən mal yığımı qiymətləri əsasında hesablanan qiymət səviyyəsi göstəricisi.

LAUNHARDT KARL FPİDRİX VİLHELM (1832-1918) – riyazi iqtisadiyyatın banisi. Rifah halının xalis nəzəriyyəsinin



ilk müəlliflərindən biri olan Launhardt alman klassik iqtisadi nəzəriyyəsinin ənənələrinə sadiq iqtisadçılardan biri idi. Bu istiqamət ona görə klassik adlanırdı ki, o, ruhən hökmranlıq edən alman tarixi məktəbindən çox ingilis məktəbinin klassik siyasi iqtisadına yaxın idi. Launxardt həyatının fəal hissəsini Hanover şəhərində dəmir və avtomobil yollarının və körpülərin inşası üzrə ali texniki məktəbində professor və onun direktoru vəzifəsində çalışmışdır. Onun "*magnum-opus*"u (əsas əsər) hələ də ingilis dilinə tərcümə olunmayan "Siyasi iqtisadın riyazi əsasları" kitabıdır. Bu kitab 1885-ci ildə Cevonsun, Bem-Baverkin, Marşallın, Valrasın və Mengerin əsərlərinin nəşrindən sonra işıq üzü görmüşdür. Launhardt bu kitabı Kurnonun şah əsəri olan "Rifah halının riyazi prinsipləri"ndən (1838) heç bir xəbəri olmadan yazmışdır. Müəllif əsas diqqətini Valrasın və Cevonsun kapital nemətlərini və əmək təkliflərini əks etdirən işlərinin öyrənilməsinə yönəltmişdir.

Onun riyazi iqtisadiyyat üzrə kitabı bir çox maraqlı ideyalarla doludur və bunların bir çoxu, daha detallı şəkildə hələ 1872-ci ildə dəmir yolları haqqındakı kitablarında, həmçinin 1882-ci ildə bir alman texniki jurnalındakı məqaləsində əksini tapmışdır. Bu iki əsərdə o, "satış bazarları zonaları" qanununu tətbiq etmişdir (müəyyən şəraitdə rəqabət aparan firmalar arasında satış sərhədləri hiperbolik formanı alırlar) və həmçinin klassik yerləşdirmə nəzəriyyəsindəki məşhur "Üç nöqtə problemi"nin (istifadə etdiyi xammal iki fərqli, satış bazarı isə üçüncü yerdə yerləşən sənaye müəssisəsinin optimal yerləşdirilməsinin) yeni həll üsullarını təklif etmişdir. Marşall öz "prinsiplərində" satış bazarlarının zonaları qanununun müəllifinin səhvən Tünen olduğunu yazmışdır. 1924-cü ildə qanun Launhardtdan xəbəri olmayan Fetter tərəfindən yenidən kəşf olunmuşdur. Analoji olaraq, Alfred Veber öz möhtəşəm "İstehsalın yerləşdirilməsi nəzəriyyəsi"ni (1909) nəşr etdikdə üç nöqtə məsələsinin "yeni" həllini ona daxil edəndə əmin idi ki, bu sahədə birincidir. Praktik olaraq, 1930-cu illərə qədər istehsalın yerləşdirilməsi haqqında işlərin müəllifləri Launhardtın adını bilmədikləri üçün çox şey itirmişdilər və əgər onun işi məşhur olsaydı, "istehsal müəssisələrinin optimal yerləşdirilməsinin təhlilində tələb və təklif tərəflərini birləşdirməyə həsr edilmiş əsərin dörddə birinə qənaət etmiş olardılar" desək, yanılmarıq.

LAYİHƏ, MÜHƏNDİS VƏ DİGƏR İŞLƏRİN İSTEHSALI ZAMANI MƏSULİYYƏT SIĞORTASI – şose yollarının, kanalizasiya, su kəməri və qızdırıcı sistemlərin layihəçiləri və inşaatçıları, tikinti körpülərinin layihəçiləri, sərnişin liftlərinin və ekskalatorların istismarına görə cavabdeh olan firmalar və şəxslər, sənaye obyektlərinin və yaşayış evlərinin və s. layihəçiləri və inşaatçıları bu sığorta növünün sığortalısı hesab olunurlar.

LAYİHƏNİN HƏSSASLIĞININ TƏHLİLİ *(sensitivity analysis)* – investisiyaların planlaşdırılmasında layihənin əsas dəyişən amilləri nəzərdə tutulduğu kimi olmadıqda, onun əvvəlki kimi faydalı olub-olmayacağını yoxlayır.

LAZIM OLDUĞU QƏDƏR EMAL MEYARI – bu meyara müvafiq olaraq, istehsalında iki və ya artıq ölkə iştirak edən əmtəə, son emala məruz qaldığı ölkənin həmin əmtəəyə onun xarakterik xassələrini lazımınca vermişsə, o ölkənin istehsalı hesab olunur.

LENDİNQ (ing. *Landinq charges*) – təyin olunmuş limana gəlmiş gəmidən yüklərin boşaldılmasına görə ödəmələr.

LEND-LİZ (ing. *lend* – kredit vermək, *lease* – icarəyə vermək) – ABŞ-ın II Dünya müharibəsində müttəfiqlərinə kredit-icarə şərtləri əsasında hərbi və mülki texnika, müvafiq texnologiyalar və digər resurslar göndərilməsini əhatə edən dövlət proqramı. Bu proqramın konsepsiyası ABŞ prezidentinə öz ölkəsinin maraqları baxımından müdafiəsi vacib sayılan ixtiyari ölkəyə yardım etmək səlahiyyəti verirdi. 11 mart 1941-ci ildə ABŞ Konqresi tərəfindən qəbul edilmiş Lend-liz qanununa (tam adı "Birləşmiş Ştatların müdafiəsini təmin edən qanun") əsasən faşizm ilə mübarizə aparan SSRİ, Böyük Britaniya, sonradan Fransa və Çinə verilmiş mallardan (maşınlar, müxtəlif hərbi texnika, silah, xammal və s.)

Cədvəl 1

Yükdaşımalarının həcmi

Alan ölkə	1941-1945-ci illərin qiymətləri ilə yardımın həcmi, mlrd. dollar	2008-ci ilin qiymətləri ilə yardımın həcmi, mlrd. dollar
Böyük Britaniya	31,4	~382
SSRİ	11,3	~138
Fransa	3,2	~40
Çin	1,6	~20

Cədvəl 2

Əsas marşrutlar üzrə daşınan yüklərin həcmləri

Yük daşıma marşrutları	Tonnaj, min t	Yekundan %-lə
Sakit Okean	8244	47,1
Transiran	4160	23,8
Arktik	3964	22,6
Qara dəniz	681	3,9
Sovet Arktikası	452	2,6
Yekun	17501	100,0

müharibə zamanı məhv edilmiş, işlədilmişləri üzrə ödəmənin həyata keçirilməməsi nəzərdə tutulurdu. Müharibədən sonra mülki məqsədlər üçün yararlı olan əmlak üzrə isə ödəmələr ya tam, ya da ABŞ-ın verəcəyi uzunmüddətli faizsiz kreditlər əsasında həyata keçiriləcəkdi. Lend-liz üzrə həmin ölkələrə cəmi 50,1 mlrd. dollarlıq (2008-ci ilin ekvivalenti ilə 610 mlrd. dollar) mal verilmişdi (bax: cədvəl 1).

1941-ci il ərzində ABŞ Böyük Britaniyaya hərbi yardım etmiş - di, SSRİ isə lend-lizə 1 oktyabr 1941-ci ildə qoşulmuşdu.

ABŞ-dan SSRİ-yə yükdaşımalarını aşağıdakı mərhələlərə ayırmaq olar:

- "pre-lend-liz" – 22 iyun 1941 – 30 sentyabr 1941 (qızılla ödənilib)
- 1 oktyabr 1941 – 30 iyun 1942 (birinci protokol 1 oktyabr 1941-ci ildə imzalanıb)
- 1 iyul 1942 – 30 iyun 1943 (ikinci protokol 6 oktyabr 1942-ci ildə imzalanıb)
- 1 iyul 1943 – 30 iyun 1944 (üçüncü protokol 19 oktyabr 1943-cü ildə imzalanıb)
- 1 iyul 1944 – formal olaraq 12 may 1945-ci ildə (dördüncü protokol 17 aprel 1944-cü ildə imzalanıb) bitib. Lakin mü - qavilə öz fəaliyyətini SSRİ-nin Yaponiya üzərindəki qələbəsin - dən sonra (Yaponiya 2 sentyabr 1945-ci ildə kapitulyasiya etdi. 20 sentyabr 1945-ci ildə isə ABŞ-ın SSRİ-yə maldaşımaları dayandırıldı) dayandırdı (bax: cədvəl 2).

Sakit Okean, transiran və arktik – bu üç marşrut birlikdə ümumi yükdaşımalarının 93,5%-ni verirdi.

ABŞ-ın şərq sahillərindən Murmanskadək dəniz yolu ilə yük daşıma 2 həftə çəkirdi. 1941-ci ilin iyul-dekabr aylarında bu yolla yüklərin 40%-i daşınmış və onların 15%-i alman ordusunun (Lüftvaffe və Kriqsmarinenin) fəaliyyəti nəticəsində batırılmışdı.

Transiran marşrutu üzrə SSRİ-yə ilk yük daşımalarına 1941-ci ilin noyabrında başlanmış və onda 2972 ton yük daşınmışdı. 1942-ci ilin mayından yükda-



ABŞ prezidenti Fanklin D.Ruzvelt "Lend-liz" haqqında qanunu imzalayır

şımalar orta hesabla ayda 80-90 min ton, 1942-cü ilin ikinci yarısından isə 200 min ton təşkil edirdi. Sonra yüklər 1942-ci ilin sonunadək Xəzər dənizi vasitəsilə həyata keçirilirdi. Lend-liz üçün İranda Ceneral Motorsun idarə etdiyi avtomobil zavodları tikilmişdi. Müharibə illərində İran müəssisələrindən SSRİ-yə 184112 avtomobil göndərilmişdi. Avtomobillər aşağıdakı marşrutlar üzrə hərəkət edirdi: Tehran-Astara-Bakı, Culfa-Orconikidze, Tehran-Aşxabad. Trans - iran marşrutu vasitəsilə göndərilən yüklər əsasən Bakıdan cəbhəyə çatdırılırdı. Göndərilən yüklərin 4,2 mln. tonu və ya 23,8%-i son məntəqəyə məhz bu marşrut vasitəsilə çatdırılmışdı. Bu fakt Azərbaycandan keçən Şimal-Cənub nəqliyyat dəhlizinin müstəsna əhəmiyyətini, Xəzər hərbi gəmiçiliyi və Azərbaycan Dəmir Yolu İdarələrinin işçilərinin, bu idarələrin yükvurma-yükboşaltma xidmətlərinin müharibə illərində gərgin əməyini təsdiq edir. Beləliklə, Bakının qələbəyə töhfəsi təkcə cəbhədəki hərbi texnika üçün zəruri olan yanacağın çox böyük hissəsini göndərməsindən ibarət olmamışdır. Bakı həm də hərbi texnika göndərilən nəqliyyat dəhlizinin ən mühüm strateji məntəqələrindən biri olmuşdur. Təkcə onu göstərmək kifayətdir ki, Zaqafqaziya dəmir yolu xətti ilə daşınan cəmi yüklərin 80%-dən çoxu Azərbaycanın payına düşürdü.

Müasir baxımdan yanaşsaq, qiyməti 100 milyard ABŞ dollarına bərabər olan hərbi və mülki təyinatlı malların göndərilməsini həyata keçirməyə imkan vermiş bu möhtəşəm maliyyə əməliyyatı Azərbaycanda arxa cəbhədə çalışan 600 min insanın ön cəbhə üçün sərbəstləşməsinə kömək etmişdir. 1941-1945-ci illərdə bu proqram əsasında SSRİ-yə 22195 təyyarə, 11792 tank, 491 hərbi gəmi, o cümlədən 105 sualtı qayıq, 477785 avtomobil, 17 istilik-elektrik stansiyası, 23 su-elektrik stansiyası, 1864 radiolokator, 1341 radiostansiya, 44600 metalkəsən dəzgah, 622,1 ton dəmir yol relsi göndərilmişdir. Hər ay 62 min mil telefon kabeli və başqa mallar gətirilirdi. Malgöndərmələrin ümumi həcmi həmin



İran vasitəsilə ABŞ istehsalı olan Studebekkerlərin Sovet İttifaqına göndərilməsi



"Katyuşa" BM-13

illərdə SSRI-nin bütün sənaye istehsalının 7-11%-i qədər olmuşdur. SSRİ isə Lend-liz müqabilində valyuta ehtiyatları və geriyə Lend-liz (qızıl, xəz-dəri, balıq kürüsü və s.) yolu ilə hesablaşırdı.

Müharibədən sonra ABŞ lend-liz almış ölkələrə yararlı texnikanı geri qaytarmaları və yeni kredit əldə etmək üçün borclarını ödəmələri barədə tələblə çıxış etdi. Lend-liz haqqında qanunda istifadə olunmuş hərbi texnika və materialların silinməsi nəzərdə tutulduğundan ABŞ təkcə mülki yükdaşımalarının (2 sentyabr 1945-ci il tarixinə olan dəmir yolu nəqliyyatı, elektrostansiyalar, gəmilər, yük maşınları və digər avadanlıqlar) ödənilməsini tələb edirdi. Müharibə zamanı məhv edilmiş hərbi texnikanın dəyərinin ödənilməsini isə bu ölkə tələb etmirdi.

SSRİ-yə Lend-liz üzrə yükdaşımalarının həcmi 11 mlrd. dollar təşkil etmişdi. Müharibədən sonra yararlı texnikanın dəyərini müəyyənləşdirmək üçün so-



"General Qrant" M3



Parovoz Ea

vet-Amerika danışıqlarına başlanıldı. 1948-ci ildə sovet tərəfi borcun kiçik bir hissəsini ödəmək iqtidarında olduğunu bildirdi, lakin ABŞ bununla razılaşmadı. 1949-cu ildəki danışıqlar da heç bir nəticə vermədi. 1951-ci ildə ABŞ ödəniləcək məbləği iki dəfə aşağı saldı və bu məbləğ 800 mln. dollar müəyyən edildi. Lakin sovet tərəfi 300 mln. dolları ödəyəcəyini bildirdi. 1972-ci ildə SSRİ ilə ABŞ arasında Lend-liz borcu üzrə razılığa gəlindi. Həmin razılaşmaya əsasən SSRİ

2001-ci ilədək 722 mln. dollar və faizləri ödəməyi öhdəsinə götürdü. 1973-cü ildə 48 mln. dollar həcmində ödəniş həyata keçirildi. Bundan sonra ABŞ tərəfinin SSRİ ilə ticarətdə diskriminasiya tətbiq etməsi nəticəsində (Cekson-Venik düzəlişi) ödənişlər dayandırıldı. 1990-cı ilin iyununda ABŞ və SSRİ yenidən borcun ödənilməsi barədə danışıqlara başladı. Borcun məbləği 674 mln. dollar, ödənilməsinin sonuncu müddəti isə 2030-cu il kimi müəyyən edildi. SSRİ-nin süqutundan sonra borcun ödənilməsi üzrə varis Rusiya sayıldı. Beləliklə, Lend-liz müqaviləsi üzrə edilmiş 11 mlrd. dollarlıq yardımdan SSRİ və sonra da Rusiya tərəfindən 722 mln. dollar ödənilmişdir.

Lend-lizin təqdim edilməsi ABŞ-ın strateji maraqlarına da uyğun idi. Bununla əlaqədar, "Nyu-York taymss" qəzeti yazırdı: "Almaniya Sovetlər ölkəsinə qalib gəlsəydi, bu, ABŞ üçün çox böyük fəlakət olardı. Bu, Böyük Britaniyanın blokadaya alınması, düşmənin özünü uzun illər boyu neft və ərzaqla təmin etməsi, Rusiyada vassal rejimi yaradılması, Hindistanın və Yaxın Şərqin neft regionunun ələ keçirilməsi demək olardı. Bu halda, Almaniya Çini işğal etmək üçün Yaponiya ilə ittifaq bağlayar və ABŞ üçün hər iki okeandan təhlükə yaranardı". F.Ruzveltin, xarici siyasətinin əleyhdarlarına qarşı diplomatik gediş xarakterli məşhur bəyanatı da maraqlıdır. O demişdi: "Vergi ödəyicilərinin həyatlarını qurban verməkdənsə, həmin vergi ödəyicilərinin dollarını xərcləmək qat-qat yaxşıdır".

Lakin onu da qeyd etmək lazımdır ki, Lend-liz müharibə illərində SSRİ-nin qüdrətini artırmağa kömək etməkdən əlavə, həm də elmtutumlu texnologiyaların idxalına, müharibədən sonrakı dövrdə bütövlükdə istehsalın, o cümlədən hərbi istehsalın artmasına kömək etmişdir.

Aparılan araşdırmalar, arxiv materialları sübut edir ki, faşizm üzərində qələbəyə dəstək olan Lend-liz proqramının həyata keçirilməsində strateji mövqedə yerləşən Azərbaycan, neft Bakısı əhəmiyyətli rol oynamışdır.

Elşad Səmədzadə

LENDRAM-QRİFFİN QANUNU (hesabatlar və əmək münasibətlərində faktların açılması haqqında akt) – 1959-cu il sentyabrın 14-də ABŞ-da yerli inhisarçı dairələrin tələbi ilə həmkarlar ittifaqlarına nəzarət edilməsi və onların zəiflədilməsi üçün qəbul olunmuşdur. Qanun dövlətin həmkarlar ittifaqlarının işinə müdaxiləsini möhkəmləndirir (yəni, üzvlük haqlarının ödənişi, seçkilərin aparılma qaydasını, intizam cəzalarının çıxarılması və s.-ni müəyyən edir). Həmçinin o, həmkarlar ittifaqlarını bütün vəzifəli şəxslər, onların bilavasitə gəlirləri, nizamnamələr, maliyyə işləri və bir çox digər məlumatlar haqqında zəruri hesabatları təqdim etməyə məsul edir. Əmək naziri nizamnamənin və ya seçki prosedurasının pozulma faktı olduğu təqdirdə həmkarlar ittifaqlarının fəaliyyəti üzrə istintaq aparmaq hüququna malikdir.

Lendram-Qriffin qanunu zəhmətkeşlərin iqtisadi maraqlarının müdafiəsi üzrə həmkarlar ittifaqlarının fəaliyyətini kəskin məhdudlaşdırmışdır. Həmkarlar ittifaqlarının tanınması üzrə bəzi piketləri keçirmək qadağan olunur, əgər onun dövlət qeydiyyatı yoxdursa; təkrar boykot tam qadağa altındadır, halbuki bu, həmrəylik təcəssümüdür və sahibkarlara böyük təsir göstərir. Bütün bu müddəalar sahibkarların imkanlarının genişləndirilməsi, tətillərin qarşısının alınması, həmkarlar ittifaqlarının sayının və onlara nəzarətin azaldılması üçün yaradılıb. Kollektiv müqavilələr də şübhə doğurur. Bu qanunun istənilən müddəalarının pozulmasına görə 10 min dollar həcmində cərimə və ya 1 ilə qədər həbs cəzası nəzərdə tutulur.


LENİN (ULYANOV) VLADİMİR İLİÇ (1870-1924) – iqtisadçı, sosioloq, siyasətçi, peşəkar inqilabçı, təşkilatçı və Sovet dövlətinin ilk rəhbəri (1917-1924). 1903-cü ildə Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının yaradıcısı. Simbirsk şəhərində anadan olmuşdur. Onun qurduğu Sovet dövləti 70 ildən çox yaşadı, bu dövrdə dünyada güc balansını əhəmiyyətli dərəcədə dəyişdirdi... 1905-1907-ci illər inqilabından sonra Lenin aqrar məsələlərə xüsusi fikir verməyə



başlamışdır. Belə ki, "Fəhlə partiyasının aqrar proqramına yenidən baxması" (1906), "1905-1907-ci illər birinci rus inqilabı zamanı sosial-demokratiyanın aqrar proqramı", "XIX əsrin sonlarında Rusiyada aqrar məsələ" (1908) və s. əsərlərini çap etdirmişdir. Burada o, kapitalizmdə kənd təsərrüfatının 2 yolla – mülkədar *(Prussiya)* və fermer *(Amerika)* yolu ilə inkişafını göstərmişdir. I Dünya müharibəsi dövründə Lenin "Müharibə və rus sosial-demokratiyası" (1914), "II İnternasionalın məhvi" (1915), "Sosializm və müharibə" (1915) və "İmperializm kapitalizmin son mərhələsidir" (1916) əsərləri üzərində işləmişdir. Sovet dövlətinin rəhbəri kimi 1921-ci ildə hərbi kommunizmdən yeni iqtisadi siyasətə keçidi təklif etmişdi.

LEONTYEV PARADOKSU – Xekşer-Olin modelinə və ABŞ-ın xarici ticarətinin təhlilinə istehsalın iki amili – kapital və əmək üzrə "məsrəflər-buraxılış" metodunun 1954-cü ildə tətbiq edilməsi əsasında Leontyevin gəldiyi qənaət ondan ibarətdir ki, qeyd olunan model gerçəkliyi əks etdirmir və əslində müharibədən sonrakı dövrdə Amerika ixracı idxalla müqayisədə daha çox əməktutumlu və daha az kapitaltutumlu idi. Leontyev paradoksu göstərdi ki, Xekşer-Olin modeli üzrə təshih edilmiş iqtisadi təhlil ikimilli yox, çoxmilli növə malikdir. Bu nəticəni daha sonrakı tədqiqatlar təsdiq etdi.

LEONTYEV VASİLİ VASİLYEVİÇ (1905-1999) – amerikalı iqtisadçı, "məsrəflər-



buraxılış metodunun inkişafına və onun mühüm iqtisadi problemlərə tətbiqinə görə" iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülmüşdür (1973). Leninqrad *(indiki Sankt-Peterburq)* Universitetini bitirmişdir. Təhsilini Berlin Universitetinin aspiranturasında davam etdirmiş, eyni zamanda Kil Universitetinin nəzdindəki Dünya Təsərrüfatı İnstitutunda işləmişdir. 1928-1929-cu illərdə Nankin şəhərində Çin hökumətinin iqtisadi müşaviri olmuşdur. Almaniyaya qayıtdıqdan sonra Dünya Təsərrüfatı İnstitutunda tədqiqatçı iqtisadçı, 1931-ci ildən – Milli İqtisadi Tədqiqatlar Bürosunun *(ABŞ)* əməkdaşı, Harvard Universitetinin müəllimi (1932-ci ildən), professoru, Henri Li adına siyasi iqtisad kafedrasının müdiri (1953-1975) işləmişdir. Harvard iqtisadi tədqiqatlar layihəsinin rəhbəri (1946-1973) olmuşdur. Bu layihə "məsrəflər-buraxılış" metodu üzrə təhlil sahəsində tədqiqatların mərkəzinə çevrilmişdir. Nyu-York Universitetinin nəzdində İqtisadi Təhlil İnstitutunun direktoru vəzifəsində çalışmışdır (1975-1986). Onlarca müxtəlif mükafatlara, təltiflərə, o cümlədən Piza Universitetinin "Xeruvima" *(İtaliya)*, "Parlaq Günəş" *(Yaponiya)* və Fransanın "Fəxri legion", həmçinin incəsənət və ədəbiyyat ordenlərinə layiq görülmüşdür; 10-dan artıq universitetin fəxri doktoru, Amerika Milli Elmlər Akademiyasının, Ekonometrika Cəmiyyətinin (1954-cü ildən prezidenti), Amerika İqtisadi Assosiasiyasının *(1970-ci ildən prezidenti)*, Amerika Fəlsəfə Cəmiyyətinin, Kral Statistika Cəmiyyətinin *(Böyük Britaniya)*, Yaponiya İqtisadi Tədqiqatlar Mərkəzinin, Fransa İnstitutunun, Rusiya Elmlər Akademiyasının (1988) üzvü seçilmişdir.

1920-ci illərin sonunda, 1930-cu illərin əvvəllərində tələb və təklifin elastikliyinin öyrənilməsi, sənaye təmərküzləşməsinin statistik ölçülməsi, beynəlxalq ticarətin bir sıra qanunauyğunluqlarının edilməsi üçün biganəlik əyrisinin istifadəsi üzrə bir sıra orijinal tədqiqatlar aparmışdır. Onun ilk elmi məqalələrindən biri 1923-1924-cü illərdə SSRİ-nin xalq təsərrüfatı balansının təhlilinə həsr edilmişdir (rus dilində "SSRİ xalq təsərrüfatı balansı MSİ-nin işinin metodoloji cəhətdən təhlili" adlı məqalə 1925-ci ilin 25 oktyabrında "Weltwirtschaftliches" jurnalında, 1925-ci ilin dekabrında isə "Плановое хозяйство" jurnalında dərc olunmuşdur) ki, bu məqalə o illərin iqtisadi praktikasında ictimai məhsulun istehsalının və bölgüsünün rəqəmlərlə verilməsi sahəsində ilk cəhd idi. Bu balans sonradan Leontyevin işlədiyi "məsrəf-buraxılış" metodunun nümunəsi idi *(iqtisad elmində bu, sahələrarası balansın iqtisadi riyazi modeli adlandırılır)*. ABŞ-da cari məsrəflərin əmsal sabitliyini yoxlamaq üçün Leontyev tərəfindən 1919-1929, 1929 və 1939-cu illərdə sahələrarası hesabat balansları tərtib

olundu ki, bu da iki onillik ərzində əksər əmsalların təkrarlıq və sabitlik dərəcəsinin yetərli səviyyəsini müəyyən etməyə imkan verdi. Bu tədqiqatların nəticələri "ABŞ-ın iqtisadi sistemində "məsrəflər-buraxılış" nisbətinin kəmiyyətcə təhlili" (*"Quantitative Input and Output Relations in the Economic System of the United States"*, 1936), "1919-1929-cu illər Amerika iqtisadiyyatının strukturu: tarazlıq nəzəriyyəsinin empirik tətbiqi" (*"The Structure of the American Economy, 1919-1929: An Empirical Application of Equilibrium Analysis"*, 1941) və s. məqalələrdə əks olunmuşdur.

Sonralar Leontyev "Məsrəflər-buraxılış regionlararası təhlilin təkmilləşməsi və investisiya əmsalları matrisinin tərtib edilməsi ilə məşğul oldu. Bununla da "məsrəflər-buraxılış" dinamik metodunun əsasını qoydu və bunun nəticəsində iqtisadi artımı təhlil etmək mümkün oldu. Leontyevin metodu ilə ayrı-ayrı Amerika şəhərlərinin təsərrüfatlarının şahmat balansları tərtib olunur; bu metod dünyanın əksər ölkələrinin milli hesablar sisteminin tərkib hissəsi oldu. İqtisadi planlaşdırmanın və büdcə sisteminin ən mühüm metodu kimi bir çox hökumət, beynəlxalq təşkilatlar və tədqiqat institutları tərəfindən tətbiq edilir.

LERNER ƏMSALI – 1934-cü ildə iqtisadçı A.Lerner tərəfindən təklif olunan inhisar hakimiyyəti göstəricisi. Bu əmsal, mənfəəti maksimum səviyyəyə qaldıran qiymətin son həd xərclərindən yüksək olduğunu göstərir. Aşağıdakı düsturla hesablanır:

$$L = \frac{P - MC}{P}$$

Burada: P – qiymət; MC – son həd xərcləri. L – nə qədər yüksək olarsa, öz bazar sektorunda həmin firmanın inhisar hakimiyyəti o qədər yüksəkdir.

LERNER İNDEKSİ – iqtisadi nəzəriyyədə inhisar hakimiyyətinin dərəcəsini ölçmək üçün təklif edilmişdir.

$$L=(P-MC)/P,$$

Burada: L – inhisar hakimiyyətinin dərəcəsini göstərən indeks; P – qiymət; MC – son həd xərcləri. P ilə MC arasında fərq isə nə qədər çoxdursa, inhisarçı hakimiyyətin dərəcəsi bir o qədər çoxdur. L kəmiyyəti 0 və 1 arasındadır. $P=MC$ olarkən təkmil rəqabət zamanı Lerner indeksi sıfıra bərabər olacaqdır.

LEVERİC – 1. Təsbit olunmuş gəlirlə qiymətli kağızlara (istiqrazlara, imtiyazlı səhmlərə) kapital qoyuluşunun, təsbit olunmamış gəlirlə qiymətli kağızlara (adi səhmlərə) kapital qoyuluşlarının nisbəti. 2. Əmtəə ehtiyatlarının və kapitalın cəminin nisbəti. 3. Şirkətin kapitalının borc vəsaitlərinə nisbəti.

LEYER – sığorta örtümünün həddlərinin müəyyən edilməsi üçün tətbiq olunan termin. Məsələn, 10 min dollardan 50 min dollara qədər iddialar yalnız itkinin (zərərin) ekssedenti zamanı tətbiq olunur.

"LEY-EVEY" (ing. *lay-away* – daha uzağa qoymaq) – satışın müəyyən edilmiş qiymətinin tam və ya qismən qabaqcadan ödənilməsi üzərində qurulmuş praktikası.

LƏĞVETMƏ BALANSI – müəssisə, təşkilat və firmanın hüquqi şəxs qismində fəaliyyətinin dayandırılması üzrə onun əmlak vəziyyətini əks etdirən mühasibat balansı.

LƏĞVETMƏ DİVİDENDİ – 1) bölüşdürülməmiş mənfəətin məbləğindən artıq, yəni dividendlərin bölüşdürülməsi tarixinə bölüşdürülməmiş mənfəətin müvafiq hesabda yığılmış məbləğindən artıq dividend; 2) şirkət ləğv edilən halda elan olunan və şirkətin aktivlərinin onun səhmdarları arasında bölgüsünü göstərən dividend; bu dividendi alan, adətən, onu, daxilolma kimi deyil, investisiyaların qaytarılması kimi qəbul edir.

LƏNGİDİCİ FİSKAL SİYASƏT (ləngidici büdcə-vergi siyasəti, fiskal restriksiya) – hökumət satınalmalarının kəskin şəkildə azaldılmasına və ya xalis vergilərin artırılmasına yönəlmiş, hökumət tərəfindən həyata keçirilən siyasi tədbirlər. Bu siyasət inflyasiyanı aradan qaldırmaq məqsədilə aparılır. Bundan əlavə, həmin siyasətin bir məqsədi də malların və xidmətlərin satınalmaları üçün hökumət xərclərinin azaldılması və ya xalis vergi daxilolmalarının ümumi artımı hesabına məhsula məcmu tələbi azaltmaqdır. Dövlət xərclərinin azaldılması və vergi daxilolmalarının artırılması hesabına qısamüddətli perspektivdə işsizliyin artması və istehsalın tənəzzülü bahasına tələb inflyasiyasını azaltmaq olar. Uzunmüddətli perspektivdə isə vergilərin həcminin artırılması məcmu təklifin azalmasına və xüsusən

dövlət xərcləri əmək bazarının infrastrukturuna dövlət investisiyalarının xeyrinə heç bir güzəşt nəzərdə tutulmadan büdcənin bütün maddələri üzrə mütənasib qaydada azaldıqda staqflyasiya mexanizminin geniş yayılmasına şərait yarada bilər. Staqflyasiyanın uzun müddət davam etməsi və hökumət xərclərinin səmərəsiz idarə edilməsi (keçid iqtisadiyyatı ölkələri üçün bu hal çox səciyyəvidir) iqtisadi potensialın dağılmasına təkan verə bilər. Qısamüddətli dövrdə büdcə-vergi siyasəti tədbirləri ilə yanaşı dövlət xərclərinin, vergilərin və tarazlaşdırılmış büdcənin multiplikator effektləri də tətbiq edilir.

LİBERAL (azad) **İQTİSADİYYAT** – xüsusi mülkiyyətin iqtisadiyyatda payının çox olması və üstün mövqe tutması, təsərrüfat qanunvericiliyinin dövlət tərəfindən ola biləcək təsirdən qorunması, dövlət tənzimlənməsinin məhdud xarakter daşıması və əsasən makroiqtisadi prosesləri əhatə etməsi; əhalinin bir çox zəruri yaşayış problemlərinin həllindən dövlətin təcrid edilməsi, sosial məqsədlərin həyata keçirilməsinə yönəldilən xərclərin qalıq xarakter daşıması, ümumi milli məhsulda dövlət büdcəsinin payının az olması və s. bu kimi prinsiplərlə xarakterizə olunan təsərrüfat sistemi.

LİBERAL, LİBERALLAŞMA (lat. *libiral, liberalis* – azad, *libiralizm, liberalis* – müstəqil) – latın mənşəli liberal sözünün paronimləri liberallaşma (liberalizasiya) və liberalizm birbaşa tərcümədə "azad" mənasını ifadə edir. Lakin bu istilahlar iqtisadi sferada ayrı-ayrı anlayışlarda təcəssüm olunur. Liberal azad ticarətdə meyil artımını, liberallaşma isə bazar iqtisadiyyatının bazisi olmaqla, bu prosesləri öyrənən iqtisadi nəzəriyyəni ifadə edir. Onun şəxsi mülkiyyət, azad sahibkarlıq və azad rəqabət kimi əsas prinsipləri dəyişməz olaraq qalır. İqtisadi müstəvidə liberalizasiya bazar iqtisadiyyatının alternativ ifadə variantında da işlənilir. Liberalizm isə sərt dövlət tənzimlənməsi siyasəti – "komanda iqtisadiyyatı" termininin antonimi kimi də çıxış edir. İqtisadi liberalizmin başlanğıcı XVIII əsrdə Adam Smit tərəfindən qoyulmuşdur. XX əsrin 30-cu illərində – Böyük depressiyadan sonra onun yeni istiqaməti, neoliberalizm meydana gəlmişdir. Bu isə o deməkdir ki, biznes sferasında böhrandan çıxmağın oyun qaydalarını dövlət müəyyən edir.

LİBERALİZM – iqtisadi həyata dövlətin geniş müdaxiləsinin zəruriliyini inkar edən iqtisadi siyasətin prinsiplərini və təsərrüfatın fəaliyyət göstərməsinə olan baxışların məcmusu. İqtisadi obyektlərin şəxsi təşəbbüs azadlığına zəmanət verən, ən yaxşı iqtisadi sistemi təsdiq edən doktrinadır. Liberalizm XVIII əsrdə sənaye inqilabi şəraitində yaranmış və sənaye inkişafı yolu ilə gedən dövlətlərin rəsmi sosial doktrinasına çevrilmişdi. Liberalizm üç əsas prinsipə: 1) iqtisadi həyatın hüquqi əsası kimi xüsusi mülkiyyətə; 2) iqtisadi tərəqqinin generatoru kimi azad sahibkarlığa; 3) iqtisadi münasibətlərin tənzimləyici mexanizmi kimi azad rəqabətə əsaslanır. Bununla yanaşı, liberalizmdə iqtisadiyyatın ümumi tarazlığının və iqtisadi qanunvericiliyin tənzimləyici rolu dövlətə məxsusdur (bax: sxem 1).

LİBİD – cəlb edilmiş vəsaitlərin London banklararası dərəcəsi. LİBOR dərəcəsindən aşağıdır.

LİBOR – London banklarının adətən 3-6 ay müddətinə verdiyi qısamüddətli kreditlər üzrə dərəcə. Ayrı-ayrı hallarda müddət 1 ildən 5 ilə qədər dəyişə bilər.

LİDZ-ƏND-LEQZ – borc tələblərinin alınması və borcların ödənməsi arasında əməliyyatlardan birinin tezləşməsi, digərinin isə, əksinə, yavaşıması nəticəsində beynəlxalq hesablaşmaların icra edilməsi prosesində yaranan sürətlənmə və ya ləngiməsini ifadə edir.

LİFO (*last-in-first-out*) – vaxta görə sonuncu alınmış istehsal ehtiyatlarının maya dəyərinə daxil edilməsi metodu.

LİFO METODU – ehtiyatların maya dəyərinin və pul məsrəflərinin uçotunun ehtiyat hesablar vasitəsilə kalkulyasiya metodudur. Bu zaman alınmış məhsulların sonuncu partiyasının dəyəri satılmış məhsulun birinci partiyasına aid edilir, ehtiyatların dəyəri isə, məhsulların birinci alınmış partiyasının dəyərindən irəli gələrək hesablanır; qiymətlərin qalxması və ehtiyatların artması zamanı LİFO mənfəətin ölçüsünü tutur; müəssisələrdə son daxil olmuş və ya hazırlanmış partiyanın qiyməti ilə əmtəə-material ehtiyatlarının mühasibat uçotu metodu; bankdan əmanətin vaxtından əvvəl bir hissəsinin çıxarıl-

ması zamanı faizlərin hesablanması. Bu, əmanətçiyə faiz məbləğlərində uduşu təmin edir, belə ki, bu metod zamanı nəzərdə tutulur ki, hesaba axırıncı daxil olan məbləğlər aşağı düşür, əmanətçini həvəsləndirmək üçün istifadə olunur.

LİKVİD AKTİVLƏR – 1. Operativ şəkildə reallaşdırmaq, pula çevirmək mümkün olan vəsaitlər. Ən likvid aktivlərə pul özü, qızıl, qısamüddətli dövlət qiymətli kağızları, cari bank hesablarında olan (tələb edilən qədər) vəsaitlər, səhmlər, istiqrazlar, satıla bilən veksellər və s. aiddir. 2. Yığılıb qalmış borc öhdəliklərinin ödənilməsi üçün istifadə edilə bilən vəsaitlər.

LİKVİDLİK (lat. *liquidus* – maye, axıcı, duru) – reallaşmanın, satışın, digər material qiymətlilərinin və s. aktivlərin pul vəsaitlərinə çevrilməsinin asan olması.

Bankın likvidliyi – bankın: a) öz aktivlərinin nominal dəyərini dəyişməz saxlamaqla və onların ödəmə vasitələrinə çevrilməsi yolu ilə passivlər üzrə öhdəliklərinin vaxtında və tam yerinə yetirilməsi; b) pul bazarlarında pul vəsaitlərinin əldə edilməsinin təmin edilməsi qabiliyyətidir.

Müəyyən konkret vaxt, dövr və ya perspektiv üçün likvidlik fərqləndirilir. Bankın məcmu likvidliyi üç tərkib hissəyə ayrılır: stasionar likvidlik (məqamda); cari likvidlik (dövrdə) və perspektiv likvidlik (proqnoz). Müvafiq olaraq "balansın likvidliyi" və "bütövlükdə bankın likvidliyi" anlayışları fərqləndirilir. Bu zaman balansın likvidliyi dedikdə məhz müəyyən məqamda likvidlilik başa düşülür. Balansın likvidliyi bank balansının aktiv və passiv hissələrinin balanslı olması və yerləşdirilmiş aktivlərin və müddətlərə görə bankın cəlb etdiyi aktivlərin uyğun gəlməsi ilə müəyyən olunur. Bankın likvidliyi norması bankın balans aktivlərinin müxtəlif maddələrinin passivlərin müəyyən maddələr üzrə ümumi həcminə və ya aktivlərin passivlərə nisbəti kimi müəyyən olunur. Əgər bankın öhdəliklərinin həcmi onun tələblərinin həcmindən çoxdursa, onda likvidlik çatışmazlığı mövcuddur, əgər əksinə olarsa, onda likvidlik artıqlığı mövcuddur.

Sekyuritizasiyalaşdırılmış aktivlərin likvidliyini artırmaq üçün *akkreditiv kimi mexanizmlərdən* istifadə edilir.

Bankın likvid aktivlərinə aiddir: bankın kassasında (xəzinəsində) olan nağd pul (milli valyuta və ya xarici valyuta); material qiymətliləri; ölkənin mərkəzi bankındakı müxbir hesabda olan vəsait qalığı; hökumətin qiymətli kağızları; ödəniş müddəti yaxın 30 gün ərzində mümkün olan bankın təqdim etdiyi ssudalar, bu müddət ərzində bankın xeyrinə köçürülməli olan digər tədiyyələr. Bankın adekvat likvidliyinin saxlanmasının əsas prinsipi bankın balans aktivlərinin vəsaitlərə olan tələbatın güman edilən yaranma müddəti ilə uzlaşmasıdır. Bu prinsipə riayət edilməsi bank menecmentinin tərkib hissəsi kimi idarəetmə prosesində təmin olunur. Kommersiya banklarının əsas idarəetmə metodu onların iqtisadi fəaliyyət normativlərinin işlənib hazırlanması üzrə Bazel Komitəsinin tövsiyələrinin müəyyən etdiyi normativlərdir.


Likvidliyin dinamikasına üç əsas amil təsir göstərir: a) əmanətlərin məbləğinin artması və ya azalması ilə əlaqədar vəsaitlərin əldə olunması və ya itirilməsi; b) ssudaların və investisiyaların məbləğinin artması və ya azalması ilə əlaqədar vəsaitlərin daxil olması və ya çıxarılması; c) əmanətlərin məbləğinin artımı və ya azalması nəticəsində məcburi ehtiyatların ölçüsünün artımı və ya azalması.

Aktivlərdən pul vəsaitlərinin daxilolmalarında müvəqqəti yubanmalar baş verdiyi halda, faizlərin və əsas borcun vaxtlı-vaxtında ödənilməsi üçün vəsaitlər verən şəxs ayrılır ki, bu işi görən icraçı *likvidlik verən şəxs* adlanır.


Qiymətli kağızların likvidliyi – bazar dəyərinin ən çox tərəddüd etməsi və reallaşma xərcləri zamanı qiymətli kağızları saxlayan üçün ciddi itkisiz və qiymətli kağızların sürətlə satılması və pul vəsaitlərinə çevrilməsi qabiliyyətidir. Qiymətli kağızların likvidliyi onların kütləvi istehlakı, fond bazarında qiymətli kağızlara olan tələb və təklifin çoxsaylı olması ilə yaranır. Bərabər şərtlər zamanı likvidlik səviyyəsi qiymətli kağızlarla əlaqədar riskin səviyyəsi ilə müəyyənləşir. Risk nə qədər yüksəkdirsə, likvidlik bir o qədər aşağıdır və əksinə.

Konkret qiymətli kağızın likvidliyini bütövlükdə fond bazarının likvidliyindən (məzənnə

Liberalizm və neoliberalizm



Sxem 1



Sxem 2

dəyərinin cüzi tərəddüd etməsi və aşağı reallaşma xərcləri zamanı bazarın qiymətli kağızlarının bir hissəsini udmaq qabiliyyəti) və müəssisənin, bankın, investisiya institutunun balans likvidliyindən (likvidlik dərəcəsi, cəlb edilmiş vəsaitlər üzrə öhdəliklərin yerinə yetirilməsi məqsədilə müəssisənin aktivlərinin pul vəsaitlərinə çevrilməsi hazırlığı) fərqləndirmək zəruridir.

LİKVİDLİLİK ƏMSALI – firmanın tədiyyə qabiliyyətini, onun aldığı borc vəsaitlərinin qaytarılması imkanını xarakterizə edən əmsal. Kredit idarəsinin balansının aktivindəki müxtəlif maddələrin passivindəki müəyyən maddələrin və ya əksinə, passivlərin aktivlərə nisbəti kimi müəyyən olunur; bankların likvidliyini xarakterizə edən göstəricidir. Məqam və cari likvidlik əmsallarını fərqləndirmək olar.

LİKVİDLİYİN DİVERSİFİKASİYASI – likvidliyin təmin edilməsi məqsədilə müddətlər üzrə investisiyaların bölgüsü.

LİKVİDLİYİN ÜSTÜNLÜYÜ NƏZƏRİYYƏSİ və ya pula tələbin keynsçi nəzəriyyəsi – müəllif: C.M.Keyns (1883-1946). Keyns nəzəriyyəsinə görə, faiz yığımın qiyməti deyildir. Yığım yalnız tələbat təmin edildiyi halda həyata keçirilir. Buna görə də faiz dərəcəsinin artırılması yığımların artmasını stimullaşdırmır. Faiz likvidlikdən imtina edilməsinə görə ödənilən qiymətdir.


Faiz dərəcəsinin səviyyəsi pula və pul qalıqlarına (pul formasında yığımlara) tələb və təklifdən asılı olaraq müəyyən edilir.

Pula tələb likvidliyin üstünlüyü qanunu ilə tənzimlənir. Keyns insanların yanında həmişə nağd pul vəsaiti olması istəyini və arzusunu "likvidliyin üstünlüyü" adlandırırdı. Başqa sözlə desək, bu cür üstünlük istehlakçıların pul şəklində öz yığımlarını mümkün qədər likvid formada saxlamaq və bununla da münasib məqamda həmin pulları sərfəli investisiyalara yönəltmək imkanına malik olmaq istəyində ifadə olunur.

Likvidlikdən imtina kompensasiya tələb edən qurban hesab olunur. Pulun sahibi likvidlikdən imtina etdiyinə görə faiz alır. Bu faiz pul vəsaitlərinin sahibinə onun verdiyi borcun müqabilində ödənilir.

Likvidlik psixoloji fenomendir. Likvidliyə meyil davamsız konyunkturadan asılı olaraq güclənir. Likvidliyin aradan qaldırılması üçün yüksək faiz tələb olunur. Yalnız bu halda pul qiymətli kağızlara, depozitlərə çevrilir.

Bazarda konyunktura stabil olduqda əks mənzərə müşahidə olunur: likvidliyin üstünlüyü



Qrafik 1. Avropa banklarının likvidlik böhranı (2003-2009)

azaldıqda, faiz dərəcəsi də azalır, çünki bu halda əhali öz pul vəsaitlərini banklara qoymağa, səhm almağa üstünlük verir.

LİMİN – London banklararası bazarında banklararası kreditlərin şərti hesab faiz dərəcəsidir. LİBOR ilə LİBİD arasında orta hesab edilir.


LİMİT – alqı-satqıya, kreditə, sövdələşmənin həcminə, malların idxalına və ixracına, faydalı qazıntıların hasilatına, valyuta əməliyyatlarına və s. kəmiyyətcə məhdudiyyətlərin qoyulması.

LİMİT ÇEKİ – hesablaşma sənədi, sahibi tərəfindən yazılan çek. Bu halda verilən çeklərin ümumi məbləğində bu cür çeklərin sayı məhduddur.

LİMİT TƏHLİLİ – dəyişənin, iqtisadi göstəricinin optimal qiymətinin axtarışı. Bu axtarış həmin dəyişənin qiymətinin dəyişməsi nəticəsində yarana bilə-cək məsrəfləri və səmərələri müqayisə etmək yolu ilə aparılır. Limit təhlili firmaların təklifləri və istehlakçıların tələbi nəzəriyyələrinin əsasını təşkil edir.

LİMİTLƏR CƏDVƏLİ – risklərin müəyyən kateqoriyası üzrə sığortaçının maksimum məsuliyyətinin fakültativ koverə və ya təkrar sığorta müqavilələsinə əlavə edilən limitlər siyahısı. Ötürən (verən) şirkət (təkrar sığortalı) limitlər cədvəlində göstəriləndən böyük məsuliyyəti təkrar sığortaçıya təkrar sığorta müqaviləsinə görə bildirə bilməz. Yüklərin sığortalanması zamanı limitlərin ölçüsü adətən, yükün növündən və onun daşıma üsulundan asılı olaraq müəyyən edilir. Gəmilərin sığortalanması zamanı limitlərin ölçüləri gəminin dərəcəsindən, yük tutumundan, hazırlandığı ildən, reyslərin istiqamətindən və s. asılı olaraq müəyyən edilir.

Balans likvidliyinin təhlili



Sxem 1

LİMİTLƏŞMƏMİŞ MƏSULİYYƏT – həm sığortalı tərəfindən şəxsin və ya şəxslərin xəsarət almasına və ya ölümünə görə, həm də üçüncü şəxslər tərəfindən onların əmlakının məhv olmasına, korlanmasına və ya xarab olmasına görə sığorta ödəməsinin yerinə yetirilməsi məbləğinin məhdudiyyətsiz ölçüdə sığortaçının məsuliyyəti.

LİMİTLƏŞMİŞ MƏSULİYYƏT – ayrı-ayrı sığorta növləri üzrə müəyyən edilmiş məbləğin ölçüsü; bu hədlər daxilində sığorta təşkilatı sığortalı tərəfindən əmlakın xarab olmasına, korlanmasına və məhv edilməsinə, yaxud şəxsiyyətə zərər dəyməsinə səbəb olan hallarda pul məbləğini sığortalayır və onun ödənişini həyata keçirir. Limitləşmiş məsuliyyət adətən, əvvəlcədən sığorta məbləğinin müəyyənləşdirildiyi yerlərdə, məsələn, nəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortalanmasında tətbiq edilir.

"LİMONLAR BAZARI" – asimmetrik informasiyanın nəticəsi olaraq əmtəənin keyfiyyəti barədə qeyri-müəyyənlik. Bu qeyri-müəyyənlik sonradan əm-

təənin istehlakçı üçün o qədər də əhəmiyyətli olmaması qənaətinə gətirə bilər. Onu satmaq istədikdə isə aldığınız qiymətdən daha aşağı qiymət təklif olunacaq. Yəni əmtəənin ikinci əldən satışı onun keyfiyyətini şübhə altına alır və qiymətliliyini aşağı salır. Başqa sözlə, əmtəənin "limon", yəni "turş" mal olması istisna olunmur.

Məhsulun keyfiyyəti haqqında asimmetrik informasiyanın əhəmiyyəti ilk dəfə M.Cpens və C.Stiqlitslə birlikdə Nobel mükafatına layiq görülmüş C.Akerlot tərəfindən 1970-ci ildə yazılmış "Limonlar bazarı" əsərində təhlil olunmuş və belə bir qənaətə gəlinmişdir ki, informasiyanın asimmetrikliyinə görə aşağı keyfiyyətli əmtəələr yüksək keyfiyyətli əmtəələri bazardan sıxışdırıb çıxarır. C.Akerlot köhnə avtomobillər bazarını tədqiq edərək bu nəticəyə gəmişdir. Lakin bu təhlil sığorta, kredit və hətta əmək bazarlarına da tətbiq edilir. Asimmetrik informasiya, maliyyə bazarlarında müqavilə tərəflərinin sahib olduğu informasiyalar arasındakı fərqliliyi ifadə edir. Belə ki, maliyyə bazarında borc alanlar (kreditorlar) borc verənlərə (debitorlar) görə investisiya qoyuluşu haqqında daha çox informasiyaya sahibdir. Bu informasiya üstünlüyü maliyyə bazarlarında Akerlofun deyimi ilə "limon" problemini yaradır. Limon problemində, borc verənlər borc alanların az, yoxsa, yüksək riskli investisiya layihələrinə girişdiklərini bilmədiklərindən, onları bir-birindən ayıra bilmir və "əlverişsiz seçim" ilə üzləşir. Bu səbəbdən borc verənlər verdikləri borcun riskə proporsional olan faiz dərəcəsini yüksək tuturlar. Beləliklə, azriskli borc alanlar normal şərtlərdə ödəyəcəkləri faizdən daha yüksək faiz ödəyərkən, yüksək riskli borc alanlar normal şərtlərdə ödəyəcəkləri faizdən daha az faiz ödəyirlər. Nəticədə, limon probleminin yaratdığı yüksək kredit faizi nəticəsində az riskli və yüksək keyfiyyətli borc alanlar investisiya bazarından kənarlaşırlar.

"Limon" bazarı problemi bir çox yollarla həll oluna bilər. Bu yollardan biri etibar məsələsidir. Etibar məsələsi alıcı və satıcının sınanılmış münasibətləri ilə bağlıdır. Belə münasibətlər olmadıqda "limonlar" problemi başqa yolla – standartlaşdırma vasitəsilə həll olunur.

İnformasiya simmetrikliyini aradan qaldırmağa imkan verən digər mexanizm bazar siqnallarıdır.

Belə siqnallardan təminatlar və öhdəliklər xüsusi əhəmiyyətə malikdir. Yəni, yüksək keyfiyyətli, etibarlı məhsul istehsal edən firmalar istehlakçıları bu barədə təminatlar və öhdəliklər vasitəsilə məlumatlandırırlar.

Həmçinin, istehlakçılar da əmtəənin keyfiyyətini qiymətləndirməklə həmin bazarda fəaliyyət göstərən istehsalçıların reputasiyasını müəyyən edə bilirlər. Müasir informasiya texnologiyalarından istifadə etməklə geniş yayılan bu yolla (məsələn, internetdən istifadə etməklə) informasiyanın asimmetrikliyi azalır.

"Limonlar" problemi dövlət strukturları vasitəsilə də həll olunur. Dövlət strukturları iş şəraitinin ümumi tənzimlənməsini həyata keçirir, ərzaq məhsullarını yoxlayır və sertifikatlaşdırır, istehlak əmtəələrinin xarici görünüşünü, təhlükəsizliyini tənzimləyir və müəyyən məhsulların müvafiq etiketlərlə təmin olunmasını tələb edir.

LİNDAL MODELİ – ictimai nemətlərin əldə olunması ilə bağlı E.Lindal tərəfindən təklif olunan model. Bu modelə görə ictimai nemətin əldə olunması üçün ödənən vergi və həmin nemətin həcmi arasında müvazinətə nail olmaq üçün hər bir fərdin ödədiyi vergi həmin fərdin aldığı nemətin son həddfaydalılığına tam bərabər olmalıdır. Lindal modelində ictimai nemət elə verilir ki, hər kəsə onun alınmasından qazanc təmin edilir. Eyni zamanda hər bir fərd vergi ödəməsindəki hazırkı iştirak payına görə ən arzulanan və ya optimal miqdarda ictimai nemət istehlak edir. Qeyd etmək lazımdır ki, modelin praktik tətbiqi bir sıra çətinliklərlə bağlıdır. Belə ki, müvafiq qərarın onun qəbuluna təsir göstərən bütün cəmiyyət üzvləri tərəfindən təqdir olunmasını tələb edir.

LİSENZİYA (lat. *lisentio* – icazə, hüquq) – sığortaçıya sığorta fəaliyyətini, təkrar sığortaçıya təkrar sığorta fəaliyyətini, sığorta agentinə sığorta agenti fəaliyyətini həyata keçirməyə icazə verən rəsmi sənəd.

LİSENZİYA MÜQAVİLƏSİ – bu müqaviləyə müvafiq olaraq lisenziar texniki biliklərdən, ixtiralardan, brendlərdən kommersiya və istehsal məqsədi ilə istifadə etmək hüququ verir.

Bir qayda olaraq, həmin mü-













qavilədə nəzərdə tutulur ki, lisenziar elmi-texniki biliklərin yeniliyini, onlardan istifadə etməyin səmərəli və mümkün olmasını təmin edir. Lisenziat isə həmin biliklərdən istifadəsini standartlara riayət olunmasını təmin edir. Bütün dəyişikliklər və təkmilləşdirmələr barədə informasiyanı təmənnasız verir.

LİSENZİYA ÖDƏNİŞİ – lisenziya sazişinin predmetini tətbiq etmək və ondan kommersiya məqsədləri üçün istifadə etmək hüququnu alıcıya (lisenziya sahibinə) satması müqabilində lisenziya verənə ödəniş şəklində lisenziya mükafatı. Lisenziya ödənişlərinin iki növü olur:

1) sazişin qüvvədə olduğu müddətdə alınan gəlirdən müntəzəm ayırmalar. Başqa sözlə, mükafatın həcmi alınmış lisenziyanın tətbiq edilməsindən əldə edilən iqtisadi səmərədən birbaşa asılıdır. Royalti şəklində tədiyələr və lisenziatın mənfəətində lisenziarın razılaşdırılmış iştirakı bu cür ödənişlərə aiddir;

2) əvvəlcədən ekspert qiymətləndirmələri əsasında müəyyənləşən və lisenziyadan faktiki istifadə edilməsindən asılı olmayaraq birdəfəlik həyata keçirilən ödəniş. Pauşal tədiyə ödənilməsi, lisenziatın bəzi qiymətli kağızlarının istifadəyə verilməsi, bunun müqabilində bəzi texniki sənədlərin verilməsi bu cür tədiyələrə aiddir.

LİSENZİYA SAZİŞİ – müəlliflik hüququ ilə qorunan əsərin istifadəsi ilə bağlı icazəni özündə əks etdirən müqavilə. Lisenziya razılaşmaları müəlliflik hüququna aid digər müqavilələrdən fərqlənir. Məsələn, müəlliflik hüququnun verilməsi barədə müqavilə (müəllif müqaviləsi), işəgötürənin müəlliflə bağladığı əmək müqaviləsi və əsərin yaradılması üçün sifariş müqaviləsi. Lisenziya sazişində əsərdən istifadəyə dair lisenziyanın (icazənin) müddəti, qonorar ödənişi ilə bağlı şərtlər, verilmiş hüquqlardan istifadə edilmədiyi hallarda müqavilənin ləğv edilməsi qaydaları və s. şərtlər nəzərdə tutulur.

LİSENZİYA SİSTEMİ – malların idxalına və ya ixracına dövlət tərəfindən icazələr (lisenziyalar) verilməsi yolu ilə xarici ticarət əməliyyatlarının tənzimlənməsi; xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin təşkilati forması; ixrac-idxal axınlarının birbaşa tənzimlənməsinin ən geniş yayılmış aləti. **Lisenziya sisteminə** görə dövlət xüsusi müvəkkil edilmiş idarə vasitəsilə idxalına və ixracına icazə verilmiş malların siyahılarında göstərilmiş müəyyən mallarla xarici ticarət üçün lisenziya verir.

Lisenziya sistemlərinin növləri Lisenziyalaşdırma sistemləri çox müxtəlifdir, lakin onları əsasən iki növdən ibarət hesab etmək olar: avtomatik (və ya baş) lisenziya – müəyyən dövr ərzində adı siyahılara daxil edilmiş malı maneəsiz idxal və ya ixrac etmək hüququ verir; qeyri-avtomatik (və ya birdəfəlik fərdi) lisenziya müəyyən malın miqdarı, dəyəri, mənşə ölkəsi (və ya təyinat ölkəsi), bəzi hallarda həmin malın ixrac (və ya idxal) edildiyi gömrük məntəqəsinin adı barədə məlumatlar göstərilməklə onun idxalına və ya ixracına icazə verir.

Lisenziya sistemlərinin reqlamentləşdirilməsi Beynəlxalq miqyasda razılaşdırılmış bir sıra normalar lisenziyalı tənzimləmə sistemlərindən istifadə edilməsinə əsaslanır. Məsələn, ÜTT sisteminin bəzi müddəaları, eləcə də ÜTT çərçivəsində bağlanmış idxalın lisenziyalaşdırılması proseduralarına dair saziş bu qəbildəndir.

LİSENZİYALAŞDIRILAN SIĞORTA FƏALİYYƏTİ – gələcək sığorta ödənişləri üçün zəruri olan xüsusi pul fondlarının (sığorta ehtiyatlarının) formalaşması ilə əlaqədar sığorta təşkilatlarının və qarşılıqlı sığorta cəmiyyətlərinin (sığortaçıların) fəaliyyəti.

LİSENZİYALAŞDIRMA – hüquqi şəxslərin təsərrüfat fəaliyyətini inzibati tənzimləmə metodu; qanunla müəyyən edilmiş müxtəlif təsərrüfat fəaliyyəti növlərinin həyata keçirilməsi üçün hüquqi şəxslər tərəfindən xüsusi razılıq (lisenziya) alınması prosesi.

LİSENZİYANIN FƏALİYYƏTİNİN DAYANDIRILMASI – elə tədbirdir ki, buna uyğun olaraq yeni sığorta müqavilələrinin bağlanmasına və lisenziya verilən fəaliyyətdə olan bütün sığorta növlərinin vaxtının uzadılmasına, sığortaçının fəaliyyətində müəyyən edilən pozuntuların aradan qaldırılmasına qədər qadağa qoyulur.

LİSENZİYANIN FƏALİYYƏTİNİN MƏHDUDLAŞMASI – sığortaçının fəaliyyətində müəyyən edilən pozuntuların aradan qaldırılmasına qədər qadağanı, yeni sığorta müqavilələrinin bağlanmasını və sığorta fəaliyyətinin ayrı-ayrı növləri üzrə (və ya sığorta növləri üzrə) mövcud olanların uzadılmasını bildirir.

LİSENZİYANIN GERİ QAYTARILMASI – fəaliyyətdə olan sığorta müqavilələrinə görə qəbul edilən öhdəliklərin yerinə yetirilməsi istisna olmaqla, sığorta fəaliyyətinin həyata keçirilməsinə qoyulan qadağa tədbiri.

LİST FRİDRİX (1789-1846) – alman iqtisadçısı. Özünün "Siyasi iqtisadın milli sistemi" əsərində o, proteksonist baxışları əsas tutaraq, Almaniyanı sənaye ölkəsinə çevrilməklə dünyada iqtisadi və siyasi ekspansiya həyata keçirməsini təklif edirdi. Onun baxışları azad ticarəti təbliğ edən klassik iqtisad məktəbinin tənqidinə səbəb oldu. List iqtisadiyyata milli iqtisadiyyat anlayışını gətirdi və göstərdi ki, hər bir ölkənin iqtisadiyyatı öz qanunauyğunluqlarına müvafiq olaraq inkişaf etməlidir. Nəzəriyyənin əsasında isə dövlətin iqtisadiyyata müdaxiləsi formasında, gömrük rüsumlarının tətbiqi şəraitində inkişafa nail olmaq dururdu.



LİSTİNQ (ing. *list* – siyahı) – 1. Birja ticarətinə yalnız ekspert

yoxlanışından keçən səhmlərin buraxılması üçün şirkətin səhmlərinin müəyyən birjada qiymətləndirilən səhmlər siyahısına daxil edilməsi. 2. Fond birjasına təklif olunan qiymətli kağızların keyfiyyət və etibarlılığının satışdan əvvəlki yoxlanışı; emitentin maliyyə vəziyyəti haqqında məlumatlar əsasında birja ekspertləri tərəfindən həyata keçirilir; listinq qiymətli kağızların real bazar qiymətini düzgün müəyyənləşdirməyə imkan verir. 3. Qiymətli kağızların emitenti və fond birjası, ticarət və yaxud bazarda kotirovka üçün qiymətli kağızların qəbul edilməsi haqqında fond birjalarının birjadankənar iştirakçıları arasında sazişi.

Qiymətli kağızların fond birjalarındakı listinqi ilə bağlı olan prosedurları cavabdeh olan şəxs – *listinq agenti* həyata keçirir.

LİZ-BEK – beynəlxalq lizinqin yeni forması. Müqavilənin şərtlərinə görə, lizinq firması istehsalçı firmadan nağd hesabla başqa ölkədə maşın, avadanlıq komplekti alır, sonra isə onu həmin firmaya müəyyən müddətə satır.

LİZİNQ (ing. *equipmentleasing*) – istehlakçının sifarişi əsasında əmlakı satın almaqla onu istehlakçıya orta və uzun müddətə icarəyə vermək məqsədi ilə həyata keçirilən xidmət növü. İcarəyə verən (lizinqverən) tərəfindən icarədar (lizinq alıcısı) üçün istehsal məqsədilə icarə müqaviləsi müddətində mülkiyyət hüququnun saxlanması şərtilə maşın, avadanlıq və digər investisiya təyinatlı əmtəələrin uzun və orta müddətə icarəsi. Başqa sözlə, lizinq əmlakın tədarükçülük, qaytarılmaq və ödənilmək şərti ilə müvəqqəti istifadəyə verilməsinin əsas fondlarda, xüsusilə onun aktiv hissəsi olan avadanlıqda əmtəə kreditidir. İstehlakçının sifarişi əsasında əmlakı satın almaqla onu istehlakçıya orta və uzun müddətə icarəyə vermək məqsədi ilə həyata keçirilən xidmət növüdür. Bununla belə, istifadəçi (icarədar, lizinq alıcısı) öz mülkiyyətində icarədara lazım olan material qiymətlilərə (əmlaka) malik olan müvafiq əmlakı istehsal edən müəssisəni tapır və lizinq şirkətinə bu avadanlığı (material qiymətliləri) müvəqqəti istifadəyə verməkdən ötrü həmin avadanlığın alınması üçün göstəriş verir.

Tərəflərin münasibətləri lizinq müqaviləsi ilə müəyyən olunur.

Lizinq müqaviləsi – lizinq xidmətinin həyata keçirilməsi üzrə tərəflər (satıcı, lizinq müəssisəsi və icarəçi) arasında bağlanmış müqavilə.

Bu müqavilədə aşağıdakı şərtlər göstərilir: müqavilənin məbləği və fəaliyyət müddəti, icarə haqqının ölçüsü, faiz dərəcəsi, tədiyələrin dövriliyi, icarə müddəti bitdikdən sonra əmlakın qalıq dəyəri, lizinq şirkətinə geri qaytarılması və ya müqavilənin fəaliyyəti bitdikdən sonra icarəyə götürülmüş əmlakın satın alınması. Müqavilənin fəaliyyət göstərdiyi dövrdə icarəyə verilmiş əmlakın mülkiyyət hüququ lizinq şirkətinə, bu əmlakdan istifadə etmə hüququ isə lizinq istifadəçisinə məxsusdur. Lizinq müqaviləsinə görə tədiyələr pul, kompensasiya, qarışıq formaya malik ola bilər. Bu zaman hesablaşmalar avansın (depozitin) ödənilməsi ilə təsbit olunmuş ümumi məbləğ üzrə (tərəflərin razılığı ilə müqavilədə təsbit olunmuş məbləğ müqavilənin fəaliyyət göstərdiyi bütün müddət ərzində ödənilir) nəzərdə tutulur ki, bundan sonra qalan məbləğ razılaşdırılmış müddətdə hissə-hissə ödənilir. Lizinq müqaviləsinin fəaliyyəti başa çatdıqdan və alqı-satqı müqaviləsi tərtib edildikdən sonra və ya müqavilə tədiyələrinin köçürülməsi zamanı əlavə məbləğ kimi hissə-hissə əmlakın qalıq dəyəri (icarədar tərəfindən onun alqısı zamanı) ödənilir.

Lizinq – bütün iştirakçılar üçün qarşılıqlı əlverişli, üçtərəfli sövdələşmədir. Xüsusilə investisiyaların məhdudluğu zamanı icarədar üçün bu – xarici mənbələrdən kapital cəlb edilməsi hesabına böyük xüsusi vəsaitlər qoymadan müasir avadanlıq və ya əmlak almaq imkanı, eləcə də minimum qiymətlərlə (lizinq müqaviləsinin fəaliyyəti müddəti bitdikdən sonra nominal və ya qalıq dəyəri) maddi resursların zəruri dəstinin ödənilməsi ilə texnikanın və ya texnoloji proseslərin sürətlənməsi üsuludur. İstehsalçı müəssisə (və ya müvafiq əmlaka malik struktur) lizinq vasitəsi ilə bazarda satışın çətinlikləri zamanı, o cümlədən kifayət qədər olmayan tədiyə qabiliyyəti və reallaşan məhsulun yüksək qiyməti üzündən öz problemlərini həll edə bilər. Lizinq şirkəti, eləcə də onları kreditləşdirən və ya yaradan kommersiya bankları lizinq əməliyyatları yolu ilə əlverişli kapital qoya və sərbəst pul aktivlərini kifayət qədər səmərəli formada yerləşdirə bilərlər.

Lizinq əməliyyatlarının həyata keçirilməsinin ümumi sxemi



Sxem 1

"Lizinq" anlayışı iştirakçıların tərkibinə, öz xərcini ödəmə və digər əlamətlərə görə icarə əməliyyatlarının bir çox növlərini əhatə edir. Lizinq müqavilələri lizinq verənin təqdim etdiyi xidmətlərin müxtəlif həcmini nəzərdə tuta bilər. Bura müxtəlif əlavə xidmətlər (məsələn, lizinq planın tapşırığı üzrə avadanlığın alqısından əvvəl tədqiqatların aparılması, icarədə olan avadanlığın təkrar emalı üçün zəruri xammalın, eləcə də dəst materialların və xüsusi növ yanacağın göndərilməsi, avadanlıqla işləmək üçün ixtisaslı işçi heyətinin təqdim edilməsi və s.) daxildir. İcarəyə verilən əmlaka lizinq verən tərəfindən tam xidmət göstərilməsi müqavilədə razılaşdırıla bilər. Lizinqin bu növü kifayət qədər bahalıdır və çox zaman təyyarələr, gəmilər, güclü kompüterlər və s. kimi əmlaka münasibətdə istifadə olunur. Lizinqin digər növü qismən xidmətlərlə bağlı lizinqdir. Lizinq zamanı müqavilədə icarəyə verilən əmlakın xidməti üzrə funksiyalarının yalnız bir qismi lizinq verən tərəfindən yerinə yetirilməsi nəzərdə tutulur, qalan xidməti lizinq istifadə edən öz üzərinə götürür. Xalis lizinq zamanı icarəyə verilən əmlaka bütün xidmətlərin göstərilməsini lizinq alan öz üzərinə götürür.

Lizinq dünyada geniş yayılmışdır. Məsələn, ABŞ-da istehsal investisiyalarında onun payı 25% təşkil edir. Yaponiyada idarəetmə sferasında lizinq üzrə yeni kompüterlərdən 90% istifadə edilir.

LİZİNQ, AÇIQ – icarə avadanlığının qaytarılması zamanı iri birdəfəlik ödəniş və ya mülkiyyətin dəyərinin dəyişməsinin tənzimlənməsi üçün əlavə ödəniş, müntəzəm cari ödənişlər nisbətən az olduqda, nəzərdə tutulan lizinq müqaviləsi.

LİZİNQ ALAN – 1) icarəyə götürən milli qanunvericiliklə lizinq fəaliyyətini həyata keçirən və lizinq predmetini icarəyə götürən hüquqi şəxs statusu olmayan fiziki və ya hüquqi şəxs, təsərrüfat subyekti və ya səlahiyyətli orqanların timsalında dövlət; 2) lizinq obyektinə müvəqqəti sahib olan və lizinq müqaviləsi üzrə ondan istifadə edən təsərrüfat subyekti.

LİZİNQ, AYRI-AYRI – əlavə vəsait cəlb edilməsi ilə və ya qismən lizinqə verən tərəfindən maliyyələşdirilən lizinq. Lizinqə verən avadanlıq alarkən onun bütün məbləğini deyil, bir hissəsini öz vəsaitindən ödəyir. Qalan məbləği o, bir və ya bir neçə kreditordan ssuda kimi alır.



Sxem 1

Bu zaman lizinq şirkəti əmlakın tam dəyərindən hesablanan bütün vergi güzəştlərindən istifadəni davam etdirir.

LİZİNQ, BANK – lizinq sazişi, burada lizinq şirkəti kimi bank çıxış edir və lizinq alanın sifarişi ilə avadanlığı alır və ona icarəyə verir.

LİZİNQ, BAŞ – icarəyə verən və icarəyə alan arasında lizinq haqqında ümumi (baş) müqavilə. Bu müqavilə icarəyə götürənin icarəyə götürdüyü avadanlığın siyahısını yeni müqavilələr bağlamadan doldurmaq hüququnu nəzərdə tutur.

LİZİNQ, BEYNƏLXALQ – maliyyə lizinqinin müxtəlif ölkələrin müəssisələri və təşkilatları tərəfindən bağlanan növü. Lizinq firması avadanlığı xarici (və ya milli) firmadan alır və onu milli (və ya xarici) icarə alana verir.

LİZİNQ, BİRBAŞA – avadanlığın tədarükçüsü (istehsalçı) lizinq verən olduğu lizinq. İkitərəfli saziş də ola bilər.

LİZİNQ ƏMƏLİYYAT – qısamüddətli, icarəyə götürülən əmlakın amortizasiya dövründən qısa olan lizinq forması. Müqavilə müddəti başa çatdıqdan sonra icarə obyekti sahibinə qaytarılır. Lizinq verən onu bir neçə dəfə müvəqqəti istifadəyə verdikdən sonra onun üçün tələb olmadıqda, lizinq obyektinin qalıq dəyərinin əvəz edilməsi üzrə risk artır. Bununla əlaqədar lizinq ödəmələrinin ölçüsü maliyyə lizinqində olduğundan yüksəkdir. Nəticədə eyni texniki park böyük sayda müəssisələrin ehtiyaclarını ödəyə bilər. Lizinqin bu forması rentinq adlanır.

LİZİNQ FƏALİYYƏTİ – bir hüquqi şəxsin şəxsi və ya borc vəsaiti ilə lizinq obyektini mülkiyyətinə alması və onu başqa təsərrüfat subyektinə müəyyən müddətə və müvəqqəti istifadəyə girovla və ya girovsuz verməsi ilə əlaqədar fəaliyyət.

LİZİNQ HAQQI – icarəyə götürülmüş əmlak üçün icarəçinin – lizinq alanın ödədiyi haqq.

LİZİNQ, İDXAL – lizinq şirkətinin xarici firmadan avadanlıq alması və onu yerli icarəyə götürənə təqdim etməsi sazişi.

LİZİNQ, İXRAC – lizinq şirkətinin avadanlığı yerli firmadan aldığı, sonra onu xaricə, icarəyə götürənə verdiyi saziş.

LİZİNQ, KAPİTAL – uzunmüddətli icarə forması. Bu zaman icarə obyektinə sahibliklə əlaqədar risk və üstünlüklər icarəyə götürənin üzərinə keçir.

LİZİNQ, KLASSİK – lizinqə verənin lizinqi alanın və əmlak satıcısının (tədarükçü) iştirakı ilə lizinq sazişi. Lizinqə verən lizinq alanın ərizəsi ilə tədarükçüdən zəruri avadanlığı alır və onu lizinq alana icarəyə verir. Bununla da öz maliyyə məsrəflərini lizinq ödəmələri vasitəsilə əvəz edir.

LİZİNQ, KOMPENSASİYALI – bu lizinqin şərtlərinə görə, icarəyə alan, icarə haqqı kimi lizinq firmasına icarə olunan avadanlıqdan istifadə etməklə istehsal edilən malı verə bilər.

LİZİNQ, KREDİTLİ – qismən kreditə götürülmüş aktivin icarəsi. Bu kredit icarə haqları hesabına ödənilir və icarəyə verən vergi güzəştlərindən, o cümlədən amortizasiya üzrə güzəştlərdən istifadə edir.

LİZİNQ, QAYTARILAN – birbaşa lizinqin növü. Hər hansı müəssisədə avadanlıq olduğu, lakin istehsal fəaliyyəti üçün vəsaitlərin olmadığı zaman tətbiq olunur. Bu zaman həmin müəssisə lizinq şirkətini tapır və ona öz əmlakını satır, sonuncu isə, öz növbəsində, onu həmin müəssisəyə lizinq kimi icarəyə verir. Bununla da müəssisənin əlavə pul resursları meydana gəlir ki, o bunları, məsələn, dövriyyə vəsaitlərinin doldurulmasına yönəldə bilər. Həm də müqavilə elə tərtib olunur ki, onun müddəti başa çatdıqdan sonra müəssisə avadanlığı geri ala və bununla da, onun üzərində mülkiyyət hüququnu bərpa edə bilər.

LİZİNQ LAYİHƏSİ (ƏMƏLİYYAT, SAZİŞ) – lizinq predmetinə vətəndaşların hüquq və öhdəliklərinin təyin edilməsi, dəyişməsi və ya bitməsinə yönəldilmiş beynəlxalq lizinq fəaliyyətinin subyekt və iştirakçılarının (çoxtərəfli, konsensual, real, əvəzlənmiş) hərəkətləri kompleksi.

LİZİNQ, MALİYYƏ – 1) sərt müəyyən edilmiş müddət ərzində icarəyə verənə tam amortizasiya kapital qoyuluşları və ona müəyyən mənfəəti təmin etməyə qabil olan məbləğləri nəzərdə tutan lizinq müqaviləsi; 2) bu lizinq onunla xarakterizə olunur ki, əmlakın müvəqqəti istifadəyə verildiyi müddət onu istismar və bütün dəyərinin amortizasiyası müddətinə yaxınlaşır. Lizinq verənin bu halda yalnız bir lizinq alanla işi olduğuna görə, onun lizinqin təşkili üzrə cari xərcləri də, avadanlığa olan tələbin istismar müddəti ərzində dəyişməsi zamanı riski də azalır. Bu risk liznq alanın çiyinləri üzərinə ötürülür. Maliyyə lizinqi zamanı lizinq ödəmələri operativ lizinqdə olduğundan azdır.

LİZİNQ ÖDƏNİŞİ – lizinq alanın (maliyyə, əmlak və ya başqa) lizinq verənin ünvanına ödəmə əməliyyatı. Bura lizinq predmetinin amortizasiya dəyəri lizinq sazişinin həyata keçirilməsinə cəlb olunmuş kredit resursları, lizinq marjası və risk mükafatı, habelə lizinq müqaviləsinə və milli qanunvericiliyə müvafiq olaraq başqa ödənişlər.


LİZİNQ, TAM – icarəyə götürülmüş avadanlığın lizinq şirkəti (lizinq verən) tərəfindən xidmətini, təmirini, əvəz edilməsini nəzərdə tutan lizinq forması.

LİZİNQ, TƏMİZ – əmlaka bütün xidməti lizinq alan üzərinə götürdüyü lizinq. Ona görə bu halda avadanlığa xidmət üzrə xərclər lizinq ödəmələrinə daxil edilmir. Lizinqin bu növü maliyyə lizinqi üçün xarakterikdir və klassik hesab edilir.

LİZİNQ, VERGİ RIÇAQI İLƏ – icarəyə götürənə icarəyə verənin istifadə etmədiyi vergi və amortizasiya güzəştlərini icarə ödəmələrin azalmasına mübadilə etməyə imkan verən lizinq proqramı.

LİZİNQ, "YAŞ" – avadanlığın məcburi texniki xidmətini, onun təmirini, sığortasını və lizinq verənin əməliyyatlarının həyata keçirilməsini nəzərdə tutan lizinq. Bu xidmətlərdən başqa lizinq alanın arzusu ilə lizinq verən ixtisaslı işçi heyətin hazırlanması marketinq və hazır məhsulun reklamı, xammal tədarükü və s. öz üzərinə götürə

Lizinqin təsnifatı



Sxem 1

bilər. Qeyd etmək lazımdır ki, operativ lizinq üçün, əsasən, "yaş" lizinq xarakterikdir.

LİZİNQƏ VERƏN – 1) lizinq müqaviləsi ilə, xüsusilə bunun üçün öz vəsaiti və ya borc vasitəsilə aldığı lizinq obyektini verən hüquqi şəxs; 2) icarəyə verən – milli qanunvericiliklə lizinq fəaliyyətini həyata keçirən və lizinq predmetini təklif edən hüquqi şəxs statusu olmayan fiziki və ya hüquqi şəxs; təsərrüfat subyekti və ya səlahiyyətli orqanların timsalında dövlət.

LİZİNQİN OBYEKTİ – Azərbaycan Respublikasının qanunlarına əsasən, sərbəst mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar istisna olmaqla, qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid olan daşınan və ya daşınmaz əşyalar.

"LİZQOLD" (ing. *leasehold*) – icazə hüququnda daşınmaz əmlakın alınması. Alıcı icarənin bütöv müddətinə birdəfəlik məbləği ödəyir, lakin onun mülkiyyətə sahiblik hüququ "frisqold"la müqayisədə bir qədər məhduddur.

"LLOYD" – əksər sığorta növlərini öz hesablarına həyata keçirən anderrayterlərin və sindikatların ən iri London təşkilatı. "Lloyd" – ingilis sığorta birliyi kimi bütün əmlak sığortalarını, eləcə də qısamüddətli həyat sığortasını həyata keçirir.

"LLOYD" REGİSTRİ *(Lloyd's Regqister of Shippinq)* – gəmiqayırma üçün standartları işləyib hazırlayan, kommersiya gəmilərinin təsnifatını həyata keçirən müstəqil təsnifat cəmiyyəti. "Lloyd" registri – 1760-cı ildə əsası qoyulan və "Lloyd" korporasiyasına birbaşa aidiyyəti olmayan ən iri və qədim təsnifat cəmiyyətidir.

"LLOYD" SİNDİKATI (*Lloyd's Syndcate*) – risklərin sığortaya qəbul edilməsi üzrə maliyyə imkanlarının artması, eləcə də sığorta əməliyyatlarının aparılmasında rahatlığın təmin edilməsi məqsədilə sindikatda birləşən "Lloyd" anderrayterlər qrupu.

"LLOYD" TƏRƏFİNDƏN VERİLƏN SERTİFİKAT *(Lloyd's Refrigrating Macinery Certificate)* – refrijerator gəmilərinin qurğularının vəziyyətini bildirir və tez xarab olan yüklərin sığortasına dair məsələnin sığortaçı tərəfindən həlli zamanı böyük əhəmiyyət kəsb edir.

"LLOYD"IN AGENTİ – "Lloyd" sığorta şirkətinin dünyanın bütün limanlarında olan nümayəndəsi. "Lloyd"ın agenti "Lloyd"dan onun agentinin səlahiyyətlərini müqavilə əsasında alan gəmi makler firmaları olan müstəqil firmalar ola bilər. Gəminin və yüklərin korlanması, xəsarət alması və zərər dəyməsi zamanı gəmi kapitanı, yük sahibləri və yük alanlar müəyyən haqqa görə qəza sertifikatı tərtib edən "Lloyd" agentinə müraciət edirlər.

"LLOYD"IN ANDERRAYTERLƏR ASSOSİASİYASI – "Lloyd"ın sığorta bazarının strukturlaşmış hissəsi; dəniz sığortası risklərinin yerləşməsində ixtisaslaşan "Lloyd"ın peşəkar anderrayterlər assosiasiyasıdır. London Sığortaçıları İnstitutu və Liverpul Anderrayterlər Assosiasiyası (dəniz sığortası sahəsində ixtisaslaşan) ilə sıx əməkdaşlıq edir.

"LLOYD"ın BROKERİ – "Lloyd"ın qeydiyyatdan keçən sığorta bazarının başlıca fiquru. "Lloyd"ın sindikatında riskin yerləşməsi zamanı sığortalı ilə anderrayterlər arasında vasitəçi kimi çıxış edir.



"LLOYD"ın Londondakı binası

"LLOYD"ın XİLASEDİCİ MÜQAVİLƏSİ *(Lloyd's Salvage Agreement)* – gəmi sahibinin adından gəminin kapitanı tərəfindən xilasedicilərlə birgə imzalanan standart xilasedici müqavilə forması.

"LLOYD"ın POLİSİ – "Lloyd" sığortaçılar korporasiyası sindikatının anderrayterləri tərəfindən verilən sığorta polisi. Beynəlxalq sığorta təcrübəsində bu növdən olan ən nüfuzlu sənədlərdən biridir. "Lloyd" polisi "Lloyd" korporasiyası sistemində bu və ya digər müqavilələrin bağlanması ilə əlaqədar yaranmış, tərəflərin hüquq və vəzifələrinin müəyyən (adi hüquq normaları ilə nəzərdə tutulan) ifadələrindən istifadə edir.

"LLOYD"ın YÜKLƏRƏ BAXIŞ ÜZRƏ SORĞU KİTABÇASI *(Lloyd's Survey Hand Book)* – dənizlə daşınan yüklərin keyfiyyətinin və kəmiyyətinin siyahısını ehtiva edir; sığorta ilə örtülən təhlükələrin doğurduğu itkilərin qarşısının alınması və ya azaldılması məqsədilə sığortalı, onun agenti və ya digər səlahiyyətli şəxslər tərəfindən onların dəniz təhlükələrinə məruz qalması təsvir olunur.

"LLOYD"un GƏMİÇİYƏ YARARLI REGİSTRİ – gəmiqayırma standartlarını müəyyən edən və izləyən, dünyada 100 tondan artıq su tutumu olan bütün gəmilərin tam siyahısını dərc edən, sığortaçıların, gəmi sahiblərinin və ticarətçilərin cəmiyyətinin gəmiyə yararlı registri.

LOBBİZM – mahiyyətcə lobbizmi vəzifəli şəxsi ələ almaqla bağlı olmadan dövlət hakimiyyət orqanlarında normativ hüquqi aktların, qərarların qəbul edilməsində iqtisadiyyatın müəyyən sahəsinin maraqlarını ifadə edən fəaliyyət kimi səciyyələndirmək olar. Bütün iri təşkilatlar, birliklər, assosiasiyalar inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində lobbizmlə məşğul olurlar və o, iqtisadi qanunvericiliyin ayrılmaz hissəsini təşkil edir. ABŞ-da lobbizm qanunu 1946-cı ildə konqres tərəfindən qəbul edilmişdir və bu gün də qüvvədədir (bax: cədvəl 1).

LOKAL HESABLAMA ŞƏBƏKƏSİ (LHŞ) (Local Area Network – LAN) – qapalı coğrafi ərazi daxilindəki istifadəçilərə xidmət edən rabitə şəbəkəsi. Bu şəbəkələr müəyyən bir təşkilat daxilində resursların, o cümlədən məlumatların, proqram təminatının, yaddaş vasitələrinin, printerlərin və telekommunikasiya avadanlığının mübadiləsini və bölüşdürülməsini asanlaşdırmaq üçün işlənib hazırlanmışdır. Onlar üçün mərkəzsizləşdirilmiş hesablama nəzərdə tutulmuşdur. LHŞ-nin əsas elementləri ötürücü mühit və proqram təminatı, istifadəçi terminalları və ümumi istifadə edilən periferik qurğulardır.

LOKAUT – kollektiv əmək mübahisələri zamanı yerinə yetirilməsi işəgötürənin istehsal, iqtisadi, maliyyə imkanlarına

Cədvəl 1

Amerika lobbistlər assosiasiyasının məlumatına görə 2010-cu ildə dünyanın 10 aparıcı lobbist şirkəti

№	Lobbist şirkətlər	Lobbist fəaliyyətindən gəlirlər
1	Interpublic Group of Companies, Inc.	$293,726,002
2	WPP Group plc	$185,269,000
3	Patton Boggs	$160,264,000
4	DLA Piper Rudnick Gray Cary LLP	$132,633,000
5	Akin Gump	$127,789,000
6	Van Scoyoc Associates, Inc.	$103,110,000
7	Williams & Jensen	$83,754,000
8	Greenberg, Traurig, Hoffman, Lipoff, Rosen & Quentel	$81,068,249
9	Ernst & Young LLP	$78,285,000
10	The Dutko Group Inc.	$66,631,233

uyğun olmayan kollektiv tələblərlə, hüquqlarını və mənafeyini pozmaq cəhdi ilə keçirilən qanunsuz və əsassız tətillərin qarşısını almaq məqsədi ilə onun və ya mülkiyyətçi tərəfindən müəssisənin fəaliyyətinin müvəqqəti dayandırılması barədə elan.

LOQARİFMİK NORMAL BÖLÜŞDÜRMƏ (ing. *Lognormal distribution)* – normal bölüşdürülmüş təsadüfi ölçünün eksponenti olan arasıkəsilməz təsadüfi ölçünün bölüşdürülməsi. Loqarifmik normal bölüşdürmə çox vaxt seküritizasiya əqdlərində kredit defoltları ehtimallarının müəyyənləşdirilməsi üçün istifadə edilir. Bu əqdlərdə itkilərin bölüşdürülməsi pul vəsaitlərinin hərəkəti modellərində əsas parametr kimi istifadə edilir və hər bir itkinin baş verməsi ssenarisini onun baş verməsi ehtimalı ilə birləşdirən əyri vasitəsilə göstərilir. Məsələn, "Moody's" reytinq agentliyi hesab edir ki, mənzil girovu əsasında verilmiş kreditlər kimi, eynicinsli portfellər üçün İQK-nın oxşar portfeli üzrə itkilərin bölüşdürülməsi loqarifmik normaldır. Bu cür bölüşdürmə orta itkilər və standart kənarlaşma aşkarlandıqda aparıla bilər.

LOQİSTİK ZƏNCİRİN İDARƏ EDİLMƏSİ SİSTEMİ – idarəetmə proseslərinin optimallaşdırılması maddi və onlara əlavə axınların yaranma nöqtəsindən ləğvedilmə nöqtəsinə axınlarının optimallaşdırılmasına yönəlmiş mürəkkəb sistem.

Loqistika – maddi və informasiya axınlarının malgöndərəndən başlamış son istehlakçıya qədər məkan və zaman etibarı ilə planlaşdırılmasının, idarə edilməsinin və onlara nəzarətin mütəşəkkil sistemi.

Loqistikanın məqsədi maddi axınların məkan və zaman etibarilə minimum resurs sərf edilməklə istehlakçıların tələbatının maksimum ödənilməsini təmin edən təşkilati fəaliyyətdir. Loqistikanın əsas vəzifələri bunlardır: müəssisənin maddi axınlarının təşkil edilməsi; istehsal qurğularının yüklənməsinin optimallaşdırılması; istehsalın və istehsal edilmiş məhsulların satışı üçün xərclərin optimallaşdırılması; maddi axınların bütün mərhələlərində maddi resurslara qənaət. Müəssisə çərçivəsində loqistikanın məqsəd və vəzifələrinə nail olmaq üçün loqistik sistemlər qurulur.

Loqistik sistemlərin qurulmasının aşağıdakı prinsipləri vardır:

1) *sistemli yanaşma prinsipi* – logistik sistemin elementlərinə idarəçiliyin vahid məqsədini həyata keçirmək üçün qarşılıqlı əlaqəli və qarşılıqlı fəaliyyətdə olan elementlər sistemi kimi baxılması. Sistemli yanaşmanın səciyyəvi xüsusiyyəti loqistik sistemin ayrı-ayrı elementlərinin deyil, bütövlükdə bu sistemin fəaliyyətini optimallaşdırmaqdır;

2) *ümumi məsrəflər prinsipi*, yəni maddi, informasiya və maliyyə axınlarının idarə edilməsi ilə bağlı xərclərin bütün məcmusunun nəzərə alınması;

3) *loqistik koordinasiya və inteqrasiya prinsipi*. Loqistik menecment prosesində loqistik sistemin (zəncirin) bütün halqalarının məqsəd funksiyasının reallaşdırılması zamanı informasiya, material və maliyyə axınlarının idarə edilməsində uzlaşdırılmış və bir-birini qarşılıqlı tamamlayan şəkildə iştirakına nail olmaq lazımdır;

4) *modelləşdirmə və informasiya-kompüter dəstəyi prinsipi.* Müasir dövrdə müvafiq informasiya-kompüter dəstəyi olmadan loqistik sistemlərin gerçəkləşdirilməsi praktik olaraq qeyri-mümkündür;

5) *ümumi loqistik idarəetmə prosesini təmin edən zəruri mikroloqistik altsistemlər kompleksinin işlənib hazırlanması prinsipi;*

6) *keyfiyyəti ümumi idarəetmə prinsipi* – son istehlakçılara təqdim edilən malların və xidmətlərin ümumi keyfiyyətinə nail olmaq üçün loqistik sistemin hər bir konkret elementinin etibarlı fəaliyyəti və onun işinin yüksək keyfiyyəti;

7) *davamlılıq və adaptivlik prinsipi.* Loqistik sistem sabit işləməli, ətraf mühit parametrlərinin və amillərinin təsiri ilə cüzi dəyişməlidir. Ətraf mühit amilləri yolverilməz dərəcədə dəyişdikdə, loqistik sistem yeni şərait üçün nizamlanmalıdır.

Təchizat, istehsal, satış və malların anbarlara yığılması altsistemlərində loqistik sistemləri mikroloqistik sistemlər adlandırırlar. Mikroloqistik sistemlər də öz növbəsində müəssisənin vahid loqistik sistemi şəklində inteqrasiya olunmalıdır. Bu cür əlaqələndirmə loqistik zəncirlər qurulması yolu ilə baş verir.

Loqistik zəncir (LZ) – texnoloji prosesində maddi axınların bir loqistik sistemdən digər loqistik

sistemə və ya son istehlakçıya çatdırılması və əmtəələrin hərəkəti üzrə loqistik əməliyyatları ardıcıl olaraq həyata keçirən fiziki və ya hüquqi şəxslərin (istehsalçılar, distribütorlar, dilerlər, daşıyıcılar, anbarlar və s.) nizamlanmış xətti çoxluğu. Loqistik zəncir yaradılarkən modulların müstəqilliyinin zəruri olması nəzərə alınmaqla bütün səviyyələrdə idarəetmənin modul prinsipinə üstünlük verilir. Ayrı-ayrı iş yerlərinin və ya iş yerləri qruplarının modul prinsipi üzrə qurulmasından anbar, istehsal, nəqliyyat altsistemlərinin, bütöv istehsalatların və müəssisə qruplarının modul prinsipi üzrə formalaşmasına keçid baş verir. Loqistik zəncirlər bazasında qurulmuş təşkilati strukturların inkişafı sinergik effektə əsaslanır.

LOQİSTİKA – material təminatının bütün sferasını: qablaşdırma, hazır məhsul, istehlakçıya çatdırma və s. əhatə edən nəqliyyat, təchizat, ehtiyatlara nəzarət və informasiyaların işlənməsi sahəsində planlaşdırmanın tərkib hissəsi olan təlim. Loqistik xərclər, loqistik zəncir, loqistik əməliyyat, informasiya axını loqistikanın əsas tədqiqat obyektlərindəndir.

LOMBARD – şəxsi istehlak üçün nəzərdə tutulan daşınan əmlakın girov qoyulmaqla fiziki şəxslərə qısamüddətli borcların verilməsi ilə məşğul olan kredit təşkilatı. Əşyanın lombarda girov kimi qoyulması haqqında müqavilə lombardın girov bileti verilməsi ilə tərtib olunur.

Girov qoyulan əşyalar lombarda verilir və o, həmin əşyaları onların tam qiymətləndirilməsi həcmində öz hesabına, girov verənin xeyrinə sığortalamalıdır. Əgər lombard girov qoyulmuş əşyaların itirilməsinin və ya xəsarət almasının səbəbinin dəfolunmaz qüvvələrin fəaliyyətinin nəticəsi olduğunu sübut etməzsə, bu əşyaların itirilməsinə və ya xəsarət almasına görə məsuliyyət daşıyır. Lombard girov qoyulmuş əşyalardan istifadə etmək və sərəncam vermək hüququna malik deyil. Lombarda qoyulan əşyaların girovla təmin edilən kredit məbləği müəyyən olunmuş vaxtda qaytarılmazsa o, notariusun icra sənədi (göstərişi) əsasında (bir qayda olaraq, güzəşt müddəti bitdikdən sonra) girov predmetini sata bilər. Bundan sonra lombardın girov verənə (borcluya) olan tələbi, hətta qoyulmuş əmlakın reallaşması zamanı əldə olunan məbləğ onların bu tələblərinin tam ödənilməsi üçün kifayət etmədiyi halda, ödənilmiş hesab olunur.

LOMBARD FAİZİ – 1) Mərkəzi (milli) bankın qiymətli kağızlarla təmin olunmuş kommersiya banklarının kreditləri üzrə rəsmi faiz dərəcəsi; 2) kommersiya bankının təmin edilmiş krediti üzrə faiz dərəcəsi.

LOMBARD KREDİT AUKSİONU – qiymətli kağızların girov qoyulması müqabilində limit məbləğində, hər bir auksiona çıxarılan kreditin maksimum həcmi məbləğində lombard kreditlərinin verilməsi üçün auksion. Lombard kredit auksionu bankların lombard krediti almaq üçün sifarişlərinin müsabiqəsi qaydasında ingilis və ya holland metodu üzrə keçirilir. Auksiona qəbul edilmiş sifarişlər banklar tərəfindən təklif edilmiş faiz dərəcəsinin səviyyəsi üzrə ranqlaşdırılır. Keçirilmiş auksionun nəticələrinə əsasən lombard krediti almaq hüququ əldə etmiş banklar zəruri məbləğdə dövlətə məxsus qiymətli kağızları depozitar sistemdə bankın depo hesabının "girovda bloklanmışdır" bölməsinə köçürülməsi üçün depozitariyə tapşırıq verirlər. Lombard krediti verilməsi üçün müqavilə bağlandıqdan sonra kreditin məbləği borcalan bankın müxbir hesabına köçürülür.

LOMBARD KREDİTİ – asan realizə olunan daşınan əmlakın girovuna görə verilən qısamüddətli kredit. Lombard krediti verilməsi banklar tərəfindən XVII-XVIII əsrlərdən başlayaraq həyata keçirilir; girov kimi, adətən, qiymətli metal və əmtəələr istifadə olunurdu. Bir qayda olaraq, girovun dəyəri kreditin dəyərini ötüb keçirdi. Borcalan kreditorun əmlaka qoyduğu mülkiyyət hüququnu saxlayırdı. Əgər kredit vaxtında ödənilməzsə, mülkiyyət hüquqi kreditora keçir o, əmlakı satır və satışdan əldə edilən vəsaitdən girovun məbləğini hesablanan faizlərlə birlikdə çıxırdı. Hazırda lombard krediti bankda deponent olunmuş qiymətli kağızların girovu altında bank kreditini təcəssüm etdirir.

Lombard kredit dərəcəsi – Qərbi Avropa bank terminidir. Səhm və istiqrazlar formasında olan qiymətli kağızlarla təmin edilmiş kreditlər üzrə faiz dərəcəsi mənasını verir.

Girov kimi birjada olan qiymətli kağızlar qəbul edilir. Bu zaman



krediti̇n məbləği onların məzənnə dəyərinin 50-dən 90%-ə qədəri olur. "Lombard krediti" anlayışından, həmçinin Qərb ölkələrinin mərkəzi bankları tərəfindən kommersiya banklarına (qiymətli kağızların girovu altında) təqdim edilən qısamüddətli kredit zamanı da istifadə edilir. Lombard krediti öz yerini tədricən kreditləşmənin digər formalarına, o cümlədən kontokorrent kreditə – qiymətli kağızların satışı üzrə onların yenidən alışı şərti ilə əməliyyatlara verir.

LONDON BANKLARARASI FAİZ DƏRƏCƏSİ (ing. *libor (London interbank offered rate)*) – Avropa valyutası bazarında iri bankların bu valyuta ilə borc götürmək və kreditlər verməyə hazır olduqları qoyuluşlar üzrə dollarla və başqa valyutalarla faiz dərəcəsi. Bu dərəcə beynəlxalq maliyyə resurslarının dövriyyə şərtlərini əks etdirir və banklar tərəfindən sahibkarlıq sektoruna borclar üzrə faiz dərəcələrinin müəyyən edilməsi üçün bazis kimi geniş istifadə olunur.

LONDON KLUBU – 600 bankı birləşdirən, öz hökumətlərinin zəmanəti olmadan keçmiş SSRİ-yə borc verən beynəlxalq təşkilat.

LONDON SİTİ (ing. *City (of London)*) – Böyük Britaniyanın pul bazarlarını (kommersiya bankları və s.), kapital bazarını (fond birjası), valyuta bazarını,

Cədvəl 1

Dünyada lombardların iş mexanizmi

Ölkə	Faiz dərəcəsi, aylıq	Girovun maksimal müddəti
Rusiya	10-30%	1 ay
ABŞ	3-25% ştatdan asılı olaraq	1-3 ay
Avstraliya	50$-dək 10%, 50$-dan yuxarı 20%	1 ay
Almaniya	8%	1 ay
Böyük Britaniya	5%	6 ayadək
İsveç	4%	4 ay
Fransa, Belçika	0,5-1%	m.y.

Mənbə: Regionlararası lombardlar assosiasiyası, SmartMoney jurnalı

ilkin rifahlar bazarı və sığorta bazarlarını əhatə edən maliyyə sistemi mərkəzi. London Siti, həmçinin, iri beynəlxalq maliyyə mərkəzi olub, Böyük Britaniyaya maliyyə xidmətləri ixracından böyük miqdarda xarici valyuta gətirir.

LONDONUN TÖRƏMƏ QİYMƏTLİ KAĞIZLAR BİRJASI (ing. *London derivatives exchange*) – qiymətli kağızlar və mallar satılan və alınan fyuçers bazarları. Birja 1990-cı ildə iki bazar müəssisəsinin – London beynəlxalq maliyyə fyuçers birjası ilə London opsion bankının birləşməsindən yaranmışdır.

LORENS ƏMSALI – gəlirlərin qeyri-bərabər bölgüsünü nisbi xarakterizə edən göstərici.


LORENS ƏYRİSİ – əhalinin sayının və bu saya uyğun gələn gəlirlərin kumulyativ bölgüsü. Bu əyri onu tərtib edən ABŞ iqtisadçısı və statistiki Maks Lorensin (1876-1959) adından götürülmüşdür. O, cəmiyyətdə gəlirin bölgüsündə qeyri-bərabərliyin qrafik şərhini vermişdir. Lorens əyrisi əhalinin müxtəlif qruplarının aldığı gəlirin ölçüsü əsasında formalaşmışdır və bu əhali qruplarına çatan gəlirin payını əks etdirir. Lorens əyrisi iqtisadiyyatda məcmu gəlirlərin bölgüsünün təsvir edilməsi üçün istifadə olunur. Bu zaman əhalinin (gəlirləri əldə edən) cəm halında faizi absis oxu üzərində, gəlirlərin cəm halında faizi isə ordinat oxu üzərində qurulur.

Əgər gəlirlər bərabər bölüşdürülərsə, onda ailələrin hər hansı bir faizi gəlirin müvafiq faizini əldə edə bilər (yəni, 10% – gəlirin onda bir hissəsi, 20% – beşdə bir hissəsi, 50% – yarısı və s.). Lorens əyrisi bu zaman düz xətt görünüşlü (formalı) ola bilər (tərəfləri sıfırdan 100%-ə qədər kvadratın diaqonalı olmaqla). Qrafik 1-də AB düz xətt mütləq bərabərliyi, ASB sınıq xətti isə mütləq qeyri-bərabərsizliyi ifadə edir.

Gəlirlərin qeyri-bərabərlik dərəcəsi mütləq bərabərliyi ifadə edən xətlə (AB) Lorens əyrisi arasında sahə ilə müəyyən olunur. Lorens əyrisi mütləq bərabərlik xəttindən nə qədər uzaqdırsa, gəlirlərin diferensiasiyası bir o qədər çox olur.

Lorens əyrisi müxtəlif ölkələrdə və ya regionlarda ayrı-ayrı dövrlər ərzində gəlirlərin bölgüsünün müqayisə edilməsi üçün istifadə oluna bilər.

Gəlirlərin kumulyativ xüsusi çəkisi
(Əhalidən gəlir əldə edənlərin xüsusi çəkisi)



Qrafik 1

LORENS MAKS (1876-1959) – Amerika iqtisadçısı və statistiki. Cəmiyyətdə gəlirlərin qeyri-bərabər bölgüsünün qrafik təsvirini (Lorens əyrisi) vermişdir.



LORO HESABLAR – bank tərəfindən müxbir müqavilələrinə müvafiq olaraq müxbir bankları üçün açdığı və pul vəsaitlərinin hesablandığı, müxbir bankların və onların müştərilərinin tapşırıqları ilə ödəmələr aparılması üçün nəzərdə tutulan hesablar.

LORO-KONTO – bank tərəfindən özünün müxbir bankları üçün açdığı kommersiya hesabıdır. Müxbir banklara bankın özündən daxil olan və onun tapşırığı ilə verilən bütün məbləğlər bu hesaba yazılır.

LOSSECASTER – sığorta məsuliyyətinə xidmət göstərmək üzrə mütəxəssis.

LOSSECASTMENT – zərərin tədqiqi.

LOT (ing. *lot*) – kəmiyyətcə və

keyfiyyətcə standart, sövdələşmələr zamanı əmtəələrin seriyası, partiyası; eləcə də dəst və ya bütöv tam kimi satışa təqdim edilən hər hansı bir əmtəə növüdür. Lotu müqavilə də adlandırmaq olar; müqavilə üzrə daşımanın ümumi həcmi bir neçə lota bölünə bilər. Yekcins tikinti və ya quraşdırma işlərinin müəyyən həcmi də bir neçə lota bölünə bilər. Auksion (hərrac) ticarətində əmtəə lota görə növlərə bölünür. Özü də hər bir əmtəə növü üçün lot ənənəvi olaraq bu əmtəə vahidinin tamamilə müəyyən sayını ehtiva edir. Hər bir lota öz nömrəsi verilir və satış bu nömrə ilə aparılır.

LOTEREYA – lotereya təşkilatçısı tərəfindən lotereya biletlərinin (onlara bərabər tutulan digər məlumat daşıyıcılarının) yayılması, lotereya iştirakçıları arasında uduş fondunun oynanılması və uduşlu lotereya biletlərinin (onlara bərabər tutulan digər məlumat daşıyıcılarının) sahiblərinə uduşların verilməsi (ödənilməsi) yolu ilə keçirilən kütləvi oyun.

LOTEREYA BİLETİ – lotereyada iştirak hüququ verən, uduşlu olduğu halda uduş fondunun müəyyən hissəsinə mülkiyyət hüququnu təsdiq edən sənəd.

LOTEREYA İŞTİRAKÇISI – lotereyada iştirak edən lotereya biletinin (ona bərabər tutulan digər məlumat daşıyıcısının) sahibi.

LOTEREYA TƏŞKİLATÇISI – öz adından və ya digər şəxsin tapşırığı ilə lotereyanı təşkil edən və keçirən hüquqi şəxs.

LOTEREYANIN ŞƏRTLƏRİ – lotereya təşkilatçısı tərəfindən tərtib olunan, lotereyanın təşkili və keçirilməsi ilə bağlı məlumatları əks etdirən rəsmi sənəd.

LOUD – açıq tipli investisiya şirkətlərinin səhmlərinin əsas aktivlərin dəyərindən əlavə tələb olunan qiymətinin bir hissəsi. Louda satış zamanı komisyon mükafat və bütün başqa dövriyyə xərcləri daxildir. Bir qayda olaraq, yalnız alqılara aiddir, səhmlər satıldıqda isə, çox halda əlavələr olmur.

LUKAS ROBERT EMERTON (1937) – amerikalı iqtisadçı, makroiqtisadiyyat üzrə əsərlərin müəllifi.



1995-ci ildə "Rasional gözləntilər haqqında hipotezlərin inkişafı və tətbiqinə, eləcə də makroiqtisadi təhlilə və iqtisadi siyasətin dərk olunmasının dərinləşməsinə" görə Nobel mükafatına layiq görülmüşdür. Çikaqo Universitetində (1955-1959, 1960-1964) və Berklidə Kaliforniya Universitetində təhsil almışdır. Çikaqo Universitetində (1962-1963) dərs demiş, Karneqi Texnoloji Universitetinin (indiki Karneqi Mellon Universiteti) assistenti (1963-1967), professorun assistenti (1967-1970), iqtisadiyyat professoru (1970-1974), Çika-qo Universitetinin professoru (1975-1980), 1980-ci ildən iqtisadiyyat üzrə əməkdar professoru olmuşdur. 1977-1985-ci illərdə Çikaqo Universitetinin



2008-ci ilin fevralında Tonya və Robert Harrislər Corciya ştatında mağazadan əldə etdikləri "Mega Millions" lotareya bileti üzrə 275 mln. $ udmuşlar. Altı nəvələrinin ad günlərini isə onlar uduşlu rəqəm kimi götürmüşlər.

iqtisadiyyat fakültəsinin dekan müavini, 1986-1988-ci illərdə dekanı, "İqtisadi nəzəriyyə üzrə jurnal"ının *("Journal of Economic Theory", 1972-1979)* və "Monetar iqtisadiyyat üzrə jurnal"ının *("Journal of Monetary Economics", 1977-ci ildən)* Baş redaktor müavini, sonrakı illərdə isə Baş redaktoru işləmişdir. Amerika Elm və İncəsənət Akademiyası İdarə Heyətinin, Amerika Milli Elmlər Akademiyasının, Amerika İqtisadi Assosiasiyasının üzvü (1987-ci ildən vitse-prezidenti), Ekonometrika Cəmiyyəti İdarə Heyətinin üzvü (1995-ci ildən vitse- prezidenti), Paris Universitetinin, Afina İqtisadiyyat və Biznes Universitetinin fəxri üzvü olmuşdur.

Lukasın başlıca xidməti rasional gözləntilər hipotezinin istifadə edilməsidir ki, buna uyğun olaraq iqtisadi fəaliyyətin bütün subyektləri – ev təsərrüfatları, firmalar, təşkilatlar makroiqtisadi göstəricilərlə *(Filips əyrisi)* iqtisadi siyasət arasında qarşılıqlı əlaqənin daha dərindən tədqiq edilməsi üçün makroiqtisadi təhlildə onlara yetərli olan informasiyadan istifadə edirlər. Pul kütləsinin artımında gözlənilən və gözlənilməyən dəyişikliklər arasında fərqi təhlilə daxil edərək Lukas müəyyən etdi ki, pul kütləsinin gözlənilən artımı öz nəticəsi kimi inflyasiya yükünün effektinə və bununla belə, məşğulluğun və istehsalın artımına heç bir stimul yaratmadan nominal faiz dərəcəsinə inflyasiya əlavəsinin tətbiqinə malikdir. Əksinə, pul kütləsinin gözlənilməyən artımı istehsalı stimullaşdıra, eyni zamanda onun gözlənilmədən depressiyasını (durğunluğunu) əmələ gətirə bilər. Bu fərq 70-ci illərdə qısamüddətli sövdələşmələr üzrə hesablaşmalarda rasional gözləntilərin hipotezindən istifadə edən bir çox ekonometrik modellərin tətbiqində öz əksini tapmışdır.

Lukasın əsərləri 70-ci illərin əvvəllərinədək ən sabit iqtisadi göstəricilərdən biri hesab olunan inflyasiya və məşğulluq arasında əlaqəni əks etdirən Filips əyrisinin şərhinin əhəmiyyətli dərəcədə yenidən nəzərdən keçirilməsinə gətirib çıxarmışdır. Lukas rasional gözləntilər konsepsiyasını məşğulluğun artımının inflyasiyanın inkişafı ilə məcburi müşayiət olunmasını göstərməkdən ötrü istifadə etmişdir. O, müəyyən etmişdir ki, Filips əyrisi sabit – dəyişməz qalmır, iqtisadi münasibətlərin agentlərinin rasional gözləntiləri daha yüksək inflyasiya səviyyəsinə uyğun gələn zaman isə dəyişir. Bu nəticə 60-cı illərdə bir çox Avropa dövlətlərinin praktik iqtisadi siyasətində sübut olunmuşdur.

Lukasın tədqiqatlarının nəticələri makroiqtisadi nəzəriyyə və iqtisadi siyasətin inkişafı üçün prinsipial əhəmiyyət kəsb edir. Onlardan xüsusilə belə nəticə çıxarmaq olar ki, cəmiyyət yüksək inflyasiya səviyyəsindən nəinki daimi uduş əldə etmir, əksinə, yüksək inflyasiya sürəti ən fəlakətli nəticələrə gətirib çıxarır. Lukas həmçinin göstərdi ki, yüksək işsizlik səviyyəsi və uyğun olaraq aşağı səviyyəli məşğulluq monetar və fiskal siyasətin alətlərinə nisbətən digər metodların köməyilə, məsələn, əmək bazarında bilavasitə strukturdəyişiklikləri vasitəsi ilə aradan qaldırıla bilər. Lukas makroiqtisadi nəzəriyyənin digər bölmələrinə, o cümlədən monetar nəzəriyyəyə, maliyyənin iqtisadiyyatına, iqtisadi artım nəzəriyyəsinə öz töhfəsini vermişdir.

LUKİNOV İVAN İLLARİONOVİÇ (1927-2004) – rus iqtisadçısı, iqtisad elmləri doktoru (1965), professor (1968), Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının akademiki (1997), Ukrayna EA-nın akademiki (1976), SSRİ EA-nın akademiki (1984), Rusiya EA-nın akademiki (1997), İsveç Kənd və Meşə Təsərrüfatı Kral Akademiyasının xarici üzvü (1975). İqtisadiyyatın nəzəri-tətbiqi problemlərinə həsr olunmuş 500-dən çox elmi əsərin müəllifidir. Alimin istehsal, qiymətin əmələ gəlməsi və rentabellik sahəsindəki tədqiqatları müasir qiymət, maliyyə-kredit, struktur və investisiya siyasətinin formalaşmasında böyük rol oynamışdır. Lukinovun səmərəlilik meyarlarının müəyyənləşdirilməsi, əmək potensialının və əmək məhsuldarlığının öyrənilməsi metodu və metodologiyası, istehsalın səmərəliliyinin artırılması zamanı iqtisadi təsir mexanizmlərindən istifadə sahəsində işləri xalq təsərrüfatında bu gün də öz tətbiqini tapmaqdadır.



"LUKAS TƏNQİDİ" – hökumətin öz siyasətini müəyyən iqtisadi modelə əsaslanaraq həya-

ta keçirilməsini ifadə edən konsepsiyadır. Bu zaman hökumət bu müddətdən istifadə etməyi bacaran insanların öz davranışlarını necə dəyişməsini nəzərə almalıdır.

LÜDVİQ ERHARD MODELİ (ALMAN İQTİSADİ MÖCÜZƏSİ) – axırıncı dünya müharibəsindən 67 ildən çox vaxt keçir. Müharibədən sonra iki dövlətə – Almaniya Federativ Respublikasına və Almaniya Demokratik Respublikasına bölünən Almaniya bu gün yenə bütöv, vahid dövlət kimi dünya siyasətində və iqtisadiyyatında mühüm rol oynayır. Əlbəttə, dəhşətli müharibədə bu cür ağır məğlubiyyətə uğramış Almaniyanın yenidən yüksəlməsi ancaq və ancaq düşünülmüş dövlət siyasəti nəticəsində mümkün olmuşdur. Bu siyasətin başında isə Konrad Adenauer və Lüdviq Erhard dayanmışlar. Hər iki şəxsiyyət dünya tarixində mühüm yer tutur.

Alman inkişaf modelinə bir çox hallarda Lüdviq Erhard modeli deyirdilər. Müharibədən sonra Almaniyanın Baş naziri vəzifəsinə qədər yüksəlmiş Lüdviq Erhard bildirirdi ki, **iqtisadiyyat hər cür totalitaristlərin müdaxilələrindən qanunvericilik sistemi ilə mühafizə olunmalı, dövlət bazarı sivil qaydalarla müdafiə etməli, istehsalçıları sosial populizmdən qorumalıdır.**

Bu məqsədlə iqtisadçı-islahatçı Lüdviq Erhard xüsusi sahibkarlığın azadlığı üçün əlverişli şəraitin yaradılması istiqamətində çox düşünülmüş tədbirlər həyata keçirdi. O, istehsalın stimullaşdırılması üçün aşağı



4.02.1897–5.05.1977

vergilərin tətbiqi, qiymətlərin sərbəstləşdirilməsi barədə, antitrest və antikartel fərmanları imzaladı, azad xüsusi investisiya qoyuluşları üçün güzəştlər, daxili bazarın xarici rəqiblərdən qorunması üçün məqbul iqtisadi mexanizmlər tətbiq etdi, səmərəli idarəetmə strukturları formalaşdırdı. Bir sözlə, alman "iqtisadi möcüzə"sinin əsaslarını yaratdı.

Lüdviq Erhard xaricdən verilən tövsiyələrin çoxunu nəzərə almadı, mükəmməl və tam iqtisadi islahatlara nail oldu. Bu, Şərqi Avropa ölkələrinin "şok terapiyası"ndan köklü surətdə fərqlənən bir proqram idi.

Lüdviq Erhard Keynsin nəzəriyyəsindən də düşünülmüş şəkildə istifadə etməyə üstünlük verdi. O bildirirdi ki, keynsçilik vasitələri "böyük tənəzzül"dən çıxış üçün çox yararlı olsa da, onlardan istifadənin hədləri olmalıdır. Əks halda, dövlət diktatı təhlükəsi yarana bilər. Amma onu da qeyd edək ki, prinsipcə, Lüdviq Erhard modeli klassik azad rəqabət nəzəriyəsindən daha çox keynsçiliyin dolayı tənzimləmə nəzəriyyəsinə yaxındır.

Lüdviq Erhard yeni cəmiyyəti formalaşdırmağa qadir olan dövlətin "quran", "idarə edən" və "tənzimləyən" qüvvələrə əsaslanmasını üstün tuturdu. Onun yeniləşən, modernləşən Almaniya konsepsiyası totalitar rifah və azadlıq prinsiplərinə yaxın olsa da, nümunəvi liberal doktrina kimi qiymətləndirildi...

Bu dövlətin uğurları bütün dünyanı heyran etdi. Bunu Almaniyanın inkişafını səciyyələndirən göstəricilər əyani sübut edir. Avropa İttifaqının fəal üzvlərindən olan Almaniya hazırda dünyanın dövlətlərindən biridir. Almaniya Federativ Respublikası ilə Almaniya Demokratik Respublikası 1990-cı ildə birləşdikdən sonra müxtəlif siyasi sistemlərin inteqrasiyası prosesi baş verdi.

Almaniya iqtisadiyyatının nailiyyətlərini əks etdirən bəzi faktlara nəzər salaq:

– ölkənin başlıca sərvəti daş və boz kömürdür (Rur və Saar hövzələri). Rur hövzəsi ehtiyatlarına görə Avropada birinci yeri tutur. Vezer və Zaale çayları arasında kalium duzlarının böyük ehtiyatları vardır;

– tikinti materialları ehtiyatlarının böyük sənaye əhəmiyyəti vardır. Meşə massivləri ölkə ərazisinin, demək olar, dörddə bir hissəsini təşkil edir. 1970-ci illərdə ilk milli parklar yaradılmışdır. Bunlar dövlət tərəfindən qorunan iri meşə sahələridir;

– sənayedə və tikintidə məşğul olanların xüsusi çəkisi (iqtisadi fəal əhalinin 45%-i) başqa Qərbi Avropa ölkələrindən xeyli

Cədvəl 1

Erhardın islahatları və onların məzmunu

		Xronologiya	İslahat	İslahatın mahiyyəti	Nəticələr
İslahatların sosialyönümlülüyü	Təsərrüfat islahatı	21 iyun 1948-ci il	Pul islahatı	Yeni valyuta – doyçmarkın dövriyyəyə buraxılması	Aşağı inflyasiya səviyyəsi və möhkəm alman markası
		24 iyun 1948-ci il	Qiymət islahatı	Sərbəst qiymətlər qanunu, qiymətlər "azadlığa" buraxılır	Ölkə əhalisinin alıcılıq qabiliyyəti nəzərə alınır, qiymətlərin sərbəst şəkildə formalaşması
		1949-1953-cü illər	Mənzil-tikinti islahatı	Yaşayış binalarının kütləvi tikilməsi	Əhalinin yaşayış səviyyəsinin yüksəlməsi, tikintinin hesabına məşğulluğun artması
		1950-ci ildən	Antiinhisar islahatları, kiçik müəssisələrin dəstəklənməsi sistemi	Dövlət tərəfindən kiçik və orta müəssisələrin maliyyələşdirilməsi, güzəşt və kreditlər	Antiinhisar qanunvericiliyin hesabına ölkə iqtisadiyyatının inkişafı və dəstəklənməsi, rəqabətin artırılması, kiçik %-lə kreditləşdirmə, güzəştlər, sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi
		1960-cı illər	Elmi-texniki tərəqqi	Müasir texnologiyaların hazırlanması	Məhsuladarlığın yüksəlməsi, yeni texnologiyaların yaranması

çoxdur. Bundan başqa, elmi tədqiqat sahəsində, nəqliyyatda və xidmət sahələrində işləyənlərin də sayı sürətlə artır;

– kənd təsərrüfatı Almaniyada yüksək səviyyədə inkişaf etmiş sahədir. Məşğul əhalinin cəmi 4%-i bu sahədə çalışır. Almaniya vahid dövlətdə birləşdikdən sonra Avropada iri kənd təsərrüfatı istehsalçısına çevrilmişdir. Heyvandarlıq kənd təsərrüfatı məhsullarının dəyərinin beşdə dörd hissəsini verir. Almaniya dünyada iri kartof, şəkər çuğunduru, tərəvəz və üzüm istehsalçısı olsa da, əhalisinin kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəyə bilmir. Ona görə də Yaponiya ilə yanaşı, dünyada ən iri kənd təsərrüfatı məhsulları idxal edən iki ölkədən biridir;

– Almaniya yaxşı inkişaf etmiş nəqliyyat sisteminə malikdir. Bu sistem nəinki daxili daşımaları, həm də tranzit daşımaları təmin edir, belə ki, Avropanın mərkəzində yerləşir. Almaniya Avropa avtomobil yolları sisteminin və transavropa sürətli dəmir yollarının yaradılmasında iştirak edir. Yük daşımalarının 20%-i su nəqliyyatı vasitəsilə həyata keçirilir. Bu göstəriciyə görə Almaniya Avropada liderdir;

– qabaqcıl sənaye ölkələrindən olan Almaniyanın 2010-cu ildə ümumi daxili məhsulu 2130 milyard avro təşkil etmişdir. İqtisadi qüdrətin bu göstəricisinə görə Almaniya dünyada üçüncü yeri tutur. ÜDM-in strukturunda xidmət sahələri – 69%, sənaye

Cədvəl 2

Sənaye istehsalı indeksi (1936-cı il = 100)

Dövr	Bütün sənaye	Xammal və yarımfabrikatlar	Sanayenin istehsal vasitələri	Sənayenin kütləvi istehlak malları
1948-ci ilin I yarısı	50,2	43,8	45,0	42,4
II yarısı	69,1	64,1	67,2	60,8
1949-cu ilin I yarısı	82,9	78,5	84,2	78,2
II yarısı	94,0	83,7	87,4	92,6
1950-ci ilin I yarısı	99,7	93,1	98,8	103,4
II yarısı	121,7	113,5	126,5	123,1
1951-ci ilin I yarısı	127,7	120,9	144,6	129,1
II yarısı	134,3	122,3	149,9	128,3
1952-ci ilin I yarısı	133,4	122,8	161,5	120,3
II yarısı	145,3	129,9	167,2	139,9
1953-cü ilin I yarısı	145,6	132,3	167,6	142,2
II yarısı	161,5	141,2	178,4	161,5
1954-cü ilin I rübü	153,4	137,1	182,3	154,5
II rübü	171,2	158,2	205,6	161,3
III rübü	171,4	162,5	200,5	162,8
IV rübü	191,0	166,6	230,1	183,9
1955-ci ilin I rübü	178,5	163,7	230,0	170,6
II rübü	197,8	185,1	255,0	177,7
III rübü	197,1	185,7	248,1	180,3
IV rübü	216,6	188,0	274,6	207,4
1956-cı ilin I rübü	197,2	176,1	263,2	187,5
II rübü	217,1	202,0	285,7	195,6
III rübü	212,1	199,3	266,4	195,2
IV rübü	226,1	196,7	280,9	219,2
1957-ci ilin I rübü	212,9	195,2	275,1	206,1
II rübü	230,3	211,1	298,0	209,5

30%, kənd təsərrüfatı 1% təşkil etmişdir. İnflyasiya son illərdə təqribən 2,25% olmuşdur;

– iqtisadi qüdrətinə görə dünyada üçüncü olan Almaniya dünya ixracında payına görə liderdir. 2005-ci ildə ixrac üzrə birinci məhz Almaniya olmuşdur. 748 milyard dollarlıq ixrac həcminə görə o, ABŞ-ı da ötüb keçmişdir. Əlbəttə, bu liderliyin əldə olunmasında ABŞ dolları ilə müqayisədə avronun məzənnəsinin artması da öz rolunu oynamışdır;

– muzdlu işçilərin 70,2 faizdən çoxu 3,4 milyon kiçik və orta ölçülü müəssisəyə (Almaniyada olan bütün müəssisələrin 99,7 faizi) malik olan özəl sektorda çalışır. Bundan başqa, hər 10 şagirddən səkkizi peşə təlimi keçir. Beynəlxalq avtomobil salonu, beynəlxalq turizm birjası kimi alman yarmarkaları hələ orta əsrlərdə toplanmış təcrübəni necə inkişaf etdirmək lazım olduğunu uğurla nümayiş etdirirlər;
– ölkədə innovasiyaların və ideya zənginliyinin meyarı hesab olunan patent işi yüksək səviyyədə qurulmuşdur. Ümumdünya intellektual mülkiyyət təşkilatı bu sahədə ilk növbədə ABŞ-ı, Yaponiyanı və Almaniyanı ön plana çəkir. 2006-cı ildə patentlərə verilmiş ərizələrin 12 faizindən çoxu Almaniyadan olmuşdur. Dünya üzrə ən innovasiyalı 10 müəssisədən 4-ü alman şirkətidir;
– gəmi kapitanlarına 53 33 N 9 58 koordinatları yaxşı tanışdır. Bu, Hamburq limanına girişdir. Buraya hər il 12 min ticarət gəmisi daxil olur. İllik yük döv - riyyəsi 6,1 milyon konteynerdir. Dünyada Rotterdamdan sonra ikinci yeri tutur. Maliyyə mərkəzlərinin qlobal reytinqində Frankfurt London, Nyu-York və Tokiodan sonra dördüncü yerdədir. Avropa Mərkəzi Bankının burada yerləşməsi də qəribə görünməməlidir;
– Almaniya iqtisadiyyatının nümunəvi sahəsi maşınqayırmadır. Təkcə poliqrafiya avadanlığı üzrə dünya ixracının 30%-i Almaniyanın payına düşür;
– Almaniyanın 100 iri müəssisəsi arasında birinci yerdə Siemens durur. 420 mindən çox işçisi olan bu şirkət "Deutsche Post"u (383 min nəfər), "Daimler-Chrysler"-i (362 min nəfər), "Volkswagen"i (336 min nəfər) və "Deutsche Telecom"u (251 min nəfər) qabaqlayır. Dünyanın ən iri 10 müəssisəsi arasında Siemens 8-ci yeri tutur;
- gələcəyin sahələri – nano və biotexnologiya iqtisadi artıma şərait yaradır. Qabaqcıl texnologiyaların tətbiqi üzrə dünya ticarətində Almaniyanın payı 10,6%-dir. Bu, ABŞ-dan sonra ikinci yer deməkdir. Eyni zamanda Avropadakı innovasiyalı müəssisələrin ən yüksək sıxlığı Almaniyadadır. Təkcə biotexnologiya sahəsində 600 firma fəaliyyət göstərir;
– Almaniyanın informasiya və biotexnologiyaları, həmçinin bərpa olunan enerji mənbələrindən istifadə üzrə texnologiyaları və ekoloji cəhətdən təmiz texnologiyaları dünyada qabaqcıl mövqe tutur;
– almanların türk mənşəli həmvətənlərinin iş qabiliyyəti və sərvətləri öz bəhrəsini verir. Bu gün Almaniyada 60 min müəssisə onların əlindədir. Bu müəssisələrin mal dövriyyəsi 30 milyard avrodan çoxdur. Onlar işəgötürən kimi tanınmışlar: 350 min nəfər işçi bu müəssisələrdə çalışır;
– Almaniyada hər il 200 min müəssisə bazara yeni məhsullar çıxarır. Onların 35 mini müntəzəm elmi axtarışlarla məşğuldur. Ölkənin iqtisadi həyatının qlobal bazara istiqamətlənməsi üçün bütün imkanlardan istifadə olunur;
– müəssisələr hər üç avrodan birini ixrac hesabına qazanırlar, hər dörd avrodan biri isə xarici ticarətdən asılıdır. Xarici ölkə müəssisələri arasında rəqabət yüksək səviyyədədir;

Cədvəl 3

Almaniyada pul islahatından sonra istehsalın artım dinamikası (1936-cı ilə nisbətən)

(1936 = 100)	1948-ci ilin II rübü	1948-ci ilin IV rübü
Bütün sənaye (tikinti istisna olmaqla)	152,1	175,4
Sənaye malları	146,4	168,3
İstehsal vasitələri	146,6	175,7
Kütləvi istehlak malları	143,4	166,6
Yeyinti sənayesi	155,0	178,8

Cədvəl 4

Almaniyada məşğulluq və işsizlik (min nəfərlə)

	İşləyənlər	İşsizlər	Cəmi
30.6.48	13 468	451	13 919
30.9.48	13 463	784	14 247
30.9.49	13 604	1 314	14 918
30.9.50	14 296	1 272	15 567
30.9.51	14 885	1 235	16 120
30.9.52	15 456	1 051	16 707
30.9.53	16 044	941	16 986
30.9.54	16 831	823	17 653
30.9.55	17 807	495	18 302
30.9.56	18 610	411	19 021

Cədvəl 5

Əhali gəlirlərinin artımı, (mlrd. a.m.)

İllər	Fəhlə və qulluqçuların ümumi əmək haqqı		Çıxılmalar	Xalis əmək haqqı (1-3)	Pensiya və yardımlar	Əhali gəlirləri (4+5)
	Cəmi mlrd. a.m.	Hər işləyənə, a.m.				
	1	2	3	4	5	6
1950	39,3	2 839	5,3	34,0	11,4	45,4
1952	53,5	3 560	8,4	45,1	15,0	60,1
1954	63,8	3 922	9,7	54,1	17,7	71,8
1955	72,2	4 193	11,2	60,9	19,6	80,6
1956	80,8	4 473	12,9	67,9	22,0	89,9

– Almaniya müəssisələrinin daim möhkəmlənən yüksək rəqabət qabiliyyətini xarici ticarət balansının müsbət saldosu sübut edir. 1991-ci ildə o, 11 milyard avro idisə, 2006-cı ildə 130 milyard avroya çatmışdır;

– 2005-ci ildən Almaniya külək enerjisindən istifadə üzrə dünyada liderdir. Ölkədə 16 mindən çox külək qurğusu quraşdırılmışdır;

– mobil telefonlar bumu istehlak malları iqtisadiyyatı sahəsində tarixi uğurlardan biridir. 45 milyon mobil telefon – bu rəqəm artıq özü haqqında təsəvvür yaradır. İnternetə qoşulmaların da sayı sürətlə artmaqdadır;

– hələ 1979-cu ildə 1758 iş saatı adi hal idi. Almanlar indi iş yerində yalnız 1446 saat olurlar;

– Almaniya iqtisadiyyatı çox yaxşı inkişaf etmiş infrastruktura, ixtisaslı işçi qüvvəsinə və əməyə olan münasibətinə görə əvvəlki kimi yenə də xarici investorları cəlb etməkdə davam edir. Elmi tədqiqatlar sahəsində qazanılmış nailiyyətlər Almaniyanın daha bir "firma nişanı"dır;

– həmkarlar ittifaqları ilə işəgötürənlər arasında sosial tərəfdaşlıq möhkəm sosial sülhü təmin edir. Əmək bazarında, so-

sial sığorta sistemində islahatlar uğurlu nəticələrini verir.

– Almaniyanın iri ticarət tərəfdaşları Qərbin inkişaf etmiş dövlətləridir. Ən sıx ticarət əlaqələri Avropa İttifaqı ölkələri ilədir. Bütün xarici ticarət dövriyyəsinin yarıdan çoxu onların payına düşür. Yaponiyada 2010-cu ildə baş verən zəlzələ, atom stansiyasındakı partlayışdan sonra yanacaq ehtiyatları o qədər çox olmayan bəzi ölkələr, o cümlədən Almaniya yaxın gələcəkdə fəaliyyət göstərən atom elektrik stansiyalarının dayandırılması, alternativ enerji mənbələrindən istifadə etmək barədə qərar verdi.

Dünya iqtisadiyyatına inteqrasiya olunmadan Almaniya müasir sənaye ölkəsi kimi qala bilməzdi. Eyni zamanda, iqtisadiyyatın səmərəliliyinin və rəqabət qabiliyyətinin artması ölkənin xarici ticarət əlaqələrinin genişlənməsinə möhkəm zəmin yaratmışdır. Ticarət və sıx iqtisadi əlaqələr isə inam doğurur, beynəlxalq münasibətlərin inki-

Cədvəl 6

Alman torpaqları bankında qızıl və valyuta ehtiyatları (mlrd. a. m.)

İlin sonuna	Qızıl və valyuta ehtiyatları	İlin sonuna	Qızıl və valyuta ehtiyatları
1949	+ 0,38	1953	- 8,17
1950	-0,66	1954	+ 10,95
1951	+ 1,52	1955	+ 12,81
1952	+ 4,64	1956	+ 17,90

Cədvəl 7

Almaniyanın ümumi milli məhsul və xarici ticarət dövriyyəsinin göstəriciləri

İllər	Ümumi milli məhsul	İdxal	İxrac	Xarici ticarət dövriyyəsi
1948	100	9,9	5,2	15,1
1950	100	12,7	9,3	22,0
1952	100	12,9	13,4	26,3
1954	100	13,3	15,2	28,5
1955	100	14,9	15,7	30,6
1956	100	15,5	17,1	32,6

Cədvəl 8

Ölkələr üzrə ümumi sənaye istehsalının müqayisəli təhlili (1950 = 100)

	1938	1949	1950	1951	1952	1953	1954	1955	1956
Almaniya Federativ Respublikası	107	80	100	119	126	139	155	178	192
Fransa	81	99	100	113	118	115	125	137	159
Norveç	65	88	100	107	108	114	125	129	140
Kanada	48	94	100	107	110	117	116	126	134
ABŞ	43	87	100	107	111	120	112	124	128
Böyük Britaniya	75	93	100	104	101	107	114	121	120

şafına və sabitliyinə kömək edir. 1980-ci illərin sonlarında Almaniyada fəaliyyət göstərən xarici müəssisələr çox az miqdarda investisiya qoyuluşları etdikləri halda alman müəssisələri xaricdə birbaşa investisiya qoyuluşlarını xeyli artırmışdılar. Buna əsaslanan bəzi tənqidçilər belə qənaətə gəlmişdilər ki, Almaniya investorlar üçün cəlbedici deyildir. Bu gün vəziyyət başqadır. Xarici ölkələrdə alman investisiyalarının həcmi Almaniyaya birbaşa investisiyaların miqdarından hələ çox olsa da, bu, iqtisadiyyatı ixraca yönəlmiş ölkə üçün normal haldır. Almanlar belə hesab edirlər ki, xarici ölkələrə qoyulan investisiyalar məhz yeni bazarlara daxil olmaq və ya satış şəbəkəsini genişləndirmək üçün nəzərdə tutulur.

Beynəlxalq Menecment İnstitutunun apardığı tədqiqatların nəticələrinə əsasən iqtisadiyyatına qoyulan investisiyalara görə Almaniya dünyada ABŞ-dan sonra ikinci yerdədir. Əgər 1990-cı illərdə ölkəyə investisiya axını 100 milyard avro idisə, 2000-ci ildə bu rəqəm artıq 280 mlrd. avroya çatmış, 2007-ci ildə isə 300 mlrd. avronu ötmüşdür.

Xarici ölkələrə birbaşa alman investisiyalarının həcmi də həmin müddət ərzində xeyli (150 mlrd.-dan 570 mlrd. avroya qədər) artmışdır. Bu investisiyaların əsas hissəsi xarici bazarların mənimsənilməsinə sərf olunmuşdur.

Qloballaşma müəssisələrdən qlobal iştirak tələb edir. Alman firmaları bunu başa düşmüşlər və bundan lazımınca istifadə edirlər. Onu da qeyd edək ki, xarici ölkələrə investisiya qoyuluşları iş yerlərini də təmin edir. Alman müəssisələrinin xaricdəki fəaliyyəti sayəsində bütün dünyada 4 milyona qədər iş yeri saxlanmaqdadır. Bu, ölkə daxilində də məşğulluğa müsbət təsir göstərir. **Ekspertlərin fikrincə, xaricdə üç iş yeri ölkə daxilində bir iş yerini təmin edir.**

Almaniya azad dünya ticarəti tərəfdarıdır, ekoloji və sosial aspektləri də nəzərə almaqla, dünya ticarətinin sabit inkişaf ruhunda daha da liberallaşdırılması uğrunda çıxış edir.

Almaniya beynəlxalq danışıqlar vasitəsi ilə ticarət qaydalarının möhkəmlənməsinə, xarici bazarların şəffaflığına və ticarət maneələrinin aradan qaldırılmasına nail olmağa çalışır.

Xarici iqtisadi fəaliyyətə kömək haqqında qanunun qəbul edilməsi sayəsində dünya bazarlarında alman müəssisələrinin rəqabət qabiliyyəti yüksəlir. İnkişaf etməkdə olan ölkələrə kapital qoyarkən iqtisadi və siyasi riskləri neytrallaşdırmaq üçün federal hökumət xüsusi mexanizm hazırlamış, islahatlar aparan 124 inkişaf etməkdə olan dövlət, Mərkəzi və Şərqi Avropa ölkələri ilə investisiyaların dəstəklənməsi və qorunması haqqında müqavilələr bağlamışdır.

Federasiya göstərilən ölkələrdə qoyulan kapitalın risklərdən müdafiəsinə zəmanət verir. Federasiyanın yaratdığı İnvestisiya və İnkişaf Məsələləri üzrə Alman Cəmiyyəti "üçüncü dünya ölkələri"ndə və islahatlar aparan dövlətlərdə alman firmalarının birbaşa investisiyalarına kömək göstərir. Almaniyanın kiçik və orta ölçülü müəssisələri bu məqsədlər üçün güzəştli kredit və dotasiyalar alırlar.

Son illər Almaniya sosial-bazar təsərrüfatı modelini həyata keçirməkdə çətinlik çəkir. Sosial zəmanətlərin yüksək olması alman şirkətlərinin mənfəətinin 40%-nin əmək haqqı ödənişinə və sosial fondlara yönəldilməsinə səbəb olmuşdur. Sosial sferanı lazımi səviyyədə saxlamaq üçün əhali və şirkətlərə münasibətdə sərt fiskal siyasət tətbiq olunur. Əgər 1990-cı illərin sonlarında ABŞ-da bölüşdürülməmiş mənfəətin 32%-i, Böyük Britaniyada 45%-i vergilərə sərf olunurdusa, bu rəqəm Almaniyada 65%-ə çatırdı. Hazırda bu rəqəm 50% təşkil edir. Bu, həm də əhalinin qocalma səviyyəsinin yüksək olması ilə izah olunur. İşsizliyin səviyyəsi də yüksəkdir (7,8-8,5%).

Dünya maliyyə böhranı nəticəsində ölkə iqtisadiyyatı ciddi təzyiqlərə məruz qalsa da, Almaniya hökuməti yuxarıda sadaladığımız mövqeləri qoruyub saxlamaq üçün daha düşünülmüş siyasət yeritməyi özünün başlıca məqsədi sayır.

Tərlan Cavadov

LÜKSEMBURQ ROZA (1870-1919) – 1870-ci ildə Polşada anadan olmuşdur, uşaqlığını və gəncliyini Varşavada keçirmişdir. O, hələ məktəb illərində sosialist hərəkatında fəal iştirak etmiş və buna görə gənc yaşlarında İsveçrəyə qaçmaq məcburiyyətində qalmışdır. O, Tsürix universitetinə qəbul olunmuş və



1898-ci ildə "Polşanın sənaye inkişafı" mövzusunda dissertasiya yazıb doktor dərəcəsinə layiq görülmüşdür. O dövrdə qadınların təhsil almasına münasibəti nəzərə alsaq, güman etmək olar ki, o, iqtisadiyyat doktoru dərəcəsini alan ilk alim qadın idi. 1897-ci ildə saxta nikah bağlayaraq alman vətəndaşlığını aldıqdan sonra Berlinə köçmüş və burada Bernşteynin revizionizminə qarşı mübarizədə Karl Kautskiyə qoşulmuşdur. Lakin sonralar o, Kautskinin ehtiyatlı siyasətindən uzaqlaşaraq Almaniyanın sosial-demokrat partiyasının sol cinahını elan etmişdir. 1907-ci ildən sonra o, dövri olaraq Berlindəki partiya məktəbində marksist nəzəriyyəsi mövzusunda mühazirələr oxuyurdu. İqtisadi, siyasi məsələləri əhatə edən bu mühazirələr nəşr olunurdu. Burada müharibənin kəskin tənqidi onun həbsinə səbəb olmuşdur.

1913-cü ildə Roza Lüksemburqun "Kapital yığımı" kitabı (1913) işıq üzü gördü. Bununla da alman və avstriyalı marksistlər arasında K.Marksın təkrar istehsal sxemi ilə bağlı "böyük fikir ayrılığı"nın təməli qoyuldu. Halbuki Marksın vəfatından sonra bu sxem bir sıra iqtisadçılar tərəfindən ümumiyyətlə inkar olunurdu. Roza Lüksemburq iddia edirdi ki, Marksın sxemi qapalı kapitalist iqtisadiyyatında dayanıqlı inkişafın mümkün olmadığını nümayiş edir. Buna görə, o, kapitalizm şəraitindəki artım, ölkə daxilində və yaxud xaricində qeyri-kapitalist istehsal sahələrinin inkişafını nəzərdə tuturdu. O, belə bir qənaətə gəlmişdir ki, kapitalizmə xas olan ümumi tələbin çatışmazlığı beynəlxalq münasibətlərin pozulmasının əsas səbəbidir və bu, bütün dünya üçün xasdır. Yeni kapitalizmin devrilməsi Marksın proqnozlaşdırdığı kimi, yalnız daxili inqilablara yox, həmçinin beynəlxalq müharibələrə və müstəmləkələrin azadlıq uğrunda mübarizəsinə səbəb olacaq.

Roza Lüksemburqun bu fikirləri o dövrün aparıcı marksistləri olan Mixail Tuqan-Baranovski, Karl Kautski, Nikolay Buxarin və Uduard Bernşteyn tərəfindən müzakirə olunmuşdur. Roza Lüksemburq Birinci dünya müharibəsi ərəfəsində həbs cəzasının müəyyən hissəsini tənqidçilərinə cavabı əks edən kitabının yazılmasına həsr etmişdir. 1918-ci ildə həbsxanadan çıxdıqdan sonra o, Karl Libknext ilə birlikdə Almaniyanın Kommunist Partiyasını yaratmış və 1919-cu ildə Almaniyada baş verən inqilabda fəal iştirak etmişdir. Onların hər ikisi həbs edilmiş və sonralar məlum olmayan şəraitdə qətlə yetirilmişlər. Bu zaman onun 49 yaşı var idi.

LVOV DMİTRİY SEMYONOVİÇ (1930-2007) – rus iqtisadçısı, 1954-cü ildə Moskva mühəndis iqtisadiyyatı institutunu bitirib. 1987-ci ildə SSRİ EA-nın müxbir üzvü, 1994-cü ildə Rusiya EA-nın akademiki. 1966-1972-ci illərdə SSRİ EA-nın İqtisadiyyat İnstitutunun elmi işçisi, 1972-1991-ci illərdə



Mərkəzi İqtisadi-Riyaziyyat İnstitutunun laboratoriya və şöbə müdiri, 1993-cü ildə RF hökumətinin ekspert şurasının üzvü, 1996-cı ildə Rusiya EA-nın akademik katibi. Lvov kapital qoyuluşları və yeni texnikanın səmərəliliyinin qiymətləndirilməsi sahəsində metodoloji tövsiyələrin müəllifidir. Rusiyadakı islahatlar problemi sahəsində nəşr etdirdiyi əsərlər həm ölkədə, həm də ondan kənarda geniş əks-səda doğurmuşdur. O, 200-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın və 2 dərsliyin müəllifidir. Keçid iqtisadiyyatı şəraitində vergilər və dotasiya siyasəti, büdcə siyasəti və onun maliyyə tənzimlənməsi, institusional dəyişikliklər və özəlləşdirmə, investisiya və struktur siyasəti və s. problemləri tədqiq etmişdir.

LYUİS UİLYAM ARTUR (1915-1992) – ingilis iqtisadçısı, inkişaf etməkdə olan ölkələr üzrə mütəxəssis. 1979-cu ildə "İqtisadi inkişafın yenilikçi tədqiqinə görə" iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür (T.Şultsla birgə).



London iqtisadiyyat məktəbini (LİM) bitirmişdir (1933-1937). London Universitetində (1938-1948) dərs demişdir. 1948-ci ildən Mançestr Universitetinin

professoru, 1951-1973-cü illərdə inkişaf etməkdə olan ölkələr üzrə BMT-nin eksperti, BMT-nin Xüsusi fondunun icraçı direktorunun müavini, 1957-1959-cu illərdə Qananın Baş nazirinin müavini, 1959-1963-cü illərdə Vest-İndiya Universitetinin vitse-prezidenti olmuş, 1963-cü ildə zadəgan rütbəsi almışdır. 1970-1974-cü illərdə – Barbados adasında Karib İnkişaf Bankının prezidenti olmuşdur. Kolumbiya, Harvard, Yelsk, Vest-İndiya, Mançestr, Uels, Bristol, Laqos və Toronto universitetlərinin fəxri elmi dərəcələrinə layiq görülmüşdür. London iqtisadiyyat məktəbinin fəxri üzvü, Britaniya Elmlər Akademiyasının müxbir üzvü. Kral İqtisadi Cəmiyyəti *(Böyük Britaniya)* Şurasının və ABŞ-ın rəngli (qara) əhalisinin Milli Yardım Assosiasiyasının İqtisadi Məsləhət Komitəsinin üzvü, Qananın İqtisadiyyat Cəmiyyətinin prezidenti seçilmişdir.

Lyuisin ilk tədqiqatları Britaniya iqtisadiyyatının sənaye təş - kilinə və dünya iqtisadiyyatı tarixinə aid idi. Sonradan o, neoklassik nəzəriyyə çərçivəsində öz nöqteyi-nəzərini əsaslandıraraq, sənaye iqtisadiyyatının problemləri ilə məşğul olmuşdur. Lyuis bu sahədə öz ideyalarını "Qaimə xərcləri: iqtisadi təhlil üzrə oçerklər" *("Overhead Costs: Some Essays in Economic Analysis", 1950)* kitabında ümumiləşdirmişdir.

50-ci illərdən başlayaraq Lyuis "üçüncü dünya"nın iqtisadi problemləri ilə məşğul olmuşdur. Onun "Vest İndiyada əmək" *("Labour in the West Indies", 1939)*, "Britaniya sənayesində inhisar" *("Monopoly in British Industry", 1945)* və "İqtisadi planlaşdırma prinsipləri *("Prin ciples of Economic Planning", 1949)* monoqrafiyaları Britaniya müstəmləkələri üçün xarakterik olan qarışıq iqtisadiyyatın problemlərinin şərhini ehtiva edirdi. İnkişaf etməkdə olan ölkələrin iqtisadiyyatını 1939-1945-ci illər İkinci Dünya müharibəsindən sonra Qərbi Avropa ölkələrinin iqtisadiyyatının bərpa edilməsi prosesi ilə müqayisə edərək, Lyuis sürətli iqtisadi artımın təmin edilməsi məqsədi ilə ənənəvi məhsulların ixracından alınan mənfəət hesabına Marşall planına oxşar – təklif edilən sənaye sektorunun üstün inkişafı layihələrinin qeyri-səmərəliliyi haqqında nəticəyə gəldi. Bu tövsiyələrin əksinə olaraq, Lyuis kapitalist inkişafının üstün olduğu sənaye sektoru ilə ənənəvi aqrar sektoru arasındakı fərqi araşdırdı və inkişaf etmiş ölkələrin "dual iqtisadiyyat" deyilən modelini yaratdı. Bir halda ki, "üçüncü dünya" ölkələri savadsız kənd təsərrüfatı fəhlələrinin artıqlığına malik idi, Lyuis sənayeyə kapital qoyuluşunun maliyyələşməsi ilə yanaşı, nisbətən aşağı xərclər zamanı artan ticarət və emal sənayesi sektorlarında təhsil almış savadlı işçilərin işləməsinin və beləliklə, alınan mənfəətin, iri investisiyaların iqtisadi tərəqqi üçün xalq təhsi - linə, yəni "insan kapitalı"na qoyulmasının məqsədəuyğun - luğunu əsaslandırmışdır.

Lyuis ilk dəfə olaraq bu modelə öz yanaşmasını 1951-ci ildə "Aşağı gəlirli ölkələrdə iqtisadi inkişaf" *("Economic Development in Low Income Countries")* mövzusunda BMT-nin məruzəsinin bir hissəsi kimi dərc etdirmişdir ki, bunun hazırlanmasında T.Şults da iştirak etmişdir. "Dual iqtisadiyyat" modelinin təkmilləşdirilmiş variantı Lyuisin "İqtisadi artım nəzəriyyəsi" *("Theory of Economic Growth", 1955)* əsərində əks olunmuşdur.

LYUK QEYDİ – gəminin hər bir yük saxlanılan yerində yerləşdirilən yüklərin siyahısı. Gəminin rəhbərliyi tərəfindən anbarlarda axtarışı asanlaşdırmaq və təyinat limanında konasament boşaldılması məqsədilə tərtib edilir.

LYUMPEN – hər cür mülkiyyətdən (hətta daşınar əmlakdan) məhrum olan, ictimai istehsalda iştirak etməyən və təsadüfi qazanca yaşayan insan.

LYUMPSUM – bütün gəmi üçün daşınan yükün faktiki miqdarına aidiyyatı olmadan akkord çıxılan daşınma haqqı. Lyumpsum haqqı adətən aşağıdakı hallarda tətbiq olunur: kütləsini və həcmini əvvəlcədən müəyyən etmək çətin olduğu müxtəlif xarakterli yüklərin daşınması zamanı və ya gəmini kirayə verənlər onun yükdaşıma qabiliyyətindən tam istifadəyə zəmanət vermədiyi halda. Adətən kirəçilər lyumpsum fraxtını razılaşdıraraq, çarterə zəmanətli yükdaşıma qabiliyyətinin daxil edilməsini tələb edirlər. Bu, gəmi sahiblərinin gəmiyə yüklənəcək yükün məhdudlaşdırılması imkanından məhrum etmək üçün edilir və bu, kiraçi üçün əlverişli sayılır.

M

MAASTRİXT MÜQAVİLƏSİ – bu müqavilənin müddəaları Avropa İqtisadi Birliyinin yaradılması haqqında Roma Müqaviləsinin (1957) mətnini tamamlayır. Avropa Birliyinin üzvü olan 12 dövlət tərəfindən 7 fevral 1992-ci ildə Hollandiyanın Maastrixt şəhərində imzalanmış və 4 fevral 1993-cü ildən qüvvəyə minmişdir. Roma Müqaviləsinin mətni və ona əlavə edilən Maastrixt Müqaviləsi Avropa İttifaqı (Aİ) haqqında 1 noyabr 1993-cü ildə qüvvəyə minmiş müqaviləni təşkil edir. Bu tarixdən etibarən Avropa ölkələri arasında münasibətlər Roma Müqaviləsinə deyil, Aİ haqqında müqaviləyə əsaslanır, birlik özü isə rəsmən Aİ adlanır. "Avropa xalqları arasında daha sıx ittifaq" yaradılmasına yönəlmiş Maastrixt Müqaviləsi Aİ orqanlarının səlahiyyətlərini əhəmiyyətli dərəcədə genişləndirir, Aİ iştirakçıları olan ölkələrin iqtisadi, valyuta və siyasi ittifaqlarının yaradılması istiqamətində inteqrasiyanın daha da dərinləşməsi üçün hüquqi və təşkilati zəmin yaradır. Maastrixt Müqaviləsinin mətnində Roma Müqaviləsini tamamlayan əsas müddəalar bunlardır: a) Aİ iştirakçıları olan ölkələrin iqtisadi siyasətinin əsas istiqamətlərinin



Maastrix müqaviləsinin imzalandığı məkan




əlaqələndirilməsini nəzərdə tutan valyuta ittifaqında və iqtisadi ittifaqda ölkələrin iştirakının qrafikinin və iştirak meyarlarının müəyyənləşdirilməsi 1 yanvar 1999-cu ildən etibarən Aİ-nin vahid valyutası olan avronun tətbiq edilməsi, iqamətgahı Frankfurt-Maynda (Almaniya) yerləşən, milli mərkəzi banklarla birlikdə Avropa mərkəzi banklar sistemini təşkil edən Avropa Mərkəzi Bankının yaradılması; b) inteqrasiyanın dərinləşdirilməsinin ən mühüm şərti kimi Aİ ölkələri və regionları arasında sosial-iqtisadi inkişaf səviyyələrində fərqlərin azaldılmasını nəzərdə tutan "sosial birləşmə"nin zəruriliyi; c) Aİ iştirakçıları olan ölkələrin bütün vətəndaşları üçün Avropa vətəndaşlığının təsis edilməsi; ç) viza rejimi, transavropa nəqliyyat, kommunikasiya və energetika şəbəkələrinin yaradılması, Avropa sənayesinin rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş sənaye siyasətinin yeridilməsi, istehlakçıların müdafiəsi, ətraf mühitin qorunması, təhsil və səhiyyə, inkişaf naminə əməkdaşlıq kimi sahələrdə Aİ orqanlarının səlahiyyətlərinin genişləndirilməsi; d) Avropa Parlamentinin rolunun artırılması, o cümlədən Aİ Nazirlər Şurası və Avropa Parlamenti tərəfindən birgə qərarlar qəbul edilməsi prosedurasının tətbiqi, Avropa Parlamentinə vahid daxili bazarın fəaliyyəti, mədəniyyət və ədliyyə sahələrində veto hüququ verilməsi; e) Aİ iştirakçısı olan ölkələrin birgə fəaliyyət qaydalarının müəyyənləşdirilməsi, o cümlədən ümumi müdafiə siyasətinin işlənib hazırlanması, Avropada tərksilah və silahlara nəzarət, nüvə silahının yayılmaması, təhlükəsizliyin iqtisadi aspektləri də daxil olmaqla vahid xarici siyasət və təhlükəsizlik siyasəti yeridilməsini nəzərdə tutan siyasi ittifaq yaradılması istiqamətində hərəkət; xüsusən sığınacaq verilməsi, immiqrasiya siyasəti, narkotik maddələrin qanunsuz dövriyyəsinə və mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində daxili işlər və ədalət məhkəməsi sahələrində əməkdaşlığın genişlənməsi; bu məqsədlə Avropada yeni Aİ polis kəşfiyyat agentliyinin yaradılması.

MAAŞA ƏLAVƏ – xüsusi xassələrə malik olan məmulatların (malların) sifariş üzrə hazırlanmasına görə (tropik icra, ixrac üçün icra, avadanlığın qısa müddətdə hazırlanması və s.) əlavə ödəniş.

MADDƏ – süni surətdə yaradılan maddi törəmə.

MADDİ AKTİVLƏR – torpaq və ya ondan istifadə etmək hüququ; istehsal və qeyri-istehsal təyinatlı binalar və tikililər; inzibati binalar; müəssisənin balansında olan mənzillər, uşaq müəssisələri, təhsil, müalicə, sağlamlıq və sair müəssisələr; quraşdırılmış və quraşdırılmamış istehsal avadanlığı; qeyri-istehsal təyinatlı daşınan əmlak;

Maddi aktivlər



Sxem 1

xammal, yanacaq, yarımfabrikat və hazır məhsul ehtiyatları; icarəyə verilmiş əmlak (o cümlədən, əsas vəsaitlər, binalar və tikililər, torpaq sahələri); müəssisəyə məxsus olan filiallar və törəmə şirkətlər – əgər onların ayrıca hüquqi şəxs statusu yoxdursa, balansları isə həmin müəssisənin balansı ilə birləşdirilmişdirsə.

MADDİ DÖVRİYYƏ VASİTƏLƏRİNİN EHTİYATLARININ DƏYİŞMƏSİ – istehsal ehtiyatları, bitməmiş isteh-

sal, hazır məhsul və təkrar satmaq üçün nəzərdə tutulan məhsulların dəyərinin dəyişməsini xarakterizə edən göstərici. Müvafiq məhsulların ilin əvvəlinə və ilin axırına qalıqları arasındakı fərqə uyğun gəlir. Milli Hesablar Sistemində istifadə edilən göstəricidir.

MADDİ XƏRCLƏR – istehsal prosesində dəyəri tamamilə yeni məhsulun dəyərinə çevrilən material və xidmətlərin dəyərindən ibarət olur. Maddi xərclərə daxil edilir: xammal və materialların, toxum, yem, gübrə və zəhərli kimyəvi maddələrin, yanacaq və enerji məsrəfləri; istifadə edilən xidmətlərin (kənar təşkilatların, ayrı-ayrı şəxslərin yerinə yetirdikləri istehsal xarakterli xidmətlər, işlər, rabitə xidmətləri, yükdaşıma xidmətləri və s.) haqqının ödənilməsi; daşınarkən, ticarət, maddi-texniki təchizat və tədarük təşkilatlarında saxlanarkən məhsul itkilərinin dəyəri; xüsusi geyimə, müalicə-profilaktik xidmətləri, yeməyə və s. sərf olunan xərclər də daxil edilməklə, bilavasitə istehsala çəkilən sair xərclər. Material və xidmətlərin dəyərinin qiymətləndirilməsinin belə bir xüsusiyyəti mövcuddur ki, onlar alındığı ana görə deyil, istehsal prosesinə sərf edildiyi ana mövcud olan qiymətlə dəyərləndirilir (hesablanır), yəni anbardakı ehtiyatlardan istifadə edilən xammal və materiallar, yarımfabrikatlar istehsala sərf edildiyi vaxtda mövcud olan qiymətlər üzrə dəyəri hesablanır. Milli Hesablar Sistemində istifadə edilən göstəricidir.

MADDİ RESURSLAR – istehsal üçün zəruri olan əmək predmetləri kompleksi, istehsal resurslarının ən mühüm maddəsi. Maddi resurslar natural və dəyər ifadəsində planlaşdırılan və uçotu aparılan xammal, materiallar, yanacaq və enerjidən ibarətdir (bax: sxem 1).


Müasir şəraitdə hər hansı bir manatlıq ictimai məhsul üçün maddi məsrəflərə cəmi bir qəpik qənaət edilməsi bir neçə milyard manatlıq əlavə milli gəlir yaratmağa imkan verir. Natural əşyavi meyara görə maddi resurslar hasilat sənayesi məhsullarından, kənd təsərrüfatı təyinatlı xammaldan, eləcə də sonradan emal edilmək və ya yığılmaq üçün nəzərdə tutulan emal sənayesi məhsullarından, o cümlədən yarımfabrikatlar, qovşaqlar, detallar və dəstləşdirmə məmulatlarından ibarətdir.

Maddi resursların dəyəri təkcə onların hasilatı və istehsalı üçün deyil, həm də onların daşınması, tədarük edilməsi ilə bağlı məsrəflər (o cümlədən təchizat və satış xərcləri) nəzərə alınmaqla formalaşır. Xalq təsərrüfatında il ərzində istifadə edilən maddi resursların dəyəri əvəzetmə fondu ilə amortizasiya ayırmaları məbləğinin fərqinə bərabərdir. İstehsalın spesifikasından asılı olaraq istehsal xərclərində bu və ya digər maddi resursların xüsusi çəkisi əhəmiyyətli dərəcədə fərqlənir, sənaye sahələri isə müvafiq surətdə metaltutumlu, enerjitutumlu, yanacaqtutumlu sahələr hesab edilir. Beləliklə, müxtəlif sahələr üçün elmi-texniki tərəqqi amilləri onların məhsul buraxılışının (işlər görülməsinin) material tutumunun azaldılmasına təsir dərəcəsinə görə xeyli fərqlənir.

MADDİ RİFAH NƏZƏRİYYƏSİ – iqtisadiyyatda normativ yanaşmaya əsaslanan rifah iqtisadiyyatı və ictimai rifah iqtisadiyyatı barədə nəzəri konsepsiya. Onun predmeti iqtisadi optimumun təsvir edilməsi və bu əsasda dövlətin iqtisadi siyasətinə dair tövsiyələri işləyib hazırlamaqdan ibarətdir. Maddi rifah nəzəriyyəsi istehlakçının hökmranlığı prinsipinə əsaslanır. Bu o deməkdir ki, fərdi istehlakçının və firmanın üstünlük verdiyi dəyərlər iqtisadi optimumun səmərəli meyarlarına daxil olmalıdır. Maddi rifah nəzəriyyəsində göstərilir ki, müəyyən şəraitdə rəqabət tarazlığı və Pareto mənada optimaldır. Paretoya görə hər hansı resursların optimal bölgüsünə yalnız rəqabət xarakterli iqtisadiyyatda nail olmaq mümkündür. Lakin bəzi nəzəriyyəçilərin fikrincə, prinsip etibarilə rəqabət aparmadan da optimuma nail olmaq mümkündür. Məsələn, "yuxarıdan" müəyyən edilən qiymətlər resurs məhdudiyyətləri şərti ilə rifahın maksimallaşdırılması məsələsini həll edərkən, tapılmış optimal qiymətlərə müvafiq olduqda optimuma nail olmaq mümkündür. Bununla belə, real həyatda bu fərziyyə hələlik təsdiqlənməmişdir. Görünür, maddi rifah iqtisadiyyatının prinsipial əhəmiyyət kəsb edən və həlli hələ çox uzaq olan problemi iqtisadi sistemin səmərəliliyi ilə onun fəaliyyətinin nəticələrinin ədalətli bölgüsü arasında münasibəti aydınlaşdırmaqdan ibarətdir.

MADDİ YARDIM – əhalinin gəlirinin tam və qismən indeksləşdirilməsi; qiymətlərin artma-

Maddi resursların təsnifatı



Sxem 1

sı ilə bağlı xərclərin kompensasiyası; mal və xidmətlərin müəssisə, təşkilat, sosial fondlardan ödənilməsi maddi yardıma aiddir.

Qeyd etmək lazımdır ki, gəlirin indeksləşdirilməsi, ilk növbədə, büdcə sahəsinin işçiləri, pensiyaçılar, təqaüdçülər, müavinət alanlar və bu kateqoriya ilə eyniləşdirilən digər adamlar üçün aparılır.

MADDİ-TEXNİKİ TƏLƏBATIN PLANLAŞDIRILMASI – maddi-texniki resursların idarə edilməsi üzrə bu tədbirlər sisteminin məqsədi ondan ibarətdir ki, ehtiyatda yalnız ən yaxın istehsal planlarının həyata keçirilməsi üçün zəruri resurslar saxlanılsın. Maddi-texniki tələbatın planlaşdırılmasında təhlil üç mərhələdən ibarət olur:

1) istehsalat və material ehtiyatlarının spesifikasının müəyyən edilməsi planı əsasında məcmu tələbatın hesablanması;

2) materialların mövcud ehtiyatlarının miqdarı və istehsalat planına uyğun olaraq tədarük edilməli olan sifariş verilmiş materialların miqdarı arasındakı fərq kimi xalis tələbatın hesablanması;

3) sifarişlərin müddətləri nəzərə alınmaqla sifarişlərin yerləşdirilməsi vaxtının planlaşdırılması. Bu halda elə etmək lazımdır ki, istehsalın planlaşdırılan başlanma vaxtına qədər xalis tələbat təmin edilsin.

MAGİSTRAL TEOREMLƏR – optimal artım trayektoriyalarının, M – trayektoriyanın və tarazlaşdırılmış maksimal artımın bir-birinə yaxın olmasını isbat edir.

Magistral teoremlərin müəllifləri: "Magistral teoremlər" adını R.Dorfman, P.Samuelson və R.Solou "Xətti proqramlaşdırma və iqtisadi təhlil" adlı əsərdə təklif etmişlər.

MAHMUDOV ƏHMƏD ƏKBƏR OĞLU (1923-1989) – Azərbaycanın görkəmli iqtisadçı alimi, AMEA-nın müxbir üzvü (1972), AMEA-nın akademiki (1983).



1941-ci ildə orta məktəbi bitirmişdir. 1942-1945-ci illərdə Böyük Vətən müharibəsində iştirak etmişdir. 1946-1950-ci illərdə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun Uçot-statistika fakültəsində təhsil almış, institutu fərqlənmə diplomu ilə bitirərək tədqiqatçılıq fəaliyyəti ilə məşğul olmağa başlamışdır. Hələ tələbəlik illərindən o, elmi-tədqiqat işlərinə böyük həvəs göstərir, tələbə elmi cəmiyyətində məruzələrlə çıxış edirdi. Onun məruzəsinin mətni elmi əsər kimi ilk dəfə institutda oxuyarkən – 1949-cu ildə nəşr edilmişdir.

Əhməd Mahmudovun elmi fəaliyyəti bütünlüklə Azərbaycan SSR EA İqtisadiyyat bölməsi və 1958-ci ildə bu bölmənin əsasında yaranan İqtisadiyyat İnsti-



"PALMALİ" Şirkətlər Qrupuna məxsus akademik Əhməd Mahmudov adına gəmi

tutu ilə bağlı olmuşdur. O, Azərbaycan SSR EA İqtisadiyyat bölməsinin aspirantı olarkən təhsilini davam etdirmək məqsədilə o zaman güclü elmi mərkəz sayılan SSRİ EA İqtisadiyyat İnstitutuna göndərilmişdir. Ə.Ə.Mahmudov 1955-ci ildən fasiləsiz olaraq 33 il Azərbaycan SSR EA İqtisadiyyat İnstitutunda çalışmışdır. O, kiçik elmi işçidən institut direktoru səviyyəsinə qədər yüksəlmişdir. Əhməd Mahmudov 1984-cü ildə Azərbaycan SSR EA-nın tarix, iqtisadiyyat, fəlsəfə və hüquq bölməsinin akademik-katibi vəzifəsini də icra etmişdir.

Akademik Əhməd Mahmudovun rəhbərlik etdiyi illərdə Azərbaycan SSR EA İqtisadiyyat İnstitutu nəinki respublikada, eləcə də keçmiş Sovetlər məkanında sayılan elmi-tədqiqat mərkəzinə çevrilmişdi.

Planlı sosializm cəmiyyətində hər iqtisadi problemi açıb göstərmək, sözün əsl mənasında, qeyri-mümkün idi. Akademik Əhməd Mahmudov və onun həmkarları zərgər ustalığı ilə iqtisadiyyatın bir sıra sahələrində, o cümlədən kənd təsərrüfatında ehtiyat mənbələri, onların reallaşması yollarını açıb göstərir, iqtisadi mexanizmlərin təkmilləşməsinin zəruriliyini qeyd edirdilər. O, respublikamızda aqrar iqtisad elminin formalaşmasında həlledici rol oynayan alim idi. Məhz onun əsərlərində ilk dəfə olaraq kənd təsərrüfatının intensivləşdirilməsinin zəruriliyi əsaslandırılmış, onun metodoloji aspektləri tədqiq edilmişdir. Akademik çox zəngin statistik, konkret materiallara əsaslanaraq Azərbaycanın kənd təsərrüfatında intensivləşdirmənin amillərini, səviyyəsini təhlil etmiş, intensivləşdirmənin aqrar sektorun dinamik inkişafındakı rolunu elmi cəhətdən əsaslandırmışdır.

Dünyanın bütün sivil dövlətlərində aqrar elm yüksək inkişaf edən bir sahədir. Akademik Ə.Mahmudov bunun nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyini cəsarətlə qeyd edir, böyük potensial imkanlara malik olan



Azərbaycan iqtisadçı alimlərin yetişməsində müstəsna rol oynayan akademik Əhməd Mahmudov və Əlisöhbət Sumbatzadə

respublikamızda da bu elmin inkişafı üçün çalışırdı. Azərbaycan torpağının imkanları haqqında geniş informasiyaya, biliyə malik olan alim tədqiqatlarında inandırıcı faktlarla sübut edirdi ki, respublikanın kənd təsərrüfatının strukturu təkmilləşdirilməlidir. Onun maddi-texniki bazasının yenidən qurulması üçün sərf ediləcək maliyyə resursları yüksək səmərə ilə nəticələnəcəkdir. Ə.Mahmudov aqrar sektora dövlət himayəsinin güclənməsi təklifini irəli sürür və bu zaman dünya təcrübəsinə əsaslanmağı tövsiyə edirdi.

Alimin tədqiqatlarında intensivləşmənin amilləri müəyyənləşdirilmiş, onlar arasında nisbətlər öyrənilmiş və bu amillər iki qrupda birləşdirilmişdir:

1) təbii amillər istehsalın intensivləşdirilməsinin təbii-zəruri əsasını və fərqlərini yaradır, istehsalda yüksək intensiv texnologiyaların tətbiqi, onun ixtisaslaşdırılması və təmərküzləşdirilməsinin optimallaşdırılması yolu ilə intensivləşdirilməsinə imkan verir;

2) təsərrüfatın intensivləşdirilməsinin texniki-iqtisadi amilləri təsərrüfatın iqtisadi vəziyyətindən və onun lazımi əlavə material məsrəflərini sərf etməsi imkanlarından asılıdır.

Əhməd Mahmudovun XX əsrin 70-80-ci illərdə apardığı tədqiqatların mühüm istiqamətlərindən biri də iqtisadi mexanizmlərdən istifadə, həvəsləndirmə

sisteminin təkmilləşməsi problemləri olmuşdur. O dövrün ideologiyasını, idarəetmə sistemini başa düşən hər bir şəxs bilirdi ki, qeyd edilən istiqamətlərdə elmi fikir söyləmək asan məsələ deyildi. O, çox ustalıqla rəhbərlik etdiyi elmi kollektivi, eləcə də respublikanın iqtisadçılarını bu sahədə tədqiqatları genişləndirməyə çağırırdı. Çünki bu problemlərin tədqiqinin arxasında respublikanın maraqlarının qorunması dururdu. Bu baxımdan onun kənd təsərrüfatında qiymət sisteminin təkmilləşməsi, ictimai əmək bölgüsündə respublikanın rolu, mərkəz tərəfindən kənd təsərrüfatına ayrılan kapital qoyuluşu, iqtisadi və maddi həvəsləndirmə metodlarının təkmilləşdirilməsi barədə fikirləri çox aktual və əməli əhəmiyyət kəsb edirdi.

Akademik Əhməd Mahmudovun respublikanın gələcək inkişafı ilə bağlı fikirləri düzgün və elmi cəhətdən əsaslı idi.

Ə.Mahmudovun Azərbaycanın uzunmüddətli perspektiv üçün elmi-texniki tərəqqisinin kompleks proqramının tədqiqinin təşkilində və əlaqələndirilməsində böyük xidməti vardır. Keçmiş SSRİ-nin ümumi elmi-texniki tərəqqisinin kompleks proqramının o zaman tərkib hissəsi olan Azərbaycanın elmi-texniki tərəqqisinin kompleks proqramının uzunmüddətli perspektivə hazırlanması istehsalın intensivləşdirilməsi prosesinin mənbələrinin aşkara çıxarılmasına, onun səmərəliliyinin yüksəldilməsinə, ölkənin vahid xalq təsərrüfatı kompleksində respublikanın məhsuldar qüvvələrindən daha səmərəli istifadə edilməsinə yönəldilmişdir. Bu proqramda elmi-texniki tərəqqinin inkişafının əsas istiqamətlərinin proqnozu, intensivləşməsinin sürətləndirilməsi və onun səmərəliliyinin yüksəldilməsi məsələlərini həll etmək üçün elmi-texniki siyasət, demoqrafik inkişaf və əmək ehtiyatlarından istifadə, mineral sərvətlər, torpaq, su, meşə ehtiyatları, ətraf mühitin qorunması və yaxşılaşdırılması nəzərə alınmaqla respublikanın gələcək iqtisadi və sosial inkişafı verilir. Proqramda respublikanın gələcək iqtisadi və sosial inkişafının və elmi-texniki tərəqqinin nailiyyətlərinin xalq təsərrüfatında tətbiqinin daha səmərəli inkişaf yolunu müəyyən etmək məqsədi ilə mövcud elmi-texniki potensial qiymətləndirilir, elmin aparıcı sahələrinin inkişafı göstərilir, xalq təsərrüfatının quruluşunun, onun proqnozlaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi əsaslandırılır. 1987-1988-ci illərdə respublikamızın iqtisadi müstəqillik konsepsiyasının hazırlanması üçün gərgin iş aparılırdı. Əhməd Mahmudov Azərbaycanın inkişafı ilə əlaqədar taleyüklü problemlərə öz münasibətini bildirməklə yanaşı, konkret hesablamalar, təkliflərlə respublikanın böyük imkanlara malik olduğunu göstərirdi. Akademik Ə.Mahmudov Azərbaycanın gələcəyini düşünən bir vətəndaş, ziyalı idi.

Onun SSRİ EA İqtisadiyyat İnstitutu, digər mühüm elmi mərkəzlərlə əməkdaşlığın formalaşması və inkişafında müstəsna rolu əvəzsizdir. Akademik iqtisadçı alimlərin yetişməsində də mühüm rol oynamışdır.

Akademik Əhməd Mahmudovun respublikanın gələcək inkişafı ilə bağlı fikirlərinin düzgün və elmi cəhətdən əsaslı olması bu gün də öz təsdiqini tapmışdır.

Əsərləri: "Dağlıq Şirvan rayonu kolxozlarının torpaq fondu və ondan istifadə edilməsi yolları", Azərbaycan SSR EA İqtisadiyyat İnstitutu, Bakı, Azərnəşr, 1961, 139 s.; "Azərbaycan SSR-in kolxozlarında əkinçiliyin intensivləşdirilməsinin iqtisadi problemləri", Azərbaycan SSR EA İqtisadiyyat İnstitutu, Bakı, Elm, 1969, 270 s.; "SSRİ-də 1991-2000-ci illərdə (beşilliklər üzrə) elmi-texniki tərəqqinin kompleks proqramı. Regional bölmənin konsepsiyası. Azərbaycan SSR-də elmi-texniki tərəqqinin kompleks proqramı", SSRİ EA, SSRİ Dövlət Elm və Texnika Komitəsi. Moskva, 1986, 45 s.; Azərbaycan iqtisadiyyatının aktual problemləri, Azərbaycan İqtisadçılar İttifaqı, Bakı, "İndiqo" poliqrafiya şirkəti, 2008, 912 s.

MAXLUP FRİTS (1902-1983) – Amerika iqtisadçısı, maliyyə, beynəlxalq ticarət və valyuta münasibətləri sahəsində mütəxəssis, neoklassik cərəyanın nümayəndəsi. O, informasiya cəmiyyətinin əsas nəzəriyyələrindən birini yaratmış, iqtisad elminə empirik metodların daxil olması ilə mübarizə aparmışdır.



MAKAROV VALERİY LEONİDOVİÇ (1937) – Rusiya



iqtisadçısı və riyaziyyatçısı. 1960-cı ildə Moskva Dövlət İqtisadiyyat İnstitutunu bitirmiş, SSRİ EA-nın müxbir üzvü (1979), SSRİ EA-nın akademiki (1990), Rusiya EA-nın akademiki (1991) olmuşdur. 1960-1980-ci illərdə baş laborant, kiçik elmi işçi, böyük elmi işçi, SSRİ EA-nın Sibir şöbəsinin Riyaziyyat İnstitutunun direktor müavini vəzifələrində işləmişdir. Riyazi iqtisadiyyat sahəsində iqtisadi dinamika və kompüter modelləşdirmə problemlərini də öyrənmişdir. Onun rəhbərliyi altında "İqtisadiyyatın riyazi və kompüter modelləşdirilməsi" məktəbi yaradılmışdır. 200-dən çox elmi əsərin, o cümlədən 4 monoqrafiyanın müəllifidir.


MAKFADDEN DENİEL (1937) – Amerika iqtisadçısı. Minesot Universitetində təhsil



almışdır, Çikaqo Universitetinin fəlsəfə doktorudur. Kaliforniya Universitetində və Massaçuset Texnoloji İnstitutunda dərs demişdir. Ekonometriya cəmiyyətinin (1985) və Amerika İqtisadçılar Assosiasiyasının (2005) prezidentidir. C.B.Klark və Friş medalı ilə təltif olunmuşdur.

2000-ci ildə selektiv seçmənin təhlili üçün nəzəriyyə və metodologiyanın hazırlanmasına görə Nobel mükafatına layiq görülmüşdür.

MAK-KULLOX (MacCulloch) Con Ramsey (1789-1864) – Britaniya (Şotlandiya)



iqtisadçısı, *D.Rikardonun* davamçısı və populyarlaşdırıcısı. Mak-Kullox özünün "Siyasi iqtisadın əsasları" əsərində (1825) əməyin dəyər mənbəyi olmasını qəbul etməklə əməyin özünü onun insanlar, maşınlar, heyvanlar və ya təbiət qüvvələri tərəfindən yerinə yetirilməsindən asılı olmayaraq, fəaliyyətin və ya əməliyyatların bir növü kimi izah edirdi. Buna müvafiq olaraq onun şərhində mənfəət toplamış əməyin, yəni kapitalın "işi" ilə yaradılmış dəyərin bir hissəsi hesab olunur.

MAK QREQOR DUQLAS (1906-1964) – sosioloq, menecment nəzəriyyəçisi. Özünün



"Müəssisənin insan aspekti" əsərində iddia edirdi ki, personalın menecmentinin iki növü vardır. Onlardan biri "X nəzəriyyəsi"nə, ikincisi "Y nəzəriyyəsi"nə əsaslanır. "X nəzəriyyəsi"nə görə, orta insan zəhməti sevmir və mümkün qədər işdən qaçır. Deməli, menecment sərt və yumşaq məcburetmə formalarından istifadə etməlidir. Lakin hər iki metod səhvdir. Çünki onlar işləmək istəməmələrinin səbəbini nəzərdən qaçırırlar. Məsələ burasındadır ki, insana əməyə görə yaxşı haqq kifayət etmir, ona özünü reallaşdırma imkanının verilməsi vacibdir. Məcburetmənin istənilən forması isə buna mane olur.

"Y nəzəriyyəsi"nə görə, insan özünün mənəvi və fiziki gücünü təbii (istirahət edir və ya oynayır kimi) sərf etməlidir. Deməli, insana tam açılma, üzərinə məsuliyyətin götürülə bilməsi, müəssisə üçün öz əhəmiyyətini hiss etmə imkanı verməklə əməyi stimullaşdırmaq olar. Mak-Qreqor təəssüf hissi ilə bildirir ki, müasir sənaye cəmiyyəti şəraitində insanın intellektual potensialı tam istifadə olunmur. Bəzi hallarda "X", bəzilərində isə "Y nəzəriyyəsi" özünü doğruldur. Bu nəzəriyyələrin praktikada tam reallaşdırılmasının mümkün olmadığını başa düşərək Mak Qreqor menecerə belə bir fikri aşılamaq istəyir ki, əgər onlarla qiymətli və məsuliyyətli əməkdaşlar kimi davransalar, işçilər müəssisə üçün daha çox şey edə bilərlər.

MAKLER (alm. *makler* – dəllal) – satıcı ilə alıcı arasında vasitəçi; yaxud fond, əmək, valyuta və s. birjalarda sövdə bağlanmasında vasitəçi, öz hesabına və öz adından sövdəni həyata keçirən və birjada yeri olan birja iş adamı; əmtəələrin, qiymətli kağızların, xidmətlərin, o cümlədən sığorta xidmətlərinin alqı-satqısı zamanı tərəfdaşları əlaqələndirmək yolu ilə alqı-satqı əqdləri bağlanmasına kömək edən peşəkar vasitəçi. Birja maklerləri birjanın işçi heyətinə daxil edilmişdir. Onlar əmtəə




seksiyalarında hərraclar aparır və satıcının və alıcının brokerlərinin əqd bağlanmasına şifahi razılığını qeydiyyata alırlar. Makler əqd bağlayan tərəflərin hər birindən əqdin məbləğindən asılı olaraq haqq alır.

MAKOLEY DÜRASİYASI (ing. *Duration, Macaulay Duration)* – ölçü qismində gəlirlərin diskontlu rəqəmləri əsas götürülməklə, qiymətli kağızlardan daxil olan gəlirlərin orta çəki üsulu ilə hesablanmış müddətini səciyyələndirən göstərici (məsələn, sıfır kuponlu istiqrazın dürasiyası onun son ödəmə tarixinə bərabərdir ki, bütün ödənişlər müddətin sonunda ediləcəkdir). F.Makoley tərəfindən 1938-ci ildə hazırlanmış və XX əsrin 70-ci illərinin əvvəlindən yayılmışdır.

MAKROİQTİSADİ MODEL (makromodel, aqreqasiya edilmiş model, aqreqat modeli) – milli iqtisadiyyatın bütöv bir tam kimi fəaliyyətini əks etdirən iqtisadi-riyazi model. Makroiqtisadi model əsasən dəyər xarakterli, aqreqasiya edilmiş göstəricilərlə – aqreqatlarla əməliyyat aparır (məsələn, milli gəlir, ümumi kapital qoyuluşu və s.). Onu da qeyd etmək lazımdır ki, bütün makroiqtisadi proseslərin spesifik xüsusiyyətləri vardır. Makroiqtisadiyyatda ən geniş istifadə edilən modellər: dairəvi axın modeli, AD-AS (məcmu tələb – məcmu təklif) modeli, Keyns xaçı İS-LM modeli, Fillips, Laffer əyriləri, R.Solou modeli.

Makroiqtisadi modellə mikromodellər arasında dəqiq həd yoxdur. Dəqiq məlum olan yalnız odur ki, makroiqtisadi modellərə ən ümumi qlobal modellər aid edilir. Xalq təsərrüfatının iri altsistemlərə, məsələn, sektorlara (ictimai istehsal bölmələrinə), sahələrə və regionlara bölünməsinin nəzərə alındığı modellərə gəldikdə isə bəzi müəlliflər onları mikromodellərə, digərləri makroiqtisadi modellərə aid edirlər. Makroiqtisadi model xalq tə-

Makroiqtisadi model



Sxem 1

Makroiqtisadiyyatın məqsədləri

- iqtisadi artım - real ÜMM artımı, uyğunluq, ətraf mühitin qorunmasının nəzərə alınması
- yüksək məşğulluq həddi
- qiymətlərin və valyutanın sabitliyi
- xarici iqtisadi tarazlıq

Sxem 2

Makroiqtisadiyyatın alətləri

- dövlət xərclərini və vergiləri özündə birləşdirən fiskal siyasət
- pul siyasəti – pul kütləsinin həcminin çoxalması və yaxud azalması
- gəlirlərin idarə olunması siyasəti, "əmək haqqı - qiymətlər" siyasəti
- xarici iqtisadi siyasət

Sxem 3

sərrüfatının fəaliyyətinin və inkişafının ən ümumi qanunauyğunluqlarının nəzəri təhlili üçün istifadə edilir (məsələn, iqtisadi artım nəzəriyyəsinin aqreqasiya edilmiş nəzəri analitik modelləri). Makroiqtisadi model həm də xalq təsərrüfatının tənzimlənməsi və idarə edilməsi modelləri sistemində əsas model ola bilər. Həmin modelda təyin edilən ən ümumi göstəricilər növbəti səviyyələrdə xüsusi modellərdə konkretləşdirilir, onlar da öz növbəsində, bu hesablamaların nəticələrinə əsasən dəqiqləşdirilir (bax: sxem 1, 2, 3). Keçmiş SSRİ-də Mərkəzi İqtisadi-Riyazi Metodlar İnstitutunda, SSRİ Dövlət Plan Komitəsinin Hesablama Mərkəzində, SSRİ Elmlər Akademiyasının Sibir bölməsinin İqtisadiyyat İnstitutunda və başqa təşkilatlarda ölkənin sosial-iqtisadi inkişafının planlaşdırılması və proqnozlaşdırılması modelləri sistemini qurmaq üçün göstərilən bir sıra cəhdlərdə bu yanaşmadan istifadə edilirdi.

Proqnozlaşdırmanın ekonometrik makroiqtisadi modeli xüsusən geniş yayılmış və daha dərin tədqiq edilmişdir. Məsələn, ümumi daxili məhsulun (ÜDM) və ya milli gəlirin (MG) əsas istehsal amillərindən asılılığını xarakterizə edən makroiqtisadi istehsal funksiyaları (belə funksiyalar sırasında ayrıca bir amil kimi elmi-texniki tərəqqinin (ETT) təsiri də nəzərə alınır), milli gəlirdə yığım norması ilə istehlak normasının nisbətinin optimallaşdırılması modelləri bu cür modellərə aiddir. Qərbdə proqnozlaşdırma üçün istifadə edilən ekonometrik makroiqtisadi modellər arasında ABŞ-da Kleyn-Qoldberger modeli, Brukinq modeli, Uorton modeli, Hollandiyada təsərrüfatın inkişafı modeli, Kanada modeli daha çox məşhurdur. ABŞ-da və Yaponiyada sovetologiya tədqiqatları üçün keçmiş SSRİ iqtisadiyyatının bir sıra makroiqtisadi modelləri yaradılmışdır. İqtisadi modellər müddətinə görə qısa və uzun dövrləri əhatə edə bilər. Əhatə dairəsinə görə 2, 3, 4 və daha çox sahəni əhatə edə bilər.

Asılılıqların xarakterinə görə makroiqtisadi model determinə (müəyyən) edilmiş və ehtimal (stoxastik) olunan modellər, zaman amilinin roluna görə statik və dinamik, dəyişənlərin təsvir üsuluna görə (zaman dəyişəni də daxil olmaqla) diskret və kəsilməz, tədqiqata cəlb olunmuş

subyektlərə görə sadə, dolğun və s. modellər ola bilər. Təqdim edilmə üsuluna görə modellər məntiqi, qrafik və iqtisadi olur. İstənilən model qrafiklər, düsturlar, cədvəl-matrisa üsulu, mühasibat qeydləri şəklində verilə bilər.

MAKROİQTİSADİ NƏZƏRİYYƏLƏR – bütövlükdə ölkə iqtisadiyyatına aid olan hadisə və proseslər haqqında ümumiləşdirilmiş, təcrübədən keçirilmiş dəqiq biliklər sistemi. İqtisad elminin bütün bölmələri, o cümlədən makroiqtisadiyyat nəzəri və praktiki məsələlərdən ibarətdir. Makroiqtisadi nəzəriyyələrə aşağıdakılar aiddir: iqtisadi artım nəzəriyyələri, rasional gözləmələr nəzəriyyəsi, metal, nominal və kəmiyyət pul nəzəriyyələri, institusional nəzəriyyələr və s. XX əsrdə inkişaf etmiş və geniş yayılmış əsas makroiqtisadi nəzəriyyələrə Keynsçilik və monetalizm nəzəriyyələri daxildir.

MAKROİQTİSADİ YANAŞMA – mikroiqtisadi yanaşmadan fərqli olaraq, burada iqtisadi sistem xaricdən vahid tam kimi nəzərdən keçirilir. Bu o deməkdir ki, obyektin daxili əlaqələri, daxili quruluşu inkar edilir, yalnız iqtisadi sistemin fəaliyyətinin ümumiləşdirilmiş göstəriciləri öyrənilir, bu zaman bu göstəricilərin onun elementlərini təşkil edən hansı qarşılıqlı fəaliyyətin məhsulu olduğu nəzərə alınır. Başqa sözlə, makroiqtisadi yanaşma ayrı-ayrı bazarlar arasında olan fərqləri nəzərə almadan bütünlükdə iqtisadi sistemin tam halda fəaliyyətini və onun əmək, əmtəə, pul bazarları ilə, habelə milli iqtisadiyyatla qarşılıqlı əlaqəsini öyrənir.

Makroiqtisadiyyatın əsas tədqiqat obyektini iqtisadiyyatın davamlı inkişafının təmini, məşğulluğun, işsizliyin, inflyasiyanın səviyyəsi, xarici iqtisadi əlaqələrin optimallaşdırılması və s. təşkil edir. Makroiqtisadiyyat iqtisadiyyatın vahid tam kimi hərəkətini xarakterizə edən aşağıdakı aqregirləşmiş göstəricilərdən istifadə edir: ÜDM, qiymətin orta səviyyəsi, faizin bazar dərəcəsi, iqtisadiyyatın inkişafı, işsizliyin, məşğulluğun səviyyəsi və s.

Makroiqtisadiyyat xüsusi metod və vasitələrdən istifadə etməklə dövlət və Mərkəzi Bank tərəfindən həyata keçirilən makroiqtisadi siyasəti, büdcə-vergi, pul-kredit siyasətini reallaşdırır. Mikroyanaşmada obyektə, sanki, daxildən baxılır. Daxili struktur, onun ünsürləri arasında daxili əlaqələr öyrənilir. Mikroyanaşma mikroskopik, kiçik yanaşma demək deyil: ölkənin xalq təsərrüfatının öyrənilməsi zamanı mikroyanaşmaya sənaye və kənd təsərrüfatı, istehsal və istehlak və s. kimi nəhəng ünsürlər arasında qarşılıqlı əlaqələrin təhlili kimi də baxıla bilər.


İqtisadi elmlərin əsas və hələ də tam həll edilməyən vəzifələrindən biri – müxtəlif növlərdən olan real iqtisadi sistemlərin mikrotəhlilinin və makrotəhlilinin birləşməsi problemidir. Söhbət ondan gedir ki, sistemin ayrı-ayrı ünsürlərini bütövlükdə makroiqtisadiyyatın iqtisadi davranış və qarşılıqlı fəaliyyət qanunauyğunluqlarından necə ayırmaq olar (fizikanın məşhur məsələsinə uyğun misal: qazın ayrı-ayrı atomlarının hərəkəti və onun ümumi xarakteristikaları, yəni temperaturu, həcmi, təzyiqi arasında əlaqə yaratmaq). Belə birləşməni bəzən aqregirləşmiş mikronəzəriyyə adlandırırlar. Müxtəlif riyazi yanaşmalar bir sıra iqtisadi-riyazi istiqamətlər çərçivəsində tədqiq edilir.

Qeyd etmək lazımdır ki, baxılan terminlər arasında yuxarıda göstərilən fərqlərə həmişə ciddi yanaşılmır. "Makro" əlavəsi, xüsusilə iqtisadi fənnə – "makroiqtisadiyyat"a aşılanmışdır, bu da "makromodelləşmə" və ya "makroiqtisadi modelləşmə" (bütün xalq təsərrüfatı iqtisadi proseslərinin iriləşmiş modelləşməsi), "makrogöstəricilər" (məsələn, ümumi daxili məhsul (ÜDM), ümumi milli məhsul (ÜMM), milli gəlir və s.) kimi anlayışlarla yayılır və bu zaman onlara təkcə makroiqtisadi yanaşma üçün zəruri olan vahid tam kimi baxmır. Həm də onu bir sıra sahə və sektorlara ayıraraq, milli iqtisadiyyatın makroiqtisadi tənzimləmə metodlarını işləyib hazırlamaq və realizə etmək məqsədilə onların qarşılıqlı asılılıqlarını və əlaqələrini öyrənir.

Bu mənada makroiqtisadi yanaşma iqtisadiyyatın öyrənilməsinə makroiqtisadi elmlər (bütövlükdə, iqtisadiyyatın fəaliyyətini öyrənən elmlər) nöqteyi-nəzərindən yanaşma deməkdir. Makroiqtisadi yanaşma ölkənin iqtisadiyyatına təsir edən siyasət kimi həm də dövlətin makroiqtisadi siyasətinin prinsipial əsasıdır.

MAKROİQTİSADİYYAT (yun. *makros* – böyük, iri) – iqtisadi

Makroiqtisadiyyatda maliyyə və əmtəə dövriyyəsi



Sxemin izahı:

1. idxal xərcləri
2. istehlak xərcləri
3. xalis vergilər
4. əmanətlər
5. milli gəlir
6. dövlət istiqrazları
7. dövlət satınalmaları
8. ixracdan daxil olmalar
9. xalis kapital axını
10. milli məhsula çəkilən xərclər
11. investisiya xərcləri
12. investisiya vəsaitləri
13. xalis kapital axını
14. vəsait sahiblərinə ödəmələr

Sxem 1

nəzəriyyənin, iqtisadiyyatın bütövlükdə fəaliyyət mexanizmini öyrənən hissəsi.

Makroiqtisadiyyatın formalaşmasında C.M.Keynsin müstəsna rolu olmuşdur. Onun meydana gəlməsində böhranların, istehsalın azalmasının, işsizliyin güclü təsirini qeyd etmək lazımdır.

Makroiqtisadiyyat həm də iqtisadiyyatı onun mühüm sektorları üzrə (ev təsərrüfatı, biznes, dövlət sektoru və s.; eləcə də digər təsnifata uyğun sənaye, kənd təsərrüfatı, əmtəə və sığorta bazarı, istehlak bazarı və s.) tədqiq edən və bunun üçün aqregirləşmiş makroiqtisadi göstəricilərin pulla, məşğulluqla, faiz dərəcələri, dövlət xərcləri, investisiyalarla, istehlakla və s. ilə əlaqələrindən istifadə edən iqtisadi elmdir.

Makroiqtisadiyyat aqregirləşmiş (hər şeyi əhatə edən) göstəricilərin qiymətləndirilməsinə əsaslanan iqtisadi təhlil metodudur. Makroiqtisadi təhlil ünsürlərinə siyasi iqtisadın klassik

Makroiqtisadiyyat



Sxem 2

məktəbinin nümayəndələrində rast gəlinir (ilk makroiqtisadi modellərdən biri F.Kenenin iqtisadi cədvəlidir).

Makroiqtisadiyyat mikroiqtisadiyyatla kifayət qədər sıx bağlıdır. Belə ki, makroiqtisadiyyat iqtisadi nəzəriyyənin mikroiqtisadiyyatdan təcrid olunmuş hissəsi deyil, iqtisadi nəzəriyyənin bu iki bölməsi arasında müəyyən qarşılıqlı əlaqə vardır. Dünyanın aparıcı alimləri makroiqtisadiyyatın əsas tədqiqat istiqamətləri kimi istehlak, məşğulluq, investisiya, pul, iqtisadi artım, iqtisadi böhran, iqtisadi tsikllər, iqtisadi siyasət və s. məsələləri fərqləndirirlər.

Makroiqtisadiyyatda istifadə olunan əsas anlayışlar aşağıdakılardır: ev təsərrüfatı; firmalar, dövlət, xarici bölmə, resurslar (bax: sxem 1, 2, cədvəl 1).



MAKROMÜHİT (ing. *Macroenvironment*; alm. *makromilieun*, *makroumvelf*) – təşkilatın, firmanın, korporasiyanın fəaliyyətinə həlledici təsir göstərən demoqrafik, iqtisadi, təbii, elmi-texniki, siyasi və mədəni amillərin məcmusu, yaxud mikromühitə daha geniş sosial planda təsir edən qüvvələr.

MAKROSEQMENTLƏŞMƏ – təşkilatların ölçüləri, sahəyə mənsubiyyəti və yerləşməsi əsasında onların bazarlarının seqmentləşməsi.

MAKROSƏVİYYƏ – sahə səviyyəsindən və ya aşağı təsərrüfat halqaları (müəssisələr) səviyyəsindən fərqli olaraq, bütövlükdə xalq təsərrüfatının səviyyəsi. Məsələn, yerli maliyyənin səviyyəsindən (regional səviyyə) fərqli olaraq, dövlət maliyyəsinin səviyyəsi.


MAKSİMAL SƏY PRİNSİPİ ÜZRƏ ANDERRAYTİNQ – anderraytinq haqqında sazişin bu növündə emitentin tapşırığına əsasən, səhmlərin yerləşdirilməsi üçün anderrayterlər maksimum səy göstərmək barədə razılığa gəlirlər; bu halda anderrayterlər satılmamış səhmləri almaq barədə öhdəlik götürmürlər (bunun əksi olan şərt zəmanətli öhdəliklərə əsaslanan anderraytinqdir).

MAKSİMUM QİYMƏTLƏNDİRİLƏN İTKİ – yalnız yanğın, partlayış və maddi zərərin sığortalanması zamanı mümkündür. Ağlabatan hədlər - də anderrayterlər tərəfindən bir partlayış və ya yanğın nəticəsində bir riskə görə sığortaçıya dəymiş pul zərəri qiymətləndirilir.

MAKSİMUM MÜMKÜN İTKİ – maksimum itkidir ki, onun yaranması ehtimalı bir hadisə nəticəsində kifayət qədər yüksəkdir.

MAL – hər hansı maddi və ya qeyri-maddi əmlak (aktiv), o cümlədən elektrik və istilik enerjisi, qaz, və s. əlavə dəyər vergisinin (ƏDV) məqsədləri üçün qeyri-maddi aktivlər. Pul vəsaiti və torpaq isə mal sayılmır. Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən istənilən əmlak, o cümlədən istilik, elektrik enerjisi və

Məhsulların təsnifatı



Sxem 1

enerjinin digər növləri mal hesab olunur.

MAL BÖLGÜSÜ SƏNƏDİ – malı (yükü) özündə təcəssüm etdirən və onu saxlayana orda göstərilən mala (yükə) sərəncamçılıq hüququ verən sənəd. Bu sənədlərdən biri sığorta polisidir.

MAL ÇEŞİDİ ÜÇÜN QİYMƏTQOYMA – qiymətlərin təyini metodu. Bu, ondan ibarətdir ki, bazara yeni malın çıxarılması zamanı artıq mövcud malların qiymətləri nəzərə alınır. **Son həddi məsrəflər əsasında qiymətqoyma** – ehtimal ki, istehsalın həcminin artması-azalması hüdudunda artan-azalan məsrəflərin hesablanması. **Maya dəyəri əsasında qiymətqoyma** – satış həcminin konkret göstəricilərinə əsaslanan bütün məsrəf və ehtimalların nəzərə alındığı qiymət təyini. **Qiymətlərin cari səviyyəsi əsasında qiymətqoyma** – verilən bazar üçün qəbul edilən qiymət səviyyəsinin istifadəsi ilə qiymətqoyma. Bu zaman əsas diqqət şirkətin məsrəflərinə yox, rəqiblərin təqdim etdikləri qiymətlərə istiqamətlənir.

MAL EHTİYATLARI – bu tədavül sferasında həmçinin istehsalın müxtəlif sahələrinin fasiləsiz fəaliyyəti üçün yaradılan uyğun ehtiyatlarında olan istehsal, texniki və digər təyinatlı məhsulun reallaşmasına hazır ehtiyatlardır. *Onların məqsədi* istehlakçıları (alıcıları) müxtəlif məhsul növləri (bax: sxem 1) ilə vaxtında və fasiləsiz olaraq təchiz etməkdir. Topdan və pərakəndə ticarət təşkilatlarında, istehsalçı və istehlakçıda yaradıla bilər. Topdan təşkilatlarda ehtiyatların ölçüsü bazanın mal dövriyyəsinin həcm və strukturundan, istehsalın mövsümiliyindən və verilən material resursunun istehlakından, ticarət təşkilatının təchizat üçün əsas mənbəyə nisbətən yerləşməsindən, anbar və nəqliyyat təsərrüfatının avtomatlaşma və sinxronlaşma səviyyəsindən, malın sonrakı hərəkət mərhələlərində daşınma şərtlərindən asılıdır.

MAL VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN AZƏRBAYCAN RESPUBLİKASINA İDXALI VƏ AZƏRBAYCAN RESPUBLİKASINDAN İXRACI – Azərbaycan Respublikasının gömrük sərhədini keçməyin əsas prinsiplərindən biri. Bütün şəxslər eyni əsasla Azərbaycan Respublikasına idxal etmək və Azərbaycan Respublikasından ixrac etmək, o cümlədən Azərbaycan Respublikasının Gömrük Məcəlləsində baxılmış qaydada xarici iqtisadi əlaqələr həyata keçirmək hüququna malikdirlər. Azərbaycan Respublikasına idxal etmək və Azərbaycan Respublikasından ixrac etmək o halda qadağan edilir ki, bu, ölkənin maraqlarına zidd olsun və ölkə özünün dövlət təhlükəsizliyini, ictimai asayişi, xalqın həyatını, sağlamlığını və əxlaq qaydalarını, bədii, tarixi və arxeoloji sərvətlərini, təbii ətraf mühitini, heyvanat və bitki aləmini, həmçinin mülkiyyətin çoxtərəfli hüquqlarını, idxal edilən mal və xidmətlərdən Azərbaycan istehlakçılarının hüquqlarını və s. qorumağa məcbur olsun. Bu zaman milli qanunvericiliyə riayət edilir və ölkənin beynəlxalq öhdəlikləri yerinə yetirilir. Qadağaya düşən ayrı-ayrı əmtəə və nəqliyyat vasitələri (onların müsadirə olunması nəzərdə tutulmayıbsa) təxirə salınmadan ya ölkə ərazisindən xaric edilməyə, ya da ölkə ərazisinə qaytarılmağa məruz qalır. İdxal və ixraca qoyulan məhdudiyyətlər ölkənin iqtisadi siyasətindən, onun iqtisadi suverenliyinin əsaslarını və istehlak bazarını qorumaqdan, həmçinin ölkənin beynəlxalq öhdəliklərindən və ölkə vətəndaşlarının hüquqlarını pozan və digər bədxah aksiyalara cavabdan irəli gələrək müəyyənləşdirilir.

MALGÖNDƏRƏNİN DƏYİŞDİRİLMƏSİNƏ XƏRCLƏR – malgöndərənin dəyişdirilməsi zamanı alıcı təşkilatın məsrəfləri.

MALGÖNDƏRMƏ (TƏCHİZAT) MÜQAVİLƏSİ – bu müqaviləyə əsasən, malgöndərən (təchizatçı) təşkilat razılaşdırılmış tələblərə uyğun olaraq və əvvəlcədən razılaşdırılmış qiymət üzrə alıcı təşkilata müəyyən müddətdə malların mülkiyyət kimi göndərilməsi üçün məsuliyyəti öz üzərinə götürür.

MALIN (İŞİN, XİDMƏTİN) TƏHLÜKƏSİZLİYİ – maldan (işin, xidmətin nəticələrindən) istifadə edilməsinin, onun saxlanmasının, daşınmasının, işlədilməsinin adi şəraitində və ya işin görülməsi (xidmət göstərilməsi) prosesində istehlakçının həyatına, sağlamlığına, əmlakına, habelə ətraf mühitə zərər vurulmasının istisna olunması.

MALIN DİFERENSİASİYASI (FƏRQLƏNMƏSİ) – alıcının seçiminə daha böyük təsir göstərən amillərin nəzərə alın-

ması ilə malın fərqləndirici xüsusiyyətlərinin formalaşması prosesi.

MALIN GÖMRÜK DƏYƏRİ – malın Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyənləşdirilən və aşağıdakı məqsədlər üçün istifadə olunan dəyəri:

– maldan rüsum tutulması üçün;

– xarici iqtisadi əlaqələr və gömrük statistikasının aparılması, ticarət-iqtisadi münasibətlərin dövlət tənzimlənməsi, o cümlədən xarici iqtisadi əməliyyatlara valyuta nəzarəti, bu sahədə bank hesablaşmalarının həyata keçirilməsi ilə bağlı tədbirlər üçün.

MALIN QAYMAĞINI YIĞMAQ – malın yeni bazarda tətbiq edilməsi ilə əlaqədar müvəqqəti yüksək gəlir qazanmaq məqsədilə istehsalçı müəssisələr və ticarət firmaları tərəfindən aparılan siyasət. Bu siyasət müəyyən sayda alıcıların yeni mala sahib olmaq arzusuna və həmin malı onun istehsal xərclərindən qat-qat yüksək qiymətə almağa hazır olmasına əsaslanır.

MALIN MƏNŞƏ ÖLKƏSİ – malın istehsal olunduğu və ya Gömrük Məcəlləsi ilə müəyyən olunan meyarlar əsasında kifayət qədər yenidən emala məruz qaldığı ölkə.

MALIN MƏNŞƏYİ HAQQINDA SERTİFİKAT – idxal edilən malın hansı ölkədən gətirildiyini təsdiq edən və bununla da ticarət sazişlərində nəzərdə tutulmuş rüsumun məbləğinə və ya güzəştlər təqdim edilməsinə təsir göstərən sənəd.

MALIN MƏNŞƏYİ HAQQINDA ŞƏHADƏTNAMƏ – malların mənşə ölkəsini və ya ixrac edildiyi ölkəni təsdiq edən sənəd. Həmin ölkənin gömrük hakimiyyəti orqanları və ya milli qanunvericiliklə müvəkkil edilmiş digər orqanlar tərəfindən verilir.

Mal sahibinin malın mənşə ölkəsi barəsində bəyanatı ilə yanaşı və ya həmin bəyanatın əvəzinə istifadə edilir. Bəyanat nəqliyyat və ya kommersiya sənədlərində, yaxud gömrük bəyannaməsində şərh edilə bilər. Bu cür bəyanatdan fərqli olaraq, malın mənşəyi haqqında şəhadətnamə (və ya sertifikat) malın idxalatçısından və ya ixracatçısından asılı olmayan orqan tərəfindən verilir. Malın mənşəyi haqqında şəhadətnamə təqdim edilməsi malın idxal edildiyi ölkənin qanunvericiliyində və ya beynəlxalq müqavilələrdə nəzərdə tutulan hallarda mallara güzəştli rejim və ya gömrük rüsumlarının tutulması baxımından ən əlverişli rejim, yaxud fitosanitar və ya baytarlıq xarakterli tədbirlər tətbiq edilməsi üçün zəruridir.

MALIN REPOZİSİYALAŞMASI – mövcud bazarın tələbatlarına tam müvafiqliyin təmin olunması üçün malın dəyişilməsi.

MALİYYƏ (lat. *financia* – pul tədiyəsi; fr. *financia* – əldə olan vəsait, gəlir) – pul vəsaitləri fondlarının bölgüsü, yenidən bölgüsü və istifadəsi ilə əlaqədar yaranan münasibətlər sistemi. Bu münasibətlər dövlətlə hüquqi və fiziki şəxslər, həmçinin dövlətlər arasında baş verə bilər. Maliyyə sistemi – dövlətin öz funksiyalarının həyata keçirilməsi üçün zəruri sayılan maliyyə sisteminin tərkib hissələrinin məcmusudur. Dövlət büdcəsi, yerli büdcələr, dövlət müəssisələrinin maliyyələri və xüsusi fondlardan ibarətdir. Ölkədə pulun təbii və pul münasibətlərini səciyyələndirən iqtisadi kateqoriyadır.

MALİYYƏ DURUMU – iqtisadi subyektin vəziyyəti: onun mövcud maliyyə resursları, təsərrüfat fəaliyyəti, normal iş və həyat rejiminə riayət edilməsi, başqa subyektlərlə pul hesablaşmaları aparılması üçün lazım olan pul vəsaitləri ilə təminat dərəcəsi.

MALİYYƏ (MÜHASİBAT) HESABATI – müəssisənin, idarənin, təşkilatın və başqa təsərrüfat subyektlərinin əmlakının, maliyyə vəziyyətinin, təsərrüfat fəaliyyətinin nəticələrinin və s. istifadəçilər (səhmdarlar, kreditorlar, sahibkarlar, dövlət orqanları və s.) üçün təyin edilmiş formalarda öz əksini tapa bilən mühasibat uçotunun faktiki və düzgün təsdiq olunmuş göstəricilərinin yekunlarının məcmusu.

Maliyyə hesabatları (*Financial statements*) – bir qayda olaraq, mühasibat sənədlərindən çıxarılmış və maliyyə hesabatlarının əsas prinsiplərinə uyğun, müəyyən bir zaman kəsiyində müəssisənin iqtisadi ehtiyatları və öhdəlikləri barədə məlumatları və ya müəyyən bir dövr üçün əlaqədar dəyişiklikləri özündə əks etdirən qoşma fakturalardan ibarətdir. Bu termin maliyyə hesabatlarının tam dəstinə aid edilə bilər. Lakin o, ayrıca maliyyə hesabatına, məsələn, balans cədvəlinə, yaxud gəlir və xərclər haqqında hesabata və



Sxem 1

müvafiq izahedici qeydlərə də aid edilə bilər.

MALİYYƏ AKTİVLƏRİ – Milli Hesablar Sisteminin 2008-ci il standartları üzrə maliyyə aktivlərinə aşağıdakılar daxil edilir: monetar qızıl və xüsusi almaq hüququ olan aktivlər; nağd pul və pula çevrilə bilən depozitlər (banklararası depozitlər və sair depozitlər); qısa müddətə və uzun müddətə borc verilən qiymətli kağızlar (səhmlərdən başqa); ssudalar (qısa müddətli və uzunmüddətli); səhm kapitalı (qiymətləndirilən, qiymətləndirilməyən və sair növ səhmlər) və investisiya fondlarının səhmləri (pul bazarı fondlarının səhmləri və sair növ səhmlər); sığorta, pensiya və standartlaşdırılmış təminat proqramları (sığorta texniki ehtiyatlar, həyat sığortası üzrə ehtiyatlar istisna edilməklə; həyat sığortası üzrə ödənişlər və illik gəlirlər; pensiyaya çıxmaq üçün nəzərdə tutulan (ayrılan) pensiyanın məbləği; pensiya fondlarının zəmanətçilərə tələbləri; qeyri-pensiya yardımlarına hüquqlar; standart təminatlar üzrə tələbat üçün ehtiyatlar); yaradılan maliyyə alətləri və əlavələr (əlavələr – "opsionlar", yəni könüllü yardımlar; yardım etmək, təkan vermək üçün "forvard", yəni kontraktlar; işçilərin səhmlərinə əlavələr); digər maliyyə aktivləri (ticarət kreditləri və avansları, debitor və ya kreditor borcların sair növləri).

MALİYYƏ BAZARI – maliyyə aktivlərinin yaradılması və maliyyə aktivləri ilə mübadilə üçün təşkil olunan institusional struktur. Maliyyə bazarı kapitalın səfərbər edilməsinə, kredit təqdim olunmasına, mübadilə pul əməliyyatlarının həyata keçirilməsinə və əmtəə istehsalında maliyyə vəsaitlərinin səmərəli yerləşdirilməsinə istiqamətlənmişdir (bax: sxem 1).

MALİYYƏ DAYANIQLIĞI – səmərəli ödəniş sisteminin yaradılması; kreditorlar, büdcə ilə hesablaşmaların optimal sxem üzrə aparılması, əsas kontragentlərlə operativ qarşılıqlı təmas, iqtisadi alətlərdən rasional istifadə maliyyə möhkəmliyini gücləndirən şərtlərdir.

MALİYYƏ FYUÇERSLƏRİ – bu və ya digər şəkildə maliyyə aktivlərinin – xarici valyuta, qiymətli borc kağızları, səhmlərin bazar portfelinin (fond indeksi) müəyyən miqdarı üçün fyuçers kontraktlarının bir növü. XX əsrin 70-ci illərində – Amerika dolları dünya bazarında sabit vəziyyətini itirdiyi, faiz norması isə kəskin dəyişikliklərə məruz qaldığı dövrdə maliyyə fyuçersləri mühüm rol oynayırdı. Maliyyə fyuçersləri faiz dərəcələrinin, valyuta məzənnələrinin və bütövlükdə bazarın proqnozlaşdırıla bilinməyən dəyişikliklərə məruz qalmasından səmərəli müdafiə üsuludur. Maliyyə fyuçerslərinin bir neçə növü var.

Valyuta fyuçersləri xarici valyuta üçün fyuçers kontraktlarıdır. İlk dəfə 1972-ci ildə tətbiq edilmişdir. Onların çox hissəsi Amerika dolları, İngiltərə funt-sterlinqi, Almaniya markası, İsveçrə frankı, Kanada dolları, Yaponiya iyenası və Avstraliya dollarının alqı-satqısı barədə bağlanır. Kontraktda valyuta ilə bağlı sövdələşmənin minimum həcmi

(məsələn, ABŞ-da 62,500 funt-sterlinq və ya 12,5 milyon iyen), birja bülletenlərində isə müvafiq xarici valyutanın milli valyuta vahidləri ilə kotirovkaları nəzərdə tutulur.

Faiz fyuçersləri – qiymətli borc kağızlarıdır. Məsələn, ölkə xəzinədarlığının vekselləri və istiqrazları, avro və dollar şəklində depozitlər, sertifikatlar və s. üçün fyuçers kontraktları 1975-ci ildə tətbiq edilmişdir. Faiz fyuçerslərinin sahibləri müəyyən sayda qiymətli borc kağızlarına sahib olmaq hüququna malikdirlər. Kontraktda sövdənin minimum həcmi (məsələn, avro-dollar şəklində depozit sertifikatları üçün 1 milyon dollar), birja bülletenlərində isə faiz fyuçerslərinin kotirovkaları borc öhdəliyinin nominal dəyərinə nisbətən faizlə müəyyən edilir. Avro-dollar şəklində depozit sertifikatları üçün kontraktlar 100%-lə həmin sertifikatların göstəricisi arasında kotirovka edilir. Fond indeksləri (bazar portfeli) üçün fyuçers kontraktları fond bazarının geniş əhatəli qiymət göstəricilərinə əsaslanır. 1982-ci ildə tətbiq edilmiş bu kontraktlara "Major market" indeksləri, "Standart and Poor's 500" birjasının "Bank onlayn" mürəkkəb indeksi, eləcə də Nyu-York fond birjasının mürəkkəb indeksi aiddir. Maliyyə fyuçerslərinin sahibi kontraktın müddəti başa çatdıqda müvafiq səhmləri almağa və ya satmağa borclu deyil. Bu kontraktlar bilavasitə pul vəsaitlərinə əsaslanır. Kontraktda müəyyən əmsal formalaşır və birja kotirovkası həmin əmsala vurulur.

Maliyyə fyuçersləri aşağıdakı məqsədlər üçün istifadə edilə bilər: a) hecləmə; b) spred (itki ehtimalını məhdudlaşdırmaq üçün eyni investisiya pozisiyasında iki və daha artıq kontraktın kombinə edilməsi); c) beynəlxalq ticarətdə hecləmə məqsədilə spekulyasiya. Bu halda valyuta fyuçerslərindən və avro-dollar şəklində depozit sertifikatları üçün fyuçerslərdən istifadə edilir. Daxili bazarda fəaliyyət göstərən şirkətlər sığorta məqsədilə faiz fyuçerslərindən yararlanırlar. Eyni zamanda bir neçə kontrakt satan və alan investorlar spreddən istifadə edirlər. Bundan əlavə, yeni maliyyə vasitəsi – maliyyə fyuçersləri fəal çevrilən opsionlar formalaşmışdır.

MALİYYƏ HESABATININ TƏRTİB EDİLMƏSİ ÜZRƏ SAZİŞ (*Compilation engagement*) – maliyyə məlumatlarının toplanması, təsnifləşdirilməsi və ümumiləşdirilməsi üçün audit ekspertizasına qarşı mühasibat ekspertizasından istifadə edilməsini nəzərdə tutan saziş.

MALİYYƏ HESABATLARI İLƏ ƏLAQƏDAR İNFORMASİYA SİSTEMİ (*Information system relevant to financial reporting*) – maliyyə hesabatları sistemini özündə ehtiva edən və iqtisadi subyektin əməliyyatlarını (habelə hadisələri və şəraitləri) qeydə almaq, təhlil etmək və onlara dair hesabat vermək və əlaqədar aktivlər; öhdəliklər və xüsusi kapital üzrə məsuliyyəti təmin etmək üçün yaradılmış prosedurlardan və sənədlərdən ibarət olan daxili nəzarət elementi.

MALİYYƏ HESABATLARININ AUDİTİ (*Audit of financial statements*) – maliyyə hesabatlarının auditinin məqsədi bu hesabatların bütün aspektlərdə əsas tətbiq prinsiplərinə uyğun olaraq hazırlanması barədə auditor rəyinin verilməsinə imkanın yaradılmasıdır. Maliyyə hesabatlarının auditi əminliyi təmin edən audit tapşırıqlarına aiddir.

MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARI (MHBS) – əvvəlki Mühasibat Uçotunun Beynəlxalq Standartları (BMUS) Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (BMUSŞ) tərəfindən hazırlanmış mühasibat uçotuna və maliyyə hesabatlarının hazırlanmasına dair standartlar toplusu. MHBS şirkətlərin maliyyə hesabatlarının hazırlanmasında qlobal standartdır. MHBS prinsiplərə əsaslanan məqsədyönlü və daha çox təqdimat azadlığı yaradan mühasibat uçotu sistemidir.

MHBS-in yaradılmasında əsas məqsədlər aşağıdakılardır: dünya səhm bazarının iştirakçılarının və digər istifadəçilərin iqtisadi qərarlar verməsinə yardım edən yüksək keyfiyyətli, şəffaf və müqayisəli informasiya tələb edən, ictimaiyyətin marağında olan, keyfiyyətli, başa düşülən və icra edilə bilən qlobal mühasibat uçotu standartlarını inkişaf etdirmək; müxtəlif şirkətlərin maliyyə hesabatlarının MHBS tələb etdiyi eyni prinsiplər əsasında hazırlanmasını və bunun nəticəsində investorlar üçün onların müqayisəliyini təmin etmək; müəssisələrin təsərrüfat maliyyə fəaliy-

yətinin şəffaflığını təmin etmək; müxtəlif ölkələrin milli mühasibat uçotu standartlarının uyğunlaşdırılması vasitəsilə vahid uçot qaydalarının yaradılması; bu standartların istifadəsi və ciddi tətbiqini təşviq etmək; kiçik və orta ölçülü müəssisələrin və yeni iqtisadiyyatların xüsusi ehtiyaclarını nəzərə almaq.

Kimlər MHBS-la maraqlanır və kimlər MHBS-dan istifadə edir: MHBS-ə uyğun hazırlanmış maliyyə hesabatları hesabat tarixinə maliyyə vəziyyəti, hesabat tarixində başa çatan dövr üzrə maliyyə nəticələri, pul vəsaitlərinin axını və kapitalda dəyişikliklər haqqında hesabatlardan və həmin hesabatlara dair izahedici qeydlərdən ibarətdir: investorlar, kreditorlar, nizamlayıcılar, müştərilər, biznes rəqibləri.

MHBS-ni tətbiq etmək üçün bir çox səbəblər var. Ən vacibi dünya üzrə maliyyə hesabatlarının müqayisəli olmasıdır. MHBS investorlar və kreditorlar üçün maliyyə hesabatlarının müqayisəli görünüşünü, habelə müəssisələrin maliyyə vəziyyətini, ödəmə qabiliyyətini və digər göstəricilərini təhlil etmək məqsədilə zəruri məlumatları əks etdirmək üçün prinsipləri təmin edir.

Nizamlayıcılar (dövlət orqanları, qanunvericilər və s.) şirkətlərin fəaliyyətinə effektiv nəzarəti həyata keçirmək üçün onların maliyyə hesabatlarından istifadə edirlər.

Şirkətin müştəriləri şirkətin fəaliyyətinin davamlılığından əmin olmaq məqsədi ilə onların maliyyə hesabatlarını nəzərdən keçirməkdə maraqlıdırlar.

Şirkətlərin biznes rəqibləri gələcək fəaliyyət istiqamətlərini müəyyən edərkən, rəqib şirkətlərin maliyyə nəticələrini və maliyyə göstəricilərini nəzərdən keçirməyə ehtiyac duyurlar. Onlar bu məlumatların əksəriyyətini maliyyə hesabatlarından alırlar.

Beynəlxalq mühasibat standartlarını müəyyən etmə prosesi inkişaf etmiş ölkələrin millətləri tərəfindən öz mühasibat uçotu standartları olmayan inkişaf etməkdə olan ölkələr üçün nəzərdə tutulmuş standartların yaradılması cəhdi ilə bir neçə onilliklər əvvəl başlamışdır.

Bu gün 100-ə qədər ölkə açıq tipli şirkətlərin maliyyə hesabatlarının hazırlanmasında MHBS-dən istifadəni tələb edir və ya buna icazə verir, nəticədə 12000-dən çox şirkət MHBS-ə uyğun maliyyə hesabatları təqdim edir. Məsələn, ABŞ-da Qiymətli Kağızlar və Valyuta Mübadiləsi üzrə Komissiya bu ölkənin açıqtipli şirkətlərinə MHBS-dən istifadəyə keçid üçün tarix müəyyənləşdirmək və hətta onun qəbulunu məcburi etmək üçün addımlar atmağı nəzərdən keçirir. Ümumiyyətlə, gözlənilir ki, MHBS-nin dünyəvi qəbulu alternativ investisiyaların müqayisə xərclərinin azaldılması və informasiyanın keyfiyyətinin artırılması baxımından, həm investorlara, həm də maliyyə hesabatlarının digər istifadəçilərinə çox faydalı olacaq.

Bir çox dünya ölkələrində yerli mühasibat standartları ya MHBS-ə uyğunlaşdırılıb və ya uyğunlaşdırılması planlaşdırılır. MHBS-ə uyğun maliyyə hesabatlarının hazırlanması tələb olunur. Bəzi MDB ölkələrində MHBS-nin tətbiqi aşağıdakı kimidir:

Rusiyada bank sektoruna aid olan müəssisələrdən MHBS əsasında maliyyə hesabatları hazırlamaq tələb olunur. Qeyribank sektoruna aid müəssisələrdən isə belə maliyyə hesabatları təqdim etmək tələb olunmasa da, onlara MHBS əsasında maliyyə hesabatları hazırlamağa icazə verilir.

Qazaxıstanda MHBS-nin tətbiqi hasilat sənayesi şirkətləri və dövlət mülkiyyətli şirkətlər də daxil olmaqla, bütün banklar, səhmdar cəmiyyətləri və digər mühüm ictimai maraq kəsb edən şirkətlər üçün məcburidir.

Ukraynada şirkətlərdən MHBS-ə əsasən hazırlanmış maliyyə hesabatlarının hazırlanması tələb olunmur.

Gürcüstanda banklar və sığorta şirkətləri üçün həm konsolidasiya edilmiş, həm də müstəqil maliyyə hesabatlarında MHBS-ə uyğunluq tələb olunur. Digər şirkətlərə isə MHBS-ə uyğun maliyyə hesabatları tərtib etməyə icazə verilir.

Azərbaycanda MHBS-ə keçid Azərbaycan 2003-cü ildən etibarən Böyük Britaniyanın Baş naziri Toni Bleyerin təşəbbüsü ilə yaranmış "Təbii Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü"nə qoşulmuşdur. 2004-cü ilin iyun ayında Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında" yeni Qanunu qəbul edilmişdir. Həmin qanuna görə, 2008-ci il 1 yanvar tarixindən bütün ictimai əhəmiyyətli

qurumlar, MHBS-ə uyğun digər təşkilatlar ya MHBS-ə, ya da milli standartlar əsasında illik maliyyə hesabatlarını hazırlamalıdırlar. Azərbaycan Respublikası Milli Bankının qaydalarına görə, 2005-ci ildən etibarən Azərbaycanda fəaliyyət göstərən banklar və maliyyə təşkilatları üçün MHBS-ə məcburidir. Bu gün Azərbaycanda bir çox ictimai əhəmiyyətli müəssisə MHBS-ə və yeni MMUS-ə keçib.

Hazırda 2010-cu ildə qüvvədə olan MHBS-lər Azərbaycan dilinə tərcümə olunub və həmin tarixdən sonra MHBS-ə edilmiş dəyişikliklər və dərc edilmiş yeni MHBS-lər Azərbaycan dilinə tərcümə olunur.

Eyni zamanda, Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən MHBS-i əsas tutaraq yeni Milli Mühasibat Uçotu Standartları (MMUS) tərtib və dərc edilmişdir. Hazırda kommersiya təşkilatları üçün 38 MMUS və 27 MMUS-un tətbiqi ilə şərhlər və tövsiyələr, büdcə təşkilatları üçün 24 və qeyri-hökumət təşkilatları üçün 1 MMUS dərc edilib.

MHBS-də dəyişiklik və əlavələri izləyib MMUS-də nəzərə almaq lazımdır və MMUS-də müvafiq dəyişiklik və əlavələrin edilməsi məqsədilə ARMN-nin tərkibində xüsusi şura yaradılıb.

Azərbaycan Respublikasında MHBS-ə keçid prosesində ən böyük nailiyyətlərdən başlıcası 2008-ci il 1 yanvar tarixində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) tərəfindən MHBS-nin qəbuludur. ARDNŞ-in MHBS-ə keçməsi Azərbaycan Respublikasında şirkət səviyyəsində ən irimiqyaslı və öncül keçid hesab olunur. MHBS-ə keçid məqsədilə ARDNŞ-də ciddi tədbirlər görülmüşdür. Əvvəlcə Şirkətin yalnız bir neçə struktur bölməsində MHBS-ə keçid planlaşdırılsa da, 2007-ci ilin sonlarında uçotun vahid prinsiplər əsasında aparılmasını təmin etmək üçün alınmış qərar əsasında ARDNŞ-in bütün müəssisələrində 2008-ci il 1 yanvar tarixindən MHBS-ə keçidi təmin olundu. Bu da, öz növbəsində, beynəlxalq audit xidmətlərindən istifadə etmək və beynəlxalq reytinq əldə etməyə imkan yaratdı. Həmin proseslə əlaqədar yeni standartlara uyğun uçot metodologiyası və müasir tələblərə cavab verən proqram təminatı tətbiq olunmuş və uçotun yeni qaydalar əsasında aparılmasına hazırlıq işləri başa çatdırılmışdır. ARDNŞ üzrə telekommunikasiya sistemlərinin yeniləşdirilməsi, müasir tələblərə cavab verən rabitə və kompüter şəbəkəsinin qurulması, işçilərin zəruri texniki avadanlıqlarla təchiz edilməsi istiqamətində işlər həyata keçirilmişdir. Hazırda intellektual rabitə avadanlıqları ilə təchiz olunmaqla ARDNŞ-in bütün müəssisə və təşkilatlarını əlaqələndirən, rabitə, mühafizə, kompüter-informasiya şəbəkə texnologiyalarını inteqrasiya etmək qabiliyyətində olan müasir şəbəkə sisteminin layihəsi işlənmişdir. Bu layihə üzrə ARDNŞ-in müəssisə və təşkilatlarında korporativ kompüter şəbəkəsinə qoşulmalı olan lokal şəbəkələrin qurulması həyata keçirilmişdir. 2008-ci ildə ARDNŞ-in MHBS-ə uyğun uçot siyasəti və maliyyə hesabatlarına uyğun hesablar planı, biznes proseslərinin aparılması qaydaları və Hesabdarlıq üzrə Göstərişlər təsdiq edilmişdir. Uçotun tam həcmdə avtomatlaşdırılmasını təmin etmək məqsədilə SAP sistemi modullarının tətbiqi sahəsində təkmilləşdirmə işləri davam etdirilmişdir. Həmin ildən etibarən ARDNŞ-in MHBS əsasında hazırlanmış illik maliyyə hesabatları "Böyük Dördlüyə" daxil olan müstəqil audit şirkəti "Ernst and Young" tərəfindən audit olunur. 2009-cu ildən etibarən ilkin sənədlər qəbul edilərkən əməliyyatların dərhal SAP sistemində işlənməsi və uçota alınması təmin edilmişdir.

MHBS-in siyahısı

MHBS maliyyə hesabatlarının beynəlxalq standartları və onlarla bağlı şərhlərdən ibarətdir. Beynəlxalq Mühasibat Uçotu Standartları Komitəsinin strukturunda baş vermiş dəyişikliklər nəticəsində həmin standartların adları dəyişilmişdir. Belə ki, strukturun dəyişilməsindən əvvəl buraxılmış standartlar və şərhlər, müvafiq olaraq, Mühasibat Uçotunun Beynəlxalq Standartları və Şərhlər üzrə Daimi Komitənin Şərhləri adlanır. Strukturun dəyişilməsindən sonra buraxılan standartlar və şərhlər müvafiq olaraq Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Beynəlxalq Maliyyə Hesabatları üzrə Şərhlər Komitəsinin Şərhləri adlanır (bax: cədvəl 1).

Ümumilikdə belə gözlənilir ki, MHBS-in bütün dünyada qəbul edilməsi alternativ investisiyaları müqayisə etmək üçün çəki-

Cədvəl 1

MHBS-ə keçid dövründə qarşıya çıxan çətinliklər və problemlər

MHBS 1 – Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının ilk dəfə qəbul edilməsi	Bu MHBS-in məqsədi müəssisənin ilk MHBS maliyyə hesabatlarını və həmin maliyyə hesabatlarının əhatə etdiyi dövrün bir hissəsini, onun aralıq maliyyə hesabatlarını yüksək keyfiyyətli məlumatla təmin etməkdir. Bu hesabatlar MHBS-ə uyğun olaraq mühasibat uçotu üçün uyğun bir başlanğıc nöqtəsi təmin edir. Bu standart MHBS-ə keçid tarixi müəyyən edir və həmin tarixdə müəssisənin maliyyə hesabatlarında əks olunan məbləğlərin müəyyənləşdirilməsi üçün qaydaları təsvir edir.
MHBS 2 – Pay əsasında ödənişlər	Bu MHBS-in məqsədi müəssisənin pay alətləri (səhm opsionları) əsasında ödəmə əməliyyatı öhdəsinə götürdüyü zaman maliyyə hesabatlarının hazırlanmasıdır.
MHBS 3 – Müəssisələrin birləşməsi	Bu MHBS-in məqsədi maliyyə hesabatlarında müəssisə birləşməsi haqqında təqdim olunan məlumatların uyğunluğu, etibarlılığı və müqayisə edilə bilmə xüsusiyyətlərinin yaxşılaşdırılmasıdır. Bu məqsədlə hazırkı MHBS alıcı tərəfindən: maliyyə hesabatlarında alınmış müəssisənin müəyyən edilə bilən aktivlərin, ehtimal edilən öhdəliklərin və həmin müəssisədə digər tərəfin payının tanınması və ölçülməsi; müəssisələrin birləşməsi zamanı alınmış qudvilin və ya təklif əsasında alışdan gəlirin tanınması və ölçülməsi; maliyyə hesabatlarının istifadəçilərinə müəssisələrin birləşməsinin xüsusiyyəti və maliyyə nəticələrini qiymətləndirmək imkanını vermək üçün açıqlanacaq məlumatların müəyyən edilməsi prinsip və tələblərini təsvir edir.
MHBS 4 – Sığorta müqavilələri	Bu MHBS-in tərtib olunması iki mərhələdən ibarətdir. Hazırda qüvvədə olan standart birinci mərhələdən ibarətdir. İkinci mərhələ isə tərtib olunma prosesindədir. Bu standart sığorta müqavilələrində sığortaçı kimi iştirak edən müəssisənin maliyyə hesabatlarında həmin müqavilələrin əks olunmasına dair tələbləri əks etdirir. Bu MHBS sığorta müqavilələri üzrə yaranan məbləğlərin maliyyə hesabatlarında tanınması və sığorta müqavilələrindən daxil olacaq gələcək pul vəsaitlərinin məbləği, müddəti haqqında maliyyə hesabatlarının istifadəçiləri üçün müəyyən açıqlama və izahatın əks olunmasını tələb edir.
MHBS 5 – Satış üçün nəzərdə tutulan uzunmüddətli aktivlər və dayandırılmış əməliyyatlar	Bu MHBS-in məqsədi satış üçün nəzərdə tutulmuş aktivlərin uçot və təqdimatı, habelə dayandırılmış əməliyyatlar üzrə məlumatların açıqlanması qaydalarını müəyyənləşdirməkdir. Bu MHBS tələb edir ki: Satış üçün saxlanılan aktivlər onların qalıq dəyəri, yaxud satış xərcləri çıxmaqla ədalətli dəyərindən ən aşağı olan məbləğlə ölçülsün və belə aktivlər üzrə amortizasiya hesablanmasın; Satış üçün saxlanılan aktivlər və dayandırılmış əməliyyatlar üzrə nəticələr maliyyə hesabatında ayrıca təqdim olunsun.

MHBS 6 – Mineral ehtiyatların kəşfiyyat və qiymətləndirilməsi	Bu MHBS-in məqsədi mineral ehtiyatların kəşfiyyat və qiymətləndirilməsi ilə bağlı maliyyə hesabatlarına dair tələbləri müəyyənləşdirməkdir. Bu standart mineral ehtiyatların kəşfiyyat və qiymətləndirilməsindən yaranan aktivlərin dəyərsizləşmiş olub-olmamasını müəssisə tərəfindən nəzərdən keçirməsini tələb edir. Həmçinin bu standart mineral ehtiyatların kəşfiyyat və qiymətləndirilməsi nəticəsində yaranan aktivləri müəyyənləşdirən və həmin aktivlərdən gələcəkdə daxil olacaq vəsaitlərin miqdarını, vaxtını və ehtimalını müəyyənləşdirən açıqlamaların maliyyə hesabatlarında əks olunmasını tələb edir.
MHBS 7 – Maliyyə alətləri: açıqlamalar	Bu MHBS-in məqsədi müəssisələrdən öz maliyyə hesabatlarında müəssisənin maliyyə vəziyyəti və maliyyə nəticələri üçün maliyyə alətlərinin mühüm olub-olmaması və müəssisəyə məxsus olan maliyyə alətlərindən yaranan risklərin xarakteri və həcmi və rəhbərliyin bu riskləri necə idarə etməsi barədə açıqlamaların olmasını təmin etməkdir.
MHBS 8 – Əməliyyat seqmentləri	Bu standart borc və ya pay alətləri açıq bazarda alınıb-satılan müəssisələrə, eləcə də açıq bazarda hər hansı növ alətlərin yerləşdirilməsi ilə əlaqədar maliyyə hesabatlarını tənzimləyici orqanlara təqdim edən və ya təqdim etməyi planlaşdıran müəssisələrə tətbiq edilir. BMHS 8 müəssisələrdən öz əməliyyat seqmentləri haqqında maliyyə və təsviri məlumatları açıqlamasını tələb edir.
MHBS 9 – Maliyyə alətləri	MHBS 9 BMUS 39-da maliyyə aktivlərinin təsnifləşdirilməsi və qiymətləndirilməsi bölmələrini əvəz edir. Bu MHBS-in məqsədi maliyyə hesabatlarının istifadəçiləri üçün müəssisənin nağd vəsaitinin gələcək hərəkətlərinin vaxtını və ordakı qeyri-müəyyənliyi, nağd vəsaitin miqdarını qiymətləndirmək üçün maliyyə aktivləri və maliyyə öhdəliklərinin maliyyə hesabatlarında əks olunması prinsiplərini müəyyənləşdirməkdir. Bu standart 1 yanvar 2013-cü il tarixindən qüvvəyə minir, lakin bu tarixdən əvvəl onun tətbiqinə icazə verilir.
MHBS 10 – Konsolidasiya edilmiş maliyyə hesabatları	Bu standart hər növ müəssisələrin konsolidasiyası üçün əsas kimi götürülə biləcək modeli təmin edir. Standart nəzarət prosesinin çətin olduğu hallar: potensial səsvermə hüququ, agentlik münasibətləri, müəyyən aktivlərin və səsvermə hüququnun həlledici olmadığı şərtlərin mövcud olduğu hallarda nəzarət üçün tələbləri müəyyən edir. Bundan əlavə, MHBS 10 agentlik münasibətləri üçün xüsusi istiqamətləndirici proqram təqdim edir. Bu standart həmçinin BMUS 27-dən dəyişməz qalan mühasibat uçotu tələblərini və konsolidasiya prosedurlarını ehtiva edir. Bu standart 1 yanvar 2013-cü il tarixindən qüvvəyə minir, lakin bu tarixdən əvvəl onun tətbiqinə icazə verilir.

MHBS 11 – Birgə layihələr	Bu standart layihə tərəflərindən layihədə iştirakdan yaranan hüquq və öhdəliklərin tanınmağını tələb etməklə vahid prinsip əsasında yanaşma təqdim edir və bununla da birgə layihələrin uçotunu təkmilləşdirir. Birgə layihənin təsnifləşdirilməsi müqavilədən irəli gələn hüquq və vəzifələrin qiymətləndirilməsi ilə müəyyən edilir. Birgə nəzarət nəzarət obyektinin müqavilə ilə müəyyənləşərək idarə olunmasının bölüşdürülməsidir və bu yalnız müvafiq fəaliyyət barədə qərarların nəzarəti həyata keçirən tərəflərin yekdil razılığı ilə qəbulu zamanı mövcud olur.
MHBS 12 – Digər müəssisələrdə iştirak payının açıqlanması	Bu MHBS-in məqsədi müəssisənin maliyyə hesabatlarının istifadəçilərini aşağıda göstərilənləri qiymətləndirmək üçün gərəkli olan məlumatla təmin etməkdir: müəssisənin digər müəssisələrdə olan paylarının mahiyyəti və həmin paylarla əlaqəli risklər; həmin payların onun maliyyə vəziyyətinə, maliyyə nəticələrinə və pul vəsaitlərinin hərəkətinə təsiri.
MHBS 13 – Ədalətli dəyərin ölçülməsi	Bu MHBS "ədalətli dəyər" terminini izah edir, ədalətli dəyərin qiymətləndirilməsi qaydalarını müəyyən edir və maliyyə hesabatlarında ədalətli dəyərin qiymətləndirilməsi barədə açıqlamaları tələb edir.
MUBS 1 – Maliyyə hesabatlarının təqdimatı	Bu standart əvvəlki dövrlərin maliyyə hesabatları və başqa müəssisələrin maliyyə hesabatları ilə müqayisəni təmin etmək üçün ümumi məqsədli maliyyə hesabatlarının hazırlanmasının əsasını müəyyən edir, maliyyə hesabatlarının təqdimatının ümumi tələblərini, onların strukturu üçün təlimatları və məzmununun minimum tələblərini müəyyən edir.
MUBS 2 – Mal material ehtiyatlar	Bu standartın məqsədi mal material ehtiyatlarının uçotu qaydalarının müəyyən edilməsindən ibarətdir. Bu standart maya dəyərinin müəyyən edilməsi və onun xərclərə silinməsi üçün təlimatı özündə ehtiva edir.
MUBS 7 – Pul vəsaitlərinin hərəkəti haqqında hesabat	Müəssisənin pul vəsaitlərinin hərəkəti haqqında məlumat maliyyə hesabatlarının istifadəçilərinə müəssisənin pul vəsaitləri və onların ekvivalentlərini yaratmaq qabiliyyətini və müəssisənin bu pul vəsaitlərinin istifadəsi ehtiyaclarının qiymətləndirilməsi baxımından çox faydalıdır. Bu standart əməliyyat, investisiya və maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti, bu hərəkət nəticəsində onların qalıqlarında dəyişikliklər və onlarla bağlı digər açıqlamarın maliyyə hesabatlarında əks olunmasını tələb edir.
MUBS 8 – Uçot siyasəti, uçot qiymətləndirmələrində dəyişikliklər və səhvlər	Bu standartın məqsədi uçot siyasətində və qiymətləndirmələrində dəyişiklər və maliyyə hesabatlarında ötən illərə aid səhvlərin düzəldilməsinin uçotu və açıqlamasına dair tələbləri əks edir və uçot siyasətinin seçilməsi və dəyişdirilməsi üçün meyarlar müəyyən edir.
MUBS 10 – Hesabat tarixindən sonrakı hadisələr	Bu standart hesabat tarixindən sonrakı hadisələrin maliyyə hesabatlarında nəzərə alınması və həmin hadisələrlə bağlı maliyyə hesabatlarına düzəliş və ya müvaviq açıqlama verilməsini tələb edir.

MUBS 11 – Tikinti müqavilələri	Bu standartın məqsədi tikinti müqavilələri ilə bağlı gəlir və xərclərin uçot qaydalarının müəyyən edilməsindən ibarətdir. Tikinti müqavilələri üzrə həyata keçirilən fəaliyyətin xüsusiyyəti olaraq, müqavilənin başlama və qurtarma tarixləri, adətən, müxtəlif hesabat dövrlərinə təsadüf edir. Buna görə tikinti müqavilələrinin uçotunda əsas məsələ müqavilə gəliri və xərclərinin tikinti işinin yerinə yetirildiyi mərhələyə uyğun olaraq hesabat dövrünə düzgün aid edilməsidir.
MUBS 12 – Mənfəət vergisi	Bu standartın məqsədi mənfəət vergisi üzrə uçot qaydalarının müəyyən edilməsindən ibarətdir. Mənfəət vergisinin uçotu üçün əsas məsələ cari və təxirə salınmış vergi nəticələrinin necə uçota alınmasıdır. Bu standart həmçinin istifadə olunmamış vergi zərərləri və ya vergi kreditlərindən yaranan təxirə salınmış vergi aktivlərinin tanınması, mənfəət vergisinin maliyyə hesabatlarında təqdimatı və onunla bağlı məlumatların açıqlanmasını da əhatə edir.
MUBS 16 – Torpaq, tikili və avadanlıqlar	Bu standartın məqsədi maliyyə hesabatlarının istifadəçilərinə müəssisənin öz torpaq, tikili və avadanlıqlarına investisiya və bu investisiyada dəyişikliklər haqqında məlumat ala bilmələri üçün torpaq, tikili və avadanlıqlar üzrə uçot qaydalarının müəyyən edilməsindən ibarətdir. Torpaq, tikili və avadanlıqların uçotunda əsas məsələlər aktivlərin tanınması, balans dəyəri, onların köhnəlmə və dəyərsizləşməsi ilə bağlı məsrəflərin tanınmasıdır.
MUBS 17 – İcarə	Bu standartın məqsədi icarəçi və icarəyə verən üçün icarə ilə bağlı müvafiq uçot siyasəti və açıqlamanı müəyyən etməkdir. Standart əməliyyat və maliyyə icarənin anlayışlarını müəyyən edir və onların uçotda və maliyyə hesabatlarında qeyd olunmasına dair tələbləri əks etdirir.
MUBS 18 – Gəlir	Bu standartın məqsədi müəyyən növ əməliyyatlar və hadisələr nəticəsində yaranan gəlirin uçot qaydalarının müəyyən edilməsindən ibarətdir. Gəlirin uçotunda əsas məsələ gəlirin nə vaxt tanınmasının müəyyən edilməsidir. Standartın tələblərinə görə gələcək iqtisadi səmərənin müəssisəyə axını ehtimal edilirsə və bu səmərə etibarlı əsasda qiymətləndirmək mümkün olduqda gəlir tanınır.
MUBS 19 – İşçilərin mükafatlandırılması	Bu standartın məqsədi işçilərin mükafatlandırılması üzrə uçot və açıqlama qaydalarının müəyyən edilməsindən ibarətdir.
MUBS 20 – Hökumət subsidiyalarının uçotu və hökumət yardımı haqqında məlumatın açıqlanması	Bu standart hökumət subsidiyalarının uçotu və məlumatların açıqlanması və müəssisəyə hökumət tərəfindən yardımın başqa formalarının maliyyə hesabatlarında açıqlanması üçün tələbləri əks edir.
MUBS 21 – Xarici valyuta məzənnələrində dəyişikliklərin təsviri	Bu standart xarici valyutada olan əməliyyat və qalıqların müəssisənin maliyyə hesabatlarında əks olunması və maliyyə hesabatlarının təqdimat valyutasına çevrilməsi qaydalarını müəyyən edir.

MUBS 24 – Əlaqəli tərəflər haqqında məlumatın açıqlanması	Bu standart müəssisənin maliyyə hesabatlarına təsir edən əlaqəli tərəflərin, onlarla hesabat dövrü ərzində baş vermiş əməliyyatların və hesabat tarixinə onlara ödəniləcək və onlardan alınacaq məbləğlərin və həmin məbləğlərin mahiyyətinin açıqlanmasını tələb edir.
MUBS 26 – Pensiya təminatı üzrə uçot və hesabat	Bu standart pensiya təminatının maliyyə hesabatlarının əks olunduğu hallarda tətbiq edilir.
MUBS 27 – Konsolidasiya edilmiş və ayrı maliyyə hesabatları	Bu standartın məqsədi əsas şirkətin ayrıca və konsolidasiya edilmiş maliyyə hesabatlarında nəzarət etdiyi törəmə müəssisələr və törəmə müəssisələr qrupu haqqında təqdim etdiyi məlumatın münasibliyi, etibarlılığı və müqayisəliliyini təmin etməkdir.
MUBS 28 – Asılı müəssisələrə investisiyalar	Bu standart asılı müəssisələrin anlayışını izah edir və həmin müəssisələrə investisiyaların maliyyə hesabatlarında tanınması və açıqlanmasına dair tələbləri əks edir.
MUBS 29 – Hiperinflyasiya şəraitində maliyyə hesabatları	Bu standart funksional valyutası hiperinflyasiyalı iqtisadiyyatın valyutası olan müəssisənin maliyyə hesabatlarının təqdim edilməsi qaydalarını açıqlayır.
MUBS 31 – Birgə müəssisələrdə iştirak payları	Bu standart birgə müəssisə anlayışını müəyyən edir və birgə müəssisələrdə payların uçotu və birgə müəssisələrin aktivləri, öhdəlikləri, gəlirləri və xərclərinin investorların maliyyə hesabatlarında əks etdirilməsi zamanı tətbiq edilir.
MUBS 32 – Maliyyə alətləri: təqdimat	Bu standartın məqsədi maliyyə alətlərinin öhdəliklər və ya kapital kimi təqdim edilməsi, eləcə də maliyyə aktivləri və maliyyə öhdəliklərinin əvəzləşdirilməsi prinsiplərini müəyyən etməkdir. Bu standart maliyyə alətlərinin maliyyə aktivləri, maliyyə öhdəlikləri və kapital alətləri kimi təsnif edilməsinə; əlaqəli faizin, dividendlərin, zərərlərin və gəlirlərin təsnifatı və maliyyə aktivləri və öhdəliklərinin qarşılıqlı əvəzləşdirilməli olduğu şəraitlərə tətbiq edilir.
MUBS 33 – Səhm üzrə mənfəət	Bu standartın məqsədi – il ərzində yaranmış mənfəətin müəssisənin səhmdar kapitalını əhatə edən hər bir səhmin üzərinə düşən hissəsinin müəyyən və təqdim edilməsi prinsiplərini təsvir etməklə eyni hesabat dövründə müxtəlif müəssisələr arasında və eyni müəssisə üçün müxtəlif hesabat dövrləri arasında fəaliyyət nəticələrinin müqayisəsini təkmilləşdirməkdir. "Mənfəət" anlayışını müəyyən etmək üçün müxtəlif uçot prinsipləri istifadə oluna bildiyi səbəbindən səhm üzrə mənfəət haqqında məlumatlara dair məhdudiyyətlərin olmasına baxmayaraq, dəqiq müəyyən edilmiş əsas maliyyə hesabatlarını gücləndirir.

MUBS 35 – Aralıq maliyyə hesabatları	Bu standartın məqsədi aralıq maliyyə hesabatının minimal məzmununu müəyyən etmək və aralıq dövr üçün tam və ya qısaldılmış maliyyə hesabatlarında tanıma və ölçmə prinsiplərini təsvir etməkdir. Vaxtında və etibarlı aralıq maliyyə hesabatları investorların, kreditorların və digərlərinin müəssisənin mənfəət və pul vəsaitləri əldə etmək qabiliyyətini, eləcə də maliyyə vəziyyətini və likvidliyini başa düşməsinə imkan verir.
MUBS 36 – Aktivlərin dəyərsizləşməsi	Bu standartın məqsədi aktivlərin bərpa edilə bilən dəyərdən artıq olmayan məbləğdə əks etdirilməsini təmin etmək üçün müəssisənin tətbiq etdiyi prosedurları təsvir etməkdir. Aktiv o halda bərpa edilə bilən dəyərdən artıq məbləğdə əks etdirilir ki, onun balans dəyəri aktivin istifadəsi və ya satılmasından əldə edilə bilən məbləğdən artıq olsun. Belə halda aktiv dəyərsizləşmiş kimi təsvir olunur və standart müəssisədən dəyərsizləşmə zərərinin tanınmasını tələb edir. Standart həmçinin müəssisənin nə zaman dəyərsizləşmə zərərini silməli olduğunu və açıqlanacaq məlumatları müəyyən edir.
MUBS 37 – Qiymətləndirilmiş öhdəliklər, şərti öhdəliklər və şərti aktivlər	Bu standartın məqsədi qiymətləndirilmiş öhdəliklərə, şərti öhdəliklərə və şərti aktivlərə münasib tanıma meyarının və ölçmə bazasının tətbiqini, eləcə də istifadəçilərə onların xüsusiyyəti, vaxtı və məbləğini anlamağı təmin etməkdir.
MUBS 38 – Qeyri-maddi aktivlər	Bu standartın məqsədi qeyri-maddi aktivlər üçün uçot qaydasını müəyyən etməkdir. Standart müəssisədən qeyri-maddi aktivi yalnız və yalnız müəyyən meyar qarşılananda tanımağı tələb edir. Həmçinin standart qeyri-maddi aktivlərin balans dəyərinin necə ölçüləcəyini müəyyən edir və qeyri-maddi aktivlər haqqında xüsusi məlumatların açıqlanmasını tələb edir.
MUBS 39 – Maliyyə alətləri: tanınması və ölçülməsi	Bu standart maliyyə aktivlərinin, maliyyə öhdəliklərinin müxtəlif kateqoriyalar üzrə təsnifləşdirilməsi və hər bir kateqoriya üzrə müvafiq tanınma və ölçülməsi prinsiplərini müəyyən edir.
MUBS 40 – İnvestisiya əmlakı	Bu standart investisiya əmlakının tanınması, ölçülməsi və açıqlanmasında tətbiq edilir.
MUBS 41 – Kənd təsərrüfatı	Bu standart kənd təsərrüfatına aid olan bioloji aktivlər, məhsul yığımı məntəqəsində kənd təsərrüfatı məhsulu və dövlət subsidiyalarının uçotu üçün tətbiq edilir.
BMHŞK şərh 1 – İstismardan çıxarma üzrə, bərpa üzrə və oxşar xarakterli öhdəliklərində dəyişikliklər	Bu şərh hər hansı aktivin istismardan çıxarılması, bərpası və ya oxşar xarakterli öhdəliyin ölçülməsi üzrə dəyişikliklərə tətbiq edilir.

BMHŞK şərh 2 – Kooperativ qurumlarda üzvlərin payları və oxşar alətlər	Bu şərh MUBS 32-də təsvir edilən maliyyə alətlərinə tətbiq edilir
BMHŞK şərh 4 – Müqavilədə icarənin olmasının müəyyənləşdirilməsi	Bu şərhdə təsvir olunan məsələlər aşağıdakılardır: müqavilənin BMHS 17-də müəyyən edilmiş icarə anlayışını əks etdirib-etdirməməsinin müəyyənləşdirilməsi; müqavilənin icarə müqaviləsi olması və ya bu anlayışı əhatə etməsinin qiymətləndirilməsi; əgər razılaşma özündə icarə ehtiva edirsə, icarə üçün ödənişlər müqavilənin hər hansı digər elementləri üçün ödənişlərdən necə fərqləndirilməlidir.
BMHŞK şərh 5 – İstismardan çıxarma, bərpa və ətraf mühitin bərpası üçün ehtiyat edilmiş vəsaitlərdə paylarla bağlı hüquqlar	Bu şərh istismardan çıxarma üçün ehtiyat edilmiş fondlarda payların maliyyə hesabatlarında əks olunma qaydalarını müəyyən edir.
BMHŞK şərh 6 – Xüsusi bazarda iştirak nəticəsində yaranan öhdəliklər- Tullantı elektrik və elektronik məmulatlar (TE & EM)	Bu şərh istehsalçıların maliyyə hesabatlarında TE & EM üzrə məişət avadanlıqlarının satışı vasitəsilə tullantıların idarə olunması öhdəliyinin tanınması üzrə təlimat təqdim edir.
BMHŞK şərh 7 – BMUS 29 Hiperinflyasiyalı İqtisadiyyatda Maliyyə Hesabatlarında ötən illərə aid olan müqayisəli məlumatların dəyişilməsinin tətbiqi	Bu şərh müəssisənin funksional valyutasının əvvəlki dövrdə hiperinflyasiya olmayan iqtisadiyyatda hiperinflyasiyanın mövcudluğu şəraitində hesabat məqsədləri üçün BMUS 29-u tətbiq etməyi göstərir və yeni şəraitlə əlaqədar olaraq müəssisə MHBS 29-a əsasən ötən illərə aid olan məlumatları öz maliyyə hesabatlarında yeniləyir.
BMHŞK şərh 9 – Əlavə elementli derivativlərin (törəmə alətlərinin) yenidən qiymətləndirilməsi	Bu şərh MUBS 39 çərçivəsində aidiyyəti olan bütün törəmə alətlərinə tətbiq edilir.
BMHŞK şərh 10 – Aralıq maliyyə hesabatları və dəyərsizləşmə	MUBS 34 tələb edir ki, aralıq maliyyə hesabatları illik maliyyə hesabatları ilə eyni prinsip və siyasət əsasında hazırlansın. Eyni zamanda, MUBS 36 tələb edir ki, qudvilin dəyərsizləşməsi üzrə tanınan zərər növbəti maliyyə hesabatlarında bərpa olunmasın. Bu şərh aralıq maliyyə hesabatlarında qudvilin dəyərsizləşməsi üzrə tanınan zərərin həmin ilin sonuna dəyərsizləşmə olmadığı təqdirdə illik maliyyə hesabatlarında zərərin silinib-silinməməsi üzrə tələbləri aydınlaşdırır.
BMHŞK şərh 12 – Konsessiya xidmətləri üzrə razılaşmalar	Bu şərh konsessiya xidmətləri üzrə razılaşmalara dair öhdəliklər və əlaqəli hüquqların tanınması və qiymətləndirilməsi üzrə ümumi prinsipləri müəyyən edir.
BMHŞK şərh 13 – Müştərilərin Loyallıqlarına dair Proqramlar	Bu şərh müştərilərinə mükafat kreditləri verən müəssisələrdə uçot prinsiplərini aydınlaşdırır.

BMHŞK şərh 14 MUBS 19 – Mükafatlandırma üzrə müəyyən edilmiş aktivlərin həddi, Minimum Maliyyələşdirmə Tələbləri və onların Qarşılıqlı Əlaqəsi	Bu şərh bütün pensiya üçün müəyyən edilmiş müavinətlərə və müəyyən edilmiş digər uzunmüddətli müavinətlərə tətbiq edilir.
BMHŞK şərh 15 – Daşınmaz əmlakın tikintisi üzrə müqavilələr	Bu şərh birbaşa və ya subpodratçılar vasitəsilə daşınmaz əmlakın tikintisi ilə məşğul olan müəssisələr tərəfindən gəlir və əlaqəli xərclərin uçotu üçün tətbiq edilir. Bu şərhin tətbiq sahəsinə aid müqavilələr daşınmaz əmlakın tikintisi üzrə müqavilələrdir. Daşınmaz əmlakın tikintisi ilə yanaşı, bu cür müqavilələrə digər malların və ya xidmətlərin çatdırılması da daxil ola bilər.
BMHŞK şərh 16 – Xarici müəssisələrdəki xalis investisiyaların hecinqi	Bu şərh xarici əməliyyatlara xalis investisiyanı xarici məzənnə riskindən qorumaq istəyən və MUBS 39-a uyğun hecinq (maliyyə risklərinə qarşı tədbirlər) uçotu aparmaq istəyən müəssisələrə tətbiq olunur.
BMHŞK şərh 17 – Sahibkarlara qeyri-pul aktivləri şəklində ayırmalar	Bu şərh müəssisənin sahiblərinə qeyri-pul aktivləri şəklində və ya sahiblərinin qeyri-pul aktivləri və ya pul vəsaitlərinin seçimi verən ayırmalar zamanı tətbiq edilir.
BMHŞK şərh 18 – Müştərilərdən aktivlərin köçürülməsi	Bu şərh müştərilər tərəfindən alınmış torpaq, tikili və avadanlıq köçürmələrinin uçotunda tətbiq edilir.
BMHŞK şərh 19 – Maliyyə öhdəliklərinin kapital alətləri ilə ödənilməsi	Bu şərh maliyyə öhdəliyinin şərtlərinə yenidən baxıldıqda və maliyyə öhdəliyinin qismən və ya tam ödənilməsi üçün kreditor müəssisəyə kapital alətləri emissiya edən müəssisə tərəfindən uçota tətbiq edilir.
ŞDK şərh 7 – Avronun istifadəsi	Bu şərh avronun Avropa Birliyinə daxil olan ölkələrin milli valyutaları kimi tanınması ilə əlaqədar buraxılmışdır.
ŞDK şərh 10 – Əməliyyat fəaliyyətinə xüsusi aidiyyəti olmayan hökumət subsidiyaları	Bəzi ölkələrdə sahibkarlıq fəaliyyətinin uzun müddət ərzində dəstəklənməsi üçün ayrı-ayrı regionlarda, yaxud sənaye sektorlarında hökumət subsidiyaları verilir. Bu şərh həmin subsidiyaların MUBS 20-nin əhatə dairəsinə daxil olub-olmamasını izah edir.
ŞDK şərh 12 – Konsolidasiya – xüsusi məqsədli müəssisələr	Bu şərh xüsusi məqsədlər üçün yaranmış müəssisələrə investisiyaların tanınması qaydalarını əks etdirir.
ŞDK şərh 13 – Birgə müəssisələr – sahibkarlar tərəfindən pul şəklində olmayan daxilolmalar	Bu şərh birgə müəssisələrə sahibkarlar tərəfindən pul şəklində olmayan daxilolmaların tanınmasına dair tələbləri əks etdirir.
ŞDK şərh 15 – Əməliyyat icarəsi – həvəsləndirmə əməliyyatları	Bəzi icarə müqavilələrində icarəverən icarəçiyə həvəsləndirmək məqsədilə müxtəlif formalarda mükafatların (məsələn, icarə müddətinin bir hissəsində icarə haqqının ödənilməməsi, yaxud qismən ödənilməsi və s.) maliyyə hesabatlarında əks olunmasına dair tələbləri əks etdirir.

ŞDK şərh 25 – Mənfəət vergisi – müəssisənin və ya onun əsas şirkətinin vergi statusunun dəyişməsi	Müəssisənin və ya onun əsas şirkətinin vergi statusunun dəyişməsi onun vergi üzrə öhdəliklərinin və aktivlərinin azalması və ya artması ilə nəticələnə bilər. Bu şərh vergi statusunun dəyişməsindən irəli gələn nəticələrin maliyyə hesabatlarında əks olunmasına dair tələbləri izah edir.
ŞDK şərh 27 – Hüquqi formasına görə icra olan əməliyyatların mahiyyətinin müəyyənləşdirilməsi	Müəssisə hüquqi formasına görə icra əməliyyatları daxil edən sazişlər imzalaya bilər (məsələn, aktivin müəssisə tərəfindən digər şirkətə satılması və dərhal həmin şirkətdən icarəyə götürülməsi). Bu şərh həmin əməliyyatların MUBS 17-də müəyyən edilən icarə terminə uyğun olub-olmamasına və onların maliyyə hesabatlarında nə cür tanınmasına dair qaydaları əks etdirir.
ŞDK şərh 29 – Konsessiya xidmətləri üzrə sazişlər: açıqlama	Bu şərh konsessiya xidmətləri üzrə əməliyyatları həyata keçirən müəssisələr tərəfindən maliyyə hesabatlarında bu əməliyyatlarla bağlı açıqlanmalı olan məlumatları təsvir edir.
ŞDK şərh 31 – Gəlirlər – reklam xidmətlərini daxil edən barter əməliyyatları	Müəssisə alıcıya reklam xidmətlərini göstərə bilər və əvəzində alıcı tərəfindən müəssisəyə digər reklam xidmətləri göstərilə bilər. Bu cür barter əməliyyatlarda bəzi hallarda xidmətlər üçün ödəniş edilmir, digər hallarda isə eyni, yaxud oxşar məbləğlər müəssisələr arasında bir-birinə ödənilir. Bu şərh müəssisə tərəfindən göstərilmiş və alınmış reklam xidmətlərinin ədalətli dəyərinin müəyyən edilməsi qaydalarını təsvir edir.
ŞDK şərh 32 – Qeyri-maddi aktivlər – internet səhifələri üzrə xərclər	Müəssisə daxili və ya kənar giriş məqsədləri üçün öz internet səhifəsinin açılıb və saxlanılması üzrə müxtəlif xərclər edə bilər. Həmin səhifə müəssisənin məhsul və xidmətlərinin reklamı üçün kənar şəxslərin girişi, yaxud daxili qaydalarının, müştəriləri ilə bağlı olan məlumatların saxlanılması üçün yalnız daxili işçilərinin girişi məqsədilə açıla bilər. Bu şərh internet səhifələrin MUBS 38-də təsvir edilən qeyri-maddi aktivlərin anlayışına uyğun olub-olmamasını və onların maliyyə hesabatlarında tanınması qaydalarını müəyyən edir.

lən xərcləri azaltmaq və məlumatların keyfiyyətini artırmaq baxımından investorlara və maliyyə hesabatlarının digər istifadəçilərinə faydalı olacaq. İnvestitorların daha çox maliyyə ayırmaları nəticəsində bu prosesdən şirkətlər də faydalanacaq.

MHBS-ə keçidin əsas elementləri MHBS-in muhasibat uçotu siyasətinə təsirini, maliyyə hesabatlarının buraxılması üzərində daxili nəzarəti (MHBDN), açıqlayıcı qeydlər üzrə nəzarət və prosedurları (AQNP), hesabatların buraxılması üzrə mütəxəssisləri, biznes fəaliyyətini və İT sistemləri əhatə edir.

Bu gün, yuxarıdakılardan əlavə, MHBS-in tətbiqi zamanı MDB dövlətlərinə xas olan beş növ problem vardır:

1) texniki problemlər: MHBS-in yerli dilə aktual tərcüməsinin mövcud olmaması. Bütün standartlar ingilis dilindədir və bu, əsas dil kimi qəbul olunur. Standartların xarici dillərə tərcüməsi yalnız MHBS komitəsinin mü-

təxəssisləri tərəfindən həyata keçirilir ki, bu zaman standartlarla uyğunluq qabardılır. Bu isə, öz növbəsində, standartların buraxılmasında ləngimələrə yol açır.

2) MHBS "mahiyyətin formadan üstünlüyü" prinsipini hər zaman prioritet kimi qəbul etmir. Bu da yerli standartlardan uzaqlaşmalara yol açır, eyni zamanda bir standartdan digərinə keçidi çətinləşdirir.

3) aktivlər və borc öhdəliklərinin qiymətləndirilməsində fərqlilik. Bu, müxtəlif mühasibat sistemlərində aktivlər və öhdəliklərin müxtəlif klassifikasiyasından irəli gəlir. Bundan əlavə, MHBS aktivlərin ədalətli dəyər və ya bazar dəyərində göstərilməsini tələb edir və bunu hesablamaq çətin olur.

4) açıqlanan məlumatların miqdarındakı fərqlilik. MHBS böyük miqdarda əməliyyatlar və əlaqəli tərəflər haqqında geniş məlumatın açıqlanmasını tələb edir. Bu da, öz növbəsində, böyük miqdarda iş tələb edir.

5) tətbiq olunan qanunvericilikdə fərqliliklər. Hər bir ölkənin mühasibat standartları ölkə qanunvericiliyinin mühüm tərkib hissələrindən birini təşkil edir. Mühasibat uçotu standartları heç zaman qanunvericiliklə ziddiyyət təşkil edə bilməz.


Nərgiz Kərimova
İlqar Vəliyev

MALİYYƏ HÜQUQU – dövlətin və yerli büdcələrin maliyyə resursları ilə bağlı olan ictimai münasibətləri tənzimləyən hüquqi normaların məcmusu. Maliyyə hüququ normaları ilə maliyyə sferasında dövlətin fəaliyyətinin ümumi prinsip və formaları, pul vəsaitlərinin dövlət maliyyə fondlarına çevrilmə üsulları, bu məqsədlərlə tətbiq edilən ödəniş növləri, onların tutulma qaydası, dövlət pul vəsaitlərinin alınma və icra qaydası, dövlət müəssisələrində maliyyə resurslarının formalaşma mənbələri və s. cəmlənmişdir.

Maliyyə hüququ hüququn başqa yarımsahələrini əhatə edir: büdcə hüququ, bank hüququ, vergi hüququ, fond hüququ, maliyyə nəzarəti və s.

Azərbaycan Respublikasının maliyyə hüququnun mənbələri: Azərbaycan Respublikasının Konstitusiyası, maliyyə, pul-kredit, vergi-gömrük sistemini tənzimləyən qanunlar və s.

MALİYYƏ XİDMƏTLƏRİ – kreditlərin, maliyyə lizinqi əməliyyatlarının kredit təminatlarının və pul-kredit əməliyyat-



Sxem 1

larında hər hansı girov və ya lombard təminatının təqdim edilməsi (yaxud verilməsi) və qaytarılması, o cümlədən krediti və ya təminatı təqdim etmiş şəxsin kreditləri və kredit təminatlarını idarə etməsi;
– müştərilərin depozitlərinin və hesablarının idarə edilməsi, tədiyələr, köçürmələr, borc öhdəlikləri və tədiyə vasitələri ilə bağlı əməliyyatlar;
– qanuni tədiyə vasitələri olan valyutanın, pul vəsaitlərinin və əsginasların (numizmatika əşyalarından başqa) tədavülü ilə bağlı əməliyyatlar;
– səhmlərin, istiqraz vərəqələrinin, sertifikatların, veksellərin, çeklərin və digər qiymətli kağızların tədavülü ilə bağlı əməliyyatlar. İnkassasiya xidmətləri və banknotların, qiymətli kağızların və digər qiymətlilərin saxlanması və ya onların qorunmasının təmin edilməsi üzrə xidmətlər maliyyə xidmətlərinə aid deyildir;
– törəmə maliyyə vasitələri ilə əqdlərə, forvard müqavilələrinə, opsionlara və analoji sazişlərə aid əməliyyatlar;
– investisiya fondlarının idarə edilməsi ilə bağlı xidmətlər;
– sığorta və təkrar sığorta əməliyyatları.

MALİYYƏ-İQTİSAD KOMİTƏSİ – Azərbaycan Xalq Cümhuriyyəti dövründə maliyyə-iqtisadi məsələlərinə dair sənədlərin ilkin hazırlanması ilə məşğul olan qurum. Cümhuriyyət hökumətinin 1919-cu il 12 fevral tarixli qərarı ilə yaradılmışdı. Tərkibinə maliyyə, ticarət, sənaye və ərzaq, yollar, xalq maarifi və nəzarət nazirləri daxil idi. Komitənin hazırladığı maliyyə-iqtisad sənədləri Nazirlər Şurasında baxılmağa çıxarılmazdan əvvəl ətraflı müzakirədən keçirilirdi. Maliyyə-İqtisad Komitəsi 1919-cu il dekabrın 24-də ləğv edilmişdir.


MALİYYƏ İLİ (ing. *fiscal year*) – 1) hökumətin əməliyyat ili. Böyük Britaniyada maliyyə ili cari təqvim ilində aprelin 6-dan növbəti təqvim ilində aprelin 5-dək davam edir. Əksər ölkələrdə çox vaxt maliyyə ili təqvim ilinə uyğun gəlmir. ABŞ-da maliyyə ilinin sonu 30 iyun tarixinə düşür; 2) qanunvericilik yolu ilə müəyyən edilmiş illik müddət. Vergi hüququ normalarına uyğun olaraq bu müddət üçün müxtəlif təşkilati-hüquqi formalı təsərrüfat subyektlərinin fəaliyyətinin nəticələri haqqında maliyyə hesabatı tərtib edilməlidir. Maliyyə ilinin başlanması və sonu tarixləri, bir qayda olaraq, büdcə ilinin başlanması və sonu tarixləri ilə uyğun gəlir. Çünki məhz sonuncular hüquqi və fiziki şəxslər üçün maliyyə hesabatlarının və deklarasiyaların, fəaliyyətin faktiki nəticələri nəzərə alınmaqla büdcəyə və büdcədənkənar fondlara vergilər və başqa məcburi ödənişlər üzrə hesabatların tərtibi və dövlət orqanlarına təqdim olunması müddətlərini müəyyən edirlər. Dünya ölkələrinin əksəriyyətində maliyyə ili təqvim ilinə uyğundur; lakin bəzi ölkələrdə maliyyə ilinin başlanması və sonu tarixləri təqvim ilinin başlanması və sonu tarixlərinə uyğun gəlmir (məsələn, Böyük Britaniyada və Yaponiyada maliyyə ili aprelin 1-dən gələn il martın 31-dək; Kanadada – iyulun 1-dən gələn il iyunun 30-dək; ABŞ-da – oktyabrın 1-dən gələn il sentyabrın 30-dək; Türkiyədə – martın 1-dən gələn il fevralın 28-dək davam edir). Bu vəziyyət həm tarixi, həm də ictimai-siyasi səbəblərlə (o cümlədən parlamentin qanunverici palatalarının iş rejimi ilə), ölkədə büdcə prosesinin xüsusiyyətləri ilə izah olunur. Azərbaycan Respublikasında maliyyə ili təqvim ilinə uyğun gəlir.

MALİYYƏ İNNOVASİYASI (ing. *financial innovation*) – maliyyə institutları tərəfindən pul köçürmələri, həmçinin kreditlərin verilməsi və alınması, məsələn, telefon vasitəsilə bank xidmətləri, birbaşa debetləşmə sistemləri, kredit kartları və s. üzrə yeni maliyyə məhsulları və proseslərinin işlənib hazırlanması. Bu yeniliklər pul ötürmələrinin ənənəvi vasitələrini (nağd, çeklə) tamamlayır və pul dövriyyəsinin sürətini yüksəldə bilir. Bundan başqa, onlar krediti daha yetərli və "demək olar ki, pul" yaradılması yolu ilə iqtisadiyyatda likvidliyi artıra bilir. Bütün bunlar hökumət tərəfindən pul-kredit siyasətinin aparılmasını mürəkkəbləşdirir.

MALİYYƏ İNTEQRASİYASI – vergi sistemlərinin, büdcə təsnifatının, hesablaşmaların həyata keçirilmə üsullarının və s. unifikasiyası prosesi. Maliyyə inteqrasiyası bir neçə regional qrupa daxil olan dövlətin siyasətinin böyük koordinasiyası məqsədi ilə aparılır.

MALİYYƏ QOYULUŞLARI – səhmlərin, istiqrazların və başqa qiymətli kağızların alınması, başqa müəssisələrə nizamnamə kapitalı qoyulması, borc veril-

Maliyyə qoyuluşlarının növləri



Sxem 1

məsi və s. ilə əlaqədar müəssisənin, idarənin, təşkilatın və başqa təsərrüfat subyektlərinin investisiya qoyuluşları (bax: sxem 1).

MALİYYƏ LİZİNQİ – öz xərcini ödəmə dərəcəsinə görə spesifikliyə malik lizinq növü. Bu müqavilənin fəaliyyət göstərdiyi müddət ərzində tam öz xərcinin ödənilməsini tələb edir: bu müddətdə lizinq verənə lizinq əməliyyatından daxil olan mənfəət faizinin və icarəyə verilmiş əmlakın dəyərinin lizinq şirkətinə tam ödənilməsi baş verir. Lizinq firması bu halda iki müqavilə bağlayır: 1) əmlakın satın alınması üçün hazırlayanla (sahibi ilə); 2) əmlakın icarəyə verilməsi haqqında icarədarla; sonuncu müqavilə əsas icarə müddəti ərzində ləğv oluna bilər (icarəyə verilən əmlakın dəyərinin ödənilməsi, lizinq firmasının xərclərinin ödənilməsi üçün lazım olan

müddət). Maliyyə lizinqi lizinqin ən geniş yayılmış formasıdır ki, burada icarə müddəti icarəyə verilən əmlakın tam amortizasiya müddəti ilə üst-üstə düşür. Bu lizinq icarədarın mövcud olan texniki potensialın yenidən təchiz edilməsinə ehtiyacı olan zaman daha əlverişlidir. Lizinq şərtləri ilə bu cür şəraitdə bitmiş texniki xətlər, bütöv sex üçün kompleks avadanlıq, iri aqreqatlar alına bilər. Bu cür sövdələşmə zamanı lizinq şirkəti öz vəsaitləri və ya bankdan alınmış kredit vəsaitləri ilə hazırlayanla (sahiblə) hesablaşaraq əldə olunmuş avadanlığın tam ödənişini təmin edir. Texnika bilavasitə icarədara daxil olur ki, bu da onun əvəzinə icarə müddəti ərzində lizinq firması ilə hesablaşmalar aparır. Lizinq müqaviləsi icarəyə verilən texnikanın istehlak olunmuş dəyərinin lizinq alan tərəfindən tam ödənilməsini və əmlaka sahib olmağa görə bütün hüquq və öhdəliklərin razılaşdırılmış müddətdə ona keçməsini nəzərdə tutur. Adətən, ən bahalı maşın və avadanlıqlar belə sövdələşmənin obyekti kimi çıxış edir və icarə vaxtı 3-5 il və daha çox il təşkil edir. Maliyyə lizinqi zamanı faiz dərəcəsi onun digər növlərinə nisbətən aşağı olur.

MALİYYƏ LİZİNQİ (MALİYYƏ İCARƏSİ) MÜQAVİLƏSİ – bu müqaviləyə əsasən, icarəçi icarəyə verənə müəyyən əmlakı göstərir. Sonuncu həmin əmlakı sonradan sahibkarlıq məqsədləri üçün icarəçiyə icarəyə verməyi öhdəyə götürür. Bu halda icarəçi gələcəkdə həmin əmlakı icarəyə verəndən girovdan çıxarmaq hüququna malikdir.

Müqavilədə nəzərdə tutula bilər ki, icarəyə verən mülkiyyət alınmaq üçün əmlakı, eləcə də icarəçinin icarəyə götürdüyü əmlakı girovdan çıxarmaq hüququna malik olduğu şərtləri özü seçə bilər.

MALİYYƏ MENECMENTİ – maliyyə resurslarının idarə edilməsi sistemi. Maliyyə siyasətini, metodlarını, vasitələrini, eləcə də maliyyə sabitliyinin və artımının təmini sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün idarəetmə qərarlarını qəbul edən və bu qərarları praktikada həyata keçirən insanları əlaqələndirən maliyyə resurslarının idarə edilməsi sistemidir.

Maliyyə menecmenti maliyyə sisteminin bütün elementlərinə nüfuz edir və bazar iqtisadiyyatı şəraitində idarəetmə strukturunun ən mühüm tərkib hissəsi kimi çıxış edir (bax: sxem 1, 2, 3). Maliyyə menecmentinin əsası qısamüddətli və uzunmüddətli perspektivdə maliyyə resurslarından səmərəli istifadə edilməsi amillərinin təhlilinə əsaslanan və maliyyə xidmətlərinin fəaliyyət istiqamətlərini müəyyənləşdirən maliyyə siyasətidir. Müvafiq siyasətin işlənib hazırlanması üçün maliyyə təhlilinin mənbələri dövlət maliyyə orqanlarının rəsmi hesabatları, institusional bazar strukturlarının (banklar, investisiya şirkətləri, əmtəə, fond və valyuta birjaları) informasiyası, statistik məlumatlar, sahələrarası və ölkələrarası məlumatların müqayisə edilməsi, şirkətlərin kənar istifadəsi üçün hazırlanmış maliyyə-mühasibat hesabatlarıdır. Müəssisələr səviyyəsində müvafiq maliyyə siyasətinin işlənib hazırlanması və qərarlar qəbul edilməsi üçün təsərrüfatdaxili prosesləri daha ətraflı açıqlayan daxili idarəetmə informasiyasından da istifadə edilir. Maliyyə menecmentinin məqsədləri aşağıdakılardır: şirkətin fəaliyyətinin faydalı iqtisadi nəticəsinin maksimallaşdırılması; məsrəflər minimallaşdırılmaqla mənfəətin maksimallaşdırılması, şirkətin iqtisadi potensialının artırılması; bazarda rəqabət qabiliyyətinin təmini mövcud maliyyələşdirmə mənbələrindən daha yaxşı istifadə və qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün yeni maliyyələşdirmə mənbələrinin cəlb edilməsi; şirkətin aktivlərinin strukturunun optimallaşdırılması, yaxın gələcəkdə şirkətin maliyyə sabitliyinin təmin edilməsi.

Maliyyə menecmenti məqsədlərinə nail olmaq müvafiq idarəetmə metodlarının tətbiqi sayəsində mümkündür. Maliyyənin idarə edilməsi metodları konkret tarixi xarakter daşıyır, makro və mikro səviyyələrdə iqtisadi münasibətlər inkişaf etdikcə bu metodlar da inkişaf edir. İnkişaf etmiş bazar münasibətləri şəraitində maliyyənin idarə edilməsinin əsas metodları aşağıdakılardır: proqnozlaşdırma və planlaşdırma, maliyyələşdirmə və kreditləşdirmə, özünümaliyyələşdirmə, vergitutma, sığorta, lizinq, trast, faktorinq, girov, maddi həvəsləndirmə, sanksiyaların tətbiq edilməsi. Maliyyə menecmenti müəyyən maliyyə vasitələri toplusunun köməyi ilə həyata keçi-

Maliyyə menecmenti

Maliyyə menecmenti – investisiyalar daxil olmaqla, müəssisədə bütün maliyyə proseslərinin əmələ gəlməsi və idarə olunması. Maliyyə menecmenti planlaşdırmanın bütün mərhələlərini əhatə edir, qərarların qəbul olunması, sərəncamların hazırlanması və nəzarəti. Strateji maliyyə menecmenti investisiyaların uzunmüddətli idarə olunması və kapitalın struktur sahələrini əhatə edir.

Maliyyə menecmentinin baza kateqoriyaları

Kapital	Mənfəət	Maliyyə resursları	Pul

Sahibkar tərəfindən müəssisəyə yatırılmış (investisiya) əmlakın dəyəri, bu ***müəssisənin öz kapitalını formalaşdırır.*** Öz əmlakını və ya bir hissəsini kapitala çevirmək üçün, mülkiyyətçi ən azından növbəti şərtlərə əməl etməlidir:

- kapitallaşdırılan əmlak sahibinin digər şəxsi əmlakından uzun müddətə ayrılmalıdır (ola bilsin ki, həmişəlik). Mülkiyyətçi kapitallaşdırılan əmlakın fiziki və ya digər cəhətlərindən istifadə hüququndan məhrum olur;
- İnvestisiya qoyulmuş əmlakın kapitallaşması zamanı istifadə etmək və sərəncam vermək hüququ digər iqtisadi subyektin (müəssisənin) sərəncamına keçməlidir. Kapitallaşdırılmış əmlak, müəssisənin aktivlərinə çevrilir və bu aktivlər elə bir üsulla istifadə edilməlidir ki, onların qiyməti maksimum dərəcədə artsın.




Sxem 1

rilir: ilkin vasitələr – pul vəsaitləri, debitor və kreditor borcları, qısamüddətli maliyyə qoyuluşları – səhmlər və istiqrazlar; təkrar vasitələr – opsionlar, fyuçerslər, forvard kontraktları.


Şirkətdə maliyyə fəaliyyətinin idarə edilməsi xüsusi olaraq, bu məqsədlə yaradılmış xidmətlər tərəfindən həyata keçirilir. Bir qayda olaraq, həmin xidmətlərə maliyyə üzrə vitse-prezident və ya maliyyə direktoru rəhbərlik edir. Maliyyə xidmətinin strukturuna daxil olan bölmələr maliyyə təhlili, proqnozlaşdırma və planlaşdırma, kredit siyasəti, pul vəsaitlərinin və qısamüddətli maliyyə qoyuluşlarının idarə edilməsi, vergitutma və dövlət tənzimləmə orqanları ilə qar-

Maliyyə xidmətinin strukturu



Sxem 2

Maliyyə menecmentinin ümumi sxemi



Sxem 3

şılıqlı münasibətlər, investisiya fəaliyyəti, eləcə də şirkətin mühasibat hesabatının tərtibi ilə məşğul olur.

"MALİYYƏ MENYUSU" – inkişaf etməkdə olan ölkələrin borcu probleminə yanaşma. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, kreditorlar və borclular borcla bağlı maliyyə problemlərinin tənzimlənməsinin müxtəlif variantlarından istifadə edirlər.

MALİYYƏ MƏSRƏFLƏRİ – LİBOR məbləğinin 25%-i üstəgəl illik 4%-in hər təqvim rübünün axırında əsaslı məsrəflərin və əməliyyat məsrəflərinin ödənilməmiş saldosu ilə hasili deməkdir.

MALİYYƏ MÜSTƏQİLLİYİ – iqtisadi agentin (əksər hallarda müəssisənin) maliyyə vəziyyətinin xarakteristikası; iqtisadi agentin xüsusi vəsaitləri hesabına və müstəqil surətdə ən likvid maliyyə aktivlərini səfərbər etmək qabiliyyətidir (həmçinin bax: kredit qabiliyyəti, tədiyə qabiliyyəti).

MALİYYƏ NAZİRİ YANINDA ŞURA YARADILMASI HAQQINDA QANUN – 1919-cu il martın 17-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən qəbul edilmiş sənəd. Qanuna əsasən, müxtəlif vergilərin qoyulmasına dair şikayətlərə baxılması üzrə ali müfəttişlik kimi, maliyyə naziri yanında şura yaradılmış, şuraya daimi üzvlərlə yanaşı, həlledici səs hüququ ilə məhkəmə palatasının sədri və ya üzvü, prokuror və vergi ödəyicilərindən beş nəfər də daxil idi.

MALİYYƏ NƏZARƏTİ TƏDBİRLƏRİ – xüsusi forma və üsullarla təsərrüfat və idarəetmə subyektlərində maliyyə qanunvericiliyi və maliyyə intizamının qorunması, maliyyə əməliyyatlarının düzgünlüyü, səmərəliliyi, xərclərin məqsədyönlülüyü və nəticəliliyinin yoxlanılması üzrə tədbirlər kompleksi.

Dövlət maliyyə nəzarəti dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikası büdcəsinin (büdcədənkənar əməliyyatlar da daxil olmaqla), büdcədənkənar dövlət fondlarının icraları, habelə yerli büdcələrə qanunvericilik və icra hakimiyyəti orqanlarının verdikləri səlahiyyətlərin yerinə yetirilməsi üçün ayırdıqları maliyyə vəsaitlərinin istifadəsi, pul dövriyyəsinin təşkili, kredit resurslarından və investisiyalardan istifadə, dövlət zəmanəti ilə alınmış və ya büdcədən verilmiş kreditlərdən, həmçinin dövlət ehtiyatlarından istifadə, maliyyə və vergi güzəştlərinin verilməsi, qiymət siyasətinin həyata keçirilməsinin düzgünlüyü, qanunvericiliklə müəyyən edilmiş formada təsərrüfat subyektlərinə verilmiş dövlət mülkiyyətindən istifadənin maliyyə səmərəliliyi, maliyyə-kredit təşkilatlarında dövlət maliyyə vəsaitlərinin dövriyyəsi və dövlət müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətləri üzərində nəzarətdən ibarətdir.

İlkin nəzarət – maliyyə nəzarəti həyata keçirilən qurumun aktivləri və əmlakının idarə olunması, maliyyə vəsaitlərinin formalaşması, proqram və layihələrinin tərtibi və təsdiqi mərhələsində aparılan nəzarət formasıdır.

Cari nəzarət – ilkin sənədlər, operativ xəzinə və mühasibat uçotu, inventarlaşma material-

ları və müşahidə məlumatları əsasında vəsaitlərin formalaşması və istifadəsi üzrə maliyyə-təsərrüfat əməliyyatlarının baş verməsi mərhələsində aparılan nəzarət formasıdır.

Sonrakı nəzarət – vəsaitlərin istifadəsi üzrə maliyyə-təsərrüfat əməliyyatları başa çatdıqdan sonra aparılan nəzarət formasıdır.

Azərbaycan Respublikasında maliyyə nəzarətini həyata keçirən orqanlardan biri də Hesablama Palatasıdır. Hesablama Palatası gördüyü işlər barədə Azərbaycan Respublikası Milli Məclisi qarşısında hesabat verir.

MALİYYƏ NORMA VƏ NORMATİVİ – maliyyə planlaşdırmasında maliyyə resurslarının yaranmasını, bölgüsünü və təkrar bölgüsünü nizama salan minimal, orta və ya maksi-

MALİYYƏ NƏZARƏTİ ÜSULLARI VƏ FORMALARI

Qanunverici və icra hakimiyyəti orqanlarının nəzarəti, eyni zamanda xüsusi metodların tətbiq olunması ilə xüsusi yaradılmış institutların təsərrüfat subyektləri üzərində nəzarəti

PREDMET	OBYEKT
gəlir, mənfəət, vergilər, rentabellik, maya dəyəri, istifadə xərcləri, müəyyən məqsədlərə və fondlara pul ayırmaları və s. kimi maliyyə göstəriciləri	pul münasibətləri, maliyyə resurslarının formalaşdırılması və istifadəsinin təkrar bölüşdürülməsi prosesləri

MALİYYƏ NƏZARƏTİNİN MƏQSƏDLƏRİ

- Maliyyə resurslarına tələbat ilə pul gəlirləri və xalq təsərrüfatı fondları arasında tarazlığın gözlənilməsi
- Dövlət büdcəsi qarşısında maliyyə öhdəliklərinin vaxtında və tam icra olunmasının təmin olunması
- Maliyyə resurslarının daxili istehsal ehtiyatları hesabına artımının aşkar olunması, o cümlədən rentabelliyin artması və maya dəyərinin aşağı düşməsinə görə
- Mühasibat uçotunun düzgün aparılması hesabına müəssisənin maddi dəyərləri və maliyyə resurslarının səmərəli istifadə olunmasına kömək
- Qüvvədə olan qanunvericiliyə və normativ aktlara riayət olunmasına nəzarətin həyata keçirilməsi

Sxem 1

mal kəmiyyətləri əks etdirən göstəricilər.

MALİYYƏ PLANI – məqsədi maliyyə resurslarının mümkün həcminin təyinatı, maliyyə göstəriciləri üzrə ehtiyat və kapitalın proqnozlaşdırılmasıdır. Maliyyə planlaşdırılmasının mühüm cəhəti təsərrüfatlaşan obyektin gəlir və xərclər mərkəzini təyin edən strategiya ilə bağlıdır. **Gəlir mərkəzi** təsərrüfatlaşan subyektə maksimal mənfəət gətirən bölməni əhatə edir. **Xərc mərkəzi** isə az rentabelli qeyri-kommersiya xarakterli, lakin təsərrüfat-ticarət prosesində mühüm rol oynayan bölmədir. Bir çox Qərb firmaları maliyyə planlaşdırılmasında "iyirminin səksənə" qaydasına üstünlük verirlər. Burada 20% kapital xərci, 80% mənfəət verməlidir. Qalan 80% kapital isə 20% mənfəətə bərabərdir. Bu prinsipin köhnə istismar sahələrində maliyyə və mənfəət planlaşmasında rəhbər tutulması, müvafiq mədən komplekslərində eksperiment layihələrin tətbiqində sınanması da məqbul hesab edilməlidir. Qəbul olunmuş praktikaya görə maliyyə planlaşdırılması, adətən, beşillik müddətə müəyyən edilir. Bununla yanaşı, perspektiv, cari və operativ planlaşdırma da həyata keçirilir (bax: sxem 1).


MALİYYƏ RESURSLARI – təşkilatın cari və geniş təkrar istehsal xərclərini, habelə maliyyə öhdəliklərini iqtisadi stimullaşdırmanı nəzərdə tutan, sərəncamda olan pul vəsaitləri.

MALİYYƏ RİSKİ – maliyyə bazarlarında əməliyyatlar aparılması riski.


Maliyyə risklərinin yaranma mənbələrinə uyğun olaraq onları aşağıdakı kimi təsnif edirlər:

1. Kreditin qaytarılmaması riski.
2. Faiz dərəcəsinin dəyişməsi riski (faiz dərəcəsi artıqda risk borcalana, faiz dərəcəsi azaldıqda isə kreditora aid olur).
3. Valyuta riski (valyuta məzənnəsi dəyişdikdə yaranır).
4. Qiymətli kağızların ləğv edilməsi (məzənnələrin dəyişməsi) riski.
5. Portfel riski (bəzi qiymətli kağızların məzənnələrinin azalmasının investorun portfelində olan digər qiymətli kağızların məzənnəsinə təsiri nəticəsində yaranır). Bu risk də öz növbəsində şaxələnən və şaxələnməyən risklərə bölünür (bax: sxem 1).

İpoteka kreditləri üzrə maliyyə resurslarının dinamikası (AZN)




Qrafik 1


MALİYYƏ PLANLAŞDIRILMASI
Maliyyə strategiyasının həyata keçirilməsinin təmin edilməsi üçün maliyyə fəaliyyətinin ayrı-ayrı aspektlərinə görə maliyyə planları sisteminin işlənməsi prosesləri
Obyekt
təsərrüfat və dövlət subyektlərinin fəaliyyəti
Yekun
maliyyə planlarının tərtibi
MALİYYƏ PLANLAŞDIRILMASI METODLARI
KƏMİYYƏTƏ GÖRƏ
Balans metodu
maliyyə resurslarının və onların əmələ gəlmə mənbəyinin istifadə olunması istiqamətinin razılaşdırılması və bütün maliyyə planları sahələrinin bir-biri ilə uzlaşması üçün istifadə olunur
İqtisadi-riyazi metodlar
maliyyə göstəricilərinin qarşılıqlı əlaqəsi əsasında riyazi modellərin qurulmasını nəzərdə tutur
Hesablama – analitik metodlar
inkişaf dinamikası əsasında maliyyə göstəricilərinin müəyyən edilməsi
Pul axınları metodu
gözlənilən pul vəsaitlərinin daxil olmasının proqnozu və onların istifadəsi istiqaməti
Planların optimallaşdırılması metodu
bir neçə maliyyə planının işlənməsi və seçilmiş meyarlardan asılı olaraq ən optimal olanının seçilməsinə əsaslanır
KEYFİYYƏTƏ GÖRƏ
Normativ metod
müəyyənləşdirilmiş qayda və normaların istifadə olunmasına əsaslanır
Ekspert qiymətləndirmələri metodu
aidiyyəti olan sahədə kifayət qədər bilik və təcrübəsi olan ekspertlərin fikrinin qiymətləndirilməsinə əsaslanır
Analoq metodu
Analoji müəssisələrin fəaliyyətinin göstəriciləri əsasında plan göstəricilərinin hesablanmasını nəzərdə tutur. Öz göstəricilərinin dinamikası olmadığı halda istifadə edilir.

Sxem 1

Maliyyə risklərinin əsas formaları



Sxem 2

MALİYYƏ RİSKLƏRİNİN SIĞORTALANMASI – aşağıdakı təsnifat növlərini ehtiva edir: 1) kreditlərin sığortalanması; 2) dolayı risklərin sığortalanması; 3) birja risklərinin sığortalanması; 4) dövlət vergi orqanları tərəfindən maliyyə sanksiyalarının qeyri-hüquqi tətbiqi riskinin sığortalanması. Maliyyə risklərinin sığortalanması aşağıdakı səbəblərlə: istehsalın dayandırılması və ya onun həcminin azaldılması ilə (razılaşdırılmış səbəblər nəticəsində), işin itirilməsi, iflas, gözlənilməz xərclərlə, məhkəmə xərcləri, kontragentin müqavilə öhdəliklərinin yerinə yetirilməməsi (lazımi dərəcədə yerinə yetirilməməsi ilə) və s. ilə əlaqədar sığortalının (sığortalanmış şəxsin) gəlirlərinin və əlavə xərclərinin tam və ya qismən kompensasiyasını nəzərdə tutan sığorta növlərinin məcmusudur (bax: sxem 1, 2).


MALİYYƏ SABİTLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ (ing. *financial solvency (soundness, business) evaluation*) – təsərrüfat obyektinin maliyyə vəziyyətinin ekspert qiyməti. Şirkətin maliyyə sabitliyi xüsusi vəsaitlərlə borc vəsaitlərinin nisbəti, təsərrüfat fəaliyyəti nəticəsində xüsusi vəsaitlərin yığım sürəti, uzunmüddətli və qısamüddətli öhdəliklərin nisbəti, maddi dövriyyə vəsaitlərinin xüsusi mənbələrlə təmin edilməsi ilə xarakterizə olunur.

MALİYYƏ SİSTEMİ (ing. *financial system*) – 1) müxtəlif maliyyə alətləri ilə (bank qoyuluşları, xəzinədarlıq vekselləri, səhmlər və s.) əməliyyatlar aparan maliyyə institutları (banklar, kommersiya bankları, tikinti cəmiyyətləri və s.) və bazarlar (pul bazarı, fond birjası) şəbəkəsi. Bunların köməyi ilə pulların ötürülməsi, kreditləşmə və pul vəsaitlərinin borca alınması həyata keçirilir.


Maliyyə institutları və bazarlar iqtisadiyyatda əmanətlərin və pul vəsaitlərinin borc alanlara verilməsi prosesində vasitəçi kimi mühüm mövqeləri tutur. Bu zaman ən mühüm vəzifələrdən biri əmanətçilərin və borcluların müxtəlif tələblərinin razılaşdırılmasından ibarətdir ki, bu da əmanətlərin və investisiyaların artımına kömək edir. Əmanətçilər, hər şeydən əvvəl, öz pullarının etibarlı və nisbətən risksiz yerləşdirilməsinə can atırlar. Eyni zamanda likvidliyin məlum dərəcəsi (yəni öz pullarına çatmağın asanlığı) qoyduqları vəsaitə uzunmüddətli gəlir almaqla müşayiət olunur ki, bu da onlara öz sərvətlərinin real dəyərini saxlamağa və cari gəliri təmin etməyə imkan verir. Borclulara cari, ortamüddətli və uzunmüddətli maliyyə və kapital qoyuluşlarına qarşısı alınmayan qeyri-müəyyənlik və yüksək risk dərəcəsi şəraitində müxtəlif pul məbləğlərinə yetərlilik lazımdır. Maliyyə institutları bu müxtəlif tələbatları aşağıdakı üsullardan istifadə etməklə razılaşdırmağa kömək edir:

a) böyük sayda fərdlərin əmanətlərinin birləşdirilməsi. Bu, milyonlarla funt-sterlinq borc verməyə imkan verir;

b) müxtəliflikdən qənaət məqsədilə, riski paylaşdırmaqla və eyni zamanda yüksək mənfəət əldə edilməsinə nail olmaqla aktivlərin diversifikasiya portfe-


MALİYYƏ RİSKLƏRİNİN SIĞORTALANMASI
Danışıqlar nəticəsində istehsalın dayandırılması və ya istehsal həcminin azaldılması
Fiziki şəxslərin işini itirməsi
İflas
Gözlənilməyən xərclər
Sazişüzrə kreditor olan sığortalayanın kontragenti tərəfindən müqavilə öhdəliklərinin həyata keçirilməməsi
Sığortalayan tərəfdən çəkilmiş məhkəmə xərcləri

Sxem 1



Maliyyə resursları
Təşkilatların, idarə və müəssisələrin maliyyəsi
Qeyri-kommersiya təşkilatlarının və müəssisələrin maliyyəsi
Kommersiya müəssisələrinin maliyyəsi
İctimai təşkilatların maliyyəsi
Sığorta
Sosial sığorta
Şəxsi sığorta
Məsuliyyətliliyin sığortası
Risklərin sığortası
Əmlak sığortası
Dövlət maliyyəsi
Dövlət büdcəsi
Dövlət krediti
Büdcədən kənar fondlar

Sxem 2

linin yaradılması və kreditlərin verilməsi;
c) ayrı-ayrı fərdlərə birinci tələbi ilə öz pullarını geri almaq imkanı vermək və eyni zamanda uzunmüddətli kreditləşmənin əsası kimi qoyuluşların sabitliyini təmin etmək üçün çoxlu sayda əmanətçilərin resurslarının birləşməsi.
2) dövlətin maliyyə fəaliyyətini və maliyyə münasibətlərini (pul sistemi, maliyyə müəssisələri sistemi) tənzimləyən qanunların, qaydaların, normaların məcmusu;
3) iqtisadiyyatda pulların və kreditlərin hərəkəti ilə məşğul olan bütün maliyyə vasitəçiləri.
MALİYYƏ SİYASƏTİ – dövlətin iqtisadi siyasətinin tərkib hissəsi, hökumətin dövlətin maliyyə resurslarının səmərəli tətbiqinə yönəlmiş tədbirlər sistemi. Bu sistem gəlirlər və xərclərin, vergilərin və vergitutmanın tənzimlənməsində, pul tədavülünün idarə edilməsində, milli valyutanın məzənnəsinə təsirdə dövlət büdcəsinin rolunun formalaşması və gerçəkləşməsi ilə əlaqədardır (bax: sxem 1).
MALİYYƏ TƏNZİMLƏNMƏSİ NƏZƏRİYYƏSİ – pul dövriyyəsinin kreditin və dövlət maliyyəsinin kapitalist iqtisa-

MALİYYƏ SİYASƏTİNİN SXEMATİK XARAKTERİSTİKASI

Maliyyə resurslarının səfərbər edilməsi, onların bölüşdürülməsinə və dövlətin funksiyalarının həyata keçirilməsi üçün istifadəsinə yönəlmiş dövlət tədbirləri




Sxem 1

diyyatına təsirinin zəruriliyini və effektivliyini əsaslandıran siyasi iqtisad konsepsiyası. Maliyyə tənzimlənməsi nəzəriyyələri arasında XX əsrin 60-70-ci illərində monetarist və neokeynsians konsepsiyaları daha çox yayılmışdır. Bu nəzəriyyələrin başlanğıcı XIX əsrin I yarısında iki siyasi-iqtisad məktəbini – pul və bank polemikasına gətirir. Onların sələfləri XIX əsrin ortalarında geniş yayılmış iqtisadi böhranların pul-kredit nəzəriyyəsi və XIX əsrin əvvəllərində Q.Knappın pulun dövlət nəzəriyyəsi olmuşdur. M.Fridmenin rəhbərlik etdiyi müasir monetarist məktəb hesab edir ki, iqtisadiyyatın konyunkturu dövriyyədə olan pulların miqdarından asılıdır. Fridmenin fikrinə görə, düzgün "pul siyasəti pulun özünə iqtisadi sarsıntıların əsas mənbəyi olmağa mane ola bilər". Bu siyasət mərkəzi banklar tərəfindən müəyyən edildiyinə görə dövlət deyil, məhz onlar iqtisadiyyatı tənzimləmək funksiyasına malik olmalıdır.

MALİYYƏ TƏŞKİLATLARI (ŞİRKƏTLƏRİ) – məhsul istehsalı və əsas xidmətlərin göstərilməsində deyil, onların maliyyələşdirilməsində bilavasitə iştirak edir və müxtəlif növ maliyyə xidmətləri göstərir. Milli Hesablar Sistemində istifadə edilən göstəricidir.

MALİYYƏ UÇOTU – şirkətin təsərrüfat məlumatlarının əks etdirilməsi və ümumiləşdirilməsi, onun kənar istifadəçiyə maliyyə hesabatı hazırlaması üçün nəzərdə tutulan mühasibat uçotu sistemi. Maliyyə uçotu şirkət ilə onun müştəriləri, malgöndərənlər, kreditorlar, işçilər və səhmdarlar arasında aparılmış əməliyyatların əks etdirilməsi üçün aparılır. Maliyyə uçotu səhmdarların firmanın menecmenti tərəfindən onun aktivlərindən səmərəli istifadə edilməsinə nəzarət vasitəsidir. Şirkətin maliyyə uçotunun nəticəsi: balans (maliyyə vəziyyəti haqqında hesabat), maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat, pul vəsaitlərinin hərəkəti haqqında hesabat, xüsusi aktivlərin (kapitalda) dəyişiklikləri haqqında hesabat, firmanın qeydiyyata alındığı ölkənin qanunvericiliyinə, eləcə də təsərrüfat subyektinin hesabatının tərtib edilməsinə dair tələblərdə nəzərdə tutulmuşdursa, beynəlxalq maliyyə standartlarına müvafiq olan başqa hesabatlardır.

Maliyyə uçotunun istifadəçiləri qismində şirkətin səhmdarları, investorlar, banklar və digər kredit müəssisələri, dövlət hakimiyyəti, idarəetmə orqanları və b. daxildir. Maliyyə uçotu daxili istifadə üçün nəzərdə tutulan və şirkətin menecmenti tərəfindən qərarların qəbulu planlaşdırma, resurs axınlarına nəzarət və onların optimallaşdırılması prosesində istifadə edilən idarə-



Sxem 1

etmə uçotunun əksidir. Maliyyə uçotunun fərqləndirici cəhətləri bunlardır: informasiyanın kənar istifadəçiyə yönəlmiş olması, onun obyektivliyi və dəqiqliyi, təsərrüfat əməliyyatları əks etdirilərkən ikiqat qeydlər sistemi, hesabatın tərtibatına dair qanunvericilik tələblərinə riayət edilməsinin zəruriliyi, mühasibat uçotunun ümumi prinsiplərinin tətbiqi ardıcıllığı, maliyyə hesabatının tərtib edilməsinin və təqdim olunmasının dövriliyi.

Qərbin inkişaf etmiş ölkələrində tətbiq edilən, hamılıqla qəbul olunmuş mühasibat uçotunun prinsipləri ayrı-ayrı ölkələr üzrə spesifik xüsusiyyətlərə malikdir. ABŞ-da 1973-cü ildən mühasibat uçotu standartları üzrə qeyri-dövlət komitəsi (Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi) fəaliyyət göstərir. Bu komitənin funksiyalarına mühasibat uçotunun hamılıqla qəbul edilmiş prinsiplərinin bütün ölkə miqyasında işlənib hazırlanması və təsdiq edilməsi vəzifələri daxildir. Komitə başqa şirkətlərdən və digər peşəkar təşkilatlardan asılı deyildir. 2001-ci ildə Komitə Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası kimi yenidən təşkil edilmişdir.

Müasir dövrdə dünyanın müxtəlif ölkələrində maliyyə hesabatlarının beynəlxalq standartları qüvvədədir. Bu cür standartların işlənib hazırlanması Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurasına (MUBSŞ) həvalə edilmişdir. MUBSŞ-ın tərkibinə ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Kanada, Yaponiya və başqa ölkələrin nüfuzlu mühasibat komissiyalarının üzvləri daxildir.

Azərbaycanda maliyyə uçotu əvvəllər müəssisədə uçot aparılmasının yeganə forması idi və o, təsərrüfat subyektinin aktivləri, passivləri və kapitalı haqqında informasiyanın alınması, ölçülməsi, işlənməsi, qeydiyyatı və ümumiləşdirilməsi üçün geniş, əhatəli sistem olmaqla həm kənar, həm də daxili istifadəçi üçün nəzərdə tutulmuşdu. İdarəetmə uçotu informasiyanın işlənməsinin və təqdim edilməsinin müstəqil bölməsi kimi ayrılandan sonra maliyyə uçotu Azərbaycanda ona xas olan cizgilər kəsb edir.

2004-cü il 29 iyun tarixdə təsdiq olunmuş və 2004-cü il 2 sentyabr tarixdən qüvvəyə minmiş "Mühasibat uçotu haqqında" AR Qanununa əsasən, Azərbaycanda Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının və onlar əsasında hazırlanmış Milli Mühasibat Uçotu Standartlarının tətbiqinə başlanılmışdır.

MALİYYƏ VEKSELİ – bir bank müəssisəsinin başqa bank müəssisəsinə əvəzində pul almaq üçün verdiyi veksel. Onların dövriyyə müddəti məhdudlaşdırılmır. Bank barat vekselinin blankı üzərində altıyadək barat qeydi (indossament) etmək olur. Maliyyə (bank) vekselləri real əmtəə sövdələri ilə bağlı deyil. Onlar pul vəsaitinin sürətli dövriyyəsinə xidmət edir. Maliyyə vekselləri bank qiymətli kağızları arasında liderdir. Banklar belə veksellərdən müvəqqəti sərbəst pul vəsaitinin səfərbərliyə alınması üçün istifadə edir. Onların əsasında təsərrüfat subyektləri arasında ssudalar, yaxud müddəti ötmüş kredit borcları rəsmiləşdirilir. Bu halda veksel kreditləşməsi aparılır – borcalan pul əvəzinə bankdan bu və ya başqa bank vekselləri alır. Belə veksellərin yazılması lisenziya tələb edən sırf bank əməliyyatıdır. Maliyyə vekselləri ilə əməliyyatlar müəyyən risklə bağlıdır. Belə ki, bank vekselləri üzrə qarant rolunda çox vaxt banklar özləri çıxış edir. Maliyyə vekselləri borcalana, adətən, diskontla verilir, lakin nominal üzrə də verilə bilər. Borcalan bunun əvəzində müddətli öhdəlik və ya borc məbləğində (borc diskontla olunubsa), yaxud borcun qaytarılacağı anadək hesablanan faizlər də (borc nominal üzrə alınıbsa) daxil olmaqla, veksel yazıb verir. Bundan savayı, bankların buraxdığı başqa qiymətli kağızların əksəriyyətindən fərqli olaraq, mərkəzi bank tərəfindən bank veksellərinin qeydiyyatı tələb olunmur ki, bunun da nəticəsində bank özünün kredit imkanlarını olduğundan yüksək qiymətləndirə bilər. Buna baxmayaraq, maliyyə vekselləri populyar alət olaraq qalır. Bu veksellər depozitə də verilə bilər. Onlar yüksək likvidlikləri ilə fərqlənirlər. Belə ki, bank sindikatının hər hansı üzvünə təqdim edilə və vaxtından əvvəl ödənilə bilər.

Maliyyə veksellərinin növləri: Maliyyə (bank) veksellərinin aşağıdakı növləri var:

1) diskont vekselləri;
2) valyuta vekselləri;
3) qızıl vekselləri;
4) qısa, orta və uzunmüddətli, yüksək və ya aşağı nominallı və s. veksellər.

Azərbaycan Respublikasında maliyyə təşkilatları

	İl, rüb	2007					
		I	II	III	IV	I	II
	Bank fəaliyyətinin həyata keçirilməsi üçün lisensiyası olan maliyyə təşkilatlarının sayı	135	138	136	142	142	142
	I Banklar						
1	Bankların sayı, o cümlədən	44	44	44	46	46	46
	-dövlət bankları	2	2	2	2	2	2
	-özəl banklar, o cümlədən	42	42	42	44	44	44
	xarici kapitallı bankların sayı, o cümlədən:	21	21	21	21	23	24
	nizamnamə kapitalının 50%-dən 100% qədərini təşkil edən	6	6	6	6	7	7
	nizamnamə kapitalının 50%-dən az olan hissəsini təşkil edən	13	13	13	13	14	15
	-xarici bankların yerli filialları	2	2	2	2	2	2
2	İlin əvvəlindən lisenziya alan bankların sayı	0	0	0	2	0	0
3	İlin əvvəlindən lisenziyası ləğv edilmiş bankların sayı	0	0	0	0	0	0
4	Bankların yerli filiallarının sayı, o cümlədən:	429	442	458	485	501	530
	-dövlət bankları	125	125	125	125	125	125
	-özəl banklar	304	317	333	360	376	405
5	Yerli filialları olan bankların sayı	41	41	41	41	41	41
6	Bankların şöbələrinin sayı	79	85	87	94	95	95
7	Bankların yerli nümayəndəliklərinin sayı	0	0	0	0	0	0
8	Xarici bankların yerli nümayəndəliklərinin sayı	2	2	2	3	4	4
9	Bankların xaricdə fəaliyyət göstərən strukturlarının sayı, o cümlədən:	4	5	5	5	6	7
	- törəmə banklar	1	2	2	2	2	2
	- filialları	1	1	1	1	1	1
	-nümayəndəlikləri	2	2	2	2	3	4
10	Ləğvetmə prosesində olan bankların sayı	1	1	1	1	1	1
11	İlin əvvəlindən ləğvetmə prosesi tamamlanmış bankların sayı	0	0	0	0	0	0
							II Bank olmay
1	Bank olmayan kredit təşkilatlarının sayı, o cümlədən:	91	94	92	96	96	96
1.1	-Kredit ittifaqlarının sayı	74	77	75	77	77	77
	İlin əvvəlindən lisenziya alanlar	0	3	5	7	0	0
	İlin əvvəlindən lisenziyası ləğv edilənlər	3	3	7	7	0	0
	Filialların sayı	0	0	0	0	0	0
1.2	Beynəlxalq humanitar təşkilatlar tərəfindən maliyyələşdirilən kredit təşkilatlarının sayı	16	16	16	18	18	18
	İlin əvvəlindən lisenziya alanlar	0	0	0	2	0	0
	İlin əvvəlindən lisenziyası ləğv edilənlər	0	0	0	0	0	0
	Filialların sayı	39	41	43	44	45	47
1.3	Digər bank olmayan kredit təşkilatlarının sayı	1	1	1	1	1	1
	İlin əvvəlindən lisenziya alanlar	0	0	0	0	0	0
	İlin əvvəlindən lisenziyası ləğv edilənlər	0	0	0	0	0	0
	Filialların sayı	12	12	12	12	12	12
							III Digər m
1	Digər maliyyə təşkilatlarının sayı, o cümlədən	0	0	0	0	0	0
1.2	İlin əvvəlindən lisenziya alanlar	0	0	0	0	0	0
1.3	İlin əvvəlindən lisenziyası ləğv edilənlər	0	0	0	0	0	0
1.4	Filialların sayı	0	0	0	0	0	0
1.5	Şöbələrin sayı	0	0	0	0	0	0

*Digər maliyyə təşkilatları bölməsinə "AZƏRPOÇT" Məhdud Məsuliyyətli Cəmiyyəti, poçt rabitəsi milli operatoru aiddir

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

Cədvəl 1

haqqında ümumi məlumat (dövrün sonuna)

2008			2009				2010				2011			
	III	IY	I	II	III	IY	I	II	III	IY	I	II	III	IY
	142	140	142	142	144	142	145	148	148	146	150	158	158	169
	45	46	46	46	46	46	47	47	47	45	44	44	44	44
	2	1	1	1	1	1	1	1	1	1	1	1	1	1
	43	45	45	45	45	45	46	46	46	44	43	43	43	43
	23	23	23	23	23	23	23	23	23	22	22	22	22	23
	7	7	7	7	7	7	7	7	7	7	7	7	7	7
	14	14	14	14	14	14	14	14	14	13	13	13	13	14
	2	2	2	2	2	2	2	2	2	2	2	2	2	2
	1	2	0	0	0	0	1	1	1	1	0	0	0	0
	2	2	0	0	0	0	0	0	0	2	1	1	1	1
	553	567	585	613	618	626	631	640	646	644	646	650	656	666
	125	37	38	38	38	38	38	38	38	38	38	38	37	37
	428	530	547	575	580	588	593	602	608	606	608	612	619	629
	41	38	38	38	40	40	41	41	42	40	39	39	40	40
	99	99	105	106	103	109	109	114	119	120	123	128	147	161
	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0
	4	4	4	4	4	4	4	5	5	5	5	5	5	5
	8	9	9	9	9	9	9	9	8	8	8	8	9	9
	2	2	2	2	2	2	2	2	2	2	2	2	2	2
	1	1	1	1	1	1	1	1	1	1	1	1	1	1
	5	6	6	6	6	6	6	6	5	5	5	5	6	6
	3	3	3	3	2	2	2	2	2	4	5	5	5	5
	0	0	0	0	1	1	0	0	0	0	0	0	0	0
an kredit təşkilatları														
	97	94	96	96	98	96	98	100	101	101	106	114	111	125
	78	75	77	77	79	77	79	81	82	82	87	89	86	97
	1	1	2	4	6	8	2	4	6	10	5	7	15	20
	0	3	0	2	2	6	0	0	1	5	0	0	5	5
	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0
	18	18	18	18	18	18	18	18	18	18	18	24	24	27
	0	0	0	0	0	0	0	0	1	0	0	6	6	9
	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0
	49	52	52	53	54	54	51	52	52	57	59	69	73	74
	1	1	1	1	1	1	1	1	1	1	1	1	1	1
	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0
	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0
	12	12	12	12	12	12	12	12	12	12	12	12	12	12
aliyyə təşkilatları														
	0	0	0	0	0	0	0	1	1	1	1	1	1	1
	0	0	0	0	0	0	0	1	1	1	0	0	0	0
	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0
	0	0	0	0	0	0	0	3	41	59	63	63	63	63
	0	0	0	0	0	0	0	20	401	593	624	748	816	867

Bank vekselləri – banklar tərəfindən onların borc öhdəlikləri kimi emissiya edilir və bankın balansının qısamüddətli likvidliyinin pozulması hallarının tənzimlənməsi məqsədi ilə resursların cəlb edilməsinə yönəldilmişdir. **Xəzinədarlıq vekselləri** dövlətin borc öhdəlikləri olmaqla, dövlət büdcəsinin qısamüddətli xarakter daşıyan kəsirinin və ya onun xərclərinin ödənilməsi məqsədi ilə emissiya edilir və xüsusi hərraclarda yerləşdirilir.

Saxta veksellər (dost veksellə - ri, bürünc veksellər) malların və ya xidmətlərin verilməsi ilə müşayiət olunmayan vekselin uçota alınması nəticəsində veksel krediti almaq məqsədi ilə verilir. Saxta veksel etibar edilən hüquqi şəxsin və ya qurama şəxsin, həmçinin fəaliyyət qabiliyyətindən tamamilə məhrum olan şəxslərin adına verilir.

MALİYYƏ VƏZİYYƏTİ (ing. *financial position*) – təşki - latın balansında göstərilmiş re - sursları (aktivləri) və onların mənbələri (öhdəliklər və xüsusi kapital).

MALİYYƏ ZƏMANƏT-LƏRİ (*financial guarantees*) – kredit riskinin sığortası.

MALİYYƏ-SƏNAYE QRU-PU – 1. İştirak (səhmlərə sahiblik, idarəetmə orqanlarında qarşılıqlı iştirak), şəxsi uniya, uzunmüddətli kredit öhdəlikləri və qarşılıqlı asılılığın digər formaları vasitəsilə formalaşan sənaye, maliyyə, ticarət və digər təşkilatların kifayət qədər sabit birliyi. 2. İstehsalın rəqabət qa - biliyyətinin artırılması, müxtəlif investisiya layihələrinin, o cüm - lədən investisiya proqramlarının birgə həyata keçirilməsi, qarşı - lıqlı texnoloji və kooperasiya əlaqələrinin yaradılması, ixrac potensialının yüksəldilməsi, el-mi-texniki tərəqqinin inkişafı məqsədilə qrup iştirakçılarının maddi və maliyyə ehtiyatlarını onların arasındakı müqavilə əsasında birləşdirmək və inves - tisiya vasitələri cəlb etmək üçün ölkə qanunvericiliyinə uyğun şəkildə öz aktivlərini qismən və ya tamamilə birləşdirmiş hüquqi şəxslərin (əsas və törəmə müəssisələrin) məcmusu. Maliyyə-sənaye qrupu təşkilati hüquqi forma deyil və kooperasiya inteqrasiyası prinsiplərində fəaliyyət göstərir. Sənaye və maliyyə qrupundan fərqli olaraq, maliyyə-sənaye qrupu üçün sənaye və maliyyə-kredit təşkilatlarında eyni vaxtda iştirak xarakterikdir. Maliyyə-sənaye qrupu iştirakçılarının maddi və maliyyə resurslarının birləşməsi, maliyyə-kredit resurslarına təminatlı nail olmanın həyata keçirilməsi kapitalın etibarlı yerləşdirilməsindən, təsir sferasının genişləndirilməsindən mənfəət əldə etmək məqsədilə yaradılır. Maliyyə-sənaye qrupu ixtisaslaşma və məkan cəhətləri üzrə üfüqi və şaquli inteqrasiya olunmuş; diversifikasiya edilmiş; millətlərarası (transmilli), milli regional formalarda təsnifləşdirilir. Maliyyə-sənaye qrupu maliyyə, sənaye və ticarət kapitallarının birləşmə forması kimi Yaponiyada maliyyə keyresu adlanır. Digər ölkələrdə bu termindən istifadə olunmur. 1996-cı ildə Azərbaycan Respublikasında da maliyyə-sənaye qrupları haq - qında qanun qəbul olunmuşdur.

MALLAR – müəyyən kəmiyyət və keyfiyyət xüsusiyyətlərinə malik olan məhsullar, bərk, maye və ya qaz halında olan məmulatlar, avadanlıqlar, xammal, habelə elektrik enerjisi, istənilən daşınan əmlak, o cümlədən valyuta, valyuta sərvətləri, nəqliyyat vasitələri.

MALLARA SİFARİŞ – geniş çeşidli müəyyən malların qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş qaydada və müvafiq müddətlərdə istehsal edilməsi və çatdırılması haqqında göstəriş.

MALLAR ÜZRƏ MENE-CER – bazarda konkret malın uğurunun təmin edilməsi məqsədi ilə bütün funksional sahələrin əlaqələndirilməsinə görə məsul olan şəxs.

MALLARI KEÇİRƏN ŞƏXS – malların mülkiyyətçisi, alıcısı, sahibi və ya ölkənin qanunvericiliyinə müvafiq olaraq öz adından mallar barəsində qanunvericilikdə nəzərdə tutulmuş hərəkətləri etmək səlahiyyəti olan digər şəxslər.

MALLARI POÇT VƏ YA TELEFONLA SİFARİŞ VER-MƏKLƏ TİCARƏT – sifa - rişlərin toplanması və satılmış malların çatdırılmasına kömək üçün poçt kanallarından və ya telefon xətlərindən istifadə edilməsinə əsaslanan satış.

MALLARIN (İŞLƏRİN VƏ XİDMƏTLƏRİN) EHTİMAL OLUNAN QİYMƏTİ – satın alan təşkilat tərəfindən tenderin elan edilməsindən əvvəl mövcud normativ hüquqi sənədlərə uyğun olaraq malların (işlərin və xidmətlərin) müəyyənləşdirilən orta bazar qiyməti.

MALLARIN İDXALI – gömrük qanunvericiliyinə uyğun olaraq idxal malları sayılan malların ölkə ərazisinə gətirilməsi.

MALLARIN İXRACI – malların ölkənin gömrük ərazisindən bu əraziyə qaytarılmaq haqqında öhdəlik götürülmədən aparılmasından ibarət gömrük rejimi. Başqa sözlə, gömrük qanunvericiliyinə uyğun olaraq ixrac malları hesab edilən malların ölkə ərazisindən çıxarılması.

MALLARIN MƏHV EDİLMƏSİ – xarici malların gömrük rüsumları. Vergilər alınmadan, həmçinin mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən onların, gömrük nəzarəti altında istifadə üçün yararsız hala gətirilməsi də daxil olmaqla, məhv edilməsindən ibarət gömrük rejimi.

MALLARIN MÜVƏQQƏTİ İDXALI (İXRACI) – Azərbaycan Respublikasının gömrük ərazisində və ya ondan kənarda gömrük rüsumlarından, vergilərdən tamamilə və ya qismən azad olunmaqla, həmçinin iqtisadi siyasət tədbirləri tətbiq edilmədən malların istifadəsinə yol verilməsindən ibarət gömrük rejimi.

MALLARIN, NƏQLİYYAT VASİTƏLƏRİNİN EYNİLƏŞDİRİLMƏSİ – gömrük nəzarətinin bir forması; dövlət gömrük orqanları tərəfindən plomblar, möhürlər, rəqəmlərdən, hərflərdən və başqa işarələrdən ibarət markalama nişanları, eyniləşdirmə nişanları, ştamplar vurulması, sınaq nümunələrinin götürülməsi, çertyojların, miqyas təsvirlərinin, fotoşəkillərin, illüstrasiyaların hazırlanması, mal müşayiət sənədlərindən və başqa sənədlərdən istifadə edilməsi yolu ilə həyata keçirilir.

MALLARIN REİMPORTU – müəyyən ölkənin gömrük ixrac rejiminə uyğun olaraq onun gömrük ərazisindən çıxarılmış malların müəyyən olunmuş müddətdə gömrük rüsumları və vergi tutulmadan, həmçinin mallara iqtisadi siyasət tədbirləri (kvota qoyulması, lisenziyalaşdırma və s.) tətbiq edilmədən geri gətirilməsinin gömrük rejimi.

MALLARIN RƏQABƏTQABİLİYYƏTLİLİK İNDEKSİ – malların nisbi rəqabətqabiliyyətlilik göstəricisidir ki, konkret ölkədə ixraca qoyulur. Malların rəqabətqabiliyyətlilik indeksi onun valyutasının mübadilə kursunun rəqib ölkənin valyutasının mübadilə kursu ilə tutuşdurulması yolu ilə müəyyən edilir, bu zaman inflyasiya dəqiqləşdirilir.

MALLARIN SƏRBƏST DÖVRİYYƏ ÜÇÜN BURAXILIŞI – ölkənin gömrük ərazisinə gətirilən malların bu ərazidən aparılması haqqında öhdəlik götürülmədən daimi olaraq bu ölkənin gömrük ərazisində qalmasından ibarət gömrük rejimi.

MALLARIN TƏKRAR İDXALI – ixrac gömrük rejiminə uyğun olaraq ölkənin gömrük ərazisindən aparılmış mallarının qanunla müəyyən edilmiş müddətdə gömrük rüsumları və vergilər alınmadan, həmçinin bu mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən geriyə gətirilməsindən ibarət gömrük rejimi. **Malların təkrar idxalı** – gömrük qanunvericiliyinə uyğun olaraq, təkrar idxal malları sayılan malları təqdim etmədən və ixrac olunduğu andakı vəziyyətdə ixrac etmiş şəxsin həmin malları idxal etməsidir.

MALLARIN TƏKRAR İXRACI – xarici malların gömrük işi üzrə ölkənin qanunvericilik aktlarına uyğun olaraq, idxal gömrük rüsumları, vergilər alınmadan və ya qaytarılmaqla, həmçinin iqtisadi siyasət tədbirləri tətbiq edilmədən bu ölkənin gömrük ərazisindən ixrac olunmasından ibarət gömrük rejimi.

MALLARIN TƏQDİM EDİLMƏSİ – mallar üzərində mülkiyyət hüququnun başqasına verilməsi, o cümlədən bunlarla məhdudlaşdırılmayan, lakin malların satışı, mübadiləsi, hədiyyə verilməsi, əmək haqqının natura şəklində ödənilməsi və natura şəklində digər ödəmələr. Həmçinin girov qoyulmuş mallar üzrə mülkiyyət hüququnun girov saxlayana və ya digər şəxsə keçməsi.

MALLARIN TƏRKİBİ İLƏ ƏLAQƏDAR OLAN NİŞANLAR – dünyanın 170-dən çox ölkəsi Ümumdünya Səhiyyə Təşkilatının üzvüdür. Həmin təşkilatın qida əlavələrinə dair xüsusi məsləhətləri, qərarları qəbul olunmuşdur. Qida əlavələri dedikdə təbii birləşmələrdən və kimyəvi maddələrdən ibarət ərzaq məhsullarının istehsalı zamanı tərkibə əlavə edilən qarışıqlar nəzərdə tutulur. Bu əlavələrdən istifadə də məqsəd ərzaq məhsullarının saxlanmasını yaxşılaşdırmaq və onların xarici görünüşünü xoşagəlimli etməkdir.

Qida əlavələrinin təhlükəsizliyi Ümumdünya Səhiyyə Təşkila-

tının, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı komitələrinin, Avropa Birliyinə daxil olan dövlətlərin analoji komissiyalarının iclaslarında mütəmadi olaraq müzakirə edilir və dəyişdirilir.

Son zamanlar xüsusilə idxal olunan yeyinti mallarının üzərində "E" indeksi ilə nişanlanmış mallar daxil olur. Əhali belə mallara qarşı adətən çox ehtiyatlı yanaşır. Belə hesab olunur ki, bu mallar ya süni mənşəlidir və yaxud tərkibində insan orqanizmi üçün zərərli maddələr vardır. Əslində isə belə nişanların olması, olmamasından daha əlverişlidir. Əksəriyyət malların istehsalında "E" indeksi ilə nişanlanmış əlavələrin olması onların tamının və qidalılığının yaxşılaşmasına, saxlanmasına, uzun müddətliyinə dəlalət edir. Ümumiyyətlə isə yeyinti məhsullarında 296-dan çox qida əlavələrindən istifadə olunur. Dünya təcrübəsində onlardan istifadənin üstün və çatışmayan cəhətləri öyrənilmişdir. Bunlardan əsasən qida məhsullarının konservləşdirilməsində, ərzaq mallarının boyanmasında istifadə olunur. Məs: "E102", "E104", "E110", "E122", "E124", "E129", "E131", "E132", "E133", "E142", "E143" və "E151" sintetik boyaların işarəsidir.

Göstərilən qida əlavələrinin ərzaq məhsullarında istifadə edilməsi BMT Ərzaq və Kənd Təsərrüfatı Komitəsinin, Ümumdünya Səhiyyə Təşkilatının və Avropa İqtisadi Birliyinin müvafiq komissiyalarının sənədləri ilə nizamlanır. Aşağıdakı cədvəldə "E" indeksi ilə markalanan qida əlavələrinin mümkün zərərli təsiri haqqında məlumat verilmişdir.

Qida əlavələrinin ziyanlı təsirinə dair şərti işarələr: T – təhlükəlidir, Q – qadağandır, XX – xərçəng xəstəliyi əmələ gətirir, ÇT – çox təhlükəlidir, BP – bağırsaq pozğunluğu yaradır, MP – mədə pozğunluğu yaradır, AT – arterial təzyiq, X – xolesterin, DT – dəri üçün təhlükəlidir, S – səpgi yaradır, Ş – şübhəlidir.

Ərzaq mallarının standartlaşması üzrə "Alimentarius kodeksi" Komissiyasının göstəricilərinə görə, qida əlavələri aşağıdakı kimi təsnifləşdirilir:

E100-dən E 183-ə qədər olanlar boyaqlar;

E200-dən sonra olanlar konservantlar;

E300-dən sonra olanlar antiağardıcılar (bunlar oksidləşmənin qarşısını almaqla məhsulları xarab olmaqdan qoruyurlar);

E400-dən sonra olanlar stabilizatorlardır (bunlar məhsula verilmiş qatılılığı saxlamaq üçün tətbiq edilir);

E500-dən çox olanlar demulqatorlardır (bunlar ərzaq məhsullarının daxili quruluşunun sabit saxlanılmasını təmin edir;

E600-dən yüksək olanlar məhsulların dadını və ətrini gücləndirir;

E700-800 və s. ehtiyat indekslərdir;

E900 və ondan sonrakılar köpüklənmənin qarşısını alan maddələrdir.

İstehlakçı üçün malların etiketində qida əlavələrinin, yəni E və onun sırası hökmən göstərilməlidir.

Rusiya Federasiyasında aparılan sorğulara görə, allergiya xəstəliklərinin əmələ gəlməsinin 10% məişət tozundan, 2% inək südündən, 0,4% asetil-solisil turşusundan, təkcə 0,06% tartrazin adlı qida boyaqlarından, 005% isə benzol turşusunun konservantından əmələ gəlir. Həmin ölkənin xalq istehlakı mallarının, tibb məmulatlarının, polimer ayaqqabılarının keyfiyyətini tədqiq edən mərkəzin məlumatına görə, uşaqlar üçün "Dirol", "Stimorol" və "Orbit" adlı saqqızlar təhlükəli mallardır. Bu təhlükəni hamı hiss edir. Həmin saqqızların dadı acı, cod olur, tez itir və çürüyür. Bu, onunla əlaqədardır ki, onların tərkibinə butadion stirol kauçuku qatırlar. İnkişaf etmiş ölkələrdə bu qarışıqdan istifadə etmirlər. Ancaq inkişaf etməkdə olan ölkələrin məhsullarında bu əlamətlər həmişə müşahidə edilir. Rusiya Federasiyasında butadion stirol kauçukundan yeyinti məhsullarında istifadə edilməsinə icazə verilmir. Sübut olunmuşdur ki, bu maddə baş ağrısı verir, əsəb sistemlərinə mənfi təsir göstərir, ağız boşluğunda qıcıqlanma əmələ gətirir.

Bunlardan başqa, bir çox istehlak mallarının tərkibinə daxil olan maddələr, onların işarələri etiketdə dəqiqliklə göstərilməlidir. Məsələn: ərzaq mallarının tərkibi, qidalılıq dəyəri, tərkibə daxil olan maddələrin miqdarı standarta uyğun olmalıdır (bax: cədvəl 1, 2, 3).

MALLARIN TƏSNİFATI (mal növü) – bütün mallar dörd əsas növ üzrə təsnifləşdirilə bilər: materiallar, komplektlər, avadanlıqlar, həmçinin texniki xidmət, təmir və istismar vasitələri. **Mal nomenklaturası** – şirkətin bazarda təqdim etdiyi

Cədvəl 1

"E" indeksi ilə markalanan qida əlavələrinin mümkün zərərli təsiri

«E» indeksinin sıraları	Təsiri haqqında məlumat	"E" indeksinin sıraları	Təsiri haqqında məlumat	"E" indeksinin sıraları	Təsiri haqqında məlumat	"E" indeksinin sıraları	Təsiri haqqında məlumat
E 102	T	E 180	T	E 280	XX	E 463	MP
E 103	Q	E 201	T	E 281	XX	E 465	MP
E 104	Ş	E 210	XX	E 282	XX	E 466	MP
E 105	Q	E 211	XX	E 283	XX	E 477	Ş
E 110	T	E 212	XX	E 310	S	E 501	T
E 111	Q	E 213	XX	E 311	S	E 502	T
E 120	T	E 214	XX	E 312	S	E 503	T
E 121	Q	E 215	XX	E 320	X	E 510	ÇT
E 122	Ş	E 216	XX	E 321	X	E 513	ÇT
E 123	ÇT, Q	E 219	XX	E 330	XX	E 527	ÇT
E 124	T	E 220	T	E 338	MP	E 620	T
E 125	Q	E 222	T	E 339	MP	E 626	BP
E 126	Q	E 223	T	E 340	MP	E 627	BP
E 127	T	E 224	T	E 341	MP	E 628	BP
E 129	T	E 228	T	E 343	BP	E 629	BP
E 130	Q	E 230	XX	E 400	T	E 630	BP
E 131	XX	E 231	DT	E 401	T	E 631	BP
E 141	Ş	E 232	DT	E 402	T	E 632	BP
E 142	XX	E 233	S	E 403	T	E 633	BP
E 150	Ş	E 239	DT	E 404	T	E 634	BP
E 151	DT	E 240	XX	E 405	T	E 635	BP
E 152	Q	E 241	Ş	E 450	MP	E 636	T
E 153	XX	E 242	T	E 451	MP	E 637	T
E 154	BP, AT	E 249	XX	E 452	MP	E 907	S
E 155	T	E 250	AT	E 453	MP	E 951	DT
E 160	DT	E 251	AT	E 454	MP	E 952	Q
E 171	Ş	E 252	XX	E 461	MP	E 954	XX
E 173	Ş	E 270	uşaq üçün T	E 462	MP	E1105	DT

Cədvəl 2

Azərbaycanda istifadəsinə icazə verilən qida əlavələri

E100	E101	E102	E104	E110	E 120	E 122	E 124	E 129	E 131	E 132
E123	E141	E142	E143	510a	E150b	E150j	E150d	E 151	E 152	E160a
E160b	E160s	E160e	E161a	161b	E161j	E 61d	E161e	E161f	E1618	E 162
E163	E164	E170	E171	172	E 181	E 200	E 201	E 202	E 203	E 210
E211	E212	E220	E221	22	E 223	E 224	E 234	E 235	E 236	E 239
E242	E249	E250	E251	260	E 261	E 262	E 265	E 266	E 270	E 280
E290	E 296	E297	E300	301	E 304	E 306	E 307	E 315	E 316	E 319
E320	E 321	E322	E326	327	E 330	E 331	E 332	E 333	E 334	E 335
E336	E 337	E338	E339	340	E 341	E 342	E 353	E 354	E 363	E 380
E383	E 385	E386	E391	400	E 401	E 402	E 404	E 405	E 406	E 407
E410	E411	E412	E413	414	E 415	E 416	E 417	E 420	E 421	E 422
E440	E445	E450	E451	452	E 460	E 461	E 464	E 466	E 470	E 471
E472a	E472b	E472s	E472d	472e	E472f	E472g	E 473	E 475	E 481	E 500
E501	E503	E504	E507	508	E 509	E 510	E 511	E 513	E 514	E 515
E516	E517	E518	E 524	525	E 526	E 527	E 528	E 529	E 530	E 536
E539	E551	E553	E 558	570	E 575	E 578	E 585	E 620	E 621	E 626
E627	E630	E631	E 636	637	E900a	E 901	E 902	E 903	E 904	E905a
E905b	E905s	E920	E 921	927a	E 27b	E 928	E 930	E 940	E 941	E 950
E951	E952	E953	E 954	958	E965	E 966	E 967	E 999	E 100	E 101
E1102	E1103	E1104	E1200	1201	E0202	E 505	E1518	E1520		

bütün malların məcmusudur. **Mal çeşidi** – öz aralarında həm funksional olaraq, həm də onların təmin etdikləri mənfəət əsasında sıx bağlı olan marka qrupudur. **Mal portfeli** – şirkətin təqdim etdiyi malların ümumi diapazonu.

MALLARIN TRANZİTİ – malların gömrük nəzarəti altında, ölkənin iki gömrük orqanı arasında, o cümlədən xarici dövlətlərin ərazisindən gömrük rüsumları, vergilər alınmadan və mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən keçirilməsindən ibarət gömrük rejimi.

MALTUS (MALTHUS) TOMAS ROBERT (1766-1834) – ingilis iqtisadçısı, keşişi. Kembric Universitetinin Cezus kollecini bitirmişdir (1788).



1793-cü ildə ilahiyyat üzrə alimlik dərəcəsi almışdır. 1797-1803-cü illərdə Surrey qraflığının prixodlarından (xristianlarda: aşağı kilsə təşkilatı və bu təşkilat üzvlərinin yaşadığı yer) birinin vikarisi vəzifəsini icra etmişdir. 1805-1834-cü illərdə Ost-Hind şirkətinin kollecində müasir tarix və siyasi iqtisad kafedrasının professoru olmuşdur. U.Qodvinin utopik sosializm ideyalarına, Fransa burjua inqilabının ideoloqları M.Kondorse, J.J.Russo və başqalarının ideyalarına qarşı qətiyyətlə çıxırdı. Onun əsas əsəri "Əhali artımı qanunu haqqında təcrübə" ilk dəfə 1798-ci ildə nəşr edilmişdir. Əhali artımı problemlərinin tədqiqi zəruriliyi

Cədvəl 3

Azərbaycanda tətbiqi qadağan edilən qida əlavələri

E 103	E 107	E 125	E 127	E 128	E 140	E153	E 154	E 155	E160d
E 160a	E 166	E 173	E 174	E 175	E 180	E 82	E 209	E 213	E 214
E 215	E 216	E 217	E 218	E 219	E 225	E 26	E 227	E 228	E 230
E 231	E 232	E 233	E 237	E 238	E 241	E 252	E 263	E 264	E 281
E 282	E 283	E 302	E 303	E 305	E 308	E 309	E 310	E 311	E 312
E 313	E 314	E 317	E 318	E 323	E 324	E 325	E 328	E 329	E 343
E 344	E 345	E 349	E 350	E 351	E35 2	E 355	E 356	E 357	E 359
E 365	E 366	E 367	E 368	E 370	E 375	E 381	E 408	E 409	E 418
E 419	E 429	E 430	E 431	E 432	E 433	E 434	E 435	E 436	E 441
E 442	E 443	E 444	E 446	E 462	E 463	E 465	E 467	E 47	E 476
E 477	E 478	E 479	E 480	E 482	E 483	E 484	E 485	E 486	E 487
E 488	E 489	E 491	E 492	E 493	E 494	E 495	E 496	E 505	E 512
E 519	E 520	E 521	E 522	E 523	E 535	E 537	E 538	E 541	E 542
E 550	E 552	E 554	E 555	E 556	E 557	E 559	E 560	E 574	E 576
E 577	E 579	E 580	E 622	E 623	E 624	E 625	E 628	E 629	E 632
E 633	E 634	E 635	E 640	E 922	E 923	E 924	E 92	E 92	E 94
E 94a	E 943b	E 944	E 945	E 946	E 957	E 959	E1000	E1001	E1005
E1503	E1521								

ideyasının yaranması XVIII əsrin axırlarında Böyük Britaniyanın iqtisadi vəziyyətinin təsiri ilə bağlı idi. Maltus belə hesab edirdi ki, zəhmətkeşlərin yoxsulluğuna səbəb əhalinin həddən artıq çoxalması, ölkədə "insanların mütləq artıqlığı"dır. O, problemin kəskinliyini əhali artımından könüllü şəkildə şəxsən çəkinmək yolu ilə azaltmağı təklif edirdi. Protestant əhalinin çoxluq təşkil etdiyi anqlosakson krallıqlarında və Skandinaviya ölkələrində kontrasepsiya metodları geniş yayılmışdır. Katoliklərin çoxluq təşkil etdiyi ölkələrdə isə bu metodların tətbiq edilməsi qəzəbli etirazla qarşılandı. Lakin XX əsrdə baş vermiş demoqrafik partlayış nəticəsində maltusçuluğa münasibət dəyişmişdir. Əhali artımının yüksək olduğu ölkələrin əksəriyyətində (Çin, Hindistan) "doğum tənzimlənir". Katolisizm ideyalarının nüfuz etdiyi qanunvericiliyin qüvvədə olduğu ölkələr bu məsələyə düzəlişlər edilməsinin mümkünlüyünü nəzərdən keçirirlər.

Maltus özünün "Siyasi iqtisadın prinsipləri" əsərində (1820) Rikardonun əmək-dəyər nəzəriyyəsini təkzib edərək bildirirdi ki, əmtəənin dəyəri istehsal xərclərindən ibarətdir. O, mənfəəti əmtəənin dəyərinə nominal əlavə hesab edirdi. Maltus mənfəəti əməkdən ayırmaqla belə hesab edirdi ki, kapitalistin mənfəətinin mənbəyi izafi dəyər deyil, əmtəənin öz dəyərindən artıq qiymətə satılmasıdır. Bu əsasda satış nəzəriyyəsini inkişaf etdirən Maltusa görə, əmtəələr bazarda onların dəyərindən yuxarı qiymətə satıldığın-

dan fəhlələrin və kapitalistlərin məcmu tələbi hesabına istənilən miqdarda əmtəə və xidmətlərin satışı təmin edilə bilməz. Maltus satış probleminin həllini cəmiyyətdə istehsal edilən əmtəənin bütün kütləsinə əlavə tələbat yaradan torpaq sahibkarları və üçüncü şəxslər deyilən insanların qeyri-məhsuldar istehlakının daim artmasında görürdü. C.Keyns və onun davamçıları kapitalist iqtisadiyyatının tənzimlənməsi üçün "səmərəli tələb"in dəstəklənməsi konsepsiyasında Maltusun bir sıra müddəalarından istifadə etmişlər.

Maltusçuluq adı ilə hazırda: a) sözün məhdud mənasında – doğumun məhdudlaşdırılmasına yönəlmiş siyasət; b) geniş mənada istehsal sürətinin azaldılmasına yönəlmiş strategiya və ya siyasət, bazarda təklifin azaldılmasına yönəldilmiş, könüllü şəkildə sistematik, uzunmüddətli və ya təkrarlanan strategiya və ya siyasət başa düşülür.

MANAFOV QABİL NADİR OĞLU (1952) – Azərbaycanın görkəmli iqtisadçısı, i.e.d., prof.



1982-ci ildə "İttifaq Respublikasında "B" qrupu sahələrinin inkişaf problemləri" mövzusunda namizədlik, 2003-cü ildə isə "Sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafının elmi-praktik problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 70-dən artıq elmi və tədris-metodik xarakterli əsərlərin müəllifidir. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadi nəzəriyyə kafedrasının professorudur.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 sentyabr tarixli Sərəncamına əsasən, ona təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar müəllim" fəxri adı verilmişdir.

MANDELL ROBERT (24 oktyabr 1932-ci il, Kanada Kinqston) – Kanada iqtisadçısı.



1999-cu ildə "Müxtəlif valyuta kursları rejimlərində pul və fiskal siyasətin, həmçinin optimal valyuta zonalarının təhlili" işinə görə Nobel mükafatına layiq görülmüşdür. Britaniya Kolumbiyası Universiteti, Vaşinqton universiteti, Massaçusets Texnoloji İnstitutu, Çikaqo Universitetində təhsil almışdır. Stenford və Çikaqo Universitetində dərs demişdir. Beynəlxalq Valyuta Fondunun elm şöbəsində işləmişdir. İşlədiyi müddətdə apardığı tədqiqatla əlaqədar sanballı material toplamışdır. Eyni dövrdə Beynəlxalq Valyuta Fondunun digər əməkdaşı olan Markus Fleminq "Açıq iqtisadiyyatlı ölkələrdə sabitləşdirmə siyasəti" adlı tədqiqat əsərini nəşr etdirmişdir. Bu işlər neoliberalizmin nəzəri əsasını təşkil edir. Müasir ədəbiyyatlarda açıq iqtisadiyyat modeli "Mandell-Fleminq modeli" də adlandırılır.

MANİAKAL ŞƏXSİYYƏT – bir şeyə mübtəla olan, demək olar ki, xəstəcəsinə meyilli olan şəxsiyyət tipi olub, ciddi icraçılığı ilə fərqlənir. Xarakterinin xüsusiyyətləri: vicdanlı, inadkarlıq, punktuallıq, qayda-qanuna riayət, fədakarlıq. Çox vaxt ətrafdakılardan da bunu tələb edir.

MANİFEST – ictimai təşkilatların, partiyaların, bir qrup şəxsin proqram xarakterli bəyanatı; ali hakimiyyətin xalqa təntənəli müraciəti; konosamentlər siyahısından ibarət olub, gömrük orqanlarına, həmçinin limanlarda agentlərə və stividor şirkətlərə verilən sənəd.

MANKO (ital. *manco* – çatışmazlıq) – pulun kassada çatışmaması, kassa sənədlərində əskikliyin əmələ gəlməsi.

MANTİPASİYA – alınan əşyanın mülkiyyətə keçirilməsi.

MANUFAKTURA (lat. *manus* – əl, *fasere* – etmək) – əmək bölgüsünə və əl əməyinə əsaslanan kooperasiya. İstehsal prosesinin təşkilinin səciyyəvi forması kimi təqribən XVI əsrin ortalarından XVIII əsrin son qərinəsinə qədər Qərbi Avropa ölkələrində üstünlük təşkil etmişdir. Manufaktura iki yolla yaranmışdır. Bu yollardan biri məhsul tam hazır olana qədər ardıcıl olaraq onun üzərində işləyəcək müxtəlif ixtisaslı sənətkarların bir emalatxanada cəmləşməsidir. İkinci yol eyni ixtisaslı sənətkarların ümumi emalatxanada birləşməsi, sonra isə onların arasında əmək bölgüsü aparılmasından ibarətdir. Həm birinci, həm də ikinci halda fəhlələr əmək bölgüsü əsasında ixtisaslaşırlar. Manufakturanın texniki əsası sənətkarlıq olsa da, sənətkarlarla manufaktura fəhlələri arasında texniki



Şenjendə (ÇXR) elektrotexnika məhsullarının istehsal manufakturası

baxımdan böyük fərq var. Belə ki, müstəqil sənətkar məhsulun hazırlanması ilə əlaqədar bütün işi tam həcmdə təkbaşına gördüyü halda, manufaktura fəhləsi bütün həyatı boyu məhsulun hazırlanması ilə əlaqədar ayrıca bir əməliyyatı yerinə yetirir. Əməyin xarakterinə görə manufaktura iki əsas formaya bölünə bilər – heterogen (bircins olmayan, müxtəlif hissələrdən ibarət) və üzvi manufaktura. Heterogen manufakturada fəhlələr arasında əmək bölgüsü hazır məhsulu əmələ gətirən (onun yığıldığı) detallar üzrə həyata keçirilir (karetalar, saatlar, sandıqlar istehsalında əmək bölgüsü belə olurdu). Üzvi manufakturada əmək bölgüsü əməliyyatlar üzrə aparılır (iynə, kağız, butulka istehsalı və s.).

Manufaktura, xüsusən üzvi manufaktura fərdi sənətkarlıqla müqayisədə əmək məhsuldarlığının xeyli artmasına səbəb olmuşdur. Bu, ilk növbədə, ictimai məhsuldar qüvvə yaradan kooperativ əmək forması ilə əlaqədardır. Lakin adi kooperasiya halında olduğundan, əlavə manufaktura əmək bölgüsü hesabına əmək məhsuldarlığının daha da artmasını təmin edirdi. Əvvəla, fəhlələrin eyni əməliyyatların yerinə yetirilməsi üzrə ixtisaslaşması bu əməliyyatların həyata keçirilməsinə sərf edilən vaxtın azalmasına şərait yaradırdı. İkincisi, bir əməliyyatdan digərinə keçid üçün alətlərin dəyişdirilməsinə sərf edilən vaxt azalırdı. Üçüncüsü, manufakturada alətlərin ixtisaslaşması baş verir, bu isə onların səmərəsini artırırdı.

Keçmiş sənətkarların bir emalatxanada birləşməsi yolu ilə yaranan manufakturadan əlavə pərakəndə manufaktura və ya evdə iş variantı da mövcud idi. Manufaktura ictimai istehsalın bütün həcmini əhatə etmək və onu dəyişmək iqtidarında deyildi, çünki onun texniki bazası kiçik təsərrüfatlarda olan əl əməyi alətləri idi. Buna görə də manufaktura xırda istehsalçıların istehsalı üzərində yalnız

özünəməxsus bir üstqurum kimi seçilirdi. Manufakturanın tarixi rolu ondan ibarət idi ki, o, maşınlı istehsala keçid üçün zəmin yaratmışdır. İstehsal proseslərinin ən sadə əməliyyatlara bölünməsi və iş alətlərinin diferensiasiyası maşınların tətbiq edilməsinə şərait yaradırdı. Bundan əlavə, fəhlələrin uzun müddət ayrı-ayrı əməliyyatların yerinə yetirilməsi üzrə ixtisaslaşması sayəsində manufaktura maşınlı sənaye üçün kadrlar hazırlayırdı.

MARAĞIN ÖLÇÜSÜ – maksimum məbləğdir ki, bunu sığorta marağına malik olan və bu sığorta marağına münasibətdə itirməli olan hər hansı bir şəxs maliyyə ifadəsində əldə edə bilər.

MARAQLI OLAN MÜŞTƏRİLƏR – şirkətə müraciət edən və onun məhsulunun bir və ya bir neçə növündə maraqlı olduqlarını nümayiş etdirən, amma onları hələ əldə etməyən şəxslər.

MARGİNAL ƏQD – bu əqd bağlanarkən qiymətli kağızların dəyərinin bütün məbləğinin 50 %-ni nağd ödəmək lazımdır, qalan məbləği isə brokerdən borc almaq olar. Bu halda qiymətli kağızlar zəmanət girovu rolu oynayır.

Alıcının ikiqat artıq məbləğə qiymətli kağız almaq imkanı və deməli, öz mənfəətini artırmaq ehtimalı yaranır. Bu əqdin riskli cəhəti aşağıdakından ibarətdir: qiymətli kağızların məzənnə dəyəri azaldıqda broker borcun nağd şəkildə qaytarılmasını tələb etməyə haqlıdır. Əgər alıcı imkansız hesab edilərsə, broker borclunun səhmlərini satmaq hüququna malikdir.

MARGİNAL ŞƏXS – subyektlə cəmiyyət arasında ictimai-normal münasibətlərə zidd olan münasibətlərin üzə çıxarılması və analizi üçün istifadə olunan anlayış.

MARGİNAL VERGİ – gəlir vergisinin artırılması, məbləği müəyyən səviyyəni aşmayan əlavə gəlir vergisi.

MARGİNALLAR – şəxsiyyətlərin, sosial təbəqələrin və ya "ucqarda", "kənarda" yerləşən və ya sadəcə, cəmiyyət üçün xarakterik olmayan əsas struktur yarımbölmələri və ya hakim sosial-mədəni norma və ənənələri hüdudlarından kənarda qalan şəxslərin adı. Buna tipik misal – kənd sakinlərinin sosial infrastrukturunun genişləndirilməsi ilə müşayiət olunmayan şəhərlərə köçürülməsi.

MARGİNALLAŞDIRMA – sosial qrupların dağılması prosesindən, insanlar arasında ənənəvi əlaqələrin kəsilməsi, fərdlərin bu və ya digər ictimai mənsubiyyətlərini itirməsi, müəyyən professional və ya etnik qrupa (məsələn, işsizlik və ya miqrasiya nəticəsində) aid olmaları hissini itirməsindən ibarət olan dövlət cəmiyyətinin dağılması.

MARJA (fr. *marge* – səhifənin qırağı, kənarı) – 1. Bank təcrübəsində – cəlb edilən və verilən kreditlər üzrə faiz dərəcələri arasında, müxtəlif kateqoriyalı borcalanların faiz dərəcələri və s. arasındakı fərq. 2. Ticarət təcrübəsində – əmtəənin alış və satış qiymətləri arasında fərq, fond əməliyyatlarında – əqdin bağlanması və icrası günlərində qiymətli kağızın məzənnələri arasındakı fərq, eləcə də alıcının qiyməti ilə satıcının qiyməti arasındakı fərqdir. 3. İctimai mənada – satılmış məhsulun və ya kapitalın həcmi ilə mənfəətin faiz nisbətidir.

MARJİNAL ƏVƏZLƏŞDİRMƏ DƏRƏCƏSİ – istehlakçının bir əmtəəni digəri ilə əvəzləmək istədiyi dərəcə.

MARJİNAL FAYDALILIĞI – istehsal olunan məhsulun miqdarının bir vahid dəyişdikdə iqtisadi rentabelliyinin dəyişməsi.

MARJİNAL XƏRCLƏR – əlavə istehsal vahidi nəticəsində məcmu xərclərdəki artım.

MARJİNAL MƏHSULDARLIĞIN DƏYƏRİ – istehsal amilinin marjinal məhsuldarlığı ilə istehsal olunan əmtəənin qiymətinin hasili.

MARJİNAL VERGİ DƏRƏCƏSİ – hər bir əlavə gəlir vahidinə və ya hər bir vahid sonrakı fəaliyyətə tətbiq olunan vergi dərəcəsi. Bu halda əlavə gəlir vahidi artıq iş vaxtı, artıq faiz, artıq investisiya hesabına yarana bilər. Ümumiyyətlə, marjinal termininin hərfi tərcüməsi son həddi deməkdir. Bu termin istehsal, xidmət və iqtisadiyyatın digər sahələrində məhsuldarlığın son aşağı həddini ifadə etmək üçün işlənilir. Vergitutmada isə marjinallıq nəzəriyyəsi maksimum həddi ifadə etmək üçün istifadə olunur. Belə ki, gəlir vergisinin marjinal dərəcələri dedikdə bu vergi növünün dərəcələrinin yuxarı həddi nəzərdə tutulur.

MARJİNALİZM – iqtisadi prosesləri və hadisələri artım kəmiyyətlərinin son həddi vəziyyətləri əsasında izah edən iqtisadi nəzəriyyə. Marjinalizm


məhsuldarlığın son həddi, xərclərin son həddi, faydalılığın son həddi kimi anlayışlarla işləyir. Marjinalizm faydalılığın, məhsuldarlığın, gəlirliyin son həddinin azalması qanunlarını, tələb və təklif qanununu əsas götürür. XIX əsrin 70-80-ci illəri iqtisadi təlimlər tarixində "marjinalist inqilab" dövrü (ing. *marginal analysis* – limitlər analizi) adlanır. Limit yanaşması, marjinal yanaşma ilk dəfə Avstriya məktəbinin baniləri K.Menger (1840-1921), F.Vizer (1851-1926) və Bem-Baverk (1851-1919) tərəfindən həyata keçirilmiş nemətlərin faydalılığının tədqiqi zamanı tətbiq edilmişdir. Neoklassik nəzəriyyənin baniləri C.B.Klark, A.Marşall, V.Pareto, L.Valras, K.Viksel və başqaları limit təhlilindən rəqabətli bazarlarda əmtəələrin, xidmətlərin və istehsal faktorlarının qiymətlərinin yaranmasının öyrənilməsi üçün istifadə etmişlər. Burada mərkəzi ideya tarazlıq vəziyyətində olan iqtisadiyyatın mükəmməl rəqabəti ideyasıdır. Bu nəzəriyyənin fərqləndirici cəhəti iqtisadiyyatın təsvirinə mikroiqtisadi yanaşmadır. Daha bir fərqləndirici cəhət ondan ibarətdir ki, əmtəələrin qiymətləri fərdin səmərəli maksimallaşdırma davranışının nəticəsidir (bu barədə daha ətraflı məlumat üçün bax: neoklassik məktəb). Marjinalizm nəzəriyyəsində subyektiv dəyər, faydalılığın son həddi və harmonik iqtisadi nəzəriyyələrin elementləri vardır (bax: sxem 1).

MARJİNALLIQ ZONASI – cəmiyyətin, xalq təsərrüfatı sahələrinin, əmək bazarının seqmentlərinin və sosial qrupların sosial-peşə marjinallığının yüksək səviyyəsi ilə müşahidə olunan sferası.

MARKA (BREND) – müəyyən satıcı və ya satıcılar qrupu tərəfindən təklif olunan əmtəə və xidmətləri fərqləndirən ad və ya simvol.

MARKA KAPİTALI – firmanın marka adı ilə istehlakçının düşüncəsində həkk olunan nüfuzu. Bu, şirkətə əlavə üstünlük və qazanc gətirir, çünki satış həcminin və gəlirlərin artmasına səbəb olur.

Marjinalizm ideyaları əsasında yaradılmış və qiymət nəzəriyyəsi ilə məşğul olmaqla tanınmış məktəblər



Sxem 1

Marketinqin modelləri



Sxem 2

MARKALAMA (fr. *marquer* – qeyd etmək) – malın qabında və ya malın öz üzərində onun barəsində məlumatlardan ibarət yazı, yaxud yük yerlərinin qablaşmasına işarə edən şərti nişanlar və göstəricilər. Məsələn, əmtəə, göndəriş, xüsusi və nəqliyyat markalanmasını fərqləndirmək olar.

MARKANIN GENİŞLƏNDİRİLMƏSİ – eyni bazar çərçivəsində yeni marka üçün etibarlı, dayanıqlı marka adının istifadəsi. Markadan istifadə sərhədlərinin genişləndirilməsi termini də istifadə olunur.

MARKANIN KÖÇÜRÜLMƏSİ – dayanıqlı nüfuza malik marka adının prinsipial olaraq digər satış bazarlarında digər marka adlarında istifadəsi. "İstifadə sərhədlərinin köçürülməsi" termini də istifadə olunur.

MARKANIN MƏNİMSƏNİLMƏSİ – elə prosesdir ki, bunun köməyi ilə şirkət öz malını rəqiblərin oxşar təklifləri arasında ayırır. Bəzən markanın yaradılması və ya qurulması haqqında da danışılır.

MARKET MEYKER – iri banklar və maliyyə şirkətləri böyük bazar payına əsasən valyuta kursunu müəyyən edirlər. Onlar öz aralarında və daha kiçik banklarla maliyyə əməliyyatları aparmaqla valyuta kurslarını müəyyən edirlər.

MARKETİNQ (ing. *marketing* – bazarşünaslıq) – fərdlərin və insan qruplarının digərləri ilə dəyər yaratmaq və bazarda mübadilə etmək vasitəsilə öz ehtiyac və tələbatını ödədikləri sosial və idarəetmə prosesi (bax: sxem 1, 2). Müasir marketinq işgüzar ünsiyyətin sosial və etik normalarının, istehlakçıların və bütövlükdə cəmiyyətin mənafeyi naminə vicdanlı kommersiya fəaliyyəti qaydalarının məcmusudur.

MARKETİNQ AUDİTİ – müəssisənin marketinq mühitinin, vəzifələrinin, strategiyasının və fəaliyyətinin sistemli təhlili əsasında onun əsas strateji vəzifələrinin, imkan və problemlərin üzə çıxarılmasından ibarətdir. Marketinq auditi "mövcud vəziyyət necədir?", "bu vəziyyətə necə gəlmişik?" və "nəyə doğru gedirik?" kimi strateji suallara cavab verməlidir. Marketinq auditi xarici və daxili mühitin auditi sahələrinə bölünür.

MARKETİNQ İNFORMASİYA SİSTEMİ – marketinq qərarlarının daimi əsaslarla qəbuluna dair informasiyanın toplanması, təhlili və yayılması üçün hazırlanmış metod və əməliyyatlar məcmusu.

MARKETİNQ KOMMUNİKASİYASI – müəssisənin alıcılara, vasitəçilərə, təchizatçılara, səhmdarlarına, heyətə, ictimaiyyətə və digərlərinə ünvanladığı informasiya məcmusu. Marketinq kommunikasiyasının əsas növləri aşağıdakılardır: reklam; şəxsi satış; satışın həvəsləndirilməsi; ictimaiyyətlə əlaqələr. Kommunikasiya prosesinin əsas məqsədi informasiya mübadiləsi iştirakçılarının birbirlərini qarşılıqlı anlamalarını təmin etməkdir. Kommunikasiya prosesinin əsas elementlərinə göndərici, məlumat, rabitə kanalı və alıcılar aid olunur: Göndərici – ideyanı yaradan və ya informasiyanı toplayan və ötürən şəxs; Məlumat – simvolların köməyi ilə kodlaşdırılmış və müəyyən formaya malik olan informasiya; Rabitə kanalı – informasiyanın ötürülməsi vasitəsidir; Alıcı – informasiyanın təyin olunduğu şəxsdir.

MARKETİNQ KOMPLEKSİ – ümumi halda əmtəə, qiymət, satış və kommunikasiya kimi elementlərdən təşkil olunur. Praktikada və ədəbiyyatda tez-tez 4P sistemi (istehlakçılarla qarşılıqlı münasibətlərin taktiki idarəetmə sxemi) də adlanan əmtəə (product), qiymət (price), təşviqat (promotion) və yerləşdirmədən (place) ibarət marketinq kompleksindən də istifadə olunur. Müasir praktikada 7P sistemindən də istifadə olunur: əmtəə (product), qiymət (price), təşviqat (promotion), yerləşdirmə (place), proses (process), insan kapitalı (peop - le), maddi sübutlar (physical evidence).

MARKETİNQ KONSEPSİYASI – müştərilərin rəqiblərə münasibətdə daha yaxşı məmnunluğu hesabına qarşıya qoyulan məqsədlərə nail olma.

MARKETİNQ KONSEPSİYASI İLƏ İDARƏ OLUNAN ŞİRKƏT – marketinq konsepsiyasını özünün biznes fəlsəfəsi kimi qəbul etmiş müəssisə aşağıdakı prinsiplərə riayət etməklə fəaliyyət göstərməlidir: son istehlakçıya istiqamətlənmə (istehlakçının tələbatlarının öyrənilməsi, dərk olunması və bu tələbatlara uyğun məhsulların yaradılması); satış kanallarına istiqamətlənmə (ticarət müəssisələrinə vasitəçi kimi deyil, istehlakçı kimi münasibət göstərmək, onların xüsusi tələblərini nəzərə almaq); rəqiblərə istiqamətlənmə (rəqiblərin güclü və zəif cəhətlərinin öyrənilməsi, onların strategiyalarının təhlili və rəqiblərin marketinq təzyiqlərinə cavab reaksiyalarının qiymətləndirilməsi); funksiyalararası koordinasiya (bazar, alıcıların tələbatları və rəqiblər haqqında məlumatların müəssisənin daxilində yayılması, digər funksional bölmələrin mütəxəssislərində müəssisənin problemlərinə marketinq baxışlarının formalaşdırılması); müəssisənin əhatə mühitinin izlənməsi (alıcıların tələbatlarına və seçmə meyarlarına təsir göstərən siyasi, iqtisadi, sosial, hüquqi, təbii və digər amillərin izlənməsi).

MARKETİNQ STRATEGİYASI – onun əsas vəzifəsi istehlakçıların tələbatlarının təh-



Sxem 1

Cədvəl 1

Marketinqin inkişafı tarixində əsas mərhələlər

Tarix, dövr	*Marketinqdə baş verən hadisələr*
1902- ci il	ABŞ-da marketinq üzrə müstəqil kurslar keçirilməyə başlamışdır.
1908- ci il	İlk marketinq kommersiya təşkilatı yaradılmışdır. ABŞ-ın bir sıra iri sənaye kompaniyalarında ilk marketinq şöbələri formalaşdırılır.
1920- ci il	Beynəlxalq ticarət palatası təşkilat kimi rəsmi olaraq qəbul olunmuşdur.
1926-cı il	ABŞ-da reklam və Milli marketinq assosiasiyası yaradılır; sonradan onun əsasında Amerika marketinq cəmiyyəti formalaşdırılır, 1973-cü ildə adı Amerika marketinq assosiasiyasına dəyişdirilir (AMA).
XX əsrin 30-40-cı illəri	Əksər iqtisadi inkişaf etmiş ölkələrdə milli marketinq assosiasiyaları yaradılır
XX əsrin 50-60-cı illəri	Beynəlxalq marketinq federasiyasını daxil etməklə, beynəlxalq marketinq təşkilatları yaradılmışdır. Avropa marketinq Akademiyası, ictimai rəy və marketinq məsələləri üzrə Avropa cəmiyyəti
1976-cı il	SSRİ-nin TSP-sinin nəzdində marketinq məsələləri üzrə seksiya yaradılmışdır.
1980-ci il	SSR-nin bir sıra iqtisadiyyat ali məktəblərində marketinq fənni üzrə kurslar daxil edilir.

lili edilməsi və qiymətləndirilməsidir. Marketinq strategiyası istehlakçının tələbatını ödəyən məhsulun deyil, istehlakçının probleminin müəyyən edilməsi ilə həyata keçirilir. İstehlakçıların problemləri müxtəlif texnologiyalarla (məhsullarla) həll oluna bilər. Marketinq strategiyasının köməyi ilə aşağıdakı vəzifələr həll oluna bilər: bazarların təkamülünün izlənməsi; bazar seqmentlərinin tapılması; onların mənfəətlilik səviyyələrinin qiymətləndirilməsi; bu seqmentlərdə rəqabətin təhlili; tələbat proqnozlarının hazırlanması və s. Marketinq strategiyasının müəyyənləşdirilməsi üçün marketinq aləmində geniş vüsət almış iki təhlil alətindən istifadə oluna bilər: birincisi, Boston Konsaltinq Qrupu (BKQ) tərəfindən işlənilmiş Biznes Portfelinin Təhlili və ikincisi, Bazar və Əmtəə İmkanları (İ.Ansoff) Matrisləri (bax: cədvəl 3).

Cədvəl 2

BKQ Matrisi

		Bazarda nisbi pay	
		Böyük	**Kiçik**
Bazarın artım tempi	**Yüksək**	*Ulduzlar*	*Sual işarələri*
	Aşağı	*Sağmal İnəklər*	*İtlər*

Amerikanın iri konsaltinq şirkətlərindən biri Boston Konsaltinq Qrupu tərəfindən işlənilmiş bu matrisin əsasını üzərində biznesin (məhsulun) təhlili aparılan iki baza parametrlər təşkil edir: bazarın nisbi (rəqiblərlə müqayisədə) payı və bazarın artım tempi (bax: cədvəl 2).

İlk dəfə 1957-ci ildə Harvard "Business Review" jurnalında "Diversifikasiya strategiyaları" adlı məqalədə qeyd olunan bu matrisin əsas məqsədi şirkətin bazarda öz hədəflərinə çatmasında dörd baza strategiyalarından birinin seçilməsindən ibarətdir.

MARKETİNQ TAKTİKASI – qısamüddətli planlar əsasında reallaşan fəaliyyət prosesi olaraq, mövcud bazarlarda həyata

Cədvəl 3

Ansoff Matrisi

	Mövcud məhsul	**Yeni məhsul**
Mövcud bazar	*1.Penetrasiya (Bazara nüfuz etmə)*	*2.Məhsulun inkişafı*
Yeni bazar	*3.Bazarın inkişafı*	*4.Diversifikasiya*

keçirilir. Bu marketinq məhsul, qiymət, satış və kommunikasiya üzrə taktiki vasitələrdən istifadə etməklə planlaşdırılmış satış həcminə nail olmağa istiqamətlənir və klassik marketinqi xa - tırladır. Marketinq taktikasının əsas vəzifəsi satışdan gəlirin təmin olunmasıdır. Bu zaman müəssisədə marketinq taktikasının səmərəliliyinin qiymətləndirilməsi üçün aşağıdakı meyarlardan istifadə olunur: məhsul istehsalı üçün alınmış sifarişlərin həcmi (dəyər və natural ifadələrdə); bu sifarişlərin həc - minin dinamikası; satış xərclərinin minimallaşdırılması; satış xərclərinin (ümumi, məhsul vahidinə) dinamikası və s.

MARKETİNQ TƏDQİQATLARI – məhsulların marketinqi ilə bağlı problemlər haqqında məlumatların sistemli toplanması və təhlili prosesi olaraq marketinqə dair idarəetmə qə - rarlarının və tövsiyələrin hazırlanması üçün həyata keçirilir. Marketinq tədqiqatları müəssisənin fəaliyyət strategiyası və taktikasının formalaşmasının əsasında dayanır. Marketinq tədqiqatlarının əsas vəzifəsi marketinqlə bağlı strateji idarəetmə qərarlarının qəbulu üçün proqnoz-məlumat və informasiya bazasının yaradılmasından ibarətdir. Bu tədqiqatların səmərəliliyinin əsas şərti onların sistemli şəkildə aparılmasıdır. Elmi əsaslar üzərində qurulmalı olan bu tədqiqatlar obyektivlik, dəqiqlik və ən kiçik faktlara belə ciddi yanaşmanı tələb edir. Marketinq tədqiqatlarından istifadə miqyası müəssisənin ölçülərindən və tələb olunan informasiyanın növündən asılı olaraq geniş intervalda dəyişir. Marketinq tədqiqatlarının miqyası öyrənilən problemin mürəkkəblik dərəcəsi tədqiqat obyektinin kəmiyyət və keyfiyyət xarakteristikası ilə müəyyən

Cədvəl 1

"Marketinqin keyfiyyəti" anlayışlar məcmusunu əks etdirir

Keyfiyyəti əks etdirən aspektlər	***Marketinq fəaliyyətinin istiqaməti***
Fəlsəfi aspekt	İstehlakçının ehtiyaclarının ödənilməsi, yeniliyə meyllilik, uzunmüddətli (strateji) təfəkkür prioriteti
Davranış aspekti	Firmanın reputasiyasına (imicinə) və onun məhsullarına daimi qayğının göstərilməsi
İnformasiya aspekti	Bazarın öyrənilməsinə istiqamətlənmə, bazarın əhəmiyyətini nəzərə almaqla onun məqsədyönlü təşkil edilməsi, məlumatlar bazasına əsaslanan konsepsiyaların işlənməsi
Hərəkət prinsipi aspekti	Onun ayrı-ayrı və hətta vacib olan funksiyalarının seçilməsi deyil, sistemli kompleks təhlildir.
Diferensiasiya aspekti	Bazar (yerlərinin) siyasəti, bu və ya digər qrupa təsir etmə faktoru qismində istehlakçıların məlumatlandırılması stereotipinin istifadə edilməsi
Təşkilati aspekt	Mərkəzləşmənin və bürokratlaşmanın yerinə qeyri-mərkəzləşdirmə və idarə etmə ustalığı; gəlir mərkəzlərinin istifadə olunması
Sosial aspekt	Firmalar tərəfindən istehlakçıların sağlamlıqlarının və ətraf mühitin qorunmasına diqqətin artırılması

edilir (bax: cədvəl 1). Bu xüsusiyyətlər marketinq tədqiqatının aparılma müddətinin və büdcəsinin təyin olunmasında əsas amillər hesab olunur. Marketinq tədqiqatları müxtəlif formalarda həyata keçirilir. Bəzi müəssisələrdə marketinq tədqiqatları ilə məşğul olan xüsusi bölmələr yaradılır, bəzilərində isə bu tədqiqatların aparılması ixtisaslaşmış kənar təşkilatların köməyi ilə həyata keçirilir.

Marketinq tədqiqatları ümumi halda 6 mərhələ üzrə aparılır: problemin müəyyən edilməsi və tədqiqatın məqsədinin təyin olunması; problemlə bağlı mövcud məlumatların təhlili; ilkin məlumatların toplanması (problemin həlli üçün mövcud olan məlumatlar kifayət etmədikdə); toplanmış ilkin məlumatların təhlili; təkliflərin verilməsi; nəticələrin istifadə edilməsi.

Marketinq tədqiqatlarının əsas istiqamətlərinə aşağıdakıları aid etmək olar: istehlakçıların motivlərinin təhlili; tələblərin dəyişmə meyillərinin müəyyən edilməsi; bazarın makro və mikro seqmentlərinin müəyyən edilməsi, həmin seqmentlərin potensial və real tutumlarının qiymətləndirilməsi və proqnozlaşdırılması; bazar seqmentlərinin rəqabət strukturunun təhlili; rəqiblərin mövqelərinin qiymətləndirilməsi və proqnozlaşdırılması; hədəf bazarlarda əmtəənin rəqabət qabiliyyətinin təhlili; satışın təhlili; yeni mallara istehlakçıların reaksiyasının qiymətləndirilməsi və onların potensialının öyrənilməsi; işgüzar fəallıq meyillərinin təhlili; qiymət siyasətinin araşdırılması; kommunikasiya tədbirlərinin səmərəliliyinin araşdırılması və s.

MARKETİNQDƏ ADAPTASİYA – müəssisənin missiyasının, strateji və taktiki məqsədlərinin dəyişən xarici və daxili mühitin yeni tələblərinə uyğunlaşdırılması prosesi. Marketinqin makro və mikro mühitində, həmçinin daxili mühitində baş verən hər hansı dəyişiklik yeni imkanların və risklərin yaranmasına gətirir. Belə imkanlardan istifadə etmə və risklərdən minimal itkilərlə yayınma müəssisənin çeviklik qabiliyyəti ilə (fəaliyyət mühitində baş verən dəyişikliklərə uyğunlaşma bacarığı) müəyyən olunur.

MARKETİNQİN DAXİLİ MÜHİTİ – marketinqin daxili mühitinə müəssisə tərəfindən idarə oluna bilən amillər aid olunur: müəssisənin rəhbərliyi tərəfindən idarə olunan daxili marketinq amilləri – fəaliyyət sahəsi, ümumi məqsəd, marketinqin rolu, digər funksional bölmələrin rolu, korporativ mədəniyyət; marketinq xidməti tərəfindən idarə olunan amillər – hədəf bazarın seçilməsi, marketinqin məqsədi, marketinqin planlaşdırılması, təşkili və strukturu.

MARKETİNQİN FUNKSİONAL MATRİS MODELLƏRİ – marketinqin məqsədlərinin, funksiyalarının və müəssisədə funksional rolunun tədqiq edilməsi, onlar arasında qarşılıqlı əlaqələr barədə nəticə çıxarmağa imkan verir. Funksional-məqsədli yanaşma marketinqin idarəetmə konsepsiyası kimi tətbiqi sahələrini xeyli genişləndirməyə imkan verir. Bu formada marketinq bazar münasibətləri çərçivəsindən kənara çıxır və ictimai həyatın, demək olar ki, bütün altsistemlərində – iqtisadi, sosial, elmi-texniki, siyasi və başqa altsistemlərdə məqsədləri, funksiyaları və resursları bir-biri ilə əlaqələndirməyə imkan verir. Marketinqin konkret məqsədləri və funksiyaları, eləcə də ona müəssisədə verilən əhəmiyyət müəssisənin daxili işidir. Müəssisənin funskional altsistemlərinin hər birinin öz məqsədləri və funksiyaları var. Bu altsistemlər (istehsal sistemi, təhsil sistemi, elmi-texniki sistem, sosial sistem və s.) funksional-məqsədli marketinq modeli çərçivəsində təsvir edilə bilər. Bu model çoxölçülüdür. Modelin çoxölçülü olması təkcə məqsədlərin və funksiyaların sayı ilə deyil, həm də onların reallaşdırılması üçün resursların (məsrəflərin) həcmi ilə müəyyən edilir. Sonuncu amil konkret marketinq proqramının səmərəliliyini daha yaxşı qiymətləndirməyə imkan verir. Bu halda marketinqin funksional matris modelləri funksional-dəyər modeli şəklinə düşür (bax: sxem 1).

Marketinqin funksiyaları ilə onların reallaşdırılması üçün məsrəflər arasında qarşılıqlı əlaqəni funksional-dəyər təhlili kateqoriyaları ilə aşağıdakı sxem üzrə təsvir etmək olar (bax: sxem 2).


Şərti işarələr:

f1,..., f5 – marketinqin müvafiq funksiyaları;

Ci – onların reallaşdırılması üçün müqayisə edilə bilən məsrəflər.


Bu üsuldan istifadə etməklə

Marketinqin funksional-dəyər matris modeli



Sxem 1

Marketinqin məqsədli funksiyaları ilə onların reallaşması üçün məsrəflər arasında qarşılıqlı əlaqə




Sxem 2

həm hər bir funksiyanın reallaşdırılması üçün məsrəfləri, həm də bütövlükdə marketinq proqramının həyata keçirilməsi üçün ümumi məsrəfləri müəyyən etmək olar. Hər bir marketinq proqramı idarəetmə sisteminin aşağıdakı parametrlərə görə seqmentləşdirilməsi, eləcə də müəyyən məqsəd seqmentlərinin seçilməsi ilə üzvi şəkildə əlaqələndirilməlidir: marketinqin məqsədləri; marketinqin funksiyaları; marketinqin məsrəfləri (resurslar).

Məsələyə bu cür yanaşma hər hansı marketinq vəziyyətini ümumi şəkildə təsvir etməyə və dövlət səviyyəsinə qədər istənilən idarəetmə obyektinin zaman-məkan daxilində fəaliyyətinin (eləcə də bütöv regionların və ölkələrin iqtisadiyyatlarının inkişaf istiqamətlərinə ciddi təsir göstərə biləcək transmilli korporasiyaların fəaliyyətinin) və inkişafının marketinq proqramını hazırlamağa imkan verir.

MARKETİNQİN FUNKSİYALARI – bazarın kompleks şəkildə öyrənilməsi və proqnozlaşdırılması; müəssisənin istehsal və satış imkanlarının qiymətləndirilməsi; rəqabət üstünlüklərinin aşkar edilməsi və qiymətləndirilməsi; hədəf bazarın (seqmentin) seçilməsi; marketinq fəaliyyətinin məqsədləri, vəzifələri, resursları, mexanizmləri müəyyən edilməklə marketinq strategiyasının işlənib hazırlanması və reallaşdırılması; bazarın tələblərindən çıxış etməklə əmtəə və xidmətlər çeşidinin idarə olunması; tələbin formalaşması və satışın stimullaşdırılması; qiymətqoyma siyasətinin işlənməsi; satışın və kommunikasiyanın təşkili, müəssisənin sosial məsuliyyətinin təmin olunması və s.

MARKETİNQİN XARİCİ MÜHİTİ – makro və mikro mühitə bölünür. Makro mühit bazarda fəaliyyət göstərən bütün iqtisadi fəaliyyət subyektlərinə təsir göstərən amillərin məcmusudur və ayrı-ayrı müəssisələrin bu amillərə təsir etmək imkanları çox zəifdir. Bu amillərə iqtisadi, siyasi, hüquqi,



Sxem 1

təbii, sosial-mədəni amillər, elmi-texniki nailiyyətlər, kütləvi informasiya vasitələri, ictimai təşkilatlar və digərləri aid edilir. Marketinqin mikro mühitinə isə müəssisənin təchizatçıları, birbaşa rəqibləri, istehlakçıları və tərəfdaşlıq etdiyi satış kanalları aid olunur. Mikromühitin subyektləri güclü qarşılıqlı asılılıq şəraitində fəaliyyət göstərirlər.

MARKETİNQİN MƏQSƏDLƏRİ – istehlakçıların və bütövlükdə cəmiyyətin müvafiq əmtəələrə, xidmətlərə, hazır məmulatlara, texnologiyalara və s. tələbatının ödənilməsi; fəaliyyətin dəqiqləşdirilmiş istehlakçı qruplarının tələbatlarına yönəldilməsi vasitəsilə müəssisənin mənfəətliliyinin və uzunömürlülüyünün təmin edilməsi; seçilmiş bazar seqmentlərində rəqabət üstünlüyünə nail olmağa imkan verən mövqenin əldə edilməsi; cari satış həcmlərinin təmin olunması və s.

MARKETİNQİN MÜƏSSİSƏDƏ ROLU – müəssisənin missiyasının və strategiyasının hazırlanması üçün tələb olunan informasiyanın böyük hissəsi məhz marketinq vasitəsilə əldə olunur. Eyni zamanda müəssisənin cari satış fəaliyyəti və maliyyə vəsaitlərinin əldə edilməsi bilavasitə marketinq tədbirləri vasitəsilə reallaşır. Bu baxımdan, marketinqi iki növə ayırırlar: strateji və əməliyyat marketinqi. Strateji marketinqin müəssisənin idarə edilməsində əsas rolu müəssisənin resurslarının daha cəlbedici iqtisadi imkanlara – bazar seqmentlərinə yönəldilməsindən ibarətdir. Strateji marketinqin köməyi ilə müəssisənin hədəf bazarları (seqmentləri) müəyyən olunur, bu seqmentlərin müəssisə üçün cəlbediciliyi (tutumuna, həyat dövrünə və inkişaf meyillərinə görə) qiymətləndirilir, müəssisənin həmin seqmentlərdə rəqabət aparmaq imkanları və rəqabət mövqeyi müəyyən edilir, tələb proqnozu hazırlanır. Əməliyyat marketinqi isə mövcud bazarlarda məhsul, qiymət, satış və kommunikasiyadan ibarət olan marketinq kompleksi üzrə tədqiqatlar üzərində qurulur və müəssisənin bazar payı



Sxem 2

üzrə məqsədinin müəyyən edilməsinə və ona nail olunmasına istiqamətlənir.


MARKETİNQİN NÖVLƏRİ – diferensiasiya edilmiş və ya seçmə marketinq (bazarın müxtəlif seqmentləri üçün nəzərdə tutulan), təmərküzləşmiş marketinq (qüvvələrin bir bazar seqmenti üçün cəmlənməsi), kütləvi marketinq (bazarın seqmentasiyasını aparmadan həyata keçirilən və bütün bazara istiqamətlənən əsasən kütləvi tələbat malları üçün), əks-təsir göstərən (irrasional tələbatın məhdudlaşdırılmasına yönəlmiş), inkişafetdirici marketinq (potensial tələbatın real tələbata çevrilməsinə yönəlmiş), qiymət marketinqi (əmtəənin qiymətinin müəyyən edilməsinə əsaslanan) və s. (bax: sxem 1, 2).

MARKETİNQİN PLANLAŞDIRILMASI – proses əsasən bu mərhələlərdən ibarət olur: müəssisənin təyinatının (missiyasının) müəyyən edilməsi; xarici və daxili marketinq mühitinin auditi; müəssisənin imkanlarının, təhlükələrinin, üstün və zəif cəhətlərinin müəyyən edilməsi; marketinqin vəzifələrinin (strateji məqsədlər və inkişaf istiqamətləri) müəyyən edilməsi; hədəf bazarların, hədəf rəqiblərin və nail olunmalı rəqabət üstünlüyünün müəyyən edilməsi; marketinq kompleksi (əmtəə, qiymət, satış və kommunikasiya) üzrə planların işlənməsi; planların həyata keçirilməsinin təşkili və nəzarət.

MARKETİNQİN PRİNSİPLƏRİ – 1) daha yaxşı nəticələrə nail olunmasına yönələn təsərrüfat qərarlarının qəbulu zamanı tələbatların, bazarın vəziyyəti, tələb və konyunkturun dinamikasının tam nəzərə alınması; 2) istehsalın cari mənfəətə deyil, uzunmüddətli perspektivdə bazarın tələbatlarına istiqamətlənməsinin təmin olunmasına şərait yaradılması; 3) istehlakçıların əmtəə və onun fərqləndirici xüsusiyyətləri barədə məlumatlılığının təmin olunması; 4) müəssisənin istehlakçılar arasında və cəmiyyətdə nüfuzlu, sosial məsuliyyətli obrazının yaradılması və daim əməli işlə dəstəklənməsi; 5) marketinqin dəqiq müəyyən olunmuş strateji və taktiki məqsədlərinə istiqamətlənmə və s.

Marketinq prinsiplərinin reallaşması müvafiq marketinq proqramlarının işlənməsi ilə təmin olunur (bax: sxem 1).

MARKETİNQİN VƏZİFƏLƏRİ – marketinq auditi və SWOT-təhlili marketinqin vəzifələrini müəyyən etməyə imkan verir. Marketinqin vəzifələri planlaşdırma dövründə şirkətin nail olmaq istədiyi məqsədlər kimi ifadə oluna bilərlər: artım strategiyası və strateji məqsədlər. Artım strategiyaları şirkətin gələcək inkişaf istiqamətlərini göstərir: mövcud bazarlarda mövcud məhsullarla (bazarın tam əhatəsi); mövcud bazarlarda yeni/qohum məhsullarla (əmtəənin inkişafı); yeni/qohum bazarlarda mövcud məhsullarla; yeni/qohum bazarlarda yeni/qohum məhsullarla. Strateji məqsədlər müəssisənin hər bir məh-



Sxem 1

sul növü üzrə müəyyən olunmalıdır: artım, saxlama, tükənmə, yığışdırma. Müəssisənin gələcək niyyətləri onun seçdiyi artım strategiyasında və strateji məqsədlərində təzahür olunur.

MARKOVİTS (MARKOWİTZ) HARRİ MAKS (1927) – Amerika iqtisadçısı,



1990-cı ildə "Portfel investisiyalarının seçim nəzəriyyəsinin yaradılmasına görə" iqtisadiyyat üzrə Nobel mükafatı laureatıdır (M.Miller və U.Şarp ilə birlikdə).

Hesablama texnikası və riyazi proqramlaşdırma sahəsində iqtisadi proseslərə tətbiq edilən işlərinə görə Amerika Əməliyyatların Tədqiqi Cəmiyyəti və İdarəetmə Problemləri İnstitutu tərəfindən Fon Neyman mükafatına layiq görülmüşdür (1989).

Çikaqo Universitetinin iqtisad fakültəsini bitirmişdir. REND korporeyşn şirkətinin (1952, 1961-1963) və Yelsk Universiteti nəzdində Koulz Fondunun əməkdaşı (1955-1956), Birləşmiş ümumi təhlil mərkəzinin idarə heyətinin sədri və texniki direktoru (1963-1968), Los-Ancelesdəki Kaliforniya Universitetinin (1968-1969) və Pensilvaniya Universitetinin maliyyə professoru (1972-1974), Arbitraj menecment kompani şirkətinin məsləhətçisi və prezidenti (1969-1974) olmuşdur. 1974-1983-cü illərdə "Ay-Bi-Em korporeyşn" şirkətinin ştatlı tədqiqatçısı, 1980-ci ildən Ratgers Universitetinin (Nyu-Cersi ştatı) maliyyə adyunkt-professoru, 1983-cü ildən həmin universitetin iqtisadiyyat və maliyyə professoru, sonradan həm də Nyu-York Universitetinin professorudur. Bir sıra elmi cəmiyyətlərin və təşkilatların, o cümlədən Koulz Komissiyasının (Fondunun), Ekonometriya Cəmiyyətinin, Amerika Maliyyə Assosiasiyasının üzvü olmuş və digər vəzifələrdə çalışmışdır. 1982-ci ildən Amerika Maliyyə Assosiasiyasının prezidentidir.


Markovits əsas diqqəti riyaziyyatın və kompüter texnikasının praktiki iqtisadi məsələlərin, xüsusən qeyri-müəyyənlik şəraitində biznes sahəsində qərarların qəbulu ilə əlaqədar məsələlərin həllinə tətbiq edilmə-

sinə yönəltmişdir. O, sənaye fəaliyyətinin təhlilinin çoxsahəli modellərinin yaradılması üzərində aparılan iş çərçivəsində "REND korporeyşn" şirkətinin iqtisadçıları ilə əməkdaşlıq şəraitində seyrək matrislər texnikasının yaradılmasında, iqtisadi proseslərin modelləşdirilməsinə dair bir sıra problemlərin həllində, eləcə də "Simskript" proqramlaşdırma dilinin yaradılmasında iştirak etmişdir.

Portfel investisiyalarının seçim konsepsiyası ümumi şəkildə onun riyazi metodların qiymətli kağızlar bazarına tətbiqi imkanlarının öyrənilməsinə həsr edilmiş doktorluq dissertasiyasında nəzərdən keçirilmişdir. Sonralar bu konsepsiyaya görə Markovits Nobel mükafatı almışdır. Markovits öz səhmlərini yerləşdirərkən portfel investisiyalarının gözlənilən dəyərindən çıxış etməyən və qiymətli kağızların yalnız bir, ən mənfəətli növünə sərmayə qoymaq əvəzinə təkcə ehtimal olunan mənfəəti deyil, labüd riski də nəzərə alaraq sərmayə qoyuluşlarını rəngarəng etməyi üstün tutan investorların davranışının izahına çalışırdı. Markovits riyazi statistikada istifadə olunan dispersiya göstəricisini riskin dərəcəsi saymağı təklif edərək belə bir fərziyyə söyləmişdir ki, investorlar seçim edərkən risk və mənfəətin **Pareto** mənada optimal kombinasiyalarına əsaslanırlar. Markovits öz nəzəriyyəsini "Portfel seçimi: investisiyaların səmərəli diversifikasiyası" ("Portfolio selection: Efficient Diversification of İnvestments", 1959) adlı monoqrafiyasında şərh edərək risk dərəcəsinə və ehtimal olunan mənfəətə görə fərqlənən müxtəlif qiymətli kağızlara optimal şəkildə investisiya qoymağın üsullarını və bu riskin hansı qayda ilə minimuma endirilə biləcəyini göstərmişdir.

XX əsrin 50-ci illərdə Markovits xətti proqramlaşdırmaya aid bir neçə məqalə yazmışdır. O, qeyri-xətti proqramlaşdırma problemləri üzrə də fəal araşdırmalar aparır və kvadratik proqramlaşdırma metodunu portfel investisiyaları probleminə tətbiq etməyə çalışırdı. Markovits "Xətti məhdudiyyətlər qoyulan kvadratik funksiyanın optimallaşdırılması" (*"The Optimization of a Quadratic Funtion Subject to Linear Constraints"*, 1956) məqaləsində optimal portfelin hesabatı probleminin praktiki həllinin alqoritmini vermişdir (texniki mənada bu, problemin kvadratik proqramlaşdırma məsələsi şəklində ifadə edilməsi demək idi. Burada blok yaradan cədvəllər kvadratik faydalılıq funksiyasından, müxtəlif qiymətli kağızların gözlənilən mənfəətindən, qiymətli kağızların və əmanətçilərin büdcə məhdudiyyətlərinin dispersiyasından və kovariasiyasından tərtib edilmişdir). Markovitsin portfel investisiyası nəzəriyyəsinə aid işləri müasir iqtisadi təhlilin mühüm bölmələrindən biri olan maliyyə mikroanalizi aparılması üçün imkan yaratmışdır.

MARKS KARL HENRİX (MARX KARL HEİNRİCH) (1818-1883) – almaniyalı iqtisadçı alim, filosof, politoloq, sosioloq və tarixçi, I İnternasionalın – "Fəhlələrin beynəlxalq yoldaşlığı"nın (1864) banilərindən biri, elmi kommunizm nəzəriyyəsinin banisi. Trir şəhərində vəkil ailəsində anadan olmuşdur.



Fransız və alman maarifçilərinin, eləcə də XVIII əsrin axırları XIX əsrin əvvəllərində sosialist-utopistlərin ideyaları Marksın dünyagörüşünün formalaşmasına ciddi təsir göstərmişdir. 1835-1841-ci illərdə Bonn, Berlin və Vyana universitetlərində fəlsəfə və hüququ öyrənmiş, Hegel təliminin tərəfdarı olmuşdur. 1842-1849-cu illərdə Almaniyada, Fransada və Belçikada inqilabi demokratik hərəkatda fəal iştirak etmişdir. 1844-cü ildə F.Engelslə görüşmüşdür. Engels Marksın ən yaxın dostu və məsləkdaşı olmuşdur. 1849-1883-cü illərdə Marks Londonda mühacirətdə olmuşdur. Marksın "Siyasi iqtisadın tənqidinə dair" əsəri (1859) əmək-dəyər nəzəriyyəsinin, əmtəə və pulun təhlilinin şərhindən ibarətdir. Bu əsər onun nəzəri irsində mühüm rol oynayır. Əsas elmi əsəri "Kapital"dır (1-ci cild – 1867-ci il, 2-ci cild – 1885-ci il, 3-cü cild (iki hissədən ibarətdir) – 1894-cü il, üç hissədən ibarət olan "İzafi dəyər nəzəriyyələri" adlı 4-cü cild – 1905-1910-cu illər). Marksın sağlığında "Kapital"ın yalnız birinci cildi işıq üzü görmüşdür. Bu əsərin 2-ci və 3-cü cildləri Engelsin redaktəsi ilə, 4-cü cildi isə K.Kautskinin redaktəsi ilə nəşr edilmişdir.

Marks kapitalist iqtisadiyyatının tədqiqinə həsr etdiyi nəzəri işini məzlumların azad olunması uğrunda inqilabi mübarizənin davamı sayırdı. Marks Hegel fəlsəfəsinin idealist xarakterini qəbul etməyərək tarixin dialektik-materialist anlayışını işləyib hazırlamışdır. Marksa görə, sosial, siyasi və intellektual həyat prosesləri son nəticədə maddi və mənəvi nemətlər istehsalının üsulu ilə müəyyən edilir. İstehsal metodlarının daim inkişafı vaxtaşırı olaraq mülkiyyət münasibətlərinin və siyasi sistemin mühafizəkarlığı ilə ziddiyyət təşkil edir. Bu, istehsalın inkişafının əvvəlki, daha aşağı səviyyəsinin ictimai tərəqqi yolunda maneəyə çevrilməsi ilə əlaqədardır. Buna görə də Marks belə hesab edirdi ki, sosial inqilablar labüd olur. Marksa görə, ictimai-tarixi proses öz inkişafında 4 əsas mərhələdən keçmişdir – ibtidai icma quruluşu, quldarlıq, feodalizm və kapitalizm. Marks kapitalizmin iqtisadi təhlilinin spesifik metodunu yaratmış, bu istehsal üsulunun spesifikası nəzərə alınmaqla əmtəə istehsalçısının əməyinin ikili təbiəti barədə təlim formasında dialektin metodunu konkretləşdirmişdir. Marks bu metoda istinad edərək kapitalizm quruluşunun taleyini müəyyənləşdirən iqtisadi qanunları tədqiq etmişdir. Bu halda o, izafi dəyər qanununa mühüm yer verir, onu "müasir cəmiyyətin hərəkətinin iqtisadi qanunu" hesab edirdi. Marks kapitalizm sistemini iki antaqonist sinifdən ibarət olan bir sistem kimi şərh edirdi: burjuaziya – istehsal vasitələrinin mülkiyyətçisi; proletariat – yalnız işçi qüvvəsinə malik olan və istehsal vasitələrinə malik olmadığına görə salamat qalmaq üçün bu qüvvəni əmtəə kimi kapitalistlərə satmağa məcbur olan sinif. Proletariat feodal asılılığından xilas olduqdan, şəxsi azadlıq və qanun qarşısında başqa siniflərlə bərabərlik hüququ əldə etdikdən sonra kapitalizm sinfindən iqtisadi asılı vəziyyətə düşmüş və onun tərəfindən istismar obyektinə çevrilmişdir. İşçi qüvvəsini əmtəə kimi alan və onun müqabilində işçi qüvvəsinin normal təkrar istehsalı üçün zəruri vəsaitlərin məbləğinə bərabər dəyər ödəyən kapitalist alıcı hüquqlarına malik olaraq bu işçi qüvvəsinin mülkiyyətçisinə çevrilir. Fəhlə isə onun işçi qüvvəsinin qiymətindən daha artıq dəyər istehsal edir. Fəhlənin yaratdığı dəyər ilə onun işçi qüvvəsinin dəyəri arasındakı fərq kapitalist tərəfindən əvəzi ödənilmədən mənimsənilən izafi dəyər yaradır. Marksa görə, məhz bu məqam kapitalist istismarının mahiyyətini təşkil edir. Marksın təsəvvüründə kapitalizmin inkişaf meyilləri eladır ki, bu sistemin ziddiyyətləri getgedə kəskinləşir. Əməyin kapital tərəfindən istismarı güclənir. Kəndlilərin və sənətkar təsərrüfatlarının müflisləşməsi, fabrik sənayesinin inkişafı nəticəsində proletariatın sayı artır. Kapital yığımının gedişində cəmiyyətin sinfi qütbləşməsi kəskinləşir: kapitalın burjuaziyanın əlində cəmləşməsi artır, bu sinfin sərvətləri çoxalır və eyni zamanda işsizlik (və onunla əlaqədar kütlələrin yoxsulluğu) artır. Kapitalın strukturunun dəyişməsi nəticəsində istehsal vasitələrinin alınmasına sərf edilən hissə (sabit kapital) artır, işçi qüvvəsinin alınmasına sərf olunan kapitalın (dəyişən kapital) nisbi payı isə azalır. Bütün bu neqativ proseslər vaxtaşırı təkrarlanan istehsal böhranlarının təsiri altında daha da kəskinləşir. Nəticədə kapitalizm cəmiyyətinin sosial diferensiasiyası o qədər kəskinləşir ki, sosialist inqilabı kapitalizm sistemini devirir və onu yeni ictimai quruluşla – kommunizm cəmiyyətinin birinci mərhələsi olan sosializmlə əvəz edir. Marks "Kapital"ın 1-ci cildində qeyd edirdi ki, xüsusi kapitalist mülkiyyətini ləğv edən sosialist dəyişiklikləri "... kapitalizm erasının nailiyyətləri: kooperasiya və torpağa, əməyin özünün sayəsində istehsal olunmuş istehsal vasitələrinə ümumi sahiblik əsasında fərdi mülkiyyəti" bərpa edir. Marksın təsəvvüründə kommunizm sinifsiz bolluq cəmiyyəti olmalı idi. Burada insanın yaradıcı, qurucu qabiliyyətləri tam inkişaf edir.


XX əsrdə real ictimai-tarixi proses çox cəhətdən Marksın təsəvvür etdiyindən fərqli şəkildə idi. İqtisadi və siyasi proseslərin get-gedə dərinləşən qloballaşmasının, dağıdıcı dünya müharibələrinin, sürətlənməkdə olan elmi-texniki tərəqqinin və bir sıra başqa səbəblərin təsiri altında dünya kapitalizm sisteminin ziddiyyətləri o qədər özünəməxsus və istiqamətlənmiş xarakter kəsb etmişdir ki, antikapitalist inqilablar yalnız bu sistemin periferiyasında, kapitalizmin inkişafının aşağı səviy-

yədə olduğu, kənd əhalisinin çoxluq təşkil etdiyi, yeni ictimai quruluş üçün faktiki iqtisadi zəmin yaranmadığı ölkələrdə geniş vüsət almışdır. Bu tarixi təcrübənin (həm mənfi, həm də müsbət mənada) təsiri altında, eləcə də daxili ziddiyyətlər (30-cu illərdə böyük depressiya dövrünün böhranlı prosesləri, 1939-1945-ci illərin İkinci Dünya müharibəsi və bəzi başqa hallar) nəticəsində inkişaf etmiş kapitalizm ölkələrində dərin sosial-iqtisadi islahatlar geniş miqyas almışdır. Faktiki olaraq bu islahatlar postkapitalizm cəmiyyəti istiqamətində ilk addımlar idi. Beləliklə, məlum oldu ki, hər bir ölkədə kapitalist sisteminin yeni ictimai quruluşa çevrilməsinin başlanması üçün həmin ölkədə proletar inqilabı və proletariat diktaturası heç də zəruri deyil. Marksın qabaqcadan söylədiklərinin heç də hamısı doğrulmadı. Buna baxmayaraq, Y.Şumpeterin özünün "İqtisadi təhlilin tarixi" əsərində (1954) Marksın nəzəriyyəsini "Güclü analitik vasitə" kimi qiymətləndirməsi və "İqtisadi prosesin təkamülünün labüd olmasını görmək... Marksın dahi iqtisadçı adlanmaq iddiasına haqqı olması" qənaətinə gəlir. Zaman keçsə də, onun "Kapital" əsəri həmişə aktuallığını saxlayacaqdır.

Mark Blauq qeyd edir ki, Marksın böyük iqtisadçı olduğuna heç bir şübhə yoxdur. Blauqa görə, əgər biz hətta fundamental marksist sxemini və onun əsas nəticələrinin əksəriyyətini inkar etsək də, "Kapitalın" üç cildi, xüsusilə də son iki cildində müasir iqtisadçıların öyrənə biləcəkləri bir çox maraqlı misalların olduğunu qəbul etməliyik. Müəssisələrin böyüməsi, bu böyümənin nəticəsində mülkiyyətin idarəetmədən ayrılması, kapitalizm şəraitində fəhlələrin intizam metodu kimi istifadə olunan işsizlik, iqtisadi tsikllər nəticəsində əmək haqqının dəyişməsinin mahiyyəti, iqtisadi tsiklin ayrılmaz dövrilik xassəsi olan, gəlir normasına texniki tərəqqinin təsiri və s. Deməli, Marksın oxunması hələ də faydalıdır. Bəli, o, doğrudan da, qavrama üçün olduqca çətindir. Lakin onu öyrənməyə dəyər. Çünki o, öz ideyalarını məhz onların özləri naminə inkişaf etdirmişdir.

MARKSİZM – ictimai inkişafın ümumi və spesifik qanunları haqqında fəlsəfi-iqtisadi nəzəriyyə. XX əsrin ortalarında burjua cəmiyyətinin potensialı ilə yanaşı, daxili ziddiyyətləri də aktuallaşaraq inqilabi münaqişələr həddinə çatırdı. Marksizmin məqsədi fəhlə sinfinin bu cəmiyyətin hərəkətverici qüvvəsi kimi əhəmiyyətini nəzəri cəhətdən əsaslandırmaq idi. K.Marks kapitalizm dövründə fəhlə sinfinin tarixi rolunu əsas götürərək (fəhlənin əməyi istehsalın təməl daşı olan izafi dəyərin əsasıdır) bu nəticəyə gəlmişdi ki, burjua cəmiyyətinin inqilabi yolla sosializm cəmiyyətinə çevrilməsi obyektiv zərurətdir. Sosializm cəmiyyətinin əsas subyekti həmin sinif, burada dövlət isə proletariat diktaturası olmalıdır. Lakin bütövlükdə fəhlə sinfi haqqında və onlar üçün təlim olan marksizm təkcə bu funksiya hüdudlarında qalmır. Marksizm fəlsəfənin və ictimai elmlərin son nailiyyətlərini (klassik alman fəlsəfəsi, ingilis siyasi iqtisadı və sosializm) mənimsəyərək bu elmlərə çox yeniliklər gətirməyə müvəffəq olmuşdur. Cəmiyyətin tam halda öyrənilməsinə yanaşma Marksa burjua cəmiyyətinin mahiyyətini (kapital) aşkar etmək, ona xas ziddiyyətləri açıb göstərmək imkanı vermişdir. Bunun sayəsində məhsuldar qüvvələrin hərəkətində, xüsusən elmlə istehsal vasitələrinin münasibətində tarixi meyilləri proqnozlaşdırmaq mümkün olmuşdur. Fəhlə sinfi ilə burjuaziya arasında münaqişələr həddinə çatan kəskin ziddiyyətləri müşahidə edən Marksa görə, burjua cəmiyyəti inqilabi dəyişikliklər yolu ilə inkişaf edəcəkdir. Lakin bir sıra ölkələr inqilabi sarsıntılarsız, iqtisadiyyatda və siyasətdə təkamül xarakterli dəyişikliklər yolu ilə sosial-iqtisadi tərəqqiyə nail ola bilmişdir. Eyni zamanda marksizm ictimai inkişafın əsas xəttini göstərmişdir: XX əsrdə burjua cəmiyyətinin sosiallaşmasından ibarət obyektiv zərurət bütün dünyanı əhatə edən bir meylə çevrilmişdir.

Cəmiyyətə bütöv halda yanaşma Marksizmə tarixi inkişafın spesifik – bu və ya digər zaman kəsiyinə adekvat olan tarixi inkişaf qanunlarını açmağa; ictimai nəzəriyyə qarşısında duran bir sıra problemləri qaldırmağa və tədqiq etməyə; (o cümlədən əməyin özgəninkiləşdirilməsi), əmtəə fetişizmi, ideal ilə maddinin nisbəti, şəxsiyyətin formalaşması və inkişafı, subyektin tarixi və iqtisadi baxımdan spesifikasını (azadlıq, dövlət



Sxem 1

problemi) və s. aşkar etməyə imkan vermişdir. Hegelin dialektika prinsiplərinin tarixi proseslərin real mövcudluğuna şamil edilməsi buna imkan verirdi. Marksın iqtisadi nəzəriyyəyə töhfəsi xüsusi diqqətəlayiqdir. Marks materializmin "şüuru varlıq müəyyən edir" prinsipindən çıxış edərək vurğulayırdı ki, tarixin hərəkətinin əsası istehsalın sosialist formasıdır və bu hərəkətin spesifikası ictimai istehsal münasibətləri ilə şərtlənir. Buna görə də marksizm dəyərin sosial istehsal forması kimi tədqiq edilməsinə, onun əmək xarakterinə böyük əhəmiyyət verirdi. İzafi dəyər nəzəriyyəsi isə kapitalizm dövründə istehsal münasibətlərinin xarakterini ən adekvat şəkildə əks etdirirdi. Marksizm, sadəcə olaraq, ictimai inkişafın meyillərini tədqiq etməklə kifayətlənməyib, həm də inqilabi praktikaya doğru istiqamətlənmişdir. Buna görə də marksizmin nəzəriyyəçiləri (Marks, Engels, P.Lafarq, F.Merinq, V.Libknext, G.V.Plexanov, V.İ.Lenin) fəhlə sinfinin və onun öz hüquqları uğrunda mübarizənin təşkil edilməsi üçün çox işlər görmüşlər.

M.A.S.– Niderlandda 1984-cü il yanvarın 1-də təkrar sığorta pulu qismində yaradılan pul. 60-a yaxın sığortaçını və 2500-ə yaxın polisi birləşdirir.

MARŞAL (MARSHALL) ALFRED (1842-1924) – ingilis iqtisadçısı, Kembric məktəbinin




başçısı. O, 1842-ci ildə Londonda anadan olmuşdur. Kembricdəki Müqəddəs Conun Kollecinə riyaziyyat öyrənmək üçün qəbul olunan Marşal oranı "Riyaziyyat imtahanı üzrə ikinci əlaçı" kimi bitirmişdir. Bu, bakalavr dərəcəsini əla bitirmək demək idi. O, dərhal həmin kollecdə riyaziyyat müəllimi vəzifəsinə təyin olunmuşdur. 1877- ci ildə

Marşal 5 il ərzində Bristoldakı Yuniversiti – kollecin (indiki Bristol Universiteti) rektoru və siyasi iqtisad professoru vəzifəsində, 1 il Oksfordda Bellilol Kollecinin əməkdaşı kimi çalışmışdır. 1885-ci ildə Kembricə siyasi iqtisad professoru kimi qayıdan Marşal 1908-ci ildə təqaüdə çıxmış, onun yerini isə ən görkəmli tələbəsi Piqu tutmuşdur.

1879-cu ildə nəşr olunmuş "Beynəlxalq ticarətin xalis nəzəriyyəsi" və "daxili qiymətlərin xalis nəzəriyyəsi" adlı ilk traktatlarında o, Con Stüart Millin bəzi ideyalarını dəqiq qrafiklərə çevirmişdir. Bu işlər Marşalın dəyər nəzəriyyəsinə heç bir istinad olmadan marjinalist əsaslarına yiyələnməsini göstərir.

Onun nəzəriyyəsinin əsasları "İqtisad elminin prinsipləri" əsərində (1890) şərh edilmişdir. Bu nəzəriyyə erkən marjinalizmin nailiyyətlərini ümumiləşdirmiş və neoklassik siyasi iqtisadın əsasını qoymuşdur. Marşal marjinalist son faydalılıq doktrinası ilə C.Mak-Kulloxun və R.Torrensin istehsal məsrəfləri nəzəriyyəsini tam halında sintez etməklə, həm də müxtəlif iqtisadi hadisələrin funksional təhlili bazasında müasir makroiqtisadiyyatın təməlini qoymuşdur. Marşal qiymətlərin formalaşmasının bazar mexanizmini təhlil edərək tələb və təklifin qiymətə təsirinin nəzərdən keçirilən zaman kəsiyindən asılı olmasını müəyyənləşdirmişdir (qısamüddətli dövrdə əsas qiymətyaratma amili tələb, uzunmüddətli dövrdə isə təklifdir). Marşalın tədqiqatlarında onun işləyib hazırladığı tələbin elastikliyi konsepsiyası da mühüm yer tutur. Bu konsepsiyada tələb üç əsas amildən: son faydalılıq, bazar qiyməti və istehlak üçün istifadə edilən pul gəlirindən asılı olaraq nəzərdən keçirilir. Son faydalılıq (maksimal qiymət) bazar qiymətinin dəyişmələrinin yuxarı həddidir. Əgər bu halda tələb qiymətdən daha çox dəyişərsə (ilkin qiymətlərə nisbətə faizlə), o, elastik tələb hesab edilir. Marşal ideyaları əmtəə bazarlarının tətbiqi araşdırmalarının geniş axınına yol açmışdır. Marşalın təvazökarlıqla keçmişin nailiyyətləri adlandırdığı, lakin iqtisadi nəzəriyyəni əhəmiyyətli dərəcədə zənginləşdirən xidmətləri arasında bunları qeyd edə bilərik: qismi müvazinətin təhlili, bazar dövrü, qısa dövr və uzun dövr arasında fərq; tələb əyrilərinin mükəmməlləşdirilmiş təhlili, tələbin qiymət üzrə elastikləşdirilməsi ideyası; müvazinətin şərti stabilliyi, uzunmüddətli tələb əyriləri ilə rəqabət arasında ziddiyyətin qəbul edilməsi və nəticədə rəqabətin iqtisadi rifah halının maksimallaşdırıla bilməməsi qənaətinə gəlməsi. Kvazirenta anlayışı və s. bu ideyalardan bəziləri hazırda inkar olunur, bəziləri isə o qədər dəyişdirilmiş və mükəmməlləşdirilmişdir ki, onların marjinalist mənbəyi hiss olunur.

MARŞAL "XAÇ"I – bazarda qarşılıqlı əlaqə vəziyyətində tələb və təklif əyrilərinin qiymət amilinə nisbətən qrafik vəziyyəti (tələb və təklif əyrilərinin kəsişmə nöqtəsi tarazlaşmış bazar qiymətini göstərir). Qeyriməhdud rəqabət şəraitində təsir göstərən bazar mexanizminin




tələb və təklifin qiymətdən asılılığını müəyyən edir. Qiymətin hərəkəti də öz növbəsində tələb və təklifin nisbəti ilə müəyyən edilir.

MARŞAL PLANI (ing. *Marshall Aid, Marshall Plan*) – 1939-1945-ci illər İkinci Dünya müharibəsindən sonra Amerikanın Avropaya iqtisadi yardımı yolu ilə Avropanın bərpa edilməsi proqramı. Bu proqram 1947-ci ildə ABŞ-ın dövlət katibi Corc K.Marşal tərəfindən təklif edilmişdir. Proqram 1948-ci ilin aprel ayında qüvvəyə minmişdir. Marşal planının reallaşdırılmasında Avropada iqtisadi əməkdaşlıq üzrə komitə yaratmış 16 Avropa dövləti iştirak edirdi. Sonradan həmin komitə Avropada iqtisadi əməkdaşlıq təşkilatına çevrilmişdir. Bu təşkilat ABŞ-ın iqtisadi əməkdaşlıq administrasiyası ilə birlikdə bərpa proqramını idarə



edirdi. Marşal planının 17-ci iştirakçısı Qərbi Almaniya idi. Marşal planı Amerika yardımının həm birbaşa malgöndərmələr formasında, həm də dövlət əsaslı vəsait qoyuluşları layihələrinin maliyyələşdirilməsi üçün borclar formasında təqdim edilməsini nəzərdə tuturdu. Marşal planının həyata keçirilməsinin qızğın dövründə iştirakçı ölkələr milli gəlirin 3-4%-i həcmində yardım alırdı. Marşal planı müharibədən sonrakı dövrdə Qərbi Avropanın inkişafında böyük rol oynamışdır. 1951-ci ildə o eyni zamanda həm iqtisadi, həm də hərbi yardım göstərilməsini nəzərdə tutan qarşılıqlı təhlükəsizliyin təmini haqqında qanunla əvəz edilmişdir.

MARŞAL-LERNER ŞƏRTİ (ing. *Marshall-Lerner condition*) – bu şərt belədir: əgər idxal edilən məhsullara ümumi daxili tələbatın qiymət elastikliyi ilə ixrac edilən məhsullara xaricdə tələbatın qiymət elastikliyinin cəmi vahiddən böyük, yerli məhsulların təklif elastikliyi isə vahidə yaxındırsa, onda



[PUBLIC LAW 472]
[CHAPTER 169]

S. 2202

THE WHITE HOUSE RECEIVED APR 3 - 1948

DEPARTMENT OF STATE RECEIVED APR 3 1948 PM LEGAL BRANCH

Eightieth Congress of the United States of America


At the Second Session

Begun and held at the City of Washington on Tuesday, the sixth day of January, one thousand nine hundred and forty-eight

AN ACT

TITLE I

Marşal planının orijinal mətninin birinci səhifəsi



Marşal planı əsasında yardım edilmiş ölkələr (1948-ci il)

1. Hollandiya
2. Belçika
3. Qərbi Almaniya
4. Şərqi Almaniya
5. Lüksemburq
6. İsveçrə
7. Lixtenşteyn
8. Avstriya
9. Macarıstan
10. Çexoslovakiya
11. Albaniya
12. Bolqarıstan

valyutanın devalvasiyası tədiyə balansının cari maddələrini yaxşılaşdırır (həmçinin bax: Tələbin elastikliyi, Təklifin elastikliyi).

MARTINOV VLADLEN ARKADYEVİÇ (1929-2008) – rus iqtisadçısı. 1952-ci ildə Leninqrad Dövlət Universitetini bitirmiş, 1952-1955-ci illərdə LDU-nun aspiranturasında təhsil almışdır.



1955-1957-ci illərdə Leninqrad Mühəndis-İqtisad İnstitutunun siyasi iqtisad üzrə baş müəllimi olmuşdur. 1957-ci ildən SSRİ EA Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunda (DİBMİ) kiçik elmi işçi, 1961-ci ildən həmin institutda böyük elmi işçi, 1962-ci ildən aqrar problemlər sektorunun müdiri, 1971-1989-cu illərdə DİBMİ-nin direktor müavini, 1989-cu ildən bu institutun direktorudur. Martınov RF prezidenti yanında ekspert-analitik (1993), BMT Universitetinin (Tokio, 1982-1996), RF hökuməti yanında ekspert (1992), RF XİN yanında xarici siyasət şuralarının (1993), RF Təhlükəsizlik Şurası yanında elmi şuranın və idarələrarası komissiyanın (1997), eləcə də Avropa Elm, İncəsənət və Mədəniyyət Akademiyasının (Paris) üzvü (1994) olmuşdur.

SSRİ EA müxbir üzvü (1987), Rusiya EA həqiqi üzvüdür (1994).

Martınov dünya inkişafının əsas meyillərinin; təsərrüfat strukturlarının və mülkiyyət münasibətlərinin təkamülünün; kapitalın təkrar istehsalı, aqrar münasibətlər, keçid iqtisadiyyatının problemlərinin öyrənilməsi, əsas xarici ölkələrin sosial-iqtisadi inkişafının proqnozlaşdırılması; müasir dövrün qlobal problemlərinin tədqiqi; Rusiya iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya yollarının müqayisəli təhlili sahəsində tanınmış mütəxəssisdir.

Martınov "Dünya inkişafının yolları və Rusiyanın dirçəlişi", "Rusiya və dünya XXI əsrin astanasında" adlı fundamental kompleks ümumakademik tədqiqat proqramlarının, Almaniya, ABŞ və Yaponiyanın elmi mərkəzləri ilə birgə həyata keçirilən "İqtisadi inkişafın nəzəriyyəsi və praktikası" mövzusunda bir sıra beynəlxalq layihələrin rəhbərlərindən biridir.

"Oktyabr inqilabı", "Qırmızı Əmək Bayrağı" ordenləri və bir sıra medallarla təltif edilmişdir. SSRİ Dövlət Mükafatı laureatıdır (1977).

MASKİN ERİK (1950) – Amerika iqtisadçısı. Harvard Universitetinin bakalavrı (1972), magistri (1974), fəlsəfə doktorudur (1976).



Massaçuset Texnoloji İnstitutunda (1977-1984), Harvard Universitetində (1985-2000) dərs demişdir. 2003-cü ildə Ekonometriya cəmiyyətinin prezidenti olmuşdur. 2007-ci ildə optimal mexanizmlər nəzəriyyəsinin hazırlanmasına görə Nobel mükafatına layiq görülmüşdür.

O həmçinin oyunlar nəzəriyyəsi və iqtisad elmində riyazi metodların tətbiqi problemləri ilə də məşğul olmuşdur. "Konseptual iqtisadi nəzəriyyə" (1994), "Neşin tarazlığı və optimal rifah halı" (1999), "Planlaşdırma, defisit və transformasiya" (2000) kimi əsərlərin müəllifidir.

MASLOUNUN MOTİVASİYA NƏZƏRİYYƏSİ – nəzəriyyənin müəllifi: Abraham Maslou (1908-1970), Amerika psixoloqu. O, insanların tələbatında zamandan asılı fərqləri izah etməyə çalışmışdır. Bu alimin fikrincə, insanın bütün tələbləri onların həmin şəxs üçün əhəmiyyətinin dərəcəsinə görə müəyyən iyerarxik sistemdə yerləşir. Bu, **Maslou piramidası** adlanır.

Maslou tələblərin əhəmiyyətinin səviyyəsi piramidasında insanın tələblərini aşağıdakı ardıcıllıqla yerləşdirmişdir: 1) təbiətən müəyyən olunan fizioloji, vital tələbat; 2) özünü qoruyub saxlamaq tələbatı; 3) sosial tələbatlar; 4) özünə hörmət edilməsi tələbatı; 5) özünün özünə hörmət etməsi tələbatı.

İnsan ilk növbədə onun üçün birinci dərəcəli, həyati əhəmiyyətli tələbatı təmin etmək istəyir. Bu tələbatlar təmin olunduqdan sonra onlar artıq hərəkətverici motiv kimi çıxış etmir və insan əhəmiyyətinə görə daha yüksək tələbatın təminatına çalışır. Beləliklə, insanın ehtiyacları qeyri-məhduddur. Bəzi ehtiyacların təmini əhəmiyyətinə görə növbəti tələbatları təmin etmək cəhdinin əsasını qoyur.

MAŞININ SINMASINDAN SIĞORTALANMA – sığorta-

nın obyekti maşınlar, avadanlıq və alətlərdir. Sığortalanmış maşınların, mexanizmlərin, avadanlığın və alətlərin qəfildən sınması və qüsuru; adətən, yalnız sığortalı personalın və üçüncü şəxslərin səhvləri və ehtiyatsızlığı və digər səbəblər nəticəsində sığortalanmış əmlakın məhv edilməsi və xarab olmasından yaranan birbaşa itkilər ödəməyə məruz qalır.

MATERİAL EHTİYATLARI – şirkətin malik olduğu mal ehtiyatlarıdır, proqnozlaşdırılmamış istehsal tərəddüdləri və ya satış həcmləri üçün zəruridir. Belə ehtiyatlar investisiya formalarından biridir, bilərəkdən və bilməyərəkdən yaradıla bilər.

MATERİAL ŞƏHADƏTNAMƏ – xidmətin təqdim olunduğu mühitə, xidmətlərin irəliləməsinə və məhsuldarlığın artırılmasına imkan yaradan, material dəlillərə aidiyyəti olan marketinq xidmət kompleksinin elementi.

MATERİAL-İSTEHSAL EHTİYATLARI – bu xammal, materiallar, tara, komplektləşdirici məmulatlar, yanacaq. İstehsalın bir əməliyyatında istifadə olunur, çünki özlərinin bütün dəyərlərini hazırlanan məhsula ötürürlər. Bu da daim müəssisədən yeni material qiymətlilərinin əldə olunmasını, köhnələrinin təzələnməsini tələb edir. Hazır məhsulun dəyəri, bitməmiş sex istehsalının qalıqları, azqiymətli və tezköhnələn predmetlər də material-istehsal ehtiyatları sırasına aid edilir.

MATERİALLAR VƏ DÖVRİYYƏ FONDLARININ EHTİYATLARI – Milli Hesablar Sisteminin 2008-ci il standartlarına uyğun olaraq ona aşağıdakılar daxil edilir: xammal və materiallar; bitməmiş istehsal (becərilən bitməmiş istehsal, digər növ bitməmiş istehsal); hazır məhsullar; hərbi ehtiyatlar; təkrar satış üçün mallar; yarımfabrikatlar.

MAVİ DAŞLAR – çox məşhur və nüfuzlu səhmlər, yaxud qiymətli kağızlar. Adətən, bu investisiya kateqoriyasına düşən səhmdar şirkətlər əldə etdikləri gəlirlərin və ödədikləri dividentlərin sabitliyinə və öz fəaliyyətlərinin səmərəsinə görə fərqlənirlər. Bu şirkətlərin səhmləri yüksək səviyyədə pula çevrilmələri ilə xarakterizə olunur. Termin kazinoların yüksək qiymətə malik mavi daşlarının analoqu kimi yaranmışdır. Bəzi ölkələrdə, o cümlədən Rusiyada mavi daşlar kimi daha iri, etibarlı neft, qaz, energetika və telekommunikasiya şirkətlərinin səhmləri çıxış edir.

MAVİ GÖYLƏR QANUNU (ing. *blue-sky law*) – ABŞ-da qiymətli kağızlar bazarındakı möhtəkirliyə qarşı yönəldilmiş qanunlar.

MAYA DƏYƏRİ – istehsalın cari xərclərinin və məhsulun reallaşmasının pulla ifadəsi. Maya dəyərinə daxil olan və vergiyə cəlb olunan mənfəətin (gəlirin) dəqiqləşdirilməsi zamanı nəzərə alınan məsrəflərin tərkibi qanunvericiliklə müəyyən olunur. Maya dəyəri xərclərinə aiddir: maddi (material) xərclər, qaimə xərcləri, əmək haqqı, amortizasiya və s. Maya dəyərinin aşağıdakı növləri fərqləndirilir: bazis maya dəyəri – cari və ya plan dövründə maya dəyərinin hesablanmasının əsası kimi götürülən keçmiş dövrün maya dəyəri; fərdi maya dəyəri – konkret məmulat növünün hazırlanmasına çəkilən məsrəflərin məbləği; daşımaların maya dəyəri – bu və ya digər nəqliyyat növünün işinin spesifikliyi ilə əlaqədar yüklərin (məhsulun) nəql edilməsi xərcləri; cari realizə olunmuş məhsulun maya dəyəri – bərpa olunmuş məhsulun maya dəyəri üzrə, yəni müəyyən məqamda onun istehsalı və istehlakı üçün zəruri olan məsrəflərin cəmində realizə olunmuş həmin məhsulun qiymətləndirilməsi; texnoloji maya dəyəri – məhsulun hazırlanmasında və xidmətlərin göstərilməsində texnoloji prosesin təşkilinə çəkilən xərclərin cəmi; faktiki maya dəyəri – müəyyən müddət ərzində maya dəyərinin bütün maddələri üzrə verilmiş faktiki məsrəflər əsasında müəyyən olunan faktiki və ya hesabat maya dəyəri (bax: sxem 1).

MAYE VƏ SIXILMIŞ QAZ – Maye qaz, əsasən, propan-butan qazlarının mayeləşməsindən alınır. Propan və butan, o cümlədən onların qarışıqları atmosfer təzyiqində çox asanlıqla maye halına keçirir. Qazlardakı bu xüsusiyyət qaz sənayesinin ayrıca bir sahəsinin yaranmasına səbəb olmuşdur. Propan-butan qarışığı adi otaq temperaturunda 3-5 atmosfer təzyiqində maye halındadır. Daha dəqiqi, propan üçün 25 selsi hərarət və 10 atmosfer təzyiq, butan üçün eyni hərarətdə 2 atmosfer təzyiq lazımdır ki, onlar maye halına keçsinlər. Butan-propan qarışığının istilik-



Sxem 1

vermə qabiliyyəti metan qazından üç dəfə yüksəkdir. Propan və butan qazalin, o cümlədən neftayırma zavodlarında istehsaldan keçərək alınır. Belə sıxılmış qaz maye qaz adlanır və xüsusi hermetik balonlara yığılaraq istehlak olunur. Bundan başqa, təbii metan qazını sıxmaqla maye halına gətirmək mümkündür. Bunun üçün onun soyudulmasına ehtiyac vardır. Soyutma prosesində ammiak və etilen kimi reagentlərdən istifadə olunur. Təbii metan qazının sıxılmasında **drosselləmə** metodundan istifadə olunur. Drosselləmə qazın maye seli kanalının daralmış hissəsindən keçərkən təzyiqin azalması effektidir. Bu metoddan, əsasən, qazların mayeyə çevrilməsində istifadə olunur. Maye qaz ətraf mühitin hərarətindən asılı olaraq ya buxarlanır, ya da maye halına keçir. Qaz halına keçdikdə 230-270 dəfə öz həcmini artırır. Bu propan-butan qaz qarışığının 1 m^3-in orta istiliktörətmə qabiliyyəti 25 min kilokalori təşkil edir. Maye qazdan səmərəli istifadə etmək üçün qazın temperaturu mənfi 20-250 selsiyə qədər aşağı salınır və onun tərkibinə tələb olunan qədər hava vurmaqla, hava-qaz qarışığından ibarət təbii qazı əvəz edən yanacaq qazı alınır. Alınan qaz istiliktörətmə qabiliyyətinə görə fərqlənmir. Bu hava-qaz qarışığını istənilən mümkün ərazidə xüsusi qurğularda istehsal edərək mövcud qaz şəbəkələrinə vermək mümkündür.

MAYERSON ROCER (1951) – Amerika iqtisadçısı. Harvard Universitetinin bakalavrı (1973), magistri (1973), fəlsəfə doktorudur (1976). 1982-ci ildən professordur.



2001-ci ildən Çikaqo Universitetinin professorudur. 2007-ci ildə optimal mexanizmlər nəzəriyyəsinin hazırlanmasına görə Nobel mükafatına layiq görülmüşdür.

MEDİKEYT – ABŞ-da əhalinin ayrı-ayrı kateqoriyalarına tibbi xidmət üzrə federal proqramdır ki, burada sosial sığortanın əlavə proqramı və uşaqları olan natamam ailələrə şamil olunur.

MEDİO – birja sazişlərinin ayın ortasına yerinə yetirilmə müddəti.

MEHBALIYEV SƏTTAR SULİDDİN OĞLU (1955) – Azərbaycan iqtisadçısı. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun mühasibat uçotu fakültəsini bitirmişdir.



1973-cü ildən Bakı şəhərində dəmir-beton məmulatı zavodunda qəlibçi işləmişdir. 1976-1980-ci illərdə Bakı İstehsalat Tikiş Birliyində fəhlə, əmtəəşünas, mühəndis-iqtisadçı, baş mühasibin müavini, 1980-1993-cü illərdə Avtonəqliyyat və Şose Yolları İşçiləri Həmkarlar İttifaqı respublika Komitəsinin müfəttiş təlimatçısı, şöbə müdiri, sədri vəzifələrində çalışmışdır.

1993-cü ildən Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının sədridir.

II, III və IV çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatıdır.

Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü kimi iqtisadi qanunvericilik bazasının təkmilləşdirilməsi işində fəal iştirak edir.

MEHDİYEV CAVANŞİR MEHDİ OĞLU (1930-2009) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. əməkdar elm xadimi.

1967-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun müdafiə şurasında namizədlik, 1976-cı ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1982-ci ildə ona professor elmi adı verilmişdir.

C.Mehdiyev 4 monoqrafiyanın,



220-dən artıq elmi məqalənin, dərs vəsaitlərinin müəllifidir. Onun rəhbərliyi altında 10 iqtisad elmləri namizədi hazırlanmışdır. Tədqiqat obyekti elmi kommunikasiya sistemindən istifadə etməklə elmi-texniki tərəqqinin nailiyyətlərinin xalq təsərrüfatına tətbiqi, iqtisadi sosiologiya, xalq təsərrüfatının sosial-iqtisadi inkişaf problemləri kimi sistemlərin yaradılması və təkmilləşdirilməsini əhatə edir. Onun əsərlərində yeni elmi cərəyanın – iqtisadi informatikanın anlayış aparatı inkişaf etdirilmiş, idarəetmənin sosial amilləri, idarəetmə qərarlarının təminatı öyrənilmişdir.

1992-ci ildə Azərbaycan Elmi Tədqiqat Elmi-Texniki İnformasiya və Texniki-İqtisadi Tədqiqatlar İnstitutunun direktoru təyin edilmişdir.

MEHDİYEV İMRAN ƏZİM OĞLU (1936) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1968-ci ildə Azərbaycan Politexnik İnstitutunda dissertasiya müdafiə edərək texnika elmləri namizədi, 1990-cı ildə Moskva şəhərində "Kapital qoyuluşunun və yeni texnikanın effektivliyi" ixtisası üzrə dissertasiya müdafiə edərək iqtisad elmləri doktoru alimlik dərəcəsini almışdır.



100-ə yaxın əsərin, o cümlədən bir neçə monoqrafiyanının, dərs vəsaitinin müəllifidir. Partiya və dövlət vəzifələrində çalışmışdır. 1979-1988-ci illərdə Naxçıvan MSSR-in Nazirlər Sovetinin sədri, 2000-2008-ci illərdə Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinin direktoru olmuşdur.

Hazırda Azərbaycan Memarlıq və İnşaat Universitetində kafedra müdiridir.

MEQAEKONOMİKA (interekonomika) – dünya təsərrüfatı.

MEQA-MARKETİNQ – siyasi qüvvələrə və ictimai rəyə təsir.

MEQAPOLİS – ətrafdakı yaşayış məskənlərinin də udulması nəticəsində yaranmış çoxmilyonlu əhalisi olan nəhəng şəhər.

MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ – respublikada su ehtiyatlarının idarə olunması, istifadəsi və mühafizəsi digər aidiyyəti dövlət orqanları ilə qarşılıqlı şəkildə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilir.

Azərbaycan quru iqlimə malik (arid) zonada yerləşdiyinə görə burada kənd təsərrüfatının inkişafı həmişə süni suvarma aparmaqla mümkün olmuşdur. Ölkədə su ehtiyatlarının qıtlığı, onların bölgələr üzrə qeyri-bərabər paylanması və əsas əkinçilik bölgələrində torpaqların şorlaşmaya meyilli olması meliorasiya və suvarma işlərini zərurətə çevirmişdir. Bununla əlaqədar, genişmiqyaslı meliorasiya və irriqasiya işləri həyata keçirilmişdir.



Böyük meliorasiya layihələri icra edilib. Bir neçəsi neçə ildir ki, icra edilir. Taxtakörpü, Şəmkirçay layihələri böyük vəsait tələb edən layihələrdir. 2012-ci ildə bu layihələr qismən Dövlət Neft Fondunun xətti ilə, qismən dövlət büdcəsinin vəsaiti hesabına icra ediləcəkdir. Orada da işlər cədvəl üzrə gedir. Mən bu məsələni daim diqqətdə saxlayıram. 2012-ci ildə də bu iki böyük layihənin icrası davam etdiriləcəkdir.

İlham Əliyev
16.01.2012

Ölkə ərazisinin əksəriyyəti – 2850,6 min hektarı daimi bitkilər (bağlar, üzümlüklər, tinglikər, çay plantasiyaları), otlaqlar və biçənəklər altında olan torpaqlardır. Cəmi 1,674 milyon hektar sahə şumlanılaraq istifadə olunur.

Azərbaycan qədim suvarma əkinçiliyi diyarıdır. Suvarılan torpaqlar ölkənin kənd təsərrüfatına yararlı torpaq sahələrinin üçdə birini (1424 min hektar) təşkil etsə də, ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının 90%-ə qədəri bu torpaqlardan götürülür.

Suvarılan torpaqların təxminən üçdə birindən çoxu (559 min hektarı) mexaniki üsulla, o cümlədən 350 min hektar elektrikləşdirilmiş, 68 min hektar dizel nasos stansiyaları ilə, 141 min hektarı isə subartezian quyuları vasitəsi ilə suvarılır.

Azərbaycanda suvarma əkinçiliyinin əsas inkişafına XX əsrin birinci yarısından başlanılmışdır. Əgər 1913-cü ildə cəmi 550 min hektar ərazi suvarılırdısa, sonrakı illərdə aparılmış meliorativ tikinti işləri hesabına onların həcmi 2010-cu ildə 1424 min hektara çatdırılmışdır ki, hazırda bunun 125,8 min hektarı işğal altındadır.

Azərbaycan Respublikasının su ehtiyatları olduqca məhduddur. Yerüstü su ehtiyatları 32,2 mlrd. m^3 təşkil edir və quraqlıq illərdə 22,6 mlrd. m^3-ə qədər azalır. Yeraltı suların miqdarı 5,2 mlrd. m^3-dir. Ölkədə orta illik su çatışmazlığı 4,5-5 mlrd. m^3 arasında dəyişir. Yerüstü su ehtiyatlarının 70%-i ölkə hüdudlarından kənarda formalaşır.

Respublikada hər il bütün su mənbələrindən orta hesabla 10-12 mlrd. m^3 su götürülür ki, onun da 65-70 %-i kənd təsərrüfatının, 20-25 %-i sənayenin, qalan hissəsi isə təsərrüfat və içməli suya olan tələbatın ödənilməsi üçün istifadə olunur.

Azərbaycanda meliorasiya və su təsərrüfatına rəhbərlik məqsədi ilə 1920-ci ildə Azərbaycan SSR Xalq Torpaq Komissarlığı nəzdində su şöbəsi, 1925-ci ildə isə Azərbaycan SSR Ali İqtisadi Şurası nəzdində Azərbaycan Su Təsərrüfatı İdarəsi (Azvodxoz) yaradılmışdı.

O, 1941-ci ildən Azərbaycan Su Təsərrüfatı Xalq Komissarlığı, 1946-cı ildən Azərbaycan SSR Su Təsərrüfatı Nazirliyi, 1966-cı ildən isə Azərbaycan SSR Meliorasiya və Su Təsərrüfatı Nazirliyi adlandırılmışdı.

1993-cü ildə onun adı dəyişdirilərək Respublika Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsi, 2004-cü ildən Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi adlandırılmış, 2006-cı ilin fevralından isə bütün səhmləri dövlətə məxsus olan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə çevrilmişdir.

Cəmiyyətin Nizamnaməsi və Strukturu Azərbaycan Respublikası Nazirlər Kabinetinin



Samur-Abşeron kanal-baş sudurulducu qurğu

2006-cı il 17 iyun tarixli, 149 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-yə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən sədr rəhbərlik edir. Sədrin Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təyin edilən 3 müavini vardır.

Səhmdar cəmiyyətinin aparatı 84 nəfərdən ibarətdir. Onun strukturuna Bakı şəhərində və respublikanın rayonlarında yerləşən 134 idarə və təşkilat daxildir. Meliorasiya və su təsərrüfatı sistemində 22 min 300 nəfər işçi çalışır.

Meliorasiya və su təsərrüfatı ölkə iqtisadiyyatının, əsasən də kənd təsərrüfatının inkişafında mühüm rol oynayır. Suvarmaya yararlı 3,2 milyon hektar sahənin təxminən yarısı, yəni 1,425 milyon hektarı suvarılan torpaqlardır. Suvarılan torpaqlar daimi mühəndisi suvarma və kollektor-drenaj şəbəkələri ilə təchiz edilmişdir ki, bu da həmin ərazilərdən yüksək və sabit məhsul götürülməsinə əsaslı zəmin yaratmışdır. Ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının 90%-ə qədəri suvarılan torpaqlardan əldə edilir.



Yuxarı-Qarabağ kanalının baş portal qurğusu

Ölkədə hazırda ümumi sututumu 21,5 mlrd. m^3 olan 135 su anbarı, 19 hidroqovşaq, 51,8 min km suvarma kanalı, 31,7 min km kollektor-drenaj şəbəkəsi, 921 nasos stansiyası, 7279 subartezian quyusu, 118 min müxtəlif hidrotexniki qurğu, 2073 km-dən artıq sel və daşqınlardan mühafizə bəndləri, 1025 min ha qış otlaq sahələrinin su təminatına xidmət edən 2930 km uzunluğunda boru xətləri və digər mühüm dövlət əhəmiyyətli su təsərrüfatı sistemləri və qurğuları istismar olunur.

Respublikada həyata keçirilən islahatlar nəticəsində "Meliorasiya və irriqasiya haqqında", "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" qanunlar, "Azərbaycan Respublikasının Su Məcəlləsi" və digər normativ-hüquqi sənədlər işlənib hazırlandı. Ölkədə 1997-ci il yanvarın 1-dən mərhələ-mərhələ sudan pullu istifadəyə keçilməsinə, könüllülük prinsipi əsasında torpaq mülkiyyətçiləri və su istifadəçiləri tərəfindən Sudan İstifadəedənlər Birliklərinin yaradılmasına başlanıldı. Bu günədək 547 sudan istifadəedənlər birlikləri yaradılmışdır. Aqrar islahatlar nəticəsində ləğv edilmiş kolxoz və sovxozların balansında olmuş və sahibsizlik, baxımsızlıq üzündən istismara yararsız vəziyyətə düşmüş da-

... Suvarma layihələri də böyük əhəmiyyət daşıyır. Bu da kənd təsərrüfatının inkişafı, işsizliyin aradan qaldırılması üçün vacib rol oynayır. Böyük meliorasiya layihələri icra edilib... Taxtakörpü, Şəmkirçay layihələri böyük vəsait tələb edən layihələrdir. 2012-ci ildə bu layihələr qismən Dövlət Neft Fondunun xətti ilə, qismən dövlət büdcəsinin vəsaiti hesabına icra ediləcəkdir... Biz digər meliorativ layihələrə də vəsait ayırmalıyıq. Yəni, bu ikisi qlobal layihədir. On minlərlə hektar yeni əkin sahələri dövriyyəyə veriləcəkdir. Bununla bərabər, kiçikhəcmli meliorasiya layihələrinə də diqqət yetirilməlidir.

İlham Əliyev

xili təsərrüfat şəbəkələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, Meliorasiya və Su Təsərrüfatı Komitəsinin (indiki Səhmdar Cəmiyyətinin) balansına götürüldü və onların təmirbərpasına başlanıldı. Ölkə iqtisadiyyatı üçün daha vacib olan tikintisi yarımçıq qalmış bir sıra obyektlərin, o cümlədən Baş Mil-Muğan kollektorunun tikintisinin, Samur-Abşeron suvarma sisteminin yenidənqurulmasının və Naxçıvan MR-də Vayxır su anbarının tikintisinin birinci növbədə maliyyələşdirilməsi qərara alındı.

Baş Mil-Muğan kollektorunun 59 km-lik birinci hissəsinin (qol kollektorları ilə birlikdə 90 km) tikintisi 1994-cü ildə tamamlanmış, İslam İnkişaf Bankının krediti ilə 52,7 km uzunluğunda ikinci hissəsinin tikintisi 1998-2000, Dünya Bankının krediti ilə 3-cü və sonuncu 31 km-lik hissəsinin qurğularla tikintisi 2002-2006-cı illərdə həyata keçirilmişdir.

Xarici investisiyalar və dövlət büdcəsindən ayrılmış vəsait hesabına Samur-Abşeron suvarma sisteminin yenidənqurulması layihəsi tərkibində uzunluğu 67,2 km olan Xanarx kanalının tikintisi 2001-2006, Samur çayı üzərində baş su ötürücü qurğunun, Samur-Abşeron kanalının Vəlvələçay çayına qədər olan 50 km-lik hissəsinin və 188 km uzunluğunda təsərrüfatlararası kanalların yenidənqurulması 2001-2007, Naxçıvan MR-də Vayxır su anbarının tikintisi isə 2002-2006-cı illərdə yerinə yetirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il noyabr ayının 8-də Taxtakörpü su anbarının, 2009-cu ilin may ayının 25-də Şəmkirçay su anbarının SES-lə birlikdə tikintilərinin təməlqoyma, 2010-cu il aprel ayının 29-da Cəlilabad rayonunda tikintisi başa çatdırılmış Göytəpə su anbarının və 15 avqust 2011-ci il tarixində Samur-Abşeron suvarma sisteminə daxil olan və İslam İnkişaf Bankının, Səudiyə İnkişaf və OPEC Fondlarının krediti ilə tikintisinə 2007-ci ildə başlanılmış sərfi saniyədə 75 m^3 olan Vəlvələçay-Taxtakörpü kanalının 10,7 km-lik birinci mərhələsinin açılış mərasimlərində iştirak etməsi, Taxtakörpü su anbarında tikintinin gedişi ilə tanış olması onun bu sahəyə olan diqqət və qayğısının bariz nümunəsidir.

Müstəqilliyimizin 20 ili ərzində sahəyə əsaslı kapital qoyuluşu 135 dəfəyə yaxın artmışdır ki,

Sudan istifadə sahələri



Qrafik 1

Azərbaycan Meliorasiya və Su Təsərrüfatları ASC-nin strukturu



Sxem 1

bunun da nəticəsində mövcud meliorasiya və irriqasiya obyektlərinin istismarı xeyli yaxşılaşmış, sahənin maddi-texniki bazası gücləndirilmiş, geniş miqyasda bərpa, yenidənqurma və tikinti işləri yerinə yetirilmişdir.

Dövlət büdcəsindən əsaslı vəsait qoyuluşu hesabına Şəmkir rayonunda Şəmkirçay, Tovuz rayonunda Tovuzçay su anbarlarının tikintisi, Hacıqabul rayonunda Pirsaat, Şamaxı rayonunda Zoqalavaçay su anbarlarında əsaslı təmir, Hacıqabul rayonunun Muğan, Padar qəsəbələrində və Qarasu kəndində torpaq sahələrinin suvarılmasını təmin etmək məqsədi ilə Hacıqabul magistral kanalının, Yuxarı Mil kanalının, Neftçala magistral kanalının nasos stansiyası ilə birlikdə və s. obyektlərin tikintisi davam etdirilmişdir. Bərdə, Tərtər, Ağdam, Ağstafa, Şəmkir, Biləsuvar, Saatlı və digər rayonlarda torpaqların şorlaşmasının qarşısının alınması üçün 10000 hektar sahədə qrunt sularının səviyyəsinin aşağı salınması tədbirləri həyata keçirilmişdir.

Dövlət Neft Fondunun vəsaiti hesabına Samur-Abşeron suvarma sisteminin yenidənqurulması kompleksinə daxil olan 2006-cı ildən ümumi sututumu 268 mln. m^3 olan Taxtakörpü su anbarının (SES-lə birlikdə) və uzunluğu 110 km, sərfi saniyədə 40 m^3 olan Taxtakörpü-Ceyranbatan kanalının tikintisi hazırda müvəffəqiyyətlə davam etdirilir.

Dünya Bankının krediti ilə 140 min hektar suvarılan sahələrə xidmət edən Araz çayı üzərindəki Bəhrəmtəpə hidroqovşağının, həmçinin respublikanın 9 rayonunun və Naxçıvan MR-in (Babək və Şərur rayonları) təxminən 52 min hektar ərazisində suvarma-paylayıcı sistemlərinin təmir-bərpa işləri 2004-2010-cu illərdə həyata keçirilmiş, 2011-ci ildən isə respublikanın daha 15 rayonunda 85000 hektar ərazidə təsərrüfatdaxili suvarma-drenaj şəbəkələrinin təmir-bərpa işlərinə başlanılmışdır.

Asiya İnkişaf Bankının krediti ilə 2006-2008-ci illərdə respublikanın 11 rayonunun sel və daşqın təhlükəli çaylarında və Naxçıvan MR-in Şərur rayonunda Araz çayında 34089 pm uzunluğunda sahilbərkitmə işləri yerinə yetirilmişdir.

2010-cu ildə baş verən daşqınlardan sonrakı dövrdə Kür-Araz çaylarında sel və daşqınların qarşısının alınması üçün qısa müddətdə 597 km uzunluğunda torpaq mühafizə bəndləri əsaslı şəkildə bərpa edilmişdir. Hazırda Araz çayının suyunun bir qismini birbaşa Xəzər dənizinə axıdılması üçün yeni qolun tikintisi işləri aparılır.

Dünya Bankının krediti ilə 2009-cu ildən respublikanın 8 rayonunda (Şabran, Siyəzən, Ağsu, İsmayıllı, Masallı, Cəlilabad, Lerik və Yardımlı) layihə sənədləri hazırlanmaqla su təchizatı və kanalizasiya sistemlərinin tikintisi və yenidənqurulması işlərinə başlanılmışdır.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən ölkə əhalisinin çörək və çörək məhsullarına olan tələbatını daxili istehsal hesabına təmin etmək üçün respublikanın 9 rayonunun (Beyləqan, Ağcabədi, Ağdam, Saatlı, Salyan, Sabirabad, Qax, Şəki və Hacıqabul) az məhsuldar 230 min hektardan artıq qış otlaq və dövlət torpaq fondu ərazilərində, o cümlədən birinci növbədə 67,1 min hektar sahədə müəyyən edilmiş kompleks meliorativ tədbirlərdən Yuxarı Mil, Hacıqabul magistral kanallarının tikintisi davam etdirilir, Sabirabad, Salyan, Saatlı və digər rayonlarda isə bu məqsədlə layihə sənədləri hazırlanır.

"2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na əsasən, 2011-ci ildə Suraxanı, Sabunçu, Xəzər və Abşeron rayonlarının 16 qəsəbə və kəndlərində əkin və həyətyanı sahələrin su təminatının yaxşılaşdırılması tədbirlərinin həyata keçirilməsinə başlanılmışdır.

Ümumiyyətlə, dövlət büdcəsindən əsaslı vəsait qoyuluşu hesabına müstəqilliyimizin 20 ili ərzində əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədi ilə respublikanın müxtəlif rayonlarında, əsasən də münaqişə zonası ilə həmsərhəd ərazilərdə 651 ədəd subartezian quyusu qazılıb istifadəyə verilmiş, 199567 pm uzunluğunda suvarma kanalları və 731078 pm kollektor-drenaj şəbəkəsi tikilmiş və bərpa edilmiş, 32605 hektar sahədə torpaqların su təminatının və 36696 hektar sahədə meliorativ vəziyyətinin yaxşılaşdırılması tədbirləri həyata keçirilmiş, çaylarda sel və daşqın təhlükəsinin qarşısının alınması üçün 65236 pm mühafizə dambası tikilib istifadəyə verilmişdir.

MEMORANDUM (lat. *memorandum* – nəyi yadda saxlamaq lazımdır) – 1. Yaddaş vərəqi, yaddaş üçün qeyd. 2. Beynəlxalq münasibətlərdə müzakirə olunacaq məsələlərin siyahısı. 3. Diplomatik sənəd olub, notaya əlavə olunaraq onun məzmununu ifadə edir və ya müstəqil olaraq imzasız, möhürsüz təqdim olunur.

MEMORİAL ORDER – mühasibat uçotunda təsərrüfat əməliyyatlarının qeydə alınması üçün istifadə olunan sənəd. Orada orderin nömrəsi, tarixi, yazılış məzmunu, məbləği, debitor və kreditor hesablar qeyd olunur. Memorial order xüsusi blankda tərtib olunur və baş mühasib tərəfindən imzalanır. Memorial orderlərin özləri də jurnal orderlərdə qeydə alınır və baş kitabın işlənməsində istifadə olunur.

MEN (MUN) TOMAS (1571-1641) – ingilis iqtisadçısı, yetkin merkantilizmin klassiki. O,



"İngiltərənin sərvətləri xarici ticarətdə və ya bizim xarici ticarət balansımız bizim sərvətimizin tənzimləyicisi kimi" adlı əsərində (1664) sübut etmişdir ki, ölkədə pulun miqdarının artırılmasına onların ölkədən çıxarılmasının yasaqlanması yolu ilə deyil, xarici ticarətin aktiv balansı hesabına, yəni ixracın idxaldan çoxluğu hesabına nail olmaq mümkündür. Men ticarət balansı doktrinasını ifadə etmişdir. Bu doktrinada əsas çıxış nöqtəsi kimi xarici ticarətdə həyata keçirilən "P-Ə-P" dövriyyəsi mühüm məqamdır (Davanzatti monetarizmindən fərqli olaraq, bu halda tədavül vasitəsi olan pul deyil, dünya pulunun səmərəli formasında pul kapitalı ön plana keçir). Adam Smit Menin qeyd olunan əsərini yüksək qiymətləndirmiş, lakin merkantilist ideyalarına müvafiq olmaqla pulun kapitalla eyniləşdirilməsini səhv hesab etmişdir.

MENECER (ing. *manager* – idarə edən) – istehsalın idarə edilməsi və təşkili üzrə peşəkar biliklərə malik muzdlu idarəedən, idarəetmə üzrə mütəxəssis. Menecer firmada işi qurur və onun əməkdaşlarının istehsal fəaliyyətinə rəhbərlik edir. Menecer firmanın orta və yüksək rəhbər heyətinə daxildir.

MENECERLƏRİN MİLLİ ASSOSİASİYASI İNDEKSİ – özündə sifarişləri, məhsulları, məşğulluğu, maddi-istehsal ehtiyatlarını, ixrac və idxalın qiymətini cəmləşdirir. Bu kateqoriyaların hər biri üçün indekslər 50%-dən yuxarı və aşağı kimi müəyyən edilir. 50%-dən yuxarı istehsalın artımından, aşağı isə azalmadan xəbər verir. ABŞ-da ümumi indeks 4000 şirkətin məlumatları əsasında hər ayın ilk iş günü dərc olunur. İşgüzar fəallıq indeksi kimi də qəbul olunur.

MENECMENT (ing. *management* – idarə, idarəetmə) – idarəetmə elminin son nailiyyətlərindən bəhrələnməklə istehsalın və işçilərin idarə edilməsinin prinsiplərinin, formalarının, metodlarının, üsullarının və vasitələrinin məcmusu. Menecmentin əsas məqsədi – istehsalın yüksək səmərəliliyinə nail olmaq, müəssisənin, firmanın, şirkətin resurslarından səmərəli istifadə etmək; müəssisənin, firmanın fəaliyyətinə rəhbərlik etməkdir. Menecment rəhbər orqan sistemidir.

MENECMENT NƏZƏRİYYƏLƏRİ (ing. *theories of management*) – menecmentin əsas prinsipləri, metodları və funksiyaları haqqında elmi biliyin formaları. Klassik menecment nəzəriyyələri bunlardır:

F.Teylor və H.Fordun elmi menecmentinin əsasları (bax: Teylorizm).

D.Makqreqorun "X nəzəriyyəsi" və "Y nəzəriyyəsi".


F.Hersberqin motivasiyalı gigiyena nəzəriyyəsi.

R.Laykertin təşkilati model sistemləri və K.Arcirisin qrup halında təlim nəzəriyyəsi.

A.Maslounun tələblərin iyerarxiyası nəzəriyyəsi (bax: Maslounun motivasiya nəzəriyyəsi).


Ədalət, istək və möhkəmlənmə nəzəriyyəsi.

MENECMENTİN PRİNSİPLƏRİ – idarəetmənin təcrübi vəzifələrinin qurulması zamanı fəaliyyət göstərən idarəetmə sisteminin müxtəlif strukturları (elementləri) arasında əlaqələrin (münasibətlərin) ümumi qanunauyğunluqlarıdır. Menecmentin prinsipləri obyektivdir, yəni ayrı-ayrı şəxslərin iradə və arzusundan asılı deyildir. Menecmentin aşağıdakı əsas prinsiplərini ayırırlar: mərkəzləşmə və mərkəzsizləşmənin optimal ahəngi; məqsədin dəqiq qurulması; idarəetmə qərarının hüquqi cəhətdən əsaslandırılması; hüquq, öhdəlik və məsuliyyətin uyğunlaşdırılması; komandanın vahidliyi (bax: sxem 1, 2).



Sxem 1

Mərkəzləşmə və mərkəzsizləşmənin optimal ahəngi prinsipi – idarəetmə nərdivanının hər pilləsində müəyyən qərarların qəbul olunması üçün səlahiyyətlərin bölüşdürülməsi problemidir. Təşkilatın siyasətinin (məqsəd və strategiyasının) işlənməsinə aid qərarların mərkəzləşdirilmiş, operativ idarəetmə üzrə isə qərarların mərkəzsizləşdirilmiş olduğu yanaşma optimaldır. Mərkəzləşmə zamanı aşağı operativ-təsərrüfat halqası (sərbəstliyə malik olan funksional bölmə) qərarların qəbulu hüququnu əldə edə bilər. Vahid tamlıq kimi çıxış edən təşkilatın bütün idarəetmə səviyyələrində fəaliyyətinin yüksək səviyyədə əlaqələndirilməsi mühüm yer tutur. Mərkəzləşmə və mərkəzsizləşmənin ahəng prinsipi idarəetmədə təkbaşına rəhbərliyi və kollegiallığı bacarıqla birləşdirə bilər. Təkbaşına rəhbərlik təşkilatın və ya bölmənin ali rəhbərinə qərarların qəbulu üçün zəruri olan tam hakimiyyət və tapşırılan iş üçün şəxsi məsuliyyət verir. Kollegiallıq müxtəlif səviyyəli rəhbərlərin, əsasən isə konkret qərarların icraçıları olan müxtəlif bölmələrin rəhbərlərinin mülahizələrinin uçotu əsasında kollektiv qərarları işləməyə imkan verir. Kollegiallıqla qəbul olunan qərarların obyektivliyi, onların əsaslandırılması bu şərtlərin uğurla yerinə yetirilməsinə səbəb olur. Etiraf etmək lazımdır ki, kollegial qərarların qəbulu fərdi qərarlara nisbətən daha zəifdir. Qərarların qəbulunun kollektivliyi kolle-



Sxem 2

giallığın növlərindən biridir.
Məqsədin prinsipi: menecmentdə məqsəd problemi mərkəzidir, o, hərəkəti müəyyən edir, tənzimləyir. Əsas qanun, idarəetmə təsirinin bütün tərəflərini özünə tabe edən mürəkkəb davranış alqoritmidir. İstehsal (əsasən dövlət) idarəetməsi strateji vəzifələrin həlli ilə yanaşı, öz arasında əlaqəli olan təşkilati, elmi, sosial və iqtisadi vəzifələrin böyük kompleksini həll etməyə də yönəlir. Məqsədin prinsipi insanın bütün fəaliyyət növlərinə şamil olunur; məqsədi və onun nail olması ilə əldə ediləcək nəticələri bilmədən istənilən hərəkət, istənilən əməl iflasa məhkumdur və ya ciddi münaqişə yarada bilər.
İdarəetmə qərarının hüquqi müdafiəliyi prinsipi rəhbərlərdən hüquqi savad – qanunları, normativ aktları bilmə, idarəetmə qərarlarının ancaq onların hüquqi əsaslandırılmasını nəzərə almaqla qəbulunu tələb edir.
Komandanın vahidliyi prinsipi idarəetmə iyerarxiyasında hər bir vəzifəyə konkret hüquqlar verməyə, onların üzərinə müəyyən funksiyaların yerinə yetirilməsi öhdəliyini qoymağa şərait yaradır.
Müasir menecmentin əsas prinsiplərindən biri mülkiyyətin idarə olunmasının korporativ təşkilinə əsaslanan idarəetmənin demokratikləşməsidir.
MENGER (MENGER) KARL (1840-1921) – Avstriya iqtisadçısı, **Avstriya siyasi iqtisad məktəbinin** və faydalılıq həddi nəzəriyyəsinin banisi, "marjinalist inqilab"ın liderlərindən biri. Faydalılıq həddi nəzəriyyəsinin əsas prinsipləri Menger



tərəfindən "Siyasi iqtisadın əsasları" əsərində (1871) ifadə edilmişdir. Mengerə görə, müəyyən nemətin faydalılıq həddi iki amillə müəyyən edilir – fərdi istehlakın intensivliyi və bu nemətin nadirliyi (və ya onun mövcud ehtiyatı) ilə. Ehtiyatın həcminin müəyyən qiymətində istehlakın intensivliyi nə qədər çoxdursa, fərd həmin neməti bir o qədər yüksək qiymətləndirir, bu nemətin faydalılıq həddi bir o qədər böyükdür. Əksinə, istehlakın intensivliyi nə qədər az olarsa, səmərəli subyektin faydalılıq həddinə verdiyi qiymət bir o qədər aşağı olur. Başqa sözlə desək, ehtiyatın həcmi faydalılıq limitinə təsir göstərir. Əgər ehtiyatın həcmi azalarsa, istehlakın intensivliyinin müəyyən qiymətində nemətin faydalılıq həddi artır. Nemətlərin miqdarı artdıqda isə faydalılıq həddinin fərdi qiyməti azalır. Menger tərəfindən müəyyən edilmiş asılılıq faydalılıq həddinin azalması qanunu adı ilə məşhurdur.
MENTALİTET – bu və ya digər cəmiyyətdə fərdi və kollektiv şüurun səviyyəsi, o cümlədən fərdlərin və ya qrupların fikirlərini, hisslərini müəyyən edən, onların gerçəkliyi qavramasına, davranışına təsir göstərən şüuraltı məqsədlərin məcmusu. Mentalitet həm də bütövlükdə xalqa xas olan ən əhəmiyyətli və dərin cizgiləri səciyyələndirir, dövlət və ictimai quruluşun, iqtisadi münasibətlərin və mədəniyyətin xüsusiyyətlərini müəyyənləşdirir. Mentalitet müxtəlif amillərin kompleks qarşılıqlı təsiri əsasında yaranır. Bu amillərin tarixən ən birinciləri müəyyən mənəvi dəyərlər kompleksindən ibarət olan, xalqın dəyərlər sistemini formalaşdıran, adətlərin və psixoloji istəklərin xüsusiyyətlərində təzahür edən dini təsirdir. Bu istəklər də öz növbəsində ictimai əxlaqın və mülki qanunvericiliyin normalarının yaranmasını determinə edir. Bu və ya digər ölkənin bütün tarixi prosesi xalqın mentalitetinin formalaşmasına təsir göstərir. Milli mentalitet tarixi təkamülə məruz qala bilər. Lakin dərk edilmiş səviyyədə nəzərəçarpacaq dəyişikliklər baş verir və bir qayda olaraq, bu dəyişikliklər qeyri-şüurinin səviyyəsi ilə münaqişəyə girərək ictimai şüurda böhrana səbəb olur. Mentalitetin tərkib hissələri olan müxtəlif səviyyələrin münaqişəsi onun əsas funksiyasının – fərdin davranış dominantının motivasiyasının səmərəliyini azaldır. Sosial səviyyədə bu, xalqın milli bənzərsizliyinin nivelirlənməsinə, sosial təsirin oriyentirlərinin itirilməsinə və nəticə etibarı ilə ictimai tərəqqinin ləngiməsinə gətirib çıxarır. Münaqişə vəziyyəti yeniləşdirilmiş şüurlu təsəvvürlərin tədricən təkamül etməsi yolu ilə aradan qaldırıla bilər. Bu təkamül prosesi şüuraltı məqsədlərlə istiqamətlənir. Lakin o, müəyyən çərçivələrlə – milli mentalitet sərhədləri ilə məhdudlaşır. Şərq və Qərb mentalitetləri lap əvvəldən iki qütb kimi birbirinə qarşı qoyulur. Qərb men-

taliteti çərçivəsində Qərb sivilizasiyasının rəmzinə çevrilmiş daimi yeniləşmə və tərəqqiyə meyil hiss olunur. Bu sivilizasiyanın inkişafının nəticəsi müasir dövrdə elmin sistematik tərəqqisinin, cismani salamatlığın, maddi-nemətlər istehsalının texniki-təşkilati əsaslarının yaradılmasıdır. Qərb mentalitetinin xarakterik cəhəti fərdin cəmiyyətdən fərqləndirilməsidir. Vətəndaş cəmiyyəti və fərdlərin vətəndaş hüquqları Qərb cəmiyyətinin əsas dəyəridir. Mentalitetin nəzəri modeli hələ A.Smit dövründən öz qüvvələrinə güvənən müstəqil "iqtisadi insanlar"dır. İnkişafa təkan verən amillər onunla əlaqələndirilir. Qərbin təsərrüfat mədəniyyətinin ayrılmaz tərkib hissəsi – "müqəddəs və toxunulmaz" olan xüsusi mülkiyyətdir. Fərd dövlət dəstəyini və dövlət müdaxiləsini qismən təkzib etməklə öz mülkiyyətini özünün əməyi hesabına artırır. Cəmiyyətin sağlamlığı onun hər bir üzünün rifahı vasitəsilə əldə edilir. Buna görə də fərdiyyətçilik əsas məqsədlərin həyata keçirilməsini təmin edən bütün sosial sistemin ayrılmaz tərkib hissəsidir.

Şərq mentaliteti kanonik mədəniyyət əsasında yaranır. Bu halda mənəvi-əxlaqi başlanğıclara, insanın təbiətlə həmahəng inkişafına, maddi nemətlərin talan olunmamasına istinad edilir. Sivilizasiyanın əsası sayılan dövlət cəmiyyətdə qayda olmasını, ənənələrin qorunub saxlanmasını təmin etməklə bərabər, özü də bu nizama əsaslanır. Bu halda başlıca məqsəd coşqun inkişafın təmin edilməsi deyil, sabitlikdir. Dövlət inkişafın təmin olunmasına da təhrik edir. Cəmiyyətlə dövlət arasında münasibətlərin formulu sosial kompromisdir. Bu halda dəyər əmək deyil, xidmətdir, yəni insana nəzərən kənar şərtlərin təsiri nəticəsində ictimai zərurət hər bir fərdin tələbatının təminatının bir növüdür. Cəmiyyət dövlətə xidmət edir. Dövlət də öz növbəsində cəmiyyətin harmonik (ahəngdar) inkişafını – sosial əmin-amanlığı təmin edir. İqtisadi münasibətlər də bu əlamətlər əsasında qurulur.

MENYU XƏRCLƏRİ – qiymətlərin tez-tez dəyişməsi nəticəsində satıcının çəkdiyi xərclər. Qiymətlər dəyişən zaman satıcı qiymət lövhələrini dəyişir və mətbəə xərcləri çəkir.

MERÇANDAYZİNQ (ing. *merchandising*) – malların pərakəndə satış üçün hazırlanması, vitrinlərin, piştaxtaların, ticarət zalının hazırlanması. Ticarət və satış işlərində əmtəələrin satışının intensivləşdirilməsinə yönəldilən kompleks marketinq tədbirləridir.

MERKANTİLİST BEYNƏLXALQ TİCARƏT NƏZƏRİYYƏSİ – beynəlxalq ticarətin nəzəriyyələri sırasında ilk dəfə yaranan merkantilist nəzəriyyə olmuşdur. O XVI əsrdə yaranmış və XVIII əsrə qədər davam etmişdir. Bu nəzəriyyənin tərəfdarları yalnız məhsulun ixracını iqtisadi cəhətdən məqsədəuyğun hesab edir və əməyin beynəlxalq diferensiasiyası nəticəsində istifadə edilən məhsulun idxalından əldə edilən səmərəni qəbul etmirdilər. Bu səbəbdən merkantilistlər əmtəə və xidmətlər (xammaldan başqa) idxalını məhdudlaşdırmağa və hazır məhsulların ixracını təşviq etməyə, sərvətlər (qızıl) axınına nail olmağa, bütün zəruri məhsulları öz dövlətləri çərçivəsində istehsal etməyə çalışırdılar. Ölkəyə qızıl axını hesabına ticarət balansının müsbət saldosu ilkin kapital yığımı imkanlarını artırmağa şərait yaradır, bununla da iqtisadi artıma, tam məşğulluğa və ölkənin firavanlığına gətirib çıxarırdı.

Bu konsepsiyanın əsas mənfi cəhəti ondan ibarətdir ki, merkantilistlərin təsəvvürləri hələ də orta əsrlər səviyyəsində idi. Yəni onlar belə hesab edirdilər ki, əmtəə mübadiləsi əqdlərində ixracatçı ölkələrin iqtisadi səmərəsi idxalatçı ölkələr üçün iqtisadi ziyana gətirib çıxarır.

Merkantilistlərin nəzəriyyəsinin əsas məziyyəti onların fəal surətdə həyata keçirdiyi ixracın və aktiv proteksionizmin dəstəklənməsi siyasətidir. Lakin bu, yerli inhisarçıların dəstəklənməsi ilə bağlıdır.

Rusiyada merkantilizmin və proteksionizmin ən qatı tərəfdarı I Pyotr olmuşdur: o, xarici ticarətdə idxal üçün yüksək rüsumlar tətbiq edir, xüsusən sənayedə yerli inhisarçılara üstünlük verirdi.

MERKANTİLİZM (ing. *mercantilism*) – ilkin kapital yığımı dövründə yeni yaranmaqda olan ticarət-sənaye burjuaziyasının iqtisadi nəzəriyyəsini və iqtisadi siyasətini özündə əks etdirən ilk siyasi iqtisad məktəbi.


Merkantilizm XVI əsrdə yaranmış və XVIII əsrin axırlarına qədər inkişaf etmişdir. A.Smit özünün "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında

tədqiqat" adlı əsas əsərində (1776) merkantilizmi kəskin tənqid etmişdir. Merkantilizm, əsasən, Qərbi Avropa ölkələrində – İngiltərə, Fransa, İspaniya, İtaliya və Portuqaliyada geniş yayılmışdır. Merkantilizmin ən görkəmli nümayəndələri və onların əsas əsərləri aşağıdakılardır: İngiltərədə – Uilyam Stafford, "Həmvətənlərimizin bəzi şikayətlərinin tənqidi şərhi" (1581); Tomas Men, "İngiltərənin xarici ticarətdə sərvəti və ya bizim xarici ticarət balansımız sərvətimizin tənzimləyicisidir" (1664); Ceyms Stüart, "Siyasi iqtisadın əsasları barədə tədqiqat" (1767); İtaliyada Antonio Serra, "Qiymətli metal mədənlərindən məhrum olan krallıqların qızıl və gümüşlə təchiz edilməsi vasitələri barədə qısa traktat" (1613); Fransada Antuan de Monkretyen, "Krala və kraliçaya həsr edilmiş siyasi iqtisad traktatı" (1615, "Siyasi iqtisad" terminine ilk dəfə bu əsərdə rast gəlmək olar); Jan Batist Kolber, "Məktublar, sənədlər və xatirələr", 8 cilddə (1861-1882).

Merkantilizm nəzəriyyəsinin bəzi elementlərinə I Pyotrun müasiri olmuş rus iqtisadçısı İ.T.Posoşkovun "Xəsislik və varlılıq haqqında kitab" əsərində rast gəlmək olar.

Merkantilizm baxımından iqtisadi nəzəriyyənin predmeti tədavül sahəsidir. İqtisadi hadisələr təsvir metodu ilə nəzərdən keçirilir. Merkantilizmin nümayəndələri iqtisadi hadisələrin və proseslərin zahiri görünüşü ilə onların mahiyyəti arasında fərq qoymur, yeni yaranmaqda olan kapitalist iqtisadiyyatının daxili qanunauyğunluqlarını araşdırmırdılar. Bu, merkantilizm nəzəriyyəsinə iqtisad elminin başlanğıcı kimi yanaşmağa əsas verir. Bununla belə, merkantilizm iqtisadi təfəkkürü orta əsrlərdə ona xas olan dini formadan azad etməklə və kapital, əmtəə, ticarət balansı, qiymət, ixrac, idxal

Merkantilizm sistemi



Sxem 1

və başqa mühüm iqtisadi anlayışları işləyib hazırlamaqla iqtisad elminin formalaşmasına sanballı töhfələr vermişdir.

Merkantilizmin nümayəndələri bütün iqtisadi problemləri tədavül sahəsinin həlledici rolu baxımından tədqiq edir, dəyərin pul formasını ön plana çəkirdilər. Məsələn, onlar ölkənin sərvətini pul və qiymətli metallarla eyniləşdirirdilər. Lakin xəzinə toplayanlardan fərqli olaraq, merkantilistlər pulu yalnız mənfəət gətirdiyi, yəni kapital rolunda çıxış etdiyi dərəcədə sərvət hesab edirdilər. Beləliklə, merkantilizmin nəzəriyyəçiləri sərvətin maddi-əşyavi məzmunu ilə onun yalnız kapitalizm cəmiyyətinə xas olan sosial-iqtisadi forması arasında ciddi fərq qoyurdular. Merkantilizm nəzəriyyəsinə görə, sərvətin mənbəyi istehsal deyil, tədavül sahəsi və ticarətdir. İstehsalı isə merkantilistlər təsərrüfat həyatının xüsusi və həlledici sahəsi deyil, tədavül məqamı kimi təsəvvür edirdilər.

Merkantilizmin nümayəndələri başa düşürdülər ki, ölkədə nəcib metalların miqdarının artması daxili əmtəə dövriyyəsi nəticəsində baş verə bilməz, çünki bu dövriyyə prosesində pulun ümumi məbləği artmır, sadəcə olaraq, pul bir əldən başqa ələ keçir. Merkantilistlərin nəzərincə, ölkənin sərvətinin mənbəyi yalnız xarici ticarətdir. Özü də bu halda söhbət yalnız aktiv ticarət balansına əsaslanan xarici ticarətdən gedir. Yəni ixrac idxaldan artıq olmalıdır, onların arasındakı fərq isə ölkəyə nəcib metallar gətirilməsi yolu ilə ödənilməlidir. Merkantilizmin bu mövqeyində belə bir tarixi fakt öz əksini tapmışdır ki, Amerikanın və başqa ərazilərin müstəmləkələşməsi nəticəsində Avropaya külli miqdarda, nisbətən ucuz nəcib metalların axını "qiymət inqilabı" ilə nəticələnmişdir. Bu inqilabın gedişində əmtəələrin qiymətləri əməyin qiyməti ilə müqayisədə daha sürətlə artır, bu isə kapital yığımı üçün həqiqətən əlverişli şərait yaradırdı. Digər tərəfdən, nəcib metalların miqdarının artması əmtəə münasibətlərinin və bununla birlikdə kapitalizmin inkişafına şərait yaradırdı, çünki pulun qıtlığı ticarətin inkişafını ləngidirdi.

Merkantilizmin iqtisadi nəzəriyyəsi, əslində, ölkəyə nəcib metallar axınının təmin edilməsinə dair tövsiyələr işləyib hazırlamaqdan ibarət idi. Əvvəlcə bu nəzəriyyə pul balansı konsepsiyası və ya monetar sistem idi. Bu halda pul yalnız tədavül vasitəsi hesab olunur və iqtisadi nəzəriyyə inzibati hüquqi və digər qeyri-iqtisadi tədbirlərə oriyentasiya edilirdi (çox vaxt bu tədbirlər kifayət qədər sərt olurdu, məsələn, İspaniyada XVII əsrə qədər qızılın və gümüşün ixrac edilməsi qadağan olunmuşdu və bu qadağanı pozanları ölüm cəzası gözləyirdi). Merkantilizmin inkişafı ticarət balansı konsepsiyası (və ya manufaktura sistemi) ilə təmsil edilmişdir. Merkantilizmin inkişafında bu yetkin mərhələnin xüsusiyyəti ondan ibarət idi ki, pul kapital (əsasən ticarət kapitalı) sayılır və ölkəyə qiymətli metallar axını aktiv ticarət balansı əsasında iqtisadi vasitələrlə təmin edilirdi.

Merkantilizmin klassiki Tomas Menin yuxarıda adı çəkilən əsərində aktiv ticarət balansının təmin edilməsinə, o cümlədən idxal mallarının istehlakının azaldılmasına, idxalı əvəzləyən istehsalın inkişafına, istehsalında İngiltərənin inhisarçı mövqe tutduğu malların qiymətinin artırılmasına, bu cür inhisarın olmadığı ingilis mallarının qiymətinin azaldılmasına yönəlmiş geniş tədbirlər sistemi işlənib hazırlanmışdı. Məqsəd əcnəbi tacirləri bazarlardan sıxışdırıb çıxarmaq və ingilis mallarının satışını genişləndirmək, həmin malları İngiltərənin öz gəmiləri ilə daşımaqdan ibarət idi. Bu təkcə həmin malların satışından mədaxil əldə etməyə deyil, həm də onların daşınmasına görə fraxt (kirə), eləcə də sığorta məsrəflərini (İngiltərənin sığorta şirkətləri tərəfindən) əldə etməyə imkan verərdi. Merkantilizm siyasətində ən mühüm aspekt ilk növbədə ixrac yönümlü milli sənayenin hər vasitə ilə təqdir edilməsi, ucuz xammal idxalı, idxal edilən sənaye məhsullarına yüksək himayəçi tariflər tətbiq edilməsi, əmək haqqının artımının məhdudlaşdırılması, fəhlələrin əmək haqqının həm qanunverici tədbirlər vasitəsi, həm də demoqrafik siyasətin köməyi ilə məhdudlaşdırmaq idi.

"MERKOSUR" – Latın Amerikasının iri və daha dinamik ticarət-siyasi ittifaqına 200 mln. əhalisi və 1 trln. dollar ÜMM ilə Argentina, Braziliya, Paraqvay və Uruqvay tərkibli Cənubi Amerika ümumi bazarı aid edilir. Qitənin əhalisinin 45%-i, məcmu ÜDM-in 50%-dən ço-



"MERKOSUR"un üzvləri
"MERKOSUR"un assosiasiyalaşdırılmış üzvləri

xu, birbaşa xarici investisiyaların 40%-i, məcmu mal dövriyyəsi həcminin 60%-dən çoxu və Latın Amerikası ölkələrinin xarici ticarət həcminin 33%-i burada cəmlənmişdir. "MERKOSUR"un yaradılması haqqında 1991-ci ildə bağlanmış müqavilə ilə perspektivdə dörd ölkə arasında qarşılıqlı ticarətdə bütün rüsum və tarif məhdudiyyətlərinin ləğvi, üçüncü ölkələrə münasibətdə vahid gömrük tarifinin müəyyən olunması, kapital və işçi qüvvəsinin sərbəst hərəkəti, sənaye, kənd təsərrüfatı, nəqliyyat və rabitə sahəsində siyasətin əlaqələndirilməsi, valyuta-maliyyə sahəsində strategiyanın razılaşdırılması nəzərdə tutulurdu.

1994-cü ilin yanvarında "MERKOSUR"un iştirakçı dövlətləri gömrük ittifaqına doğru hərəkət proqramını qəbul etdi və qarşılıqlı ticarət dövriyyəsinin 85%-nin istənilən tarif məhdudiyyətlərindən tam azad olunması üzrə müddət müəyyən etdilər. "MERKOSUR"un yaradılması haqqında razılaşma həmçinin 2000-ci ilə qədər malların əksər hissəsinə qeyri-tarif məhdudiyyətlərinin ləğvini də nəzərdə tutur (silah və döyüş texnikası, radioaktiv materiallar, qiymətli metallar, milli mədəni sərvət əşyaları ilə ticarət istisna olunmaqla).

İnteqrasiya prosesinə rəhbərlik üçün idarəetmənin alt orqanları yaradıldı: xarici işlər nazirləri tərkibində ümumi bazar şurası; daimi fəaliyyət göstərən, Montevideoda mənzil-qərargahı olan icraiyyə orqanı ümumi bazar qrupu; ümumi bazar qrupuna tabe olan 10 texniki komissiya, bunların funksiyası xarici ticarət, gömrük tənzimlənməsi, texniki normalar, valyuta-maliyyə və makroiqtisadi siyasət, quru və dəniz nəqliyyatı, sənaye texnologiyaları, kənd təsərrüfatı və energetika məsələləridir. İştirakçı ölkələr arasında ticarət mübahisələrinin həlli məqsədilə xüsusi tribunalın yaradılması üçün tədbirlər də görülür.

"MERKOSUR"un fəaliyyət nəticələri, gömrük ittifaqının yaradılmasının başa çatmamasına baxmayaraq, inteqrasiya qruplaşmasının müəyyən uğurlarından xəbər verir. 1991-1997-ci illərdə blokdaxili ixracın həcmi təxminən dörd dəfə artıb, eyni vaxtda inteqrasiya qruplaşmasının iştirakçı dövlətlərinin məcmu ixracı bu dövr ərzində 30%-dən çox artmışdır. Bu zaman "MERKOSUR"dan malların ümumi ixracının həcmində blokdaxili ixracın payı elə bu müddət ərzində 9%-dən 20%-ə qədər artmışdır. "MERKOSUR" çərçivəsində qarşılıqlı iqtisadi əlaqələrin genişlənməsi üçüncü ölkələrdən olan xarici investisiyalara da şamil olunur. Məsələn, "Tayota motors" yapon korporasiyası Argentinada avtomobilqayırma zavodunun qurulmasına təxminən 100 mln.

dollar qoyaraq, bu ölkədə il ərzində 20 min pikap-yük maşını istehsal etmək istəyir. Bu avtomobillərin yarısını Braziliya müəssisələri tərəfindən istehsal olunan komplektləşdirici məmulatların əvəzinə Braziliyaya aparmaq nəzərdə tutulur. "MERKOSUR"da inteqrasiya prosesləri iştirakçı ölkələr arasında çətinlik və ziddiyyətlərlə yanaşı inkişaf edir. Belə ki, onlar ilkin olaraq nəzərdə tutulan müddətdə – 1 yanvar 1995-ci ildə regiondaxili ticarətdə tariflərin tam ləğvi haqqmda razılaşmaya gələ bilmədilər. Onlar, həmçinin müəyyən olunan müddətdə üçüncü ölkələrdən malların idxalına vahid xarici tarifləri də razılaşdıra bilmədilər. Payına "MERKOSUR"un üzv ölkələrinin ümumi MMM-nun 90%-inin düşdüyü Argentina və Braziliya öz ölkələrində yaradılan sənayenin yüksək tex - noloji sahələrinin kompüter və telekommunikasiya avadanlığı istehsalının xarici rəqabətdən müdafiəsinə xüsusi diqqət yetirir. Xüsusən 90-cı illərin ortalarında Braziliya üçüncü ölkələrlə ticarətdə elektron, neft-kimya sənayesi və ağır maşınqayırma məhsullarına 35% səviyyəsində, Argentina 12%, Uruqvay və Paraqvay isə Argentina və Brazi - liyadan texniki asılılıqdan ehtiyat edərək, minimal idxal rüsumunun tətbiq edilməsi lehinə çıxış etmişdir.

Analitiklər "MERKOSUR"un perspektivini əlverişli kimi qiy - mətləndirirlər. Bu qruplaşmanın iştirakçı dövlətlərinə gələcək in - kişaf yollarında əhəmiyyətli ziddiyyətlərə üstün gəlmək, iqtisadi potensiallarda əhəmiyyətli fərqi aradan qaldırmaq, hələ bu yaxınlara qədər avtoritar rejimin hakimiyyəti və ABŞ korporasiyalarının güclü təsiri altında olan Latın Amerikası regionunun spesifikası şəraitində dövlətin tənzimləyici rolu ilə bazar mexanizmlərinin optimal ahəngini tapmaq lazımdır.

MERSYE DE LYA RİVER (Mercier de la Riviere) Pol Pyer (1720-1793) – fransız iqtisadçısı, fiziokratlar məktəbinin nəzəriyyəçisi. XVIII əsrin 60-cı illərinin ortalarında F.Kenenin ətrafında qruplaşmış iqtisadçıların əhatə dairəsinə daxil olmuşdur. 1767-ci ildə Mersyenin "Siyasi cəmiyyətlərin təbii və zəruri qaydası" adlı kitabı çapdan çıxmışdır. Bu kitabda sərvətin əmtəə mübadiləsindən yaranmasının mümkünlüyü barədə merkantilistlərin konsepsiyası hərtərəfli tənqid edilmiş və fiziokratların ideyalar sistemi şərh olunmuşdur. Yeni yaranmaqda olan burjuaziyanın mənafelərini ifadə edən Mersye rəqabətin sərbəstliyinə və ticarətdə bütün məhdudiyyətlərin ləğv olunma - sına tərəfdar idi. Təsərrüfatın və cəmiyyətin ilahi bir qüvvə tərəfindən mükəmməl təşkil edil - məsinin "təbii qaydası" barədə Kenenin əsas ideyasını hərtə - rəfli şərh edən Mersye olmuş - dur. Mersye bu anlayışa xüsusi mülkiyyətə və hakimiyyətə hör - mət prinsipini də daxil edirdi. Onun fikrincə, bu qaydanın ədalətli və səmərəli olması o dərəcədə aşkardır ki, insan fəaliyyət azadlığı əldə edəndən dərhal sonra cəmiyyət hökmən tərəqqi yolu ilə inkişaf edəcəkdir. Mersye hesab edirdi ki, izafi dəyər yalnız əkinçilikdə yaranır və o, torpağın məhsuldar qüvvəsinin nəticəsidir.



MERTON ROBERT (1944) – Amerika iqtisadçısı, qeyri-müəyyən iqtisadiyyat və informasiya, iqtisadiyyat və modelləşmə, maliyyə və investisiya sahəsində mütəxəssis. "Törəmə qiymətli kağızların qiymətləndirilməsinin yeni metodunun işlənib hazırlanması"na görə 1997-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür (M.Skoulzla birlikdə). Kolumbiya Universitetini riyaziyyat üzrə bakalavr diplomu ilə bitirmiş (1966), bir ildən sonra "tətbiqi riyaziyyat" ixtisası üzrə Kaliforniya Texnoloji İnstitutunun magistr diplomunu almışdır. 1970-ci ildə Massaçuset Texnologiya İnstitutunda (MTİ) namizədlik dissertasiyası müdafiə etmiş, iqtisadiyyatdan dərs demiş, MTİ-də və 1980-ci ildən – MTİ nəzdində Menecer Məktəbində maliyyə üzrə professor olmuşdur. Hazırda Bostonda Harvard Biznes məktəbinin Ali İşgüzar İnzibati Məktəbinin idarəetmə sahəsində professordur. Bir sıra aparıcı Amerika iqtisadiyyat jurnalları, o cümlədən "Maliyyə" ("Journal of Finance", 1973-1979), "Bankların maliyyəsi" ("Journal of Bank Finance", 1977-1979), "Maliyyə-



nin iqtisadiyyatı" ("Journal of Financial Economics") ilə əməkdaşlıq etmişdir.

Mertonun iqtisadi elmlərə töhfəsi "Blek-Skoulz düsturları"nın (Black-Scholes Formula) aşkara çıxarılmasının orijinal metodunu işləyib hazırlamaqdan ibarət olmuşdur. Ondan "derivativ" opsionlarının və ya törəmə qiymətli kağızların dəyərcə qiymətləndirilməsi üçün istifadə edilir ki, bu da onun geniş tətbiqini mümkün etmişdir. Opsionların qiymətqoyma nəzəriyyəsi adını almış və maliyyə bazarının yeni növlərinin yaradılmasında mühüm rol oynayan bu metodikanın işlənib hazırlanması XX əsrin son 25 ili ərzində iqtisad elminə ən mühüm töhfə hesab edilir. Blekin (1995-ci ildə vəfat etmişdir) və Skoulzun tədqiqatları ilə birlikdə Mertonun əsərləri son 10 il ərzində törəmə qiymətli kağızlar bazarının sürətli artımının və maliyyə praktikasının riyazi nəzəriyyəsinin yeni iqtisadi intizam çərçivəsində birləşməsinin əsasını qoydu. Bu metod informasiya texnologiyaları və kompüter göstəriciləri ilə birlikdə bütün dünyada müxtəlif maliyyə institutlarının əmtəə bazarlarının praktikası fəaliyyətində geniş tətbiq olunur. O, nəinki gündəlik opsion bazarlarındakı sövdələşmələrdə, həm də maliyyə bazarlarından kənarda geniş yayılmışdır. Analoji metodika sığorta müqavilələri və zəmanətlərinin risk səviyyəsinin, investisiya layihələrinin təminatlılığının qiymətləndirilməsi üçün tətbiq edilə bilər. Merton metodologiyası yeni maliyyə alətlərinin yaradılmasına səbəb oldu və cəmiyyətdə risklərin daha səmərəli tənzimlənməsini mümkün etdi.

MESKON-XEDOURİ MATRİSİ – Amerika iqtisadçıları M.Meskon və F.Xedouri tərəfindən firmanın inkişafının qlobal strategiyasının təsnifatlandırılmasına dair irəli sürülmüş təklif. Təsnifatlandırılmanın meyarı müəssisənin inkişaf sürətidir. Meskon-Xedouri matrisində dörd qlobal strateji alternativ birləşmişdir. Birincisi artım strategiyasıdır. Bu strategiyanı seçərkən müəssisə hər il strateji məqsədlər üzrə plan göstəricilərini keçən ilin göstəricilərinə nisbətən əhəmiyyətli dərəcədə artırmalıdır.

Meskon-Xedouri təsnifatında ikinci mövqeyi məhdud artım strategiyası tutur. Bu zaman strateji məqsədlər üzrə plan göstəriciləri nail olunmuş səviyyə üzrə müəyyənləşir, inflyasiya nəzərə alınmaqla ona düzəliş edilir.

Müəssisənin inkişafının üçüncü qlobal strategiyası ixtisar strategiyasıdır, bu, nəzərdə tutulan məqsədlərin keçən ilin göstəricilərindən aşağı olduğu halda özünə yer tapır. Nəhayət, dördüncü strategiya yuxarıdakı strategiyaların iki və ya üçünün uyğunlaşmasıdır. Bu strategiyaların hər biri firmanın fəaliyyətinin müxtəlif sahələrində və ya daha az onun müxtəlif ərazi bölmələrində tətbiq edilir.

Müəssisənin qlobal strategiyası onun bazar mövqeyinin müəyyən edilməsindən sonra seçilir. Sahənin imkanlarına münasibətdə təşkilatın və onun məhsulunun vəziyyətinin ən sadə və çox məşhur metodikası Boston məsləhət qrupu tərəfindən işlənib hazırlanmışdır (bax: Boston matrisi).

MDB ərazisində XX əsrin 90-cı illərinin birinci yarısında bir çox müəssisələrdə strateji planlaşma, o cümlədən strateji alternativli hər hansı bir kompensasiya ilə operativ fəaliyyətin razılaşdırılması yox idi. Bu iqtisadiyyatların böyük hissəsi vahid strategiyaya – salamat qalma strategiyasına, həm də bir ay, maksimum bir il ərzində salamat qalmağa xidmət edirdi.

Son zamanlar iqtisadiyyatın bir çox sahələrində vəziyyət yaxşı tərəfə dəyişməyə başlayıb.

MEŞƏ EHTİYATLARI STATİSTİKASI – meşələrin mövcudluğunu, vəziyyətini, istifadəsini, bərpasını, konkret yer və zaman şəraitində onlara xidmət üzrə tədbirləri, həmçinin meşə təsərrüfatının aparılması üçün əmək, material və maliyyə ehtiyatlarından istifadəni əks etdirən statistika sahəsi. Meşə ehtiyatları statistikasının göstəricilər sistemi meşə fondları ərazisinin torpaq kateqoriyaları üzrə bölünməsini, meşələrin qorunmasının (suyun qorunması, mühafizəsi və s.) qruplar və kateqoriyalar üzrə mövcudluğunu və vəziyyətini, meşəni təşkil edən əsas növlər, yaş və s. üzrə meşələrin qruplaşdırılmasını əks etdirir. Meşə ehtiyatları statistikasının göstəriciləri meşə ehtiyatlarını, onun istifadəsi və yenidən bərpa edilməsini müəyyən edir.

Göstəricilər meşə ehtiyatlarının və onlardan istifadənin vəziyyətinə nəzarətin qiymətləndirilməsinin, təhlilinin və onlardan istifadənin, meşə təsərrüfatı

Cədvəl 1

Dünyanın meşə ehtiyatları

Region	Meşə ilə torpaq sahəsi, mln.ha	Adambaşına düşən mtşə sahəsi, ha	Cəmi oduncaq ehtiyatı, mlrd.^{3}
MDB ölkələri	810	3,0	86
Xarici Avropa	160	0,3	15
Xarici Asiya	540	0,2	34
Afrika	720	1,3	60
Şimali Amerika	680	2,5	60
Latın Amerikası	930	2,2	90
Avstraliya və Okeaniya	160	6,4	5
Dünya	4000	0,8	350

istehsalının aparılmasının uçotu, həmçinin meşə təsərrüfatının inkişafının perspektiv və problemli məsələlərinin həlli üçün tətbiq edilir.

Meşə fondu – ölkənin ərazisinin meşə örtüyü altında olan, həmçinin meşə örtüyü altında olmayan, lakin meşə təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulan bir hissəsi. Meşə fondu torpaqlarına daxildir: a) meşə sahələri (meşə ilə örtülmüş və örtülməmiş); b) qeyri-meşə sahələri (meşədəki biçənəklər, otlaqlar, yollar, keçidlər, sular, bataqlıqlar və s.). Meşə fondu torpaqları dövlət əhəmiyyətli meşələrdən, habelə ictimai kənd təsərrüfatı istehsalına məxsus meşələrdən ibarətdir.

Meşə ehtiyatları iqtisadi əhəmiyyətinə və yerinə yetirdiyi funksiyaya görə xarakterizə olunur və üç qrupa bölünür: 1) daha çox su mühafizəedici, qoruyucu, sanitariya-gigiyenik və sağlamlaşdırıcı funksiyaları yerinə yetirən meşələr, o cümlədən su mühafizəsi zonalarının meşələri, şəhərətrafı yaşıllaşdırma zonaları, qoruqlara aid meşələr və s.; 2) azmeşəli rayonlarda yerləşən və məhdud istifadə əhəmiyyətinə malik meşələr; 3) çoxmeşəli rayonlarda yerləşən və mühüm istifadə əhəmiyyətli olan meşələr. Meşələr yetkinlik dərəcəsinə görə təzə basdırılan, inkişafda olan, yetişmiş, qocalmış və s. meşələrə; cins tərkibinə görə isə iynəyarpaqlı, enliyarpaqlı, bərkyarpaqlı, yumşaq yarpaqlı və s. meşələrə bölünür.

Meşələrin uçotuna dair materiallar meşə fondu haqqında statistik məlumatların mənbəyi hesab edilir. Meşə fondunun öyrənilməsi həm meşəaltı sahə göstəriciləri üzrə, həm də meşə mənbələrinin ehtiyatları üzrə həyata keçirilir. Azərbaycan Respublikasında meşə qanunvericiliyinə uyğun olaraq, müdafiə torpaqlarında və yaşayış məntəqələrində, habelə meşə ilə örtülü olmasa da, meşə fonduna aid edilən torpaqlarda yerləşən meşələr istisna olmaqla, bütün meşələrin məcmusudur.

MEŞƏNİN BONİTETİ (lat. *bonitas* – xoşxassəli) – torpaq-iqlim şərtlərindən asılı olaraq məhsuldarlıq göstəricisi.

META (yun. *meta* – sonra, arasında) – aralıq mövqe. Sazişin şərtlərinə müvafiq olaraq, onun iştirakçılarının gəlirləri və ziyanlarının tən yarı bölünməsi mənasını daşıyır.

METAL PUL – nominal dəyəri real dəyərinə (onların hazırlandığı qiymətli metalın dəyərinə) bərabər olan həqiqi pul.

Metal pullar tamdəyərli və tamdəyərli olmayan növlər kimi təsnif edilir.

Tamdəyərli (həqiqi) pulun nominal dəyəri onların tərkibindəki nəcib metalın real dəyərinə bərabərdir.

Tamdəyərli olmayan pul – əvvəllər tamdəyərli pullar üçün xırda sikkələr kimi istifadə edilən pullar. Bu halda onların nominal dəyəri tərkibindəki metalın dəyərindən yüksək idi.

Bazar münasibətləri inkişaf etdikcə metal pulun tədavülü və mübadiləsi münasib olmadığına görə onlar bütün dünyada tədavüldən çıxarılmağa başlanılmışdır. 1970-ci illərdə həqiqi pulların bütünlüklə dəyər nişanları – kağız pul və kredit pulları ilə əvəz edilməsi baş vermişdir.

METÇİNQ (ing. *matching*) – sahibkarlıq riskinin uçot və qiymətləndirilməsi metodu; passiv və aktivlər üzrə valyuta risklərinin qarşılıqlı hesablaşması.

METOD – hər hansı məqsədin tədqiqatı və ona nail olunması, konkret vəzifələrin həlli üsulu.

Qrafik metodlar (demoqrafiyada) – əhalinin inkişafı və yerləşməsi qanunauyğunluqlarının, demoqrafik proseslərlə strukturlar arasında asılılığın təsviri üsullarının məcmusu; şəkillərin




Azərbaycanın əsrarəngiz meşələri



















(həndəsi şəkil, kontur fiqurları, nöqtələr, xətt kəsikləri, səthlər, şərti işarə-simvolları) köməyi ilə edilir. Cəbr (analitik) və rəqəmli modellərə nisbətən qrafik metodlar demoqrafik hadisələrin strukturunun elementlərinin əyani sinoptik təsvirini verir. Qrafik metodların demoqrafiyada tətbiqi onların istifadə məqsədləri, "məna yükünün" hüdudları, məqbul nisbətin, əyaniliyin və dəqiqliyin qiymətləndirilməsi ilə şərtlənir. Qrafik metodların demoqrafiyada tətbiqinə XIX əsrdə başlanıb və alman statistikləri Q.Knapp, K.Bekker, V. Leksis, Q.Mayr və s. adları ilə bağlıdır.

Demoqrafik strukturların təsviri zamanı qrafik metodların geniş sinfi tətbiq olunur. Ən çox yayılmış yaş piramidasıdır. Üçbucaq diaqram da tətbiq edilir və bu zaman o, üçbucaq sxemdə əhalinin üçkomponentli yaş strukturunu (uşaqlar, böyüklər, qocalar) nöqtə ilə göstərməyə imkan verir.

Sentroqrafik metod – əhalinin öyrənilməsində geodemoqrafik adlanan müxtəlif mərkəzlərin tapılması, onların trayektoriyasının dəyişdirilməsi yolu ilə əhalinin tədqiqinin analitik və qrafik üsullar məcmusu. Verilmiş ölkə üçün əhali sıxlığının ümumi və regional mərkəzləri; xüsusi mərkəzlər – şəhər və kənd əhalisi üçün işçi qüvvəsi mərkəzləri və s. seçilir.

METODİKA – hər hansı bir işin praktiki yerinə yetirilməsi metodlarının məcmusu; metodiki – ciddi ardıcıllıq sisteminin olması və plana dəqiq əməl edilməsidir. Metodun konkretləşdirilməsi, instruksiya, alqoritm formasına salınmasıdır.

METODOLOGİYA – ayrı-ayrı elmlərdə tətbiq olunan metodların məcmusu. Statistikada metodologiya – statistik məlumatların toplanması, işlənib hazırlanması, hesablanması və təhlilinin elmi əsaslandırılmış təşkili qaydalarını müəyyən edən, sosial-iqtisadi proseslərin statistik tədqiqatının üsul, qayda və metodlarının məcmusudur.

METROPOLİTEN (fr. *metropolitain* – paytaxta məxsus) – adətən, yeraltı tunellərdən (10-50 m dərinlikdə), zəruri olduqda



isə yerin üstündən və ya yer səthindən müəyyən hündürlükdə yerləşən estakadalardan keçən elektrik dəmir yolu. Yüksək sürətli və çox sərnişin daşıması, qatarların müntəzəm hərəkəti ilə fərqlənir. İlk metro 1863-cü ildə Londonda tikilmişdir (qatarları buxar qüvvəsi ilə hərəkətə gətirilirdi və yolun uzunluğu 3,6 km idi). Sonar Nyu-Yorkda (1868), Budapeştdə (1896), Vyanada (1898), Parisdə (1900) və s.-də çəkilmişdir. Metro küçə-yol şəbəkəsinin işini yüngülləşdirdiyindən (hərəkətin bir qismi yerin altına köçürülür) və xətlər bir səviyyədə kəsişmədiyindən (təhlükəsizlik təmin olunur) əhalisi 1 milyondan artıq olan şəhərlər üçün əlverişlidir. Keçmiş SSRİ-də Moskva metrosu 1935, Sankt-Peterburq metrosu 1955, Kiyev metrosu 1960, Tbilisi metrosu 1966, Xarkov metrosu 1972, Daşkənd metrosu 1977, Yerevan metrosu 1981-ci ildə istifadəyə verilmişdir.

1932-ci ildə Bakı şəhərinin inkişafının baş planının ilkin variantlarında yerüstü nəqliyyatın işini yüngülləşdirmək və şəhərin darısqal küçələrini tramvay, trolleybus və avtobus nəqliyyatından təmizləmək üçün ən sürətli və rahat nəqliyyat növünün – metropolitenin tikintisi qərara alınmışdır.

Lakin bir qədər sonra başlanan 1941-1945-ci illər müharibəsi həmin niyyətlərin həyata keçirilməsinə mane olmuşdur. Yalnız 1947-ci ildə, dağıdıcı müharibədən 2 il sonra hökumət layihə-axtarış işlərinin aparılmasının başlanması barədə qərar qəbul edir. 1949-cu ildə metropolitenin tikinti bazası yaradılır, 1954-cü ildə isə birinci xəttin texniki layihəsi təsdiq olunur və metropolitenin 12,1 kilometrlik xəttinin inşası başlanır. Baş yolun xətləri dəniz sahilindən 500-700 metr aralı keçərək buxtaya paralel surətdə uzanıb gedirdi.

1953-cü ildə tikinti işləri müvəqqəti dayandırılır və yalnız 1960-cı ildə bərpa olunur. Bu da Bakı Metropoliteninin istismara verilməsini xeyli gecikdirir. 1966-cı ildə tərkibində hərəkət, hərəkət qatarları, yol və tunel qurğuları, sanitariya texnikası və elektromexanika, işarəvermə və rabitə, material-texniki təminat xidmətləri kimi 6 xidməti



"Dərnəgül" metro stansiyasının açılışı

olan Bakı Metropoliteni İdarəsi yaradılır. 1967-ci il noyabrın 6-da Bakı şəhərində metropolitenin 5 stansiyası və 9,2 kilometrlik yeraltı xətləri olan I növbəsi istismara verilir, həmin stansiyalardan 4-ü böyük dərinlikdə idi ki, bunlardan da biri "Qara şəhər" adlanan ərazidə yerləşən "Xətai" stansiyası idi. 1967-ci il noyabrın 25-dən metropolitenin daimi istismarı və qatarların müntəzəm hərəkəti başlandı.


Hazırda Bakı Metropoliteninin 23 stansiyası vardır – "Həzi Aslanov", "Əhmədli", "Xalqlar dostluğu", "Neftçilər", "Qara Qarayev", "M.Əzizbəyov" (indiki "Koroğlu"), "Ulduz", "Bakmil", "N.Nərimanov", "Gənclik", "C.Cabbarlı", "Xətai", "28 May", "Nizami", "Elmlər Akademiyası", "İnşaatçılar", "20 Yanvar", "Memar Əcəmi", "Sahil", "İçərişəhər", "Nəsimi", "Azadlıq prospekti" və "Dərnəgül". Bu stansiyalardan 14-ü ulu öndər Heydər Əliyevin Bakı metrosuna böyük diqqət və qayğısı sayəsində tikilərək istifadəyə verilmişdir. Ulu öndərin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev də metropolitenə daim diqqət və qayğı ilə yanaşmışdır. Məhz dövlətimizin başçısının beş il öncə imzaladığı sərəncam əsasında 8 noyabr Bakı Metropoliteni işçilərinin peşə bayramı günü kimi təsdiq olunmuşdur.

2013-cü ildə Bakı Metropoliteninin daha 2 stansiyasının istifadəyə verilməsi nəzərdə tutulur. Bunlar "Memar Əcəmi-2" ("Memar Əcəmi" stansiyasından keçid) və "Avtovağ-



"Nəsimi" metro stansiyası

BAKI METROPOLİTENİ XƏTLƏRİNİN KONSEPTUAL İNKİŞAF SXEMİ



zal" stansiyalarıdır. Qeyd olunan istiqamətdə tikinti işləri davam etdirilir. Metronun "Memar Əcəmi" stansiyasından paytaxtın "Azadlıq" meydanına xəttin çəkilişi də planlaşdırılır. Bunlarla yanaşı, Bakı Metropolitenində yeniliklər də davam etməkdədir. Belə ki, artıq 160-dan çox yeni vaqon alınmışdır ki, bu da metropolitenin vaqon parkının 75 faizini təşkil edir. Bunlar hamısı, əlbəttə ki, Bakı Metropoliteninə dövlət tərəfindən göstərilən qayğının nümunəsidir. Şəhər nəqliyyatının 30 faizini təşkil edən Bakı Metropoliteninin inkişaf planına əsasən, 2030-cu ilədək metrostansiyaların sayı 76-a, istismar xətlərinin uzunluğu isə 119 kilometrə çatdırılacaqdır. Bütün bunlar bir daha deməyə əsas verir ki, Bakı Metropoliteni bundan sonra da paytaxt əhalisinə yüksək səviyyədə xidmət göstərəcəkdir.

METROPOLİYA (yun. *metropolis*) – 1. Müstəmləkələrə malik olan dövlət. 2. Qədim Yunanıstanda yaşayış yerləri üzrə yaradılan şəhər-dövlət də belə adlandırılırdı.

METYURİTİ (ing. *maturity*) – borcun, ssudanın, istiqrazların, faizlərin ödənilməsi vaxtının gəlməsi.

MEYARLAR (*Criteria*) – müzakirə mövzusunu qiymətləndirmək və ya müqayisə etmək üçün istifadə edilən oriyentirlər, o cümlədən təqdimetmə və aşkaretmə üçün oriyentirlər. Meyarlar formal və ya az formal ola bilər. Eyni müzakirə mövzusu üçün müxtəlif meyarlar ola bilər. Müzakirə mövzusunun peşəkar mühakimə konteksti çərçivəsində kifayət qədər əsaslı şəkildə qiymətləndirilməsi və ya ölçülməsi üçün müvafiq meyarlar tələb olunur.

MEYBULLAYEV HACI MƏMMƏDHƏSƏN XANLAR OĞLU (1948) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d. prof. 1977-ci ildə namizədlik, 1991-ci ildə Leninqrad şəhərində Maliyyə və İqtisad Universitetində doktorluq dissertasiyası müdafiə etmişdir. 1992-ci ildə professor elmi adını almışdır.



M.Meybullayev əhalinin real gəlirləri və əmək məhsuldarlığının qarşılıqlı əlaqələrinin nəzəri-metodoloji aspektlərinin və iqtisadi inkişaf proporsiyalarının təkmilləşməsi, İslam iqtisadiyyatının aktual problemlərinin dərin tədqiqatçısı kimi tanınır. 120-dən çox elmi əsərin, o cümlədən 6 monoqrafiyanın, 8 dərs vəsaitinin, 3 dərsliyin müəllifidir.

1995-1999-cu illərdə respublikada ilk dəfə tərtib olunan irihəcmli "İqtisadi nəzəriyyə" dərsliyinin redaktorlarından və müəlliflərindən biridir. Onun elmi redaktorluğu ilə 2002-ci ildə "İqtisadi təlimlər tarixi" dərsliyi hazırlanmışdır. O, əsərlərində iqtisadiyyat və mənəviyyat problemlərinin qarşılıqlı tədqiqinə, Azərbaycanda iqtisad elminin institusional istiqamətinin inkişafına xüsusi diqqət yetirir.

M.Meybullayev 1970-1982-ci illərdə Azərbaycan SSR EA İqtisadiyyat İnstitutunda işləmiş-dir. 1989-1992-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru olmuş və 1982-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetində kafedra müdiri vəzifəsində çalışır. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 sentyabr tarixli Sərəncamına əsasən, ona təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar müəllim" fəxri adı verilmişdir.

Əsərləri: "Xalis məhsul və iqtisadi artım", Azərnəşr, Bakı, 1990. 12 ç.v.; "İslam iqtisadiyyatı", "Qartal" nəşriyyatı, Bakı, 2000. 42 ç.v.; "Azərbaycan iqtisadiyyatı", Bakı, 1998. 23 ç.v.; "XIX əsrin iqtisadçılarının əsərlərində klassik elmi sistemin inkişafı", ADİU-nun nəşriyyatı, Bakı, 2001, 9,5 ç.v.; "İqtisad elminin tarixi və metodologiyası", Az.DİU-nun nəşriyyatı, Bakı, 2010, 6 ç.v.; "Makroiqtisadiyyata giriş", İqtisad Universiteti nəşriyyatı, Bakı, 2010, 30,1 ç.v.; "Mikroiqtisadiyyata giriş", İqtisad Universiteti nəşriyyatı, Bakı, 2010, 25 ç.v.

MEZOEKONOMİKA – sahələrin və regionların iqtisadiyyatı. Makroiqtisadiyyatın yarımsistemləri olub, bir-biri ilə üzvi bağlı sahələr kompleksidir. Məsələn, aqrar-sənaye kompleksi, aqrar-biznes, hərbi-sənaye kompleksi və s. Bunların maddi əsasını əmək bölgüsü və kooperativləşmə təşkil edir.

MEZONİN MALİYYƏLƏŞDİRMƏ (ing. *Mezzanine Financing*) – borc və səhmdar kapitalın xüsusiyyətlərini özündə birləşdirən istiqrazlar və digər (bir qayda olaraq, təminatsız) maliyyə alətləri. Adətən,

mezonin krediti borcalanın səhmlərinə çevrilə biləcək subordinasiya krediti kimi çıxış edir. Mezonin maliyyələşdirilməsi borc instrumentindən daha çox səhmlərə yaxındır, çünki borc öhdəliyi yalnız bankrotluq zamanı yaranır. Məsələn, mezonin maliyyələşdirilməsi çox vaxt birləşməni, qoşulmanı və səhmdar cəmiyyətin nəzarət paketinin satın alınmasını maliyyələşdirmək üçün istifadə edilir. Bu halda mezonin maliyyələşdirilməsi alınan şirkətin bankrotluğu zamanı yeni sahiblərin mövcud sahiblər üzərində prioritet üstünlüyünü müəyyən etməyə kömək edir.

MƏBLƏĞİN EKSSEDENTİ – təkrar sığortadır ki, bu zaman təkrar sığorta ödənişi yalnız bir neçə risk növü üzrə zərər müəyyən limitdən çox olarkən ödənilir, özü də şərtsiz franşizadan fərqli olaraq, ancaq bu artım örtülür.

MƏBLƏĞİN EKSSEDENTİ MÜQAVİLƏSİ – riskin müəyyən qruplarının örtülməsində sığortaçının öz iştirakının maksimum ölçüsünü müəyyən etməyə imkan verən təkrar sığorta müqaviləsinin bir növü; o, sığortaçının maksimum iştirakı üçün nəzərdə tutulmuşdur. Bununla belə, hər hansı bir risk istisna olunur ki, onların sığorta məbləği müəyyən sığorta portfeli üçün sığortaçının müəyyən edilmiş iştirak payının miqdarına bərabər və ya ondan aşağıdır. Sığorta məbləği sığortaçının iştirakından yüksək olan risklər isə təkrar sığorta riskləri sayılır.

MƏBLƏĞİN İKİNCİ EKSSEDENTİ MÜQAVİLƏSİ – məbləğin birinci ekssedenti müqaviləsinə daxil olmaq üçün həddən artıq yüksək olan məbləğin təkrar sığorta üzrə sığorta şirkətləri arasında müqavilə forması. Təkrar sığortaçıların risklərinin daha çox cəmləşməsi üçün tətbiq edilir.

MƏCBURİ DÖVLƏT SIĞORTASI (ing. *compulsory goverment insurance*) – dövlətin və vətəndaşların sosial maraqlarının təmin edilməsi üçün həyata keçirilən sığorta. Məcburi sığorta qanunla insan həyatına, sağlamlığına və müəyyən dövlət məmurlarının əmlaklarına tətbiq edilə bilər. Məcburi dövlət sığortası dövlət vəsaitləri hesabına həyata keçirilməlidir.

MƏCBURİ DÖVLƏT SOSİAL SIĞORTA HAQLARI HESABINA VERİLƏN MÜAVİNƏTLƏR – sığorta olunanlara və əmək pensiyaçılarına verilən və məcburi dövlət sosial sığorta haqları hesabına maliyyələşdirilən (əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə və doğuma, uşağın anadan olmasına görə birdəfəlik müavinət, qanunvericilikdə nəzərdə tutulmuş yaş həddinə çatana qədər uşağa qulluqla əlaqədar müavinət, dəfn üçün müavinət) sosial müavinətlər.

Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət sığorta olunanların əmək qabiliyyətinin müvəqqəti itirilməsi halında itirilmiş əmək haqlarının, gəlirlərinin və əlavə xərclərinin tam və ya qismən (sosial sığorta stajından asılı olaraq) kompensasiya edilməsinə yönəldilən təminat formasıdır.

Hamiləliyə və doğuma görə müavinət hamiləlik dövründə və doğumdan sonrakı dövr (qanunvericilikdə müəyyən edilmiş dövr) üçün işləyən qadınlara orta gündəlik qazancın 100 faizi məbləğində verilən müavinətdir.

Uşağın anadan olmasına görə birdəfəlik müavinət uşaq doğularkən işləyən ailə üzvlərinin birinə verilən birdəfəlik müavinətdir.

Qanunvericilikdə nəzərdə tutulmuş yaş həddinə çatana qədər uşağa qulluqla əlaqədar müavinət uşağa bilavasitə qulluq edən valideynlərdən birinə, yaxud ailənin başqa üzvünə uşağın üç yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qismən ödənişli sosial məzuniyyət dövründə verilən müavinətdir.

Dəfn üçün müavinət sığorta olunan və ya əmək pensiyaçısı vəfat etdikdə mərhumun ailə üzvlərinə və ya onu dəfn etməyi öhdəsinə götürən şəxslərə verilən birdəfəlik müavinətdir.

MƏCBURİ İŞSİZLİK – işsizlik formalarından biri. Bu zaman işi olan işçilərə nisbətən daha az haqq müqabilində işləməyə hazır olanlar buna baxmayaraq, işsiz qalmaqda davam edirlər. Bu işsizlik namizədlərin sayı işçi qüvvəsinə real tələbdən xeyli çox olan sahələr üçün səciyyəvidir.

MƏCBURİ LİSENZİYA – adətən, səlahiyyətli orqanlar, həmçinin müəllif təşkilatları tərəfindən xüsusi qeyd-şərtlə əsərdən istifadəyə verilən icazənin bir növüdür. Hər hansı ilkin bildiriş və ya müraciət olmadan qanun əsasında verilən lisenziyadan fərqli olaraq, məcburi lisenziya yalnız müəllifin (hüquq sahibinin) əvvəlcədən rəs -

mi icazəsi, yaxud müəyyən şərtlər daxilində bildirişi əsasında verilir. Məcburi lisenziya əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi ilə bağlıdır. Əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar müəlliflər və əlaqəli hüquqların sahibləri tərəfindən yaradılır. Belə təşkilatlara əmlak hüquqlarını kollektiv əsasda idarə etmək səlahiyyətini bilavasitə müəlliflik hüququ və əlaqəli hüquqların sahibləri könüllü olaraq yazılı müqavilələr əsasında və ya bu təşkilatlara üzv olmaqla verirlər. Kollektiv idarəetmə təşkilatları hüquq sahiblərindən aldıqları səlahiyyətlər həcmində və çərçivəsində əsərlərdən istifadə üçün istifadəçilərə icazə verirlər. Bu cür icazə verilməsi, bir qayda olaraq, lisenziya sazişləri bağlamaqla rəsmiləşdirilir. "Ədəbi və bədii əsərlərin qorunması haqqında" Bern Konvensiyası müəllifdən əvvəlcədən alınmış icazə əsasında musiqili əsərin yazılması üçün məcburi lisenziyanın verilməsini nəzərdə tutur. Bu Konvensiya teleradio verilişlərinə də məcburi lisenziyanın verilməsi imkanını istisna etmir. Müəllif Hüquqları haqqında Ümumdünya Konvensiyasında da yazılı əsərin ilk dəfə dərc edildiyi tarixdən 7 il keçəndən sonra, göstərilən müddət ərzində həmin tərcümə dərc edilməmişdirsə, bu əsərin ölkənin dövlət dilinə tərcüməsinə məcburi lisenziya verilməsi qeyd olunur.

MƏCBURİ SIĞORTA – sığorta edilən şəxsin sifarişləri və istəkləri xaricində keçirilən sığorta növləri, qanunun gücü əsasında yaranan sığorta münasibətləri. Məsələn, sərnişinlərin sığortası.

MƏCMU XƏRCLƏR – firmanın istehsalda istifadə etdiyi amillərin bazar dəyəri.

MƏCMU GƏLİR – firmanın istehsal etdiyi məhsulların satışından əldə etdiyi məbləğ.

MƏCMU KAPİTAL – sığortaçının maliyyə sabitliyinin və ödəmə qabiliyyətinin təmin edilməsi üçün lazım olan vəsaitin mövcud məbləği (cədvəl 1).

MƏCMU PUL KÜTLƏSİ – dövriyyədə olan nağd və qeyrinağd ödəniş vasitələrinin məcmusu. Maliyyə bazarları inkişaf etdikcə pul kütləsinə daxil edilən aktivlərin sayı artır. Müasir dövrdə likvidliyin müəyyən minimal həddini özündə təcəssüm etdirən maliyyə aktivləri pul kütləsinə daxil edilir. Likvidlik prinsipindən əlavə, adətən, pul kütləsinə maliyyə aktivlərinin elə bir qrupu aid edilir ki, o, pul siyasətinin hədəfi olmağa yararlı olsun. Azərbaycanda pul kütləsinin 3 növü fərqləndirilir: dar mənada pul kütləsi (M1), manatla geniş mənada pul kütləsi (M2), geniş mənada pul kütləsi (M3).

Mərkəzi Bank tərəfindən müəyyən dövr üçün bank sisteminin icmal balansının məlumatları əsasında hesablanır.

MƏCMU TƏKLİF ƏYRİSİ – milli istehsalın (məhsulun) real həcminin qiymətlərin səviyyəsindən asılılığı, hər hansı qiymət səviyyəsində, firmaların istehsal etdiyi və satmaq istədikləri əmtəə və xidmətlərin miqdarını göstərən əyri.

MƏCMU TƏLƏB (*AD, aggregate demand*) – bu iqtisadi aqreqat bütün mallara və xidmətlərə lokal tələblərin həcminin cəmidir. Buna görə ideal makroiqtisadi modeldə o, milli istehsalın real həcminə bərabər olacaqdır. Onu qiymətlərin real səviyyəsində almaq mümkündür.

Məcmu tələb dedikdə milli iqtisadiyyatda yaradılmış bütün növ əmtəə və xidmətlərin alınması üçün makroiqtisadi subyektlərin hamısı tərəfindən həyata keçirilən məcmu xərclər başa düşülür.

Məcmu tələbin strukturu:

1) ev təsərrüfatlarının məcmu tələbi;

2) istehsalçılar tərəfindən investisiyaya tələb;

3) əmtəə və xidmətlərə dövlət tərəfindən tələb;

4) xalis ixrac, yəni yerli mənşəli mallara xaricdə tələb ilə xarici mənşəli mallara yerli tələb arasındakı fərq.

Məcmu tələbin modelini qrafik şəkildə mənfi meyil bucağına malik əyri formasında göstərmək olar. Bu əyri istehlak edilən real ÜDM ilə qiymətlərin səviyyəsi arasında əks asılılığı xarakterizə edir.

MƏCMU TƏLƏB ƏYRİSİ – istənilən qiymət səviyyəsində ailələrin, firmaların və hökumətin almaq istədiyi əmtəə və xidmətlərin miqdarını göstərən əyri.

MƏCMU TƏLƏB VƏ MƏCMU TƏKLİF MODELİ *(AD-AS modeli)* – iqtisadi fəaliyyətdə uzunmüddətli meyillər ətrafında qısamüddətli səbatsızlıqları izah etmək üçün əksər iqtisadçıların istifadə etdikləri model.

MƏDƏN VERGİSİ – faydalı qazıntıların çıxarılmasına görə tutulan vergi növü. Azərbaycan Respublikasının vergi qanun-


Cədvəl 1

Məcmu kapitalın həcminə görə respublika banklarının qruplaşdırılması

İl, ay	3,5 mln. manatadək		3,5 mln, manatdan - 5,0 mln. manatadək		5,0 mln, manatadan 10,0 mln. manatadək		10 mln, manatdan artıq	
	bankların sayı	ümumi bank kapitalında xüsusi çəkisi, %	bankların sayı	ümumi bank kapitalında xüsusi çəkisi, %	bankların sayı	ümumi bank kapitalında xüsusi çəkisi, %	bankların sayı	ümumi bank kapitalında xüsusi çəkisi, %
2004	**19**	**24,5**	**10**	**17,2**	**10**	**27,7**	**4**	**30,6**
2005	**2**	**1,8**	**9**	**12,3**	**23**	**41,2**	**8**	**44,7**
2006	**0**	**0,0**	**3**	**2,4**	**29**	**45,6**	**11**	**52,0**
2007	**0**	**0,0**	**1**	**0,5**	**5**	**4,4**	**39**	**95,1**
2008	**0**	**0,0**	**1**	**0,3**	**2**	**1,1**	**43**	**98,6**
2009	**1**	**0,2**	**0**	**0,0**	**3**	**1,1**	**42**	**98,7**
2010								
01	1	0,2	1	0,3	2	0,8	42	98,7
02	1	0,2	1	0,3	3	1,3	41	98,2
03	1	0,2	1	0,2	3	1,3	41	98,3
04	1	0,2	1	0,2	3	1,3	42	98,3
05	1	0,2	1	0,2	3	1,3	42	98,3
06	1	0,2	1	0,2	3	1,2	42	98,4
07	1	0,2	1	0,2	4	1,8	41	97,8
08	1	0,2	1	0,2	4	1,7	41	97,9
09	1	0,2	1	0,2	4	1,8	41	97,8
10	0	0,0	2	0,4	4	1,8	41	97,8
11	0	0,0	2	0,4	5	2,2	40	97,4
12	0	0,0	1	0,2	2	0,9	42	98,9
2011								
01	0	0,0	1	0,2	2	0,9	41	98,9
02	0	0,0	1	0,2	3	1,3	40	98,5
03	0	0,0	1	0,2	2	0,9	41	98,9
04	0	0,0	1	0,2	2	0,9	41	98,9
05	0	0,0	1	0,2	2	0,9	41	98,9
06	0	0,0	1	0,2	2	0,9	41	98,9
07	0	0,0	1	0,2	1	0,4	42	99,4
08	0	0,0	1	0,2	2	0,9	41	98,9
09	0	0,0	1	0,2	1	0,4	42	99,4
10	0	0,0	1	0,2	2	0,8	41	99,0
11	0	0,0	1	0,2	2	0,8	41	99,0
12	0	0,0	1	0,2	1	0,4	42	99,4
2012								
01	0	0,0	1	0,2	1	0,3	42	99,5
02	0	0,0	1	0,2	1	0,3	42	99,5

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

AD-AS modeli



vericiliyinə əsasən, ölkə ərazisindəki və Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı qazıntıların çıxarılmasına görə mədən vergisi tutulur. Mədən vergisini yerin təkindən faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr ödəyirlər. Mədən vergisi xam neft, təbii qaz və filiz faydalı qazıntılarına aid olan bütün növ metallar üzrə onların topdansatış qiymətinə əsasən, digər faydalı qazıntılar üzrə isə onların həcminə, yəni hər kubmetrinə əsasən hesablanır və ödənilir.

MƏHDUD AÇIQ SƏHMLƏŞDİRMƏ – səhmləşdirmənin bu üsulunda dövlət açıq və ya qapalı satış üçün nəzərdə tutulan səhmlərin sayını məhdudlaşdırır.

MƏHDUD MƏSULİYYƏT *(limited liability)* – adi səhmin xüsusiyyəti. Bu, ondan ibarətdir ki, şirkət ləğv olunarkən onun aktivlərinin satışından əldə edilmiş məbləğ həmin şirkətin öhdəliklərinin xərcini ödəmir. Kreditorlar adi səhm sahiblərindən öz zərərlərini ödəmək üçün vəsait tələb edə bilməzlər.


MƏHDUD MƏSULİYYƏTLİ ORTAQLIQ (MMO) – hüquqi və ya fiziki şəxslərin razılığına əsasən, onların pul və ya natural formada sərmayələrinin birləşdirilməsi yolu ilə yaradılan təsərrüfatın təşkilati növü. Sahibkarlıq fəaliyyətinin səhmdar cəmiyyətindən sonra ən geniş yayılmış formasıdır.

MMO müəyyən sayda hissələrə bölünmüş nizamnamə fonduna malikdir. Bu fondun həcmi nizamnamə sənədləri ilə müəyyən edilir. MMO öz öhdəliklərinə görə yalnız öz əmlakı həddində məsuliyyət daşıyır. MMO-nun ali idarəetmə orqanı iştirakçıların (və ya onların təyin etdiyi nümayəndələrin) yığıncağıdır. MMO-nun icra orqanı direktorluq və ya direktor ola bilər. Direktorluğun (direktorun) fəaliyyətinə nəzarəti təftiş komissiyası həyata keçirir. İştirakçıların yığıncağında məsələlər həll edilərkən səslərin miqdarı nizamnamə fondunda hər bir iştirakçının payının məbləğinə mütənasib olaraq müəyyən edilir. Cəmiyyətin üzvünə pay, ödədiyi paya şəhadətnamə verilir. Bu şəhadətnamə qiymətli kağız deyildir və cəmiyyətin icazəsi olmadan başqa şəxsə satıla bilməz.

Qərb ölkələrinin qanunvericiliyində MMO-nun yaradılmasına və fəaliyyətinə dövlət tərəfindən nəzarət səhmdar cəmiyyətləri təsis edilərkən və onların fəaliyyəti zamanı müvafiq dövlət nəzarətindən daha az həcmdə nəzərdə tutulur: MMO təsis edilməsi üçün iki iştirakçının olması kifayətdir (səhmdar cəmiyyəti təsis edilməsi üçün isə ən azı 5-7 iştirakçının olması zəruridir), MMO-nun idarə edilməsini bir nəfər müdir həyata keçirə bilər. İllik hesabatların dərc edilməsi, nizamnamədə və nizamnamə kapitalının həcmində dəyişikliklər edilməsi barədə xüsusi tələblər yoxdur. MMO-nun fəaliyyəti üçün kapitalın maksimal məbləği müəyyən edilməmişdir. Bu həm kiçik və orta, həm də iri müəssisələr yaratmağa imkan verir. MMO formasından istifadə edilməklə iri miqyasda fəaliyyətə mane olan amil MMO-nun qiymətli kağızlar buraxmasının qadağan edilməsidir. Bəzi ölkələrdə MMO səhmdar cəmiyyətləri ilə müqayisədə maliyyə xarakterli, o cümlədən mənfəətdən vergi tutulması məsələsində üstünlüklərə malikdir.

MƏHDUD REKLAM – reklam materiallarının kütləvi informasiya vasitələri cəlb olunmadan (satış yerlərində, poçtla, birbaşa müraciətdə, müxtəlif sərgilərdə) yayılması.

MƏHDUD REQRES (ing. *Limited recourse)* – 1. Müəyyən hüquqi, maliyyə və ya əməliyyat şəraitində kreditor borcalan tərəfindən yerinə yetirilməmiş



Sxem 1

öhdəliyin ödənilməsini tələb etmək üçün məhdud hüquqa malikdir. Adətən, reqressiv tələb hüququndan dələduzluq, faktların dəyişdirilməsi və ya məlumatın açıqlanmaması hallarında istifadə edilir. 2. Seküritizasiya kontekstində isə kreditorun (istiqraz saxlayıcısının) istiqrazın balansı və ya istiqrazların əsas borcunun qalıq hissəsi ilə məhdudlaşdırılmış öhdəliklərin ödənilməsini tələb etmək hüququ.

MƏHDUDİYYƏTLƏR – 1. Qanun və digər normativ aktlarla, dövlət orqanlarının qərarları ilə müəyyən edilmiş çərçivələr, hədlər, sərhədlər. 2. İqtisadi-riyazi modellərdə bu, resursların limitidir (mümkün həcmlərin maksimalı və ya minimalı). Məhdudiyyətlərin ən geniş yayılmış formaları əmtəələrin ixrac və idxalı, immiqrasiya sahəsindədir.

MƏHDUDLAŞDIRICI FƏALİYYƏT VASİTƏLƏRİ – təsərrüfat subyektlərinin bu və ya digər bazarda öz fəaliyyət sahəsini rəqiblərdən qorumaq və təcrid etmək, bununla da həmin bazarda rəqabəti məhdudlaşdırmaq üçün istifadə etdiyi vasitələr (ehtiyatların və satış kanallarının ələ keçirilməsi, təsərrüfat subyektlərinin qovuşması və birinin digərini öz tərkibinə daxil etməsi, bazarı bölmək məqsədilə sazişlər bağlanması, qiymətlərlə manipulyasiya, rəqiblərin boykot edilməsi, patent inhisarçılığı və s.).

MƏHDUDLAŞDIRILMIŞ DEPOZİT SERTİFİKATLARI – depozit sertifikatlarının bu növü alıcının onları başqasına satmamaq barədə "susmaya görə" razılığı olduqda emissiya edilir; emitent bank çox vaxt təkid edir ki, sertifikatı özündə saxlasın və bununla da razılıq barədə şərtlərin yerinə yetirilməyinə zəmanət verilmiş olsun.

MƏHƏRRƏMOV AMİL MƏMMƏDƏLİ OĞLU (1974) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1996-cı ildə Bakı Dövlət Universitetinin "Sosial elmlər və psixologiya" fakültəsini iqtisadi nəzəriyyə ixtisası üzrə bitirmişdir. 2001-ci ildə "Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı (xidmət və ticarət sahələrində)" mövzusunda namizədlik, 2010-cu ildə "Qloballaşma şəraitində Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasında gömrük siyasətinin for-



malaşması və inkişaf perspektivləri" mövzusunda doktorluq dissertasiyanı müdafiə etmişdir. 1999-2006-cı illərdə BDU-nun "Beynəlxalq iqtisadi münasibətlər və idarəetmə" kafedrasında müəllim, baş müəllim, dosent kimi fəaliyyət göstərmişdir. 2006-cı ildən 2011-ci ilədək yaranan "Gömrük işinin təşkili və idarəetmə" kafedrasının dosenti və kaferda müdiri vəzifəsində çalışmışdır. 2011-ci ildən BDU-nun "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri vəzifəsində çalışır.

Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən FD 04.013 daimi müdafiə şurasının üzvüdür. BDU tərəfindən buraxılan "Beynəlxalq hüquq və inteqrasiya problemləri" adlı elmi-analitik və praktiki jurnalın baş redaktor müavini və "Bakı Universitetinin xəbərləri" sosial-siyasi elmlər seriyası jurnalında redaksiya heyətinin üzvüdür.

2 monoqrafiyanın, 2 dərsliyin və 100-ə qədər elmi məqalənin müəllifidir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi onun yazdığı "İqtisadi diplomatiya" dərsliyini 25 dekabr 2008-ci il, 1348 saylı əmri ilə ali məktəblər üçün dərslik kimi təsdiq etmişdir. Bu dərslik 2009-cu ildə işıq üzü görmüşdür.

MƏHƏRRƏMOV DİLQƏM ADİL OĞLU (1928-1988) – Azərbaycanın görkəmli iqtisadçı alimi, aqrar sahə üzrə i.e.d., prof. 1951-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.



1961-1970-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda şöbə müdiri vəzifəsində çalışaraq, doktorluq dissertasiyasını müdafiə etmiş və iqtisad elmləri doktoru alimlik dərəcəsi adına layiq görülmüşdür.

1970-ci ildən ömrünün sonunadək Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında kafedra müdiri vəzifəsində işləmişdir.

MƏHSUL KLASSİFİKATORU – qüvvədə olan texniki standartları nəzərə almaqla məhsulun siniflərə bölgüsü sistemi (adətən, milli, dövlət).

MƏHSUL PORTFELİNİN TƏHLİLİ – bu araşdırmanın köməyi ilə təşkilatın rəhbərliyi onun təsərrüfat fəaliyyətinin ən səmərəli (mənfəətli) istiqamətlərini müəyyən etmək üçün bu fəaliyyətin müxtəlif istiqamətlərini qiymətləndirir. Ayrı-ayrı məhsullar təhlil edildikdə təşkilatın məhsul portfelinin təhlilindən və ya məhsul təhlilindən söhbət gedir. Təhlilin nəticələrinə əsasən, bəzi fəaliyyət istiqamətləri inkişaf etdirilir, qalanları isə səmərəsiz olduğu üçün onlardan imtina etmək lazımdır. Məhsul portfelinin təhlili zamanı ilk növbədə təşkilatın strateji təsərrüfat vahidlərini (STV) identifikasiya edirlər. Sonra təşkilatın inkişaf strategiyalarını işləyib hazırlamaq məqsədilə müxtəlif STV-lərin cəlbedicilik dərəcəsi qiymətləndirilir. Bu cür qiymətləndirmə üçün aşağıdakı metodlardan istifadə edilə bilər: "Bazarın artım sürəti – bazarda nisbi pay" matrisi (Boston Məsləhət Qrupunun – BMQ matrisi); STV-nin planlaşdırılma şəbəkəsi ("Ceneral elektrik" və ya MakKinzi korporasiyasının matrisi); "Rəqabət qabiliyyəti – həyat tsiklinin stadiyası" matrisi.

Məhsul portfeli təşkilatın strateji planı işlənib hazırlanarkən təhlil edilir.

MƏHSULA GÖRƏ MƏSULİYYƏT – mülki-hüquqi məsuliyyətin bir növü kimi istehsalçının məsuliyyətinin şərtsiz xarakterini nəzərə alaraq, onların əksəriyyəti bu riski sığortalayır və istehsal xərclərinin artmasını aparır.

MƏHSULA GÖRƏ SUBSİDİYALAR – hüquqi və fiziki şəxslər tərəfindən istehsal edilən, satılan, idxal edilən məhsul və xidmətlərin miqdarı və dəyərinə proporsional olaraq ödənilən subsidiyalar. İstehsal edilən məhsulun satış qiymətinin, göstərilən xidmətlərin orta istehsal xərclərindən aşağı təyin edilməsi nəticəsində baş verən daimi zərərlərə görə dövlət büdcəsindən müntəzəm ödənilən, ixrac və idxal subsidiyaları və s. ona aid edilir. Milli Hesablar Sistemində istifadə edilən göstəricidir.

MƏHSULA GÖRƏ VERGİLƏR – müəyyən növ məhsullara, xidmətlərə görə hüquqi və fiziki şəxslərin ödədikləri vergiləri xarakterizə edir. Ona daxil edilir: əlavə dəyər vergisi (ƏDV); aksiz vergisi; satışa görə vergi və s.; ayrı-ayrı xidmət növlərinə görə vergilər

(nəqliyyat, rabitə xidmətlərinə görə vergilər, sığorta vergiləri, reklam, əyləncələrə, oyun və lotereyalara, idman tədbirlərinə görə vergilər, incəsənət xadimlərinin vergiləri və s.); dövlət büdcəsinin gəlirlərini artırmaq məqsədilə müəyyən növ məhsul və xidmətlərin istehsalı və yerləşdirilməsinə qanunla inhisar hüququ verilən dövlət müəssisələrinin mənfəəti (fiskal inhisarçıların mənfəəti); idxal və ixrac vergiləri, gömrük rüsumları. Milli Hesablar Sistemində istifadə edilən göstəricidir.

MƏHSULA VƏ İDXALA XALİS VERGİLƏR – ÜDM-in tərkib hissəsi; məhsula və idxala subsidiyalar çıxılmaqla müəyyənləşdirilir. Məhsula görə vergilər, adətən, məhsul və xidmət vahidinə görə, yəni rezidentlər tərəfindən istehsal edilən, satılan və ya idxal edilən məhsul və xidmətlərin miqdarına, yaxud dəyərinə mütənasib olaraq alınan vergilərdir. Onlara daha geniş yayılmış aşağıdakı vergilər aid edilir:

– əlavə dəyər vergisi (ƏDV) və ƏDV tipli vergilər;

– aksizlər, satışa və satınalmaya görə vergilər, dövriyyədən vergilər və s.;

– ayrı-ayrı xidmət növlərinə görə vergilər (nəqliyyat, rabitə xidmətlərinə görə vergilər, sığorta vergiləri, reklama, əyləncələrə, oyun və lotereyalara, idman tədbirlərinə görə vergilər və s.);


– dövlətin gəlirlərini artırmaq məqsədilə müəyyən növdən olan əmtəə və xidmətlərin istehsalına və yerləşdirilməsinə qanunla inhisar hüququ verilən dövlət müəssisələrinin mənfəəti (fiskal inhisarların mənfəəti);

– idxal və ixrac vergiləri, gömrük rüsumları.

MƏHSULDAR ƏMƏK – bu və ya digər istehsal üsulunun, onun məhsuldar qüvvələrinin və istehsal münasibətlərinin təkrar istehsalında bilavasitə iştirak edən əmək. Məhsuldar qüvvələrin və istehsal münasibətlərinin ziddiyyətli vəhdəti olan istehsal üsulunun ikili strukturu məhsuldar əməyin ikili təbiətini şərtləndirir. Bir tərəfdən məhsuldar əmək cəmiyyətin məhsuldar qüvvələri baxımından faydalı (bazar münasibətləri şəraitində konkret) əməyin bu və ya digər növü kimi, yəni istehlak dəyərləri (bazar münasibətləri şəraitində əmtəələrin istehlak dəyərləri) yaradan əmək kimi xarakterizə edilir. Bu baxımdan məhsuldar əmək cəmiyyətin məhsuldar qüvvələrinin əşyavi (obyektiv) və ya şəxsi (subyektiv) elementlərinin təkrar istehsalında, özü də bu əməyin nəticəsinin əşya formasında, yaxud canlı əməyin faydalı effekti formasında, yəni xidmət formasında təcəssümündən asılı olmayaraq iştirak edir. Çünki cəmiyyətin məhsuldar qüvvələrinin, ilk növbədə, onların şəxsi elementlərinin təkrar istehsalında əməyin əşyalaşmış məhsulu ilə yanaşı, xidmətlər də iştirak edir. Bu halda maddi istehsal məhsulu həm istehsalın özünün, həm də əşyalaşmış istehlak dəyərləri istehsal etməyən xidmətlər sahəsinin fəaliyyəti, eləcə də qeyri-istehsal sahəsi üçün fond rolu oynayır. Maddi istehsalın bazis rolu bununla müəyyən edilir. Bu baxımdan istehlak dəyərləri istehsal etməyən əmək (məsələn, dövlət aparatında, orduda, polisdə xidmətlə bağlı əmək) məhsuldar əmək deyildir.

Lakin məhsuldar əməyin bu tərifi yarımçıqdır, çünki o, əməyi yalnız məzmun baxımından, onun faydalı effekti baxımından xarakterizə edir. Bu və ya digər cəmiyyətdə hakim istehsal münasibətləri sisteminə daxil olduqda əməyin kəsb etdiyi ictimai forma kənarda qalır.

Məhsuldar əməyin ikinci cəhəti onu məhz müəyyən cəmiyyətdə hakim istehsal münasibətlərinin son nəticələri üzərində mülkiyyət münasibətlərinin təkrar istehsalında iştirak etmək baxımından səciyyələndirir. Məsələn, kapitalizm şəraitində bu və ya digər istehlak dəyərlərini yaradan, lakin kapitalın dəyərinin öz-özünə artması prosesində, yəni ictimai istehsalın, kapitalist münasibətlərinin təkrar istehsalı prosesində iştirak etməyən xırda əmtəə istehsalçısının əməyi məhsuldar əmək deyildir. Lakin muzd müqabilində kapitalist üçün işləyən və eyni istehlak dəyərlərini istehsal edən işçinin əməyi məhsuldar əmək kimi çıxış edir. Xırda əmtəə istehsalçısının əməyi ilə muzdlu fərdlərin əməyinin bu müqayisəsindən göründüyü kimi, onların əməyinin məzmunu eyni olsa da (onlar eyni istehlak dəyərlərini istehsal edirlər), onların əmək əkləri arasında fərq yalnız bir tərəfdən xırda əmtəə istehsalçısının, digər tərəfdən muzdlu fəhlənin əməyinin hansı formada çıxış etməsindən ibarətdir. Bu baxımdan müəyyən əməyin məhsuldar



Sxem 1

əmək qismində çıxış edib-etməyini təyin etmək üçün məhz həmin fərq həlledici rol oynayır. Beləliklə, məhsuldar əmək ikili iqtisadi fenomendir, çünki bir tərəfdən ictimai istehlak dəyəri istehsal edən, digər tərəfdən müəyyən ictimai istehsal münasibətlərinin sosial iqtisadi sistemində təkrar istehsalda bilavasitə iştirak edən hər bir əmək məhsuldar əməkdir. Məsələn, kapitalist istehsal üsulu şəraitində xidmətlər şəklində maddi və ya qeyri-maddi istehlak dəyəri yaradan və eyni zamanda kapitalın özünün artması prosesində iştirak edən əmək məhsuldar əməkdir.

Məhsuldar əmək problemi ilk dəfə XVI-XVII əsrlərdə merkantilistlər tərəfindən irəli sürülmüşdür. Onlar məhsuldar əmək dedikdə tədavül sahəsində əməyi (ilk növbədə ticarətçilərin əməyini) nəzərdə tuturdular. Onların fikrincə, məhz bu cür əmək cəmiyyətin sərvətlərinin mənbəyidir. Merkantilistlər bu əməyi qiymətli metallar, qızıl və gümüş ilə eyniləşdirirdilər. U.Petti bu məsələdə aralıq mövqe tuturdu. O, merkantilistlərin mövqeyinə şərik çıxaraq əşya (maddi) şəklində əmək məhsulları istehsal edən işçiləri də məhsuldar əmək sahəsinə aid edirdi. Fransada fiziokratların başçısı olmuş F.Kenenin fikrincə, məhsuldar əmək kənd təsərrüfatı istehsalında məşğuliyyətə sərf edilmiş əməkdir. Fiziokratlar elə hesab edirdilər ki, cəmiyyətin sərvəti yalnız bu sahədə yaranır. İngilis klassik məktəbinin nəzəriyyəçisi A.Smit buna əks, lakin metodoloji baxımdan çox məhsuldar baxış yaratmışdır. O, məhsuldar əmək barədə iki nöqteyi-nəzərə əsaslanırdı. Əvvəla, o, maddi əşyalar yaradan əməyi məhsuldar əmək hesab edirdi; ikincisi, o, məhsuldar əməyə mənfəət gətirən əməyi aid edirdi. Bununla əlaqədar əməyin ikili təbiəti baxımından məhsuldar əməyə yanaşmaq zərurəti elmi mövqedən qiymətli fikirdir. Lakin o, xidmətlər sahəsində əməyi məhsuldar əməkdən istisna etməklə ciddi səhvə yol verirdi. K.Marksın nəzəriyyəsinə müvafiq olaraq, məhsuldar əmək hər hansı (əşya formasında və ya xidmətlər formasında) ictimai istehlak dəyəri yaradan və eyni zamanda izafi dəyər istehsal edən, bununla da kapitalizm cəmiyyətinin məhsuldar qüvvələrinin istehsal münasibətlərinin təkrar istehsalında iştirak edən əməkdir (bax:



məsələn, K.Marks. Kapital, c.1. s. 517).

Müasir neoklassik iqtisadçılar yaşadıqları cəmiyyətin reallıqlarından çıxış edərək hər bir əməyin öz ödənilmə ölçüsündə məhsuldar olmasına dair fikirlər irəli sürürlər. Deməli, məhsuldar və qeyri-məhsuldar əmək barədə fikirlərin təkamülü davam edir və bu məsələ iqtisadi fikir tarixindən çıxmamışdır.

Sovet iqtisadi ədəbiyyatında məhsuldar əmək barədə A.Smitin birinci nəzəriyyəsi faktiki olaraq dəstəklənirdi. Belə hesab edilirdi ki, məcmu ictimai məhsul yaradılmış maddi nemətlərin məcmusudur və maddi istehsal sahələrinin ümumi məhsulunun cəmi kimi təyin edilir. Bununla da xidmətlər sferası ikinci dərəcəli sfera kimi qiymətləndirilirdi. Azad bazar münasibətləri quran ölkələrdə Ümumi Daxili Məhsulun (ÜDM) strukturunda xidmət sahəsinin xüsusi çəkisinin artması xeyli güclənir. Azərbaycanda bu problemi keçən əsrin 60-cı illərində i.e.d., prof. M.Allahverdiyev və akademik Z.Səmədzadə tədqiq etmişlər.

MƏHSULUN DİFERENSİASİYASI – 1. İstehlakçılar tərəfindən yaxın substitut (əvəzedici) mallara qoyulan fərqlər; hazırlayıcı (istehsal) firmalar (və ya mal göndərənlər) tərəfindən xüsusi olaraq yaradılır. 2. İnhisarçı rəqabət və ya oliqopoliya şəraitində firmanın strategiyasıdır. Məhsulun diferensiasiyası istehlakçıların tələblərinin dəyişkənliyinin qiymətlərin müxtəlif səviyyələrinin müəyyənləşdirilməsi üçün istifadə edilə biləcəyi şəraitdə satıcıların mənfəətinin maksimallaşmasına səy göstərilməsidir. İstənilən bazar üçün məhsulun diferensiasiyasının əhəmiyyəti alıcının bir məhsulu digəri ilə əvəz etmək üçün onlar arasındakı fərqləri qəbul etməsindən asılıdır. Məhsulun diferensiasiyası real və "ötəri" ola bilər. Bazarda malların hərəkəti və reklamı üzrə xüsusi marketinq proqramları eyni adda olan məhsullar üzrə "ötəri" fərq yaradır. Məhsulun diferensiasiyasının "ötəri" nümunəsi yuyucu tozların müxtəlifliyi, məhsulun diferensiasiyasının real nümunəsi avtomobillərin müxtəlif markalarıdır. Firmalar məhsulun diferensiasiyası strategiyasından istehlakçıların tələblərinin rəqib firmaların məhsullarından hətta çox kiçik fərqlərə malik olan məhsullara istiqamətlənməsi üçün istifadə edirlər. Nəticədə onlar öz məhsullarına tələbin artmasına və onun elastikliyinin azalmasına nail olurlar (bu, reklamın yeni substitut təklifinə qədər mümkündür). Məhsulun uğurlu diferensiasiyası firmaya müəyyən inhisarçı mövqe qazandırır – yeni qiymətlər müəyyən etməyə və daha yüksək qiymətə daha çox məhsul satmağa imkan

yaranır. Ölkə təsərrüfatının bu və ya digər sahəsində məhsulun diferensiasiyasının səviyyəsi haqqında fikir söyləmək üçün mal satışından əldə edilən gəlirdə reklama, ticarət məsrəflərinə və s. ayrılan xərclərin payına nəzər salmaq lazımdır.

MƏHSULUN DİVERSİFİKASİYASI – eyni məhsulun modifikasiya sayının genişlənməsi. Məhsulun real diversifikasiyası istehlakçıların tələblərini ödəyir. Lakin məhsulun diversifikasiyasının həqiqi olmayan forması da mövcuddur ki, bu zaman əmtəənin keyfiyyət xarakteristikası dəyişməz qalır. Yalnız onun dizaynı və qablaşması dəyişir, ancaq bazarda bu əmtəə daha yüksək qiymətə təklif olunur.

MƏHSULUN ƏMƏK TUTUMU – müəyyən müəssisədə məhsulun bir vahidinin istehsalı üçün bütün canlı əmək məsrəflərinin cəmini əks etdirən göstərici. Buraya müəssisənin bütün kateqoriyalardan olan işçilərinin əmək məsrəfləri daxildir: əsas və yardımçı fəhlələr, rəhbərlər, mütəxəssislər, qulluqçular və s. Əmək məsrəflərinin tərkibindən, istehsal prosesində onların yerindən asılı olaraq, məhsulun hazırlanmasının tam əmək tutumunun tərkib hissələrinə aşağıdakılar daxildir: texnoloji əmək tutumu – əmək alətlərinə texnoloji təsir göstərən fəhlələrin əmək məsrəfləri müəssisənin əmtəə məhsulunda nəzərə alınır (onların formasının, vəziyyətinin, fiziki, kimyəvi və başqa xassələrinin məqsədəuyğun şəkildə dəyişməsi); istehsal əmək tutumu – bütün fəhlələrin (əsas və yardımçı sexlərin fəhlələrinin) əmək məsrəfləri; istehsala xidmətin əmək tutumu – əsas sexlərin yardımçı fəhlələrinin və istehsala xidmətlə məşğul olan yardımçı sexlərin və xidmətlərin bütün fəhlələrinin əmək məsrəfləri; istehsalın idarə edilməsinin əmək tutumu – rəhbərlərin, mühəndis-texniki işçilərin (MTİ), qulluqçuların, kiçik xidmət heyətinin (KXH), keşikçilərin əmək məsrəfləri.

Məhsulun əmək tutumu göstəricisi müəssisənin əmtəə məhsullarına daxil edilən məmulat və xidmətlərin bütün nomenklaturu üzrə məhsulun hər vahidi üçün natural ifadədə təyin edilir. Geniş çeşidli məhsullar buraxan müəssisələrdə əmək tutumu eyni tipli məmulat qruplarının nümayəndələri üzrə hesablana bilər. Bu halda bütün məhsul bu cür qruplarla ifadə olunur.

MƏHSULUN HƏYAT TSİKLİ – məhsulun (əmtəənin) yaradılmasından başlamış bazarda onun tələb olunmasının başa çatmasına və istehsalın dayandırılmasına qədər olan zaman. Başqa sözlə, əmtəənin bazara daxil olmasından başlamış onun bazardan çıxarılmasına qədər – məhsulun satışı, mənfəəti, istehlakçıları, rəqibləri və marketinq strategiyasını təsvir etməyə cəhd göstərən konsepsiyadır. Ümumi halda bura işlənib hazırlanma, istehsalın mənimsənilməsi, istehsal və satış, istismar mərhələləri daxildir. İşlənib hazırlanma və istehsalın mənimsənilməsi mərhələsində firma istehsaldan əvvəlki xərcləri daşıyır, sonra bir qədər sabitlik səviyyəsinə qədər istehsal və satışın həcminin artması baş verir, bundan sonra bir çox hallarda rəqabət aparan məhsulun əmələ gəlməsi, tələbin dayanması və s. nəticəsində bu göstəricilərin (istehsalın dayandırılmasına qədər) azalması başlanır. Əgər istehsalın dayandırılmasından sonra və məhsulun istismarının başa çatmasına qədər olan dövrdə o, öz xarakterinə görə təmir və xidmət tələb edərsə, istehsalçı ehtiyat hissələrinin hazırlanmasına və servis xidmətlərinin göstərilməsinə davam edəcəkdir. Məhsulun həyat tsiklinin hesablanması zamanı bütövlükdə onun məhsuldarlığı, onu təşkil edən maddələr, istehsalın həcminin artımı, sabitləşmə dövrü, qanunauyğunluğu, eləcə də məhsulun buraxılışının azalması qanunauyğunluğu müəyyən olunur. Məhsulun həyat tsiklinin hesablanması strategiyanın işlənməsi və firmadaxili planlaşdırma zamanı, zəruri istehsal güclərinin; yeni (alternativ) məhsul istehsalının hazırlanmasının başlanması müddətlərinin, ehtiyat hissələri hazırlanması həcminin və müddətlərinin və s. müəyyən edilməsi zamanı istifadə olunur.

MƏHSULUN KEYFİYYƏTİNƏ GÖRƏ MƏSULİYYƏT SIĞORTASI – məhsulun pis keyfiyyəti üzündən məhsulun istehlakı nəticəsində istehlakçıya əmlak zərərinin dəyməsi zamanı məhsulun istehsalçılarının onun istehlakçıları qarşısında məsuliyyətinin sığortalanması.

MƏHSULUN KEYFİYYƏTİNİN MÜƏYYƏN EDİLMƏSİ – keyfiyyətin müxtəlif metodlarla ölçülməsi üsulları.



Bu, 4 üsulla müəyyənləşdirilir: ölçü üsulu, qeydiyyat üsulu, hesablama üsulu və hiss üzvləri vasitəsilə.

Ölçü üsulu keyfiyyət göstəricisini texniki vəsaitlərin köməyi ilə çəki, nəmlikölçən, yağölçən və s. alətlərlə ölçü və təhlil məlumatlarına əsaslanır. Ölçü üsulu ilə keyfiyyət göstəricisinin kütləsi, zülalın miqdarı, yağlılığı, vitamin və s. dəqiq müəyyən edilir. Laboratoriya üsulunda istifadəetmə dairəsi fiziki, kimyəvi, optik, bioloji, fizioloji, texnoloji ölçülərlə ifadə oluna bilir və keyfiyyətin parametrlərini müəyyən etməyə imkan verir.

Qeydiyyat üsulu texniki üsullarla ölçülməyən, lakin qeydiyyat vaxtı aşkar olunan əlamətlərin hesaba alınmasını nəzərdə tutur. Həmin keyfiyyət əlamətləri görmək və eşitməklə aşkar edilə bilər.

Hesablama üsulu keyfiyyətin bir sıra göstəriciləri – yunun qırılma uzunluğu, lif çıxımı, məhsulun sınaq vaxtı möhkəmliyi, daşınmağa yararlığı, xammalın qatışıqlığı, texnoloji, fiziki-kimyəvi və bioloji tərkibi ilə əlaqədar sınaq vaxtı keyfiyyət səviyyəsini müəyyən etməyə imkan verən ilkin məlumatlara əsaslanır. Bu üsulla keyfiyyət əlamətlərinin dəyişməsi qanunauyğunluğu öyrənilir və keyfiyyətin proqnozlaşdırılmasında elektron-hesablama texnikasının köməyindən istifadə olunur.

Hiss üzvləri vasitəsilə otqanoleptik üsulla məhsulun xarici görkəmi, rəngi, dadı, qoxusu, konsistensiyası və s. müəyyən edilir. Keyfiyyət əlamətləri haqqında bu üsulla daha obyektiv və etibarlı məlumat almaq olar.

MƏHSULUN PAY BÖLGÜSÜ HAQQINDA SAZİŞ – mineral ehtiyatlar hasilatı sahəsinə xarici investisiyalar axınının təmin edilməsinə və Yerin təkinin mülkiyyətçisi olan dövlət ilə fərdi xarici investor arasında mülki müqavilə şəklində onların münasibətlərini tənzimləyən hüquqi əsas yaradılmasına yönəlmiş saziş. Məhsulun pay bölgüsü haqqında saziş Azərbaycan Respublikasının ərazisində, kontinental şelfdə və ya Azərbaycan Respublikasının müstəsna iqtisadi zonasında mineral xammalın axtarışı, kəşfiyyatı və ya hasilatı üçün xarici investisiyalar qoyuluşu prosesində yaranan münasibətlərin təsir sahələrini müəyyən edir. Məhsulun pay bölgüsü haqqında sazişlərin həyata keçirilməsi mürəkkəb təbii-iqlim və mədən-geoloji şəraitdə yerləşən mineral xammal yataqlarının, onların mənimsənilməsi üçün, bir qayda olaraq, Azərbaycan Respublikasında olmayan ən yeni texnologiyaların mənimsənilməsinə yönəlmiş əlavə yığımları təmin edir, iş yerlərini saxlamağa, yerli müəssisələrin avadanlıq və materialları üçün sifarişlərlə təmin etməyə imkan verir. Məhsulun pay bölgüsü haqqında sazişə müvafiq olaraq Azərbaycan Respublikasında Yerin təkinin sazişdə müəyyən edilmiş hissəsində mineral xammal axtarışı, kəşfiyyatı, hasilatı üzrə, eləcə də bununla əlaqədar işlərin aparılması üçün müstəsna hüquqları təmənnasız olaraq və müəyyən vaxta sahibkarlıq fəaliyyətinin subyektinə verir, investor isə həmin işləri öz hesabına və öz riskinə həyata keçirməyi öhdəyə götürür. Məhsulun pay bölgüsü haqqında sazişin səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

1) investorun ona mülkiyyət hüququ əsasında məxsus olan məhsullar Azərbaycan Respublikasının gömrük ərazisindən bu və ya digər ixrac məhdudiyyətləri, o cümlədən kvotalaş-

dırma və lisenziyalaşdırma tətbiq edilmədən, eləcə də həmin xammalı xüsusi kommersiya, qeyri-kommersiya təşkilatları vasitəsilə satmaq barədə investora məcburi tələblər təqdim edilmədən Azərbaycan Respublikasının ərazisindən daşınmış məhsul barəsində hüquqlarının müəyyənləşdirilməsi;

2) vergitutma, vergilərin və rüsumların ödənilməsi üçün xüsusi qaydaya əsasən, Yerin təkindən istifadə edilməsinə görə tutulan tədiyələr və mənfəət vergisi istisna olmaqla, həmin yığımlar dövlət və investor arasında məhsul bölgüsü ilə əvəz edilir;

3) dövlət məhsul bölgüsü haqqında sazişin qüvvədə olduğu müddətdə Azərbaycan Respublikasının qanunvericiliyində dəyişikliklərdən asılı olmayaraq investorların təsərrüfat fəaliyyəti şəraitinin sabitliyinə zəmanət verir.

Məhsul bölgüsü haqqında sazişin iştirakçıları aşağıdakılardır:

1) Azərbaycan Respublikası hökumətinin şəxsində dövlət;

2) Yerin təkinin istifadəyə verilən sahəsinin yerləşdiyi ərazinin icra hakimiyyəti orqanı;

3) Azərbaycan Respublikasının vətəndaşları olan və ya əcnəbi investorlar, Azərbaycanın və xarici ölkələrin hüquqi şəxsləri və ya hüquqi şəxslərinin birliyi.

MƏHSULUN REALLAŞDIRILMASINDAN, İŞLƏRİN YERİNƏ YETİRİLMƏSİNDƏN, XİDMƏT GÖSTƏRİLMƏSİNDƏN MƏNFƏƏT – şirkətin balans mənfəətinin hissəsidir ki, birbaşa olaraq əmək fəaliyyətinin əsas növlərinin maliyyə nəticəsinin təmin edilməsi ilə bağlıdır. Hər iş növü üzrə ayrı-ayrılıqda müəyyən olunur. Maliyyə nəticəsi məhsulun reallaşdırılmasından (işlərin yerinə yetirilməsi, xidmət göstərilməsi) mədaxillə istehsal və satışa məsrəflər arasındakı fərqlə əks olunur. Mədaxil əlavə dəyər vergisi, aksizlər, ixrac rüsumları və digər çıxılmalar nəzərə alınmadan qəbul edilir.

MƏHSULUN RENTABELLİYİ – məhsulun (işlərin, xidmətlərin) müəyyən növünün satışından əldə edilən mənfəətin həmin məhsulun istehsalına və satışına çəkilmiş xərclərə nisbəti ilə müəyyən edilən göstərici, yəni:

$$P_n = ((Q - MD) / MD) \times 100.$$

Burada: P_n – məhsulun rentabelliliyi, %;

Q – həmin məhsulun buraxılış qiyməti;

MD – həmin məhsulun hazırlanmasının tam maya dəyəridir.

Bütün əmtəə məhsulunun rentabelliliyini ($R_ə$) aşağıdakı düstur vasitəsilə təyin etmək olar:

$$R_ə = (M_ə / MD_ə) \times 100.$$

Burada: $M_ə$ – əmtəə məhsulunun atışından əldə edilən mənfəət; $MD_ə$ – həmin məhsulun hazırlanmasının tam maya dəyəridir.

MƏHSULUN SERTİFİKATLAŞDIRILMASI – məmulatın və ya xidmətin müəyyən standartlara və ya texniki şərtlərə müvafiq olmasını təsdiq etmək məqsədilə aparılan tədbir. Sertifikatlaşdırma aşağıdakı prinsiplər üzrə həyata keçirilir:

1) dövlətçilik – məhsulun təhlükəsizlik baxımından qiymətləndirilməsi zamanı dövlətin mənafelərinin nəzərə alınması;

2) könüllülük;

3) obyektivlik – qiymətləndirmə məhsulun istehsalçısından və istehlakçısından asılı olmayaraq həyata keçirilməlidir;

4) yəqinlik – məlumatlar peşəkar sınaq bazasından istifadə edilməsinə əsaslanmalıdır;

5) demokratiklik – istehsalçının sertifikatlaşdırma orqanını öz mülahizəsinə görə seçmək imkanı;

6) sertifikatlaşdırma prosesinin iştirakçılarının məsuliyyəti;

7) sertifikatlaşdırmanın gedişində alınmış nəticələrin tətbiq edilməsinin çoxfunksiyalı olması;

8) alınmış informasiyadan açıq istifadə etmək imkanı;

9) sertifikatlaşdırma formalarının və üsullarının müxtəlifliyi.

MƏXFİLİK PRİNSİPİ – müəssisənin kommersiya sirrinə riayət edilməsini təmin edən mühasibat uçotu prinsipi. Onun yayılmasına görə qanunla müəyyən edilən məsuliyyət nəzərdə tutulmuşdur.


MƏİŞƏT SİFARİŞİ – podrat müqaviləsinin bir növü. Qəbzlə təsdiqlənən yazılı şəkildə və ya şifahi formada bağlanır. Qəbzdə müqavilənin iştirakçıları və onun bütün mühüm şərtləri haqqında məlumatlar (sifarişin predmeti, işin dəyəri, icra müddəti) göstərilməlidir, qəbzdə həmçinin işlərin bu və ya digər növü üçün başqa spesifik şərtlər göstərilə bilər. Məişət sifarişi haqqında normativ aktlarda məişət xidməti təşkilatlarının və vətəndaşların hüquq və vəzifələrini, həmçinin tərəflərdən hər birinin müqavilə şərtlərini pozmasının nəticələrini təsbit edən qaydalar olmalıdır.

MƏİŞƏT TULLANTILARI – istehlak xüsusiyyətini itirmiş mallar. Dünyada hər il məişət tullantılarının həcmi 3% artır (bax: sxem 1, cədvəl 1, 2). Bakı şəhərində məişət tullantılarının yığılması, daşınması, yerləşdirilməsi və zərərsizləşdirilməsi sisteminin müasir standartlara uyğunlaşdırılması və idarə olunması məqsədilə "Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli Sərəncamı ilə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti yaradılmış və onun səhmlərinin idarəçiliyi İqtisadi İnkişaf Nazirliyinə həvalə edilmişdir. Görülmüş tədbirlər nəticəsində Balaxanı poliqonu ərazisində tüstülənmə dayandırılmış, qəbul olunan bərk tullantıların uçot sisteminin tətbiq olunmuş, ərazinin hamarlanması və torpaqlanması, daxili yolların çəkilişi və bərpası, tullantıların yeni qəbuletmə meydançasının qurulması, xüsusi çeşidləmə sahəsinin yaradılması, mühafizə sisteminin qurulması, tullantılardan təmizlənmiş sahədə geniş yaşıllaşdırma işləri həyata keçirilmişdir. Layihə çərçivəsində Qafqaz regionunda müvafiq sahədə yeganə olan, illik gücü 500 min ton təşkil edən və ildə 231,5 mln. kVt/s elektrik enerjisi istehsal edən Bərk Məişət Tullantılarının Yandırılması Zavodu 2012-ci ilin sonuna qədər istismara veriləcək və onun fəaliyyəti nəticəsində tullantıların ümumi kütləsi 3, həcmi isə 10 dəfə azalacaq.

MƏKAN UYĞUNSUZLUĞU – məhsul istehsalçısı ilə istehlakçıları arasında coğrafi uyğunsuzluq.

MƏKİKLƏR (ing. *shuttle*) – bazarlarda (bəzən xarici bazarlarda) geniş istehlak mallarını ucuz qiymətə topdansatış xartiyaları ilə alan və həmin malları yerli bazara gətirərək orada bu

Ölkələr üzrə il ərzində adambaşına düşən məişət tullantıları, kq (2010)



Sxem 1

Cədvəl 1

Bəzi ölkələrdə məişət tullantılarının tərkibi

Tullantıların növləri	ABŞ	Avropa	Koreya	Rusiya
Kağız	38,1%	33,5%	27%	35%
İri qabaritli tullantılar	12,1%	12,2%	-	-
Qida/orqanik tullantılar	10,9%	34,7%	23%	40%
Plastik	10,5%	11,6%	7%	6%
Metallar	7,8%	5,3%	9%	4%
Rezin, dəri, tekstil	6,6%	-	3%	1%
Şüşə	5,5%	2,8%	5%	3%
Taxta	5,3%	21%	4%	2%
Digərləri	3,2%	-	20%	12%

Cədvəl 2

Dünya ölkələrində məişət tullantılarının axını istiqaməti (2009)

Ölkə	İdarə etmə üsulu					
	Basdırılma	Enerji vasitəsi ilə yandırılma	Komposter-ləşdirmə	Təkrar istifadə	Basdırıldıqdan qabaq biomexaniki emal edilməsi	Məlum deyil
ABŞ	57%	15%	-	28%	-	-
Almaniya	30,2%	12,3%	17,9%	37,1%	-	2,6%
Avstraliya	20,4%	13,3%	22,9%	29,7%	6,0%	7,7%
Belçika	37,3%	31,2%	16,3%	12,4%	-	2,9%
Birləşmiş Krallıq	86,2%	5,7%	3,0%	5,1%	-	-
Danimarka	5,3%	54,3%	29,6%	10,4%	0,4%	-
Finlandiya	65,2%	3,0%	4,2%	27,6%	-	-
Fransa	40,3%	28,6%	8,9%	3,5%	-	11,2%
İrlandiya	90,3%	-	0,5%	9,3%	-	-
İspaniya	74,6%	21,0%	3,1%	1,2%	-	0,1%
İtaliya	62,9%	5,9%	8,8%	9,9%	-	-
Koreya	46%	4%	-	42%	-	-
Niderland	13,1%	36,6%	33,3%	19%	-	-
Norveç	59.0%	17.0%	5.0%	20.0%	-	-
Rusiya Fed.	97%	1,0%	0,3%	1,0%	-	-



Bərk Məişət Tullantılarının Yandırılması Zavodu

malların xırda topdansatış və pərakəndə ticarəti ilə (adətən özləri) məşğul olan xırda alverçilər.

MƏKTUB-SAZİŞ (*Engagement letter*) – məktub-saziş vasitəsilə auditorun təyinatı qəbul etməsi, auditin məqsədləri və əhatə dairəsi, müştəri ilə bağlı məsuliyyətinin miqyası və təqdim ediləcək hər hansı hesabatın forması sənədləşdirilir və təsdiq edilir.

MƏQAM LİKVİDLİK ƏMSALI – bankın etibarlılıq meyarı; bunun kəmiyyəti bankın aktivlərinin likvidliyinin onun tələb olunan qədər öhdəliklərinə nisbətinə bərabərdir; xüsusi kredit resursları kimi müştəri pullarının bank tərəfindən nə qədər fəal istifadəsini, cari hesablaşma hesabında olan qalıq üzrə faizlərin alınmasına müştərilərin nə qədər iddialı olmasını, tədiyələri sürətlə yerinə yetirməyə bankın imkanları ilə onların tədiyə tapşırıqlarının nə qədər təmin edilməsini göstərir.

MƏQBUL TEXNOLOGİYA – texnologiyanın məqbul olması üçün o, istehsal amilləri ilə təchizatın mövcud səviyyəsinə uyğun olmalıdır. İnkişaf etməkdə olan ölkələrdə, adətən, o qədər də çox olmayan investisiya imkanları və xeyli işçi qüvvəsi mövcud olur. Ona görə də burada intensiv əmək texnologiyalarından istifadə edilməsi daha məqbul ola bilər.

MƏQSƏDLƏR AĞACI – sistem və ya ümumi problemin məqsədlər strukturu. Belə ağac ümumi məqsədi müəyyənləşdirməklə proses zamanı ümumi məqsədə çatmağa kömək edəcək ara məqsədləri də müəyyənləşdirir. Bir şərtlə ki, hər bir ara məqsəd özündən sonrakı məqsədə çatmağa xidmət etmiş olsun.

MƏQSƏDLƏR ÜZRƏ İDARƏETMƏ – idarəetmənin, idarəetmə təsirlərinin elə həyata keçirilməsidir ki, bu zaman idarə olunan obyektin fəaliyyəti əvvəllər qoyulmuş məqsəd və vəzifələrə nail olmasına yönəlmiş olsun. Belə idarəetməni həmçinin proqram-məqsədli adlandırırlar.

MƏQSƏDLİ BORC – bu borc haqqında müqavilə borcalan tərəfindən alınmış vəsaitlərin müəyyən məqsədlər üçün istifadəsi şərti ilə bağlanır. Bu halda borcalan borcun məbləğinin məqsədli istifadəsinə borcverən tərəfindən nəzarət imkanını təmin etməyə borcludur. Borcun məbləğinin məqsədli istifadəsi haqqında şərtin borcalan tərəfindən yerinə yetirilməməsi halında borcverən, əgər müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa, borcun məbləğinin vaxtından əvvəl qaytarılmasını və ona çatacaq faizlərin ödənilməsini borcalandan tələb etməyə haqlıdır.

MƏQSƏDLİ ƏMANƏT – müəyyən növ əmtəələrin (avtomobillərin, evin və s.) alınması, eləcə də müəyyən məqsədlərlə vəsaitlərin yığılması üçün nəzərdə tutulan uzunmüddətli əmanət. Bu cür əmanətlər üzrə məxaric (məsrəf) əməliyyatları aparılmır. Məqsədli əmanət üçün vəsaitlərin yığılması müəyyən məbləğin bu əmanətə müntəzəm olaraq köçürülməsi (məsələn, aylıq) yolu ilə həyata keçirilir. Bəzi ölkələrdə (məsələn, Rusiyada) Əmanət Bankı uşaqlar üçün məqsədli əmanət qəbul edir. Bu da əmanətçi ilə qohumluq münasibətlərindən asılı olmayaraq, hər hansı bir şəxs tərəfindən 16 yaşına çatmış uşağın hesabına köçürülə bilər. Bu cür əmanətin saxlama müddəti – 10 ildən az deyil. İlkin haqq yalnız nağd pul köçürən şəxs tərəfindən aparılır, əlavə haqlar

isə nağdsız hesablaşmalarla aparıla bilər. Əmanətçinin (yəni uşağın) adına tərtib edilmiş əmanət kitabçası öz pasportunu ilkin əmanət zamanı təqdim edən köçürən şəxsə verilir. Bu əmanətdən məbləğin hissə-hissə verilməsi aparılmır. Uşaqlar üçün məqsədli əmanət 10 ildən az olmayaraq, əmanətin saxlanması şərti zamanı 16 yaşına çatmış və ondan yuxarı olan əmanətçiyə verilir. Əmanətə görə gəlir eyni zamanda bütün əmanətin məbləğindən ödənilir. Əmanətçinin 16 yaşına çatmasına qədər və faizlərlə birlikdə əmanətin köçürülməsi günündən 10 illik saxlama müddəti bitənədək əmanət yalnız şəxsi hesabı açan şəxsə ödənilir və heç bir digər şəxsə, o cümlədən əmanətçiyə, onun qohumlarına və ya digər qanuni nümayəndələrinə əmanətin ödənilməsi həyata keçirilmir. Bu halda əmanətə görə gəlir tələb olunana qədər əmanətlər üçün müəyyən olunmuş həcmdə ödənilir.

MƏQSƏDLİ FONDLARA AYIRMALAR – istifadəsi məqsədli xarakter daşıyan xüsusi dövlət və yerli fondlara ayırmalar. Onlara aiddir: sosial sığorta fondu, tibbi sığorta fondu, pensiya fondu və s.

MƏQSƏDLİ QİYMƏTLƏR – sərbəst bazar qiymətlərinin hərəkətinin yuxarı həddini müəyyən etmək üçün istifadə olunur. Məqsədli qiymət əsasında müəyyən edilən həd (hüdud) qiymətləri idxal olunan ərzaq mallarının gömrük rüsumlarının hesablanması üçün nəzərdə tutulur.

MƏLUMAT VERƏN – polisi əldə etmək və sığorta mükafatını ödəmək arzusunda olan şəxs.

MƏMMƏDLİ OQTAY QULAM OĞLU (1940) – Azərbaycan iqtisadçısı, iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent.



1961-ci ildə Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda müəllim kimi başlamışdır. 1970-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. 1971-ci ildə müsabiqə yolu ilə Gəncə Dövlət Pedaqoji İnstitutuna keçmişdir. 1977-1981-ci illərdə institut həmkarlar komitəsinin sədri, 1983-1990-cı illərdə siyasi iqtisad kafedrasının müdiri vəzifələrində çalışmışdır. 21 dərs vəsaitinin, 200-dən artıq elmi məqalənin müəllifidir. 1982-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Qabaqcıl ali məktəb işçisi" döş nişanına, "Bilik" cəmiyyətinin fəxri fərmanlarına, 2009-cu ildə isə Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, "Tərəqqi" medalına layiq görülmüşdür. Hazırda Gəncə Dövlət Universitetinin dosentidir. Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində yaradılmış iqtisad elmləri üzrə birləşmiş dissertasiya şurasının üzvüdür.

Əsərləri: "İqtisadi nəzəriyyə", Gəncə, 2004, 34,5 ç.v.; "Bazar iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsi", Bakı, 2006, 27 ç.v.; "Milli iqtisadiyyatın tənzimlənməsi", Bakı, 2008. 35 ç.v.; "Statistika nəzəriyyəsi", Bakı, 2009, 34,5 ç.v.; "Sosial-iqtisadi statistika", Bakı, 2011, 25,3 ç.v.

MƏMMƏDOV AYDIN İSRAFİL OĞLU (1941-2001) Azərbaycanın görkəmli iqtisadçı alimi, AMEA-nın müxbir üzvü (2001).



1960-cı ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (AKTİ) kənd təsərrüfatının iqtisadiyyatı fakültəsinə daxil olmuşdur. A.Məmmədov 1965-ci ildə AKTİ-ni fərqlənmə diplomu ilə bitirib kafedrada assistent işləmiş və 1967-ci ildə istehsalatdan ayrılmaqla K.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasının aspiranturasına qəbul olunmuşdur. 1970-ci ildə A.Məmmədov "Azərbaycan SSR-də pambığın məhsuldarlığının iqtisadi-statistik təhlili və uzunmüddətli proqnozlaşdırılması" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1985-ci ildə AKTİ-nin kənd təsərrüfatının iqtisadiyyatı kafedrasının müdiri kimi 15 ilə yaxın apardığı tədqiqat işini ümumiləşdirərək "Regional aqrar-sənaye komplekslərində qarşılıqlı iqtisadi əlaqələrin təkmilləşdirilməsi" (Azərbaycan SSR-in materialları əsasında) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1986-cı ildə professor elmi adına layiq görülmüşdür.

Rusiya Kənd Təsərrüfatı Elmlər

Akademiyasının müxbir üzvü (1991-ci il), AKTİ-nin Kənd təsərrüfatının iqtisadiyyatı kafedrasının müdiri, fakültə dekanı. Azərbaycan Respublikası Milli Məclisinin eksperti kimi Aydın İsrafil oğlu Məmmədov aqrar-sənaye kompleksinin iqtisadiyyatı və idarə edilməsinin nəzəri və metodoloji istiqamətində yerinə yetirdiyi geniş, əhatəli və dəyərli tədqiqat işləri ilə ölkəmizdə və onun hüdudlarından kənarda aparıcı iqtisadçı alim kimi tanınmışdır.

A.İ.Məmmədov 150 çap vərəqi həcmində 100-dək elmi və elmi-metodik əsərlərin müəllifi olmuşdur.

A.İ.Məmmədovun Milli Məclisin Aqrar məsələlər üzrə daimi komitəsində rəhbərlik etdiyi ekspert-işçi qrupu "Aqrar islahatın əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" və digər qanun layihələrinin ilkin variantlarının hazırlanmasında iştirak etmişdir.

Onun rəhbərliyi altında 10 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir.

Ölkə səviyyəsində aqrar sahənin problemlərinə həsr olunan müşavirələrin əksəriyyətinin iştirakçısı olan A.İ.Məmmədov bir çox xarici dövlətlərdə də (AFR, Böyük Britaniya, İran, Rumıniya və s.) aqrar iqtisad elmini layiqincə təmsil etmişdir.

MƏMMƏDOV FÜZULİ ƏZİZ OĞLU (1955) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1988-ci ildə Moskva Dövlət Yüngül Sənayenin Texnologiyası İnstitutunda "Sabit çeşidli geyimlərin səmərəli üsullarla hazırlanması" mövzusunda namizədlik, 1995-ci ildə İ.Cavaxaşvili adına Tbilisi Dövlət Universitetində "Az əmək və material sərfi ilə tikiş sənayesində səmərəliliyin yüksəldilməsi problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.



200-dən çox elmi məqalənin, 1 monoqrafiya, 4 dərslik, 8 dərs vəsaiti və 16 metodik göstərişin müəllifidir. DÜİST 27169-86 "Hərbçilər üçün kitel və mundirlər" dövlət standartının müəllifidir. İndi bütün MDB hərbçiləri həmin geyimlərdən istifadə edirlər.

Hazırda Azərbaycan Texnologiya Universitetinin "İnzibati idarəetmə" kafedrasının müdiridir.

MƏMMƏDOV HÜSEYNBALA MƏMMƏDRƏFİ OĞLU (1922-1999) – Azərbaycanın əməkdar iqtisadçısı. Leninqrad şəhərindəki Ümumittifaq Ali Maliyyə Məktəbini bitirmişdir.



1947-ci ildən müfəttiş, kredit müfəttişi, Bakı şəhəri Dövlət Bankı rayon şöbəsinin rəisi, 1974-cü ildən SSRİ Dövlət Bankının Azərbaycan Respublika Kontorunun rəisi (Azərbaycan Milli Bankı), 1993-1998-ci illərdə Azərbaycan Respublikası Milli Bankının Yasamal şöbəsinin baş məsləhətçisi işləmişdir. Azərbaycan Respublikası Ali Sovetinin plan-büdcə komissiyasının üzvü, Azərbaycan Respublikası KP Müfəttiş Komissiyasının üzvü, 10 və 11-ci çağırış Azərbaycan Respublikası Ali Sovetinə deputat seçilmişdir. Böyük Vətən müharibəsinin iştirakçı olub.

MƏMMƏDOV MƏHƏBBƏT AŞIR OĞLU (1952) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1974-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirib. 1988-ci ildə Moskva İnşaat-Mühəndisləri Universitetində "Tikinti obyektlərinin qiymətləndirilməsini nəzərə almaqla tikinti proqramlarının formalaşdırılması" mövzusunda namizədlik, 2009-cu ildə "Keçid iqtisadiyyatında proqram-məqsədli idarəetmənin təkmilləşdirilməsi problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1980-1992-ci illərdə Azərbaycan Respublikası Ali və Orta İxtisas Təhsil Nazirliyində iqtisadçı, aparıcı mühəndis, baş inspektor, elmi idarənin rəis müavini, ali təhsil və elm idarəsinin rəis müavini vəzifələrində işləmişdir. 1992-ci ildən Azərbaycan Memarlıq və İnşaat Universitetində dosent, 1994-cü ildən isə "Xidmət sahələrinin iqtisadiyyatı və menecment" kafedrasının müdiri vəzifəsində çalışır.

137 elmi əsərin, o cümlədən 3 monoqrafiyanın ("Azərbaycanın yanacaq-enerji kompleksi – inkişaf mərhələləri və perspektivləri", "Keçid iqtisadiyyatında

proqram-məqsədli idarəetmə" və "Sənaye və yanacaq-enerji kompleksinin inkişaf istiqamətlərinin təhlili"), 4 dərsliyin ("Memarlığın layihələşdirilməsi və tikintinin iqtisadiyyatı", "Tikintinin iqtisadiyyatı və idarə edilməsi", "İnşaatın iqtisadiyyatı" və "İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi") müəllifidir. Rəhbərliyi ilə 9 elmlər namizədi yetişmişdir.

Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin şöbə müdiridir.

MƏMMƏDOV MƏMMƏD ƏHMƏD OĞLU (1941) – Azərbaycan iqtisadçısı. 1965-ci



ildə Azərbaycan Dövlət Universitetini (BDU) bitirib. 1962-1964-cü illərdə Bakı şəhəri Baş Tikinti İdarəsində fəhlə, 1964-1966-cı illərdə Bakı şəhəri Binəqədi rayon Əmanət Bankında təftişçi, 1966-1972-ci illərdə Bakı şəhəri Binəqədi rayon Əmanət Bankının müdiri, 1972-1985-ci illərdə Bakı şəhəri Əmanət Bankının rəisi, 1985-1993-cü illərdə Azərbaycan Respublikası Əmanət Bankının Prezidenti olub. 1993-cü ildən Azərbaycan Respublikası Dövlət Sığorta Şirkətinin sədridir. Ölkədə bank-sığorta sisteminin formalaşması və inkişafında xidmətləri var.

1991-ci ildə Azərbaycan Respublikasının Əməkdar İqtisadçısı adına layiq görülmüşdür. 1982-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin "Fəxri Fərman"ı, 2011-ci ildə Azərbaycanın iqtisadi inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

MƏMMƏDOV RASİM FƏTİ OĞLU (1940-1999) – Azərbaycan iqtisadçısı, i.e.d. prof., 1967-



ci ildə "Region ASK-da kənd təsərrüfatının ixtisaslaşdırılması və sahə quruluşunun təkmilləşdirilməsi problemləri" mövzusunda namizədlik, 1987-ci ildə "Region ASK-da kənd təsərrüfatının inkişafı və ixtisaslaşdırılması problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Professor R.Məmmədovun rəhbərliyi və qayğısı ilə onlarca aspirant və dissertant alimlik dərəcəsi almışdır. 150-yə yaxın elmi əsərin müəllifidir. Əsərlərində kənd təsərrüfatının iqtisadi inkişafının proqnozlaşdırılması və məhsuldar qüvvələrin yerləşdirilməsi problemlərini tədqiq etmişdir.

1977-1981-ci illərdə Azərbycan ETKTİ və Tİ-nin direktoru vəzifəsində işləmişdir.


MƏMMƏDOV RƏFİ HƏBİB OĞLU (1930-2007) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1961-



ci ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsini bitirmişdir. 1966-cı ildə Moskva İnşaat Mühəndisləri İnstitutunda namizədlik, 1990-cı ildə "Ekologiya və su-torpaq resurslarının idarə edilməsi problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 30 monoqrafiyanın müəllifidir.

1975-1982-ci illərdə Azərbaycan Meliorasiya və su təsərrüfatı nazirinin birinci müavini vəzifəsində işləmişdir.

MƏMMƏDOV SALEH MƏHƏMMƏDƏLİ OĞLU (1956) – Azərbaycan iqtisadçısı, i.e.d.,



prof. 1980-ci ildə "Milli gəlirin yaradılması, bölgüsü və istifadəsində maliyyənin rolu (Azərbaycan SSR-in timsalında)" mövzusunda namizədlik, 1990-cı ildə Leninqradda "Regional maliyyə və milli gəlirin geniş təkrar istehsalı (Azərbaycan Respublikasının timsalında)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. O, bir çox ölkələrdə çap olunmuş 150-dən çox elmi əsərin, o cümlədən 11 monoqrafiya və dərsliyin müəllifidir. 1992-1993-cü illərdə Azərbaycan Respublikasının maliyyə naziri olmuşdur.

MƏMMƏDOV YURİ MƏMMƏD OĞLU (1926-1992) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1954-cü ildə "Sosializmdə milli gəlir və xalq istehlakı" mövzusunda namizədlik, 1972-ci ildə "Müasir burjua siyasi iqtisadında məşğulluq və işsizlik problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1974-cü ildə professor



elmi adına layiq görülmüşdür.
O, 54,7 ç.v. həcmində 54 elmi işin, o cümlədən bir çox monoqrafiyanın müəllifidir. Professor Y.Məmmədovun "Sovet İttifaqının geridə qalmış rayonlarının sənayeləşdirilməsi" əsəri ingilis və fransız dillərində nəşr olunmuşdur.
O, 1954-1966-cı illərdə ADUnun "Siyasi iqtisad" kafedrasında baş müəllim, 1966-1971-ci illərdə kafedra müdiri, 1971-1978-ci illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda elmi işlər üzrə prorektor, 1978-1992-ci illərdə isə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda "Siyasi iqtisad" kafedrasının müdiri vəzifələrində çalışmışdır.

MƏMMƏDOV ZAHİD FƏRRUX OĞLU (1965) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1988-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir.1993-cü ildə Sankt-Peterburq Maliyyə və İqtisad Universitetində "Türkiyənin kredit sisteminin inkişafının əsas təmayülləri" mövzusunda namizədlik, 2006-cı ildə Sankt-Peterburq Dövlət Maliyyə və İqtisad Universitetində "Maliyyə, pul tədavülü və kredit" ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir. O, 200-ə yaxın elmi-metodik əsərin, bir neçə monoqrafiyanın müəllifidir. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin professorudur.

MƏMMƏDOV ZAHİD SƏTTAR OĞLU (1947) – c.e.d., prof.1966-1970-ci illərdə indiki



Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Coğrafiya" fakültəsini bitirib iqtisadi və sosial coğrafiya ixtisasına yiyələnmişdir. 1972-1992-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunda işləmişdir. 1980-ci ildə "Naxçıvan MSSR-in maddi istehsalının və nəqliyyat iqtisadi əlaqələrinin inkişafının iqtisadi-coğrafi problemləri" mövzusunda namizədlik, 1996-cı ildə "Azərbaycan Respublikasının nəqliyyat və nəqliyyat iqtisadi əlaqələrinin inkişafının iqtisadi-coğrafi problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 2005-ci ildən professordur. Z.S.Məmmədov 200-dən çox elmi məqalənin, bir sıra monoqrafik əsərlərin müəllifidir.
Uzun illər Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat və Coğrafiya İnstitutlarının doktorluq elmi şurasının üzvü olmuşdur. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunda doktorluq üzrə ixtisaslaşdırılmış Elmi Şuranın üzvüdür.
Azərbaycan Kooperasiya Universitetində "Ekologiya və coğrafiya" kafedrasının müdiri vəzifəsində çalışır.

Əsərləri: XXI əsr iqtisadi inkişafın nəqliyyat faktoru, Bakı, 2002, 384 s.; Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri, Bakı, 2004, 203 s.; Regionların iqtisadi inkişaf problemləri, Bakı, 2007, 469 s.; Təbiətdən istifadənin iqtisadiyyatı, Bakı, 2010, 229 s.

MƏNƏVİ RİSK – ziyanın sığorta şirkəti tərəfindən ödəniləcəyini bilən, buna görə ziyan vurulması riskini qəsdən artıran fərdin davranışı. Məsələn: ev sahibi sığorta almaq ümidi ilə evi yandırır, varlı sahibkar isə onun qiymətli əşyalarının oğurlanmasını uydurur.
Sığorta sahəsində Qərb ölkələrinin bəzi mütəxəssisləri mənəvi risk ilə əxlaqi risk arasında birbaşa analogiya aparırlar. Onlar mənəvi risk dedikdə müştərinin namussuz davranışını, əxlaqi risk dedikdə isə müştərinin səhlənkarlığını nəzərdə tuturlar. Sığorta şirkətləri isə özlərini mənəvi risk təzahürlərindən qorumaq üçün bütün ehtiyat tədbirlərini görürlər.

MƏNƏVİ ZƏRƏR – həm fərdi, həm də kollektiv olaraq insan xarakterindən və ya insan təbiətindən doğan risk və təhlükə.

MƏNFƏƏT – müəssisənin ən mühüm sərvəti, əlavə və ehtiyat enerji qaynağı kimi bazar münasibətləri şəraitində iqtisadi səmərəni, maliyyə resurslarının, müxtəlif təyinatlı fondların fundamental əsasını təşkil edir. Gəlirlərdən xərclər çıxıldıqda mənfəət yaranır. Bazar iqtisadiyyatı şəraitində mənfəətin əldə edilməsi istehsalın bilavasitə məq-

səd və məramında ifadə olunaraq onun sonrakı davamlı fəaliyyətinin qarantı, rəqabət və riski mülayimləşdirən faktor kimi çıxış edir. Fəaliyyət nəticəliyindən asılı olaraq mənfəət əsas və ondan kənar reallaşmadan əldə edilən və sair daxilolmalar, cərimələr, müamilələr, valyuta məzənnəsi kimi kateqoriyalara bölünür. Bununla belə, mənfəətin əldə edilməsi başlıca şərt olsa da, onun təminat perspektivi həmişə müsbət nəticəli olmur. Maya dəyəri ölçüləri daxilolmaları üstələdikdə maliyyə nəticəliyi mənfəətin əksinə olaraq zərərlə bitir. Məhz buna görə də planlaşdırma pozitiv istiqamətlə yanaşı, neqativ amilləri də nəzərə almalıdır.

Mənfəətin xalis mənfəət, bölüşdürülməmiş mənfəət, uçot mənfəəti, vergi mənfəəti və s. növləri fərqləndirilir.

Uçot mənfəəti vergi xərclərinin çıxılmasından əvvəl dövr üzrə xalis mənfəət və ya zərərdir.

Vergi tutulan mənfəət (vergi zərəri) vergi orqanları tərəfindən qoyulan qaydalara uyğun olaraq müəyyən olunan, mənfəət vergisinin ödənildiyi dövr üzrə mənfəət və ya zərərdir.

Bölüşdürülməmiş mənfəət-mülkiyyətçilər (səhmdarlar) arasında bölüşdürülməsi mümkün olan qazanılmış kapitalın hissəsidir. Cari ilin bölüşdürülməmiş mənfəəti (ödənilməmiş zərəri) kapital ehtiyatlarına və kapital ehtiyatlarından köçürmələr də nəzərə alınmaqla, hesabat dövründə xalis mənfəətdən hesablanmış dividendlər çıxılmaqla yekun məbləğdə qiymətləndirilir.

Təcrübədə aşağıdakılar da fərqləndirilir: baza mənfəəti, bazis mənfəəti, balans mənfəəti, bank mənfəəti, birja mənfəəti, ümumi mənfəət, realizədən kənar mənfəət, illik mənfəət, pul mənfəəti, diferensial mənfəət, əlavə mənfəət, maksimal mənfəət, inhisarçı mənfəət, plan mənfəəti, yüksək mənfəət, xalis mənfəət.

MƏNFƏƏT İTKİSİNİN SIĞORTALANMASI – istehsalda fasilələrdən sığortalanma elə sığorta növüdür ki, bunun şərtlərinə uyğun olaraq sığortaçı hər hansı bir istehsal və ya kommersiya fəaliyyətinin dayandırılması ilə əlaqədar bu fəaliyyət növü ilə məşğul olan sığortalının mənfəətinin alınmamasına və ya onun ölçüsünün azaldılmasına görə məsuliyyət daşıyır.

MƏNFƏƏT MOTİVİ (ing. *profit motive*) – firmanın məqsədi xalis məxaricdən artıq olmasını təmin etmək cəhdi. Adətən, bu termin firmanın öz mənfəətini maksimallaşdırmaq məqsədi ilə əlaqələndirilir. Lakin məqsəd yalnız qaneedici (kifayət qədər) mənfəət əldə etməyə nail olmaqdan ibarət olduğu halda da mənfəətin motivi mövcuddur.

MƏNFƏƏT NORMASININ AŞAĞI DÜŞMƏSİ MEYLİ QANUNU – K.Marks tərəfindən "Kapital"ın 3-cü cildində formulə edilmiş qanun. O, təsdiq edir ki, əməyin məhsuldar qüvvəsinin artımı kapitalın üzvi quruluşunu artırmağa təsir göstərərək, mənfəət normasının aşağı düşməsinə səbəb olur. Mənfəət normasının aşağı düşmə meyli D.Rikardonun da nəzərindən qaçmamışdı. Lakin o, bu meyli torpağın məhsuldarlığının azalması qanunu ilə əlaqələndirmişdir. Onun fikrincə, məhz bunun nəticəsində əkinçilik məhsullarının dəyəri və müvafiq olaraq əmək haqqı artmışdır. Rikardoya görə, əmək haqqının artması mənfəət kütləsinin azalmasına səbəb olur, sonda onun normasının aşağı düşməsinə gətirib çıxarır.

Marks göstərdi ki, mənfəətin normasının aşağı düşməsi azalan məhsuldarlıqla deyil, əməyin məhsuldar qüvvəsinin artması ilə əlaqədardır. Bu, kapitalın üzvi quruluşunun yüksəlməsinə gətirib çıxarır. Mənfəətin normasının aşağı düşməsi meyli qanunu əsasında Marks istehsalın genişləndirilməsi və dəyərin öz-özünə artması arasındakı ziddiyyət haqqında fikrə və kapital istehsal üsulunun tarixi məhdudiyyətliyinin labüdlüyü nəticəsinə gəldi.

MƏNFƏƏTİN PLANLAŞDIRILMASI – şirkətin mövcud istehsal həcmi və material, əmək və maliyyə resurslarından istifadə edilməsi və digər məsrəflər əsasında mənfəətin müəyyən edilməsi və hesablanması prosesi.

MƏNFƏƏTLƏRİN VƏ ZƏRƏRLƏRİN TƏHLİLİ – marketinq təhlilinin bu növündə tələbin ölçülməsi həmin məhsulun istehlakçılarının (alıcılarının) müxtəlif qrupları üçün aparılır. Bu təhlil əsasında yarana biləcək mənfəətlər və zərərlər proqnozlaşdırılır.

MƏNFƏƏTLİ POLİS – həyat sığortası polisidir ki, buna görə sığorta məbləğinə əlavə məbləğ əlavə oluna bilər, yaxud əlavə pul sığorta məbləğindən ayrı bonus şəklində (qismində) ödəniləcəkdir, belə ki, həyat sığortası üzrə şirkətin fondlarının in-

vestisiyalanması mənfəət gətirmişdir.

MƏNFİ (neqativ) AMORTİZASİYA LİMİTİ (ing. *Negative Amortization Limit)* – kredit-girov əmsalı müəyyən olunmuş həddi keçməmişdən əvvəl kredit borcunun əsas məbləğinin mənfi amortizasiya nəzərə alınmaqla arta biləcəyi maksimal həddi. Borcalan mənfi amortizasiya limitinə çatdıqda kreditin ödəniş cədvəlinə müddətin sonuna kredit məbləğinin tam ödənilməsini təmin etmək məqsədilə yenidən baxılır.

MƏNFİ AKSEPT (ing. *negative acceptance*) – ödənişin bu formasında yalnız ödənişdən imtina edilməsi yazılı şəkildə təsdiqlənir. Ödənişə razılıq sənədli şəkildə rəsmiləşdirilmir. Əgər müəyyən müddətə qədər yazılı imtina daxil olmasa, bu, ödənişə razılıq kimi qiymətləndirilir.

MƏNTİQİ CƏHƏTDƏN ZƏRƏRLƏRDƏN İRƏLİ GƏLƏN POLİS – yanğın səbəbindən və ya hər hansı digər sığorta riski ilə əlaqədar müəssisənin fəaliyyətinin dayandırılması və ya azaldılması nəticəsində dəymiş maliyyə itkilərini (zərərlərini) örtən sığorta polisi.

MƏNZİL KOOPERASİYASI – elə kooperasiya növüdür ki, bunun üzvləri yaşayış evlərinin birgə tikintisi və istismarı üçün birləşir.

XIX əsrdə Qərbi Avropa ölkələrində sənayenin və şəhərlərin artması ilə mənzilə yaranan ehtiyacı ödəmək vasitələrindən biridir. II Dünya müharibəsindən sonra Avropa ölkələrində, eləcə də bir sıra Asiya ölkələrində geniş vüsət almışdır.

Mənzil kooperasiyasının ən çox inkişaf etdiyi ölkələr AFR, Avstriya, Fransa, Skandinaviya ölkələri (xüsusilə İsveç və Norveç), Niderland olmuşdur. ABŞ-da, Kanadada, Avstriyada da mənzil kooperasiyası inkişaf etmişdir.



Bakıda inşa olunan komplekslərdən biri

Keçmiş SSRİ-də mənzil kooperasiyası mənzil-tikinti kooperativləri (MTK) və bağ-tikinti kooperativləri (BTK) formasında mövcud olmuşdur. İlk MTK-lar 1921-ci ildə mənzil-icarə, fəhlələrin mənzil-tikinti və ümumi mülki mənzil-tikinti yoldaşlıqları formasında yaranmışdır. Mənzil kooperasiyasının bu formaları 1937-ci ilə qədər mövcud olmuşdur. 1958-ci ildə SSRİ Nazirlər Kabineti "Mənzil-tikinti və bağ-tikinti kooperasiyası haqqında" qərar qəbul etmiş və bu qərar MTK-ların və BTK-ların inkişafına səbəb olmuşdur.

Keçmiş sosialist ölkələrində, o cümlədən Polşada, Macarıstanda, Bolqarıstanda, ADR-də, Çexoslovakiyada, Yuqoslaviyada mənzil kooperasiyası qanunvericiliyə müvafiq olaraq müxtəlif formalarda – mənzil kooperativ ittifaqları, mənzil-kooperativ mərkəzləri və s. formalarda mövcud olmuşdur. İnkişaf etməkdə olan ölkələrdə, o cümlədən Hindistanda, Misirdə, Kolumbiyada, Pakistanda, Türkiyədə, Argentinada, Nigeriyada, Keniyada və bir sıra Yaxın Şərq ölkələrində mənzil kooperasiyası digər ölkələrə oxşar fəaliyyət göstərir.

Beynəlxalq Kooperativ Alyansın tərkibində 1952-ci ildən xüsusi mənzil-tikinti kooperasiyası mövcuddur ki, bu da mənzil-kooperasiyasının fəaliyyətinin inkişafı və əlaqələndirilməsi məsələlərini idarə edir.

MƏNZİL VƏ ŞƏHƏRSALMA DEPARTAMENTİ (ing. *Housing and Urban Development (HUD) Department)* – 1965-ci ildə mənzil tikintilərinin stimullaşdırılması üçün yaradılmış ABŞ Federal Agentliyi; ucuz mənzil tikintilərinin maliy-

yələşdirilməsi və təminatı, o cümlədən şəhərlərin bərpası layihələri ilə məşğuldur. Ona "Cinni Mey" agentliyi və Federal Mənzil-Tikinti İdarəsi daxildir.

MƏNZİLLƏRİN SIĞORTALANMASI – dövlət, bələdiyyə, kooperativ və xüsusi mülkiyyətdə olan evlərin, binaların, şirkətlərin, villaların, mənzillərin, otaqların, mənzil fondunun və s. sığortalanması.

MƏRHƏLƏLİ QİYMƏTLƏR – məhsulların əvvəlcədən müəyyən edilmiş şkala üzrə ardıcıl aşağı salınan hədləri, qiymətləri.

MƏRKƏZİ BANK – banknot buraxılışı, pul tədavülünün, kreditin və valyuta məzənnəsinin tənzimlənməsi, rəsmi qızıl-valyuta ehtiyatının saxlanması hüququna malik dövlət kredit idarəsi. "Banklar bankıdır", dövlət büdcəsinə xidmət göstərilməsi zamanı hökumətin agentidir.

"Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında" (25.05.1991) Konstitusiya Qanununun "Bank sistemi və pul tədavülü" adlanan 14-cü maddəsi Azərbaycanda müstəqil bank sisteminin və milli pul vahidi tədavülünün hüquqi əsaslarını təsbit etməklə yanaşı, Mərkəzi Bankın statusu və səlahiyyətlərini müəyyənləşdirdi. Mərkəzi Bank kredit, pul tədavülü, hesablaşmalar və valyuta münasibətləri sahəsində dövlət siyasətini yeridən, bütövlükdə bank sisteminin fəaliyyətini tənzimləyən və ehtiyat bank funksiyalarını icra edən ali emissiya idarəsi elan edildi. "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" (08.10.1991) Azərbaycan Respublikasının Qanununa əsasən, büdcə-maliyyə sisteminin tənzimi, habelə mərkəzi dövlət idarəetmə orqanlarının yaradılması və ləğvi məsələlərinin Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə müəyyən olunması nəzərdə tutuldu. Beləliklə, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən (18.10.1991) sonra müstəqil bank sisteminin, o cümlədən Mərkəzi Bankın yenidən qurulması üçün hüquqi baza yaradıldı. "Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə (11.02.1992) Dövlət Bankının, keçmiş SSRİ Sənaye-Tikinti Bankının, SSRİ Aqrar-Sənaye Bankının respublika bankları bazasında Azərbaycan Respublikasının Mərkəzi Bankı yaradıldı və "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Qanun (07.08.1992) qəbul olundu. 1992-ci il dekabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının Milli Bankının Nizamnaməsinin təsdiq edilməsi haqqında" qərar qəbul etdi. Mərkəzi Bank tədavülə pul nişanları buraxılmasına müstəsna hüququ olan və dövlətin ehtiyat sistemi rolunu yerinə yetirən mərkəzi dövlət bankı kimi müəyyən edildi. Ölkənin bank sistemi üzərində tənzimləyici və nəzarətedici səlahiyyətlər ona həvalə olundu. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququnun yalnız Mərkəzi Banka mənsub olması Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin 2-ci bəndində təsbit olundu. Konstitusiyada Mərkəzi Bankın dövlətin müstəsna mülkiyyətində olması müəyyən edildi. Azərbaycan Respublikası Konstitusiyasının qəbulundan (12.11.1995) sonra bütün sahələrdə olduğu kimi, bank qanunvericiliyi sahəsində də yeni quruculuq işlərinə başlandı. "Azərbaycan Respublikasının Milli Bankı haqqında" (10.06.1996), "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" (14.06.1996) qanunları yeni redaksiyada qəbul edildi. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə (26.12.2002) bank sistemi və onun normativ-hüquqi bazasının inkişaf etdirilməsi və bank sistemində aparılan ardıcıl islahatların daha da dərinləşdirilməsi məqsədilə bank qanunlarının yenidən işlənməsi nəzərdə tutuldu. "Azərbaycan Respublikasının Milli Bankı haqqında" və "Banklar haqqında" qanunlar yeni redaksiyada qəbul edildi (2004).

"Azərbaycan Respublikasının Milli Bankı haqqında" Qanun (10.12.2004) Mərkəzi Bankın hüquqi statusunu, onun məqsəd və funksiyalarını, dövlət qurumları arasında yerini və rolunu daha dəqiq müəyyənləşdirdi. Mərkəzi Bankın məsuliyyəti və fəaliyyətində şəffaflığın artırılması üçün müvafiq mexanizmlər nəzərdə tutulduğunu təyin etdi. Qanun ən qabaqcıl beynəlxalq təcrübəyə uyğun hazırlanmış və Mərkəzi Bankın bütün funksional sahələri üzrə fəaliyyətinin daha səmərəli həyata keçirilməsi üçün imkan yaratmışdır. Pul və valyuta si-

yasətinin müəyyənləşdirilməsi və həyata keçirilməsi, ölkənin ödəniş sisteminin tənzimlənməsi və inkişafı, bank nəzarətinin həyata keçirilməsi, dövlətin beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi bu qanunda Mərkəzi Bankın mühüm funksiyaları kimi əksini tapmışdır.

Yeni bank qanunları ilə təsbit olunmuş bank nəzarətinin prinsipləri, forma və metodları Mərkəzi Bankın bu funksiyasının beynəlxalq standartlara, o cümlədən bank nəzarəti üzrə Bazel prinsiplərinə uyğun həyata keçirilməsinə və ölkənin bank sisteminin etibarlılığının artırılmasına, əmanətçilərin və kreditorların mənafelərinin daha səmərəli qorunmasına zəmin yaratmışdır. Azərbaycanın bank qanunvericiliyi tarixində inzibatçıların mənəvi keyfiyyətləri ilə bağlı tələblər ilk dəfə önə çəkilmiş, onların "məqbul və lazımi keyfiyyətlərə malik şəxs" və "vətəndaş qüsursuzluğu" göstəricilərinə malik olmaları bank sistemi üçün daha layiqli namizədlərin seçilməsini şərtləndirmişdir.



Azərbaycan Respublikası Mərkəzi Bankı

Azərbaycan Respublikasının Mərkəzi Bankı Konstitusiya və qanunlarla müəyyən edilmiş funksiya və səlahiyyətlərini həyata keçirərkən müstəqildir, onun fəaliyyətinə qanuna zidd təsir, müdaxilə edilə bilməz. Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin ("Pul vahidi") 2-ci bəndində pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququnun yalnız Mərkəzi Banka məxsusluğu və onun özünün dövlətin müstəsna mülkiyyətində olduğu təsbit olunur. Konstitusiyaya görə, Mərkəzi Bank dövlət hakimiyyətlərinin (qanunvericilik, icra, məhkəmə) heç birinə aid deyil. Bununla belə, Mərkəzi Bank haqqında müddəanın Konstitusiyanın "Dövlətin əsasları" adlanan 2-ci fəslində verilməsi onun xüsusi statuslu dövlət strukturu olduğuna dəlalət edir.

"Azərbaycan Respublikasının Milli Bankı haqqında" Qanunun yeni redaksiyasında Mərkəzi Bankın digər dövlət orqanları ilə qarşılıqlı münasibətləri, dövlətin bankı və maliyyə agenti rolunda hüquq və vəzifələri müəyyən edilmiş, dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərinin, o cümlədən büdcə-vergi, qiymət-tarif, daxili və xarici borcun həcmi və idarə edilməsi məsələlərinin müzakirəsində onun iştirakı nəzərdə tutulmuşdur. Bu hüquqi norma dövlətin iqtisadi siyasətini həyata keçirən orqanlar arasında fəaliyyətin əlaqələndirilməsinə və mövcud imkanlardan daha səmərəli istifadə olunmasına xidmət edir. Qanunda Mərkəzi

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Elman Sirac oğlu Rüstəmovdur
(bax: Rüstəmov Elman Sirac oğlu)

Alim Səlim oğlu Quliyev (1960)

1981-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1981-ci ildən SSRİ Dövlət Bankının Şamaxı şöbəsində iqtisadçı, 1983-1988-ci illərdə SSRİ Dövlət Bankı Azərbaycan Respublikası kontorunun Təftiş idarəsində müfəttiş, böyük müfəttiş, 1988-1993-cü illərdə Səhmdar-Kommersiya Aqrar-Sənaye Bankının Nəzarət-Təftiş İdarəsində aparıcı müfəttiş, baş müfəttiş, İdarə Heyəti Sədrinin müavini, 1993-cü ildən Azərbaycan Respublikasının Milli Bankında Banklara nəzarət idarəsinin rəisi, 1995-ci ildən Təftiş departamentinin direktoru və İdarə Heyəti Sədrinin müavini vəzifələrində işləmişdir. 1996-cı ildən Azərbaycan Respublikasının Milli Bankı İdarə Heyətinin üzvü, İdarə Heyəti Sədrinin birinci müavinidir. 2002-ci ildən iqtisad elmləri namizədidir. Yeddi elmi əsərin və bir monoqrafiyanın müəllifidir. 2007-ci ildə Azərbaycan Respublikasında bank sisteminin inkişafındakı xidmətinə görə "Tərəqqi" medalı ilə, 2012-ci ildə Azərbaycan Respublikasında bank işinin inkişaf etdirilməsindəki xidmətinə görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.



Mərkəzi Bankın İdarə Heyəti (fevral, 2012-ci il)

Vadim Ələddin oğlu Xubanov (1963)

1985-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1985-ci ildən SSRİ Dövlət Bankının Azərbaycan Respublikası kontorunun baş iqtisadçısı, 1987-ci ildən SSRİ Dövlət Bankının Azərbaycan Respublikası kontorunun 26 Bakı komissarı adına rayon şöbəsində iqtisadçı, Mənzil-kommunal Təsərrüfatı və Sosial İnkişaf Bankında iqtisadçı, böyük iqtisadçı, I dərəcəli iqtisadçı, 1991-ci ildən Azərbaycan Respublikası Xarici Əlaqələr Bankında Kredit-plan şöbəsinin rəisi, 1992-ci ildən Azərbaycan Respublikası Beynəlxalq Bankında İqtisadi təhlil, beynəlxalq əlaqələrin inkişafı müdiriyyətinin direktoru, 1993-cü ildən Səhmdar-Kommersiya Beynəlxalq Bankı İdarə Heyəti sədrinin müavini, 1995-ci ildən isə İdarə Heyəti sədrinin birinci müavini, 1996-cı ildən Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin üzvü, İdarə Heyəti sədrinin müavini vəzifələrində işləmişdir. 2012-ci ildə Azərbaycan Respublikasında bank işinin inkişaf etdirilməsindəki xidmətinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir. Hazırda Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvüdür, Azərbaycan Respublikası Mərkəzi Bankı Sədrinin müavini vəzifəsində çalışır.


Aftandil Qasım oğlu Babayev (1957)

1978-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1978-ci ildən "Azkolxoz xüsusi tikinti" Trestinin plan şöbəsində iqtisadçı, 1981-1983-cü illərdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində iqtisadçı, böyük iqtisadçı, maliyyə şöbəsinin rəisi, 1983-1984-cü illərdə Respublika Maliyyə Nazirliyində böyük iqtisadçı, 1984-1994-cü illərdə Dövlət Qiymət Komitəsində şöbə rəisinin müavini, şöbə rəisi, baş idarə rəisinin müavini, 1994-cü ildən Azərbaycan Respublikasının Milli Bankında Baş Pul-kredit siyasəti və valyutanım tənzimi idarəsi rəisinin müavini, 1995-ci ildən Pul-kredit siyasəti departamentinin direktoru, 2000-ci ildən Milli Bankın Baş direktoru vəzifəsinə təyin edilmişdir. 2001-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin üzvü seçilmişdir. 2007-ci ildə Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilmişdir. 2012-ci ildə Azərbaycan Respublikasında bank işinin inkişaf etdirilməsindəki xidmətinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir. Hazırda Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvüdür, Azərbaycan Republikası Mərkəzi Bankı Sədrinin müavini vəzifəsində çalışır.

Xəqani Sərxan oğlu Abdullayev (1976)

1999-cu ildə Azərbaycan Dövlət İqtisad İnstitutunu bitirmişdir. 1997-ci ildən Azərbaycan Respublikasının Milli Bankında Pul-kredit siyasəti departamentində aparıcı ekspert, 2000-ci ildən Azərbaycan Respublikası Milli Bankının Monetar siyasəti departamentinin baş iqtisadçısı, şöbə rəisi, departament direktoru vəzifələrində çalışmışdır. 2005-ci ildən iqtisad elmləri namizədidir. 2007-ci ildə Azərbaycan Respublikasında bank sisteminin inkişafındakı xidmətinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir. 2009-cu ildən Mərkəzi Bankın Baş direktoru vəzifəsinə təsdiq edilmişdir. 2010-cu ildən Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvüdür, Azərbaycan Republikası Mərkəzi Bankı sədrinin müavini vəzifəsində çalışır.

Azərbaycan Respublikası Mərkəzi Bankının təşkilati strukturu



Sxem 1

İkinci Yüksək Səviyyəli İqtisadi Siyasət Forumunun iştirakçılarına

Hörmətli forum iştirakçıları!

Sizi Bakı şəhərində keçirilən İkinci İqtisadi Siyasət Forumunun açılışı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpasından sonra ötən müddət ərzində sosial-iqtisadi quruculuq sahəsindəki ardıcıl uğurları ilə dünyada özünə layiqli yer tutmuşdur. Qısa bir zamanda sürətli inkişaf sayəsində ölkənin iqtisadi vəziyyəti yaxşılaşmış, yoxsulluq səviyyəsi aşağı düşmüş, həyatın ən müxtəlif sahələrində mühüm nailiyyətlər əldə olunmuşdur.

Respublikamız gerçəkləşdirilən effektiv islahatlar nəticəsində öz inkişaf dinamikasını qlobal böhran şəraitində belə qoruyub saxlaya bilmişdir. Azərbaycanın yeni inkişaf strategiyasının məqsədi əhalinin rifah halının yüksəldilməsi, milli gəlirin səviyyəsinin daha da artırılması və iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsindən ibarətdir. Strategiya ölkənin mövcud potensialının səmərəli reallaşdırılmasına, şaxələnmiş və ixracyönümlü dayanıqlı iqtisadiyyatın formalaşdırılmasına yönəlmişdir.

Müasir çağırışlar kontekstində Dünya Bankının və nüfuzlu beynəlxalq ekspertlərin ölkəmizin perspektiv imkanlarının qiymətləndirilməsi ilə bağlı məsələlərə böyük maraq göstərməsi bu baxımdan təqdirəlayiq haldır.

Ümidvaram ki, forum zamanı aparılan faydalı müzakirələr respublikamızın gələcək inkişafı naminə yeni konsepsiyaların hazırlanıb həyata keçirilməsinə əlverişli zəmin yaradacaqdır.

Hər birinizə işlərinizdə müvəffəqiyyətlər, cansağlığı və xoşbəxtlik arzulayıram.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti







Bakı, 2012-ci il, 5-6 mart

Bankın fəaliyyəti haqqında müvafiq dövlət orqanına hesabatın təqdim edilməsi, həmçinin həyata keçirilən siyasət və fəaliyyətin nəticələri haqqında ictimaiyyətə məlumatların açıqlanması tələbləri onun fəaliyyətinin şəffaflığını təmin edir. Mərkəzi Bankın təşkilati strukturunun, idarəetmə orqanları arasında səlahiyyət bölgüsünün, daxili nəzarətin forma və əsas prinsiplərinin bilavasitə qanunda təsbit edilməsi, Bankın idarə olunmasında maraqlar münaqişəsini aradan qaldıran məsələlərin qanunla tənzimlənməsi onun fəaliyyətinin tam şəffaf olmasına şərait yaradır. Mərkəzi Bank fəaliyyəti barədə yalnız Azərbaycan Respublikasının Prezidentinə hesabat verir.

Mərkəzi Bank müstəqil balansa, nizamnamə kapitalına və digər əmlaka malikdir. Qanunda istisna olunan hallardan başqa, onun razılığı olmadan kapitalının və digər əmlakın özgəninkiləşdirilməsinə yol verilmir. Mərkəzi Bankın nizamnamə kapitalı 10 milyon manatdır. Mərkəzi Bank müflis elan oluna bilməz.

Mərkəzi Bankın idarəetmə funksiyalarını İdarə Heyəti və İdarə Heyətinin sədri həyata keçirir. Konstitusiyaya əsasən, Mərkəzi Bankın İdarə Heyətinin üzvlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təsdiq edir. Mərkəzi Bankın İdarə Heyətinin üzvləri sırasından İdarə Heyətinin sədrini və Mərkəzi Bankın auditorlarını Azərbaycan Respublikasının Prezidenti təyin edir.

Mərkəzi Bankın "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Qanunun 5-ci maddəsində təsbit olunmuş funksiyaları: 1) dövlətin pul və valyuta siyasətinin müəyyənləşdirilməsi və həyata keçirilməsi; 2) nağd pul dövriyyəsinin təşkili, pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılmasının həyata keçirilməsi; 3) manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsinin mütəmadi müəyyənləşdirilməsi və elan edilməsi; 4) qanunvericiliyə uyğun olaraq, valyuta tənzimi və nəzarətinin həyata keçirilməsi; 5) sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi;

6) qanunvericiliyə uyğun olaraq, hesabat-tədiyə balansının tərtibi və ölkənin proqnoz-tədiyə balansının hazırlanmasında iştirak edilməsi; 7) "Banklar haqqında" Azərbaycan Respublikası Qanununa, bu Qanuna müvafiq qəbul edilmiş normativ aktlara uyğun olaraq bank fəaliyyətinin lisenziyalaşdırılması və tənzimlənməsi, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarətin həyata keçirilməsi; 8) ödəniş sistemlərinin fəaliyyətinin təşkili, əlaqələndirilməsi, tənzimlənməsi və onların üzərində nəzarətin qanuna uyğun olaraq həyata keçirilməsi; 9) "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Azərbaycan Respublikası Qanununda və digər qanunlarda nəzərdə tutulmuş başqa funksiyaların həyata keçirilməsi.

Mərkəzi Bankın başlıca funksiyalarından biri dövlətin pul və məzənnə siyasətini müəyyən etmək və həyata keçirməkdir.

İqtisadi artım, qiymət stabilliyi, məşğulluq, tədiyə balansının tarazlığı kimi məqsədlər bir-biri ilə qarşılıqlı surətdə sıx əlaqədədir və onların birində baş verən dəyişiklik digərinə güclü təsir göstərir. Mərkəzi banklar öz imkanları daxilində qiymət stabilliyini təmin etməklə iqtisadi artım üçün əlverişli şərait yaradır.

Mərkəzi Bank qloballaşan dünya iqtisadiyyatı şəraitində pul siyasəti alətlərinin ölkə iqtisadiyyatının inkişafına təsir gücünü artırmaq üçün pul siyasətinin şəffaflığının artırılması tədbirlərini də diqqət mərkəzində saxlayır:

– Mərkəzi Bankda pul siyasətinin şəffaflığının təmin edilməsi ilə bilavasitə məşğul olan xüsusi struktur bölməsi yaradılmışdır;

– pul və valyuta siyasətinin başlıca istiqamətləri barədə Mərkəzi Bankın növbəti il üçün ictimaiyyətə təqdim etdiyi bəyanatında cari dövrdə pul siyasətinin yerinə yetirilməsi təhlil olunur və növbəti il üçün pul siyasətinin məqsəd və vəzifələri açıqlanır;

– Mərkəzi Bankın illik hesabatı Azərbaycan, rus və ingilis dillərində dərc olunur, həmçinin onun strukturu və informasiya bazası, dizaynı ildən-ilə təkmilləşdirilir;

– Mərkəzi Bankın 2000-ci ilin aprelindən nəşr olunan aylıq statistik informasiya bülletenində makroiqtisadi və pul göstəriciləri, eləcə də maliyyə bazarının fəaliyyətini xarakterizə edən göstəricilər öz əksini tapır;

– Mərkəzi Bankın İnternet şəbə-

kəsindəki xüsusi saytından hər rübün yekunu üzrə pul siyasətinin yerinə yetirilməsi vəziyyəti, inflyasiya icmalı, pul icmalı və real səmərə məzənnə indekslərinin dinamikasına dair analitik materiallar yerləşdirilir;
– Mərkəzi Bankın rəhbərliyi öz fəaliyyəti barədə müxtəlif formalarda, o cümlədən mətbuat konfransları vasitəsilə ictimaiyyətə müntəzəm açıqlamalar verir;
– Mərkəzi Bank tərəfindən hazırlanmış pul siyasəti alətlərinə dair normativ aktlarda şəffaflıq prinsipi, zəruri informasiyalar yayılmasının vacibliyi nəzərə alınır.

Mərkəzi Bankın fəaliyyətinin, xüsusilə onun pul siyasətinin iqtisadiyyatda mühüm önəm daşıması bu siyasətin formalaşması üçün güclü institusional bazanın olmasını tələb edir. Bunun üçün Mərkəzi Bank makrosferada baş verən prosesləri düzgün qiymətləndirməli və cari fəaliyyətini yaranmış situasiyaya çevik uyğunlaşdırmaqla optimal qərarlar qəbul etməlidir. Pul siyasəti sahəsinə dair Mərkəzi Bankın qəbul etdiyi qərarların iqtisadi tsiklin real tələblərinə cavab verməsini, iqtisadi inkişafın sabit axarla getməsini təmin etmək üçün Mərkəzi Bankda mükəmməl tədqiqat bazası yaradılmışdır. Burada dərin makroiqtisadi tədqiqatlar aparılaraq, iqtisadi proseslərin kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilməsi əsasında pul siyasətinin taktiki və strateji hədəfləri müəyyənləşdirilir.

Mərkəzi Bank kompleks makro və mikroiqtisadi tədqiqatlar əsasında elmi-praktiki əhəmiyyəti olan bir sıra vacib nəticələr əldə etmişdir:
– birinci istiqamət üzrə makro və mikroiqtisadi problemlər, eləcə də beynəlxalq iqtisadi əlaqələr və xarici tarazlıq məsələlərinin araşdırılması ilə bağlı elmi layihələr gerçəkləşdirilmiş, kompleks təhlillər aparılmış, bu tədqiqatlarda sadə statistik təhlil metodları ilə yanaşı, mürəkkəb ekonometrik metodların da tətbiq edilməsi iqtisadi proseslər arasında daha əsaslı asılılıqların müəyyən olunmasına imkan vermişdir;
– ikinci istiqamət üzrə ekonometrik üsulların mənimsənilməsi, dünya mərkəzi banklarının ekonometrika və modelləşdirmə üzrə təcrübəsinin öyrənilməsi ilə bağlı məqsədyönlü işlər görülərək, ekonometrik təhlil və modernləşdirmənin zəruri informasiya bazası yaradılmış, ölkə iqtisadiyyatında daha aktual problemlər üzrə lokal makromodellərin qurulması sahəsində müəyyən təcrübə qazanılmış, dörd sektorun (real, tədiyə balansı, fiskal və monetar) qarşılıqlı əlaqəsini əks etdirən maliyyə proqramı tərtib edilmişdir. Qurulmuş ekonometrik modellər Mərkəzi Bankda aparılan aylıq, rüblük və illik təhlillərdə tətbiq olunur (2005);
– üçüncü istiqamət üzrə görülən işlər birinci və ikinci istiqamətlərdə əldə olunmuş nəticələri nəzərə almaqla, Bankın siyasətinin elmi-metodoloji bazasının təkmilləşməsinə, dünya təcrübəsində tətbiq olunan monetar tənzimləmə alətlərinin öyrənilməsinə, onların Azərbaycan şəraitində tətbiqinə dair praktiki tövsiyələrin hazırlanmasına yönəlmişdir.

Tətqiqatların nəticələri elmi-təcrübi əhəmiyyət daşıdığı üçün son illər pul siyasətinin tətbiqi praktikası da qərarların qəbul edilməsində fəal surətdə istifadə olunmaqdadır.

Səmərəli monetar idarəetmənin təmin olunması üçün dolğun informasiya bazasının yaradılması istiqamətində də mühüm işlər görülmüş, dünya iqtisadiyyatı, o cümlədən MDB məkanında, ölkə iqtisadiyyatında gedən proseslər barədə statistika bazası daha da zənginləşdirilmiş, həmçinin Avtomatlaşdırılmış Bank Statistika Hesabatı Sistemi (ABSHS) istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti – Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində qanunvericiliklə və "Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti haqqında Əsasnamə" ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən dövlət orqanıdır. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 23 fevral tarixli, 66 nömrəli Fərmanı ilə yaradılmışdır.

Xidmət cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində dövlət siyasətini həyata keçirir, bu sahədə nəzarət sistemini təkmilləşdirir və aidiyyəti dövlət orqanlarının fəaliyyətini əlaqələndirir, fəaliyyəti

barədə Azərbaycan Respublikasının Prezidentinə hesabat verir.
Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti:
– cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində müvafiq məlumatları toplayır, təhlil edir, aparılmış təhlil nəticəsində həyata keçirilən əməliyyatda cinayətin əlamətlərini müəyyən etdikdə məlumatları aidiyyəti dövlət orqanlarına göndərir;
– cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində normativ tənzimləməni həyata keçirir;
– cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində nəzarət funksiyalarını həyata keçirir;
– cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində vahid informasiya sisteminin tətbiqini təmin edir;
– cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının beynəlxalq əlaqələrini təmin edir.
Məqsəd monitorinq subyektlərindən məlumatların əldə edilməsi, təhlili və mübadiləsi vasitəsilə pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin etibarlı, şəffaf və təhlükəsiz sisteminin qurulması və bu sistemin dayanıqlı fəaliyyətinin təmin olunmasıdır.

MƏRKƏZİ BANKIN VEKSELİ – Mərkəzi Bankın qiymətli kağızı. Veksel verənin üzərinə vekseli təqdim edənə və onun üzərində olan məbləği ya ötürücü yazıda olan müəyyən edilmiş vaxtda tələb olunan zaman ödəmək öhdəliyi qoyur.

MƏRKƏZLƏŞDİRİLMİŞ GƏLİR – "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa görə, dövlət büdcəsində müəyyən edilən normativlərə uyğun olaraq dövlət büdcəsi gəlirlərindən yerli gəlirlər çıxıldıqdan sonra formalaşan gəlir.

MƏRKƏZLƏŞDİRİLMİŞ XƏRC – "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa görə, büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsində nəzərdə tutulan müvafiq orqanların fəaliyyətinin və tədbirlərin maliyyələşdirilməsi ilə bağlı xərclər.

MƏSİMLİ ƏLİ ƏHMƏD OĞLU (1953) – Azərbaycan iqtisadçısı, iqtisad üzrə fəlsəfə doktoru. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun siyasi iqtisad fakültəsini bitirmişdir.



1980-ci ildən Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunda laborant, kiçik elmi işçi, elmi işçi, şöbə müdiri işləmişdir. 1991-ci ildən Azərbaycan Respublikası Prezidenti Aparatının İqtisadiyyatın idarə edilməsinin təşkili şöbəsinin bölmə müdiri, Sosial-iqtisadi inkişaf şöbəsinin baş məsləhətçisi, 1992-ci ildən Azərbaycan Respublikası Xarici İnvestisiyalar Komitəsinin sədri, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini, Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinin sədri, Baş nazir əvəzi, iqtisadiyyat naziri vəzifələrində çalışmışdır. 1993-2005-ci illərdə "Müstəqil İqtisadçılar Birliyi" ictimai təşkilatının prezidenti olmuşdur.
İqtisadi və Sosial İnnovasiyalar İnstitutunun həmtəsisçisi və rəhbəridir. Çoxsaylı məqalə və broşüraların müəllifidir. Elmi tədqiqatlarının nəticələri Almaniya, Türkiyə, Rusiya, İsveç, Litva və s. ölkələrdə çap olunmuşdur. "Şəkinin 2011-2020-ci illər üzrə İnkişaf Proqramı"nın hazırlanmasında bilavasitə iştirak etmişdir. ABŞ, Yaponiya, Almaniya, Bö yük Britaniya, Avstriya, Belçika, Türkiyə, Malayziya, Macarıstan, Bolqarıstan, Litva, Latviya, Estoniyada məruzə və çıxışlar etmişdir.
III və IV çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatıdır.
Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü kimi iqtisadi

qanunvericilik bazasının təkmilləşdirilməsi işində fəal iştirak edir.

MƏSLƏHƏTLİ SATIŞ – tələbatların aşkar olunması və məqbul biznes qərarlarının işlənməsi məqsədilə alıcılarla aparılan iş.

MƏSRƏFLƏR – nağd və ya nağdsız formada olan istehsal ödənişləridir ki, məhsul istehsalı, sonradan reallaşdırılmaqla xidmətlərin yerinə yetirilməsi və göstərilməsi ilə əlaqədidir. İstehsalda məsrəflərin təsnifatlandırılmasının müəyyən sistemi mövcuddur.

Texnoloji prosesə münasibətdə məsrəflər aşağıdakılara bölünür:

1) əsas dəyişənlər; yəni məhz materiallar, əmək haqqı, zay məhsuldan itkilər, təminatlı təmirə ehtiyat;

2) şərti-daimi qaimələr: ümumistehsal.

MƏSRƏFLƏR ÜZRƏ LİDERLİK – müəyyən sahədə ən aşağı məsrəflərə malik olan və bazarın əksər seqmentlərinə xid mətedən şirkətin vəziyyəti.

"MƏSRƏFLƏR-BURAXILIŞ" TƏHLİLİ – məhsulun və xidmətlərin istehsalı və bölgüsü balansının təhlil üsulu. Bu halda xətti məhdud istehsal asılılığı fərziyyəsindən çıxış edirlər. Yəni belə düşünürlər ki, istehsal amillərindən tam istifadə edilməsi məhsul buraxılışının mütənasib şəkildə artmasını təmin edəcəkdir. "Məsrəflər-buraxılış" təhlili istehsal və qiymətlərlə əlaqədar müxtəlif tədqiqatlar üçün istifadə edilir. "Məsrəflər-buraxı lş" təhlili son məhsul istehsalı üçün istifadə edilən resursların miqdarını müəyyənləşdirməyə imkan verir. Materiallara tələbat həm birbaşa, həm də dolayı malgöndərmələr nəzərə alınmaqla hesablanır. Fərz edilir ki, iqtisadiyyatda hər biri bir məhsul buraxan çoxsaylı sahələr vardır. Bu məhsul üç hissəyə bölünür. Birinci hissə istehsalçı sahənin özü tərəfindən istehlak edilir, ikinci hissə qalan maddi istehsal sahələrinin sərəncamına keçir, üçüncü hissə isə son istehlakçı üçün istifadə edilir. Bu təhlil iqtisadiyyatın bir sektorunda baş verən dəyişikliklərin digər sektorlarda məhsul istehsalına necə təsir göstərdiyini təsəvvür etməyə imkan verir.

"Məsrəflər-buraxılış" təhlili əsasında qurulan cədvəllərdən iki ölkənin iqtisadiyyatının struktur xassələrini müqayisə etmək və ya eyni ölkənin iqtisadiyyatının müxtəlif dövrlərdə strukturlarını tutuşdurmaq üçün istifadə edilir. "Məsrəflər-buraxılış" təhlili 1930-1950-ci illərdə V.V.Leontyev tərəfindən qurulmuş ekonometrik makromodelin əsası olmuşdur.

MƏSRƏFLƏRİN DİSKONTLAŞDIRILMASI – bütün gələcək gəlirlərin və məsrəflərin eyni dövrə gətirilməsi. Gələcək məsrəflərin və gəlirlərin bugünkü (cari) dəyərindən asılı olaraq, müxtəlif investisiya layihələrinin gəlirliyinin və ödəniş müddətinin müqayisəli təhlili üçün həmin layihələrin qiymətləndirilməsi zamanı tətbiq olunur. Gələcək gəlirin bugünkü dəyərini müəyyənləşdirmək diskontlaşmış toplanandan istifadə edilir ki, bu da, adətən, vəsaitlərin investisiyalaşmasının alternativ təhlükəsiz üsuluna görə faiz də rəcəsi kimi dərk olunur.

MƏSRƏFLƏRİN VƏ NƏTİCƏLƏRİN TƏHLİLİ – iqtisadi məhsulun əsas növlərinin istehsalına çəkilmiş xərclər və həmin məhsulun istehsal, buraxılış həcmləri şəklində nəticələrin hesablandığı və qeyd edildiyi balans cədvəllərindən istifadə edilməklə aparılan təhlil. Bu təhlil məhsulun istehsalına çəkilmiş ümumi, tam məsrəflərin səviyyəsini aşkar etməyə, iqtisadiyyatın müxtəlif sektorları və sahələri arasında qarşılıqlı əlaqə ları müəyyən etməyə imkan verir.

Özəl investisiya layihələrinin, layihənin gətirilmiş xalis dəyərinin qiymətləndirilməsində, məsrəflərin və daxilolmaların hesablanmasında bu metoddan istifadə edilə bilər. Əgər nəticə müsbətdirsə (sıfırdan bö yikdürsə), layihə rentabelli olacaqdır. Dövlət orqanları da çox vaxt layihənin bütün sosial xərclərini və müsbət nəticələrini qiymətləndirmək məqsədilə məsrəflərin və nəticələrin təhlili metodundan istifadə edir.

Bu cür təhlil tədqiqat aləti kimi, eləcə də proqnoz xarakterli planlaşdırmadan əvvəlki əsaslandırma və hesablamalarda istifadə edilir.

MƏSRƏF-MƏNFƏƏT TƏHLİLİ – ictimai əmtəə istehsalının cəmiyyət üçün faydasının və məsrəflərinin müqayisəsi.

MƏSRƏF NORMASI – effektivliyin qiymətləndirilməsi zamanı istehsal fəaliyyətinin səviyyəsində istifadə edilən pul meyarları. Bu meyarlar əməliyyatların maya dəyərini pul ifadəsində təmsil edir. Onların sırasına məhsulun bir vahidinə və ya bir iş saatına düşən bir-

başa və dolayı xərclər, məhsulun bir vahidinə material məsrəfləri, maşının bir saat işləməsinə düşən xərclər və hamı tərəfindən qəbul olunmuş başqa meyarlar aiddir.

MƏSULİYYƏT – hər hansı bir şəxsin haqqı, hüququ pozulan zaman müəyyən hərəkətlər (hərəkətsizliklər) nəticəsində yaranan və bir şəxsin digərinə vurduğu zərərin (ziyanın) ödənilməsi öhdəliyi.

MƏSULİYYƏT PAYININ ÖDƏNİLMƏSİ – sığortada istifadə olunan termin; bu halda bir sığorta şirkəti sığorta ödənişinin yerinə yetirilməsində digər sığorta şirkətinə yardım göstərilməsini tələb edir.


MƏSULİYYƏT PORTFELİ – bütün mövcud polislərə (sığorta vəsiqəsinə) görə sığortaçının və ya təkrar sığortaçının məcmu məsuliyyəti.

MƏSULİYYƏT SIĞORTASI – sığorta növlərindən biri. Obyekti sığortalanan üçüncü şəxslər qarşısındakı sığorta təşkilatı, sığortaçı tərəfindən sığortalının məsuliyyətidir. Sığortalanan üçüncü şəxslərə səhv hərəkətlər, yaxud fəaliyyətsizlik (hərəkətsizlik) formasında zərər vurmuşsa, o, zərərin əvəzini tam, yaxud qismən ödəyir. Məsuliyyət sığortası hüquqi və fiziki şəxslərin öz fəaliyyətlərinin nəticələrinə görə qanunvericiliyin tələblərindən irəli gələn maddi məsuliyyət sığortasıdır. Məsuliyyət sığortası vurulmuş zərərə görə məsuliyyət sığortasına (mülkiyyət məsuliyyəti sığortasına) və müqavilənin pozulmasına görə məsuliyyət sığortasına (müqavilə üzrə məsuliyyət sığortasına) bölünür.



Sxem 1

Məsuliyyət sığortası – sığortanın elə sahəsidir ki, burada obyekt kimi sığortalının hər hansı bir hərəkəti və ya hərəkətsizliyi nəticəsində üçüncü şəxslərə dəymiş zərərə görə onlar qarşısında məsuliyyət çıxış edir. Məsuliyyət sığortası işə diqqətsiz yanaşmaq, yaxud işə lazımi diqqət yetirməmək nəticəsində meydana gələn ziyanın, o cümlədən məhsulun istifadəsi zamanı zədələnmələrin əvəzini ödəyən sığorta növü dür Bu sığorta növü işdə buraxılan səhvlərdən sonra iş lərin yenidən sahmana salınmasına xidmət edir. Sığorta şirkəti dəymiş ziyanın əvəzini ödəyir və qanun çərçivəsində nəzərdə tutulan ödəmələri həyata keçirməklə yanaşı, işlərin yenidən yoluna qoyulması üçün də ödəniş həyata keçirir. Sığortalı şəxs üçüncü tərəf qarşısında ölüm, bədən xəsarəti, yaxud xəstəliklə nəticələnən, başqasının əmlakına dəyən ziyana səbəb olan səhvlərə və ya hərəkətlərə yol verdikdə sığorta şirkəti sığortalını qanuni məsuliyyətdən qoruyur. Məsuliyyət sığortası zamanı sahibkar iş prosesində qəzalara məruz qalan işçilərə görə də məsuliyyəti öz üzərinə götürə bilər. Məsuliyyətə görə ödəmələr aşağıdakı sığortalarla təmin olunur: sahibkarın məsuliyyəti; üçüncü tərəf qarşısında məsuliyyət; peşə məsuliyyəti; ictimai məsuliyyət və s. Sahibkarın məsuliyyətinin sığortası zamanı ərazidə könüllü işləyənlər, yaxud iş prosesində sahibkar tərəfindən işə götürülən şəxslər zədə alarlarsa, sığorta şirkəti həmin ziyanın əvəzini ödəyir. Üçüncü tərəf qarşısında məsuliyyət sığortası isə ərazidəki iş fəaliyyəti digər şəxslərə, yaxud digər şəxslərin əmlakına ziyan vurduğu halda, həmin iş prosesinə görə cavabdeh olan


Məsuliyyət sığortasının təsnifatı
Məsuliyyət sığortasının növləri
İstifadə olunma sahələri
Sığorta formaları
1. Hər hansı mülkiyyət növünə aid olan müəssisənin sahiblərinin məsuliyyət sığortası
İstehsal sahəsi, sahibkarlıq
Könüllü, icbari
2. Yük daşıyanın məsuliyyət sığortası
İstehsal sahəsi, sahibkarlıq
Könüllü
3. Nəqliyyat sahiblərinin məsuliyyət sığortası
İstehsal sahəsi, sahibkarlıq, məişət sahəsi, qeyri-istehsal sahəsi
Könüllü
4. Professional məsuliyyətin sığortası
İstehsal sahəsi, sahibkarlıq
Könüllü, icbari
5. Vətəndaşların fərdi məsuliyyəti sığortası (fiziki şəxslərin):
- əmlak sahiblərinin (evlərin, torpaq sahələrinin və sair.);
- ev və vəhşi heyvanlar sahiblərinin;
- valideynlərin həddi-buluğa çatmamış və yaxud bacarığı olmayan uşaqlarına görə;
- vətəndaşların qanunvericiliyə zidd olmayan digər öhdəliklərinin növləri
Qeyri-istehsal sahəsi, məişət sahəsi
Könüllü

Sxem 2

şəxsləri ziyanla bağlı məsuliyyətdən azad edir. Eyni zamanda ərazidəki iş fəaliyyəti nəticəsində ətraf ərazilər zibillə nəsə, əraziyə cavabdeh olan sığortalı şəxslər bu hərəkətə görə məsuliyyətdən azad edilirlər. İctimai məsuliyyət sığortası sığortalı şəxsi üçüncü tə rəf qarşısında məsuliyyətdən maddi mühafizə ilə təmin edir. Məsuliyyət sı - ğortası – sığortanın gənc sahəsi kimi XIX əsrin sonlarında yaranmışdır. Lakin məsuliyyət sığortasının elementlərini artıq qədim Romada da görmək olar - dı. Belə ki, orada təşəkkül tapan dəniz təhlükələrindən yaranan birliklər üzvlərinin dəniz qul - durlarına ödəncləri üzrə xərcləri öz üzərinə götürürdü. Yunan hüququnda da məsuliyyət sığortasının elementlərini tapmaq olar. Yeni formada məsuliyyət sığortasına ilk dəfə XIX əsrin birinci yarı sında Fransada rast gəlinir. O, bədbəxt hadisələrdən sığortalanmaya, at və maşın sa - hiblərinin kasko sığortasına aid edilirdi. 1837-ci ildə Hamburqda mühacirətin icbari sığortası qəbul olundu. 1871-ci ildə Almaniyada məsuliyyət haqqında "Reyx qanunu" qəbul edildi. Bu qanunda dəmir yolu müəssisələrində törədilən zərərə görə məsuliyyət tətbiq edildi. Qanunların tətbiqi ilə sənaye sahəsində sığorta məsuliyyəti müəyyən olundu. 1871-ci ildə üç qarşılıqlı sığorta cəmiyyəti yarandı. 1875-ci ildə "Ümumi Alman Sığorta İttifaqı" təsis edildi. Onun rəhbəri Karl Qotlob Molt sığorta məsuliyyəti sahəsinin yaradıcısı idi. Bədbəxt hadisə riski ilə məsuliyyət riski arasında fərqi ilk dəfə məhz o göstərdi və sığortanın hər iki sahəsinin dürüst bölgü sürü apardı.

MƏSULİYYƏT SIĞORTASININ NÖVLƏRİ – 1. Avtomobil nəqliyyatı vasitə lərinin mülki məsuliyyət sığortası. 2. Daşıyanın mülki məsuliyyət sığortası. 3. Yüksək təhlükə mənbəyi olan müəssisələrin mülki məsuliyyət sığortası. 4. Peşə məsuliyyəti sığortası. 5. Öhdəliklərin yerinə yetirilmə məsinə görə mə - suliyyət sığortası. 6. Mülki mə - suliyyətin digər növlərinin sığortası (bax: sxem 1, 2).

MƏSULİYYƏTDƏN YAYINMA – burada söhbət iddianın təqdim edildiyi tərəfdən gedir. Əgər müqavilə şərti imkan verirsə, tərəf bu iddianın yerinə yetirilməsindən yayına bilər. Əgər sığortaçıya itkiyə görə lazımi sübutlar təqdim edilməyə cəksə və ya əgər iddia yalançı sübutlar və ədəb qaydalarına riayət edilməməklə irəli sü rülmüşdürsə, sığortaçı bu iddianı baxılmaq üçün nəzərdən keçirməyə də bilər. Əgər polis (sı - ğorta vəsiqəsi) reys üçün yazılıbsa, reys isə normal qəbul edilən vaxt ərzində baş verməyibsə, sığortaçı yenə məsuliyyətdən yayına bilər.

MƏSULİYYƏTİN ZƏMANƏT MÜDDƏTİ – sığorta - çının məsuliyyət daşıması nəticəsində zərərə görə onun təsər - rüfat fəaliyyətinin dayandırıl - masının maksimum dövrü.


MƏŞĞUL ƏHALİ – istehsal və qeyri-istehsal fəaliyyətinə cəlb olunmuş əhali. Məşğul əhaliyə aiddir: muzdla işləyənlər; sahibkarlar; əmək haqqı alan şagirdlər; nisbətən məşğul olan tələbələr və evdar qadınlar; sərbəst peşələrlə məşğul olanlar; hərbi qulluqçular; ailəsinə kömək edən ailə üzvləri (bax: cədvəl 1).

MƏŞĞULLUQ SAHƏSİNDƏ DÖVLƏT ZƏMANƏTİ – dövlət vətəndaşlarına fəaliyyət növünün seçilməsində azadlıq verir, işsizləri sosial müavinət, pulsuz ixtisas dəyişmə, tibbi xidmətlə təmin edir; məcburi ixtisarlarla əlaqədar işsizləri iş yerləri və müavinətlə, əlilləri isə işlə təmin edir.

MƏŞĞULLUQ SAHƏSİNDƏ SİYASƏT – işçi qüvvəsinin bölüşdürülməsinin yaxşılaşdırılmasına və səmə rəli məşğullu - ğun qorunub saxlanmasına yönnəlmiş tədbirlərin məcmusu. Əhalinin məşğulluq siyasəti iq - tisadi islahatların ümumi nəzə - riyyə və praktikasına, onun konsepsiyasının və reallaşdırılma strategiyasının prinsiplərinə uy - ğun olmalıdır.

Dövlət səviyyəsində məşğulluq siyasəti əmək bazarının subyektləri arasında münasibətlər yaradılması və həmin münasibətlərin tənzimlənməsi üçün zəruri olan hüquqi, iqtisadi, təş - kilati tədbirlər və normativ aktlar məcmusunun müəyyən edilməsini, eləcə də bazar iqtisadiyyatına keçidin mümkün sosial-iqtisadi nəticələri tədbirlərin müəyyən edilməsini nəzərdə tutur. Məşğulluq sahəsində bu siyasət işsizliyin yol verilə bilən ən yüksək səviyyəsi və müddəti əhalinin sosial baxımdan müdafiə olunmayan qruplarının işə qəbul edilməsi üçün kvotaların və stimullaşdırmanın həcmi, müavinətlər ödə - nilməsi üçün büdcə vəsaitlərinin yol verilə bilən minimum həcmi, işçilərin təkrar hazırlıq keç -

Azərbaycan Respublikasında iqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin bölgüsü (2010-cu il, yekuna görə, faizlə)




Qrafik 1

Cədvəl 1

Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin bölgüsü

	2005	2006	2007	2008	2009	2010
İqtisadiyyat üzrə, cəmi	**3868,7**	**4006,1**	**4054,7**	**4111,3**	**4118,0**	**4329,1**
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	1498,6	1542,6	1556,2	1571,4	1569,7	1720,0
Mədənçıxarma sənayesi	40,3	43,1	43,1	43,1	41,2	41,5
Emal sənayesi	188,9	198,2	201,4	206,2	206,5	208,9
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	32,5	34,6	35,7	36,2	32,9	30,6
Su təchizatı, tullantıların təmizlənməsi və əmah	30,4	32,1	32,5	32,9	33,0	25,2
Tikinti	201,8	211,5	216,8	220,4	220,8	287,5
Ticarət; nəqliyyat vasitələrinin təmiri	604,5	632,7	639,5	653,4	654,5	531,7
Nəqliyyat və anbar təsərrüfatı	166,3	172,2	174,3	176,7	177,0	179,1
Turistlərin yerləşdirilməsi və ictimai iaşə	23,9	24,7	25,0	25,4	25,4	46,9
İnformasiya və rabitə	30,8	31,9	32,3	32,7	32,8	55,8
Maliyyə və sığorta fəaliyyəti	17,2	20,4	20,7	21,0	21,0	24,4
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	78,2	80,9	81,9	83,1	83,2	69,6
Peşə, elmi və texniki fəaliyyət	41,3	42,8	43,3	43,9	44,0	45,6
İnzibati və yardımçı xidmətlərin göstərilməsi	23,3	24,1	24,4	24,8	24,8	46,5
Dövlət idarəetməsi və müdafiə; sosial təminat	244,4	253,0	256,1	259,7	260,1	279,1
Təhsil	328,7	334,1	339,9	346,4	348,0	349,8
Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	179,8	184,3	187,6	187,6	194,6	170,3
İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	49,9	51,8	51,8	53,0	54,9	59,6
Digər sahələrdə xidmətlərin göstərilməsi	87,9	91,1	92,2	93,4	93,6	157,0

Dünyada məşğulluq tendensiyaları (1998-2008-ci illər)



Qrafik 2

məsinin və ictimai iş lər yaradılmasının məqsədəuyğun səviyyəsi deməkdir.

Məşğulluğun mümkün qədər maksimum təmin edilməsi üçün müxtəlif – dövlət, respublika, respublikalararası və regional səviyyəli məşğulluq proqramları işlənib hazırlanır. Müəyyən ərazilərdə iş yerlərinin inkişaf etdirilməsi və sayının artırılması üçün dövlət məşğulluq siyasəti orqanlarını əhəmiyyətli dərə cədə təşviq edir.

Dövlət səviyyəsində məşğulluq siyasətinin əsas istiqamətləri aşağıdakılar hesab edilir:

1) investisiya fəallığının, istehsalın həcminin, inflyasiyanın azalması üzrə makroiqtisadi meyllərin aradan qaldırılması;

2) xüsusən şəhərsalma müəssisə lərində iş yerlərinin kütləvi şəkildə bağlanmasına mane olmaq;

3) iqtisadiyyatın qeyri-dövlət sektorlarında iş yerlərinin genişlənməsi və inkişaf etdirilməsi üçün əlverişli şərait yaradılması;

4) məcburiyyət üzündən işini itirmiş və işdən azad edilmə riski ilə üzləşmiş vətəndaşlara səmərəli köməyin və onların müdafiəsinin təmin edilməsi, əmək qabiliyyətli əhalinin işlə təmin olunmaqda çətinliklərlə üzləşən ayrı-ayrı qruplarının məşğulluğuna kömək;

5) uzunmüddətli işsizliyin sosial və iqtisadi nəticələrinin yumşaldılması.

Məşğulluğa iqtisadi dəstək üzrə dövlət siyasətinin əsas vəzifəsi iqtisadi cəhətdən məqsədəuyğun və perspektivli iş yerlərinin azaldılmasını ləngitmək, institusional dəyişikliklər, selektiv struktur siyasət, investisiya və digər məqsədli proqramların həyata keçirilməsi yolu ilə yeni iş yerləri yaradan investisiya fəallığının artmasına kömək etməkdən ibarətdir.

"MƏTANƏT A" ŞİRKƏTİ – 2000-ci ildə təsis olunaraq fəaliyyətə başlayıb. Ötən illər ərzində keyfiyyət faktoruna xüsusi diqqət yetirməsi şirkə tə çoxsaylı sadiq alıcı kütləsi qazandırıb. İstehsal etdiyi məhsullar ölkəmizdə keyfiyyət və inam göstəricisinə çevrilib. İnşaat sahəsində ən qabaqcıl texnologiyaları ilk olaraq tətbiq etmək, yeni inşaat metodlarını respublikamıza gətirmək əsas amalı olub. Şirkət daha da qloballaşaraq həm istehsal etdiyi məhsulları dünya ölkələrinə ixrac edir, həm də Türkiyə, Rusiya, Qazaxstan, Gürcüstan, Türkmənistan kimi ölkə lərdə istehsal sahələrinin yaradılmasını və satış sisteminin təşkilini həyata keçirməkdədir. Fəaliyyəti dövründə korporativ sosial məsuliyyəti dərk edərək xeyriyyəçilik missiyasına da önəm verib. Ötən illər ərzində yüksək müştəri məmnuniyyətini şirkətin ən böyük uğuru hesab etmək olar. Şirkətin uzun illik fəaliyyəti dövründə inkişafı şərtləndirən əsas faktorlar aşağıdakı kimi sıralana bilər:

Yeni istehsal müəssisələrinin yaradılması və ən son texnologiyaların tətbiqi

"Mətanət A" şirkəti fəaliyyətinə o dövr üçün ilk olan Keramika Yapışdırıcıları Zavodunun istifadəyə verilməsi ilə başladı. Keramika Yapışdırıcıları Zavodunda NANO texnologiyalı yapış d rıcıların tətbiqinə başlanılması isə inşaat sahəsində növbəti bir yenilik oldu. Novatorluq prinsiplərinə əsaslanaraq quru-







lan fəaliyyət mexanizmi davamlı inkişafın əsas şərtidir. 2007-ci ildə isə AĞDAĞ Gips Zavodunun fəaliyyətə başlaması güclənən milli iqtisadiyyatın və yerli sahibkarlığın inkişafından xəbərverirdi. Alman texnologiyası əsasında qurulan və tam rəqəmsal texnalogiya ilə idarə olunan zavod, təbii gips əsaslı məhsullar istehsal edir. Evlərin, ofislərin, obyektlərin daxili divarlarının suvanması üçün istifadə edilən AĞDAĞ zavodunun AĞDAĞ suvağı insanların sağlam mühitdə yaşamasını təmin edir. 2008-ci ildə isə "Mətanət A" şirkəti "Beton Qatqıları Zavodu"nun fəaliyyətinə start verdi. Zavodda istehsal olunan məhsullar tikintidə istifadə edilən betonun keyfiyyətinin artmasında müstəsna rol oynayır. 2009-cu ildə isə Kalsium Karbonat Zavodu tikilib istifadəyə verildi. Artıq bu gün "Mətanət A" şirkətə 3 sistemdə, 22 mal qrupunda fəaliyyət göstərməklə 200-dən çox ticarət markasına və 1000-dən artıq məhsul çeşidinə malikdir. Şirkətin istehsal etdiyi məhsul qrupları aşağıdakılardan ibarətdir:

İnşaat sistemləri: Keramika yapışdırıcıları, Aralıq doldurma qarşıqları, Təmir və ankrac qarışıqları, Hidroizolyasiya qarışıqları, İstilik izolyasiya məhsulları, Gips əsaslı məhsullar, Sement əsaslı suvaq məhsulları, Əhəngdaşı əsaslı məhsullar, Əhəng məhsulları, PVA yapışqan məhsulları, Boya məhsulları, Mineral əsaslı dekorativ fasad örtükləri, Astarlar, Səth qoruma və səth təmizləmə maddələri;

Döşəmə sistemləri: Sement əsaslı səth sərtləşdiriciləri, Epoksid və poliüretan əsaslı döşəmə örtükləri, Özü yayılan şap məhsulları;

Qatqı sistemləri: Beton qatqıları, Suvaq qatqıları, Beton yardımçı məhsulları, Üyütməyə yardımçı məhsullar, Yeraltı inşaat yardımçı məhsulları.

Yeniliklər və inkişaf ənənəsinə sadiq qalan "Mətanət A" şirkəti gündəlik istehsal həcmi 500 ton olan "Əhəng Zavodu"nu 2014-cü ildə işə salaraq məhsul is-







tehsalına başlayacaq. Bu, ölkəmizi keyfiyyətli əhəng məhsulları ilə təmin etmək və yeni iş yerlərinin açılması baxı mndan vacibdir.

Elmi araşdırmalar və yeni məhsul çeşidləri

Şirkətin elm və tədqiqiatlara əsaslanan fəaliyyəti yeni-yeni məhsul ixtiralarına səbəb oldu. Sement və gips əsaslı qarışıqların Azərbaycanda ilk istehsalçısı olan "Mətanət A" şirkəti elm və tədqiqatlara əsaslanan fəaliyyəti nəticəsində ixtiraları ilə dünya inşaat sənayesinə öz tövhələrini verməkdədir.

İnnovasiya ənənəsinə sadiq qalaraq daim yeniliklər etmiş "Mətanət A" şirkətinin ixtira etdiyi, inşaatda ən müasir yeniliklərdən biri hesab edilən "ağlay" əsaslı məhsul olan "fasadda dekorativ üzlük plitə lərinin və qəliblərdə tökmə üsulu ilə bəzək məmulatlarının hazırlanılması üçün quru qarışıq", respublikamız da daxil olmaqla dünyanın 150-dən artıq ölkəsində patentləşdirilmişdir. Nou-hau (know-how) olan bu məhsul "FasNatural" ticarət markası adı altında istehlakçılara təqdim olunur. FasNatural məhsulunun istehsalında ağlay daşından əsas xammal kimi istifadə edilsə də, nəticə etibarı ilə "ağlay" daşla müqayisədə daha üstün hesab olunur. Texniki göstəricilər baxımından ağlay daşla müqayisədə bir çox üstünlüklərə malik olan FasNatural məhsuluna su hopmur, şaxtada çatlamır, bina nın fasadının yükünü 11 dəfəyə qədər azaldır (istilik izolyasiya sistemlərinin üzərinə vurulduqda), təmir işi daha ucuz və daha tez başa gəlir, müqaviməti təbii daşla eynidir, fasadda istənilən kompozisiyanı almaq olur və bütün bunlarla bərabər görünüşünə görə təbii daşdan seçilmir. FasNatural məhsulu fasadda dekorativ üzlük plitələrinin, bəzək məmulatlarının, izolyasiya lövhələrinin üzərinə çəkilməklə paduqaların hazırlanılması üçün əhəngdaşı əsaslı, birkomponentli, şaxtaya, istiyə, suya və xarici təsirlərə qarşı davamlı, yüksək möhkəmliyə malik olan bir məhsuldur. Əsasən XPS (sıxlaşdırılmış polistiren köpüyü), EPS (genişləndirilmiş





polistiren köpüyü), daş yunu (preslənmiş mineral pambıq tavalar), poliuretan tavalarla üzlənmiş və qara suvaq ilə suvanmış səthlərə suvaq makinası və əl ilə vurulmaqla səthdə üzlük plitələrin yaradılmasında, izolyasiya lövhələrinin üzərinə çəkiləklə paduqaların, qəliblərdə tökmə üsulu ilə bəzək məmulatlarının hazırlanmasında və memarlıq işlərinin görülməsində istifadə olunur və fasadda "ağlay" daşını yaradır.

Hazırda bu patentləşdirilmiş məhsulun dünya bazarına çıxması istiqamətində konkret tədbirlər görülür.

Yüksək müştəri məmnuniyyəti. "Keyfiyyətə kompromis yoxdur" devizini əsas tutaraq məhsulların keyfiyyətinə ciddi nəzarət edilir, mütəmadi olaraq təkmilləşdirilir, müştəriyə istiqamətlənmiş xidmətlərin səviyyəsi yüksəldilir və İSO standartlarına uyğun bütün fəaliyyət qurulur. Bunun nəticəsidir ki, bu illər ərzində şirkətin ən dəyərli kapitalı hesab olunan loyal müştəri sayı yüksək həddə çatmışdır.

Sosial fəaliyyət. Beynəlxalq sərgilərdə, konfranslarda Azərbaycanın layiqincə təmsil olunması milli şirkət kimi ən böyük hədəflərdən biri oldu. Bundan başqa qaçqın və köçkün ailələrə, uşaq, qocalar və əlillər evlərinə, şəhid ailələrinə, Qarabağ əlillərinə, internat məktəblərinə, sosial yardımların həyata keçirilməsi "Mətanət A" şirkətinin korporativ vətəndaşlıq borcunun bir tərkib hissəsidir. Azərbaycanda ilk dəfə inşaat materialları istehsalı sahəsində ISO 9001-2000 "Keyfiyyətin İdarə Olunması" beynəlxalq standartını almış şirkət, digər beynəlxalq və milli keyfiyyət mükafatları ("Century İnternational Quality Era Award", "Award Global Quality Management", "Gold Star International Award for Quality", "New Millennium Award", "İnternational Star for Leadership" – Liderlik üzrə Beynəlxalq Ulduz Keyfiyyət Mükafatı, "İntellekt", "İnşaat ma- teriallarının istehsalı üzrə İlin Lider Şirkəti", "İlin Brendi-AĞDAĞ", "İlin İxtirası – Fas-Natural", ISO 14001 və s.) ilə də təltif olunmuşdur.

Şirkətin prezidenti Elxan Hidayət oğlu Bəşirov bir neçə patent və elmi məqalənin müəllifidir.

MƏTBU REKLAM – reklamın bu növü informasiyanın yayılması vasitəsi kimi mətbuatın istənilən formasından istifadə edir.

Mətbu reklamın növləri:

1. Lövhə reklamı – daimi nomenklaturalı malların sabit ünvanda uzun müddət satışı halında reklam informasiyasının səmərəli üsulu;
2. Mətbu poçt reklamı – reklam vərəqələrinin poçtla göndərilməsi vasitəsilə informasiyanın yayılması. Reklamın bu növünün səmərəliliyi ünvan sahiblərinin və reklam mətninin məzmununun dəqiq və düzgün seçilməsi ilə müəyyən edilir;
3. Təqdimat reklamı – reklam informasiyasının reklam prospektləri ilə yayılması. Bu prospektlər potensial müştəriyə təqdim edilir. Reklamın bu növünün səmərəliliyi ünvan sahiblərinin dəqiq seçilməsi ilə müəyyən edilir;
4. Qəzet (jurnal) reklamı – birdəfəlik satışın aktivləşdirilməsi üçün nisbətən ucuz başa gələn vasitə. Bu reklamın səmərəliliyi çap məhsulunun dövriliyindən və tirajının həcmindən, onun oxucu reytinqindən, nəşrdə onu almağa məcbur edən televiziya proqramının olmasından və başqa amillərdən birbaşa asılıdır.

MƏTBUAT İLƏ ƏLAQƏLƏR – mal və ya təşkilat haqqında məlumatların mətbuatda yerləşdirilməsi yolu ilə onlar haqqında məlumat vermə. Bu zaman məlumatlandırma vaxtına və ya məlumatın həcminə görə birbaşa ödəniş nəzərdə tutulmur.

MƏZƏNNƏ – 1. Qiymətli kağızların alındığı və satıldığı qiymət. 2. Bir ölkənin pul vahidinin digər ölkənin pul vahidində ifadə olunan qiyməti. Əqd bağlananda satıcıları və alıcıları istiqamətləndirməkdən ötrü müəyyən müddət və ya vaxt üçün tələb və təklifi nəzərə almaqla əmtəələrin qiymətini aydınlaşdırmaq və qeydə almaq (cədvəl 1).

MHS GÖSTƏRİCİLƏRİ – məcmu kəmiyyətlərin vəziyyətini və dinamikasını əks etdirən ÜDM və ÜMM ilə məhdudlaşmayan sistem. Bununla əlaqədar *ÜMM* – amortizasiya; *XMM* – biznes üçün dolayı vergilər; *MG* – sosial sığorta haqları, korporasiyaların gəlir vergisi, korporasiyaların bölüşdürülməmiş mənfəətləri, transfert tədiyələri; *ŞG* – şəxsi gəlir üçün vergilər; sərəncamda olan gəlir *(SG)* kimi törəmə makroiqtisadi göstəricilərin qarşılıqlı əlaqəsi nəzərdən keçirilir. XMM ÜMM ilə amortizasiya ayırmalarının fərqidir. XMM-dən biznes üçün dolayı vergilər çıxıldıqda alınan nəticə MG olur. İstehsal edilmiş MG (əmtəə və xidmətlərin yeni

yaradılmış dəyəri) və istifadə edilmiş MG-dən itkilər (təbii fəlakətlər, saxlama zamanı ziyan nəticəsində yaranmış itkilər) və xarici ticarət saldosu arasındakı fərq müxtəlif kəmiyyətlərdir. ŞG MG-dən sosial sığorta haqları, korporasiyaların bölüşdürülməmiş mənfəətləri üçün, yəni faktiki əmək hesabına qazanılmış, lakin ev təsərrüfatlarına çatdırılmamış gəlirlər üçün vergilər çıxıldıqdan sonra qalan fərq kimi yaranır. Bununla bərabər, gəlirlərin bir qismi, məsələn, transfert tədiyələri ev təsərrüfatlarına daxil olur, lakin onlar əməyin nəticəsi deyildir. SG ŞG-dən şəxsi gəlirlər üçün vergilər çıxıldıqdan sonra şəxsin sərəncamında qalan gəlirdir. Milli Hesablar Sistemində yığım və istehlak norması MG-dən deyil, ÜDM-dən faiz kimi müəyyən edilir. Rusiyada isə bundan fərqli olaraq, indiyə qədər milli gəlir insanların maddi və mənəvi tələbatının, eləcə də cəmiyyətin təhsil, müdafiə və digər ehtiyaclarının təmin edilməsinə yönəldilən istehlak fonduna və geniş təkrar istehsalın təmin edilməsinə yönəldilən yığım fonduna bölünür.

MİD (MEADE) CEYMS EDUARD (1907) – Britaniya iqtisadçısı, beynəlxalq ticarət və beynəlxalq iqtisadi münasibətlər sahəsində mütəxəssis, leyborist. 1977-ci ildə "Beynəlxalq ticarət və kapitalın beynəlxalq hərəkəti nəzəriyyəsinin zənginləşdirilməsi"nə görə (B.Ulinlə birgə) iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür. Oksford Universitetini və Kembric Universitetinin aspiranturasını bitirmişdir. 1931-1937-ci illərdə Oksford Universitetində dərs demişdir. Millətlər Liqasının iqtisadçısı (1937), "Dünyanın iqtisadi şərhi"nin redaktoru ("World Economic Survey", 1937-1940), iqtisadi müşavir (1940-1947), Nazirlər Kabinetinin iqtisadiyyat şöbəsinin rəhbəri (1945-1947), vergiqoyma üzrə hökumət komitəsinin rəhbəri (1975-1977), London İqtisadiyyat Məktəbinin professoru (1947-1957), Kembric Universitetinin professoru (1957-1969) olmuşdur. 1969-cu ildən Kembric Universitetinin aparıcı mütəxəssisi, London İqtisadiyyat Məktəbinin, Oksford və Kembric universitetlərinin, Belçika Kral Siyasi İqtisad Cəmiyyətinin, Amerika İqtisadçılar Assosiasiyasının və Amerika Elmin İnkişafına Dəstək Assosiasiyasının fəxri üzvüdür.



Midin ən mühüm əsəri iki cildlik "Beynəlxalq iqtisadi siyasət nəzəriyyəsi"dir ("The Theary of İnternational Economic Policy"); 1-ci cild "Tədiyə balansı" ("Balance of payments", 1951), 2-ci cild "Ticarət və rifah səviyyəsi"dir ("Trade and Welfare", 1995). Kitabda beynəlxalq ticarətin tam nəzəriyyəsi verilmiş və beynəlxalq ticarətə müdaxilənin həm ayrı-ayrı dövlətlərdə, həm də ölkə daxilində əhali qruplarının rifah səviyyəsinə və buna uyğun olaraq, dünya istehsalının ümumi həcminin artmasına səbəb olduğu şərait tədqiq olunmuşdur.

Əsər keynsçi və neoliberal nəzəriyyənin sintezini (xüsusilə də C.Hiksin ümumi tarazlıq nəzəriyyəsini) əks etdirir. Mid göstərdi ki, iqtisadi siyasətin mühüm məqsədi kimi daxili tarazlaşmanın (tam məşğulluq) və xarici tarazlaşmanın (tədiyə balansının tarazlığı) əldə edilməsi üçün həm fiskal, həm də monetar siyasətin alətlərindən istifadə zəruridir. O, beynəlxalq ticarətin rəqabət qabiliyyətli daxili bazara malik olmayan ölkələrin rifah səviyyəsinə necə təsir edə biləcəyini nəzərdən keçirmişdir. Avropa inteqrasiyasının inkişafı və XX əsrin 50-ci illərinin ikinci yarısında Avropa iqtisadi əməkdaşlığının formalaşması təcrübəsinə əsaslanaraq Mid xüsusi olaraq gömrük ittifaqları nəzəriyyəsi ilə məşğul oldu. Bu məsələnin tədqiqində onun əsas əməyi, birincisi, gömrük ittifaqları çərçivəsində istehlak olunan malların kəmiyyətində baş verən dəyişikliklər üzrə mənfəət və itkilərə kompleks surətdə baxılmasından; ikincisi, bu problemin ümumi tarazlıq nəzəriyyəsi çərçivəsində terminoloji baxımdan dürüst ifadə edilməsindən və gömrük ittifaqına daxil olmayan ölkələrin rifah səviyyəsinə, yəni bütövlükdə dünya iqtisadiyyatına təsir nöqteyi-nəzərindən təhlilindən ibarətdir. Beynəlxalq makroiqtisadi nəzəriyyənin və beynəlxalq siyasətin işlənib hazırlanmasında da prioritet Midə məxsusdur.

XX əsrin 60-70-ci illərində Mid daxili iqtisadi siyasət və gəlirlərin bölüşdürülməsi problemləri ilə məşğul oldu. O, bölgü problemləri üzrə bir sıra məzmunlu əsərlər nəşr etdirdi, bun-

Azərbaycan manatının xarici valy

İl, ay	ABŞ dolları	AVRO	Avstraliya dolları	BƏƏ dirhəmi	Çin yuanı	Danimarka kronu	Honkonq dolları	İngilis funt-sterlinqi	İran rialı**	İsveç kronu
2010										
01	0,8031	1,1462	0,7312	0,2187	0,1176	0,1540	0,1035	1,2958	0,0081	0,1122
02	0,8034	1,0983	0,7116	0,2187	0,1176	0,1475	0,1034	1,2548	0,0081	0,1104
03	0,8033	1,0941	0,7338	0,2187	0,1177	0,1470	0,1035	1,2144	0,0081	0,1125
04	0,8035	1,0793	0,7436	0,2188	0,1177	0,1450	0,1035	1,2317	0,0081	0,1116
05	0,8035	1,0120	0,7008	0,2188	0,1177	0,1360	0,1032	1,1804	0,0081	0,1044
06	0,8037	0,9822	0,6857	0,2188	0,1178	0,1320	0,1032	1,1841	0,0080	0,1026
07	0,8037	1,0261	0,7029	0,2188	0,1186	0,1377	0,1033	1,2278	0,0080	0,1081
08	0,8036	1,0375	0,7231	0,2187	0,1184	0,1393	0,1034	1,2586	0,0080	0,1100
09	0,8034	1,0472	0,7495	0,2187	0,1190	0,1406	0,1034	1,2494	0,0080	0,1134
10	0,8016	1,1135	0,7860	0,2182	0,1202	0,1493	0,1033	1,2705	0,0077	0,1200
11	0,8000	1,0961	0,7925	0,2178	0,1203	0,1470	0,1032	1,2801	0,0077	0,1176
12	0,7989	1,0557	0,7920	0,2175	0,1202	0,1417	0,1028	1,2468	0,0077	0,1166
2011										
01	0,7975	1,0642	0,7944	0,2171	0,1208	0,1428	0,1025	1,2560	0,0077	0,1192
02	0,7952	1,0865	0,8026	0,2165	0,1209	0,1457	0,1021	1,2830	0,0077	0,1236
03	0,7934	1,1089	0,7973	0,2160	0,1208	0,1487	0,1018	1,2812	0,0077	0,1246
04	0,7920	1,1441	0,8373	0,2156	0,1213	0,1534	0,1019	1,2955	0,0076	0,1276
05	0,7905	1,1356	0,8451	0,2152	0,1217	0,1523	0,1017	1,2929	0,0075	0,1267
06	0,7880	1,1339	0,8355	0,2146	0,1217	0,1520	0,1012	1,2790	0,0072	0,1246
07	0,7866	1,1259	0,8478	0,2142	0,1218	0,1510	0,1010	1,2698	0,0074	0,1233
08	0,7865	1,1264	0,8239	0,2141	0,1228	0,1512	0,1009	1,2863	0,0074	0,1227
09	0,7867	1,0863	0,8085	0,2142	0,1231	0,1459	0,1009	1,2436	0,0074	0,1190
10	0,7869	1,0786	0,7955	0,2142	0,1235	0,1449	0,1012	1,2384	0,0074	0,1182
11	0,7866	1,0672	0,7940	0,2142	0,1238	0,1434	0,1011	1,2429	0,0072	0,1167
12	0,7864	1,0362	0,7961	0,2141	0,1238	0,1394	0,1011	1,2264	0,0072	0,1148
2012										
01	0,7863	1,0140	0,8153	0,2141	0,1245	0,1364	0,1013	1,2177	0,0070	0,1145
02	0,7863	1,0399	0,8434	0,2141	0,1248	0,1399	0,1014	1,2420	0,0066	0,1178

Cədvəl 1

utalara qarşı rəsmi orta məzənnəsi

İsveçrə frankı	İsrail şekeli	Kanada dolları	Küveyt dinarı	Livan funtu**	Misir funtu	Norveç kronu	Polşa złotası	Sinqapur dolları	Türk lirəsi*	Yapon yeni**
0,7762	0,2156	0,7699	2,8007	0,0535	0,1473	0,1398	0,2809	0,5745	0,5433	0,8807
0,7485	0,2144	0,7601	2,7858	0,0535	0,1465	0,1356	0,2735	0,5688	0,5290	0,8908
0,7539	0,2146	0,7847	2,7850	0,0535	0,1465	0,1363	0,2813	0,5746	0,5239	0,8899
0,7528	0,2167	0,7996	2,7844	0,0535	0,1455	0,1358	0,2789	0,5809	0,5379	0,8604
0,7123	0,2121	0,7722	2,7696	0,0535	0,1431	0,1280	0,2492	0,5762	0,5177	0,8730
0,7118	0,2086	0,7743	2,7630	0,0535	0,1416	0,1242	0,2393	0,5748	0,5092	0,8836
0,7633	0,2082	0,7695	2,7807	0,0535	0,1410	0,1279	0,2512	0,5832	0,5213	0,9174
0,7727	0,2119	0,7739	2,7991	0,0534	0,1412	0,1308	0,2600	0,5928	0,5316	0,9400
0,8008	0,2147	0,7744	2,8001	0,0535	0,1408	0,1323	0,2648	0,6008	0,5366	0,9518
0,8269	0,2217	0,7869	2,8394	0,0534	0,1401	0,1374	0,2816	0,6146	0,5621	0,9796
0,8137	0,2197	0,7909	2,8479	0,0533	0,1390	0,1346	0,2778	0,6168	0,5557	0,9707
0,8232	0,2215	0,7924	2,8315	0,0532	0,1378	0,1334	0,2643	0,6110	0,5254	0,9585
0,8333	0,2225	0,8018	2,8386	0,0531	0,1372	0,1358	0,2733	0,6190	0,5102	0,9659
0,8382	0,2172	0,8048	2,8662	0,0530	0,1352	0,1388	0,2767	0,6230	0,5001	0,9631
0,8632	0,2222	0,8113	2,8570	0,0529	0,1340	0,1414	0,2756	0,6244	0,5004	0,9677
0,8813	0,2307	0,8263	2,8662	0,0527	0,1329	0,1464	0,2883	0,6352	0,5200	0,9511
0,9051	0,2282	0,8177	2,8731	0,0524	0,1329	0,1448	0,2881	0,6389	0,5030	0,9744
0,9366	0,2307	0,8062	2,8694	0,0521	0,1325	0,1448	0,2859	0,6385	0,4926	0,9792
0,9549	0,2305	0,8227	2,8695	0,0520	0,1320	0,1447	0,2821	0,6464	0,4763	0,9904
1,0088	0,2217	0,8012	2,8843	0,0521	0,1319	0,1443	0,2734	0,6502	0,4474	1,0199
0,9091	0,2139	0,7879	2,8606	0,0523	0,1319	0,1408	0,2516	0,6311	0,4398	1,0242
0,8777	0,2145	0,7699	2,8550	0,0523	0,1318	0,1391	0,2476	0,6156	0,4299	1,0262
0,8688	0,2114	0,7672	2,8482	0,0522	0,1315	0,1371	0,2410	0,6102	0,4349	1,0147
0,8437	0,2083	0,7686	2,8305	0,0522	0,1307	0,1336	0,2313	0,6071	0,4209	1,0103
0,8371	0,2064	0,7753	2,8211	0,0522	0,1303	0,1319	0,2317	0,6136	0,4254	1,0212
0,8614	0,2104	0,7882	2,8331	0,0522	0,1303	0,1374	0,2486	0,6271	0,4475	1,0034

Belarus rublu**	Gürcü larisi	Qazaxıstan tenqesi	Qırğız somu	Latviya latı	Litva liti	Moldova leyi	Özbək somu**	Rusiya rublu	Tacik somonisi	Türkmən manatı**
0,0281	0,4701	0,0054	0,0182	1,6169	0,3320	0,0648	0,0529	0,0269	0,1837	0,2815
0,0277	0,4660	0,0054	0,0180	1,5489	0,3181	0,0627	0,0525	0,0266	0,1840	0,2813
0,0272	0,4653	0,0055	0,0179	1,5443	0,3169	0,0638	0,0520	0,0272	0,1839	0,2818
0,0270	0,4582	0,0055	0,0178	1,5244	0,3126	0,0643	0,0515	0,0275	0,1840	0,2816
0,0269	0,4514	0,0055	0,0177	1,4293	0,2932	0,0633	0,0511	0,0264	0,1839	0,2817
0,0267	0,4340	0,0055	0,0175	1,3852	0,2845	0,0623	0,0506	0,0257	0,1836	0,2820
0,0268	0,4370	0,0054	0,0174	1,4484	0,2972	0,0641	0,0502	0,0262	0,1834	0,2820
0,0269	0,4378	0,0055	0,0172	1,4646	0,3005	0,0663	0,0499	0,0265	0,1834	0,2817
0,0266	0,4392	0,0055	0,0172	1,4768	0,3033	0,0656	0,0497	0,0260	0,1833	0,2817
0,0267	0,4474	0,0054	0,0266	1,5695	0,3225	0,0681	0,0494	0,0264	0,1829	0,2811
0,0264	0,4544	0,0054	0,0342	1,5450	0,3176	0,0676	0,0491	0,0258	0,1821	0,2807
0,0265	0,4538	0,0054	0,0280	1,4880	0,3056	0,0656	0,0488	0,0259	0,1815	0,2804
0,0265	0,4447	0,0054	0,0169	1,5120	0,3080	0,0653	0,0485	0,0265	0,1811	0,2799
0,0264	0,4493	0,0054	0,0168	1,5438	0,3146	0,0663	0,0479	0,0272	0,1806	0,2791
0,0262	0,4643	0,0054	0,0167	1,5694	0,3212	0,0662	0,0475	0,0278	0,1783	0,2784
0,0260	0,4775	0,0054	0,0168	1,6130	0,3311	0,0679	0,0470	0,0282	0,1771	0,2775
0,0236	0,4706	0,0054	0,0171	1,6010	0,3287	0,0682	0,0466	0,0283	0,1749	0,2770
0,0158	0,4773	0,0054	0,0174	1,5988	0,3284	0,0681	0,0462	0,0282	0,1707	0,2768
0,0158	0,4725	0,0054	0,0174	1,5876	0,3260	0,0682	0,0458	0,0282	0,1677	0,2760
0,0157	0,4772	0,0054	0,0176	1,5878	0,3261	0,0692	0,0455	0,0273	0,1665	0,2760
0,0149	0,4734	0,0053	0,0175	1,5315	0,3147	0,0678	0,0452	0,0258	0,1652	0,2762
0,0189	0,4747	0,0053	0,0174	1,5270	0,3125	0,0670	0,0449	0,0251	0,1656	0,2764
0,0151	0,4751	0,0053	0,0171	1,5211	0,3091	0,0671	0,0445	0,0255	0,1654	0,2763
0,0093	0,4740	0,0053	0,0169	1,4858	0,3001	0,0668	0,0440	0,0250	0,1653	0,2761
0,0094	0,4707	0,0053	0,0169	1,4509	0,2936	0,0665	0,0437	0,0250	0,1653	0,2760
0,0095	0,4738	0,0053	0,0168	1,4884	0,3011	0,0664	0,0432	0,0263	0,1652	0,2768

*** 01.01.2006 tarixinə kimi 1000 valyuta vahidi**
**** 01.01.2005 tarixindən etibarən 100 valyuta vahidi**
Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

Cədvəl 1-in ardı

Ukrayna qrivnası	Argentina pesosu	Braziliya rialı	Hindistan rupisi	İndoneziya rupiası	Meksika pesosu	Səudiyyə Ərəbistanı rialı	CAR randı	Cənubi Korea vonu	Yeni Zelandiya dolları	Tarix
										2010
0,0993										01
0,0997										02
0,1002										03
0,1008										04
0,1008	0,2058	0,4324	0,0171	0,0087	0,0617	0,2143	0,1032	0,0662	0,5404	05
0,1009	0,2049	0,4451	0,0173	0,0088	0,0632	0,2143	0,1051	0,0662	0,5561	06
0,1014	0,2044	0,4540	0,0172	0,0089	0,0627	0,2143	0,1064	0,0668	0,5721	07
0,1018	0,2042	0,4568	0,0173	0,0090	0,0630	0,2143	0,1101	0,0681	0,5745	08
0,1014	0,2034	0,4665	0,0174	0,0089	0,0626	0,2142	0,1123	0,0690	0,5823	09
0,1009	0,2026	0,4761	0,0180	0,0090	0,0644	0,2137	0,1158	0,0713	0,6015	10
0,1006	0,2018	0,4683	0,0178	0,0090	0,0649	0,2133	0,1149	0,0710	0,6186	11
0,1003	0,2010	0,4709	0,0177	0,0089	0,0645	0,2130	0,1168	0,0697	0,5993	12
										2011
0,1003	0,2004	0,4756	0,0176	0,0088	0,0657	0,2126	0,1158	0,0712	0,6104	01
0,1000	0,1979	0,4770	0,0175	0,0089	0,0659	0,2120	0,1106	0,0711	0,6067	02
0,0998	0,1967	0,4769	0,0176	0,0090	0,0660	0,2116	0,1140	0,0707	0,5846	03
0,0994	0,1949	0,4994	0,0179	0,0092	0,0676	0,2112	0,1178	0,0730	0,6237	04
0,0990	0,1937	0,4898	0,0176	0,0092	0,0678	0,2108	0,1156	0,0729	0,6301	05
0,0987	0,1925	0,4965	0,0176	0,0092	0,0667	0,2101	0,1162	0,0729	0,6421	06
0,0984	0,1910	0,5034	0,0177	0,0092	0,0674	0,2097	0,1160	0,0744	0,6648	07
0,0984	0,1889	0,4924	0,0173	0,0092	0,0643	0,2097	0,1110	0,0731	0,6570	08
0,0984	0,1873	0,4554	0,0166	0,0090	0,0606	0,2098	0,1049	0,0705	0,6420	09
0,0983	0,1866	0,4435	0,0160	0,0089	0,0584	0,2098	0,0990	0,0682	0,6202	10
0,0982	0,1848	0,4405	0,0155	0,0087	0,0575	0,2097	0,0966	0,0694	0,6062	11
0,0981	0,1835	0,4279	0,0150	0,0086	0,0571	0,2097	0,0960	0,0685	0,6059	12
										2012
0,0979	0,1822	0,4383	0,0153	0,0086	0,0584	0,2097	0,0980	0,0687	0,6267	01
0,0980	0,1811	0,4576	0,0160	0,0087	0,0615	0,2097	0,1026	0,0700	0,6559	02

lardan "Bərabərsizliyin irsi" ("*The inheritance of İnequalites*", 1974) və "Ədalətli iqtisadiyyat" ("*The Just Esonomy*", 1976) əsərlərini göstərmək olar. 1975-ci ildə onun "İqtisadi siyasət problemləri üzrə radikal ziyalıların bələdçisi" ("*The Intelligent Radicals Guide to Economic Policy*") əsəri nəşr olundu, burada müəllif "qiymətlərin sosialist sistemi"nə dair öz baxışlarını əks etdirdi. Mid həmçinin iqtisadiyyatda böhranlı vəziyyətlərin tədqiqi və tənəzzül mərhələsində böhranlı proseslərin təhlili ilə də məşğul olurdu. Onun "Staqflyasiya" ("Stagflation", 1982) əsəri bu problemlərə həsr olunub. Mid tərəfindən təqdim edilən staqflyasiya termini elmi dövriyyəyə staqnasiya və inflyasiyanın birləşməsi kimi daxil edilib.

MİKLAŞEVSKİ ALEKSANDR NİKOLAYEVİÇ (1864-1911) – rus iqtisadçısı.



Miklaşevski öz əsərlərində siyasi iqtisadın tarixindən başlamış fəhlə məsələsinə qədər geniş əhatəli problemləri işıqlandırmışdır. Monometallizmin tərəfdarı kimi çıxış edən Miklaşevski pul tədavülünün nəzəriyyə və praktikasının tədqiqinə daha çox diqqət yetirirdi. O, marksizmi "təkamül pozitivizmi"nin inkişafında bir mərhələ hesab edirdi. 1905-1907-ci illər inqilabı dövründə Miklaşevski özünün bir sıra əsərlərində fəhlələrin ağır vəziyyətdə olduğunu qeyd etmişdi. O, həmkarlar ittifaqı hərəkatının inkişafını, fəhlə kassaları təşkil edilməsini və bu qəbildən olan başqa tədbirləri tamamilə qanuni hesab edirdi. Miklaşevski siyasi iqtisad klassiklərindən F.Kene, A.Türqo, D.Rikardonun əsərlərini rus dilinə tərcümə etmişdir. Miklaşevski "Kağız pul, onun qiyməti və xalq təsərrüfatı üçün əhəmiyyəti" (1891), "Pul" (1895), "Mübadilə və iqtisadi siyasət" (1904) və başqa əsərlərin müəllifidir.

MİKROQARŞILIQLI MÜNASİBƏTLƏR – bir təşkilat çərçivəsində daxili istehlakçılar, daxili bazarlar, bölmələr və fəaliyyət sahələri arasında qarşılıqlı əlaqə.

MİKROMÜHİT – mikro mühiti şirkətlə sıx bağlı olan və onun, necə deyərlər, "yaxın dairəsini" təşkil edən subyektlər formalaşdırır. Onların fəaliyyəti şirkətin özünün seçdiyi bazarlarda işin səmərəliliyinə təsir göstərir. Şirkətə əsas təsir göstərən mikromühit subyektlərinə mal göndərənlər, distribüterlər, istehlakçılar və rəqiblər aiddir.

MİKRO SEQMENTLƏŞMƏ – seçim meyarları kimi amillər əsasında təşkilatın bazarlarının seqmentləşməsi. Bunu istehlakçılar, qərar qəbulu mərkəzinin strukturu, qərar qəbul etmə prosesi, alınan mallar kateqoriyası, alış təşkilatları və təşkilati novatorluq rəhbər tutur. Əksər hallarda təşkilatın bazarları əvvəlcə makro seqmentlərin formalaşması yolu ilə qruplaşır, sonra mikro seqmentləşmə vasitəsilə daha dəqiq alt seqmentlər müəyyən edilir.

MİKROİQTİSADİYYAT (yun. *mikros* – kiçik, balaca) – 1. Fərdi təsərrüfat prosesi vahidlərinin – sahibkarların (müəssisələrin) və istehlakçıların davranışının qiymətləndirilməsinə və tədqiqinə əsaslanan iqtisadi təhlil metodu; hər bir fərdi vahid (təsərrüfat özəyi) sərbəst və təcrid olunmuş hesab edilir. Mikroiqtisadi təhlil iqtisad elminin bir şaxəsi kimi klassik məktəbə mənsub olan iqtisadçılar tərəfindən əsaslı şəkildə işlənib hazırlanmışdır, lakin onlar çox vaxt bu təhlili bütövlükdə iqtisadi həyatın xarakterizə edilməsi üçün kafi şərt hesab edirdilər. Sonradan mikroiqtisadiyyat sahəsində tədqiqatlar makroiqtisadi təhlillə birlikdə vahid iqtisad elmini təşkil etmişdir. 2. İqtisad elminin nisbətən kiçik miqyaslı iqtisadi proseslərin, subyektlərin və hadisələrin (müəssisələr, firmalar, sahibkarlar, onların təsərrüfat fəaliyyəti, onlar arasındakı iqtisadi münasibətlər) öyrənilməsi ilə əlaqədar bölməsidir. Mikroiqtisadiyyatın diqqət mərkəzində istehsalçılar və istehlakçılar, həmçinin istehsalın, satışın, alışın, tələbat, qiymətlər, məsrəflər və mənfəət nəzərə alınmaqla istehlakın həcmi barədə onların qərarları dayanır. Mikroiqtisadiyyat subyektlərin bazarda davranışını, istehsal, bölgü, mübadilə və istehlak prosesində həmin subyektlər arasında yaranan münasibətləri, eləcə də istehsalçılar, sahibkarlar və dövlət arasında münasibətləri öyrənir. Mikroiqtisadiyyatın əsas bölmələri: istehlak nəzəriyyəsi; firma və bazarın strukturu nəzəriyyəsi; inhisarlar və rəqabət problemləri; dövlətlə özəl sektor arasında qarşılıqlı fəaliyyət problemləri; əmək ba-


Mikroiqtisadiyyatın iqtisadi subyekti
öz fəaliyyətlərində iqtisadi əlaqələri və onlara təsir göstərən prosesləri tanıyan təsərrüfat vahidləri
mikroiqtisadiyyatın əsas subyektləri
istehlakçı
istehsalçı
biznesin təşkili
ev təsərrüfatları
əsas məqsəd
iqtisadi seçimin həyata keçirilməsi
seçimin əsas növləri
nə istehsal olunmalı və nə qədər?
hansı üsulla istehsal olunmalıdır?
kim və hansı işi həyata keçirməlidir?
istehsal kimin üçün nəzərdə tutulmalıdır?
seçimin məhdudlaşdırılması
ehtiyacların və istəklərin həyata keçirilməsi üçün vəsaitlərin çatmaması
əmtəə və xidmətlərə olan tələbatın və bu tələbatın ödənilməsi üçün lazım olan vəsaitlərin arasında olan disbalans

Sxem 1

zarının təhlili; gəlirlərin bölüşdürülməsi məsələləri (bax: sxem 1).

MİKROKONSEPSİYALARIN MANEƏSİ – bazara xidmət edən şirkətlərin özlərinin hansı xüsusiyyətlərinin istehlakçılar üçün ən vacib olduğunu anlaya bilməməsi.

MİKROSIĞORTA – ümumqəbuledilmiş sığorta təcrübəsinə uyğun olaraq əhalinin az gəlirli təbəqəsi üçün sığortalana bilən risklər üzrə təklif olunan, cüzi sığorta haqqı müqabilində adi sığortaya nisbətən daha az məbləğdə sığorta təminatını nəzərdə tutan və lisenziyalaşdırılmış şəxslər tərəfindən həyata keçirilən sığorta mexanizmi. Mikrosığorta xidmətlərinin təqdim olunması zamanı sığortaçılar daha az sığorta haqları aldıqlarına görə daha az əldəetmə xərcləri sərf etmək üçün adi sığorta əməliyyatlarına xas olmayan üsullardan istifadə edirlər. Sığortaçılar eyni qayda ilə poçt şöbələri, bilet satıcıları vasitəsilə də mikrosığorta xidmətlərini təqdim edirlər. Mikrosığorta müqavilələri üzrə hadisələr baş verdikdə də sığorta şirkətləri ciddi araşdırmalar aparmır. Çünki araşdırmaya sərf olunacaq əmək və vaxtın dəyəri onsuz da çox olmayan sığorta ödənişinin həcminə yaxın olur.

MİQDAR GÜZƏŞTİ – böyük miqdarda mal alan alıcılar üçün qiymət güzəşti. "100 ədəddən az aldıqda bir ədədi 10 dollar; 100 ədəd və daha çox aldıqda bir ədədi 9 dollar" şərti bu cür güzəştə tipik nümunədir. Miqdara görə güzəşt bütün sifarişçilərə təklif edilir və böyük partiyalar şəklində mal satışı nəticəsində satıcının xərclərinə qənaətin məbləğindən artıq olmur. Qənaət ehtiyatların saxlanması və malın daşınması, satış üzrə xərclərin azalması sayəsində yaranır. Güzəştlər istehlakçının mal partiyalarını bir neçə malgöndərəndən deyil, bir satıcıdan alması üçün stimuldur. Topdansatış güzəşti – alınan malın miqdarından asılı olan güzəşt.

MİQDAR TƏNLİYİ – pulun miqdarı, pulun dövriyə sürəti və iqtisadiyyatda istehsal olunan əmtəə və xidmətlərin pulla ifadə olunan dəyəri ilə bağlı

$M \times V = P \times Y$ düsturu.

MİQRASİYA KOQORTASI (lat. *migratio* – köçmə, yerləşmə) – miqrantların məcmusu. Müəyyən yaşayış məntəqəsinə, yaxud rayona miqrasiyanın ümumi dövrü ilə birləşir. Miqrasiya koqortası əhalinin siyahıyaalmalarının nəticələri üzrə yaşama müddəti haqda məlumatlar əsasında ayrılır. Miqrasiya koqortası haqda məlumatlar miqrasiyanın tarixi, onun ərazi və vaxt qanunauyğunluqları nöqteyi-nəzərindən maraq doğurur, lakin faktiki miqrasiya koqortasının sayını və həmin yerdə sağ qalanların sayını fərqləndirmək lazımdır. Çünki faktiki koqortalar miqrantların sonrakı miqrasiyası və ölümü ilə bağlı azalır; yaşama müddəti artdıqca bu amillərin təsiri çoxalır.

MİQYAS EFFEKTİ (ing. *returns to scale, scale effect*) – istehsal funksiyaları nəzəriyyəsində istifadə edilən resursların həcminin dəyişməsi ilə müvafiq istehsal nəticələrinin dəyişməsi arasındakı nisbət. Xarakterik nümunə kimi istehsalın kütləvi miqyası hesabına yaranan qənaəti göstərmək olar. İstehsalın miqyası nə qədər geniş olursa, başqa şərtlər eyni olduqda məhsulun hər vahidinin orta istehsal xərclərinin dəyəri də bir o qədər aşağı olur və deməli, məsrəflərlə məhsul buraxılışı arasındakı nisbət artır. İriləşdirilmiş güc vahidlərinin (kimya sənayesində və elektrik stansiyalarında), istehsal proseslərinin avtomatlaşdırılması vasitələrinin tətbiq edilməsi imkanları istehsal xərclərinin sabit və daimi hissələri arasındakı fərqə təsir göstərir (məhsul buraxılışı artdıqda istehsal xərclərinin dəyişən hissəsi artır, sabit hissə isə dəyişməz qalır).

Mənfi miqyas effekti, adətən, mürəkkəb istehsal komplekslərinin əlaqələndirilməsi və idarə edilməsi problemləri ilə bağlı olur.

MİQYASLAR HESABINA QƏNAƏT – istehsalın həcmi artdıqca xərclərin azalması. İlk növbədə sabit istehsal xərclərinə və bütövlükdə transaksiya xərclərinə qənaət edilməsi hesabına məhsulun hər vahidinə düşən xərclərin azalması nəticəsində yaranır. Miqyaslar hesabına qənaət sənaye cəmiyyəti mərhələsində standartlaşdırılmış kütləvi istehsalın üstünlük təşkil etməsi şəraitində daha artıq dərəcədə reallaşır. O, müvafiq həcmə və xarakterə malik bazarların olmasını, istehlakçıların sayının artırılmasını, məhsulun az və ya çox dərəcədə eyni olmasını tələb edən istehsalın axın-kütləvi üsulla təşkil olunması, yəni kütləvi istehlak standartlarına keçid əsasında mümkün olur. Bütün bunlar is-

tehsalın təmərküzləşməsi, iri və ən iri müəssisələrin xüsusi çəkisinin artırılması üçün zəruri iqtisadi şərait yaradır. İnkişaf etmiş ölkələrdə postsənaye cəmiyyətinin təşəkkülünün müasir mərhələsində miqyaslar hesabına qənaət rəqabət mübarizəsində həlledici amil rolunu itirir. Bu, bütün dünyada istehsalın və tələbin diversifikasiyası və kütləviliyin ləğv edilməsi meyillərinin təsirinin nəticəsidir. Xırda seriyalı istehsalın rolu güclənir, istehsalın ilkin mərhələlərinin ölçüləri dəyişir, təmərküzsüzləşmə prosesi gedir, kiçik və orta biznes inkişaf edir.

MİLEYKOVSKİ ABRAM GERASİMOVİÇ (1911-1995) – Rusiya iqtisadçısı, 1932-ci ildə Leninqrad Dövlət Universitetini (LDU) bitirmişdir.



1932-1935-ci illərdə LDU-nun aspirantı, 1935-1940-cı illərdə LDU-nun İqtisadi coğrafiya kafedrasının dosenti olmuşdur. 1940-1956-cı illərdə sovet ordusunda xidmət keçmiş, Böyük Vətən müharibəsində iştirak etmiş, 1956-cı ildən SSRİ EA Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunda böyük elmi işçi, 1962-ci ildən sektor müdiri vəzifələrində çalışmışdır. İqtisad elmləri doktoru, professor, SSRİ EA-nın müxbir üzvü (1966) və həqiqi üzvü (1981) olmuşdur.

Rusiyada və dünyada siyasi iqtisadın nəzəri problemləri, inkişaf etmiş ölkələrin iqtisadiyyatı, Qərb iqtisadi təfəkkürü, beynəlxalq münasibətlər sahəsində mütəxəssis kimi tanınmışdır. 230-dan çox elmi işin müəllifidir. İki dəfə "Qırmızı Ulduz", "Qırmızı Əmək Bayrağı", "Oktyabr İnqilabı", "Şərəf nişanı" ordenləri və müxtəlif medallarla təltif olunmuşdur.

MİLL (MİLL) CEYMS (1773-1836) – ingilis iqtisadçısı, D.Rikardonun ən görkəmli davamçısı. O, renta nəzəriyyəsindən siyasi nəticələr çıxarılması sahəsində öz müəllimindən daha irəli gedərək torpaq rentasının dövlət tərəfindən mənimsənilməsini, torpağın milliləşdirilməsini tələb edirdi. Mill "Siyasi iqtisadın elementləri" (1821) əsərində iddia edirdi ki, dəyərin mənbəyi yalnız canlı əmək deyil, həm də toplanmış və istehsal vasitələrində əşyalaşmış əmək hesab edilməlidir. Nəticədə muzdlu işçilərlə kapitalistlər arasında "Bərabər əmtəə sahibləri" münasibətləri yaranır, onların hər biri istehsal edilmiş məhsuldan müvafiq pay alır.



MİLL (MİLL) CON STÜART (1806-1873) – ingilis mütəfəkkiri və iqtisadçısı. Ceyms Millin oğludur. O, atasının rəhbərliyi ilə əla təhsil almışdır. Üç yaşında qədim yunan dilini öyrənməyə başlamış Mill altı yaşında ikən tarixə aid müstəqil işlər yazmış, on iki yaşı tamam olanda ali riyaziyyatı, məntiqi və siyasi iqtisadı öyrənməyə başlamışdır. On dörd yaşında təhsilini başa vurmuş Mill 1838-1858-ci illərdə Ost-Hind şirkətində çalışmış, Hindistanın ingilislər tərəfindən idarə edilməsi ilə əlaqədar məsələlərin həllində iştirak etmişdir. 1865-1868-ci illərdə İngiltərə parlamentinin icmalar palatasının üzvü olmuş, burada mülkədar torpaqlarının kəndlilərə verilməsi və ya uzunmüddətli icarə şərtləri daxilində həmin torpaqların kəndlilərə təhkim edilməsinin tərəfdarı kimi çıxış etmişdir. 1843-cü ildə "Məntiqin sistemi" adlı əsərini çap etdirmişdir. Özünün ən məşhur iqtisadi əsəri olan "Siyasi iqtisadın əsasları" kitabını ilyarım ərzində yazaraq 1848-ci ildə nəşr etdirmişdir (rus dilinə tərcümə, c.1-2, 1865). Kitab o dövrün iqtisadi problemlərinin geniş əhatəliliyi, iqtisadi təhlilin və tarixi hadisələrin düzgün araşdırılması, Rikardo nəzəriyyəsinin onun tənqidçiləri tərəfindən təqdim olunmuş digər modifikasiyalarla peşəkar sintezi, ortodoksal nəzəriyyə çərçivəsində radikal tərzi, zərif üslubu, həmçinin milli məntiqçi, filosof, siyasi nəzəriyyəçi və Belletrist reputasiyası ilə oxucularının diqqətini cəlb etmişdir. Bu işdə müəllif Rikardonun ideyalarını son dərəcə inandırıcı və aydın şəkildə təbliğ etmiş, onun təlimini geniş oxucu kütləsi üçün daha anlaşıqlı və sadə dildə şərh etmişdir. Kitab nəzəri yeniliklərlə doludur. Məsələn, Rikardonun "Nisbi xərclər nəzəriyyəsi"nin beynəlxalq mübadilədə ticarət şəraitinə təsir

edən qarşılıqlı tələbi nəzərə alaraq genişləndirilməsi. Bundan başqa, o, Smitin "Nisbi əmək haqqı nəzəriyyəsi"ni əmək bazarında rəqabət etməyən qruplar konsepsiyasına əlavə etməklə dəqiqləşdirmişdir. O, "tələb və təklif qanunu"nu bərabərlik kimi yox, cəbri tənlik kimi ifadə etmiş, dəyərin əmək nəzəriyyəsi üçün birgə istehsalın törətdiyi problemləri aşkar etmişdir. Bu siyahı davam etdirilə bilər. Millin 1859-cu ildə çapdan çıxmış "Azadlıq haqqında" kitabının məzmunu dövlət və şəxsiyyətin qarşılıqlı münasibətlərinin hüdudları məsələsinin hərtərəfli müzakirəsinə həsr olunmuşdur. "Nümayəndəli" burjua demokratiyası şəraitində şəxsiyyətin hüquqlarının və ən müxtəlif azlıqların hüquqlarının müdafiəsinin bütün aspektlərinin hərtərəfli nəzərdən keçirilməsi bu kitabın onilliklər boyu təsirli olmasını təmin etmişdir. 1861-ci ildə Mill "Utilitarizm" kitabı üzərində işi başa çatdırmışdır. Mill fəlsəfənin, siyasətin, iqtisadiyyatın və ədəbiyyatın ən müxtəlif məsələlərinə həsr edilmiş çoxsaylı jurnal məqalələrinin müəllifidir. Mill bir iqtisadçı olmaqla D.Rikardonun şagirdi və davamçısıdır. O, Rikardonun ən mühüm nəzəriyyələrinin hamısını – onun dəyər və əmək haqqı barədə təlimini qəbul edir. T.Maltusa görə, əhalinin sayının qeyri-məhdud artmasının təhlükəli olmasını qəbul edir. Mill siyasi iqtisad qanunlarını iki növə bölür: insanların iradəsindən asılı olmayıb fiziki səbəblərin təsirindən (məsələn, torpağın məhsuldarlığını müəyyən edən bioloji xassələrdən) asılı olan istehsal qanunları; psixoloji səbəblərin təsiri insanların fikir və arzuları ilə müəyyən edilən və sosial mühitin xüsusiyyətlərindən asılı olaraq dəyişən bölgü qanunları. Bunun nəticəsində bölgü qanunları birinci kateqoriyaya aid qanunlar üçün səciyyəvi olan zərurilik xarakterinə malik deyildir. İqtisadi qanunların obyektiv, "təbii" xarakterini qəbul edən Mill bildirirdi ki, bölgü qanunları, əsasən, insanın özü tərəfindən formalaşır və buna görə də həmin qanunlar subyektivdir. Bununla əlaqədar o, sosial dəyişiklikləri gəlirlərin təkrar bölgüsü sahəsində həyata keçirilən tədbirlərin nəticəsi hesab edirdi. Sosializmə gəldikdə, Mill onun uzaq gələcəkdə, insanın mənəvi təbiəti daha kamil olacağı dövrdə həyata keçirilə biləcəyini qəbul edir, lakin yaxın gələcəkdə ayrı-ayrı şəxslərin fəaliyyət sərbəstliyinin məhdudlaşdırılmasını və şəxsi təşəbbüsün aradan qaldırılmasını mümkün və arzuedilən hal saymırdı. Millin əsərləri rus iqtisadi təfəkküründə çox güclü təsir göstərmişdir. İnqilabdan əvvəlki dövrdə ümumi siyasi iqtisad kurslarının əksəriyyəti şərhin ümumi planını, eləcə də bir sıra xüsusi məqamları ondan əxz etmişdir. Millin metodoloji baxışları da rus iqtisadçılarının əksəriyyəti tərəfindən qəbul edilmişdir. N.Q.Çernışevski 1850-ci illərdə Millin əsərlərini tərcümə etməyə başlamış, onun "Siyasi iqtisadın əsasları" kitabını tərcümə etmişdir. Mill haqqında ilk məqalə 1867-ci ildə çap edilmişdir. Bu, N.Bunqenin "St. Mill iqtisadçı kimi" məqaləsi idi.

MİLLER (MİLLER) MERTON (1923) – Amerika iqtisadçısı. 1990-cı ildə "Korporasiyaların maliyyə nəzəriyyəsinə fundamental töhfəyə görə" iqtisadiyyat üzrə Nobel mükafatı laureatı (Q.Markovits və U.Şarp ilə birlikdə) alıb. Harvard Universitetini və Baltimorda (Merilend ştatı) C.Hopkins Universitetinin aspiranturasını bitirmişdir. 1943-1945-ci illərdə Maliyyə Nazirliyinin vergi müfəttişliyi şöbəsinin iqtisadçısı, ABŞ Federal Ehtiyatlar Sisteminin müdirlər şurasının elmi araşdırmalar və statistika bölməsinin əməkdaşı (1945-1949) olmuşdur. London İqtisad Məktəbində (1952-1953), Belçikadakı Luven Katolik Universitetində (1966-1967) dərs demişdir. Karnegi Texnoloji İnstitutunun ali sənaye idarəetmə məktəbində tədqiqat fəaliyyəti ilə məşğul olmuşdur (hazırda həmin məktəb Karnegi Mellon Universiteti adlanır). 1961-ci ildən Çikaqo Universiteti yanında ali biznes məktəbinin professoru, 1980-ci ilin əvvəlindən Çikaqo Ticarət Palatasının və Çikaqo Kommersiya Birjasının ictimai əsaslarla işləyən direktorudur. Həmçinin Ekonometriya Cəmiyyətinin üzvü və 1976-cı ildən Amerika Maliyyə Assosiasiyasının prezidentidir. Millerin elmi maraqları, əsasən, korporasiyanın maliyyə problemləri ilə bağlıdır. Markovits və Şarp, əsasən, maliyyə investisiyası problemləri



ilə məşğul olduqları halda, Miller əvvəlcə F.Modilyani ilə əməkdaşlıq şəraitində korporasiyanın maliyyə nəzəriyyəsini işləyib hazırlamışdır. Bu nəzəriyyə bir tərəfdən istehsalçı firmaların əsas kapitalının strukturu və dividend siyasəti arasında əlaqə yaradır, digər tərəfdən bu firmaların bazar qiyməti ilə kapital sərfi arasında əlaqəni müəyyənləşdirirdi. 1958-ci ildə M.Modilyani ilə şərikli müəllif kimi korporasiyanın maliyyə probleminə aid "Kapitalın dəyəri, korporasiyanın maliyyələşdirilməsi və investisiya nəzəriyyəsi" ("*The Cost of Capital, Corporation finance and the Theory of İnvestment*") adlı ilk məqaləsini yazmış və özəl korporasiyaların maliyyə nəzəriyyəsinin baza modelini ifadə və təhlil etmişdir. Həmin nəzəriyyənin predmeti özəl firmalar tərəfindən investisiya və maliyyə barədə qərarlar qəbul edilməsinin əsaslandırılmasını öyrənməkdir. Məqalə fransız, alman və yapon dillərinə tərcümə edilmişdir. Millerin nəzəriyyəsində bildirilir ki, rasional fəaliyyət göstərən investor maliyyə qərarları qəbul edərkən öz hesablamalarında yalnız şirkətin ehtimal edilən mənfəətinə oriyentasiya edir. Bu halda şirkətin səhmdar kapitalının həcminin və strukturunun əhəmiyyəti yoxdur. Miller analogiya kimi belə bir fikir söyləmişdir ki, piroqun dəyəri onun hissələrə necə bölünməsindən asılı deyil. O, Modilyani ilə birlikdə yazdığı sonrakı məqalələrində – "Dividend siyasəti və bazar qiyməti" ("*Dividend Policy and Market Valuation*", 1963) və "Elektrotexnika sənayesində kapitalın dəyərinin bəzi qiymətləndirmələri" ("*Some Estimates of the Cost of Capital in the Electirc Utility İndustry*", 1966) məqalələrində baza modeli əsasında Modilyani-Miller nəzəriyyələri adı ilə məşhur olan iki invariantlıq nəzəriyyəsini ifadə etmişdir. Bu teoremlər özəl korporasiyaların maliyyəsinin nəzəri və empirik təhlilində hamılıqla qəbul edilmiş müqayisə bazasıdır. Miller XX əsrin son iki onilliyində bu sahədə aparılan tədqiqatlarda liderlik etmişdir. 1980-ci illərin əvvəllərində onun elmi maraqları maliyyə məsrəflərinin, sənayenin və xüsusən qiymətli kağızların iqtisadi və inzibati tənzimlənməsi problemlərinə yönəlmişdir.

MİLLİ ELMLƏR AKADEMİYASININ GEOLOGİYA İNSTİTUTU – 1938-ci ildə tanınmış Azərbaycan alimləri Ş.A.Əzizbəyov, M.A.Qaşqay, Ə.A.Yaqubovun təşəbbüsü ilə SSRİ EA Azərbaycan filialının geologiya sektorunun bazasında müstəqil elmi-tədqiqat müəssisəsi olan Geologiya İnstitutu yaradıldı. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutu respublikada ən yaşlı və aparıcı institutlardan biridir.

70 ildən çox fəaliyyət müddəti ərzində institut dünya geologiya elminə çoxlu töhfələr vermişdir. Azərbaycanda geologiya elminin inkişafının pik dövrü XX əsrin II yarısına düşür. Məhz bu vaxt regionun geoloji quruluşu və geotektonik təkamülü öyrənilmişdir. Həmçinin, bu dövrdə Azərbaycanda geologiya və geofizika sahəsində məşhur elmi və pedaqoji məktəblər formalaşmışdır.

İnstitutun yaranmasında böyük rus alimləri İ.M.Qubkin, D.B. Qolubyatnikov, V.P.Baturin, V.V. Boqaçov, D.V.Nalivkin, P.V.Pustovalov, M.A.Sadovskiy, B.S. Sokolov, V.Y.Xain və baş- qaları böyük rol oynamışlar. Respublikada geologiya elminin inkişafında Azərbaycan alimləri akademik Ş.A.Əzizbəyov, M.M. Əliyev, Ə.A.Əlizadə, Q.A.Əli -



Akademik İ.M.Qubkin və onun silahdaşları

DÜNYA GEOLOGİYA ELMİNƏ ÖZ LAYİQLİ



Əliəşrəf Əlizadə
1911-1985

Əhəd Yaqubov
1908-1979

Mirəli Qaşqay
1907-1977

Musa Əliyev
1908-1985

Şamil Əzizbəyov
1906-1976

Şəfayət Mehdiyev
1910-1993

Qambay Əlizadə
1899-1990

Rəhimbəy Cəfərov
1883-1971

Viktor Xan
1914-2009

Ədhəm Şıxəlibəyli
1911-1996

Cəlil Xəlilov
1900-1976

Əzal Sultanov
1905-1990

TÖHFƏSİNİ VERMİŞ AZƏRBAYCAN ALİMLƏRİ



Sabit Orucov
1912-1981



Fərman Salmanov
1928-2007



Baba Babazadə
1911-1962



Faiq Bağırzadə
1926-1988



Seyid-Rza Kərim
1925-1996



Fuad Səmədov
1926-1969



Tofiq İsmayılzadə
1930-2004



Dəmir Hacıyev
1929-1999



Heydər Əfəndiyev
1907-1967



Milli Elmlər Akademiyasının
Geologiya İnstitutu



Akif Əlizadə
1934





zadə, M.A.Qaşqay, Ş.F.Mehdiyev, A.D.Sultanov, Ə.Ş.Şıxəlibəylinin xüsusi xidmətləri vardır. Neft elmi istiqamətində ilk fundamental tədqiqatlar M.V. Abramoviç, A.Q.Əliyev, Ş.F. Mehdiyev tərəfindən aparılmışdır. Regional geologiya (M.Q. Ağabəyov,V.Y.Xain,Ə.Ş.Şıxəlibəyli, stratiqrafiya və poleontologiya (M.M.Əliyev, Q.A.Əlizadə, V.V. Boqaçov, A.Q. Xəlilov, C.M. Xəlilov və başqaları), litologiya (A.Q.Əliyev, V.P.Baturin, A.D. Sultanov və başqaları) sahəsində tədqiqatlara da başlanılmışdı.

1938-ci ildə Binəqədidə qazıntılar nəticəsində onurğalılar sinfinin qalıqlarının tapılması Azərbaycanda palentologiyanın əsasını qoydu. Bu istiqamətdə iri miqyaslı tədqiqatları V.V.Boqaçov, N.İ.Burçak-Abramoviç, D.V.Hacıyev, R.D.Cəfərov və başqaları aparmışlar. Müharibədən sonra İnstitutun elmi tematikasını geologiya və geofizika elmləri təşkil etmişdi. Alim və mütəxəssislərin səyləri respublikanın geoloji quruluşunun öyrənilməsinə, quruda və Xəzər dənizində perspektiv neftli strukturların və faydalı qazıntı yataqlarının kəşfinə yönəldilmişdi. Azərbaycanda geologiyanın bu klassik növünün inkişafı akademik M.M.Əliyevin, Ə.A.Əlizadənin, Q.A.Əlizadənin, A.V.Məmmədovun, A.D. Sultanovun, V.Y.Xainin, Ə.Ş. Şıxəlibəylinin və başqalarının adı ilə bağlıdır. M.Q.Ağabəyov, A.Q.Əliyev, A.A.Əlizadə, F.S. Əhmədbəyli, T.A.Həsənov, K.M.Sultanov, A.Q.Xəlilov, C.M.Xəlilov bir çox elmi nailiyyətlərin müəlliflərididirlər. Eyni zamanda, yeni alim (X.Əliyulla, B.Q.Vəkilov, N.V.Paşalı, A.Q. Seyidov) və mütəxəssislər (A.B.Abbasov, R.A.Ağamirzəyev, R.Q.Babayev, Ş.A.Babayev, M.A.Bəhmənov, R.O.Qoşqarlı, A.B.Məmmədov və başqaları) nəsli də yaranmışdır.

Hazırda geologiya institutunun prioritet sahəsi neft-qaz geologiyası və geokimyadır. Bu sahələrin inkişafı akademik Ə.A.Əlizadənin, Ş.F.Mehdiyevin, S.Q. Salayevin, Ə.A.Yaqubovun və başqa tədqiqatçılar – E.N.Əlixanovun, V.A.Qorinin, İ.S.Quliyevin, F.Q.Dadaşovun, A.A.Əliyevin, S.A.Əliyevin, K.A.İsmayılovun, A.A.Feyzullayevin adı ilə bağlıdır. Neftin genezisi, neft-qaz ehtiyatlarının formalaşması və yerləşməsinin aktual problemləri tədqiq edilmişdir. Azərbaycanda neft-qaz ehtiyatları qiymətləndirilmiş, kəşfiyyat işlərinin aparılması məqsədəuyğun olan daha perspektivli strateqrafik kompleks və rayonlar müəyyənləşdirilmişdir. Detallı tədqiqatlar nəticəsində Cənubi-Xəzər çökəkliyində 10 km dərinlikdə maye şəkilli karbohidrogen ehtiyatlarının toplaşma ehtimalları nəzəri cəhətdən təsdiq olunmuşdur.

İnstitutun vacib istiqamətlərindən biri palçıq vulkanların öyrənilməsidir. 1971-ci ildə dünya təcrübəsində ilk dəfə olaraq Azərbaycanda palçıq vulkanların tədqiqatçıları məktəbinin banisi akademik Ə.A.Yaqubovun rəhbərliyi ilə "Azərbaycan SSR-in palçıq vulkanları" Atlası nəşr edilmişdir.

Azərbaycan alimləri akademik Ş.A. Əzizbəyov və M.A. Qaşqay geologiyanın maqmatik geologiya, petrologiya, minerologiya, filiz və qeyri-filiz faydalı qazıntıların geologiyası istiqamətlərinin banilərididirlər.

R.N. Abdullayev, C.A.Azadəliyev, Ş.İ.Allahverdiyev, S.A.Bektaşi, T.Q.Hacıyev, A.D.İsmayılzadə, Q.İ.Kərimov, A.İ.Məmmədov, M.N.Məmmədov, Q.V. Mustafayev, M.İ.Rüstəmov və başqaları bu məktəblərin ənənələrini davam etdirmişlər. Onlar tərəfindən maqmatik, metamorfik və metasomatik birləşmələrin tərkibi, yayılması və yerləşməsi, həmçinin onlarla əlaqəli olan faydalı qazıntı yataqlarının formalaşması qanunauyğunluqları öyrənilmişdir. Azərbaycanın müxtəlif filiz rayonlarının regional-petroloji və petrogenetik modelləri hazırlanmış, bu yataqların geoloji-struktur xüsusiyyətləri təyin olunmuşdu. Kiçik Qafqazda mis-porfir minerallaşması tapılmış və onun mezozoy dövrü ilə əlaqəsi aşkarlanmışdır.

Geokimyəvi tədqiqatlar Azərbaycanda geokimya məktəbinin banisi Azərbaycan EA-nın müxbir üzvü Q.X.Əfəndiyevin rəhbərliyi ilə aparılmışdır. Azərbaycanın geokimyəvi xəritəsi hazırlanmışdır. Yerin fizikası sahəsində tədqiqatlar Azərbaycan alimləri R.M.Hacıyevin, T.A.İsmayılzadənin, V.P.Kuznetsovun, Ş.S. Rəhimovun və başqalarının adları ilə bağlıdır. Tədqiqatlar nəticəsində seysmoloji və qravimetrik məlumatlar əsasında yer qabığının quruluşu öyrənilmiş, respublika ərazisinin seysmorayonlaşdırılması və mikroseysmorayonlaşdırılması həyata keçirilmiş, seysmoaktiv zonalar müəyyənləşdirilmişdir.

Keçən əsrin 70-ci illərindən etibarən nəzəri geofizika istiqamətində fundamental tədqiqatlar aparılır. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan geologiya elmi yeni impuls aldı.

1976-cı ildən başlayaraq institutun əldə etdiyi nailiyyətlər mübaliğəsiz demək olar ki, akademik A.A.Əlizadənin elmi və elmi-təşkilati fəaliyyəti ilə bağlıdır. Qısa müddət ərzində innovasiya fəaliyyətinin spesifikası, elmi fikir və elmi nəticənin maddi dəyərləri qiymətləndirilmişdir. Onun başçılığı ilə Geologiya institutu XX əsrin 90-cı illərində xarici ölkələrin elmi mərkəzləri və nəhəng neft şirkətləri ilə elmi və texniki əlaqələr yaratmışdır. Köhnə ənənələri pozmadan, institutun strukturunda köklü dəyişikliklər aparmadan yeni formasiyaya uyğun olaraq kadr hazırlığına başlanılmışdır.

MİLLİ ELMLƏR AKADEMİYASININ İQTİSADİYYAT İNSTİTUTU – Azərbaycan Milli Elmlər Akademiyası sistemində yaranmış, Azərbaycanda iqtisad elminin inkişafına böyük töhfələr vermiş, mürəkkəb, həm də şərəfli tarixi inkişaf yolu keçmişdir.

1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının yaranması bütün elm sahələrində olduğu kimi, iqtisad elminin inkişafına da güclü təkan vermişdir. Bu dövrə kimi Azərbaycanda iqtisad elmi yalnız ali tədris müəssisələrində və ayrı-ayrı elmi-tədqiqat ocaqlarında inkişaf etdirilmişdir. Bu sahədə Bakı Dövlət Darülfunu, M.Əzizbəyov adına Azərbaycan Politexnik İnstitutu, K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu və bir sıra başqa tədris müəssisələri mühüm rol oynamışdır. Ancaq hər bir elm sahəsində olduğu kimi, iqtisad elminin də hərtərəfli inkişaf etdirilməsi bu sahədə elmi-tədqiqat mərkəzinin yaradılmasını zəruri edirdi. Bu istiqamətdə atılan ilk addımların, demək olar ki, hamısı (istər təhsil ocaqlarının, istərsə də elmi-tədqiqat mərkəzlərinin yaradılması) ötən əsrin 20-ci illərinə təsadüf edir. Buna misal olaraq, həmin dövrdə yaradılmış M.Əzizbəyov adına APİ-nin İqtisadiyyat fakültəsini, onun yanında yaradılmış "Elmi-iqtisadi cəmiyyət" və Bakı Dövlət Darülfununun siyasi iqtisad, iqtisadi siyasət, xalq təsərrüfatı tarixi və s. kafedraları, habelə həmin Darülfunun yanında təşkil edilmiş "İctimai-iqtisadi və pedaqoji elmləri öyrənən cəmiyyət"i; 1923-cü ildə təşkil edilmiş "Azərbaycanı öyrənən və tədqiq edən cəmiyyət"i; 1929-cu ildə təşkil edilmiş "Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu"nu göstərmək olar. 1932-ci ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun bazası əsasında SSRİ EA-nın Zaqafqaziya filialının Azərbaycan şöbəsi təşkil edildi. Bu şöbə 1932-1935-ci illərdə Azərbaycanda məhsuldar qüvvələrin öyrənilməsi sahəsində böyük işlər görmüşdür. 1935-ci ilin oktyabrında həmin şöbənin bazası əsasında SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı yaradıldı. 1937-ci ilin aprelində SSRİ EA-nın Azərbaycan filialında Coğrafiya bölməsi, 1938-ci ilin fevralında isə İqtisadiyyat bölməsi yaradıldı. 1942-ci ildə ayrı-ayrılıqda fəaliyyət göstərən İqtisadiyyat və Coğrafiya bölmələri SSRİ EA-





Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun kollektivi



nın Azərbaycan filialının Coğrafiya və İqtisadiyyat bölməsi şəklində birləşdirildi. Bu bölmə 1942-1945-ci illərdə Azərbaycan SSR-də xalq təsərrüfatının inkişafı ilə bağlı olan bir sıra iqtisadi və coğrafi problemlərin tədqiqi ilə məşğul olmuşdur.

1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası yaradıldıqdan sonra onun tərkibində bir sıra elmi-tədqiqat mərkəzləri, o cümlədən İqtisadiyyat sektoru yaradıldı. İqtisadiyyat sektoruna müxtəlif illərdə respublikanın ilk görkəmli iqtisadçı alimlərindən professor H.Ə.Dadaşov (1945-1951-ci illər), professor Z.H.Cahangirov (1952-1953-cü illər), N.İ.Safonov (1953-1957-ci illər), professor Ə.S.Fərəcov (1957-1958-ci illər) başçılıq etmişlər. Bu sektor sənaye, kənd təsərrüfatı və xalq təsərrüfatı tarixi şöbələrindən ibarət olsa da, Azərbaycanda iqtisad elmi və iqtisadi fikrin inkişafında yeni və mühüm bir cığır açmışdır. Sektorun əməkdaşları bu sahədə, xüsusilə iqtisad elminin inkişafı, siyasi-iqtisadın və konkret iqtisadiyyat elmlərinin bəzi problemlərinin tədqiqi və təbliğində çox böyük işlər görmüş, elmi-nəzəri və təcrübəvi əhəmiyyəti olan tədqiqat əsərləri yazıb nəşr etdirmişlər. Bu tədqiqat əsərləri arasında Ə.Ə.Sumbatzadənin "XIX əsrin ikinci yarısında Azərbaycanda kənd təsərrüfatı istehsalının əmtəə xarakteri haqqında məsələyə dair" (1954); "XIX əsrin 50 və 60-cı illərində Azərbaycanda kənd təsərrüfatının inkişafı" (1955); B.Y.Axundovun "İcarə sistemi ləğv edildikdən sonra Bakı neft sənayesinin inkişafı" (1949); "İnqilabdan əvvəlki dövrdə Bakı neft sənayesində xarici kapital haqqında" (1953); Z.H.Cahangirov, P.M.Qazıbəyovanın "Kolxozlarda əmək haqqının verilməsi" (1949); Ə.S.Fərəcovun "Orta əsrlərdə (XI-XIV) Azərbaycanda iqtisadi

fikrin inkişafının qısa oçerkləri" (1952); H.Ə.Dadaşovun "Azərbaycan kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafının bəzi məsələlərinə dair" (1957); "Azərbaycanda islahatlaradək feodal-təhkimçilik qalıqları haqqında" (1957); M.B. Tağıyevin "Azərbaycan SSR-də pambıq parça sənayesi və onun gələcək inkişaf yolları" (1957); Ə.Ə.Mahmudovun "Noraşen rayonu kolxozlarının ictimai təsərrüfatlarının inkişafına dair" (1956); "Dağlıq Şirvan rayonu kolxozlarında əmək ehtiyatları və onlardan istifadə edilməsi" (1958); A.K.Ələsgərovun "Kolxozlarda pambığın və taxılın maya dəyərinin hesablanması metodikası haqqında" (1957); P.C.Qəhrəmanovun "Naxçıvan MSSR-nın kənd təsərrüfatı və onun inkişaf etdirilməsi yolları" (1957); M.M.Allahverdiyevin "Çay təsərrüfatında kapital qoyuluşunun həcmi və onun faydalılığı" (1956); A.A.Nadirovun "Azərbaycan SSR ərazisinin iqtisadi rayonlaşdırılmasına dair" (1958); E.Q.Mehrəliyevin "Muğanda pambıqçılığın yerləşməsi və inkişafı" (1958); İ.V.Korşunovun "Neft hasilatının təkrar metodlarının iqtisadi səmərəliliyinin müəyyən edilməsi metodikası" (1954); A.A.Ağayeva, İ.M.Alyoxinin "Neft quyularının ehtiyatları və avadanlıqları" (1955); Ə.S.Fərəcovun "SSRİ kənd təsərrüfatı maşınqayırmasında əmək məhsuldarlığı" (1956); B.E.Əbdürrəhmanovun "Daşkəsən-Gədəbəy dağ mədəninin təbii şəraitinin və sərvətlərinin təsərrüfat əhəmiyyəti" (1957) və s. xüsusi yer tutur.

1958-ci il aprel ayının 14-də Azərbaycan Elmlər Akademiyasının tərkibində İqtisadiyyat İnstitutunun yaradılması Respublikada iqtisad elminin inkişafında yeni mərhələnin başlanğıcını qoydu. İnstitut fəaliyyətə başladığı dövrdə onun quruluşu 5 şöbədən – Siyasi iqtisad və iqtisadi fikir, Sənaye iqtisadiyyatı, Kənd təsərrüfatının iqtisadiyyatı, Sosialist istehsalının yerləşdirilməsi və Xalq təsərrüfatı tarixindən ibarət olmuş və ilk dövrlərdə (1958-1960-cı illərdə) həmin şöbələrdə müvafiq surətdə aşağıdakı mövzularda elmi-tədqiqat işləri yerinə yetirilmişdir: Siyasi iqtisad və iqtisadi fikir şöbəsində: "XIX əsrin ikinci yarısından Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər olan dövrdə Azərbaycanda iqtisadi fikir"; "Yaxın və Orta Şərq ölkələrində imperializmin müstəmləkə sisteminin dağılması"; Sənaye iqtisadiyyatı şöbəsində: "Azərbaycan SSR neft sənayesində əmək məhsuldarlığının yüksəldilməsi yolları"; "Dəniz mədənlərinin və dəniz neft kəmərlərinin əsas fondları və onlardan istifadənin yaxşılaşdırılması yolları"; "Yeni qazılan quyuların geoloji-texniki və iqtisadi səmərəlilik göstəriciləri, onların müəyyən edilməsi metodikası"; "Azərbaycan neft sənayesində kapital qoyuluşunun və yeni texnikanın tətbiqinin iqtisadi səmərəliliyi"; "Azərbaycan SSR maşınqayırma sənayesində ixtisaslaşma və kooperativləşmə"; "Azərbaycan toxuculuq sənayesində əmək məhsuldarlığı və onun yüksəldilməsi yolları"; Kənd təsərrüfatının iqtisadiyyatı şöbəsində: "Azərbaycan SSR-nin pambıq becərən kolxozlarının iqtisadi inkişafının əsas istiqamətləri"; "Kolxozların torpaq ehtiyatları və onlardan istifadə edilməsinin yaxşılaşdırılması"; "MTS-lərdə rentabelliyin yüksəldilməsi yolları"; "Pambıqçılıqda əmək məhsuldarlığı və onun yüksəldilməsi yolları"; "Azərbaycan SSR-nin dağlıq rayonlarının kolxozlarının iqtisadiyyatının yüksəldilməsi yolları"; "Kür-Araz düzənliyində su təsərrüfatının iqtisadi səmərəliliyi"; "Dağlıq Qarabağda kolxozların iqtisadiyyatının yüksəldilməsi"; "Qarabağ düzənliklərində pambıqçılıq kolxozlarında sudan istifadənin təşkili"; Sosialist istehsalının yerləşdirilməsi şöbəsində: "Naxçıvan MR-da kənd təsərrüfatı sahələrinin yerləşdirilməsi və ixtisaslaşdırılması"; "Azərbaycanın yeyinti sənayesinin inkişaf perspektivləri"; "Azərbaycan SSR-nin ayrı-ayrı təbii-iqtisadi zonalarında kənd təsərrüfatının yerləşdirilməsi və ixtisaslaşdırılması"; Xalq təsərrüfatı tarixi şöbəsində: "XIX əsrdə Azərbaycanın sənayesi"; "Sovet hakimiyyəti illərində Azərbaycanda balıqçılıq sənayesinin inkişafı" və sair bu kimi mühüm xalq təsərrüfatı əhəmiyyəti olan elmi-tədqiqat işləri yerinə yetirilmiş və onların nəticələri müvafiq dövlət və hökumət orqanlarına təqdim edilmişdir. İnstitutun alimləri onun yaranmasından keçən cəmi bir neçə il ərzində aparılan tədqiqat işləri ilə yanaşı, bir sıra elmi əsərlər də yazıb nəşr etdirmişlər. Bu əsərlər arasında akademik Ə.S.Sumbatzadənin "XIX əsrdə Azərbay-

canın kənd təsərrüfatı" (Bakı, 1958, rus dilində); Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü B.Y.Axundovun "İnqilaba qədərki Bakı neft sənayesində inhisarçı kapital" (Moskva, 1959); R.N.İmanzadənin "Azərbaycanın dəniz neft yataqlarının işlənməsinin iqtisadiyyatının əsas məsələləri" (Bakı, 1958, rus dilində) və s. adlarını çəkmək olar.

Sonrakı on il ərzində isə (7-ci və 8-ci beşilliklərı əhatə edən 1961-1965 və 1966-1970-ci illərdə) institutda aparılan elmi-tədqiqat işləri bütünlükdə götürüldükdə keçmiş İttifaq və Respublikanın hökumət və dövlət orqanları tərəfindən müəyyən edilmiş mühüm iqtisadi problemlərin və dövlət tapşırıqlarının yerinə yetirilməsinə yönəldilmişdir. Bu tədqiqatlara "Xalq təsərrüfatının planlaşdırılması metodlarının təkmilləşdirilməsi və plan göstəricilərinin təyin edilməsi"; "Azərbaycan SSR-də uzunmüddətli perspektivdə xalq təsərrüfatı sahələrinin inkişaf etdirilməsi və məhsuldar qüvvələrin respublika ərazisində yerləşdirilməsi proqramının işlənməsi"; "Azərbaycan regionları üzrə əmək ehtiyatları balansının tərtib edilməsi"; "Uzunmüddətli perspektivdə Azərbaycan SSR-in regionları üzrə əmək ehtiyatlarının proqnozlaşdırılması və onlardan daha səmərəli istifadə edilməsi yollarının müəyyən edilməsi (1980-ci ilədək)"; "Kənd təsərrüfatı müəssisələrinin optimal həcminin müəyyən edilməsi"; "Azərbaycan kəndinin sosial-iqtisadi inkişaf problemləri"; "Azərbaycan SSR-də yenidən qurulmalı olan neftemalı zavodlarının səmərəli yerləşdirilməsi, onların optimal güclərinin və texnoloji sxeminin seçilməsinin əsaslandırılması"; "Azərbaycan SSR-də sənayedə və onun ayrı-ayrı sahələrində kapital qoyuluşundan səmərəli istifadə göstəricilərinin müəyyən edilməsi"; "Azərbaycan SSR-də yeyinti sənayesinin mühüm sahələrinin inkişaf etdirilməsi və yerləşdirilməsinin əsas istiqamətlərinin işlənməsi"; "Azərbaycan sənayesində iş qüvvəsinin təkrar istehsalı"; "Sənayedə əsas istehsal fondlarının təkrar istehsalı və onun iqtisadi səmərəliliyinin yüksəldilməsi yolları"; "Azərbaycan SSR-in kolxozlarında kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi və ixtisaslaşdırılmasının perspektivlərinin işlənməsi"; "Dağ kolxozlarının iqtisadiyyatının yüksəldilməsi və kolxozlarda rəhbər işçilərin və mütəxəssislərin əməyinin ödənilməsi prinsip və metodlarının işlənməsi"; "Azərbaycan SSR-in yüngül, yeyinti və kimya sənaye sahələrinin quruluşunun təkmilləşdirilməsi və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsi" və s. aiddir. İnstitutun alimləri həmin problemlərin hər biri ilə bağlı dövlət və hökumət orqanlarına təhriri məruzə və təkliflər təqdim etmiş və onların tam əksəriyyəti ölkənin sosial-iqtisadi inkişaf planlarının işlənməsində istifadə edilmişdir. Eyni zamanda institutun alimləri bu dövrdə bir sıra monoqrafik əsərlər də yazıb çap etdirməklə Azərbaycanın iqtisad elminin inkişafına böyük töhfələr vermişlər. Azərbaycan xalqının Ümummilli lideri H.Ə.Əliyevin 1969-cu il iyul ayının 14-də Azərbaycan KP MK-nın Birinci Katibi seçilməsi və Azərbaycan KP MK-nın məşhur avqust (1969-cu il) Plenumunda ölkə alimləri qarşısında qoyulmuş vəzifələrə uyğun olaraq İqtisadiyyat İnstitutunun quruluşunda, onun elmi istiqamətlərində və burada yerinə yetirilən tədqiqatların elmi səviyyəsinin yüksəlməsi və həyatla bağlılığı sahəsində əsaslı dəyişikliklər baş vermişdir.



1971-1985-ci illəri əhatə edən və ölkəmizin həyatına ən yaxşı beşilliklər kimi daxil olmuş IX-XI beşilliklər bütünlükdə respublikanın ictimai-iqtisadi həyatında olduğu kimi, İqtisadiyyat İnstitutunun həyatında da çox böyük irəliləyişlər dövrü kimi yadda qalmışdır. Bu dövr ərzində institutun alimləri "Azərbaycanda ictimai istehsalın, iş qüvvəsinin və istehsal münasibətlərinin təkrar istehsalının sosial-iqtisadi problemləri"; "Milli gəlirin təkrar istehsalı, onun quruluşu, yığım və istehlak fondlarına bölünməsi"; "Ayrı-ayrı sənaye sahələrində istehsal fondlarından və iş qüvvəsindən istifadə edilməsi"; "Əmək məhsuldarlığı və əhalinin məşğulluq quruluşu"; "Demoqrafik proseslərlə əmək ehtiyatlarından istifadə səviyyəsi arasındakı qarşılıqlı əlaqə və asılılıqlar"; "Qadın əmək ehtiyatlarından istifadənin sosial-iqtisadi problemləri"; "Azərbaycan SSR-də əhalinin gəlirləri və istehlakının diferensiallaşdırılmış hesabat balansının işlənməsi"; "Azərbaycanın xalq təsərrüfatının inkişaf templəri və proporsiyaları"; "Azərbaycanın müxtəlif regionlarında məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi və inkişaf etdirilməsi"; "Elmi-texniki tərəqqi və onun sosial-iqtisadi nəticələrinin kompleks proqramları" mövzusunda çox mühüm tədqiqat işləri yerinə yetirmiş; SSRİ-nin dağılması ərəfəsindəki beşillikdə (1986-1990-cı illər) isə "Xalqın həyat səviyyəsinin yüksəldilməsi"; "Elmi-texniki tərəqqi əsasında ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi"; "Maşınqayırma kompleksinin inkişafı"; "Aqrar sənaye kompleksində təsərrüfat mexanizminin təkmilləşdirilməsi"; "Azərbaycan SSR-də şəhər və kənd arasında sosial-iqtisadi fərqlərin aradan qaldırılması"; "Azərbaycan SSR-də əhalinin səmərəli məşğulluğunun təmin edilməsinin sosial-iqtisadi problemləri"; "Respublika ərazisində məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi və təbii sərvətlərdən kompleks istifadə edilməsi" və sair bu kimi problemlərin işlənilməsinə yönəlmiş və alınan elmi nəticələri müvafiq dövlət və hökumət orqanlarına təqdim etməklə yanaşı, keçmiş İttifaqın və respublikamızın nüfuzlu elm nəşriyyatlarında çap etdirib elmi ictimaiyyətə çatdırmışlar.

1970-1980-ci illərdə İqtisadiyyat İnstitutunda yerinə yetirilmiş elmi-tədqiqat işlərinin səviyyəsini xarakterizə edən ən əsas cəhətlərdən biri də ondan ibarətdir ki, bu dövrdə institut əməkdaşlarının 23 elmi nəticəsi keçmiş SSRİ EA-nın Rəyasət Heyəti tərəfindən sovet elminin ən mühüm nailiyyətləri kimi qiymətləndirilərək SSRİ EA Rəyasət Heyətinin hesabatına daxil edilmişdir.

1991-ci il oktyabr ayının 18-də Azərbaycanın müstəqillik qazanması və 1993-cü il iyun ayının 15-də Ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbi ilə yenidən Respublikamızın rəhbərliyinə gətirilməsi hər yerdə olduğu kimi, İqtisadiyyat İnstitutunun həyatında da böyük hadisə oldu. Az müddət ərzində institutda 1988-1992-ci illərdə yaranmış böhranlı vəziyyət aradan qaldırılmış, onun elmi istiqaməti, quruluşu və kadr potensialının tərkibi bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq dəyişdirilib təkmilləşdirilmiş, bir sıra MDB ölkələrinin iqtisadiyyat institutları ilə əvvəlki əlaqələr bərpa edilmiş, onların bəziləri ilə birlikdə elmi-tədqiqat işləri aparılmasına və kollektiv əsərlər yazılmasına başlanmışdır.

İnstitut keçid iqtisadiyyatı mərhələsində müstəqil Azərbaycanın milli iqtisadiyyatının formalaşdırılması və inkişafı, onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yüksəldilməsinin həllinə yönəldilmiş kompleks sosial-iqtisadi və demoqrafik inkişaf problemləri, o cümlədən qloballaşma şəraitində dünyada baş verən ictimai-iqtisadi və sosial-demoqrafik dəyişikliklər nəzərə alınmaqla, Azərbaycanda ictimai-təkrar istehsalın nəzəri-metodoloji və konseptual əsasları; yeni iqtisadi, istehsal, bölgü və əmək münasibətlərinin formalaşdırılması və inkişafı; xarici və MDB ölkələri ilə yeni iqtisadi əlaqələrin qurulması, inkişafı və təkmilləşdirilməsi yolları; əhali sakinliyi, demoqrafiya, məşğulluq, əhali miqrasiyası və sosial siyasətin konseptual əsasları və əsas istiqamətləri; respublikanın müxtəlif regionlarında məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi və təbii sərvətlərdən kompleks istifadə edilməsi; struktur dəyişiklikləri, sənaye və investisiya siyasəti; elmi-texniki kadr potensialının formalaşdırılması və ondan səmərəli istifadə edilməsi; aqrar mü-

nasibətlərin bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması; Azərbaycanda iqtisadi fikrin formalaşması və inkişaf tarixi; Azərbaycanda maliyyə və vergi siyasətinin formalaşdırılması və həyata keçirilməsi istiqamətləri; milli sahibkarlığın formalaşdırılması və inkişafı problemləri və s. tədqiq edilmişdir.

Fəaliyyət göstərdiyi dövrdə institutda iqtisadi nəzəriyyə, Azərbaycanın xalq təsərrüfatı tarixi, əməyin iqtisadiyyatı, əhali sakinliyi və demoqrafiya, sənaye və kənd təsərrüfatı iqtisadiyyatı, məhsuldar qüvvələrin yerləşdirilməsi və regional iqtisadiyyat sahələri üzrə elmi məktəblər yaranmışdır. Bu elm sahələri üzrə institutda uzun illərdən bəri fəaliyyət göstərən İxtisaslaşdırılmış Doktorluq və Namizədlik Dissertasiya Şurasında 650-dən çox namizədlik və 70-dən çox doktorluq dissertasiyası müdafiə olunmuşdur. Müdafiə edənlərin 395 nəfərə qədəri keçmiş İttifaqın müxtəlif regionlarından (Rusiya, Ukrayna, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Ermənistan, Qırğızıstan, Gürcüstan), xarici ölkələrdən (Türkiyə, İran, İraq, Yəmən, Əlcəzair və s.) və respublikamızın başqa təşkilatlarından olan vətəndaşların payına düşür. Bu illər ərzində institutun əməkdaşları tərəfindən Azərbaycanda və xarici ölkələrdə 3,0 min çap vərəqi həcmindən artıq 650-dən çox iri həcmli monoqrafiya, kitab, broşür, məqalələr və məqalələr toplusu çap etdirilmiş, iqtisadiyyat elminin və ölkə iqtisadiyyatının inkişafı üzrə 325-dən çox elmi-təhriri məruzə və təkliflər hazırlanıb dövlət və hökumət orqanlarına, ayrı-ayrı nazirlik, şirkət və birliklərə təqdim edilmiş, direktiv orqanların 250-dən çox tapşırığı yerinə yetirilmişdir.

Onu da qeyd etmək lazımdır ki, 1999-cu ildən başlayaraq institutun elmi istiqaməti, quruluşu və kadr potensialının tərkibi formalaşmaqda olan yeni ictimai sistemin qanunları və tələbləri baxımından köklü surətdə dəyişdirilib təkmilləşdirilmiş, institutun tarixində ilk dəfə olaraq burada yeni istiqamətli sektor və onların tərkibində müvafiq şöbələr yaradılmışdır. İnstitutun nəzdində ixtisaslaşmış müdafiə şurası fəaliyyət göstərir.

Hazırda AMEA Rəyasət Heyətinin 2002-ci il 25 dekabr tarixli 27/14 saylı qərarı ilə institutun quruluşu 4 sektordan və onların tərkibinə daxil edilmiş 9 şöbədən və bir müstəqil şöbədən ibarət olmaqla, aşağıdakı kimi müəyyənləşdirilmişdir: "Strateji siyasi-iqtisadi tədqiqatlar" sektoru (tərkibində "Siyasi iqtisadi tədqiqatlar və iqtisadi fikir tarixi" və "Xarici iqtisadi əlaqələr" şöbələri); "Demoqrafiya və iş qüvvəsinin təkrar istehsalı problemləri" sektoru (tərkibində "Əhali sakinliyi və demoqrafiyanın sosial-iqtisadi problemləri", "Əmək bazarı və məşğulluğun sosial-iqtisadi problemləri" və "Sosial siyasət və həyat səviyyəsinin sosial-iqtisadi problemləri" şöbələri); "Struktur dəyişiklikləri, sənaye və investisiya siyasəti problemləri" sektoru (tərkibində "Struktur dəyişiklikləri problemləri" və "Sənaye və investisiya siyasəti problemləri" şöbələri); "Regional iqtisadiyyat və milli sahibkarlığın inkişafı problemləri" sektoru (tərkibində "Regionların kompleks sosial-iqtisadi inkişaf problemləri" və "Milli sahibkarlığın inkişaf problemləri" şöbələri) və "Maliyyə və vergi problemləri" şöbəsi daxildir.

AMEA Rəyasət Heyətinin 2008-ci il 26 noyabr tarixli 23/11 qərarına əsasən, AMEA-nın İqtisadiyyat İnstitutunun tərkibində sektorlar ləğv edilmiş və 12 şöbə yaradılmışdır: "İqtisadi nəzəriyyə və iqtisadi fikir tarixi"; "Makroiqtisadi inkişaf və iqtisadi artım"; "Sənaye siyasəti və investisiya problemləri"; "Demoqrafiya və iş qüvvəsinin təkrar istehsalı problemləri"; "Aqrar islahatlar və ərzaq təhlükəsizliyi problemləri"; "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri"; "Qloballaşma və beynəlxalq iqtisadi münasibətlər"; "Regionların inkişafı və təbii sərvətlərdən istifadə problemləri"; "Maliyyə, pul-kredit siyasəti"; "İnnovasiya menecmenti və elmin inkişafı problemləri"; "Analitik informasiya və nəşriyyat"; "Həyat səviyyəsinin sosial-iqtisadi problemləri" şöbələri daxildir.

Diqqətəlayiq faktlardan biri AMEA-nın İqtisadiyyat İnstitutunun elmi kontingentinin yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanması istiqamətində də öz işlərini günün tələblərinə uyğun qurmasıdır. Təkcə bir faktı demək yerinə düşərdi ki, 2006-2010-cu illərdə AMEA-nın İqtisadiyyat İnstitutunun Dissertasiya Şurasında 89 dissertasiya müdafiə olunmuşdur ki, onlardan 23-ü institutun

aspirantı və dissertantıdır. Müdafiə edilən işlərdən 2-si doktorluq işidir.

MİLLİ ƏMANƏTLƏR – istehlak və dövlət xərcləri ödəndikdən sonra iqtisadiyyatda qalan məcmu gəlir.

MİLLİ GƏLİR – ölkədə il ərzində istehsal olunmuş son nəticə, əmtəə və xidmətlərin dəyəri, yenidən yaradılan dəyər və ya məcmu ictimai məhsulun ona uyğun hissəsi. Milli Hesablar Sistemində istifadə olunur. Milli gəlir bütün istehsal resurslarından əldə olunan gəlirlərin kəmiyyətini özündə əks etdirməklə və onun vasitəsilə xalis milli məhsul (XMM) yaradır. Ümumi milli məhsuldan amortizasiya məbləğini çıxmaqla xalis milli məhsul əldə olunur.

Milli gəlirin həcmini hesablamaq üçün xalis milli məhsuldan dolayı vergilər çıxılır (bax: Dolayı vergilər), qalan hissəyə subsidiyalar əlavə edilir. Ümumi milli məhsuldan amortizasiya ayırmalarını və dolayı vergiləri çıxdıqdan sonra yerdə qalan hissə milli gəlirin həcmini göstərir. Milli gəlir "Cəmiyyət tərəfindən qazanılmış xalis gəlir" olmaqla milli istehsalın nəticələrini xarakterizə edən mühüm makroiqtisadi göstəricidir. Həmçinin milli gəlir istehsalın bütün amillərinin: əmək, torpaq, kapital, sahibkarlıq fəaliyyəti və s. tərəfindən əldə edilən ümumi gəlirdir. Bir çox tədqiqatlar göstərir ki, xarici ölkələrdən alınan gəlirin qalığı (saldosu) inkişaf etmiş ölkələrdə müsbət, inkişaf etməkdə olan ölkələrdə isə mənfi qüvvəli olur. Odur ki, inkişaf etmiş ölkələrdə milli gəlirin həcmi ümumi daxili məhsuldan çox olur, inkişaf etməkdə olan, eləcə də zəif inkişaf etmiş ölkələrdə isə, əksinə, ümumi daxili məhsul milli gəlirdən çox olur. Milli Hesablar Sisteminin digər bir göstəricisi sərəncamda qalan milli gəlirdir. Onun həcmini müəyyən etmək üçün milli gəlirin həcminə xarici ölkələrdən alınmış cari transfertlərin qalığı (saldosu) əlavə edilir.

İqtisadi fikrin klassik məktəbinin nümayəndəsi U.Petti hələ 1664-cü ildə belə hesab edirdi ki, milli gəlir bütün əhalinin əməkdən və əmlakdan əldə etdiyi gəlirlərin məcmusudur.

İqtisadi fikrin digər nümayəndələri A.Smit və D.Rikardo ilk dəfə olaraq qeyd etmişlər ki, milli gəliri hesablamaq üçün bütün əmtəələrin dəyərindən onların yaradılmasına sərf olunan istehsal vasitələrinin dəyərini çıxmaq lazımdır.

İ.B.Sey isə belə hesab edirdi ki, bütün əmtəələrin dəyəri və yaxud milli gəlir üç sinfin – fəhlələrin, torpaq sahiblərinin və kapitalistlərin gəlirlərinin məcmusundan ibarətdir. Müasir dövrdə bu yanaşmanı marksistlər istisna olmaqla, demək olar ki, digər məktəbin nümayəndələri qəbul edirlər. Belə ki, Marksa görə, milli məhsul ancaq canlı əməklə yaradıla bilər. Onun kəmiyyəti milli məhsulda bütün maddi xərclərin dəyərini çıxmaq yolu ilə hesablanır. Beləliklə, milli gəlirin həcmi ölkənin iqtisadi inkişaf potensialını və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin imkanlarını xarakterizə edən bir göstəricidir. Milli gəlirdə cəmiyyətin məhsuldar qüvvələrinin mövcud potensialı və təkrar istehsal prosesinin nəticələri faktiki olaraq hər hansı bir müddətə və ya bir ilə sintez olunur. SSRİ-nin dağılmasına qədər bu göstərici ölkənin, respublikanın iqtisadi inkişafını, onun hər nəfərinə düşən həcmi isə iqtisadi inkişaf səviyyəsini xarakterizə edirdi. Bu göstəricini ən ümumiləşdirici göstərici kimi SSRİ və sosialist yönümlü digər dövlətlərin bütün statistik bülletenlərində görmək olardı. Onların hamısında hesab edilirdi ki, qeyri-istehsal sferasında yeni dəyər – milli gəlir yaranmır.

Qeyd edildiyi kimi, real iqtisadi həyatda milli gəlirin istehsal olunmuş və istifadə olunmuş həcm göstəriciləri təhlil edilir.

İstehsal olunmuş milli gəlir – əmtəə və xidmətlərin yenidən yaradılmış dəyəri;

İstifadə olunmuş milli gəlir – xarici ticarət balansında əmələ gəlmiş fərq çıxıldıqdan sonra istehsal olunmuş milli gəlirin qalan hissəsi, təbii fəlakətlər nəticəsində saxlanılması zamanı baş vermiş itkilər.

Sovet sistemində müttəfiq respublikalar üzrə milli gəlirin hesablanmasına yalnız 1958-ci ildən sonra başlanmışdı. Planlaşma, maliyyə sistemi elə qurulmuşdu ki, milli gəlirin yenidən bölüşdürülməsi konsepsiyası mərkəz tərəfindən müəyyən edilirdi. Nəticədə bir sıra respublikalarda istehsal olunmuş milli gəlirlə istehsal edilən milli gəlir arasında böyük fərqlər yaranırdı. Məsələn, uzun bir dövr ərzində Azərbaycanda istifadə olunan milli gəlir istehsal olunmuş milli gəlirdən xeyli az olmuşdur. Bu, eyni zamanda

Cədvəl 1

Hər nəfərə düşən ümumi daxili məhsulun səviyyəsinə görə yüksək olan ölkələr (2010-cu il)

N		ÜDM (min. doll.)
1	Monako	183,150[1]
2	Lixtenşteyn	137,070[1]
3	Bermud adaları	91,477
4	Norveç	84,290
5	Lüksemburq	77,160
6	Qətər	76,840
7	İsveşrə	71,530
8	Danimarka	59,050
9	Küveyt	48,9
10	İsveç	50,110[1]
11	Niderland	49,050[1]
12	San-Marino	50,400[1]
13	Finlandiya	47,720
14	ABŞ	47,390
15	Avstriya	47,060
16	Farer adaları	46,210
17	Belçika	45,910
18	Andorra	41,750[1]
19	Avstraliya	43,590[1]
20	Kanada	43,270
21	Almaniya	43,110
22	Fransa	42,390
23	BƏƏ	41,930[1]
24	Yaponiya	41,850
25	İrlandiya	41,000
26	Sinqapur	40,070
27	Böyük Britaniya	38,370
28	İtaliya	35,150
29	Makao	34,880[1]
30	Honkonq	32,780
31	İslandiya	32,710
32	Bruney	31,800[1]
33	İspaniya	31,750
34	Yeni Zelandiya	28,770[1]
35	İsrail	27,170
36	Yunanıstan	26,940
37	Qrenlandiya	26,020[1]
38	Sloveniya	23,860
39	Portuqaliya	21,880
40	Baham adaları	20,610[1]
41	Cənubi Koreya	19,890
42	Malta	19,270
43	Oman	18,260[1]
44	Çexiya	17,890
45	Slovakiya	16,830
46	Səudiyyə Ərəbistanı	16,190[1]
47	Bəhreyn	18,730[1]
48	Trinidad və Tobaqo	15,380
49	Ekvatorial Qvineya	14,540
50	Estoniya	14,460
51	Xorvatiya	13,870
52	Antiqua və Barbuda	13,170
53	Macarıstan	12,850
54	Barbados	12,660[1]
55	Polşa	12,440
56	Liviya	12,320[1]

1. Göstəricilər 2009 və ya 2008-ci ilə aiddir. Xətt çəkilmiş boş xanalarda dəqiq gəlir məlu olmadığından, reytinqdə yeri təxmini qiymətləndirməyə əsasən göstərilib.

respublikanın hüquqlarının tapdalanması demək idi (bax: İqtisadi müstəqillik).

Müasir dövrdə bazar sisteminə əsaslanan ölkələrdə milli iqtisadiyyatın nəticələrinə dair ümumi milli məhsul (ÜMM) və ümumi daxili məhsul (ÜDM) göstəricilərinə daha çox üstünlük verilir ki, onların dəyərində maddi istehsalla yanaşı, qeyri-istehsal sahələrində insan fəaliyyətinin nəticələri də öz əksini tapır.

Milli gəlirin artımı əsasən üç amildən: işləyən əhalinin sayından, əmək məhsuldarlığının və material tutumunun səviyyəsindən asılıdır.

Milli gəlir maddi istehsal dairəsində yaranır və onu məcmu ictimai məhsuldan istehlak edilmiş istehsal vasitələrinin dəyəri çıxıldıqdan sonra yerdə qalan hissə və ya yeni yaradılmış dəyər təşkil edir.

1970-ci illərdə Azərbaycanda digər müttəfiq respublikalara nisbətən milli gəlirin ən yüksək artım sürəti təmin edilmiş, 1960-1970-ci illərdə milli gəlirin artım sürətinə görə Azərbaycan SSR müttəfiq respublikalar içərisində 14-15-ci yeri tuturdu. Əgər 1960-1970-ci illərdə respublikamızda milli gəlirin artım sürəti (66 faiz) İttifaq üzrə müvafiq göstəricidən (99 faiz) 33 faiz bənd geri qalırdısa, doqquzuncu beşillikdə respublikada milli gəlirin artımı (39 faiz) İttifaq üzrə artım sürətini (32 faiz) ötmüşdü (bax: cədvəl 1, 2) Ümumiyyətlə, 1970-1980-ci illərdə respublikada milli gəlirin 2 dəfə artması təmin edilmişdir. 1976-1980-ci illərdə respublikada milli gəlirin artımı planda müəyyən edilmiş 32 faiz əvəzinə 44 faiz olmuşdur.

Belə bir dinamika Azərbaycan SSRİ-nin İttifaq üzrə istehsal olunan milli gəlirin ümumi həcmində payının azalması meylini aradan qaldırdı.

Hazırda əksər iqtisadçılar hər nəfərə istehsal olunan milli gəliri iqtisadi inkişaf səviyyəsini xarakterizə edən ən başlıca göstərici sayırlar. Çünki qalan şərtlər bərabər olarsa, hər nəfərə milli gəlir istehsalının artması maddi, əmək, təbii və s. ehtiyatlardan səmərəli istifadə olunduğunu, sosial məsələlərin həlli üçün maddi-maliyyə imkanlarının genişləndiyini sübut edir. Belə ki, hər nəfərə düşən istehsal olunan milli gəlirin artması sənayedə, kənd təsərrüfatında, tikintidə və maddi istehsalın digər sahələrində istehsalın həcminin çoxalmasının, onun səmərəlilik göstəricilərinin yaxşılaşmasının nəticəsi kimi qiymətləndirilir.

Ötən əsrin 60-cı illərində respublikamız hər nəfərə düşən milli gəlirin miqdarına görə bütün müttəfiq respublikalar içərisində axırıncı yeri tuturdu, həm də bu fərq çox böyük rəqəmlərlə ifadə edilirdi. Məsələn, 1960-1970-ci illərdə ölkə üzrə bu göstərici 76 faiz, Gürcüstan SSR-də 74 faiz, Ermənistan SSR-də 58 faiz artdığı halda, Azərbaycan SSR üzrə bu göstərici cəmi 25 faiz, 1960-1965-ci illərdə isə cəmi 6 faiz çoxalmışdı.

"1961-ci ildən 1970-ci ilədək 10 il ərzində respublikada hər nəfərə milli gəlir artımı cəmi 130 manat, yəni bütün ölkədəkindən təqribən üç dəfə az olmuşdur. Hər nəfərə milli gəlir 1970-ci ildə 737 manat, yəni orta İttifaq səviyyəsindən 457 manat az olmuşdur" (bax: H.Ə.Əliyev, İstehsalın səmərəliliyini və işin keyfiyyətini daha da yüksəltməli. Bakı, Azərnəşr, 1980).

Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumu respublikanın iqtisadi inkişaf sürətini artırmağı, mühüm iqtisadi və sosial tərəqqi məsələlərinin kompleks qaydada həllini təmin etməyi ən vacib siyasi, iqtisadi, ictimai əhəmiyyət kəsb edən bir problem kimi qarşıya qoymuşdu. Doqquzuncu beşillik planların müvəffəqiyyətlə başa çatdırılması, iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsinin təmin edilməsində dönüş mərhələsi oldu.

1970-1980-ci illərdə respublikada iqtisadi inkişaf səviyyəsinin artım sürəti əvvəlki on ildəkinə nisbətən 2,7 dəfə çox olmuşdur.

1970-ci ildə, yuxarıda qeyd edildiyi kimi, respublikada hər nəfərə düşən milli gəlirin miqdarı İttifaq səviyyəsinin 61,7 faizini, 1975-ci ildə bu rəqəm 65 faiz təşkil edirdi. Qeyd edilən bu prosesin necə inkişaf etdiyini izləmək üçün aşağıdakı məlumatlara müraciət edək.

Milli gəlirin istehlak və yığım fondunu fərqləndirmək lazımdır. Bu və ya digər dövlətin artan tələbini ödəmək üçün istehsalı genişləndirmək lüzumu milli gəlirin bir hissəsini yığım fonduna ayırmağı tələb edir. Odur ki, hər bir konkret dövrdə cəmiyyətin mövcud tələbatının ödənilməsi dərəcəsi bilavasitə milli gəlirin ümumi həcmindən deyil, onun yığım və istehlak

Cədvəl 2

SSRİ-də və Azərbaycan SSR-də istehsal olunan milli gəlirin artım sürəti (faizlə)

Göstəricilər	1960-1970	1960-1965	1965-1970	1970 1975	1970-1979	1976-1979
SSRİ						
İstehsal olunmuş milli gəlir	199	137	145	132	157	119,1
Hər nəfərə milli gəlir	175,6	127,2	138	126	146	115,8
Azərbaycan SSR						
İstehsal olunmuş milli gəlir	166	125	133	139	184	133
Hər nəfərə milli gəlir	124	106	125,3	126	157	124

fonduna ayrılan hissəsindən asılıdır. İstehsal olunan milli gəlirin istehlak və yığım fonduna bölünən hissələri hər bir mərhələdə elmi cəhətdən əsaslandırılmış surətdə müəyyən edilir.

İstehsal fonduna ayrılan hissəsini iqtisadiyyatın gələcək inkişafını nəzərə almadan istənilən qədər artırmaq olmaz. Çünki belə bir siyasət cari dövrdə istehlaka ayrılan maddi və maliyyə resurslarının artmasını təmin etsə də, iqtisadiyyatın sonrakı dövrlərdə inkişafının maddi əsaslarını poza bilər. Eləcə də yığım fondunun istənilən qədər artması cəmiyyət üzvlərinin istehsalın inkişafındakı maddi və mənəvi marağanı zəiflədər, iqtisadiyyatda müəyyən ciddi disproporsiyalara səbəb ola bilər. Məhz buna görə də yığım və istehlak fondları arasındakı nisbətin müəyyən edilməsi məsələsinə kompleks şəkildə yanaşılmalı, onların hər birinin dinamikasına iqtisadi və sosial tərəqqi, cari, yaxın və uzaq perspektiv üçün istehlakın real əsaslar üzərində artırılması nöqteyi-nəzərindən baxılmalıdır.

İstifadə olunmuş milli gəlir dedikdə istehlak və yığım fondunun məbləği başa düşülür. İttifaq üzrə milli gəlirin bu formalarının kəmiyyət ifadəsində ciddi fərq olmadığı halda, ayrı-ayrı respublikalar üzrə xeyli fərq vardır. Müttəfiq respublikaların ərazisində yaradılmış və bölüşdürülmüş milli gəlirin həcminin bir-birinə uyğun gəlməsi onunla əlaqədardır ki, mövcud qiymət sistemində ağır sənaye sahələrində yaradılmış yeni dəyər, həmin sahələrin istehsal etdikləri məhsulların qiymətində deyil, xalq istehlakı mallarında realizə edilirdi. Ona görə də respublikalararası iqtisadi əlaqələrin genişləndiyi indiki şəraitdə ayrı-ayrı respublikalarda maddi istehsalın sahə quruluşunun müxtəlif olması (xüsusilə sənayedə) milli gəlirin həcminin tam dəqiq müəyyən edilməsinə bu və ya digər dərəcədə təsir edir. Bu səbəb üzündən bəzi respublikalarda satılan malların qiymətində dövriyyə vergisi az, bəzilərində isə daha çox olurdu.

Müttəfiq respublikalar üzrə istehsal edilmiş milli gəlirlə istehlak olunmuş milli gəlir arasındakı fərq İttifaq xarakterli obyektiv amillərlə yanaşı, respub-

Cədvəl 3

Azərbaycan SSR-də istehsal olunan milli gəlir və onun SSRİ-də istehsal olunan milli gəlirdə xüsusi çəkisi

Göstəricilər	1965	1970	1975	1979
İstehsal olunmuş milli gəlir (faktiki qiymətlərlə, milyon man.)	2689	3809	5286	7516
İttifaq üzrə istehsal olunan milli gəlirdə respublikanın xüsusi çəkisi, faizlə	1,3	1,3	1,4	1,7

Cədvəl 4

Azərbaycan SSR-də dövrlər üzrə, hər nəfərə düşən milli gəlirin orta illik artım sürəti (faizlə)

1960-1965	1,2
1966-1970	3,4
1960-1970	2,3
1970-1975	4,75
1976-1980	5,9
1970-1980	5,35

lika daxilində məhsuldar qüvvələrin inkişafı, həyat səviyyəsinin mövcud vəziyyəti, qeyri-istehsal sahələrinin inkişafı və s. ilə bilavasitə bağlıdır.

Aparılan hesablamalar göstərirdi ki, uzun bir dövr ərzində istehlak edilmiş milli gəlir istehsal edilmiş milli gəlirdən az olmuşdur.

Məsələn, istehlak olunmuş milli gəlirin istehsal olunmuş milli gəlirə nisbəti 1973-cü ildə 93,2 faiz, 1974-cü ildə 92,3 faiz, 1975-ci ildə 93,3 faiz, 1976-cı ildə 88,8 faiz, 1977-ci ildə 90,2 faiz təşkil etmişdir.

1978-ci ildə istehlak və yığım fondları üçün istifadə olunan milli gəlir 5 milyard 694 milyon manat və ya əldə edilmiş milli gəlirdən 1 milyard 531 milyon manat az olmuşdur. Hər nəfərə istehsal edilmiş milli gəlirin məbləği orta İttifaq səviyyəsinin 70 faizini təşkil etdiyi halda, istifadə olunan milli gəlirin məbləği orta İttifaq səviyyəsinin ancaq 62 faizi idi.

1978-ci ilin məlumatlarına görə, hər nəfərə istifadə edilmiş milli gəlir mütləq məbləğ hesabı ilə ölkədəki müvafiq göstəricilərdən 560 manat az olmuşdur. Halbuki əgər sosial-mədəni obyektlər tikintisi üçün vəsait ayrılmasının planlaşdırılmasında, əmək haqqı fondunun, ictimai istehlak fondlarının müəyyən edilməsində ciddi nöqsanlar olmasaydı, istehlak və yığım fondları üçün ayrılan ehtiyatlar daha çox ola bilərdi. Burada ümumən Azərbaycan iqtisadiyyatının çoxillik geriliyinin mənfi nəticələri, eyni zamanda həm respublika xalq təsərrüfatının planlaşdırılmasında, həm də xüsusən sosial-mədəni məqsədlər üçün dövlət tərəfindən ayrılan vəsaitdən istifadə olunmasında yol verilən ciddi nöqsanların nəticələri özünü göstərirdi.

Azərbaycan KP Mərkəzi Komitəsi xalq istehlakına ayrılan milli gəlirin daha da artırılması imkanlarından səmərəli istifadə olunmasını, bu məsələnin müsbət həllinə mane olan səbəblərin aradan qaldırılmasını mühüm bir vəzifə kimi qarşıya qoymuşdu. Respublikanın plan, maliyyə, təsərrüfat orqanları Azərbaycan KP Mərkəzi Komitəsinin elmi cəhətdən əsaslandırılmış bu mühüm ciddi və prinsipial göstərişini həyata keçirmək üçün konkret tədbirlər görürdülər. Razılıq hissi ilə qeyd edilməlidir ki, on birinci beşilliyin birinci ili üçün nəzərdə tutulmuş iqtisadi və sosial inkişaf planında milli gəlirin istehlak fondunun daha sürətlə artması planlaşdırılmışdı. Həmin problemin müsbət həlli həmçinin ərazi planlaşdırılmasını, milli gəlirin respublikalararası yenidən bölüşdürülməsi prosesinin daha da təkmilləşdirilməsini, bu sahədə aparılan tədqiqatların, hesablamaların elmi cəhətdən daha mükəmməl əsaslandırılmasını tələb edirdi.

Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev Azərbaycan KP MK-nın fevral (1980-ci il) plenumundakı nitqində demişdir: "Lakin əldə etdiyimiz və 1980-ci ilin yekunlarına görə əldə edəcəyimiz yüksək sürət hər nəfərə milli gəlir bölgüsü cəhətdən respublikamızı orta İttifaq səviyyəsinə qaldırmır. Deməli, biz milli gəlirin yüksək artım sürətini bundan sonra da təmin etməliyik. Bu, başlıca vəzifələrdən biridir, on birinci beşillik və uzunmüddətli perspektiv üçün respublikanın sosial-iqtisadi inkişaf konsepsiyasının ümdə prinsiplərindən biridir. Nazirliklərin, baş idarələrin, xüsusən Dövlət Plan Komitəsinin və Nazirlər Sovetinin rəhbərləri on birinci beşillik üçün plan işləyib hazırlayarkən bu tələbləri, bu prinsipləri nəzərdə tutmalıdırlar".

Bu vəzifənin reallığı, həmçinin onunla əlaqədardır ki, onuncu beşillikdə Sovet Azərbaycanının iqtisadi inkişaf səviyyəsini yüksəltmək sahəsində çox uğurlu və möhtəşəm addımlar atılmış, qarşıdakı dövrdə xalq təsərrüfatının dinamik və proporsional inkişaf etdirilməsi, xalqın maddi rifahının daha da yaxşılaşdırılması üçün möhkəm zəmin yaradılmışdı.

İqtisadi inkişaf əməyin bölüşdürülməsi proporsiyalarının da maddi əsasını təşkil edir. Buradan belə bir nəticə çıxır ki,

Cədvəl 5

Azərbaycan SSR-də istehsal edilmiş milli gəlirin sahə strukturu (mövcud olan qiymətlərlə, yekuna nisbətən faizlə)

	1960	1965	1970	1975	1980
Bütün milli gəlir					
o cümlədən: maddi	100	100	100	100	100
İstehsalın ayrı-ayrı sahələrində istehsal olunmuşdur:					
sənaye	51,2	49,5	44,8	45,0	47,5
kənd təsərrüfatı	20,6	24,9	24,9	25,1	26,5
nəqliyyat və rabitə	3,8	5,3	5,4	5,3	3,5
tikinti	10,1	10,1	12,4	11,8	8,9
ticarət, tədarük, maddi-texniki təchizat və s.	14,3	10,3	12,5	12,8	13,6

iqtisadiyyatda baş verən mütəraqqi dəyişikliklər əhalinin məşğuliyyət strukturunda da müvafiq dəyişikliklərə səbəb olur. Müəyyən hallarda isə, əksinə, iqtisadiyyatın strukturunda labüd dəyişikliklərin istiqamətini müəyyən edir. Bu cəhət müasir dövrdə respublikamız üçün daha xarakterikdir.

Respublika iqtisadiyyatında baş verən mütəraqqi struktur irəliləmələri özünü həm ÜDM-in, həm də iqtisadiyyatın inkişafına ayrılan əsaslı vəsait qoyuluşunun, əsas fondların strukturunda da göstərir.

İndiki inkişaf mərhələsində respublika iqtisadiyyatı strukturunun təkmilləşməsi yeni xüsusiyyətlər kəsb edir. Əvvəla, bu struktur irəliləmələri müstəqil dövlətin müəyyən etdiyi inkişaf strategiyasının məqsəd və vəzifələrinin yerinə yetirilməsinə bilavasitə yönəldilir. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya etməsi şəraitində baş verir, miqyası və həcminə görə iqtisadi inkişafın əvvəlki mərhələlərindən xeyli fərqlənir.

İqtisadi inkişafın ayrı-ayrı mərhələlərində obyektiv amillərin fəaliyyəti qarşıya qoyulan iqtisadi və sosial inkişaf proqramını həyata keçirmək, real sektorun sahə strukturunda dəyişikliklərin qiymətləndirilməsinə kompleks yanaşmaq tələb edir.

Hazırda respublikada kənd təsərrüfatının, milli maraqlara cavab verən digər sahələrin üstün inkişafı proqramı müvəffəqiyyətlə həyata keçirilir ki, bu da müəyyən dövr üçün real sektorun sahə strukturunda köklü keyfiyyət dəyişikliklərini təmin edəcəkdir.

MİLLİ HESABLAR – adətən, il ərzində ümumi daxili məhsulun (ÜDM-in), məcmu ictimai məhsulun istehsalı, bölgüsü və son istifadəsi prosesini xarakterizə edən mühasibat hesabları formasında cədvəl sistemi. Mühasibat hesablarında olduğu kimi, burda da müxtəlif balanslar qurulur. Məsələn, təsərrüfat həyatının çoxcəhətli prosesində iştirak edən müxtəlif təsərrüfat vahidlərinin (agentlərinin) gəlirləri və xərcləri müqayisə olunur. Bütövlükdə götürülən və sahmana salınan bütün bu hesablar prinsipcə dəyərin müəyyən formada bir agentdən digərinə keçirilməsindən ibarət olan hər bir elementar iqtisadi əməliyyatı qeyd etmək iqtidarındadır. Belə ki, xammal partiyasının satışı məhsul göndərənin və istehlakçının hesabında təsbit olunan əməliyyatdır; şəhər əhalisi tərəfindən vergilərin ödənilməsi şəhər və dövlət büdcələrinin hesablarında təsbit olunan əməliyyatdır və s. Nəticədə gəlirlər, istehlak, kapital qoyuluşu və bütövlükdə ölkə üzrə iqtisadi fəaliyyətin digər tərəfləri haqqında ümumi məlumatlar almaq olar. Buna görə də bütün belə hesablar sistemi milli hesablar adlanır (termin ilk dəfə Ed. van Kliff tərəfindən işlənmişdir). Milli hesabların bir sıra sistemi mövcuddur. Onların arasında Norveçin REFI sistemi (RE – real, FI – finansial) və Nobel mükafatı laureatı R.Stoun tərəfindən işlənib hazırlanmış ingilis SAM (*social accounting matrix*) sistemi daha məşhurdur. Sonuncu sistem əsasında BMT sadələşdirilmiş milli hesablar sistemini qəbul etmişdir. O, bir qədər modifikasiyalı formada – Avropa İnteqrasiyalaşmış İqtisadi Hesablar Sistemi (AİİHS) adı altında yüzdən artıq ölkədə (o cümlədən Avropa İqtisadi Birliyi ölkələrində) tətbiq olu-

Cədvəl 1

Hesab və balans maddələri cədvəli

Cari əməliyyatlar hesabı	Balans maddəsi
İstehsal hesabı	Ümumi Daxili Məhsul (ÜDM) (milli iqtisadiyyat üçün) və ümumi əlavə dəyər (ÜƏD) (milli iqtisadiyyatın sektorları üzrə)
Gəlirlərin yaranması hesabı	Ümumi mənfəət (ÜM) və ümumi qarışıq gəlirlər (milli iqtisadiyyat və milli iqtisadiyyatın sektorları üçün)
Gəlirlərin ilkin bölgüsü hesabı	Ümumi milli gəlir (ÜMG) (milli iqtisadiyyat üçün) və ilkin gəlirin saldosu (İGS) (milli iqtisadiyyatın sektorları üçün)
Gəlirlərin təkrar bölgüsü hesabı	Sərəncamda qalan ümumi milli gəlir (SÜMG) (milli iqtisadiyyat üçün) və sərəncamda qalan ümumi gəlir (SÜS) (milli iqtisadiyyatın sektorları üçün)
Gəlirlərin istifadəsi hesabı	Ümumi yığım (milli iqtisadiyyat və milli iqtisadiyyatın sektorları üçün)

nur. 1993-cü ildə BMT AİİHS ilə yaxın olan yeni standart milli hesablar sistemini qəbul etdi. Bura təkcə maliyyə axınları yox, həm də "məsrəflər – buraxılış" cədvəli (bəzi ölkələrdə, o cümlədən, Rusiyada "sahələrarası balans cədvəli" kimi tanınır), eləcə də real pul formalarında əmlak balansları daxildir. Belə birləşmə inteqrasiya, sistemin özü isə inteqrasiyalı milli hesablar sistemi adlanır.

Avropa sistemində təsərrüfat vahidləri (subyektləri) iki qrupa bölünür. Birinci qruplaşdırma "xalis" sahələrə, ikinci qruplaşdırma iqtisadiyyat sahələrinə bölünür ki, burada institusional təsərrüfat vahidləri nəzərdən keçirilir və gəlirlərlə, son xərclərlə və maliyyə ilə əməliyyatlar zamanı onların davranışı təhlil olunur.

Təsərrüfat vahidlərinin qruplaşmasından fərqli olaraq, iqtisadi əməliyyatların təsnifatı yalnız bir əsasa malikdir: bu və ya digər əməliyyat (məsələn, subsidiya) eyni zamanda sahələr və sektorlar üzrə təsbit olunur. Ona görə də sahələr tərəfindən alınan subsidiyalar müxtəlif sektorlar tərəfindən alınan subsidiyaların yekununa bərabər olacaqdır.

Milli Hesablar Sistemi aşağıdakı ümummilli hesabları ehtiva edir: a) daxili iqtisadiyyatın hesabı: əmtəə və xidmətlərin, istehsalın, gəlirlərdən istifadənin, kapital məsrəflərinin hesabı, maliyyə hesabı; b) "digər dünyanın" hesabı: digər ölkələrlə cari əməliyyatların, kapital məsrəflərinin maliyyə hesabı (xarici borclar və kreditlər).

Bundan əlavə, sektorların və subsektorların hesabları, sahələrarası balans cədvəli də fərqləndirilir. Bütün hesablar və cədvəllər müvafiq dövrün cari qiymətləri ilə, eləcə də sabit qiymətlərlə qiymətləndirilir. Qiymət indekslərinin və məhsulun (əmtəə və xidmətlərin fiziki həcminin) inteqrasiyalı sistemi qurulur.

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycanda milli hesablar sisteminə 1994-cü ildən keçilmişdir və bu məqsədlə ölkədə bütün ilkin statistika, mühasibat, maliyyə və bank uçotu yenidən qurulmuşdur.

MİLLİ HESABLAR SİSTEMİ (MHS) – təkrar istehsal prosesinin mərhələlərini əks etdirən, ev təsərrüfatının və dövlətin, kapital qoyuluşunun və ixracın cari istehlakına əmtəə və xidmətlərin ilkin xammalın əldə edilməsindən son istifadəsinə qədər məhsul kütləsinin hərəkə-

Cədvəl 1

MHS üzrə milli sərvətin aktivlərinin sxematik təsnifatı (2008-ci ilin standartları)

I. Qeyri-maliyyə aktivləri	II. Maliyyə aktivləri
1. İstehsal olunan aktivlər	1. Monetar qızıl və xüsusi almaq hüququ olan aktivlər
11. Əsas fondlar	11. Monetar qızıl
111. Yaşayış evləri	12. Xüsusi almaq hüququ olan aktivlər
112. Sair bina və tikililər	2. Nəğd pul və depozitlər
1121. Qeyri-yaşayış binaları	21. Nağd pul
1122. Sair tikililər	22. Pula çevrilə bilən depozitlər
1123. Torpağın yaxşılaşdırılması	221. Banklararası depozitlər
113. Maşın və avadanlıqlar	229. Sair depozitlər
1131. Nəqliyyat vasitələri (avadanlıqları)	3. Borc verilən qiymətli kağızlar (səhmlərdən başqa)
1132. İnformasiya-kommunikasiya texnologiyaları üçün avadanlıqlar	31. Qısa müddətli
1133. Sair maşın və avadanlıqlar	32. Uzun müddətli
114. Silahlanma sistemi	4. Ssudalar
115. Becərilən bioloji ehtiyatlar	41. Qısa müddətli
1151. Bir neçə dəfə məhsul verən heyvan mənşəli ehtiyatlar	42. Uzun müddətli
1152. Bir neçə dəfə məhsul verən bitki mənşəli ehtiyatlar	5. Səhm kapitalı və investisiya fondlarının səhmləri
116. İstehsal edilməyən aktivlərə mülkiyyət hüququnun verilməsilə əlaqəli xərclər	51. Səhmdarların kapitalı
117. İntellektual mülkiyyətin məhsulları	511. Qiymətləndirilən səhmlər
1171. Tədqiqat və işləmələr	512. Qiymətləndirilməyən səhmlər
1172. Torpağın təkinin kəşfiyyatı və faydalı qazıntı ehtiyatlarının qiymətləndirilməsi	513. Sair növ səhm kapitalı
1173. Proqram təminatı və məlumatlar bazası	52. İnvestisiya fondlarının səhmləri
11731. Proqram təminatı	521. Pul bazarı fondlarının səhmləri
11732. Məlumatlar bazası	529. Sair növ səhmlər
1174. Əyləncə janrlı, ədəbiyyat və incəsənət əsərlərinin orijinalı (əsli)	6. Sığorta, pensiya və standartlaşdırılmış təminat proqramları
1179. İntellektual mülkiyyətin digər məhsulları	61. Sığorta texniki ehtiyatlar (həyat sığortası üzrə ehtiyatlar istisna edilməklə)
12. Maddi dövriyyə vasitələrinin ehtiyatları	62. Həyat sığortası üzrə ödənişlər və illik gəlirlər
121. Xammal və materiallar	63. Pensiyaya çıxmaq üçün nəzərdə tutulan (ayrılan) pensiyanın məbləği
122. Bitməmiş istehsal	64. Pensiya fondlarının zəmanətçilərə tələbləri

1221. Becərilən bioloji ehtiyatların bitməmiş istehsalı	65. Qeyri-pensiya yardımlarına hüquqlar
1222. Bitməmiş istehsalın digər növləri	66. Standart təminatlar üzrə tələbat üçün ehtiyatlar
123. Hazır məhsul qalığı	7. Yaradılan maliyyə alətləri və əlavələr
124. Hərbi ehtiyatlar	701. Yaradılan maliyyə alətləri
125. Alınıb-satılan əmtəələr	711. Əlavələr-"opsionlar" (könüllü yardımlar)
113. Dəyərlilər: *yığılan qiymətli metal və daşlar, antikvar əşyalar və yuvelir məmulatları, unikal incəsənət əsərləri, kolleksiyalar və s.*	712. Yardım etmək, təkan vermək üçün ("forvard") kontraktlar
1131. Yığılan qiymətli metal və daşlar	72. İşçilərin səhmlərinə əlavələr
1132. Antikvar əşyalar və yuvelir məmulatları, unikal incəsənət əsərləri	8. Digər maliyyə aktivləri (debitor və ya kreditor borcları)
1139. Sair növ dəyərlilər	81. Ticarət kreditləri və avansları
2. İstehsal edilməyən aktivlər	89. Debitor və ya kreditor borclarının sair növləri (ticarət kreditləri və avansları istisna edilməklə)
21. Təbii ehtiyatlar	
211. Torpaq	
212. Mineral və enerji ehtiyatları	
2121. Kömür, neft və qaz ehtiyatları	
2122. Faydalı metal qazıntı yataqlarının ehtiyatları	
2123. Faydalı qeyri-metal qazıntı yataqlarının ehtiyatları	
213. Becərilməyən bioloji ehtiyatlar	
214. Su ehtiyatları	
215. Sair növ təbii ehtiyatlar	
2151. Radiotezlik diapozonu (əhatə dairəsi)	
2152. Sair növ təbii ehtiyatların digər növləri	
22. Kontraktlar, icarə müqavilələri və lisenziyalar	
221. Hüququn güzəştə gedilməsi şərtilə əməliyyat icazəsi üzrə müqavilələr	
222. Təbii ehtiyatlardan istifadə üçün icazələrin verilməsi	
223. Xüsusi növ fəaliyyət üçün icazələrin alınması	
224. Gələcək məhsullar və xidmətlərə müstəsna hüququn verilməsi	
23. Səmərəli fəaliyyət və şöhrət qazanmaq üçün icazə "qudvil (goodwill)" alınması (ticarət markası, şirkətin imicindən istifadə və s. belə məqsədlər üçün razılaşmalar əldə edilməsi), onların satışını çıxmaq şərtilə	

tini izləməyə imkan verən hesabların məcmusu. Milli hesablar metodunun banisi Fransua Kenedir (bax: Fransua Kene). Sonralar bu problem C.Keyns, S.Kuznets, C.Stempun əsərlərində tədqiq olunmuşdur. Milli hesablar sistemi onu xarakterizə edən göstəricilər vasitəsilə iqtisadiyyatın yuxarı səviyyələr vəziyyətini təhlil etmək, müvafiq qərarlar qəbul etmək üçün nəticələr çıxarmaq mümkündür. Milli hesablar sistemi bir növ makro səviyyədə mühasibat uçotunun funksiyalarını yerinə yetirmək üçün kifayət qədər informasiya vermək qabiliyyətinə malikdir. Milli hesablar sistemi vasitəsilə ölkənin ümumi məhsulu və milli gəlirin istehsalı, bölgüsü və istifadəsini əks etdirən hesablar, cədvəllər, onların qarşılıqlı əlaqəsi barədə kifayət qədər məlumat toplamaq mümkündür. Əksər xarici ölkələrdə qəbul edilmişdir; BMT-nin işləyib hazırladığı və tövsiyə etdiyi metodologiyaya əsaslanır. MHS-də istehsal mərhələsi ümumi buraxılış, aralıq istehlakı və ümumi daxili məhsul (ÜDM) göstəriciləri ilə xarakterizə olunur.

İqtisadiyyat üçün milli hesablar sisteminin əsasını bütövlükdə altı hesab təşkil edir: nemətlər, xidmətlər və istehsalın hesabı; gəlir və istehlakın hesabı; yığımın hesabı; istehsaldan kənarda dəyərin yaradılmasının hesabı (yenidən qiymətləndirmə); açan balans; bağlayan balans.

Bundan başqa, hər bölmə (qeyri-maliyyə müəssisələri, ev təsərrüfatları, dövlət müəssisələri, maliyyə qurumları, xüsusi təşkilatlar, sığorta təşkilatları və qalan dünya) üçün də iki növ milli hesab qurulur: iqtisadi agentlərin sövdələşmələrinin nəticələri qeyd olunan axınların hesabları və balans təşkil edən əmlak hesabı.

Xalq təsərrüfatının balans sistemindən fərqli olaraq, milli hesablar ictimai təkrar istehsal prosesini eyni zamanda iki səpkidə nəzərdən keçirir: bir tərəfdən nemətlər və xidmətlərin istehsal və istehlak balansı, digər tərəfdən gəlirlərin yaradılması və bölgüsü prosesi kimi. İstehsalda yaranan gəlir bölgüsünün təsviri MHS-nin əsas vəzifələrindən biridir.

Ümumi buraxılış – bazar və qeyri-bazar xarakterindən asılı olmayaraq ölkədə istehsal olunmuş bütün əmtəə və xidmətlərin dəyərini əks etdirir.

Aralıq istehlak – əmtəə və xidmətlərin dəyərini, müxtəlif mərhələlərdə tam xərclənmiş son məhsulun hazırlanmasını ifadə edir. ÜDM: 1) dəyər strukturuna görə – əmək haqqı, mənfəət, amortizasiya ayırmaları və xalis (subsidiyalar çıxılmaqla) dolayı vergilərdən; 2) natural tərkibinə görə – son məhsulun, yəni istehlak mallarının və xidmətlərin (dövlət tərəfindən göstərilən qeyri-bazar xidmətləri daxil olmaqla), bina və tikililərin, maşın və avadanlıqların məcmusundan; 3) son istifadə kateqoriyalarına görə – ev təsərrüfatlarının cari istehlak xərclərindən, dövlətin cari xərclərindən (ümumi idarəetməyə, hüquqmühafizə orqanlarının saxlanmasına, müdafiəyə, əhalinin sosial xidmətlərinə çəkilən xərclərdən), əsas və dövriyyə fondlarına (ehtiyatlarına) yönəldilən ümumi kapital qoyuluşlarından, xalis ixracdan (idxal çıxılmaqla ixracdan) ibarətdir.

Xammal, yarımfabrikatlar, dəst məmulatlar və qovşaqlar, yanacaq və elektrik enerjisi ÜDM tərkibində yalnız o halda nəzərə almır ki, onlar ixrac üçün nəzərdə tutulmuşdur və bu ölkədə onların emalı dövriyyəsi dayandırılmış və başa çatmışdır. Əgər ÜDM ərazi prinsipinə görə hesablanırsa və hər hansı bir ölkənin ərazisində bu ölkənin və xarici müəssisələrin istehsal etdiyi bütün son məhsulu özündə ehtiva edirsə, onda onun törəməsi olan ümumi milli məhsul (ÜMM) amil gəlirlərinin transmilli hərəkətinin saldosunu nəzərə alır. ÜMM-in hesablanması üçün konkret olaraq ÜDM göstəricisinə bu ölkənin rezidentləri tərəfindən xaricdə alınan mənfəət və əmək haqqı əlavə olunur və bu ölkədə xarici qeyri-rezidentlər tərəfindən mənfəət və əmək haqqı çıxılır. Kəmiyyət baxımından ÜMM və ÜDM arasında fərq cüzidir (iqtisadi cəhətdən inkişaf etmiş ölkələr üçün 0,5-0,7%).

MHS metodologiyasına görə, qurulmuş statistik cədvəllər əsas və köməkçi (yardımçı) cədvəllərə bölünür. Əsas statistik cədvəllər faktiki və sabit qiymətlərdə ÜDM-in istehsalının və son istifadəsinin strukturunu və faktiki qiymətlərdə onun dəyər strukturunu əks etdirir. Köməkçi cədvəllər əsas cədvəlləri təfsilatı ilə göstərir (məsələn, əsas cədvəldə bir sətirlə göstərilən emal sənayesi, köməkçi cədvəldə 12 yarımsahəyə bölünmüşdür), yaxud onları tamamlayır (ev təsərrüfatlarının, dövlətin, müəssisələrin gəlirlə-

rinin formalaşmasını və istifadə edilməsini, ölkənin xarici iqtisadi əlaqələrini, milli sərvəti və s. əks etdirən cədvəllər). MHS cədvəlləri tam olaraq BMT-nin statistika bürosunun ("Year book of National Accounts Statistics" əlavələrlə iki cilddə müntəzəm çıxır) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının ("Statistics of National Accounts") illik məcmuələrində çap olunur.

MHS üzrə ilk beynəlxalq standartlar 1953-cü ildə tətbiq edilməyə başlanmışdır. Sonralar bu standartlar 1963 və 1993-cü illərdə təkmilləşdirilmişdir. MDB ölkələrində, o cümlədən Azərbaycanda milli hesablar 1993-cü ilin standartları üzrə tərtib edilir. ÜDM cari ilin qiymətləri və müqayisəli qiymətlərlə hesablanır. Hazırda milli hesablar sisteminin 2008-ci il standartlarının tətbiqi üçün hazırlıq işləri aparılır.

Yığım hesabı – MHS-in (Milli Hesablar Sistemi) hesabı olaraq onda müəyyən dövr üçün iqtisadi sektorların və institusional vahidlərin fəaliyyəti nəticəsində maliyyə və qeyri-maliyyə aktivlərinin dəyişmələri və xarici iqtisadi təsirlər təsbit edilir. Ona dörd hesab aiddir: kapitala əməliyyat hesabı; maliyyə hesabı; yenidən qiymətləndirmə hesabı; aktivlərin həcmində digər dəyişikliklər hesabı.

Əlisa Zeynallı

MİLLİ MƏCLİS – Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir. Birpalatalı orqan olub 125 deputatdan ibarətdir. Deputatlar majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir. Milli Məclisin hər çağırışının seçkiləri beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir. Milli Məclisdə hər il iki növbəti yaz və payız sessiyaları keçirilir.

Azərbaycan Respublikası Milli Məclisi aşağıdakı məsələləri həll edir: Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili; Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin təsis edilməsi; inzibati ərazi bölgüsü; dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarət; Azərbaycan Respublikası prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin seçilməsi; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının hərbi doktrinasının təsdiqi; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Baş nazirinin vəzifəyə təyin edilməsinə razılıq verilməsi; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Respublikası apelyasiya məhkəmələri hakimlərinin təyin edilməsi; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Baş prokurorunun vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən hakimlərin vəzifədən kənarlaşdırılması; Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi; Azərbaycan Respublikası Prezidentinin müraciətinə əsasən müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verilməsi; referendum təyin edilməsi; amnistiya; Azərbaycan Respublikası hökumətinin, Hesablama Palatasının və bələdiyyələrin hesabatlarının dinlənilməsi.

Milli Məclisin aşağıda adları qeyd olunan komitələri fəaliyyət göstərir:

- Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsi
- Təhlükəsizlik və Müdafiə Komitəsi
- İqtisadi Siyasət Komitəsi
- Təbii Ehtiyyatlar, Energetika və Ekologiya Komitəsi
- Aqrar Siyasət Komitəsi
- Sosial Siyasət Komitəsi
- Regional Məsələlər Komitəsi
- Elm və Təhsil Komitəsi
- Mədəniyyət Komitəsi
- Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsi

Azərbaycan Respublikasının Nazirlər Kabineti hər il Milli Məclisin yaz sessiyasının beşinci iclasında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabat verir



























• İnsan Hüquqları Komitəsi
Bundan əlavə Milli Məclisin tərkibində intizam və hesablayıcı komissiyalar da fəaliyyət göstərirlər.
Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında Azərbaycan Respublikası Qanununa əsasən İqtisadi siyasət komitəsi dövlətin maliyyə və vergi siyasətinin, iqtisadi siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair, habelə dövlət büdcəsinin təsdiq edilməsi və icrası ilə bağlı qanun və qərar layihələri üzrə aparıcı komitədir.
İqtisadi siyasət komitəsi: dövlət büdcəsi, büdcə prosesi və quruluşu, pul emissiyası, qiymət siyasətinin əsasları, bank fəaliyyəti, maliyyə, mühasibat, sığorta, valyuta, kredit, gömrük tənzimlənməsi, vergi siyasəti, rüsum və ödənişlər sahələri, daxili və xarici iqtisadi münasibətlər, mülkiyyət, əmlak münasibətləri, təsərrüfat fəaliyyəti, sənaye, nəqliyyat, rabitə, ticarət, birja, sahibkarlıq fəaliyyəti, antiinhisar siyasəti sahələri üzrə qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir; yerli vergilərə və ödənişlərə, yerli büdcələrə aid qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir; Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvləri vəzifəyə təyin və vəzifədən azad edilərkən təklif olunan namizədliklərə baxır və onlar barəsində rəy verir; Azərbaycan Respublikası Auditorlar Palatasının sədri və sədr müavini, Azərbaycan Respublikası Hesablama Palatasının sədri, sədr müavini və auditorlar vəzifəyə təyin edildikdə və ya vəzifədən azad edildikdə təklif olunmuş şəxslərin namizədliklərinə baxır və onlar barəsində rəy verir; Dövlət büdcəsinə nəzarətlə bağlı məsələlərə baxır və Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verir; dövlət büdcəsinin layihəsinə dair başqa komitələrin təkliflərinə baxır və onlar barəsində rəy verir; Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə dövlət büdcəsindən əlavə xərc tələb edən qanun və qərar layihələrinə dair, habelə qanun və qərar layihələrinə iqtisadi əsaslandırma və iqtisadi məqsədəuyğunluq baxımından rəy verir.
Komitənin qanun və qərar layihələrinin hazırlanması üçün zəruri olan sənədləri və materialları mərkəzi, yerli icra və məhkəmə hakimiyyəti orqanlarından, yerli özunüidarə orqanlarından, dövlət və qeyri-dövlət müəssisələri, idarələri və təşkilatlarından tələb etmək, onların nümayəndələrini (ekspertlərini) komitənin iclaslarına dəvət etmək hüququ vardır.
Komitənin qanun və qərar layihələrinin hazırlanması üçün tələb etdiyi sənədləri və materialları mərkəzi və yerli icra və məhkəmə hakimiyyəti orqanları, yerli özunüidarə orqanları, dövlət və qeyri-dövlət müəssisələri, idarələri və təşkilatları 10 gün müddətində komitəyə göndərməlidirlər. Əgər həmin sənədlərdə və materiallarda dövlət, kommersiya sirri, yaxud qanunla qorunan başqa məxfi məlumatlar varsa, onlar göndərilmir və bu barədə Milli Məclisin sədrinə əsaslandırılmış yazılı cavab verilir.
Milli Məclisin sədri bu cavabla razı olmayaraq həmin sənədləri və materialları tələb edərsə, onların Milli Məclisin sədrinə təqdim edilməsi məcburidir.
MİLLİ SƏRVƏT – müəyyən zaman kəsiyinə görə cəmiyyətin malik olduğu, keçmiş əmək nəticəsində yığılan (toplanan), material (iqtisadi) ehtiyatların, maliyyə ehtiyatlarının və iqtisadi dövriyyəyə cəlb edilən təbii sərvətlərin (ehtiyatların) məcmusu. İki qrupa bölünür: yığılmış (toplanmış) sərvət (iqtisadi ehtiyatlar) və təbii ehtiyatlar.
Yığılmış (toplanmış) sərvət müxtəlif təyinatlar və istifadə məqsədləri üçün mövcud olan maddi nemətlərin məcmusu formasında çıxış edir. İqtisadi münasibətlər sistemindəki dövretmə xüsusiyyətlərindən asılı olaraq onun tərkibində aşağıdakı qruplaşdırma aparılır: əsas istehsal fondları (vasitələri, aktivləri); istehsal dövriyyə fondları (vasitələri); dövretmə fondları, material və sığorta ehtiyatları; əsas qeyri-istehsal fondları (vasitələri); əhalinin uzunmüddətli istehlak malları; maliyyə ehtiyatları; qeyri-istehsal (xidmət) sferalarında (sahələrində) və əhalinin ev təsərrüfatlarında qısamüddətli istifadələr üçün cari istehlak ehtiyatları. Sərvətin natural-əşyavi tərkibi üzrə qruplaşdırılması istehsal prosesində yerinə yetirdiyi və ya yerinə yetirə biləcəyi roldan asılı olur.
Milli sərvət ölkədə müəyyən

dövr üçün toplanmış qeyri-maliyyə və maliyyə aktivlərinin məcmusunu özündə əks etdirir. Maliyyə aktivlərinin xalis dəyəri (qalığı) maliyyə aktivləri ilə təsərrüfat (iqtisadi fəaliyyət) subyektlərinin (vahidlərinin) öhdəlikləri arasındakı fərqlə qiymətləndirilir. Milli sərvətin dəyəri ilin əvvəlinə hesablanır. Milli sərvət göstəricisi ölkənin elə ehtiyatlarıdır ki, müəyyən dövr (il) ərzində həm arta, həm də azala bilər. Milli sərvət göstəricisi məhsul istehsalı, istehlakı, gəlir və s. göstəricilərdən fərqli olaraq, müəyyən ana görə hesablanır və toplanma əlamətinə malik olmur. Məsələn, istehsal və istehlak edilən məhsullar, əmtəə dövriyyəsi, gəlir və s. göstəricilər müəyyən dövr (ay, rüb, il) üçün toplanılır, milli sərvət isə toplanmır və yalnız hesablanır.

Milli sərvət mülkiyyət tərkibi (dövlət mülkiyyətində, bələdiyyə mülkiyyətində, fərdi-şəxsi mülkiyyətdə, qarışıq mülkiyyətdə); iqtisadi subyektlər (ev təsərrüfatları, hüquqi və fiziki şəxslər); fəaliyyət sahələri (5 sektor, 21 sahə, 88 bölmə, 272 qrup və 615 sinif); əşyavi tərkibi (qeyri-maliyyə və maliyyə aktivləri) və s. tərkib elementləri üzrə qruplaşdırılır. Bu göstərici mikroiqtisadi, mezoiqtisadi və makroiqtisadi mərhələləri xarakterizə etmək xüsusiyyətinə malikdir.

Bu amillərin dəyər qiymətlərini xüsusilə zəif inkişaf etmiş iqtisadiyyatlarda hesablamaq çətindir. Ona görə də o, çox zaman ayrı-ayrı dövlətlərin milli sərvət hesablaşmasına daxil edilmir. Milli sərvət göstəricisi ilk dəfə İngiltərə üçün ingilis iqtisadçısı U.Petti tərəfindən 1664-cü ildə hesablanmışdır. Milli sərvətin ilk qiyməti Fransada 1789-cu ildə, ABŞ-da 1805-ci ildə, Rusiyada isə 1864-cü ildə müəyyən edilmişdir.

Ölkənin valyutasında qiymətləndirilən milli sərvət, bir qayda olaraq, digər bir vahid valyutada da, əsasən ABŞ dollarında və ölkənin hər bir vətəndaşı üçün də hesablanır. Bu göstərici ayrı-ayrı ölkələrin iqtisadi gücünün və onların maddi rifah səviyyəsinin müqayisəli təhlili üçün əsas verir.

MİLLİ SİSTEM – özü özünü təkrar istehsal edən sistem. Bu sistemdə məhsulun sadə və geniş təkrar istehsalının daxili mənbələri məsələsi ölkənin iqtisadi cəhətdən qorunmasında ən mühüm məsələdir. Buradan belə nəticə çıxır ki, həmin mənbələrin müəyyən edilməsi, mülkiyyətçi hüquqlarının, iqtisadi və maliyyə mexanizmlərinin, iqtisadiyyatın optimal strukturunun, sosial-əmək münasibətləri növlərinin, ətraf aləmlə əlaqə formalarının, bütövlükdə iqtisadiyyatın idarə edilməsi milli iqtisadiyyat sisteminin mühüm elementidir.

Cəmiyyət həyatının milli iqtisadiyyatın təkrar istehsalına təsir göstərən sahələri

Milli iqtisadiyyatın məzmunundan irəli gələn təkrar istehsalı cəmiyyət həyatının başqa sahələri ilə əlaqədar nəzərdən keçirmək lazımdır. Bu, ilk növbədə insanların sosial həyat tərzinə və ya cəmiyyətin sosial strukturuna, ailələrin və fərdlərin təkrar istehsalının təşkilinin xüsusi tipinə aiddir. Sosial və siyasi münasibətlər sahəsində formalaşan təsisatlar cəmiyyətin iqtisadi həyatını fəal şəkildə məhdudlaşdırır və əksər hallarda milli yönümlü iqtisadi qərarların səmərəli olub-olmamasını müəyyənləşdirir.

Milli iqtisadi sistemin öyrənilməsi

Milli iqtisadi sistemin öyrənilməsi həm iqtisadi inkişafın ölkə iqtisadiyyatında labüd olaraq əks olunan ümumi qanunauyğunluqlarının, həm də cəmiyyətin həyatının iqtisadiyyatla əlaqədar olmayan əsaslarından irəli gələn özünəməxsus cəhətlərinin aşkar edilməsinə və ölkənin iqtisadi həyatının müxtəlif ukladlarının əlaqələndirilməsinə əsaslanmalıdır. İqtisadi sistemlər iqtisadiyyatın və cəmiyyətin inkişafı nəticəsində yaranır və inkişaf edir. Nəticədə milli iqtisadi sistemin əsas cəhətləri, o cümlədən onun mühüm xassələri cəmiyyətin inkişafının bütün mərhələlərində bu inkişafın məhsuludur.

MİLLİ STANDARTLAR (audit üzrə) – qanunvericilik və normativ hüquqi aktlarla və ya səlahiyyətli orqan tərəfindən milli səviyyədə müəyyən edilmiş və auditin, yoxlamanın, digər təsdiqləmə və ya əlaqəli xidmətlərin yerinə yetirilməsində məcburi surətdə tətbiq edilən standartlar toplusu.

MİLLİ STANDARTLAR FONDU – dövlət standartları, ölkənin texniki-informasiya və sosial informasiya təsnifatları və mütəxəssislər tərəfindən təsdiq üçün təqdim edilən dövlət standartları və təsnifləşdiricilərin də daxil olduğu kağız və maqnit daşıyıcılarında olan standartlaş-

dırma üzrə normativ sənədlərin məcmusu; dövlətlərarası, beynəlxalq, regional standartlar; xarici ölkələrin milli standartları; məlumat-axtarış aparatı olan (məlumat bazası, göstəricilər, kataloqlar, kartotekalar) qaydalar, normalar, tövsiyələr və başqa normativ sənədlər.

MİLLİ TƏCRÜBƏLƏR (audit üzrə) (National practices (auditing) – səlahiyyətli orqan tərəfindən milli səviyyədə müəyyən edilmiş standartların təsir gücünə malik olmayan və auditorlar tərəfindən, bir qayda olaraq, auditin, yoxlamanın, digər təsdiqləmə və ya əlaqəli xidmətlərin yerinə yetirilməsində tətbiq edilən təcrübələr toplusu.

MİLLİ TİBBİ SIĞORTA SİSTEMİ – bütün vətəndaşların sağlamlığının baza sığorta paketindən ibarət olan, birbaşa ödənişlər; nəzərdə tutulmayan və qeyri-dövlət vəsaitləri hesabına maliyyələşdirilən federal hökumət proqramı.

MİLLİ VALYUTA – suveren dövlətin dövriyyəyə buraxdığı və ölkə ərazisində yeganə ödəniş vasitəsi olan valyuta, ölkənin pul vahidi.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respubilkası Milli Bankının yaradılması haqqında" (11.02.1992) və "Azərbaycan Respublikası milli valyutasının dövriyyəyə buraxılması haqqında" (15.07.1992) fərmanlarına müvafiq olaraq milli pul tədavülünün əsası qoyulmuşdur.

1992-ci ilin avqustunda 1, 10 və 250 manatlıq əsginaslar, noyabrından 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrında 5 manatlıq əsginas, 1993-cü ilin martında isə 50, 100, 500 və 1000 manat nominallı kağız əsginaslar dövriyyəyə buraxıldı. 1992-ci ilin avqustundan etibarən 1994-cü ilin yanvarınadək manat Azərbaycan ərazisində öz nominal dəyəri ilə yanaşı, dövriyyədə rublla paralel ödəniş vasitəsi (1 manat = 10 rubl) kimi istifadə olunurdu.

Mərkəzi Bank tərəfindən müstəqil pul siyasətinin yeridilməsinə şərait yaratmaq üçün manatın ölkə ərazisində yeganə ödəniş vasitəsi olmasının təsbit edilməsi zəruri idi. Bu zərurətin həllində Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikası milli valyutasının respubilka ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında" Fərmanı (11.12.1993) mühüm rol oynayaraq Azərbaycanın rubl zonasından çıxmasını təmin etdi və Mərkəzi Banka müstəqil pul və məzənnə siyasətini həyata keçirmək imkanı verdi. Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının pul vahidinin manat olduğu bəyan olundu. Eyni zamanda Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağan edildi. Bu, manatın məzənnəsinin sabitləşməsi və möhkəmlənməsi, onun həqiqi milli valyutaya çevrilməsi üçün möhkəm zəmin yaratdı.

Mərkəzi Bank tərəfindən ölkədə nağd pul dövriyyəsinin nizamlanması, nağd pula olan tələbatın optimallaşdırılması və pul qıtlığı probleminin aradan qaldırılması məqsədilə 10000 manatlıq (1994), 50000 manatlıq (1996) əsginaslar dövriyyəyə buraxıldı.

MİLLİ VALYUTADA QİYMƏTLİ KAĞIZLAR – manatla ifadə edilmiş ödəniş sənədləri (çeklər, veksellər, akkreditivlər və s.), fond sərvətləri (səhmlər, istiqrazlar) və digər borc öhdəlikləri.

MİLLİLƏŞDİRMƏ – səlahiyyətli dövlət orqanının xüsusi qərarı əsasında ayrı-ayrı şəxslərin əmlakının özgəninkiləşdirilərək dövlət mülkiyyətinə verilməsi. Milliləşdirmə, əsasən, uzunmüddətli olur və böyük məbləğdə vəsait qoyuluşlarını tələb edən istehsal sahələrinə və ya dünya miqyasında böhrandan ən çox zərər çəkmiş, bağlanmaq həddində olan qeyri-rentabelli müəssisələrə aid edilir. İkinci Dünya müharibəsindən sonra Avropa dövlətlərinin əksəriyyətində ayrı-ayrı istehsalatların və ya sənaye sahələrinin geniş miqyasda milliləşdirilməsi təcrübəsinə müraciət edildi. Bu tədbirdən müasir dövrdə də istifadə edilir. Qanunvericiliyə görə milliləşdirmə ictimai mənafelər naminə həyata keçirilən tədbir kimi müəyyən edilir və milliləşdirilən əmlakın mülkiyyətçisinə kompensasiya ödənilir.

MİLLS (MİLLS) ÇARLZ RAYT (1916-1962) – amerikalı sosioloq və iqtisadçı, M.Veberin davamçısıdır. K.Marksın metodunu məhsuldar, lakin marksizm nəzəriyyəsini köhnəlmiş hesab edirdi. Mills iki iqtisadi doktrinanın – insanın cəmiyyətdə azadlığı idealı əsasında liberalizmin və marksizmin ən yaxşı elementlərini birləşdirməyə



Azərbaycan Demokratik Respublikasının ilk müstəqil pul emissiyası (1919-cu il)



Azərbaycan dilində manatla, rus dilində isə rubl ilə verilmişdir (1919-1920-ci illər)



SSRİ dövründə ən üzunmüddətli tədavüldə olan pul nişanları (1961-ci il)

Cədvəl 1

Azərbaycan manatının xarici valyutalara nisbətən nominal və real effektiv məzənnəsi, %-lə (dekabr 2000=100)

İl, ay	Nominal effektiv məzənnə		Real effektiv məzənnə	
	ümumi	qeyri-neft sektoru üzrə	ümumi	qeyri-neft sektoru üzrə
2000	100.0	100.0	100.0	100.0
2001	105.3	110.1	97.2	96.4
2002	97.3	105.8	86.9	87.1
2003	85.5	95.8	75.2	75.4
2004	80.2	91.2	74.2	73.8
2005	92.1	101.8	85.8	81.4
2006	90.0	101.5	89.0	84.5
2007	85.4	97.1	95.1	89.1
2008	100.1	117.2	121.8	114.1
2009	98.3	119.1	115.5	110.0
2010				
01	99.2	119.2	117.4	109.7
02	102.4	121.2	121.9	111.8
03	102.2	120.6	122.4	111.9
04	102.6	120.1	122.6	111.2
05	107.1	124.0	127.5	114.4
06	109.3	126.1	129.4	115.6
07	106.3	123.6	125.7	113.1
08	105.2	122.4	124.8	112.2
09	104.7	122.7	124.8	112.5
10	100.7	119.8	120.5	110.0
11	101.8	121.3	123.8	112.8
12	104.2	123.2	127.7	115.3
2011				
01	103.8	122.8	128.1	114.7
02	102.8	121.8	128.9	115.4
03	101.3	120.4	127.3	114.4
04	99.1	118.6	123.3	111.6
05	99.8	119.5	123.2	110.9
06	100.2	121.2	122.8	111.6
07	101.1	123.6	123.3	113.1
08	101.6	123.9	124.2	113.6
09	104.5	127.4	128.3	117.3
10	105.1	128.4	128.6	117.2
11	105.7	128.6	130.4	117.8
12	108.1	131.9	134.2	121.6
2012				
01	109.3	132.3	136.2	121.7
02	107.1	129.2	133.0	118.4

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

Nominal effektiv məzənnə (NEM) indeksi – əsas iqtisadi tərəfdaş ölkələrin valyutalarına nəzərən manatın ikitərəfli nominal məzənnələrinin dəyişiminin çəkili orta kəmiyyətini əks etdirir.

Real effektiv məzənnə (REM) indeksi – manatın ticarət partnyoru olan ölkələrin valyutalarına nəzərən ikitərəfli nominal məzənnələrinin dəyişiminin ticarət xüsusi çəkiləri və həmin ölkələrdə inflyasiya nəzərə alınmaqla həndəsi orta kəmiyyətini əks etdirir.



çalışırdı. Millsə görə, bu halda azadlıq nə istəsən, onu etməyin mümkünlüyü deyil, müəyyən alternativlər toplusuna daxil olan hüquqlardır. Azadlıq ilk növbədə mümkün variantları aşkar etmək, onları dərk etmək və bundan sonra seçim etmək imkanıdır. Mills "Hakimiyyətdə yeni insanlar" (1948), "Ağ yaxalıqlar" (1951), "Hakim elita" (1956) və "Marksistlər" (1962) əsərlərinin müəllifidir.

MİLYUTİN NİKOLAY ALEKSEYEVİÇ (1818-1872) – dövlət xadimi. Moskva Universiteti yanında kübarlar pansionunda təhsil almışdır.




1835-ci ildən Daxili İşlər Nazirliyində xidmət etmişdi. 1842-ci ildə təsərrüfat departamentinin şəhər bölməsinin idarə edilməsi Milyutinə tapşırılmışdı. Burada o, "Şəhərin əsasnaməsi" ("Qorodovoe polojenie", 1846) adlı sənəd tərtib etmişdir. Özünüidarə qaydalarına görə diqqəti cəlb edən bu sənəd əvvəlcə Peterburqda, daha sonra Moskvada və Odessada tətbiq edilmişdir. 1852-1854-cü illərdə Milyutin Rus Coğrafiya Cəmiyyətinin statistika bölməsinin və şurasının iclaslarında çox fəal iştirak etmişdir. Onun bilavasitə rəhbərliyi ilə "Rusiyada şəhər məskənləri" adlı kitabın ilk iki cildi və 1838-1858-ci illərdə şəhərlərin təsərrüfatları barədə məlumatlar "Şəhərlərin ictimai quruluşu və təsərrüfatı" adı ilə nəşr edilmişdir. 1850-ci ildə təsərrüfat departamentində "Rusiyanın hökumət statistikası" barədə materialların ətraflı toplusu tərtib edilmiş, həmin topludan Milyutin tərəfindən hazırlanmış çıxarış "Rusiyada şəhər və əkinçilik məskənlərinin sayı" adı ilə "Rusiya haqqında statistik məlumatlar məcmuəsi"ndə (1851, kitab 1) çap edilmişdir. Kəndlilərin təhkimçilikdən azad edilməsi ilə əlaqədar Milyutinin təşəbbüsü ilə "1 yanvar 1854-cü ildən 1 yanvar 1859-cu ilə qədər açıq hərracda satılmış torpağın qiyməti barədə məlumatlar" (SPB., 1859) və "1856-1858-ci illərdə azad satışda olan boş torpaqların qiyməti barədə məlumatlar" (SPB., 1860) toplanaraq çap edilmişdir. Onun rəhbərliyi ilə Polşa çarlığının təsərrüfat əsasnamələrinin təhlilindən ibarət "Polşa çarlığında tədqiqatlar" adlı sanballı əsər yaradılmışdır (1863-1864). 1856-cı ildən kəndli islahatında iştirak etmişdir. Kəndli icmasının geniş özünüidarə hüququnun və müstəqilliyinin tərəfdarı olan Milyutinin əleyhdarları çox idi. Onlar məhz bu prinsiplərin həyata keçirilməsindən ehtiyat edirdilər. 1859-cu ildə daxili işlər nazirinin ortağı ("yoldaşı") təyin edilmiş Milyutin 1861-ci il kəndli islahatının hazırlanması ilə əlaqədar bütün işlərə faktiki rəhbərlik edirdi. 1859-1861-ci illərdə o həm də 1864-cü il Zemstvo islahatı layihəsinin hazırlanması üzrə komissiyanın sədri olmuşdur. 1861-ci ilin yazında senator təyin edilməsi ilə əlaqədar 1861-ci il 19 fevral manifesti çıxandan 5 həftə sonra öz vəzifəsini tərk etmişdir. Polşada baş verən 1863-1864-cü illər üsyanı dövründə vəziyyətlə yerində tanış olmaq üçün həmin ölkəyə göndərilmişdir. 1864-cü ildə Polşanın dövlət katibi və Varşavada general-qubernatorun dəftərxanasında mülki işlər müdiri təyin edilmiş Milyutin Polşadakı bütün əsas işlərə rəhbərlik etmişdir. 1865-ci ildən Dövlət Şurasının üzvü, Peterburqda Polşa çarlığı dəftərxanasının baş rəisi və Polşa kəndlilərinin məişətinin tənzimlənməsi üzrə baş komitənin üzvü olmuşdur. 1867-ci ildə xəstəliyi ilə əlaqədar dövlət fəaliyyətinə xitam vermişdir.

MİNİMUM ƏMƏK HAQQI – iqtisadi, sosial şərait nəzərə alınmaqla qanunvericiliklə ixtisassız əməyə və xidmətə görə aylıq əmək haqqının ən aşağı səviyyəsini müəyyən edən sosial normativ. Minimum əmək haqqı dövlət tərəfindən qanunla müəyyən edilir və tənzimlənir (bax: qrafik 1).

MİNİMUM İSTEHLAK SƏBƏTİ – insanın sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin elmi normalar əsasında müəyyən edilmiş toplusu. İstehlakın minimal səviyyəsinə əsaslanır. İstehlakın minimal səviyyəsi elə istehlak səviyyəsidir ki, onun azalması istehlakçım fiziki mövcudluğunun normal şəraitinin təmin olunma həddindən aşağı vəziyyətə salır. "Yoxsulluq həddi" də məhz bu həddir. Rasional istehlak səviyyəsi isə istehlakın

Azərbaycanda müəyyən edilmiş minimum əmək haqqının ölçüləri (manat)



Qrafik 1



hər bir fərd üçün daha yararlı həcmi və strukturunu əks etdirir. **MİNİMUM TƏLƏB OLUNAN ƏMƏK HAQQI** – müəyyən pul məbləğidir ki, işçi onu öz əməyinə görə qəbul olunan ödəniş hesab edir.

Fəhlə iş axtarışında özü üçün almaq istədiyi müəyyən ödəniş dərəcəsi müəyyən edir ki, bu zaman da əvvəlki əmək haqqına və ona məlum olan digər təkliflərə əsaslanır. Başqa sözlə, işçi özü üçün hər hansı minimum norma hazırlayır ki, bunu da o, qəbul edilən sayır. Bu norma minimum tələb olunan əmək haqqıdır. İşçinin optimal strate-

Cədvəl 1

Ölkələr üzrə əmək haqqının minimal ölçüsü (ƏHMÖ)

Ölkələr	ƏHMÖ saatda	ƏHMÖ (ayda)	Digər valyutada
İsveçrə		1900.00	2200.00 İsv.frankı
Lüksenburq	8,69	1682.76	
İrlandiya	7,65	1499.33	
Belçika	7,48	1440.67	
Niderland	7,96	1398	
Fransa	8,03	1343.77	
Böyük Britaniya	7,36	1202	1005.33 funt
ABŞ	7,25	1030	1305 ABŞ dolları
İsrail	4,30	805	4100.00 şekel
Yunanıstan		740	
Malta	3,35	634.75	
İspaniya	3,78	633.30	
Sloveniya	3,03	510	
Portuqaliya	2,62	500	
Türkiyə		387	760.50 lirə
Polşa	1,35	350	1317 zlota
Çexiya	1,58	318	8000 kron
Slovakiya	1,00	307.70	
Estoniya	0,99	278	4350 kron
Latviya	1.60	257	180 lat
Litva	0,92	231	800 lit
Macarıstan	1,32	229	
Rumıniya	0,52	140	600 bey
Bolqarıstan	0,47	123	240 lev
Rusiya	0,71	114	4611 rubl
Belorus	0,55	92,6	1 000 000 belarus rublu
Ukrayna	6,04	88	1004 qriven
Qazaxıstan		80	15 999 tenqe

giyası ödənişi onun müəyyən etdiyi normanı üstələyən işə razılığı və bu normadan aşağı istənilən təklifdən imtinası olacaq. Elə vəziyyət yarana bilər ki, minimum tələb olunan əmək haqqı, məsələn, ölkədə iqtisadi tənəzzül vaxtı yüksək ola bilər. Bu halda minimum tələb olunan əmək haqqının azalma tərəfinə yenidən baxmaq məqsədəuyğundur.

MİNS LEV YEFİMOVİÇ (1893-1979) – sovet iqtisadçısı, i.e.d., prof. Kiyev Kommersiya



İnstitutunu bitirib. 1914-1916-cı illərdə Kiyev Politexnik İnstitutunun kənd təsərrüfatı şöbəsində təhsil almışdır. Elmi fəaliyyətə 1918-ci ildə Xalq Təsərrüfatının Ali Şurasında başlamışdır. 1920-1930-cu illərdə SSRİ Əmək Xalq Komissarlığında statistika şöbəsinin müdiri olub. Əməyin statistikasının qurulmasına böyük töhvə vermişdir. 1942-1947-ci illərdə SSRİ Neft Sənayesi Xalq Komissarlığında Tətbiqi Geofizika İnstitutunun baş elmi işçisi kimi ölkənin müharibə illərində verdiyi itkiləri hesablamışdır. 1955-1963-cü illərdə SSRİ Dövlət Plan Komitəsində məhsuldar qüvvələrin öyrənilməsi şurasında iqtisadi-riyazi metodların tətbiqi laboratoriyasının müdiri olub. Xalq təsərrüfatında iqtisadi-riyazi metodların işlənib hazırlanmasında və tətbiqində iştirak etmişdir.

MİNİMUM ZƏMANƏT FONDU – həyata keçirilən sığorta əməliyyatlarına uyğun olaraq Avropa İttifaqı ölkələrində şirkətin nizamnamə kapitalının müəyyən edilmiş minimum ölçüsü.

MİRABO (MİRABEAU) VİKTOR RİKETİ MARKİZ DE (1715-1789) – fransız iqtisadçısı. Merkantilistlərin fikirlərini bölüşdürmüş, sonra fiziokratlara meyillənmişdir. Əkinçiliyin inkişafına və xarici ticarətin genişləndirilməsinə tərəfdar olmuş, bunları rifah səviyyəsinin artmasında əsas amillər hesab etmişdir. Mirabo özünün fiziokrat kredosunu "Vergilər nəzəriyyəsi" kitabında ("La theorie de limport", 1760) torpaq sahiblərinə – feodallara qarşı obyektiv istiqamətləndirərək şərh etmişdir. Mirabo dövlətin iqtisadi həyata müdaxilə etməməsi prinsipini təbliğ, vergilərin iltizam sistemini tənqid etmiş və torpaq sahiblərinin "xalis məhsuluna" vahid verginin tətbiqinin tərəfdarı olmuşdur. Patriarxal kiçik kəndli təsərrüfatını müdafiə etmişdir.



MİRAS VERGİSİ – şəxsin vəfatı ilə əlaqədar onun əmlakından tutulan vergi.

Şəxsin gələcəkdə öz aktivlərindən istifadə etmək iqtidarında olmadığı anda ondan vergi tutulması uzun müddət normal hal hesab edilmişdir. Məsələn, Böyük Britaniyada əsas miras vergisi 1894-cü ildə tətbiq edilmiş miras əmlakından vergi idi. 1974-cü ildə həmin vergi kapitalın başqasına verilməsinə görə vergi ilə əvəzlənmiş, o da, öz növbəsində, 1982-ci ildə miras vergisi ilə əvəz edilmiş və yenidən əvvəlki miras vergisinin analoqu olmuşdur. Bu vergi mərhumun öhdəlikləri çıxılmaqla onun aktivlərinin məbləğindən tutulur. Bu halda mərhumun sağlığında onun ölümündən əvvəlki konkret dövr ərzində etdiyi müəyyən bəxşişlər nəzərə alınmalıdır. Bu halda vergi tutulmayan müəyyən məbləğ mövcuddur. 1990-cı ildə Böyük Britaniyada həmin məbləğ 128 min funt-sterlinqə bərabər idi.

Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən, miras ailə üzvlərindən, o cümlədən qəyyum və qəyyumluğa götürülmüş şəxslərdən alındığı halda onun tam dəyəri vergidən azaddır. Miras digər şəxslərdən alındıqda isə onun dəyərinin 20000 manatadək olan hissəsi gəlir vergisindən azaddır, bu məbləğdən yuxarı olan hissədən isə gəlir vergisi ödənilməlidir (bax: cədvəl 1).

MİRRLİS (MİRRLEES) CEYMS (1936) – Britaniya iqtisadçısı, iqtisadi və monetar nə-



zəriyyə, vergiqoyma, tarix, institusional iqtisadiyyat nəzəriyyəsi üzrə işlərin müəllifidir. 1996-cı ildə "Asimmetrik informasiyanın mövcudluğu ilə stimullar iqtisadi nəzəriyyəsinə fundamental əməyinə görə" iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür (İ.Vikri ilə birgə). Edinburq Universitetinin riyaziyyat fakültəsini bitirmiş (1957), magistr

(1959) və doktorluq dərəcəsini (1963) Kembric Universitetində almışdır. Nyu Dehlidə tədqiqat layihəsini həyata keçirən Massaçusets Texnoloji İnstitutunun beynəlxalq problemlər mərkəzində müşavir işləmiş, Kembric Universitetində ekonomiks fənnindən dərs demişdir (1963-1968). 1966-1968-ci illərdə Kəraçidə Pakistan İqtisadi İnkişaf İnstitutunda müşavir işləmişdir. 1968-ci ildən Oksford Universitetinin iqtisadçı professorudur. İsveçrə hökumətinin müşaviri (1963) işləmiş, dəvət olunmuş professor qismində Massaçusets Texnologiya İnstitutunda (1968, 1970, 1976) və Berklindəki Kaliforniya Universitetində (1986) dərs demişdir. Optimallaşma siyasəti məsələləri üzrə Böyük Britaniya Xəzinədarlıq Komitəsinin üzvü (1976-1978) olmuşdur. Ekonometrika Cəmiyyətinin üzvü (1980-1981-ci illərdə vitse-prezidenti, 1982-ci ildən prezidenti), Amerika Elm və İncəsənət Akademiyasının, Amerika İqtisadiyyat Assosiasiyasının və Uorvik Universitetinin fəxri üzvü (1982-ci ildən) seçilmişdir.

Mirrlis – iqtisadi nəzəriyyə problemlərinin geniş dairəsi üzrə bir neçə kitabın və akademik jurnallarda dərc olunmuş bir çox məqalələrin müəllifidir. O, tam olmayan və ya asimmetrik səpilən informasiya şəraitində (informasiya asimmetriyası) vergitutma və sosial sığorta problemləri üzrə özünün analitik işlərinə görə daha çox məşhurlaşmışdır. Mirrlisin tədqiqatları müqavilələrin və institutların elə sistemlərinin yaradılması problemləri ətrafında cərəyan edirdi ki, burada fərdlər özlərinin şəxsi maraqları ilə heç bir münaqişəyə girmədən gəlirləri haqqında düzgün informasiya versinlər və bu prosesi nəzarət altında saxlamağa şərait yaratsınlar.

1970-ci illərin ortalarında Mirrlis 40-cı illərin sonunda Vikri tərəfindən dürüst ifadə olunmuş optimal mütərəqqi vergitutma modelinin qurulması vəzifəsinin həlli metodunu işləyib hazırladı. Onun təhlili özündə prinsipial ideyanı cəmləyirdi, ona əsasən, qeyri-tam informasiya şəraitində stimullar probleminin həlli "bölgü mexanizmi" – "allocation mechanism" məsələlərinin məhdud sinfinə aiddir. Bu prinsipin tətbiqi iqtisadi münasibətlər subyektlərinin müəyyən formada fəaliyyət göstərmələrinin stimullaşması ilə bağlı olan müqavilələrin optimal üsulla tərtibini və digər problemlərin həllini yüngülləşdirir. Mirrlis metodu kompleks informasiyanın və stimullaşma problemlərinin müasir təhlilinin əsas tərkib hissəsinə çevrilmişdir. Onun yanaşması digər agentin fəaliyyətinin müəyyən edilməsi mümkün olmayanda xüsusilə məhsuldardır. Onların fəaliyyətində zərərlər nəinki xarici amillərin fəaliyyəti ilə (hava şəraiti, təbiət kataklizmləri və s.), həm də sığorta polisinin daşıyıcısının davranışı ilə də bağlı ola bilər. Buna nəzarət etmək sığorta şirkətinə çox baha başa gəlir. Bu qəbildən olan məsələlərin həlli zamanı risk səviyyəsinin düzgün qiymətləndirilməsi və özünə, öz mülkiyyətinə məsul yanaşma hissini aşılayan, fərdlərə təsir üsullarının tapılması çox vacibdir. Mənəvi risk (*moral hazard*) problemlərinin riyazi təhlili zamanı yaranan texniki çətinliklər optimal mütərəqqi vergitutma modelinin qurulması problemləri ilə oxşardır və Mirrlis problemlərin yenidən ifadə edilməsi yolu ilə bu növdən olan məsələlərin həllinə yol tapa bildi. Mirrlis iqtisad elminin digər bölmələrinə də töhfələr vermişdir. P.Daymon ilə əməkdaşlıqda o, müxtəlif ölkələrdə istehlak mallarına qoyulan vergilərin strukturunu tədqiq etmiş və müəyyənləşdirmişdir ki, kiçik ölkələrin açıq iqtisadiyyatında xarici mallara tariflərin tətbiqi məqsədəuyğun deyil. Vergilər istehsal amilinə – əmək və kapitala və istehsalçılara deyil, istehlakçılara tətbiq edilməlidir. Bu nəticə inkişaf etməkdə olan ölkələrin iqtisadi siyasət layihələrinin qiymətləndirilməsi üçün mühüm praktik nəticələrə malikdir.

MİRZƏYEV SOLTAN ABBAS OĞLU (1912-1993) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. S.Mirzəyev Moskvada Timirzayev adına Kənd Təsərrüfatı Akademiyasının aspirantı olmuş və orada dissertasiya müdafiə edərək respublikamızda ilk iqtisad elmləri namizədi alimlik dərəcəsi alanlardan biri olmuşdur. 1964-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Kənd təsərrüfatının ixtisaslaşmasının nəzəri-metodoloji problemlərini öyrənən ilk iqtisadçı alimlərdəndir.



S.Mirzəyev 1950-1962-ci illər - də sovxozlar naziri, Azərbaycan KP MK-nın şöbə müdiri və Azərbaycan KP MK-nın katibi vəzifələrində çalışmışdır. Həmin dövrdə iki çağırış Azərbaycan SSR Ali Sovetinin və bir çağırış SSRİ Ali Sovetinin deputatı olmuşdur.

1963-1973-cü illərdə Az.ETKTİ və Tİ-nin direktoru vəzifəsində işləmiş və aqrar iqtisadiyyat üz - rə elmi kadrların hazırlanmasında fəal iştirak etmişdir.

MİTÇELL (MİTCHELL) UESLİ (1874-1948) – amerikalı iqtisadçı, institusionalizmin nümayəndəsi. Mitçell 1874-cü ildə İllinoys ştatının Raşvil şəhərində anadan olmuşdur. O, 1892-ci ildə Çikaqo Universitetinə qəbul olmuş və bu universitetin müəllimlərindən biri olan Veblenin görüşlərinin təsiri altına düşmüşdür. Lakin onun digər müəllimi Ceyms Laflin ona doktorluq dissertasiyasını Amerikada vətəndaş müharibəsi zamanı qiymət inflyasiyasının səbəblərinə həsr etməyi tövsiyə etmişdir. Bu, onun ilk nəşri olan "Kağız dolların tarixi"nin yaranmasına gətirib çıxarmışdır. Sonralar bu iş vətəndaş müharibə - sindən sonrakı dövrü əhatə edən "Kağız dollar sistemi şəraitində qızıl, qiymətlər və əmək haq - ları" kitabına qədər genişlən - dirilmişdir. Bu kitab hələ də 1862-1978-ci illərdə Amerikada monetar çevrilişlər üzrə ən nüfuzlu iş hesab olunur. 1903-cü ildə Mitçell Berklidəki Kaliforniya Universitetində çalışmağa başlamış, 1913-cü ildə isə Ko - lumbiya Universitetinə keçmişdir.



Başqa institusionalistlər kimi, o da belə hesab edirdi ki, siyasi iqtisadın predmeti müəyyən psixoloji motivasiyalara tabe olan insanların təsərrüfat davranışıdır. Bununla bərabər, o, iqtisadi agentlərin fəaliyyətinə çox güclü təsir göstərən amil kimi pul amilini (pul nişanlarının tədavülü, maliyyə-kredit müəssisələrinin fəaliyyəti) nəzərdən keçirirdi. Mitçell belə hesab edirdi ki, pullu iqtisadiyyatın nöqsanlı cəhətlərinə baxmayaraq, o, cəmiyyətin təsərrüfat təşkilinin ən yaxşı formasıdır. Bu əsasda o, pul təsərrüfatının maliyyə kapitalı növünə müsbət münasibət bəsləyirdi. Digərlərindən fərqli olaraq, onun institusionalizmi statistik məlumatların bir yerə toplanması ilə müşayiət olunur və onlar nəticə etibarı ilə irəli sürülmüş fərziyyələrin izahları kimi təzahür olunurlar. O, 1920-ci ildə iqtisadi tədqiqatlar üzrə milli büronun təsisçisi və tənqidçilərin amansızcasına "nəzəriyyəsiz dəyişmə" adlandırdıqları iqtisadi baxışın müəllifi idi. Mitçell institusionalizmdə empirik istiqamətin lideri idi. Onun rəhbərliyi altında bir neçə il müddətində xalq təsərrüfatı - nın müxtəlif göstəricilərinin mi - nə yaxın dinamik sırası tərtib edilmişdir. Bu sıraların ekstra - polyasiyası əsasında təsərrüfat konyunkturunu proqnozlaşdır - maq nəzərdə tutulurdu. Məsə - lən, 1917-ci ildə məşhur "Harvard barometri" yarandı. O, 1929-1933-cü illərin Böyük depressiya dövrünə qədər çox dəqiq nəticələr verirdi. İqtisadi tsikllərin öyrənilməsi həyatının sonuna kimi onun əsas elmi marağı olmuşdur. İqtisadi tsikllərin XIX əsrdə Juqlyar, Cevons, Af - tolyon və Şpitqo tərəfindən öyrənilməsinə baxmayaraq, Mitçell, demək olar ki, bu işi başa çatdırmışdır. "İqtisadi tsikllər və onların səbəbləri" adı altında 1927-ci ildə yenidən nəşr olunan kitabının ikinci hissəsində ayrıca bir nəzəriyyə adlana biləcək kapitalist iqtisadiyyatında işgüzar fəallığın tsikllərinin əmələ gəlməsi fikri əksini tapır. Mitçell institusionalizmin iqtiadiyyata sosial nəzarəti gücləndirməyin zəruri olması barədə mərkəzi ideyasını dəstəkləyirdi. 1923-cü ildə o, işsizlikdən dövlət sığorta sistemi yaradılmasını təklif etmişdir. Amerika iqtisadiyyatının indikativ planlaşdırılması tələbini irəli sürənlərin birinciləri arasında o da vardı.

MİZES (MİSES) LÜDVİQ FON (1881-1973) – Amerika iqtisadçısı, yeni Avstriya məktəbinin başçısı olmuşdur. 1920-ci ildə "Sosialist iqtisadiyyatında təsərrüfat hesabı" adlı mə - qalə dərc etdirmişdir. Bu məqalə çap olunandan sonra uzun illər boyu davam edən diskussiya başlanmışdır. Diskussiya iştirakçılarının fikrincə, o, Qərbdə sosializmin iqtisadi nəzəriyyəsinin təməlini qoymuşdur. "Sosializmin məntiqi və praktiki baxımdan



həyata keçirilə bilən olmaması" konsepsiyasının tərəfdarı olan Mizes bildirirdi ki, yalnız xüsusi mülkiyyətə və sərbəst bazara əsaslanan azad sahibkarlıq resursların paylanmasında, kapitalın yeniləşdirilməsində və əhalinin tələbatının ödənilməsində optimal mütənasibliyi təmin edir. O belə hesab edirdi ki, məhz xüsusi mülkiyyət "sivilizasiyanın və maddi rifahın zəruri rekvizitidir", çünki xüsusi mülkiyyətin sosial funksiyası resurslardan optimal istifadə edilməsinə şərait yaradır və istehlakçıların suverenliyini təmin edir. Mizesə görə, xüsusi mülkiyyət səmərəli iqtisadi fəaliyyətin əsası ola bilər, çünki onun doğurduğu fərdiyyətçilik stimulları resurslardan maksimum istifadə olunmasını təmin edir. Bununla əlaqədar Mizes iqtisadi nəzəriyyəni prakseologiyanın – hər bir rasional hərəkətin ümumi məntiqi barədə təlimin tərkib hissəsi kimi mənalandırırdı. Mizes belə hesab edirdi ki, bazar mexanizmi yalnız kapitalist təsərrüfatında fəaliyyət göstərə bilər. O, sosialist istehsalı üçün nəinki bazar münasibətlərindən istifadə etməyin mümkünlüyünü, ümumiyyətlə, hər hansı iqtisadi hesablamanı istisna edirdi.

MODEL QANUNU – normativ tövsiyələri, eləcə də müəyyən ictimai münasibətlər sferasının bu və ya digər məsələlərinin mümkün hüquqi həlli variantlarını ehtiva edən ənənəvi və tövsiyə xarakterli qanunverici akt.

MODELLƏR BANKI – bazarın nümayəndələri tərəfindən daha optimal marketinq qərarlarının qəbul edilməsinə təsir göstərən riyazi modellər dəsti.

MODELLƏŞDİRƏN BANK (ing. *Modelling Bank)* – maliyyə əqdinin modelini yaradan bank və ya maliyyə institutu. "Moody's" tərəfindən yaradılmış ayrıca kreditin təhlili modeli. "Moody's"in Fərdi Kredit Təhlili – "Moody's" agentliyi tərəfindən hazırlanan fərdi kreditin təhlili modelidir ki, onun köməyi ilə kredit portfelindən hər bir kredit onun məbləğinin girov dəyərinə nisbəti və digər müəyyən olunmuş risk faktorları kimi fərdi xüsusiyyətlər əsasında təhlil edilir və nəticədə ipoteka kreditləri portfelinə "AAA" reytinqinin verilməsi üçün tələb olunan kredit keyfiyyətinin qorunması (KKQ) etalon vahidi hesablanır (bax: KKQ-nın etalon vahidi).

MODELLƏŞDİRMƏ METODU – demoqrafik tədqiqatlarda geniş istifadə olunur. Əhalinin təkrar istehsalını bütöv, yaxud onun müxtəlif elementlərini bir-biri ilə müəyyən şəkildə bağlayan və adətən, riyazi formada, yəni demoqrafik modellərin qurulması yolu ilə ifadə olunan bu əlaqələr kəmiyyət xarakteristikasına yol verən orqanik dəyişikliyə əsaslanır. Modelləşdirmə metodu praktiki olaraq demoqrafiyanın bütün bölmələrində tətbiq olunur. Modelləşdirmə metodunun metodoloji məsələlərinə riyazi demoqrafiyada baxılır. Modelləşdirmə metoduna təhlil metodu kimi daxildir: 1) demoqrafik modelin və qanunların əsas elementlərinin müəyyən edilməsi, bu əsasda onlarla qarşılıqlı əlaqədə olan demoqrafik proseslərin, hadisələrin və s. qanunauyğunluqların öyrənilməsi vasitəsilə; 2) konkret əhaliyə tətbiqində hesablamalarda demoqrafik modeldən istifadə; 3) bu hesablamaların nəticələrini faktiki materiallarla tutuşdurmaqla kənarlaşmaların aşkar edilməsi; 4) demoqrafik modelin qeyri-müvafiqliyi səbəblərinin və real demoqrafik prosesin təhlili. Modelin təkmilləşdirilməsi məqsədi ilə modelləşdirmə metodunun tətbiqində müvəffəqiyyət modelin ilk şərtinin real demoqrafik əlaqələr və qanuna müvafiq olması ilə müəyyən edilir. Belə uyğunluğa demoqrafik qanunauyğunluqların qabaqcadan dərin və keyfiyyətli təhlili əsasında nail olunur.

Modellərin spesifikasiyası – modellərin riyazi formada yazılması.

Modelin eyniləşdirmə şərti – ekonometrika modelinin qurulmuş forması üzrə onun struktur forması parametrlərinin birmənalı müəyyənləşdirilməsi şərti. Modelin qurulmuş formasından struktur model formasına keçid struktur forma parametrlərinə aprior məhdudiyyətlərin verilməsini və modelin eyniləşdirmə şərtinin yerinə yetirilməsini tələb edir. Ekonometrika modellərinin eyniləşdirilməsinin aşağıdakı meyarları mövcuddur.

Dərəcə qaydası – Modelin struktur forma tənliklərinin eyniləşdirilə bilməsi üçün modelin struktur formasının parametrlərinin matrisləri ilə struktur parametrlərə olan məhdudiyyətlərin matrislərinin hasil dərəcəsi 1 çıxılmaqla modelin endogen dəyişənlərinin sayına bərabər olması vacib və kifayətdir.

Sıra qaydası – Struktur forma tənliklərinin eyniləşdirilməsi üçün vacibdir ki, struktur parametrlərinə olan məhdudiyyətlərin aprior sayı 1 çıxılmaqla model tənliklərinin sayından az olmasın.

Modelin struktur forması – ekonometrika modelinin tətbiq olunan hadisəni və ya obyekti təsvir edən dəyişənlərin səbəb-nəticə, korrelyasiya və digər əlaqələrini əks etdirən ilkin forması. Ekonometrika modelinin statistik qiymətləndirilməsi və asılı dəyişənlərin qiymətlərinin alınması üçün struktur formanı modelin alınmış formasına dəyişdirirlər.

Modellərin qiymətləndirilməsi – modelin parametrlərinin qiymətləndirilməsi metodu.

Modellərin salınmış forması – ilkin ekonometrika modelinin dəyişənlərin səbəb-nəticə, korrelyasiya və oxşar münasibətlərini əks etdirən struktur formada olan forması. Struktur model formasında bir endogen dəyişən digər endogen dəyişənin funksiyası ola bilər.

Modellərin forması endogen dəyişənlərin cari qiymətlərinə nisbətdə ilkin tənliklər sisteminin həlli nəticəsində alınır. Ekonometrika modelinin forması modelin statistik qiymətləndirilməsi və asılı dəyişənlərin qiymətlərinin alınması üçün istifadə olunur.

Mikroiqtisadi model – lokal iqtisadi obyektin və yaxud prosesin (müəssisələr, sahələr) hərəkətini (fəaliyyətini) xarakterizə edən model. Bununla yanaşı, belə hərəkətin (fəaliyyətin) makroiqtisadi vəziyyətdən asılılığını müəyyən edən parametrlər ekzogen formada verilir.

Dinamik model – prosesin inkişafını və ya vaxta görə modelləşdirilən obyektin hərəkətini təsvir edən model. Statistik modeldən fərqli olaraq, dinamiki modelləşdirilən endogen dəyişikliklərinin əvvəlki dövrün (və yaxud gecikmiş paylama hallarında əvvəlki dövrlərin) ekzogen və endogen dəyişikliklərindən asılılığını müəyyənləşdirir.

İqtisadi-statistik model – parametrləri statistik metodların (nəzəri-iqtisadi modellərdən fərqli olaraq) köməyi ilə faktiki məlumatlar əsasında müəyyənləşdirilən (qiymətləndirilən), bir sıra obyekt, proses və yaxud hadisələri təsvir edən riyazi münasibətlər sistemi. İqtisadi-statistik modelin strukturu və konkret növü modelləşdirilən obyektin xüsusiyyəti, tədqiqatçının nəzəri təsəvvürü, tədqiqatın məqsədi, məlumatların əldə olunması, məlumatların işlənməsində istifadə edilən metodlarla müəyyənləşdirilir. Modelləşdirmənin qurulması prosesi bir-biri ilə qarşılıqlı əlaqədə olan iki mərhələyə bölünür: modellərin əlaqələrinin ümumi növlərinin və onlara daxil olan dəyişənlərin müəyyənləşdirilməsi və müşahidə məlumatları əsasında parametrlərin qiymətlərinin statistik qiymətləndirilməsi. Daha çox istifadə edilən iqtisadi-statistika modelinə trendlər, müvəqqəti sıraların uyğunlaşma modelləri, reqressiyanın ayrılmış tənlikləri, ekonometrika modelləri aid edilir. İqtisadi-statistik model iqtisadi sistemin planlaşdırılması və təhlilində, fəaliyyətin xarici və daxili şəraitinin dəyişməsinə onların reaksiyasının öyrənilməsində, habelə gələcək inkişafın proqnozlaşdırılması və müxtəlif ssenarilərin hazırlanmasında geniş tətbiq edilir.

İmitasiya modeli (lat. *imitatio* – yamsılama) – strukturdakı və fəaliyyətin xarici şəraitindəki dəyişikliklərin modelləşdirilən sistemə təsirinin təhlili üçün nəzərdə tutulan model. Bu zaman retrospektiv təhlilin vəzifəsi və yaxud gələcək inkişafın spektrlərinin mümkün istiqamətləri həll edilir.

İstehsalda imitasiya modeli istehsal bölməsi, sex, daşıma sistemi və s. kimi modelləşdirmə sistemlərinin əməli idarə edilməsində, ehtiyatların axtarılmasında və səmərəli inkişaf variantlarının tapılmasında tətbiq edilir. Model bu halda öyrənilən obyektin maddi və informasiya strukturunu və fəaliyyət alqoritmlərini kifayət qədər dəqiq təsvir etməlidir.

MODERNLƏŞDİRMƏ – obyektin yeniləşdirilməsi, onun yeni tələblərə və normalara, texniki şərtlərə, keyfiyyət göstəricilərinə müvafiq vəziyyətə gətirilməsi. Modernləşdirmə, əsasən, maşınlara, avadanlıqlara və texnoloji proseslərə tətbiq edilir.

MODİLYANİ (MODİGLİANİ) FRANKO (1918-2003) – amerikalı iqtisadçı, makroiqtisadi nəzəriyyə və iqtisadi siyasət sahəsində mütəxəssisdir.



"İnsanların əmanətlərə münasibətdə davranışının təhlilinə və şirkətin maliyyə strukturunun onun investorları

ilə səhmlərinin qiymətləndirilməsi arasında əlaqə barədə işinə görə" iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür (1985).

Roma Universitetini bitirmişdir, hüquq doktorudur (1939). İqtisadi təhsilini Nyu-Yorkdakı Yeni Sosial Araşdırmalar Məktəbində almışdır (1939-1942). Nyu-Cersidə qadın kollecində və Yeni Məktəbdə dərs demiş (1944-1946), 1942-1944-cü illərdə Kolumbiya Universitetinin Bard kollecinin iqtisadiyyat və statistika kafedrasının assistenti, Yeni Məktəbin professor assistenti (1946-1949), professoru (1949-1952) olmuşdur. Nyu-Yorkdakı Dünya Problemləri İnstitutunun elmi işçisi və baş statistiki (1945-1948) işləmişdir. 1949-cu ildən Çikaqo Universitetində iqtisadi araşdırmalar üzrə Koulz Komissiyasının tədqiqatçı-məsləhətçisi, İllinoys Universitetinin adyunkt-professoru (1949), iqtisadiyyat üzrə tam (həqiqi) professoru (1950-1960) kimi çalışmışdır. 1952-1960-cı illərdə Karnegi Texnoloji Universitetində (indiki Karnegi-Mellon Universiteti) iqtisadiyyat və sənayenin idarə edilməsi üzrə professor, 1957-1958-ci illərdə Harvard Universitetinə dəvət edilmiş, professor kimi dərs demişdir. Şimal-Qərb Universitetinin (1960-1962) və Massaçusets Texnologiya İnstitutunun (MTİ) professorudur (1962-ci ildən). Eyni vaxtda Federal Ehtiyatlar Sisteminin Müdirlər Şurasının elmi məsləhətçisi və 1971-ci ildən İqtisadi Fəallıq üzrə Brukinq Komissiyasının böyük müşavi - ridir. Maliyyəçi-analitiklər federasiyasının Fəxri Nişanı (1974,1979) və MTİ-nin Ceyms Killian (oğul) mükafatı ilə təltif edilmişdir. Amerika İqtisadiyyat Assosiasiyasının, Amerika Maliyyə Assosiasiyasının, Ekonometriya Cəmiyyətinin və İtaliya İqtisadi Cəmiyyətinin üzvüdür. Çikaqo və Luven (Belçika) Katolik Universitetinin fəxri elmi dərəcələrinə layiq görülmüşdür. Modilyani Keynsin nəzəriyyəsini neoklassik iqtisadi nəzəriyyənin ümumi məcrasına və monetar təhlilə inteqrasiya etməyə cəhd göstərən istiqamətinin nümayəndəsidir. O, özünün fikrincə bəsitləşdirilmiş olan Modilyani Fridmanın monetarist yanaşmalarını inkar edərək pulun maliyyə bazarlarının müxtəlif mexanizmləri vasitəsi ilə makroiqtisadi fəallığa təsirini dərk etməyə çalışırdı. Modilyani ilk dəfə olaraq "həyat tsikli" modellərinin yaradılması prosesini riyazi şəkildə təsvir etmişdir. Bu modellər şəxsi yığımların yaranması qanunauyğunluqlarını izah edirdi. O, insanın gəlirlərinin dəyişməsinə baxmayaraq, öz istehlak səviyyəsini sabit saxlamaq kimi təbii istəyinə istinad edərək belə bir düstur çıxarmışdır: "cavanlar yığır, qocalar xərcləyir". Modilyani yığımın bu modelini "Yığım-gəlir əmsalının dəyiş - mələri" ("Fluctuations in the Saving-İncome Ratio, 1949"), "Faydalılığın təhlili və istehlak funksiyası" ("Utility Analysis and the Consumption Function", 1954, R.Bramberq ilə birlikdə) məqalələrində və A.Ando ilə birgə yazdığı silsilə məqalələrdə şərh etmişdir. Modilyaninin yığımlar nəzəriyyəsi sahəsində işləri milli pensiya proqramlarının işlənib hazırlanması üçün çox böyük tətbiqi əhəmiyyətə malik idi. Modilyani iqtisadi tsiklin və inflyasiyanın tədqiqinə həsr edilmiş işləri ilə makroiqtisadiyyata, nisbi qiymətlərin və səmərəli qərarlar qəbul edilməsinin təhlilinə həsr olunmuş əsərləri ilə mikroiqtisadi nəzəriyyəyə sanballı töhfə vermişdir. 1950-ci illərdə o, M.Millerlə birlikdə maliyyə strukturunun və dividendlər sahəsində siyasətin firmanın bazar qiymətinə təsirini öyrənmişdir. Müəlliflərin çıxardığı nəticələr "Kapitalın dəyəri, korporasiyaların maliyyələşdirilməsi və investisiya nəzəriyyəsi" ("The Cost of Capital, Corporation Finance and the Theory of İnvestment", 1958) adlı işdə Modilyani-Miller nəzəriyyələri formasında şərh edilmişdir. Modilyani və Miller göstərmişlər ki, müxtəlif səviyyəli şirkətlərin ehtimal edilən riskini və gözlənilən gəlirlərini tarazlaşdırmaq üçün fərdi investorun portfelində həmişə eyni sayda müxtəlif qiymətli kağızlar olmalıdır. Modilyaninin işləri ötən əsrin 60-cı illərinin axırlarında və 70-ci illərində makroiqtisadi nəzəriyyədə "rasional gözləmələr məktəbi" deyilən məktəbin geniş miqyas almasına kömək etmişdir.

MONETAR NEYTRALLIQ – pul təklifindəki dəyişikliklərin real dəyişənlərə təsir etməməsi haqqında nəzəriyyə.

MONETARİZM – bu iqtisadi nəzəriyyəyə görə, tədavüldə olan pul kütləsi bazar iqtisadiyyatının sabitləşdirilməsində və inkişafında həlledici rol oy-

Cədvəl 1

Dövlətin pul-kredit siyasətinə keynçi və monetarist yanaşmalar

Keyns	Fridman
1. Bazar iqtisadiyyatı – sistem dayanıqsızdır, buna görə də dövlət tərəfindən tənzimlənməsinə ehtiyac var	1. Bazar iqtisadiyyatı – daxili dayanıqlıq sistemi, qalan neqativ məqamlar isə, dövlətin iqtisadiyyata qarışmasının nəticəsidir.
2. Məşğulluq ümumi tələbatdan asılıdır	2. İqtisadiyyat özü məşğulluğun və istehsalın səviyyəsini müəyyən edir
4. Pul kütləsi istehsala nisbətən neytraldır	3. Pul kütləsi – qiymət artımına səbəb, konyuktura dəyişməsi
4. Əsas nəzəri bərabərlik: $Y=C+İ+G+X_n$ Y – ÜMM həcmi C – istehlak həcmi İ – investisiyaların həcmi G – dövlətin xərcələri X_n – xalis ixrac	4 Əsas nəzəri mövqe: $M = \frac{P * Q}{V}$, bununla yanaşı, hesab olunur ki, pulların dövr etmə sürəti V sabitidir, bundan birbaşa və bilavasitə (fazi dərəcəsində deyil) ÜMM-in həcminin dövriyyədə olan pul kütləsindən asılılığı yaranır



Milton Fridman

nayır. Monetarizmin banisi görkəmli alim, Çikaqo məktəbinin yaradıcısı, 1976-cı ildə Nobel mükafatı laureatı olmuş M.Fridmandır. Monetarizm 1950-ci illərdə Keyns nəzəriyyəsinin ziddi kimi yaranmışdır. İqtisadiyyatın idarə edilməsinə monetarist yanaşma 70-ci illərdə və 80-ci illərin əvvəllərində staqflyasiyanın aradan qaldırılması dövründə ABŞ-da, Böyük Britaniyada, AFR-də və başqa ölkələrdə, eləcə də 90-cı illərin əvvəllərində Rusiyada bazar iqtisadiyyatına keçid dövründə geniş istifadə edilmişdir.

Monetar idarəetmə – iqtisadiyyatda işgüzar dövrlərə təsir etmək və inkişafın makroiqtisadi məqsədlərinə nail olunmasına köməklik məqsədi ilə makroiqtisadi səviyyədə pul-kredit siyasətinin aparılması zamanı məcmu pul kütləsinin idarə edilməsidir.

Monetarizmin nəzəri araşdırmalarının zirvəsi Amerika iqtisadiyyatının sabitləşdirilməsi konsepsiyası və məşhur "reyqanomika" olmuşdur. Bu tədbirlərin həyata keçirilməsi ABŞ-da inflyasiyanın zəifləməsinə və dolların mövqeyinin möhkəmlənməsinə kömək etmişdir. Keynsçilikdən sonra Çikaqo məktəbinin konsepsiyaları ABŞ-ın iqtisadi təcrübəsində iqtisadi nəzəriyyədən səmərəli istifadə edilməsinin ikinci nümunəsi oldu. Monetarist konsepsiyaya görə, müasir bazar münasibətləri siyasi azadlığı və iqtisadi səmərəliliyi təmin edən davamlı, özü özünü tənzimləyən sistemdir. Bu da vacibdir ki, iqtisadiyyatın inkişafına dövlətin müdaxilə etməsi arzu edilən və labüd məsələdir, lakin bu müdaxilə bazar mexanizmlərinin keynsçi metodlarla, məcmu tələbin tənzimlənməsi yolu ilə deyil, səmərəli pul siyasətinin köməyi ilə bazarın rəqabət qüvvələrinin fəallaşdırılması üçün şərait yaradılması yolu ilə hə-

yata keçirilməlidir. Fridman və onun davamçıları bazarın pul kütləsi ilə manipulyasiya edilməsinə reaksiyasını iki model – qısamüddətli və uzunmüddətli model şəklində nəzərdən keçirirlər. Qısamüddətli planda pul kütləsinin artması faiz dərəcələrinin azalmasına və tələbin genişlənməsinə, işsizliyin azalmasına gətirib çıxarır. İqtisadi fəallığın stimullaşdırılma tədbiri kimi monetar orqanlar tərəfindən pulun miqdarının artırılması monetar ekspansiya kimi çıxış edir.

Lakin pul təklifinin artması uzun müddət ərzində dəfələrlə təkrarlandıqda investisiya prosesi intensivləşir. Bu, istehsalın, satışın, gəlirlərin və pula tələbatın həcminin artmasına stimul yaradır, nəticədə faiz dərəcəsi artır. Bu siyasətin uzunmüddətli effekti faiz normasının hərəkəti, pula tələbin və təklifin dəyişməsi arasında əlaqələrin pozulmasında təzahür edir.

Monetarizmə görə, pul bazarında uzunmüddətli tarazlıq yaranması üçün pul təklifinin uzunmüddətli artım sürəti ilə real məhsulun uzunmüddətli artım sürəti arasında əlaqəni müəyyən edən əsas qanuna riayət edilməlidir: m=y+i, burada m – pul təklifinin uzunmüddətli artım sürəti; y – real məhsulun uzunmüddətli artım sürəti; i – gözlənilən inflyasiyanın sürətidir (qiymətlərin artımının dövlət tərəfindən nəzarət edilən sürəti).

Uzunmüddətli pul siyasətinin məqsədi inflyasiyanı sabitləşdirmək və onu tamamilə proqnozlaşdırıla bilən kəmiyyətə çevirməkdir. Monetarizm belə hesab edirdi ki, təsərrüfat konyunkturasının qısamüddətli dəyişilməsinə deyil, uzunmüddətli meyillərə oriyentasiya edən bu cür iqtisadi siyasət iqtisadi artımın optimal sürətinin saxlanmasına ən yaxşı şərait yaradır.

Bu gün monetarizm iqtisadiyyatın inkişafının keynsçi konsepsiyasının tam antipodu deyil. Hazırda müəyyən mənada keynsçi-neoklassik sintez mövcuddur. Bu müstəqil nəzəri model özündə hər iki iqtisadi nəzəriyyənin elementlərini cəmləşdirir.

Monetar sistem

20-ci əsrin ikinci yarısının ən tanınmış iqtisadçılarından biri, "Optimal valyuta zonası" nəzəriyyəsinin yaradıcısı, Nobel mükafatı laureatı, Kolumbiya Universitetinin professoru Robert Mandelin 2010-cu ilin 27 may tarixində Bakıda keçirilmiş "Bankçılıq sahəsində regionlararası əməkdaşlıq: dayanıqlı maliyyə gələcəyi" konfransındakı çıxışında demişdir ki, XX əsrədək monetar sistemlər qiymətli metallardan, xüsusən də qızıl və gümüşdən istifadə ilə səciyyələnmişdir. Bu dövr, əsasən, güclü dövlətlərlə əlaqəsi olan tanınmış hesab vahidləri və mübadilə vasitələrinin geniş istifadəsi ilə yadda qalmışdır. Ötən minilliyin güclü valyutaları bezant, denir, dinar, dirhəm, florin, sekin, dukat, maravedi, taler, ispan dolları, livr, funt, dollar və avro olmuşdu.

Qızıl Standartı və ya Funt-Sterlinq Dövrü

XIX əsrin sonunda Britaniya İmperiyası dünyanın aparıcı dovləti oldu. Bu isə funt-sterlinqi dünyada ən mühüm valyutaya çevirdi və London dünyanın aparıcı maliyyə mərkəzi oldu.

Lövbərlənmiş Qızıl Standartı və ya ABŞ-ın artan nüfuzu

Artıq 1890-cı ilin əvvəlinə ABŞ dünyanın ən iri iqtisadiyyata malik dövlətinə çevrildi. Birinci Dünya müharibəsinin başladığı dövrdə ABŞ superdövlət statusunu qazandı. Digər tərəfdən 1913-cü ildə yaranan Federal Ehtiyat Sistemi ABŞ-da Mərkəzi Bank statusunu əldə etdi və ölkənin monetar gücü burda cəmləşdi. Bütün bunların sayəsində ABŞ iqtisadiyyatı ondan sonrakı üç ən iri iqtisadiyyatların birlikdə götürülmüş həcmindən böyük oldu. Artıq dollar sərbəstləşməyə (lövbərdən azad olmağa) hazır idi.

İslahat edilmiş Qızıl Standartı

20-ci illərin sonunda dünya qızılının yarısı ABŞ-a məxsus idi. Avropa və dünyanm yerdə qalan hissəsi qızıl standartına qayıtdı. 1928-ci ildə Fransada monetar qanun qüvvəyə mindi. Dünya iqtisadiyyatının iqtisadi fəlakətlə üzləşməsinə cəmi bir il qalmışdı. Bu dövrdə dollar qlobal hesab vahidi, qızıl isə hesablaşma vasitəsi idi.

Qızıl Standartının süqutu

Qızıldan istifadə edilməsinə tələsik qayıdış ona qarşı izafi tələbat yaratdı və dünyanı deflyasiya və depressiyaya sürüklədi. İri dövlətlərin hamısı 35% və daha yüksək səviyyədə qiymət enmələrinə məruz qaldılar. 1934-cü ildə daha yüksək qiymətlə qızıldan istifadəyə qayıtmaq üçün İngiltərə 1931-ci ildə, ABŞ isə 1933-cü ildə qızıldan istifadədən imtina etdi. Lakin deflyasiya qızıl standartının süqutu ilə nəticələndi və ABŞ 1935-ci ildə qızıldan imtina etdi.

Lövbərlənmiş Dollar Standartı

1934-cü ildə FDR dolları devalvasiya etdirdi və yenidən ABŞ-ı qızıl standartının zəif formasına qaytardı. Məhz bu addım açıq-aşkar tərzdə ABŞ-ı növbəti dörd onillik ərzində (1934-1971) beynəlxalq monetar sistemin mərkəzinə çevirdi.

Bretton Vuds və Beynəlxalq Valyuta Fondu (BVF)

Təsbitlənmiş valyuta məzənnəsi sisteminə nəzarət etmək üçün 1944-cü ildə Bretton Vudsda (Nyu Hempşir Ştatı, ABŞ) 44 dövlətin keçirdiyi görüşdə Beynəlxalq Valyuta Fondu təsis edildi. Bretton Vuds yeni bir sistem yaratmadı, mövcud olana sahib oldu. O, artıq mütəşəkkil olan bir sistemi təsdiqlədi.

Dönərli Dollar Standartı

Bretton Vuds sistemi lövbərlənmiş (anchored) dollar standartı idi. ABŞ qızılın dollar qiymətini dəyişməz saxladı, digər ölkələr isə öz valyutalarını dollara bağladı.

Üzən valyuta məzənnələri

Bretton Vuds Sistemi 1971-ci ildə ləğv olundu. Bunun əsas səbəbi qızılın qiymətləri təsbitlənmiş səviyyədə (35 dollar) saxlandığı halda, dünyada qiymətlərin üç dəfə artması və nəticədə qızıl üçün izafi tələbat yaranması oldu. Özünün qızıl ehtiyatlarından imtina etmək əvəzinə ABŞ dolları qızıldan ayırdı. Bundan sonra digər ölkələr öz valyutalarını dollardan ayırdı və nəticədə dəyişkən valyuta məzənnələrinə şərait yaratdılar. Üzən valyuta məzənnələri danışıqlar aparılması barədə razılığa gələ bilməməyin nəticəsi idi. 1971-ci il avqustun 15-də Prezident Nikson dolları qızıldan ayırandan sonra digər ölkələr öz valyutalarını dollardan ayırdı. Aparıcı dövlətlərdən heç biri bu sistemdən əl çəkmək istəmirdi, yeni bir sistem barədə isə razılığa gələ bilmirdilər.

Dəyişkən valyuta məzənnələri

Monetar millətçiliyi formalaşdırdı. Bu zaman hər ölkə özünün monetar stabilliyinə cavabdeh olur. Bu gün BVF-nin 185 üzvü var. Ölkələrin dəyişkən məzənnələr üzrə qazandığı fayda xaosa səbəb olur. Misal üçün, əgər dünyada fərdi valyutası olan N=200 sayda ölkə varsa, onda **1/2*N*(N-1)=19900** sayda valyuta məzənnəsi var. Dəyişkən məzənnələr monetar millətçilik sistemidir. Həmin sistem kiçik dövlətlərin itirdiklərini nəhəng dövlətlərin qazanmasına şərait yaradır. Bu ideya – XIX əsrdə Britaniya, XX əsrdə isə ABŞ kimi superdövlətlər tərəfindən ixtira edilmişdi. Sözügedən ideya heç vaxt ciddi surətdə təhlil edilməmişdi.

Milli Monetarizm. Təsbitlənmiş valyuta məzənnəsi sistemində kiçik ölkələr geniş dollar zonasının bir hissəsi olmaqdan faydalana bilər. Bu sisteminin monetar millətçilər tərəfindən dağıdılması qüdrəti və böyüklüyü ABŞ-a verildi. De Qoll bunu "çox bahalı bir imtiyaz" adlandırmışdı. ABŞ özünün geniş valyuta zonasının nailiyyətlərini dünyanın yerdə qalan hissəsi ilə bölüşmək istəmədi.

Qeyri-rəsmi Dollar Standartı

Praktikada dəyişən valyuta məzənnələrinin vura biləcəyi ziyan cüzi idi. Çünki ölkələr dollardan hesab vahidi kimi istifadə edib, öz valyuta ehtiyatlarını dollarda saxlaya bilirdilər. Əksər ölkələr üçün "valyuta məzənnəsi" dollara olan məzənnə demək idi. Federal Ehtiyatlar Sistemi qlobal ehtiyatları təmin etməklə, hesab vahidini təchiz etməklə və bəzi hallarda sonuncu instansiyalı borcverən rolunda çıxış etməklə dünyanın qeyri-rəsmi mərkəzi banklarından birinə çevrildi.

Dəyişkən məzənnələr sistemində baş vermiş böhranlar.

Bretton Vuds sistemində heç bir bank böhranı olmamışdı. Bunun əksinə olaraq, dəyişən məzənnələr sistemində dörd dəfə bank böhranı baş verdi. Onların hamısı əsas valyuta məzənnələrində baş vermiş böyük sıçrayışlarla bağlı olmuşdu. Bu işdə bilavasitə iştirakı olmuş valyuta məzənnələri dolların Avropa valyutalarına olan məzənnəsi və dollar-yen məzənnəsi idi. Dəyişkən məzənnələr sistemində baş vermiş dörd böhrana aşağıdakılar aiddir:

– S&L böhranı (Savings and Loan / Yığım və Kredit) – 1980-ci illərin əvvəlləri;

– 1982-ci il Beynəlxalq borclar böhranı;

– BVF–Asiya ölkələri böhranı 1997-1998;

– Lehman Şoku və Ümumdünya Böhranı – 2008.

Bunların hamısı ABŞ-da, 1970-ci illərin sonunda başlamışdı. Dollar ucuzlaşırdı, ABŞ-da inflyasiya 13% idi və birdən-birə 1980-ci illərin əvvəllərində bu hadisələrin əksi baş verməyə başladı. Pul qıtlığı yaranmağa başladı və dolların itisürətli bahalaşması əmanət və kredit təşkilatları və digər bankların böhranına səbəb oldu.

Asiya böhranına gəldikdə isə

onun səbəbi dollar-yen valyuta məzənnəsindəki kəskin sıçrayışlar idi. 1995-ci ildə dollar 78 yenə bərabər olaraq, ən aşağı səviyyəyə düşmüşdü. Lakin 1992-1998-ci illər ərzində o, 148 yenə çatdı. Dollara qarşı yenin kəskin ucuzlaşması Asiya böhranının əsas səbəbi olmuşdu.

Avropa valyutası – Avro

Avropanın ən çox xoşlamadığı sistem üzən məzənnələr sistemi və onun dollara güc və səlahiyyət verməsi idi. Avropa özünün ümumi valyutası üçün layihənin üzərində işlərin aparılmasına bu sistemin dağılmasından əvvəl başlamışdı. Avropa valyutası barədə Mandel planı ("Avropa" adlanırdı) 1969-cu ildə təqdim olunub və nəşr edilmişdi.

Avronun yaradılması

1999-cu ildə avronun yaradılması Avropanın əksəriyyətinin monetar gücünü bir yerdə cəmləşdirdi. Yaranmasından sonra avro dünyanın ikinci valyutası kimi yeni üstələdi və onu sıxışdırmağa başladı. Əgər İngiltərə də bu sistemə qoşulsaydı, avro zonası geniş bir zona, hətta valyuta məzənnəsindən asılı olaraq dollar zonasından da geniş bir zona olardı. İngiltərənin qoşulmamasının səbəbi dollar-avro məzənnəsinin qeyri-stabilliyindən ehtiyatlanması idi.

2007-2010-cu illərin Maliyyə Şoku Dörd Aktda

Öncə ABŞ-ın həyatında son üç əsas sürətli inkişaf dövrünü nəzərdən keçirmək lazımdır. Bunlar aşağıdakılar idi:

– 1982-1990-cı illərdə Reyqan administrasiyasının "Yeddi Kök İli". Bu, Reyqan administrasiyası dövründəki ən uzunmüddətli bum idi. O, təklifi dəstəkləmək siyasətini davam etdirmişdi və nəticədə Reyqanın hakimiyyətdən getdiyi vaxtadək ən yüksək hədli vergilər 70%-dən 28%-ədək enmişdi.

– 1991-2001-ci illərdə Amerika tarixində ən uzun sürən genişlənmə – ekspansiya dövrü başlandı.

– 2002-2008-ci illərdəki Buş ekspansiyası idi. Qeyd etmək lazımdır ki, bu dəhşətli böhranın ərəfəsində bir yaxşı bum da olmuşdu. O, uzun sürməsə də, Amerika və dünya tarixində ən mühüm və geniş yayılmış bir bum idi. Ölkələr çox yaxşı formada idi. Bundan sonra isə hazırkı böhran başladı.

Dörd Akt:

1. İkinci dərəcəli (Sub-prime) ipoteka böhranı özünü 2007-ci il avqustun 9-10-da büruzə verdi. Həmin dövrdə Avropa Mərkəzi Bankı illik faiz dərəcəsi 4% olmaqla qeyri-məhdud məbləğdə kredit vermişdi.

2. 2008-ci il sentyabrın 15-də Lehman Brozers və AIG-nin (*American International Group*) müflisləşməsi və bu hadisələrin nəticələri. Qeyd etmək lazımdır ki, həmin dövrdə Fenni Mey və Freddi Mak da müflisləşmişdilər, lakin hökumət onları tez bir zamanda xilas etdi.

3. 2008-ci ilin III rübündən 2009-cu ilin I rübünədək davam etmiş iqtisadi daralma. Milli statistika bürosu bu hadisənin 2007-ci ilin dekabrından başladığını bildirir.

4. 2010-cu ilin kəsir-borc problemləri.

İkinci dərəcəli ipoteka böhranının öhdəsindən gəlmək üçün 2007-ci il avqustun 9-10-da mərkəzi bankdan misligörünməmiş 300 milyardlıq maliyyə dəstəyi həyata keçirildi. Bir il sonra Lehman şirkətinin müflisləşməsinin səbəbi 2008-ci ilin iyunundan yaranmış pul qıtlığı oldu. Digər səbəb sənaye istehsalının artım dərəcəsi baxımından yaranmış monetar qıtlıqda idi, çünki bu artım dərəcəsi 1% təşkil edirdi. Lakin sənaye istehsalının artım dərəcəsi yaranmış qıtlığı ölçmək üçün o qədər də münasib göstərici deyil. İqtisadi azalmanın davam etdiyi 2008-2009-cu illər ərzində sənaye istehsalının artım dərəcəsi 1% olaraq qalmışdı. Heç kim kredit ala bilmirdi. Bu hadisə tarixdə məlum olan ən dəhşətli hadisə idi. Həmin dövrdən əvvəl heç zaman pul bu dərəcədə qıt olmamışdı. Lakin sənaye istehsalının artım dərəcəsi 1% idi. Ona görə də bu amildən müqayisədə istifadə etmək düzgün deyil. Bununla belə Federal Ehtiyatlar Sistemi pul qıtlığı yaratmaq siyasətinə əl atdı.

Tənəzzül dövründə dolların bahalaşması

2008-ci ilin iyununda Federal Ehtiyat Sistemi inflyasiyaya qarşı sərt mövqedə duran siyasətçilərlə məşvərətlər keçirdi. Nəhəng balans hesabatı onlara inflyasiya doğura biləcək bir təhlükə kimi görünürdü. Pul multiplikatoru iki dəfə azalaraq, 8-dən 4-ə düşdü. Onlar düşündülər ki, pul multiplikatoru normal vəziyyətə qayıdanda sistem inflyasiya şəraitində partlayacaq.

Bütün hadisələrin cərəyan etdiyi və fəlakətlərin baş verdiyi 2008-ci ilin üçüncü rübündəki monetar qıtlığın 4 əlaməti bunlardır:

1. İti sürətlə bahalaşan dollar – avro ilə müqayisədə 30% bahalaşma.

2. Qızılın qiymətinin aşağı düşməsi – 30% enmə.
3. Neftin qiymətinin iti sürətlə aşağı düşməsi – 70% enmə. Məlumdur ki, həmin dövrdə Azərbaycanda bir barel neftin qiyməti 148 dollardan 35 dollara enmişdi. Bu hadisə dollarla ifadə olunmuş neft qiymətlərinin təsəvvürə gətirilə biləcək ən böyük qeyri-stabilliyi idi.
4. Aylıq inflyasiya dərəcəsi (illik dərəcə baxımından) 2008-ci ilin iyununda 5,5 faizdən düşərək, 2009-cu ilin əvvəllərinə qədər mənfi zonaya keçmişdi. Avronun başına gələnlər məhz bunlar idi. 15 iyuldan 27 oktyabradək olan dövrdə avronun dollara olan mübadilə məzənnəsi 63-dən 80-ə çatmışdı. Dolların avroya olan mübadilə məzənnəsi isə 1,60-dan 1,25-dək əks istiqamətdə dəyişmişdi. Qızılın bir unsiyasının qiyməti 720-yə dəyişmişdi. Göründüyü kimi, yuxarı istiqamətdə olan hərəkət dolların hərəkəti, aşağı istiqamətdə olan hərəkət isə qızılın qiymətinin hərəkətidir. Bu, 2009-cu ilin yayınadək aylıq inflyasiya dərəcəsinin (illik inflyasiya dərəcəsi baxımından) 5%-dən enərək, mənfi zonaya keçməsini göstərir.

İki uğursuzluq

Lehman 2008-ci ildə dolların bahalaşması səbəbindən iflasa uğradı. Həmin dövrdə vəziyyət pisləşdiyinə görə onu almaq niyyətində olan Koreya İnkişaf Bankı (*Korea Development Bank*) öz fikrini dəyişdi. Paulsen və Bernanke Lehmanı xilas etməməyi qərara aldılar, halbuki həmin dövrdə Lehmanı xilas etmək daha ucuz başa gələrdi.

Federal Ehtiyat Sisteminin 2010-cu il üçün siyasəti

FES 2008-ci ildə yol verdiyi səhvi etiraf etmədi. Nəticədə bu səhv 2010-cu ildə də təkrarlandı. Dolların bahalaşması səhm bazarını zəiflətdi. Bu isə hələ də yeni iş yerlərinin artımına imkan vermir və ikiqat enişli böhrana (double dip) əsas yaradır. Əgər FES dollar bazarında bu dərəcədə pul qıtlığı yaratmağa səy göstərməsəydi, yalnız özünü xilas etmək siyasəti yeritməsəydi, onda ikiqat enişli tənəzzül baş verməzdi. FES elə düşünür ki, onların apardığı siyasət faiz dərəcələrini artıracaq, lakin sənaye istehsalının artım dərəcəsi bütün bu dövr ərzində stabil olaraq qalmaqdadır. İndi isə, aparılan siyasət başa çatdıqdan sonra Dollar yenidən bahalaşdı. Şəkil 10-da Dolların məzənnəsinin, Lehman böhranı dövründəki məzənnədən nə qədər yuxarı olduğunu görmək olar.

FES özünün valyuta məzənnəsinə olan "son dərəcə laqeyd" münasibətindən əl çəkməlidir. O, avroya münasibətdə müəyyən aşağı həddi qoymalıdır və öz balans hesabatına bank ehtiyatlarına olan təsirləri sterilləşdirmədən xarici aktivlər əlavə etməlidir. O, Nyu York Federal Ehtiyat Bankına (*Federal Reserve Bank of New York*) avro alışlarının bank ehtiyatlarına olan təsirləri sterilləşdirməyi qadağan etməlidir. FES dollar-avro mübadilə məzənnəsinin dar çərçivədə saxlanılması barədə Avropa Mərkəzi Bankı ilə razılığa gəlməlidir.

Avropa ABŞ-ın güclü dollar siyasətindən uzun müddət bəhrələndi. Lakin artıq yetər. Avropada ixracatın həcmi artacaq və bu kömək edəcək. Aşağı ucuz avro fiskal cəhətdən zəif olan dövlətlərin borc yüklərini azaldacaq. Növbəti beş il ərzində fiskal cəhətdən zəif olan bir-iki dövlətin borclarının restrukturlaşdırılmasına şərait yaranacağının ehtimalı 40%-dir. Avronun təkmilləşdirilməsi üzrə işlərin dayandırılmasına heç bir ehtiyac yoxdur.

Avrozonanın islahatı. Avrozona daha geniş miqyasda fiskal mərkəzləşməyə doğru hərəkət etməlidir. Ölkələrin büdcə xərclərini artırma səlahiyyətlərinə həddi qoyulmalıdır. Siyasi inteqrasiyasının gələcək güclənməsinə Avropa borclarının konsolidasiyası da daxil edilə bilər.

Avrozonanın veksel və istiqrazları

Milli veksel və istiqrazların avrozonanın ümumi veksel və istiqrazlarına çevrilməsi məqsədəuyğundur. Bunun üçün daha sıx siyasi inteqrasiyaya doğru hərəkət etmək əzmi tələb olunur. Avrozonanın dövlət istiqrazları və xəzinə vekselləri bu zonaya maliyyə cəhətdən yetkinləşməyə köməklik edərdi. Avro, ondan beynəlxalq miqyasda istifadənin genişləndirilməsi üçün böyük bir üstünlüyə malik olardı.

Qlobal valyutaya doğru

Sistemin problemi

Avronun yaradılması Avropa üçün böyük bir nailiyyət oldu, lakin o, dünya iqtisadiyyatının özəyini iki valyuta zonasına böldü. Dollar-avro məzənnəsində baş verən güclü sıçrayışlar həm dünya, həm də Avropa üçün çox zərərlidir. Lakin onlar

dünyanın yerdə qalan hissəsi üçün daha təhlükəlidir.

Dünyanın yerdə qalan hissəsi üçün iki yanaşma

Afrika, Latın Amerikası və Asiya üçün çətinliklər. Həll yolu iki yanaşmadan biri, dollar-avro məzənnəsinin stabilləşdirilməsidir. Bunun üçün Avropa və Amerika arasında razılıq əldə edilməsi tələb olunur. Digər yanaşma isə ikivalyutalı səbətdən istifadə etməkdir. Bunu SDR-də yaxşılaşdırma aparmaqla, BVF vasitə- silə həyata keçirmək mümkündür.

Bir neçə alternativ yanaşma: regionlaşma yanaşması, dominant valyuta yanaşması, qiymətli metallar yanaşması, SDR yanaşması, INTOR yanaşması.

Bir sıra iqtisadçılar göstərirlər ki, əgər Yaponiya da Çin kimi öz valyutasını dollara bağlasaydı, onda vəziyyət daha asan olardı. Amma bu ölkələr yuxarıdakı fikirlərlə razılaşmırlar.

Beləliklə, dünya iqtisadiyyatının özəyini yaradan alət, dollar-avro-yen, həmin özəyin əsası kimi istifadə olunmalı və bəlkə, RNB də bura əlavə edilməlidir. Sonra isə ondan bütün ölkələrin istifadə edə biləcəyi, qlobal, ümumbəşəri bir monetar sistemin yaradılması üçün, əvvəllər istifadə olunmuş qızıl və dolları əvəz edən bir alət kimi istifadə etmək lazımdır. Mandel onu INTOR adlandırır. Mənası fransızca "qızıl" deməkdir.

Amerikalılar və ingilislər hələ 1945-ci ildə qlobal valyuta yaradılması təklifini irəli sürsələr də, siyasi səbəblər üzündən bu təklif o zaman reallaşmadı. 1944-cü il ABŞ-da prezident seçkiləri ili idi və prezident Ruzvelt də yaxşı başa düşürdü ki, qlobal monetar sistemin yaradılmasına təkid etsə, o dövrdə onu prezident seçməyəcəklər.

Həcmi artan valyutalar səbətinə gəldikdə isə, buraya qızıl da daxil edilə bilər. BVF-nin qarşısında duran vəzifələrdən biri bu cür səslənə bilərdi: "Əgər siz ümumdünya valyutası yaratmaq istəyirsinizsə, onda BVF-nin üzvü olan hər dövlətin, onun BVF-dəki kvotasına mütənasib olan miqdarda vəsaiti olmalıdır və qlobal valyuta qlobal monetar sistem üçün lövbər rolunu oynaya bilər".

MONETİZASİYA – 1. Konkret malın pula çevrilməsi. Məsələn, qiymətli metalların monetizasiyası – onların daha çox pula çevrilməsi, pul kimi istifadəsi prosesi. 2. Obyektivin pula təminatının artması, iqtisadi münasibətlərə daha intensiv tərzdə pul formasının verilməsi, natural münasibətlər və barterin əvəzinə puldan daha geniş surətdə istifadə edilməsi, iqtisadi dövriyyədə formalaşan və istifadə olunan pul resurslarının artması.

MONİTORİNQ – hər hansı bir fakt və proses üzrə davamlı qeydiyyat aparılması və məlumat yığılması üçün həyata keçirilən araşdırma metodu. Bu məlumatlar əsasında tədqiq olunan obyektin inkişaf xüsusiyyətləri öyrənilir və bunun əsasında idarəetmə qərarı qəbul olunur. Monitorinq sistemindən insan fəaliyyətinin təhlil və proqnozlaşdırılması zamanı da aktiv istifadə edilir. Bu, planlı iqtisadiyyatda tətbiq olunan təhlil və proqnozlaşdırmanın artıq işləmədiyi üçün vacibdir. Ona görə də mürəkkəb prosesləri təhlil və proqnozlaşdırmaq üçün yeni sistemin yaradılmasına ehtiyac yaranır. İdarəetmə monitorinqinin geniş yayılmış istiqamətlərindən biri sosial-əmək sferasının monitorinqidir. Sosial-əmək sferasının monitorinqi zamanı bu sahədə mövcud olan problemlər, vacib meyillər aşkarlanır və buna əsasən elmi əsaslandırılmış tövsiyələr hazırlanır. Sosial-əmək monitorinqi tərtib olunmuş proqram əsasında həyata keçirilir. Birinci blokda tədqiq olunan obyektin ümumi iqtisadi göstəriciləri öz əksini tapır: əsas fondların həcmi, satılmış məhsulun həcmi, əmək məhsuldarlığı, müəssisənin maliyyə vəziyyəti, balans mənfəəti, mənfəətin bölüşdürülməsi qaydası. İkinci blok kadr məsələlərinə həsr olunur. Burada ixtisas üzrə işçilərin sayı, qadınların və gənclərin xüsusi çəkisi, işləyən təqaüdçülərin sayı, gizli işsizlik haqqında məlumat öz əksini tapır. Üçüncü blokda əmək şəraitini və əməyin mühafizəsini xarakterizə edən göstəricilər öz əksini tapır. Dördüncü blok istehlak və əmək haqqı fonduna həsr olunur. Beşinci blokda işçilərin sosial və məişət şəraitini əks etdirən göstəricilər öz yerini tapır. Bura qidalanma şəraiti, tibbi və istirahət xidməti, sosial güzəştlər sistemi daxildir.

MONOBİTKİ (MONOKULTURA) (yun. *monos* – tək, vahid – *cultura* – becərmə) – 1. Əkinçilik forması, kənd təsərrüfatına yararlı torpaqların hər dəfə eyni sahəsində eyni növ mədəni bitkinin uzunmüddətli (fasiləsiz təkrarlanan) becərilməsinə əsaslanır. Yeni torpaq-

ların mənimsənilməsinin ilkin dövrləri üçün xarakterikdir. ABŞ-ın, Kanadanın, Latın Amerikası ölkələrinin və s. ayrı-ayrı regionlarında tətbiq edilib. Monobitkini (monokulturanı) dar ixtisaslaşmış, lakin yerli şəraitə yaxşı uyğunlaşmış bir neçə mədəni bitkinin becərilməsinə və ardıcıllığına əsaslanan bitkiçiliyin regional formasından fərqləndirmək lazımdır. 2. Ancaq eyni növdən olan mədəni bitkinin becərilmə prinsipinə əsaslanan kənd təsərrüfatı istehsalının təşkili. Monobitki (monokultura) bitkiçiliyi Latın Amerikasında və s. ölkələrdə kapitalizmin erkən mərhələlərində geniş istifadə edilirdi. Monomədəni prinsipi XIX əsrin sonunda beynəlxalq ticarətin genişlənməsi şəraitində xüsusilə inkişaf etmişdir. Böyük sahələrdə aqrotexnikanın eyniliyi, becərilmə texnologiyası vərdişləri, kapitalın minimum əlavə qoyuluşları kənd təsərrüfatı istehsalçılarına yüksək mənfəət gətirirdi. Lakin monobitki (monokultura) səpin dövriyyəsi sistemini pozaraq torpağın fiziki tərkibinin pozulmasına, spesifik ziyanvericilər mənbəyinin yaranmasına, perspektivdə isə məhsuldarlığın aşağı düşməsinə səbəb olurdu.

Kənd təsərrüfatı istehsalının monobitki (monokultura) üzrə ixtisaslaşması inkişaf etməkdə olan dövlətlərin iqtisadiyyatı üçün xarakterikdir.

MONOQRAM – müəssisəyə müəyyən institutların standartlarına uyğun, onların müvafiq icazəsi ilə məhsul istehsal etmək səlahiyyəti verilən imtiyaz və reytinqi. O, istehsal məhsulunun birbaşa beynəlxalq bazara çıxışında əhəmiyyət kəsb edən sertifikat nümunəsidir.


MONOMETALLİZM (yun. *monos* – bir, tək, *metallon* – şaxta, mədən) – bu pul sistemində bir metal ümumi ekvivalent rolunu oynayır, tədavüldə bu metaldan hazırlanmış sikkələr və ya onunla dəyişdirilə bilən pul nişanları dövr edir. Bu halda pul tədavülü sahəsində başqa metallardan hazırlanmış sikkələr, əsginaslar, digər tədavül vasitələri də ola bilər, lakin pul sistemində yalnız bir metal hakim mövqe tutur və ona münasibətdə dəqiq prioritetlər müəyyən edilir: a) başqa metallardan hazırlanan sikkələr qapalı şəraitdə zərb edilməli olduğu halda sərbəst pul kəsilməsi qaydası yalnız bu metal üçün müəyyən edilir; b) bu metaldan hazırlanan sikkələr qeyri-məhdud miqdarda qanuni tədiyə vasitəsi qüvvəsinə malik olur və eyni zamanda başqa metallardan hazırlanmış sikkələrin tədiyə qüvvəsi məhdudlaşdırılır; c) başqa metallardan olan sikkələrin və əsginasların hakim metaldan hazırlanmış sikkələrlə sərbəst mübadilə edilməsi qaydası müəyyən olunur.

Hakim metal rolunda hansı metalın çıxış etməsindən asılı olaraq mis, gümüş və qızıl monometallizmini fərqləndirirlər. Mis monometallizmi bizim eradan əvvəl V-III əsrlərdə Qədim Romada; gümüş monometallizmi 1843-1852-ci illərdə Rusiyada, 1847-1875-ci illərdə Hollandiyada, 1852-1893-cü illərdə Hindistanda mövcud olmuşdur. Qızıl monometallizmi daha geniş yayılmışdır. XVIII əsrin axırlarında Böyük Britaniyada yaranmış qızıl monometallizmi XX əsrin əvvəllərinə qədər, demək olar ki, hər yerdə – bütün



Avropada, ABŞ-da və başqa ölkələrdə bərqərar olmuşdur. Qızıl monometallizmin klassik forması qızıl sikkə standartı sistemidir. Bu sistemin səciyyəvi cəhətləri: pul vahidinin tərkibi müəyyən və dəyişməz olmaqla qızıl sikkələrin sərbəst zərb edilməsi; dəyər nişanlarının qızıl sikkələrlə sərbəst mübadilə edilməsi; qızılın ölkələr arasında sərbəst hərəkəti (onun idxalının və ixracının sərbəst olması).

Birinci Dünya müharibəsindən sonra dünya qızıl ehtiyatlarının qeyri-bərabər paylanmasının kəskinləşməsi, bir sıra ölkələrdə pul dövriyyəsinin qızıl bazasının məhdudlaşması, eləcə də dövlətlərin öz qızıl ehtiyatlarını hərbi maliyyə resursları kimi mərkəzləşdirmək cəhdləri bununla nəticələndi ki, 1924-1928-ci illərdə qızıl monometallizmin yeni formaları yarandı: a) qızıl-külçə standartı. Bu halda əsginaslar məhdud miqdarda, özü də sikkələrlə deyil, yalnız külçə qızılla mübadilə edilə bilər; b) qızıl-deviz standartı. Bu halda əsginaslar qızıl ilə deyil, başqa ölkələrin qızıla mübadilə edilə biləcək valyutası ilə dəyişdirilir. Qızıl-külçə standartı 1925-ci ildə Böyük Britaniyada və 1928-ci ildə Fransada tətbiq edilmişdir; ölkələrin əksəriyyəti isə qızıl-deviz standartına üstünlük vermişdir. Qızıl monometallizmin bu formaları nın hər ikisi qızıl standartının yarımçıq növləri idi: faktiki olaraq qızıl tədavül vasitəsi funksiyasını yerinə yetirmək imkanından məhrum edilmişdi və əsginasların qızıl ilə mübadilə edilməsi məhdudlaşdırılmışdı, bu



Sxem 1

isə pul tədavülünün sabitliyinə mənfi təsir göstərirdi. Nəticədə 1929-1933-cü illərin ümumdünya iqtisadi böhranından sonra hər iki formanın mövcudluğuna xitam verildi və dəyər nişanlarının qızıl ilə sərbəst mübadiləsi ləğv edilərək əsginaslar və kağız pul dövriyyəsi sistemlərinə keçildi.

MONOPSONİK AŞAĞI QİYMƏT – müəyyən əmtəə bazarında alıcı kimi üstün olan təsərrüfat subyekti tərəfindən əlavə mənfəət qazanmaq və (və ya) əsassız xərcləri təchizatçının hesabına kompensasiya etmək məqsədi ilə qoyulan qiymət.

MONOPSONİYA (lat. *monos* – tək, bir, *onsonia* – satınalma) – bazarda belə vəziyyət yaranmış monopsonist deyilən firma (və ya başqa bir təşkilat) müəyyən nemətin (əmtəənin və ya xidmətin) yeganə mümkün alıcısı olmaqla ona tələbata tam nəzarət edir. Başqa sözlə, monopsoniya bazar strukturunun tərkib hissələrindən biridir: bu və ya digər ərzaq məhsulunun tək alıcısı olan tərəf öz tədarükünü (satınalmasını) məhdudlaşdırmaqla həmin məhsulun qiymətini aşağı salaraq inhisar mənfəəti əldə edir. Əgər alıcı tək çıxış edirsə, belə rəqabət monopsoniya adlanır.


Beləliklə, "monopsoniya" anlayışı müəyyən mənada "monopoliya" anlayışı ilə simmetriya təşkil edir. "Monopsonist hakimiyyət" – alıcı firmanın malın qiymətinə təsir göstərmək qabiliyyətidir. Məsələn, öz bazarında monopsonist hakimiyyətə malik olan iri müəssisə kütləvi satınalma zamanı xırda istehlakçıların ödəməli olacağı qiymətlərlə müqayisədə daha aşağı qiymətə nail ola bilər. Prinsip etibarı ilə, inhisarçı hakimiyyət əmtəənin qiymətini onun dəyərinin ən yüksək həddi səviyyəsinə yaxınlaşdırmağa çalışdığı halda, monopsonist hakimiyyət

Cədvəl 1

Alıcılar	Satıcılar		
	Çoxsaylı	Bir neçə	Tək
Çoxdur	İkitərəfli polipoliya	Oliqopsoniya	Monopsoniya
Bir neçə	Oliqopsoniya	İkitərəfli oliqopsoniya	Oliqopsoniya ilə məhdudlaşan monopsoniya
Tək	Monopsoniya	Oliqopsoniya ilə məhdudlaşan monopsoniya	İkitərəfli monopsoniya

həmin əmtəənin qiymətini onun istehsal xərclərinin ən yüksək səviyyəsinə çatdırmağa çalışır. Monopsoniya həmçinin əmtəə, xidmət, yaxud resurs almaq üçün bir alıcının daxil olduğu bazardır.

MONTE KARLO SİMULYA - SİYASI (İMİTASİYA MODELLƏŞDİRİLMƏSİ) (ing. *Monte Carlo Simulation)* – stasxostik prosesin bir çox reallaşdırılmalarına əsaslanan rəqəmli üsullar qrupu. Proses onun ehtimal olunan xüsusiyyətlərinin həll edilən tapşırığın analoji rəqəmləri ilə üst-üstə düşəcəyi tərzdə formalaşır. Monte-Karlo üsulu pul axınlarının proqnozlaşdırılması məqsədi ilə faiz dərəcələrinin təsadüfi trayektoriyalarının cızılması üçün maliyyə modellərində geniş istifadə edilir. Məsələn, Monte-Karlo üsuluna əsaslanan CDOROMTM modeli sintetik OODO tranşları üzrə gözlənilən itkilərin (yəni kredit riskinin) aktivlər üzrə defolt ehtimalına, bərpa səviyyələrinə və korrelyasiyaya əsasən hesablanması üçün "Moody's" agentliyi tərəfindən hazırlanmış



Sxem 1

və istifadə edilir. "Moody's" reytinq agentliyinin analitikləri CDOROMTM-dan OODO sintetik əqdlərinə reytinq vermək üçün istifadə edirlər (bax: sxem 1).

MORATORİUM (ing. *moratorium*) — borcun və ya faizin ödənilməsinin müəyyən vaxt müddətinə dayandırılması. Məsələn, tədiyə balansı ilə əlaqədar kəskin çətinliklərlə üzləşmiş inkişaf etmiş ölkənin dövlət və özəl banklarının təşəbbüsü ilə istiqraz vərəqələri üzrə borcun ödənilməsinin dondurulması və ya əmtəə bazarında qiymətlərin kəskin düşməsindən zərər çəkmiş dilerlərin borc ödəmələrinin dayandırılması.



Böyük İqtisadi Ensiklopediya. 5 cilddə. III cild.
Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2012, 608 səh.
www.eastwest.az

ISBN 978-9952-34-796-8 (III cild)
ISBN 978-9952-34-798-2

"Böyük İqtisadi Ensiklopediya" iqtisadiyyatın mahiyyətini, xarakterini, inkişaf meyillərini və qanunauyğunluqlarını müəyyən edən və onun əsas ideyaları, konsepsiyaları, modelləri, anlayışları və kateqoriyalarının mahiyyətini açıqlayan fundamental nəşrdir. Burada dünya iqtisadiyyatı ilə yanaşı, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri, bazar strukturları və infrastrukturları, aparıcı maliyyə, bank institutları haqqında yığcam məlumatlar öz əksini tapmışdır. 7000-dən çox termin-məqaləni əhatə edən "Böyük İqtisadi Ensiklopediya" MDB məkanında milli dildə işıq üzü görmüş ilk irihəcmli nəşrdir. "Böyük İqtisadi Ensiklopediya" tələbələr, magistrlər, doktorantlar, təhsil və idarəetmə sistemində çalışan müəllim və mütəxəssislər, sahibkar və investorlar üçün nəzərdə tutulmuşdur.

© Azərbaycan İqtisadçılar İttifaqı, 2012
© "Şərq-Qərb" Nəşriyyat evi, 2012
www.eastwest.az

“Şərq-Qərb” Nəşriyyat evində çapa hazırlanmışdır

Korrektorlar: ***Pərinaz Səmədova***
Gültəkin Yusifova
Texniki redaktor: ***Rövşən Ağayev***
Nəşriyyat direktoru: ***Rasim Müzəffərli***

Çapa imzalanmışdır 12.04.2012
Formatı 64×90$^{1}/_{8}$. Fiziki çap vərəqi 79.
Sifariş № 318. Tiraj 5000

“Şərq-Qərb” Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur
AZ 1123 Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 370 68 03; 374 75 62
Faks: (+99412) 370 68 03; 370 18 49
www.eastwest.az